ƏHSƏN RƏHMANLI



QARMON İFAÇILIĞI SƏNƏTİ VƏ ONUN AZƏRBAYCANDA TƏDRİSİ

ƏHSƏN RƏHMANLI

QARMON İFAÇILIĞI SƏNƏTİ VƏ ONUN AZƏRBAYCANDA TƏDRİSİ

II nəşr

(Əlavələrlə)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27.03.2014-cü il tarixli 334 saylı əmrinə əsasən orta ixtisas məktəbləri üçün dərs vəsaiti kimi çap olunması tövsiyə edilmişdir. Eyni zamanda Respublikamızın musiqi ixtisaslı ali təhsil müəssisələrində "Azərbaycan xalq musiqisi", "Xalq yaradıcılığı" kursunda, "İfaçılıq sənəti tarixi" fənninin tədrisində istifadə edilə bilər.

Bakı - 2014

Elmi redaktor: ***Səadət Abdullayeva***
sənətşünaslıq doktoru, professor

Rəyçilər: ***Tofiq Bakıxanov***
xalq artisti, professor, şöhrət ordenli bəstəkar

Abbasqulu Nəcəfzadə
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

Rasim Mehdiyev
Bakı Humanitar Kollecinin musiqi şöbəsinin müdiri

Mətanət Şiriyeva
Bakı Humanitar Kollecinin fənn birləşməsinin sədri

Əhsən Rəhmanlı "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi". II nəşr (əlavələrlə) Bakı, "MBM", 2014, 704 s.

Azərbaycan milli musiqi tarixində silinməz izlər qoyan geniş səs diapazonlu xanəndə, opera sənətçisi, xalq artisti, Prezident təqaüdçüsü, vaxtsız aramızdan getmiş, itkisi qəlbimizi göynədən sadiq dost Baba Mahmudoğlunun işıqlı xatirəsinə ithaf olunur.

İSBN 978-9952-29-039-4

© Ə. Rəhmanlı, 2014.
© Bakı "MBM", 2014.

ÖN SÖZ

Qarmon Azərbaycan xalq çalğı alətləri sırasına az vaxt ərzində daxil olmasına baxmayaraq digər çalğı alətləri ilə rəqabətə girərək özünə güclü mövqe qazana bilmişdir. XIX əsrin ikinci rübündə Almaniyada usta Buşman tərəfindən primitiv şəkildə yaradılan ağız qarmonu kiçik bir zaman kəsiyində körüklə hava vasitəsilə sıxılaraq çalınan qarmon formasına salınmışdır. Müxtəlif ticarət əlaqələri vasitəsilə Rusiyaya gətirilən qarmon oradan da Azərbaycana gətirilərək milli koloritin tələblərinə uyğun olaraq formalaşdırılmışdır. XX əsrin əvvəllərində qadın (Xədicə Musaxanova, Kamrabəyim, Kübra Əbilova, Qızxanım Dadaşova və s.) və kişi (Kərbəlayi Lətif, Kərbəlayi Abutalıb, Kor Əhəd, Teyyub Dəmirov və s.) ifaçılar tərəfindən xalqa sevdirilən qarmon aləti sonralar el şənliklərinin bəzəyinə və əsas musiqi alətlərindən birinə çevrilmişdir. Lakin müstəqillik qazandığımız illərə qədər heç bir qarmon ifaçısının dövlət tərəfindən dəyərləndirilməməsini nəzərə alsaq, deməliyik ki, müstəqil dövlət quruculuğu dövründə qarmon ifaçılığına dərin ehtiram, hörmət, rəğbət bəslənilməsi, ən yaxşı ifaçıların dəyərləndirilməsi özünü bariz şəkildə göstərmişdir. Hazırda qarmon ifaçılarımızın içərisində Azərbaycan xalq artistlərinin və əməkdar artistlərin olması faktı fikrimizi sübut edir. Əcnəbi ölkədən gəlməsinə baxmayaraq təkmilləşdirilərək identifikasiya olunan və Azərbaycan xalq çalğı alətləri içərisində özünəməxsus yer tutan qarmon barədə elmi-tədqiqatların aparılmasını da bu baxımdan təqdirəlayiq hal kimi qiymətləndirmək lazımdır. Qarmon haqqında ciddi tədqiqatlar apararaq dəyərli məqalələr və ilk fundamental monoqrafik əsər yazan Əhsən Rəhmanlı daha bir layiqli əsəri ortalığa qoymuşdur. Əvvəlki monoqrafiyadakı faktları daha da təkmilləşdirərək yeni tədqiqat əsərini tamamlayan Əhsən Rəhmanlının bu əsəri elmi-tədqiqat dissertasiya əsəri şəklində işləməsini də təqdirəlayiq hal hesab edirik. Açığını etiraf edim ki, "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi" kitabına ön söz yazmaq təklifi alanda vaxtımın azlığından şikayətlənmək istədim. Lakin kitabın məzmunu nəzərdən keçirdikdən sonra az bir zaman kəsiyində Azərbaycanda bu nəhənglikdə qarmon məktəbinin yaranması ilə tanış olandan sonra tərəddüd etmədən razılıq verdim. Əslində bu nəhənglikdə məktəb haqqında aparılan sistemli, ardıcıl, məqsədyönlü, planlı və mətəşəkkil tədqiqatların nəticəsində qarmon məktəbinin bütöv bir mahiyyəti oxuculara çatdırılır. Nəinki oxuculara çatdırılır, deyərdim ki, nəhəng məktəbin yaranması, təşəkkülü, inkişaf mərhələləri, ifaçıları barədə ilk dəfə olaraq yeni bir məxəz yaradılır. Özü də 600 səhifədən artıq olan bu məxəzin dəyərini artıran sənədlər, arxiv materialları və nadir fotoşəkillər nəinki sənətşünaslıq tariximizi, hətta pedaqoji fikir tariximizi zənginləşdirmək baxımından təqdirəlayiq hal kimi xüsusi qeyd edilməlidir.

Müəllifin sözündən sonra girişlə başlayan bu monoqrafik topluni şərti olaraq üç istiqamət üzrə aparılan tədqiqatların nəticəsi kimi qiymətləndirmək olar. Birinci istiqamət üzrə aparılan tədqiqatların nəticəsi kimi qarmonun mənşəyi və ilk ifaçıları haqqında məlumat verilir. Bu zaman qarmon alətinin yaranması, Azərbaycana gətirilməsi və ilk ifaçıların peyda olması (Kərbəlayi Lətif, Kərbəlayi Abutalıb, Kor Əhəd, Kamrabəyim və s.) barədə şərhlər aparılır. Sonra Teyyub Dəmirov məktəbinin yaranması və bu məktəbin davamçıları haqqında çox maraqlı faktlar, rəqəmlər, şərhlər kitabda öz əksini tapır. Bunları ikinci istiqamət üzrə aparılan tədqiqatların nəticəsi hesab etmək olar. Üçüncü istiqamət üzrə aparılan tədqiqatların nəticələrinin özünü də iki kontekstin məhsulu kimi dəyərləndirmək olar. Birinci konteksin məhsuluna 50-ci-60-cı illərdə qarmon ifaçılığı sənətində layiqli yeri olan ifaçılar haqqında oçerkləri (Adil Zərgərоğlu, Abbas Abbasov, Qızxanım Dadaşova, İsfəndiyar Çoşqun və b.), daxil etmək olar. İkinci kontekstin məhsullarına isə 60-cı illərdən sonra daha böyük nailiyyətlərə imza atan qarmon ifaçıları barədə oçerklər (Zakir Mirzəyev, Aftandil İsrafilov, Teyyub Teyyuboğlu, Hüseyn Həsənov, Faiq Əh-

balayev, Baxşəli Əliyev, Abutalıb Sadıqov, Zeynal İsayev, Aslan İlyasov, Şəmsi Ağamalıyev, Ənvər Sadıqov və b.) kitabda yer alır.

Kitabın ən yaxşı məziyyətlərindən biri Bakıda, Sumqayıtda, Ağdamda, Şəkidə, Şuşada, Gəncədə, Lənkəranda, Naxçıvanda yaranan orta-ixtisas məktəblərində qarmon ifaçılığı ilə bağlı kadr hazırlığı işinin məzmunu barədə məlumatların verilməsidir. Bu məlumatların davamı olaraq qarmon ifaçılığı sahəsində ali təhsilli qarmonçalanların hazırlanması haqqında da məlumatlar verilir.

Kitabın son yarımfəsillərində qarmon və muğam, qarmon alətinin iştirak etdiyi üçlük, müxtəlif xalqlarda istifadə olunan qarmonlar, aşıq sənətində qarmonun yeri, rolu, mövqeyi barədə verilən məlumatlar da yaxşı təsir bağışlayır.

Əsərdə qarmona şöhrət gətirən faktlar içərisində elələri var ki, həmin faktlar təkcə kitabın elmi-pedaqoji-metodik cəhətdən sambalının artmasına yox, həm müəllifin tədqiqatçılıq səriştəsinin yüksək olmasına, həm də qarmon sənətinin şöhrətinin artırılmasına dəlalət edən faktlar kimi dəyərləndirilməlidir. Məsələn, professor Ağaməmməd Abdullayevlə professor Fərahim Sadıqov haqqında olan faktlar, rəqəmlər, şərhlər, izahlar, mühakimələr, mülahizə və ümumiləşdirmələr belələrindəndir. Müəllif göstərir ki, A.Abdullayev 40-50-ci illərdə, F.Sadıqov isə 60-80-ci illərdə qarmon ifaçılığının aparıcı simaları olmuşlar. Hər ikisi sonralar elmə gəlmiş, aspirantura, doktorantura mərhələsi keçmiş, hər ikisi elmlər doktoru, professor olmuş, hər ikisi ali məktəbdə asisent, dosent, kafedra müdiri, prorektor və rektor vəzifələrini aparmışlar. Hər ikisi ciddi monoqrafiyaların, dərsliklərin, dərs vəsaitlərinin, kitabların, mononoqrafiyaların və yüzlərlə elmi əsərlərin müəllifi olmuşlar. Belə faktların kitaba gətirilməsi nəinki qarmon ifaçılığına maraq, meyl göstərənlər üçün, hətta digər alətlərdə çalmağı öyrənmək istəyənlər üçün örnək xarakterli faktlar kimi dəyərləndirilməlidir. Kitabın sonunda Əhsən Rəhmanlının "Milli musiqimizi və musiqi alətlərimizi yad əllərdən qoruyaq" kimi çağırışını isə onun öz dövlətinə, xalqına, musiqi mədəniyyətinə olan hörmətinin və bu sahədə onun özünün tutduğu mövqeyinə olan intəhasız məhəbbətinin və ehtiramının nəticəsi kimi qiymətləndirmək olar.

Ön sözümüzü ümumiləşdirərək deməliyik ki, biz bu əsəri həm Azərbaycan qarmon ifaçılığı sənəti üçün, həm də Azərbaycan musiqi mədəniyyəti üçün layiqli mənbə hesab edirik. Arzu edirik ki, Azərbaycan qarmon ifaçılığı sənətinin ilk və ən layiqli tədqiqatçısı olan Əhsən Rəhmanlı qarmon ifaçılığı və onun Azərbaycanda tədrisi probleminə dair dissertasiya əsərini tezliklə müdafiə etsin. Təxminən 30 il öncə qarmon öyrənməyin ibtidai kursunu hazırlamağımıza, onu çap etdirməyimizə baxmayaraq biz bu tədqiqat əsərinə və müdafiə edəcək elmi işinə görə Əhsən Rəhmanlını Azərbaycanda qarmon ifaçılığı sənətinin ilk tədqiqatçısı və ilk alimi hesab edəcəyik. Özlərini bu sahənin tədqiqatçısı, alimi hesab edənlərə isə tövsiyəmiz budur ki, onlar da Əhsən Rəhmanlı kimi ciddi tədqiqat aparmaqla Azərbaycan qarmon sənətinə imic qazandıra bilərlər.

Fikrimizi yekunlaşdıraraq deyə bilərik ki, Əhsən Rəhmanlının qarmon ifaçılığı sənətinin yaranması, təşəkkülü, inkişaf mərhələləri və tədrisi problemləri ilə bağlı yazdığı bu əsər həm milli sənətşünaslığımız, həm də pedaqoji fikir tariximiz üçün layiqli bir töhfə olacaqdır.

Fərahim Sadıqov,
pedaqoji elmlər doktoru, professor.
Akademik Yusif Məmmədəliyev və Akademik
Mehdi Mehdizadə mükafatları laureatı.
Beynəlxalq Türk Akademiyasının həqiqi üzvü.

MÜƏLLİFDƏN

İfaçılıq sənətimizin ayaq tutub yeriməsində misilsiz xidmətləri olmuş, lakin, unudulub yaddan çıxmış sənətkarlarımızı yaddaşa gətirib yaşatmaq hər birimizin vicdan borcu olsun. O cümlədən dövrümüzdə yaşayıb-yaradan, zamanla ayaqlaşan, peşəkar sənətə öz töhfələrini verən say-seçmə ifaçılarımızın əməyini vaxtında qiymətləndirmək vətəndaşlıq qayəmizə çevrilsin.

Bu kitabı müşahidələrimiz, tədqiq və tapıntılarımız, özümüzün və ayrı-ayrı fərdlərin, yaradıcı şəxslərin, ifaçıların ailə üzvlərinin, sənət yoldaşlarının xatirələri əsasında yazdıq.

Qarmon ifaçılığı insturmental ifaçılığımızın və bütünlüklə xalq musiqimizin ayrılmaz bir hissəsi olaraq özünü təstiq etmişdir. Bu alət ifa tərzinin səciyyəvi cəhətləri, tembr xüsusiyyətləri və təsir qüvvəsilə xalq çalğı alətləri sırasında xüsusi mövqe tutmuşdur.

İlk qarmonçularımızın sadə, bəsit alətlərlə çaldıqları havalar, onların ev, şəxsi mənzil mühitində öz övladları, yaxınları, qohum-qonşuları, dost-qardaşları və həvəskarlarla apardıqları tədris işi özlərindən sonra gələn davamçılara örnək, təməl və ilham mənbəyi olmuşdur.

Qarmon sənətinə gələn hər bir istedadlı ifaçı bənzərsiz yaradıcılıq işi, özünə aid olan ifa tərzi gətirərək Azərbaycan musiqisinin zənginliyindən xəbər vermişdir. Bu sənətçilər dərin kamala, yüksək qabiliyyətə və incə zövqə malik olmuşlar.

Peşəkar qarmonçularımızın sənətindəki zövqlü ifaçılıq üsulları, yüksək bədii məzmun qarmon məktəbinin yaranmasına xidmət etmişdir.

Bilirik ki, çoxları məzmunlu və təsirli musiqi nümunələrimizi hər bir alətdə onun texniki imkanlarına uyğun tərzdə səsləndirir. Bənzərsiz qarmon sənətinin, onun bənzərsiz ifaçılarının keçdiyi yola çıraq tutmağı layiqli bir iş bildiyimizdəndir ki, onu işıqlandırmağa çalışdıq.

Deyirlər ki, xatirə danışmağı bacaran xeyirxah olur. Kitabımızın araya gəlməsi üçün xatirələrini söyləyənlər də xeyirə xidmət etdilər. Biz də öz xatirələrimizi çözələyərək xeyirxahlıq etmək və yazdıqlarımızın maraqlı olmasını istədik.

Araşdırmalar zamanı bəzi sənətkarlarımızın baba-nənələrinin, ata və analarının, həmçinin qohumlarından da kiminsə qarmonçalan olması faktları ilə rastlaşdıq. Bütün bu faktlar qarmonun Azərbaycanda ilk addımlar atdığı dövrdən bu yana xalq tərəfindən sevilməsindən və bu sənətin xalqın ruhuna hopmasından xəbər verir.

Azərbaycan qarmon sənəti şərəfli, barlı-bəhərli, zəngin və uğurlu bir yol gəlmişdir. Bu yolun yolçuları xalq musiqisindən qaynaqlanan sənət incilərini yaradaraq, yaşadaraq, qarmonun imkanlarına uyğun səsləndirərək bu alətin həmişəyaşar olmasına, bu sənətin geniş şəkildə təşəkkül tapmasına şərait yaratmışlar.

Kitabımıza diqqətlə yanaşan oxucu ən sadə quruluşlu, primitiv alətlərlə başlanan ifa qaydalarının mərhələlərlə inkişaf edib tam peşəkar Azərbaycan qarmon sənətinin formalaşmasına gəlib çıxmasının şahidi olacaq. Yazımızda göstərilib ki, ilk qarmonlarda sadə, kiçik xalq havaları çalınırdısa, sonralar qarmonlar təkmilləşdikcə ifaçılarımızın repertuarında mürəkkəb quruluşlu rəqs melodiyaları, xalq mahnıları, daha sonralar bəstəkarlarımızın, xarici ölkə bəstəkarlarının əsərləri özünə yer tutub. XXI əsrdə isə artıq Azərbaycan qarmonunda simfonik əsər səslənir. Əlbəttə bu işlər asanlıqla başa gəlməmişdir. Bütün bunlar xalqımızın zaman-zaman yetişdirdiyi istedadlı övladların əzmi, hünəri, bacarığı, zəhməti və sənətə məhəbbəti sayəsində başa gəlmişdir. Cəsarətlə deyə bilərik ki, heç bir qoruq-qaytağ tanımayan, güclü, aşıb-daşan sənətə sahib olan qarmon sənətkarlarımız yüksək ifaçılıq səviyyəsinə ucalmışlar. Dediklərimizi kitab boyu oxuculara təqdim etmək istəmişik.

Kitabda tədris məsələlərini işıqlandırmışıq. Burada evlərdə fərdi qaydada sənət öyrədilmə-

sindən başlamış, qarmonun klublarda, mədəniyyət evləri və saraylarında, musiqi məktəblərində, kolleclərdə və ali təhsil ocağında tədrisi məsələləri öz əksini tapır.

Dünyada elə bir adam tapılmaz ki, musiqini sevməsin, onu dinləmək istəməsin. Lakin insanların zövqləri müxtəlif olduğu üçün hər bir insanın xoşladığı janr var ki, onlar onun ruhunu oxşayan janra aid musiqini dinləyirlər. Həmçinin hər bir fərdin səslənməsini, tembrini sevdiyi musiqi aləti var ki, daha çox onu xoşlayır. Azərbaycan qarmonunun özünəməxsus tembrini sevənlər də ölkəmizdə çoxdur. Hətta vətənimizdən kənarda yaşayan soydaşlarımız və başqa xalqlar arasında da qarmonumuzun şirin tembrinə, səs çalarlarına aludə olanlar vardır. Sadaladıqlarımızın hamısı Azərbaycan qarmon sənətinin inkişafının və uğurlarının nəticəsidir. Belə olan təqdirdə bu ifaçılıq sənətini araşdırmaqda və kitab halına gətirib qarmonsevərlərə, geniş oxucu kütləsinə təqdim etməkdən şərəf duyuruq. Kitab musiqi üzrə ali və orta ixtisas məktəblərinin müəllimləri və tələbələri, musiqiçilər, musiqi tariximizlə maraqlananlar və kitab oxuyanlar üçün nəzərdə tutulur.

GİRİŞ

Qədim tarixə, şərəfli keçmişə və zəngin ənənələrə malik Azərbaycanın əzəmətli musiqi mədəniyyəti vardır.

Qədimdən baş alıb gələn, ulu əcdadlarımızdan bizə miras qalan, dünya mədəniyyəti xəzinəsində özünəməxsus yer tutan qədim və zəngin irsimiz olan musiqimiz həmişəyaşardır.

Mədəni irsi xalqın vətəndaşlıq, varlıq şəhadətnaməsi saymaq olar. Bu işi qorumaq üçün təkcə şövq, həvəs deyil, həm də milli qeyrət lazımdır. Cəsarətlə qeyd edə bilərik ki, bu sahədə bütün dövrlərdə inkişafımız olmuşdur.

Çoxşaxəli, çoxjanrlı, çoxçalarlı musiqimiz bizim qiymətli sərvətimizdir və mədəni irsimizin ayrılmaz bir hissəsidir. Hər bir xalqın mədəni irsi onun milli varlığıdır, eyni zamanda, həmin xalqın qabiliyyət və istedadının daşıyıcısı olmaqla onun tarixini və mədəniyyətini də özündə yaşadır. Xalqın özünüdərkində mədəni irsin müstəsna əhəmiyyəti vardır. Mədəni irsin qorunmasında ilk növbədə xalqın özü iştirak etməli və mədəniyyət hissi yaşamalıdır. Daha sonra isə mədəni irsin qorunması normativ sənədlər, o cümlədən beynəlxalq normativ sənədlərlə tənzimlənir və qorunur.

Dünya şöhrəti qazanan, sevilən muğamlarımız çoxçalarlı və zəngin olaraq qədim ənənələrə sahibdir. Böyük sirli aləmə malik muğamlarımızın hər birinin obrazlı məzmunu vardır ki, bu çox geniş və çoxcəhətlidir. Doğrudan da muğamların hərəsinin müxtəlif və öz emosional xüsusiyyətləri, qüdrəti vardır. Muğamlar intonasiya xüsusiyyətlərinə malikdir.

Azərbaycan muğamı YUNESCO-nun bəşəriyyətin mədəni irsinin şah əsərləri siyahısına salınıb.

Milli soy-kökümüzün qorunmasında incəsənətin rolu böyükdür. İncəsənət həqiqətən də böyük qüvvə olub, kütlələrin şüuruna təsir etmək iqtidarındadır.

Azərbaycan xalqının mənəvi irsi hərtərəfli diqqəti çəkən məsələdir.

Milli mədəniyyətin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi qlobal məsələlərdən və daimi vəzifələrimizdən biridir.

Azərbaycan xalqının musiqi sənəti nümunələri bəşər tarixinə, dünya mədəniyyətinə bəxş edilmiş layiqli və qiymətli töhfələrdir.

Dünyada qloballaşma getdiyi, hər şeyin, bütün sahələrin inkişaf etdiyi halda musiqidə də böyük inkişafa nail olmalı, uğurlara imza atmalıyıq. Bu işdə ayıq-sayıq, düşünən olmalı, hər bir məsələyə, bütün incəliklərə yaradıcı yanaşmalı, musiqimizi yad əllərdən qorumalı, indiyədək yaradılanları, hazırda yaratdıqlarımızı bütün vasitələrlə, həmçinin internetlə dünyaya yayaraq layiqincə təbliğ etməliyik.

Milli-mənəvi dəyərlərə həmişə hörmətlə, diqqətlə yanaşılıb, qibləgah kimi baxılıb. Bunu sözlə demək mümkünsüzdür. Bu dəyərlər həmişə yaşamaq haqqına malikdir.

Qədim insanlar əmək alətləri ilə bərabər bir sıra çalğı alətləri də düzəldərək öz maddi və mənəvi tələbatlarını ödəmişlər. Sonradan bəzi alətlər sadədən mürəkkəbə doğru inkişaf etdirilmiş və əsrlərdən adlayaraq cilalanıb, formalaşıb dövrümüzə qədər gəlib çatmışdır. Bəziləri isə müxtəlif dövrlərdə tələbatı ödəyə bilmədiyinə görə tarixin çətin, keşməkeşli yollarında itib-batmış və unudulmuşdur. Belə alətlərin bir çoxu ustad sənət fədailərinin qiymətli zəhməti sayəsində bərpa olunmuşdur ki, müasir musiqiçilərimiz onlardan dəyərincə istifadə edirlər.

Azərbaycan musiqisinin bütün Şərqdə şöhrət qazandığını qeyd edən orta əsr mütəfəkkirlərimiz, şairlərimiz, musiqişünas alimlərimiz, bu sırada Səfiyəddin Urməvi (XIII əsr), Əbdülqadir Marağai (XIV əsr) musiqi alətləri haqqında qiymətli məlumat verirlər. Ə.Marağainin "Musiqi

alətləri və onların növləri" əsəri olduqca maraqlı və diqqətəlayiqdir.

Xalqımızın yaratdığı simli, nəfəs və zərb alətləri vardır ki, millətimizin istedadlı övladları zaman-zaman bu alətlərdən ustadyana istifadə edərək nadir sənət inciləri yaratmışlar. Musiqi alətlərimizin bəziləri dövrümüzdə Azərbaycan xalq çalğı alətləri orkestrləri və ansamblları tərkibinə daxil edilmişdir.

Bu gün tar, kaman, ud, qanun, saz, tütək, ney, balaban, zurna, səntur, dəf, nağara, qoşa nağara, zərb, qarmon və s. alətlərsiz milli musiqimizi təsəvvür etmək olmaz.

Tarixən Azərbaycanda daim vokal-instrumental və instrumental musiqi mövcud olmuşdur. Zəngin və möhtəşəm musiqimizin bir qolu, bir janrı instrumental ifaçılıqdır. Bu janrda özünə əsas və mühüm yer tutan musiqi alətlərimizdən biri də qarmondur. Bu alət milli musiqi alətləri qrupuna daxil olduğu andan təkamül yolu keçərək özünü təsdiq etmiş və ecazkar səsilə xalq tərəfindən sevilmişdir. Bu sənətə xidmət edən müqtədir sənətkarlar klassik qarmon ifaçılığı ənənələri yaratmışlar.

Milli ruhlu musiqi nümunələrimiz estetik mahiyyət baxımından da zəngin və təsirlidir. Çağdaş incəsənətimiz, həmçinin musiqimiz milli boyaları, milli duyğuları özündə əks etdirməklə bərabər, daha geniş miqyasda ümumbəşəri meyarları da özündə əhatə edə bilir.

Qeyd etməliyik ki, XX əsrin 20-ci illərindən formalaşmağa başlayaraq sonrakı dövrlərə addımlayıb inkişaf etdikcə öz axarına düşən qarmon ifaçılığı sənəti milli köklər üzərində qurulmuşdur. Bu işdə ilk əvvəllər əsasən Lətif Hüseynoğlu (1876-1944), Ələkbər Nəzərli (1882-1951), Abutalıb Yusifov (1884-1937), Əhəd Əliyev (1893-1942), sonrakı mərhələlərdə isə Teyyub Dəmirovun (1908-1970) mühüm və əhəmiyyətli dərəcədə rolu olmuşdur. Daha sonra mahir sənətkar kimi meydana çıxan Məmmədağa Ağayev (1919-1982), Abbas Abbasov (1924-1997), Səfərəli Vəzirov (1929-1982), Qızxanım Dadaşova (1925-1967), Səttar Hüseynov (1929-1981), İsfəndiyar Coşqun (1929-1991) və digərləri Azərbaycan milli qarmon sənətimizin layiqli davamçıları kimi fəaliyyət göstərmişlər.

Onu da diqqətə çatdırmalıyıq ki, XX əsrin əvvəllərində Məmmədtağı adlı qarmonçumuzun ifaları qrammafon valına yazılmışdır. Bu ədbəttə qarmonun ilk uğurlarından olaraq onun təbliğinə xidmət etmişdir.

Əhəd Əliyev, Teyyub Dəmirov və Məmmədağa Ağayev müəyyən bir tarixi dövrü əhatə edən qarmon sənətimizin inkişafında mühüm işlər görmüşlər. Onlar ilk əvvəllər diatonik, daha sonralar xromatik qarmonlarda çalaraq, bunlar üzərində mühüm təkmilləşmə işi aparmaq üçün bu alətləri hazırlayan, təmir edən ustalara məsləhət, tapşırıq verərək nəticədə milli musiqi nümunələrimizi tam şəkildə ifa etmə imkanlarına malik Azərbaycan qarmonlarını meydana gətirmişlər.

Müəyyən mərhələlərlə dəyərli və məhsuldar yol gələn Azərbaycan qarmon sənəti xalqımızın həyatına, məişətinə və musiqi mədəniyyətinə həmişəlik daxil olmuşdur. Çəkinmədən deyə bilərik ki, bu gün doğma vətənimizdə çox güclü və uğurlu qarmon məktəbi yaranmışdır. Heç bir şadlıq mərasimlərimizi, toy-büsatımızı, bədii-kütləvi tədbirlərimizi, bayramlarımızı, ən möhtəşəm konsertlərimizi qarmonsuz təsəvvür etmək mümkünsüzdür. Qarmon bütün özfəaliyyət və tam peşəkar xalq çalğı alətləri ansamblarının, orkestrlərin, instrumental ansamblların, xarici dövlətlərə gedərək musiqimizi təmsil edən qrupların tərkibində səslənməkdədir. Qarmonumuz rəqs kollektivlərimizin də müşayiət musiqi alətidir. Müşayiətdən əlavə milli qarmonumuz həm də solo aləti kimi tam imkanlarla özünü doğruldur. İfaçılarımız milli qarmonumuzla xalq musiqisi nümunələrimizi, muğamlarımızı və bəstəkarlarımızın əsərlərini yüksək səviyyədə ifa edirlər. Qarmon ifaçılarımız həmçinin xarici ölkələrin musiqilərini də repertuarlarına daxil edərək bacarıq nümayiş etdirirlər.

I FƏSİL. AZƏRBAYCAN QARMON İFAÇILIĞI MƏKTƏBİ

1.1. AZƏRBAYCANDA QARMON İFAÇILIĞI SƏNƏTİNİN YARANMASI VƏ TƏŞƏKKÜLÜ

XIX əsrin I yarısından etibarən Bakıya Rusiyadan qarmonlar gətirilməyə başlamışdır. Qarmonlar Volqaboyu ilə Xəzərdə işləyən gəmilərdə çalışanlar vasitəsilə Bakıya gətirilmişdir. Sonralar tacirlər Nijniy Novqorod yarmarkasında bu qarmonların kiçik həcmlilərindən cumaxadan sandıqlarına yığıb, üstünə də yazmışlar: "in male-məkarime-...", Badikubə (tərcüməsi, bu mal ləyaqətli filankəsindir, Bakı).

Qarmonlar Bakının "Moltanı karvansarası"nda, sandıq bazarında satılırmış. Qarmonlar alınsa da, əvvəllər onu çalanlar yox idi. Satıb-alan vaxt aləti yoxladıqda qarmondan "qıd-qıd-qıdıl-qıd" səsləri çıxıb. Ona görə də yarı şəbədə, yarı gerçək qarmon satana "qıd-qılıdıcı" deyiblər. Qarmon çalmaq məşğuliyyət kimi lap əvvəllər qadınlar arasında yayılıb və xoşa gəlib. O dövrdə qadın toylarında yalnız qadın çalğıçılar iştirak etdiyindən qarmon onlar üçün əvəzsiz musiqi aləti sayılırdı.

Yuxarıda qeyd etdiyimiz dövrlərdə qarmonlar Dərbənd şəhərinə də gətirilmiş və qız-gəlinlər üçün sevimli musiqi aləti kimi yayılmağa başlamışdır. Hətta oralarda bir zamanlar gəlin köçən qızlara bəzən cehiz kimi qarmon da alarmışlar.

Bakıya diatonik qarmonlar əvvəllər 7 dilli, sonralar 10, 12, 14 dilli, bir müddətdən sonra isə 18 dilli musiqi alətləri kimi gətirilmişdi. Səs ardıcıllığı 8, 10, 15 düymələrdən ibarət olan qarmonlardan da istifadə olunurdu. Sonralar isə bizdə sağ tərəfdə ikicərgəli 15, 18, 22 düymə li qarmonlar da əldə edilərək çalınardı. Bu alətlər qarmonların ibtidai, sadə formada olanları sayıla bilər. Musiqi həvəskarları maraq göstərərək qarmon alır, çalmağı öyrənirdilər. Təbii ki, əvvəllər bu alətlərdə sadə havalar çalınmağa başlanmışdı. Çünki alətlərin sadə texniki imkanları yalnız buna imkan verirdi.

XIX əsrin sonlarında Bakıda, İçərişəhərdə Seyid Həsən mükəmməl qarmon çalırdı. Onun evinə həvəskarlar toplanar, ondan qarmon ifaçılığının sirlərini öyrənərdilər. Beləliklə müəyyən dövr ərzində Seyid Həsən xeyli şagird yetişdirərək qarmon ifaçılığına yol açmışdır. Onun evi "qarmon məktəbi" işini yerinə yetirmişdir.

İçərişəhərdə yaşayan Məşədi Məlik (1838-1909) öz dövrünün açıqfikirli, mədəni şəxslərindən biri olmuşdur. O, bilikli musiqişünas, mahir tarzən olaraq Mansurov musiqiçilər ailəsinin görkəmli nümayəndəsi idi. Məşhur "Bakı musiqi məclisi" onların mənzilindəki geniş otaqda fəaliyyət göstərirdi.

Məşədi Məlik qarmon çalmağı da bacarırdı. Evlərində keçirilən musiqi məclisində öz 7 dilli qarmonunda bu alətin imkanına uyğun havalar çalardı. Çox güman ki, o, sonralar 16-18 dilli alətlərdə də çalıb.

Musiqi tarixində Salyanlı Şirin kimi tanınan Şirin Axundov (1875-1927) 7 yaşında qarmon, 13 yaşında saz, 14-15 yaşlarında tar çalmağı öyrənmişdir. Gənclik illərində Bakıya gələrək məşhur tarzən olmuş, ustad xanəndələri müşayiət etmişdir.

XIX əsrin I yarısında Rusiyadan Azərbaycana yarımtonsuz, yalnız ağ dillərdən ibarət qarmonlar gətirilirdi. Şuşalı çəkməçi Hüseyn də Azərbaycanın qarmon ifaçılarından sayılır. O, öz oğlu Lətifə qarmon çalmağı öyrətmişdir. Kərbalayi Lətif (1876-1944) nəinki Qarabağda, bütün Qafqazda, o cümlədən İranda qarmonçalan kimi məşhurlaşır.

Qarmon alətinin onun istehsal olunduğu məkanların adıyla Tula, Boloqoy, Saratov, Vyana, Sibir, Tatar, Gürcü, Azərbaycan qarmonu adlanan növləri vardır.

1870-ci ildə Belobarodov tərəfindən xromatik səsdüzümünə malik qarmonlar (diyezli, bemollu) düzəldilmişdir. Qarmon alətinin Rusiyada inkişafında tatar millətindən olan ustaların da böyük xidməti olmuşdur. Qarmon alətindən Rusiyada yaşayan başqa xalqlar da geniş istifadə edirlər. Alət sonralar Qafqaz xalqları arasında da geniş yayılmış, hər xalq qarmon alətini öz musiqisinə uyğunlaşdırmışdır. Məsələn, si (in H) köklü qarmonlardan yalnız Azərbaycanda istifadə edilir. Yəni, Azərbaycan qarmonunun "do" səsi, fortopianoda "si" səslənir.

Məşhur azərbaycanlı alim, tarixçi, ədəbiyyatşünas, şair, nəqqaş, xəttat və musiqişünas Mir Möhsün Nəvvab Qarabağı (1833-1918) "Vüzuhül-ərqam" əsərində bir sıra Şərq çalğı alətləri, o cümlədən qarmon haqqında məlumat verir. O, qarmonun təsir qüvvəsindən, dinləyicidə oyatdığı zövqdən danışır.

XIX əsrin sonlarından azərbaycanlı qarmon ifaçılarının sifarişi ilə yeni növ qarmon yaradılmış və alət Azərbaycan qarmonu adlanmışdır. Qarmon alətini "azəriləşdirmək"dən ötrü ustad sənətkarlarımız alət üzərində bir sıra uğurlu islahatlar aparmışlar. Qarmon dilçəkli, körüklü çalğı aləti olub, klavişli alətlər qrupuna aiddir. Həmçinin nəfəs aləti sayılır.

Azərbaycan qarmonu dedikdə, xarici görkəminə görə fərqlənməsə də, ölçülərinə, kökünə ("in H", yəni "si"), sağ və sol əllərin ifa zamanı etdiyi işlərə və tənəkələrin (tirlər, plankalar) sayına görə digər qarmonlardan fərqlənən, Azərbaycan ərazisində istifadə edilən çalğı aləti nəzərdə tutulur.

XX əsrin əvvəllərindən etibarən Bakının özündə peşəkar, təcrübəli qarmon düzəldən ustalar meydana çıxdılar. Onların əksəriyyəti rus millətinin nümayəndələri idi. Bu ustalar içərisində ən mahiri və ən məşhuru malakan Arxip Karpuşkin olmuşdur.

Beləliklə ifaçılar iki oktava yarım xromatik səs ardıcıllığına malik (bəzən də üç oktavalı) qarmon vasitəsilə xalq musiqisi incilərini, oyun havalarını, diringiləri, dəraməd və rəngləri, xalq mahnılarını və muğamlarımızı xüsusi həvəslə, şövqlə ifa etməyə başlamışlar.

Dövr, zaman dəyişdikcə musiqi mədəniyyətimizin, muğam janrının ayrılmaz hissəsi olan instrumental ifaçılığımızda qarmon özünəməxsus yer tutmuşdur.

"Azərbaycan qarmonu" adı alan alətlər tədricən Güney Azərbaycanın da şəhərlərinə yol alırdı. Ənzəlidə, Astarada, Zəncanda, Ərdəbildə, Təbrizdə, Urmıyada, Xoyda, Mərənddə getdikcə qarmonçalanlar meydana gəlirdi. Çalğı bacaran onu övladına, yaxınlarına öyrədirdi.

1.2. QARMONUN MƏNŞƏYİ

Əməkdar artist, Mədəniyyət və İncəsənət Universitetinin dosenti Zakir Mirzəyevin "Azərbaycan qarmonu" (Bakı, "Adiloğlu" nəşriyyatı, 2005) elmi əsərində (səh.19-36) qarmonun mənşəyi və texniki ifa xüsusiyyətləri barədə məlumat verilir. Aşağıdakı məlumat həmin mənbədəndir.

"Qarmon" - harmon sözündən olub həmsaz, həmahəng, həmavaz deməkdir. (10, s.90) Avropada və Pusiyada hələ keçən əsrlərdən məlum olan bu alətin başqa növləri də mövcud olmuşdur ki, onlar qarmonika, qarmoşka, bayan, akkordeon və s. adlarla adlandırılmışdır. Bu sahədə aparılan araşdırmalar zamanı mövcud ədəbiyyat təhlillərindən sonra belə qənaətə gəlmək olar ki, istər Avropa, istərsə də Rusiya mütəxəssisləri qarmon alətinin tarixini əsasən XIX əsrdən götürürlər. Əlbəttə ki, qarmon ifaçısı və araşdırıçı kimi bu alətin texniki ifa prinsiplərini, səsin hasil olunma texnologiyasını dəqiq öyrəndikdən sonra bu alətin daha qədim dövrlərə aid olması qənaətinə gəlinmişdir.


Qarmon alətinin indiki görünüşü tarixi prosesin sonrakı dövrlərinə təsadüf etsə də bu alətin səs hasil etmə prinsipi, mexanizmi (körük vasitəsilə) hələ çox qədimdən çalğı alətləri yaradıcılığımızda mövcud olmuşdur.

Müxtəlif səs çeşidlərinə malik qarmonun daxili konstruksiyası metal dilçəklərdən ibarətdir. Alətin səslənməsi metal dilçəklərin və körüyün hərəkətə gətirilməsi ilə həyata keçirilir. Körük vasitəsilə hərəkətə gələn səs axını metal dilçəklərin bir-bir açılıb bağlanması nəticəsində müxtəlif tembrli rəngarəng səslərin meydana çıxmasını təmin edir. Qarmonda səsin bu qayda ilə hasil olması texnologiyası nəfəsli alətlərdə mövcud olan dodaq vasitəsilə nəfəsin ötürülməsi və barmaqlar vasitəsilə dəliklərin tutulub açılması texnologiyasının eynidir. Qarmon aləti bir növ göstərilən texnologiyanın müasir, təkmilləşdirilmiş formasıdır. Bu sahədə araşdırmalar aparılarkən qarmonda səsin hasil olma texnologiyası öyrənildikdən sonra onun daha qədim ənənələrdə mövcud olub-olmaması barədə araşdırmalar davam etdirilmişdir. Elmi tədqiqatlar zamanı Avropanın instrumental musiqi sahəsində çalışan bir sıra tədqiqatçıları və rekonstruktorları ilə bizim nəzəri fikrimizin üst-üstə düşməsinin şahidi olduq. Avropanın tanınmış orqan ustası və ifaçıları olan Kirşnik və Q.İ.Foqlerin, vyanalı İ.M.Melçelin, parisli Qrenjenin, praqalı Zomerin və alman F.Z.Buşmanın təkmilləşdirmə işləri, elmi nəzəri fikirləri qarmonun daha qədim köklərinin öyrənilməsi ideyasını bir daha möhkəmlətdi.

Qeyd etdiyimiz kimi elmi – metodiki mənbələrdə qarmon musiqi alətinin tarixi XIX əsrdən götürülür. Belə ehtimal olunur ki, qarmon alətinin ən qədim əcdadı "Şenq" alətidir. Bu alət haqqında müəyyən mənbələrdə bəzi fikirlərə rast gəlinir. Belə ki, Avropa və rus alimlərinin fikrinə görə ilk nəfəs alətləri Şumer dövrü ilə bağlı olduğu üçün "Şenq" aləti də b.e.ə. 2700-ci ildən Tibetdə, Birmada və Çində məşhur olmuşdur. Bu nəzəri fikirdən fərqli olaraq qeyd edək ki, səsin hasil olunması texnologiyası barədə alimlərin elmi mükalimələrindən çox öncə Şərqdə, xüsusən də Azərbaycan ərazisində həmin texnologiyaya əsaslanan nəfəs alətləri mövcud olmuşdur. Qarmonun qədim əcdadlarından biri fikrimizcə tulum-zurnadır Bu alətdə səsin hasil edilməsi texnologiyası təqribən qarmondakı ilə eynidir. Tulum –zurnanın tarixi haqda məlumat verən mənbələrdə qeyd edilir: "Tunc dövrünün musiqi ənənələrinin öyrənilməsi göstərir ki, bu dövrdə günəş etiqadı ilə əlaqədar yaranmış mərasim ayinlərində kütləvi xarakterli rəqslər, xor şəklində oxu tərzi, nəfəs və zərb alətlərinin ifasında instrumental musiqidən geniş istifadə edilərdi. Rəqslərin quruluşu qruplar halında "Yallı" rəqslərindən ibarət olmuşdur.Kişilər ayrı dəstədə, qadınlar ayrı dəstədə əl-ələ tutub dairə ətrafında rəqs edərdilər. Dairənin içində günəş şəkli çəkilər axşam mərasim rəqslərində isə dairənin ortasında od qalanardı. Rəqs qrupu isə yazın əvvəlində

keçirilən ayinlərdə od ətrafında rəqs edib əkin mövsümünün başlanğıcını və torpağın günəşin odu ilə isinməsini arzulardılar ki, bol məhsul ili olsun. Nəfəs alətlərindən Buğ, Surnay, Zurna, Balaban, Gərənay (Kələnay, Karnay, Kərnay), Kərnəd, Şahnəfir, Nəfir(tütək), Xik-Tulum (Tulum-Zurna) və s., zərb alətlərindən isə Dohul (Davul), Dümbək, Kus (kös, kos), Təbil, Cam, Kubo, Naqus, Çənbək, Dəray, Nağara və s. istifadə olunardı.Mərasim ayinləri başlamazdan əvvəl Kərənay, Kərnəd, Buğ, Zurna, Balaban, Tulum-Zurna, Dohul, Kus, Təbil kimi alətlərin ifasında çağırış sədalarını xatırladan musiqilər səsləndirilərdi ki, camaatı mərasimə toplasınlar". (40, səh.49) Tulum-Zurnanın Azərbaycan instrumental musiqi mədəniyyətində əsasən kənd məişətində, folklor musiqisində geniş istifadə olunması faktları vardır. Bu alətdən Naxçıvanda geniş şəkildə istifadə edilməsinin özü elə qədim instrumental musiqi ənənəmizə gözəl sübutdur. Musiqişünaslarımızdan Ə.Rəhmətov və S.Abdullayeva öz əsərlərində Tulum-Zurna haqqında geniş məlumat vermişlər. Ə.Rəhmətov bu barədə yazır: "Respublikamızın bəzi rayonlarında tulum nəfəs alətinə rast gəlinir. Körüklü musiqi aləti olan tulumun iki melodik lüləsi vardır. Birinci lülədə melodiya, ikincidə isə fasiləsiz olaraq tonika səsləndirilir. Başqa lülədən isə tulumun qoyun və ya keçi dərisindən hazırlanmış körükçüyə hava doldurulur... Bu musiqi alətində mahnı və ya rəqslər ifa olunur". (58, s.39) Tulum-Zurnanı tədqiq etmiş S.Abdullayeva bu alətin texniki ifa imkanlarını daha qabarıq göstərməyə müvəffəq olmuşdur. O, tədqiqatında Ə.Rəhmətovdan fərqli olaraq melodiyanı icra edən lulənin qoşa, üzərindəki dəliklərin sayının 6-7 olmasını (Ə.Rəhmətov 5 dəlik verir) göstərir. (74, s.27)

Şəkildən göründüyü kimi qarmonun daha da təkmilləşmiş körüyü qədimdə ənənədən irəli gələn qoyun və ya keçi dərisindən hazırlanmışdır. Qarmonda körük sol əlin hərəkəti ilə açılıb sıxıldıqca hava seli hasil edilir və qarmonun tənəkəsində (plankasında) yerləşdirilmiş metal dilciklərlərin açılıb bağlanması ilə müxtəlif səslər yaranır. Tulum-Zurnada da həmin prinsipdir. Alətin körüyü sol və sağ əlin köməkliyi ilə sıxılır və səs seli qədimdə sümükdən, sonralar tut ağacından düzəldilmiş qoşa lüləyə ötürülür. Burada isə ya iki səsli ifa, ya da kontrapunktlu, müşayiətli ifa icra edilir. Qarmonda olduğu kimi Tulim-Zurnada da sağ və sol əlin ifalarına aid ifa qaydası mövcuddur.



Şəkil 1. Tulum zurna.
Ümumi görünüş (*a*), alətin ağızlığında olan zünün yuxarıdan şəkli və melodik borular (*b*), yuxarıdan, aşağıdan və yandan görünüşü (*c*):
1 - dəri tuluq, 2 - melodik borular, 3 - borucuq

Müqayisədən göründüyü kimi qədim Azərbaycan instrumental musiqi ənənəsində bu günki qarmon alətinin prinsipcə ifa texnologiyası mövcud olmuşdur. Sözsüz ki, minilliklər keçdikdən sonra müxtəlif musiqi alətləri inkişaf məkanından asılı olaraq daha fərqli çeşidlərdə təkmilləşmiş və həyatda yeni şəkildə öz inkişafını tapmışdır. Təbii ki, qarmon musiqi alətinin keçdiyi bu inkişaf mərhələsi onun quruluşu, ifa imkanları, tembri və bu kimi xüsusiyyətlərinin mükəmməl formaya gəlməsinə səbəb olmuşdur. Göstərilən müqayisə qarmonun daha qədim ənənəsinin ilk prototiplərinin Azərbaycan-türk milli musiqi mədəniyyəti ilə bağlı olmasını sübut edir. Avropa eləcə də rus alim və tədqiqatçılarının fikrinə gəldikdə qeyd etdiyimiz kimi onlar bu alətin qədim kökünün "Şenq" musiqi aləti ilə bağlı olmasını göstərmişlər. "Şenq" musiqi aləti bir sıra bambuk dəstəklərdən ibarət olub qurudulmuş kuduya keçirilirdi. Bambuk dəstəklərin aşağı hissələrində sərbəst hərəkət edən dilciklər yerləşdirilirdi ki, hava axını zamanı onlar səslənirdilər. Daha qədimlərdə bu tip musiqi alətləri "Yu", sonrakı inkişaf mərhələsində müəyyən

təkmilləşmə prosesindən sonra isə "Çao", "Xo", nəhayət "Şenq"(şen) adlandırılmışdır. Bu alətlərin Avropaya hansı dövrdə gətirilməsi tədqiqat əsərlərində qeyd olunmayıb.

Qarmonun qədim prototiplərindən sayıla bilən alətlərdən biri də ərğanun alətidir ki, orta əsrlərdə Şərq ölkələrində, xüsusən də Azərbaycan ərazisində ondan geniş istifadə olunmuşdur. Ərğanun aləti qədim Çində yaşayan uyğurların, Şərqdə isə Azərbaycanda, İranda və Hindistanda istifadə olunması haqda tarixi-ədəbi mənbələrdə məlumatlar vardır. Ərğan və ərğənun alətlərinin adı digər şairlərimizlə yanaşı XI əsrdə yaşamış Qətran Təbrizinin "Divan"ında və Ə.Xaqaninin (XII əsr) şeirlərində də çəkilir. Verilən məlumatlardan aydın olur ki, o dövrlərdə Azərbaycanda ərğanun musiqi alətindən məişətdə və saraylardakı müxtəlif musiqi məclislərində istifadə olunmuşdur. Azərbaycan şairi Qətran Təbrizi (1012-1088) öz əsərlərində ərğanun və digər alətlərin adını çəkir. Ərğənunun səsini belə qeyd edir:

"Qumrunun avazı dost yadına dostun səsini salır,
Ərğənunun səsi yar yadına yarın səsini salır".

Görkəmli Azərbaycan şairi N. Gəncəvi isə öz qəzəlləri haqda yazanda onların səslənməsini ərğənunun səslənməsinə bənzədərək deyir: "Qəzəlim qulaqlarda ərğənun kimi səslənir. Başqa bir yerdə yazır ki, "ərğənun avazı ilə ərğəvani (qırmızı) şərab qədəhini qaldır". (29, s.33-38)



Şəkil 2. Dodaqla çalınan ərğənun (oxu - ərğan)

Haşiyə (kitab müəllifi Ə.Rəhmanlı): - Ərğənun alətinin qarmonun prototipi olması məsələsində yanlışlığa yol verilmişdir. Ərğənun yox, ərğan qarmonun prototipi sayıla bilər. Bu barədə musiqişünas alimlərimiz Səadət Abdullayeva və Abbasqulu Nəcəfzadənin elmi əsərlərində səhih məlumatlar vardır. A.Nəcəfzadənin "Azərbaycan nəfəs alətləri ("Orqonoloji – tarixi tədqiqat)" sənətşünaslıq namizədi dissertasiyasından oxuyuruq: "Hər hansı alətin yaranma tarixi nə qədər qədim olursa, o alət haqqında bir sıra ziddiyyətli fikirlər yaranır.Ərğan da belə alətlərimizdəndir. Təəssüf ki, bir sıra çalğı alətləri kimi ərğan da tarixin keşməkeşli yollarında itib batmış, sıradan çıxaraq unudulmuşdur. Bəzən yanlış olaraq ərğan ərğənun və hətta qanun alətləri ilə eyniləşdirilir. Halbu ki, ərğan-düyməli (klavişli), körüklü nəfəs aləti, ərğənun simli, rudabənzər alət olmuş, qanun isə dövrümüzə gəlib çatan, diz üstə qoyularaq, hər iki əlin şəhadət barmaqlarına taxılmış oymağabənzər mizrabla çalınan alətdir"

Ə.Nəcəfzadə N.Gəncəvinin "İskəndərnamə" poemasından "Əflatunun çalğı alətləri qayırması" başlıqlı yerini vermiş və təhlil etmişdir. Şeirdə belə bir yer var:

Düzəltdi nəhayət o, bir ərğənun.
Telləri yaxşıca köklənmiş bu saz,
Başladı verməyə ahəngdar avaz.
Zil və bəm nəğmələr hasil edərək,
Mizrabı gah yavaş vururdu, gah bərk.



Simli alət ərğanun

Dahi şairin yazıb bəşəriyyətə miraz qoyduğu əsərdən məlum olur ki, ərğənun mizrabla çalınan telli musiqi alətidir. Şeirdə "saz" sözü çalğı aləti mənasında işlədilib.

A.Nəcəfzadənin "Azərbaycan çalğı alətlərinin izahlı lüğəti" (Bakı-2004, "Min bir mahnı" nəşriyyatı, 224 səh.) kitabından (səh. 86) oxuyuruq: "Ərğan alətini miladdan 300 il əvvəl İskəndəriyyə şəhərində yaşamış yunan mexaniki Ktezibey ix-

tira etmişdir.Klassik şairlərimizdən Əfzələddin Xaqani yazırdı:

O, Bərbudun səsimi, sazın, bərbədin səsi?
Setarmı, ya çalınan kasəgər ilə ərğan?

Ə.Xaqaninin XII əsrdə yaşayıb - yaratdığını nəzərə alsaq, deməli, ərğandan ən azı XII əsrdə Azərbaycan ərazisində istifadə edildiyi məlum olur.

Ərğan ilk düymәli (klavişli), körüklü çalğı alətimiz hesab edilir. Təəssüf ki, ərğan da bir sıra musiqi alətlərimiz kimi əsrlərin sınağına dözə bilməmiş, sıradan çıxaraq unudulmuşdur.

Ərğan aləti müasir orqanın "əcdad"ı hesab edilir. "Ərğan" eləcə də "orqan" sözləri yunanca və latınca alət mənalarını bildirir, yəni çalğı aləti kimi nəzərdə tutulur.

İstedadlı rəssam Seyran Bədəloğlunun gərgin zəhməti sayəsində bir sıra çalğı alətlərimiz, o cümlədən ərğanın xəyali təsviri kitabda öz əksini tapıb".

Ərğənun (ərğan-Ə.R.) aləti gözəl tembrə və səsə malik olmuşdur. Bu sahədəki tədqiqatlar sübut edir ki, ərğənun (ərğan-Ə.R.) alətinin bir-neçə növü olmuşdur. Şərqdə çalınan ərğənun (oxu-ərğan) aləti yerdə qoyularaq ifa edilərdi. Onun ilk qədim nümunələri dodaqla üfürmə yolu ilə çalınardı. Lakin sonrakı son əsrlərdə isə Avropada dilli musiqi alətləri (qarmonun qrifinin üzərindəki dillər kimi) yaranandan sonra epinet musiqi formasında olmuşdur. Ərğənun (oxu-ərğan) alətinin sol gövdəsində (rusca-korpus) yerləşən körüyü ifaçı sol əl ilə açıb bağladıqca hava seli yaradır. Sağ əl isə qarmonun qrifindəki dillərdə (klavişlər) melodiyanı ifa edirdi. Sağ əlin dillərə toxunuşu zamanı o metal dilcikləri açıb-bağlamaqla hava selini kənara buraxdığı üçün müxtəlif səs yüksəkliyinə köklənmiş notların ifası həyata keçirilirdi. Qeyd edək ki, səsin hasil olması prinsipi faktiki olaraq bu günkü qarmonun eynidir. Fərq isə alətin hansı formada tutulmasındadır.

Ərğənun (oxu-ərğan) alətinin ən qədim əcdadlarından biri Çində və Mərkəzi Asiyada yayılmış növüdür. Məhz bu alətdən sonrakı əsrlərdə Avropada geniş yayılmış orqan aləti yaranmışdır. Ərğənun (oxu-ərğan) alətinə qədim yunanlar orqanun, latın dilində orqanum, ingiliscə isə orqan demişlər. Qədim ərğənun (ərğan-Ə.R.) üç hissədən ibarət olub dodaqla çalınarmış:

1.Bir-birinin yanında düzülmüş, ney şəkilli, müxtəlif ölçülü borular.

2.Səs çıxarmaq üçün bir hava mənbəyi və üfürmə borusu.


3.Səs və üfürülən havanın miqdarına nəzarət etmək üçün düymələr.

Bəzi ərğənunlarda (oxu-ərğanlarda) hava toplamaq üçün su təzyiqindən istifadə olunurdu. Bu olduqda kisəyə ehtiyac yox idi. Bu növ alətlərə su ərğənunu (oxu-su ərğanı) və ya hidroliz deyilirdi. Ərğənun (oxu-ərğan) Avropada xristian dininin yayılması ərəfəsində qadağan edilmişdi. Bu məsələ, yəni musiqinin qadağan edilməsi ola bilar ki, yəhudi dininə müxalif olmaq üçün idi. Yəhudilər musiqini yüksək qiymətləndirirdilər. Onların bir çox dini mərasimləri musiqi ilə keçirilirdi. Musiqinin qadağan olunması uzun sürmədi və tədricən dünyada baş verən bəzi hadisələr nəticəsində iki, üç əsr ərzində ləğv olundu. Bəlkə də buna səbəb daha çox 1096-cı ildə başlayan xalq müharibələri idi. Bu müharibələrdən sonra Avropada ara musiqiçilərinin rolu çöx böyük idi. Bu dövrdə ərğənun (oxu - ərğan) aləti Asiyadan Avropaya yayıldı. Müəyyən inkişaf mərhələsindən sonra orqan musiqi aləti kimi təkmilləşdirildi. Uzun müddət Avropada orqana qiymətli bir bəzək əşyası kimi kralların saraylarında və dövlət məmurlarının evində rast gəlinirdi. Sonralar isə bu alətdən kilsələrdə geniş şəkildə istifadə olunmuşdur. Göstərilən şəkillərdən ərğənun (oxu-ərğan) alətinin ifa texnologiyası açıq-aydın görünür. Bu misalların hamısı qarmon musiqi alətinin qədim əcdadlarına aiddir. Orta əsr mənbələrində dodaqla və yerdə körüyün kömәkliyilə çalınan ərğənun (oxu-ərğan) alətlərinin müxtəlif növlərinə Hindistanda, Pakistanda və Əfqanıstanda bu gün də rast gəlmək olur.

Elmi mənbələrdə verilən məlumatlara görə ərğənun alətinin (oxu-ərğan) ərəb mexanikləri tə-

rəfindən hazırlanan pnevmatik və hidravlik növləri olub. Fikrimizcə bu belə deyil. Çünki, instrumental musiqi alətləri haqqında yazılı məlumatlarda ərəblər b.e.ə. VI əsrdən sonra Şərqdə daha güclü olan İran mədəniyyətindən çox şeyləri əxz etmişdir.O cümlədən bir çox milli nəfəs alətləri və onların müxtəlif növlərini də məhz Şərq ölkələrinə öz dinlərini (İslam-Z.M.) yaydıqdan sonra başqa mədəniyyətlərdən iqtibas etmişlər.


Ərğənun (oxu-ərğan), eləcə də orqan sözləri yunan və latıncadan dilimizə "alət" mənasında tərcümə edilir. Alətin inkişafı nəticəsində Şərqdə daha mükəmməl harmon aləti yaranmışdır. Körüklü, dilçəkli musiqi aləti olan harmon xromatik səsdüzümlüdür. Diapozonu isə kiçik oktavanın "do" səsindən üçüncü oktavanın "re" səsinə qədərdir. Yunancadan dilimizə tərcümədə "harmon" - əlaqə, nizam və s. deməkdir. Yəni, bir –neçə səsin harmonik şəkildə ifa edilməsinin mümkünlüyünə görə alətə "harmon" adı verilmişdir.



Şəkil 3. Ərğənun (ərğan - Ə.R.) və harmon.
Əfqanıstan, Pakistan və Hindistanda istifadə edilir.

Göstərdiyimiz misallardan aydın olur ki, qarmonun müxtəlif növləri olan dodaq qarmonu, musiqar, şen, ərğənun (oxu-ərğan), tulum-zurna və b. alətlər məişətdə geniş yayılmışdır.

İnstrumental musiqi tarixininin öyrənilməsi sübut edir ki, qarmon tipli musiqi alətlərinin ilk əcdadları nəfəs alətləri olmuşdur. Onların qədim tarixi Şumer dövrünə, b.e.ə. III minilliyə təsadüf edir. Şen musiqi alətinin Tibetdən, Çindən Orta Asiya vasitəsilə Qərb ölkələrinə, həmçinin tulum-zurnanın, ərğənunun (oxu - ərğanın) Şərqdən Avropa ölkələrinə yayılması bilavasitə türk tayfalarının iştirakı ilə olmuşdur. Belə ehtimal etmək olar ki, məhz qarmon alətinin sonrakı inkişaf mərhələlərində də türk tayfalarının xüsusi rolu olmuşdur. Bu fikri qıpçaq-türk alimi Murad Adçının fikirləri də təsdiq edir. O, verdiyi məlumatda qarmon alətinin qıpçaq türklərinin məişətində b.e. V əsrində mövcud olmasını təstiqləyir. Alim yazır: "Pivə həvəskarları Avropa qıpçaqları arasında daha çox mövcuddur. Onların coğrafiyası unudulmuş Dəşti-Qıpcaq sərhədləri ilə qəribə şəkildə üst-üstə düşür... Atillanın məclislərində qəlboxşayan, həzin nəğmələr səslənirdi. Bu mahnılar sanki özləri qəlblərə axır, onları xumarlandırırdı. Onlar musiqi sədaları altında oxuyurdular. Arfa (çəng), qarmon, qopuz (violençelin sələfi), baraban (davul), qopuz (balalayka) bacarıqlı ifaçıların əlində gəzirdi. Böyük düzəngahda musiqisevər xalq yaşayırdı. Musiqisiz, mahnısız, dabanları çıxaran rəqqələrsiz nə V əsrdə, nə ondan əvvəl, nə də sonra düzənlik ola bilməzdi". (122, s.192).




Şəkil 4. Çin ərğənunu (oxu - ərğan)

Qarmonun bizim eramızın V əsrində mövcud olması faktı digər elmi-metodiki mənbələrdə göstərilməmişdir. Qarmonun bir alət kimi sonrakı tarixi rposesdə necə inkişaf etməsi haqda lazımi məlumatlar demək olar ki, yox dərəcəsindədir. Avropa və bir çox başqa ölkə mütəxəssislərinin fikrincə bu günki qarmon aləti qədim dövrlərdə mövcud olmuş orqanın kiçik

və dəyişilmiş formasından yaranmışdır. Orqanlar haqqında da qısa məlumat verilməsi məqsədəuyğun olardı. Çünki qarmon musiqi alətinin təkamül, inkişaf və təkmilləşmə prosesini izləmək üçün fikrimizcə onun tarixin müxtəlif mərhələlərindəki keçdiyi inkişaf yoluna, dəyişikliklərə nəzər salmaq lazımdır.

Elmi mənbələrdə qarmonun qədim əcdadı sayılan orqanın Avropada yayılması X əsrə aiddir. İngiltərədə Vinçestr kilsəsində X əsrə aid bir orqan mövcuddur, bu alət iki sırada düzülmüş 400 boru və 20 düyməyə malikdir. Bu orqan yumruq zərbələri ilə çalınardı. Onun səsi o qədər güclü olmuşdur ki, Londonun bütün yerlərindən eşidilərdi. Tarixi məlumatlara görə ilk orqanlar kralların saraylarında mövcud olmuşdur. Alətin səsinin güclü olması səbəbindən sonradan onları kilsələrə yerləşdirmişlər. Bu iş XII əsrdən etibarən həyata keçirilmşdir. XIV əsrdə orqan artıq üç oktavaya malik olmuşdur. Bu alət bu günki formasını XVI əsrin əvvəllərindən almışdır. Orqanda dəstəklərin daxilində hərəkət edən dillər Avropanın orqan ustaları tərəfindən XVII əsrin əvvəllərindən tətbiq edilməyə başladı. Peterburqda belə dəstəkli orqan 1770-80-ci illərdə məlum idi. Onu Kopenhagendən Peterburqa köçüb gəlmiş orqan ustası Kirşnik hazırlamışdı. Orqançalan Q.İ.Foqler qastrol səfərlərinin birində Peterburq orqanı ilə tanış olmuş və öz alətinin dəstəklərinə sərbəst hərəkət edən dilləri daxil etmişdi. O vaxtlar orqanın bu növü "orkestrion" adlanırdı. 1800-1805-ci illərdən sonra bir-şox ustalar orqanların dıstəklərində sərbəst hərəkət edən dillərin tətbiqini təkmilləşdirməyə başladılar. İ.N.Melçel-Vyanada, Qreyne-Parisdə, Zauer-Praqada bu prinsipi tətbiq etmişlər.



Şəkil 5. Klavisin


Orta əsrlərdə ərğənunun (oxu-ərğanın) və orqanın borularını klavişlərə çevirdilər. Bu gedişlə orqandan tamam fərqli alətlər meydana gəldi.

Klavisin dilli musiqi alətidir. Onun əcdadı orqan alətidir ki, yuxarıda qeyd etdiyimiz kimi hava və boruların köməkliyi ilə ifa edilərdi. Bu alətin texniki quruluşundan yalnız ağ və qara dillər olan klavişlər sistemi sonrakı inkişaf mərhələsində qarmon alətinin sağ korpusunda (gövdəsində) istifadə edildi. Klavisin sonralar simli alətə çevrildi. Çünki klavisin bir neçə simə malikdir ki, onların səslənməsi klavişlərin zərbəsi ilə bağlıdır. Onların quruluşu psaltriyona çox oxşayır. Yəhudilərin dini kitabında onun adına çox rast gəlmək olur və farsca "səntur" tərcümə olunur. Bu nəticəyə gəlmək olar ki, klavişli alətlərin ixtira olunmasında iki növ alətlər qeyd olunmalıdır:

1.Səntur qrupuna daxil olan alətlər.

2.Orqan qrupuna daxil olan alətlər.

XVII əsr klavisinin qızıl əsri adlanıbdır. Bu tarixdə klavisin 49 mizrab və 4 yarım oktavaya malik idi. Halbuki, birinci epinet sadəcə 31 mizrablı idi.




Şəkil 6. Epinet

Epinet kiçik klavisindir və sadəcə olaraq bir oktavaya malikdir. Onun böyük növü isə dörd yarım oktavadan ibarətdir.

XVII əsrdə epinet bir bəzək aləti idi və XVI əsrdə ona espinet deyilirdi. Bu alət üçün də bəstəkarlar əsərlər yazıblar. Epinet hələ də Fransa və İtaliyada ifa olunur.

Klavisinin daha bir balaca növü selestadır və səs boğmaq üçün bir pedala malikdir. Selestanın diapozonu dörd oktavadır və çox məlahətli səsi var.

Yuxarıda qeyd etdiyimiz kimi klavişli musiqi alətlərindən yalnız klaviatura olan hissədən gələcəkdə təkmilləşən qarmonun sağ gövdəsində istifadə edilmişdir. Xüsusi olaraq onu da qeyd etməliyik ki, klavişli musiqi alətlərindən Avropa ölkələri ilə yanaşı Şərqdə, xüsusilə də orta əsrlərdə Azərbaycan mədəniyyətinin inkişaf edib yayıldığı İranda, həmçinin qüdrətli Azərbaycan dövləti olan Səfəvilər dövründə də geniş istifadə olunmuşdur.



Artıq XVIII əsrin I yarısından başlayaraq şüşə qarmonikalar yaradılır. Bir neçə onilliklər ərzində alət inkişaf yolu keçərək Avropaya, Rusiyaya geniş yayılır. Alətin məşhur ifaçıları arasında bütün Avropaya qastrol səfəri edən F.Qlyuk, Kirxner və başqalarının adlarını çəkmək olar. Alətin tembri, səslənmə tərzi çoxlarının diqqətini cəlb edirdi. O dövrdə bu alətlə hətta ABŞ-ın prezidenti B.Franklin də yaxından maraqlanmış, ixtisasca fizik olan bu mütəxəssis 1762-ci ildə aləti yenidən təkmilləşdirmişdir.

XVIII əsrin 80-ci illərindən başlayaraq klaviatura ilə olan qarmonikalar yarandı. Dövrün məşhur bəstəkarları V.A.Mosart, L.K.Bethoven, sonralar H.Berlioz və M.İ.Qlinka qarmonikalar üçün əsərlər yazmışlar. Hətta 1788-ci ildə Leypsiqdə İ.K.Müllerin rəhbərliyi ilə "Metod k qarmonike" adlanan, alətin ifa qaydalarından bəhs edən kitab çap olunur. XIX əsrin ortalarında bu alətin inkişafı ilə bağlı olaraq bu alətdən istifadə edilmir.



İlk əl qarmonikaları

Dodaqla çalınan qarmonika

Şəkil 8


Dodaqla və əl ilə çalınan qarmonikaların yaranması isə eyni dövrə təsadüf edir. Onların yaradıcısı Fridrix Buşman hesab olunur. Alətlərin keçdiyi inkişaf mərhələlərində dodaqla çalınan qarmonika (Mundharmonike) X.Messner (1804-1874) tərəfindən təkmilləşdirilir. Bu alətdən artıq digər alətlərlə səslənmədə, ansambllarda geniş istifadə olunurdu. 1825-ci ildə Ç.Minston dodaqla çalınan qarmonikanın digər növünü icad edir və onu simfonium adlandırır. Əl qarmo-

Azərbaycan Milli Kitabxanası

1052266

nikası isə K.Demian (1772-1874) tərəfindən təkmilləşdirilir. Alətin sağ klaviaturasında D-dur'un əsas səslərindən ibarət olan 5 klaviş, sol tərəfdə akkompaniment (müşayiət) üçün müxtəlif akkord səslənmələri təşkil edən 5 klapan (qapaq) var idi. Aləti K.Demian akkordeon adlandırır. Akkordeon düzəldən digər mütəxəssislər də var idi ki, onlardan A.Reynsner, Ş.Buffe və başqalarının adları qeyd oluna bilər. Təkmilləşmiş bu qarmonikalarda müşayiət ilə sadə formalı melodiyaları ifa etmək olurdu.


Qarmonikanın geniş yayılmasına baxmayaraq o, bəzi musiqiçilər tərəfindən qəbul edilmirdi. Lakin, alətin malik olduğu üstün xüsusiyyətləri, özünəməxsus tembri, musiqi nümunəsini yeni səslənmə tərzi ilə zənginləşdirməsi ona layiq olduğu münasibəti qazandırırdı.



Şəkil 9. XIX əsrin ortalarında Avstriya, Almaniya, Fransa və İtaliya akkordeonları

Qarmonikanın daha bir növü konsertino və bandeneon idi. Konsertino adını alətə 1829-cu ildə Ç.Minston vermişdir. Alətin hər iki tərəfində xromatik səs düzümü olan altıküncülü korpus (gövdə), ortasında isə dəri mövcud olmuşdur.

Konsertino İngiltərədə, Almaniyada, Rusiyada və başqa ölkələrdə geniş yayılmışdır. Alətin iki növü (İngiltərə əsas sayılır) mövcud idi. Onun dörd reqistri: soprano, alt (tenor), bas və kontrabas olduğu üçün bundan orkestrdə və solo alət kimi istifadə olunurdu.



Şəkil 10. Konsertino

Bandeneon aləti də xarici görkəminə görə konsertinoya yaxın idi. Əvvəllər alətin 28 düyməsi (56 ton), sonrakı inkişaf nəticəsində isə 72 düyməsi (144 ton) var idi. Bu aləti isə 1846-cı ildə H.Band (1821-1860) icad etmişdir.


Alman quruluşlu qarmonda körüyün sıxılması zamanı do, mi, sol (bir neçə oktavada) açılması zamanı re, fa, lya, si səslənirdi. Rus quruluşlu qarmonda isə əksinə idi. İlkin qarmonlarda 5-7 və daha artıq düymələr mövcud olurdu. Həvəskar musiqiçilər üçün ucuz və əlverişli olan bu sistem bir çox xarici və rus qarmonikalarında Tula, Saratov, Beloqoyev, Kasimov, Beleborodov, Çeronovka, Çerepaşka, Vyana və s. yerlərdə tətbiq edildi.

1870-ci ildə N.Beleborodovun (1828-1912) ideyası ilə Tulada ilk xromatik, ikicərgəli qarmon yaradıldı və bu alət ölkənin müxtəlif regionlarında rus ustaları tərəfindən daha da təkmilləşdirildi. Burada öz işinin intuiziastları (fəhmliləri , vurğunları) sayılan Sizovun, Şoloxovun və ilk növbədə öz həyatını qarmonikanın yeni növlərinin istehsalına həsr etmiş N.İ.Beleborodovun adını qeyd etmək lazımdır. Onun layihəsilə dilli, ikicərgəli qarmon 1871-ci ildən sonra L.A.Çulkov tərəfindən hazırlanmışdır.





Tulada istehsal edilmiş beş və yeddi dilli qarmonlar (XIX əsrin 30-cu illəri)



Şəkil 11. Saratovda istehsal edilmiş bircərgəli qarmon

Unison səslənən, bir çütü təşkil edən dilciklərin ikisi də proqressiv sistemdir. Belə qarmonlarda səsin yüksəkliyi körüyün hərəkət istiqamətindən asılı deyil. Bu sistem öz geniş tətbiqini Sibir, Liven, Veletsk, Royal, Vyatsk, Xromka, Akkordeon və Bayan sistemli musiqi alətlərində tapmışdır. Alətlərin ifa imkanlarını genişləndirmək məqsədilə onları dilciklərin bir neçə komplektləri (dəstləri) ilə təchiz edirdilər.



Beloborodov qarmonu (usta L.Çulkov)



Vyatsk quberniyasında istehsal edilmiş qarmon *(XIX əsrin ortaları)*



İkicərgəli diatonik qarmon. Xromka

Qarmon alətinin mütəxəssisləri sırasında V.P.Xerqsterm, M.Z.Siniçkin və P.E.Sterliqovun adlarını qeyd edə bilərik. Aşağıda isə onların təkmilləşdirdikləri qarmon alətinin klaviaturalarının sxemi təqdim olunur:


Si Do Do#	Do# Si Do	Sol# Lya# Do
Re Re# Mi	Mi Re Re#	Si Do# Re#
Fa Fa# Sol	Sol Fa Fa#	Re Mi Fa#
Sol# Lya Lya#	Lya# Sol# Lya	Fa Sol Lya
Si Do Do#	Do# Si Do	Sol# Lya# Do
N.Z.Siniçkin	V.P.Xeqsterm	P.E.Sterliqov

Beləliklə 1875-ci ildə əl qarmonikasının və akkordeonun ifa qaydalarını sərbəst öyrənmək üçün İ.Teletovun "Xalq məktəbi", ilk dərs vəsaiti çap edilmişdir. Sonralar bu cür ədəbiyyatların nəşrləri ardıcıl olmuşdur.1883-cü ildə böyük rus bəstəkarı P.İ.Çaykovski öz əsərlərinin birində, "Yumoristik skerso"da ilk dəfə olaraq sinfonik partituraya akkordeonlar daxil etmişdir. Bəstəkar partituranın qeydində onların istifadəsinin arzu olunduğunu yazır.

Mövcud ədəbiyyatların təhlilləri XIX əsrin sonunda Rusiyada müxtəlif növ qarmonikala-

rın istehsalının olmasını göstərir. Saratov, Çerepovetsk, Kasimov, Livenka, Sibir, Asiya, Veletsk və başqa şəhərlərdə istehsal olunan qarmonikalar məişətdə daha çox yayıldı. Qeyd etmək lazımdır ki, o vaxt Rusiyada ilk dəfə Saratov qarmonikalarında səslərin ikinci cərgəsi qrifdə əsas səslərdən bir qədər yuxarıda yerləşdirilirdi. Sonrakı illərdə bu üsul bütün akkordeonlarda tətbiq olundu.Orta həcmli və ən nəhayət sağ tərəfdə 52-61 düymәli, solda isə 100-120 hazır müşayiət edən düymələrdən ibarət olan belə qarmonikanın bayan növləri akkordeonla eyni vaxtda istehsala başladı. Kiçik bayan tipli 7-12-14-16-18 dilli qarmonikaların sağ tərəfində müvafiq qaydada müxtəlif sayda düymələr yerləşdirilmişdir. Məsələn, sağ tərəfdə 7 dilli olan kiçik qarmoşkanın,yəni azyaşlı uşaqlar üçün nəzərdə tutulmuş qarmonun solda üç düyməsi var idi. Sol əldəki hər bir düymə öz-özlüyündə bir akkord səsi səsləndirir. Buna akkordlu müşayiət deyilir.

Bu xüsusiyyətlərə uyğun gələn "Yeletsk royal" qarmonikasını qeyd etmək lazımdır. Çünki o, müasir akkordeonun bir başqa prototipidir. Bu qarmonika Orlov quberniyasının Yeletsk şəhərində XIX əsrin 80-ci illərində yerli ustalar tərəfindən düzəldilmişdir. O, xromatik səsdüzümlü qarmonikadır. Onun dilləri sağ tərəfdə iki cərgədə fortepiano klaviaturasının prinsipi üzrə yerləşir. Sol tərəfdə düymələr elə yerləşdirilib ki, müşayiət zamanı beş barmaqdan istifadə etmək olar. XIX əsrin 70-ci illərində Beleborodov qarmonika üzərində təkmilləşdirmə işləri aparır. Belə ki, o, Tulada ilk dəfə fortepianonun klaviaturasına oxşar səsdüzümlü qarmonikanı düzəldir. 1886-cı ildə o, müxtəlif qarmonika ifaçılarından ibarət olan böyük bir orkestr yaradır. Bu məşhur orkestrdə alətin sağ tərəfində indiki akkordeonlarda olan klaviaturalı qarmonikalar var idi. Lakin onlarda müşayiət çox primitiv olmuşdur. Xarici ölkələrdə o vaxtlar bu cür qarmonikalar olmamışdır. Ona görə də xarici ölkələrin firmalarının nümayəndələri həmin alətə olan patenti onlara satmaq arzusu ilə dəfələrlə Beleborodova müraciət etmişdilər. O, öz ixtirasının patentini satmadığı üçün fortepiano klaviaturasına oxşar xromatik səsdüzümlü qarmonikanın istehsalında rus ustalarının birinciliyi möhkəmlənmişdir. Nəhayət belə qarmonikaların istehsalı Şərq ölkələrinə də yol tapır... Kazan, Kirov, Qroznı, Orconikidze və Tbilisi şəhərlərində də iki korpusdan (gövdədən) ibarət "Venski"və Nemetski" (Alman guruluşlu) adlanan milli qarmonlar buraxılmağa başladı.



Şəkil 12. Vyana və alman korpusunda milli qarmonika

XX əsrin əvvəlindən 1920-ci ilə qədər Beloborodovun tələbəsi V.P.Xeqsterm qarmonçulardan ibarət orkestrin rəhbəri olmuşdur. Bu orkestr qarmon alətinin xalq tərəfindən tezliklə sevilməsini və onun məişətdə geniş yayılmasını təmin etdi.

Qarmonun təkmilləşməsi sahəsində Bakanov 1900-cü ildə Moskvada sağ və sol tərəflərdə


royal klaviaturası olan yeni qarmon düzəltsə də, sol əldə ifanın narahatlığı üzündən bu alət özünün gələcək inkişafını tapmır. Bu zaman Avropada fortepiano klaviaturalı qarmonikanın-akkordionun təkmilləşdirilməsi davam etdirilir və onun istehsalı genişləndirilir. Sol klaviatura mexanikasının həcmi və quruluşu təkmilləşir. 1920-ci illərdə akkordeonda registrlərin dəyişdirici açarları düzəldilir və onun xarici görkəmində dəyişikliklər edilir.

Elmi-tədris mənbələrdə verilən məlumatlara görə 1914-cü ildə Rusiyada iqtisadi böhran nəticəsində qarmonikaların istehsalı dayandırılsa da 1929-cu ildə Muztrest Leninqrad şəhərində "Qırmızı partizan" adlı ilk qarmon fabrikasının təşkilinə başlayır. Ondan sonra Tulada, Rostov-Donda, Saratovda, Ufada, Kiyevdə, 1935-ci ildə isə Moskvada ilk dəfə RKKA adlanan fabrikdə müasir akkordeonlar düzəldilməyə başladı.

1936-cı ildən "Qırmızı partizan" 41 dilli və basda 120 düymәli akkordeonların seriya ilə buraxılışını təşkil etdi. Həmin akkordeonların istehsalata hazırlanmasında qocaman rus usta-




Şəkil 13.
1 - dilcik; 2 - qapaq (klapan); 3 - səs tənəkəsi (planka); 4 - akkordların giriş kamerası; 5 - basların giriş kamerası; 6 - melodiyanın giriş kamerası; 7 - körük (mex); 8 - sol yarımgövdə; 9 - sağ yarımgövdə; 10 - qrif; 11 - melodiya icra edən dillər (klavi); 12 - çərbənd və ya şəbəkə (krışka); 13 - müşayiət klaviaturasının düymələri; 14 - melodiyanın registr dəyişdiriciləri



Üçcərgəli xromatik akkordeon. Belgiya



Üçcərgəli Almaniya akkordeon *(XX əsrin əvvəlləri)*




Xromatik akkordeon

ları Stolbov, Paramonov, Aleksandrov və Lebedevin xüsusi rolu olmuşdur. Bu tip akkordeonlar 1957-ci ildə ilk dəfə Çində də istehsal olunmağa başladı. Son dövrlərdə akkordeonların səs diapozonu bir qədər də genişləndirilmişdir. Sağ klaviaturada 45 dil, solda isə 140 düyməsi (baslar) olan akkordeonlar ifaçılar arasında daha çox rəğbətlə qarşılanır. Bu cür akkordeonların 36 reqistri var.

Elmi axtarışlar sübut edir ki, XX əsrin ikinci yarısından sonra qarmon və akkordeon ifaçiları arasında Avropada, Rusiyada, həmçinin Azərbaycanda respublika, xariçi ölkələrdə isə beynəlxalq müsabiqələr keçirilir. Müasir ifaçılıq sənətində bu alətlərdə mürəkkəb texniki imkanlı

əsərlərin ifasına başlanılıb. Milli oyun havalarının mükəmməl ifası və son dövrlərdə qarmonun simfonik orkestrlə ifa repertuarı bunu təsdiq edir. Qarmon və akkordeon texniki cəhətdən inkişaf etmiş musiqi alətləri sırasındadır.

1936-cı ilin əvvəllərində Tatarıstan Muxtar Sovet Sosialist Respublikasında on iki dilli qarmon istehsalına başlandı.




Şəkil 16. Şərq bayanı

1936-cı ilin axırlarında Tatarıstanın paytaxtı Kazanda xromatik qarmonun daha yeni bir müasir növü, "Şərq bayanı" adlı, əvvəlki milli qarmonlardan fərqli, yəni sağ və sol klaviaturalarda yarım tonlar olan qarmonların istehsalına başlanıldı.


Bu sistem qarmonun texniki imkanlarını artırdı. İndi müasir qarmonlarda sağ klaviaturada 16 ağ dillər, 11 qara dillər, sol klaviaturada isə 24 düymə vardır. Sol klaviaturadakı unison (tək) səsli zurlar və akkord səsli zurlar vardır. Bu tip qarmonlar Avropa və rus milli musiqi ahənginə uyğun olsa da, Azərbaycan qarmon ifaçılığı üçün yaramır. Xüsusilə də Azərbaycan xalq yaradıcılığı nümunələrinin, muğamların, rəqslərin ifası üçün bu sistem heç uyğun deyil. Ona görə də XIX əsrin ikinci yarısından Azərbaycanın musiqi həyatına daxil olan qarmonda mərhələlərlə ustalar tərəfindən təkmilləşmə işləri aparılarkən alətin sol klaviaturasındakı səs sistemi milli musiqimizə müvafiq şəkildə uyğunlaşdırılmışdır. Azərbaycanda ifa edilən qarmonun klaviaturasının səsləri eyni ilə sol klaviaturada təkrar edilir. Hazırda Azərbaycan qarmonunun həndəsi nöqteyi-nəzərdən hündürlüyü 36 sm., eni 18 sm, uzunluğu sifarişə əsasən 31;32;33 sm. olur. XXI əsrə adlamış milli qarmonumuzun sağ klaviaturasında 18 ağ dillər (tonlar) və 12 qara dillər (yarım tonlar), sol klaviaturada isə eynilə həmin səslər mövcuddur. Sadəcə sol gövdədəki səslər düymələr vasitəsilə ifa olunur.




Tulada istehsal olunmuş Azərbaycan qarmonu




Bakıda hazırlanmış Azərbaycan qarmonu




1



2




3




4






5


Saratov qarmonikaları.
1 - Sibir, 2 - Livensk, 3 - Vyatsk, 4 - Bolşoyevsk, 5 - Vensk




1




2



3



4




5

Qarmonikalar:
1 - Kasimov qarmonikasının ön və arxa görünüşü; 2 - Xromka; 3 - Çerepovetskaya, 4 - Yelsk royal səsdüzümlü qarmon, 5 - Moskva bayanı



Sifarişlə düzəldilmiş diatonik tatar qarmonu



Kazan fabrikinin istehsalı olan diatonik qarmon




Kazanda istehsalı olunan registrli diatonik qarmon



"Ivuşka" markalı rus qarmonu



Tula istehsalı olan diatonik qarmon



Xromatik Belarus qarmonu

1.3. AZƏRBAYCAN QARMONUNUN AKUSTİKASINA BİR NƏZƏR

Musiqi alətlərinin akkustikası

Bildiyimiz kimi hər bir musiqi aləti quruluşundan asılı olmayaraq aşağıdakı əsas hissələrdən ibarət olur:

a) *Səslənən cisim (və ya səslənən hissə*, bəzən də *rəqs edən cisim* adlandırılır və bunlar eyni anlayışdır)- alətin səs hasil edən əsas hissəsidir. Bəzən də onu latınca olduğu kimi-***vibrator*** adlandırırlar. Bu cisim bizi əhatə edən hava mühitində səs dalğalarını təsirləndirir. Bu dalğaların təsirlənməsi səs enerjisinin həm birbaşa və həm də aralıq (yəni əlavə) şüalandırıcılar vasitəsilə ötürülməsi yolu ilə əldə oluna bilər;

b) səslənən cismin *rəqs təsirləndiricisi (kənar təsirləndirici qüvvə)*-

səslənən cismə enerji ötürmək və onun rəqslərini təsirləndirmək üçün bir çox hallarda bu və ya digər dərəcədə mürəkkəb quruluşa malik olan mexanizmlərdən istifadə olunur ki, onların da quruluşu və forması rəqslərin təsirləndirilməsi metodundan və səslənən cismin təbiətindən asılıdır;

v) *səsin gurluq gücləndiricisi (və ya rezonator)* o hallarda zəruridir ki, səslənən cisim ətrafındakı hava kütləsinə olduqca az miqdarda enerji ötürə bilir. Adətən, səslənən cismin səthi və ya həcmi kiçik olduqda bu baş verir. Aydındır ki, belə hallarda səslənən cismin rəqsləri, səthi və həcmi böyük olan digər bir cismə ötürülməlidir ki, bu cisim də həmin rəqsləri ətraf hava mühitinə şüalandırmalıdır.

Bütün simli alətlərdə bərk səthli, səthi şüalandırıcıların tətbiqi zəruridir. Belə hallarda daha əlverişli şüalandırıcılar kimi rezonans dekalarından istifadə olunur ki, onlar da hər hansı bir elastiki materialdan (adətən ağacdan) hazırlanmış plastinka şəklindədir. Əgər səslənən cisim özü böyük səthə malikdirsə (plastinkalar, dəridən pərdələr və s.), o zaman əlavə şüalandırıcılara ehtiyac qalmır.

Səs enerjisinin səthi şüalandırıcıları bütün səs oxudan alətlərdə və cihazlarda tətbiq olunur (məsələn, səs gücləndiricilərdə, maqnitofonlarda və s.). Bu halda atmosferə səs şüalandırıcısı qismində rəqs edən membrandan və ya plastinkadan istifadə olunur. Yaxın keçmişdə plastinkanın səthi kiçik olduqda, ona rastrub da qoşulurdu. Hal-hazırda isə rəqs edən plastinkanın şüalandırıcı səthi kifayət qədər böyük götürülür və belə plastinkalar *diffuzor* adlanır.

Səs rəqslərinin şüalandırıcısı öz gücləndirmə vəzifəsini yaxşı yerinə yetirməlidir. O, səslənən cismin hasil etdiyi müxtəlif tezlikli rəqslərin hər birinə eyni cür reaksiya verərək, onları eyni bərabərdə də ətrafdakı hava kütləsinə ötürməlidir. Odur ki, şüalandırıcı kimi elə cisimlərdən istifadə olunur ki, onların forma və konstruksiyası səslənən cismə uyğun olsun və gücləndirməli və şüalandırmalı olduqları tezlik diapazonu həddində imkan daxilində qabarmış məxsusi tezlikləri olmasın.

Praktika göstərir ki, səs şüalandırıcıları, şüalanan səslərin tembrinin formalaşmasında bu və ya digər dərəcədə iştirak edir. Onların fiziki xassələri, səslənən cismin şüalandırdığı səs dalğasının formasının dəyişməsinə təsir göstərir. Şüalandırıcının quruluşunu tənzim etməklə, musiqi alətlərinin nəinki səs gurluğunu və hətta tembrini də idarə etmək mümkündür.

Hər bir musiqi alətinin əsas xüsusiyyətlərindən biri də onun bir və ya bir neçə səslənən cisimə malik olmasıdır.

Musiqi alətlərində səslənən cisimlər bərk və yaxud qaz halında (hava) olur. Maye halında da olan səslənən cisimlər var ki, onların musiqi alətlərində istifadə olunması praktiki cəhətdən əlverişsiz sayılır.

Müxtəlif səslənən cisimləri onların materialından, forma və akustik xüsusiyyətlərindən asılı olaraq, çex fiziki Ernst Xladni üç əsas kateqoriyaya ayırmışdır:

1. Təbii bərkliyi və forması hesabına elastiki olan cisimlər; səs hasil etmə qabiliyyətinə malik olmaq üçün onlar əlavə dartılma və ya sıxılma tələb etmir. Belə cisimləri *özüsəslənən cisimlər* adlandırırlar (məsələn ksilofonda). Onlar müxtəlif formalara malik ola bilər. Adətən belə cisimlər sərbəst asılmış vəziyyətdə və ya bir neçə nöqtədən dayağa söykənməklə (əgər bu, onların rəqslərinə mənfi təsir göstərmirsə) tətbiq olunur. Bəzən qismən bərkidilmiş (bir hissəsi dayağa söykənərək bərkidilmiş) səslənən cisimlərdən istifadə olunur ki, bu da onların rəqslərinin sərbəstliyini müəyyən qədər məhdudlaşdırır. Məsələn, ensiz elastiki içliklərin və uzunsov plastinkaların (məsələn, qarmonda və akkordeonda dilciklərin) bir ucu dayağa bərkidilir, digər ucu isə sərbəst saxlanılır. Bu cür qismən bərkidilmiş metod prinsipi ilə işləyən özüsəslənən cisimlər xüsusi akustik xassələrə malik olur və *yarımözüsəslənən cisimlər* adlandırılırlar.

2. Dartılma nəticəsində elastiki olan (elastikləşən) cisimlər; bunların rəqslərinin tezliyi (yəni hasil etdikləri səsin yüksəkliyi), bunların dartılma səviyyəsindən asılıdır. Bu qrupa aid olan cisimlərə simi, membranı, dəri pərdələri və s. misal göstərmək olar.

3. Sıxılma prosesi nəticəsində elastikləşən cisimlər; birinci iki qrupdan (birinci iki qrupda səslənən cisimlər bərk haldadır) fərqli olaraq bu qrupdakı cisimlər qaz halındadır. Bunlara misal olaraq, boruları hava ilə dolu olan nəfəsli musiqi alətlərini göstərmək olar.

Səslənən cisimlərin təsirlənməsi kənar təsirləndirici qüvvənin hesabına baş verir və təsirlənmə metodlarını üç əsas qrupa bölmək olar:

a) ***Zərbə və ya təkan.*** Bu metod səslənən çismə enerjinin ani olaraq tətbiqi və ötürülməsi, sonra isə ona tam və ya nisbətən tam rəqs sərbəstliyinin verilməsi ilə xarakterizə olunur. Enerjinin ətraf hava mühitinə ötürülməsi və səslənən cismin materialındakı daxili sürtünmə prosesi rəqslərin amplitudunu tədricən azaldır (yəni rəqslər tədricən sönür ki, bunları da biz fortepianonun simlərində, zəngdə və s. müşahidə edirik). Qaz halında olan səslənən cisimlər bir-birinin ardınca gələn periodik təkanlarla təsirlənir və bu zaman səslənən cismin bu və ya digər dərəcədə məcburi və sönməyən rəqsləri əmələ gəlir;

b) ***Çimdikləyib və ilişdirib dartma.*** Təsirlənməninbu metodu, səslənən cismin hər hansı bir digər cismə ilişdirilib dartılması və qəfildən azad buraxılması ilə xarakterizə olunur. Bu ilişdirilmə ilə dartma onu tədricən müvazinət vəziyyətindən çıxarır. Bu cür təsirlənmə bərk halda olan səslənən cisimlərin bəzi növlərinə (simlər, içliklər, dilciklər və s.) tətbiq olunur.

c) ***Sürtünmə.*** Təsirlənməninbu metodunu periodik təkrarlanan ilişmə sürtünmələri və səslənən cismin azad buraxılması sırasına aid etmək olar ki, bu proses də səslənən cismin səs tezliyinə uyğun olaraq gedir. Çimdiklə təsirlənmədən sonra səslənən cisim rəqs sərbəstliyi alır. Sürtünmə ilə təsirlənmədə isə təsirləndirici cisim təsirlənmə periodu boyunca (bütün period ərzində) səslənən cismə toxunmuş vəziyyətdə qalır. Sürtünmə ilə təsirlənmə istər bərk halda olan səslənən cisimlərə, istərsə də qaz halında olan səslənən cisimlərə tətbiq olunur. Bərk halda olan cisimlərdə təsirləndirici və vibrator arasındakı ilişmə sürtünməsini artırmaq üçün xüsusi maddələrdən istifadə edirlər.

Səslənən cismin təsirlənməsinin göstərilən metodlarını və bu metodlardan istifadə edildiyi zaman əmələ gələn rəqsi prosesləri belə xarakterizə etmək olar: səslənən cismə enerji tək impuls formasında (zərbə, təkan, ilişdirilmə ilə dartma və s.) tətbiq olunursa və bundan sonra o, sərbəstlik alırsa, aydındır ki, səslənən cisim sərbəst və sönən rəqslər etməyə başlayacaqdır. Tədricən enerjisini havanın müqavimətini və cismin daxilindəki, habelə xaricindəki sürtünməni dəf etməyə, bir hissəsini də rəqs etdirdiyi digər cismlərə sərf etməyə başlayacaqdır. Belə rəqslərin amplitudu da tədricən azalacaqdır. Bu cür rəqslərin amplitudunun azalma sürəti onların sönmə sürəti adlanır. Sönmə sürəti cismin materialından, onun formasından, ölçülərindən, habelə ətraf mühitin xassələrindən asılıdır. Bu sürət müxtəlif cisimlər üçün müxtəlif olur. Məsələn, polad simlərin sönmə sürəti mis simlərin sönmə sürətindən böyükdür. Bu da onunla izah olunur ki, polad simlərin daxili sürtünməsi mis simlərin daxili sürtünməsindən böyükdür. Bu səbəbdən də polad simlərdə yaranan rəqslər mis simlərdə yaranan rəqslərdən daha tez sönür.

sönür (yəni, səsin strukturu dörd fazalı olur). Buna misal olaraq bütün zərb və simli-mizrablı alətləri göstərmək olar.

Əgər rəqs edən cismə (yəni səslənən cismə) enerji kəsilməz olaraq və üzün müddət (hər bir rəqs zamanı kiçik porsiyalarla və habelə rəqslərin təbii sönməsi nəticəsində yaranan enerji itkilərinin yerini doldurmaqla) ötürülürsə, proses tamamilə başqa bir şəkil alır (yəni, səsin strukturu beş fazalı olur). Rəqslər bu zaman sabit amplituda malik olaraq sönməyən olur və səslənən cismə enerji ötürülməsi prosesinin bütün zaman periodu ərzində davam edir. Enerji ötürülməsi burada rəqs sisteminin özünə xas olan mexanizm vasitəsilə idarə olunur. Rəqslərin dəstəklənməsinə (yəni rəqslərin qalmasına) sərf olunan enerjinin mənbəyi isə bu sistemin ayrılmaz bir hissəsini təşkil edir. Belə sistemlər *avtorəqs* sistemləri adlanır. Bu sistemlərdə baş verən rəqslərə isə *avtorəqslər* deyilir. Avtorəqs sistemlərinə misal olaraq kamanlı simli alətləri, nəfəs alətlərini və insanın danışıq-səs aparatını göstərmək olar.

Çoxsaylı rezonatorlara dəyişən qüvvənin tətbiq olunmasına isə xüsusi bir hal kimi baxmaq olar. Buna biz səsgücləndiricilərdə, maqnitofonlarda, telefonlarda və s. rast gəlirik. Burada, yuxarıda göstərilən avtorəqs sistemləri ilə müəyyən uyğunluq müşahidə olunur. Belə ki, vibrator adətən ona enerjinin ötürülməsi periodu ərzində rəqs edir və bu rəqslər sönməyən də ola bilər. Lakin belə rəqs sistemlərinin həqiqi avtorəqs sistemlərindən köklü fərqi ondan ibarətdir ki, burada vibrator ona tətbiq olunan enerjini idarə etmir (bu enerji onun təsirlənməsinə və rəqslərin dəstəklənməsinə sərf olunur), rəqs sisteminin tərkibinə daxil deyildir və ondan asılı olmayan bir mexanizmdir. Həqiqi avtorəqs sistemlərində isə vibrator rəqs enerjisinin təşkilində və paylanmasında fəal iştirak edir. Burada isə vibrator passiv bir cisimdir, kənardan və onun iştirakı olmadan ona tətbiq olunan qüvvəyə müvafiq olaraq istənilən hərəkəti yerinə yetirir.

Musiqi alətləri öz forma müxtəliflikləri nə görə biri-birindən fərqlənir. Bu alətlərdə musiqi səslərini müxtəlif metodlarla təsirləndirmək və dəyişmək olar. Tarixən musiqi alətləri musiqiçilərin özü və musiqi alətlərinin ustaları tərəfindən elmi nəzəriyyələrə müraciət edilmədən yaradılmış və təkmilləşdirilmişdir. Odur ki, skripkanın nə üçün belə formaya malik olduğunu akustika elmi izah edə bilmir. Lakin skripka səsinin xassələrini izah etmək (onda ifaçılığın ümumi prinsipləri və onun konstruksiyası əsasında) tamamilə mümkündür.

Musiqi alətinin tezlik diapazonu dedikdə onun əsas tonlarının tezlik diapazonu nəzərdə tutulur (məsələn vokal ən azı iki oktavanı, alətlər isə ən azı üç oktavanı əhatə edir). Obertonların (yəni 2-ci və daha yüksək harmoniklərin) tezlikləri isə bir çox hallarda eşitmə diapazonunun yuxarı həddinə qədər olan oblastı əhatə edir.

Yuxarıda göstərdik ki, musiqi alətləri akustik baxımdan üç əsas hissədən ibarət olur:

- rəqs edən element (yəni səslənən cisim);
- onun rəqslərinin təsirlənməsi üçün mexanizm;
- rəqs edən elementlə ətrafdakı hava mühiti arasındakı akustik əlaqə yaradan köməkçi rezonator (rupor və ya deka, və hər hansı bir həcmə malik rezonans yeşiyi).

Bilirik ki, musiqi səsləri zamana görə periodikdir və bu periodik səslər də harmonik sıradan təşkil olunmuşdur. Müəyyən bir uzunluğa malik olan simin və hava sütununun rəqslərinin məxsusi tezlikləri, bir-biri ilə harmonik əlaqəlidir. Odur ki, bir çox alətlərdə əsas rəqs edən element sim və hava sütunudur. Bir çox alətlərdə vahid tezlikli (yeganətezlikli, obertonlarsız) səs yaratmaq olmaz. Çünki əsas vibrator təsirləndirildikdə, obertonların da iştirak etdiyi səs (obertonlara da malik olan səs) yaranır. Bəzi alətlər isə istisna təşkil edir (məsələn fleyta).

Bilirik ki, bəzi vibratorlarda rezonans tezlikləri qeyri-harmonikdir (məsələn təbillər, sinilər və s.). Bu tipli alətlər orkestr musiqisində ritmə xüsusi cazibədarlıq vermək üçün istifadə olunur.

Qarmonun akustikası haqqında ümumi anlayış

Azərbaycan qarmonu konstruktiv olaraq, qarmonların, akkordeonların və bayanların bir növüdür. Lakin onlardan kökünə, səslənmə diapazonuna və səslərinin sayına görə fərqlənir.

Qarmon dilçəkli və dilcikli, körüklə təchiz olunmuş musiqi alətidir.

Dilcikli musiqi alətləri dedikdə, elə musiqi alətləri nəzərdə tutulur ki, bunlarda səs - elastiki metaldan hazırlanmış dilciklərin rəqsi nəticəsində əmələ gəlir. Deməli rəqs edən cisim (yəni səslənən cisim) bir ucu plankaya pərçimlənmiş dilciklərdir ki, bunlar da xüsusi səs plankalarının üzərindəki arakəsmələrində yerləşmişdir. Dilciklərin boş ucunun təsirlənməsi isə, dilciyin bu və digər tərəfində yerləşən hava kütləsində yaradılan təzyiq fərqi hesabına baş verir. Səs plankaları və rezonatorların giriş kameraları alətin akustik əsasını təşkil edir.

Deməli, qarmon dilcikli alətlər qrupuna daxildir. Bəzən bu alətlər qrupuna bir-dilcikli (bir trostlu) və iki-dilcikli (iki trostlu) bəzi nəfəs alətlərini də aid edirlər. Ümumiyyətlə isə dilcikli (trostlu) nəfəs alətlərindən fərqli olaraq, dilcikli musiqi alətlərinə elə alətlər daxil olunmuşdur ki, bunlarda dilcik - sıçrayan (yəni, o tərəf–bu tərəfə rəqs edən) metallik lövhədən ibarət olub, səs plankalarının arakəsmələrində yerləşir. Səslənən cisimə təsir göstərən kənar təsirləndirici qüvvə hava təbəqəsi olduğundan, hava təbəqəsinin hərəkəti üçün xüsusi kanal mövcuddur. Bu kanallara hava kamerası deyilir. Bu kameralara hava, dəyişən həcmli körük (və ya köynək, mex) vasitəsilə ötürülür. Kənar təsirləndirici qüvvə (yəni səslənən cismin təsirlənmə metodu) -körük (yəni mex) vasitəsilə hərəkətə gətirilən hava kütləsidir. Körük (yəni mex) dartıldıqdı (və ya sıxıldıqda) alətin korpusunun (və ya gövdəsinin) daxili ilə xarici arasında təzyiq fərqi yaranır ki, bu da klapan açıldıqda (yəni dil basıldıqda) havanı hərəkətə gətirir. Çünki dilçəklikdə (yəni klaviaturada) yerləşən dilləri sıxıb-buraxmaqla, bu və ya digər

tırılmaqla və ya azaldılmaqla köklənir ki, bu da əsas tonla döyünmə əmələ gətirir («fizioloji unison» adlanır) və s.

Təəssüflər olsun ki, hələ indiyə qədər bu alətin akustik xüsusiyyətləri lazımi səviyyədə araşdırılmamışdır. Məsələn: səsyaratmanın mexanizmi, məxsusi rəqslər (yəni rezonans tezlikləri) diapazonu, səslənmənin spektral tərkibi (yəni harmonik tərkibi), hər bir harmonik üzrə amplitud-tezlik və faza-tezlik xarakteristikalarının təyin olunması, rezonatorun xüsusiyyətləri, tembrin qərarlaşmasında əsas rol oynayan formant diapazonlarının təyini, dinamik diapazonun təyini və s. məsələlər indiyə qədər öyrənilməmişdir.

Havanın dilcik kamerasına ötürülməsi zamanı havanın məhsuldarlığının və təzyiqinin dəyişməsi nəticəsində amplitud-tezlik xarakteristikalarının qrafiklərində baş verən artıb-azalmalar, tonlar arasında bir-birinə nəzərən tembr fərqinin yaranmasına səbəb olur ki, bu da qarmonun tembrini daha da zənginləşdirir. Elə qarmonlar da vardır ki, onların faza-tezlik xarakteristikalarının qrafiklərində artıb-azalmalar baş verir. Havanın məhsuldarlığının və təzyiqinin qəfildən artması nəticəsində «kobud» plankalardakı dilciklər (yəni «qrubıe planki») boğulur, digərləri isə açılır ki, bu da səslənməyə xüsusi tembral gözəllik verir (bunlara bəzən «süpürgə qarmonları» da deyilir), yəni bu zaman spektrin alçaq tezlikli komponentləri digərlərinə nəzərən müəyyən qədər gecikmiş olur. Eyni zamanda çox sürətli, məsələn, yüksək texnikalı daimi hərəkət stilində olan mövzuları ifa edərkən, dilcik kamerasındakı reverberasiya müddətinin insanın səsi dərketmə müddətindən az olması səbəbindən, səslərin davametmə müddəti azalır ki, bu da səslənmənin dolğunluğunun və sanballılığının az olmasına gətirib çıxarır. Bəzi qədim və yüksək professional ustalar tərəfindən hazırlanmış qarmonlarda belə defektlər olmur. Lakin qarmonların böyük əksəriyyətində bunlar mövcuddur. Odur ki, qarmonun akustik xüsusiyyətlərinin elmi şəkildə araşdırılması, bu gözəl alətin daha da təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Qarmon fiksasiyalı səs tezliyinə malik olan musiqi aləti olduğundan, bu alətdə ifaçı ixtiyari (yəni öz istədiyi kimi) kökləmə prosesi həyata keçirə bilməz. Köklənmə yalnız xüsusi hazırlığı olan ustalar tərəfindən həyata keçirilir və ifaçı da bu kök sistemində çalmaq məcburiyyətindədir (başqa sözlə desək, bu kökdə ifa etməyə məhkumdur).

Qarmon dilçəkli alət olduğundan, bu alətdə bəzi ifa fəndlərindən istifadə etmək qeyri-mümkündür. Məsələn, bunlara misal olaraq tezlik modulyasiyası (yəni bir tondan digər bir tona axıcılıqla keçmə) və vibrasiya kimi ifa fəndlərini göstərmək olar. Bu fəndlərin olmaması bəzi ifaçılar üçün (məs. Zeynal İsayev) öz ifaçılıq imkanlarını göstərməkdə olduqca böyük məhdudiyyətlər yaradır. Doğrudur, qarmonda digər başqa ifa fəndlərindən istifadə etmək imkanları mövcuddur. Lakin elə musiqi mətnləri vardır ki (xüsusilə lirik mövzular), onları ifa edərkən yuxarıdakı fəndlərdən istifadə zəruri sayılır. Digər bir misal olaraq mikrotonların olmamasını (yəni ¼ tonların istifadəsinin mümkün olmamasını və ya bunun mürəkkəbliyini) göstərmək olar ki, bu da türk, ərəb, fars və s. şərq xalqlarının musiqilərinin ifasında olduqca boyük çətinliklər yaradır.

Göründüyü kimi qarmon alətinin daha da dərindən tədqiqi və mümkün qədər də təkmilləşdirilməsi zəruriyyəti meydana çıxır ki, bu da musiqimizin gələcəkdə daha da inkişafına müəyyən qədər kömək etmiş olar.

Ədəbiyyat

1. Л.А. Кузнецов. Акустика музыкальных инструментов. Справочник. М., Легпромбытиздат, 1989.
2. S.A.Abdullayeva. Azərbaycan xalq çalğı alətləri. Bakı, «Adiloğlu» nəşriyyatı, 2002.
3. Z.Q.Mirzəyev. Azərbaycan xalq musiqisində qarmonun rolu və əhəmiyyəti. Dissertasiya. 2005.
4. M.T.Kərimov., Z.F.İsayev. Müasir elektron musiqi texnikasının və kompüter texnologiyalarının əsasları. 1-ci hissə. Musiqi akustikası. Bakı, «Lefterpress», 2009.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası
«Musiqi Akustikası» elmi laboratoriyasının müdiri Z.F.İsayev.

(012) 462-64-78; (012) 598-27-52; (055) 776-08-99

Qarmonun əsas konstruktiv elementləri
(Rəhmanlı Əhsən, Hacıyev Rəhman, İsayev Zeynal)

Заклепка - Pərçim
Уголъник - Dirsək (körüyün üzərindəki)
Уголъники корпуса - Bucaqlıq
Крючок - Cəftə
Крышка - Çərbənd, şəbəkə
Лайка - Dəricik və ya dəri qapaqlar
Дека - Deka (üzlük və ya üzlük lövhə)
Лапка - Pəncə
Голос - Dilcik
Планка - Tir və ya tənəkə
Гриф - Dilçəklik və ya dillik
Пружина - Yay
Камера - Oyuq, yuva, dilcik altı oyuq
Ось - Ox
Механизм - Mexanizm

Təsviri və dekorativ-tətbiqi sənət məsələləri elmi jurnalı №2(8)-2011, Bakı-2011, səh.103-110.
Z.F. İsayev.

II FƏSİL. AZƏRBAYCAN QARMON İFAÇILIĞI MƏKTƏBİNİN NÜMAYƏNDƏLƏRİ

2.1. KƏRBƏLAYİ LƏTİF



Kərbəlayı Lətif

Kərbəlayi Lətif 50 il Azərbaycan milli mədəniyyətinin inkişafına xidmət etmişdir.

Lətif Hüseyn oğlu 1876-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Lətif qarmon çalmağı öz atası çəkməçi Hüseyndən öyrənmişdir. O, sonralar püxtələşərək öz qarmonu ilə neçə-neçə məşhur Qarabağ xanəndələrini müşaiyət etmiş, xalq arasında "Şirin barmaqlar" adı ilə şöhrətlənmişdi.

Artıq 1914-cü ildə Kərbalayi Lətif bütün Qafqaz ərazisində yaxşı qarmonçalan kimi tanınırdı. Həmin ildə ustad sənətkar "Ekstrafon" Aksioner Cəmiyyəti tərəfindən Kiyev şəhərinə dəvət edilir. Onun ifasında "Şur", "Orta Mahur", "Rast", "Bayatı-qacar", "Segah", "Çoban bayatı" muğamları, "Qızıl gül", "Turacı", "Vağzalı", kimi oyun havaları qammafon valına yazılmışdı.

Kərbəlayi çalıb-çağırdığı toy-büsat məclislərində, gəzib-dolandığı yerlərdəki çıxışlarında qarmonu musiqi aləti kimi sevdirə bilmiş, bu sənətin həqiqi təbliğatçısı kimi faaliyyət göstərmişdir.

Lətif Hüseyn oğlu Sovet dövründə Şuşada açılan musiqi məktəbində dərs deyərək biliyini gənclərə öyrətmişdir.



Ağdam 1930-cu il. Qarabağ musiqiçiləri. Soldan: qarmonçu Kərbəlayı Lətif, ön cərgədə Xan Şuşinski



Moskva, 1939-cu il. Sağdan: Kərbəlayı Lətif, Teyyub Dəmirov, tarzən Qurban Pirimov; yuxarıda soldan: tarzənlər Zərif Qayıbov, Ənvər Mənsurov, Hacı Məmmədov

1922-ci ildə qarmonçalan Lətif İran, İraq və Ərəbistan ölkələrinə səyahətə çıxaraq orada klassik Şərq musiqisi ilə yaxından tanış olur. Səfərdən vətənə dönən sənətkar bilik və bacarığı ilə doğma xalqına daha həvəslə xidmət etmişdir.

Kərbəlayi Lətif bütün fəaliyyəti boyu doğma Azərbaycanın, hətta Zaqafqaziyanın bir çox şəhər və kəndlərində klassik Azərbaycan muğamlarını ürəkdən, sevə-sevə ifa edərək uğurlar qazanıb dinləyicilərin sevimlisi olmuşdur.

İstedadlı şəxs olan Kərbəlayi Lətif Ağdam, Bərdə teatrlarında uzun illər musiqiçi kimi çalışmışdır. O, Respublika "Baxış-müsabiqə"lərində çıxış edərək dəfələrlə mükafata layiq görülmüşdür. 1935-ci ildə Bakıda keçirilən "I bədii özfəaliyyət olimpiadası"nda qarmonda məharətlə "Bayatı-Qacar " və "Segah" muğamlarını çalaraq birincilik qazanmışdır.

1939-cu ildə Moskvada həm həvəskar, həm də peşəkar musiqiçilərin iştirak etdiyi "Ümumittifaq baxış-müsabiqəsi"ndə Azərbaycan milli musiqi havalarını ifa edən Lətif Əliyev Vətənə təriflənamə ilə qayıtmışdır. O, muğamlarımızın, saysız-hesabsız el nəğmələrinin yaxşı bilicisi kimi

tanınırdı. Lətif istər oyun havalarını, istərsə də mahnıları əzbər bilir, onların hər birini ayrı-ayrılıqda ustalıq və məharətlə ifa edirdi. Məşhur bəstəkar R.Qlier "Şahsənəm" operası üzərində işlərkən Qarabağa getmiş və orada Lətif Əliyevin ifasında otuza yaxın el mahnısı nümunəsini öyrənərək nota yazmışdır. Həmçinin bəstəkar Ə.Bədəlbəyli 1936-cı ildə "Qız qalası" baletini yazarkən, məşhur rəqqasə Qəmər Almaszadə ilə Şuşaya gedərək Kərbəlayi Lətiflə görüşüb. Lətif onlara Şuşanın məşhur rəqqasələrinin oyun tərzi, ifaçılıq texnikası, milli oyun havaları haqqında məlumat verib.

Ustad musiqiçi özündən sonra sənətə gələn sənətçilərə öz bilik və bacarığını, ifaçılığın sirlərini həvəslə və qayğıkeşliklə öyrətmişdir. Ondan qarmon ifaçılığını öyrənənlər sonralar bu sənətin inkişafına xidmət etmişlər.

Ustad qarmonçu Kərbəlayi Lətif 1944-cü ilin dekabr ayında Bərdə şəhərində vəfat etmişdir.

2.2. KƏRBƏLAYİ ABUTALIB



Kərbəlayi Abutalib

1884-cü ildə Şuşa şəhərində mərsiyəxan, xanəndə Kərbəlayi Muxtar evində dünyaya göz açan Kərbəlayi Abutalıb kiçik yaşlarından musiqiyə həvəs göstərmişdir. O, tar və qarmon çalmağı məharətlə bacarırdı. Oyun havalarını gözəl ifa edən Kərbəlayi Abutalıb muğamlarımızı da qarmonda bacarıqla və şirin çala bilmişdir. O, neçə-neçə Qarabağ xanəndələrini, həmçinin ustad sənətkar Xan Şuşinskini də qarmonda dəyərli muğam ifası ilə müşaiyət etmişdir. Ustad qarmonçalan Kərbəlayi Abutalıb toylarda və konsertlərdə muğamlarımızı solo kimi çalarmış.

Mahir musiqiçi ömrünün son on ilini tar çalmaqla keçirmişdir. Öz qarmonunu kiçik qardaşı Yusifə bağışlayaraq, tar çalmaqla xanəndələri müşaiyət etmişdir.

Kərbəlayi Abutalıb xalq musiqisini gözəl bildiyi üçün çox qarmonçalanlar, o cümlədən Kor Əhəd, Kərbəlayi Lətif, Kamrabəyim, Məşədi Əli və Teyyub Dəmirov onun sənətindən çox şey əxz etmişlər.

Abutalıbın atası Kərbəlayi Muxtar Qarabağda mərsiyəxan və xanəndə kimi tanınırdı. O, tarzən Əli Əsgər ilə Qarabağda və İranın bəzi şəhərlərində məclislərdə iştirak etmişdi. Abutalıbın qardaşı Behbudun da gözəl səsi vardı. Atası Abutalıbın da musiqiyə həvəsini görüb ona qarmon almışdı. Kərbəlayi Muxtar oğlanları ilə birlikdə də məclislərə gedirdi

Həmin vaxtlar Şuşa şəhərində qurulan məclislərdə çıxış edən Məşədi İsi, Dəli İsmayıl, Cabbar Qadyaqdıoğlu , Sadıqcan, Məşədi Zeynal və tanınan qarmonçalan İsi bəy kimi böyük sənətkarların tükənməz yaradıcılıqlarından ilham alan gənc Abutalıb öz üzərində çalışır, musiqi sənətinin sirlərini öyrənirdi. Abutalıb qarmonçu İsi bəyin çalğısı ilə çox maraqlanırdı və onun iştirak etdiyi məclislərin birini də buraxmazdı, saatlarla əyləşib gözlərini bir an belə onun barmaqlarından çək-

məzdi. İsi bəy bu istedadlı gəncin həvəsini nəzərə alıb toy zamanı qarmonunu ona verib bəzi havaları çaldırardı. Abutalıb oyun havaları içərisində "Mirzəyi", "İnnabı", " Vağzalı", xüsusilə də ən qədim milli rəqslərimizdən biri "Tərəkəmə"ni bütün havalardan gözəl çalardı.

Abutalıb artıq 20 yaşında kamil bir qarmonçu kimi xalq şənliklərində şöhrət qazanmışdı. Onun tar çalmağını da nəzərə alan xanəndələr Abutalıbla yoldaşlıq etməyə üstünlük verərdilər. O, tarda xanəndəni müşayiət edər, qarmonda oyun havalarını çalaraq məclisdə canlanma yaradardı. O dövrün gənc müğənniləri toylarda məhz bu musiqiçi ilə çıxış etməyə calışardılar. Abıtalıbın tar çalmağı gözəl olsa da xalq arasında qarmonçalan kimi məşhurlaşmışdı.

Atasının vəfatından sonra Abıtalıb məşhur xanəndə Məşədi Məmməd Fərzəliyevlə (əsl soyadı Hüseynov-Ə.R.) birlikdə Gəncəyə, oradan Tiflisə gedir. Abutalıb burada yaşayıb yaradan azərbaycanlı ziyalılar ilə, o sıradan Eynəli Sultanov, Cəlil Məmmədquluzadə, Həmidə xanım Cavanşir, Zülfüqar Hacıbəyov, Hüseyn Cavid, Mustafa Mərdanov, Mirzağa Əliyev, Seyid Şuşinski, Məşədi Zeynal, Məcid Behbudov və digərləri ilə yaxından tanış olur. O, Tiflisdə verilən teatr tamaşalarında"Şərq konsertləri"ndə, ədəbi-bədii gecələrdə yaxından iştirak edir.

"Qafqaz" qəzeti 1911-ci il 2 avqust tarixli sayında teatr elanlarının birində yazırdı: " 3 mart 1911-ci ildə "Gürcü dvoryan teatr"ının binasında Zülfüqar Hacıbəyovun "Əlli yaşında cavan" operettası tamaşaya qoyulacaqdır. Tamaşada ilk dəfə olaraq Münəvvər xanım Məmmədquluzadə və orera artisti Mirzağa Əliyev iştirak edəcəklər. Tamaşanın musiqisini qarmonçu Abutalıbın iştirakı ilə Şərq çalğı alətləri orkestri ifa edəcəkdir".

Firudun Şuşinski "Azərbaycan xalq musiqiçiləri" kitabında yazır: "Abutalıb həm də milli muğam ifaçılığına yiyələnmiş sənətkar idi. Özünəməxsus fərdi yolu, ədası, vərdişi olan bir çalğıçı idi. O, "Segah", "Çahargah", "Bayatı-Qacar", "Şikəsteyi-fars" muğamlarını, bütün oyun havalarını, xüsusilə "Tərəkəməni" çalanda elə gəzişmələr, incəliklər, şirin barmaqlar işlədərdi ki, onu dinləməkdən doymazdılar".

İslam Abdullayev, Seyid Şuşinski, Qurban Pirimov, Xan Şuşinski kimi sənətkarlar Abutalıbın musiqi qabiliyyətinə və ifaçılıq məharətinə yüksək qiymət vermişdilər.

Abutalıbı yaxından tanımış və onunla xeyli müddət dostluq etmiş Seyid Şuşinski onun haqqında öz xatirələrində yazırdı: "Konservatoriyanın rektoru olarkən bir gün Üzeyir bəy məni yanına çağırıb dedi:

– Ağa, bu qarmonçalanlar məni cana gətiriblər. O deyir "məndən olmaz", bu deyir "mən hamıdan yaxşı calıram". Ona görə də bu hay-küyə son qoymaq üçün konkurs keçirmək lazımdır.

Mən Üzeyir bəyin məqsədini başa düşüb elan verdim və elanda göstərdim ki, respublikada qanmonda birinciliyi qazanmaq üçün filan ayda, filan gündə öz qarmonları ilə konservatoriyanın zalında hazır olsunlar.

Nəhayət konkurs günü Azərbaycanın hər yerindən əlliyə qədər qarmonçu yığışmışdı. Üzeyir bəy çıxdı səhnəyə, stulun üzərinə 14 dilli bir qarmon qoyub dedi:

– Konkursun bircə şərti var. Kim bu qarmonda "Orta mahur" muğamını çala bilərsə, xahiş edirəm səhnəyə çıxsın. Onun bu elanından sonra zalda qarmonçular arasında şaxnaşma düşdü. Bir çoxları da təəccüb edib bir-birlərinin üzünə baxıb mat qaldılar.

Nəhayət, Abutalıbdan başqa səhnəyə çıxan olmadı...

Bunu görən Üzeyir bəy təzədən səhnəyə çıxıb əli ilə bığını tumarlayıb dillədi:

– Hə, qoçaqlar, neçəsiniz? Tısa-bısanız yatdımı?!

Sonra üzünü mənə tutub dedi:

– Ağa, məsələ aydındır, yığıncağı bağla.

Mən onu yaxşı başa düşməyib soruşdum:

– A bəy, bəs Abutalıb çalmayacaq?



Qarabağ musiqiçiləri. Ağdam. 1928-ci il. 3-cü sırada soldan üçüncü tarzən Abutalıb. 2-ci cərgədə soldan ikinci Kərbəlayi Lətif və qarmonçu Yusif Yusifov.

O, başını bulayıb narazı halda dilləndi:

– Ağa, Abutalıbın çalğısına ehtiyac yoxdur. Məni, özlərindən razı qalıb "mənəm-mənəm"deyənlərin çalğısı maraqlandırırdı. Onların da qeyrəti bu gün məlum oldu.

O gün mən bir daha: "Abutalıbdan başqa qarmonçalan tanımıram" qənaətinə gəldim. Bax, Abutalıb belə Abutalıb idi. Analar bir daha onu doğmaz".

F.Şuşinskinin qeyd etdiklərinə əsasən məlum olur ki, ustad xanəndə Xan Şuşinkinin də Abutalıbın sənətinə rəğbəti varmış. O, demişdir: "Mən 50 il musiqi məclislərində olmuşam, çox sənətkarlarla rastlaşmış, görüb dinləmişəm. Bu müddətdə tanıdığım ən istedadlı və kamil musiqiçilərdən biri də Abutalıb idi. Bu adamın xəmiri musiqi ilə yoğrulmuşdu. Mən onun çalğısından doymazdım. O, bir havanı yüz dəfə çalsaydı belə adama xoş gəlirdi. Onun "Segah"da vurduğu barmaqlar yadıma düşəndə ürəyim titrəyir".

Qeyd etmişik ki, Kərbəlayi Abutalıb yaxşı tərçalan olaraq xanəndələrlə birlikdə çalıb-çağırmışdı. Bu sırada ustadlardan Seyid Şuşinski, Mehralı oğlu Bahadur, Segah İslam və Xan Şuşinski də olmuşdu. Onu da qeyd etməliyik ki, Abutalıb gənclik illərindən fəal çalışqanlıqda olaraq Şuşada və Bakıda "Şərq konserti" adı ilə keçirilən tədbirlərdə iştirak edirdi. O, öz solo çıxışlarında ifa etiyi "Mirzəyi", "İnnabı", "Beşaçılan", "On dörd nömrə", "Dilican", "Ənzəli", "Tərəkəmə" rəqslərini, diringiləri, dəraməələri, rəngləri və bəzi muğamları qarmonun imkanlarına uyğun olaraq incə duyğularla məharətlə ifa etmişdir.

Dahi bəstəkarımız Ü. Hacıbəyli xalq musiqiçilərinə, xanəndələrə, sazəndə dəstələrinə hörmət və qayğı ilə yanaşdığı kimi, qarmon ifaçılarına da diqqət göstərirdi. O, Kərbəlayi Abutalıbın da ifasını diqqətlə dinləyərək dəyərləndirmişdi.

Ustad tarzən Bəhram Mansurov 1934-cü ildə bir dost məclisində Cahan Talışinskayanın qarmonçu Abutalıbın müşayiəyilə "Bayatı-Qacar" oxumasını yada salırdı. O gecə Kərbəlayi Abutalıbın "Karvan" adlı bir hava çaldığını da söyləyirdi: "Elə çalırdı ki, elə bil doğrudan da dəvə karvanı gedir"...

Bütün Qarabağ bölgəsində və onun ətrafında toy şənliklərində qarmonu ilə sənətini sevdirə bilən və bu peşəyə böyük maraq oyadan Kərbəlayi Abutalıbın dəyərli xidmətləri olmuşdur. Kərbəlayi Abutalıb 1937-ci ildə Ağdamda vəfat etmişdir.

2.3. GÖZƏL MUSİQİÇİ, XEYİRXAH İNSAN

Ələkbər Cavad oğlu Nəzərli 1882-ci ildə Bakı şəhərində anadan olub. Uşaqlıqdan güclü musiqi istedadı, duyumu ilə seçilib. Özü öz bacarığı hesabına, sərbəst olaraq qarmon çalmağı öyrənən Ə.Nəzərli fəallaşaraq 18-20 yaşlarında musiqiçi kimi tanınmağa başlamışdır. Qeyd edək ki, onun uşaqlıq və gənclik dövründə yalnız yarımtonsuz qarmonlar mövcud olduğu üçün o da belə alətlərdə çalıb. Lakin sonralar xromatik qarmonlar yarananından sonra Ələkbər bəy də həvəslə öz sənətini bu alət vasitəsilə inkişaf etdirmiş və Bakıda məşhurlaşmışdır. Yaşadığı dövrün mədəniyyət və incəsənət xadimləri tərəfindən tanınan Ə.Nəzərliyə get-gedə diqqət artmış, onunla yaxından əlaqə saxlamağa başlamışlar. Peşəkar ifaçı səviyyəsinə çatan bu insan dövrünün məşhur mədəniyyət ocağı olan Opera və Balet Teatrına gətirilib.

Nəzərlilər ailəsi öz istedadı və incəsənətə bağlılığı ilə seçilib. Ələkbərin qardaşı Mehdi Nəzərli mahir klarnet ifaçısı kimi məşhurlaşmış və uzun illər Opera və Balet Teatrında çalışmışdır. O dövrün sənət adamları, incəsənət xadimləri, xanəndələri Nəzərli qardaşları ilə yoldaşlıq etmiş, onların sənət səviyyəsini dəyərləndirmişlər. Bütün istedadlı insanlara qayğı ilə yanaşan Üzeyir bəy onlara da biganə qala bilməzdi. Elə bu səbəbdən dahi bəstəkarın təşəbbüsüylə Nəzərli qardaşları "Koroğlu" operasının ilk musiqi ifaçıları sırasına gətirilir. Opera və Balet teatrının səhnəsində



Ələkbər Nəzərli

"Koroğlu" operasının ilk tamaşasında Ələkbər və Mehdi Nəzərlilər musiqi müşayiətçiləri olurlar.

Ələkbər Nəzərli qardaşı Mehdi ilə uzun illər Opera və Balet Teatrının ştatlı işçisi olmuşdur. Onların sənət səviyyəsi burada çalışmaqla daha da artmışdı. Ələkbər bəy teatrın konsert tədbirlərində qarmon ilə çıxış etmiş, tamaşaların pərdəarası fasilələrində xalq havalarını çalmışdır.

Bakıda "Musiqiçilər birliyi" varmış. Bu təşkilat tütün fabriki yaxınlığında yerləşibmiş. Həmin yerdə indi böyük həcmli, ən müasir binalar ucalır. Ələkbər Nəzərli "Musiqiçilər birliyi"nin rəhbərlərindən idi.

Musiqi, ifaçılıq sənəti Ələkbər Nəzərlininin könül dünyası, həyat eşqi olaraq onu öz ardınca aparırdı. O, gecəsini gündüzünə qatıb hey çalışır, axtarışlar edir, daha da püxtələşirdi. Ələkbər bəy əsl sənət fədaisi olaraq ömrünü buna həsr etmişdi.

1918-1920-ci illərdə indiki "Növbahar" restoranında sənətkar həm qarmonçu, həm də musiqiçilərin bədii rəhbəri kimi çalışmışdı. Ələkbərin qarmon ifaçılığının vurğunları bu restorana gələrmişlər.

Səhərlər yüksək sənət enerjisilə məşq edən Ələkbər bəy özünün yaratdığı və sevə-sevə ifa etdiyi melodiyanın sehrli səslər aləminə qapılaraq özünü unudurmuş. Bu zaman onun yaşadığı evin hər gün yanından keçənlər açıq pəncərələrdən hər səbah eşitdikləri təsirli musiqiyə diqqət kəsilər, ayaq saxlayıb dayanardılar. Dinləyənlərin özləri ad verdikləri bu "Sabahı" havası səhər iş-güc ardınca gedənlərə xoş ovqat bəxş edərmiş. "Sabahı" havası Ə.Nəzərlinin elə bil qəlbinin xoş səsi idi. Sanki bu melodiyaya sənətkarın yaşam tərzi, həyata və dünyaya məhəbbəti, könül çırpıntıları, yüksək sənət eşqi və amalı toplanmışdı. Həzin, lirik "Sabahı" havası Ə.Nəzərli yaradıcılığının şah əsəri idi. O, bu musiqini varlığı qədər sevirdi. Əfsus ki, bu melodiyanın nə qrammafon valı, nə radio lentləri, nə də ki, not yazısı bizə gəlib çatmayıb.

Ömrünün heç bir anını qarmonsuz, musiqisiz təsəvvür etməyən Ələkbər bəy qədim musiqi alətlərini toplamışdır. Müxtəlif dövrlərdə qarmon aləti adı altında mövcud olan, öz kökünü bu musiqi alətindən götürən çalğı alətlərini toplamağa başlayır, qarmonun tarixinə dair kolleksiya yığır. Misal olaraq, fiziqarmonu (ayaqla işləyən), alman istehsalı olan "Şneyder"markalı pianonu, A. Karpuşkinin ilk əvvəl düzəltdiyi bir cərgəli, sonradan isə sağda iki cərgəli, sol tərəfdə bir sıralı səs düzümü olan alətləri və s. göstərmək olar.

Xalq arasında nüfuz, hörmət, ad-san qazanmış Ələkbər Nəzərlinin tələbəsi olmaq özü böyük şərəf sayılırdı. Gələcəyin peşəkar qarmonçuları olmaq istəyən həvəskarlardan neçəsi ondan dərs almış və bununla fəxr etmişlər.

Ə.Nəzərli yalnız istedadlı gənclərlə məşğul olmuş, evində qarmonun tədrisi üçün xüsusi yer ayırmışdır. Qarmon ifaçılığında bir növ Ə.Nəzərli məktəbi yaranmışdır. Təkcə sadə vətəndaşlar deyil,həmçinin dövrün ziyalıları, elm və mədəniyyət xadimləri də övladlarını musiqi tərbiyəsi almaq üçün bu böyük sənətkarın yanına gətirmişlər.

Ömrünü qarmon ifaçılığına həsr edən bir çox gənclər, o cümlədən Teyyub Dəmirov da Ə.Nəzərli ilə yaxınlıq etmişdir. Həmin gənclər özlərinə böyük saydıqları sənətkarın evinə gələr, dərslərində iştirak edər, yaxşı məqam düşən anlarda onu dinlərdilər.

Ə.Nəzərli Azərbaycanın çox rayonlarında sevimli qarmon sənəti ilə çıxışlar etmişdir.

Sənətkar təkcə musiqinin deyil, həmçinin təbiət gözəlliyinin vurğunu idi. O, çox bacarıqlı bağban kimi tanınırdı. Azərbaycanın əksər yerlərində gördüyü gözəllikləri Bakıya köçürmək istəmişdi. Bakının özündə böyük bir sahədə, təxminən 2000 kvadratmetrlik ərazidə gözəl bir bağ salmışdı. Boş vaxtlarında burada bağban kimi özü çalışırdı. Bu gözəlliklər qoynuna gələn hər bir kəs heyran olurdu. Sənətkar əkdiyi qırmızı qərənfillər, ətirli qızılgüllərin satışından əldə etdiyi vəsaiti bağın abadlaşmasına sərf edirdi. Bağ-bağçanın 3 metr hündürlüyündə hasarı, 1500 barlı ağacı, içərisində balıqlar üzən hovuzu var idi. Bakıda o zamanlar su problemi olsa da, Ə.Nəzərli böyük çətinliklərə sinə gərərək, öz bağına su çəkərək əsrarəngiz gözəllik yarada bilmişdi. Bu yaradıcı insanın, əsl Azərbaycan kişisinin hünəri idi.

Qohumlar, dost-tanışlar, yaxın adamlar tez-tez Ə.Nəzərlinin bağına gələr və yaxşıca dincələrdilər. Gələnlər buranı cənnət bağı adlandırırdılar. Ürəyinin məhəbbəti, qəlbinin hərarəti, əllərinin zəhməti, biləklərinin gücü ilə saldığı bu gözəl məkan Ələkbər bəyin təbirincə "İsa bulağı" idi. Rəsmi dairələrdə də şəhər içərisindəki bu bağın haqqında heyrətlə danışırdılar.

1926-cı ildə Bakı şəhəri İcraiyyə Komitəsinin məsul işçisi, deputat, Novikov soyadlı bir şəxs vəzifə sahiblərilə bağı gəzib görəndən sonra öz xoş təəssüratlarını "Bakinskiy raboçiy" qəzetində bildirmişdir. Məqalə "Qarmonist-sadovist" (qarmonçalan-bağban) adlanırdı.

Mahir ifaçı, musiqi müəllimi, əsl bağban, dəyərli insan Ə.Nəzərli həm də xeyriyyəçiliklə məşğul olurdu. Şəxsi qazancından, bağın meyvələrinin satışından gələn gəlirin müəyyən hissəsini əlsiz-ayaqsızlara, kimsəsiz, köməksiz insanlara, ehtiyacı olan ailələrə paylayırdı. O, dövlətə də yardımı etmişdir. Belə ki, xeyli miqdarda, tonlarla dəmir-metal toplayıvb dövlətə təhvil vermişdir.

1924-cü il "Yeni yol" qəzetinin buraxışlarının birində sənətkarın xeyirxah əməlləri haqqında geniş məqalə dərc olunub.

Ələkbər bəyin evi həmişə qonaq-qaralı, süfrəsi bərəkətli, təknəsi çörəkli olub. Azərbaycanımızın çox yerlərindən, əsasən Qarabağdan xanəndə və musiqiçilər, o cümlədən musiqi sevərlər, yaxın respublikalardan qonaqlar onun evinə gəlib şirin söz-söhbətini, ifasını dinlər, öz fikirlərini bölüşərdilər.

Bəzən, bu evdə musiqi gecələri keçirilərdi. İrili-xırdalı belə mərasimlər ifaçıların bir-birini yaxından tanımasına, sənət və fikir mübadiləsinə, bütünlükdə isə musiqi mədəniyyətimizin inkişafına xidmət edirdi.


Tanınmış ziyalılar, görkəmli şəxsiyyətlər də Ələkbər Nəzərlini yaxından tanıyır, ona rəğbət bəslərdilər. Onların arasında sənətkarın çox yaxın adamları var idi.

Bakı Şəhər Mərkəzi Komitəsində təhsil üzrə şöbə müdiri işləyən, coğrafiya elmləri namizədi Abdulla Şahbazov (Tağı Şahbazı Simurqun qardaşı), dramaturq Cəfər Cabbarlı, mərkəzi Komitənin işçisi Şəmsəddin Abbasov Ə. Nəzərli ilə ailə dostluğu edirdilər.

Azərbaycanın o dövrdəki dövlət başçısı Mir Cəfər Bağırov musiqiçi kimi tanıdığı Ə.Nəzərlinin "Cənnət bağı" adlanan, "İsa bulağı" kimi məşhurlaşan bağının sorağını eşitdiyi üçün şəxsən bir neçə dəfə ora baş çəkmiş, heyrətini gizlətməmiş, sənətkara təşəkkür etmişdir.

"Uzaq sahillərdə" əsərinin müəllifi İmran Qasımov da məşhur bağın vurğunu, Ələkbərin daimi qonağı olmuşdur. Bundan başqa dahi Ü.Hacıbəyli, tarzən Qurban Pirimov, məşhur xanəndələr Cabbar Qaryağdıoğlu, Bülbül və digər sənətkarlar da Nəzərlinin bağına gələrmişlər.

Bütün mənalı ömrünü Azərbaycan xanəndəlik sənətinə həsr edən Cabbar Qaryağdıoğlu səs imkanlarını qorusun deyə çox gec, 54 yaşında ailə qurmuşdur. Onun toyunda çalıb-çağıran neçə-



30-cu illərin II yarısında. Ələkbər Nəzərlinin bağı. Şəkildə soldan 1-ci Ə.Nəzərli, 3-cü tarzən M.Bakıxanov, Q.Pirimov, ortada xanəndə C.Qaryağdı oğlu, sağdan 3-cü T.Dəmirov, 4-cü Kor Əhəd, Bakı və Zaqafqaziya musiqiçilərindən bir qrup

neçə musiqiçilər arasında qarmonu Ələkbər Nəzərli çalmışdır.

Azərbaycan incəsənətinin, musiqimizin yüksəlməsində misilsiz xidmətləri olan, nadir şəxslərin vaxtilə toplandığı, istedadlı, işgüzar, xeyirxah bir insan Ələkbər Nəzərlinin böyük zəhməti hesabına qurub yaratdığı "Cənnət məkanı"nı 1981-ci ilin yanvarında Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə məhv etmiş və yerində çoxmərtəbəli bina ucaltmışlar. Ə.Nəzərliyə aid olan ev muzeyində qorunub saxlanan "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib" və s. operaların proqram və afişaları, arxiv sənədlər, qəzetlərdəki məqalələr, foto-şəkillər, dövlət tərəfindən təltiflər, fəxri fərmanlar, rəsmi sənədlər, mülkün qapısına həkk olunmuş, sənətkarın doğulub, yaşayıb-yaratdığı haqqında yazılar olan barelyef söküntü aparılarkən qalıqlar altında itib məhv olmuşdur.

Nəzərlilər ailəsinin digər üzvləri haqqında da məlumat verməyə borcluyuq. Qardaşlarından fərqli olaraq Nəcəfqulu Nəzərli musiqiçi deyil, rəssam olmuşdur. O, rənglərin musiqisinin ahəngini yaratmışdır. Nəcəfqulu gözəl rəssam olaraq qəlbinin sözünü fırçanın dili ilə deməyi bacarmışdır.

Ə.Nəzərlinin qardaşı uşaqları; rəssam Hacıağa Nəzərli və tarix elmləri doktoru Ədalət Nəzərli öz şəcərəsinin başını uca edərək xalqımıza sədaqətlə xidmət göstərmişlər.

Ələkbər Nəzərli 1951-ci il dekabr ayının 17-də vəfat etmişdir.

2.4. ƏHƏD ƏLİYEV

Musiqi sənətində Kor Əhəd kimi tanınan mahir qarmonçalan Əhəd Fərzəli oğlu Əliyev 1893-cü ildə Bakı şəhərində yoxsul bir ailədə dünyaya gəlmişdir.



Əhəd Əliyev

Onun nə ailəsində, nə də qohumlarında musiqiçi olmamışdır. Onun musiqiyə gəlişi təsadüfi, özü də faciəli şəkildə olmuşdur. İki yaşlı Əhəd qəfildən göz xəstəliyinə tutulur. Həkimlərin zəhməti bir nəticə vermir. Üç yaşına çatan Əhədin gözləri tamamilə tutulur. Altı yaşa çatanda fikri dağılsın, darıxmasın deyə ona 7 dilli balaca qarmon alırlar. Buna hədsiz-hüdüdsuz sevinən balaca Əhəd barmaqlarını qarmonun dillərində hərəkət etdirərək ürəyində səslənənləri orada tapmaq istəyirdi. Qarmon şikəst uşaq üçün yeganə təsəlli, şirin söhbətli dost-sirdaş, əsl yoldaş idi.

Balaca Əhədin musiqi müəllimi olmamış, qarmon çalmağı sərbəst, tənha, özü öyrənmişdir. Yeganə məktəbi yaşadığı məhəllədə el adətilə keçirilən toylar və həm də qrammafon valları olmuşdu. Qohum-qonşuda toy olanda anası Əhədin əlindən tutub özü ilə qadın toylarına aparırdı. O dövrdə Bakı toylarının musiqiçi dəstələri qarmon-qaval, zurna-balaban, nağara çalandan ibarət olardı. Qadınların əksəriyyəti qarmonla çalınan havaları oynamağı daha çox xoşlardılar. Qarmonun şirin səsləri ilə səslənən "Mirzəyi",

"Tərəkəmə", "Vağzalı", "İnnabı", "Qızıl gül", "Uzun dərə" kimi oyun havaları daha çox dəbdə idi. Qəlbində musiqiyə qədərsiz həvəsli balaca Əhəd qarmonçalana daha yaxın bir yerdə əyləşər və çalınan bütün havaları həvəslə dinlərdi. Dünya işığına həsrət qalan şikəst uşaqda ətraf mühiti duymaq və musiqi qavramaq qabiliyyəti çox güclü, hissiyatı yüksək idi. Toy məclislərindən evə dönən kimi, Əhəd qarmonu götürər eşitdiyi mahnı və rəqs havalarını öyrənərdi. Onun bir qarmonçu kimi yetişməsində Kərbəlyai Lətifin qrammafon vallarında çaldıqlarının da az-çox təsiri olmuşdur.

Əhəd 13-14 yaşlarında olanda ona 14 dilli qarmon alırlar. O, bu alətlə bir az da mükəmməl çalmağa başlayır. Onu tez-tez qohum-qonşu yığıncaqları və şənliklərinə, ailə şadyanalığına dəvət edirlər. Əhədin oyun havalarını olduqca şux, təsirli, özünəməxsus və sərbəst çalması getdiyi çalğır məclislərində onu hamıya sevdirər, tanıtdırar və pərəstişkar toplamasına imkan yaradardı.

Bakı toylarında Seyid Mirbabayevi, Cabbar Qaryağdıoğlunu, İslam Abdullayevi, Keçəçi oğlu Məhəmmədi dinləyən Əhəd onların muğam ifalarında işlətdikləri şirin boğazları, guşə və xalları qarmonda tapıb çalırdı. Eşidənlərə elə gəlirdi ki, qarmon dil açıb oxuyur. Artıq 16 yaşına çatanda Əhəd peşəkar musiqiçi kimi tanınır və qadın toylarına dəvət olunur.

Bu toylarda onun çalğısını Zeynəb adlı dəf çalan qadın, sonralar isə Teyyub adlı uşaq müşayiət etmişdir. Onların getdikləri məclislər Bakı və Abşeron toyları olardı. 20 yaşından qarmonçu Əhəd kişi toylarına çağırılırdı. Az vaxt içərisində sənəti ilə çox sevilən Əhəd Şirvan və Muğan toylarına da dəvət edilirdi. O, təkcə qarmonçalan yox, eyni zamanda saz, tar, tütək, balaban, zurna və piano ifasını bacaran istedadlı bir şəxs idi. Bütün alətlərdə çalmağı o, özü öyrənmişdi.



Əhəd Əliyevin toy dəstəsi

Müəllimi olmadan musiqi aləminə gələn Əhəd Əliyev qarmon sənətində mahir ifası ilə tanınmaqla, layiqli peşəsinin təsiri ilə öz ardınca çox qarmonçalanlar gətirmişdi. Onun sənəti əsl məktəb idi.

Əhəd bir saz çalan kimi bütün Azərbaycanda məşhur idi. Bir çox xanəndələr tolara dəvət olunanda Əhədlə çalıb-oxumağı üstün tutardılar. Əhəd tarda onları müşayiət edər, sazda bu alətə məxsus havaları, qarmonda isə rəqsləri çalardı. Əhədin bu qabiliyyəti Cabbar Qaryağdıoğlunun nəzərindən qaçmamış, o, onu özüylə toylara aparmışdır. Əhədin çaldığı "Segah" böyük xanəndəmizi valeh edərmiş.


Bütün məşhur sənətkarlar kimi Əhədin də öz dəstəsi olmuşdur. Onun musiqiçi heyətində qarmon, tar, qaval, qoşanağaraçalan olardı.

Görkəmli bəstəkar Müslüm Maqomayev onu radioda çalmaq üçün dəvət edir. Əhədin qarmonunun qəlb oxşayan, ecazkar səsi 1927-1933-cü illərdə doğma Azərbaycanımıza yayılır. O, rayonlarımıza konsert səfərlərinə getmiş, mahir ifaçı kimi hər yerdə seçilmişdir.

Onun istedadlı musiqiçi olduğunu nəzərə alan dahi bəstəkar Ü.Hacıbəyli onu 1931-ci ildə radioda yaratdığı "Notlu Şərq orkestri"nə dəvət edir. Orkestrdə "Şur" muğamının "Bəytü-Qacar" şöbəsi, "Cahargah"ın "Bəstənigar", "Rast"ın, "Şikəsteyi-fars"şöbəsi ifa edilərdə solo çalmaq Əhədə həvalə edilərdi. Əhəd bütün muğamları özünəməxsus, zəngin çalarlar və bəzəklərlə çalardı. Əhəd Əliyevin ifasında "Bayatı-Qacar" muğamı dolğun, əzəmətli, təsirli və texniki ustalıqla səslənirmiş. Onun bu muğam üçün yaratdığı üslub da sonrakı qarmonçalanlar üçün məqbul olmuşdur.



Əhəd Əliyevin rəhbərliyi ilə qarmonçalanlar ansamblı. Bakı, 1932-ci il. Yuxarıda ortada Əhəd Əliyev



Əhəd Əliyevin rəhbərlik etdiyi qarmonçalanlar ansamblı. Ortada Əhəd Əliyev, sağdan birinci Teyyub Dəmirov

Ə.Əliyevi musiqi tarixində, qarmon ifaçılığı meydana gələn dövrdə ilk ən mahir, sanballı, ən peşəkar qarmonçu saymaq olar. Düzdür, onun dövründə az-çox bacarıqlı qarmonçalanlar olmuşdur. Lakin onların heç biri Əhəd səviyyəsinə gəlib çatmamışdır. Əhəd xalq musiqisinə dərindən bələd olmuş və onu layiqincə təbliğ edə bilmişdir.

Uşaqkən görmə qabiliyyətini itirib dünyanın işığından məhrum olsa da, onun daxili aləmində bir qığılcım, işıq yanmışdı. Onun iç dünyasında nurlu, işıqlı aləm var idi. Çalğısı, zəngin sənəti, böyük ifaçılıq qabiliyyəti ilə dinləyicilərin qəlblərini, mənəvi aləmini işığa, nura qərq edirdi. Ə.Əliyev 1932-ci ildə ilk dəfə "Şərq qarmonçular ansamblı" yaratmışdı. Onun 1934-1935-ci illərdə Əbilov adına klubda ansamblı olmuşdur. Dövlət Filarmoniyasında təşkil olunan sazçı qızlar ansamblının yaradılmasında da Əhədin böyük rolu olmuşdur. O, qızlara həm saz çalmağı öyrədər və həm də solist kimi çıxış edərdi.

1938-ci ildə Azərbaycan musiqiçilərindən bir qrupunun və Əhədin ifası qrammafon valına yazılır. Valın bir üzündə o, sazda "Cahargah", digər üzündə isə qarmonda "Segah" yazdırmışdır.

Əfsus ki, belə qüdrətli və hünərli sənətkarın ifasından bizə yadigar qalan yalnız həmin qrammafon valıdır. Musiqiçilər bilir ki, sazda "Cahargah" çalmaq sənətkardan yüksək ustalıq tələb edir. Əhəd bunun öhdəsindən yüksək peşəkarlıqla gəlmişdir. Görünür, muğama dərindən bələd olması və tar çalmaq bacarığı bu işdə ona kömək etmişdir. Onun vala yazdırdığı "Segah" muğamı xalqımızın musiqi xəzinəsinin ən nadir, əvəzsiz incilərindəndir. Onun bu ifasının təsirindən qarmon çalmağı öyrənməyə gələnlərin sayı artmışdır.

Xalq artisti, xanəndə Baba Mahmudoğlu (1940-2006) ustad tarzən, xalq artisti Bəhram Mansurovdan (1911-1985) eşitdiyini belə söyləyirdi: "M.Maqomayev" "Şah İsmayıl" operasını yazarkən Əhədin (1911-1985) "Segah"ını dönə-dönə dinləmiş və əsərin bir səhnəsində ondan istifadə etmişdir. Əsərdə Şah ismayıl ilə Gülzarın görüş səhnəsi vardır. "Segah" sədaları altında Şah İsmayıl Gülzarın ətrafında dövrə vurur. "Segah"ı simfonik orkestr çalır. Əhədin təsirli "Segah"ını bəyənərək M.Maqomayev onu nota almış və simfonik orkestrin ifasına gətirmişdir".

Əhədin saz çalmağından aşıqlar da vəcdə gəlirdilər. O, əksər saz havalarını, həm də muğamları sazda məharətlə çalarmış. "Yanıq Kərəmi" saz havası Əhədin çalğısında böyük, zəngin əsərə çevrilərmiş. Getdiyi toy məclislərinə və konsertlərə sənətçi özüylə həmişə sazı apararmış. Bilirdi ki, ondan mütləq saz ifası da istəniləcək.

Muğamlarla bərabər Əhədin ifasında oyun havaları, xüsusilə "Tərəkəmə" rəqsi ecazkar səslənirmiş.

Xalq musiqisini yaxşı bilməsini və virtuoz çalğısını nəzərə alan Üzeyir bəy Əhədi Opera Teatrına işə dəvət edir. "Arşın mal alan" operettasının toy səhnəsində Əhəd "Tərəkəmə" çalırmış.

Əvvəllər radioda müntəzəm canlı çıxışlar efirə verilirmiş. Ə.Əliyev belə çıxışlara tez-tez dəvət olunar, rəqsləri və muğamları çalırmış.

Xalq arasında və musiqi aləmində böyük hörmət sahibi olan Əhədin evinə Üzeyir bəy, Cabbar Qaryağdıoğlu, M.Maqomayev, Qurban Pirimov, Zülfü Adıgözəlov tez-tez gələrdilər. C.Qaryağdıoğlu onun "Bayatı-Qacar"ından doymaz, Z.Adıgözəlov "Segah"ından böyük zövq alırmış. Əhəd qarmonda çaldığı "Segah"da vurduğu barmaqları sonra tarda da işlədirmiş. Bu tarzən Qurban Pirimovu təəccübləndirirmiş. O, Əhədin həmin barmaqları bir də vurmasını xahiş edirmiş. Qəribədir ki, Əhəd xanəndə boğazlarını qarmonda və tarda ustalıqla işlədirmiş.

Əhədin müəllimlik fəaliyyətini qeyd etmək xüsusilə yerinə düşər. Mənzilində dərs keçən ustad sənətkar qarmonçalanlar dəstəsi yetişdirmişdir. Məmmədağa Ağayev, Hacıbala Dadaşov, Rza Şıxlarov, Məmmədhüseyn Salamov, Vahab Səmədov, Mirzəağa, Fatma xanım və b. ondan dərs

almışlar. Onun tələbələri də peşəkar sənətə qədəm qoyandan sonra ifaçılıqla bərabər müəllimlik də etmişlər. Hacıbala Dadaşovun şagirdi olmuş Səfərəli Vəzirov, Məmmədağa Ağayevin yetirməsi Musa Həsənov sonralar qarmonçalan kimi məşhurlaşmış və musiqi mədəniyyətimizə cəsarətlə töhfələr vermişlər.

Qarmon üzərində islahatlar aparılmasında da Əhədin bitkin, əsaslı fikirləri mühüm rol oynamışdır. Qarmon ustaları, o cümlədən Arxip Karpuşkin onun fikirlərini həmişə nəzərə almışdır. A.Karpuşkinin düzəltdiyi üç ədəd qarmon Əhədin əlində olmuş və sənətçi onun hər birindən lazımınca istifadə etmişdir. Qarmonların biri "si" bemol, biri "do" kökündə, üçüncüsü isə "çetverttonlu" qarmon idi.

Sevimli sənətkarımızın yaradıcılığında ən məhsuldar dövr 1930-1940-cı illər ərzində olmuşdur. Bu illər ərzində o, Azərbaycan Dövlət Filarmoniyasında, Opera Teatrında, radioda və digər musiqi müəssisələrində ciddi və yorulmaz fəaliyyətilə musiqi dünyamıza böyük xidmət göstərmişdir.

Ə.Əliyev ən mahir musiqiçilərimizlə birlikdə 1938-ci ildə Moskva şəhərində keçirilən "Dekada"da iştirak etmiş və yüksək, səviyyəli çıxışı ilə alqışlar qazanmışdır.

Əhəddən əvvəl bəzi qarmonçalanlar olmuşsa da, qarmon ifaçılıq sənəti onun adına bağlanmış, yüksəlmiş, vüsət almışdır. Öz misilsiz sənətilə o, əsl Azərbaycan qarmon məktəbi yaratmışdır.

Ustad tarzən Bəhram Mansurovun xatirələrindən: "Müğənni Yavər xanım Kələntərlinin (1902-1979) çalğı alətləri içərisində ən çox sevdiyi qarmon idi, qarmonçalanlar içərisində də Əhəd Əliyev. Düzdür Əhəd Əliyev artıq həyatda yox idi, lakin Yavər xanım hərdən-hərdən 30-cu illəri anırdı, ailə məclislərinə Əhədi dəvət etmələrini söyləyirdi:-Bir axşam o dövrün ziyalılarından Ağaxan Talışinski, Əbülfəz Qarayev, Camo Cəbrayılbəyli süfrə arxasında əyləşmişdilər. Şirin söhbət gedirdi. Əhəd də məclisimizdə qonaqdı. Kimsə qayıtdı ki, ay məşədi Əhəd, sən də bir söhbət elə.

Əhəd qarmonu götürdü: " Mən sözümü qarmonla deyəcəm" . "Segah" çaldı. "Segah"- nə "Segah". Bəlkə də beləsi olmamışdı. Deyirlər ki, musiqi danışır, doğru sözdür. Əhəd qarmonun dilləri ilə məclisdəkilər ilə danışırdı".

"Araz" x.ç.a. ansamblının tarzəni, Milli Konservatoriya tərkibində İncəsənət Gimnaziyasının müəllimi Xalıq Dadaşovun dediklərindən: "Atam Qulammirzə Dadaşov danışardı ki, "Sovetski" məhəlləsindəki evimizə qarmonçu Əhəd Əliyevi dəvət etmişdik. Qonaqlarım var idi. Məsləhət oldu ki, Əhədi də çağıraq. Dalınca adam göndərdik. Əhəd otağa daxil olan kimi dedi: Dörd kişi əyləşmisiz burada, biriniz durub divardakı saatın əqrəbini düzəltmirsiniz. Axı əqrəb ilişib, ona görə də saat dayanıb, işləmir.

O, bunu öz hissiyyatı ilə duymuşdu. Axı gözdən əlil olanların hissiyyatı güclü olur. Çalğıya başlayanda hamını heyran etdi. O qədər təsirli çalırdı ki, adam kövrəlirdi. Onu həyacansız dinləmək mümkün deyildi. Qarmonun səsi bizi səhrə salmışdı..."

Xalıqın atası öz məhəllələrində və Bakıda hörmət-izzəti və həm də ləqəbi ilə, "Kaberkod" Qulammirzə kimi tanınırdı. Kaberkod onun geyindiyi paltonun materialının adı idi. O dövrdə belə paltolar dəbdə olub və təbii ki, arzu edənlər çox olsa da, almağa hər adamın imkanı olmayıb.

Əhəd Əliyev Bakıda yalnız toyların deyil, imkanlı ailələrin, ziyalıların və hörmətli kişilərin yığıncaqlarının, ev tədbirlərinin də ən sevimli sənətkarı idi.

Əhəd Əliyev 1942-ci ildə qəfil xəstəlik keçirərək 49 yaşında dünyasını dəyişmişdir.




1927-ci ildə Azərbaycan Dövlət radiosunun nəzdində Ə.Bakıxanov yaratdığı solistlər ansamblı. 1929-cu ildə çəkilmiş şəkil. Soldan birinci: tarzən Əhməd Bakıxanov, qarmonun ifaçısı Əhəd Əliyev. Şəkildəki görünməyən kimi ilk x.ç.a. ansamblımızda qarmonun ifaçısı olmuşdur.

«Segah» - Ə.Əliyevin ifasında

Ad libitum







2.5. SƏNƏT İŞIĞI YANDIRAN İNSAN



Teyyub Dəmirov

Əgər çıraq yana-yana işıq saçırsa, insan da yarada-yarada öz işığını, nurunu ətrafa yayır.

Dünyaya adi insan kimi gələn Teyyubun qəlbinə kiçik yaşlarından sənət eşqi doldu. Bu eşq onu sənətə gətirdi. O, musiqi sənətində bütövləşdi, bərkidi, cəsarətlə addımlamağa başladı. Yaşayaraq yaratdı. Yarada-yarada öz sənət işığından sənət dünyamıza nur yaydı. Çoxlarına bu nurdan pay düşdü. Könüllər işıqlandı. Özündən sonra gələn qarmon sənətçiləri bu sənət işığıyla addımlayaraq insanlığa və musiqi mədəniyyətimizə xidmət etdilər.

Teyyub Hacı Məmməd oğlu Dəmirov 1908-ci il aprel ayının 25-də Bakının qədim yaşayış məskənlərindən olan Çəmbərəkənddə, tacir ailəsində anadan olub. Hacı geniş imkanlı, varlı-dövlətli, sərvətli olmuş, Xəzər dənizində üzən şəxsi gəmiləri vasitəsilə ətraf yerlərlə böyük ticarət əlaqələri qurmuşdu.

Teyyubgil ailədə beş uşaq; üç qardaş, iki bacı idilər. Ailədə uşaqlar ata-ana qayğısı və məhəbbəti ilə şad-xürrəm, xoşbəxt yaşayırdılar.

Tale insana hər şeyi eyni vaxtda vermir, istedadı, adı, şan-şöhrəti, xoşbəxtliyi. İstedad insana əvvəldən verilir, dünyaya gələndə. Onu inkişaf etdirmək üçün isə zəhmət, işgüzarlıq lazımdır.

Şan-şöhrəti, istedadının qiymətini isə yenə yorulmadan çalışmağın hesabına ala bilərsən. Əgər ilahi bunu sənin adına, taleyinə yazıbsa. Bəzən olub ki, böyük istedad sahibi əldə etdiklərinin, yaratdıqlarının, bilik və bacarığının qiymətini almayıb. Dünyaya gəlib, öz işini görüb və səssiz-səmirsiz çıxıb gedib, bir yuxu, bir kölgə kimi.

Teyyub Dəmirov dünyaya kölgə kimi sakit gəlib getmədi. Qaynar bulaq kimi çağladı, dağ çayları kimi coşdu, aşıb-daşdı.

Ailənin üçüncü övladı Teyyuba istedad verilmişdi. 10-11 yaşlarında xoş avazla oxuyar, nəğmə deyərdi. Qavalı qıçları arasına qoyaraq çalar, ritmləri səsləndirər, daha da həvəslənərdi. Oxumağı getdikcə daha da yaxşı alınırdı.

Teyyub elə az yaşlarındaca məşhur musiqiçi Əhəd Əliyevin dəf çalanı kimi toylara gedirdi. O, təxminən 14 yaşına qədər ustad qarmonçunun qaval çalanı olub. Teyyub Kor Əhədin saz, qarmon, balaban, tütək çalmağını diqqətlə izlər və öyrənməyə çalışırdı. Özü isə tələb olunan anlarda bildiyi mahnı və təsnifləri, xırda muğam parçalarını oxuyardı. Onun yaxşı oxumaq bacarığı qarmonçu Əhədi də qane edirdi. Çünki qarmonçuların dəstəsindəki dəfçalan həm də oxuyan olmalı idi. O zaman tələbat belə idi. Əhədin ustad çalğısı Teyyubun oxuduqlarını bəzəyər, zənginləşdirər və tamamlardı. Onlar birlikdə Bakıda ev şəraitində keçirilən "qız toyları"nda çalıb-çağırar və çox bəyənilərdilər. Bakıda və onun ətrafındakı qəsəbə və kəndlərdə qadın şadlıq məclislərində həmişə qadın sənətçilər (qarmon, qaval çalan) iştirak edərdilər. Əhədlə Teyyubun birlikdə "qız toyları"na dəvət olunmasında bir incə mətləb var idi. Teyyubun uşaq, yaşının az olması, Əhədin

isə gözdən əlilliyi onların qadın şənliklərinə dəvət olunması üçün əsas şərtlərdəndi.

Hər gün toy çaldığı üçün yorğunluq hiss edən qarmonçu Əhəd qadın məclislərinin birində xahiş edir ki, onu həyətə, havaya çıxarsınlar. Bir azdan məclisdəkilərin darıxdığını hiss edən Teyyub ustadın qarmonunu götürüb çalmağa başlayır. Hamının xoşuna gəlir. Əhəd həyətdə əyləşib, çalğını dinləyib məclisə qayıdanda Teyyubun ifasını bəyəndəyini söyləyir və bu işi davam etməsini tövsiyə edir.

Həmin vaxtdan Teyyub yalnız qarmon çalmaqla məşğul olur. 16 yaşından sərbəst olaraq toylara getməyə başlayır. O, Bakı və Abşeron toylarına gedirdi. Teyyub saz çalmağı da yaxşı öyrənmişdi. Çox yerlərdə istifadə edirdi. Dəfçaları ilə birlikdə getdiyi toylarda Teyyubgili yaxşı qarşılar və çox bəyənərdilər. Ənənəyə uyğun olaraq Teyyubun da dəfçaları oxuyurdu.

Teyyub muğamları, dəraməd və rəngləri, oyun havalarını elə məharətlə çalırdı ki, hamı heyran olurdu.

Sənətdə özünü təsdiq edəndən sonra ifasını əvvəl qrammafon valına, sonra isə radionun fonduna yazdırıb, daha artıq tanınır.

Xanəndə Hacıbala Hüseynov onun xalası oğludur. Teyyub Dəmirov məşhurlaşandan sonra onu özüylə toylara nağaraçalan aparıb. Qabiliyyətini duyub tez-tez öz evinə dəvət edərək ona oxumaq yollarını öyrədib. Teyyubun tövsiyələrindən öyrətdiyi oxuma qaydalarından Hacıbaba xalaoğlu çox şey əxz edib götürür və onunla birlikdə getdiyi toylarda nağara çala-çala oxuyub daha da səriştəli olur.

Çox sonralar Hacıbaba sərbəst xanəndə kimi fəaliyyətə başlayır və xeyli müddətdən sonra ustad sənətkara çevrilir və müəllimlik edir.

Ümumiyyətlə neçə-neçə ifaçının musiqiyə gəlib, peşəkar səviyyəyə yüksəlib məşhurlaşmasında T.Dəmirovun xüsusi qayğısı və böyük zəhməti danılmazdı.

T.Dəmirovun musiqi ictimaiyyəti arasında və bütünlükdə cəmiyyətdə dərin nüfuzu olmuşdur. Bütün fəaliyyəti boyu onun sənəti sevilmişdir. O, "Əhəd məktəbi"nin layiqli davamçısı sayılır.

Sənətkarın sənət aləmində yaxın dostları və yoldaşları saysız-hesabsız idi. Misal olaraq bəstəkar Səid Rüstəmov, şair Süleyman Rüstəm, xanəndələr Əbülfət Əliyev, Əlibaba Məmmədov, Mürşid Məmmədov, klarnet ifaçısı Nadir Axundov, tarzənlər Məmmədağa Muradov, Həbib Bayramov və başqalarının adlarını çəkə bilərik. Gənclik illərində H.Bayramovun ustad qarmonçu ilə yaxın dostluğu çoxlarına nümunə olmuşdur. Teyyub müəllim cavan tarzəni özüylə konsertlərə və toy məclisinə aparmışdı. Onlar birlikdə əsl sənət nümayiş etdirmişlər.

Məşhur xanəndə Fatma Mehrəliyeva ilə yoldaşlıq edən T.Dəmirov onun sənətdə özünü tapmasına çox kömək etmişdir. Fatma xanımın ifasında səslənən, fonda yazılan, bu gün də hamı tərəfindən sevilən və həqiqi sənət nümunəsi olan "Kəsmə şikəstə"nin hazırlanıb başa gəlməsində ustad qarmoçalanın xidməti olub. T.Dəmirov qarmonda çalaraq və həm də oxuyaraq ululanmızın bizə yadigar qoyduğu, nadir sənət incisi, "Kəsmə şikəstə"ni cümlə-cümlə, bənd-bənd bütün incə nəfəslərinə qədər F.Mehrəliyevaya öyrətmişdir.

T.Dəmirovun musiqimizə dərindən bələd olması onu həmişə sənətçilərə gərəkli etmişdir. Xanəndələr Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova, Gülxar Həsənova, Həqiqət Rzayeva, Töhvə Əliyeva və digərləri tez-tez onun evinə gələr, müntəzəm məşqlər edər, çalğısını dinlər, tövsiyə və söhbətlərindən çox şey öyrənərdilər.

Qarmonumuzun bir alət kimi ifasının daha mükəmməl, geniş imkanlı olması üçün T.Dəmirov həmişə düşünmüş və axtarışlar aparmışdır. Bu alətin tembrinin milli musiqimizə daha uyarlı və uyğun olması üçün Bakıda yaşayan, qarmon düzəldən ustaların hamısı ilə tez-tez görüşüb söhbətlər aparar və onlara dəyərli təkliflər verərmiş. Karpuşkin, Juravlev, Flippov, Qorbunov, Zverev, Valentin kimi ustalar Teyyubun əsaslı və dəyərli fikirlərilə hesablaşmış və qarmon

düzəltdikləri zaman onun dediklərini nəzərə almışlar. Qarmonun səs tembrini daha incə, zərif edən, üstünə dilçəklər düzülmüş mis təknəkələrdən (tirlərdən, plankalardan) birini "Skripiçnaya planka" adlandırırlar. (Burada qarmonun içərisindəki "do" və "sol" səsə aid dilciklərin birlikdə səslənməsi üçün köklənməsi nəzərdə tutulur).

Bilirik ki, bəzi simli alətlərin kvarta, kvinta köklənməsi vardır ki, bu ifa zamanı mühüm əhəmiyyət kəsb edir. Teyyub saz da çaldığı, simlərin səslənməsinə yaxşı bələd olduğu üçün görünür belə səs çalarını, həmahəngliyi qarmon tembrinə gətirib.

1938-ci ildə T.Dəmirov Bakıda və onun ətrafında yaşayan ən yaxşı qarmonçalanları öz ətrafına toplayaraq "qarmonçalanlar ansamblı" təşkil etmişdir. Bu ansambl Zaqafqaziyada və Şərqdə analoqu olmayan bir kollektiv idi. Teyyub müəllim ciddi məşqlər apararaq, yaxşı səslənməyə nail olmuş, repertuara xalq musiqisi nümunələrini, dəraməd, rəng, diringi və oyun havalarını daxil etmişdi. Bu ansambl bir sıra dövlət tədbirlərində və keçirilən müxtəlif konsertlərdə çıxışlar edərdi. Teyyubun belə bir ansambl yaratması onun yaradıcılıq məhsulu, sənətə sevgisi idisə, digər tərəfdən qarmon ifaçılığının inkişafına və sevilməsinə həqiqi xidmət idi. Ansambl Bakıdan kənarda da konsertlərə getmiş, rayonlarımızın əksəriyyətində, həmçinin Lənkəran, Salyan, Şəki və Gəncə şəhərlərində də olduqca maraqlı çıxışlar etmişdi. Repertuarda ansambl şəklində çalğı ilə bərabər ayrı-ayrı solo hissələr var idi. Bəzi musiqi əsərlərində unison çalğıdan başqa çoxsəsli əsərlər də vardı. Zərb alətləri iki dəf, bir nağara və bir qoşa nağaradan ibarət olmuşdur. T.Dəmirov ansambla rəqqaslar da dəvət etmişdi. Repertuara "Çobanlar rəqsi", "Tərəkəmə", "Naz eləmə", "Qaytağı" rəqsləri daxil idi. 1941-ci ildə Sovet-Alman müharibəsi başlayana qədər "Qarmonçular ansamblı" fəaliyyət göstərib.

Əslən Cənubi Azərbaycandan olan Mustafa Payan Sovet Azərbaycanında yaşayarkən tanınan xanəndə idi. Konsertlərdə oxuyur, radioda müntəzəm çıxış edir, Bakıda və onun ətrafında keçirilən toy şənliklərinə dəvət olunur, bəzən rayon yerlərinə də gedib çıxırdı. O, Sovet dövlətinin başçısı İ.V. Stalinin göstərişi və Azərbaycan Sovet Respublikasının başçısı M.C.Bağırovun icrası ilə 1939-cu ildə İran mühacirləri kimi öz ölkəsinə deportasiya olunanlar sırasında idi. Mustafa Təbriz radiosunda oxuyurdu. Bu sətirlərin müəllifi 1950-ci illərdə,1960-cı illərin ortalarına qədər radio dalğaları ilə Təbriz radiosundan Mustafa Payanın konsertlərini dinləyib. O, zil səsə, geniş diapozona, zəngulələrə malik olmasa da qaltanlı, ürəyəyatımlı səsilə, aydın diksiyası və qəzəl ehtiyatının zənginliyilə çoxlarının sevimli xanəndəsi idi. M.Payan doğrudan da Qüzey Azərbaycanda yaşayarkən məşhur bir xanəndə olaraq özünə pərəstişkarlar qazanmışdı. Deportasiya olunana qədər o, son illəri Teyyub Dəmirovla mehriban, sıx sənət yoldaşlığında olmuşdu. Sonralar onu xatırlayan ustad qarmonçu öz ailə üzvlərinə və sənət yoldaşlarına deyərmiş: "Mustafa mədəni, əxlaqlı, abır-ismətli insan, yaxşı həmsöhbət, sənətini sevdirə bilən xanəndə və sadiq dost idi. Yoldaşlıq etdiyim dövrdə mən ondan heç vaxt incimədim, yalnız düzlük, mehribanlıq və nəvaziş gördüm".

Mustafanın da deportasiya olunacağını bilən Teyyub öz nüfuzundan istifadə edib yüksək vəzifə sahibləri vasitəsilə dostunu müəyyən qədər Bakıda saxlatdıra bilmişdi. Mustafa Bakıdakı sonuncu toyda da Teyyubla birlikdə olmuşdu. Yüksək mənsəb sahibləri xalqın sevimli sənətkarının, mahir qarmonçalanın sözünü yerə salmamış, xahişini nəzərə alaraq sənət dostundan ayrılmazdan əvvəl bəhəm çalıb-oxumalarına imkan vermişdilər. Teyyub və sənət yoldaşları sonuncu toydan əvvəl bahəm çalıb-oxumalarına imkan vermişdilər. Həmin toyun səhərisi günü T.Dəqazandıqları pulların hamısını Mustafa Payana vermişdilər. Həmin toyun səhərisi günü T.Dəmirov dostu ilə idarəyə getmişdi. Elə o andaca M.Payanın yola salınma sənədləri hazırlanmışdı.

Qeyd etməliyik ki, Mustafa ilə Teyyub istər Bakı daxilində, istərsə də şəhərdən kənar kəndlərdə və qəsəbələrdə çalıb-oxumaları ilə yaxşı iz qoymuş, ad-san qazanmış, ən çox sevilən sənətkarlara dönmüşdülər. Onların birlikdə sənət işlətmələri gözəl alınırdı. Teyyub öz xanəndəsini əla müşa-

yiət edirdi.

İranın əyalərlərini gəzib-dolaşan, bir müddət Təbrizdə yaşayan Mustafa Tehranda qərar tutmuşdu. Orada yaşayıb sənət fəaliyyətində olmuşdu. Tehranın mərkəz hissəsində onun dükanı və çayxanası var idi. Sovet Azərbaycanından deportasiya olunanalar, mühacirət edənlər, Təbriz, Ərdəbil, Zəncan, Xoy, Mərənd, Sərab və digər şəhərlərdən Tehrana köçən soydaşlarımızın əksəriyyəti Mustafanın başına yığışardılar.

Mustafa Tehranda da Teyyubu unutmur, dos-tanışın yanında onu tez-tez xatırlayır, dostu üçün sovqatlar və hədiyyələr göndərirdi.

Əvvala onu qeyd edək ki, Bakıdan gəmi-bərə ilə yola salınanlar Ənzəli limanına çatan, sərnişinlər sahilə çıxan kimi Mustafa telefonla Bakıya zəng vurub sağ-salamat çatması barədə Teyyuba məlumat vermişdi. Tehranda yaşayanda o, dəfələrlə Teyyubun dördrəqəmli 54-72 telefon nömrəsinə zəng edər, hal-əhval tutar, dostlar üçün, Bakı üçün darıxdığını dilə gətirər, kövrələrdi. Buna görə T.Dəmirovu dəfələrlə təhlükəsizlik orqanlarına dəvət edib söhbət aparmış, sorğu-sual etmiş, SSRİ-dən deportasiya olunan və xarici dövlətdə yaşayan bir şəxslə əlaqəni kəsməyi tapşırmışdılar. Sənətkar isə belə demişdi: "Əvvəla mən ona yox, o mənə zəng vurur. Bir də ki, mənə sədaqət göstərən, məhəbbət eləyən, başqa ölkədə yaşasa da məni unutmayıb yada salan bir insana neçə deyə bilərəm ki, mənimlə əlaqəni kəs?!".

1941-ci ildə böyük bəstəkar Ü.Hacıbəylinin göstərişi və birbaşa nəzarəti ilə ilk dəfə xalq çalğı alətləri ansamblı yaradılır və rəhbərlik tarzən pedaqoq Əhməd Bakıxanova tapşırılır. Əslində isə bu 1927-ci ildə Azərbaycan radiosunda Ə.Bakıxanovun yaratdığı və 1937-ci ilə qədər fəaliyyətdə olan ansamblın bərpası idi. Əhməd müəllim özünün yaratdıqlarından başqa Teyyubun bəstələdiyi dəraməd və rənglərdən də ansamblın repertuarında istifadə etmişdir. Ansamblın qarmonçalanı Teyyub idi.

T.Dəmirov bütün ömrü boyu öz sənətinə və yaradıcılıq işlərinə ciddi yanaşmışdır. İstər ansamblların tərkibində, istərsə də solist kimi ən mühüm dövlət tədbirlərində və müxtəlif səpgili konsertlərdə çıxışlar etmişdir.

Cəmiyyətdə böyük hörməti olan T.Dəmirovun yüksək rütbəli şəxslərin, dövlət xadimlərinin yanında da böyük nüfuzu olmuşdur.

Məşhur, əfsanəvi usta, düzəltdiyi qarmonların bənzəri, əvəzi olmayan Arxip Karpuşkin həbs olunub Bayıl həbsxanasına düşərkən T.Dəmirov onu buraxdırmışdır. Teyyub Dövlət Filarmoniyasına konsertə gələn Azərbaycanın o dövrdəki rəhbəri Mir Cəfər Bağırova cəsarət göstərərək yaxınlaşıb söhbətləşmiş, usta Karpuşkinin həbsdə qalmasının qarmon sənətinə ağır zərbə olacağını söyləmişdir. Beləliklə, A.Karpuşkin həbsdən azad olunaraq ömrünün qalan hissəsində elə nadir, nümunəvi qarmonlar düzəldir ki, həmin alətləri, gözəl, məlahətli dilləkləri bu gün də ən yaxşı nümunələr kimi, ən peşəkar ifaçılar işlədir. Tanınan qarmonçuların əksəriyyəti onun düzəltdiyi alətlərlə öz ifalarını qrammafon vallarına və radionun fonduna yazdırmışlar.

Karpuşkinin yaşadığı dövrdə də, ondan sonra da işləyən ustaların heç biri onun işini görə bilməmişlər və onun səviyyəsinə çatmamışlar. T.Dəmirovun xeyirxahlığı, müdrikliyi və uzaqgörənliyi nəticəsində Karpuşkin daha yaxşı işlər görmüş, qarmon sənətimizə dəyərli xidmət göstərmişdir.

Teyyub müəllim 1938-ci ildə Moskva şəhərində keçirilən "Dekada"da iştirak etmişdir. O, ansambl tərkibində və solist kimi şəhərin mədəniyyət müəssisələrində, fabrik və zavodlarda konsertlərdə olmuş, Kremldə xalq çalğı alətləri orkestrinin tərkibində çıxış edərək "Üzzal" çalmışdır.

Sənətkar 1959-cu ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənət ongünlüyündə də iştirak edərək əsl sənət göstərmişdir.

Sənət işlətdiyi bütün dövr ərzində Bakının və rayonların ən nüfuzlu şəxslərinin toy məclislərinə dəvət alan sənətkarımız qarmonun ecazkar səsini hamıya sevdirmiş, xalq musiqimizi və özünün




Teyyub Dəmirovun rəhbərlik etdiyi qarmonçalanlar ansamblı

bəstələdiyi melodiyaları yüksək səviyyədə xalqa çatdırmışdır. O, gözəl xanəndə, incə zövqlü, kövrək və nadir səsli Fatma Mehrəliyeva ilə uzun illər sənət yoldaşlığı edərək onunla konsertlərə getmiş, özü ilə toylara aparmışdır. O dövrlərdə oğlan toylarına qadın müğənnilərin dəvət olunması qəbul olunmurdu. T.Dəmirov qadın müğənnini kişi toyuna aparan ilk musiqiçi idi. Fatma xanım arxayınlıqla, böyük həvəslə Teyyubla birlikdə oğlan toylarına gedirdi. Bu T.Dəmirovun el-obada, xalq arasında olan hörmət-izzətindən irəli gəlirdi.



Teyyub Dəmirov Böyük Vətən müharibəsi illərində konsert briqadasının tərkibində cəbhə bölgəsində. Sağdan birinci: Teyyub Dəmirov



Teyyub Dəmirovun qarmonçalanlar ansamblının üzvləri. Bakı, 1939-cu il

1941-1945-ci illər, müharibə dövründə T.Dəmirov məşhur müğənnilər Bülbül, Gülxar Həsənova, tarzən Hacı Məmmədov və başqa sənətçilərlə əsgərlər qarşısında çıxışlar etmişdi. Zabit və əsgərlər Teyyubdan rəqs havalarını çalmasını xahiş edərkən o, məmnuniyyətlə bunu yerinə yetirər, döyüşçülər onun çaldığı melodiyalarla həvəslə rəqs edib şənlənərdilər. Teyyub "Qızıl əsgər" adlandırdığı rəqsi o dövrdə bəstələyib. Teyyubun üzvü olduğu musiqiçilər heyəti hospitalları gəzərək yaralı əsgərlərə konsertlər vermişdir. Hətta bu heyətin üzvləri hospitallarda yataq xəstəsi olan yaralıların çarpayısı yanında da çalıb-oxumuşlar. Bunlar insanlığa, bəşəriyyətə əsl xidmət idi.

Ağır müharibə illərinin sənət yoldaşlığı SSRİ xalq artisti Bülbül ilə Teyyub arasında dostluq yaratmışdı. Sonrakı illərdə də konservatoriyanın professoru Bülbül tez-tez Teyyubun evinə gələrək xalq mahnılarımızı məşq edib işləmiş, müəyyən fikirlərini onunla bölüşmüş, daimi yaradıcılıq əlaqələrində olmuşdur.

Bülbül Teyyubun xalq musiqisinə yaxşı bələd olduğunu bildiyi üçün müğənnilərə onunla əlaqədə olmalarını tövsiyə edərdi.

Doğrudan da ustad sənətkar, şöhrətli müğənni Bülbül xalq musiqimizin nadir inciləri olan mahnıları lentə yazdırmamışdan öncə tez-tez Teyyubla görüşər və ciddi məşqlər edərmiş.

XX əsrin 50-60-cı illərində Teyyubun ifa etdiyi melodiyalar və muğamlar vaxtaşırı səsləndirilmişdir. Onun ifasının vurğunu olub qarmon sənətinə gələnlər lap çox idi.

Hələ 1941-1945-ci illər ərzindəki müharibədən xeyli əvvəl T.Dəmirovun evində dərs alan Abbas Abbasov, Bədəl Bədəlov, Qızxanım Dadaşova, Kübra Əbilova, Hacıbala Dadaşov, Səttar Hüseynov sonralar peşəkar sənətkar və məşhur qarmonçalan olmuşlar.

Ümumiyyətlə Azərbaycan qarmonunun formalaşıb peşəkar sənətdə işlədilməsi səviyyəsinə çatmasında, xalq musiqimizin inkişafında, oyun havalarının artıb çoxalmasında, ifaçılığın milli ruhda səslənməsində T.Dəmirovun xidmətləri bir həqiqətdir. Bir vaxtlar Azərbaycanda işlədilən on iki, on dörd, on altı dilli qarmonların təkmilləşib on səkkiz dilə çatdırılıb xromatik səs düzümünə gətirilməsi üçün Əhəd Əliyev və Teyyubun məsləhətləri və tövsiyələri daim əhəmiyyət kəsb edib.

T.Dəmirov Dövlət Filarmoniyasının, radionun və sonralar televiziyamız yaranan gündən bu yayım ocağının solisti olmuş, ömrünün axırınadək burada yorulmadan çalışmışdır.

Ustad sənətkar 70-dən artıq oyun havaları, dəraməd və rənglər bəstələmişdir. Sözün həqiqi mənasında o, bəstəkar idi. Onun böyük ustalıqla bəstələdiyi "Bayatı-Şiraz" dəramədini bəstəkar Rauf Hacıyev "Ürəyim sənsiz yanır" adlı mahnıya, "Zabul rəngi"ni isə bəstəkar-dirijor Səid Rüstəmov "Həkim qız" adlanan lirik mahnıya çevirmişdir.

Muğamların mahiyyətini, ruhunu, xasiyyətini, ona xas olan cəhətləri təsirli şəkildə çatdırmaq ifaçıdan böyük qabiliyyət və həssaslıq tələb edir. Öz muğam ifası ilə qarmonçu Teyyub bu tələbatı həmişə layiqincə yerinə yetirib. O, hər muğamın öz xislətini, ruhunu və xarakterini düzgün duyduğu üçün bu hissləri verə bilib. Muğam ifaçılığı onun yaradıcılıq fəaliyyətinin ayrılmaz hissəsi olmuşdur.

Aşağıda radionun fonduna yazdırdığı muğamların adları və lentə alınma tarixini göstəririk:

"Bayatı-Şiraz", "Segah", "Rast", "Zabul", "Bayatı-Qacar" (1957), "Şur" (1965).

Teyyubun bəstələdiyi xeyli oyun havaları vardır ki, özünün və başqa qarmonçalanların repertuarını bəzəmiş və bütün toylarda, el şənliklərində çalınmışdır.

Aşağıda onun Azərbaycan radiosunun fonduna yazdırdığı, özü bəstələdiyi rəqs melodiyalarının adlarını və lentə yazılma tarixini veririk:

"Qızıl Əsgər" (15.03.1957), "Nabat xanım" (01.02.1958), "Məlahət" (04.03.1961), "Aran köçü" (29.03.1961), "Elmira" (04.03.1961), "Solmazı" (08.03.1961), "Bülbülü" (16.08.1965), "Şəlalə" (04.02.1966), "Almaz" (09.02.1966), "Qəşəngi" (12.02.1967), "Elnuri" (12.02.1967), "Ayşadı"



Radionun səsyazma evində. Dəfçalan Əzizağa Nəcəfzadə, qarmonçu Teyyub Dəmirov, müğənni Şövkət Ələkbərova, tarzən Qulam Qasımov və kaman ifaçısı Fərhad Dadaşov

(12.02.1967).

Sənətkarın bəstələdiyi və lentə yazdırdığı "Cəngi", "Xumar", "Hacıkənd", "Teyyubi", "Qaytağı" adlı melodiyaları da vardır. Bundan başqa sənətkarımız ayrı-ayrı oyun havalarını da lentə yazdırmışdır. "Heyvagülü", "Bənövşə" (26.01.1958), "Şalaxo" (27.02.1958).

Ü. Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası əsasında 1956-cı ildə çəkilmiş kinofilmdə səslənən "Qıtqılıda" adlı oyun havası da T.Dəmirovun bəstəsidir.

Məhsuldar yaradıcılıq fəaliyyətində olan böyük sənətkarımızın bəstələdəiyi melodiyalardan xalq musiqimizdə və qarmon sənətinin tədrisində istifadə olunmuşdur. Bu melodiyalar xalq ruhundan qopub gəldiyi üçün bu gün də öyrənilir və tədris olunur.

Tarzən-pedaqoq, bəstəkar Adil Gəray 1946-cı ildə T.Dəmirovun bəstələdiyi muğam rənglərindən və rəqslərindən bəzilərini nota almışdır. Bəstəkar Səid Rüstəmovun oğlu Rafiq Rüstəmov Teyyubun dəramədlərinin və oyun havalarının əksəriyyətini nota yazmışdır. Bütün bunlar göstərir ki, sənətkarımızın yaradıcılıq işi heç vaxt diqqətdən kənar qalmamışdır.

T.Dəmirov 1933-cü ildə Mina xanımla ailə qurmuş, qız övladları dünyaya gəlmiş, ona Solmaz adı vermişdir. Ata qızının adına "Solmazı" rəqsi bəstələmişdir.

Mina xanım dünyadan köçdüyü üçün Teyyub Minəvvər xanımla evlənmiş, bir oğlu, bir qızı olmuşdur. O, oğluna öz adını, Teyyub adını vermiş, qızını Dilşad adlandırmışdır. Övladlarının şərəfinə "Teyyubi", və "Dilşadı" rəqslərini bəstələmişdir.

Böyük və hünərli yaradıcılıq yolu keçən Teyyub ümumxalq məhəbbəti qazansa da, dövlət nümayəndələri arasında nüfuz sahibi olsa da, ona heç bir fəxri ad verilməmişdir. Səbəbini belə izah edirdilər ki, o, kommunist partiyasının üzvü deyil.

T.Dəmirov sahibkar, tacir oğlu idi. 1920-ci ildə bolşeviklər Azərbaycanı istila edərkən Hacı Məmməd kişinin də varını, sərvətini, gəmilərini əlindən almışdılar. Müflisləşən, bundan çox da-

rıxıb əsəbiləşən Hacı Məmməd 1921-ci ildə vəfat etmişdir.

Teyyub kommunist partiyası və onun ideologiyasına nifrət edirdi. Bunu haradasa açıq şəkildə bildirmək pis nəticə verə bilərdi. Lakin qəlbindəki qəzəb ona partiyaçı olmağa imkan vermirdi.

Teyyubun sənətindən, bildiklərindən bəhrələnən sənətçilərə müxtəlif vaxtlarda fəxri adlar verilmişdir. Musiqimizin, qarmon ifaçılığının çiçəklənməsində yorulmaq bilmədən, ürəkdən çalışan T.Dəmirov isə bundan məhrum edilmişdi. Bir neçə erməni musiqiçilərə fəxri adlar verilməsi ona pis təsir etdiyi, əsəb sarsıntısı keçirdiyi üçün beyninə qan sızmış, xəstəlik dövrü keçirərək 1970-ci il avqust ayının 9-da, 62 yaşında vəfat etmişdir.



Azərbaycan Televiziyasında konsert. T.Dəmirov SSRİ xalq artisti Bülbülü müşayiət edərkən.

B.Vahabzadənin şeirlərinin birində deyilir:

"Həyat səni güldürəndə gülmüsən,
Hünərin var ağladanda gül, görün"

Öz xalqına və onun musiqi mədəniyyətinə sadiqlik nümayiş etdirən ustad bir sənətkar haqsızlığa və etinasızlığa dözə bilməyib vaxtsız dünyanı tərk etmişdir.

1994-cü ildə Azərbaycan Televiziyasında T.Dəmirovun yaradıcılığı haqqında hazırlanmış verilişdə xalq artistləri Tofiq Quliyev və Vasif Adıgözəlov da çıxış edirdilər. Orada T.Quliyevin belə bir fikri səslənir: "Gözümü açandan və musiqiyə gələndən mənimçün iki əlçatmaz işıq var, biri dahi Üzeyir Hacıbəyov, digəri T.Dəmirov. Mən nə qədər sağam, bu fikirdə olacam".

Cəsarətlə deməliyik ki, Teyyub Dəmirov Azərbaycan qarmon ifaçılığı sənətində klassik yol, üslüb yaratmışdır.

Teyyub Teyyuboğlunun söylədiklərindən: "1941-1945-ci illərdə, müharibə zamanı Bakıdakı Leytenant Şmidt adına zavod cəbhə üçün silah hazırlığına xidmət edirdi. Müharibə bitəndən neçə illər sonra da bu müəssisədə keyfiyyətli metallar qalmışdı.

Məşhur qarmon ustası Valentin Velçev 1960-cı illərdə Bakının mərkəzindəki Basin (hazırda Füzuli) küçəsindəki musiqi alətləri təmiri emalatxanasında işləyirdi.

Atam emalatxanaya gedib onunla görüşərdi. Valentin Teyyub Dəmirovun nüfuzlu şəxs olduğunu bilirdi. Odur ki, atamdan L. Şmidt adına zavoddan yüksək keyfiyyətli metal lövhələr əldə etməyi xahiş edərdi. Zavod rəhbərliyi də atamın sözünü yerə salmazdı. Çünkü T. Dəmirov vəzifəli şəxslərin yanında hörmət- izzət sahibi idi. Atam yüksək çinli məmurların zənglərindən sonra zavoda gedərdi. Ona istədiyi materialı verərdilər. Həmin keyfiyyətli metallardan qarmonun tənəkələrindəki (tirlər, rusca-blank, planka) səslərin (rusca-qolos) hazırlanmasında istifadə olunurdu".

Valentin pensiyaya çıxandan sonra Bakıxanov qəsəbəsində öz mənzilində işləyirdi. T.Teyyub-



Soldan: tarzən-bəstəkar Ağası Məşədibəyov, Teyyub Dəmirov və məşhur bəstəkar Cahangir Cahangirov

oğlu qarmonunu təmir etdirmək üçün onun yanına gedəndə usta onu hörmətlə qarşılamış və demişdi: "Sənin atan bizim işimizə çox kömək edib. Qarmonların hazırlanmasında onun təklifləri, tövsiyələri və ağıllı göstərişləri bizim işimizi xeyli qabağa aparıb. O, qarmon alətinin əsl xiridadarı idi. Bu peşənin inkişafında onun böyük xidmətləri olub"

T. Dəmirov doğrudan da musiqi aləmi üçün hərtərəfil xidmətlər sahibi idi. Bəstələdiyi melodiyalardan istər onun sağlığında, istər sonralar istifadə olunub. Bu gün də belədir. 2009-cu il martın 18-dən 25-nə qədər Bakıda keçirilən Beynəlxalq Muğam Festivalının yekun konserti AzTV ilə həmin ayın 24-də nümayiş etdirilən zaman bunu televiziya vasitəsilə izləyirdim. Üç nəfərdən ibarət ərəb musiqiçiləri (ney, qanun, zərb ifaçıları) T. Dəmirovun "Bayatı-Şiraz"dəramədini ifa etdilər. (Həmin dəraməd barədə bu yazımızda bəhs etmişik. Bu melodiyadan bizim muğam ifaçıları da tez-tez istifadə edirlər-Ə.R.). Dəraməddən sonra müğənni muğamı oxudu və sonda mahnı ilə tamamladı. Onlardan sonra səhnəyə Türkiyənin "İstanbul" muğam qruru dəvət olundu. Solist Sadiye Elmli idi. Onu zərb, qanun, ud və ney ifaçıları müşayiət edirdilər. Onlar bizim lirik, həzin bir "Bayatı –Şiraz rəngi" ilə öz çıxışlarına qədəm qoydular. Müğənni "Bayatı–Şirazı" dahi şairimiz Nizaminin qəzəli ilə oxudu. Misir ərəb ölkəsinin "Əsil" adlanan ansamblı da "Bayatı–Şiraz" muğamını T.Dəmirovun bəstələdiyi dəramədlə başladı. Dəraməddən sonra müğənni muğamı oxudu və sonda həmin dəramədin son cümləsini sözlə ifa etdi. Gözdən əlil müğənni Mustafa Səid özü ud çalırdı. O, ud aləti üzrə mütəxəssis kimi Misir univesitetinin professorudur.

Konsert zamanı T.Dəmirovun melodiyasını ilk eşitdiyimdə dərhal Teyyub Teyyuboğluna telefon açıb bildirdim ki, xarici ölkə musiqiçiləri onun atasının dəramədini ifa edirlər, televiziyanı izləsin. O, sevindiyini bildirdi. Sözün düzü bir Azərbaycan vətəndaşı kimi, həm də qrmon ifaçısı və araşdırmaçı olaraq qürur hissi keçirdim.

ZABUL DƏRAMƏDİ





legato


rit.

BAYATI-ŞİRAZ DƏRAMƏDİ

Musiqisi: Teyyub Dəmirovun





"SOLMAZI" rəqsi

Musiqisi: Teyyub Dəmirovun

Allegretto



"AYŞADI" rəqsi

Musiqisi: Teyyub Dəmirovun

Moderato



2.6. KAMRABƏYİM



Kamrabəyim

Kamrabəyim (Kəmiləbəyim) Həsən qızı Hüseynova 1900-cü ildə sözlü-nəğməli, füsünkar təbiətli, Azərbaycana dahilər bəxş edən Şuşada dünyaya gəlib. Elmin, maarifin, mədəniyyətin, musiqinin beşiyi olan bu şəhərdə vaxtilə ən peşəkar musiqiçilər, xanəndələr yetişmişdir. Güney Qafqazın Konservatoriyası sayılan Şuşa Azərbaycana Üzeyir bəy, Bülbül, Ə.B.Haqverdiyev, Nətəvan, Y.V.Çəmənzəminli, S.Şuşinski, Xan əmi və onlarca dühalar verib.

Kamrabəyim gözəl xanəndə və qarmonçalan idi. Musiqi təhsilini evdə fərdi qaydada almışdı. Pionino, tar, qarmon çalmağı uşaqlıqdan öyrənmişdi. Gur və məlahətli səsə malik olan xanəndə kimi klassik muğam və mahnıları xüsusi bir şövqlə çalıb-oxumuş, xırdalıqları, gəzişmələri, bədii ifaçılıq məharəti, texniki ustalığı, sənətkarlıq qabiliyyəti ilə başqalarından seçilmişdir. "Rast", "Segah", "Cahargah", "Herati", "Səmayi-şəms", "Qarabağ şikəstəsi" kimi muğamlar oxumasında, "Vağzalı", "Mirzəyi", "İnnabı", "Tərəkəmə", "Uzun dərə", kimi milli rəqs havaları onun qarmon ifasında olduqca orjinal səslənirdi.

Kamrabəyim XX əsrin 20-ci illərində Ağdamda qadınlar klubunun təşkilində fəal iştirak etmişdir. 1930-cu ildə bəstəkar Zülfüqar Hacıbəyov onu Bakıya dəvət etmiş, filormoniyada, mədəniyyət evlərində, fəhlə klublarında, müxtəlif konsert salonlarında, bir çox rayonlarda çıxışlarını təşkil etmişdir. Az müddətdə o, öz ifaçılığı ilə bütün respublikada məşhurlaşmışdır. Ümumiyyətlə bu ifaçı sənətkar, xüsusilə, Şuşada və Ağdamda o dövrdə keçirilən Şərq konsertlərində, ədəbi-bədii gecələrdə, teatr tamaşalarında fəal iştirak etmiş, Qarabağın və bütünlüklə respublikanın mədəni həyatının inkişafında mühüm rol oynamışdır.

1944-cu ildə Kamrabəyim Xan Şuşinski ilə birlikdə Tiflisdə keçirilən Zaqafqaziya xalqlarının incəsənət olimpiadasında iştirak etmiş, Zaqafqaziya Mərkəzi İcariyyə Komitəsinin fəxri fərmanına layiq görülmüşdür.

Qarabağda Kamrabəyimin qarmon ifaçılığının incəliyi və təsirindən həvəslənib bu sənətə gələnlər çox olmuşdur.

F.Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" kitabının 231-ci səhifəsində oxuyuruq: "Azərbaycanın əməkdar artisti Mürşid Haşımlı "Namuslu qız" tamaşasının Şuşada ilk tamaşasını belə xatırlayır: (Qeyd: - Bu operettanı Gəncədə yaşayan Məşədi Cəmil Əmirov 1923-cü ildə yazmış və həmin ildə də Gəncədə tamaşaya qoyulmuşdur) "1924-ilin yayında Zülfüqar Hacıbəyov ailəsi ilə Şuşaya dincəlməyə gəlmişdi. O,Şuşanın səhnə həvəskarlarını ətrafına toplayıb bir tamaşa oynamağı məsləhət gördü. Qərara alındı ki, "Aşıq Qərib"i oynayaq. Lakin bu tamaşa üçün qız tapa bilmirdik. Çox axtapışdan sonra qarmonçalan-xanəndə Kamrabəyimi tapdıq və "Aşıq Qərib" tamaşasını göstərdik".

Kamrabəyim el xanəndəsi olmaqla bərabər opera tamaşalarında da çıxış etmişdi.

Kamrabəyimin yaxşı ailəsi olmuş, dörd oğul böyütmüşdür. Ramiz, Fəxri, Sabir və Nadir. Fəxri anasından qarmon çalmağı öyrənmiş və Qarabağ məclislərində bacarıqlı sənətçi kimi tanınmışdır. Ağcəbədidə yaşamış, sənət fəaliyyətini orda davam etdirmişdir.

Layiqli sənət ömrü yaşamış Kəmiləbəyim Hüseynova 1964-cü ildə Bakıda dünyasını dəyişmişdir.

2.7. BİR SIRA QARMON İFAÇILARIMIZ HAQQINDA MƏLUMAT

Azərbaycan dram teatrının ilk peşəkar aktrisalarından, opera sənətimizin ilk Leylilərindən biri olmuş, milli kinomuzda bir sıra obrazlar yaratmış Sona Salman qızı Hacıyevanın (1907-1979) anası **Əzizə xanım Məmmədova** qarmonçalan olub. O, əslən şuşalı olan, bütün Qafqazda məşhurlaşan, klassik xanəndə Əbdülbaqi Zülalovun (1841-1927) qızı idi. Əzizə xanım o dövr üçün yararlı olan yarımtonsuz qarmonda çalıb. O, Nuxada (sonralar Şəki) qohum-qonşu, qız-gəlinlər bir yerə toplaşarkən və ya qadınlar şadyana mərasimlər yaradarkən həvəslə, ürəklə qarmonunu səsləndirərmiş.

Sona xanımın 1 yaşı olarkən atası vəfat edib. Ə.Zülalov qızı Əzizəni və nəvəsi Sonanı götürüb 1916-cı ildə Tiflisə köçüb. Az sonra Türkmənistanın Aşqabad şəhərinə, 1919-cu ildə oradan Bakıya gəliblər. Əvvəl Əzizə xanım, az sonra Sona Hacıyeva Əli Bayramov klubunda dram dərnəyinə üzv olublar. Bakıda ana-bala səhnəyə ikisi də eyni vaxtda qədəm qoyublar. Bütün bu dövr ərzində Əzizə xanım qarmonundan bir an belə ayrı düşməyib və həvəskar kimi məşğul olub.

• • •

Qubada yəhudi **Raba** və burada yaşamış el sənətkarı, zurna-balaban ifaçısı **İxtiyar Axundov** qarmon da çalırdı. Xaşmazda **Əminə xanım, Gülü kişi, İzgi Şahbaz** və digər qarmonçalanlar olmuşdur.

• • •

Məşhur bəstəkar Şəmsi Kərimovun (1924-2000) atası **Dadaş Kərimzadə** tacir idi. Onun yaxşı qarmon çalmağı vardı. Musiqiyə qəlbən bağlı bu insanın oğullarının və qızlarının hər biri milli çalğı alətlərimizi peşəkar səviyyədə ifa edirdilər.



Kərimzadələrinin ailə ansambl. Soldan yuxarı sırada: Həmid, Sima, ailə başçısı Dadaş kişi. Məsmə, Əjdər, aşağıda soldan Şəmsi və Məmmədqulu

• • •

Əslən Qubanın dağ yəhudilərindən olan və Bakıda yaşayıb qarmon ifaçısı və müğənni kimi tanınıb fəaliyyət göstərən, Sovet quruluşu dağıldıqdan sonra İsrailə köçüb orada dünyasını dəyişən **Xanikonun** atası **Milkəy Qəyiş** dövrünün mahir qarmonçalanı olmuşdur. O, Qubada yaşayıb burada çalışmışdır. M.Qəyiş 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünün iştirakçısı olmuşdur.

• • •

XIX əsrin sonları, XX əsrin I yarısında Şuşada **Sona** adlı qarmon ifaçısı olub. "Xalabacı" rəqs havası onun bəstəsidir. Bu rəqsin daha iki adı var: "Qaçaybala", "Ceyranbala". Toylarda qadın paltarı geyinib rəqs edən Qaçayın adı bu rəqsə verilmişdir. Həmin rəqqas bu havanın melodiyası ilə ceyran kimi süzdüyünə görə həmin rəqsə "Ceyranbala" da deyilmişdir.

• • •

XX əsrin 20-ci illərində Azərbaycan Sovet Respublikasının maliyyə komissarı və ticarət komissarı vəzifəsində çalışmış **Nadir İbrahimov** qarmon çalmaq bacarığına malik idi. O, fortepiano, tar və kaman alətlərini də çalırdı.

• • •

Şair Əliağa Vahid (1895-1965) şeirlərinin birində xalq çalğı alətlərimizin adını qeyd edəndə qarmona da yer ayırıb.

"Sazın, kamançanın, qarmonun, tarın,
Oxuyub-çalanın, gülün , baharın,
Ədibin, şairin, hər sənətkarın,
Ən böyük qiyməti bizim yerdədir".



• • •

Mir Rzaxan Talışinskinin qızı opera müğənnisi **Cahan Talışinskaya** piano, tar, fleyta, qaval və qarmonu bacarıqla ifa edirmiş.

• • •

Qeyd etməliyik ki, XX əsrin I yarısında Naxçıvanda **Mustafa** adlı qarmonçalan olmuşdur. Həmin əsrin 30-50-ci illərində Ordubadda doktor Abbasov və Seyid Mirhaşım ağa kimi qarmon ifaçıları olmuşdur.

• • •

Məşhur bəstəkarımız **Şəfiqə Axundova** (1924-2013) fortepiano, tar və qarmon çalırdı.

• • •

Xalq arasında Mehralı oğlu Bahadur kimi tanınan Bahadur Mehralı oğlu 1983-cü ildə Şuşada anadan olmuş, 1962-ci ildə Ağdamda vəfat etmişdir. **Mehralı** qarmon çalırdı. Həvəskar qarmonçu idi. Dabbaqlıq sənətilə məşğul olurdu. Bahadur atasının dükanına gəlib ona kömək edər və dabbaqlıq sənətini öyrənirdi.

Bahadurun xanəndə kimi yetişməsində atasının mühüm rolu olub. O, oğlunun xanəndə olmasını istədiyi üçün Şuşada Molla İbrahimin musiqi məktəbinə qoymuşdu. Nahar vaxtı qonşu dükandakı sənətkarlar Mehralının dükanına gəlirdilər.Mehralı qarmonunu götürüb çalar və ətrafındakıları sevindirərdi. Bahadur da onun məşayiətilə "Segah" oxuyardı.

• • •

Əhməd Bakıxanovun idarəsilə x.ç.a. ansamblının piano ifaçısı Ruxsara Mirzəbəyovanın (1910-1977) anası **Zəhra Molla Müslim qızı** (? – 1946) qarmon ifaçısı olmuşdur. Zəhra xanım Bakının Maştağa kəndindən idi, burada da ömr etmişdir.

• • •



Şuşada qamonçulardan biri də **Məşədi Müseyib Əliyev** olub. Ləqəbi Çolaq Qarğa idi. O, Cəncəyə də gedib çıxmışdı. Vokal sənətimizin korifeyi, SSRİ xalq artisti professor Bülbül 1914-1921-ci illərdə Gəncə şəhərində fəaliyyət göstərmiş, burada da püxtələşərək məşhurlaşmış, Bülbül adını da burada almışdır. Onu Cəncəyə Məşədi Müseyib aparmışdı. Toylara birlikdə gedirdilər. Bülbülün sehrkar səsinə həsəd aparan Çolaq Qarğa toydan qayıdanda faytonda zarafatyana oxuyarmış :

Mən Qarğayam, sən Bülbül,
Ay bəri bax, bəri bax...

• • •

Əmircanda yaşayan klarnet ifaçısı İsrafil Əzimovun ata babası Qara əslən Güney Azərbaycanın Sərab şəhərindən idi. O, bu tay Astaraya köçərək bir müddət burada yaşamışdı. Onun həyat yoldaşı **Sona xanım** Neftçala rayonundan idi. O da qarmon çalırdı. Bu ailə Bakının Bayıl qəsəbəsində yaşayırdı. Sona xanım diatonik qarmonu ilə qız toylarında, qız-gəlinlərin şadyana məclislərində çalırdı.

• • •

Məşhur pianoçu **Zaur Əliyev** əvvəllər qarmoncalan olmuşdur. Az müddət ərzində toy-nişana da getmişdir. Sonralar o, uzun illər Ə.Bakıxanovun x.ç.a. ansamblının pianoçusu kimi geniş və səmərəli fəaliyyət göstərmişdir. Həmin dövr ərzində dəramədlərin, rənglərin,muğamların müəyyən hissələrini solo çalmaqla bərabər, bəzən xanəndələrin muğam oxumalarını da müşayiət etmişdir. Təbii ki, onun qarmon çalmağı sonralar fortepianoda muğam ifa etməsinə təkan vermişdir. O, muğamları istər canlı çıxışlarda, istərsə də lent yazılarında yüksək peşəkarlıqla çalmışdır. Onun radio fondunda qorunan ifaları bu gün də həvəslə dinlənilir. Zaurun pianoda şirin qarmon barmaqları ilə işlətdiyi xallar gözəl və ahəngdar səslənir. Orada milli qarmon üslubunun ətri duyulur. Sənətkarın bu ifaları həm də səntur və qanun alətlərinin səslənməsinə bənzəyir.

• • •



Kitabımızda qadın ifaçılarımızın bəzilərinin haqqında bacardığımız qədər məlumat versək də, digərlərinin barəsində də söhbət açmağı çox gərəkli bildik. Bu insanlar könül tərənnələrini incə, zərif barmaqları vasitəsilə musiqiyə, nəğməyə çevirərək öz ailə üzvlərini, qohum-qonşunu, el-obasını sevindirmişlər. Bəziləri dar çərçivədə fəaliyyət göstərib ev şənliklərində çalmış, öz övladlarına və yaxınlarına sənət öyrətmiş, bəziləri isə geniş imkanda, el şənliklərində çalıb-çağırmışlar. Qadın qarmonçularımız da bu ifaçılıq sənətinin ayaq tutub yeriməsində xidmət göstərmişlər.

Qədim tarixə malik Dərbənd şəhərində dünyaya göz açan **Əsbənd xanım Zeynallı** məşhur bəstəkar Asəf Zeynallının (1909-1932) anasıdır. Əsbənd xanım gözəl qarmon ifaçısı olsa da, el şənliklərində çıxış etməyib. Sevimli qarmonunu sinəsinə sıxaraq ailə üzvlərini sevindirib, uşaqlarının musiqi tərbiyəsi ilə məşğul olub. Asəf Zeynallıya istedad valideynlərindən, musiqiyə həvəs evlərində çalınan duyğulu qarmon səsindən gəlib. Asəf də qarmon çalmağı bacarırdı. Ərinin vaxtsız vəfatından sonra Əsbənd xanım qohumlarının tövsiyəsi ilə uşaqlarını götürüb Bakıya köçmüşdü.

• • •



Sənəm xanım XX əsrin 30-60-cı illərində bütün Şirvanda qarmonçu, xanəndə, aşıq- şair kimi tanınırdı.

Bu el sənətkarı barədə məlumatı Hacı Seyvəddin Qəniyevin 2003-cü ildə Bakıda "Nurlan" nəşiriyyatında nəşr olunmuş "Şirvanlı Aşıq Bilal"adlanan kitabından (səh. 133-134) alırıq.

Müəllif yazır: İnstitutu yenicə qurtarmışdım. Təzə-təzə Şamaxı aşıq, şair, xanəndə və balabançalanları haqqındı məlumat toplayırdım. **Sənəm xanım** haqqında çox eşitmişdim. Onu da bilirdim ki, oğlu Ağamurad xanəndədir. Bir dəfə Quşçu kəndində bir toyda Ağamuradla (el arasında Sənəmoğlu və ya Sənəmoğlu Murad deyirlər) rastlaşdım. Sənəm haqqında soruşdum. Bakıda olduğunu söylədi. Ondan Sənəm xanımın ünvanını öyrəndim.

Bir dəyə Bakıya gələndə yolumu Sənəm xanımgildən saldım. Ağamuradın dediyinə görə, yaşı 80-i ötmüşdü. Qapını döydüm. Qapını üzərimə xanım-xatın bir qadın açdı. Heç altmış yaş da vermək olmazdı.

Sənəm xanımla iki saatdan artıq söhbət etdik. Onun yaddaşından çox xatirələri qələmə aldım...

Atam Səlim kişi kasıb olsa da, musiqi aşiqi idi. O dövrdə Şamaxıda yaşayıb-yaradan sənətkarların hamısı atamı tanıyırdı. Gözəl səsim olduğunu bilən atam məni qonşumuz qarmonçu Nariınc xanımın yanına şagird qoydu. O zamanlar **Narınc xanım** öz rəfiqələri- Püstə xanım, Zeynəb Abbas qızı, Nisəxanım Bağır qızı ilə Şamaxıda varlıların qız toyunu edərdi. Narınc xanım mənə qarmon sənətini öyrətdiyi kimi, səsimi də yoluna qoydu. 1923-cü ildən qız toylarına getməyə başladım.

Aşıq Bilalın sevgilisi Soltan xanımla bir məhəllədə böyümüşdük. Soltan mənim qız toylarına getdiyimi bilib sevindi. Xahişimi nəzərə alıb məni Aşıq Bilal ilə tanış etdi. Mən bütün dastanları Aşıq Bilaldan öyrəndiyim kimi, muğamların da bir çoxunu - "Şur", "Rast", "Zabul"u yerli-yataqlı o kişidən öyrəndim. 1930-cu illərdə beş dəfə Aşıq Bilalla toya getmişdim. Özü də xanəndə kimi. 1937 -ci ildə o kişi tutulandan sonra biz şagirdləri yasa batdıq. Mən sənətdən əl çəkdim. Ta müharibə bitənə kimi. 1946-cı ildə yenə qarmonumla qız toylarına getdim. 50-ci illərdə Kalva kəndində olan məşhur Əli kişi (zurna, balaban, tütək ifaçısı), Aşıq Şamil, Aşıq Abbas, Aşıq Soltanmuradla bir müddət yoldaşlıq etmişəm. Haralarda olmamışam toylarda!

• • •

Məşhur yazıçı Əbdülhəsənin "Dünya qopur" romanında **Minayə** adlı obraz vardır. Minayə qarmonçalandır. Əyalətlərimizdən birində yaşayır və kənd-kəsəkdə toy-nişan məclislərində, müxtəlif şənliklərdə köhnə, qırçınlı qarmonu ilə çalıb-çağırır. Onun sənət fəaliyyəti 1920-ci illərə təsadüf edir.

• • •

Ağdam şəhərində yaşayan **Zəriş** adlı qadın qarmonçu XX əsrin 50-60-cı illərində Qarabağ toylarında çalarmış. Solaxay olduğu üçün qarmonu sol əllə çalar və toy dəstəsində sağ tərəfdə, xanəndənin yanında əyləşərmiş.

Yeri gəlmişkən qeyd edək ki, Solaxay qarmonçalanlar respublikamızda çox az, cəmi 5-6 nəfər olublar. Onlar üçün məxsusi olaraq "Solaxay qarmon" düzəldilməyib. Qarmonun quruluşu və səs düzümü neçə varsa, o cür də qalmış, qarmonu götürüb, tərsinə çevirib, vərdiş edib çalmışlar.

Deyilənə görə Zəriş "re" kökündə, zil səsli qarmon düzəltdiribmiş. Onun çaldığı qarmonun səsi zurna səsinə oxşar imiş. Getdiyi toylarda oyun havalarını əsasən o çalırmış. Zil səsli qarmonunun səsi mağardan kənara çıxıb ətrafa yayılırmış. Xanəndələr onun çaldığı qarmonun müşayiətilə oxumağa ehtiyat edirmişlər.

• • •

1950-1960-cı illərdə **Alagöz xanım Abakarova** Göyçay rayonunda qarmon ifaçısı olaraq fəaliyyət göstərmişdir. Gənçlik illərində rayon ərazisindəki qız toylarında çalmış, sonralar isə evində fərdi qaydada və mədəniyyət evində dərs demişdir. Mədəniyyət sahəsində də mühüm işlərdə çalışmışdır.

• • •

Böyük Vətən Müharibəsi (1941-1945) bitəndən sonra Bakının "Sovetski" adlanan məhəlləsində **Sona Kubra, Qoca Məryam, Tükəzban Nəcəfzadə** (mahir dəfçalan Əzizağa Nəcəfzadənin bacısı) və bir-neçə qarmon sənətçisi olan xanımlar öz mənzillərində həvəskarlara bu ifaçılıq sənətinin qaydalarını öyrətmişlər.

• • •

Sadıqova Firuzə (Pürzə) **Abdulhəsən qızı** 1895-ci ildə Salyan qəzasının Xıllı qəsəbəsində (İndi Neftçala ərazisində) anadan olub. 12 yaşında öz istedadı sayəsində qarmon çalmağı öyrənib. 13-14 yaşında qız toylarına, xınayaxdı məclislərinə getməyə başlayıb. 14 yaşında gəlin köçüb. 1915-ci ildən 1941-ci il müharibə başlayana qədər yaşadığı qəsəbənin qız toylarının çalğıçısı öz dəfçalanı ilə Firuzə xanım olub. El adəti ilə 1910-cu illərin ikinci yarısı və 1920-ci illərdə faytonla Qaramanlı kəndindən Xıllıya, Xıllıdan Bayat (Boyad) kəndinə qarmon-qavalla gəlin aparıb.

Bu qadın, mehribanlığı, xoş rəftarı, sənətinə sonsuz həvəsilə el-obada qarmonçu Pürzə kimi çox məşhur olub. Onun, o dövrün qarmon ustalarının düzəltdiyi iki, qarmonu var imiş. Hər iki yarımtonsuz qarmondan istifadə edərmiş.

1937-ci ildə, repressiya dövründə həyat yoldaşını qolçomaq adı ilə həbs edərkən ev əşyalarının müsadirəsi zamanı onun qarmonunun birini götürüb aparmışlar. Firuzə xanım o biri qarmonu ilə toylara gedərək övladlarını böyütmüşdür.

1941-ci ildə böyük oğlu Əlibala müharibəyə gedir və həlak olur. Onun yaxşı tar çalmağı var imiş.

Firuzə xanım 1941-ci ildə qarmonu satmış və ağır müharibə illərində evə-ailəyə xərcləmişdir. Sənətdən uzaqlaşmasına səbəb məşəqqətli müharibə dövrü olub.

1910-cu, 20-ci, 30-cu illərdə qız toylarında o dövrün tələbinə uyğyn, sadə quruluşlu rəqs havaları, el nəğmələri çalınırmış. Bu beş-on havanı Firuzə xanım lazımınca ifa edib məclisləri yola verərmiş. O, əvvəllər bir-neçə dəfçalan qadınla, sənət işlətməsinin son dövründə isə Bəhiyyə xanım Həsən qızı ilə mehriban və səmimi yoldaşlıq etmişdir.

• • •



Bakının Əmircan qəsəbəsindən **Əminə xanım** bacarıqlı qarmon ifaçısı kimi yetişmişdi. O, türk zabiti Mehmetlə (Məhəmməd) ailə qurmuşdu. Bu ailədə Zabit adlı bir istedadlı oğul böyüyüb qarmon və klarnet ifaçısı kimi yetişərək xalqımıza xidmət etmişdir. (Bax.Əhsən Rəhmanlı, "Azərbaycanda klarnet ifaçılığı sənəti", Bakı, MBM nəşriyyatı-2010, səh.215-223).

Mehmet Bakıya 1918-ci ildə Türk Qafqaz Müsəlman Ordusu tərkibində gəlmişdi. Bu ordunun məqsədi Bakını və Azərbaycanı daşnak-bolşevik hərbi birləşmələrinin təcavüzündən xilas etmək idi. Xilaskar ordu Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Salyanda, Neftçalada, Bilasuvarda qırğınlara son qoydu və daşnak-bolşevik qoşunlarını darmadağın etdi.

Türk zabitləri və əsgərləri Bakıda kəndləri gəzib əsayişi bərpa edir, əhali ilə söhbət edib qorxu-hürkünü aradan qaldı-

rırdılar. Mehmetgil Əmircanda gəzib-dolaşıb camaatla söhbət apararkən həyətlərin birində gözəlgöyçək, cəld, çevik bir qıza rast gəlir. Nağıllarımızda deyildiyi kimi bir könüldən min könülə qıza aşiq olur. Zabit yoldaşları ilə dəfələrlə elçi düşsə də qızın ata-anası razılıq vermirlər. Mehmet Allahın rast gətirdiyi qismətdən, sevgi payından yan keçmir, bu işdən əl çəkmir, nəhayət istədiyinə nail olur, "hərı" cavabı alır, Əminə xanımla ailə quraraq həmişəlik Bakıda qalır. O, zaman Əminə xanımın 17 yaşı vardı. Məhəllədə, kənddə qarmonçalan kimi tanınırdı.

Əminə uşaqlıqdan şıltaqlığı, dəcəlliyi, cəldliyi və istedadı ilə uşaqlardan seçilir və diqqəti cəlb edirdi. Kiçik yaşlardan diatonik qarmon çalırdı. Böyüyüb qarmonçalan kimi tanınmışdı. Ailə qurandan sonra ərinin icazəsi və atasının xeyir-duası ilə Bakının özündə, Əmircanda və digər kəndlərdə qadın yığıncaqlarında və toylarda çalırdı. Qız-gəlin məclislərində onu sevər, əzizlər və ona "türk qızı" deyərdilər. Onun nağaraçalanı Xırdaxanım idi. Onun dəf çalmağı və məlahətli səsi vardı. Əla oxumağı olsa da məclislərdə yox, ailə tədbirlərində səsi ilə könülləri oxşayırdı.

Mehmet Əfəndi Əminə və Xırdaxanımı toylara faytonla yola salar və və faytonla da qarşılardı.

• • •

Əslən Bakının Balaxanı kəndindən olan **Novruzova Aida Nuğday qızı** 1929-cu ildə dünyaya gəlib. İçərişəhərdə boya-başa çatıb. Qarmon sənətinin ifa qaydalarını Bakının köhnə məhəllələrindən biri olan, Sovetseki adlanan məhəllədə yaşayan Mirzəağa adlı sənətkardan öyrənib. Mirzəağa pioner və məktəblilər evində musiqi dərnəyində çalışır, evində həvəskarlara fərdi yolla dərs keçir və toy-mağarda çalırdı. O, Əhəd Əliyevdən (Kor Əhəd) muğam dərsi almışdır.

Aida Mirzəağa müəllimin ən istedadlı və sevimli tələbələrindən biri olmuşdur. O, bildiklərinin hamısını Aida xanıma öyrətməyə çalışmışdı. Yaşa dolub, qocalıb xəstə düşəndə Aida xanım öz müəlliminin qayğısına, qaydına qalmışdır. O, öz müəlliminə şəfqət göstərmiş, müntəzəm baş çəkmişdir. Əbəs deyil ki, sənətkar vəsiyyət edib demişdir: "Məndən sonra qarmonumu Aidaya verin. Alət yad əllərə düşməsin".

Mirzəağanın qarmonu usta Karpuşkinin düzəltdiyi ən nadir qarmonlardan biri tək ən məşhur qarmonçalanların nəzərində, arzu və istəyində olmuşdur.

Aida Novruzova müəllimindən ona yadigar qalan şirin, məlahətli səsli qarmon vasitəsiylə öz incə könül tellərini dindirərək az ömründə musiqisevərləri sevindirmişdir.

Allah-təala bu xanıma hər şey, gözəl çöhrə, yar-yaraşıq, məhahətli səs bəxş etmişdir. Onun gözəlliyi daxili aləminin saflığında, nəcibliyində və xoş xasiyyətində də özünü büruzə verirdi. Onu məşhur müğənni Şövkət xanım Ələkbərovaya bənzədirlərmiş.

Aida xanım əvvəl Bakıda, ətrafdakı kənd və qəsəbələrdə kiçik musiqi dəstəsilə qız toylarında çalıb-oxumuşdur. O, əvvəldən müğənni-qarmoncu kimi tanınırdı. Onun istedadını görüb Azərbaycan Dövlət Filarmoniyasına dəvət edirlər. Aida xanım Novruzova 1962- cı ildən 1970-ci ilə qədər burada çalışaraq müxtəlif tədbirlərdə, konsertlərdə çıxış etmişdir. O, filarmoniyada solist-qarmonçu və müğənni kimi fəaliyyət göstərmişdir. İrili-xırdalı müəssisələrdə, rayonlarda kolxoz və sovxozlarda verilən konsertlərdə sevimli qarmonunu sinəsinə sıxıb, çalıb-oxuyub insanlara nəğmələr ərməğan etmişdir.

Qeyd edək ki, onun çaldığı alət say-seçmə qarmonlardan idi. Qeyri-adi səsə, əla tembrə malik bu alətin sorağına çoxları düşmüşdü. Hətta bu qarmonu bir dəfə oğurlamışdılar. Xoşbəxtlikdən alət tez də tapılıb sahibinə qaytarılmışdı.

Aida xanımın ifasında radionun fondunda "Kolxozu" rəqsi yazılmışdır. Gözəl ifa olduğu üçün tez-tez səsləndirilirdi.

Hələ neçə-neçə xalq havalarını, milli rəqslərimizi və könül oxşayan tərənələri çalıb lentə yazdıracaqdı. Amansız əcəl macal vermədi.

Aida Novruzova həyatının və sənətinin çiçəkləndiyi bir zamanda 1970-ci ildə 41 yaşında dünyasını dəyişmişdir.

• • •



Zümzüm xanım Məlik qızı 1895-ci ildə Bakının Balaxanı kəndində anadan olub. 12-13 yaşlarında yarımtonsuz qarmonda sərbəst olaraq rəqs havalarını çalırmış. 14 yaşı olanda kəndlərirndə xınayaxdı məclislərində çalmış, 2-3 ildən sonra nəinki Balaxanıda hətta Zabratda, Maştağada, Pirşağı, Kürdəxanı, Məhəmmədli və digər kəndlərdə keçirilən qız toylarına çağrılmışdır.

15 yaşında ailə qurmuş, 2 oğlan, 2 qız böyütmüşdür. Sənətə sonsuz həvəslə yanaşan bu qadın ev, ailə qayğılarının öhdəsindən cəsarətlə gələrək, övladlarını böyüdərək musiqid' ı də ayrılmamışdır.

Yazımızda adını çəkdiyimiz kəndlərd. Zümzüm xanımın XX əsrin 30-cu 40-cı illərində çaldığı toyların iştirakçısı olmuş, yaşı 75-dən yuxarı olan qadınlar onun xınayaxdı məclisində, qız toylarında öz qaval çalanı ilə iştirakını bu gün də xatırlayırlar. Zümzüm xanım XX əsrin 20-ci illərində Balaxanı kulubundakı bədii dənəklərə üzv olmuş, müxtəlif tədbirlərdə öz qarmonu ilə xalqımıza xidmət etmişdir.

1933-cü ildə "Şərq qadını" jurnalında "Zəhmətkeşlərin 1 may nümayişi"ndə (Sovet dövlətinin bayramlarından biri - Ə.R.) çəkilmiş foto şəkildə Zümzüm xanımın (əlində qarmon), onun dəf çalanı Ruqiyyə xanımın (əlində dəf) və rəfiqələri Xədicə xanım (çarşaba bürünmüş) surəti ön sırada görünür.

Zümzüm xanım oğulları Əfqan və Sənana qarmon sənətini öyrətmişdir. Hər iki oğul analarından öyrəndikləri sənəti birə-beş artıraraq, daha da mükəmmələşdirərək kənd və qəsəbələrdə çalıb-çağırmışlar.

Zümzümün nəvəsi Kəmalə xanım Cabbarova musiqişünasdır. Pedaqoji fəaliyyətdədir.

Zümzüm Məlik qızı 1975-ci ildə dünyasını dəyişmişdir.

• • •



Türrə Vahid qızı Hüseynova 1906-cı il aprel ayının 2-də Bakıda anadan olub və məşhur "Sovetski" məhəlləsində boya-başa çatıb. Onların ailəsi sonralar Mərdəkan qəsəbəsinə köçüb.

Türrə 10-12 yaşlarından başlayaraq incə musiqi duyumu nəticəsində qarmon çalmağa başlayıb. Bu işdə qohumlarının qarmonu onun karına gəlib. Atası Türrənin böyük həvəsini və ifa bacarığını görüb ona qarmon alıb.

16 yaşından toylara gedən bu qızın çalğı qabiliyyəti çox bəyənilir, tədricən tanınmağa başlayır və rəğbət qazanır. Hətta ustad qarmonçu Əhəd Əliyev və digər məharətli sənətçilər də Türrəni dinləyib razı qalmış, hər yerdə müsbət fikir söyləmişlər.

Bakıda yaşayan əksər qadın müğənnilər və musiqiçilərlə sənət yoldaşlığı etməyi bacaran Türrə Hüseynova səmimiyyəti və düzlüyü ilə çox hörmət qazanıb. Onunçün də həmin qadın sənətçilərimiz Türrə ilə toy şənliklərinə getmişlər. Sənətindən,

özündən, sözündən razı qalmışlar. Türrə xanım 16 yaşında ailə qurub, dünyaya övladlar gətirərək boya-başa çatdırıb. Böyük ana məhəbbətilə böyütdüyü dörd qız və dörd oğulun musiqi tərbiyəsi ilə də məşğul olmuşdur. Övladlarından bəziləri əvvəllər qarmon çalmağa həvəs göstərsələr də sonralar başqa peşələrə sahib olmuşlar. Nəvələrdən də biri bir müddət yaxşı qarmon çalsa da, öz taleyini digər sənətə bağlayıb.

1941-1945-ci illər müharibəsi zamanı Türrə xanım hospitala gəlib yaralılara xidmət məqsədilə həkimlər və tibb bacılarına yaxından kömək edib. Bəzən də yaralıları oyundurmaq üçün sevimli qarmonunu hospitala aparıb çalırmış. Onun bu qabiliyyətini görən hospital rəisi Türrədən musiqi qrupu ilə tez-tez konsertə gəlməsini xahiş edir. T.Hüseynova çalıb-oxuyan dostlarını ətrafına toplayaraq Bakıdakı hospitalların hamısına konsertlərə getmişdir.

Müharibədən sonra konsert briqadalarının tərkibində Türrə xanım Azərbaycan rayonlarındakı kolxoz və sovxozlara gedərək onlara göstərilən mədəni xidmətin iştirakçısı olmuşdur.

O, 1960-cı illərdə Mərdəkan qəsəbəsindəki 221 saylı uşaq bağçası və körpələr evində musiqi rəhbəri işləmişdir.

T.Hüseynova 65 yaşına qədər yüksək sənət enerjisilə Bakının hər bir kənd və qəsəbəsində el adəti ilə keçirilən qız toylarında öz dəstəsilə çalıb-çağırmışdır.

Qadın qarmonçularımızın ən mahir ifaçısı Q.Dadaşova Türrənin sənətini çox bəyənər, xətrini çox istərmiş. Qızxanım macal tapıb gedə bilməyəcəyi toyun sahiblərinə öz məclislərinə Türrə xanımı dəvət etmələrini arxayınlıqla məsləhət görürmüş.

T.Hüseynova ömrünün müdrik çağlarında, təxminən 75 yaşa qədər yüngül məclislərə, xınayaxdı adlanan tədbirlərə getmişdir. Belə yaşda toy sənətçiliyinə xidmət etmək hər adama məxsus deyil. Bu yalnız sənətə yüksək sevgidən və ifaçılıq tərzini saxlamaq bacarığından irəli gəlir.

Övlad, ailə qayğıları, toy-büsat məclislərinə ardıcıl dəvətlər belə gözəl sənətkarımıza könül nəğmələrini, xalq havalarını öz ifasında lentə yazdırmağa imkan verməmişdir.

Zəhmət, hünər dolu, zəngin və mənalı bir ömür yolu keçən Türrə nənənin yüzdən artıq nəvə-nəticəsi vardır.

2006-cı il aprel ayının 4-də Əzizbəyov (hazırda Xəzər rayonu) rayon İcra Hakimiyyətinin Mərdəkan qəsəbəsindəki mədəniyyət sarayında T.Hüseynovanın 100 illik yubileyi ilə bağlı keçirdiyi təntənəli tədbir hələ çoxlarının xatirindən silinməyəcək. Tədbirdə rayonun rəhbər işçiləri, görkəmli ziyalılar, o cümlədən tanınan sənətçilər Zakir Mirzə, Gövhər Rzayeva, Adil Hüseynov (1923-2008), Baxışəli Əliyev və başqaları iştirak edib ürək sözlərini söyləmişlər.

Türrə nənə 2007-ci il fevral ayının 1-də dünyasını dəyişmişdir.

• • •

Zibaxanım Kərbəlayi Əliheydər qızı 1903-cü il fevralın 14-də Bakının Bülbülə qəsəbəsində anadan olub. Burada boya-başa çatıb, gəlin köçüb. Kiçik yaşlarından qarmon çalmağı öyrənən Zibaxanım getdikcə daha yaxşı ifaya yiyələnir, əvvəllər evdəkiləri, sonra məhəllələrindəki rəfiqələrini, qız-gəlinləri, ağbirçək ana və nənələri sevindirir.

Böyüyüb başa çatdığı ailə müsəlman dini ayinlərinin düzgün icraçısı olduğu üçün Ziba xanım kiçik yaşlarından bu qaydalarla tərbiyə almış və onlara tam əməl etmişdir. Kərbəlayi Əliheydərin qəsəbədə yüksək nüfuzu olmuşdur. Onun tərbiyə edib, böyütdüyü övladlar, o cümlədən Ziba xanım ədəb-ərkanı, yüksək əxlaqı, abır-isməti, geyimilə nümunəvi sayılmış, rəğbətlə qarşılanmışdır.

Ziba xanım XX əsrin 30-cu illərinin ikinci yarısından peşəkar sənətə gəlmiş, yaşadığı Bülbülədə və ona yaxın qəsəbələrdə qız toylarına getmişdir. O, 1962-ci ilə qədər bu işi davam etmişdir. Ziba xanım öz övladlarına da qarmon çalmağı öyrətmişdir. Onun oğullarının hamısı qarmon çalmaq qabiliyyətinə malik olmuşlar. Lakin onlardan birinin, Hacıağa Məhərrəmovun adını xüsusilə

qeyd edirik. Anasından öyrəndiyi peşəni işlədərək o, həm də tütək balaban və klarnet ifaçısı kimi də tanınmış və toylarda uzun illər çalışmışdır. O, gənclik illərində A.Zeynallı adına Musiqi Texnikumunun balaban sinfini bitirmiş, və Bakının Bakıxanov qəsəbəsindəki 4 saylı musiqi məktəbində müəllim işləməyə başlamışdır. Hacıağa bu məktəbə balaban müəllimi kimi gəlsə də, sonralar qarmon ixtisasının not və muğam tədrisilə də məşğul olmuşdur. Hacıağa müəllim ömrünün sonuna qədər 4 saylı musiqi məktəbində çalışmışdır.

H.Məhərrəmovun tütəkdə çaldığı oyun havaları XX yüzilin 50-60-70-ci illərində tez-tez səsləndirilirdi. Həmin rəqs musiqiləri və digər havaçatlar Azərbaycan radiosunun fondunda bu gün də qorunur.

Ömürlərini və istedadlarını ifaçılıq sənətinə həsr etmiş, toy-mağarda sevimli xalqımıza xidmət göstərmiş sənətçilərimiz bu gün dünyada olmasalar da izləri qalmaqda və görünməkdədir. O adları tarixə köçürmək isə bizim öhdəmizə düşür.

Kitabımızda adını çəkdiyimiz Məryəm Hüseynbala qızı Məhərrəmovanın ifaçılıq sənətinə gəlməsində də Ziba xanım Kərbəlayi Əliheydər qızının müəyyən rolu olmuşdur.

• • •



Tutu Yusif qızı 1910-cu ildə Lənkəran şəhərində anadan olub. Şeyx Yusif əslən Şuşalıdır. Məşhur tarzən Sadıqcanın qardaşıdır. Yusifin məlahətli, gözəl səsi olmuşdur. O, Şuşada yaşadığı və gənclik illərində Lənkərana gəldiyi dövrdə məsciddə minacat çəkmişdir. İrana getmək arzusu ilə gəlib Lənkərandan keçərkən bir müddət burada qalmalı olur. Qismət, tale onu bu gözəl məkana bağlayır. Qönçə adlı bir qızla ailə qurur. Lənkəranın şeyxi kimi nüfuz sahibi olan bu insan dünyasını dəyişəndən sonra da daim hörmətlə anılmışdır.

Şeyx Yusiflə Qönçə xanımın doqquz övladı dünyaya gəlib. Haqqında söhbət açacağımız Tutu ailənin doqquzuncu övladıdır. Bütün uşaqlar kimi Tutu da atıhb-düşüb, şənlənib, gizlənpaç oynayıb, qaçıb-yürüyüb. Şən uşaq avazıyla oxuyub. Evlərində divardan asılan tara maraqla tamaşa edən Tutu bu alətin kimə məxsus olduğunu soruşduqda atası belə cavab verir: "Bu sənin əmin ustad tarzən, böyük sənətkar Sadıqcanındır. Mən də uşaqlıqda tar çalmağı öyrənmişdim. Müqəddəs islam dinimiz məni öz qoynuna aldı. Mən din əhliyəm, məscid adamıyam. Bu mənim tale yolumdur".

10-12 yaşlarında Tutu tar çalmaq arzusuna düşür. Çalışsa da bir şey alınmır. Görünür tarın sinədə tutulmaq qaydası, köklənməsi və s. qızcığaza onu yaxşı öyrənməyə imkan vermir.

Tutu 13 yaşında olarkən onu İsgəndər Abdullayevə ərə verirlər. Deməliyik ki, keçmişdə bütün Şərq aləmində, o cümlədən Azərbaycanda azyaşlı qızları ərə vermək şəriət qanunlarına əsasən məqbul sayılırdı.

İsgəndər Abdullayev Lənkəran bölgəsində tanınan qarmonçalan olub. (O son dövrlər Azərbaycanda nəfəs alətləri balaban, tütək və klarnetin ən mahir ifaçılarından biri sayılan Hakim Abdullayevin babasıdır).

İsgəndərin evinə gələndən sonra tez-tez qarmon səsi eşidən Tutunun musiqiyə olan həvəsi yenidən oyanır. O, həyat yoldaşından ona da qarmon çalmağı öyrətməsini xahiş etsə də əri buna razı olmur. İsgəndər evdə olmayanda 13 yaşlı Tutu gizlincə qarmonu çalmağa başlayır, və gündən-günə neçə-neçə xalq havalarını öyrənir. Bir müddətdən sonra İsgəndər arvadının qarmon çalğısını eşidəndə təəccübünü gizlədə bilmir, gülümsünərək evə daxil olub deyir: "Bəh-bəh, mən səni öy-

rətmədim ki, sən yalnız ev işlərilə məşğul olasan. Sən isə vaxtından qarmon çalmağa da həsr elədin. Yaxşıca da öyrənmisən ki..."

İsgəndər Abdullayev arabir Tutu xanıma yeni-yeni havalar öyrədir, qarmon ifaçılığının sirlərini başa salır. Get-gedə Tutu xanım daha mükəmməl qarmonçalan olur.

Tutu xanım Lənkəranın özündə və ətraf kəndlərində qız toylarında, paltarkəsdi (bəzi yerlərdə paltar biçdi də deyirlər), xınayaxdı məclislərində dəstəsilə çalaraq məşhurlaşmış, dərin nüfuz qazanmışdır. Getdiyi yerlərdə onu təxəllüsü ilə, Nənəbacı adıyla çağırmışlar.

İsgəndər Abdullayevlə Tutu xanımın həyat yolları ayrılmalı olur.

İkinci dəfə ailə həyatı quran Tutu Heybət Şərifova ərə gedir. Onların hər ikisi 1941-ci il müharibə başlayana qədər Yardımlı və Lerik rayonlarında ibtidai və yeddiillik məktəblərdə müəllimlik edirlər. Əsgərliyə çağrılan Heybət müəllim dağ raoynlarında həyat yoldaşının işləməsinin çətin olacağını bildiyi üçün Tutu xanımı Lənkərana gətirir.

1945-ci il müharibə bitəndən sonra H.Şərifov sağ-salamat vətənə dönür. Həyat yoldaşının qayıtması Tutu xanımda böyük toy-bayram əhval-ruhiyyəsi yaradır. O, sevimli qarmonuna sarılaraq daha şən, daha şaqraq nəğmələr çalıb el şənliklərinə qovuşur. Lənkəranın qız toyları, qadın şadyana məclisləri onu qoynuna alır. Ailəsinə sonsuz sədaqət göstərərək, övladlarını əzmkar qayğıyla böyüdərək, xalq musiqimizə xidmət edərək Tutu xanım (Nənəbacı) ifaçılıq sənətimizi bölgələrdə inkişaf etdirən qadın sənətkarlarımızın nümayəndəsi və nümunəsi kimi xalqımıza şadyanalıq bəxş edənlərdən biri kimi hörmətlə xatırlanmalıdır. O, öz sənətini oğlanlarına da öyrətmişdir. Övladlarından neçəsi xalq musiqimizə xidmət etmişlər.

Tutu xanım ömrünün sonuna qədər sevimli sənəti, qarmon ifası ilə insanlara sevinc bağışlamışdır. O, 1968-ci ildə Lənkəranda dünyasını dəyişmişdir.

• • •



Sona Sadıq qızı İrzaquliyeva 1927-ci il oktyabr ayının 15-də Dağıstan Muxtar Respublikasının Dərbənd şəhərində ziyalı ailəsində anadan olub. 1935-1945-ci illərdə orta məktəbdə təhsil alıb.


Onun ana nənəsi Məsməxanın (1898-1966) qarmon çalıb. Nənəsinin bircərgəli diatonik qarmonunun səsi balaca Sonanı ovsunlayıb. Odur ki, mənəsindən qarmon çalmağı öyrənib. Sona məktəb illərində özfəaliyyət ansamblında tar və qarmon çalıb. 1954-1957-ci illərdə Dərbənd Pedaqoji Texnikumunda təhsil alıb. Təhsili başa vuraraq Dərbənd Mədəni-Maarif Texnikumunda xalq çalğı alətləri şöbəsində əmək fəaliyyətinə başlayıb. 1947-ci ildə ailə quran Sona xanım İrzaquliyeva soyadını qəbul edib (o vaxta qədər Əliyeva soyadı daşıyıb) və ailə Bakıya köçüb. Sona xanım Bakıdakı 161 saylı orta məktəbdə musiqi müəllimi işləyib. O, 1965-ci ildə Yuri Qaqarin adına mərkəzi pionerlər və məktəblilər evinin qarmon sinfində dərs deməyə dəvət olunub. Son dövrə qədər orada çalışıb. 1970-ci – 2011-ci illər arasında 3 saylı uşaq musiqi məktəbinin qarmon sinfində də dərs deyib.

O, 1976-cı ildə uşaq musiqi məktəblərinin qarmon sinfi üçün proqram nəşr etdirmişdir. Həmin ildə yazıb nəşr üçün təhvil verdiyi "Qarmon məktəbi" dərs vəsaiti 1999-cu ildə işıq üzü görmüşdür.

• • •

Milli qarmon sənətimizin görkəmli nümayəndələrindən biri də **Səttar Hüseynov** (1929-1981) olmuşdur. O, bu sənətə sədaqətlə xidmət etmiş və yüksək səviyyəli sənətilə həmişə seçilmişdir. Doğrudan da bir sənətkar kimi xalq musiqimizi dərindən duyan, bilən bu insan qarmon sənətinin xiridarlarından biri olaraq böyük xidmət göstərmişdir. Bu kitabımızın ayrı-ayrı səhifələrində, qarmon sənətçilərimizə həsr olunan oçerklərdə S.Hüseynovun adı hörmətlə çəkilmiş, xidməti dilə

gətirilmişdir. O, uzun illər Dövlət Filarmoniyasında çalışmış, Azərbaycan Dövlət mahnı və rəqs ansamblının aparıcı musiqiçisi, qarmonçalanı olmuşdur. Sənətkar burada məhsuldar çalışmış, ansamblın tərkibində dövlət tədbirlərində, SSRİ respublikalarına səfərlərdə, rayonlarımızda, kolxozlarda, sovxozlarda, çobanların alaçıqlarında verilən konsertlərdə çıxış etmişdir. Səttarın qarmonunun səsi, ifa yolu, çalğı məharəti doğrudan da çalışdığı, könül verdiyi, ürək qoyduğu, ömür həsr etdiyi ansambl üçün yaraşıq, əvəzsiz və bütöv bir sənət idi. O, incəsənət ustalarımızın tərkibində xarici ölkə səfərlərində də olmuş, rəqqaslarımızı müşayiət etməkdən əlavə müğənniləri də müşayiət etmiş, solo ifaları ilə də ustalıq göstərmişdir. Dövlət mahnı və rəqs ansamblında Səttar qədər uzun müddət çalışan qarmon ifaçısı olmamışdır. Lakin ona qarşı haqsızlıq olmuş, xidmətləri nəzərə alınmamış və ona heç bir fəxri ad verilməmişdir. Haqsızlıq, diqqətsizlik onun həyatında mənfi





Mahnı və rəqs ansamblının filarmoniyadakı məşq otağında. Soldan: Vahid, Elxan Səməzadə, Səttar Hüseynov, Hüseynağa Əliquliyev, soldan: Əmirxan Manafov, Tofiq Şahbazov və digərləri

izlər qoymaya bilməzdi. Bütün bunların nəticəsi onu aramızdan vaxsız aparmışdır. Milli qarmon sənətimizin şərəf daşıyıcılarından biri olan Səttar Hüseynovun adı musiqi tariximizdə yaşamalıdır.

• • •

Sabirabadda yaşamış **Rizvan Mirzəyev** və **Mehdi Vəlixanov** yaxşı ifaçılarımız sırasında idilər. Onlar 1945-ci il müharibə bitəndən sonra ta 1970-ci illərin ortalarına qədər Sabirabadın və ətraf rayonların çal-çağırında olmuşlar. Mehdi Vəlixanov Kürdəmirdə yaşayan ustad xanəndə Eynulla Cəbrayılovla daha çox yoldaşlıq etmiş, onunla Muğan, Şirvan bölgəsinin bütün kənd və qəsəbələrində qarmonun səsini insanlara sevdirmişdir. Mehdinin melomanlıq qabiliyyəti də olmuşdur. "Sabirabadı" rəqsini və sözləri S.Vurğunun olan "Muğana ceyran" mahnısını o bəstələmişdir. Həmin mahnı Eynulla Cəbrayılovun, Əliyar Əmirovun və bir-neçə müğənninin ifasında radio fonduna qəbul olunmuş, xalq mahnısı kimi uzun bir dövr ərzində səsləndirilmişdir.

İmişlidə **Tapdıq Abbasov, Abbas Məmmədov, Hacıbaba Orucov, Əli, Sabir, Tofiq Fərəcov**, Saatlıda **Rza, Vaqif**, Əlibayramlıda (haz.Şirvan) **Məmmədkərim,** Cəlilabadda **Rza**, Lənkəranda **Kor**

Əmin, Mahmud xalaoğlu, Masallıda **Əlihüseyn Niftiyev, Kor Balayar**, Ağsuda **Şirvan Mahmudov, Kor Mirzə**, Göyçayda **Molla İbrahim, Kor Sabir**, Ağstafada **Züleyxa, Səfər Kərimov, Vahid**, Gəncədə **Xəlil, Yusif, Məhərrəm, Nadir, Zülfüqar Rzayev, Yaqub**, Naxçıvanda **Müzəffər, Kor Qurban**, Şərurda **Bahəddin, İdris, Laçında İsmayıl Quluyev**, Ağcabədidə **Bakir İbadov**, Şuşada **Tapdıq Zeynalov**, İsmayıllıda **Əli Kəntər, Qaysı xanım, Xanımbacı, Peykər xanım** kimi qarmon ifaçılarımız, eləcə də digər bölgələrimizdə qarmonçalanlarımız olmuşdur ki, bu sənətin təşəkkül tapmasında hər biri müəyyən xidmət göstərmişdir.

• • •

Ucar rayonunun Yuxarı Şilyan kəndindən istedadlı soydaşımız **Natiq Fərhad oğlu Soltanov** (1958-2007) milli nəfəs alətlərinin, xüsusilə balabanın mahir ifaçısı idi. O, televiziyada və radioda Şirvanın müasir aşıqlarını və bir-neçə dəfə xalq artisti, tarzən Möhlət Müslümovun musiqi üçlüyü ilə birlikdə məşhur xanəndələri balabanda şirin, təsirli xallarla, incə nəfəslərlə müşayiət etmişdi. Natiqin ustadı Şirvan aşıq sənətinin nümayəndəsi, balabanın və zurnanın mahir ifaçısı, Kürdəmirdə yaşayan Həsrət Hüseynov olmuşdu. Natiq aşıq ocağından yetişmişdi. Atası Aşıq Fərhad Soltanov (1931-2007) və babası Aşıq Soltan el-oba şənliklərində xalqa xidmət etmişdilər. Natiqin istedadı qarmon sənətində də özünü biruzə vermişdi. Qarmon çalmağı özü öyrənmiş və yaxşı ifaçı kimi yetişmişdi.

• • •

Mirsaleh Seyyid Abbas oğlu 1920-1930-cu illərdə mahir qarmonçalan kimi tanınırdı. O, Maştağanın Seyyidlər məhəlləsindən idi. Ustad qarmonçu Əhəd Əliyev də onun sənətinə dəyər verirmiş.

• • •



XX əsrin 40-60-cı illərində və az sonra da Bakıda Hacıbala Dadaşov, Mməmədhüseyn Salamov, Ağahüseyn Əliyev, Vahab Səmədov və digər qarmon ifaçıları sənətdə tanınan idilər. Onların hər biri Əhəd Əliyev və Teyyub Dəmirov sənətinin cığırdaşları olaraq, onların yaradıcılıq üslubundan bacarıqla istifadə edirdilər. **Vahab Səmədov** toy-nişan qarmonçalanı olmaqla bərabər müxtəlif musiqi heyətlərinin tərkibində konsertlərdə və bayram nümayişlərində də çalırdı. O da dövrünün yaxşı qarmonçalanlarından biri sayılırdı. Vahab xanəndə dəstələrinin tərkibində Bakıda, qəsəbələrdə və rayonlarda qarmonumuzu el-obada sevdirənlərdən biri idi. Müəllim kimi də yaxşı tanınırdı. Mənzilində həvəskarlara sənət öyrətməkdən əlavə, həm də Binəqədi qəsəbəsindəki mədəniyyət evinin qarmon sinifində dərs deyirdi. Onun yetirmələri içərisində hazırda qarmon ifaçısı kimi fəaliyyət göstərənlər və pedaqoji sahədə çalışanlar da az deyil. Yetirmələri bu gün də Vahib Səmədovu hörmətlə xatırlayırlar.

O, öz sənətini oğlu Fərhada da öyrətmişdi. Fərhad da xalq musiqiçiləri arasında yaxşı tanınır və bacarıqlı qarmonçalanlardan biri sayılırdı. O, məşhur klarnet ifaçısı Şəmsi İmanovun dəstəsində çalırdı. Bundan əlavə digər musiqi qruplarının tərkibində də sənət nümayiş etdirirdi. Fərhad gənc yaşlarında həyatdan getmişdir.

• • •

Ustad xanəndə Məşədi Məmməd Fərzəliyevin (Hüseynov) nəvələri (oğlu Aslanın qızları) Tükazban və Bilqeyis qarmon ifaçısı idilər. Qarmonçu Adil Hüseynovun əmisi olan Məşədi Məmmədin həyat yoldaşı Ziba xanım qarmonçu Türrə Hüseynovanın xalası qızı olub.

2.8. YUSİF ƏMİ



Yusif Yusifov

Belə bir sənət adamı haqqında Qarabağ, xüsusilə Ağdam musiqiçilərindən çox eşitmişdim. Əsasən qarmon sənətindən söz düşərkən ilk anda onun adı çəkilirdi. O, klassik Azərbaycan qarmon məktəbinin Şuşa nümayəndələrinin usta davamçılarından biridir. O, həmin bölgədə özündən sonra gələn qarmon ifaçıları üçün bünövrə qoyanlardan sayılır.

Yusif Kərbəlayi Muxtar oğlu Yusifov 1906-cı ildə Şuşada dünyaya gəlib. Ailədə səkkiz qardaş olublar. Böyük qardaş Kərbəlayi Abutalıb da milli qarmon sənətimizə bina hörənlərdən biri idi. F.Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" kitabında (Bakı, "Yazıçı" nəşriyyatı-2005) səh. 202-də oxuyuruq: "Abutalıb musiqi tariximizdə məşhur tarçalan kimi də çox məşhurdur. O, ömrünün son 10 ilini əsasən tar çalmağa həsr etmişdir. Abutalıbın kiçik qardaşı Yusif də qardaşının yolu ilə gedərək qarmon çalmaq sənətini öyrənirdi. Yusifin gələcəkdə mahir qarmon ustası olacağına şübhə etməyən Abutalıb öz qarmonunu qardaşına verib, özü tar çalmaqla məşğul olmuşdur. Abutalıb heç də səhv etməmişdi. Hərçəndi o dövrdə Abutalıbın pərəstişkarları onun bu işindən mütəəssir oldularsa da, həyat Abutalıbın uzaqgörənliyini sübut etdi. Qardaşının sənət məktəbini davam etdirən Yusif sonralar tanınmış ustad qarmonçu kimi şöhrət qazandı".

Ailənin beşinci övladı Yusif də əvvəllər qardaşı Abutalıb kimi tar çalıb. Sonralar isə qarmon sənətinə meyl edib, ifa qaydalarını və muğamları böyük qardaşından öyrənib. O, 20 yaşından sənət meydanına çıxıb, sazanda dəstələrinin tərkibində konsertlərdə çıxış edib və toylara gedib. Yusif toy məclislərində tar çalıb xanəndəni müşayiət edər, oyun havalarını isə qarmonunda səsləndirərmiş. Sonralar isə qarmonçu kimi məşhurlaşmış və toy-düyündə şirmayı dilli qarmonunu həvəslə çalmışdır.

Yusif Yusifov el şənliklərimizdə xanəndələrdən Məşədi Bahadur, Musa Şuşinski, Xan Şuşinski, Bərdəli Cəlal, tarçalan Məşədi Nəriman və qavalçalan Xanlarla yoldaşlıq edib. O, XX əsrin 30-50-ci illərində Qarabağın əsas qarmonçalanlarından biri olub. Gənclik illərində Ağdama köçüb. Bu zaman ailə qurub.

Məşhur bəstəkar Soltan Hacıbəyov (1919-1975) Yusifin dayısı oğludur. Yusifin yetirmələrindən Yelmar Zeynalov, Vaqif Məmmədov, Ramiz Qarabağın el-oba şənliklərində çalışaraq öz ustadlarına baş ucalığı gətirmişlər.

Vaxtılə Laçın, Kəlbəcər və Gəncə toylarında da Y.Yusifovu səbrsizliklə gözləmişlər. O, Şuşa və Ağdamda həm də bədii-kütləvi tədbirlərdə çıxış edirdi. Yazı müəllifi olaraq qeyd edirəm ki, öz dövrünün bu mahir qarmonçalanını F.Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" kitabında Qarabağ sənətkarlarının kollektiv çəkilmiş foto-şəkillərində görmüşəm. Bundan başqa Ağdam musiqiçilərinin bir yerə toplaşıb xatirə olaraq 1955-ci ildə çəkdirdikləri fotolarda seyr etmişəm.

Mülayim təbiətli bu insan Şuşa və Ağdam musiqiçilərinin əksəriyyətilə sənət yoldaşlığı etməyi



1952-ci ildə Ağdamda yaranmış "Şur" x.ç.a. ansamblı. 1955-ci ildə çəkilmiş şəkil. Ortada (tarsız) ansamblın rəhbəri Xosrov Fərəcov, əlində qaval konsertmeyster Abbas Yusifov, aşağıda 2-ci sırada qarmonçu Məşhədi Kor Səhli, 1-ci sırada sağdan: məşhur qarmonçu Abbas Abbasov (Bakıdan), Kamal Həsənov, Yelmar Zeynalov və Yusif Yusifov

bacarmışdır. Mahir qaval ifaçısı (o, həm də gözəl tarzən olub) Abbas Yusifovla Yusif kişinin çox mehriban sənət yoldaşlığı və sadiq dostluğu olmuşdur. Soyadları eyni olduğu üçün onları qardaş, əmioğlu sayırdılar. O, Qarabağda yaş həddi ilə ondan kicik olanlar üçün Yusif əmi idi. Sənət ağsaqqalı kimi xətri əziz tutulur, hər yerdə ona ehtiram göstərilirdi. El arasında da, toy-nişan məclislərinin qonaqları da ona Yusif əmi - deyə müraciət edirdilər.

Y.Yusifov Ağdam rayon mədəniyyət evində çalışırdı, burada keçirilən və kəndlərin klublarında verilən konsertlərdə çıxış edirdi.

Üzeyir Hacıbəyli ilə tanışlıq Yusifin gənclik illərinə təsadüf edirdi. Üzeyir bəy onun ifasını dinləyərək bəyənmiş və Bakıya köçüb burada çalışmasını tövsiyə etmişdi. Yusif əmi yarımtonsuz qarmonlarla çalırdı. Xalq havalarımızın, bəzi muğamlarımızın ifası zamanı bunları yetkin, usta təqdim etsin deyə xüsusi məharət göstərirdi. Onun ustalığı axı nədə idi? Diatonik alətdə yarımtonların yerini doldurmaq üçün o, alətin körüyü ilə xüsusi işlər görür, bacarıq göstərirdi. İstifadə etdiyi qarmonu gənclik illərində usta Juravlyovdan almışdı. Uğurlu çıxmış bu alət şirin tembrli olaraq, həm də güclü səsə malik idi. Özü danışırmış: "Bakıya gedib qarmonumu Karpuşkinə verdim ki, yarımtonlar əlavə eləsin. Bir müddətdən sonra gedib götürəcəkdim. Xəbər gəldi ki, Karpuşkin ölüb. Bakıya, Karpuşkinin evinə gəldim. Ustanın yaxın adamı dedi: - Düş zirzəmiyə, qarmonlar hamısı oradadır, bax, gör hansı sənin qarmonundur, götür apar.

Öz qarmonumu götürdüm. Usta ömrünün son günlərində sifarişimi yerinə yetirmiş, qarmonumu yarımtonlu etmişdi".

Fazil Yusif oğlunun xatirələrindən: "Atamın usta Stalbova düzəltdirdiyi yarım tonsuz bir qarmonu da var idi. Həmişə bunu çalırdı. 1969-cu ildə həmin qarmonu götürüb Bakıya gəldim. Usta Saşa Zverevin yanına gedib sifariş elədim ki, bu alətə yarımtonlar qoysun. Vədə yetişəndə gəlib baxdım, yoxladım, gördüm ki, əla qarmon çıxıb. İstədim ki, ustad sənətkarımız T.Dəmirova da göstərim, o da fikir bildirsin. Baxdı, çalıb yoxladı və çox bəyəndi. Masanın üzərinə bir-birindən yaxşı üç qarmon qoydu. Dedi ki, bunların hansını bəyənsən götür, sizin qarmonla dəyişək. Mən atamdan icazəsiz bunu edə bilməzdim. Odur ki, hörmət-izzətlə sağollaşıb getdim".

Y.Yusifov ötən əsrin 40-cı, 50-ci illərində Ağdamın yerli radio qovşağı ilə tez-tez konsertlər verərdi. Xanəndələrdən əvvəllər Xan Şuşinski, Mehralı oğlu Bahadur, sonralar Şahmalı Kürdoğlu, Mürşid Məmmədov, Bakir Haşımov və digərləriilə Ağdam və onun ətraflarında çalıb-çağırardı. O, toy-mağara özüylə tarçalan Lenturuşa Orucovu, Cəlal Əliyevi, qavalçalan Bəhram Səfərovu aparırdı. Yusif əmi Həmişə Qarabağın nüfuzlu sənətkarı olub. O, ifaçılıq sənətimizdə 60 yaşa qədər çalışıb.

1958-ci ildə Ağdam şəhərində tarzən Cəlal Əliyevin direktor olduğu uşaq musiqi məktəbində qarmon sinfi açılarkən dərs demək üçün Y.Yusifov dəvət olunur. O, burada böyük həvəslə işə başlayır və xalq musiqimizin tədrisinə canıyananlıq edir. Buradakı yetirmələrindən Vaqif Məmmədov, Ramiz Səfərov və digərləri ondan çox şey öyrənirlər. Yetirmələri bu gün də onu qədirbilənliklə yad edirlər. Yusif əmi pensiya yaşına qədər həmin musiqi məktəbində çalışmışdı.

Qavalçalan çopur Xanlar danışırmış: "Ağdam mədəniyyət evində təşkil olunan konsertdə çalıb-oxuyanlar çox idi. Ardıcıllıqla hər bir sənətkar səhnəyə çıxıb ifasını göstərirdi. Səhnəkənarı otaqda tanımadığım kor kişi oturmuşdu. Səhnədən yanıqlı "Segah" səsi gəlirdi. Bu Kərbəlayi Abutalıbın qarmonunun səsi idi. Kor kişi dedi:-səs salmayın, dinməyin, sakit olun, eşidin necə calır ey...ay aman, bu nə çalmaqdı?!

O, hıçqırıb ağlayaraq bir əli ilə başına vurmağa başladı. Qarmonun səsi, Abutalıbın "Segah"ı ona təsir etmiş, kövrəltmişdi. Məlum oldu ki, bu kişi məşhur qarmonçu Kor Əhəd imiş".

Yusif belə bir sənətkardan, doğma qardaşı Abutalıbdan dərs almışdı. Bütün fəaliyyəti boyu Yusifin çalğısında ustadı Abutalıbın üslubu özünü biruzə verməkdəydi. Axı, Abutalıb da o dövr

üçün hazırlanan yarımtonsuz qarmonda çalmış, körüklə işləməyə üstünlük vermişdi.

Fazil Yusif oğlunun dediklərindən: "Xan əmi danışırdı ki, Abutalıb körüklə işləyərək "Şikəsteyi-fars"ı elə çalırdı ki, onun təsirindən oxumaq çətinləşirdi. Mən heç bir qarmonçudan belə "Şikəsteyi-fars"eşitməmişəm. Bu başqa aləm idi. Doğrudan da o qədər gözəl çalırdı ki, oxumaq zəif,cılız alınırdı". Xan Şuşinski Abutalıbın həmin muğamdakı çalğısını bənzətmək, oxşatmaq üçün zümzümə edərək əyani şəkildə təsəvvürünü yaradırmış.

Y.Yusifov uşaqlıq və gənclik illərində Kərbəlayi Lətifi (1876-1944) də çox dinləmişdi. Ona həmişə hörmətlə yanaşırdı, adını hər yerdə əziz tuturdu. Gənc Yusif vədələşdiyi toylara Kərbəlayi Lətifi də özüylə aparır və bu qocaman sənətkarın bir daha el şənliklərində olmasından qürur duyurdu. Burada bir incə mətləb də var idi. Xiridar olanlar, bu işə bələd insanlar yaxşı bilirlər ki, o dövrdə yaşlı sənətkarların qazancları olmadığı üçün dolanışıq çətinliyinə düşürdülər. Bu sənət gənclik üçün daha münasib olduğuna görə qocaman sənətkarların məclislərə dəvəti məndudlaşırdı. Həmin məsələ bizdə həmişə belə olub, bu gün də belədir. Cənc Yusif incə duyumla müdriklik göstərərək Kərbəlayi Lətifi öz dəstəsinin tərkibində ağsaqqal kimi toylara apararaq, onun da ifasına imkan yaradar və maddi təminatına kömək edərdi. Zənnimcə bu günki gənclik, cavan xalq musiqiçilərimiz o zamanlar Yusifin etdiyi müdrikanə hərəkətindən və səxavətindən nümunə götürməlidirlər.

Yusif Yusifov 1931-ci lidə ailə qurub. Dörd oğul və iki qız böyüdüb. Dördüncü övlad Fazil atasının sənət yolunu davam edərək qarmon ifaçısı kimi özünü təsdiq edib. Y.Yusifov 1992-ci ildə dünyasını dəyişib.

2.9. BƏDƏL MÜƏLLİM



Bədəl Bədəlov

Bədəl Hacı Ağa oğlu Bədəlov 1907-ci ildə Bakının Qobu kəndində anadan olub. Hacı Ağa dindar, şəriət qanunlarına əməl edən, imanlı, xeyirxah insan idi. O, övladlarını da xeyirxah xislətdə tərbiyə edib böyütmüşdü.

Bədəlgil dörd qardaş, iki bacı idilər. O biri qardaşlarından fərqlənməyən Bədəl də bütün kənd uşaqları kimi qaçıb yürüyər, uşaqlara aid olan müxtəlif oyunları oynar, ev və çöl işlərində ata-anasına kömək edərdi. Kəndlərində toylar olanda toyxanadan kənarda və çadırın ağzında dayanıb həvəslə çalıb-oxuyanları dinlərdi. Onda musiqiyə böyük həvəs oyanmışdı. Məktəbdə təhsil aldığı illərdə musiqi ilə məşğul olurdu. Diatonik qarmonu var idi. Vaxt olanda həvəslə çalırdı. Xeyli sonralar onun əsl sənətkar qarmonu olacaqdı.

Gənclik illərində Qobu kəndindən Bakı şəhərinin özünə gələr, musiqiçilərlə görüşüb yoldaşlıq edər, böyük sənətkarlardan öyrənərdi. Addım-addım, ilmə-ilmə sənətə yiyələnərdi.

Bədəl əvvəllər qarmon-qaval heyətilə toylara gedərdi. Tədricən xanəndələrə qoşulub tarkaman, qaval dəstəsilə çaldı. Xeyli sonralar qarmon-nağara dəstəsilə çıxış etdi. 1960-cı illərin sonlarında qarmonçu, klarnetçi, nağaraçı üçlüyü meydana çıxanda Bədəl də belə musiqiçi heyətləriylə toylara getməyə başladı.

Bədəl şəhərin mərkəzində məskunlaşmışdı. Musiqiçilər içərisində ad-san, dərin hörmət qazanmışdı. Sənətkar kimi hər yerdə qəbul olunurdu. O, dövrünün adlı-sanlı xanəndələri və musiqiçiləriləmehriban sənət dostluğu edirdi.

Bədəl Bədəlov Bakı şəhərinə köçəndən evində müəllimlik edərək həvəs göstərənlərə qarmon ifaçılığı sənətinin sirlərini öyrətməyə başlayır. Evində xeyli tələbələrlə məşğul olur. Yaxşı məşğul olduğu üçün ona müraciət edənlər çox olurdu. Bədəl müəllimin əsl istedadı elə müəllimliyində cəmləşmişdi. Onun fərdi üslubu, şagirdlərə yanaşma tərzi, xüsusi öyrətmək qabiliyyəti olmuşdur. O, sadədən çətinə doğru xalq musiqimizin nümunələrini mərhələ-mərhələ evinə gələn həvəskarlara öyrədirdi. Onun öyrətdiyi tələbələrin əksəriyyəti sonralar musiqiçi kimi çalışmışlar. İllər keçdikcə Bədəl adının ardınca müəllim sözünü əsl xidmətilə möhkəmləndirən bu insan doğrudan da əsl qarmon müəllimi idi. Beləcə də hamının yanında Bədəl müəllim kimi tanınırdı.

Səbr, dözüm, mehriban xasiyyət, sənətinə və öyrətdiyinə məhəbbət, hər bir şəxsə fərdi qaydada yanaşma tərzini tapmaq və s. musiqi müəllimi üçün əsas şərtlərdir. Qeyd etdiyimiz cəhətlər hamısı Bədəl müəllimin şəxsiyyətində toplanmışdı.

Hələ musiqi məktəblərində qarmon sinfi açılmamış, Bədəl müəllim kimi bu sənəti sevən insanlar öz mənzillərində bu ifaçılıq sənətinin tədrisini quraraq musiqi mədəniyyətimizə, bütünlükdə millətimizə xidmət edirdilər.

Bədəl müəllim qarmonçalanlar, M.Ağayev, A.Abbasov, S.Vəzirov, Q.Dadaşova, M.Həsənovla dostluq, xanəndələr Qulu Əsgərov, H.Hüseynov, E.Cəbrayılov, Y.Kələntərli, R.Muradova, S.Qədimova, R.Həsənova ilə sənət yoldaşlığı edirdi. O, bir neçə il Azərbaycan Dövlət mahnı və rəqs ansamblında müşaiyətçi qarmonçalan işləmişdir.

B.Bədəlov 1934-cü ildə Balaxanımla ailə həyatı qurub və beş övladı dünyaya gəlib. Onlar övladlarını ləyaqətlə böyüdüb cəmiyyət üçün hazırlamışlar.

Qarmon Azərbaycan xalqının sevimli aləti kimi həmişə sevilmişdir. Zaman-zaman bu aləti çalmaq istəyənlərin sayı çox olmuşdur. Belə həvəslilərin arzu-istəyini, tələbatını peşəkarlar yerinə yetirirdi ki, B.Bədəlov belə peşəkarlardan və müəllimlərdən biri idi. O, Azərbaycan gəncliyinə sənət öyrətməkdən zövq alırdı, müəllimliyi özünə həqiqi peşə etmişdi.

1941-1945-ci illər ərzində, ağır müharibə dövründə Bədəl müəllim əsgər kimi ön cəbhələrdə döyüşmüşdür. O, əsir düşmüş, əzab-əziyyətlərə dözmüş, bacarıq göstərərək əsirlikdən qaçmışdır. Müharibə dövründə dəfələrlə ölümlə üz-üzə gəlsə də Allahın izniləsağ-salamat vətənə qayıtmışdır.

Müharibədən sonra Bədəl müəllim yenə də, toy-büsatda çalıb çağırmış, şəxsi mənzilində sevimli və şərəfli işiylə, tədrislə məşğul olmuşdur.

1960-cı illərin əvvəllərində musiqi məktəblərində qarmon sinfi açılarkən B.Bədəlov Bakı şəhər 12 saylı uşaq musiqi məktəbinə müəllim dəvət olunur. Həmçinin o, Lökbatan qəsəbəsindəki 9 saylı uşaq musiqi məktəbində də qarmon dərsi deyir. Ömrünün sonuna qədər o hər iki məktəbdə çalışır, xeyli şagird yetişdirir. Onun dərs dediyi şagirdlərin ən istedadlıları və sənətə vurğunları təhsillərini musiqi texnikumlarında davam etdirərək müəllimliklə və ya ifaçılıqla məşğul olmuşlar. Bakı və şəhər ətrafı qəsəbələrdəki musiqi məktəblərinin əksəriyyətində vaxtilə Bədəl müəllimin hazırladığı şəxslər musiqi dərsləri aparırlar.

Bədəl müəllim Rusiyanın Tula şəhərindəki ən yaxşı ustalarla əlaqə yaradaraq onların düzəltdiyi Azərbaycan qarmonlarının vətənə gəlməsi üçün şərait yaratmışdır. O, hazırladığı şagird və tələbələrin tədris üçün nəzərdə tutulan "Kazan" markalı alətlərdən sonra peşəkarların musiqi aləti olan əsl Azərbaycan qarmonuna yiyələnməsi üçün həmişə vasitəçi və yardımçı olmuşdur.



Məryəm Məhərrəmova

Tələbələri peşəkar yola qədəm atdığı dövrdə onların ən yaxşı qarmonları əldə etməsi üçün B.Bədəlov həmçinin Bakıdakı qarmon ustaları ilə də mehriban ünsiyyətdə olmuşdur. Əbəs deyil ki, bu gün orta yaşlı qarmonçalanların əksəriyyətinin əlindəki alətlər Bədəl müəllimin tövsiyyəsi və vasitəsilə alınan keyfiyyətli qarmonlardır.

Bədəl müəllimin qız tələbələri də çox olmuşdur. Onlar yaxşı sənət öyrəndikdən sonra qadın musiqiçilər dəstəsinə qoşularaq xalqımızın el şənliklərində, toy-büsatında ləyaqətlə xidmət etmişlər. Belə qarmonçalanların sayı onlarladır. Məşhur qarmonçalan 2006-cı ildə Respublikanın əməkdar artisti fəxri adını almış Gövhər Rzayevanın adını xüsusilə qeyd etməliyik. 1970-ci illərin ortalarından etibarən ifaçılıq sənətimizdə məşhurlaşan bu xanımın ifasında radionun fonduna oyun havaları, xalq mahnıları və bəstəkarlarımızın əsərləri yazılmışdır. Televiziya verlişlərində və canlı konsertlərdə Gövhər Rzayeva tez-tez çıxış edir. O, Bədəl müəllimi həmişə hörmətlə xatırlayır.

Tanınan qarmonçalan, son dövrdə müğənni kimi daha çox məşhurlaşan gözəl qarmon ifaçısı Hüseyn Həsənov da 12 saylı musiqi məktəbində oxumuşdur. O, bu məktəbə daxil olanda kifayət qədər bacarıqla qarmon çalırdı. Hüseyn beşillik qarmon sinfini üç il müddətinə əla qiymətlərlə bitirmişdir. Musiqi məktəbinin proqramına uyğun olaraq Bədəl müəllimin tapşırıq və tövsiyyələrindən müəyyən qədər bəhrələnən Hüseyn peşəkar sənətə bu sənət ocağından yol götürmüşdür.

Gözəl qarmon ifaçısı olmuş Məryəm Məhərrəmova da B.Bədəlovdan dərs almışdır. O, sənətə dəf çalan kimi gəlsə də, müəllimindən qarmon ifaçılığı qaydalarını çox yaxşı öyrənmiş, qadın ifaçılar içsərisində yaxşılardan sayılmışdır. Bakı və Abşeron toy-büsatında Qızxanım Dadaşova kimi o da hörmətlə qarşılanmış, çox məclislərə dəvət olunmuşdur.

Məryəm xanımın dəfçalanları Nəsibə Xıdır qızı, Nəsibə Lənkəranlı, Hörmət Babayeva və başqaları olmuşdur. 40 ilə yaxın bir dövrdə Məryəmlə ən çox sənət yoldaşlığı edən Hörmət xanımı xüsusi qeyd etmək olar. Nağaraçalan Sara Nağıyeva Məryəm xanımın dəstəsində xeyli müddət olmuşdur.

Bakıdan başqa Azərbaycanın şəhər və kəndlərindəki qadın məclislərinə dəvət olunan Məryəm Məhərrəmova yaxşı sənətilə hər yerdə ad-san qazanmışdır.

Onun gözəl siması, gülər üzü, mülayim xasiyyəti, yaxşı musiqiçi olması uğurlu sənətilə vəhdət təşkil edirdi. Elə buna görə də məşhur olan və ya istərsə də az tanınan müğənnilər hamısı bu gözəl sənətçi ilə yoldaşlıq etməyə cani-dildən razı idilər. Məryəm xanım vədələşdiyi toy məclislərinə Sara Qədimovanı, Rübabə Muradovanı, Validə Mahmudovanı, Maxrux və Tahirə Muradovaları aparardı.Sonrakı dövrlərdə isə onun müğənniləri Zahidə Məmmədsalahova, Bəsti Sevdiyeva, ən çox isə Nazpəri Dostəliyeva və Zöhrə Abdullayeva olmuşlar. Az da olsa müəyyən vaxtlarda Nisə Qasımova və Brilyant Dadaşova da Məryəm Məhərəmmova ilə qız toylarına getmişlər.

Məryəm xanımın şöhrəti uzaqlara da yayılmışdı. O, dəstəsilə Dərbənd, Səmərqənd, Buxara, Almatı, Sır-dərya şəhər və vilayətlərinə tez-tez qız toyu məclislərinə dəvət olunurdu. Azərbaycan



Məryəm Məhərrəmova, xalq artisti Sara Qədimova və tarzən-xanəndə Qulu Əsgərov

qarmonunu, bütünlükdə isə milli musiqimizin sehrini çox yerlərə aparmışdır.

Bədəl müəllim ikinci dəfə ailə qurmuşdu. Onun xanımı su sonası kimi gözəl, gül çöhrəli, nəcib və mehriban Məryəm Məhərrəmova idi. Ömürlərinin xoşbəxt anları çox olub. Həm də bu mehriban ailənin üzvləri milli musiqimizə, el adətlərimizə xidmət etmişlər. Bu ailənin üç oğlu dünyaya gəlib. Oğlanların ikisi Akif və Namiq istedadlı musiqiçi kimi yetişiblər. Namiq uşaqlıqdan zərb alətlərinin ifasına meyl etmiş və gənclik illərində müğənniliyə başlamışdır. Müğənni kimi tanınmağa başlarkən qəfil ölüm onu aramızdan aparmışdır. Namiq avtomobil qəzasında həlak olmuşdur. İki gənc övlad itirən Məryəm xanım sevimli qarmonu ilə vidalaşmışdı.

Bədəlov Akif Bədəl oğlu 1961-ci il aprelin 24-də anadan olmuşdur. Onu 1968-ci ildə Bülbül adına orta ixtisas musiqi məktəbinin skripka finfinə qoymuşlar. İlk günlərdən bu uşağın istedadı üzə çıxmışdır. Məşhur musiqiçi Bayandur müəllim onunla çox ciddi məşğul olar, gələcəyinə böyük ümid bəslərdi. Balaca Akif ikinci sinifdən sonra skripka çalmaq istəmir. Qarmon çalmağa hədsiz həvəsi olan, atasının sənətini davam etdirmək arzusuyla yaşayan Akifi oxuduğu məktəbdən çıxarmalı olurlar. Bədəl müəllim onu 12 saylı musiqi məktəbinə gətirir. Akif atasının qarmon sinfində həvəslə təhsil alır, evdə də atasının göstərişlərini yerinə yetirir. Musiqi məktəbini bitirən Akif öz üzərində işləyərək inkişaf edir. Bir müddət Zabrat mədəniyyət evindəki qarmon sinfində dərs deyir. O, uzun illərdir ki, toy ansamblarının tərkibində toy məclislərində çalıb-çağırır. Akif istedadlı qarmonçalandır.

Bütün ömrünü qarmonun tədrisinə həsr etmiş təcrübəli müəllim Bədəl Bədəlov 1982-ci il dekabr ayının 5-də dünyadan köçmüşdür. 2008-ci illə nəşr olunan "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi" kitabım çapdan çıxarkən Məryəm xanım telefon vasitəsilə mənə təşəkkür etmişdi. O, 2010-cu ildə dünyasını dəyişib.

2.10. GÖRKƏMLİ ALİM



Ağaməmməd Abdullayev

Ağaməmməd Səməd oğlu Abdullayev 1909-cu ildə Bakının Novxanı kəndində anadan olub. Kicik ikən ata-anasını itirdiyi üçün Bakıda böyük qardaşının himayəsində böyüyüb. Əvvəl texnikum təhsili alıb. Sonra isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib.

Valideynlərin itkisi ilə qarşılaşan balaca Ağaməmmədin fikri dağılsın deyə böyük qardaşı ona o dövrdə istifadə olunan diatonik qarmon almışdı. O, az müddətdə bu alətə isnişmiş, onunla dil tapmış və alətin imkanlarına uyğun xalq havalarını çalmağı öyrənmişdi. Gənclik illərində özünə sənətkar qarmonu almış və ifaçılıq səviyyəsini mükəmməlləşdirmişdi.

Ağaməmməd Abdullayev ustad qarmonçu Əhəd Əliyevin ən istedadlı və sevimli tələbələrindən biri olub. Dərs almağa gedərkən yaşıdı və həmkarı Teyyub Dəmirovla tanışlığı da o dövrdə yaranmışdı. Bu tanışlıq, yaxşı münasibət onlar arasında sonralar dostluğa çevrilmişdi.

Ağaməmməd qohumları, tanışları, qonşuları, tələbə yoldaşları arasında yaxşı qarmonçalan və yüksək mədəniyyətə malik gənc kimi tanınırdı. O zamanlar nişan və toy məclisləri otaq şəraitində, həyətli evlərdə və bağ yerlərində keçirilirdi. Ən məşhur sənətkarlarımızı da belə yerlərə dəvət edirdilər. Ağaməmməd də gənclik illərində dostların, qohumların, tələbə yoldaşlarının toy-nişanında calmış, yaxşı da rəğbət qazanmışdı. Onun məqsədi belə tədbirlərdən qazanc əldə etmək deyil, ona çox yaxın və doğma olan insanların işinə yaramaq, onları sevindirmək və şənliklərinə şirinlik qatmaq idi. Hən də musiqi onun gənclik enerjisi kimi aşıb-daşırdı axı... Bu enerji candan çıxmalı idi. Qarmonunun səsi təkcə onun özünün deyil, dinləyənlərin də canına yağ kimi yayılırdı. Təhsil aldığı illərdə o, tədris müəssisələrində verilən konsrtlərdə çıxış etmişdi. Bu istedadlı və savadlı gənci elm daha çox maraqlandırırdı.

A.Abdullayev 20 yaşında elm dalınca getmiş və bu sahədə böyük nailiyyətlər əldə etmişdir. Pedaqoji fəaliyyətə natamam orta təhsil məktəbində başlamışdır. Əmək fəaliyyətini 1935-1939-cu illərdə Pedaqoji Kabinetin metodisti vəzifəsində davam etdirmişdir. O, 1939-1942-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda müəllim və kafedra müdiri olmuş, 1942-1944-cü illərdə M.F.Axundov adına Müəllimlər İnstitutunun rektoru vəzifəsində çalışmışdır. 1946-1949-cu illərdə ETR-nin elmi katibi, 1949-1955-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda "Azərbaycan dili və ədəbiyyatının tədrisi" kafedrasının dosenti və kafedra müdiri işləmişdir.

A.Abdullayev 1956-1959-cu illərdə Azərbaycan Pedaqoji İnstitutunda "Azərbaycan dili" kafedrasının professoru olmuşdur. 1959-cu ildən ömrünün sonuna qədər APİ-nin "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasının müdiri vəzifəsini layiqincə yerinə yetirmişdir. 1966-1969-cu illərdə APİ-nin elmi işlər üzrə prorektoru, 1966-1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunun rektoru vəzifəsində çalışmışdır. İşdən çıxmasının səbəbi onun burada çalışan ermənilərin qol-qanad açmalarına, vəzifələri ələ keçirmələrinə imkan verməməsi olub. Neçəsini işdən çıxarıbmış. Onlar Moskvaya A.Abdullayevdən şikayət məktubları göndərirlərmiş. Məktublar araşdırılması və tədbir görülməsi üçün Azərbaycan KPMK-ya göndərilərkən Heydər Əliyev onu yanına çağıraraq tövsiyə etmişdir ki, öz ərizəsi ilə rektorluqdan getsin. Professor

A.Abdullayev elmi-pedaqoji fəaliyyətini APİ-də davam etmiş, kafedra müdiri olmuşdur.

Ağaməmməd müəllim 1939-cu ildə ailə qurmuşdur. Dörd övladı, beş nəvəsi var.

A.Abdullayevin toyu o dövrün imkanlarına uyğun olaraq mənzil şəraitində olmuşdur. Məclisdə onun ustadı Əhəd Əliyev və dostu Teyyub Dəmirov çalmalı idilər. Ə.Əliyev xəstə olduğu üçün gəlməmiş, toyda T.Dəmirov öz qrupu ilə çalmışdı. İştirak edən qonaqların, dostların və gənclik illərinin həmkarı T.Dəmirovun xahişini nəzərə alan Ağaməmməd müəllim bir-neçə xalq havasını şövqlə təqdim etmişdi.

Ümumiyyətlə Ağaməmməd müəllim ailə tədbirlərində qarmonuna meydan verər, həvəslə çalar, doğmalarına, əziz qonaqlarına gözəl zövq və istirahət bəxş edərmiş. Onun qızı Gülnarə xanımın da toyu ev şəraitində olmuş, məclisin musiqiçisi öz dəstəsilə Teyyub Dəmirov olmuşdur. Mahir qarmonçu dostunun qızının toy şənliyində xüsusi ustalıqla çalmış, bütün qonaqları heyrətləndirmiş və Ağaməmməd müəllimə sonsuz sevinc bəxş etmişdir.

A.Abdullayev 80 monoqrafiyanın, dərsliklərin, tədris vəsaitlərinin, elmi-publisistik məqalələrin müəllifidir. O, Azərbaycanın görkəmli alimlərindən biri idi. Onun 90 və 100 illiyi qeyd olunmuşdur.

Nazilə Yusif qızı Yusifova 2011-ci il aprelin 26-da "Azərbaycan dili tədrisi metodikasının formalaşmasında və inkişafında Ağaməmməd Abdullayevin rolu" mövzusunda dissertasiya müdafiə etmişdir.

A.S.Abdullayev 1979-cu ildə dünyasını dəyişmişdir.

2.11. BÖYÜK SƏNƏTKAR, SAFLIQ, YAXŞILIQ NÜMUNƏSİ

İctimai fikir tariximizdə və ədəbiyyatımızda özünə böyük yer tutan Mirzə Cəlil deyirdi: "Elə yaşayasan ki, öləndən sonra da ölməyəsən".

Öz dövründə ifaçılıq sənətimizdəki misilsiz xidmətilə sayılıb seçilən, qarmon sənətimizdə klassikləşən, bu gün də hörmətlə anılan, həmişə xatırlanan, onu görüb dinləyib, çalğısını eşidib sevənlərin, yaxından tanıyanların qəlbində yaşayır bu insan.



Məmmədağa Ağayev

Məmmədağa Əkbər oğlu Ağayev 1919-cu il dekabrın 20-də Bakıda anadan olub. Əkbər Ağayev ticarətçi idi. Evini, ailəsini kifayət qədər yaxşı dolandırırdı. O, tanınmış Seyyid nəslindən olan Seyyid Əhmədin qızı Umuxanımla ailə qurmuşdu. Onların 2 oğlu, bir qızı var idi.

Umuxanım əla qarmon çalırdı. Seyyid ailəsindən olduğu üçün toylara getməmişdi. Boş vaxtlarında uşaqlarını başına toplayıb sevimli qarmonunu həvəslə dilləndirirdi. Məmmədağa kiçik yaşlarından qarmona maraq göstərirdi. O, qarmon çalmağı anasından öyrənmişdi.

Ata-ana övladlarının gələcək həyatı, xoşbəxtliyi naminə bacardığını əsirgəmir, hər birinin savadlanmasına çalışırdı. Məmmədağanı 1927-ci



Məmmədağa yetkinlik illərində

ildə məktəbə qoyurlar. O, bacarığı və qabiliyyəti ilə tay-tuşları arasında seçilirdi. Musiqiyə vurğun Məmmədağa anasından öyrəndiyi bütün havaları yaşına uyğun tərzdə, bacardığı qədər yaxşı çalırdı. Anasının yarımtonsuz, bircərgəli qarmonu onun karına gəlirdi.

Sənəti daha mükəmməl öyrənsin deyə Məmmədağa Əhəd Əliyevdən də müəyyən qədər dərs alıb. Ustad sənətkar Məmmədağanın istedadını duyub, onu həmişə tərifləmiş.

Məmmədağa yetkinlik yaşlarından toylara çağrılır. Getgedə tanınmağa başlayır. Sənət aləminə daxil olandan sonra dost-tanışı artıb çoxalır. İfaçılıq dairəsi də genişlənir. Tam peşəkar kimi qəbul olunandan sonra Məmmədağa radionun canlı konsertlərinə dəvət olunur. Oyun havalarını şən, oynaq səpgidə çalan Məmmədağa geniş miqyasda tanınır.

Tamlıq və bütövlük Azərbaycan insanı üçün əsas cəhətlərdən sayılır. Ulularımız və böyüklərimiz bütöv və tam insan olmuşlar.

Genindən gələn saflıq, atadan aldığı əxlaq, tərbiyə, anasından eşitdiyi öyüd-nəsihət öz müsbət nəticəsini verdiyi üçün gənclik illərində Məmmədağa artıq bütöv və tam insan idi. Odur ki, dövrünün ən yaxşı və tanınan sənətkarları Məmmədağanın əxlaq və davranışını bəyəndiyi üçün onu öz toy dəstələrinə götürmüş və müxtəlif yerlərə apararmışlar. Böyük sənətkarlarla oturub-durması, sənət əlaqələri gənc qarmonçunu daha da formalaşdırır. Tez-tez xanəndə dəstələrilə toylara çağrılan Məmmədağa tar-kamanı diqqətlə dinlər, oxuyanın muğamda işlətdiyi usta gəzişmələri mənimsər, muğamları yaxşı öyrənməyə çalışardı.

Onun özünün zövqü, musiqi duyumu, fikirləri ilə düzəltdirdiyi xromatik qarmonlar bir-birindən yaxşı, gözəl səsləri ilə seçilən alətlər olub. Karpuşkinlə və digər ustalarla həmişə fikir mübadiləsi aparan Məmmədağanın əlinə ən güclü səslənən alətlər gəlib çıxardı.

Gənclik illərindən Məmmədağa Əhədin, Teyyubun ifasını həmişə dinləmiş, Azərbaycan qarmon ifaçılığı yolunu düz tutaraq istər solist, istərsə də musiqi heyətləri tərkibində qarmonunu layiqincə və ustalıqla səsləndirmişdir.



Məmmədağa, 1938-ci il

Böyük sənətkarlar, xanəndələr, tarzənlər, kamançaçalanlar, balaban və klarnet ifaçıları ilə daim sənət ünsiyyətində olan Məmmədağa sənətdə pillə-pillə, addım-addım irəliləmiş, peşəkar ifaçılıqda özünə yol açaraq dəsti-xətt yaratmışdır. Onun dəsti-xətti ondan ibarətdir ki, o, qarmon ifaçılığına cəld, çevik, sürətli çalğı, iti barmaqlar gətirmişdir. M.Ağayev xalqımızın cəld rəqs havalarından "Qazağı", "Şalaxo", "Xançobanı", "Bakı", "Tiflisi" və s. melodiyaları coşqun ruhla, öz ifa tərzi, öz xalları ilə məharətlə çalmışdır. Onun ifaçılıq texnikasını nəzərə alıb 1939-cu ildə Azərbaycan Dövlət Filarmoniyasına, mahnı və rəqs ansamblına musiqiçi dəvət edirlər. Bir neçə il burada çalışdıqdan sonra o, Dövlət Filarmoniyasında solist qarmonçalan kimi fəaliyyətini davam etdirir. Bununla bərabər 1940-cı illərdə T.Dəmirov-

dan sonra M.Ağayev Ə.Bakıxanovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında çalır.

Hörmətli sənətkarımız 1978-ci ilə qədər filarmoniyada solist işləmişdir. Bu dövr ərzində o, bir neçə dəfə yenidən Dövlət Mahnı və Rəqs ansamblına qarmonçalan dəvət olunmuş, 1950-1951-ci illərdə və 1956-cı ildə bu kollektivdə çalışmışdır.

1978-ci ildə Azərbaycan Dövlət Qastrol-Konsert Birliyi yaranarkən Filarmoniyanın bütün solistlərilə birlikdə M.Ağayev də adı çəkilən müəssisəyə keçirilmişdir.

1941-1945-ci illər Sovet-Alman müharibəsi zamanı M.Ağayev konsert briqadalarının tərkibində döyüş bölgələrində və hospitalarda saysız-hesabsız çıxışlar etmişdir. O, dövlət rəhbərləri tərəfindən təriflənmələr və fəxri fərmanlar almışdır.



Məmmədağa Ağayev və məhir dəfçalan Əzizağa Nəcəfzadə radiomuzun "Səsyazma evi"ndə

M.Ağayev 1946-cı ildə Böyükxanım Ağa Həsən qızı ilə ailə qurub. Hər ikisi seyyid nəslindən olan ər-arvad xoşbəxt ömür sürərək həyata iki oğul, iki qız gətirmişlər. Yüksək mədəniyyətə, dərin elm və biliyə sahib olan Böyükxanım həkim idi. Onların dörd nəvəsi, altı nəticəsi vardır.

M.Ağayev 1950-ci ildə Sənaye İnstitutunun energetika fakültəsini bitirmişdir. Həmin ildən başlayaraq müəyyən dövr ərzində Azərbaycan Baş Enerji İdarəsində mühəndis işləmişdir. Yeri gəlmişkən bir məsələni də desək yaxşı olar. 1930-cu illərin sonunda Məmmədağa Bakı Energetika Texnikumunu da bitirmişdi.

İçərişəhərdə ailə üzvləri ilə yaşadığı üçmərtəbəli mülkün birinci mərtəbəsində M.Ağayev özünə xüsusi musiqi otağı ayırmışdı, burada tez-tez məşq edər, sənət dostlarını oraya toplardı. Hamı ilə səmimi ünsiyyət yaradan Məmmədağanın evinə bütün sənət dostları, o cümlədən Əbülfət Əliyev, Qulu Əsgərov, Eynulla Cəbrayılov, Əliyar Əmirov, Rübabə Muradova, Şövkət Ələkbərova, Sara Qədimova, Bəhram Mənsurov, Hacı Məmmədov, Tələt Bakıxanov, Səfərəli Vəzirov və b. gəlirdilər.

Xalq oyun havalarımızın gözəl ifaçısı olan M.Ağayev özü də neçə-neçə rəqs melodiyalarının bəstəçisi idi.

1960-cı ildə Respublika Xalq Yaradıcılığı evi M.Ağayevin "10 rəqs" adlı monoqrafiyasını Azərbaycan Dövlət Musiqi Nəşriyyatı tərəfindən buraxdırmışdır. Burada toplanan və ustad qarmonçumuzun bəstələdiyi rəqs melodiyalarının 10 ədədi bəstəkar T.Quliyev tərəfindən fortopiano üçün işlənərək nota salınmışdır. Rəqs havalarının adları aşağıdakılardır: "Gənclik rəqsi", "Mahnı-rəqs", "Yeni rəqs", "Qaytağı", "Baharı", "Naz elə", "Rövşəni", "Şamaxı rəqsi", "Ağır rəqs", "Nuxa rəqsi".

Məmədağanı özlərinə müəllim bilən, ustad sanan neçə qarmonçu, o cümlədən Qızxanım Dadaşova 1940-cı illərdə onun evinə gələrək sənət mübadiləsi edər, fikir və düşüncələrini bölüşər, ifasını dinlər və muğamları öyrənirmiş. Yeri gəlmişkən deməliyik ki, oyun havalarımızın ən mahir



Məmmədağa Ağayev və Böyükağa Muradov "Coşqun" rəqs ansamblının məşqində.

ifaçısı sayılan Məmmədağa müəllim muğamlarımızın əsl bilicisi və gözəl ifaçısı olmuşdur.

1946-cı ildə Kübra Əbilova Məmmədağadan dərs almışdır. 1946-1950-ci il ərzində Musa Həsənov, 1950-ci illərdə Həmid Haqverdiyev, İsmayıl Dadaşov (Təbrizli), Həsənağa İçərişəhərli və başqaları Məmmədağa müəllimdən sənətin sirlərini öyrənmişlər.

M.Ağayev 1948-1950-ci illərdə Sumqayıt şəhərindəki kimyaçıların mədəniyyət sarayında ansambl rəhbəri işləyib. O, 1956-cı ildən 1964-cü ilə qədər Səttərxan adına (keçmiş adı Leytenant Şmidt) zavodun mədəniyyət və texnika sarayındakı "Coşqun" rəqs ansamblında müşayətçi-qarmonçalan kimi çalışmış, Azərbaycanın hər yerində və Sovet dövlətinin əksər respublikalarında konsertlərdə olmuşdur. 1961-62-ci illərdə qarmonçalanlardan Zakir Mirzəyev, 1963-1964-cü illərdə Aftandil İsrafilov də həmin rəqs kollektivində M.Ağayevlə çiyin-çiyinə çalışaraq ustad sənətkardan rəqs quruluşlarının və kompozisiyaların müşayiətini öyrənmişlər.

Ümumittifaq qarmmafon valları firması ustad qarmonçalanın valını buraxdırmışdır. İfaçı bu vallarda "Şalaxo", "Tiflisi", "Tərəkəmə", "Qaytağı", "Azərbaycan", "Vağzalı" oyun havalarını, "Şur" və "Cahargah" muğamlarını çalmışdır. Sənətkarı nağarada Böyükağa Muradov və Vasif Əliyev müşayiət etmişdir. Yazımızın əvvəllərində söyləmişik ki, qarmon ifaçılığı yarananda ritm müşayiətçisi dəfçalanlar olmuşlar. Elə M.Ağayev də radioda ilk əvvəl yazdırdığı lentlərdə oyun havalarını dəfçalan Əzizağa Nəcəfzadənin müşayiətilə çalmışdır. Onun dəfçalan Paşa Ələkbərovla da yoldaşlığı olmuşdur. Qarmon-nağara çalğısının birlikdə təşəkkül tapmasından başlayaraq B.Muradov və V.Əliyev istər radioda və televiziyada, istərsə də digər konsertlərdə və toy

şənliklərində M.Ağayevin ifalarını müşayiət etmişlər. Hər iki nağaraçı Məmmədağanın sadiq dostu olmuşlar. Klarnetçalanlar Adil Bayramov, Əliağa Əliyev də uzun illər M.Ağayevlə yaxın sənət yoldaşlığı etmişlər.

Aşağıda biz M.Ağayevin ifaçında radionun fonduna yazılan və bu günə qədər qorunan rəqs melodiyalarının və muğamların siyahısını göstəririk: "Vağzalı", "Mirzəyi", "Yüz bir", "Nazbarı", "Azərbaycan", "Dərbəndi", "Beş nömrə", "İnnabı", "6 nömrə", "14 nömrə", "Lətifə", "Brilliant", "Toy rəqsi", (Cahangir Cahangirov), "Sevinc rəqsi" (R.Əfəndiyev), "Tibilisi" (Ə.Tağıyev) "Gözüm səndədir", "Xalabacı", "Bənövşə", "Uzun dərə", "Tərəkəmə", "Bəxtəvəri", "Hüsnyar", "Qarş", "Əsgəranı", "Bağdaduri", "Bakı", "Xançobanı", "Tiflisi", "Şalaxo", "Qazağı", "Turacı", "Şələlə", "Naz eləmə", "Gənclik rəqsi", "Naz elə".

Muğamlar: "Humayun", "Segah", "Cahargah", "Zabul", "Bayatı-Qacar"

Respublikanın xalq artisti, tarzən H.Məmmədovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında 1960-cı illərdə çalışan M.Ağayev keçmiş SSRİ məkanının böyük şəhərlərində, o cümlədən Leninqradda, Riqada, Rumuniya, Polşa, Bolqarıstan kimi xarici dövlətlərdə möhtəşəm konsertlərdə olmuşdur.

Sənətə qədəm qoyandan ta ömrünün sonuna qədər xalqımıza sədaqətlə xidmət edən bu ulu sənətkar Bakıda və Azərbaycanın bütün bölgələrində, Zaqafqaziya respublikalarında toylarda, konsertlərdə çalaraq çox böyük ifaçılıq sənəti göstərmişdir. Böyük sənətkarımızı xüsusilə Qarabağda həmişə səbirsizliklə gözləmiş, toylara gələndə bəzən həftələrlə, aylarla qonaq saxlayaraq, ən böyük məclislərə dəvət edərək sənətindən layiqincə bəhrələnmişlər.

M.Ağayevin toylara çağırıldığı Ağdam, Ağcabədi, Bərdə rayonlarının yaşlı nümayəndələri və qocaman sənətkarları onun toy çalğılarını bu gün də xatırlayırlar. M.Ağayev Qarabağa tək dəvət olunar, orada yaşayan ən mahir sənətkarlarla çalıb-çağırarmış. Çox halda özü ilə dostu, nağara ifaçılığında ən yaxşılardan sayılan B.Muradovu da apararmış ki, muğam dəramədlərini, rəngləri və oyun havalarını daha dəqiq və səviyyəli çala bilsin.

Ağdamlı məşhur tarzən Xosrov Fərəcov, Cəlal Əliyev, Abbas Yusifovun dəvətilə 1963-1966-cı illərdə Qarabağa tez-tez dəvət olunan M.Ağayev getdiyi yerlərdə misilsiz peşəkarlıq və yaddaşlara köçən sənətkarlıq göstərmişdir. Abbas Yusifov həm tarzən, həm də qavalçalandır. O, Məmmədağanın yanında qaval çalırmış. Külli Qarabağ musiqiçiləri nəcib, mehriban, təmiz, pak insan olan M.Ağayevi əzizlər, evlərində qonaq saxlardılar.

Ağdamın özündə, Bərdə və Ağcabədi şəhərlərində, o cümlədən böyük qəsəbə olan Hindarxda çalınan toylarda M.Ağayevlə birlikdə xanəndələr Əbülfət Əliyev, İldırım Həsənov, Aydın Məmmədov, Barat Fərhadov, Bərdəli Cəlal kişi olarmış.

82 yaşlı tarzən Cəlal Əliyevin dediklərindən: "Məmmədağanın məclislərimizə gəlməsini toyların sahibləri xahiş edirdilər. O da, böyük məmnunluqla dəvəti qəbul edərdi. Gözütox, əxlaqlı, ağır təbiətli və olduqca səmimi insan idi. Sənəti xasiyətindən, rəftarı, davranışı sənətindən gözəl olaraq bir uyğunluq yaradırdı. Toylarda solo çıxışlarda ən çox "Cahargah", "Bayatı-qacar", "Segah" muğamlarını xüsusilə təsirli çalırdı. Ağdamlı qarmonçalanlardan Y.Yusifov, Ə.Quliyev, Y.Zeynalov və Müzəffər müəllimlə yaxın dostluq edərdi".

Ömrünün hər bir anını, ən mənalı çağlarını Azərbaycan incəsənətinə, musiqi mədəniyyətinə, ifaçılıq sənətimizin daha da yüksəlməsinə həsr edən böyük sənətkarımız Məmmədağa Ağayevə fəxri ad verilməmişdir.

Heç bir xəstəlik keçirməyən bu nəcib insan 1982-ci il aprel ayının 1-də qəflətən vəfat etmişdir. Onun adı daim musiqi tariximizdə yaşayacaq və xatirələrdə qalacaqdır.

Doğrudan da Qarabağın əksər yerlərində onun xətrini əziz tutanlar, sənətini sevənlər, dost-tanışlar çox idi. Ağcabədi rayonunun Boyat (əslində tarixi adı Bayat) sovetliyinin Bilağan kəndində



04.06.1967-ci il. Məmmədağa Ağayev Kürdəmirdə toy şənliyində.

Soltanov Mehdixanın, onun qardaşının və qohumlarının toyunda Məmmədağa Ağayev çalmışdı. O, xalqın qəlbinə yol tapan, insanların ruhuna hakim kəsilən ifasıyla, şən, oynaq, ritmik,sümüyə düşən oyun havaları və bir də ki, sadəliyi, mehribanlığı ilə camaatın sevimlisinə çevrilmişdi. Bilağan camaatı ilə ünsiyyət bu kəndin neçə-neçə hörmət-izzətli şəxsləriylə Məmmədağa arasında dostluq münasibəti yaratmışdı. Bu dostluq Məmmədağa ilə Ənvər Ələsgər oğlu Hüseynovın kirvəlik qohumluğuna səbəb olmuşdu.

Həmin kəndin sakini, dil-ədəbiyyat fənni üzrə müəllim, həvəskar qarmonçalan, xalq oyun havalarını sevə-sevə ifa edən,Məmmədağa sənətinin vurğunu, 70 yaşlı Mübariz Məmmədovun xatirələrindən: "Mən əlimə qarmon aldığım ilk anlardan radioda çıxış edən qarmonçalanları həvəslə dinlər və "Kazan" qarmonumla yamsılayardım. Teyyub Dəmirov, Məmmədağa Ağayev, Səfərəli Vəzirov və başqalarının çaldiqlarını maraqla izləyirdim. Bir gün eşitdim ki, M. Ağayev qonşu kəndə toya gəlib. O vaxtlar mənim 14-15 yaşım ancaq olardı. Böyüklərə qoşulub mən də o toya getdim. O vaxta qədər Məmmədağa müəllimi görməmişdim. Mağarın bir tərəfində kirimişcə əyləşib maraqla tamaşa edirdim. "Bulaq başında" mahnısı dəbdə idi. Sahib Şükürov da həmin mahnını oxumuşdu. Mən bu mahnını yaddaşımda saxladım və evə gələn kimi qarmonda çalmağa başladım.

Bundan bir-neçə il sonra kəndçimiz Mehdixan M. Ağayevi öz toyuna gətirmişdi. O, bu ustad sənətkarla dostluq edirdi. O vaxtlar bizi tərəflərdə toylar 3 gün 3 gecə çalınırdı. Sənətinin vurğunu olduğum böyuk sənətkarla tanışlığım burada yarandı. Bu təxminən 1960-cı ilə təsadüf edir.Rəqs edən bir qadın "Dəsmalı" havasını sifariş verdi. Məmmədağa müəllim bir anlıq duruxdu və dedi: "Mən belə hava eşitməmişəm". Belə olduqda məni tayıyanlar söylədilər ki, ay

ustad, inçimə, icazə versən bu uşaq o havanı çala bilər, özün də bir az dincələrsən.

Məni onun yanına çağırdılar. Utanıb pörtmüşdüm. O isə mənə ürək-dirək verib dedi, qorxma, çal. Qarmonu mənə verdi, mən bacardığım qədər bu havanı çaldım. Ustad qarmonçu mənə və camaata bildirdi ki, bu xalq havasının adı "Dəsmalı" deyil, "Qoçəlidir". O, qarmonunu götürüb bu rəqsi o qədər gözəl çaldı ki... Mən ondan öyrəndiyim şirin xallarla "Qoçəli havasını öz ifamda təkmilləşdirdim.

Haşiyə: "Bölgələrimizdə bəzən rəqs havalarımızın və mahnılarımızın adlarını dəyişik salırlar. Əslində "Dəsmalı" adında xalq rəqs havamız var, "Qoçəli" deyil, bir ayrı melodiyadır. Gənclik illərində toylarda çalarkən rayonlarda bəzi rəqs havalarının, həmçinin "Pambığı","Dəsmalı" və s. kimi rəqs melodiyalarının adlarına rast gəlirdim- Ə.R."

Kaş o vaxt indiki kimi, texniki imkanlar, çəkiliş qurğuları olaydı. M.Ağayevin çalğılarını, o vaxtkı toyların gözəlliyini lentlərə, disklərə köçürüb indi baxaydıq. Ancaq onu da deyim ki, insan yaddaşı da çox şeyə malikdir. Lap kameradan da yaxşı çəkərək özündə saxlayır. Əlbəttə, hər insanın özü üçün.

O zamanlar bizim toylarda xanəndə, tar, qarmon və qaval ifaçıları olardı. Səsgücləndirici cihaz, mikrofon yox idi. Məmmədağa müəllimin bu dediklərimə ehyacı olmazdı. Elə çalardı ki,səs hər yerə yayılar,tam eşidilərdi. Barmaqları qarmonun şirmayı dilləri üzərində ildırım kimi çaxardı. Görüb bələd olduqlarımı sözlə ifadə etmək çətindir. İnanın ki,rəqs edə bilməyənlər də onun ifalarına qol götürüb oynayırdılar. Məmmədağa Ağayev bizim tərəflərə gələndə dəstənin tərçalanı Ağdam Musiqi Texnikumunun direktoru Xosrov Fərəçov, xanəndəsi Əbülfət Əliyev və qavalçalanı ağdamlı Çərkəz olardı. Qonşumuzda üçgünlük toy vardı. Məmmədağa müəllimin yaxınlığında əyləşmişdim. O, fasilələrlə mənə qarmon çaldırıb qulaq asar və bəzi göstərişlər verərdi. Onu da deyim ki, bu mahir sənətkarın sadəliyi, təvəzökarlığı, qəlbitəmizliyi və mehribanlığı adamı heyran edirdi. Açığını deyim ki, havaxt onun haqqında danışıramsa, özümü saxlaya bilmirəm, kövrəlirəm. Onun sənəti məni elə sehirləyib ki, heç vaxt bu çevrədən çıxa bilmirəm.

Haşiyə (müəllifdən): 2012-ci il aprel ayının ortalarında Mübariz müəllim və dostu, qarmonçalan İbrahim zəng edərək mənimlə görüşmək istədiklərini bildirdilər. Metronun "Elmlər Akademiyası" stansiyasının yaxınlığındakı çay evində görüşərək şirin söhbətlər etdik. Mən çantamdan foto-şəkilləri çıxarıb onlara göstərdim. Fotolar arasında Məmmədağanın əlində qarmon uşaqlıq, gənclik və sonrakı dövrləri əks etdirən şəkilləri də var idi.Mübariz müəllim ustadının şəkillərinə tamaşa edərək təsirləndi, kövrəldi və ağladı. İlk dəfə bu foto-şəkilləri görməsi ona qiymətli hədiyyə idi. Odur ki, əlini uzadıb əlimi sıxdı və bu zaman əlimdən öpdü. Bu gözlənilməz oldu və əlbəttə mən bunu istəməzdim. O isə səmimiyyətindən, mütəəssir olduğundan, mənə dərin minnətdarlıq hissindən və ən əsası böyük cənətkara, M. Ağayev sənətinə olan sevgisindən bunu etdi. Mübariz müəllim onun foto-şəkillərini öpdü, bağrına basdı və bir daha diqqətlə tamaşa etdi.

Hörmətli oxuçu! Belə faktları kitaba daxill etməkdə yalnış bir məqsəd var. Ünlü sənətkarlarımıza olan xalq məhəbbətini göstərmək. Əgər bölgələrimizi gəzib dolaşsaq müqtədir səhətkarlarımız, o sıradan M. Ağayevlə bağlı o qədər maraqlı məlumatlar toplaya bilərik ki...".

Mübariz müəllimin xatirələrinə qayıdaq:-Məmmədağaya olan sevgimi bilən Qardaşım Qaryağdı həkim deyir ki, qardaş, səninki artıq patalogiyadır, belə vurğunluq olmaz.

Mən orta məktəbi bitirib Bakıya gəldim və Məmmədağa müəllimdən özümə yaxşı bir qarmon aldım.

1963-cü li olardı... M. Ağayevin qonşu kəndə toya gətirildiyini eşitdim. Bizim ailəyə də "Dəvətnamə" verilmişdi. Babamla birlikdə toya getdik. Məmmədağa müəllim məni artıq lap yaxşı tanıyırdı. Təmtəraqlı, maraq doğuran bir toy idi. Tar, qarmon, kamança, qaval məclisə rövnəq verirdi. Bizim kəndçi, həm də qohum, musiqi müəllimi, xanəndə Sabir Abbasov oxuyurdu.

"NAZ ELƏ" rəqsi





M.Ağayev onun səsinə, xanəndəlik qabiliyyətinə heyran qalmışdı. O, dedi ki, sənin yerin Bakıdır, ora gəlsən geniş fəaliyyətdə olarsan, inkaşaf edib tanınarsan. Hazırda Sabir müəllimin 80-dən çox yaşı var.

Həmin toy şənliyində mən maraqla ustad sənətkarın qarmonuna baxırdım. Məşlisin qonaqları lap çox idi. Ustadım camaatın arasındam məni gördü. Dərhal da yanına çağırdı, hal-əhvalımı xəbər aldı, mənə verdiyi qarmonu necə işlətməyimi və necə çalmağımı soruşdu. Sonra o, qarmonunu mənə verib dedi ki, bir-iki saatlıq işi var, bir yerə dəyib qayıtmalıdır. Dedi ki, mən gələnə qədər sən çal. Mən o anlarda iki saata qədər ustadımın qarmonunu çaldım. Kamançа ifaçısı Bakıdan idi. O, mənə dedi ki, oğul, yaxşı çalırsan, çalış ki, müxtəlif tonalliqlarda işləməyi öyrənəsən.

Sonra mənə məlum oldu ki, Məmmədağa müəllim heç yerə getməyibmiş və heç bir işi də yox imiş. Mağarın kənarında dayanıb siqaret çəkərək ifamı dinləyirmiş. Məqsədi çalğımda irəliləyişin olub olmadığını bilmək və lazım olduqda tövsiyə vermək imiş.

1970-ci ildə mən artıq Azərbaycan Dövlət Pedaqoji İnstitutunda oxuyurdum. Arabir filarmoniyanın bağına gedib M. Ağayevi görürdüm. Mənlə mehriban görüşüb söhbət edər, kənddəkiləri xəbər alar, hamıya salam göndərərdi. Bir dəfə mən ona dedim ki, siz "Şalaxo" və "Tiflisi" rəqslərində çətin keçidlər edirsiniz, mən onları yaxşı öyrənə bilmirəm. O, gülümsəyərək bildirdi ki, bala, o keçidləri çox qarmonçalanlar edə bilmir, gələrsən öyrədərəm".

Məmmədağa sənətinin heyranı, vurğunu, fanatı olan Mübariz Məmmədov hər dəfə Bakıya gələndə vaxtılə ustadının yaşadığı İçərişəhərdəki ünvanına gedərək onun evini, ailəsini, hətta qarmonunu da ziyarət edir. Son ziyarətdə Məmmədağanın həyat yoldaşı Böyükxanım hələ sağ idi. O, 2013-cü ilin yayında dünyasını dəyişib. Mübariz müəllim onun hüzn məclisinə də gedib.

Bu kitaba əlavə şəkillər toplamaq üçün 2012-ci ilin iyun ayında M.Ağayevin evinə getdim. Böyükxanımdan fotoalbomu alıb fotoşəkillər hazırlanan yerə getdim. Şəkillərin surətini çıxarıb qayıdaraq albomu sahibinə qaytardım. Böyükxanım mənə dedi: – Qarmon sənətindən yazdığınız ilk kitabdan bizə bir ədədi çatıb. Nəvələrim isə istəyirlər ki, o kitabdan hər birində olsun. Əgər varsa, həmin kitabdan biz yenə alaq.

Cavabında dedim: – Mən həmin kitabın əlavələrlə yeni nəşrini hazırlayıram. Kitab çapdan çıxan kimi sizə gətirərəm.

– O vaxta qədər mən qalmaram.

– Elə deməyin, Allah ömür verər, yaşayarsınız və həmin kitabı da görüb sevinərsiniz.

Görünür müdrik qadın əcəlin yaxınlaşdığını hiss edibmiş. Yeni kitabın çapdan çıxmasına onun ömrü çatmadı, 85 yaşında həyatla vidalaşdı. Ruhu şad olsun!

2.12. KUBRAXANIM

Azərbaycan musiqi aləmində Kübraxanımın adı həmişə hörmətlə çəkilib. Bu mehriban, ləyaqətli, qonaqsevər, ürəyiaçıq, ailəcanlı, hörmət-izzətli xanım nəcibliyi, elə əsl xanımlığı ilə Kübraxanım adını doğrultmuşdur.

Bir qarmon ifaçısı və ocerkin müəllifi kimi yaxşı xatırlayıram ki, teniyetmə çağlarımda və gənclik illərimdə Kübra Əbilovanın ifalarını Azərbaycan radiosundan tez-tez eşidirdim. Bu ifalarda milli duyğular, incə qadın qəlbinin çırpıntıları, saf hisslər sezilir, Azərbaycan qarmon sənətinin üslubu tam parlaqlığı ilə nəzərə çarpırdı.

2000-ci illərin sonlarında Azərbaycan qarmon ifaçılığı istiqamətində araşdırma işlərinə başladıqda yaxşı qarmon ifaçılarımız sırasında onun da haqqında məlumat toplamaq istədim. Lakin əlim boşa çıxdı. Əlaqə yaratdığım adamlar onun barəsində xoş sözlər söyləsələr də, yaxşı ifaçı kimi gördüklərini, eşitdiklərini dilə gətirsələr də yazı hazırlanmasına məlumat verə bilmədilər.



Kübraxanım Əbilova

Bəziləri isə hətta Kübraxanımın doğmalarından kimsənin qalmadığını dedilər. Odur ki, qarmon sənətimizin tarixinə aid nəşr olunan ilk kitabımda Kibraxanım haqqında bilgi verə bilmədim. Yalnız adını çəkməklə kifayətləndim. 2012-ci ilin iyul ayında görkəmli sənətkar, xalq artisti Avtandil İsrafilovun mənzilində olub ondan müsahibə alarkən Kübraxanımın da adını çəkdim və ondan da yazmaq istədiyimi bildirdim. O, dedi: "Sənə səhv məlumat veriblər. Onun doğmalarını tanıyıram. Mən onlarla sənin aranda əlaqə yaradaram". Bu xoş xəbəri eşitcək sevimcim artdı. Lakin söz verilsə də əməl olunmadı. Bu söhbətin üstündən neçə aylar keçsə də Avtandildən bir xəbər olmadı. Görünür müxtəlif tədbirlərə, konsertlərə, xüsusilə toylara, televiziya verilişlərinə dəvətlər onu çox məşğul etdiyi, həm də o anlar səhhətilə bağlı müşküllər mənə verdiyi vədi unutdurmuşdu. Deməliyəm ki, yaşlı nəslin nümayəndələri olan qarmonçalanların hər biri ilə təmasda olanda Kübraxanımdan söz açırdım. 2012-ci ilin sentyabr ayında Elman Həsənovla görüşərkən də bu barədə danışdım. 3-4 gündən sonra o mənə zəng edib bildirdi ki, təsadüfən şəhərdə Kübraxanımın kürəkəni Nadir Məmmədovla rastlaşıb və ona mənim fikirlərim barədə məlumat verib. Nadir müəllim mənim telefon nömrələrimi öz telefonuna qeyd etsə də mənimlə əlaqə saxlaya bilməyib. Səbəbsə nömrələrin ehtiyatsızlıq üzündən silinməsi olub.

Bakı Bələdiyyə Teatrının aktyoru Əfqandan Nadir müəllimim telefon nömrələrini əldə etdim və onunla əlaqə yaratdım. Məramımı bilən Nadir müəllim çox sevindi və görüşməyə razılıq verdi.

Bir daha İslam peyğəmbərinin ruhuna dualar oxudum. O, buyurub: "Tapanlar axtaranlardır". Axtarışlarım axır ki, nəticə verdi və mən Kübraxanımın əzizlərini tapdım.

Haşiyə çıxaraq qeyd edirəm ki, Nadir Məmmədov 1941-ci ildə dünyaya gəlib. İncəsənət adamıdır. Mahir rəqqaslarımızdan biridir.Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib. Musiqili Komediya Teatrında işləyib.Rəqqaslıq yaş həddi üzrə pensiyaya çıxandan sonra Akademik Musiqili Komediya Teatrında direktor müavini olub, Musiqili Komediya Teatrında və Bakı Bələdiyyə Teatrında inzibati işlərdə çalışıb.

Belə bir müdrik, mehriban və məlumatlı adamla tanış olmaqdan çox məmnun oldum. Azərbaycanın tanımlı şəxsiyyətləri, xüsusilə incəsənət xadimləri haqqında xeyli bilgisi olan Nadir müəllimlə həmsöhbət olmaq adama xoş təsir bağışlayır.

2013-ci il fevralın 8-dir, Nadir müəllimin mənzilindəyik. Qızı Aytən xanım və ulu nənəsinin adını fəxrlə daşıyan 6 yaşlı Kübra xanım "Xoş gəlmisiz" deyib məni mehribancasına qarşılayırlar. Gözəl-göycək, nur çöhrəli Kübraxanımın bütün incəliklərini, zəriflliklərini, gözəlliyini ulu Yaradan nəticə Kübra xanıma bağışlayıb. Bizdən isə gözəl bəxt, xoşbəxt gələcək, mənalı ömür arzulamaq qalır.

Qeyd etməliyəm ki, istər Nadir müəllim, istərsə də onun qızı Aytən xanım Kübraxanımın ha



Soldan: xalq artisti Rübabə Muradova, Qızxanımın həyat yoldaşı İsmayıl Dadaşov, yuxarıda Qızxanımın anası Səlimə xanım və Kübraxanım Əbilova

qında xüsusi həvəslə, dərin məhəbbətlə ürək dolusu danışırlar. Onun mərd, dəyanətli, əyilməz, məğrur, inamlı, səxavətli, xeyirxah, süfrəsiaçıq və çörəkverən olduğunu dilə gətirirlər. Sənətçinin fotoşəkillərini, şəxsi əşyalarını, radio ifalarını zərgər dəqiqliyilə göz bəbəyi kimi qoruyurlar. Onun sənətkar haqqının itməməsinə və özünün unudulmamasına çalışırlar. Aytən xanım bigisayarı işə salır. Azərbaycan milli radiosunun "EFM-105" dalğası vasitəsilə səsləndirilmiş verilişin bigisayara köçürülmüşünü dinləyirik. Aparıcı xanımın aydın, məlahətli səsi otağa yayılır: "Qarmonda çalır tıylə azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Radionun qızıl fondunda onun ifaları qorunur.

Kübra Məhəmməd qızı Əbilova 1921-ci il dekabr ayının 22-də Bakı şəhərində anadan olub. "O olmasın, bu olsun", "Qəribə adam" bədii filmlərindəki epizod səhnələrindəki rolları ilə tamaşaçıların yaddaşında qalıb. Beş ifası: "Vağzalı", "Uzun dərə", "Şərur", "Tərəkəmə" və "Xalabacı" rəqslərilə xatirələrdə yaşayır".

Azərbaycan mili radiosu musiqi redaksiyasının baş redaktoru Hacı Məmmədov məşhur sənətçi xanımın sənətinə, şəxsiyyətinə hörmət əlaməti olaraq hər il onun doğum günü münasibətilə veriliş təqdim etdirir. Aytən Nadir qızının bilgisayarından eşitdiyimiz həmin verilişlərdən biridir.

Kübraxanım Bakının köhnə məhəllələrindən birində, Mustafa Sübhi küçəsində yaşayıb boy atmışdı. Əslən Bakının Məhəmmədli kəndindən olublar. Onların ailəsində dörd uşaq böyüyüb. Kübraxanım ikinci övlad idi. Anası Məşədi Ceyran xanım yaxşı dəf çalarmış. O, toylarda çıxış etməzdi, öz doğmalarının, qohumlarının və dostlarının yığıncağında həvəskar kimi dəfi səsləndi-

rərdi. Kübraxanım da dəf çalmağı öyrənmişdi. Eləcə evdə anasının, toylarda sənətkarların əlinə baxaraq bu işə yiyələnmişdi. O, qarmon çalmağı da kimsədən göstəriş, dərs alamadan, öz güclü istedadı sayəsində öyrənmişdi.

Kübraxanımın bacısının həyat yoldaşı İsmayıl Dadaşov qarmonçalan idi, toylara gedirdi. Bir dəfə ailə yığıncağında İsmayılla Məşədi Ceyran xanım birlikdə çalırlarmış. İsmayıl qarmonu masanın üzərinə qoyanda heç kəsin gözləmədiyi qəribə bir iş baş verir. Kübra qarmonu götürüb çalmağa başlayır. Doğmalar təəccüb edirlər və bununla birgə həm də sevinirlər. Beləliklə Azərbaycan qarmon sənətinə daha bir qadın ifaçı daxil olur. Kübraxanım Əbilov adına mədəniyyət evinin fəal üzvlərindən biri kimi tanınır. Az müddətdən sonra o, peşəkar sənətə qədəm qoyur, sənətçilər arasında tanınır və müntəzəm olaraq qız toylarına, qadınların şadlıq mərasimlərinə dəvətlər alır. O, hər yerdə sevilən qarmon ifaçısı kimi qəbul olunur. Həmin dövrlərdə Bakıda və Azərbaycanın əksər bölgələrində ən məşhur olan qadın qamonçalanlarımızdan biri Kübra Əbilova, digəri Qızxanım Dadaşova idi. Bu mahir xanım ifaçılar həm də sədaqətli rəfiqə, mehriban bacı idilər. Onlar arasında möhkəm ailəvi dostluq da yaranmışdı.

Kübraxanımı nağarada Ayna xanım (Qızxanımın bacısı), dəfdə isə Hörmət xanım və ya Rübabə xanım (məşhur aktrisa Safurə İbrahimovanın bacısı) müşayiət edirdi. Bu sənət adamları arasında mehriban ünsiyyət, vəfa, sədaqət, etibar var idi. Onların bir-birinə böyük inamı sənət aləmində nümunə sayılırdı.

Xasiyyəti gözəl, istiqanlı Kübra Əbilova zahirən də çox gözəl, cazibədar, yaraşıqlı bir xanım idi. Onun təravətli sənəti xarici görünüşü ilə düz mütanasiblik yaradırdı. Həqiqətən sənəti ona, o, sənətinə yaraşıq idi. Məşhur usta Arxip Karpuşkinin yaratdığı nadir nüsxə qarmonlardan biri də Kübra xanımın payına düşmüşdü. Məlahətli tembrli, üz görünüşü təmiz, parlaq sədəflərlə bəzədilmiş bu qarmon onun əlində tam incəliklərlə şirin səslənirdi. Tələb olunan anlarda bu qarmonu tanımlı usta Saşa Zverev təmir edirdi. Axı bu cür dəyərli aləti naşı usta əlinə salmaq olmazdı.

Kübra Əbilovanı Bakı daxilində, onun qəsəbələrində, el-oba toylarında səbrsizliklə gözləyirdilər. Qadın toylarının yar-yaraşığı olan Kübraxanım



Toyda. Soğda: Kübra Əbilova, solda Rübabə Muradova və sənət dostları



Toyda. Solda: müğənni Zümrüd Məmmədova (haz. x.a.), sənət dostları və Kübra Əbilova

yalnız sənətilə deyil, nəzakəti, gözütoxluğu, dost qazanmağı və ayağıdüşərliyilə də xalq sevgisi qazanmışdı. Hansı kəndə, hansı evə, hansı qapıya gedirdisə o, ən əziz adam kimi qarşılanırdı. Onun sənətini bəyənir və dəyərləndirirdilər. Çaldığı şirin el havalarına həvəslə qol-qanad açıb rəqs edirdilər. Radiomuzun fonduna cəmi beş rəqs melodiyası təqdim etməsinə baxmayaraq o, bütün xalq havalarını və bəstəkarlarımızın toylarda səslənən mahnılarını sənətkarcasına ifa edirdi. O, onunla toylara gedən müğənilərin oxuduğu muğamların, təsniflərin və mahnıların müşayiətində tam sərbəst və pərgar idi. Bu sırada müğənnilərdən xalq artistləri Rübabə Muradova, Rəhilə Həsənova və Tükəzban İsmayılovanın adlarına çəkə bilərik. Kübra xanımın toy qrupunun tərkibində Validə Mahmudova, Tərənə Vəlizadə (haz.x.a.) və Zümrüd Məmmədova (haz.x.a.) da oxumuşdu.

Süfrəsiaçıq Kübraxanımın mənzili və bağ evi həmişə qonaq-qaralı olardı. Onun yaxın rəfiqələri olan çox uca sənət adamları Şövkət Ələkbərova, Sara Qədimova, Rübabəə Muradova, Münəvvər Kələntərli, Qızxanım Dadaşova, Nəcibə Məlikova və Şəfiqə Axundova tez-tez ona qonaq gələrdilər. Məşhur və ustad qarmonçu Teyyub Dəmirov da Kübraxanımın xətrini əziz tutardu. Bu yazını hazırlamaq üçün onun arxiv sənədlərinə diqqət yetirərkən adı şəkilən sənətkarlarımızın müxtəlif tədbirlərdə, ziyafətlərdə və toy məclislərində Kübra xanımla birlikdə çəkilmiş xeyli foto-şəkillərini gördüm. Bir araşdırmaçı kimi həmin şəkillərin hər biri mənimçün qiymətlidir. Əfsus ki, bu oçerk vasitəsilə şəkillərin hamısını kitaba daxil edə bilmirik.

Kübraxanım milli mətbəximizi çox gözəl bilirdi. Gələn qonaqlar onun bişirdiyi dadlı Bakı xörəklərindən ləzzətlə dadırdılar. Kübra xanımın bağ evi Novxanıda idi. Şövkət Ələkbərova və Rübabə Muradova ona tez-tez qonaq gəldikləri üçün ətrafdakı evlərin sakinləri bu bağ evinin Rübabə xanıma, bəziləri isə Şövkət xanıma məxsus olduğunu zənn edirdilər.

K.Əbilova bir müddət filarmoniyada çalışsa da, sonralar 1957-1977-ci illərdə Bakı Musiqiçiləri Cəmiyyətinin işçisi olub. Onun ifaları yazılmış qrammafon valı 1968-ci ildə buraxılaraq geniş

şəkildə yayılmışdı. Bu işi Moskvanın "Melodiya" firmasının Tbilisi filialı yerinə yetirmişdi. Sənətkar xanım vala Azərbaycan radiosunun fonduna təqdim etdiyi rəqs havalarını daxil etmişdi.

Kübra xanım musiqiçilərin öz toy şənliklərinə də çağırlardı. O, neçə-neçə sənətkarın məclisinin qarmon ifaçısı olmuşdu. Bu sırada Zakir Mirzənin, Gövhər Rzayevanın və Avtandil İsrafilovun adlarını qeyd edə bilərik. Kübra xanım Zakirin də, Avtandilin də nişanlılarının məclislərinin musiqiçisi olub. Zakir Mirzənin xatirələrindən: "Mənim toyum Xaçmazda olub. Valideynlərim orada yaşayırdılar. Toyumun Bakıda keşirilməsi arzusunda olsam da atamın əmrindən çıxa bimədim. O, dedi ki, oğul, biz uzun illərdir Xaçmazda yaşayırıq. Burada hamının xeyir-şərində iştirak etmişik, burada camaata qarışmışıq. Toy məclisimizi Bakıda keçirsək. Xaçmaz xalqı məndən inciyər, elə çıxar ki, bu camaatı saymırıq.

Atamın müdrik fikri məni qane etdi. Qız evi ilə razılaşıb gün təyin etdik. Nişanlımın toyuna Bakıdan öz dəstəsilə Kübra Əbilovanı dəvət etdim. Bu iş ata-anamın da ürəyincə oldu. Avtomobil danışıb Kübraxanımgili Xaçmaz şəhərinə apardım. Çox gözəl çalıb-oxudular. Hamı razı qaldı".

Kübra Əbilova 1990-cı ilə qədər sənət fəaliyyətində olaraq, sevimli peşəsini xalqa sevdirərək qız-gəlin şənlikərini bəzəyib.

C.Cabbarlı adına Azərbaycan kinostudiyası 1956-cı ildə Ü.Hacıbəylinin "O olmasın, bu olsun" operettası əsasında maraqlı, dəyərli və həmişəyaşar bir bədii film çəkib. Bu filmə baxmaqdan doymaq olmur. Oradakı maraqlı anlardan biri də Rüstəm bəyin qızı Gülnaz xanımın toy səhnəsidir. Bu filmin uğur qazanmasında, daim sevilərək tamaşa edilməsində həmin səhnənin xüsusi rolu vardır. Toy səhnəsinin xanəndəsi xalq artisti Tükəzban İsmayılova, qarmonçalan Kübra Əbilova və rəqqasə, xalq artisti Əminə Dilbazidir.



"O olmasın, bu olsun" bədii filmində toy səhnəsi. Rəqqasə Əminə Dilbazi (sonralar xalq artisti), xanəndə Tükəzban İsmayılova (sonralar xalq artisti) və Kübra Əbilova

Qeyd etdiyim toy səhnəsinin kinofilmdən götürülmüş kadrın foto-şəklinin böyüdülmüş formada Nadir müəllimin mənzilinin divarından asıldığını gördüm.

K.Əbilovanın nəvəsi Aytən xanım mənə bir qəzet təqdim etdi. "Naş vek" (Bizim əsr) adlanan qəzetdə (9-15 yanvar 2004) İ.Qədirovun "Ona ne iskala muzıku-muzıka naşla eë" (O, musiqini axtarmamışdı-musiqi onu tapmışdı) başlıqlı məqaləsi verilib. Diqqət yetirdim. Burada məşhur baletmeyster Əminə Dilbazinin də xatirəsinə yer ayrılıb. Mərhum Əminə xanımın dediklərindən: "O olmasın, bu olsun bədii filmində çəkilərkən kinostudiyada rahat bir guşə tapıb qarmonçu Kübra Əbilova ilə birlikdə məşq etdik. Sonra bizi çəkiliş pavilyonuna dəvət etdilər və hər şey çox gözəl alındı.

Haşiyə (müəllifdən): "2007-ci ildə Əminə Dilbazinin mənzil telefonuna zəng etdim və həmun məşhur filmin toy səhnəsi barədə bilgi almaq istədim. Orada qarmonçalanın Kübra xanım olduğunu dedi".

"Qəribə adam" bədii filmi "Mosfilm"in istehsalıdır. Rejisor Əjdər İbrahimov şəxsən bu filmdə qarmon ifaçısı kimi Kübra Əbilovanın çəkilməsini arzu etmişdi. Onun xahişini nəzərə alıb Kübra-xanımı həmin filmə çəkilişə dəvət etmişdilər.

Kübra xanım qədim, zəngin və həmişəyaşar musiqi sənətimizin layiqli nümayəndələrindən biri olmuşdur. Milli qarmon sənətimizə incə naxış vuranlardan biri də o idi. Odur ki, belə sənət adamları unudulmamalıdır. Elə biz də bu oçerki yazıb onu yaddaşa gətirməklə həmin vəzifəni çiyinməzə götürdük.

Kübra Əbilova 1943-cü ildə ailə qurmuşdu. Firəngiz adlı əziz, nəcib bir övlad böyütmüşdü. İki nəvəsi var.

Onun kürəkəni Nadir Məmmədovun dediklərindən: "Mən Firəngiz xanımla 1966-cı ildə ailə qurmuşam. Bu evdə, bu ailədə həmişə mehribanlıq, səmimiyyət, mədəniyyət, xoş davranış və isti münasibət görmüşəm. Kübra xanım doğrudan da hörmətcil, cəsarətli və mərd qadın idi. Yeganə övladı Firəngizi (04.08.1946-18.06.2007) xüsusi nəvaziş, hüdudsuz sevgi və yağ-bal içində böyütmüşdü.

Kübra xanım mənə analıq edib. Dünyasını dəyişməzdən öncə məni yanına çağırıb söhbət etdi. Söylədi:-Nadir, bilirsən ki, mən Firəngizi neçə əzizləmişəm, ona neçə dərin məhəbbət bəsləyirəm. Mən gedəndən sonra onu incitmə, daha çox qaydına qal, əzizlə, qoru. Bir də xahiş edirəm ki, məni Məhəmmədli kəndində dəfn etməyin. Ora gedib-gəlmək sizə çətin olar, əziyyət çəkərsiz.

Onun arzusunu yerinə yetirib Məhəmmədlidə yox, Bakının köhnə qəbristanında dəfn etdik".

Kübra Əbilova 1994-cü il sentyabrın 1-də dünyasını dəyişib.

20013-ci il fevral ayının 11-də sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, əməkdar artist Zakir Mirzədən Kübra xanım barədə müsahibə aldım:

"Kubra xanım Əbilova gözəl ifaçı və səmimi qəlbli mehriban bir insan olaraq, xalq arasında böyük nüfuza malik idi. Əlbəttə ki, Əhəd Əliyev məktəbinin layiqli ustad davamçılarından olan Teyyub Dəmirov, Məmmədağa Ağayev, Qızxanım Dadaşova və digər ustad qarmon ifaçılarının davamçılarından biri də Kubra xanım Əbilova olmuşdur. O özünün şirin və məlahətli ifası ilə çoxsaylı dinləyicilərin nəzər-diqqətini cəlb etmişdi. Kubra xanımın özünəməxsus ifası ilə şəhər və rayonlarda pərəstişkarları var idi. Ulu Tanrı Kubra xanıma ən gözəl insani keyfiyyətlər bəxş etmişdi. O, evcanlı, övladcanlı, və dostcanlı, ürəyi təmiz, sadə qəlbli, qonaqpərvər, çörəkverən, sözün əsl mənasında xanım qadın idi. Kubra xanımın gözəl ifaçılığı ilə yanaşı bu gözəl keyfiyyətləri Azərbaycanın bütün tanınmış, ləyaqətli, çalıb-oxuyanlarının nəzərində idi. Onlar tez-tez Kubra xanımı görməyə gəlmələrini özlərinə vacib bir borc bilirdilər. Xalq artistləri: Şövkət Ələkbərova, Rübabə Muradova, Sara Qədimova, əməkdar artist Rəhilə Həsənova və bir çoxları demək olar ki, hər həftə Kubra xanımın evinə yığışaraq musiqi sənətindən söhbət edər, eyni zamanda çalıb oxuyardılar. Kubra xanım gözəl yeməklər hazırlamağı çox sevərdi. Xoşlayardı ki,hər növraqdan ibarət olan süfrə açsın. Kubra xanım, yeganə övladı olan qızı Firəngizlə və kürəkəni (qızının həyat yoldaşı) Nadir müəllimlə sanki nəfəs alırdı, onların xoşbəxt və mehriban yaşamaları ilə Allaha şükürlər edib, fəxr edirdi. 1964-65-ci illərdə Kubra xanım mənim təzə bəstələdiyim rəqsləri radio vasitəsilə eşidib və televiziya çıxışlarımı görmüşdü. Tanınmış klarnet ifaçısı Adil Bayramovla və ustad qarmon ifaçısı Səttar Hüseynovla xəbər göndərərək, məni evinə qonaq dəvət etdi. Mən bu dəvəti məmnuniyyətlə qəbul edərək, səhəri gün ustad nağara ifaçısı Zöhrab Məmmədovla Kubra xanımın evinə gəldik. Kubra xanım bizi doğma ana təbəssümü ilə qarşıladı və əyləşmək üçün bizə yer göstərdi. Telefonun dəstəyini qaldırıb Adil Bayramova, Səttar Hüseynova və bir neçə qadın ifaçılara zəng vurdu. Dedi: - Gəlin görün kimlər gəliblər bizim evə - deyərək onları da evinə dəvət etdi. Çox keçmədi ev adamlarla doldu, özünün şirin və məlahətli danışan qarmonunu gətirib verdi mənə, evdə nağara və qaval da var idi, nağaranı da Zöhraba verdi. Zöhrabla ifa etməyə başladıq. Sanki burada toy idi. Ardı-arası kəsilmədən oynamaqdan doymurdular. "Muğam və rəqsi" ifa etdikdə isə diqqətlə qulaq asırdılar, əvvəl kövrəlirdilər. Sevincdən gözləri yaşla dolanlar da var idi. Süfrədə müxtəlif növdən ibarət yemək-içmək var idi. Biz süfrəyə dəvət olunduq, hamılıqla birlikdə yemək yedik. Bir qədər sonra Kubra xanım həmişə işlətdiyi mehriban ifadə ilə üzünü mənə tutaraq dedi: "Ana qurban, Zakir, dayanma başla ifa etməyə, apar bizi gözəl aləmə". Gecə saat 12-yə qədər mən Zöhrabla Kubra xanımın evində şənlik etdik. Beləliklə, mən bu evin övladı kimi özümü hiss etməyə başladım, həftədə, on gündə bir Kubra xanıma baş çəkib əhvalından xəbər tutmağı özümə borc bildim. Belə ki, Kubra xanımın evində hər hansı bir yığıncağı, qonaqlığı mənsiz təsəvvür etmək mümkün deyildi.

Musiqisevər dinləyicilərin qəlblərində Kubra xanım həmişə yaşayıb və Ulu Tanrının köməyi ilə daima yaşayacaqdır. Allah ona rəhmət eləsin, ruhu şad olub məkanı behişt olsun".

2.13. CABBAR QARYAĞDI OCAĞININ YETİRMƏSİ



Zərəfşan xanım

Peşəkar xanəndəlik sənətimizin nadir incisi olmuş, ömrünün 70 ilini vokal sənətimizə həsr etmiş, bəstələdiyi təsniflər və mahnılarla milli musiqimizi zənginləşdirmiş, adı musiqi tariximizə qızıl hərflərlə yazılmış Cabbar Qaryağdıoğlunun (1861-1944) qızı Zərəfşan xanım yaxşı piano çalır və məharətlə qarmon ifa edirdi. O, ailənin dördüncü övladı idi. Təbii ki, kökdən, qandan gələn istedad Zərəfşan xanımda da erkən yaşlardan özünü büruzə vermişdi. Mənzillərində körpəlikdən atasının və digər ifaçıların qrammafon vallarını, həm də radiodan musiqimizi müntəzəm eşitməsi onun musiqi duyumunu və yaddaşını formalaşdırmışdı. Qızın zərif, incə duyğuları oyanmışdı. Cabbar Qaryağdıoğlunun evinə nəinki musiqiçi dostları, ustad xanəndələr, hətta görkəmli bəstəkarlar, yazıçılar və şairlər də gəlirdilər. Bu evdə maraqlı söhbətlər, yaxşı çalıb-oxumaq olur, musiqi müsamirələri keçirilir, xalq musiqimizin dünəni və sabahı üçün əhəmiyyətli fikirlər yürüdülürdü.

Zərəfşan 1922-ci ildə dünyaya gəlib. Ailənin ciyərparəsi olan sevimli qızlardan biri kimi əzizlənərək böyüyüb. Orta təhsil alıb. Evlərindəki pianonu uşaqlıqdan çalmağa baş-



Cabbar Qaryağdıoğlu

layıb. Atasının dostları uşağın piano çalmağını bəyənər və hey tərifləmişlər. Sonralar o, qarmon çalmağa başlayıb. Məşhur qarmonçu Ənəd Əliyevin mənzil şəraitindəki ifaları Zərəfşanı qarmon sənətinə daha da həvəsləndirirdi. Hər dəfə qız toylarında Əhədin çalğılarını eşidərkən ondan şirin xalları öyrənirdi. Zərəfşan bu böyük sənətkarın qrammafon valındakı "Segah"ını dinləməkdən doymazmış. Elə sonralar özü də "Segah"ı yaxşı çalırmış.

Cabbar Qaryağdıoğlunun həyat yoldaşı dağlı qızı idi. Xanımı tərəfdən qohumlar da Cabbar əminin qonaq-qaralı evinə tez-tez gələrdilər. Onlar qohumgilə gələrkən Zərəfşanın qarmon çalmağını görmüşdülər. Onu öz məclislərinə dəvət edirlər. Zərəfşan xanım əvvəlcə tərəddüd etsə də, qohumların qəlbinə dəyməsin deyə razılıq verir. Beləliklə ilk dəfə dağlı qohumların qız toyunda qarmon ifaçısı kimi çıxış edir. Onun ifası qohumların və bütün qonaqların xoşuna gəlir. Onu xeyli tərif edirlər. Gətirib ona pul verdikdə götürmür. Axı o, doğmaların məclisinə təmənnasız gəlmişdi. Böyük xahiş-minnətdən sonra nəhayət ki, bu istedadlı və utancaq qıza zəhmətinin haqqını vermək mümkün olur. Sonralar isə onu davamiyyətli olaraq qız toylarına dəvət edirlər və tədricən o, yaxşı qarmon ifaçılarından biri kimi tanınır. Zərəfşan xanımın qavalçalanı Münəvvər xanım idi. Birlikdə Bakı şəhərində və onun ətrafındakı qəsəbələrdə keçirilən qadın məclislərinə gedərdilər. Münəvvər xanım həm də oxuyurdu.

Tarzən, görkəmli pedaqoq Əhməd Bakıxanov bir dəfə söhbət zamanı Cabbar Qaryağdıoğluna bildirir ki, rəhbərlik etdiyi x.ç.a.ansamblına xalq musiqisinə yaxşı bələd olan piano ifaçısı tapa bilmir. C. Qaryağdıoğlu deyir: "Pianoçu bizim evdə. Qızların biri pianino çalır. Bizə gəl, onun ifasını dinlə, yoxla, çalğısı ansambl üçün yarasa, gələr sizə kömək edər". Bu bacarıqlı qızın istedadı, piano və qaval çalmağı ustad tarzənin xoşuna gəlmişdi. Beləliklə o, ansamblın piano ifaçısı olmuşdu. Bu o zamana təsadüf edirdi ki, Ə. Bakıxanov 1941-ci ildə Ü. Hacıbəylinin təklifi ilə Azərbaycan Dövlət radiosunun nəzdində x.ç.a. ansamblını bərpa etmişdi. Ansamblın ilk piano ifaçısı Zərəfşan xanım olmuşdu. Sonralar isə bu ansamblın pianoçusu Rüxsarə Mirzəbəyova olmuş və o, burada 1956-cı ilə qədər fəaliyyət göstərmişdir.

Üzeyir bəyin tarşırığı ilə Zərəfşanı radionun musiqi redaksiyasına işə götürmüşdülər. O, burada xeyli müddət inzibati işlərdə çalışmışdı.

Zərəfşan xanım xalq musiqimizi və muğamları yaxşı bilirdi. Bu işdə onun doğulduğu, böyüdüyü Cabbar ocağının və yaşadığı dövrün mühüm təsiri olmuşdur. O, qarmon ifaçısı kimi məşhurlaşandan sonra onu rayonlara da qız toylarına ararırdılar.

Zərəfşan xanım həkim, həm də kaman ifaçısı Firuz Əlizadə ilə ailə qurmuşdu. F.Əlizadə (1923-1987) S. Rüstəmovun rəhbəri və baş dirijoru olduğu xalq çalğı alətləri orkestrinin kamanlı alətlər qrupunun uzun illər konsertmeysteri olmuşdu. Firuzgilin ailəsində tək oğul dünyaya gəlmişdi. Ona Fuad adı verilmişdi. Fuad Əlizadə musiqi təhsili almış və pianoçu kimi məşhurlaşmışdı.

Zərəfşan xanım Azərbaycan mətbəxini əla bilir, növbənöv xörəkləri hər incəliklərinə qədər hazırlayır və bahalı şirniyyatlar almağı xoşlayırdı. O vaxtlar "Beşmərtəbə" adlanan məhəllədə (beşmərtəbədən yuxarı) "Torqsim" adlı dükan varmış. Zərəfşan xanım hətta qızıl verib həmin dükandan ən bahalı şokoladlar alarmış. "Torqsim" "Min bir xırdavat" adlanan mağazadan yuxarıdakı çörək dükanının yanında imiş. Burada alış-veriş valyuta vasitəsilə olurmuş.

Zərəfşangilin qayğısız uşaqlıq çağları maraqlı, həm də maddi və mənəvi cəhətdən zəngin olmuşdur. C. Qaryağdıoğlu xalq tərəfindən sevilən xanəndə olmaqla bərabər, həm də dövlət sə-

nətçisi idi. Onun üstündə incə, zərif naxışları olan gümüş siqaret qutusu varmış. Qutunun içərisinə qızılları doldurarmış. Uşaqlar evdə oynayanda götürüb qutunu da, qızılları da oynadarmışlar.

Cabbar Qaryağdıoğlunun qızlarındam biri Şəhla xanım Azərbaycanın çox məşhur və sevimli şairi Əliağa Kürçaylının (1928-1980) həyat yoldaşı olub. Şəhla xanım 2013-cü ilin dekabr ayında 85 yaşında dünyadan köçdü.

Cabbar əminin özü kimi övladlarının da hər biri, bu sırada Zərəfşan xanım da mehriban, səxavətli və qonaqpərvər insan olub. Onun evinə gələn musiqiçilər, oğlu Fuadın sənət dostları Zərəfşan xanımdan sənət məsləhətləri almaqla bərabər, bişirdiyi xörəklərdən və hazırladığı şirniyyat süfrəsindən dadardılar. Onu tanıyan bütün müsiqiçilər bu alicənab, qonaqsevər xanımın xətrini əziz tutar, adını hər yerdə hörmətlə çəkərdilər. O da Fuadın dostlarının, ən çox da müğənni Yalçın Rzazadənin xətrini istəyirdi.

Zərəfşan xanım yaşa dolduqda təcrübəli musiqiçi kimi onun yanına bir-sıra gənc musiqiçilər və müğənnilər gələrək müəyyən məsləhətlər alardılar. O, belə gənclərdən bəzilərini özüylə toylara apararaq püxtələşdirirdi. Onun məsləhətlərindən yararlanan xanımlardan biri də hazırda ən məşhurlardan olan, yaxşı müğənni, xalq artisti Aybəniz Haşımova olmuşdur.

Zərəfşan Əlizadə xüsusi qayğı və sonsuz məhəbbətlə böyütdüyü oğlu Fuadın musiqi tərbiyəsilə də ciddi məşğul olmuşdur. Fuad uşaq musiqi məktəbinin fortepiano sinifini, Bakı Mədəni-Maarif Texnikumunun xor dirijoru şöbəsini bitirmişdi. 1968-ci ildə Maestro Niyazinin göstərişi ilə xanəndə Əlibaba Məmmədovun Azərbaycan Dövlət Filarmoniyasında yaratdığı "Humayun" x.ç.a. ansamblına Fuad Əlizadə də dəvət olunmuşdur. O, 20 il bu ansamblda çalışmışdır. Ondan sonra isə həmin ansamblda pianonu Əyyub Yaqubov (haz. əməkdar artist, tanımlı müğənni) ifa edib.

Zərəfşan xanımın yanına gələn müğənnilər Flora Kərimova və İlhamə Quluyeva Fuaddan piano dərsi almışlar.

Fuad qarmonun səsini uşaq çağlarından sevmiş və anasının ifalarından çox şey öyrənmişdi.



Sağdan: F.Əlizadə, A.Quluyev, Semyon, x.a. H.Bayramov və s.a. Məmməd Salmanov

Pianoçu olması və ansamblda çalması onun daha mükəmməl qarmon ifaçısı kimi yetişməsinə təkan vermişdi. O, Bakı toy dəstələrinin tərkibində qarmon calırdı. Bundan başqa,piano aləti olmayan səhnələrdə kiçik musiqi heyətlərinin tərkibində qarmonçalan olaraq çıxış edirdi. O, qarmon sənətinə həvəs göstərənlərə öz mənzilində fərdi qaydada dərs keçirdi. Bir araşdırıcı kimi deyə bilərəm ki, məşhur müğənnilərin və musiqiçilərin ev arxivlərində həmin səhətkarlarla birlikdə Fuad Əlizadənin şəhər toylarında (kmpaniyalar) qarmon çalmağını əks etdirən saysız-hesabsız foto-şəkillərə rast gəlmişəm. Bunlar özlüyündə Fuadın tam peşəkar və tanımlı qarmonçalan olmasından xəbər verir.

Xanım musiqiçilərimizdən biri olan və Azərbaycan qarmon sənətinə bacardığı qədər yaxşı xidmət edən Zərəfşan Cabbar qızı 1984-cü ildə dünyasını dəyişib. Fuad Əlizadə ömrünün və sənətinin ən samballı zamanında bu dünya ilə vidalaşıb.

2.14. BÜTÜN DÖVRLƏR ÜÇÜN MÜASİR QARMONÇU ADİL ZƏRGƏROĞLU



Adil Hüseynov

Adil Hüseynov haqqında ilk dəfə 1980-ci illərin sonlarında Vaqif Əsədovdan eşitmişəm. Vaqif belə bir yaşlı sənətkarın, çox mahir qarmon ifaçımızın olduğunu xüsusi vurğunluqla dilə gətirirdi. O, mənə deyirdi ki, tez-tez Adil kişinin iş yerinə gedir və onun otağında bu böyük sənətkarın ifasını dinləyərək zövq alır. Mənə də təklif etmişdi ki, gedib onu dinləyək. Bu adamın çalğısında maraqlı cəhətlər xeyli çoxdur. Həm də maraqlı orasındadır ki, onun yaşı çox olsa da enerjili ifa göstərir, cəld barmaqlarla çalır. Çox heyif ki, o zamanlar mən belə bir güclü sənətkarın qarmon ifalarını eşidə bilmədim. Əslində Vaqif Adil Hüseynovu öz uşaqlıq çağlarından tanıyır. Çünki vaxtilə məhəllə adamı olublar. O, uşaqlıqdan Adil kişinin ifalarını eşidib və belə bir güclü çalğının vurğunu olub. Vaqifin atası Adil ilə yaxşı münasibətdə idi. Özü isə onun oğlu Əli ilə dostluq edirdi.

2006-cı ilin sonlarında, 2007-ci ilin birinci yarısında telefon vasitəsilə Adil müəllimlə bir-neçə dəfə danışmış, keçmiş sənətkarlarımız və xüsusilə Qızxanım Dadaşova haqqında bəzi məlumat almışdım. Söhbət zamanı hiss edirdim ki, Adil əmi mədəni və səmimi insandır. O, mənim qarmon sənətimiz və ona xidmət edənlərimiz haqqında kitab üzərində işləməyimi bilib minnətdarlıq etdi və xeyir-dua verdi.

Mən bu gün özümü günahkar sayıram ki, gərək elə zəngləşdiyim dövrdə onun özündən izn istəyib evinə gedərək ətraflı müsahibə alıb 2008-ci ilin fevral ayında nəşr olunan kitabıma daxil edəydim. Həmin zaman o, xəstə olduğunu dilə gətirirdi. Telefon vasitəsilə nə lazımsa söyləməyə hazır olduğunu bildirirdi. Görünür o səbəbdən mən onlara getməmişəm. Lakin yenə də özümü təqsirli bilirəm. Bu dəfə isə Allah gəlbimə salıb ki, onun barəsində yazım. Odur ki, onun oğlu, Bakı İdman Akademiyasında dərs deyən Əli müəllimlə telefon bağlantısı yaradaraq 2012-ci il sentyabr

ayının 14-də, günorta saatlarında Füzuli küçəsindəki 9 mərtəbəli binaya, onun mənzilinə gedərək atası haqqında bildiklərini soruşdum.

Adil Məşədi Məmməd Həsən oğlu Hüseynov 1923-cü il mayın 2-də Bakıda zərgər ailəsində dünyaya gəlib. Ailə 1 may küçəsi, dalan 17-də yaşayırdı. (Xalq arasında bu ərazi "Zərgər-palan" məhəlləsi adlanırdı). Teyyub Dəmirovgilin də evi vaxtilə həmin dalanda olub. Adilgilin pəncərəsi Dram Teatrının binasına açılırmış. Məşədi Məmməd Həsəngilin (1890-1956) şəcərə nümayəndələri zərgər olublar. Zərgər-palan məhəlləsində onların 3-4 zərgər dükanları var idi. Bu nəslin nümayəndələri həmişə varlı-sərvətli yaşayıblar. Məmməd Həsən Nərgiz xanımla (1905-1983) ailə qurub. Onların beş oğlu və bir qızı dünyaya gəlib. Övladlar valideynlərin himayəsində xüsusi qayğıyla böyüyüblər. Ailənin ilk övladı Adil olub. Nərgiz xanım qarmon çalmaq bacarığına malik idi. O dövrlərdə Rusiyada istehsal olunmuş balaca zəngli qarmonunu boş vaxtlarda çalar, uşaqları sevindirərdi. Adil ananın qarmonunun həvəsinə qarmon çalmağa həvəs göstərmişdi.

Burada haşiyə çıxmalı oluruq: "Adilin ömür-gün yoldaşı Sima xanım Hüseynovanın ana tərəfdən ulu babası Şuşadan yetişən xanəndə, bütün Qafqazda məşhur olan sənətkar Əbdülbaqi Zülalov Bülbülcan (1841-1927) idi. Ailələrilə bir müddət Nuxada (Şəki) yaşamışdılar.

Əzizə Məmmədova Azərbaycan dram teatrının ilk peşəkar aktrisalarından biri, opera sənətimizin ilk leylilisi, milli kinomuzda bir sıra obrazlar yaratmış Sona Salman qızı Hacıyevanın anasıdır.

Sona xanımın 1 yaşı olanda atası vəfat edib. Babası Əbdülbaqi Zülalovun himayəsində yaşayan Əzizə xanım və Sona 1916-cı ildə Tiflis şəhərinə köçüblər. Az sonra Türkmənistanın Aşqabad şəhərinə, 1919-cu ildə oradan Bakıya gəliblər. Əvvəl Əzizə xanım, az sonra Sona Hacıyeva Əli Bayramov klubunda dram dərnəyinə üzv olublar. Bakıda ana-bala səhnəyə ikisi də eyni vaxtda qədəm qoyublar". Sonralar səhnə fəaliyyətlərinə görə Əzizə Məmmədovaya əməkdar, Sona Hacıyevaya xalq artisti fəxri adı verilmişdir.

Ana tərəfdən gələn istedad Adildə də özünü biruzə vermişdi. Atası ona əvvəl yarımtonsuz qarmon almışdı. Sonralar isə Adilin əl qarmonlarının hamısı Arxip Kərpuşkinin düzəltdikləri idi. Evdə alman markalı "Şmit Vaqner" pianosu vardı. Adil uşaqlıqdan piano çalmağa başlamışdı. Ömrünün sonuna qədər bu alətdə çalırdı. Pianonu qarmon barmaqları ilə, şirin xallarla çalırdı.

Adilin ana tərəfdən nənə-babasıgil hazırda fəvvarələr meydanı adlanan yerdə üçotaqlı mənzildə yaşayırdılar. Mənzili onlara dövlət başçısı Mircəfər Bağırovun göstərişi ilə vermişdilər.

Uşaq vaxtı atası Adilə qızıl işini, zərgərliyi də öyrətmişdi. Adil bu işi yaxşı bilirdi. Musiqiçilər arasında onu Zərgəroğlu Adil kimi tanıyırdılar.

Özü sərbəst öyrənib çalğı qaydalarına yiyələnsə də muğamlara da yaxından bələd olmaq istəyirdi. Odur ki, 14-15 yaşlarda muğam öyrənmək həvəsi Adili Kor Əhəddən dərs almağa istiqamətləndirmişdi. O, ustadın tələbələrinə öyrətdiyini dərhal götürürdü. Daha müəllimin ona ayrıca nəsə öyrətməsinə heç ehtiyac qalmırdı. Bir dəfə Kor Əhəd dərs zamanı mətbəxə keçib nahar edir. Sonuncu dərs keçdiyi tələbəyə tapşırıq verir ki, indicə öyrətdiyini təkrarlasın. Tələbə müəllimin öyrətdiyi kimi çala bilmir, tez-tez çaşır və ardıcıllığı unudur. Bu zaman qarmonu Adilə verir. Adil öyrədilən dərsi dərhal yerli-yerində çalır. Əhəd otağa daxil olub soruşur: – A bala, dərsi hazırlaya bildin? Mətbəxdən eşidirdim. Çalan sən idin?

Tələbə çaşmış vəziyyətdə: – Hə... mən... – demək istədikdə ustad qarmonçu deyir: – Yox, sən deyildin. Bu Zərgəroğlunun işidir. O, daha mənim dərsimə gəlməsin. Onun dərsə ehtiyacı yoxdur, özü öyrənə bilir.

Adil Hüseynov elə gənclik illərindən ən bacarıqlı qarmon ifaçılarından biri kimi sənət meydanına çıxmışdı. O dövrün tanımlı qarmon ifaçılarının hamısı onu yaxşı tanımış, ifasını bəyənmiş və neçə illər onun fəaliyyətilə maraqlanmışdılar. O, ən yaxşı sənətkarlarla birlikdə toy şənliklə-

rinə gedirdi. Adil klarnet ifaçısı ilə birlikdə də məharətlə çalırdı.

A.Hüseynov XXI əsrdə qarmon sənətimizin canlı tarixi və şərəfi idi. Əfsus ki, musiqi ictimaiyyəti, teleradio yayımları şirkətləri və mətbuat belə bir ifaçıya üz tutmadılar. Əlbəttə mən bacardığım qədər lazımi yerlərə məlumat verdim. Lakin səlahiyyətsiz adam olduğum üçün istəyim yerinə yetmədi. Onunla yalnız əməkdar artist, musiqi üzrə fəlsəfə doktoru, ustad qarmonçu Zakir Mirzə əlaqə saxlayırdı. Mən Adil kişinin evində onun oğlu Əli müəllimlə söhbət edərkən o, Zakirin qocaman qarmonçuya bağışladığı öz kitablarını, Əhəd Əliyev və qarmon sənəti barəsində yazdığı qəzet məqalələrini gördüm.

Adil Hüseynov 1941-1944-cü illərdə Bakıda, Salyan kazarması adlanan hərbi hissədə xidmət edib. Əsgərlikdən sonra Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsinə daxil olub və buranı uğurla bitirib. Sonra həmişə ticarət sahəsində çalışıb. O, Trikotaj Bazasının müdiri işləyib, Kubinkada, Basin küçəsində (hazırda Füzuli) trikotaj dükanlarını idarə eləyib. Bu adam maddi cəhətdən həmişə imkanlı yaşayıb. Ailəsini firavan dolandırıb, mənzili, bağ evi həmişə qonaq-qaralı olub. Onun evinə gələn dostların əksəriyyəti məşhur sənət adamları idi. Bu sırada xalq artisti, aktyor Məlik Dadaşov, onun qardaşı Süleyman Dadaşov, qarmonçu Qızxanım Dadaşova, xalq artistləri, görkəmli müğənnilər Şövkət Ələkbərova, Sürəyya Qacar, Sara Qədimova, Rübabə Muradova, xalq artistləri olan aktyorlar Ələsgər Ələkbərov, Lütvəli Abdullayev, Sofa Bəsirzadə, Məhluqə Sadıqova, Bəşir Səfəroğlu, Leyla Bədirbəyli və Əliağa Ağayevin adlarını çəkə bilərəm. Bu insanlar Adilin ailə şənliklərinin qonağı olur, o da həmin sənətkarların ev tədbirlərində öz ailəsilə iştirak edir, qarmonu ilə məclisləri rövnəqləndirirdi.

Əli Adil oğlu mənə atasından yadigar qalan 5 ədəd maqnitofon kasetləri göstərdi. Bunlara "babin", "baraban" kasetlər deyilir. XX əsrin 50-60-cı illərində istifadə olunan iri həcmli maqnitofonların lentləri bu cür olurdu. Həmin lentlərdə Adil Hüseynovun öz ailə tədbirlərində, bağdakı yığıncaqlarda və dost-qohumların şənliklərində 1950-ci ildən 1962-ci ilə qədər ifa etdiyi sololar və məşhur müğənniləri müşayiət etməsi toplanıb. Mən həmin kasetlərə həsrətlə baxsam da, dinləmək arzusunda olsam da, təbii ki, bu mümkün deyildi. Çünki həmin kasetlərin maqnitofonu bu günə gəlib çatmayıb.

Adil Hüseynov 1948-ci ilə qədər toylarda çalıb. Gənclik illərində ev şənliklərində onu qavalla Məlik və Süleyman Dadaşov qardaşları müşayiət edib. Süleyman özü də əla piano ifaçısı kimi tanınırdı. O, mahir qarmonçu Qızxanım Dadaşovanın həyat yoldaşı idi. Adilgilin bu ailə ilə də dostluğu vardı. Bir-birlərinin evlərində olanda piano, qarmon çalır və sənət mübadiləsi aparırdılar. Bütünlükdə bunlar qarmon sənətimizin inkişafına zəmin yaradırdı. Süleymanın da, Qızxanımın da, Adilin də vurduqları şirin xallar o dövrün qarmon ifaçıları üçün nümunə idi.

Adilin ən yaxın dostları Ələsgər Ələkbərov, Məlik Dadaşov və Leyla Bədirbəylinin həyat yoldaşı Kamil idi.

Pul qazanmaq xatirinə deyil,sənətə olan məhəbbət Adili təşviqat briqadasına gətirmişdi. O, aktyorlar Ağahüseyn Cavadov, Lütvəli Abdullayev, qarmonçu Teyyub Dəmirov və digər məşhurların daxil olduğu təşviqat briqadasının tərkibində Azərbaycan rayonlarına konsertlərə gedirdi. Adil Hüseynov öz qaynanası, aktrisa Sona Hacıyeva ilə də bölgələrə konsertlərə getmişdi. Əli Adil oğlu ana nənəsi Sona xanım haqqında fərəhlə danışır, sevinci yerə-göyə sığmır, onun şəkillərini, uzun illər qoruduqları mətbuat yazılarını mənə göstərir.

Cəsarətlə deyə bilərik ki, Adil Hüseynov dövrünün çox böyük sənətkarı olub. Onun ifaları vaxtilə radio üçün lentlərə yazılıb. O, xalq havalarını xüsusi ustalıqla çalıb. Əslində bu sənətkar bütün mərhələlər ərzində müasir sayıla bilərdi. O, həmişə formada olan musiqiçi idi. Onun istedadı o qədər böyük idi ki, hətta tütək, balaban, akkordeon, mandalina və tar ifa etməyi bacarırdı. Bir dəfə dost məclislərinin birində ifa etdiyi alətləri görənlər ona tərifləri söylərkən Adil də zarafatın-



Məşhur aktyor (sonralar x.a.) Məlik Dadaşov və Adil Hüseynov İrəvan şəhərində

dan qalmayıb demişdi: "Ət çəkən maşın da versəniz, çalacağam".

2000-ci ilin əvvəllərində ANS televiziyasında əməkdar artist Brilliant Dadaşovanın (hazırda xalq artisti) aparıcı olduğu verilişdə Adil Hüseynov qonaq idi. Bir qarmon ifaçısı kimi verilişə diqqət kəsildim. Sualları cavablandırdıqdan sonra Adil kişi muğam gəzişmələri etdi və bir-neçə oyun havası çaldı. Yaşlı sənətkarın sənət enerjisinə, ifa texnikasına, özünəməxsus xallarına, cəld barmaqlarına heyrət etməmək mümkün deyildi.

Adil kişinin oğlu Əli müəllim bilgisayara atasının 1988-ci ildə Bakı Şərq bazarındakı restoranda keçirilən yubiley tədbirinin diskini qoydu. Orada A.Hüseynovun ifaları da vardır. Mən onun 1996-cı il martın 13-də öz evindəki çalğılarını da seyr etdim. Diskdə o, əvvəl fortepianoda, sonra isə qarmonda çalır. "Bayatı-Şiraz" muğamını çalarkən "Bayatı-İsfahan" şöbəsində də gəzişmələr edir. Sonda isə populyar bir mahnı olan, xalq arasında "Tut ağacı boyunca" adlanan lirik nəğməyə yer verir. Təbii ki, bu mahnı onun gənclik illərinin ən sevimli melodiyalarından biri olduğu üçün elə cavanlıq eşqilə də çalır. Qəfildən modulyasiya edərək "Şahnaz" muğamına keçir. "Dilkeş" şöbəsində "Kürdü"yə də toxunur və bir rəng ifa edir. Həmin rəngin sonunda elə cümlələr çaldı ki, mən bunu heç kimdən, heç vaxt eşitməmişdim. Hətta lent yazılarında səsləndirilən dəstgah – muğamlarda rəngin bu hissəsindən istifadə edilməyib. Görünür həmin "Dilkeş rəngi" elə onun çaldığı kimi olub və sonralar unudulub. Adil Hüseynov onu gənclik illərində ustadlardan eşidib öyrənib və hafizəsində saxlayıb və yaxud o, melodiyaya öz əlavələrini edib. Diskdə qocaman sənətkarın qarmon ifaları da olduqca maraqlı idi. "Si" tonallığında "Segah" çalıb. Sonra özünəməxsus şirin xallarla "Tərəkəmə"ni ifa edib. "Segah"da Əli Adiloğlu da kövrəldi, mən də. Hətta Əli müəllim dərindən ah çəkərək: "Eh, dünya..., dünya..." kəlməsini də dilə gətirdi.

Bizi təsirləndirən bir məqam da o oldu ki, Adil kişi pianoda ayrıca "Segah" muğamı çalarkən



Adil Hüseynov ifa zamanı

dünyadan köçmüş həyat yoldaşı Sima Xosrov qızı Hacıyevanın (1928-1993) pianonun üstündə iri çərçivədəki gənclik dövrünü əks etdirən yaraşıqlı foto-şəklinə baxaraq ona həsr etdiyi şeiri söylədi. Video çəkiliş edən şəxs həmin anı çox gözəl tutub.

A.Hüseynov Ə.Tağıyevin "Qonşu qız" mahnısını ifa edərkən sol əldə akkordlarla özünə ritm tutub.

Yeri gəlmişkən qeyd etməliyik ki, A.Hüseynov hərtərəfli bir insan idi. Klassik ədəbiyyatımıza bəslədiyi sevgisi vardı, şeiri sevirdi və özü də şeirlər yazırdı. Onun gənclik illəri məşhur şair Əliağa Vahidlə yaxın dostluqda keçmişdi. Düzdür, yaş hədləri çox fərqli idi, lakin dostluqları tuturdu.

Adil ustad qarmonçu Əhəd Əliyevi toylarda çox dinləmişdi. Əhəd o dövrün örnək qarmonçalanı olduğu üçün Adil də bu kişinin şirin çalğısının vurğunu idi və hər dəfə məclislərdə onun ifasından nəsə öyrənirdi.

Musiqişünas alim, mahir ifaçı Zakir Mirzənin söylədiklərindən: "22 yaşım olanda atam Qulamhüseynin dilindən Adil Zərgəroğlu kimi mahir qarmonçalanın olmasını eşitmişəm. Lakin istər o zaman, istərsə də sonralar bu adama heç yerdə rast gəlməmişdim.

Atam mənə bunu da demişdi ki, sənin uşaqlıq çağlarımda Adil Zərgəroğlu Bakı sənətkarları ilə Xaçmaz rayonunun toylarına gəlirmiş. Bu, müharibədən sonrakı dövrə təsadüf edir. Elə Qulamhüseyn kişiylə Adilin tanışlıq və yaxın münasibətləri o dövrdə olubmuş. Adil Hüseynov o illərdə bizim evdə olaraq mənim və qardaşım Adilin doğum günüylə bağlı yığıncaqlarda çalıbmış.

Mən Adil Zərgəroğlu ilə 1980-ci ildə tanış oldum. Bakının "Sirk restoranı"nda toyda çalırdım. O vaxtlar həmin restoranın müdiri Adil kişi idi. 1988-ci ildən isə bu gözəl sənətkar, mehriban insanla yaxın ünsiyyətim başlayıb. 1990-cı illərin sonlarında onu radio verilişlərinə aparmışam. Ondan müsahibələr alır, ifalarını efirdə səsləndirirdilər. Ömrünün sonuna qədər onunla əlaqəm kəsilməmişdi. Maraqlı şəxs, maraqlı ifaçı idi. Bu bir faktdır ki, onun ifa gücü son dövrlərə qədər qalmışdı. Balaban, klarnet ifaçısı Bəhruz Zeynalov Adil Zərgəroğlu ilə yaxın münasibətdə olduğumu eşitdikdə mənə onun muğamlarımızı mükəmməl bildiyini söyləmişdi. Adil kişi keçmiş dövrləri xatırladıqda həmişə Teyyubun, Məmmədağanın və Abbasın sənətini tərifləyirdi".

Yazı müəllifi, həm də qarmon sənəti üzrə mütəxəssis olaraq mübaliğəsiz deyə bilərəm ki, yuxarıda adlarını qeyd etdiyim ustadlar və XX əsrin ikinci yarısında qarmon sənətinin digər parlaq simaları ilə müqayisədə Adil Hüseynov onlarla eyni səviyyədə dayana bilən bir sənətkar idi.

Adil Hüseynov ailə başçısı kimi cəsarətli, müdrik və çalışqan olmuşdur. Onun övladları və nə-

vələri elmli, bilikli və təhsilli mütəxəssislərdir. O, 1948-ci ildə ailə qurmuşdur. Bir oğlu, bir qızı və dörd nəvəsi var.

A.Hüseynov 2008-ci il oktyabr ayında dünyasını dəyişib.

Sənətkarın nəvəsi Nazim Əli oğlu Hüseynov 2000-ci ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini başa vurmuş, sonra isə magistr və aspiranturanı qırmızı diplomla bitirmişdir. Elmi müdafiə edərək fəlsəfə doktoru dərəcəsi almışdır. 2006-cı ildə onu Moskvaya, Nüvə Tədqiqatları İnstitutuna baş elmi işçi aparmışlar. Hazırda İsveçrədə məşhur elmi mərkəzdə, yeraltı "Kolayder"də baş elmi işçi vəzifəsində çalışır.

2.15. ABBAS ABBASOV



Abbas Abbasov

XX əsrin 40-cı-60-cı illərində dünyaya qədəm qoyan soydaşlarımız daim radio dalğalarından Abbas Abbasovun qarmon ifasını eşitmişlər. Bəzən onun televiziya çıxışlarından da bəhrələnənlər olub. O, televiziyada xalq oyun havalarını və ayrı-ayrı muğam parçalarını ifa edib.

Yazı müəllifi kimi deyirəm ki, uşaq çağlarımda doğma radiomuzda Abbas Abbasovun konsertlərini çox dinləmişəm. O zamanlar belə ifaçılar mənim üçün əlçatmaz zirvə idilər. Xəyalıma da gəlməzdi ki, mən də qarmon ifaçılığı üzrə çalışacaq, musiqi dünyamızın bir üzvü olaraq A.Abbasov kimi sənətkarları yaxından görəcək və həmsöhbət olacağam.

1950-ci, 1970-ci illərdə Abbas Abbasovun ifaları Təbriz radiosu ilə də səsləndirilirdi.

Yaxşı xatırlayıram ki, 1980-ci illərdə musiqiçilərin toplaşdığı bağda A.Abbasovla tanışlığımız zamanı o, Təbriz radiosunda verilən konsertlərindən fəxrlə söz açırdı. Həm də Təbrizi o, sevgi ilə dilə gətirirdi. Axı, o da əslən Güney Azərbaycandan idi.

Abbas Hüseyn oğlu Abbasov 1924-cü ildə Bakının Sabunçu qəsəbəsində "Həmşərilər məhəlləsi"ndə dünyaya göz açıb. ("Həmşəri" həmşəhərli, həmkəndli, həmyerli anlamındadır. XX əsrin əvvəllərində Cənubi Azərbaycan əyalətlərindən işləmək, dolanmaq üçün Bakıya köç edənləri "həmşəri" adlandırırdılar – Ə.R.).

Balaca Abbas yeddi dilli, yarımtonsuz qarmonla az-maz çalğı öyrənmişdi. 12 yaşında atası ona 40 manata bir qarmon almışdı. Elə sənətə ilk addımlar da bu alət vasitəsilə olmuşdu. Həmin vaxtlar o, "İnnabı", "lalə", "Vağzalı", "Tərəkəmə", "Heyvagülü" rəqslərini öyrənmişdi. O illərdə öyrəndiyi hər oyun havası, mahnı ailədə böyük sevinçə səbəb olur və toy-bayrama çevrilərdi. Bəs necə! Axı bu sadə, zəhmətdən yoğrulmuş ailədə musiqini çox sevirdilər. Anası da uşağı təriflər, barmaqlarından, üz-gözündən öpər və dönə-dönə xoş sözlər deyib həvəsləndirərdi. Qavalda çalmağı bacaran ana da hərdən ona qoşulardı.

Abbasın ən çox sevdiyi Kor Əhədin "Segah"ı idi. Qrammafon valından "Segah"ı dəfələrlə din-

ləsə də doymazdı. O qədər qulaq asmışdı ki, Əhədin bütün xallarını əzbərləmişdi.

Evdə hər gün çal-çağır olduğu üçün ailə xoş günlərini yaşayırdı. Lakin 1941-ci ildə Rus-Alman müharibəsinin başlaması bütün ailələr kimi Abbasgilin də şən günlərini kədərli, qəm-qüssəli etdi. Atanı cəbhəyə apardılar. Bir ildən sonra ağır yaralandığı üçün geri qaytardılar. O, 1942-ci ildə, ömrünün son günlərində qardaşı Zeynala vəsiyyət etmişdi ki, qarmon sənətini daha mükəmməl öyrənsin deyə Abbası Teyyub Dəmirovun yanına aparsın.

Abbas əmisi Zeynal ilə adını çox eşitdiyi, radiodan tez-tez ifasını dinlədiyi, lakin üzünü heç vaxt görmədiyi Teyyub Dəmirovun mənzilinə gedir. Sonralar Abbas xatırlayıb deyirdi: "O, mənə əyləşmək üçün yer göstərdi və dedi ki, oğlum, nəyi bacarırsan, onu da çal. Mən Əhədin valından öyrəndiyim "Segah"ı çaldım. Gülümsəyərək əlini kürəyimə vurub dedi: - Bu lap Əhəddir ki... Əmimə: - Mən buna dərs keçə bilmərəm, özü çala bilir, hansı yolu tutubsa qoy elə də davam etsin, - dedi.

Bunu eşitsək biixtiyar gözlərim doldu. Əmim də bundan mütəəssir oldu. Xeyli dil-ağız etdikdən sonra Teyyub mənə dərs deməyə razılıq verdi. Mən az zaman müddətində ustadımdan "Xalabacı", "Ayşadı", "Baharı", "Maralı", "Kolxoz rəqsi" kimi oyun havalarını, "Zabul", "Rast", "Bayatı-Şiraz", "Rahab" və "Bayatı-Qacar" muğamlarını öyrəndim. On beş tələbəsi arasında ən çox mənim xətrimi əziz tutur, mənə arxalanırdı. Bəzən də vacib işləri olduğu vaxtlarda tələbələrilə məşğul olmağı mənə tapşırırdı".



Sağdan: Abbas Abbasov, x.a. Xan Şuşinski, ə.a. Mais Salmanov və klarnetçalan Elxan Səmədzadə

Abbas ilk dəfə xanəndələr Rübabə Muradovanı, Xan Şuşinskini, tarzən Qurban Pirimovu, klarnetçalan Nadir Axundovu Teyyub Dəmirovun evində görmüşdü. Digər böyük sənətkarlarla Abbasın ilk tanışlığı da ustadının musiqi ocağında olmuşdu.

Müharibənin ilk illərindən artıq T.Dəmirovun qarmonçalanlar ansamblı fəaliyyətdə idi. Bakı və şəhər ətrafından toplanan qarmonçalanlardan əlavə ansambl tərkibində Teyyubun öz tələbələri də var idi.

Bir gün filarmoniyada böyük dövlət tədbiri keçirilirmiş. Qarmonçalanlar ansamblı "Bayatı-Şiraz" muğam-dəstgahını ifa edir. Muğamın "Maya"sini Teyyub Dəmirov özü çalır. "Bayatı-İsfahan" və "Üzzal" şöbələrini isə Abbas Abbasova həvalə edir. Teyyub müəllim muğamın bütün şöbə və guşələrini özü çala bilərdi. Məqsəd isə sevimli və istedadlı tələbəsi Abbasın belə böyük tədbirlərdə püxtələşməsi və tanınması idi. O, doğrudan da yetirmələrinin uğuruna ürəkdən sevinirdi.

Ömrünün sonlarında Abbas ilk müvəffəqiyyətlərindən olan bunu xatırlayıb deyirdi: "Fasilə vaxtı bir nəfər gözlüklü şəxs bizə yaxınlaşdı, diqqətlə üzümə baxdı, əli ilə saçlarımı qarışdırıb – Teyyub, bundan müğayat ol, - dedi. Səhəri gün Teyyubdan həmin kişinin kim olduğunu soruşduqda: – Hə, Abbas, o, bizim dövlətimizin rəhbəridir, Mircəfər Bağırovdur, – soyləndi".

Bir gün T.Dəmirov Abbasgilə gəlib sabah səhər radioda canlı çıxışla konserti olduğunu, lakin vacib işə görə gedə bilməyəcəyini, bildirir. Xahiş edir ki, Abbas gedib həmin konsertdə Teyyubun adıyla çalsın. Qəfil və məsuliyyətli təklifdən Abbas çaşıb-qalaraq deyir: – Ustad, mən bunu bacararammı?

T.Dəmirov: "Bacarmalısan!" deyərək tələsik çıxıb gedir.

A.Abbasov həmin gün səhər bir-neçə tanınmlı sənətkarlarla birlikdə Teyyub Dəmirov adıyla "Bayatı-Qacar" muğamını, "Bəxtəvəri" və "Tərəkəmə" rəqslərini çalır. Teyyub özü isə evdə Abbasın radiodakı ifasını dinləyirmiş. Abbas konsertdən sonra onların evinə gedəndə Teyyub ayağa durub onun əlini sıxıb təbrik edir: "Hə, indi bildim ki, məni əvəz edə biləcək bir tələbəm var". Hələ üstəlik bir yüzlük də çıxarıb Abbasın cibinə salır. Abbas sanki böyük sınaq imtahanından çıxmışdı. Həmin gündən onun üçün böyük səhnəyə yol açılır. Ustadının razılığı və tövsiyəsilə A.Abbasov əvvəl incəsənət idarəsində, sonra isə Azərbaycan Dövlət Filarmoniyasında solist kimi işə düzəlir. Həmin dövrdə Xan Şüşinski, Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova, Əlibaba Məmmədov, İldırım Həsənov, Əliyar Əmirov, Həqiqət Rzayeva, Mürşid Məmmədov, Anatollu Qəniyev, Məmməd Salmanov, Tükəzban İsmayılova kimi tanınmlı müğənnilərlə birgə konsertlərdə çıxış edən, rayonlarımızda səfərlərdə olan Abbas Abbasov məşhurlaşır.

1956-cı ildə SSRİ-nin paytaxtı Moskva şəhərində musiqi kollektivlərinin baxış-müsabiqəsi keçirilərkən A.Abbasov da iştirakçı olub. Oradan qayıtdıqdan sonra Abbas Cahangir Cahangirovun təkidilə radio üçün "Ayşadı", "Bülbülü", "Lalə", "Xalabacı" və "Tərəkəmə" oyun havalvrını lentə yazdırıb.

1958-ci ildə tarzən Əliağa Quluyev (sonralar xalq artisti) Azərbaycan Dövlət Filarmoniyasında x.ç.a. ansamblı yaratmışdı. Əvvəllər bu ansamblın qarmonçalanı Abbas Abbasov olub. O, 1960-cı illərin sonlarına qədər həmin ansamblda çalıb. Abbas Ağası Məşədibəyovun, Həbib Bayramovun rəhbərlik etdiyi ansambllarda da çalıb.

El şənlikləri, radio çıxışları A.Abbasovu daha da məşhurlaşdırmışdı. O, 12 ildən artıq məşhur klarnet ifaçısı Şəmsi İmanovla yoldaşlıq edərək onunla Bakıda, Azərbaycanın hər guşəsində, qonşu respublikalarda konsertlərdə və toylarda olub. Ümumittifaq "Melodiya" firması bu qrupun ifasında oyun havalarından və təsniflərdən ibarət val buraxıb. Bir zamanlar bu qrammafon valları nəinki Azərbaycanın hər yerinə, hətta ətraflara da yayılmışdı. Həmin ifalar dövrün tələbinə



Toyda. Sağdan: Abbas Abbasov, Babaxan Bağırov, Almaz Quluyev (haz. ə.ə.), Rəmiş (haz. ə.ə.) və xanəndə Sabir Novruzov

uyğun idi.

Abbas geniş sənət meydanına atıldığı gənclik illərində o dövrün populyar qarmonçalanları Məmmədağa Ağayev, Səfərəli Vəzirov, Səttar Hüseynov, Adil Zərgəroğlu kimi sənətkarlarla yaxından tanış olaraq, onlarla dostluq əlaqələri qurmuşdu. Belə sənət adamları ilə bir sırada duran A.Abbasov qarmon ifaçılığımıza bina hörənlərdən biri olmuşdur.

Azərbaycan radiosu üçün ilk dəfə "Rahab" muğamını qarmonda ifa edib lentə yazdıran Abbas idi. Bu ifanı dəfələrlə dinləmişik. 1990-cı illərin əvvəllərində onun çaldığı "Rast", "Şur", "Bayatı-Şiraz" muğamları və xeyli sayda oyun havası radio üçün lentə yazılıb. O, iki-üç kinofilmdə "Segah" çalıb. Filmlərin birində isə onun ifasında Ağabacı Rzayevanın "Pəri" mahnısını eşidirik.

Abbas Abbasov 1990-cı illərdə Dənizkənarı parka, musiqiçilərin toplaşdığı yerə gəlir, orta yaş və gənc nəsil sənət nümayəndələri ilə söhbət edirdi. Əlbəttə o, darıxdığı məqamlarda özünə həmdəm, həmsöhbət axtarmaq üçün gəlirdi. Xalq sənətkarlarının yaşlı dövrü maddi çətinliklərlə keçir. Bu sənət gənclik dövrü üçün daha məqbul sayıldığına görə onlar toy-büsatdan, pul qazanmaqdan kənar qalırlar. Abbas kimi böyük sənətkar üçün də belə idi. O da çal-çağırdan, toy-nişandan, konsertlərdən kənar qalmışdı. Odur ki, özü demişkən 55 illik dostunu, sevimli qarmonunu maddi çətinlik üzündən satmalı olmuşdu. Özünə aldığı "Kazan" qarmonla könül nəğmələrini dilləndirir, arabir dəvət olunduğu dost-tanışın ev yığıncaqlarında səsləndirirdi.

Abbasın Sabit adlı qardaşı da qarmon ifaçısı idi. Üçüncü qardaş olan Sabit "İnşaatçılar" mədəniyyət sarayında qarmon sənəti üzrə dərs deyirdi. O da Abbasın üslubu ilə çalırdı. Sabit 1980-ci illərin sonlarında 54 yaşında dünyasını dəyişib.

A.Abbasov gənc qarmon ifaçılarının akkordeon üslubu ilə çalmaqlarından narahat idi. O, özündən əvvəlki sənətkarların, öz ustadının yaratdığı, özünün və onunla eyni dövrdə çalışan qarmonçalanların işlətdiyi üslubun qorunmasının tərəfdarı idi.

Abbas Abbasov 1997-ci ildə dünyasını dəyişib.

2.16. YARIDA QIRILMIŞ ÖMÜR



Qızxanım Dadaşova

Qızxanım Həsən qızı Quliyeva-Dadaşova 1925-ci il fevral ayının 23-də Bakıda anadan olub. Həsən həyat yoldaşı Səlimə xanımla mehriban yaşamış, dünyaya gətirdikləri dörd qız, iki oğulu zəhmətlə və məhəbbətlə böyütmüşlər. Övladlar hərəsi bir sənətə sahib olaraq cəmiyyətdə özlərinə yer tutmuşlar.

Səlimə xanımın qardaşı Məmmədağa Məmmədov mahir qarmonçalan olmuş və evində oğlan uşaqlarına bu sənətdən dərs demişdir.

Olduqca şən uşaq olan Qızxanım coşub-daşıb qaynayar, atılıb-düşər, şən-şən ötüşər, nəğmələr oxuyarmış. Bütün bunları uşaqlıq şıltaqlığı sayan valideynlər əhəmiyyət verməzmişlər. Az sonra Qızxanımın öz dayısının qarmonunu çaldığını görəndə bunu ona qadağan edirlər.

Valideynləri bazar-dükana yollananda, qonaq gedəndə balaca Qızxanım gizlincə dayısı Məmmədağanın qarmonunu götürüb, evdə xəlvət bir guşəyə çəkilər və ya bağda ağaclar altında ayləşib, eşitdiyi, az-çox yaddaşında saxladığı xalq havalarını çalmağı öyrənərmiş. Gizlincə qarmon çalmığı onun 8-9 yaşlarına təsadüf edir.

Bir gün Məmmədağa qarmon səsi eşidir. Ahəstəcə yaxınlaşıb Qızxanıma diqqət kəsilir, ifasını dinləyir və həddən artıq təəccüblənir. Qızcığaz başını qaldırıb dayısını görəndə qorxur, özünü itirir, qarmonu dizi üstündən yerə qoyur. O, tir-tir əsir, elə bilir ki, dayısı onu cəzalandıracaq. Axı, bir dəfə Qızxanım sevinə-sevinə dayısından ona qarmon çalmağı öyrətməyi xahiş etsə də, rədd cavabı almışdı.

Məmmədağa demişdi: "Qarmon çalmaq qız peşəsi deyil. Ümumiyyətlə bu çətin işdir. Qız-gəlinin musiqiçi olması məsləhət deyil".

İndi isə Qızxanımın istedadı və bacarığı dayını ovsunlayıb bir az da kövrəltmişdi. Məmmədağa qızın alnından öpüb, saçlarını tumarlayıb deyir: "Bacı qızı, sən çox qoçaq, zirək, qabiliyyətli qızsan. Səni dinlədim. Qarmonu həvəslə, elə qəşəng çalırsan ki, adam məəttəl qalır. Bu bacarığı Allah özü sənə bəxş edib. Mən onun göstərişinin əleyhinə gedib günaha bata bilmərəm. Sənə qarmon alacağıq. Ata-anandan təvəqqe edəcəyəm ki, sənə bu işlə məşğul olmağa icazə versinlər".

Elə də olur. Balaca Qızxanıma qarmon alınır. Sevinci yerə-göyə sığmayan bu istedadlı qız qarmonundan ayrılmır, hər gün məşğul olur. Bacılarını, məhəllə qızlarını başına yığıb onları sevindirir.

12 yaşına çatanda onun yaxşı qarmon çalmağını görən qonşular, məhəllə adamları Qızxanımın ata-anasından onun qohum-qonşu toylarında çalmağı üçün icazə istəyirlər. Beləliklə Qızxanım məhəllələrindəki qız toylarında, xınayaxdı məclislərində çıxış etməyə başlayır. Dəfçalanı əvvəllər xalası, bacısı, sonralar isə Nəsibə Xıdır qızı, Şəfiqə, Rəfiqə, Nəsibə Lənkəranlı və Hörmət xanım olmuşdur. Adəti üzrə təlabata uyğun olaraq dəf çalmaqla bərabər bu qadınlar qız məclislərində həm də oxuyurdular. Qızxanım oxuyanları da gözəl müşayiət edirdi. Qız toylarında daha yaxşı çıxış etmək üçün qoşa nağaranı da dəstəyə ilk dəfə o gətirmişdi.

Məhəllə toylarından sənətə ayaq açan Qızxanımın sorağı əvvəl Bakının hər tərəfinə, sonra isə bütün Abşerona yayılır. Dəstəsilə çalıb-çağırır, bəyənilir, sevilir. Qızxanımın sənətə bağlandığı dövrdə qadın qarmonçalanlar olsa da, heç biri onun səviyyəsinə gəlib çatmamış, xalq tərəfindən



Süleyman Dadaşov

onun qədər sevilməmişlər. Qızxanımın çalğısı bənzərsiz və təsirli idi. Onun sevilən, uğurlu sənəti bu sənətkara getdikcə daha böyük şöhrət gətirirdi.

Qızxanımın Şövkət Ələkbərova, Rübabə Muradova, Fatma Mehrəliyeva, Sara Qədimova, Tükəzban İsmayılova, Bülbül, Qulu Əsgərov, Əbülfət Əliyev, Qurban Pirimov, Bəhram Mənsurov və Teyyub Dəmirovla sənət dostluğu olub.

Sənətilə yaxşı tanınan Qızxanım radioya solist kimi dəvət olunur. Müntəzəm canlı çıxışları ilə Azərbaycanın hər yerində tanınır. Üzeyir bəy, özü şəxsən Qızxanımın ifasını çox bəyənirmiş.

Qızxanımın öz sənətinə sonsuz sevgisi, onu Sülyeman Dadaşovla da tanışlığa gətirib çıxardı. Süleyman olduqca istedadlı bir insan idi. O, konservatoriyanın bəstəkarlıq fakültəsində təhsil alırdı. Üzeyir bəyin tələbəsi idi. Süleyman Üzeyir bəyi həmişə özünə ideal bir insan saymışdı.

S.Dadaşov gözəl pianoçu kimi tələbə yoldaşları, musiqiçi dostları və müəllimləri arasında böyük rəğbət qazanmışdı. Onun piano çalğısında xalqımızın zəngin musiqisinin çalarları hiss olunurdu.

Süleymanın bəstələdiyi neçə-neçə əsərləri bir gün yoxa çıxır. Məlum olur ki, onlar oğurlanıb. Bu əsərlər başqasının adından təbliğ olunarkən Süleyman bundan bərk inciyib küsür. Konservatoriyanın yuxarı kurslarında təhsil alsa da, buranı tərk edir. O, Azərbaycan Dövlət Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olur və əla qiymətlərlə buranı bitirir.

İnstitutda təhsil aldığı illərdə bu təhsil ocağının bütün mədəni-kütləvi tədbirlərində çıxış edir, pianoçu kimi tanınır və hörmət sahibi olur.

Süleyman Dadaşov xeyli müddət radioda çıxış edərək milli musiqi nümunələrimizi, xüsusilə rəqs melodiyalarını sevə-sevə, böyük ustalıqla ifa etmişdir.

Süleymanın babası Hacı Dadaş Bakının tanınmış insanlarından idi. Məşhur "Fantaziya" hamamını o tikdirmişdi. Hacı Dadaşın oğlu Yusif neft maqnati olub. Yusifin oğullarının fitri istedadları olmuşdur. Oğlu Məlik Dadaşovun yaxşı oxumaq, gözəl qaval və piano çalmaq bacarığı var idi. O, aktyor kimi çox məşhurlaşmış, Azərbaycan Dövlət Dram Teatrındakı tamaşalarda baş rollarda oynamış, "Azərbaycanfilm"in çəkdiyi ekran əsərlərində və televiziya tamaşalarında bir-birindən maraqlı obrazlar yaratmış, xalq artisti adını almışdır. Məlikin qardaşı Salman Dadaşov vokalçı müğənni olmuş, bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrində solistlik etmişdir.

Qızxanım və digər qarmonçalanlar tez-tez Süleymangilə gələr, onun piano ifasını dinləməkdən doymaz, çalğı manerasını mənimsəməyə çalışar, vurduğu şirin xalları öyrənərdilər.

Ulularımız söyləmişlər: "Xeyirxahlıq babalardan qalıb".

Dahilərdən kimsə deyib: "Gözəllik və xeyirxahlıq eyni cürdür". Süleyman gözəl xasiyyətli, olduqca xeyirxah və şən adam idi. Bir filosof söyləyib: "Bütün nemətlərdən doymaq olar. Təkcə xeyirxahlıqdan başqa. Xeyirxahlıq ən böyük və qiymətli nemətdir". Süleyman dosta, yoldaşa, yaxınlarına xeyirxahlıq etməkdən doymazdı. Qəlbinin şirin-şirin nəğmələrini çalğısı, qeyri-adi ifası ilə musiqiçilərlə bölüşürdü. Fortepianoda əla qarmon barmaqları vururdu. Qarmonçalanlar heyran olurdular.

Rus şairi A.S.Puşkinin şeirlərindən birindəki fikir, tərcüməmizdə belə alınır:

"Musiqidən üstün yalnız eşqidir,
Yalnız eşq özü də bir tərənnümdür".

Qızxanımın ürəyinin incə, həzin nəğmələri var idi. O, təmiz, kövrək qəlbinin sevgisini musiqiyə çevirib insanlara bəxş edirdi. Onun çalğısında doğma xalqın adət-ənənələrinin ətri duyulur, torpağa, vətənə məhəbbət hiss olunurdu.

Qarmonu ilə Süleymangilə gələrkən birlikdə məşq edər, bir-birindən öyrənər, səmimi, mehriban söhbətləşər, sənət və həyat haqqındakı fikirlərini bölüşərdilər. Musiqi Qızxanımla Süleyman arasında əsl dostluq yaratdı və bu dostluq sevgiyə çevrildi.

Şair Məhzun musiqiyə həsr etdiyi şeirində deyir:

"Bu həyat gülşəninin xoş havası musiqidir,
Məhəbbət aləminin rəhmünası musiqidir".

İki insanın könül telləri bir-birinə sevgi nəğməsi çala-çala həyat simfoniyası yaratdı. Süleymanla Qızxanım 1948-ci ildə ailə qurdular. Onlar çox mehriban yaşadılar. Həyat fəlsəfələri musiqi idi. Qızxanımın sənəti daha da çiçəklənməyə başladı. Filarmoniyada çalışmaqdan başqa, Qızxanım 1950-ci illərdən etibarən radioda solist olmuş, televiziyada çıxış etmişdi.

Qızxanımla Süleyman evdə yorulmadan, müntəzəm məşq edər, oyun havalarını yeni bəzəklərlə işlərdilər. Süleymanın pianoda vurduğu şirin xalları, melizmləri Qızxanım qarmon ifaçılığına gətirirdi. Süleymanın çaldığı "Tərəkəmə" xalq rəqsini xalq musiqimizin nadir nümunələrindən saymaq olar. Qızxanımın genişləndirib çaldığı "Uzun dərə" rəqsi də nümunəvidir. Qızxanımın ifası ilə Süleymanın çalğısı bir-birini tamamlayırdı. Əbəs deyil ki, onların çalğısından zövq almaq üçün sənət dostları, ən məşhur musiqiçilər onların evinə gələrdilər. Bu qonaq-qaralı evdə bəzən musiqi müsamirələri keçirərdilər. Onların evlərinə bəstəkarlar, aktyorlar da gələrdilər. Bəstəkar Tofiq Quliyev Süleyman Dadaşovun piano ifasını həmişə tərifləmiş. Cazmen-bəstəkar Vaqif Mustafazadə Süleymanın milli zəminə əsaslanan ifasını dəfələrlə dinləmiş və onları nota yazıb götürmüşdü. Sonralar lent yazılarında onlardan bacarıqla istifadə etmişdi. Tanınmış qarmonçalan Kübra Əbilova və məşhur kino-aktrisa, xalq artisti Nəcibə Məlikova Qızxanımın ən yaxın rəfiqələri idilər.

Qızxanımın yaxşı oxumaq qabiliyyəti və gözəl səsi olmuşdur. O, bu qabiliyyətindən yalnız ev, ailə şadyanalığında, qohum-qardaş şənliklərində istifadə etmişdir. Eşidənlər deyirlər ki, o, "Kəsmə şikəstə"ni olduqca təsirli oxuyurmuş.

Q.Dadaşova radionun fonduna "Şahnaz" muğamını, "Uzun dərə", "Vağzalı", "Lalə", "Bəxtəvəri" oyun havalarını yazdırmışdır. Bu gözəl ifalarda incə qadın qəlbinin həssas duyğuları hiss olunur. Sual oluna bilər ki, belə mahir ifaçının lentə yazdırdıqları niyə azdır? Birinci səbəb odur ki, onun bu işlə məşğul olmağa vaxtı olmamışdır. Qızxanım öz dəstəsilə müntəzəm olaraq Bakı və Abşeron toylarına dəvət olunmuşdur. Demək olar ki, burada keçirilən əksər qız toylarında o, çalmışdır. Onun sənəti hamı tərəfindən sevilir və qəbul olunurdu. Bakıda bəzən o, bir gündə üç toya getməli olmuşdur. Belə ki, məclislərində Qızxanımı görmək arzusunda olanlar toylarını günün ayrı-ayrı vaxtlarına, müxtəlif saatlara təyin edirdilər ki, o, gəlib iştirak edə bilsin. Qızxanım dəstəsilə Azərbaycanın müxtəlif bölgələrinə də toylara getmiş, hətta Dərbənd şəhərinə neçə nəfərlə dəvət olunmuşdur. Bütün bu dediklərimiz, həm də onun ömrünün qısa olması imkan verməmişdir ki, o, böyük həvəslə və yüksək peşəkarlıqla çaldığı oyun havalarını lentə yazdırsın.

Qızxanıma bacı qədər əziz olan, onunla sənət dostluğu edib dəstədə dəf çalan, yaşı səksəni keçmiş Nəsibə Xıdır qızının dediklərindən: "Qızxanım "Tərəkəmə" və "Uzun dərə" rəqslərinin gözəl ifaçısı sayılıb. Bundan başqa o, "Kolxozu", "İnnabı", "Qoçəli", "Nərgizi", "Heyvagülü", "Brilliant" və başqa havaları da böyük ustalıqla ifa edirdi. Bəzən gecə yarısına qədər, bəzən də sübhədək toylarda çalardı. Camaat tələb edirdi, onun çalğısından, qarmonun səsindən doymurdular axı. O, camaatla yaxşı ünsiyyət saxlayırdı. Sözlərini yerə salmırdı. Qızxanım xoşxasiyyət, gözü

tox insan, əsl xanım idi". (Kitabı ikinci dəfə çapa hazırlarkən artıq Nəsibə xanım həyatda yox idi. Allah rəhmət eləsin).

Qızxanım çaldığı "Tərəkəmə"də o qədər xırdalıqlar, müxtəlif bəzəklər, çoxlu xallar, təkrarsız cümlələr, melizmlər işlədirmiş ki, ən böyük ifaçılar da bu rəqsi böyük əsər sayırmışlar. Süleymanın pianoda çaldığı xallar da bu işdə mühüm rol oynamışdır.

Məhəmməd peyğəmbər (ə.s.s) hikmətli kəlamlarının birində demişdir: "Xeyirxah insanlar qadını daim yüksəldər, bədxahlar isə onu alçaldarlar".

Süleyman müəllim öz qadınını daim yüksəldir, ona hər işdə kömək edir, sənətinin daha da çiçəklənməsi üçün bacarığını əsirgəmirdi. Qızxanım da ərinin evə, ailəyə sevgisi, insanlara olan mehriban, xeyirxah münasibətilə həmişə fəxr edər, onun musiqiçilik qabiliyyətindən zövq alırdı. Qızxanım Süleymanın pianoda sol əl ilə etdiyi harmonik akkordlardan qarmonun sol tərəfində peşəkarlıqla istifadə edirdi. O dövr üçün belə ifa çox böyük bir iş idi. Teyyub Dəmirov da qarmonun sol tərəfindəki səs düzümündən bir ayrı cür, öz üslübu ilə istifadə etmişdir. O, ailəvi dostları olan Süleymangilə gələr, onları dinlər və bu üç sənətçi bir-birinin sənətindən bəhrələnərdilər. Onların həmişə qarşılıqlı hörməti olmuşdur.

Bu ailənin daha bir yaxın dostu olmuş, vaxtilə ən yaxşı qarmonçalanlardan sayılan Adil Zərgəroğlu (Hüseynov) söyləyirdi: "Qarmon çalmaqdan başqa, piano ifa etmək qabiliyyətim də var. Süleymanın gözəl ifası məndə bu həvəsi oyadıb. O, bütün tonallıqlarda sərbəst çalırdı. Buna baxmayaraq o, pianosunun birini elə köklətdirmişdi ki, bu alətin "do" pərdəsilə qarmonun "do" pərdəsi düz gəlirdi. O, bunu bizə görə etmişdi. Bəzən qarmonu yerə qoyub piano arxasına keçəndə eyni tonallıqlarda çalmaq bizə rahat gəlirdi.

Qızxanımın çalğısı bir başqa aləm idi. Qəribə barmaqlar işlədirdi. Dinləyicini sehirləyirdi. O, kişi qarmonçalanların çoxusundan yaxşı çalırdı. Çoxu bunu özü etiraf edirdi. Heyf, belə sənətkarı əcəl tez apardı".

Q.Dadaşova qədim el havalarının əksəriyyətini ifa edirmiş. Keçmişimizdən gəlib çatan "Uzun dərə" və "Qars" rəqsini hər yerdə işlədirmiş. Onun çaldığı "Qars" indi toylarda çalınan melodiya deyil. Bu hava "Şur" muğamına əsaslanır. "Uzun dərə" rəqsini isə Qızxanım iki variantda çalırmış. Onlardan biri "Köhnə uzun dərə" adlanan və "Mahur" muğamı üstündə, açıq pərdələrdə çalınan melodiyadır, digəri isə bu gün ifaçıların repertuarından düşməyən, "Şüştər" muğamına əsaslanan və Ü.Hacıbəylinin "O olmasın, bu olsun" əsərində istifadə etdiyi, Məşədi İbadın oxuduğu melodiyadır.

Qızxanımın dörd qarmonu olub. Onlardan biri "do" kökündə imiş. Digər qarmonların birini A.Karpuşkin düzəldib. O, bu qarmonda çalaraq radioya lentlərini yazdırıb.

Süleymanla Qızxanımın dörd qızı və bir oğlu dünyaya gəlib. Övladların hər biri fitri istedada malikdir. Qızların dördü də müğənnilik qabiliyyətinə malikdir. İstedad, yüksək musiqi qabiliyyəti və müğənnilik bacarığı onlara irsən keçib. Qızların dördü də musiqi təhsili almış, fortopiano sinifini bitirmişlər.

Böyük qız Sədaqət V.Mustafazadənin rəhbərlik etdiyi "Sevil vokal kvarteti"nin üzvü olmuşdur. O, Mədəniyyət və İncəsənət Universitetini bitirmişdir.

İkinci qız Lalə fortepiano, qarmon ifaçısı, oranjemançı, müğənni və bəstəkardır. Mədəniyyət və İncəsənət Universitetini bitirib.

İradə ailənin üçüncü övladıdır. Hind, ərəb, əfqan, fars və s. xalqların mahnılarını məharətlə oxumaqla bərabər, Azərbaycan bəstəkarlarının əsərləri ilə repertuarını daim zənginləşdirir. O, da ali təhsillidir, Mədəniyyət və İncəsənət Universitetini bitirib.

Brilliant öz ailəsinə və səcərəsinə böyük şöhrət gətirmişdir. O, ölkəmizdə çox sevilən müğənnidir. Onun öz oxuma manerası vardır. Müğənni xalq mahnılarımızı, bəstəkar əsərlərini, başqa xalqların mahnılarını məharətlə oxuyur. Brilliant Dadaşova ölkəmizin hüdüdlarından kənarda da

tanındığı üçün tez-tez sənət səfərlərinə dəvət olunur və musiqimizi layiqincə təmsil edir.

Brilliant güclü istedadı hesabına səsindən istədiyi kimi istifadə edə bilir. Anası Qızxanımın bir zamanlar qarmonda etdiyi şirinlikləri, bəzək və müxtəlif melizmləri təəccüb yaradacaq dərəcədə boğazında asanlıqla işlədir.

Brilliant Dadaşova Mədəniyyət və İncəsənət Universitetinin musiqili komediya fakültəsini bitirmişdir. O, respublikamızın xalq artisti fəxri adına layiq görülmüşdür.

Dörd qızın tək qardaşı Dadaş da istedad sahibidir. Zərb alətlərimizin hamısında xüsusi qabiliyyətlə çala bilir. O, başqa sahədə çalışır. Orta ixtisaslı texniki işçi kimi fəaliyyət göstərir.

Ritm musiqinin əsas ifadə və formalaşma üslubundan biridir.

Süleymanın və Qızxanımın dəqiq, güclü ritm qabiliyyətləri gen vasitəsilə övladlarına da sirayət etmişdir. Ritmlərinin güclü, duyumlarının həssas olması müğənni qızların ən çətin musiqiləri oxumalarına imkan yaradır.

Qızxanım Dadaşovanın ilk dəfə Moskvanın "Melodiya", sonra isə Bakının "Təranə" firması tərəfindən valları buraxılıb.

Sənətçinin ifasında vallara "Zabul" muğamı, "Vağzalı", "Tərəkəmə", "Bəxtəvəri", "Lalə" və "Uzun dərə" rəqsləri yazılmışdır.

Bacarıqlı qarmon ifaçısı Q.Dadaşova 1967-ci il aprelin 24-də avtomobil qəzasında həlak olmuşdur.

2.17. AZADLIQ MÜCAHİDİ, ŞAİR, QARMONÇALAN



İsfəndiyar Bərxu (Coşqun)

12-13 yalarım olanda tez-tez radiodan eşidirdim: "Qarmonda çalır İsfəndiyar Coşqun". Onun ifa etdiyi oyun havaları, "Hümayun" dəramədi və "Hümayun" muğamı ruhuma hakim kəsilirdi. Qarmonun səsi məni ovsunlayırdı. O zaman mənim ağlıma belə gəlmirdi ki, gələcəkdə mən də qarmon ifaçısı olacağam.

Çünki mən 14 yaşım olanda, 14 dilli, diatonik (yarımtonsuz) qeyri peşəkar qarmonla çalğı öyrənməyə başlamışam. Yaşımın erkən çağlarında radio dalğalarında müntəzəm olaraq Teyyub Dəmirovun (1908-1970), Məmmədağa Ağayevin (1919-1982), Qızxanım Dadaşovanın (1925-1967), Abbas Abbasovun (1924-1997) və başqalarının qarmonda çaldıqları rəqs havalarını və muğamları çox eşitmişəm. Ustad Əhəd Əliyevin "Segahı"nı isə qrammofon valı vasitəsilə dinləyərdim.

Bu gün bir musiqiçi kimi deyə bilərəm ki, adını çəkdiyim qarmon ifaçıları Əhəd məktəbinin davamçıları olublar. Bu milli Azərbaycan qarmon məktəbidir. Burada xalqa həddən artıq yaxınlıq, doğmalıq, məhəbbət vardır. Xalq ruhundan, xalq musiqisi çeşməsindən axıb gələn milli səpgi, milli üslub, milli çalarlar var bu ifaçılıq qaydalarında. Bu dediklərimiz İsfəndiyar Coşqunun da ifalarının əsas məziyyətlərindən idi.

Əlbəttə, uşaqlıq və gənclik illərində qarmon ifaçıları, o sıradan İsfəndiyar Coşqun haqqında heç bir məlumatım yox idi.

Sənətkarların lent yazılarından öyrənə-öyrənə musiqiyə qədəm qoydum. 1970-ci illərin əvvəllərində günün birinci yarısında,müəyyən saatlarda musiqiçilərin filarmoniyanın bağına toplaşdığı anlarda mən də oralara qədəm qoymağa başladım. "Bakı Soveti" (hazırda "İçərişəhər") metro-stansiyası tərəfdən bağın girəcəyindəki 2-3 skamyada Azərbaycanımızın ən məşhur xanəndələri və musiqiçiləri əyləşər və şirin-şirin söhbət edərdilər. İsfəndiyar Coşqun da onların arasında olardı. O, əksər hallarda hamıdan gec gələr və tez də gedərdi. Biz gənc musiqiçilər məşhur sənətkarlar tərəfə maraq və həsrətlə baxardıq.

Mən sənət adamlarımızı tanımaq üçün yaşlı musiqiçilərdən soruşub məlumat alırdım.

İsfəndiyar Coşqun səviyyəli, əxlaqlı və mədəni şəxs idi. Öz xislətinə uyğun sənətkarlarla oturub durardı. O, tarzənlərdən Əhsən Dadaşov (1924-1976), Baba Salahov (1923-1981), Hacı Məmmədov (1920-1981), klarnet ifaçılarından Yaşar Həsənov (1937-2000), Elxan Səmədzadə, xanəndələrdən Əbülfət Əliyev (1926-1990), Niyaz Mehdiyev (1937-2013), Novruz Feyzullayev (1932-2008), Məmməd Salmanov (1930-2005) və digərlərilə təmasda olurdu. Onun adı dövrünün məşhur qarmonçalanları ilə bir sırada çəkilirdi.

İsfəndiyar Əli oğlu Bərxu 1929-cu il (pasportda 1925-ci il) sentyabr ayının 14-də Gəncə şəhərində İran (Güney Azərbaycan) mühacirləri ailəsində anadan olmuş, uşaqlıq illərini isə Şəmkir şəhərində keçirmişdir. Söylədiklərinə görə ailəsinin vəziyyəti ağır olub.

1930-cu illərin ikinci yarısında Sovet dövlətinin başçısı İ.V.Stalinin xüsusi əmrilə, türklərin sayını azaltmaq məqsədilə Güney Azərbaycan mühacirlərini İrana köçürməyə başladılar. Onların arasında Əli Bərxunun ailəsi də var idi.

1941-ci il iyunun 22-də Alman-Sovet müharibəsi başladı. Qızıl Ordunun hissələri Sovet-İran müqaviləsinin (1921-ci il) 6-cı maddəsinə əsasən İrana daxil oldular. İranda siyasi mühit xeyli dəyişdi və bir sıra siyasi təşkilatlar fəaliyyətə başladılar.

Saf uşaq qəlbində azadlıq eşqi alovlanan, doğma xalqına sevgi bəsləyən 12 yaşlı İsfəndiyar Bərxu bu təşkilatların birinə kömək edir, onun məqsəd və məramını bildirən kağızları Təbriz şəhərinin ən görkəmli yerlərində divarlara yapışdırırdı. Bu kimi tapşırıqları yerinə yetirərkən polis İsfəndiyarı dəfələrlə yaxalamış və idarəyə aparmışdı. Yaşının az olmasını nəzərə alıb ona işgəncə verməmiş, həbs etməmiş, yalnız qulağını dartmaqla kifayətlənib buraxmışdılar.

İsfəndiyar isə daha da mətinləşir, yaşı artdıqca xalqının azadlıq mübarizəsinə daha əzmlə qoşulurdu.

1945-ci il dekabrın 12-də Təbrizdə Azərbaycan Milli Hökuməti elan edildi. Hökuməti qorumaq üçün fədai dəstələri yaradılmağa başladı. Azadlıq aşiqi İsfəndiyar Bərxu da əlinə silah alaraq fədailərə qoşuldu.O, Urmiyada günahsız qanlar axıtmış sərhəng (polkovnik) Çəngənənin, qarətçilik və quldurluq edərək Təbriz camaatını qorxuya salan Qarnıyırtıq Kazımın tutulub Milli Hökumətə təhvil verilməsində fəal iştirak etmişdi.

İsfəndiyar hələ kiçik yaşlarında Şəmkirdə olarkən qarmon çalmağa başlamışdı. Köçüb gedərkən atası onun qarmonunu da unutmayıb özləriləTəbrizə aparmışdı. Balaca İsfəndiyar Təbrizdə öz ailə üzvləri, bir də məhəllə uşaqlarını başına toplayaraq onlar üçün qarmon çalıb sevindirərdi. Onu müşayiət etmək üçün Təbrizdə həmişə qaval çalan tapılardı. (Bir ritm aləti olaraq qaval Güney Azərbaycanda həmişə işlədilib və qorunub. Elə bu gün də vətənimizin ayrılmaz bir hissəsi olan Güney Azərbaycanın bütün şəhərlərində və kəndlərində, əksər ailələrdə qaval var və şənliklərdə istifadə olunur).

İsfəndiyar Bərxu yetkinlik dövründə inqilabi hərəkatın öncüllərindən olanda da yorğun anlarda da dostlarını başına toplayıb onlar üçün qarmon çalır, bu insanların milli ruhunun, milli musiqi mədəniyyətimizə olan sevgilərinin yüksəlməsinə vasitəçi olurdu.

Seyyid Cəfər Pişəvərinin başçılıq etdiyi Azərbaycan Milli Hökumətinə savadlı, bacarıqlı, peşəkar hərbi kadrlar lazım idi. Bir qrup gənc 1946-cı ilin iyulunda Bakıya hərbi məktəbə oxumağa göndərilmişdi. Onların arasında İsfəndiyar Bərxu da vardı. Bakıya təhsil almağa göndərilən gənclərin yaşı iyirmidən az olmamalı idi. İsfəndiyarın isə o zaman hələ 17 yaşı da tamam olmamışdı. Ona görə də o, öz yaşını artırıb 20 etmişdi.

Bakıdakı zabitlər məktəbində onlar üçün hər cür şərait yaradıb, hər cür ərzaq növlərilə təmin etmişdilər. Hətta belə ərzaqı bakılıların özləri görməmişdi. Güneydən gələn kursantlarda belə fikir yaradılırdı ki, Şura Azərbaycanının ağır müharibə illərindən təzə çıxmasına baxmayaraq bura "cənnətdir", hamı yaxşı dolanır, yağ-bal içərisində yaşayır.

İ.V.Stalinlə İranın dövlət rəhbərlərinin xəyanətkar danışıqları nəticəsində Azərbaycan Milli hökuməti 1946-cı il dekabrın 21-də süqut etdi. Pişəvəri və onun silahdaşları, Milli Hökumətin nümayəndələri Araz çayını keçərək Şura Azərbaycanına mühacirət etdilər. Sovet dövlətinin xəyanəti nəticəsində S.C.Pişəvəri 1947-ci ilin iyun ayında Gəncə-Yevlax yolunda avtomobil qəzasına salındı. Sui-qəst nəticəsində S.C.Pişəvəri həlak oldu.

İsfəndiyar Bərxu və onun yoldaşlarının arzu və ümidləri puç olmuşdu. Onlar Sovet dövlətinə sonsuz nifrət bəsləyirdilər.

Ümüdsüzliyə qapıldığı anlarda İsfəndiyar könlünü qarmona verirdi. Onu odlu ürəyinə sıxıb el nəğmələrini, muğamları səsləndirirdi. O, çaldıqca coşurdu, aşıb-daşırdı, qəlb arzularını musiqi dili ilə söyləyirdi. Qarmonu səsləndirərkən əslində bu coşqun təbli insan öz könül tellərini çalırdı.

İsfəndiyar Bərxu Sovet hökumətinin əsl simasını gördükcə qəzəblənir, özünə yer tapa bilmirdi.1948-ci ilin əvvəllərində İsfəndiyar Bərxu, İsmayıl Tərəqqipeyma və digər yoldaşlar bir yerə yığışıb "Gənc Qardiçilər"(qvardiyaçılar) adlı təşkilat yaratdılar.Təşkilatın əsas məqsədi Güneyli gənclər arasında iş apararaq onları vətənə qayıtmaq üçün hazırlamaq idi. "Gənc Qardiçilər" təşkilatının fəaliyyəti uzun çəkmədi. 1948-ci ilin sonlarında bu təşkilatın bütün üzvləri, başda Tərəqqipeyma olmaqla həbs olunaraq Sibirə sürgün edildilər. Xoşbəxtlikdən İsfəndiyar Bərxunun adı siyahıya düşməmişdi.

Filoloq-alim Məhəmməd Hatəmi Tantəkin və İsfəndiyar Bərxu Qulam Yəhya Danişianın başçılıq etdiyi Azərbaycan Demokrat Firqəsinin üzvü olsalar da,bu təşkilatın yürütdüyü sovetpərəst siyasətlə razılaşmırdılar. Etiraz etdikləri üçün hər iki inqilabçı gənc 1960-cı illərin əvvəllərində ADF-dən xaric edildilər.

İsfəndiyar Bərxu zabitlər hazırlanan məktəbdə təhsil aldıqları zaman və ondan sonrakı dövrlərdə heç vaxt sevimli qarmonundan ayrı düşməmişdi. Bu sənəti işlədir, öz üzərində çalışırdı.Ustad sənətkarlar olan Teyyub Dəmirovun, Məmmədağa Ağayevin, Abbas Abbasovun, Səttar Hüseynovun, salyanlı Rza Şıxlarovun qarmon ifalarını dinləmişdi.

İsfəndiyar Bərxu Azərbaycan Demokrat Firqəsinin mədəniyyət mərkəzində çalışır, orada yaradılmış "Məşəl" x.ç.a. ansamblında çalırdı. Sonralar daha fəal şəkildə Bakının musiqi ictimaiyyətinə qoşulan İsfəndiyar Coşqun bir qarmonçalan kimi tanınmağa başlamışdı. Coşqun onun şairlik təxəllüsü idi. Bu adla şeirlər yazırdı. Şeirləri M.Ə.Sabirin yazdığı üslubda idi. İsfəndiyar Coşqun el şairi idi. Çap olunmurdu. Çünki şeirlərinin əksəriyyətində sovet quruluşunu tənqid edirdi.

Azərbaycan musiqi ictimaiyyəti tərkibinə fəal şəkildə qoşularkən, az zaman kəsiyində İsfəndiyar Coşqun əqidəsinə, düzlüyünə, saflığına görə özünə böyük nüfuz qazanmışdı. O, tanınan xanəndələrlə, yaxşı dəstələrlə konsertlərə, toylara gedirdi. Çalğısı da bəyənilirdi. Onun toy fəaliyyəti əsasən XX əsrin 50-ci, 60-cı, 70-ci illərinə təsadüf edir.

Əfsus ki, o, radiomuzun fonduna 4-5 oyun havası və yalnız iki muğam, "Hümayun" və "Segah" yazdırıb.Onun böyük istedadı, geniş yaradıcılıq qabiliyyəti olduğu üçün neçə-neçə oyun havası, muğam dəramədləri və rənglər bəstələyib. Radiomuz üçün çaldığı "Hümayun" muğa-

mında çaldığı dəraməd İ.Coşqunun öz bəstəsidir.

Azərbaycan Firqəsinin mədəniyyət mərkəzindəki "Məşəl" ansamblının bədii rəhbəri tarzən-pedaqoq Baba Salahov idi. O, ömrünün çox hissəsini bu ansamblın rəhbərliyinə həsr edib.Onunla İsfəndiyar Coşqunun yaradıcılıq və dostluq əlaqələri bu mədəniyyət ocağından başlamışdı.Bir vaxtlar "Məşəl" ansamblına Əhsən Dadaşov da rəhbərlik etmişdi.

Baba Salahov 1962-ci ildə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsi nəzdində x.ç.a. ansamblı yaradarkən İsfəndiyar Coşqunu da heyətin tərkibinə gətirmişdi. İsvəndiyarın bəstələdiyi rənglər bu ansamblın repertuarında özünə yer almışdı. Bu ansambl rəsmi olaraq 1965-ci ildə



Toyda.Sağdan: İsfəndiyar Coşqun, Yaşar Həsənov, Hüseynağa Əliquluyev və Mais Məmmədov

Azərbaycan Teleradio Komitəsi sədrinin əmrilə təsdiq olunmuşdu. B.Salahovun rəhbərlik etdiyi ansamblın ilk qarmonçalanları İsfəndiyar Coşqun və Teyyub Teyyuboğlu olmuşdur. 1965-ci ildə isə bu kollektivə Aftandil İsrafilov gəlmişdir.

Mahir qarmonçu olaraq İ.Coşqun 1970-ci illərin sonuna qədər müxtəlif ansamblların tərkibində konsertlərdə, Niyaz Mehdiyev (xanəndə), Yusif Heydərov (tarzən), Yaşar Həsənov (klarnet ifaçısı) və Şirzad Həsənovdan (nağaraçalan) ibarət dəstə ilə toylarımızda fəaliyyət göstərmişdir.

Bakı Mədəni-Maarrif Texnikumunun müəllimi, görkəmli tarzən, uzun illər "Tərənə" Gənclik ansamblının rəhbəri olmuş Yusif Heydərovun dediklərindən:

"Baba Salahovun rəhbərlik etdiyi "Araz" ansamblından çıxdıqdan sonra İsfəndiyar Coşqun

bizim ansambla gəldi. 1960-cı illərin sonlarından 1970-ci illərin sonlarına qədər "Tərənə" ansamblında o, çox ciddi və səmərəli fəaliyyət göstərdi.Onun bəstələdiyi muğam dəraməd̈ləri və rənglərin sayı çoxdur.Biz onun "Bayatı-Şiraz" və "Hümayun" dəraməd̈lərini ansamblın ifasında televiziyada canlı çıxışlarımızda çalırdıq. Onları radiomuzun fondu üçün də yazmışıq. Coşqunun "Rast rəngi" də çox gözəldir.Onu da məşq edirdik. Əfsus ki, lentə yaza bilməmişik.

İsfəndiyar mədəni, ziyalı şəxs, gözəl sənətkar, əsl muğam bilicisi idi.Xeyli müddət onunla toy şənliklərində də olmuşam".

İsfəndiyar Coşqun 10 uşaq atası idi. Ailənin böyük olmasına baxmayaraq o, çətinliyin öhdəsindən gəlir və övladlarını yaxşı dolandırırdı.

Onun oğlu Xəyyam böyük istedad sahibi idi.Mahir zərb ustası, əla qarmonçalan idi. İ.Coşqunun qardaşı Məhəmməd Bərxu da qarmon ifaçısı olaraq ansamblarda çalışır, toylarda çalırdı. Məhəmməd Bərxu, Xəyyam və İsfəndiyarın digər övladları (təkcə kiçik qızdan başqa) Almaniyada yaşayırlar. İsfəndiyar Coşqun tarzən Əhsən Dadaşov, xanəndə Əbülfət Əliyev, klarnet ifaçısı Elxan Səmədzadə və nağaraçalan Tahir Hüseynovdan ibarət toy ansamblının tərkibində də neçə illər fəaliyyət göstərmişdi. Bəzi hallarda bu heyətin tərkibində məşhur nağaraçalan Çingiz Mehdiyev də olurdu.

İsfəndiyar Coşqunun şair kimi tanınması əsasən 1988-ci il ümümxalq hərəkatı dövrünə təsadüf etdi. Onun şerlərindən bəzilərinin adını çəkə bilərik: "Yazmamışam, yazammaram", "Qorxulu heykəl", "Bəsdir daha yatdınız", "Yest takaya partiya", "Vəzirov", "Hökmdar" və s. Bu kimi şeirlərində İ.Coşqun kommunist partiyasının, sovet quruluşunun və velikorus sovinizminin riyakar, xəyanətkar siyasətini ifşa edirdi. Onu təqib edirdilər, neçə dəfə tutub dəlixanaya salmışdılar.

1987-ci ilin əvvəllərində Bəxtiyar Tuncay, Tofiq Aslan, Fuad Ağayev, Ənvər Yusif Börüsoylu və Məhəmməd Hatəmi "Çənlibel" elmi-ədəbi birliyini yaratdılar. İsfəndiyar Coşqun da bu təşkilata qoşuldu.

Dəfələrlə o, "Çənlibel"in toplantılarında çıxış etmiş, öz şeirlərini oxumuşdu.

1988-ci ildə "Çənlibel" Elmi-Ədəbi Birliyi xalq hərəkatının başında dayandı. Bu təşkilatın rəhbərliyi ilə mayın 16-da,18-də və iyunun 9-dakı nümayişlər və mitinqlərdə İsfəndiyar Coşqunun xüsusi fəallığı olmuşdu.

Azərbaycan Milli Azadlıq Hərəkatı tarixinə "Meydan mübarizəsi" kimi daxil olmuş, 1988-ci il noyabrın 17-sindən başlayıb dekabrın 5-də bitmiş o çətin, ağır və şərəfli günlərdə də İsfəndiyar Coşqun xalqın ön sıralarında olmuş və sona qədər tab gətirmişdi. O, töküləcək qanların qarşısını almaq üçün rus əsgərləri və zabitlərilə danışıq aparanlardan biri idi.

Rus əsgərləri meydandakılara hücum edib dəyənəklərlə vuranda İsfəndiyar kişi camaatın ayaqları altında qalıb əzilmişdi.

İsfəndiyar Coşqun 1989-cu il may ayının 21-də öz bağında "Birlik" cəmiyyətinin təsis yığıncağını keçirmişdi. Bu təşkilatın iyulun 8-də keçirdiyi nümayiş zamanı həbs olunanlar arasında İ.Coşqun da var idi. O, yoldaşları ilə əvvəl Nərimanov R.P.İ-nin zirzəmisində, sonra Bayıl həbsxanasında saxlanılmış və bir müddətdən sonra isə Şüvəlan təcridxanasına köçürülmüşdü. Həbsxanada onun vəziyyəti ağırlaşmışdı. Beləliklə o, avqustun 9-da həbsdən buraxılmışdı.

Coşqun ürəkli bir insan bütün mənalı ömrünü xalqının milli musiqi mədəniyyətinə və bu millətin azadlığına sərf etdi. Çəkdiyi məşəqqətlər, gördüyü işgəncələr ona ömrünü davam etməyə imkan vermədi. İ.Coşqun 1991-ci il avqustun 23-də haqq dünyasına qovuşdu. O, Azərbaycanın müstəqilliyini görməsə də arzularının bir hissəsi həyata keçdi. Ən böyük arzusu isə o taylı-bu taylı Azərbaycanı bütöv görmək idi.

2.18. YALNIZ ŞUŞADA, QARABAĞDA DEYİL ÇOX YERLƏRDƏ TANINIRDI



Tapdıq Zeynalov

O, sənəti, böyük istedadı,xalqa xidməti və alicənablığı ilə Şuşanın və Qarabağ diyarının sevimlisi kimi bu gün də xatirələrdə yaşayır. Bu sətirlərin müəllifi olaraq səmimi fikirlərimi sevimli oxuçularımın, musiqisevərlərin diqqətinə çatdırıram ki, Bakıda məskunlaşmış Şuşa Musiqi Tenikumunda (haz.kollec) 2000-ci illərdə çalışarkən bu insan haqqında şuşalılardan o qədər xoş sözlər, müsbət fikirlər eşitmişəm ki... Onu da söyləyirdilər ki, bu kişi şəxslərinin əlindən tutub sənətə gətirib, pərvazlandırıb, qanadlandırıb, çoxlarının ixtisaslı kadr kimi yetişməsində xidmətlər göstərib, çoxlarını çörək sahibi edib. Bütün fəaliyyəti boyu onun haqqında dövri mətbuatda yazılar getmiş, dəfələrlə fəxri fərmanlara layiq görülmüş, "əmək veteranı" medalı ilə təltif olunmuşdur. Oxucusu olduğum Şuşa qəzetində də onun dəyərli fəaliyyəti, xidmətləri barədə yazılara rast gəlmişəm. Həmin qəzetin 1 iyul 2007-ci il, 15 sentyabr 2010-cu il tarixli saylarında da maraqlı məqalələrə tuş gələrək haqqında çoxlarından eşitdiyim bu ləyaqətli, işgüzar insan, ifaçı, pedaqoq haqqında bir daha bilgilərə nail oldum. Qət etdim ki, bu şəxsin adı musiqi tariximizdə yaşamalıdır. Onun həyat və sənət fəaliyyətini qarmon ifaçılığını əhatə edən kitabda işıqlandırmağa qərar verdim. Çünki o, tarın, kamançanın, akkordeonun eyni səviyyədə yaxşı ifaçısı olmaqla bərabər gözəl qarmoncalanlardan biri kimi tanınırdı.

Tapdıq Feyzi oğlu Zeynalov 1928-ci il avqust ayının 18-də Şuşa şəhərində anadan olmuşdur. Ata çörək bişirməklə məşğul olub öz evini halal qazancla dolandırmış, ana evdar qadın olaraq uşaqların saf-sağlam, əxlaqlı, tərbiyəli və zəhmətsevər ruhda böyüməsi üçün çalışmışdır. Ailədə dörd övlad böyüyərək Azərbaycan cəmiyyəti üçün layiqli vətəndaşlar kimi yetişmişdir. Ailənin ikinci övladı Tapdıq orta məktəbdə 8 illik təhsil almışdır. Kiçik yaşlardan musiqiyə meyl etmişdir. Şuşanın tanımlı qarmonçalanlarından Kərbəlayi Lətif və Məşədi Müseyib onların qonşuluğunda yaşayırdı. Tapdıq onların ifalarını çox eşitmişdi. Ümumiyyətlə Şuşa musiqi mühiti, bu şəhərin tar-kaman ifaçılarının, xanəndələrinin toylarda, konsertlərdəki ifaları sənət həvəsində olan coxları kimi bu uşağın da musiqi təxəyyülünün, duyumunun, zövqinin formalaşmasına şərait yaratmışdı. Həvəs onu uşaq musiqi məktəbinin tar sinfinə gətirmişdi.

Tapdığın oğlu Gülağa müəllimin söylədiklərindən: "Rəhmətlik nənəm danışırdı ki, yun əyirirdim, Tapdıq gəlib dedi ki, mənim arzum var ki, tar çalım, musiqiçi olum, məni də tanısınlar. Yunu əyirib qurtaran kimi satmalı oldum, pulunu verib uşağa bir sınıq tar aldıq, ora-burasını düzəltdirib məktəbə getdi".

Tapdıq Zeynalov Şuşa musiqi məktəbinin tar sinfini 1948-ci ildə bitirib. İxtisas üzrə Rəsul müəllimdən dərs alıb. Rəsul müəllimin ayaqları şikəst imiş. Məktəbə öz tələbələrinin köməkliyi ilə gəlirmiş. Onun məktəbə gətirilməsi ağır zəhmətlə başa gəlirmiş. Müəllimin öz biliyini öyrətmək

və şagirdlərin sənət öyrənmək həvəsi onlar arasında elə isti münasibət yaratmışdı ki, çəkilən əziyyət gözə görünmürdü. Nəticə yaxşı olmuşdu. Şagirdlər tar sənətinin incəliklərini öyrənə bilmişdilər. Onlardan biri də Tapdıq idi. Tapdıq Zeynalov 1966-cı ildə Üzeyirn Hacıbəyov adına Ağdam Orta İxtisas Musiqi Məktəbinin (son. texnikum adlanmışdır, haz. kollecdir) tar sinfini bitirmişdir.

Tapdığın bacısı ailəsi ilə Norilsk şəhərində yaşayırdı. Onun həyat yoldaşı Qulam Ağayev Şuşaya gələrkən Norilskdən Tapdıq üçün hədiyyə olaraq "Ness" markalı, Almaniyada istehsal olunmuş akkordeon alıb gətirmişdi. Bu zaman Tapdığın 18 yaşı var idi. O, az zaman ərzində akkordeonu tam peşəkar qaydada, yəni sağ və sol əllərlə çalmağa başlamışdı. Şuşadakı uşaq sanatoriyasında işə girərkən akkordeon çalmağı onun üçün mühüm əhəmiyyətli bir iş olmuşdu.

T.Zeynalov 1945-1954-cü illərdə Şuşa 3 saylı uşaq evində,1951-1955-ci illərdə uşaq sanatoriyasında musiqi rəhbəri, yenidən uşaq evində 1956-1957-ci illərdə musiqi rəhbəri, 1955-1958-ci illərdə mədəniyyət evinin bədii rəhbəri, 1966-1967-ci illərdə musiqi məktəbinin tar sinfinin müəllimi işləmiş, sonra isə musiqi-pedaqoyi fəaliyyətini Şuşa Pedaqoji Texnikumunda davam etdirərək musiqi-nəğmə müəllimi olmuş, "Dostluq" ansamblına rəhbərlik etmişdir. O, uzun illər Şuşa mədəniyyət evinin xalq çalğı alətləri ansamblının rəhbəri olmuş, həvəskar musiqiçilərin və müğənnilərin səhnə qabiliyyətlərinin və ifaçılıq maharətlərinin formalaşmasına, yetişərək peşəkar sənətə qovuşmasına, xalqın toy-büsatına xidmət edərək özlərinə güzaran düzəltməsinə, ailələrinə ruzi qazanmasına şərait yaratmışdır. Onun rəhbəri olduğu ansambl Şuşadakı ən mühüm tədbirlərdə çıxış etməklə bərabər, ətraf rayonlarda da maraqlı repertuarla konsertlər verirdi. Göründiyi kimi bu zəhmətsevər, hünərli insan hərtərəfli və zəngin fəaliyyətdə olaraq uzun illər mühüm işlərə imza atmış, hər bir işdə izi qalmış və çalışdığı yerlərdə yetirmələrilə seçilmişdir. O da müsiqi üçün



Tapdıq Zeynalov (ortada) yetirmələrindən ibarət ansambl ilə (1952-ci il)



Tapdıq Zeynalov (soldan birinci) rəhbərlik etdiyi x.ç.a. ansamblı ilə konsertdə (1953-cü il)

dünyaya gələnlərdən idi. Odur ki, bu işə ömür həsr etmişdi. Ata –anası onu millətə, xalqa xidmət etmək üçün yetirmişdi. İstedadı yüksək olan bu insan müntəzəm olaraq müxtəlif bədii-kütləvi tədbirlərdə, baxış-müsabiqələrdə, festivallarda iştirak edərək nailiyyətlər qazanmışdır. O, bacarıqlı yetirmələrini də belə əhəmiyyətli tədbirlər üçün hazırlamış, onların pərvazlanmasına, uğurlar qazanaraq sənət adamı kimi yetişməsinə çalışmış və bunun üçün var gücünü sərf etmişdir.

T.Zeynalov C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının yazıcı-dramaturq Anarın ssenarisi əsasında çəkdiyi "Uzun ömrün akkordları" sənədli-bədii filmində epizodik rola çəkilmişdir. Dahi bəstəkar Ü.Hacıbəylinin həyat və yaradıcılığını özündə əks etdirən bu filmdə o, əsl bəy libasında, uca boyu ilə əzəmətli və qürurlu görünür. Sağlam və cüssəli görünüşü ilə əsl Qarabağ bəylərini xatırladır. Elə bu görkəmdə də filmin kadrlarında əbədiyyətə qovuşub.

Yazımızda qəhrəmanımızın gənclik illərinə qayıdaraq qeyd edirik ki, o, uşaq sanatoriyasına işə girərkən ilk əvvəllər bəzi çətinliklərlə qarşılaşsa da əzmkarlıqla hər işin öhdəsindən gəlmişdi. Sanatoriyaya gələnlər müxtəlif xalqların nümayəndələri idilər. Buraya çoxmillətli SSRİ məkanının hər yerindən gəlirdilər. Odur ki, sanatoriyanın bədii rəhbəri Mariya İvanovnanın göstərişi ilə o, müxtəlif xalqların tələb olunan musiqi nümunələrini notla hazırlayıb akkordeonda ifa etməli idi. M.İvanovna çox tələbkar qadın idi. Tapdıq üçün otaq ayırıb müəyyən vaxt təyin edirdi ki, o, əsərləri notla hazırlasın. Vaxt tamam olanda gəlib dinləyib təhvil alırdı və hər dəfə də sevinclə razılığını bildirirdi. T.Zeynalov bu sanatoriyada 30 ildən artıq çalışmışdı. Burada yalnız akkordeonu deyil, tarı, kamanı, fortepianonu, qarmonu da səsləndirmiş və müalicəyə, dincəlməyə gələnlərə əsl istirahət bəxş edərək onlara zövq vermişdi.

Şuşaya, qədim tarixi, əsrarəngiz gözəlliyi olan bu şəhərə xarici ölkələrdən də qonaqlar gəlirdi. Onlar üçün verilən konsertlər yalnız istirahət məqsədi daşımırdı, bu həm də müsiqi mədəniyyətimizin təbliği idi. Belə konsertlərdə T.Zeynalovun tarda, kamanda, qarmonda və akkordeonda çaldığı melodiyalar böyük marağa səbəb olurdu.

Qeyd etməliyik ki, onun əmək fəaliyyətinin çoğrafiyası çox geniş olub. O, Şuşa internat məktəbində, uşaq evində xor, rəqs kolektivlərinə də rəhbərlik edib və uşaqlara tar, kaman, qarmon alətlərində ifa etməyi öyrədib. Ağdamlı ifaçı, hazırda qarmonların təmiri və düzəldilməsilə məşğul



27 may 1967-ci il. Tapdıq Zeynalov (soldan birinci) çalışdığı uşaq musiqi məktəbinin kollektivi ilə

olan usta Vaqif Məmmədovdan eşitdiyim: "Mən Şuşa internat məktəbinin şəgirdi olarkən musiqi alətlərinin ifaçısı Tapdıq Zeynalov burada tərbiyəçi-müəllim idi. O, tarda ifa edərək bizə xorda oxumaq öyrədirdi. Necə-neçə xalq mahnılarını, oyun havalarını qarmonda çalmağı mən ondan öyrəndim. Onun həyat yoldaşı Səriyyə xanım o illərdə hamımıza analıq edib".

Şuşada hamının "Dom otdıx"(dilimizdə istirahət evi) adlandırdığı İstirahət Mərkəzi var idi. T.Zeynalov burada ifaçı kimi xüsusi bacarıq nümayiş etdirirdi. Buraya Sovet dövlətinin əksər respublikalarından, xüsusilə Rusiyadan istirahətə gələnlər olurdu. Tapdıq müəllim gələnlərin maraq dairəsinə uyğun olan musiqilər səsləndirir, əsasən akkordeonu və qarmonu dilləndirərək dincələnlərin mədəni istirahətini təmin edirdi. Onu Ümumittifaq miqyasında akkordeoncalan Tapdıq kimi tanıyırdılar. Qarabağada, Azərbayacanda isə o,qarmonçalan Tapdıq olaraq tanınmlı idi.

Musiqi dünyamızda, Şuşa musiqi mühitində onun öz imzası, öz yeri var idi. Diqqətli oxucu bu sətirləri oxuduqca onun ömür və sənət səhifələrini vərəqləmiş olacaq.

Tapdığın əlində ən dəyərli alət, A.Karpuşkinin düzəltdiyi qarmon olub. Qarmonun üzərində A. M. hərfləri həkk olunmuşdu. Bu həmin qarmonun əvvəlki sahibinin, Ağayev Maşallahın adının baş hərfləri idi. T.Zeynalov bu alətdən məharətlə istifadə edərək Qarabağ toylarında layiqli sənətilə rəğbət qazanmışdı. Qarabağın əsas qarmonçalanlarından biri olmaqla bərabər onun sənətindən Qubadlıda, Laçında, Kəlbəcərdə də bəhrələnir, çaldığı "Tərəkəmə", "Uzun dərə", "Beşatılan", "Xalabacı, "Heyvagülü" "Xancobanı" və başqa el havalarına qol götürüb oynayırdılar. O, Qarabağ xanəndələri ilə Ağdam,Bərdə, Yevlax və Ağcabədidə də toylar yorub gəlmişdi.Tapdıq müəllim qarmonda muğamlarımızı da zəngin çalarlarla, düzgün və yetərincə, muğam qaydalarına uyğun çalırdı. İxtisaslı tar sənətkarı olması bu işdə ona kömək olmuşdu. O, solo muğam ifalarında xüsusilə "Bayatı-Şiraz"a, "Segah"a, "Dəşti"yə yer verər və bu zaman xüsusi ürək qoyardı.



T.Zeynalov Şuşa sanatoriyasında çıxış edərkən

Tapdıq müəllim Qarabağın əksər xanəndələrini qarmonu ilə konserlərdə və toylarda müşayiət edib. Bu sırada xalq artistləri Bahadur Mehrəliyev, Xan Şuşinski, Yaqub Məmmədov, Arif Babayev, Qədir Rüstəmov kimi sənətkarların adlarını çəkə bilərik. O, İsa Rəhimov, Hafiz Sədirzadə və digər ustad xanəndələri də tarda və qarmonda müşayiət etmişdi. Bu müdrik, ədəb-ərkanlı insanın sənət yoldaşlığın-



Tapdıq Zeynalovun Şuşa Musiqi Texnikumunda musiqi üçlüyü

dan, ümumiyyətlə sənət işlətmə qaydalarından hamı razı qalırdı. O, əsl ağsaqqal idi, hər bir işində nizam, ölçü-biçi, qayda var idi. Əxlaq normaları onun bütün yaşam tərzini və davranışını əhatə etmişdi.

Şuşanın və Xankəndinin şəhər radio qovşağı müntəzəm olaraq T.Zeynalovun qarmonda çaldığı xalq havalarını və muğamları səsləndirirdi. Onun akkordeon ifasında Azərbaycan bəstəkarlarının bir sıra əsərləri də yayımlanırdı. T.Zeyanalov televiziya konsertlərində də çalmışdı. Bu yorulmaz və hünərli insan Şimali Qafqaz respublikalarında da konsertlərdə və toylarda Azərbaycan qarmonunun səsini sevdirə bilmişdi.

Tapdıq müəllimin yetirmələrinə Azərbaycanın hər yerində və Bakıda rast gəlmək mümkündür. Onların əksəriyyəti ali təhsilli olaraq musiqi mədəniyətimizdə özlərinə layiqli yer tutanlardır. Vaxtılə Bakıda musiqi məktəbinin direktoru olmuş, sonralar ömrünün sonuna qədər uşaq musiqi məktəbləri üzrə Metodkabinetin direktoru vəzifəsində çalışmış Səid Hacıyev də Tapdıq müəllimin yetirmələrindən idi. O, 2014- cü ilin yanvar ayında dünyasını dəyişmişdir. Tapdıq müəllimin oğlu Gülağa Zeynalov da istedadlı musiqiçi, bacarıqlı tarzən, əla qarmon ifaçısı olaraq öz atasından dərs almışdır. Yetirmələri sırasında Vilayət Əliyevin də adı hörmətlə qeyd olunmalıdır. 1982-ci ildə Şuşa Musiqi Texnikumunda qarmon sinfi açılarkən Tapdıq Zeynalov muğam, Vilayət Quluyev və Gülağa Zeynalov isə ixtisas müəllimi kimi fəaliyyətə başlamışlar.

T.Zeynalov 1954-cü ildə ailə qurmuşdu. O,Səriyyə xanımla beş övladı ləyaqətlə böyüdüb və hamısına musiqi təhsili verib.

1992-ci il mayın 8-də Şuşa şəhəri düşmənimiz ermənilər tərəfindən işğal olunarkən Tapdıq müəllim Yevlaxda məskunlaşmış, Ağcabədidə çalışmış, sonra isə Bakıya köçərək bu mərkəz şəhərdə fəaliyyət göstərən Şuşa musiqi məktəbində dərs demişdi.

T.Zeynalov 2006-cı il iyulun 15-də dünyasını dəyişmişdir.

2.19. SƏFƏRƏLİ VƏZİROV



Səfərəli Vəzirov

Deyirlər gözəlliklər qoynunda, təbiətin mənzərəli yerlərində dünyaya gələn, gəzib-dolanıb boy atan kəslərin xisləti xeyirli, xasiyyəti gözəl olur.

Uşaqlıq çağlarından xoş rəftarı, mehribanlığı, xeyirxahlığı ilə seçilən Səfərəli öz kökü üstündə boy ataraq yaxşı insan kimi ad çıxarıb, şərəfli bir ömür sürüb öz şəcərəsinə baş ucalığı gətirdi.

Səfərəli Ağarza oğlu Vəzirov 1929-cu il aprelin 28-də Xızı mahalının Dizəvər kəndində dünyaya gəlib. O, 1936-cı ildə Dizəvər kənd məktəbinin 1-ci sinfinə gedir. İbtidai təhsili başa vurduqdan sonra onların ailəsi Bakıya köçür. Ağarza kəndinin varlı, imkanlı şəxslərindən biri kimi sayılıb-seçilirdi. O, həvəskar qarmonçu idi. Boş vaxtlarında ailə üzvləri, qohum-əqrabası, dost-tanışı üçün çalardı. Kənddə yaşadığı dövrdə oğlu Səfərəlinin həvəsini görüb ona çalmaq öyrətmişdi.

Səfərəli ibtidai təhsilini Bakıda 25 saylı orta məktəbdə davam etdirir. Atası Səfərəlini 1941-ci ildə ustad qarmonçu Əhəd Əliyevin yanına aparır. 1942-ci ildə kor Əhəd dünyasını dəyişəndən sonra o dövrdə yaxşı qarmonçu kimi tanınan Teyyub Dəmirovdan dərs almağa başlayan Səfərəli musiqi sənətini mükəmməl bilmək, qarmon ifaçılığına həqiqi sənətkar kimi sahib olmaq üçün real qüvvəsini sərf edir. Öz çalışqanlığı hesabına sonralar kamil bir sənətkar kimi yetişir, el arasında tanınır, musiqiçilər arasında dəsti-xətti ilə seçilir. O, həm də yüksək mədəniyyəti, alicənablığı ilə də musiqi aləmində sayılıb seçilmiş, onu tanıyanların qəlbində özünə məskən salmışdı.

S.Vəzirov orta məktəbi bitirdikdən sonra Xalq Təsərrüfatı İnstitutuna daxil olur. Burada yaxşı intizamlı tələbə kimi tanınmaqla bərabər ictimai işlərdə fəallıq göstərənlərdən biri kimi hörmət qazanır. İnstitutda xalq çalğı alətləri ansamblı yaradır və kollektivə yaxşı rəhbərlik edərək rəngarəng repertuar hazrlayır. İnstitut rəhbərliyi tərəfindən təşəkkürlər alan Səfərəli müəllimlər və tələbələrin dərin hörmətini qazanır. S.Vəzirovun rəhbərlik etdiyi ansambl doğma təhsil ocağında və başqa institutlarda da konsertlər verir.

1951-ci ildə Polşada keçirilən Beynəlxalq Festivalın qalibi olan S.Vəzirov doğma vətənə üzüağ dönərək doğmalarına, musiqiçi dostlarına, oxuduğu ali təhsil ocağına bol-bol sevinc bəxş edir.

S.Vəzirov institutu bitirib iqtisadçı kimi bu sahədə fəaliyyətə başlayır.

Sənətkarımız 1949-cu ildən 1953-cü ilə qədər peşəkar sənətdə çalışıb. Konsertlərdə və toy şənliklərində məşhur xanəndələr və sayılan ifaçılarla fəaliyyət göstərib.

O, 1953-cü ildə radionun fonduna "Cahargah" və "Zabul" muğamını, "Qazaxı", "Kolxozu", "Azərbaycan", "14 nömrə", "Qaytağı", "Tərəkəmə", "Vağzalı" rəqslərini və musiqisi özünün olan "Pambıq çöllərində" kompazisiyasını yazdırmışdır.

Beş oğul, bir qız atası olan S.Vəzirov övladlarını ləyaqətlə böyütmüşdür. Özü ifaçılıqdan uzaqlaşıb başqa sahədə çalışsa da, oğullarının musiqi təhsili almalarına xüsusi diqqət və qayğı göstərmiş, bir sənətkar kimi yetişmələrinə yaxından kömək etmişdir. İstedadlı bir nəslin nümayəndələri olan bu övladların hər biri ən yaxşı ifaçılara çevrilərək musiqi mədəniyyətimizə həqiqi xidmət göstərmiş, incəsənətimizin xarici ölkələrdə təbliğ olunmasında iştirak etmişlər.



Səfərəli Vəzirov ailə ansamblının məşqində

Böyük oğul Kamil simli alətlərin və qarmonun ən yaxşı ifaçılarından olaraq, dünya şöhrətli müğənni Rəşid Behbudovla Mahnı Teatrında çalışaraq milli musiqimizi dünyanın hər yerində təmsil etmişdir.

Kaman ustası Hacı Ədalət öz sənətinin peşəkarlarından sayılaraq müşaiyətçi və solist kimi ölkəmizdə və onun hüdudlarından kənarda incəsənət ustalarımızla birlikdə ən müvəffəqiyyətli konsertlərdə, festivallarda və ən böyük tədbirlərdə çıxış etmişdir. Əcəl onu vaxtsız əlimizdən almış. Hacı Ədalət 52 yaşında dünyasını dəyişmişdir.

Ramiz çox gözəl piano ifaçısı idi. Xalq çalğı alətləri ansamblarında çalışırdı. Ulu Tanrı bu gənc ifaçını öz dərgahına apardı.

Babək və Qalib də musiqiçi kimi yaxşılardan sayılırdı. Babək (Ağarza) klarnetin və digər nəfəs alətlərinin mahir ifaçılarından sayılır.

Qarmon ifaçılığında klassik sənətçilərdən sayılan S.Vəzirov 1982-ci il noyabr ayının 9-da vəfat etmişdir.

2.20. SALYANLI ƏFLATUN AĞAYEV VƏ RZA ŞIXLAROV

Salyan qədim el, qədim mahaldır. Bu torpaq Mir Bağır Ağazadə, Əli bəy Hüseynzadə, Əlövsət Quliyev kimi ziyalı və ictimai-siyasi xadimlər, Böyükağa Talıblı kimi yazıçı, Əliağa Kürçaylı, Xəlil Rza Ulutürk kimi nəhəng şairlər, Əli Zeynalov, Həsən Məmmədov, Nadir Hüseynov kimi sevilən aktyorlar, Aşıq Pənah, Aşıq Qurbanxan kimi məşhur aşıqlar, Qulu Əsgərov kimi əvəzolunmaz xanəndə, Rza Şıxlarov, Əflatun Ağayev, Aslan İlyasov, Hacı Pərviz kimi qarmon ifaçıları, qeyri-



Əflatun Ağayev

adi, nadir istedada malik Həsənağa Sadıqov, İxtiyar Bəyləroğlu kimi musiqiçilər yetirmişdir.

Salyan neçə-neçə böyük alimlərin, ziyalıların, istedadlı insanların, sənət adamlarının yurdudur. Dünya şöhrətli bəstəkar Arif Məlikov da əslən salyanlıdır. Şair Oqtay Rza, Tofiq Abdin, Əlisəmid Kür, tanımlı rejissorlar, Azərbaycan və Özbəkistanın xalq artisti Firudun Səfərov və Əliqismət Lalayev bu torpağın yetirmələridir.

Əflatun Miryaqub oğlu Ağayev 1928-ci il aprel ayının 28-də Salyanın Ərəbqardaşbəyli kəndində anadan olub.

Miryaqub kişi Salyan rayon xəstəxanasında təsərrüfat işləri üzrə müdir işləyib. O, Sovet-Alman müharibəsinin iştirakçısı olmuşdur. Miryaqub həyat yoldaşı Zəhrə xanımla beş övladı Azərbaycan ürəyilə, həvəs-həvəsə, nəfəs-nəfəsə, məhəbbətlə, zəhmətlə, qayğıyla, sevgi sayğıyla böyütmüşdür. Əflatun dörd bacının bir qardaşı olduğu üçün əziz-giramı idi. 8 yaşı olanda atası ona qarmon almışdı. Əflatun 9-10 yaşlarında qarmon çalmağa başlamışdı. Bu onda çox yaxşı alınırdı. Əflatunun musiqiyə gəlişi barədə 30 iyun 1940-cı il tarixli "Azərbaycan pioneri" qəzetində məlumatla birlikdə şəkili də verilmişdir.

Bu istedadlı uşaq qarmon çalmağa başlayanda Salyanda artıq Rza Şıxalarov kimi gənc qarmon ifaçısı konsertlərdə və toylarda çıxış edərək elin sevimlisinə çevrilmişdi. Əflatun onu dinlər, öyrənər, musiqiyə olan həvəsi daha da artardı.

Yazıçı-jurnalist Vaqif Yusiflinin Bakıda "Şur" nəşriyyatı tərəfindən nəşr olunan "Yolun düşsə Şirvana" adlı kitabında Rza Şıxlarovun yetirmələri sırasında Əflatun Ağayevin də adı çəkilir.

Haşiyə: Rza Abdulhüseyn oğlu Şıxlarov 1919-cu ilin fevralında Salyanda anadan olub. 7 yaşında qarmon çalğısını öyrənib. İlk dəfə 13 yaşında Muğan-Gəncəli kəndində toyda çalğıçı kimi məharət göstərib.

Məhşur qarmonçı Kor Əhəd 1934-cü ildə İrana gedərkən Biləsuvarda tutulur və Salyana sürgün olunur. Rza ustad qarmonçu üçün Salyanda ev tutur və ona şagirdlik edir. O, Əhəddən el havalarının əksəriyyətini və bəzi muğamları öyrənir.

Rza Şıxlarov 1942-ci ildə müharibəyə yollanır, bir il sonra yaralanır və ordudan təxris olunur. Qalan ömrünü ürəkdən bağlandığı sənətinə həsr edərək ən yaxşı qarmonçalanlardan biri kimi el-obasında tanınır. O, Şirvan Aşıq dəstəsinə qoşulan ilk qarmonçalan sayıla bilər. Uzun illər Aşıq Qurbanxan, Aşıq Pənah və Aşıq Bəylərlə yoldaşlıq edərək toylara gedir. 1950-ci illərin əvvəllərindən aşıqlarla toylara gedən Rza həmçinin yerli xanəndələrlə, o cümlədən tez-tez doğma elinə toylara çağrılan xanəndə Qulu Əsgərovla da məclislərə gedirdi.

R. Şıxlarovun çalğısında klassik yol, peşəkarlıq, ustalıq həmişə özünü göstərib. Onun ifası Əhədin çalğısına daha çox oxşayıb. Rza qrifdə sərbəst gəzişər, sol gövdədəki səslərdən məharətlə istifadə edərdi. O, həmçinin klassik muğamlarımızı yaxşı mənimsəyərək qarmonunda yüksək qabiliyyətlə səsləndirirdi. Ustad sənətkar "Segah"ı çox təsirli çalırdı. Rza muğam biliçilərindən sayılırdı. Bu yazının müəllifi özünün uşaqlıq və gənclik illərində Aşıq Pənahın idarə etdiyi toylarda

Rza Şıxlarovun ifasını dəfələrlə dinləmişdi. Rzanın üzündən heç vaxt təbəssüm əskik olmazdı.

Rza Şıxlarov muğamlarımızın mükəmməl bilicilərindən biri idi. 1960-cı illərdə Azərbaycan radiosunda bəstəkar Əfrasiyab Bədəlbəyli "Muğam" verilişi aparırdı. Verilişin daimi dinləyicilərindən biri olan R.Şıxlarov radioya məktub göndərir və fikirlərini bölüşürdü. Mən ustad qarmonçu ilə onun ahıl çağlarında tanış olmuşam. Gənclik illərində Salyan toylarından qayıdarkən bir neçə dəfə onun "QAZ-21" markalı avtomobilində yol yoldaşı və həmsöhbət olub Bakıya gəlmişəm. Muğamlardan sual verdikdə ondan həmişə dürüst və maraqlı cavab almışam. Muğamların unudulmuş şöbə və guşələrinin adını çəkirdi.



Rza Şıxlarov

Ustad qarmonçunun nəvəsi, simli alətlər ifaçısı Bəybala mənə bir audio-kaset bağışladı. Orada Rza Şıxlarovun ifaları var. Sənətkarın 70 yaşdan sonra ev şəraitində, nəvəsinin ad günündə çaldığı "Rast" və "Segah" muğamlarına qulaq asanda heyrətləndim. Belə yaş həddində bu cür səlis ifa hər adama nəsib olmur. Həmin ifaları mahir qarmon ifaçılarımız Zakir Mirzə, Baxışəli Əliyev və Nemət Hüseynov da dinləyib çox bəyəndilər.

Rza Şıxılarova həsr olunan şeir:

Tofiq Kərim

Ürəyimin odunu qarmonda dilə verdim,
Mən öz məhəbbətimi həm bəmə, zilə verdim,
Xalqımın sənətini bu yurda, elə verdim,
Bilirəm el içində məhəbbətim qalaçaq,
Xoş niyyətim qalacaq,
Şah sənətim qalacaq!

Kişi kimi yaşadım öz müdrik həyatımı,
Bəxş etdim Salyanıma qaynar istedadımı,
Musiqi aləmində ucaltdım öz adımı,
Muğamat dünyasında qüdsiyyətim qalacaq,
Səadətim qalacaq,
Şah sənətim qalacaq.



Əflatun Ağayev şagirdləri ilə birlikdə

Salyanda XX yüzilliyin ikinci yarısında qarmonçalanlar çox olsa da onlardan yalnız ikisi, Rza Şıxlarov və Əflatun Ağayev daha çox peşəkarlıq qazanmış, dəsti-xətlə ayrılmış, el-obada və musiqiçilər arasında yüksək səviyyəli sənətkar kimi qəbul olunmuşlar.

Əflatun gənçlik illərində Salyanda keçirilən konsert-tamaşalarda Qulu Əsgərovu, Rübabə Muradovanı çox müşayiət etmişdir. Onun olduqca təsirlə muğam ifası var idi ki, adı çəkilən xanəndələri razı salardı. Əflatunun Aşıq Pənahla da sənət yoldaşlığı və yaxın dostluğu olmuşdur.

Sənətdə yaxşı tanınandan sonra Ə. Ağayev Salyanda ən say-seçmə məclislərə dəvət olunmuş və şirin çalğısı ilə könülləri fəth etmişdir. Onun səsi, sorağı ətraf bölgələrə yayıldığı və Bakıya gəlib çatdığı üçün yaxşı tanınmış və Salyanlı Əflatun kimi məşhurlaşmışdır.

Əflatun xalq oyun havalarının, muğamların mahir ifaçısı idi. Sənəti heç kəsin ifasına bənzəməzdi. Onun çalğısının öz ətri, öz üslubu vardı. Sağ ayağını sol ayağının üstünə aşırar, qarmonu dizinin üstündə öz üsulu ilə saxlar, aləti köksünə sıxıb baxışları ilə məclisdəkiləri seyr edib təmas yaradaraq ürəklə çalardı.

Əflatunun muğam ifasının böyük təmkini, sambalı, güclü təsiri var idi. O, sanki, ürəyinin səsini eşidirdi, qəlbinin ən gözəl söz-söhbətini məclisdəkilərə danışırdı. Onun qarmonunun səsinin sehri var idi. Xüsusilə "Çahargah" və "Segah" muğamlarını məhəbbətlə çalardı. Bu sətirlərin müəllifi Əflatunun Salyan və Neftçala toylarında şirin-şirin çalıb xanəndə Teymur Hüseynovu müşayiət etməsini dəfələrlə görmüşdür.

Uşaq çağlarından könlünü musiqiyə verən Əflatun qarmonla munis, səmimi yoldaş, həmsöhbət olmuşdu. Qarmonla dostluq ona hələ neçə-neçə, saya gəlməyən dostlar gətirəcəkdi. O, böyük nüfuz sahibi idi. Salyanda və ondan kənarda çoxlu pərəstişkarları və dostları var idi ki, saya-hesaba sığmırdı. Məşhur şairlər Əliağa Kürçaylı, Ağacavad Əlizadə, xanəndə Qulu Əsgərov onun ən yaxın dostları arasında idilər.

Yerli xanəndə, radionun fondunda səsi yazılmış lentləri qorunan Teymur Hüseynovla uzun illər yoldaşlıq edən Əflatun Salyanda, Nefçalada və ətraflardakı konsertlərdə və toy şənliklərində çalıb-çağırmışdır.

Ə. Ağayev radiomuzun fonduna "Kolxoz" və "Salyanı" oyun havalarını yazdırmışdır. Sonuncu Əflatunun özünün bəstəsidir.

Sovet-Alman müharibəsi Ə. Ağayevin uşaqlıq, gənclik dövrünə düşür. Müharibə illərində Əflatun Salyan mədəniyyət evində çalışmış, qəsəbə və kəndlərə konsertlərə gedərək, zəhmətkeşlərə xidmət edərək onların qələbə ümidlərini yüksəltmişdir.

Ə. Ağayev 1946-cı ildə Səfərli Yaxşıxanımla ailə həyatı qurmuşdur. 1947-ci ildə qızı Əfruzə, 1951-ci ildə oğlu Əfsələddin dünyaya gəlmişdir.

Gənclik illərində əvəzsiz usta A. Karpuşkinə qarmon düzəltdirən Əflatun sənət işlətdiyi bütün dövr ərzində yalnız bu alətlə çıxış etmişdir.

Ə. Ağayev Salyan uşaq musiqi məktəbinin ilk qarmon sinfinin müəllimi kimi işə başlamış, ömrünün sonuna qədər burada çalışmışdır. Əflatun müəllim rayonun mədəniyyət evində də uzun ilər qarmon tədrisilə ciddi məşğul olmuşdur.

Hörmətli sənətkarımız XX əsrin 66-67-ci illərində şagirdlərindən ibarət qarmonçalanlar ansamblı yaratmışdır.

Onun sevimli və istedadlı tələbələrindən Təvəkkül Tağıyev, Balakişi Qafarov, Səxavət Bəşirov, Əliş Məmmədov, Yaşar Haqverdiyev, Rəhim Məmmədov, Alim Abbasov və digərləri bu gün musiqi mədəniyyətimizə xidmət edirlər.

Əflatun Ağayev 1984-cü il sentyabrın 25-də dünyasını dəyişmişdir.

2.21. ŞAHMAR BƏYİN NƏSİL DAVAMÇILARI



Yelmar Zeynalov

Amansız müharibə nəticəsində qaçqın məktəb statusu ilə Bakının Biləcəri qəsəbəsindəki 248 saylı, şəhid Qamət Abbasov adına məktəbin binasında məskunlaşan, Ağdamın Xan Şuşinski adına muğam – musiqi məktəbinin direktoru, əməkdar mədəniyyət işçisi, istedadlı tarzən Rafiq Rüstəmovun dəvətilə 1990-cı illərin sonlarında, 2000-ci illərin əvvəllərində onlarla çiyin-çiyinə çalışaraq qarmon ixtisasından dərs deyirdim. Bu mehriban kollektivin müəllimləri; xanəndə Barat Fərhadov, Əlisəfa Hüseynov, tarzən Cəlal Əliyev, qavalçalan Qəhrəman Zeynalov və direktor Rafiq Rüstəmovla Ağdam musiqiçiləri barədə maraqlı söhbətlərimiz olurdu. Artıq bəzi musiqiçilərlə qiyabi tanışlığım yaranmış, müəyyən bilgilər əldə etmişdim. Haqqında danışılan, hörmətlə xatırlananlar sırasında qarmonçalan Yelmarın da adı vardı. Qarmon sənətindən söz açılarkən onun adı mütləq qeyd olunurdu. Əlbəttə o illərdə mən gələcəkdə tədqiqatçı olacağım, kitablar yazıb nəşr etdirəcəyim barədə düşünmürdüm. O fikirdə olsaydım Qarabağın dünyasını dəyişmiş musiqiçiləri barədə maraqlı məlumatlar toplayardım. Qarmon sənətkarları barədə yazdığım bu ikinci kitabda Yelmar kişiyə də yer ayıracağımı əvvəlcədən qərarlaşdırmışdım. Onun barəsində yası başlarkən bu işdə ilk əvvəl Milli Koservatoriyanın tələbəsi, rəhbərlik etdiyim x.ç.a. ansamblının tar ifaçısı Cavid Məmmədov.yardımçı oldu. Cavidgil Yelmar kişinin qızı Yeganə xanımgillə qonşudurlar. Bu ailələri həm də dostluq birləşdirir. Beləliklə Rəhman Yelmar oğlu ilə görüşümüz yarandı. Görüşümüzün təşkilatçısı tanınan musiqiçi, tar və gitara alətlərinin mahir ifaçısı, SSRİ xalq artistləri Rəşid Behbudovun Mahnı Teatrı, Zeynəb Xanlarovanın rəhbərlik etdiyi ansambl ilə bir sıra xarici ölkələrdə çıxış edən, son illərdə Milli Konservatoriya nəzdində Musiqi Kollecində dərs deyən Tahir Haqverdiyev oldu. Beləliklə 2012-ci il aprelin 17-də, calışdığım Bakı Humanitar Kollecində, sinif otağımda R. Yelmar oğlu və T.Haqverdiyevlə maraqlı söhbətlərimiz oldu.

Yelmar Şahmar oğlu Zeynalov 1930-cu ildə anadan olub. Bu nəsli, bu ailəni yaxşı tanıyan qarabağlılar Yelmara bəy oğlu deyirdilər. Çünki Şahmar bəy olub. Qarabağda yaxşı tanınan, sayılıb-seçilən kişilər sırasında dayanıb. Onun musiqiyə dərin sevgisi varmış. 16 dilli, yarımtonsuz qarmonunu sinəsinə sıxaraq ailəsi, qohumları və dostları üçün çalarmış. Onun həvəskar kimi qarmon çalmağı sonralar oğlunun peşəkar, tanınan qarmon ifaçısı kimi yetişməsinə zəmin yaratmışdı.

Əksər qarmon ifaçılarımız kimi Yelmar da ilk çalğı qaydalarını özü öyrənib. Lakin fikrində, düşüncəsində, can-cismində bu sənətə olan sevgini dərk etdikcə qrammafon vallarını dinləməsi, Qarabağ qarmonçalanlarını, xüsusilə Yusif Yusifovu (1906-1991) konsertlərdə,el şənliklərində görüb, eşitməsi onun ifaçılıq səviyyəsinin artmasına xüsusi təkan olmuşdu. O, həmişə Y.Yusifovu özünə müəllim, ustad saymışdı. Yelmar gənclikdə, sənət sevgisinin dağ çayları kimi aşıb-daşdığı illərdə Əhəd Əliyevin (1893-1942) o dövrdə çox geniş yayılmış qrammafon valını dinləmiş, onun "Segah"ına vurulmuşdu. Həmçinin Teyyub Dəmirovun (1908-1970), Məmmədağa Ağayevin (1919-1982) qrammafon vallarını və radioya yazılmış ifalarını dinləyib onlardan öyrənərək geniş sənət aləminə istiqamətlənmişdi. Sonralar özünü sənətdə tapandan, bir qarmonçu kimi tanınandan sonra "Segah" muğamına daha çox meyl etmişdi. Qarabağ musiqiçiləri demişkən, şakəri "Segah" çalmaq idi. Söylənilənlərə görə o, bu muğamı özünəxas xallarla, şirin bəzəmələrlə və təsirli ifa edirmiş. Onu yaxından tanıyanlar toy-mağarda ona mütləq "Segah"sifariş verər və hətta deyərmişlər: "Qağa, başına dönüm, bir " Yelmar segahı" çal". O, isə adəti üzrə sağ ayağını sol ayağının üstünə aşıraraq, barmaqlarını şirmayı dillər üzərində gəzdirərək, könül tellərinin səsini bu sevimli alətin səsinə qataraq ürəkləri sızladan "Segah" ifa edərmiş.

Y.Zeynalov sənət işlətdiyi dövr ərzində Ağdamda və onun ətraf bölgələrində el şənliklərinin sənətkarları ilə birlikdə çalışmışdır. Bu sırada xanəndələr Xan Şuşinski, İldırım Həsənov, Şahmalı Kürdoğlu, Mürşid Məmmədov, Zarıslı İsa, Yaqub Məmmədov, Haqverdi, Misir Həsənov, Arif Babayev, Qədir Rüstəmov, Aydın Məmmədov, Aydın Niftəlioğlu, Barat Fərhadov, Əlisəfa Hüseynov,tarzənlər Cəlal Əliyev, Xosrov Fərəcov, Məşədi Nəriman, Allahyar Cavanşirov,Abbas Yusifov,Lentruş Orucov, Nadir Rüstəmov, Şahmalı Qaçayoğlu, qavalçalanlar Sabir Əbdülov, Qəhrəman Zeynalov, Sərdar və Çərkəzin adlarını hörmətlə çəkirik.

Qarmonumuz bir alət kimi formalaşıb meydana gəldiyi dövrdən həmişə Qarabağ toylarının aparıcı musiqi aləti olub. Bu alətin ifaçıları zaman-zaman bu diyarda sevilib, əzizləniblər. Qarmonçalanlar sırasında Yelmar Zeynalovun həmişə xüsusi çəkisi və hörməti olub. O, həm də qo-



Sağdan: Yelmar Zeynalov, klarnetçi Eldar, xanəndə İldırım Həsənov

naqpərvərliyilə seçilirdi. Ağdam şəhərinin Maksim Qorki küçəsindəki 2 saylı evin həyət qapısı heç vaxt bağlı olmazdı, həmişə sevimli insanların üzünə açıq idi. Həyətdəki manqalın közü heç vaxt sönməzdi. Bu evə yalnız Qarabağdan deyil, Bakıdan da məşhur musiqiçilər qonaq gələrdilər. Bərəkətli, bol nemətli süfrə açılar, maraqlı sənət söhbətləri olar, çalıb-oxumağa da mütləq meydan verilərdi. Bu genişqəlbli kişinin halal ocağında sənət yoldaşları, dostlar rahatlıq tapar,dincələr və razılıqla gedərdilər. Bunu əksər insanlar, xüsusilə sazanda dəstələrinin üzvləri yaxşı bilirlər ki, Ağdamın ən gur toylarına Bakıdan qarmonçu Məmmədağa Ağayev dəvət olunardı. Bəzən onu aylarla Ağdamda saxlar, toyların günlərini təyin edər və bu ustad sənətkarın ifasından zövq alardılar. Məmmədağa əksər hallarda Yelmarın qonağı olardı. Toylar olmayan günlərdə Y. Zeynalov dəfələrlə öz evində M.Ağayevin şərəfinə ziyafət təşkil edərək Ağdam musiqiçilərini ora toplamışdır. Bu tədbirlər həm də musiqi məclislərinə, müsamirələrə çevrilərdi. M.Ağayev əvvəlcə Ağdam qarmonçalanlarını dinlər, sonda özü öz ifasıyla onlara istiqamət verər və məclisi tamamlardı. Bu əsl ustad dərsini (master klas) xatırladırdı. Bütün bunlar Yelmarın səmimiyyəti, mehribanlığı, qəlbigenişliyi sayəsində baş tutardı.

Yelmarın evində özünün ifası toplanmış xeyli lentlər olub. Əfsus ki, Qarabağ müharibəsi zamanı Ağdam işğal olunarkən bunları götürmək imkanı olmayıb.

O, Ağdam musiqi heyətlərinin tərkibində Şuşa, Bərdə, Yevlax, Mingəçevir, Laçın, Kəlbəcər, Gəncə, Beyləqan və başqa yerlərdə xeyli toy məclislərində olmuşdu. Onun ifasında milli rəqs havalarımız xüsusi gözəlliklə səslənirdi. "Tərəkəmə"ni isə böyük şövqlə çalırdı. Yelmar Ağdam mədəniyyət evində çalışırdı.Yaradıcı heyətlərin tərkibində bütün kəndlərə, obalara konsertlərə getmişdi. O, Ağdam Dövlət Dram Teatrında da çalışıb. 1 saylı uşaq musiqi məktəbinin qarmon



Sağdan: Yelmar Zeynalov, klarnetçi Eldar, tarzən Cəlal Əliyev və qavalçalan Sabir Əliyev



Ağdamın 1 saylı ümumtəhsil məktəbi. Sağdan 1-ci Tofiq Zeynalov, Mehman Zeynalov, Aydın Eyvazov (Yelmarın şagirdi), nağaraçalan Sadiq Zeynalov.



Yelmar Zeynalov şagirdləri arasında

sinfində dərs deyib, milli musiqimizi, oyun havalarımızı, muğamlarımızı şagirdlərə sevdirə bilib.

Sevinərək rahatlıq tapdıq ki, belə bit qarmon ifaçımızı da unudulmağa qoymadıq, onun adını da şərəfli musiqi tariximizin səhifələrinə saldıq.

Şahmar bəyin oğlu Yelmar çox yaşamaq haqqında olarkən və öz sevimli peşəsilə xalqa xidmət edərkən bir təsadüf nəticəsində fəaliyyətdən qalmışdı. O, öz ov tüfəngi ilə ehtiyatsız davranarkən silahdan atəş açılmış, güllə onun sol qolundan girib çiynindən çıxmışdı. Səhhətində yaranmış müşkül nəticəsində o, sol qolunu itirmiş və sevimli qarmon sənətindən ayrı düşmüşdü. Arabir qarmonu götürər, alətin sağ kəmərini çiyninə salar, sol dizinin hərəkəti vasitəsilə körüyü işlədərək çalmağa başlardı. Qarmon sənətinə ömür həsr etmiş, xoşbəxt anlar yaşamış, məhəbbət qazanmış bir insanın sənətinin və həyatının məhsuldar, samballı çağında əlil qalıb peşəsindən ayrılaraq hansı hisslər keçirdiyini təsəvvür etmək olar. O, 1986-cı ildə, 56 yaşında bu dünya ilə vidalaşıb. Ağdamın Qarağacı qəbristanında dəfn olunub.

Y.Zeynalovun altı övladı, on altı nəvəsi və yeddi nəticəsi var.Qısa ömür yaşasa da, Allah-təala onun ömür və sənət davamını övladlarına və nəvələrinə bəxş etmişdir.

Əfi Yelmar oğlu Zeynalov 1956-cildə anadan olub. 1 saylı uşaq musiqi məktəbinin və Ü.Hacıbəyli adına Ağdam Musiqi Texnikumunun tar sinfini bitirib.



Ailə üzvləri. Soldan 2-ci Əfi Zeynalov

Mehman Yelmar oğlu Zeynalov 1957-ci ildə anadan olub. 1 saylı uşaq musiqi məktəbinin fortepiano sinfini bitirib. 20 il qarmon ifaçısı kimi fəaliyyət göstərib.

Rəhman Yelmar oğlu Zeynalov 1959-cu ildə anadan olub. 1972-ci ildə 1 saylı uşaq musiqi məktəbinin kamança sinfini , sonra isə Ağdam Musiqi Texnikumununu kamança ixtisası üzrə



Mehman Zeynalov və Yelmarın nəvəsi Niyaz

bitirib. İstedadı aşıb-daşan Rəhman 14-15 yaşlarında müəllimdən dərs almadan klarnet çalmağa başlayıb. Atası onunçün klarneti öz sənət yoldaşı Eldardan almışdı. Rəhman gənclik illərində mahir klarnet ifaçısı kimi yetişmişdi. Onun xatirələrindən: "Kiçik yaşlarımda Ağdamın pioner və məktəblilər evində tarzən Murad Rzayevin rəhbərlik etdiyi "Qarabağ bülbülləri" ansamblında kamança çalırdım. Sonralar isə orada klarnet ifaçısı oldum. Bura istedadlı, gözəl səsə malik uşaqlar toplanmışdı. Elçin İsmayılov qarmon, qardaşlarım Mehman qarmon, Sadıq nağara çalır və digərləri tar, kaman və başqa alətləri ifa edirdilər. Uşaqların hər birində öyrənmək həvəsi və inkişaf etmək məqsədi var idi. Konsertlərə, müsabiqələrə, festivallara gedirdik. Müsabiqələrdə dəfələrlə birinci yerə çıxmışdıq. Çıxışlarımız televiziya ilə yayımlanırdı"



Rəhman Zeynalov

Rəhman uşaq musiqi məktəbinin 4-cü sinfində oxuyarkən musiqi məktəbləri şagirdləri arasında Gəncədə keçirilən baxış-müsabiqədə 1-ci yeri tutmuşdu. Onun kamançada çaldığı "Bayatı-Şiraz" böyük maraq oyatmışdı.Növbəti ildə onu Bakıda keçirilən müsabiqəyə gətirmişdilər. O,kamançada "Bayatı-Şiraz"ı o qədər gözəl çalmışdı ki, münsiflər heyətinin üzvləri onun uşaq musiqi məktəbinin şagirdi olmasına şübhə etmişdilər. Elə bilmiş-

dilər ki, o, Musiqi Texnikumunun aşağı kurslarında təhsil alan tələbədir.

Rəhman əsl kaman ifaçısı kimi yetişirdi. Əgər o, bu işi davam etsəydi ölkəmizin ən mahir kaman ifaçılarından biri olardı. O isə klarnet sənətini seçdi.

Rəhman texnikumun 1-ci kursunda oxuyarkən direktor Xosrov Fərəçov onu rəhbəri olduğu "Şur" ansamblına dəvət etmişdi. O, burada 4 il klarnet ifaçısı kimi çalışmışdı. İstedadlı musiqiçi bu ansamblın tərkibində Bakıdakı dövlət tədbirlərində, Azərbaycanın bölgələrində, Özbəkistan respublikasında konsertlərdə olmuşdur. İstər "Qarabağ bülbülləri" , istərsə də "Şur" ansamblındakı fəaliyyəti Rəhman Yelmar oğlunu tamam-kamal musiqiçi kimi yetişdirmişdi. Tanımlı müğənni Sədi Məmmədovun (1954-2003) toy ansamblının tərkibində Rəhman mahir klarnet ifaçısı kimi bir daha özünü təsdiq etmişdi. Bu dəstədə qarmonçalan Elçin İsmayılov və digər gənclər əsl məharət göstərirdilər. Sədi və onun dəstəsi Qarabağda, onun ətrafında, Yevlaxda, Gəncədə, Mingəçevirdə və digər yerlərdə dəbdə olan musiqi heyəti idi. Toy məclislərində Sədi Məmmədovun dəstəsini səbrsizliklə gözləyirdilər. Bu ansamblın repertuarında muğamlar, xalq mahnıları, toylar üçün dəbdə olan ən müasir mahnılar tam gözəlliklərilə özünə yer almışdı. Həmin ansamblda Rəhmanın rolu çox böyük idi.

Sadiq Yelmar oğlu Zeynalov 1961-ci ildə anadan olub. 1 saylı uşaq musiqi məktəbinin tar sinfini bitirib. Yaxşı nağaraçalanlarımısdan biri kimi meydana çıxıb. Hazırda da bu sənəti işlədir.

Azər Yelmar oğlu Zeynalov 1964-cü ildə anadan olub. İstedadlıdır. Zərb alətləri ifaçısıdır.

Ailənin tək qız övladı Yeganə xanım Məmmədova 1972-ci ildə dünyaya gəlib. Çox istedadlıdır. 1 saylı uşaq musiqi məktəbini fortepiano və Ü.Hacıbəyli adına Ağdam Musiqi Texnikumunu xor dirijorluğu ixtisası üzrə bitirib.



Soldan: Sadiq Zeynalov və Azər Zeynalov



Tunar Rəhmanoğlu

Nəsildən gələn güclü istedad və bədii enerji nəvələrdə özünü daha yüksək səviyyədə biruzə verib. Yelmarın nəvəsi Tunar Rəhmanoğlu 1981-ci ildə Ağdamda həyata göz açıb. Bülbül adına orta ixtisas musiqi məktəbində xalq artisti, görkəmli xanəndə Əlibaba Məmmədovun muğam sinfini bitirib. Təhsilini Azərbaycan Dövlət Konservatoriyasının muğam sinfində davam etdirib. Burada məşhur xanəndə, xalq artisti Arif Babayevdən dərs alıb.

Ailə Ağdamda yaşayarkın 8 yaşlı Tunar "Qarabağ bülbülləri" ansamblında oxuyaraq musiqi ictimaiyyətinnn diqqətini cəlb edib. 1992-ci ildə Azərbaycan Televiziyasının 7-17 baxış-müsabiqəsində uğur qazanaraq birinci yerə layiq görülüb.

Tahir Əkbərin xalq şairi Bəxtiyar Vahabzadənin sözlərinə bəstələdiyi "Amin" mahnısı bəstəkarın ən gözəl və müəllifə uğur gətirən əsərlərindən biridir. Mahnı hazır olarkən bəstəkar və şair onun hansı müğənninin ifasında lentə alınmasını düşünmüş, nəticədə hər ikisi Tunar Rəhmanoğlunu nəzərdə tutmuşdular. 1992-ci ildə müğənninin ifasında lentə yazılan, televiziya və radioda səslənən, klipə çəkilən "Amin" mahnısı bəstəkara və onu həddən artıq təsirli oxuyan Tunara şöhrət gətirdi. Xalq şairi B.Vahabzadə bir daha xalqın rəğbətini qazandı. Müəlliflər səhv etməmişdilər, Tunar bu mahnını ən zəngin əsər şəklində ifa etmişdi. Mahnı bəstəkar, cazmen, oranjemançı Rafiq Babayevin (1936-1994) studiyasında yazılmışdı. Bu böyük musiqiçi həmin zaman gənc müğənninin incə, həssas təbini, yüksək ilhamını, oxuma manerasını çox bəyənmişdi. O, Tunarla yaradıcılıq əlaqələrində olacağını söyləmişdi. Lakin amansız erməni terrorunun qurbanı olması bu arzunun həyata keçməsinə imkan verməmişdi.

"Amin" mahnısının klipini rejissor Nazim Abbas çəkmişdir. Zəngin, təsirli bir sənət əsəri alınmışdır. Allah Nazim bəyə rəhmət eləsin.

Tunar Azərbaycan xalq və bəstəkar mahnılarını ustalıqla və özünəxas şəkildə oxuyur. Onun sənətində Anadolu türk oxumalarının çalarları və incəlikləri də duyulur. O, türk mahnılarını da gözəl oxuyur.Bu istedadlı soydaşımızın bəstəkarlıq qabiliyyəti də vardır. Bəstələdiyi mahnılar türkiyə müğənnilərindən Güllü, İbrahim Tallısəs, Azərbaycan müğənnilərindən Röya Ayxan, Natavan Həbibi, Xatirə İslam, Nazpəri Dostəliyeva, Vasif Məhərrəmli, Mətanət Əsədova və digərlərinin ifasında özünə yer alıb. 2012-ci ildə onun bir bəstəsi V.Məhərrəmlinin ifasında ilin ən gözəl mahnısı nominasiyasında birinci yeri alaraq mükafata layiq görülüb. "Sənsizlik" adlanan həmin mahnının sözləri Oqtay Kamilindir. Meyxana ustası Vüqarın sözlərinə Tunarın bəstələdiyi "Səndən insaf dilər yarın" adlı mahnını İ.Tatlısəs oxuyaraq 2011-ci ildə ortaya çıxardığı alboma daxil edib.

Tunar əsasən mahnı yazmaqla məşğul olur. Bəstələmək işini sintezator vasitəsilə görür. 2012-ci ildən klarnet ifa etməyi də öyrənib.

Azəri qızı Günel. Bu adın sahibi milyonlarla insanın sevimli müğənnisidir. Səsiylə, nəğməsiylə musiqi duyumlu dinləyicilərin və tamaşaçıların qəlbinə yol tapıb. O, Türk dünyasının ən populyar müğənnilərindən biridir.

Günel Rəhman qızı 1985-ci ildə Ağdamda anadan olub. Körpə yaşlardan istedadını biruzə



Günel

verib. Atasının xatırladıqlarından: "Gecələr toylardan qayıdarkən dəstəmizin musiqi alətlərini adəti üzrə qıraq otağa yığardıq. Səhərlər və ya günorta çağı 2 yaşlı Günel həmin otağa daxi olanda yerdəki nağaranı əlləri ilə döyəcləyib "Ey-ey", "Ay-ay" deyib oxuyardı. Sonralar müxtəlif melodiyalardan müəyyən hissələri oxuyaraq mızıldanardı. 4 yaşında olarkən sintezatorun müşayiətilə onun ifasında X.Şuşinskinin "Şuşanın dağları" mahnısı və İ.Tatlısəsin repertuarından bir mahnı lentə alınıb. Sintezatoru Tunar çalmışdı".

Ağdamın işğalı ərəfəsində ailə Bakıya köçür. Əhmədli qəsəbəsindəki 249 saylı orta ümumtəhsil məktəbdə oxuyan Günel bədii özfəaliyyət ansamblının fəal üzvlərindən biri olur, məktəb tədbirlərində çıxış edərək xüsisi məharət göstərir. 11 yaşı olarkən ölkəmizdəki orta ümumtəhsil məktəblərin istedadlı şagirdləri arasında keçirilən müsabiqədə "Qaragilə" xalq mahnısını oxuyaraq birincilik qazanır.

Allah-təala ona qeyri-adi istedad verməklə taleyinə müğənnilik yazmışdı. Bu tale onu öz ardınca çəkib aparacaqdı. Apardı da.

Dünya şöhrətli türk müğənnisi İ. Tatlısəs 1998-ci ildə Bakıya konsertə dəvət olunmuşdu. Bu möhtəşəm konsert əl oyunları stadionunda keçirilirdi. Rəhman da öz ailəsilə bu maraqlı konsertin tamaşaçıları arasında idi. Konsert getdiyi anda Günel demişdi: "Ata, mən oxumaq istəyirəm". Atası: "Axı konsertdə İbrahim oxuyur, onun konsertidir. Sən burada necə oxuya bilərsən? Səni səhnəyə buraxmazlar axı..." - demişdi.

Günelin isə oxumaq həvəsi içində qaynayırdı,aşıb-daşan bu istək onu tərpədirdi. Atasından xahiş etdi ki, səhnəyə çıxmağa ona şərait yaratsın. Tədbirin asayiş keşikçilərindən biri, polis Bayram Rəhmanın tanışı idi. (Allah ona rəhmət eləsin). O, Rəhmanın sözünü yerə salmamış, Güneli səhnə önünə gətirmişdi. Səhnədə oxuyan İbrahimlə qızcığaz arasında maraqlı dialoq alınmışdı:

-Cocuq, sən nə istiyorsun?

-Mən oxumaq istəyirəm.

-Allah, Allah, bu qız şarkı söylemek istiyor, nə güzel, nə güzel. Sahneya kalk, bureya qel, yanıma qel. Hansı şarkını söylemek istiyorsun?

-"Padişah" oxumaq istəyirəm.

-Allah, Allah, siz bu kızda cürete bakın. Hansı tonalda okuya bilermisen?

-"Re"də.

-"Re"demi? Bacararmısan?

İbrahimin orkestri çaldı, Günel "Padişah" oxudu. Bütün tamaşaçılar ayağa durub İbrahimlə birgə bu qızı alqışlayırdı. İbrahim soruşmuşdu:

-Senin adın ne?

-Adım Günel.

-Ben senin adını Azeri kızı Günel koydum.Cocuğun babası, annesi burdamı?

Ben onlardan izn istiyorum, kızı Türkiyəyə apararım.

Konserti çəkən Türkiyə televiziyaları hələ İbrahim Bakıda ikən, öz ölkə televiziyalarında Ba-

kıdakı konsertdən fraqmentləri reklam etmişdilər: "Azərbaycan cocuğu İbrahim Tatlısası mat koydu", "Azeri kızı Günel İbrahimin Bakıdakı konserinde bomba partlatdı".

Rəhmanın söylədiklərindən: "İbrahim Tatlısəsin dəvətilə 1998-ci ildə ailəliklə Türkiyənin İstambul şəhərinə köçdük. Günelin ilk cıxışları Tatlısəsin televiziyadakı "İbo şov"(şou) verilişlərində oldu. Ilk əvvəllər Günelin olduğu bu şou proqlamlarda müxtəlif müğənnilər də oxuyurdular. Beləliklə Günel Türkiyədə tanındı. Sonra isə İbrahimin orkestri ilə nəşr olunacaq albomun proqramı üzrə 1 il məşqlər getdi. Alboma Günelin ifasında 12 mahnı daxil edildi. Onların dördü Azərbaycan, qalanları isə türk mahnıları idi. O, "Nə olar Allahım, ayırma bizi" (söz. N.Kəsəmənli, mus.C.Musayev), "Kimlərə qaldı dünya?" (söz və mus. M.Bağırzadə), "Bakı"(mus.R.Hacıyev), "Qarabağın maralı" (söz. İ.Novruzov, mus. İ.Rəhimov) mahnılarını oxumuşdu. Onun ilk albomunda oxuduğu türk mahnıları da say-seçmə, sevilən musiqilər idi.

Beləliklə musiqi ocağımızın istedadlı balası Türkiyədə və başqa ölkələrdə Azəri qızı Günel kimi tanındı, şöhrətləndi".

Türkiyənin telekanallarında, qəzetlərdə belə reklamlar gedirdi: "Azeri kızı Günel Türkiyədə bomba partlatdı". O, tez-tez Sibelcan, Salam Şahin, Gülbən Ərgən, Seda Sayan və Kibariyenin verilişlərinə dəvət olundu. Cünel 70 milyon əhalisi olan Türkiyədə əsl türk müğənnisi kimi tanınırdı. Azərbaycandan qardaş ölkəyə gedən soydaşlarımız taksiyə əyləşən kimi ləhcədən onların azəri olduqlarını hiss edən sürücülər deyirdilər: "Sizin burada şarkıçı kızınız var, Günel".

Günel Özbəkistan Respublikasında keçirilən Zaman Festivalında "Cocuqların günahı nə?" mahnısını oxuyaraq ödül alıb. Türkiyənin bütün şəhərlərində onun konsertləri təşkil olunub. Antalyada "Yılın şarkısı" festivalında oxuyaraq ödül alıb. Fransada, Almaniyada, Beiçikada, Hollandiyada və Rumıniyada Günelin konsertləri qoyulub. O, Rusiyanın Sankt-Peterburq və Moskva şəhərlərində İ.Tatlısəslə birlikdə konsertlər verib. Ən böyük zallarda keçirilən konsertlərin böyük uğuru olmuşdu. Həmin şəhərlərdə Günel öz orkestri ilə də konsertlər verib. Avropa ölkələrində keçirilən konsertlərdə də Azəri qızı Güneli öz musiqi heyəti müşayiət edib. Bu 20 nəfərə yaxın üzvü olan bir orkestrdir.

Günel 2012-ci il mart ayında Sankt-Peterburqda bir daha uğurlu konsertə imza atıb. Nəşr olunub yayılmış üç musiqi albomu onu nəinki Türk dünyasında, hətta əksər ölkələrdə tanıdıb.Bu disklər ölkələrə yayılıb. Onu İranda da çox sevirlər. Əksər ailələrdə onun foto-şəkilləri evləri bəzəyir.

Yazımızdan hasil olan fikir bir daha isbat edir ki, itedad genlə bağlı bir nemətdir. Şahmar bəydən gələn fitri istedad Yelmarda qüvvətlənmiş, övladlarda və nəvələrdə yüksək səviyyədə davam etmişdir.

İndi Ağdamın və bütövlükdə Qarabağın işğaldan azad olunmasını arzulayan, bu günü səbirsizliklə gözləyən bütün vətəndaşlarımız kimi Yelmar Zeynalovun övladları, nəvə-nəticələri də doğma torpağa qayıtmaq, şəhidlərimizin, əzizlərinin məzarını ziyarət edib gül-çiçək düzmək ümidi ilə yaşayırlar.

Nəvələrdən biri Niyazın şeirində də bu fikir öz əksini tapır:

Doğma torpaqlara qayıda bilsəm,
Gözümün yaşını mən silə bilsəm,
Qəbrinə bir dəfə gül qoya bilsəm,
Heç dərdim olmazdı, olmazdı, baba.

Torpağı alıb, eli şadlandırsaq,
Ağdama yığışıb ocaq yandırsaq,
Külli Qarabağda toy-büsat qursaq,
Ruhun heç nigaran qalmazdı, baba.

2.22. SOLAXAY QARMONÇU



Məhərrəm Məmmədov - Aviloğlu

Azərbaycanda solaxay qarmonçalanın bir neçəsinə rast gəlmişəm. Burada mraqlı iş orasındadır ki, bu ifaçılar alət necədirsə, elə də götürüb çalğı öyrəniblər. Yəni qarmondakı səs ardıcıllığını dəyişmədən, necə varsa, o formada çalmaq şərtilə solaxay çalmağa başlayıblar. Belə ifaçıların biri də Tovuzdandır.

Məhərrəm Avil oğlu Məmmədov 1930-cu il avqust ayının 8-də Tovuz şəhərində dünyaya gəlib. Ailədəki dörd övladın üçüncüsü Məhərrəm olub. Ata pinəçi, ana evdar qadın idi. Ata şəcərəsi Tovuz rayonunun Öysüzlü, ana tərəf Düz Qırıqlı kəndindən olub.

Məhərrəm tar ifaçısını yaxından müşahidə edib dinlərkən, onda musiqi sənətinə həvəs oyanıb. Tarın sol əllə ifa olunduğunu görüb o da qarmonu sol əllə çalmağa başlayıb. O illərdə əlinə düşən diatonik (yarımtonsuz) qarmonla ilk ifa qaydalarını öyrənib. Sənət öyrənəndən sonra isə Tula şəhərində Azərbaycan üçün hazırlanan qarmonlardan birini alıb.

Məhərrəm Məmmədov 1937-1947-ci illərdə Tovuz şəhərindəki M.Qorki adına orta ümumtəhsil məktəbdə oxuyub. Məktəbin özfəaliyyət dərnəyində çalıb. Təhsil ocağının tədbirlərində, şəhərdə təşkil olunan konsertlərdə istər ansambl tərkibində, istərsə də solist kimi çıxış edib. O, gənclik illərindən el şənliklərinin musiqiçilərindən biri olub. El havalarını, aşıq mahnılarını qarmonda səsləndirib. Onun üzvü olduğu ilk dəstə ağstafalı klarnet ifaçısı Mikayıl Xəlilovdan, nağaraçalan Akifdən və Gəncədə yaşayan, əslən bərdəli xanəndə Cavaddan ibarət idi. Yalnız toylarda deyil, rayonun kənd mədəniyyət evlərində konsertlərdə də çıxış edirdilər. Məhərrəm sonralar Tiflisdən xanəndə Kazım, nağaraçalan Muquç və digər yoldaşlarla Gəncə-Qazax bölgəsində toy-büsatda çalıb-çağırıbdır. Daim musiqi sənətilə məşğul olan qarmon ifaçımız tovuzlu sənətçilərdən nağaraçı Vahid İlmayılov, klarnetçalan Şəmil və xanəndə Mirzəli Qasımi ilə yoldaşlıq edib. Vahid sonralar müğənniliyə başlayıb.

Məhərrəm Aviloğlu neçə illər müğənni Vahid, nağara ifaçısı Akif və klarnetçalan Şəmil ilə Rusiyanın şəhərlərinə səfərlər edərək bu ölkədə məskunlaşan soydaşlarımızın şadyana məclislərinə, toy-büsat anlarına bəzək vermişlər.

Xalqın bağrından qopan, xalq ruhundan yaranan musiqilərdən yoğrulan sənətkarlarımızın hər biri xalq ruhunun tərənnümçüsü və adət-ənənələrə sədaqət göstərənlər olmuşlar. M.Aviloğlu da bu sıralarda dayananlardandır. O, böyüyüb başa çatdığı, suyunu içib, havasını udduğu bölgənin adətlərini sevmiş, uşaqlıqdan eşitdiyi el havalarını, aşıq havacatlarını beynində, zehnində, ürəyində gəzdirərək qarmonun ecazkar səsinə qatıb toy-mağarda el sənətkarı kimi sevilmişdir.

Qarmon sənəti tarixində solaxay qarmonçularımızın da adı yaşayacaq. Əslində solaxay qarmon ifaçısı olmaq çətin bir işdir. Bu böyük istedad və diqqət tələb edir. Təsəvvür edək ki, qarmon çevrilmiş, tərs vəziyyətdə, qalın səslər aşağıda, nazik səslər yuxarıda olur.

Zaman gələcək, yenə solaxay qarmon ifaçılarımız olacaq. Lakin onlar məxsusi sol əllə çalınmaq üçün nəzərdə tutulan alətlərdə ifa göstərəcəklər. (Bax. Əhsən Rəhmanlı, "Zakir Mirzə zirvəsi", "Min Bir mahnı" nəşriyyatı, Bakı-2008, səh. 268-273)



El-oba toyunda. Ortada Məhərrəm Aviloğlu

Əziz oxucu! Gələcək solaxay qarmon sənətimiz barədə fikirlərimizlə tanış olmaq istəsəniz, elə oxuduğunuz bu kitabın Zakir Mirzəyə aid bölümünə diqqət yetirə bilərsiniz.

Fikrimizi oçerkimizin qəhrəmanı Məhərrəm Məmmədova yönəldək. O, 1956-cı ildə ailə qurub. Halal zəhmətlə 5 övlad böyüdüb. Oğullarından biri qoşa-nağara ifaçısı kimi 30 il el şənliklərinə xidmət edib.

2.23. FÜZULİNİN İLK MAHİR QARMONÇALANI

2008-ci ilin fevral ayında "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi" kitabını nəşr etdirdiyim zaman vətənimizin bölgələrində yaşayıb fəaliyyət göstərmiş mahir qarmon sənətkarlarını da əhatə etmək istəyirdim. Bu zaman Füzuli rayon sakini olmuş, yaxşı ifaçı kimi tanınmış Bəylərin də adını tez-tez eşidirdim. Onun tam mükəmməl, kamil bir sənətkar olması barədə danışırdılar. Bəzi tanışlar (Bakıda məskunlaşmış qaçqınlar) çalışsalar da axtardığım sənətkarın doğmaları ilə mənim əlaqəmi qura bilmədilər. Qarmon ifaçıları haqqında ikinci kitabı başlarkən Allah-təala bu işdə özü mənə kömək oldu. Barəsində məlumat almaq istədiyim sənətkarımızın sevimli yetirmələrindən biri, xeyirxahlıq nümunəsi, əsl ziyalı Abbas müəllimlə təsadüfi tanışlıq hər şeyi yoluna qoydu. Abbas müəllim mobil telefon vasitəsilə əlaqə yaradıb, Bəylər kişinin oğlu Rasim müəllimi Bakıya çağırdı. Beləliklə 2011-ci ilin avqust günlərinin birində Bakının Nərimanov parkındakı istirahət guşəsində əyləşib pürrəngi çay içə-içə məqsədimizə rəvac verdik.



Bəylər Əhmədov

Bəylər Topaşa oğlu Əhmədov 1932-ci il may ayı-

nın 10-da Füzuli şəhərində anadan olub. Onların əsli Qalalı (Şuşa şəhəri) Topaşa bəyin nəslindən idi. Bəylərin atası da həvəskar qarmonçalan olub. Bəylər orta məktəb illərində diatonik (yarımtonsuz) qarmonla atasından çalğı öyrənib. Məhəllə uşaqları tez-tez bir yerə toplaşıb, çalıb-oynayıb şənlənirmişlər. Bəylərin istedadı, bacarığı əvvəllər tay-tuşlarının xoşuna gəlirdisə, sonralar böyüklərin də nəzərini cəlb etməyə başlamışdı. Gələcəkdə onun yaxşı sənətkar olacağı göz önündəydi.

Füzulidə qarmonçalan Dəllək Qasım olub. Rayonun sonrakı qarmonçuları Bəylər və Emin ilk dəfə onu dinləyiblər. Dəllək Qasım yarımtonsuz qarmonda çalırmış.

Bəylər Əhmədov 1952-1955-ci illərdə Rusiyada Sovet ordusunda xidmət edib. Əsgərlikdən gələndən sonra o, özünə əsl sənətkar qarmonu alaraq, tam peşəkar sənətə qədəm qoyub. Bəylər təhsil almaq barədə də düşünürdü. Onun canı-qanı milli musiqimizdən yoğrulmuşdu, hərtərəfli istedad sahibi idi. Hərbi xidmətdən qayıdan Bəylər A.Zeynallı adına Musiqi Texnikumunun tar sinfinə daxil olaraq əyani şöbədə 4 il təhsil almış və sonra doğma rayona qayıtmışdı. O, yaxşı tar ifaçısı kimi də göz önündəydi. Təhsil illərində Bəylər Əhmədov musiqiçi yoldaşları ilə Bakıda və Qarabağ bölgəsində keçirilən toy-nişan məclislərinə qarmon ifaçısı kimi dəvət olunurdu. Yaxşı gənc ifaçılar arasında onun da adı var idi.

Füzuli şəhərində ilk uşaq musiqi məktəbi 1957-ci ildə yaranıb. Məktəbin ilk direktoru Məmməd Nəbiyev olub. Rayonun musiqisevər, istedadlı gənclərini buraya toplayaraq, gələcək böyük musiqiçilər yetişdirib.

Bəylər Əhmədov Füzuli şəhər uşaq musiqi məktəbinin tar sinfində dərs deməyə başlayıb. Novruz Rzayev də tar sinfinin müəllimi idi. Üzeyir Hacıbəylinin yetirmələrindən biri Məmməd Cavadov musiqi nəzəriyyəsi, solfecio və musiqi ədəbiyyatı dərslərini aparırdı.

Bəylər pedaqoji fəaliyyətdə nümunə idi. Bundan əlavə Füzuli rayonundakı toyların aparıcı, əsas, sevimli qarmonçalanı kimi fəaliyyət göstərirdi. O, ən nüfuzlu, hörmət-izzətli toy mərasimlərinə dəvət olunurdu.

Bəylər müəllim həm də rayonda yaranmış ilk xalq çalğı alətləri ansamblına da rəhbərlik edirdi.



Sağdan: Bəylər Əhmədov dostu ilə bulaq üstündə

O, ansambl işini də gözəl bilirdi. Bu işdə yüksək bacarıq göstərərək, ətrafına istedadlı həvəskarları toplayaraq yaxşı repertuar hazırlayıb, tez-tez konsertlər təşkil edirdi. Onun rəhbərlik etdiyi ansambl nəinki Füzulidə, həmçinin ətraf rayonlarda, hətta başqa respublikalarda da alqışlarla qarşılanaraq, bir-birindən uğurlu konsertlər vermişdi. Füzuli mədəniyyət evinin özü də, x.ç.a. ansambl və teatr truppası da o zamanlar təsərrüfat hesablı fəaliyyət göstərirdi. Odur ki, Bəylər Əhmədovun rəhbərlik etdiyi ansambl öz qüdrəti, repertuarı, uğurlu çıxışları ilə ver-

diyi əksər konsertlərdən pul qazanaraq, mədəniyyət evinin maliyyə vəsaitini artırırdı. Zəhmətkeş, hünərvər sənətkar 1960-cı ildən başlayaraq, 13 il böyük bacarıqla bu ansambla rəhbərlik edib. O, dünyasını dəyişəndən sonra Füzuli mədəniyyət evinin x.ç.a. ansamblına tarzən Ramiz Əliyev rəhbərlik edib.

Qeyd etməliyik ki, Bəylər müəllim dövrünün mahir qarmon ifaçılarından biri olub. O, həqiqətən Füzulinin adlı-sanlı, sayılıb-seçilən sənətkarı idi. Bəylər Əhmədov Füzulidə yalnız öz adına gələn toylarda çıxış edirdi. O, həmişə hörmətlə qarşılanıb, hörmətlə yola salınırdı. Elə bu gün də Füzuli camaatı sevimli sənətkarı hörmətlə xatırlayır.

Onun sənətini görüb dinləmiş rayon musiqiçiləri, müğənnilər özlərindən sonra sənətə cığır asmış çalğıçılara Bəylər müəllimin məharətindən danışırlar.

Deməliyik ki, Bəylər kimi bir ifaçının sənətilə məşhur qarmonçalanlarımız da maraqlanırdılar. Ən mahir və çox məşhur qarmonçalan Məmmədağa Ağayev (1919-1982) də Bəylərin sənətinə yüksək dəyər verirmiş. Ustad sənətkar arabir Bəylərə qonaq gələr, onun ifasını dinlər, "Kometa" maqnitafon vasitəsilə lentə yazıb apararmış. Bu Məmmədağa Ağayevin Bəylər Əhmədovun sənətinə olan sevgisindən irəli gəlirdi. Yaxşı sənətkara dəyər vermək özü də böyüklükdən irəli gəlir. Bəylərin ifasını qiymətləndirmək Məmmədağanın böyüklüyündən xəbər verirdi.

Bəylər müəllim A.Zeynallı adına Musiqi Texnikumunun tar sinfində təhsil alarkən ona bütün muğamları öyrətmişdilər. O da özü özlüyündə muğamları öz ifasında mükəmməlləşdirmişdi. Odur ki, hər bir muğamı qarmonda yüksək səviyyədə ifa edə bilirdi. O, muğamları qarmonda ustad Teyyub Dəmirovun (1908-1962) milli üslubu ilə çalırdı. Onun ifasında muğamlarımız çox şirin alınırdı. Vaxtilə məşhur qarmonçalanlarımız Abbas Abbasov (1924-1997) və Aftandil İsrafilov da Bəyləri dinləmişdi. SSRİ xalq artisti Rəşid Behbudov (1913-1989) və Azərbaycanın xalq artisti, ustad xanəndə Yaqub Məmmədov (1930-2002) da Bəylər Əhmədovun qonağı olmuş, onun sənətindən zövq almışdılar.

Bəylər qarmonu sözün həqiqi mənasında el dilində, xalq üslubunda dilləndirirdi. Onun "Tərəkəmə"si şirin xallarla, milli çalarlarla zəngin idi.

Füzuli şəhər musiqi məktəbində ilk dəfə qarmon və kamança sinfi 1972-ci ildə açıldı. Qarmon sinfinin ilk müəllimi Bəylər Əhmədov oldu və o, dörd şagirdlə: Abbas Abbasov, Xəlil Əliyev, Minayə və Etibarla dərsə başladı. Bu uşaqlar öz ustadlarından qarmon sənətinin sirlərini öyrənərək 5 ildən sonra, 1977-ci ildə musiqi məktəbini bitirdilər.

Abbas Abbasovun xatirələrindən: "Bəylər müəllimə, onun nəsil nümayəndələrinə, övladlarına çox böyük rəğbətim var. İlk sənət müəllimim o olub. Hər birimizə doğma övlad kimi yanaşıb. Mənə sənətin incəliklərini, qaydalarını öyrədərək, musiqi aləmi üçün hazırlayıb. İndi də yaxşı xatirimdədir ki, o, səbrlə, dərin hövsələ ilə bizə barmaq məşqlərini, aplikaturanı necə öyrədirdi. Sonra müəllimim mənə Ələkbər Tağıyevin "Azərbaycan", Bəhram Nəsibovun "Sən güləndə" mahnılarını və digər kiçik həcmli, sadə quruluşlu melodiyaları öyrətdi. Beləliklə beş il ərzində sadədən mürəkkəbə doğru çox şey əxz etdik. Əvvəllər "Bayatı-Kürd", "Rast" və "Bayatı-Şiraz" muğamlarını öyrənməyimi də yaxşı xatırlayıram. Sonra "Çahargah" və "Şahnaz", 5-ci sinifdə isə "Hümayun" muğamı keçildi.

Bəylər müəllim çalışırdı ki, Füzulidə Musiqi Texnikumu açılsın. Lakin xəstələndi, dünyasını dəyişdi və bu arzusu yerinə yetmədi."

Bəylər Əhmədovun ifasında "Qızılgül" və "Arazı" rəqs havaları Azərbaycan radiosunun fonduna qəbul olunmuşdu. Onun sağlığında bu oyun havaları səsləndirilirdi.

Bəylər Əhmədovun rəhbərlik etdiyi x.ç.a. ansamblı keçmiş SSRİ-nin bir çox yerlərində konsertlər vermişdi. Füzuli torpağından neçə-neçə müğənninin yetişib tanınmasında Bəylər müəllimin böyük xidmətləri olub. Bu sırada Səlim Fərhadov, Əbdürrəhim Axundov, Eldar Novruzov, Təş-

kilat Nəsirov və bir neçəsinin adlarını çəkə bilərik.

Rasim Əhmədovun xatirələrindən: "Atam istedadlı cavanların sorağındaydı. Onları tapıb ansambla gətirər, öyrədər, konsertlərə aparar və püxtələşməsinə şərait yaradardı. Eldar Novruzovun yaxşı səsi, zənguləsi olduğu barədə eşitmişdi. Eldar qaynaqçı işləyirdi. Atam Eldarın iş yerinə getmiş, elə qaynaq işlərini gördüyü andaca qolundan tutub mədəniyyət evinə gətirmişdi. Səhv də etməmişdi. Eldar Novruzovun sənətə gəlişi öz bəhrəsini verdi, o, sayılıb-seçilən, xalq arasında sevilən bir xanəndə oldu. Eldar sonralar ətraflarda da çox tanındı. Dəfələrlə müsabiqələrdə iştirak etdi.

Bəylər müəllim ansambl üzvləriləciddi iş aparırdı. Tar sənəti üzrə mütəxəssis olduğu üçün bütün alətlərə bələdliyi vardı. Məşq zamanı hər alətin ifaçısına bir-bir öyrədirdi. Doğrudan da o, hər bir alətin xüsusiyyətini, dilini yaxşı bilirdi. Ansamblda gözəl səslənmə yaradırdı."

Bəylər Əhmədovun rəhbərlik etdiyi ansambl bir neçə dəfə Azərbaycan Dövlət Flarmoniyasında konsertlər vermişdi. Musiqi məktəbində onun tar sinfini bitirənlərdən öz oğlu Rasim Əhmədov, Elbrus Səfərov peşəkar sənətdə öz sözünü deyənlərin sırasındadırlar. Rasim də, Elbrus da mahir tarzən və gitaraçalandırlar. Elbrus Səfərovu əfsanəvi gitaraçı adlandırırlar. O, qonşu respublikalara, Rusiyanın şəhərlərinə, hətta Moskvanın özünə şənliklərə, tədbirlərə dəvət olunur. Elbrus Şərqin böyük musiqiçisi sayıla bilər. Bəylər müəllimin qarmon sinfində təhsil alanların əksəriyyəti respublikamızda tanınan sənətçilərdir. Bu sırada Yaqub Əliyev, Əlişad Ağayaroğlu, Mahir Məmmədov və Seyid Orucun adlarını çəkə bilərik. Deməliyik ki, ustad Bəylər Əhmədov adı qeyd olunan yetirmələrinin itedadını və həvəsini duyaraq, onlara xüsusi önəm verərək hazırlayıb.

Bəylərin istifadə etdiyi qarmonu usta Yuravlyov düzəldibmiş.

Haşiyə: "Yuravlyovun düzəltiyi qarmonlardan Teyyub Dəmirovda, Məmmədağa Ağayevdə və Abbas Abbasovda da olub. Həmin ustanın hazırladığı qarmonların sayı çox olmasa da, əlindən çıxan alətlər keyfiyyətcə yüksək sayılıb. Deyilənə görə o, qarmonun içərisindəki dilcəkləri (rusca- "qolos") qədim saatların kəfkirindən kəsib, doğrayıb hazırlayırmış. Həmin material çox davamlı və keyfiyyətli olduğu üçün yaxşı səslənir, həm də sınmırmış."


Füzulidə Bəylərlə eyni dövrdə sənət işlədən Emin (1928-1973) adlı mahir bir qarmonçu da olub. O, doğulub boy atdığı rayonda və ətraflarda tanınıbmış. Muğamlarımızı, "Qazaxı" və "Şalaxo" rəqs havalarını ustalıqla çalırmış.

Bəylərin qardaşı Famil xanəndə idi, öz bölgələrində yaxşı tanınırdı. Familin oğlu Oqtay qarmonçalan kimi fəaliyyət göstərmiş, sonra sənətdən uzaqlaşmışdır. O, əmisi Bəylərin foto-şəkillərini bizə gətirdiyi üçün ona təşəkkür etdik.

Bəylər Topaşa oğlu Əhmədov 1951-ci ildə ailə qurub. Bir qızı, üç oğlu və beş nəvəsi var.

Bəylər müəllim 1977-ci ildə dünyasını dəyişib. Övladlardan onun sənət yolunu davam edən, ilk övlad Rasimdir. Atadan gələn istedad, onun da qanında qaynayıb. Elə onun da taleyi musiqiyə bağlanıb. O, uşaq musiqi məktəbinin tar sinfini 1968-ci ildə bitirib. Həmin ildə Respublika baxış-müsabiqəsinə göndərilib. Rasim Əhmədov Füzuli məktəbindən belə bir müsabiqədə iştirak edən ilk musiqiçi idi. Münsiflər heyətinin üzvləri, xalq artisti Əhməd Bakıxanov (1892-1973), əməkdar artist Əhsən Dadaşov (1924-1976) və digər məşhur sənətkarlar idi. Rasim bu möhtəşəm tədbirə hazırlıqla gəlmişdi. O, "Çahargah" muğamını və "Daimi hərəkət" əsərini yüksək səviyyədə ifa etmişdi. Muğamın ifasında Rasim ustad tarzən Əhsən Dadaşovun barmaqlarından, xallarından məharətlə istifadə etmişdi. Bu an Əhsən müəllim gülümsəmiş, məmnun olmuşdu. Rasimin tarda ixtisas müəllimi Novruz Rzayev olub.

Rasim Əhmədovun əla qarmon çalmağı da olub. 1967-ci ildən 1971-ci ilə qədər toylarda bacarıqlı qarmonçalan kimi fəaliyyət göstərib. Onun "Karpuşkin" qarmonu vardı. Gitara dəbə



Rasim Bəylər oğlu Əhmədov

düşdüyü üçün bu alətə meyl edərək ən yaxşı gitaraçalanlardan biri kimi meydana çıxıb. Rasim atasının rəhbərlik etdiyi ansamblda ud və piano alətlərində də çalıb. O, 1975-ci il iyun ayının 12-də Azərbaycan Dövlət Filarmoniyasında qeyri-adi istedada malik, müxtəlif alətləri ifa edən gənclər arasında keçirilən müsabiqədə iştirak edərək, tar, saz, ud, qaval, tütək, qarmon və gitaranı məharətlə səsləndirərək laureat olmuşdur.

Rasim Bəylər oğlu ali təhsili başqa ixtisas üzrə almışdır. O, Politexnik İnstitutu "sənaye və mülki tikinti" ixtisası üzrə bitirmişdir. Rasim 1977-ci ildən Füzuli rayonunun Böyük Bəhmənli kənd uşaq musiqi məktəbinin tar sinfində dərs deyir. O, Füzuli rayonunda Rasim Bəyləroğlu kimi məşhur və sevilən gitaraçalandır. 2004-cü və 2009-cu illərdə onun ifaları toplanmış diskləri işıq üzü görüb. Rasim bu disklərdə xalq mahnılarını,muğamları və xalq melodiyalarını ustalıqla ifa edə bilib. Onun çalğısı çox təsirlidir, insanın ruhuna hakim kəsilir. O, ifasında gitara alətinə məxsus incə barmaqlar işlədir, ürəklə çalır. Bu ifaçı təsirli, təkrar xallarla dinləyicini ələ alır, onu öz təsir dairəsinə sala bilir. Onun hər ifasında dinləyicini özünə cəlb etmək ustalığı var. Nərimanov adına istirahət parkında, çayxanada əyləşib atası haqqında müsahibə alarkən onun öz telefonundakı ifalarını məmnuniyyətlə dinlədim. "Segah" muğamını o qədər təsirli ifa edib ki, mən qeyri-ixtiyari kövrəldim. Muğamın ardınca Ələkbər Tağıyevin "Sənsən" mahnısını da əla çalıb. Bu ifalar onun birinci diskindəndir.

2.24. ABDAL-GÜLABLININ YETİRMƏSİ



Şirin Allahverdiyev

Qarabağın axar-baxarlı, zəngin təbiətli, gözəl məkanlarından biri olan Abdal-Gülablı musiqi dünyamıza istedadlı, məşhur adamlar bəxş etmişdir. Bu sırada Aşıq Abasqulu (1850-1932), tarzən Qurban Primov (1880-1965), müğənnilər Sara Qədimova (1922-2007), Səxavət Məmmədov (1953-1991), Feyruz Səxavət, qarmonçu Məşədi Səhli, Aşıq Xaspolad, milli nəfəs alətləri ifaçısı Aşıq Qaraş və Şirin Allahverdiyevin adı xüsusi qeyd olunmalıdır.

Şirin Qaraş oğlu Allahverdiyev 1934-cü il yanvar ayının 20-də Ağdam rayonunun Abdal-Gülablı kəndində, musiqiçi ailəsində anadan olub. Nəfəs alətlərimizin mahir ifaçısı olan, xalq arasında Aşıq Qaraş kimi tanınan bu insan Qarabağ ellərinin, dağlar qoynunda yurd-yuva quran elatın sevimli sənətkarı idi. Qaraş Allahverdiyev dörd oğul, iki qız böyütmüşdü. Şirin dördüncü övlad idi. Şirin 8 illik təhsil almışdı. Onun təhsili 1941-45-ci illər müharibə dövrünə düşmüşdü. Müəllimlərin əksəriyyəti müharibəyə səfərbər olduqları üçün bəzi məktəbləri birləşdirmişdilər. Odur ki, Şirin Şıxbabalı kəndindəki məktəbdə oxuyurdu. Bu Qarabağda inanc, inam sahibi Seyid Lazım Ağanın kəndidir. Şirin Seyid Lazım ağanın oğlu ilə bir sinifdə oxuyurdu. Sonrakı illərdə isə o, təhsilini Abdal-Gülablıda davam etdirmişdi.

Şirin musiqiyə ilk əvvəllər atasının dəstəsində dəmkeş-balabançı kimi gəlmişdi. Sonralar isə onu qarmon sənəti özünə cəlb etmişdi. Bunun da obyektiv səbəbləri vardı. O dövrdə Qarabağ toylarını qarmonsuz təsəvvür etmək mümkün deyildi. Xalq havalarının və bəzi muğamların qarmonla çalınması xalqa maraqlı gəlir, onlara zövq aşılayırdı. Həm də Aşıq Qaraşın dəstəsinin xanəndəsi Kamiləbəyim (Kamrabəyim 1900-1964) dövrünün tanınan qarmonçularından biri idi. Dəstə toyların ərəfəsində Aşıq Qaraşgildə yığışardı. Kamrabəyim bu evin əziz qonağı, hətta ailənin sevimlisi idi. Belə bir qarmonçalanı görməsi, müntəzəm təmasda olması gənc Şirini qarmon sənətini öyrənməyə zövq etdi. O, əsgərliyə gedənə qədər artıq qarmon çalmağı bacarırdı.

Şirin Allahverdiyenv 1952-1955-ci illərdə Bakıdakı hərbi hissələrin birində (xalq arasında bura Salyan kazarması adlanır) xidmət edib. Əsgər yoldaşlarının biri də İslam Rzayev (1934-2008) olub. (Sonralar o, məşhurlaşıb, xalq artisti adına qədər yüksəlib). Şiringilin əsgərlik müddəti rahat keçib. Qarmonu kazarmada, daim çarpayısının altında olub. Boş vaxtlarda İslam Rzayevlə, digər əsgər yoldaşları ilə məşq edib, çalıb-oxuyublar.

Şirinin qarmonu da nümunəvi alətlərdən biri idi. Usta Juravlyov düzəltmişdi, uğurlu qarmon çıxmışdı.

Şirin əsgərlikdən sonra qarmon ifaçısı kimi əvvəl öz kəndlərində, sonra isə ətraflarda məşhurlaşıb. Ağdamın hər yerində çalıb-çağırıb, müxtəlif dəstələrlə əlaqədə olub. Şirin ilk sənət illərində həmkəndlisi Məşədi Səhlini (Kor Səhli) və Qarabağın digər qarmon ifaçılarını da görüb, eşitmişdi. O, Azərbaycan radiosu və qrammafon valları vasitəsilə Teyyub Dəmirovu, Məmmədağa Ağayevi, Abbas Abbasovu, Kübra Əbilovanı və Qızxanım Dadaşovanı da çox dinləmişdi. Qızxanımın ifası onun qəlbinə hakim kəsilmişdi. Bu ifa ona daha şirin, daha maraqlı və cəlbedici idi. Adları çəkilən sənətkarlardan, xüsusilə Qızxanımın çalğı üslubundan çox şey öyrənmişdi.



Şirin Allahverdiyev şagirdlə dərs zamanı

Şirin Allahverdiyev 1956-cı ildə ailə qurub. Həmin ildə də Ağdamın özünə köçüb. Ağdam sazəndə dəstələrinin, musiqiçilərin və xanəndələrin məskunlaşdığı, toplaşdığı bir məşhur məkan idi. Əksər sənətkarlar kimi Şirinin də Ağdamda qərar tutması onun rahatlıq tapması, geniş imkanda sənət işlətməsi, daha yaxşı tanınması, ifaçılıq imkanlarının artması və maddi vəziyyətinin düzəlməsi üçün şərait yaratdı. O, xanəndələrdən Xan Şuşinski, Əbülfət Əliyev, Bakir Haşımov, Arif Babayev, Mürşüd Məmmədov, İldırım Həsənov, Müseyib kişi, Misir Həsənov, Zarıslı İsa, Barat Fərhadov, Aydın Məmmədov, Aydın Niftəlioğlu, Əlisəfa Məmmədov və başqaları ilə Qarabağın hər yerində, bundan əlavə Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Bərdə, Yevlax, Ağcabədi, Beyləqan və İmişlidə sayagəlməz qədər toylarda olmuşdu. Onun özüylə danışılan toylar çox olurdu. Əksər hallarda öz toylarına gedir, özü dəstə toplayıb aparırdı. Onun toy müştəriləri, sənətini bəyənənlər çox idi.

Şirin Qaraş oğlu 1968-ci ildə Ü.Hacıbəyli adına Musiqi Texnikumunun xor dirijorluq şöbəsini bitirib. Pedaqoji fəaliyyətə Ağcabədinin Qıyamadınlı kəndindəki uşaq musiqi məktəbinin qarmon sinfində başlayıb. Sonra öz doğma kəndi Abdal-Gülablıda uşaq musiqi məktəbi açmaq qərarına gəlib. Çətinliklə də olsa əzmkarlıq göstərərək buna nail olub. Abdal-Gülablı erməni qəsbkarları tərəfindən işğal olunana qədər musiqi məktəbinin direktoru vəzifəsində çalışıb və qarmon sinfində dərs deyib. Məktəb Bakıya köç edəndən sonra burada qarmon sinfində müəllimlik fəaliyyətini davam etdirib.

Ağdamda yaşayarkən o, rayon radiosunda bir çox xalq havalarını və özünün bəstələdiyi rəqsləri ifa edib. Onlardan biri də qızının adına həsr etdiyi «Arzu» rəqsidir. Bu rəqs melodiyası və digər havalar onun ifasında Azərbaycan radiosunda da səslənib.

1970-1980-ci illərdə Abdal-Gülablı kəndinin mədəniyyət evində «Nənə» qızlar-folklor ansamblı geniş fəaliyyət göstərirdi. Bədii rəhbər Aşıq Xaspolad, ansamblın qarmonçalanı isə Şirin Allahverdiyev idi. Həmin folklor kollektivi Qarabağın hər guşəsində, onun ətrafındakı rayonlarda, Bakıda keçirilən folklor müsabiqələrində çıxış edirdi. Keçmiş SSRİ-nin respublikalarında keçirilən folklor ansamblları festivallarının bir-neçəsinə də «Nənə» qızlar ansamblı göndərilmişdi. Həmin ansambl Abdal-Gülablı düşmən əlinə keçənə qədər fəaliyyət göstərib. Ansambl vaxtilə Azərbaycan televiziyasında da çıxış etmişdir. Şirin müəllim nağaraçalanla birlikdə folklor nümunələrini çox gözəl müşayiət edirdi.

Şirin Allahverdiyev beş övlad böyüdüb, doqquz nəvəsi, üç nəticəsi var. Şirin müəllim 1998-ci ildə infarkt keçirib. Sonralar şəkər xəstəliyindən də əziyyət çəkib. O, 2010-cu ml martın 13-də dünyasını dəyişib.

Oğullardan sənət aləmində çalışanlar da var. Azər Şirin oğlu Abdal-Gülablıdakı uşaq musiqi məktəbində atasının dərs dediyi qarmon sinfini bitirib. Əvvəllər xırda el şənliklərində qarmon çalıb. Sonra gitara alətinə meyl edib. Elektrogitara çalmağı öyrənib. Atası ilə birlikdə toylara gedib. 1983-cü ildə Ü.Hacıbəyli adına Musiqi Texnikumunun tar sinfinə daxil olub. İki il əsgərlik müddətindən sonra musiqi təhsilini davam edib və uğurla başa vurub. Tacir Şahmalıoğlunun toy ansamblının üzvü olub. Onu elektrogitara ilə müşayiət edib. Bu ailədə digər musiqiçilər də var.

2.25. ÖMÜRDƏ VƏ SƏNƏTDƏ MÜDRİK ÇAĞA YETİŞDİ



Şamil Mustafayev

Şəki Azərbaycan mədəniyyəti və incəsənətinə Ələsgər Abdullayev, Əlövsət Sadıqov, Mürşüd Məmmədov, Şəmsəddin Abdullayev kimi görkəmli xanəndələr, Əhmədbəy Tahirov, Həbibulla Cəfərov, Ələfsər Rəhimov, Məhərrəm İsmayılov, Rəcəbəli Əliyev, Məmməd Nəsrullayev kimi dəyərli musiqiçilər bəxş etmişdir. Belə unudulmaz el sənətkarlarından biri də istedadlı qarmonçalan Şamil Rəsul oğlu Mustafayevdir.

O, 1934-cü il fevral ayının 17-də Şəki şəhərində anadan olmuşdur. Ailə vəziyyəti ağır olduğundan balaca Şamili 1942-ci ildə şəhər 1 saylı uşaq evinə vermişlər. 1950-ci ilədək uşaq evində yaşamışdır. 12 yaşında ikən, 1946-cı ildə musiqiyə böyük marağı olduğundan əvvəlcə nağarada, sonra isə qarmonda çalmağa meyl göstərmişdir. Görkəmli qarmonçular Teyyub Dəmirov, Məmmədağa Ağayev, Abbas Abbasov, Səfərəli Vəzirov, Səttar Hüseynov, İsfəndiyar Çoşqunun sənətinə daim pərəstiş etmişdir.

Şamil Mustafayev 1956, 1957, 1962-ci illərdə keçirilən Respublika gənclərinin hər üç festivalında, 1967-ci ildə keçirilən Ümumittifaq festivalında, 1977-ci ildə keçirilən Zəhmətkeşlərin Bədii Yaradıcılığı festivalında çıxış etmişdir.

1958-ci ildən uzun illər ərzində Şəki şəhər mədəniyyət evinin konsert briqadalarının tərkibində dəfələrlə Gürcüstanda, həmçinin respublikamızın bir çox şəhər və rayonlarında qastrol səfərlərində olmuşdur. Sənət dostları olan xanəndələrdən Yunis Məmmədov, Lütfəli Məmmədov, Nurəddin Həmzəyev, Abid Hümmətov, Fərman Xəlilov, Əliosman Hacıyev, musiqiçilərdən Fərrux Abdulrəhimov, Nurəddin Bədəlov, Məmməd Nəsrullayev, Seyran Zülfüqarov və İbad Salmanovla birlikdə respublika əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir.

Xalq artisti Avtandil İsrafilov Şamilin evində qonaq olarkən, onun qarmonda ifa etdiyi "Segah", "Şur", "Şahnaz", "Qatar", "Çahargah" muğamlarına qulaq asmış və demişdir: "Mən görkəmli qarmon ustalarının muğam ifaçılığına qulaq asmışam, lakin Şamilə bərabər sənətkara rast gəlməmişəm. Əhsən belə muğam ustadına. Şamil həmçinin bir çox rəqs havalarının mahir ifaçısıdır".

1958-ci ildə Azərbaycan Dövlət Filarmoniyasının konsert briqadası Şəkidə qastrol səfərində olarkən, qarmonçu qəflətən xəstələnib Bakıya qayıtmışdır. Şamil 15 gün müddətində Şəki, Qax, Zaqatala və Balakən rayonlarında Rübabə Muradova, Elmira Rəhimova, Yaqub Məmmədov və digərlərini qarmonda müşayiət etmişdir.

Şamilin oğlu Kamil Azərbaycan Dövlət Konservatoriyasının skripka sinfini bitirmişdir. Respublikanın məşhur musiqiçilərindən biridir.

Şamil Mustafayevin yetirmələri olan Faiq Məmmədov, Sabir Mustafayev və başqaları bu gün tanınmış el sənətkarlarıdırlar.

80 yaşlı Şamil Mustafayev bu gün qarmonun şirmayi dillərini xüsusi şövqlə dilləndirir. Şəki-Zaqatala bölgəsinin el şənliklərində, kütləvi bayram tədbirlərində uğurla çıxış edən qocaman el sənətkarı səy və bacarığını gənc musiqiçilər nəslinin yetişməsinə sərf edir.

Qədim folklor nümunələrinin, xalq rəqslərinin, təsnif və dəramətlərin toplanmasında Şamilin müstəsna xidmətləri vardır. O, zəngin xalq musiqimizi incəliklərinə qədər bilir.

Qocaman el sənətkarı bütün ömrünü xalq musiqisinə və qarmon sənətinə həsr etmişdir. O, həmişə toy-mağarın, el-oba şənliklərinin sevimli sənətkarı olmuşdur. Ustad səviyyəsinə yetişmiş bu insan milli qarmon sənətimizin əsl nümayəndəsi olaraq Şəki və onun ətraf yerlərində bu sənəti layiqincə təbliğ edə və sevdirə bilib. Əlbəttə, el-obaya xidmət etmək, xalqın sevimlisi, dəyərli sənətkarı olmaq böyük xoşbəxtlikdir. Şəkidə qarmon sənətinin izini qoyanlardan biri olan Şamil Mustafayevin həqiqətən musiqi tariximizdə adı yaşamalıdır.

Deyirlər ki, sənətkar ömrünün müdriklik çağı dağ silsiləsinin zirvə məqamını xatırladır. Ömrün müdrik çağına çoxdan qədəm qoyan bu kişi elə sənətdə də kamilləşib və müdrikləşib. O, bu gün Şəki musiqiçilərinin gözü qarşısında ucalan əzəmətli dağdır. Hamıya məlumdur ki, sənət aləmində yüksəlişə nail olmağın keşməkeşli yolları, çətinlikləri var. İstedad, həvəs öz yerində, həm də bu işdə səbr, dözüm, əzm mühüm əhəmiyyət kəsb edir. Çoxları kimi Şamil kişi də öz işində, sənətində, yaradıcılığında ilmə-ilmə, kəlmə-kəlmə, sətir-sətir böyüyüb, addım-addım irəliləyərək uzun və uğurlu bir sənət yolu qət edib. Belə müdriklər, bu kimi sənətkarlar gənc musiqiçi nəslinə bariz nümunədirlər.

Ş.Mustafayev ömür yollarını andıqca, musiqi aləmindəki məqamları vərəqlədikcə yalnız qürur duya bilər. O, qarmonunu, sənətini, sənəti də onu yaşatmışdır.

Belə qüdrətli sənətkar haqqında məlumatları bizə çatdıran İlqar Abdulkərim oğluna dərin təşəkkürlər düşür. Xeyirxahlığı və nəcibliyilə İlqar Şəkili əsl nümunədir.

2.26. O, ÖZ MƏKTƏBİNİ YARATMIŞDIR



Xalq artisti Avtandil İsrafilov

Çoxdan arzuladığım bir məqsədə yetişdim. 2012-ci il aprel ayının 28-də doğma, qədim Bakımızın M.A.Əliyev küçəsindəki 234 saylı üçmərtəbəli binanın ikinci mətrəbəsində məşhur sənətkarımız, xalq artisti Aftandil İsrafilovun mənzilində oldum. Ora onun dəvəti ilə getdim. Görüşməkdə məqsədim sənətkarla ətraflı söhbət etmək, ondan müsahibə almaq idi. Getdiyim ünvanın ətrafında söküntü işləri aparılırdı. Üzbəüz binaların daşı-torpağı daşınır, yerində təmizlik işləri aparılırdı. Tədricən söküntü plana uyğun olaraq olduğum ünvana doğru hərəkət edəcək, bu binaların da ömrünə son qoyulacaq, onların yerində XXI əsrə uyğun qurub-yaratma işləri aparılacaq, müasir xiyabanlar və parklar salınacaq. Bakının köhnə ünvanları bizim yazdığımız kitabların səhifələrinə, tarixə köçəcək.

Mahir sənətkardan bilgi almaq, ömrünün müəyyən anlarını öyrənmək mənim üçün önəmli bir iş idi.

Hiss etdim ki, uzun yaradıcılıq yolu keçmiş bu insanla bir görüş, iki-üç saatlıq söhbət mənim yazımın ətraflı olmasına, bitib-tamamlanmasına bəs etmir. Öz fəaliyyəti barədə, ümumiyyətlə musiqi aləmində görüb-eşitdikləri haqda onda o qədər ma-

raqlı məlumatlar var ki...

Avtandil Eynulla oğlu İsrafilov 1941-ci il yanvar ayının 24-də Bakıda anadan olub. Onların yaşadığı mənzil L.N.Tolstoy 54, Mustafa Subhi küçəsinin tini ünvanında yerləşirdi. Bu ailədə yeddi uşaq böyüyüb-boy atıb. Eynulla İsrafilov təkcə məhəllədə, qonşular arasında deyil, eləcə də iş yoldaşları, dostlar, qohumlar və onu tanıyanlar arasında böyük nüfuza malik idi. O, daxilən saf, mərhəmətli, xeyirxah, çörəkverən, insaflı, mürüvvətli və haqqı tanıyan bir kişi olduğu üçün çoxlarının hörmət bəslədiyi və sevimlisi olan bir insana çevrilmişdi. Eynulla ictimayi-iaşə sahəsində çalışırdı.

Kitab müəllifi kimi qeyd edirəm ki, Eynulla kişinin alicənab, dəyanətli və mərd insan olması barədə mahir qarmon ifaçımız, əməkdar artist, fəlsəfə doktoru Zakir Mirzənin dilindən tez-tez eşitmişəm. Zakir Xaçmaz şəhərində boy atıb böyüdüyü üçün bunun şahidi olub. Həmin dövrdə Eynulla İsrafilov bir müddət Xaçmaz dəmir yolu vağzalının yeməkxanasının müdiri vəzifəsində çalışıb. Zakirin atası Qulam Hüseynin Eynulla ilə dostluğu varmış. Zakir həmişə deyib ki, Eynulla kişinin Xaçmazda böyük nüfuzu vardı.

Eynulla İsrafilov Şərqin böyük xanəndəsi Cabbar Qaryağdıoğlu (1861-1944) ilə möhkəm dost olub. Ustad xanəndə Eynullaya Fransada istehsal olunmuş piano bağışlayıb.

Gələcəyin böyük sənət adamı, mahir qarmon ifaçısı olacaq Avtandil evlərindəki pianoya biganə qalmamış, musiqiyə gəlişini bu alətlə başlamışdır. Özünün dediyi: "Uşaqlıq illərində əksər tay-tuşlarım kimi mən də futbol oynamaqdan doymazdım. Məhəllə yoldaşlarımla futbol oynayıb, yorulub evə gələndə fortepiano arxasına keçib çalar və dincələrdim. Radiodan da tez-tez qarmon ifaçılarının çaldıqlarını dinləyirdim. Piano ilə neçə vaxt idi məşğul olurdum və yaxşı da çala bilirdim ki, qarmon çalmaq həvəsinə düşdüm. Qonşumuzda Mirzəağa kişi vardı. Yarımtonsuz qarmonunu tez-tez çalardı. Yaz-yay aylarında qarmonunu götürüb damın üstünə çıxar, orada əyləşib çalaraq dinçələrdi. Mən onun çalmağını görüb dinləmişdim. Elə onun əlində qarmon görərək, ifasını eşidərək, radiodan tanınan qarmonçalanların ifasını dinləyərək qarmon çalmağa meyl etmişdim."

Avtandil də çoxları kimi ilk əvvəllər "Kazan" qarmonda və Tulada istehsal olunan alətlərdə çalaraq sənət öyrənmişdi.

Onun xatirələrindən: "Atamın dostlarından biri də qarmonçalan Ağahüseyn idi. O, atama bildirmişdi ki, bir nəfərdə əla bir qarmon var, satır, məsləhət görürəm ki, onu sənin oğlun üçün alaq. Atam Ağahüseyn əmi ilə gedib həmin qarmonu mənə alıb gətirdi. Bu 1958-ci ilə təsadüf edir. Həmin qarmon mənim gələcək sənət fəaliyyətimi həll etdi və uğurlarımın təməlini qoydu. Mən indi də Ağahüseyn kişini hörmətlə xatırlayıram, ona Allahdan rəhmət diləyirəm. O, əslən maştağalı idi, şəhərdə yaşayırdı. O, dövrünün yaxşı qarmon ifacılarından biri sayılırdı.

Şəhərin Sovetski adlanan məhəlləsində İsrafil adlı bir kişi yaşayırdı. Arabir Rusiyanın Tula şəhərinə gedər və Azərbaycan musiqiçiləri üçün hazırlanmış qarmonlar gətirərdi. Mənə satdıqları qarmonu isə xüsusi sifarişlə oranın ən yaxşı ustasına həvalə etmiş, məxsusi öz oğlu Yusif üçün düzəltdirmişdi. Bu yaxşı qarmon çıxmışdı. Lakin oğlu musiqidən uzaqlaşdığı üçün İsrafil həmin qarmonu satmalı olmuşdu. Bu nadir nüsxə, bu keyfiyyətli alət mənə qismət oldu.

Qarmonun yalnız qrifi yaxşı işləmir, rahatsızlıq yaradır və məni qane etmirdi. Odur ki, usta Valentinin Basin (hazırda Füzuli) küçəsindəki emalatxanasına getdim. O, həmin qarmona əla qrif düzəltdi və yaxşı işləyən mexanizmlər yığdı".

Avtandil Bakıdakı Mərkəzi Pioner və Məktəblilər Evinə gedir və qarmon dərnəyinin məşğələlərində iştirak edirdi. Müəllimdən bir şey öyrənməsə də ansamblda və orkestrdə çalması onun inkişafı üçün şərait yaratmışdı. Onu diqqətlə dinləmiş, istedadını duymuş və ifasını bəyənərək nəfəs alətləri orkestrinin tərkibinə götürmüşdülər. Orkestr əsərləri özünəməxsus tonalhıqlarda ifa

edildiyi üçün bunlar qarmon alətində yarımtonlara düşürdü. Başqalarına bu çətin gəlsə də Aftandil bunların öhdəsindən məharətlə gəlirdi. O, artıq bu çətinliyə alışmışdı, həmin tonallıqları mənimsəyib sərbəst çala bilirdi. Bu da orkestr rəhbərinin, bütünlükdə yaradıcı heyyətin və pionerlər evi rəhbərliyinin nəzərindən yayınmamışdı. Kollektiv 1959-cu ildə Moskvada keçiriləcək Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə ciddi hazırlaşırdı. Vaxt yetişəndə ora ən istedadlı uşaqları və yeniyetmələri göndərmək üçün seçim edildi. Hamını bir yerə toplayıb Moskvaya, dekadaya gedənlərin siyahısı oxunanda Aftandil İsrafilovun da adı salınmışdı. Beləliklə o, Moskvada mədəniyyətimizi təbliğ edənlər sırasında olmuşdur.

Orkestr əsərlər ifa etməklə bərabər həm də, "Cücələrim" mahnı və rəqs ansamblını da müşayiət edirdi.

Avtandil 1960-cı ilin sonuna qədər pionerlər evində rəqs quruluşlarını və solist müğənniləri müşayiət etmişdir. O, 1961-ci ildən L.Şmidt adına maşınqayırma zavodunun mədəniyyət sarayının rəqs ansamblının qarmonçusu olmuşdur. Baletməyster Şahvələd həmişə Avtandilin aydın, səlisqəli, səviyyəli ifasından və müşayiət bacarığından razı qalırdı. Avtandil özü də burada çalışmasından məmnun idi. Həm maaş alır, həm də çətin rəqslərin quruluşlarını müşayiət edərək, iti, cəld sürətli melodiyaları ardıcıl çalaraq ifaçılıq qabiliyyətini, bacarığını artırırdı. Rəqs ansamblında çalması onu xeyli qabağa aparmışdı. Avtandil İsrafilov çalışdığı rəqs ansamblı ilə 1963-cü ildə xarıcı ölkəyə səfər etmiş, Avstriya ölkəsinin şəhərlərində konsertlərdə olmuşdur. Bu onun ilk xarici ölkə səfəri idi. O, hələ bilmirdi ki, onu qarşıda hansı sənət uğurları gözləyir, peşəkar səhnələrdə özünü təstiq etdikcə nə qədər ölkələr gəzəcək, sololar ifa edəcək, qarmonumuzu sevdirəcək və musiqimizi yüksək bacarıqla təbliğ edəcək. Əlbəttə bunlar yaradıcılıq və tale işidir. O, bütün söylədiklərimizi öz uğurunda və öz taleyində tapacaqdı. Tapdı da...

Avtandil İsrafilov 1960-cı ildə Politexnik İnstituta daxil olur. Ali təhsil ocağının özfəaliyyət x.ç.a. ansamblının fəal üzvlərindən, aparıcı musiqiçilərindən biri kimi özünü təsdiq edir. Ansamblın rəhbəri, rarzən-drijor (hazırda xalq aristi) Nəriman Əzimov bu istedadlı gənc qarmonçalanın ifasından razı qalır, onu diqqətdə saxlayır və gələcəkdə böyük musiqiçi olacağını öncədən duyur. Məşqlər, konsertlər, baxış-müsabiqələr, böyük sənət adamlarının tövsiyyələri gənc Avtandilin musiqiçi kimi yetişməsinə təkan verir. Həmin illərdə o, özündən böyük sənətkarlarla və yaşıdları olan musiqiçilərlə toylara da gedir. Beləliklə qarmon ifaçılığı onun əsas işinə, sənətinə çevrilir və o, özünü bu peşədə tapır. 2 il istitutda təhsil alan Avtandil təhsildən uzaqlaşaraq ömrünü həmişəlik qarmon sənətinə bağlayır və nəhayət ölkəmizin ən mahir qarmon ifaçılarından biri olur. O, təhsil aldığı ali məktəbdə öz qrup yoldaşlarını bu gün də xatırlayır. Onların əksəriyyəti sonralar elmin və istehsalatın müxtəlif sahələrində çalışaraq tanınan simalara çevrilmişdilər. Avtandilin qrup yoldaşlarından biri Əhməd Əhmədzadə hazırda ölkəmizin meliorasiya naziridir.

Tarzən, əməkdar artist (sonralar xalq artisti) Baba Salahov (1923-1981) rəhbərlik etdiyi x.ç.a ansamblına 1965-ci ildə Avtandili dəvət edir. Gənc qarmonçu 1978-ci ilə qədər həmin ansamblda çalışır. Bu ansambl Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin nəzdində fəaliyyət göstərirdi. Avtandilə qədər bu ansambın qarmon ifaçıları Teyyub Teyyuboğlu və İsfəndiyar Coşqun (1929-1991) olmuşdur. Avtandil az vaxt içərisində bu peşəkar ansamblda özünü təstiq edir. Toy-büsatda onun ilk yoldaşlıq etdiyi klarnetçalan Vəli Qədimov (1940-2009) da həmin ansamblın fəal üzvlərindən biri idi. O, da özfəaliyyət ansamblarından yetişib gəlmiş və nəhayət əsl ansambl ifaçısı kimi formalaşmışdı. Avtandil ilə Vəlinin çalğısı istər ansambl tərkibində, istərsə də özləri birlikdə çalarkən çox yaxşı alınırdı. 1960-cı illərin sonlarında, 1970-ci illərin əvvəllərində bu iki musiqiçi Baba Salahovun idarəsilə fəaliyyət göstərən x.ç.a ansamblının aparıcı qüvvəsi və solistləri kimi musiqisevərlərin və musiqi xiridarlarının nəzər-diqqətində idilər. Bu ansamblla televiziyada çıxış edən, radioya ifalarını yazdıran müğənnilərin əksəriyyətinin muğam oxumalarını

Avtandil və Vəli müşayiət edirdilər. Bundan başqa muğam dəramədləri və rənglərin əvvəllərində və ortalarında da istedadlı, məharətli ifaçılar Avtandil və Vəlinin solo ifaları mühüm əhəmiyyət kəsb edir, bu musiqiləri zənginləşdirərək əsl örnəyə və nümunəyə çevirirdi. Həmin melodiyalar bu gün üçün də əhəmiyyətlidir, radionun və televiziyanın fonotekasında qorunur.

Baba Salahovun rəhbərlik etdiyi ansamblın daha cox məşhurlaşmasında və sevilməsində Avtandil və Vəlinin mühüm rolu olmuşdu. Musiqi ictimaiyyətinin, müğənnilərin, bəstəkarların diqqətində olan bu ansamblın çıxışlarını gənc musiqiçilər xüsusi maraqla izləyirdilər. Bu kitabın müəllifi də bir zamanlar Avtandil və Vəlinin televiziya və radio ifalarını izləmiş, əhəmiyyətli dərəcədə dinləmiş və onların çalğısından çox şey öyrənmişdir. Avtandil və Vəli x.ç.a. ansamblının tərkibində bəstəkar Şəfiqə Axundovanın "Şən rəqs"ini o qədər gözəl ifa ediblər ki...

Avtandil İsrafilov Baba Salahovun ansamblının tərkibində xalq artisti Rübabə Muradovanın (1933-1987) oxuduğu "Gəl bizə yar" xalq mahnısında xanəndənin oxuduğu yanıqlı "Segah" muğamını ("sol" tonallığında) xüsusi tərzdə, özünəməxsus və təsirli halda müşayiət etmişdir. Belə misalları çox artırmaq olar. O, Qədir Rüstəmovun (1935-2012) istər televiziyada canlı konsertdə oxuduğu, istərsə də radio fonduna yazdırdığı "Olmaz, olmaz" (musiqisi Zöhrab Abdullayevin) mahnısında oxuduğu "Segah" muğamının ("fa #" tonallığı) ifasında da xüsusi ustalıq göstərərək öz dəsti-xəttini verə bilmişdir. Həmin müğənninin Azərbaycan radiosunun fonotekasında qorunan və səsləndirilən "Çahargah" muğam-dəstgahında Avtandil "Müxalif" şöbəsini və buradakı "Məxlut" guşəsini (bəzi xanəndələr bu guşəni "Müxalifin üstü" adlandırırlar) samballı və əla çalıb. Qədirin televiziyada oxuduğu "Sona bülbüllər" xalq mahnısında da Avtandil İsrafilov xanəndəni olduqca təsirli "Segah"la müşayiət etmişdi.

Neçə-neçə xanəndələrin müşayəti zamanı Avtandilin çaldığı "Segah"ların heç biri bir-birinə bənzəmir və fərqli cəhətlər özünü biruzə verir. Bu işlərdə onun aşıb-daşan ilhamı, zəngin təbi, güclü musiqili ürəyi mühüm rol oynayır. "Segah"a onun xüsusi və məsuliyyətli yanaşması vardır. Düzdür, onun ilhamı "Bayatı-Şıraz"a, "Şüştər"ə, "Mahur"a daha yaxındır, lakin "Zabul" və "Segah" muğamları da sanki onun qarmon ifaçılığının boyuna biçilmişdir.

"Bəstənigar" "Çahargah" muğamının bir şöbəsidir. Bu şöbədə həzinlik var. A.İsrafilov 1960-cı illərin sonlarında Azərbaycan radiosunun fondu üçün "Bəstənigar" ifa etmişdir. "Çahargah" muğamının tərkibində bu şöbə "mi" tonallığına əsaslansa da Avtandil bu muğamın qarmonda xüsusi səslənmə yerini duyub təyin edərək, "si" tonallığında çalaraq, sonluğu, qayıdışı (muğama ayağı) "sol" pərdəsinə gəlmişdir. Zəngin qarmon çalarları ilə bəzənmiş "Bəstənigar" ifasında o, "Segah"a da keçid etmişdir. Düzdür, "Bəstənigar" da "Segah" yoxdur. (Hərçəndi qədim muğam cədvəllərində muğamlarımızın şöbə və guşələrində müasir dövrümüz üçün bir-birinə zidd olan, məqbul sayılmayan adlara rast gəlirik.) Hörmətli və məharətli sənətkarımız xüsusi ustalıq göstərərək adını qeyd etdiyim muğamla "Segah"ın sintezini yaratmışdır.

Mənzilində qabaq-qənşər əyləşib sənətkarla söhbət edərkən ona belə sual verdim:

- Əhəd Əliyevin qrammafon valında ifa etdiyi, siz sənətə gəldiyiniz zaman üçün çox məşhur olan, elə bu günlə də səsləşə bilən "Segah"ı dinləyib ondan bəhrələnmisinizmi?

Belə cavab aldım:

- Xeyr, mən onun "Segah"ını dinləməmişəm. Lakin onun üslubunda "Segah" çalan Abbas Abbasovu (1924-1997) və Səttar Hüseynovu (1929-1981) evimə dəvət edərək onların ifasına dəfələrlə qulaq asmışam. Bir nəfər iranlı qarmonçu var idi. O da "Əhəd Segahı"nı yaxşı çalırdı.

Sənətkar sözünə davam edərək belə dedi: "Segah" başqa aləmdir. Zəngin çalarlı, zəngin boyalı, al-əlvan naxışlı və olduqca təsirli muğamdır. Onu ifa edərkən adam özündə olmur, ətraf mühitdən tədric olunur. Bir anlıq unudursan, o sirli aləmə daxil olursan. İfaçı bir az da dərinliklərə baş vursa, lap ürəyi partlaya bilər. Sözün düzü bu yaxınlarda mənim başıma belə bir iş gəlib. "Segah"

sifariş vermişdilər. Məsuliyyət hiss etdim, çalmağa başladım. Get-gedə o dərin aləmə baş vurdum. Özümü və dinləyiciləri, toy iştirakçılarını, muğamı sifariş verəni unutmuşdum. Bir vaxt hiss etdim ki, ürəyim yerindən çıxmaq istəyir, partlamağa yaxınlaşır, deyəsən ölümə doğru gedirəm. Ürək ağrıları məni bu aləmə qaytardı, ayıldım, tez "Segah"a sonluq verdim, qarmonu masa üstünə qoyub ayağa durdum və qonaqların arasına gedib onlarla birlikdə əyləşdim. Alqışlar isə hələ də davam edirdi. Bir dəfə də Daşkənd şəhərində toyda təsirli "Segah" çaldım. O qədər pul səpdilər ki...

Bu dəfə Avtandil bəy mənə sual verdi: "Əhsən müəllim, siz bilən "Segah" qarmonda hansı tonallıqda daha təsirli səslənir?"

Fikrimdə götür-qoy edir, sənət işlətdiyim dövrdə çaldığım "Segah"ların təsirli pərdələrini xatırlamaq istəyirdim, "sol"damı, "fa #"dəmi, "fa"damı, "do #"dəmi? Cavab verməyə çətinlik çəkdim, tərəddüd etdim. Fikirləşdiyimi duyan sənətkar verdiyi sualı özü cavablandırdı. "Qarmonda "Segah" ən yaxşı və ən təsirli "si"də, "Xarıc segah" kökündə səslənir". Mən solist kimi bunu dəfələrlə yoxlamışam. Bu yaxınlarda mən həmin tonallıqda belə bir maraqlı iş etmişəm. Yarımtonlara toxunmadan "si" kökündə "Segah" çalmışam. Efirə verməmişəm. Heç yerdə səsləndirməmişəm. Diski qutuya qoyub arxivimdə saxlamışam. İstəyirəm ki, mən dünyada olmayanda həmin ifa ilə maraqlansınlar, səsləndirib fikir bildirsinlər".

Avtandil sənət aləminə gəldiyi ilk illərdə nağara ifaçılarından Ağasüleyman İmanov, Böyükağa Muradov, Rafiq Budaqov, Ramiz Həsənovla konsertlərdə, toylarda çalırdı. Geniş fəaliyyəti dövründə isə onun dəstəsinin əsas nağara ifaçısı Ramiz Həsənov olmuşdu. Onun müşayiəti Avtandilin ifası ilə daha yaxşı uyuşur, bütün incəliklər öz yerini alır, çalğı ilə müşayiət bir-birini tamamlayırdı. Sonrakı zamanlarda Aftandil İsrafilovun ansamblının əsas nağaraçalanı Rafiq Balabəyov olmuşdur.

XX əsrin 60-cı illərinin sonlarında qarmon ifaçısı Avtandil İsrafilov, klarnetçi Vəli Qədimov və nağaraçalan Tahir Hüseynov üçlüyünün Azərbaycan radiosunda ifa etdikləri yeni səpgili, yeni ruhlu oyun havaları hamının xoşuna gəlmişdi. Bu melodiyalar həddən artıq gözəl səsləndiyi üçün



Sağdan: Avtan İsrafilov, Babaxan Bağırov və Böyükağa Muradov

nəzər-diqqəti cəlb etmiş, gənc musiqiçilərin maqnitofon lentlərinə köçürülmüşdü. Bu təsirdən formalaşan, bu nümunədən yaranan yeni-yeni qarmonçu, klarnetçi, nağaraçı üçlükləri nəinki Bakımızda, eləcə də Azərbaycanımızın bütün bölgələrində artdı, çoxaldı. Hətta Qərbi Azərbaycanda, İrəvanda, Borçalı ellərində, Tbilisidə belə musiqi qrupları yarandı.

Avtandilin, Vəlinin, Tahirin ifa etdikləri "Xəzəri", "Xoşbəxti", "Natiqi", "Bahar", "Siyəzən", "Toy rəqsi" (bəstəkar C.Cahangirov), "Qazaxı", "Qaytağı" oyun havaları az zaman içərisində geniş yayılaraq Azərbaycan toylarının repertuarına daxil oldu. Musiqiçilərimiz toy-büsatda bu melodiyaları sevə-sevə ifa edirdilər. Hətta gənc musiqiçilər bu havaları Avtandil və Vəli necə çalıbsa, elə o cür, həmin bəzəklərlə çalmağa çalışır, əksəri də buna nail olurdular.

Baba Salahovun ansamblındakı fəaliyyətlləri , buradakı solo ifaları, radioda, televiziyada çaldıqları oyun havaları və bir neçə muğam Avtandil İsrafilov və Vəli Qədimovu çox məşhur etmiş, nəinki respublika miqyasında, hətta onun hüdudlarından kənarda da tanıtmışdı. Onların yaratdıqları toy ansamblı hər yerə, ən gur məclislərə dəvət olunurdu. Onların çıxış etdiyi toylarda, konsertlərdə müğənnilərdən Tələt Qasımov, Zaur Rzayev, Rövşən Behçət, Sakif Məmmədov, Mais Məmmədov və digərləri oxuyurdular. Bu zaman bu heyətin nağara ifaçısı Ramiz Həsənov (1942-2011) idi. Onun özünəməxsus ritmləri Avtandil-Vəli üslubunu tamamlayırdı. Onların birlikdə ifa etdikləri canlı çıxışlar və qrammafon vallarına, radio fonduna yazdırdıqları melodiyalar ürəyə yatır, könül oxşayır, sümüyə düşür və həmişəyaşarlıq "vəsiqə"si alırdı. O, ifaları pianoda müşayiət edən Yusif Səlimovun xidməti xüsusi qeyd olunmalıdır.

1972-ci ilin fevral ayında Rusiyanın Leninqrad (hazırda Sankt-Peterburq) şəhərində "Bakı" restoranının açılışı olmuşdu. Mərasimin təşkilatçısı Azərbaycan hökuməti idi. Bu tədbirdən əlavə şəhərin mötəbər mədəniyyət müəssisələrində Azərbaycan incəsənət ustalarının konserti təşkil olunmuşdu. Ora estrada orkestri, tarzən Həbib Bayramov (1926-1994), müğənnilər Tükəzban İsmayılova, Anatollu Qəniyev (1931-1985), Oqtay Ağayev (1934-2006), xalq çalğı alətlərimizin bir neçə ifaçısı, qarmonçalan Aftandil İsrafilov, klarnetçi Əşrəf Əşrəfzadə (1940-1973), nağaraçalan Rafiq Budaqov və balabançı-dəmkeş Sabir Məmmədov göndərilmişdi. Konsertlər bir-birindən maraqlı olmuş, Azərbaycan musiqiçiləri alqışlar qazanmışdı. SSRİ-nin məşhur "Melodiya" firmasının əməkdaşları konsertdə tamaşaçı olmuş, ifaçılarımızın sənətini bəyənmiş və studiyaya yazılışa dəvət etmişdi. O zaman qrammafon valının bir üzünə Əşrəf Əşrəfzadənin ifasında "Vağzalı", "Qoçəli", "Həyatı", "Fikrəti" rəqs melodiyaları, digər üzünə isə Avtandil İsrafilovun ifasında "Laçın" xalq mahnısı və "Qazaxı" oyun havası yazılmışdı. Bütün bu ifalarda musiqiçilərimizi nağarada Rafiq Budaqov məharətlə müşayət edib. Qrammafon valları keçmiş SSRİ məkanının hər yerinə yayılmışdı. Deməliyik ki, bu vallar həm Ə.Əşrəfzadəyə, həm də Aftandil İsrafilova uğur gətirərək sənətkarlarımızı şöhrətləndirmişdi. Avtandil Əşrəfin ifalarını yüksək səviyyədə müşayiət etməklə bərabər "Laçın" xalq mahnısını və "Qazaxı" xalq oyun havasını böyük peşəkarlıqla, geniş imkanlarla çalmış, öz üslubunu açıq-aydın nəzərə çarpdırmış, xırdalıqları və bəzəkləri yerli-yerində işlədərək Azərbaycan qarmonunun dəyərini və səviyyəsini ucalara qaldırmışdır.

A.İsrafilov XX və XXI əsr qarmon sənətimizin ən uğurlu simalarından biridir.

XX yüzilliyin ikinci yarısında instrumental ifaçılıq sənətində yüksəliş dövrü başlandı. Bu qarmon ifaçılığında da özünü göstərdi. Bu dövrdə parlayıb sənətdə seçilən və daim inkişafa doğru yol götürüb daim diqqətdə qalan sənətçilərimizdən biri də Avtandil oldu. Avtandilə qədər milli qarmon ifaçılığımız xüsusilə Azərbaycan mühitində sevilib dərk edilirdisə, onun ifaları əks olunan lentlər, qrammafon valları geniş yayıldıqdan, özü məşhurlaşdıqdan sonra bu sənət vətənimizin sərhədlərini aşaraq ətraf respublikalara yayıldı. Onun ifalarını Qafqazda yaşayan bütün millətlər, Orta Asiya xalqları və keçmiş Sovet dövlətinin tərkibində olan əksər xalqlar qəbul edib sev-

dilər. Avtandil milli qarmonumuzu çox yerdə tanıtdı. SSRİ xalqlarının akkordeon, bayan və qarmon ifaçılarının ən populyar olanları belə Avtandilin ifalarından razı qalaraq yüksək fikir söyləyir, onun qarmonundakı tembrdən danışır və bu səsin sehrinə düşdüklərini bildirirdilər.

A.İsrafilovu öz ansamblı ilə İrəvana, Tbilisiyə, Şimali Qafqazın və Orta Asiya respublikalarının əksər şəhərlərinə dəvət edirdilər. Bu qeyd etdiklərimiz XX əsrin 70-ci illərinin II yarısından başlayaraq 1990-cı ilə qədər davam etmişdir.

Xalqın yaradıcılıq çeşməsindən qidalanan Əhəd Əliyev, Ələkbər Nəzərli, Teyyub Dəmirov, Məmmədağa Ağayev, Səfərəli Vəzirov, Abbas Abbasov, Rza Şıxlarov, Səttar Hüseynov, Zakir Mirzə, Teyyub Teyyuboğlu və b. qarmon sənətimizin sütunları olmuşlar. Əhəd Əliyevin yaratdığı əsl milli qarmon məktəbinin, sənət yolunun adını sadaladığımız davamçıları bu üslubu, bu ənənəni ləyaqətlə davam etmiş və yaşatmışlar. Avtandil milli qarmon sənətimizin ənənələrindən bəhrələnərək və bacarıqla istifadə edərək cəsarət və məharətlə öz üslubunu, öz məktəbini yaratmışdır. XX əsrin 70-ci illərindən başlayaraq Avtandil məktəbinin davamçıları durmadan artıb çoxalmışdır. Sənət meydanında geniş addımladığı anlardan onun qarmon sənətimizə gətirdiyi yeniliklər davamçılar tərəfindən mənimsənilmiş və bu üslubdan geniş şəkildə istifadə olunmuşdur.

Avtandil milli qarmon ifaçılığımıza daha çox xırdalıqlı barmaqlarla çalğı, tremolalı və melizmli yol gətirib. O, bu incəlikləri, zəriflikləri, xırdalıqları, bəzəkləri həm muğam fikirlərində, həm də rəqs melodiyalarının cümlələrində ölçülərə dəqiq tətbiq edərək işlədir. Bütün bunlar çevik barmaqlar, ustalıq tələb edir ki, bu da onun unikal sənətində özünü biruzə verir. Ən iti sürətli, cəld çalınan oyun havalarımızı, "Şalaxo", "Xançobanı", "Qazaxı", "Kinto", "Bakı" və digər melodiyaları ifa edərkən belə onun uzun xırdalıqları musiqini bəzəyib gözəlləşdirməklə yanaşı, ritmlərin ölçülərinə əsaslanır, ölçü-biçi düz gəlir və heç bir halda onun barmaqlarında çaşmaq, dolaşmaq halları olmur.

Cəsarətlə və fakta söykənərək deyə bilərik ki, 1970-ci illərin əvvəllərindən sənətə gələnlərin və 1980-cı illərdə qarmon ifaçılığına başlayanların çoxunda "Avtandil ifaçılığı məktəbi"nə meyl güclü olmuşdur.

Avtandil qarmon sənətimizə dərin lirizm, forte, piano ifa və həzinlik gətirib. Onun ifasında ümümbəşəri hisslər və fikirlər daha çoxdur. Doğrudan da fenomen sənətkarımız Azərbaycan qarmonunun ifa yolunu ümumbəşəri səviyyəyə gətirmiş və bu sənəti hamının duyub başa düşəcəyi yüksəkliyə qaldırmışdır.

Öz zəhməti, istedadı, çalışqanlığı, əzmi nəticəsində zəngin sənət qazanan Avtandil İsrafilovun əsas köməkçisi Ulu Yaradanın ona verdiyi bəxtdir ki, özündən yeddi addım qabaqda gedərək sahibini öz ardınca xoşbəxtliyə aparmışdır. Sadiq dostu qədər əziz bildiyi sevimli qarmonu qismətdən, bəxti hesabına ona nəsib olmuş, sehirli səsilə sənətkarımıza şöhrət gətirmişdir.

A.İsrafilov yaradıcı sənətkardır. O, repertuarındakı xalq oyun havaları, xalq mahnıları, dəramədlər, lirik melodiyalar və bəstəkar əsərlərinə həmişə yaradıcı münasibət bəsləmiş və hər birində öz cizgilərini vermiş, öz boyalarını əlavə etmişdir. Sənətkarın bəstələdiyi qrammafon vallarına, radio lentlərinə yazdırdığı rəqslər bir-birindən gözəldir.

Uzun illər populyarlıqdan düşməyən "Kəmalə", "Nazilə", "Zemfira", "Simrani", "Aynurə" və "Dağlar oğlu" rəqsləri bu sıradadır. O, qarmonumuzda ilk dəfə bəstəkar mahnılarını ifa edən sənətkarlarımızdandır. Ağabacı Rzayevanın "Pəri"mahnısı Avtandilin ifasında o qədər gözəl səslənib ki...

A.İsrafilov Azərbaycan Dövlət Konsert-Qastrol Birliyində instrumental ansambl yaradaraq yaradıcılıq fəaliyyətini daha da genişləndirmişdir. Müğənnilərdən Əli Mirəliyev, Sakif Məmmədov, Füruzə İbadova, Zöhrə Abdullayeva, Valida və Gülnarə Mahmudovalar həmin ansamblın solistləri idilər. Azərbaycan Dövlət Filarmoniyasında, rayonlarımızda, SSRİ-nin bir sıra şəhərlərində, İrəvanda, Gürcüstanda, Özbəkistan və Türkmənistanda ansamblın möhtəşəm konsertləri

olurdu. Bütün konsertlərdə Avtandil İsrafilov solist kimi çıxış edir və alqışlar qazanırdı. Özbəkistanda keçirilən Azərbaycan incəsənəti və mədəniyyəti günlərində Aftandilin ansamblı uğurla çıxış etmişdi.

Bir yazı müəllifi, həm də bir musiqiçi kimi qüdrətli sənətkarımızın rəhbərlik etdiyi ansamblın televiziyadakı ilk konsertini maraqla seyr etmiş və çox məmnun qalmışdım. İlk öncə "Çahargah rəngi" çalmışdılar. Muğam ifaçılarımız tərəfindən müntəzəm səslənən bu rəng Avtandilin işləməsində zəngin bir əsərə çevrilmişdi. Həmin "Çahargah rəngi" klarnet ifaçısı Zabit Əfəndinin olsa da, ustad qarmonçu ona yeni nəfəs vermiş və zənginləşdirmişdi. Yeri gəlmişkən qeyd etməliyik ki, A.İsrafilovda bu bacarıq, bu keyfiyyət, melomanlıq çox güclüdür. O, kiçik melodiyaları genişləndirib zəngin əsərə çevirə bilir. Yaxud melodiyaların ladını məharətlə dəyişib ifa edir. Məsələn, "Bayatı-Qacar" rəngini "Cahargah rəngi"nə, sadə, primitiv "Şəki rəqsi"ni çətin ladlara çevirib çalır və s. və i.a. Avtandil yaradıcılığını izləyən bir araşdırıcı kimi belə halların dəfələrlə şahidi olmuşam və xeyli nümunələri sadalamaq mümkündür.

Virtuoz qarmon ifaçımız Zakir Mirzənin dilindən, hətta televiziyadakı söhbətlərindən də eşitmişəm: "Avtandil ən kiçik, sadə bir melodiyanı işləyib genişləndirərək səviyyəli bir musiqiyə çevirə bilir".

A.İsrafilovun öz dediklərindən: "Mən hər hansı bir muğamın "Mayə"sində və yaxud da hər hansı bir şöbəsində istənilən qədər gəzişmələr edə bilərəm. Elə müğənniləri də bu pərdələrdə müxtəlif cümlələrlə, ayrı-ayrı xallarla müşayiət edərəm". Bəli, bu doğrudan da belədir. Belə bir istedad, belə bir kamillik Aftandil müəllimdə var. Onun bitib-tükənməyən təbi, ilhamı vardır. Onun bu kimi keyfiyyətlərindən, üstün cəhətlərindən, keçdiyi səmərəli, zəngin, çoxjanrlı sənət yolundan nümunəvi, örnək fəaliyyətindən elmi işlər yazmaq mümkündür.

T.Quliyev (1917-2000) Azərbaycan Bəstəkarlar İttifaqının sədri olarkən Avtandil sənətinə biganə qalmamış, onun "Kəmalə", "Zemfira", "Aynurə" və "Nazilə" rəqslərinin nota alınmasını lazım bilmişdir. Onun tapşırığı ilə Faiq Sücəddinov həmin rəqs melodiyalarını nota köçürmüşdür. Bəstəkarlar İttifaqı bu notları təstiq etdiyi üçün böyük qarmon sənətkarımıza xeyli qonorar verilmişdir.

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, Avtandil müəllim adını sadaladığımız rəqsləri hər dəfə ifa edərkən həmin melodiyalara yeni fikirlər, fərqli melizimlər, başqa cizgilər, ayrı-ayrı boyalar, zəngin keçidlər əlavə edərək çalır. Bütün bunları o, bədahətən, qəfildən ilhamına gələn fikirləri dərhal musiqi cümlələrinə çevirərək edir. Həm də qəfil beyninə gələn, ürəyindən süzülüb gələn fikirləri barmaqları ilə ustalıqla icra edir. Doğrudan da o, viruoz musiqiçidir. Bütün yaradıcılığı, ifaçılığı boyu onun ürəyi, beyni və barmaqları bir-birini tamamlayıb.

A.İsrafilov 1968-ci ildə Azərbaycanın məşhur musiqiçilərilə birlikdə Hindistanda səfərdə olub. Ümumiyyətlə o, 30-dan çox xarici dövlətlərdə çıxış edərək musiqimizi təbliğ etmişdir.

1970-ci ildə şöhrətli müğənnimiz Zeynəb Xanlarova Türkiyəyə səfər edərkən onu müşayiət edən qrupun tərkibində Avtandil İsrafilov və Vəli Qədimov da var idi. Konsertlər maraqlı və uğurlu keçmişdi. Sənətkarlarımız qayıdarkən özlərilə populyar türk mahnıları toplamış, kasetlər də gətirmişdilər. Növbəti səfərdə Zeynəb xanım öz repertuarına həmin mahnıların bəzilərini də daxil etmişdi. 1972-ci ildə Zeynəb Xanlarova ilə Türkiyəyə tarzən Həbib Bayramov, qarmonçalan Avtandil İsrafilov, klarnetçi Vəli Qədimov, nağaraçalan Böyükağa Muradov (1932-2007) və kaman ifaçısı Tələt Bakıxanov (1927-2000) getmişdi. Türkiyənin bütün informasiya vasitələri Azərbaycan musiqiçilərinin uğurları, maraqlı konsert proqramı barədə məlumat verirdi. Qəzetlərdə, dərgilərdə qrupun hər bir üzvünün sənət keyfiyyətləri və yüksək ifaçılığından söz açılırdı. Qardaş ölkə televiziyaları Zeynəb xanımın konsert çəkilişlərini yayımlayırdı. Sənətçilərimiz konsert lentlərini Azərbaycana gətirmişdilər. Bu konsert bizim televiziyada yayımlanarkən Azər-



Aşağıdan 1-ci sırada soldan: a.a. Böyükağa Muradov, x.a. Avtandil İsrafilov, Xanlar Qəhrəmanov, Arif, yuxarı sırada soldan: İsmət, x.a. İslam Rzayev, yumorist Cahangir Aslanoğlu, türk müğənnisi Yesim Öfşar, SSRİ x.a. Zeynəb Xanlarova, x.a. Həbib Bayramov, x.a. Vəli Qədimov, x.a. Fəxrəddin Dadaşov

baycanın hər yerində onu maraqla izləmiş və böyük iftixarla seyr etmişdilər. Yaxşı xatırlayırıq ki, "Sev kardeşim" və "Seni yalancı, seni" türk mahnılarında Vəli Qədimovun klarnetdə və Avtandil İsrafilovun qarmonda ifa etdikləri sololar o qədər gözəl alınmışdı ki... Bu mahnıların Azərbaycanda populyar olub konsertlərin və toyların repertuarına daxi olmasında Zeynəb xanımın gözəl ifasıyla bərabər Avtandil və Vəlinin sololarının mühüm əhəmiyyəti olmuşdu. O dövrün biz gənc musiqiçiləri həmin soloları maqnitofon lentləri vasitəsilə əzbərləyir və toylarda, konsertlərdə çalırdıq.

SSRİ xalq artisti, M.F.Axundov adına Akademik Opera və Balet Teatrının solisti Zeynəb Xanlarova gənclik illərində Əhməd Bakıxanovun rəhbərlik etdiyi x.ç.a. ansamblının müşayətilə oxuyub. Sonralar isə öz fəaliyyətini Əliağa Quluyevin və Ağası Məşədibəyovun rəhbərlik etdiyi x.ç.a. ansamblları ilə davam etdirib. O, 1979-cu ildə özünə ansambl yaradıb.

Avtandil Zeynəb Xanlarovanın rəhbəri və solisti olduğu instrumental ansamblda fasilələrlə olsa da, əhəmiyyətli dərəcədə fəaliyyət göstərib. O, bu ansambla dəvət olunanda burada qarmon ifaçısı Faiq Əlibalayev çalışırdı. Əksər hallarda hər iki qarmonçalan ansamblın tərkibində olur, dövlət tədbirlərində, Azərbaycanın müxtəlif bölgələrindəki konsertlərdə, xarici səfərlərdə birlikdə çıxış edirdilər. Zeynəb xanımın ansamblında qarmon ifaçılarından Hüseyn Həsənov və Aydın Əliyev də çalışıb. Lakin mərhələlərlə yenə Avtandil müəllim bu ansamblın aparıcı qüvvəsi olub. O, bütün konsertlərdə, radioya yazılan lentlərdə xarici ölkə səfərlərində dünya şöhrətli Zeynəb xanımı ustalıqla müşayət edib. Avtandil Zeynəb xanımın qrupunun tərkibində Avropa və Ərəb ölkələrində, ABŞ-da xeyli sayda konsertlərdə olub.





1979-cu il. A.İsrafilovun "Az-Konsert"də yaratdığı instrumental ansamblın televiziyada ilk çıxışı

2010-cu ildə Heydər Əliyev adına sarayda Zeynəb Xanlarovanın solo konsertində Avtandil müəllim də var idi. O, müğənnini müşayiət edərkən səviyyəli, təsiredici "Çahargah" çalmışdı.

Müqtədir sənətkarımız musiqi incəsənəti, milli mədəniyyətimiz üçün dəyərli, qiymətli, çoxçalarlı, zəngin və fərəhli işlər görmüşdür. Onun qarmon sənətimizə gəlməsi, ön sıralara çıxması öz zamanı üçün yeni hadisə idi. O, qarmon ifaçılığı sənətinin daha sürətlə inkişaf edəcəyinə inam yaratmışdı. Sənətkara aid olan xeyli sayda faktları, çoxsaylı məlumatları müxtəlif mənbələrdə və ünvanlarda sığınacaq tapmış qeydiyyatları, xatirələri, məqalələri, məktub və teleqramları, böyük sənət adamlarının, mütəfəkkirlərin onun haqqında söylədiyi fikirləri, ifaları toplanmış diskləri, səhnələrdə çəkilmiş konsertlərinin, ona həsr olunmuş dörd televiziya verilişlərinin lentlərini toplayıb, geniş araşdırma apararaq sanballı əsər, elmi araşdırma işi yazmaq mümkündür. Yazımızda bu fikrə təkrar toxunmaqla bunun labüdlüyünü nəzərə alaraq yenə o mətləbə gəlmişik.

Avtandil sənəti həmişə dinləyici, tamaşaçı və musiqi xiridarlarının düşüncəsinə təsir göstərib, onlarının zövqlərini formalaşdırıb, ruhuna məhrəm olub. Onun haqqında yazılanlar sağlığında ona abidə ola bilər. Belə böyük musiqiçinin barəsində yazılanlar sənətinin vurğunu, bilicisi və mütəxəssis əlindən çıxması işin ümumi dəyərini xeyli dərəcədə və əhəmiyyətli şəkildə artırır. Virtuoz ifaçımızın keçdiyi zəngin, məhsuldar sənət yollarını və inkişaf mərhələlərini kino lenti kimi milyonların gözü qarşısında canlandırmaq məsuliyyətli olduğu qədər də şərəf işidir. O, ifaçılıq sənətimizə əvəzsiz enerji yükü sərf edib. Avtandil sənəti Azərbaycan qarmon ifaçılığı sənətinin qızıl fondunu yaradıb. O, Əhəd Əliyev, Teyyub Dəmirov, Məmmədağa Ağayev kimi müqtədir sənətkarların yandırdığı sənət məşəlini sönməyə qoymur, əksinə daha da alovlandırır. Bu məşəl bu gün etibarlı əllərdədir.

İncəsənətin bir məqsədi də insan ruhunu, beyinlərin, zehinlərin fəaliyyətini yaxşılaşdırmaq, ürəkləri riqqətə gətirmək, tamaşaçı və dinləyici düşüncəsini cəmiyyətin faydasına yönəltməkdir. Bu yöndə bütün incəsənət işçilərimizin, musiqi xadimlərimizin, bu sırada instrumental ifaçılarımızın mühüm əhəmiyyətli xidmətləri olmuşdur. Onlardan biri də Avtandil İsrafilovdur. O, bütün canlı konsertlərində alqış tufanı qazanıbdır.

Azərbaycan qarmonunu böyük konsert səhnələrində solo alət kimi təqdim etmək, geniş tamaşaçı kütləsi qarşısında rəngarəng repertuarla bacarıq nümayiş etdirmək ənənələrinin əsasını da A.İsrafilov qoyub. XX əsrin 70-ci illərinin ikinci yarısında və 80-ci illərdə istedadlı qarmon ifaçımızın nəfis şəkilli, reklamlı afişaları Bakımızın görkəmli yerlərində asılırdı. Azərbaycan Dövlət Filarmoniyasında, şəhərimizin iri mədəniyyət saraylarında A.İsrafilovun solo konsertləri olurdu. Tamaşaçıların müəyyən hissəsini gənc qarmon ifaçıları təşkil edirdi. Onlar sənət öyrənmək istəyənlər idi. Özlərinə ustad, örnək saydıqları ifaçının səhnədə canlı çıxışlarını seyr edib eşitmək gənc ifaçıların sənət eşqini artırır və fəaliyyətlərinə müsbət təsir edirdi. O konsertlərdən yazılmış maqnitofon kassetləri geniş şəkildə yayılırdı. Cavan musiqiçilər həmin kasetləri əldə edib, ifa qaydalarını və yeni-yeni melodiyaları öyrənirdilər.

Avtandilin uğurlu, anşlaq solo kpnsertlərindən sonra digər qarmon ifaçılarımız üçün də yol açıldı. Tanınan qarmon sənətçilərimiz Azərbaycan Dövlət Filarmoniyasında solo konsertlər verdilər.

Avtandil pedaqoji sahədə çalışmayıb. Lakin, onun yetirmələri saysız-hesabsızdır. Vaxtilə ən dəbdə olan, çox sevilən sənətkar kimi Bakının özündə, kəndlərdə və qəsəbələrdə çadırda çalınan toylara ən çox dəvət olunan Aftandil idi. O, bütün toy şənliklərinə öz repertuarı,öz dəstəsilə gələrdi. Çalğıçıların masasının önü, səsgücləndirici aparatların kalonkalarının qarşısı o dövrün iri və ya orta həcmli maqnitofonları və mikrofonlarla dolu olardı. Qarmon sənətinə yeni yol götürənlər sevimli qarmonçumuzun bütün ifa etdiklərini lentlərə köçürür və diqqətlə barmaqlarına tamaşa edərdilər. Toylardan sonra hərə öz evində öz maqnitofonunu dinləyər və öyrənərdi. Gənc

qarmonçalanlar bir-birindən Aftandilin lentlərini əldə edirdilər. Maraqlı burasıdır ki, mahir qarmonçunun XX əsrin II yarısında toylarımızda, konsertlərdə, televiziyada ifa etdiyi çox zəngin material XXI əsrin bu günlərinə qədər gəlib çatıb. Bu əsrimizdə də qarmonçular Aftandilin ötən əsrdə bədahətən çaldıqlarından bəhrələnirlər.

Yazımızda qeyd etdiyimiz kimi A.İsrafilov tədris sahəsində çalışmasa da, onun ardıcıl, səmərəli, yaradıcı ifaçılıq fəaliyyəti qarmon sənətimizin Avtandil məktəbini yaratmışdır. Bu adam ömrünün 50 ildən çoxunu Azərbaycan qarmon sənətinin tərəqqisinə həsr etmişdir. O, qarmon sənətinin yeni ənənələrini yaratmışdır. Avtandil musiqi mədəniyyətimizin təbliği və inkişafında böyük xidmətləri olanların sırasında dayanır.

A.İsrafilov 1982-ci ildə Azərbaycan SSR-in əməkdar, 1998-ci ildə Azərbaycan Respublikasının xalq artisti, 2009-cu ildə Dağıstan Muxtar Respublikasının xalq artisti fəxri adlarına layiq görülüb. Onun sənətini Dağıstanda da çox sevirlər. O, müxtəlif illərdə və son dövrlərdə həmin respublikada konsertlərdə olmuş və ən möhtəşəm toy şənliklərində çıxış etmişdir. Dağıstanda da Avtandil sənətindən bəhrələnən, lentlərindən, disklərindən öyrənib qarmon sənətinə gələnlər az deyil. Onlardan biri də Dağıstanın xalq artisti Vsomoldik Əhmədovdur. O, bizim Azərbaycan qarmonunu ifa edir. V.Əhmədov həm də jurnalistdir.

Avtandilin ifasından bəzi seçmələr bəşər mədəniyyətinə töhvə olmuş, musiqi xəzinəsini zənginləşdirmişdir. Onun lirik ovqatlı ifalarının öz poeziyası var. Həqiqətən əsl istedadlı sənətkarlar qəlbindən süzülüb gələnləri barmaqlarının ifalarına gətirənlərdir.

Biz də o illəri yaşayan, o tarixin şahidi olan musiqiçi kimi deyə bilərik ki, Avtandil İsrafilov klarnet ifaçısı Vəli Qədimov və nağaraçalan Ramiz Həsənovla sıx yaradıcılıq əlaqələrində olub. Onların ifaları bir-birini tamamlayır, yüksək səviyyəli sənət nümunələri yaradırdı.

Birlikdə çalışmağa başladıqları ilk günlərdən Avtandillə Vəli qarmonla klarnetin doğmalığını, birlikdə əla səslənməsini yaratdılar. Onların radioya, qrammafon vallarına yazdırdıqları, toylarda ifa etdikləri melodiyalar açıq-aydın dediklərimizi təstiq edir. Bu ifalarda birlikdə çalğı, sual-cavab cümlələr və birinci-ikinci səslər rəngarənglik, ahəngdarlıq və gözəllik yaradır. Dinlədikcə insanın ruhu təzələnir, könlü xoş olur. Onların birlikdə qrammafon valına yazdırdıqları "Elmira", "Sevgilim", "Nazilə" (1974), "Laləzarı" (1972) rəqs melodiyaları bir daha söylədiklərimizin doğru olduğunun sübutudur.

Bakımızda, Azərbaycanımızın hər yerində, vətənimizin hüdudlarından kənarda toy edənlər Avtandilgilin yolunu səbrsizliklə gözləmiş, qədəmlərindən fərəhlənmiş, yüksək sənətdən zövq almışlar. Avtandilin ansamblını Bakı qəsəbələrindən ən çox Balaxanı, Suraxanı və Əmircan toylarına dəvət edərdilər. Burada onların pərəstişkarları, fanatları saysız-hesabsız idi. Bu fanatlar içərisində gənc musiqiçilər də az deyildi. Mövzumuzda təkrar-təkrar qeyd etmişik ki, sənətə ilk addım atan qarmonçular Avtandilin konsertlərini və toylarda çaldığı nümunələri özlərinə tədris vəsaiti edirdilər. Avtandil müəllim XX əsrin 70-ci, 80-ci illərində qarmon sənətinə gələnlərin ümidgahı idi. O, sonrakı illərdə də musiqi okeanında üzən bir aysberqə bənzəyirdi.

Aftandilin ifaçılığının spesifik xüsusiyyətlərindən biri də onun yüksək improvizə qabiliyyətinə məxsus olmasıdır. Bu qabiliyyət və ifa etdiyi musiqini duyma bacarığına malik olması sənətkara dəfələrlə ifa edilmiş musiqini yeni səpgidə səsləndirməyə, onu yeni boyalarla zənginləşdirməyə imkan verir. O, uzun illər ərzində Azərbaycan musiqisini və milli qarmonumuzu böyük ustalıqla təmsil etmişdir.

Yaşının 70-də də ustad musiqiçi gözəl yaradıcılıq formasını saxlaya bilib. Həmişə axtarışda olan sənətkar yeni tapıntıları öz ifasına gətirir, müxtəlif musiqi formalarından istifadə edir, Azərbaycan xalq mahnılarını, xalq oyun havalarını, həmçinin klassik və müasir bəstəkarlarımızın əsərlərini yeni, zəngin çalarlarla tamaşaçılara və dinləyicilərə təqdim edir.

Musiqiçi, pedaqoq və tədqiqatçı kimi sənət meydanında məşhur olan ifaçılarımızın fəaliyyətini uzun illərdir ki, izləyirəm. Bu qənaətdəyəm ki, hər ifaçı 40-50-60 yaşdan sonra öz sənət enerjisini, qüdrətini saxlaya bilmir, inkişafdan qalır və formadan düşür. Lakin, A.İsrafilovun 65 yaşına qədər aybaay, ilbəil inkişafını müşahidə etmiş, izləmişəm. Doğrudan da onu bəxtəvər insan, xoşbəxt sənətkar saymaq olar. O, yaşlı musiqiçinin ürəyinə yük olan qarmonun körüyündən məharətlə istifadə edir. Ümumiyyətlə o, bütün fəaliyyəti ərzində qarmonun səslənməsi üçün əsas şərtlərdən biri olan körüklə (mex) işləməyi yaxşı bacarmışdır.

Dünyanın əksər ölkələrində yaşayan Azərbaycanın dağ yəhudiləri bizim musiqimizlə nəfəs alırlar. Onlar da milli qarmonumuzun ecazkar səsini özlərinə doğma sayır, Avtandil sənətini sevirlər və onu öz şənliklərində görmək arzusuylə yaşayırlar.

1996-cı ildə A.İsrafilov ABŞ-ın Nyu-York şəhərinə əslən Bakılı olan yəhudinin möhtəşəm toy şənliyinə dəvət olunmuşdu. Onunla ora klarnetçalan Qulammirzə Mirzəyev, qoşanağara ifaçısı, xalq artisti Sadıq Zərbəliyev, müğənni Zöhrə Abdullayeva da getmişdi. Sintezator ifaçısı Bakıdan Amerikaya köçmüş yəhudi musiqiçi idi. İki axşam keçirilən toy mərasimində birinci axşam amerikalılar, ikinci axşam isə Orta Asiya respublikalarından, Moskvadan, Sankt-Peterburqdan, Bakıdan və Qubadan dəvət olunan qonaqlar üçün ziyafət verilmiş, Azərbaycan musiqisi səslənmişdir. Toy mərasimindən sonra Aftandilgilin istirahəti təşkil olunmuş, onları 15 gün qonaq saxlayaraq Amerikanın əksər şəhərləri ilə tanış etmiş, gəzdirmişdilər.

A.İsrafilov bir qrup incəsənət ustalarımızla birlikdə İran İslam Respublikasına da dəvət olunmuşdur. Tehranın məşhur Meydani Azadi (Azadlıq meydanı) məkanındakı möhtəşəm konsert salonunda Azərbaycan musiqisi böyük uğurlar qazanmışdır. 2008-ci il avqust ayının 15-də keçirilən konsertdə Avtandilin soloları böyük rəğbətlə qarşılanmışdır. Konsertin sonunda İran parlamentinin sədr müavini səhnəyə gəlmiş, sənət ustalarımıza təşəkkürünü bildirmiş, fəxri fərmanlar təqdim etmiş və Avtandilin sənətini xüsusi vurğulamışdır. O, mahir qarmon ifaçımıza diplom təqdim etmişdir. Orada qızıl suyu ilə yazılmışdır: "İran İslam Respublikasının ustadı adına layiq görülmüş sənətkar"

Görkəmli şairlərdən biri deyib: "Mənə söz verməyin, mənə göz verin". Təbii ki, burada "göz" sözü burada fiziki anlamda yox, daha çox "azad fikir meydanı verin" mənasında işlənib. Görmək, müşahidə etmək əsl məktəbdi. Avtandil bəyin görmə, duyma, hiss etmə və müşahidə qabiliyyəti çox qüvvətlidir. Bu kimi xüsusiyyətlər bütün ifaçılığı ərzində onun karına gəlib.

Onun lirik ifalarında duyğulandırıcı çalarlar, rənglər var.Təbii ki, bunun özünü də duyğulu dinləyiçilər, həssas qəlbli insanlar daha tez duya bilirlər. Avtandil yaradıcılığı ilə yaxından tanış olmaq üçün bu sənətə arifanə baxış, yüksək araşdırıcılıq qabiliyyəti gərəkdir. Onu demək lazımdır ki, yaradıcı şəxsiyyətlərin iç dünyasında başqalarına görünə bilməyən çeşidli insani keyfiyyətlərini istəməsələr belə yaratdıqlarında dolayısı ifadə edirlər. Bunu çox zaman özləri görmür və hiss etmirlər də. Yalnız arif adamlar bu "işarə və əlamətləri" duya, görə və dəyərləndirə bilirlər.

Avtandil elə sənət meydanına uğurlu yol başladığı anlardan öz üslubunu yarada-yarada, dərin izlərini sala-sala gəlmiş və əsl sənət hökmüylə əksər cığırdaşlarına yol göstərən olmuşdur. O, özü də vaxtılə ona nümunə olanlara, yol göstərən bildiyi, özündən yaşca böyük olan qarmonçalanlara istinad etmiş, o sənətlərdən bəhrələnərək özünə lazım olanları əxz etmişdir. Kök atmayan heç bir bitki, ağac yaşamadığı kimi, əslinə, kökünə, bünövrəsinə istinad etməyən sənət nə yaşaya, nə də inkişaf edə bilməz.

Yazı müəllifi kimi, həm də sənət adamı,ələlxüsus qarmon sənəti üzrə mütəxəssis olduğum üçün özümdən 10 yaş böyük Avtandil bəyin fərdi və fərqli üslubları gözlərim qarşısında, müşahidə dövrümdə formalaşmışdır. Avtandil sənətinə şahidlik edərək bu doğru fikirlərə əsaslandığımı sənət adamları və Avtandilsevənlər təsdiq edə bilərlər. Yaradıcılıq motivinin miqyasından asılı ol-



"Azərneftyağ" İstehsalat Birliyinin "Nefçi" instrumental ansamblı məhur qarmon ifaçıları Avtandil İsrafilov və Zakir Mirzəmi müşayiət edir. Ortada Qulaməmirzə Mirzəyev, arxada qayanığaraçalan Hamlet Hacıməmmədov, nağaraçalanlar Elçin Qasımov və Gülağa Qulıyev

mayaraq onun ifalarının hər biri bitkinliyi və tutumu ilə nurlanmaqda və fərqlənməkdədir. Çəkinmədən deyə bilərik ki, onun məna-məzmun yüklü ifaçılıq sənəti tam şəkildə öz üslubu və dəstixətti üzərində yüklənib. Bu sənət fərdi görkəmə, fərdi biçimə, fərdi gücə və fərdi ovqata əsaslanmasaydı belə seçilə və sevilə bilərdimi? Əlbəttə ki yox! Mübaliğəsiz dyə bilərik; 40 ildən çoxdur ki, Avtandil sənətindən Azərbaycan qarmon ifaçılığı sənətində çalışanların hər birinin ifa qaydalarına, ifa yoluna pay düşüb. Doğrudan da o, sübut edib ki, Azərbaycan qarmonunda yalnız muğamları, xalq havalarını deyil, ən böyük bəstəkar əsərlərini, dünya xalqları musiqisini məhərətlə və cazibədar ifa etmək mümkündür.

Avtandil müəllimin sənət, ifaçılıq zövqü ilə bərabər geyim zövqü də çox yükşək olub həmişə. O, daim xüsusi zövqlə geyinməyi bacarıb və geyimləri bir-birini tamamlayıb. Onun səhnə geyimləri də əksər solistlərdən fərqlənib. Solist kimi səhnədə, televiziya konsertlərində açıq rəngli (ağ, qırmızı və ya dama-dama) cəlbedici pencəkləri, zövq oxşayan qalstukları sanki onun solistliyini diqqətə gətirir və yalnız görünüşünü, görkəmini deyil, ifasını da tamamlayırdı. Bu isə öz-özlüyündə tamaşaçıya da zövq bəxş edirdi.

Biz bu yazımızla qarmon aləmində öz izini yaradıb bu yolda cəsarətlə və uğurla addımlayıb yüksələn böyük bir ifaçımızın sənət cizgilərini çəkməyə, xarakterik cəhətlərini, səciyyəvi xüsusiyyətlərini nəzərə çarpdırmağa, diqqətə yönəltməyə, mühüm məziyyətlərini açıb göstərməyə, haqiqi qiymət və dəyər verməyə çalışmaqla vətəndaşlıq, yurddaşlıq, soydaşlıq borcumuzdan çıxmaq istədik. Fəqət buna nə qədər, nə dərəcədə nail olduq? Bunu diqqətli və duyan-düşünən oxucularımız deyə bilər.

Avtandil haqqında bu yazını hazırladığım zaman calışdığım Musiqi Kollecində mənə bir məcmuə təqdim etdilər. Bu Şəki Musiqi Kollecinin qarmon ixtisası üzrə müəllimi Zair Mustafayevin hazırlayıb ərsəyə gətirdiyi məcmuədir ki, burada Avtandil İsrafilovun bəstələdiyi, ifa edərək müxtəlif illərdə vallara, lentlərə, disklərə yazdırdığı rəqs məlodiyalarıdır. (Rəqslər, Orta ixtisas, uşaq musiqi və incəsənət məktəbləri üçün tədris vəsaiti, 2012,42 səhifə, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin Təhsil şöbəsində müzakirə olunmuş və 16.04.2012-ci il tarixli 9 saylı protokoluna əsasən tədris vəsaiti kimi tövsiyyə edilmişdir).

Hörmətli sənətkarımızdan ömrünün müdrik, yaşının 72-ci çağında müsahibə alsaq da, yazımızı kifayət qədər geniş, məzmunlu və elmi dəyərlərə əsaslanmaqla yazmağa çalışdıq və zəhmətimizi onun hünərli, inkişaf dolu sənətinə halal etdik.

O, xalq artisti olaraq prezident təqaüdçüsüdür.


Avtandil Eynulla oğlu İsrafilov 1976-cı ildə ailə qurub. Üç övladı və iki nəvəsi var.

Sənətkarın Azərbaycan radiosunda qorunan ifaları:- "Bəstənigar" muğamı (1968-ci il), "Elmira" rəqsi, "Şursayağı", "Segah" muğamı, "Nazilə" rəqsi, "Kəmalə" rəqsi, "Zemfira" rəqsi, "Lirik melodiya" (1974-cü il), "Nazilə" rəqsi, "Laləzar" (1975-ci il), "Jalə" rəqsi, "Dağlar oğlu" rəqsi, xalq mahnısı "Aman ovçu", "Simrani" rəqsi, "Cəmilə" rəqsi, Ə.Tağıyev "Sədaqətim var", "Azərbaycan təranələri", "Şalaxo" rəqsi, C.Cahangirov "Alagöz", "Tərəkəmə" rəqsi, "Rəqs" (1977-ci il), "Aynurə" rəqsi (1979-cu il), "Baskalı" rəqsi (1983-ci il), "Lirik melodiya", T.Quluyev "Qızıl üzük", "Qarabağ" rəqsi, "Nargilə" rəqsi, "Lirik melodiya", "Şahbuzu" rəqsi, Ə.Tağıyev "Sənsən həyatım mənim", "Zabul-Segah" muğamı, "Məhərrəmkənd" rəqsi, "Ağır rəqs", "Yeni "Sənsən həyatım mənim", "Zabul-Segah" muğamı, "Məhərrəmkənd" rəqsi, "Ağır rəqs", "Yeni rəqs", "Gülsümü" rəqsi, "Cəlalı" rəqsi, "Türk melodiyası", M.Əhmədova "Körpə balam dil açır"(1984-cü il), "Naxçıvan" rəqsi, "Mən səni axtarıram" mahnı, "İran melodiyası", E.Sabitoğlu "Payız gəldi", xalq mahnısı "Küçələrə su səpmişəm", Ə.Tağıyev "Külək", "Yalı" rəqsi, mahnı "Bu gözəl zamanda", "Zemfira" rəqsi, "Qafqazı" rəqsi (1996-cı il), "Ənzəli" rəqsi, "Qafqazı" rəqsi (2005-ci il).


Tanındı gənclik çağı,
Yandı sənət çırağı.
Uca qalxdı bayrağı,
Sözünü dedi qəti,
Avtandilin sənəti.
• • • •
Köhnə üslubu atdı,
Yeni üslub yaratdı,
Sənətin barı artdı,
Yenilməzdi qüdrəti,
Avtandilin sənəti.
• • • •
Uğurlu yol gəlibdi,
Həmişə yüksəlibdi,
Tər çiçəklər dəribdi,
Xatırladır cənnəti
Avtandilin sənəti.
• • • •
Bu yoldan dönməz oldu,
İlhamı sönməz oldu,
Zirvədən enməz oldu,
Güclü alıb vüsəti
Avtandilin sənəti.
• • • •
Sərhədləri aşıbdı,
Dünyanı dolaşıbdı,
Coşub, aşıb-daşıbdı.
Heç çəkməyib möhnəti
Avtandilin sənəti.
• • • •
İfaları dəqiqdi,
İncə, zərif, əntiqdi,
Hər xırda xal məntiqdi.
Eşqə bağlı ülfəti
Avtandilin sənəti.
• • • •
Bu sənət solan deyil,
Təsirsiz olan deyil,
Geridə qalan deyil,
Qazanıbdı şöhrəti
Avtandilin sənəti.
• • • •
Hər bir ifa əsərdi,
Geniş ümman qədərdi,
Unutdurur hər dərdi.
Böyükdür əzəməti,
Avtandilin sənəti
• • • •
Qarmonçalanlar çoxdur,
Lakin beləsi yoxdur,
Bu sənət qızıl taxtdır.
Daim artır zinəti.
Avtandilin sənəti.
• • • •
Ucaldıbdı qarmonu,
Sərbəst çalır hər tonu,
Yoxdur bu yolun sonu.
Düzgün alıb vəhdəti,
Avtandilin sənəti
• • • •
Qarmonun tacidarı,
Xalqın sərvəti-varı,
Solmaz sənət baharı,
Uğur aldı qisməti
Avtandilin sənəti.
• • • •
Bu sənətdə tac oldu,
Xalq gözündə ucaldı,
Toy-büsatda qocaldı.
Qorudu bu adəti
Avtandilin sənəti.
• • • •
Qarmon onu yaşatdı,
Bu yollarda yaş artdı,
Böyük şöhrətə çatdı.
Aldı halal qisməti,
Avtandilin sənəti.

Ə.Rəhmanlı, mart 2013-cü il

"KƏMALƏ" rəqsi



"ZEMFİRA" rəqsi



2.27. "GECƏLƏR" ONUNDUR

Onun haqqında təsadüf nəticəsində internetdən məlumat aldım. Məqalənin müəllifi İsaməddin Əhmədovdur. Nəşriyyatda kitabının nəşr ilə məşğul olarkən mənim üçün çox maraqlı bir bilgiyə rast gəldim. Yazının adı belə idi: "Zabit Soltanov kim idi ?".

Əziz oxucu! Allahın hökmünə baxın ki, qarmon sənəti və onun ifaçıları haqqında kitabın nəşrə hazırlanması ilə məşğul ikən, qarmon ifaçısı olmuş daha bir istedadlı soydaşımızın barəsində məlumatla rastlaşdım. Bunu qarşıma Ulu yaradan özü çıxartdı. Həm də o zaman ki, kitabdakı mövzuları ardıcıllıqla düzərək 1940-illərdə doğulanların oçerklərinə yaxınlaşırdıq. Əlbəttə əvvəldən Zabitdən yazmaq fikrində olsam da bunu bacarmamışdım. Səbəb səhhətimlə bağlıdır. Bu kitabın bir-neçə yerində qeyd etmişəm ki, əlil olduğum üçün əyalətlərimizə gedə bilməmişəm.



Zabit Soltanov

Çox məşhur "Gecələr" mahnısının musiqisinin Zabit Soltanova məxsus olduğunu bilirdim. Bunu mənə obyektiv danışmağı xoşlayan, xeyirxah insan, AzTV-nin əməkdaşı, hazırda musiqi və əyləncəli proqramlar redaksiyasının böyük redaktoru, "Tərəqqi" medalı ilə təltif olunmuş əməkdar incəsənət xadimi Çingiz Abbasov hələ 1980-ci illərin əvvəllərində demişdi. O, filarmoniya bağına toplaşan musiqiçilərin yanında, müxtəlif bədii-kütləvi tədbirlər zamanı fasilələr ərəfəsində foyedə toplaşan sənət adamları arasında və digər yerlərdə "Gecələr" mahnısından söz düşən kimi, bu mahnının onun yerlisinin, zərdablı Zabit Soltanovun olduğunu dilə gətirirdi. Bəzən hətta mübahisə etməli olub, öz fikirində israrla dayanıb bunu sübut edirdi. Mən də o vaxtdan bu mahnının bəstəkarının kim olması ilə maraqlanan musiqisevərlərə və musiqiçi yoldaşlarıma məlumat verirdim.



Çingiz Abbasov

Bu bir həqiqətdir ki,"Segah" muğamı əsasında bəstələnən həmin mahnı çox təsirlidir, kövrək hisslərlə doludur və müğənnidən ürək tələd edir. Odur ki, Niyaməddin Musayevin ifasında bu mahnı radioda, televiziyada, kasetlərdə səslənən andan sevildi, populyar oldu və həmişəyaşarlıq qazandı. Niyaməddinin səsində kövrəklik var, həm də çox ürəkli müğənnidir. Şərqin böyük alimi Əl-Fərabi yazır: "Segah" məhəbbətin qəmindən yaranıb. Şair də, bəstəkar da, müğənni də bu mahnıda həmin hissləri verə bilmişlər. Onu da deməliyəm ki, ifaçılıq fəaliyyətim boyunca bir qarmon ifaçısı olaraq "Gecələr" mahnısı həmişə repertuarımda olub. Melodiyanı həmişə sevə-sevə çalmışam, bəndlər arasında çaldığım "Segah" təsirli alınıb. Mənimlə birlikdə çalışan o zamankı gənc müğənnilər də mənim məsləhə-

timlə konsertlərdə, toylarda bu mahnını oxuyar, "Segah"ı mənim müşayiətimlə daha emosional təqdim edərək alqışlar və nəmər alardılar. Görünür "Gecələr" mahnısını rəhmətlik Zabit qarmonun ecazkar səsilə bəstələdiyi üçün mənim ruhuma yaxındır. Bir incə məqama da toxunmalıyam ki, uzun dövr ərzində bu mahnı Könül Xasıyevanın adıyla bağlansa da onun ən gözəl ifaçısı Bahar Lətif qızıdır. Hələ neçə-neçə müğənnilər bu mahnıya üz tutacaqlar.

İnternetdə oxuyuruq: "Zabitin bacısı qızı Esmira xanımın dediklərindən:

... Əslən Zərdabın Məlikli kəndindənik, amma dayım da, biz də Zərdab şəhərində doğulmuşuq. Əsbət nənəm yüzbaşı Həmid ağanın qızıydı. Cəlil babamızın dükanı olub. Zabit dayım 3 aylıq olanda atası, yəni mənim babam müharibəyə gedib, gedərkən, oğlu Zabitin 15 yaşa qədər geyinəcəyi paltar dəstləri və bir də, ona bir qarmon alıb. Dayım ana laylası və atasından yadigar qalan patefonda səsləndirilən muğamların sədaları altında böyüyüb, lap uşaq ikən, qarmonda çalmağı öyrənib. Elə uşaq yaşlarından onu şənlik məclislərinə aparıblar, ailəyə qazanc gətirib. Kənd özfəaliyyətində, az sonra rayonun ansamblında yaxşı qarmon ifaçısı kimi tanınıb. Həmin illərdə Zərdabın ən çox dəbdə olan xanəndəsi, "Zərdabımdan mən danışım" və başqa mahnıları yazılmış valları və bir də, ömrünün son illərində ANS TV-nin "Qulp" proqramındakı çıxışları ilə tanınan mərhum həmyerlimiz Şirin Zərdablı Zabiti öz dəstəsinə götürərək, Zərdaba və qonşu rayonlara toylara aparıb, gənc qarmonçu virtuoz ifası ilə insanların sevimlisinə çevrilib.

Zabit Soltanov orta məktəbi doğma Zərdab şəhərində əla qiymətlərlə bitirib və Bakı Kitabxanaçılıq Texnikumuna daxil olub. Burada da özfəaliyyət ansamblının fəal üzvü olub, istedadlı qarmon ifaçısı kimi tanınıb, sevilib. Texnikumu bitirən ili sənədlərini İncəsənət Universitetinə verib və imtahanlardan yüksək qiymətlər alaraq, qəbul olunub. Universitet ansamblının tərkibində tez-tez Azərbaycan televiziyasına və radiosuna dəvətlər alıb, sevimli qarmonunda "Simuzəri" rəqsini və başqa mahnıları ustalıqla solo ifa edib. Həmin vaxtlar dayımın qısa ömrünün ən xoşbəxt anlarından idi...

Zabit yaxşı şeirlər də yazırmış və xalq şairi Bəxtiyar Vahabzadə onun ifasını da, şeirlərini də bəyənirmiş. Bəxtiyar müəllim bir dəfə Zabitə deyir ki, qızım piano sinfinə gedir, qarmona da böyük marağı var, sən ona evimizdə musiqi dərsi keç, həm də pianomuzu kökləmək lazımdır...

Beləcə, Zabit Soltanov görkəmli şairin ailəsi ilə ünsiyyətdə olur və günlərin birində Bəxtiyar Vahabzadə təzəcə çapdan çıxan şeirlər kitabını öz avtoqrafı ilə Zabitə hədiyyə edir (Soltanovlar ailəsi, Zabitin ömür-gün yoldaşı Natəvan xanım həmin kitabRı bu gün də əziz xatirə kimi saxlayır). Həmyerlimiz sevimli şairimizin kitabını həmin gecə birnəfəsə oxuyur və elə həmin zülmət gecədə "Gecələr" şeiri onun ruhunu yerindən oynadır, Zabit Soltanov sevimli qarmonunu köksünə sıxaraq, "Gecələr"i züm-zümə edir, sabah açılana qədər dahi şairin sözlərinə musiqi bəstələyir.

Zabit müəllim "Mingəçevir işıqları" qəzetinin 1991-ci il 25 aprel tarixli sayında dərc olunmuş müsahibəsində deyib ki, "Gecələr"i elə həmin gecə bəstələdim, səhəri gün də dostlarım, məşhur pianoçu Zaur Əliyev və qaboyçalan Kamil Cəlilovla birlikdə nota köçürdük. Bu mahnını Bəxtiyar müəllimə sürpriz etdim, sözlərini də avazla oxudum. Şair kövrəldi, gözləri doldu, "Çox gözəldir", dedi. Bəxtiyar müəllimin məsləhəti ilə mahnını o illərin məşhur bəstəkarı Bəhram Nəsibova göstərdim, ikilikdə getdik bədii şuraya, yəni senzora. Mahnı səsləndirildi, dinləyənlər hamısı, Şövkət Ələkbərova da, Süleyman Ələsgərov da orada idilər, "Gecələr"i çox bəyəndilər. Şövkət xanım kövrəldi də və dedi ki, Zabit, gözəl yazmısan, amma "Gecələr"də bədbin ruh var, bilirsən də, sənətdə bədbinlik sovet adamı üçün xarakterik deyil. Biz "Hə" desək də, bunu bəstəkar mahnısı kimi efirə buraxmayacaqlar. Gəl belə edək, get Rəhilə xanım Həsənovanın yanına, mən də ona deyəcəyəm, qoy "Gecələr"i hələlik xalq mahnısı adı ilə özünün "Sazçı qızlar" ansamblında oxusun ki, bu cür mahnı itib-batmasın, həm də, bu musiqi onun səsinə çox düşərlidir... (Bu o vaxtlar idi ki, Qədir Rüstəmov, Məmmədbağır Bağırzadə kimi sənətçiləri, "televiziyaya çıxarılası deyil", "ara mahnıları oxuyur" deyib televiziyaya buraxmırdılar, amma indiki Fəvvarələr meydanında (o vaxt bu bağ "Parapet" adlanırdı) yarıxəlvət val satılan primitiv budkada Qədirin, Məmmədbağırın valları çox baha qiymətə satılırdı, çünki xalq qədirlərinin, məmmədbağırlarının qədrini bilir, onları çox sevir və qiymətləndirirdi)...



Zabit

Şövkət xanımın məsləhəti kara gəlir: "Gecələr" ilk dəfə Rəhilə Həsənovanın ifasında xalq mahnısı kimi efirdə səslənir, televiziyaya yol tapır. Hər dəfə də bu təqdimatı eşidəndə Zabitin qəlbindən qara qanlar axır... Az sonra Niyaməddin Musayev "Gecələr"i öz repertuarına daxil edir və tanınmış müğənninin ifasında "Gecələr" az vaxtda sevimli bir mahnıya, xitə çevrilir...

Sonralar, bilinəndə ki, "Gecələr"in sözləri Bəxtiyar Vahabzadənindir və bu, xalq mahnısı deyil, onda başlayırlar "Gecələr"ə müəllif "axtarmağa"... Mahnı gah onu ilk dəfə ifa edən Rəhilə Həsənovanın, gah "Gecələr"in efirə və ekrana yol tapmasında dostunun xatirinə çox əziyyətlər çəkən, ona-buna xahiş-minnət edən Bəhram Nəsibovun (çox təəssüf ki, "Gecələr" bir neçə il qabaq Müəllif Hüquqları Agentliyində də Bəhram Nəsibovun mahnısı kimi qeydiyyata alınıb), gah Niyaməddin Musayevin, gah da tamam başqa şəxslərin bəstəsi kimi təqdim olunur. Hər dəfə də bu təqdimatları eşidən Zabitin qəlbi göynəyir, ürəyindən qara qanlar axır, gündüzü gecəyə çevrilir...

Nə yaxşı ki, Niyaməddin Musayev 1980-ci illərdə Mingəçevirdə konsert verərkən, elə səhnədə deyir ki, "indi oxuyacağım "Gecələr"in bəstəkarı sizin həmyerliniz, bu salonda əyləşən rejissor və bəstəkar Zabit Soltanovdur"...

Nə yaxşı ki, müğənninin bu sözlərini həmkarım, universitetin jurnalistika fakültəsində mənimlə bir qrupda oxuyan Vəfa Süleymanova o zamanlar çalışdığı "Mingəçevir işıqları" qəzetinin 25 aprel 1991-ci il tarixli 48-ci sayında olduğu kimi dərc etdirib və nə yaxşı ki, Soltanovlar ailəsi həmin qəzeti də ailə arxivində qoruyub saxlayır...

Zabit Soltanov Vəfa xanıma müsahibəsində onu da deyib ki, Hüseyn Kürdoğlunun, Zərxanım Ülvinin, İslam Səfərlinin "Eləmi?", "Dönə-dönə", "Bu dilsiz dəqiqələr" və b. şeirlərinə də musiqi bəstələyib, amma "Gecələr"in uğursuz taleyi onu bu mahnılarını şəxsi arxivində saxlamağa məcbur edir...

Bacısı Səfa xanım və bacısı qızı Esmira xanım da deyirlər ki, Zabitin üzə çıxarmaq istəmədiyi çox mahnıları var ki, "Gecələr"dən də təsirlidir, yanıqlıdır...

Esmira xanım və Səfa xanım deyirlər ki, 1966-cı ildə Zabit Zərdab mədəniyyət evinə təyinat aldı və həvəslə işlədi, özfəaliyyət ansamblları yaratdı, çox əsərləri səhnələşdirdi, ən uzaq kəndlərimizdən istedadlar tapdı və camaat onun mədəni-kütləvi tədbirlərinə həvəslə gəlirdi...

Günlərin birində evə qanıqara gəldi. Dedi, mədəniyyət evinin müdiri deyir ki, sən nə özünü gözə soxursan? Bilirəm, məqsədin mənim yerimə keçməkdir, amma onu görməyəcəksən. Yaxşısı budur, öz xoşunla, lələlənməmiş çıxıb gedəsən...

Rayon rəhbəri də ixtisası mədəniyyət işçisi olmayan o müdiri müdafiə etdi, dedi ki, mənə mədəniyyətdən, pambıq vacibdir. Camaatı işindən eləmə, belə həvəsin var, şəhərə get, burа kənd rayonudur, məndən pambıq istəyirlər, artist yox...

Zabit Soltanov Zərdabda tikdirməyə başladığı evini də yiyəsiz buraxıb, yollanır Mingəçevirə (şükür ki, həyat yoldaşı Natəvan xanım son illər əsasən Zərdabdakı həmin evlərində yaşayır), sonra da birdəfəlik köçüb gedir bu "energetiklər şəhəri"nə. Mingəçevir Xalq Teatrında ədəbi hissə müdiri, sonra rejissor işləyir. Sonuncu işi isə Mingəçevir mədəniyyət evinin müdiri vəzifəsi olur.

Esmira xanım deyir ki, Mingəçevirdə dayımgildə yaşayırdım, hər dəfə ilk tamaşaya nənəmlə (anası ilə) məni də aparırdı. Bir neçə dəfə mənə səhnədə uşaq rolları da vermişdi... Mingəçevirdə də ona mane olanlar vardı. Onsuz da dayım Zərdabı məcburi tərk etdiyinə görə, çox pərişan olurdu, bir yandan da Mingəçevirdə onu narahat edirdilər və bu hallar onu çox üzürdü. Bilmirəm, bəlkə də öz taleyinə bənzərliyinə görə idi ki, o vaxt belə bir şeirə də musiqi yazmışdı:

Qürbətə gedib lovğalanırdın ki,
Zülali, vətənim var,
Ensin gözünə qara su,
Ağsu vətən oldu...

Zərdabın tanınmış iqtisadçılarından olan, hazırda Bakıda yaşayıb işləyən Qulu Soltanov deyir ki, bir dəfə bir xudmani yeməkxanada "Gecələr" mahnısı kiminsə musiqisi kimi təqdim olundu və müğənni qız bu mahnını yanıqlı səslə oxumağa başladı. Mənim stol yoldaşım ağlaya-ağlaya ayağa qalxdı və çıxıb getdi. Onun ardınca çıxdım və soruşdum ki, sənə nə oldu axı? Dedi ki, bu mahnı mənə əziz və doğma olan Zabit müəllimindir, amma özgələrin adına çıxılır. Bu mahnıya qulaq asa bilmirəm. Bu mahnıya qarşı haqsızlıq əzizimizi əlimizdən alıb. Heyif, bilmədim o oğlan kim idi...

...Təəssüf ki, bu gün Zabit Soltanov həyatda yoxdur və nə yazıq ki, o, dünyalar qədər sevdiyi doğma Zərdabına 54 yaşında–1995-ci ilin çovğunlu dekabrında cənazədə qayıtdı (bəxtə bax ki, o, sadə bir cərrahi əməliyyatdan sonra narkozdan ayılmadı) və Zərdabın məşhur Seyid Mahmud qəbristanlığında dəfn olundu... Onun oğul övladları Elnur, Pərviz və Fuad hər üçü Türkiyədə ali təhsil, Avropada magistratura və rezidentura təhsili aldılar, Pərviz və Elnur ABŞ-da da oxudu, ABŞ universitetlərində yüksək elmi dərəcələr aldılar... Bacıları Dilkəş xanım da ali təhsillidir, Bakıda yaşayır. Dilkəş xanım da ("Dilkəş" sözünün mənası "ürəyincə" deməkdir və mərhum həmyerlimiz bacısı Səfa xanıma deyirmiş ki, 3 oğluma bir bacı dünyaya gələndə bu ürəyimcə oldu və sevimli qızıma ən çox sevdiyim təsnif olan Dilkəş adını qoydum), hər üç qardaşı da qarmonda çalmağı yaxşı öyrəniblər.

Elnur ABŞ-dakı universitetlərdən birində siyasi elmlər doktoru olaraq çalışırdı. Azərbaycan dövlətinin dəvəti və dəstəyi ilə Vətənə gəlib və hazırda Ali Diplomatik Akademiyanın müəllimidir.

Zabit Soltanovun qohumlarından olan Nazim Kərimov deyir ki, Zabit əminin Ziyanur adlı bir oğlu da vardı, 10 yaşında ağır xəstəlikdən vəfat etdi, fenomen istedada malik oğlan idi, oxumadığı bədii kitab qalmamışdı...

Pərviz Soltanov 28 yaşında ciddi xəstəlik nəticəsində dünyasını dəyişmişdir.

...Bu gün Zabit Soltanovdan yadigar qalan övladları, kövrək və kədərli xatirələr, o illərin saralmış qəzetlərində onun haqqında yazılan natamam məqalələr (təsəvvür edin ki, hələ sağlığında ikən heç bir qəzetdə onun zərdablı olduğu yazılmır), solğun şəkilləri, əgər məhv edilməyibsə, Azərbaycan və "Araz" radiolarının arxivlərindəki yaxın illərə qədər tez-tez səsləndirilən qarmonda ifa etdiyi mahnı, muğam və rəqslərin lent yazıları və bir də insana hər zaman kədər gətirən, müəllifi kimi acı tale yaşayan "Gecələr" mahnısıdır:

***

Fikrim dağda, aranda,
Yuxu hara, mən hara...
Kipriklərim sancılır,
Ox kimi ulduzlara...

***

Quştək uçur xəyalım,
Hardan, hara gecələr,
Mən həsəd aparıram,
Yatanlara gecələr...

2.28. İFAÇILIQDAN USTALIĞA GƏLDİ



Xanlar Məlikov

O da ağlı kəsəndən radiodan musiqiləri dinləmiş, yaşadığı qəsəbənin toylarında klarnet ifaçısı Nadir Axundovun (1917-1969), qarmonçalan Teyyub Dəmirovun (1908-1970) ifalarını eşitmişdi. Hər iki məşhur sənətkar toylara ayrı-ayrılqda öz dəstələri ilə gəlirdilər. Onların çalğıları Xanlara xoş gəlir, onun uşaq təxəyyülündə iz salırdı. Buzovnanın da qarmon ifaçıları vardı ki, kəndin toy-nişanında çalır, bayram tədbirlərində çal-çağır yaradırdılar. Xanlar onları da yaxından görüb eşitmişdi. O, qarmon sənətinə həvəs göstərirdi. Radiodan Teyyub Dəmirovun, Məmmədağa Ağayevin, Qızxanım Dadaşovanın, Abbas Abbasovun, Səfərəli Vəzirovun ifaları onun qəlbində sənət məşəli yandırmışdı.

Xanlar Məlikheydər oğlu Məlikov 1941-ci il yanvar ayının 27-də Bakının Buzovna qəsəbəsində sadə, zəhmətkeş ailədə dünyaya gəlib. Məlikheydər kişi iki oğul və dörd qızı əllərinin halal zəhmətilə böyüdüb. Evdar qadın Sara xanım övladlarını zəngin məhəbbətlə əhatə etməklə bərabər, onların tərbiyəsilə də ciddi məşğul olurdu. Məlikheydər tanınan bənna idi. Çox binalar ucaltmışdı. Özü, ailəsi üçün də qabarlı əllərilə ev tikmişdi. Zəhmətlə qurulmuş evdə ailə mehribanlığı hökm sürürdü. Xanlar ailənin üçüncü övladı idi.

Xanlar lap erkən yaşlardan qarmon çalmaq arzusu ilə yaşayırdı. Odur ki, sərbəst olaraq, öz bacarığı, həvəsi və inadkarlığı nəticəsində bu işlə məşğul olmağa başlamışdı. O da çoxları kimi əvvəl qeyri-peşəkar alətlə, diatonik qarmonla çalğı öyrənmişdi. Sonra isə xromatik səs ardıcıllığına malik "Kazan" qarmonda çalmışdı. İfasını mükəmməl hala gətirəndən sonra böyük arzu və ümidlərlə özünə tam peşəkar sənətkar qarmonu almışdı. Xanlar Məlikov 1958-ci ildə 206 saylı məktəbi başa vurur və Bakı Kitabxanaçılıq Texnikumunun (son.Bakı Mədəni-Maarif Texnikumu, haz. Bakı Humanitar Kolleci) mədəni-maarif şöbəsinə daxil olur. Burada "klub işçisi-özfəaliyyət xor kollektivi rəhbəri" ixtisası üzrə təhsil alır. Texnikum ansamblına üzv olur, bayram konsertlərində, ədəbi-bədii tədbirlərdə çalır. Texnikum illərində tələbə yoldaşları ilə toy-nişan məclislərinə gedir. Burada ona qarmon sənətindən Kamil Əlibala oğlu dərs demişdi.

X.Məlikov 1961-ci ildən Mərdəkandakı mədəniyyət sarayında qarmon sinfində müəllimlik etmişdir. O, burada xeyli şagirdlərə dərs demişdir. Yetirmələrindən neçəsi bu sahədə çalışmışlar. Qarmon tədrisi üçün onun yazdığı proqram mədəniyyət saraylarında və evlərində, klublarda fəaliyyət göstərən kurslarda və dərnəklərdə istifadə olunmuşdur. Bu o dövrdə qarmon tədrisi üçün kifayət qədər dəyəri olan vəsait kimi qəbul olunmuşdur.

Xanlar müəllim Azərbaycanın məşhur klarnet ifaçılarından biri olan Əşrəfağa Əşrəfzadə (1940-1973) ilə birlikdə Mərdəkan mədəniyyət sarayında "Bahar" adlanan x.ç.a. ansamblı yaratmışdı. Bu ansambl yalnız mədəniyyət sarayında deyil, Bakının müxtəlif mədəniyyət ocaqlarında, Azərbaycanın bir sıra rayonlarında konsertlər vermişdi.



Şadlıq mərasimində. Ortada: Ə.Əşrəfzadə və onun sol tərəfində X.Məlikov

Əşrəfağa ilə Xanlar arasında səmimi və mehriban dostluq yaranmışdı. Hər ikisi yüksək əxlaq və tərbiyə sahibi idilər. Bu uyğunluqlar onların birlikdə çalışmaqlarına imkan yaradırdı. Toylarda Əşrəfi hər qarmonçu müşayiət edə bilməzdi. O, meydangir klarnetçalan ldi. Olduğu məclislər gur keçirdi. Xanlar müəllim onunla çiyin-çiyinə çalışa bilirdi. Çünki yaxşı ifaçı olduğu üçün müşayiəti



Xanlar Məlikov mədəniyyət sarayındakı tədbirdə öz şagirdləri və rəqs kollektivin üzvləri ilə

də yaxşı bacarırdı. O, Əşrəfzadənin ifasını tamamlaya bilirdi. Xanlar Əşrəflə Bakının və Bakı ətrafı kəndlərin, həmçinin bolgələrimizin ən gur toylarında olmuşdu. Xanlar məşhur klarnetçalan Şəmsi İmanovla (1930-1997) da toy şənliklərində çalmışdı.

Qeyd etməliyik ki, Xanlar Məlikovun adı həmişə yaxşı ifaçılarımız sırasında çəkilib. Məclislərdə sənəti bəyənilib, sevilib. O, məşhur xanəndələrimizlə və musiqiçilərimizlə rayonlarımızda keçirilən el şənliklərində olardı. Xanlar "Segah" muğamına daha həssas idi. Ürəyi , ruhu "Segah"a daha yaxın olduğu üçün toylarda bu muğamı xüsusi ilhamla çalardı. Odur ki, onu yaxından tanıyanlar, dostları və məclislərdə görüb eşidənlər mütləq hər toyda ona "Segah" sifariş verərdilər. Bilirik ki, qarmonumuzun ecazkar səsi, çoxçalarlı şirin tembri "Səhah"ı təsirli səsləndirmək üçün imkan yaradır. X.Məlikov bu imkanlardan məhərətlə istifadə edərdi.

1970-ci illərin sonlarında Azərbaycan televiziyasında "Səhər görüşləri" adlı musiqili proqram olurdu. Bu maraqlı verilişlərin birində X.Məlikov toy ansamblının tərkibində toy səhnəsində çıxış etmişdi.

Xanların istedadı başqa istiqamətlərdə də özünü biruzə verirdi. O, şeirlər yazırdı.Yazdığı şeirlər ailəsində qorunur. O, həm də bacarıqlı əllər sahibi idi. Bir sıra işlərə baş qoşduqda onda yaxşı alınırdı. Xanlar müəllim milli qarmonlarımızın hazırlanması və təmiri ilə də məşğul olmuşdu. Usta kimi tanınmışdı. Sənəti mükəmməl öyrənmək üçün məşhur usta Velçev Valentindən (1924-1999) məsləhətlər almışdı. Yazı müəllifi kimi bildirirəm ki, 1980-ci illərin sonlarında usta Valentinə sual verdikdə ki, tələbələriniz olubmu, o, cəmi üç nəfərin adını çəkdi və bu sırada Xanların adı xüsusi dəyərlə qeyd olundu. Valentin onun bacarıqlı usta kimi fəaliyyət göstərdiyini söylədi.

X.Məlikov müxtəlif ölçülü qarmonlar hazırlayırdı. O, qadın ifaçılarımızın arzu və istəyini nəzərə alaraq onlar üçün kiçik həcmli, yüngül çəkili, ağ rəngli, şirin tembrli qarmonlar düzəltmişdi. Onun yanına xüsusilə Buzovna, Mərdəkan, Şüvalan, Şağan, Binə, Zirə, Türkan, Pirallahı qəsəbələrinin qarmon ifaçıları gəlirdilər. Bütünlükdə götürdükdə isə Bakı şəhərinin özündən və ölkəmizin bəzi bölgələrindən ona müraciət edənlər olurdu. Onun istehsal etdiyi milli qarmonlarımız



Konsertdə. Səhnədə soldan: Əlibəndə Əliyev və Xanlar Məlikov

indi də ifaçılarımızın əlində səslənməkdədir. X.Məlikovun izi qarmon sənətimizdə qalmaqdadır. Sənətkarın vaxtılə dərs deyib meydana çıxardığı qarmonçular, düzəltdiyi, bərpa etdiyi qarmonları səsləndirərək konsertlərə, toy-düyünə rövnəq verən ifaçılar onu daim yada salırlar. Bütün xidmətləriylə və insani keyfiyyətləri ilə o, xatırlanmağa layiqdir. Bu oçerki yazıb qarmon ifaçılığı sənətini ehtiva edən kitaba daxil etməklə onu bir daha yaddaşlara gətirdik.

Xanlar Məlikov 1970-ci ildə ailə qurub. Dörd oğul və bir qız yetirib. Beş nəvəsi var. Sevimli sənətkar 1994-cü il may ayında dünyasını dəyişib.

2.29. ZƏNGİN YARADICILIQ YOLU



Əməkdar artist Zakir Mirzə

Qulam Mirzə Məşədi Mirzə oğlu Güney Azərbaycanın Zəncan əyalətinin Gümüşoba kəndindən idi. O, rəiyyət nümayəndəsi olaraq həmişə min bir zəhmətlə halal çörəyini qazanmışdı. Doğulduğu və boya-başa çatdığı kənddə Qarabirçək xanımla ailə qurmuşdu. Qarabirçək xanım xan nəslindən idi. Gümüşoba kəndi bu gün də mövcuddur.

Əkinçi-biçinçi olan Qulam Mirzə yaz-yay aylarında ailəsini götürüb Quzey Azərbaycana gələrdi. 1917-ci ildə onlar biçinlə əlaqədar Quba əyalətinin kəndlərində idilər. Ailənin üçüncü oğlu dünyaya gəlmişdi. Adını Qulam Hüseyn qoydular. Biçin müddəti qurtaranda ailə Zəncana qayıtdı. Bu zaman körpənin üç ayı tamam olurdu. Qulam Hüseyn (Zakir Mirzəyevin atası) Güney Azərbaycanda boya-başa çatıb. O, 8-10 yaşlarında fitri istedadı sayəsində tütək, balaban çalmağı öyrənmişdi.

Qulam böyük bir nəslin nümayəndəsi idi. Qulam Hüseynin ata-anası, əmiləri, dayıları və başqa yaxın qohumları 1928-ci ildə Quzey Azərbaycana köç ediblər.

Şəcərənin üzvləri əvvəlcə Lənkəranın Qumbaşı qəsəbəsində məskunlaşırlar. Sonralar nəslin bəzi nümayəndələri İmişliyə gediblər. 6 aydan sonra darıxdıqları üçün qohum-əqrabanın bəzisi doğma elə, Zəncana qayıtmış, digərləri isə İmişlinin kəndlərində məskunlaşaraq təsərrüfatla məşğul olmuşlar. Qulam valideynləri, əmiləri və digər doğmaları ilə İmişlidə qalmış, onlara kömək etməklə bərabər, el-obanın çal-çağırında balabançı kimi fəaliyyət göstərmişdir.

Qulamın atası, əmiləri İmişlinin Çaxırlı kəndində ev-eşik tikib, bina salarkən o, doğmalara kömək edir, həm də bu kəndin klubunda işləyirdi. Bu zaman onun 15-16 yaşı var idi.

Yuxarıda qeyd etdiyimiz kimi, qohum-qardaşın bəziləri Zəncana dönəndə, Qulam Bakıya gəlir.

gənclik illərində və orta yaşlarında müxtəlif işlərdə çalışır. Onun valideynləri dünyasını dəyişmiş və İmişlinin Çaxırlı kəndində dəfn olunmuşdular. Övladlar Poltavka kəndində yurd-yuva qurdular.

Qulam Hüseynin özündən böyük iki qardaşı da vardı. Cəfərqulu İmişlidə yaşamış və orada dünyasını dəyişmişdir.

Qurbanəli Xaçmazda məskunlaşmış və orada ömrünü başa vurmuşdur. Məmmədhüseyn Qulamın kiçik qardaşıdır. O, XXI əsrin əvvəllərinə qədər İmişlidə ömür sürmüşdür.

Zakirin ana babası Ağababa Zəncanın Zöhrün kəndindən idi. Onlar Bakıya xeyli əvvəllər gəlmişdilər.

Qulam Hüseyn Bakıya gəlir. Onun nəsil qohumları bu şəhərdə çox idi. O, müxtəlif işlərdə çalışır, "Fəhlə klubları"nda, "Şoferlər klubu"nda özfəaliyyət ansambllarında balaban ifaçısı kimi fəaliyyət göstərir. Gənc yaşlarında Tibb Məktəbinə daxil olur. Bu təxminən 1940-cı ilə təsadüf edir. Təhsili başa vurmur. Bakının Saray kəndindən olan Aşıq Əli ilə sənət yoldaşlığı edib məclislərə gedir.



Balaca Zakir

1941-ci ildə Qulam Hüseyn Respublika dəmir yolu idarəsinə işə girir. Qatarlarda müfəttiş işləyir. Onu kommunist partiyası sıralarına qəbul edirlər və Bakı-Gəncə qatarında müfəttiş kimi çalışır.

Həmin ildə Qulam Hüseyn Mədinə xanım Ağababa qızı ilə ailə həyatı qurur. Bir müddət qaynatasının həyətindəki mənzildə yaşayırlar. 1943-cü il sentyabr ayının 16-da ilk övlad dünyaya gəlir. Adını Zakir qoyurlar.

Zakir 3-4 aylıq olanda onların ailəsi qonşu həyətdəki mənzildə məskunlaşır.

Gənc ailə başçısı Qulam Hüseyn kəskin ağlı, dərin düşüncəsi və bacarığı ilə ətrafındakıların diqqətində idi.

Həzrəti Əli əleyhissəlam buyurub: "Ağıllı adam odur ki, özünə dost qazana". Bakıda olduğu müddətdə Qulam kamalı, ağlı sayəsində çoxları ilə ünsiyyət yaratmış, xeyli dost qazanmışdı. Oturub-durduğu adamlara həmişə yaxşılıq edərdi. Deyirlər ki, insanın qiyməti onun etdiyi yaxşılıqla ölçülür. Nizami Gəncəvi əsərlərində yazır:

"Quyuya salsan da yaxşılığı bil,
Yenə qayıdacaq o itən deyil".
"Yaxşılığı əzəldən adət etsən özünə,
Yaxşılığın hər yerdə qapı açar üzünə".

Xoş əməllərinə görə Tanrı Qulam Hüseynin qarşısına xeyir-əməl adamları çıxarırdı. Belə xeyirxahlardan biri də Azərbaycan Respublikası Dəmir Yolu İdarəsi Həmkarlar Komitəsinin o zamankı sədri Hüseyn müəllim idi. Qulamı Dəmir Yolu İdarəsinə işə o düzəltmişdi. Qulam Hüseyn öz sazəndə dəstəsilə neçə-neçə dost-tanışın toyunda təmənnasız çalıb-çağırmış, imkansız ailələrin toy-büsatına təmtəraq, yaraşıq vermişdi. Bu kimi işlər Hüseyn müəllimin nəzərində idi. Həm də o, Qulamın xüsusi zövqlə çaldığı balabanın səsinin sehrinə düşmüşdü, bu ifanın vurğunu idi. Həmkarlar Komitəsi sədri Hüseyn müəllim Qulam Hüseynin işgüzarlığını və bacarığını nəzərə alıb onun Bakı Dəmir Yolu İdarəsinə anbar müdiri təyin olunmasına kömək edir. Artıq bu zamanlar

Qulam Hüseynə Biləcəri Dəmir Yolu Stansiyası ətrafındakı binada beş otaqlı mənzil verirlər. Zakir Mirzəyev 2 yaşa qədər həmin mənzildə boy atıb.

1944-cü ildə Qulam Hüseyn Mirzəyev əsgər çağrılır və müharibəyə göndərilir. Yarım ildən sonra döyüşlərin birində yaralanır və arxa cəbhəyə, Bakıya qaytarılır. Onu milis orqanlarına işə götürürlər. Burada baş leytenant rütbəli zabit kimi çalışsa da, bu iş onun ürəyincə olmadığı üçün öz ərizəsi ilə işdən azad edilir. İdarədə demişdi ki, o, musiqiçidir, öz sənətini işlətməklə xalqına, el-obasına xidmət etmək istəyir.

1946-cı ildə Qulam Bakı şəhəri 3 saylı milis şöbəsindən işdən çıxaraq əvvəlki iş yerinə, Dəmir Yolu İdarəsinə qayıdır. Burada çalışaraq boş vaxtlarında musiqiçilik fəaliyyətinə də imkan tapır.

Qulamın xalası oğlu İzzət kişi ailəsilə Xaçmaz şəhərində yaşayırdı. Həmçinin Qulamın Hüseynxan dayısı və onun qızı Balaxanım bibi də Xaçmazda məskunlaşmışdı. Qohum-əqrəba tez-tez bir yerə yığışar və sevincli günlərini yaşayardılar.

Qulam Xaçmazdakı xanəndə və aşıq dəstələri ilə birlikdə bir müddət el-obanın çal-çağırında, konsertlərdə, şənliklərdə, toylarda çalışaraq yaxşı musiqiçi kimi tanınır və çox böyük nüfuz qazanır. Ad-sanlı, məşhur adamların toylarında balabanını ürəklə səsləndirməsi onu o yerlərdə daha da tanıtdırmışdı.

Burada bir haşiyə çıxaq: Deməliyik ki, bir musiqiçi kimi Qulam Hüseyn Mirzəyev tam yetkin, samballı sənətçi idi. O, balabanda Zəncan, Ərdəbil, Urmiyə, Təbriz, Qaradağ aşıq havacatlarını, Qərb aşıq sənəti nümunələrini, o cümlədən Şirvan aşıq məktəbinə xas olan havaların, şikəstələrin hamısını ustalıqla çalırmış. Bu hər sənətkara nəsib olmur. Görünür onun qan yaddaşı çox güclü olmuş, genində və ruhunda saf milli musiqi duyumu toplanmışdır. O, aşıqların söylədiyi dastanları incəliklərinə qədər əzbər söylərmiş.

Adlı-sanlı toyların birində Xaçmaz rayon Partiya Komitəsinin birinci katibi Səlimov Qulam Hüseynin ifasını diqqətlə dinləyir və çox bəyənir. Çağırıb səmimi söhbət aparır. Onların qohumluğu varmış. Rəhbər işçinin musiqisevərliyi, sənətkara hörməti, o cümlədən qohumluq əlaqələri Qulamın bəxtinə işıq salır. Birinci katib yoldaş Səlimov Qulam Mirzəyevi Xaçmaz rayon Taxıl İstehsalı Bazası anbarına müdir təyin edir.



Ömrün xoşbəxt anları. Zakir ata-anası ilə birlikdə. 1977-ci il

1947-ci ildə ailədə oğul dünyaya gəlir. Adını Adil qoyurlar. Qulam 1945-ci ildə həyata gəlmiş oğlunun da adını Adil qoymuşdu. Lakin uşaq körpəlikdə xəstəlik keçirdiyi üçün qalmamışdı.

Xaçmazda yaşayan İzzət xalaoğlu Qulam Hüseynin ailə vəziyyətini nəzərə alıb ona yaxşı şəraiti olan, həyət-bacalı ev verir. Qulam bir müddət burada yaşayır. Toylardan əldə etdiyi yaxşı qazanc hesabına qazandığı halal pul ilə Xaçmazda özünə ev alır. Bu əsl mülk idi.

1948-ci ildə Qulam Hüseyn ailəsini Bakıdan Xaçmaza aparır. Özünə gün-güzəran düzəldir. Xaçmazda yaşayan sənət adamları ilə yoldaşlıq, dostluq əlaqələri qurur. Musiqiçilik peşəsi həmişə onu özü tərəfə çəkirdi. Bu da onun qismətinə düşmüş bir iş idi. Sənətçilər daha yaxşı bilirlər bunu. Sənət "çeşməsi"ndən su içəndən sonra ondan kənar düşmək çətin gəlir adama. Sanki taleyin bu işə bağlanır. Qulam Hüseynin bəxtinə düşmüş istedad onun taleyini izləyərək öz ardınca çəkib aparmağa qadir idi. Başqa işlərdə çalışanda da işini elə qura bilirdi ki, musiqiçiliklə də məşğul ola bilsin, sevimli balabanını səsləndirsin.

Müharibədən qayıdandan sonra əvvəl Yanğından Mühafizə İdarəsində, sonra isə Milis şöbəsində çalışarkən sevimli peşəsini işlədə bilmədiyi üçün çox qəribsəmişdi. Ərizə yazıb Daxili İşlər Orqanından çıxanda əvvəlcə onu buraxmaq istəməmişdilər. Çünki çalışdığı vəzifələrdə o, özünü doğrultmuşdu. O zamankı Daxili İşlər Naziri yoldaş Yaqubov Mirzəyev Qulamı yanına çağırtdırıb söhbət aparmış, yaxın vaxtlarda onu təhsil almağa göndərəcəklərini bildirmişdi. Lakin, musiqi aləmi, ifaçılıq sənəti, aşıq yaradıcılığı, dastanlar, şikəstələr, "Koroğlu" havaları onu öz sehrli məkanına doğru çəkmişdi.


Şirvan aşıqlarının əksəriyyəti, o cümlədən ustad sənətkar Aşıq Qurbanxan (1905-1977) da balabançı Qulamı tanımış, sənətini bəyənmiş və şəxsiyyətinə hörmət etmişdi. Yazımızın bu yerində məlumat üçün bir haşiyə çıxaq:

Qulam Hüseyn Mirzəyev Güney Azərbaycanda başladığı ömür yolunu Quzey Azərbaycanda 2005-ci ildə tamamladı. O, Xaçmaz şəhər qəbristanlığında doğmalarının məzarlarının əhatəsində uyuyur. Onun yas mərasimində Bakıdan ora gedən sənət yoldaşlarımızla birlikdə hamımız iştirak etdik.

* * *

Zakir 1951-ci ildə Xaçmaz şəhər məktəbinin birinci sinfinə gedir. Ana kəlməsi, vətən sözü yazmağı öyrənir. İlk günlərdən yaşıdlarından və məktəb uşaqlarından heç bir cəhətlə və fikrən heç nə ilə fərqlənməyən bu uşağın genində böyük istedad olduğunu, daxilində vulkan yatdığını bilənlər yox idi. Bu oğlanın içindəki təlatüm sonralar hərəkətə gələcək, vulkan isə zamanında püskürəcəkdi.

Zakirin söhbətlərindən: "Valideynlərim deyərdilər ki, az yaşlarımda cəld və çevik uşaq olmuşam. Az sonra ata-anam musiqi duyumumu hiss ediblərmiş. Atam balabanı həzin-həzin səsləndirəndə dərhal diqqət kəsilər, çaldığı muğamları, el havalarını, aşıq melodiyalarını həssaslıqla dinlərmişəm. 3-4 yaşım olanda, Bakıda yaşayarkən evimizdəki



Zakirin ilk çalğı aləti. 12-dilli diatonik qarmon

qavalı qıçlarım arasına qoyub çalarmışam.

Sonrakı vaxtlar isə öz yadıma gəlir. Atam balabanda oyun havalarını çalarkən qavalda ritm tutub onu müşayiət edərdim. Yorulanda və ritmi çaşanda atam gülümsünüb başıma sığal çəkərdi.

Qarmon çalmağa hədsiz həvəsim vardı. Radioda qarmon ifası eşidən kimi fikrim ora cəmlənirdi. Qonum-qonşuda toy olanda, əgər orada qarmon da çalınırdısa ora can atırdım. Uşaq təxəyyülümdə, xəyalımda qarmon çalmaq arzusu var idi. 7 yaşım olanda atamdan xahiş etmişdim ki, mənə qarmon alsın. O, belə də etdi".

Zakirin 8, qardaşı Adilin 4 yaşı olanda qızılca xəstəliyinə tutulurlar. Xəstəlik Zakiri tamam gücdən salır. O, yemək yemir. Valideynlər nə qədər dilə tutsalar da uşağın iştahası tamam küsdüyündən yaxşı qidalana bilmir. Bunu duyan, çox narahat olan ata Zakirə deyir: "Sən yeməyinə yaxşı fikir versən, sənin üçün ən çox arzu etdiyin bir şeyi alacağam".

Ata işdən qayıdarkən bir neçə hədiyyə və qoltuğunda tutduğu iri bir bağlama ilə evə gəlir. Digər hədiyyələr açıq-saçıq görünsə də, bağlamanın içindəkinin nə olduğu uşaqları çox maraqlandırır.

Qulam Hüseyn kişi uşaqların anasından soruşur:

- Hə, de görüm, bu gün bu uşaqların yemək yemək'ləri necə olub?

Ana cavabında: - "Adil nisbətən yaxşıdır. Zakir isə heç nə yemir" - deyir.

Bunu eşidən ata Zakirin saçını tumarlayıb dillənir:

- Oğlum, əyləş süfrə başında, bir iştahla şam ye. Səni lap çox sevindirən bir hədiyyəni, bax, o kağıza bükdürdüyümü, bağlamadakını sənə verim.

Zakir dərhal yeməyə başlayır.

Çox sevinən ata bağlamanı açır və içindəki 12 dilli, yarımtonsuz qarmonu ciyərparəsinə verir. Zakir qarmonu qucağına alıb dizləri üstünə qoyur, kəməri çiyninə salıb neçə vaxt ağzında zümzümə etdiyi "Heyvagülü" havasını çalmağa başlayır. Qarmonu əlinə alanda sevincindən kövrələn balaca Zakirin üzündə nikbinlik bildirən cizgilər görünür, qəlbində fərəh hissi baş qaldırır.

Onun həvəslə qarmon çalmağını görən ata-ana kövrəlir. Xəstəlikdən üzülmüş, gözləri çuxura düşmüş və bənizi solmuş Zakir balanın qarmonu əlinə alan kimi onun əhvalında yaxşılığa doğru dəyişiklik olduğunu hiss edən valideynlər çox təsirlənmişdi. Qarmon çala-çala bu uşaq dərhal ruhən sağalsa da, bir neçə gündən sonra fiziki cəhətdən də tamam şəfa tapmışdı.

8 yaşında Zakirə qarmon alınmasının onun xəstəliyi ilə bağlı olması bəlkə də tale qismətidir. Atanın xəstə uşağı ruhlandırmaq üçün azyaşlı övlada qarmon alması zərurətdən irəli gəldi. Zakir isə yazımızda qeyd etdiyimiz kimi, 6-7 yaşında olarkən qarmon çalmaq arzusunu bildirmişdi. Ata isə kiçik uşağın qarmona gücü çatmayacağını büdiyindən, alətin körüyünü dartmaq üçün fiziki cəhətdən hazır olmadığını düşündüyündən, onun əziyyət çəkməsini istəmədiyindən qarmon alınmasını yubandırırdı.

Zakirin dediklərindən: "Qarmonu əlimə alan kimi çala bilməyimin obyektiv səbəbləri var idi. O dövrdə hər yerdə, radioda, toylarda "Heyvagülü" rəqs havası ifa olunardı. Demək olar ki, tez-tez eşidirdim. Yaddaşımda əzbər idi. O zaman çox dəbdə olan xalq havası idi. Elə indi də toylarımız bu rəqs havası səsləndirmədən keçə bilməz.

Hələ qarmonum olmamışdan əvvəl də xəyalımda barmaqlarımı qarmonun dilləri üstündə ardıcıllıqla düzürdüm. Ağzımda isə bu musiqini səsləndirirdim. Bəlkə də Ulu Tanrının mənə göndərdiyi bir qismət idi ki, ilk anlardan qarmon çalmaq məndə alındı.

Ata-anam Bakıya nənəmgilə və digər doğmalara xəbər göndərib bu sevinclı anlarını onlarla da bölüşmüşdülər. Xaçmaza, bizə xəbər gəldi ki, nənəm hədsiz sevinib. Quran açıb, Quran oxuyub, Allaha dua edib və mənim musiqiyə gəlişimə görə xeyir-dua verib".

Zakir 9 yaşından Xaçmaz Şəhər Pioner və Məktəblilər Evinə musiqi dərnəklərinə gedir. Müntəzəm məşqlər edir. Sevimli qarmonundan bir an da olsun ayrılmır. Evdə qarmonu əlindən yerə qoymur. Uşaq daha həvəslənsin, çaldığı havalar bütöv, dolğun olsun deyə Mədinə xanım qavalı götürüb ritm tutar, oğlunu müşayiət edərmiş.

Sonralar Zakirə 18 dilli diatonik qarmon alınır. 1952-ci ildə Quba şəhərində ətraf rayonlarla birlikdə Zonalar (bölgə) arası pioner və məktəblilər evi bədii kollektivlərinin baxış-müsabiqəsi keçirilir. Balaca musiqiçi Zakir Mirzəyevi bu böyük tədbirə solist kimi göndərirlər. 9 yaşlı qarmonçu yaşadığı rayonu şərəfləndirir, müsabiqənin diplomunu alır, birinci yer verildiyi üçün o, məktəbli geyimi ilə də mükafatlandırılır.

Ev məşqlərində ona qardaşı Adil də kömək edir, nağara çalıb Zakirin müşayiətçisi olur.

Beləliklə, Zakir Mirzəyev istedadlı uşaq olaraq hər il müsabiqələrdə üzvü olduğu Xaçmaz məktəblilər evinin təmsilçisinə çevrilir.

Getdiyi bütün tədbirlərdən böyük müvəffəqiyyətlərlə qayıdan bu çox bacarıqlı oğlan uşağını Xaçmaz rayon mədəniyyət evinin rəhbərliyi öz bədii kollektivinə dəvət edir.

Burada bir haşiyə çıxmaq gərəkdir:

1954-cü ildə Respublika Xalq Yaradıcılığı Evinin rəhbərliyi Azərbaycan rayonlarını gəzib bədii özfəaliyyət kollektivlərini, xalq musiqiçilərini dinləyib ən istedadlılarını baxış-müsabiqələrə dəvət edirdilər. Zakiri də Xaçmaz mədəniyyət evində dinləyib çox bəyənsələr də, yaşı az olduğu üçün müsabiqəyə buraxmırlar. Lakin, istisna etməli olurlar. Zakirin aşıb-daşan istedadı, yaşından çox böyük göstərici təqdim etməsi münsiflər heyətini onu tədbirlərə buraxmağa vadar edir.

Respublika Xalq Yaradıcılığı Evinin məsul işçilərindən biri Hənifəzadə rayonlardakı istedadların axtarılıb üzə çıxarılması və müsabiqələrin yekun konsertlərinə cəlb olunması üçün təhkim olunmuş bir şəxs idi. Zakiri Xaçmaz musiqiçiləri içərisindən seçən və onun gələcəyinin ümidverici olduğunu təsdiq edənlərdən biri də məhz Hənifəzadə olmuşdu.

Beləliklə, Zakir Mirzəyev hər il Respublika Müsabiqələrinə buraxılır.

1956-cı ildə özfəaliyyət kollektivləri və solistlərin Bakıda keçirilən "baxış-müsabiqə"sində münsiflər heyətinin sədri böyük bəstəkar Əfrasiyab Bədəlbəyli, üzvlər məşhur bəstəkarlar, C.Cahangirov, Q.Hüseynli, T.Quliyev, N.Əliverdibəyov (o, həm də məşhur drijordur) və Respublika Xalq Yaradıcılığı Evinin direktoru M.İsmayılzadə idi.

Müsabiqənin yekun konsertində Zakir cəld, iti sürətli, ritmik, oynaq melodiya olan "Bakı" rəqsini ifa edir. İfa hamının xoşuna gəlir. 13 yaşlı uşağın cəld barmaqlarla, ustalıqla çaldığı melodiya əsl peşəkar ifa idi. Zakiri xaçmazlı nağaraçalan Xeyrullah müşayiət edirdi. Zakirin öz yaşıdından qat-qat, dəfələrlə artıq ifasını məşq zamanı görən Xaçmaz Rayon Mədəniyyət Şöbəsinin müdiri Məmmədağa Şirinov onun bu tədbirdə çox böyük nailiyyətlər qazanacağına tam arxayın idi. Odur ki, bu zirək, çevik oğlanın müsabiqənin son turuna düşməsi üçün çəkdiyi zəhmətə çox sevinirdi. Zakir Mirzəyevin hər hansı bir tədbirə göndərilməsi Xaçmaz rayonuna fəxarət, baş ucalığı gətirməsi demək idi. Bu istedadlı oğlan uşağı peşəkar musiqiçi qədər bacarıq nümayiş etdirə bilirdi.

Zakirin yalnız ağ dillərdən ibarət (diatonik) qarmonu olduğu üçün, müsabiqə zamanı digər iştirakçıdan xahiş edib onun qarmonunu, tam peşəkar səviyyəli, yarımtonlu (xromatik) aləti alıb ona verdilər. Öz çıxışına 30-40 dəqiqə qalmış həmin qarmonla məşq edən Zakir səhnəyə çıxan kimi od parçasına dönmüşdü. Özünü tamam unutmuşdu. Üstünə düşdüyü məsuliyyəti anladığından mı, sel kimi çağlayıb gələn fitri istedadından idimi, bilmirdi. Çalıb qurtarandan sonra öz işinin qiymətini biləcəkdi. Böyük insan, əsl ziyalı, bəstəkar Əfrasiyab Bədəlbəyli (1907-1976) Zakiri münsiflər heyəti əyləşən zala çağırır. Zakir səhnədən düşüb onların yanına gəlir. Əfrasiyab müəllim ondan soruşur:

- Hə, qoçaq, neçə yaşın var?

- On üç.

Sual: - Müəllimin kim olub?

Cavab: - Özüm öyrənmişəm.

Bəstəkar daxili səmimiyyətini üzündəki təbəssümlə bir az da gücləndirərək deyir:

- Sən bilirsənmi ki, bu çalğınla 30 il qabağa getmisən? Belə qabiliyyət hər adama nəsib olmur bala. Səni biz öz nəzər-diqqətimizdə saxlamalıyıq. Hər birimiz sənə kömək etməliyik, sən böyük musiqiçi ola bilərsən. Heç bilirsənmi münsiflər heyətində kimlər təmsil olunur?

- Xeyr! Bilmirəm, - deyə Zakir cavab verir.

- Sənin ifanı çox böyük insanlar, əsl sənətkarlar bəyəndi - söyləyən Ə. Bədəlbəyli əlini uşağın çiyninə qoyaraq münsiflər heyətinin üzvlərilə Zakiri tanış edir.

Bu sıcaq münasibət gənc musiqiçinin qəlbinə nur çiləyir, saf ürəyini daha da işıqlandırır, onun sənətə olan sevgisinə böyük ümidlər qatır və daxilində inam çırağı yandırır.

Onu da qeyd etməliyik ki, Zakir məktəblilərin yay tətilində Bakıya gələr və burada qalardı. Yaxın qohumları Seyyid Qurban oğlu Seyyid Böyükağanın peşəkar sənətkar qarmonunda çalardı. Bu alətlə tez-tez məşq etməsi onu xeyli inkişafa aparmışdı.

Böyükağa çox xeyirxah insan idi. Qarmonunu Zakirdən heç vaxt əsirgəməzdi. Əksinə, onu həmişə tərifləyər və həvəsləndirərdi. Peşəkar qarmonçu olan Seyyid Böyükağa Zakirin ana nənəsi Dibaxanımın əmisi nəvəsi idi.

Tətil günlərində Zakir həm də məşhur qarmonçu Musa Həsənovun qarmonundan da istifadə edirdi. M. Həsənov Zakirin dayısı Mirnəcəfin baldızı oğludur.

Sənətkar uşaqlıq xatirələrini çözələyərək, onu sənətin dərinliklərinə doğru çəkən o uğurlu günlərindən danışır:

"1956-cı il baxış-müsabiqənin sonuncu günü böyük hazırlıqla təmtəraqlı, konsert səviyyəli təşkil olunmuşdu. Burada "Bayatı-Şiraz dəramədini ifa etdim. Bu böyük tədbir Azərbaycan Dövlət Dram Teatrının köhnə binasında keçirilirdi və canlı yayımla respublikamıza yayılırdı. Faxri fərman, "müsabiqənin qalibi" döş nişanı və məktəbli geyimi ilə (kostyumla) mükafatlandırıldım.

1957-ci ildə Bakıda keçirilən tələbə və gənclər festivalının II turunda müvəffəqiyyət qazandım. Laureat oldum. Mənə festivalın döş nişanını və fəxri fərman təqdim etdilər.

1959-cu ildə müsabiqədə çıxış etmək üçün Bakıya dəvət olundum. Burada daha böyük uğurlar qazana bildim. Artıq daha böyük məsuliyyət hiss edirdim. 16 yaşım var idi. Əvvəlki müsabiqələrdə az-çox tanınmışdım. Münsiflər heyətinin üzvləri və sədr Ə. Bədəlbəyli mənə diqqət və qayğı göstərirdilər. Əfrasiyab müəllim çox xeyirxah, müdrik, xalq musiqisinin keşiyində sayıq duran, istedad axtarışında olan, istedadlı gənclərin qayğısına qalan çox böyük insan idi. Belə xüsusiyyətləri və cəhətləri ilə onu Üzeyir bəyə də bənzətmək olar.

Müsabiqədə ifa etdiyim "Bayatı-Şiraz dəramədi"nin radio fonduna lentə yazılması üçün Ə.Bədəlbəyli xüsusi göstəriş verdi. İfamda həmin melodiya lentə alındı və radionun qızıl fondunda bu gün də saxlanılır və səsləndirilir".

16 yaşlı bir qarmonçunun laureat olması, böyük bəstəkarlar tərəfindən bəyənilməsi və artıq Xaçmaz toylarında həvəslə sənət göstərməsi çoxlarının, o cümlədən Dağıstan Muxtar Respublikasından Xaçmaza qonaq gələn mədəniyyət işçilərinin də diqqətini cəlb etmişdi. Toyların birində qonaq olan Mahaçqala Filarmoniyasının direktoru Vahabov gənc sənətçini diqqətlə dinləyib onun məharətinə valeh olur. O, Zakirin atası Qulam kişi ilə söhbət edir və bildirir ki, Dağıstanda belə qarmonçu yoxdur. Vahabov ata və oğulu Mahaçqalaya dəvət edir.

Dağıstan Muxtar Respublikasının xalq artisti müğənni Şəmsiyyə Şamxalova, filarmoniyanın tarzəni Heydər Abdullayev, Zakir Mirzəyev və onun atası Qulam Mirzəyev və Xaçmazdan nəfəs alətləri ifaçısı Məmmədşah, Qumıqqışlaq kəndindən olan tarzən-xanəndə İsa və digər musiqiçi-

lərdən ibarət heyət yaradılaraq yaxşı bir konsert təşkil olunur. Konsert Mahaçqala Filarmoniyasında verilir. Zakir burada "Bayatı-Şiraz" və "Dilkeş" muğamlarını solo ifa edir. Uğurlu keçən konsertin səsi-sorağı çox yerlərə gedib çıxır. Odur ki, həmin ifaçıların konsertini Dağıstanın əksər yerlərində təşkil etməli olurlar.

Konsertin keçirildiyi yeri, günü, saatı bildirən elanlara (afişa) Şəmsiyyə Şamxalovanın və məhir qarmonçu, festival laureatı Zakir Mirzəyevin adları yazılır. Birinci konsertdən sonra artıq Zakirin sorağı Dağıstana yayılmışdı. Beləliklə, Dağıstanın Tabasaran, Xuçnı, Məhərrəmkənd, Dərbənd, Qasımkənd, Bilici və digər şəhər və kəndlərində bir-birindən gözəl konsertlər verilir. Bu konsertlər üç ay davam edir. Axtı kəndində, Aqnı stansiyasında, Buynaqski (Teymurxan) qəsəbəsində də konsertlər təşkil olunur və Zakirin təqdim etdiyi şən, oynaq melodiyalar hərarətlə qarşılanır.

Vahabov Mahaçqalada yekun konsert də keçirərək Zakirin atası ilə söhbət aparıb bildirir: "Biz onu filarmoniyaya işə götürürük. Burada o, məşhurlaşacaq. Onu hər yerə aparacağıq, fəxri adlar alacağıq".

Lakin, ata buna razılıq vermir. Özünə güvənc, arxa-dayaq bildiyi, göz qarası böyük oğlunu gözündən uzaq qoymaq istəmir.

Keçmiş SSRİ məkanında və dünyanın əksər yerlərində məşhur olan "Ləzginka" rəqs ansamblının rəhbərləri və musiqiçiləri Zakirin məşqlərindən, xüsusilə filarmoniyadakı sonuncu konsertdəki çıxışlarından vəcdə gəlirlər. Onu ansambla əsas qarmonçalan, aparıcı musiqiçi kimi işə götürmək istəyirlər. Bütün bu təkliflərə Qulam Hüseyn kişinin razılıq verməməsinin özündə də görünür bir hikmət varmış. Tale, qismət Zakiri Azərbaycan musiqi mədəniyyətinə və doğma el-obasına xidmət etmək üçün hazırlayıbmış.

Zakiri dinləyirəm: "Əfrasiyab müəllim mənim ali təhsil almağımın və sənətimlə daha yaxşı məşğul olmağımın qayğısına qalaraq Bakıya gəlməyim üçün Xaçmaz rayon mədəniyyət şöbəsinə və valideynlərinə məktub göndərdi.

Rayon rəhbərliyi bu təklifi böyük sevinclə qarşıladı. Ailəmiz qürur hissi keçirdi. Ata-anam həvəslə Bakıya gəlməyimə razılıq verdi. 1960-cı ildə mən Bakıya gəldim və ana babamın mülkinə, doğulduğum evə daimi qeydiyyata düşdüm.

Əfrasiyab müəllim respublikamızda fəaliyyət göstərən o zamankı Xalq Yaradıcılığı Evinin direktoru Məbud İsmayılzadə ilə söhbət aparmışdı ki, mənim işlə təmin olunmağıma köməklik göstərsin. Məbud müəllimin tapşırığı ilə məni Səttarxan adına zavodun (əvvəlki adı Leytenant Şmidt) Mədəniyyət və Texnika Sarayındakı mahnı və rəqs ansamblına məşqarası-qarmonçu təyin etdilər. Ustad qarmonçu Məmmədağa Ağayev burada əsas müşayiətçi, aparıcı-musiqiçi idi. Onunla bir yerdə çalışmağımla fəxr edirdim. Ondan rəqs kollektivi üçün çalmaq qaydalarını öyrənirdim. M.Ağayev də mənə hörmətlə yanaşır, ifamı bəyənirdi. Rəqs ansamblında fizika-riyaziyyat elmləri namizədi Məlik Babayev müşayiətçi-qarmonçu idi.

Zakir 1962-ci ildə Bakıdakı 36 saylı fəhlə-gənclər məktəbinin X sinfini bitirərək M.A. Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsinin əyani şöbəsinə daxil olur. Noyabr ayında Sovet ordusuna xidmətə çağrılır. Hərbi xidməti başa vuraraq 1964-cü ildə vətənə qayıdır. İnstitutda təhsilini davam edən Zakir aşıb-daşan bədii enerjisini müntəzəm məşqlərə, konsertlərə və el-obamızın toy-büsatına sərf edir. Cavan qarmonçuya məşq yeri axtarmaq lazım gəlmir. Yaxın qohumları Seyyid Kübra xanım onu çox istədiyindən mənzillərindəki otaqların birini çalıb-oxumaq üçün cavanlara ayırır. Onun oğlu Nəriman Səmədovun yaxşı səsi və oxumağı var idi. Birlikdə məşq edirdilər. Onların məşqinə nağaraçalanlardan Ramiz Həsənov, Rafiq Budaqov, Zöhrab Məmmədov, Tahir Hüseynov, klarnetçalanlardan Fərhad Hüseynov, Əzizağa Cabbarov, Kazım Cavadov gəlirdilər. Yüksək sənət eşqilə öz üzərində çalışan, ağıllı

adamların məsləhətini dinləyən, özündən yaşca çox-çox böyük sənətkarlarla oturub-duraraq onların zəngin təcrübəsindən bacarıqla bəhrələnən bu gənc musiqiçi özünə cığır açа-açа irəliləyirdi.

Deməliyik ki, Zakir hələ 13 yaşından Xaçmazın toylarında çalaraq sənətdə bərkiməyə başlamışdı. Bu uşağın çalğısını hər yerdə hərarətlə qarşılayır və böyük sənətkarların yanında əyləşən, yaşı, stajı az olan bu sənətçinin qarmon çalmağına xüsusi maraq göstərirdilər.

İnstitutda oxuduğu illərdə Zakir tam peşəkar qarmonçu kimi Azərbaycanın ən tanınmış musiqiçiləri və xanəndələrilə nəinki Bakıda, hətta respublikamızın əksər bölgələrində el şənliklərində müntəzəm iştirak edirdi.

1968-ci ildə o, ali təhsili başa vurur və təyinatla Azərbaycan Dövlət Filarmoniyasına solist-qarmonçu göndərilir.

Bu təyinat gənc musiqiçinin sənət aləmində, bədii ictimaiyyət içərisində, sənətkarlar arasında daha yaxşı tanınması üçün geniş imkanlar açırdı. Ürəyi könlünü verdiyi sənəti ilə döyünən, həyat amalı, yaşam tərzi musiqi olan coşqun ifalı Zakirin Dövlət Filarmoniyasında işləməsi ona çox şey verdi.

Hər ifaçı xalqın yaddaşına yazıla bilməz. Zakir çıxış etdiyi irili-xırdalı tədbirlərdə, toy-büsatdakı çıxışlarında, radioda səsləndirilən qəlbəyatımlı çalğılarında ayrı-ayrı fərdlərin qəlbinə köçür, damla-damla xalqın yaddaşına yazılırdı. Ə.Bədəlbəylinin zəhməti hədər getmir, uzaqgörənliyi özünü doğruldurdu.

Bu məqamda yenə Zakirin özünü dinləmək istəyirəm: "Çalışqanlığım, zəhmətə qatlaşmağım Allahın da nəzərindən qaçmamışdı. Ulu Yaradan hər yerdə mənə qapı açırdı.

1964-cü ilin sonlarında Televiziya və Radionun nəzdində professional hazırlıqlı musiqiçilərin öz ifalarında musiqi nömrələrini yazdırmaq üçün komissiya təşkil edilmişdi. Azərbaycan xalq musiqisinin inkişafı yolunda yorulmaq bilmədən çalışan fədakar insanlar, ustad tarzən, muğam bilicisi Əhməd Bakıxanov, bəstəkarlardan Səid Rüstəmov, Cahangir Cahangirov, Adil Gəray, müğənnilərdən Şövkət Ələkbərova və digər sənət adamları mənim ifaçılığımı diqqətlə dinləyib bəyənəndən sonra radionun fonduna çalğılarımın daxil olmasına razılıq verdilər. Sonra radionun baş redaktorunun rəsmi göndəriş kağızı ilə radionun səsyazma studiyasına göndərildim. Bu kimi işlərin o dövrlərdə öz qayda-qanunları, müəyyən mərhələləri aşıb-keçmək məsələləri və çətinlikləri var idi. O zaman bir ifaçının bir il ərzində 4-5 musiqi nömrəsinin yazılmasına icazə verilirdi. Lakin, elə həmin ildə mənim bəstələdiyim beş melodiyanı radionun fonduna aldılar. Artıq mən bütün sədləri keçərək respublikamızda ən çox tanınmış, sevilən və populyar qarmonçalan idim. Əslində elə qazandığım uğurlara görə ali təhsil ocağından birbaşa təyinatla ən mötəbər musiqi ocaqlarından birinə göndərmişdilər.

Ə. Bakıxanov da rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblına məni dəvət etmişdi. Onun sağlığı dövründə bu kollektivdə çalışmaq mənə qismət olmasa da, sonralar həmin ansamblda xeyli müddət qarmonçu-solist olaraq radionun lent yazılarında və canlı çıxışlarda, televiziya konsertlərində çaldım. Əsas iş yerim olan Dövlət Filarmoniyasında əvvəlki həvəslə işimi davam edirdim".

* * *

İlk dövrlərdən istedadı üzə çıxdığı üçün müntəzəm olaraq 1950-1960-cı illərdə və daha sonralar da Zakir haqqında qəzet və dərgilərdə məqalələr yazılmış, radioda verilişlər hazırlanaraq efirə verilmişdir. Qeyd etdiyimiz məlumatlar olan qəzet və dərgilər, radio verilişlərinin lentlərinin əksəriyyəti sənətkarımızın şəxsi arxivində qorunur. Zakir müəllim solo-konsertlərinin afişalarını da qoruya bilib. Sənətkarın keçdiyi şərəfli və məhsuldar sənət yolunu əks etdirən çox qiymətli məlumatlar, hətta son 10-15 ildə televiziya verilişlərindəki çıxışları və konsertlərini əks etdirən videolentlər də Z.Mirzənin şəxsi arxivində vardır.

Hazırlanmış "radio-oçerk"in birini dinləyirəm. Verilişin aparıcısı, radio-müxbiri danışır: "...1959-cu ildə Zakiri hələ çoxları tanımırdı. Odur ki, bir qədər geri qayıdaq. 1959-cu il imiş. Moskvada keçiriləcək Azərbaycan Mədəniyyəti və İncəsənəti ongünlüyünə ciddi hazırlıq gedirmiş.

Ölkənin paytaxtına (Keçmiş Sovetlər Birliyinin paytaxtı Moskva şəhəri nəzərdə tutulur. - Ə.R.) Odlar diyarının sözünü, sənətini təmsil edəcək ən layiqli nümayəndələr seçilirmiş. Zakirin ifasına qulaq asandan sonra onu da Moskvaya gedəcək sənətkarların sırasına daxil edirlər. Lakin, biləndə ki, Zakirin vur-tut 15 yaşı var, çıxılmaz vəziyyətə düşürlər. Axı əsasnaməyə görə ən cavan iştirakçı 16 yaşında olmalı idi. Nə isə, uzun mübahisədən sonra Zakirin də nümayəndə heyətinin tərkibinə daxil edilməsinə nail olurlar.



Zakir gənclik illərində

Zakir yaşca böyük sənət dostları ilə birgə paytaxtın (Moskvanın - Ə.R.) müxtəlif iri müəssisələrində, fabrik və zavodlarda, mədəniyyət saraylarında çıxış edir. Ongünlüyün sonunda isə paytaxtın sütunlu salonunda səhnəyə çıxıb o vaxtkı ən sevimli nömrələrini, "Bakı" rəqsini və "Bayatı-Şiraz" dəramədini (musiqisi T. Dəmirovundur) ifa edir. Səfərdən mükafatlarla, laureat kimi geri dönür".

* * *



Zakirin məşhurlaşdığı illər

Bilirik ki, bəşəriyyətin çoxəsrlik mədəni irsində musiqi xüsusi yer tutur.

İnsanın özünü ifadə və özünütəsdiq vasitəsi olan musiqi incəsənətin heç bir növü ilə müqayisə edilməzdir.

Musiqinin yaradılması hiss və fikirlərin harmonik vəhdətini, ehtiras və arzuların yüksək səviyyəsinin olmasını, ruhun yüksək notlarda gəzişməsini tələb edir.

Özünü sənətdə dərk edəndən, az-çox təsdiqləyəndən Zakir sənətində yuxarıda qeyd olunan fikirlər öz təsdiqini tapmışdı.

Musiqi şəxsiyyətin estetik tərbiyəsində mühüm yer tutur. Qədim mütəfəkkirlərin qeyd etdiyi kimi, musiqi - "qəlbin dilidir", "hisslər məktəbidir", o, insanların ürəyindən "od çıxarmağa", həyatda dayaq olmağa qadirdir.

Zakir qəlbinin saf hisslərini musiqinin dilinə çevirərək insanlarla danışıb həmişə. Emosional dil olan musiqisilə bu ifaçımız yatmış bəxtləri oyanmağa çağırıb, sınıq könülləri ovundura bilib, çox ürəklər coşdurub, çox arzu-diləklərə qanad verib və neçə-neçə istəkləri bir-birinə qovuşdurub.

Efirdə çaldığı şən, oynaq oyun havaları ilə gənclərin qəl-

binə od salıb, sevgi oyadıb, cavanlarda toy-nişan ovqatı yaradıb və onları ailə qurmağa səsləyib.

Zakirin konsert, toy çalğılarından, "Mirzəyi"sindən, "Vağzalı"sından, "Tərəkəmə"sindən, "Oynaq rəqs"i, "Azəri", "Zakiri", "Şəfayəti" adlanan və neçə-neçə toy ovqatlı, şadlıq büsatlı havalarından sevgi dolu ürəklər riqqətə gəlib danışıb, məhəbbət alovu ilə alışıb, dilləşib-anlaşıb və nəhayətdə toyda birləşib.

Zakirin "Segah"ı hər dəfə səslənəndə neçə kinli, acıqlı ürəklər yumşalıb. Bu bənzərsiz, sehr dolu, hikmət dolu "Segah" bütün musiqiduyarları ram etməyə qadirdir.

Lunaçarski haqlı olaraq qeyd edirdi ki, "musiqi bütün səslər dünyasını, yaxud da verilmiş səs sistemini harmoniyaya çevirir".

Zakirin öz səslər dünyası var idi. Onun çalğısında hər an harmoniya yaranırdı. Bu onun daxili aləminin, mənəvi dünyasının, təmiz qəlbindən süzülüb gələn səslərin harmoniyası idi. O zamanlar o özü hələ harmoniyanı bilmirdi. Lakin, xalq musiqimizin zənginliklərindən süzülüb durulan, təmiz azəri türkünün varlığında, genində, qanında saflaşan harmoniya olaraq öz-özünə, bədahətən alınırdı.

O, cığır açıb sənət yoluna çıxdığı zamandan özü də bilmədən özünə gündən-günə, aydan-aya, ildən-ilə artan pərəstişkarlar toplayırdı. Efirdə ifaları səsləndiyi ilk anlardan onun adına radionun ünvanına çoxlu, müxtəlif məzmunlu minnətdarlıq məktubları gəlirdi.

Bu gün bu ifaçının özünü sənət aləmində tam təsdiq etdiyi bir vaxtda televiziya və radio verilişləri redaksiyalarına musiqisevərlərin daha çox və daha məzmunlu yazıları məktublar vasitəsilə yol almaqdadır.

Yazımızda qeyd etmişik ki, 1964-cü ilin axırlarında Zakirin ifasında beş rəqs melodiyası radiomuzun fondu üçün götürülmüşdü. Özünün bəstələdiyi, "Şənlik rəqsi", "Rəqs melodiyası", "Gülşəni" rəqsi, "Yeni rəqs" və xalq oyun havası "Qazaxı" lentə yazılmışdı. Bu çalğıların hamısını mahir nağaraçı Zöhrab Məmmədov müşayiət etmişdir.

Zakirin bu ifası qarmon ifaçılığına yeni çalarlar gətirmişdi. Bu tamamilə orijinal bir sənət, yeni səpgi idi. Bu çalğılarda yarımtonlardan bacarıqla istifadə etmək qabiliyyəti var idi. Onun sonrakı dövr yaradıcılığına da yuxarıda dediklərimiz tam şamil olunur. O, yaratdığı melodiyalarda və çaldığı xalq havalarında cəld, iti və çox güclü barmaqlarının və daxili hisslərinin sayəsində qarmonun qara dilləri (yarım ton) və ağ dilləri (ton) arasında əlaqə yaradaraq musiqini daha bəzəkli, çox şirin, cəzbedici formada çatdırır. Dilli (klaviş) alətlərdə söylədiyimiz ifa tərzi çox çətindir. Bu böyük ustalıq tələb edir. Axı, haqqında danışdığımız ifaçılıq səpgisi dilli (klavişli) alətlər üçün xarakterik deyil.

Zakir Mirzə simli alətlərə, xüsusilə kamanlı musiqi alətlərinə (kaman, skripka, viola və s.) xas olan çalarları, ifa xüsusiyyətlərini özü də bilmədən qarmon sənətinə gətirmişdi. Bu şedevr idi. Bu yenilik yaxşı qarşılandı. Çünki burada gözəl ifa, incə duyum, böyük ustalıq iş görürdü. Belə sənət nümunələrində dinləyicinin hiss və duyğularına təsir edən emosional güc var idi. Zakir sənətində ağ və qara dillərin bir-birilə sıx vəhdəti və harmoniyası var.

* * *

İncəsənətin predmeti onu başa düşən və gözəllikdən zövq ala bilən adamları yaradır.

Zakir musiqi üçün yaranmışdı. Musiqinin gözəlliyindən zövq almağı, onu duymağı bacarırdı. Həyatın şirinliyini, təbiətin gözəlliklərini musiqiyə gətirirdi. Bizə elə gəlir ki, qarmon ifaçılığı sənətində bu biçimdə, bu seçimdə, bu yetkinlikdə, bu bitkinlikdə, bu sürətdə və bu cəsarətdə ikinci birisi hələ olmamışdı.

Zakirin özünü də musiqi yaradır, musiqi formalaşdırır, həyat meydanına çıxarır və cəmiyyət üçün hazırlayırdı.

Musiqidə ifaçılıq ilə zövq almaq bir-birinə müvafiqdir.

Zakir kimi sənətçinin zövqü və ifaçılığı bir-birindən yaranır və bir-birini tamamlayırdı.

Yazımızda qeyd etmişik ki, Zakir Mirzə sənətilə qarmon ifaçılığına yeni nəfəs, yeni həvəs, təpər, güc-qüdrət və inkişaf gəlmişdi.

Nəinki xanəndələr, ifaçılar, ayrı-ayrı şəxslər, hətta böyük bəstəkarlar, tanınmış ziyalılar və dahi şəxsiyyətlər onun haqqında söz deməyə, ürək dolusu danışmağa başlamışdılar.

1978-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Dövlət Konsert-Qastrol Birliyini yaratdı. Müğənnilər, ansambllar və solist instrumental ifaçılar həmin təşkilata köçürüldülər. Zakir də solist-qarmonçu kimi orada çalışırdı. O dövrdə filarmoniyanın direktoru dünya şöhrətli drijor-bəstəkar, maestro Niyazi idi. Niyazi Zakiri tanıyır və sənətini bəyənirdi. Zakir Mirzə ötən dövrü xatırlayır:



Maestro Niyazi (1912-1984)

"Maestro Niyazi obyektiv adam idi. Yaxşı musiqiçilərə xoş münasibət bəsləyirdi. 1979-cu ildə mənim televiziya çıxışlarımın birini seyr edərkən qarmonda çaldığım melodiyalarda sağ-sol əllər ilə sual-cavab çalmağım onun diqqətini çəkir. Xalq melodiyalarından başqa Şərq və Qərb bəstəkarlarının əsərlərindən nümunələr də ifa etmişdim. Repertuar da bu böyük musiqiçini qane edibmiş.

Konsert axşamının səhəri filarmoniyanın işçilərindən birini ardımca yaşadığım mənzilə göndərmişdi. Həmin gün məni öz musiqiçi heyətimlə birlikdə təcili filarmoniyanın səhnəsinə dinləyişə, məşqə çağırmışdı.

Özü birinci sırada əyləşərək diqqətlə məni dinləyirdi. Ətrafına bəstəkar Telman Hacıyevi, filarmoniyanın bədii şurasının üzvlərini və həm də inzibati işçiləri toplamışdı. Bütün ifalarımı diqqətlə dinləyən Maestro Niyazi sənətimə yüksək qiymət verməklə məni "Qarmonun Paqaniniси" adlandırdı.

Mən həmin dinləyişdə qəfildən qarmonu tərsinə çevirib sol əl ilə aşağıdan yuxarı çalmağa başlayıb, sağ əlim tərəfə düşən alətin sol gövdəsinin düymələrilə unison və ya iki-üç səslə müşayiət etməyə başladım. Maestro dedi ki, - bu ifa virtuozluğun zirvəsi sayılır.

Zakir Mirzə o zamana qədər heç bir xarici ölkə səfərlərinə getməmişdi. O dövrün, Sovet dövlətinin öz ciddi qayda-qanunları və qadağaları var idi. Sənətçi əvvəlcə sosialist ölkələrində olmalı idi ki, sonra kapitalist ölkələrinə səfər edə bilsin. Həm də səfərə yollananın həbsdə ailə üzvləri və ya yaxın qohumları var idisə, o zaman sənətkar ölkə xaricinə buraxılmırdı.

Virtuoz sənətilə, Maestro Niyazinin göstərişi ilə Zakir Mirzə birbaşa ilk olaraq kapitalist ölkəsi olan Hollandiyaya göndərilən heyətin üzvlüyünə daxil edildi. Musiqiçi heyətinin rəhbəri böyük bəstəkarımız Tofiq Quliyev idi. Ciddi məşqlər apararaq həmin heyət 1979-cu illərin sonlarında Hollandiyada böyük nailiyyətli çıxışlar etdi. Bu Zakirin xarici ölkəyə ilk səfəri və yadda qalan uğurlarından biri oldu.

* * *

1981-ci ilin sonlarında Azərbaycan musiqiçiləri Nepala və Hindistana səfərə göndərilir. Heyətin üzvləri xanəndə İslam Rzayev, tarzən Həbib Bayramov, kaman ustası Habil Əliyev, nağaraçalanlar Böyükağa Muradov, Əli Əmiraslanov, qarmonçalanlar Zakir Mirzəyev, Hüseyn Həsənov və Dövlət Mahnı və Rəqs ansamblının kiçik bir qrupu idi.

Xarici ölkədə veriləcək konsertin proqramına nəzər-diqqət edib yoxlamaq üçün böyük bəstəkar Fikrət Əmirov və Mədəniyyət Nazirliyinin rəhbər və məsul işçiləri dəvət olunmuşdular. Proqrama baxış filarmoniyada keçirilirdi. Zakirin də solo çalğıları dinlənildi. O, əvvəlcə öz yaradıcılığının məhsulu olan "Muğam və rəqs"i çaldı. Sonra xarici ölkə bəstəkarlarının əsərlərindən bir neçə nümunə göstərdi. Sonda qarmonu tərsinə çevirib çalarkən bu möcüzədən vəcdə gələn Fikrət Əmirov ayağa qalxmışdı. İfa bitən kimi o, səhnəyə qalxıb Zakirin iki əlindən də tutaraq, sənətkarın əllərini yuxarı qaldıraraq, ona minnətdarlıq edərək ürək dolusu tərifləmişdi.

Nepala və Hindistana gedən sənətçilər heyətinin rəhbəri F. Əmirov idi. 12 gün Nepalda qalan sənətkarlarımız həddən artıq hərarətlə, hörmətlə qarşılanan 8 uğurlu konsert vermişdi. Bu işdə hər bir musiqiçimizin yüksək peşəkarlığı, məsuliyyəti və sənət amalı yüksək rol oynamışdı. Böyük səs sənətçimiz İ. Rzayevin oxuduğu muğam, təsnif və bəstəkar mahnıları, mahnı və rəqs ansamblının qeyri-adi solo ifaları Nepal tamaşaçılarını heyrətləndirmişdi.

Nepal dövlət quruluşuna görə krallıq ölkəsidir. Konsertlər o dərəcədə səviyyəli keçirdi ki, hətta bu konsertlərin əksəriyyətində kral öz ailə üzvləri ilə iştirak edərək birinci sırada əyləşir, həvəslə dinləyir, maraqla tamaşa edib alqışlayırdı.

Zakir yüksək peşəkarlığı və virtuozluğu ilə kralı da ovsunlamışdı.

Sonuncu konsertdən sonra dövlət başçısı Azərbaycandan gələn sənət adamlarının şərəfinə dünya mətbəxinin ən yüksək nümunələrilə zəngin ziyafət vermişdi. Ziyafətdə kral Azərbaycan



1984-cü il. Xaricə səfərlərdən biri. Zakir Mirzə (sağdan birinci) Azərbaycan səhnə ustaları ilə. Heyətin rəhbəri xalq artisti, bəstəkar Aqşin Əlizadə (soldan dördüncü)

musiqisinin qüdrətindən, sehrindən danışmış və bütün sənət adamlarımızı tərifləmişdi. O, çıxışının sonunda bir xahişi olduğunu bildirir: - "Mən istərdim ki, qarmonçu Z. Mirzəyev konsertlərdə ifa etdiyi musiqiləri burada da təqdim etsin. Bu mənim, ailə üzvlərimin və burada iştirak edən çox hörmətli və əziz qonaqlarımızın arzusudur".

Heyətin rəhbəri F. Əmirov da bu fikri alqışladığını bildirir. Z. Mirzə əvvəlcə öz repertuarını təqdim edir, sonra qarmonu tərsinə çevirərək sağ, sol əllə maraqlı, sual-cavablı, bir-birini tamamlayan cümlələrlə heyrətli bir nümunə göstərir, sonda qədim bir xalq mahnımızı ifa edərək ortada təsirli bir "Segah" çalır. Zakirin çıxışları böyük maraqla və alqışlarla qarşılanır. Dövlət səviyyəsində təşkil olunmuş bu ziyafət səmimi, mehriban, dostluq, qardaşlıq məclisinə, xalqlararası mədəniyyətin tanışlığı tədbirinə çevrilir. Kral səmimiyyətini və razılığını bildirir.

Nepaldan Hindistana gələrkən Fikrət Əmirov Habil Əliyev və Həbib Bayramovla söhbət edərək Zakirin "Segah"ı haqqında danışır: -"Əzizlərim! Bilirsiniz ki, mən tarzən olmuşam. Muğamlarımıza və musiqi alətlərimizin imkanlarına, ifa qaydalarına yaxından bələdəm. Zənnimcə siz də mənimlə razılaşarsınız ki, Zakirin "Segah" ifası heyrətamizdir. Bu ifa zənginliklər, müxtəlif təsirli səs çalarları, yeni fikirlər və hikmətlərlə doludur. Bu "Segah" insanı istər-istəməz öz aləmindən qoparır, öz dünyasından çıxararaq başqa bir möcüzəli aləmə aparır. Onun "Segah" ifasında keçmişimiz, bu günümüz və sabahımız vardır".

Hindistan ölkəsində də 3-4 gün qalan böyük sənətkarlarımız bir neçə uğurlu konsert verərək vətənə dönür.

1982-ci ildə Zakir Mirzə Vyetnam ölkəsinə 15 günlük səfərə göndərilir. Bu sənət səfəri üçün xanəndələr, Baba Mahmudoğlu, Zaur Rzayev, Zümrüd Məmmədova, tarzən Həbib Bayramov, kamançaçı Hilal Məmmədov, nağara ifaçısı Böyükağa Muradov toplanmışdı. Yaxşı repertuar hazırlanmışdı. Bu proqramla Azərbaycan musiqisinin gücü və yüksək səviyyəsi dünyanın hər hansı bir ölkəsində göstərilə bilərdi, göstərildi də. Müğənnilərimizin oxuduqları muğam və mah-



1982-ci il. Vyetnam. Zakirin solo çıxışı. Səhnədə tarzən xalq artisti, tarzən Həbib Bayramov, nağaraçalan əməkdar artist Böyükağa Muradov və qoşanağaraçı Fərhad

nılar, musiqiçilərimizin hər birinin ayrı-ayrılıqda ifa etdikləri sololar, xüsusilə Zakirin şux, oynaq rəqs melodiyaları konsert proqramını rəngarəng və məzmunlu etmişdi. Zakir Vyetnam tamaşaçıları qarşısında da öz möcüzələrini göstərirdi, qarmonu ifa zamanı qəfildən çevirərək ustalıq nümayiş etdirirdi. Tamaşaçılar ayağa qalxaraq sürəkli alqışlarla onu yenidən səhnəyə çağırırdılar. Zakirin repertuarında Montenin "Çardaş" əsəri də var idi.

Azərbaycan sənətçiləri ilə rəhbər kimi Lidiya Rəsulova getmişdi.

Zakir bu səfərə həm ansambl tərkibində, həm də solist kimi göndərildiyi üçün o, bu məsuliyyəti hiss edir və çox hünərli bir sənət göstərirdi. Vyetnamın bütün informasiya vasitələri Azərbaycan sənətçilərinin, xüsusilə Z. Mirzəyevin virtuoz ifaçılığından danışırdı. Konsertlərin sonu Zakirin solo çıxışları ilə tamamlanırdı. Onu unikal ritm ifaçısı, nağaraçalan B. Muradov "zərgər dəqiqliyi" ilə müşayiət edirdi.

Hanoyda sonuncu konsertdə qəribə bir hadisə baş verdi. Konsertin sonunda çıxışı zamanı Zakir adəti üzrə özünü unudaraq iti, cəld barmaqlarla öz qəlbindəkiləri izhar edərkən qarmonun sol ələ keçirilən kəməri qəfildən qırılır. Vəziyyətdən çıxmaq və konsertin nizamını pozmamaq üçün o, dərhal qarmonu tərsinə çevirib çənəsini alətin gövdəsinə sıxaraq ifasını sonuna qədər davam edir. Bu özü də sənətkarın möcüzələrinə bir dəstək, bir təkan olur.

Dünya musiqi aləmində buna bənzər hadisələr olub. Belə vəziyyətlərdən çıxan sənətkarlar həmişə öyülüb, xatırlanıb və "əfsanəvi" musiqiçi kimi yadda qalıblar. Elə burada yada düşür ki, ölməz Niyazi Zakiri "Qarmonun Paqaninisi" adlandırmaqda səhf etməyibmiş.

Vyetnamın dövlət rəhbəri Azərbaycan sənət adamlarının uğurundan çox məmnun qalaraq onları "Vyetnamın fəxri vətəndaşları" sıralarına daxil edir.

Tariximizin geri anlarına nəzər yetirdikdə müşahidə edirik ki, Zakir 1979-cu ildə Brüsseldə keçirilən Beynəlxalq müsabiqədə iştirak etmişdir. Buraya dünyanın hər yerindən gəlmiş ən yaxşı ifaçılar toplanmışdı. Onların hər birinin çıxışı yüksək səviyyədə keçir, xarüqələdə bir hadisəyə



Vyetnam səfəri. 1982-ci il. Müğənni Zaur Rzayevdir.
Sağdan: Hilal Məmmədov, Zakir Mirzə, Həbib Bayramov, Elşad Cabbarov

çevrilirdi. Zakir özü bu barədə belə yazır: "Mən onları dinlədikcə özlüyümdə fikirləşirdim: necə eləyim ki, salondakıları heyrətləndirə bilim. Qərara gəldim ki, ifa zamanı gözlənilmədən qarmonu çevirib, sol əlimlə çalım. Elə də etdim. Birdən salonda elə gurultulu alqış qopdu ki, özüm də karıxıb qaldım. Alqışların ardı-arası kəsilmirdi. Çalıb qurtarandan sonra məni səhnədən buraxmaq istəmirdilər...".

Onun bu çıxışı bütün avropalıları valeh etmişdi. Zakir Brüsseldən qızıl medalla qayıtdı.

Mali Respublikası Afrika ölkəsidir. Paytaxtı Bomako şəhəridir. Zakirgilin musiqiçi heyəti bu ölkəyə Xarici Ölkələrlə Əlaqələr və Dostluq Cəmiyyətinin xəttilə 1983-cü ildə getmişdi. Cəmiyyətin sədri xalq şairi Nəbi Xəzri, müavini Rasim Süleymanzadə idi. Səfərə gedən heyətin rəhbəri və tərcüməçisi Rasim Süleymanzadə, ümumi rəhbər isə Sənan Axundov təyin olunmuşdu. 10 günlük səfərdə 7 konsert verilmişdi. Bəzən bir gündə 2 konsert keçirilirdi. Tarzən Həmid Vəkilov, kamançaçalan Hilal Məmmədov idi. Müğənnilər Canəli Əkbərov, Zaur Rzayev, Zümrüd Məmmədova, Dövlət Mahnı və Rəqs ansamblının kiçik bir qrupu maraqlı proqramla çıxış edərək tamaşaçı sevgisini qazanmışdılar. Bütün qəzetlər Azərbaycan artistlərinin məharətindən yazırdı.

Zakir Mirzə öz proqramını "Muğam və rəqs"lə başlayır və ikinci təqdim etdiyi melodiya həmin ölkənin lirik əhvallı xalq mahnısı olurdu. Bütün tamaşaçılar bu mahnını ifaçının qarmonunun məlahətli səsi altında oxuyurdular. Uzun sürən alqışlardan sonra Zakir Montenin "Çardaş" əsərini çalırdı. Bütün ifalardan sonra tamaşaçılar ayaq üstə duraraq əl çalırdılar. Yenidən səhnəyə qaytarıldıqda, sonda Z. Mirzə qədim "Azərbaycan" rəqsini ifa edirdi. Girişdə "Zəmin-xarə", "Dügah" muğam hissələri gəzişir və sonra oynaq ritmlərlə rəqs melodiyasını tamaşaçı ovqatını daha da şən etmək üçün çalırdı.

Ölkə qəzetlərinin biri Zakirə ayrıca səhifə ayıraraq, şəklini verib onun böyük sənətkarlığından yazırdı.

Azərbaycan heyəti oteldə nahar edərkən R. Süleymanzadə qəzeti əlində tutaraq hamıya göstərib Zakirin əlini sıxıb, ürəkdən təbrik etmişdi.

Zakirin uğurlu sənəti, şən xasiyyəti, yol yoldaşlığı və mehribanlığı R.Süleymanzadənin və S.Axundovun diqqətini cəlb etmiş, sonrakı dövrlərdə də onlar arasında səmimi yoldaşlıq, dostluq əlaqələri yaratmışdı. Bakıda Rasim müəllimin toyuna Zakir öz dəstəsilə dəvət olunmuş və sənətkarımız burada yaddaqalan ifalar göstərmişdi.

Azərbaycan sənət adamları ilə birgə Zakirin Polşa, Macarıstan və Rumıniya ölkələrində də müxtəlif illərdə müvəffəqiyyətli çıxışları olmuşdur.

1984-cü ildə Azərbaycan sənətçiləri Konqo və Anqola ölkələrinə göndərilir. Səfər 15 gün davam edir. Heyət Azərbaycan Xarici Ölkələrlə Əlaqələr və Dostluq Cəmiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə göndərilmişdi. Ansamblın heyətinə tarzən Adil Bağırov, kaman çalan Hilal Məmmədov, qarmonçu Abutalıb Sadıqov, nəfəsli alətlər ifaçısı Elşad Cabbarov, nağara ifaçısı Əli Əmiraslanov və qoşanağara çalan Fərhad Bakılı daxil edilmişdi. Müğənnilər Qaraxan Behbudov, Züleyxa Mirismayılova və Süleyman Zeynalov idi. Zakir Mirzə dəstəyə yenə də solist-qarmonçu kimi dəvət olunmuşdu. Qrupun rəhbəri bəstəkar Aqşin Əlizadə idi.

Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının 2 rəqqası və rəqqasəsi də bu səfərdə böyük bacarıq nümayiş etdirmişdilər. Əvəz Qasımov və Nisə Rəhimovanın milli ruhlu, gözəl quruluşlu rəqslərimizi oynaması tamaşaçılara o qədər maraqlı idi ki, alqışlar kəsilmirdi.

Zakir Mirzəyev repertuarında bəzi dəyişikliklər etmişdi. Belə ki, o, açılışı "Orta-Mahur" muğamı ilə edir, sonra öz proqramından bir-iki nümunə göstərir, axırda isə "Martov xorovodu"nu çalırdı. Uzun sürəkli alqışları qazanıb tamaşaçıların tələbilə yenidən səhnəyə qaytarılanda, həmin ölkənin ən populyar musiqisini ifa edib çıxışını tamamlayırdı. Yerli informasiya vasitələrinin hamısı Azərbaycan qarmonunun sehrindən, ifaçının geniş imkanlarından və məharətindən söz açırdı.



Konqo, 1984-cü il. Soldan: Zakir Mirzə, əməkdar artist Züleyxa Mirismayılova, xalq artisti, bəstəkar Aqşin Əlizadə, nağaraçalan Əli Əmiraslanov, rəqqasə xanım və tarzən Adil Bağırov (həz. xalq artisti)

Ümumiyyətlə, Konqoda və Anqolada hər bir sənət insanımız öz bacarığını göstərə bilmiş və vətənimizi layiqincə tərənnüm etmişdi.

İstər yuxarıda adlarını qeyd etdiyimiz Avropa ölkələrində, istərsə də ərəblərin diyarında, müsəlman dünyasında Zakir Mirzə sənəti eyni maraqla, yüksək səviyyədə qarşılanmış, sənətkarın hər bir ifası əhəmiyyətli dərəcədə Azərbaycan ifaçısına şöhrət gətirmişdir.

Ayrı-ayrı illərdə ərəb ölkələri Liviya, Misir və Mərakeşdə Azərbaycan musiqisinin səslənməsi o dövr üçün mühüm əhəmiyyət kəsb edirdi. Belə ki, ana vətənimiz Azərbaycan o zaman Sovetlər Birliyinin əsarətində idi. Uzaq ölkələrdə, digər qitələrdə musiqimizin səslənərək uğur qazanması, sevilməsi Azərbaycanımızın tanınması üçün müəyyən işlər görmüşdü. Milli mədəniyyətimizin, xalq musiqimizin tanınaraq sevilməsində Zakir Mirzənin də çox böyük xidmətləri olmuşdu. Yüksək enerji, sonsuz həvəs və dərin sevgi ilə Liviya, Misir və Mərakeşdə milli musiqimizi təbliğ və təmsil edən Zakir həmin ölkələrdə də yaxşı iz, unudulmaz xatirə qoymuş və sevilən sənət göstərə bilmişdi. Böyük sevinclə deməliyik ki, Zakirin ifası və rəngarəng repertuarı böyük musiqi xadimlərimizin, musiqisevər xalqımızın, başqa ölkələrdəki musiqiçilərin və dünya xalqlarının rəğbətini qazanmışdı. Doğrudan da, qarmon ifaçılığı sənətində bu səviyyəyə çatanımız, ikinci belə fenomen sənətçimiz olmamışdı.

Hələ Hollandiya səfərinə hazırlıq dövründə proqrama baxış keçirən Maestro Niyazi 1979-cu ildə Zakirin yüksək peşəkar ifaçılıq bacarığına vurğun olaraq demişdi: "Zakir, bax burada, filarmoniyanın bu səhnəsində sənin lə Vaqif Mustafazadənin birgə konsertini təşkil etməliyik. Birinci şöbədə hər birinizin ayrı-ayrı çıxışlarınız, konsertin ikinci hissəsində isə iç-içə, birlikdə, sintez olunmuş ifalarınız göstərilməlidir. Bu çox maraqlı, qeyri-adi, unikal bir şey ola bilər". Əfsus ki, bu arzu həyata "vəsiqə" ala bilməmişdi. V.Mustafazadə 1979-cu ildə dünyadan köçdü.

Bir musiqiçi, bir tamaşaçı və həm də kitab yazmaq arzusunda olan bir həvəskar kimi demək arzusundayıq, bəlkə ölməz sənətkarımız Niyazinin istəyini bu dövrümüzdə reallaşdıraq? V.Mustafazadənin yadigarı, sevimli övladı, cazmen-pianoçu, müğənni Əzizə Mustafazadə ilə Zakir Mirzənin birgə konsertləri düzənlənsin?!

Zakirin muğam improvizələri ilə Əzizə xanımın caz fantaziyaları sintez edilərək musiqisevərlərin ixtiyarına verilsə zənnimizcə əhəmiyyətli bir hadisə ola bilər. Necə ki, ustad xanəndə, xalq artisti Alim Qasımovun dünyanın müxtəlif janrlı musiqi qrupları, orkestrlərilə muğam parçalarını oxuyaraq sintez etməsi dünya musiqi aləmi tərəfindən bəyənilir. Və yaxud istedadlı musiqiçi, yaradıcı şəxs, xalq artisti Milli Konservatoriyanın rektoru Səyavuş Kərimin Azərbaycan və Norveç musiqiçilərinin çıxışını özündə əks etdirən layihələri və yaxud onun fikir və düşüncələrinin məhsulu olan bu səpgili tədbirlər necə də təqdirəlayiqdir. Norveç və Azərbaycan musiqiçilərinin birgə çıxışlarındakı tədbirdə tarımızın, kamanımızın, ritm alətlərimizin, xanəndələrimiz Nazpəri Dostəliyeva və Zabit Nəbizadənin oxuduqları muğam, təsnif və mahnılar qardaş ölkə sənətçilərinin çıxışları ilə necə də bir-birinə uyuşur, biri digərini tamamlayırdı.

Bəstəkarlarımızın, yaradıcı adamların yuxarıda haqqında söz açdığımız tədbirlərin hazırlanması və təşkili zamanı zənnimizcə Zakir kimi ustadların da iştirakını vacib bilməlidirlər. Belə ki, belə "layihə"lərdə də qarmonumuz öz sözünü deməlidir.

Düşünürük ki, Zakir Mirzə ömrünün ən sanballı, sənətinin müdrik çağında sehirli sənəti və sevimli qarmonu ilə ölkəmizdə və dünyanın sivilizasiyalı ölkələrində keçirilən müxtəlif mədəniyyət tədbirlərində, musiqi yaradıcılığı layihələrində iştirak edərək bu sahədə də yeni cığırlar açmalı, sənət sözünü deməlidir.

Zakir Mirzə Kamboca dövlətində 1989-cu ildə konsertlərdə olmuşdur. 2 həftə davam edən bu səfərdə Zakir kambocalıları heyrətləndirə bilmişdi. Bu konsertlərdə tarzən Həbib Bayramov, kaman çalan Qabil, nağaraçalan Çingiz Mehdiyev, müğənnilər İlhamə Quliyeva, Niyaməddin Musayev, rəqqas Yusif Qasımov, rəqqasə Səbinə Qasımovanın çıxışları Azərbaycan mədəniyyətinin həqiqi təbliği idi.

Zakir Mirzənin İran İslam Respublikasına səfərləri mühüm əhəmiyyət kəsb edir. Orada yaşayan yurddaşlarımız belə sənətkarların gəlişini həmişə səbirsizliklə gözləmiş, toy-bayramla qarşılamışlar.

Z. Mirzənin o ölkədə verdiyi solo-konsertlər dövrünün çox böyük hadisəsi idi. Sənətkarımızın milli qarmonumuzu, bütünlükdə isə xalq musiqimizi səsləndirməsindən yurddaşlarımız iftixar və qürur hissi keçirirdilər.

İranın böyük şəhərlərində - Tehranda, Təbrizdə, İsfahanda... Zakirin konsertləri tamaşaçılar tərəfindən yüksək qiymətləndirilmişdir. Təbrizdə fars və Azərbaycan dillərində dərc olunan "Fəcr Azərbaycan" qəzetinin 1993-cü il tarixli, 988-ci sayında "Ürəyi çırpınır barmaqlarında" adlı məqalədə yazılıb: "Adını eşidib, üzünü görmədiyimiz, ancaq illər boyu ürəyimizdə yaşatdığımız Zakir Mirzəyev bu gün öz qarmonunu dilə gətirərkən sanki ulu dağlarımızın seyrinə düşürük. Savalanın saysız-hesabsız tarixi kitablarını vərəqləyib, qəhrəmanlıq rəmzini öyrənirik, Səhəndin uca zirvəsində Şəhriyarın ürək döyüntülərini, könül bağırtılarını eşidirik, onun pıçıltılarından ürəyimiz kövrəlir, bayatımız ağıya, ağımız isə fəryada çevrilir...".

Həmin qəzetin 989-cu sayında Lətif Hüseynzadənin məqaləsində isə oxuyuruq: "Mahir ifaçılıq sənətinə malik olan Zakir Mirzəyevin qarmonunda Azərbaycan muğamları, xalq mahnıları, Azərbaycan bəstəkarlarının əsərləri özünəməxsus bir ustalıqla səslənir".

İranın ən böyük şəhəri və paytaxtı olan Tehranda da Zakirin konsertləri çox uğurlu keçmişdir. Şəhərin məşhur "Rudəki" salonundakı çıxışı Tehran musiqisevərləri tərəfindən hərarətlə qarşılanmışdır. Tehranın "Əxbar" qəzeti onun ifaçılıq sənətinə yüksək qiymət verərək yazırdı: "İranda qarmon heç zaman tək bir alət kimi səhnəyə yol tapmamışdı. Ancaq "Rudəki" salonunda iki gecə verilmiş konsert sübut etdi ki, bu alət haqqında çox söz demək olar".



1995-ci il. Tehran şəhərində jurnalist Zakir Mirzənin televiziya çıxışından sonra müsahibə götürərkən



Təbriz şəhəri, 1993-cü il. Soldan: Firudun Zakiroğlu, Zakirin təbrizli tələbəsi Məcid, Zakir Mirzə, bəstəkar-tarzən Əli Səlimi və kaman ifaçısı, təbrizli Əmir



Təbrizdə Zakirin konserti. Müşayiət edirlər (soldan) bəstəkar, x.a. Tofiq Bakıxanov və təbrizli nağaraçı

Konsertlərdən sonra soydaşlarımız səhnə arxasına gəlib Zakir müəllimi yaxından görür, əlini sıxıb üzündən öpüb, xoş, səmimi sözlərlə sevgi və sayqılarını izhar edirdilər.

Tehranda yaşayan bir qardaşımız kövrələ-kövrələ Zakir Mirzəyə demişdi: - "Mən səni və qarmonunu tez-tez yuxuda görürdüm. Ayılanda qarmonun səsi qulaqlarımdan getmirdi. Sənlə görüşməyimizə inanmırdım. Şükr olsun Allaha, gəldin səni gördük. Əziz qardaşım, biz, cənubda yaşayan türklər səni lap çox istəyirik".

Z. Mirzə deyir ki, bu sözləri o insan Güney Azərbaycan türklərinin ləhcəsilə elə şirin və səmimi söylədi ki, elə mən özüm də təsirlənib ağladım.

Zakir müəllimin İrandakı coşqun, təntənəli çıxışları inanırıq ki, orada qarmon ifaçılığı sənətinin inkişafına bilavasitə xidmət edəcək.

Hörmətli sənətkarımızın İran İslam Respublikasındakı konsertləri uzun bir dövrün üst-üstə qalanmış həsrət, dərd yükünü necə də yüngülləşdirirdi. Onun dərin və zəngin ifaları ilə könüllər ovunurdu, yaralar sızıldamırdı, qaysaq bağlayırdı. Zakir sənətində Vətən birləşirdi, Azərbaycan boyda bir dünya birləşirdi.

Bu müdrik, əsrarəngiz, sehirli, nikbin sənətdə xalqımızın min illər boyu keçdiyi yol, millətin özünə xas yaşam tərzi, xalqın özünü dərki və gələcəyə böyük inamı var.

2005-ci il sentyabr ayının 25-dən 29-a qədər Türkiyənin Qars şəhərində Qafqaz Xalqlarının II Qurultayı keçirilmişdir. Qurultayın təşkilatçılarından Musiqi Akademiyasının rektoru, xalq artisti, professor Fərhad Bədəlbəyliyə "faks" gələrək ondan həmin tədbirdə iştirak və çıxış etmək üçün musiqişünas alimlər, folklor kollektivi göndərməsini və özünün iştirakını xahiş etmişdilər. Azərbaycandakı mühüm dövlət tədbirlərilə əlaqədar Fərhad müəllim Türkiyəyə gedə bilmədiyi üçün, bu işi fəlsəfə elmləri doktoru, musiqişünas alim, Musiqi Akademiyasının professoru, rektorun elmi işlər üzrə yardımçısı Gülnaz Abdullazadəyə həvalə etmişdi. Gülnaz xanım Türkiyəyə əməkdar artistlər, qarmon ifaçısı, Zakir Mirzəyevi, muğam ifaçısı Nuriyyə Hüseynovanı, tarzən

Elçin Nağıyevi, kaman ifaçısı Fəridə Məlikovanı, xanəndə Rövşəni, "Aysel" uşaq və gənclər rəqs qrupunu aparmışdı. Səfərə gedən heyətin üzvləri 20 nəfərdən ibarət idi. Musiqişünas alim, sənətşünaslıq namizədi Fərəh xanım Əliyeva da bu qrupun üzvlərindən biri kimi iştirak edirdi. Səfərə gedən heyətin rəhbəri Gülnaz xanımın və Fərəh xanımın elmi mühazirələrinin mətni öncədən qurultayın təşkilatçılarına göndərilmişdi.

Qars şəhərinə Gürcüstandan, Ermənistandan, Rusiyadan, Baltikyanı respublikalardan, Polşa, Çexoslovakiya, Rumıniya ölkələrindən alimlər və musiqi folkloru kiçik heyətləri gəlmişdi. Qurultay mədəniyyət müəssisələrinin binalarında, musiqi tədbirləri isə stadionda və şəhərin geniş meydanlarında keçirilirdi. Qurultayın açılışı günü möhtəşəm "yürüş-konsert" təşkil olunmuşdu, çal-çağırla Qars qalasına yürüş edilmişdi. Stadionda ertəsi gün keçirilən böyük konsertdə Zakir Mirzə cəsarətli və heyrətli sənət nümayiş etdirmiş, milli muğam üçlüyümüz və rəqs qrupu hamını heyran qoymuşdu. Zakir Mirzəni nəinki qardaş ölkə tamaşaçıları, xarici dövlətlərdən gələn qonaqlar, həm də ermənilər alqışlayırdılar. Bu Azərbaycan musiqisinin qüdrətindən, ifaçımızın yüksək sənət qabiliyyətindən irəli gəlirdi. Çıxışlardan sonra Zakir müəllimin əlini sıxır, gül-çiçək dəstələri bəxş edir, qucaqlayıb öpürdülər. Bir daha dünyanın neçə-neçə xalqlarına ənənəvi Azərbaycan muğam üçlüyümüz, milli rəqs sənətimizlə birgə qarmon ifaçılığımız Z. Mirzə sənətində öz sözünü demişdir.

Gülnaz Abdullazadənin və Fərəh Əliyevanın milli mədəniyyət tariximiz, qədim və çağdaş musiqimiz haqqındakı çox güclü elmi mühazirələri və dəqiqliyə əsaslanan məntiqli mülahizələri qurultayın işində böyük əhəmiyyət kəsb etmişdir. Erməni alimləri bu çıxışlardan qıcıqlanıb, etiraz edib atmacalar atsalar da, alimlərimiz tutarlı dəlillərə əsaslanan cavablarla onları susdururdular.


Avstriya ölkəsinin paytaxtı Vena şəhərində 2006-cı ilin may ayının 28-də Azərbaycanın keçmiş, mərhum prezidenti Heydər Əliyevin heykəlinin açılış mərasimi keçirildi. Heykəlin müəllifi şöhrət ordenli, xalq artisti, heykəltaraş Ömər Eldarovdur. Tədbirdə Azərbaycanın Avstriyadakı səfiri Fuad İsmayılov, Mədəniyyət və Turizm Naziri Əbülfəz Qarayev, Musiqi Akademiyasının rektoru, xalq artisti, professor, pianoçu Fərhad Bədəlbəyli, Mədəniyyət və İncəsənət Universitetinin rektoru Timuçin Əfəndiyev, Uşaq Filarmoniyasının musiqi qrupu iştirak edirdi. Əməkdar artist, sənətşünaslıq namizədi, virtuoz sənətçi Zakir Mirzəyevin də bu mühüm tədbirdə çıxışları nəzərdə tutulmuşdu. Heykəlin açılışı zamanı həmin meydanda Zakir Mirzəyev əsasən klassik əsərləri ifa etdi. Sonrakı konsertlər isə Avstriyadakı Azərbaycan səfirliyində və BMT-nin həmin ölkədəki nümayəndəliyinin binasında verildi. Zakir Mirzə burada da seyrçiləri öz sehrinə bürüdü.

• • •

Zakir Mirzə 1974-1976-cı illərdə Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblında qarmonçu-solist kimi fəaliyyət göstərmişdir.

Az vaxt ərzində Zakir ansambl tərkibində işləmək qabiliyyətini nümayiş etdirə bilmişdir. Dəramədlərdə, rənglərdə öz solo yerlərini qabarıq göstərməklə bərabər, ümumi unison ifa zamanı qarmonun səsini ansamblın ümumi səsilə düzgün uzlaşdırmışdır. Bu işdə də yaxşı musiqi duyumu, həssas ürək gərəkdir.

Ansambl həmin dövrdə radio və televiziyada canlı konsertlər vermiş, həmçinin lent yazılarında və çəkilişlərdə məhsuldar işləmişdir. O zaman əksər xanəndələr, o cümlədən, Ş. Ələkbərova, T.İsmayılova, R.Muradova, İ.Rzayev, B.Haşımov, H.Qubadov, H.Hüseynov, Ə.Əliyev, S.Qədimova, Y.Məmmədov, M.Salmanov, E.Rəhimova, S.İbrahimova, A.Babayev, M.Məmmədov, T.Mustafayev, S.Mirzəyev, S.Abdullayev, B.Mirzəyev və İ.Quluyeva bu ansambl ilə lentlər yazdırır, televiziyadakı çıxışlarında və dövlət tədbirlərində oxuyurdular. Zakirin belə müğənniləri müşayiət etməsi onların özünü və ansamblın rəhbərini qane edirdi.



Ə.Bakıxanov adl. X.Ç.İ. ansamblının televiziyaçıxışı. Ortada həddi-zatında xalq artisti, tarzən Habib Bayramov, sağında, xalq artisti Akbar Rzayev, yuxarıda sağdan: Zakir Mirzə 1974-cü il.

Ə.Bakıxanov adına ansambl kənd zəhmətkeşlərilə də görüşlərə gedir, kolxoz və sovxozlarda tanınmış müğənnilərin iştirakı ilə maraqlı proqramla çıxış edirdi. Belə konsertlərdə Zakir Mirzəyev xanəndələri layiqincə müşayiət etməsilə və öz şən oynaq rəqslərilə dərin təmaşaçı rəğbəti qazanırdı.

Zakir istər bu ansamblın kiçik tərkibi ilə, istərsə də toy dəstələrilə respublikamızın hansı bölgəsinə, şəhərinə, kəndinə gedirdisə o, sevimli sənətkar kimi qarşılanır və ondan "Muğam və rəqs" ifa etməsi xahiş olunurdu.

• • •

1967-ci ildən etibarən Əliəkbər, Zakir və Zöhrabın konsertlərdə, toylarda olduqca məzmunlu, çox peşəkar, həddən artıq maraqlı və bir-birini tamamlayan ifa nümayiş etdirmələri o dövrü yaşayıb görənlərin yaxşı yadındadır.

Bu sənətkarların hər biri ayrı-ayrılıqda böyük sənətkar olmaqla yanaşı, həm də bənzərsiz ifaçı idilər. Onların hər biri təklikdə həm də solo nümayiş etdirirdilər.

Bu cür səviyyəli, üç nəhəng sənətkar bir yerdə olanda bir-birinin həvəsinə, bir-birinə qarşılıqlı hörmət naminə, sual-cavab, bitkin musiqi cümlələrilə, həm də bəhəm elə çalardılar ki, hər bir ifa yetkin bir əsər səviyyəsində alınardı. Bunu sözlə ifadə etmək çətindir. Gərək o anları yaşayaydın, gözünlə görəydin və dinləyəydin.

Əgər həmin çıxışlar, o ifalar lentlərə alınıb qorunub saxlansaydı, bu gün gənc sənətçilər o cür nümayiş olunan sənətdən bəhrələnər, çox şey əxz edib öyrənə bilərdilər. Bədahətən gələn bu ifalar həmişə alınmır axı.

Həmçinin o ifaların audio və video lentləri yazılıb dünyanın musiqi elmi inkişaf etmiş ölkələrinə göndərilsəydi, maraqla qarşılanar və oradakı bəstəkarlar bu möcüzəli, bədahətən, qəfil təbdən, ani yaşantıdan yaranan, qəfildən beynə, fikrə gələn, düşüncəyə dönən və o andaca çalınıb təhvil verilən musiqi nümunələri əsasında zəngin əsərlər yazardılar. Elə bu gün fəaliyyət göstərən gənc bəstəkarlarımız da bu musiqidən yararlana bilərdilər. Necə ki, Azərbaycanımızın ən nəhəng bəstəkarları ustad xanəndələrimizdən, ən peşəkar instrumental ifaçılarımızdan eşidib öyrəndiklərindən bacarıqla istifadə edib simfonik əsərlər yaratmışlar.



Qarmon, klarnet, nağara üçlüyü. Sağdan: Z.Mirzə, Ə.Əsgərov (1933-1995), nağaraçalan Z.Məmmədov

Həyatda, cəmiyyətdə, dünyada hər şey sadədən mürəkkəbə, asandan çətinə doğru getdiyi, inkişafın təkamülə doğru yol aldığı kimi 1939-cu ildə Lənkəranda klarnetçi Nəsir, qarmonçu Mahmud xalaoğlu və nağaraçı Nurəddinin yaratdığı musiqi üçlüyü geniş intişar taparaq Azərbaycanın hər bölgəsində bu cür sənətçi dəstələrinin yaranmasına gətirib çıxardı.

Z. Mirzə, Ə. Əsgərov və Z.Məmmədovdan ibarət musiqi üçlüyü belə sənət heyətləri fəaliyyətinin zirvəsini tapdı.

Adı çəkilən virtuoz sənətçilər ömürlərinin on yeddi ilini birlikdə sənət işlətməyə sərf edərək xalqımızın toy-nişanında bər-bəzəkli, əsrarəngiz, sahmanlı ifalar göstərərək el-obamızı sevindirmişlər.

Zakir Mirzə klarnet ifaçıları Bəhruz Zeynalov, Vəli Qədimov, Adil Bayramov və Məhərrəm Zeynalov ilə də konsertlərdə, toy-mağarda birlikdə çıxış etmişdir.

Zakir Mirzə, Adil Bayramov və Tahir Hüseynov üçlüyünün ifasında "Sevinci" və "Bəxtəvəri" rəqsi radio lentlərində bu gün də qorunur və səsləndirilir. Lentlər efirdə səsləndirilən anlardan bu rəqs melodiyaları toyların repertuarına daxil olmuşdu. "Sevinci" rəqsi geniş yayılmışdı. Bu melodiyanın bəstəsi Zakirin atası Qulam Hüseyn Mirzəyevindir.

Zakirin klarnet ifaçısı Vəli Qədimovla toy çalğıları da musiqisevərlərin yaxşı yadındadır. Dinləyənlər deyirlər ki, onların birlikdə ifa etdikləri hər bir melodiya şən, oynaq və bitkin bir əsər idi. Evlərdə bu lentləri qoruyanlar da vardır.

Qarmon, klarnet və nağara üçlüyü (trio) tərkibində ümumi səsləməni tam təmin edən, ustalıq göstərən əsasən iki sənətkarımızın adını çəkə bilərik: Zakir Mirzə və Teyyub Teyyub oğlu. Gənc musiqiçilərə tövsiyyə edirik ki, onların lent yazılarını əldə edib, dinləyib öyrənsinlər.

• • •

Fikrimizi böyük Azərbaycan alimi Xacə Nəsrəddin Tusinin hikmətli kəlamları ilə işıqlandıraq:

"Hikmətli o adamdır ki, onun fikri, sözü və işi bərabər və bənzər olsun".

"Onu bil ki, böyük yaradanın bəxş etdiyi nemətlər içərisində hikmətdən daha yaxşısı yoxdur".

Zakir yaradıcılığına diqqətlə yanaşanda orada dərin hikmət toplandığını görürük.

N. Tusinin digər bir kəlamında - "Yaxşı ad qazanmaq xatirinə heç bir qanunsuzluğa yol vermə" - deyilir.

Bu fikri tam şəkildə Z. Mirzə sənətinə və şəxsiyyətinə aid etmək olar.

Azərbaycan folklorunun, xalq musiqisinin və muğamlarının qayda-qanunları var. Zakir milli musiqimizdən düzgün bəhrələnərək yüksəlib. O, ad-sanı, şan-şöhrəti yalnız ifaçılığının gücünə və səmimiyyətinə görə alıb. Onun qəlbi el nəğmələri və xalq musiqisi ilə döyünür.

Zakirin ürəyi barmaqlarında çırpınır. Qəlbinin sözləri barmaqlarına süzülüb dil açıb danışır.

Zakir müəllim uzun illərdir ki, Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin əsərlərini, Şərqin hikmət dünyasını əhatə edən ən nadir kitabları mütaliə edir.

Görkəmli Azərbaycan filosofu Nəsrəddin Tusiyə bir də müraciət edək:

"Hikmət sevər ol, hikmət sahiblərinin sözlərinə qulaq as, dünyadakı aludəçilikdən uzaq ol".

Zakir Mirzə gənc yaşlarından hikmət sahiblərinə qoşulub həmişə. Onların hikmətindən yararlanıb. Dostları hikmət, söz sahibləri Bəxtiyar Vahabzadə, Tofiq Bayram, Əliağa Kürçaylı, Qulman İlkin, Nəriman Həsənzadə, Əliəkbər Şahid, elm adamları, Fuad Qasımzadə, Vasim Məmmədəliyev, İnqilab Kərimov, Ramiz Fasch, Ağababa Musa oğlu, Rasim Əfəndiyev, jurnalist Vaqif Əlixanlı, musiqi xadimləri Tofiq Bakıxanov, Arif Məlikov, Ramiz Zöhrabov, Gülnaz Abdullazadə, Fərhad Bədəlbəyli, Rafiq İmrani, Səadət Abdullayeva, Oqtay Rəcəbov, Zemfira Səfərova, Rəna Məmmədova, Nigar Cərulla qızı və bu qəbildən olan insanlardır.



Xalq şairi Bəxtiyar Vahabzadə, şair Ağababa Babazadə və Zakir

Zakir Mirzə ifası insanı pis əməllərdən çəkindirir. Bu musiqi insanı daxilən saflaşdırır, mənəvi ucalığa aparır.

O, əsl yaradıcılıq yolu tutub gedir. Sənətilə özündən sonra qarmon ifaçılığına gələnləri də düz istiqamətləndirməyə çalışır. Milli qarmon ifaçılığından uzaqlaşanlara hətta təpinir də.

Zakir müəllim populyar olub, sonra da tez dəbdən düşüb yaddan çıxan sənətkarlardan olmayıb. O, ifaçılığa elə gəlib ki, dünən olduğu kimi bu gün də var və sabah da olacaq.

Bu sənəti xalq sevdiyi üçün xalq da yaşadacaq. Çünki Əhəd Əliyev, Teyyub Dəmirov, Məmmədağa Ağayev, Abbas Abbasov, Səttar Hüseynov, Qızxanım Dadaşova, Rza Şıxlarov, Əflatun Ağayev, Adil Hüseynov, Teyyub Teyyuboğlu və Zakir Mirzə kimi sənətkarların qarmon ifaçılığı xalq ruhundan qopub gəlir və xalqın səsi və mənəvi dünyası ilə səsləşir.

Zakir Mirzə yaradıcılığı mütərəqqi mahiyyət kəsb etməklə bərabər Azərbaycanımızın çox zəngin olan musiqi sənətində, qarmon ifaçılığında çox mühüm bir mədəniyyət faktorudur.

Onun ifaçılıq sənətinin fəlsəfəsi vardır ki, bu anlamda tədqiqat işi apararaq onu açmağa çalışacağıq.

Şərq üslubunda, Azərbaycan musiqisi üçün hazırlanmış, yəni "Azərbaycan qarmonu" adını almış hər hansı bir aləti Zakir dilləndirsə, həmin qarmon yenə sehirlənəcək, sənətkarımızın sənət ruhuna hopmuş hisslər, xalqımızın çox coşqun və bəşəri duyğuları səslənəcək, milli ruh tərənnüm olunacaq.

* * *

Zakir sənət aləminə gəldiyi gündən muğama meylli olub və bu janra ciddi yanaşıb. Bu günə qədər öyrənə-öyrənə, ustad sənətkarların çalıb-oxuduqları muğamları dinləyə-dinləyə, öz ifalarında bu ciddi musiqiyə həmişə yer verərək, bacarıqlı muğam ifaçısına və bilicisinə çevrilib.

Konsertlərdə, toylarda ustad xanəndələr Əbülfət Əliyev, Rübabə Muradova, Bakir Haşımov, Hacıbaba Hüseynov, Əlibaba Məmmədov, Yaqub Məmmədov, Arif Babayev, Baba Mirzəyev, Novruz Feyzullayev, Əliyar Əmirov və başqalarının muğam ifaları zamanı müşayiət etməsi də bu işdə ona mühüm yardımçı olub.

Şərqin böyük dühası İbn Sina (980-1037) demişdir: "Biz ölüb gedirik, lakin özümüzlə bir şey aparırıq, heç nə bilmirik".

Zakir Mirzə bu gün də, bu yaşında da axtarır, öyrənir. Bildiklərini də tələbələrinə öyrədir. Özü belə deyir: "Mən uşaq olarkən atam mənə muğamların xırda hissələrini öyrədib və bu ulu sənətə böyük həvəs oyadıb. Bu ovsunlu janr həmişə məni özünə tərəf çəkib. Həmişə özümdə bir ehtiyac hiss etmişəm ki, mən muğam çalmalıyam. Xanəndələrlə yoldaşlıq edəndə də dəstgah muğamların ifası zamanı onları müşayiət etməkdən zövq alırdım. Dəraməd-ləri, rəngləri, təsnifləri tar-kaman çalanlara qoşularaq həvəslə çalır, ayrı-ayrı şöbə və guşələri qarmonda səsləndirərək rəngarənglik yaradır və xanəndəyə təb verirdim".

Zakir gənclik çağında, 1970-ci ildə Azərbaycan radiosunun fonduna "Segah" muğamı yazdırıb. Bədii şura və musiqi aləmi bu ifanı çox bəyənib. Böyük bəstəkar C.Cahangirov o zaman Televiziya və Radio Komitəsində bədii-rəhbər vəzifəsində işləyirmiş. O, radionun fonduna lentlər yazdıran neçə-neçə qarmonçuların özlərinə bildirirmiş: "İfalarınız zəifdir, milli kökdən uzaqdır. Qarmonu Zakir kimi çalarlar. Onun muğam ifasında və bütün rəqslərində yüksək peşəkarlıq var. O cür yüksək sənətdən sonra sizin ifalarınızı fonda keçirmək düzgün deyil".



İran səfərində məşq zamanı. 1995-ci il

Zakirin çaldığı "Segah"da geniş improvizə qabiliyyəti, geniş yaradıcılıq təxəyyülü, həssas musiqiçi ürəyinin döyüntüləri və çox böyük ifaçılıq texnikası vardır. Bu "Segah" o dövrün bütün böyük musiqiçiləri tərəfindən bəyənilirdi. Əslində bu ifa bütün dövrlər üçün məqbuldur. Zakir ifa etdiyi bu "Segah"ı ilə xalq ruhu hopmuş adət-ənənələrimizi, dərdimizi və sevincimizi əks etdirən "al-əlvan, zəngin bir xalça" toxuyub. Buradakı musiqi cümlələri ardıcıllıqla bir-birinə qovuşaraq, bir-birini tamamlayır. "Zakir Segah"ı olduqca təsirli və orijinal bir ifadır.

Zakir müəllimi dinləyirəm:

"Mənim üçün ustad tarzən-pedaqoq Əhməd Bakıxanovun muğam haqqında tövsiyyələri, ifaçılıq qaydaları və tədris yolu əsas olub. Onun lentlərini bu gün də dinləyirəm. Bəstəkar Əfrasiyab Bədəlbəylinin çox məşhur və dəyərli "Musiqi lüğəti" kitabı hər an gərəyimdir. Habil Əliyevin kamança ifa etdiyi muğamlarla mənim ifalarım arasında oxşar cəhətlər var. Bizim təbimizdə olduğu üçün muğamlarla mənim ifalarım arasında oxşar cəhətlər var. Bizim təbimizdə manda ifa etdiyi muğamlarla mənim ifalarım arasında oxşar cəhətlər var. Bizim təbimizdə müəyyən uyğunluq olması çalğımızı yaxınlaşdırır. Bunu o, özü də təsdiqləyir. Habil müəllim çalmüəyyən uyğunluq olması çalğımızı yaxınlaşdırır. Bunu o, özü də təsdiqləyir. Habil müəllim çaldığı bütün muğamlarda xarakterik cəhətləri, emosional təsiri, obrazı, ətri-təravəti böyük ustalıqdığı bütün muğamlarda xarakterik cəhətləri, emosional təsiri, obrazı, ətri-təravəti böyük ustalıqla verə bilib. O, muğam çalaraq hamı ilə dil tapıb danışa bilir. Mən yaşa dolanda, həm tədris işimlə bağlı, həm də daxili ehtiyacımın tələbilə dəstgah-muğamlara daha çox üstünlük verməyə başladım. Hər muğam üzərində işlərkən mənəvi cəhətdən zənginləşirəm. Muğamların sirləri, açılmamış qatları açılır gözüm önündə.

Məşhur balaban və klarnet ifaçısı Bəhruz Zeynalov da muğamlarımıza yaxından bələd idi. Televiziya və radio lentlərində ifa etdiyi muğamlar bu gün də qorunur. Zaman-zaman musiqiçilərimiz belə bir ustadın sənətindən "qidalanacaqlar". Mən Bəhruz müəllimdən muğam ifaçılığının qaydalarını, sirlərini çox öyrənmişəm".

Uzun illər öz muğam yaradıcılığı qayğısına qalaraq ciddi axtarışlar və müntəzəm məşqlərin



İran səfərindən bir görüntü, 1995-ci il

sayəsində Zakir müəllim bütün muğamlarımızı müfəssəl, tamam-dəstgah halında təqdim edə bilir. Onun ən böyük arzularından biri bütün muğamlarımızı disklərə dəstgah halında yazdırmaqdır. Çünki, qarmonumuzda hər bir muğam səslənə bilir, gözəlliyini və təravətini bu alətin ecazkar səsilə dinləyicilərə çatdırır.

Hələlik isə radionun fondunda "Segah"dan başqa Z.Mirzənin ifasında "Zəmin-xarə", "Humayun", "Şikəsteyi-fars", "Şur", "Mirzə Hüseyn segahı" muğamları vardır.

Zakir müəllimin muğam ifaçılığı ümumiyyətlə bir özgə aləmdir. Burada da onun özünə aid ifaçılıq maneraları özünü göstərir. Başqa ifaçılardan fərqli olaraq onun muğam ifaçılığında da coşğunluq, aşıb-daşan dağ çaylarının çağlaması, dənizin şahə qalxıb kükrəməsi, yanan tonqalların göylərə tərəf uzanan dilləri, döyüşə gedən igidlərin nərəsi, Koroğlunun Qıratının kişnərtisi, dağlar üzərində qıy vuran qartalların səsi vardır.

Onun özünün mənəvi zənginliklərlə dolu muğam dünyası vardır.

Muğam ifa edən Zakir Mirzə dinləyicini müxtəlif işıqlı rəngləri özündə birləşdirən zəngin bir aləmə, sirli-sehirli muğam dünyasına aparır. Onu dinləyənlər muğam bitənə qədər ifaçının hiss və duyğularından qopub gələn sehirli səslərin təsiri altında olur.

Zakir muğamında sərbəstlik, dəniz qədər genişlik və səma kimi aydınlıq hiss edilir. İfasında yurda, torpağa, xalqa və müqəddəs Vətənə bağlılıq vardır. Bütün çalğılarında nikbin duyğular, coşqun notlar səslənir. Onun yaradıcılığında ulularımızdan bizə gələn genetik kodlar hiss olunur və özünü büruzə verir. Sənətkarımızın "Segah"ında yüksək eşq və ülvi məhəbbət özünə yuva tapıb.

Z.Mirzə ifasında "yaşama sənəti", obraz vardır. O, canlı klassikdir.

İki əsri qucaqlayan odlu, alovlu, qaynar qəlbli bu insan sağlığında canlı klassiklər səviyyəsinə yüksəlib. Zakir sənətində Kərəm atəşi, Məcnun yanğısı, bəşəri yanğı var.

Zakir muğamı səslənərkən şəhid ruhlar təsəlli tapır, gənclərin qəlbində Vətən sevgisi qüvvətlənir, Qarabağ qazilərinin qələbə əzmi daha da güclənir.

Zakir cəsarətli insan, sözü deməyi bacaran şəxsdir. O, milli qarmon ifaçılığından uzaqlaşanlar, yolu sarpanlara qarşı qətiyyətlə mübarizə aparır. Z.Mirzə musiqimizin milliliyini, saflığını, aydınlığını qoruyanların sırasında dayananlardandır. Bu böyük insanın sənətindəki ruh onun vətəndaşlıq qayəsindən gəlir. O, bu gün qarmon ifaçılığının zirvəsi, öyrətdiyi tələbələrin ustadı, başqalarının isə mənəvi müəllimidir.


İçimizdə qovrulan ağrılarımız Zakirin muğamları ilə sakitləşir. Onun çaldığı bəzi muğamlarda sanki şəhid ruhlar bizimlə danışır. Bizi intiqama, qələbəyə səsləyir.


Zakir Mirzənin ifasında "Segah" muğamı

Ad libitum













* * *



1963-cü il. Zakir hərbi xidmətdə

Yenə də Zakir haqqında vaxtilə radioda səslənən verilişlərdən birinin lentini dinləyirəm.

Verilişin aparıcısı, məlahətli səsli bir xanım, Züleyxa Hacıyeva danışır: ...Zakir hərbi xidmətdə olanda da musiqidən ayrılmır. Müxtəlif xalqların melodiyalarını öyrənir, bayan çalmağa başlayır. Bayan çalmaq onun ifasında bir neçə ildən sonra üzə çıxacaq maraqlı tapıntı üçün özül yaradır.

Bu barədə bir az sonra...

Bu an Zakirin özünə söz verilir: "İnstitutun birinci kursunu bitirəndən sonra məni əsgər apardılar. Leninqradda (Sankt-Peterburq - Ə.R.) qulluq edirdim. Bəxtim yaman gətirmişdi. Müğənnilərdən Yaşar Səfərov (1940-2006), Nazim Ağayev, aktyor Şamil Dəmirçiyev (İrəvan Dram Teatrının aktyoru), idmançı Oqtay Vəlixanlı (sonralar konsert aparıcısı) da mənimlə bir hərbi hissədə xidmət edirdilər".

Dinlədiyim lentdə yenə veriliş aparıcısının səsini eşidirəm: - Zakir qarmona heç nə əlavə etməyib. Sadəcə olaraq ifa texnikasında elə gözlənilməz bir yol tapıb ki, elə bu qarmonda müəyyən dəyişiklik etməyə bərabər olub.

Radio-oçerkdə bu barədə Zakir Mirzə belə deyir: "Bir-iki il qabaq bir istedadlı bayan çalanla tanış oldum. O vaxt həmin ifaçı ilə aramızda xeyli yaradıcılıq söhbəti getdi. Sonra, axşam onun çalğısına diqqətlə qulaq asdım.

Ümumiyyətlə, bayanda çalınan melodiyalar dinləyicidə maraq doğurur. Bu da ən çox həmin alətin texniki imkanlarından irəli gəlir. Çünki bizim qarmonlardan fərqli olaraq bayanda sol tərəfdə altı, səkkiz, on cərgə səs düzümü mövcuddur. Bizim alətdə isə bu cəmi iki cərgədən ibarətdir. Odur ki, çoxsəsli melodiyalar bəzən qarmonda ürəyin istəyən tək alınmır. Öz zənginliyini, əlvanlığını itirir. Qarmonu çoxsəsli edə biləcək texniki imkanlar hələ kəşf olunmayıb. Sən demə, elə indiki, məhdud yönlü halında da qarmonun gizli qalmış səs çalarlıqlarının sirrini açmaq mümkün imiş.

Mən çoxdan idi ki, saatlarla bu işin üstündə, üzərində düşünürdüm, axtarışlar aparırdım. Məlumdur ki, sol əl sağ ələ nisbətən daha passivdir və adi yolla qarmon çalarkən əslində sol ələ elə bir ehtiyac da duyulmur. Sadəcə olaraq hansısa düyməni basıb "züy" tutursan. Qarşımda bir məqsəd durur, sol əlin barmaqlarını da sağ əl qədər fəallaşdırmaq. Uzun müddətli gərgin məşqlərdən sonra gördüm ki, artıq sol əllə də düymələri basmaqla istənilən səsi almaq olur. Mən bir çox şənliklərdə, konsertlərdə sanki, özümü hər dəfə sınaqdan çıxarmaq istəmişəm. Hər dəfə də mənə elə gəlib ki, bu kiçik tapıntım həm dinləyicilərdə, həm də sənət dostlarımda xoş təəssürat oyadıb. Bu mənim üçün ən böyük mükafata bərabərdir.

Haşiyə: (Müəllifdən) Zakirdən sonra qarmon ifaçılığına gələn ifaçılar sol əlin müşaiyətinə daha çox diqqət yetirməli oldular. Çünki, ifaçılıq qaydaları, tələbat artıq dəyişmişdi. Bu işin bünövrəsi Zakir kimi hünərli sənətçi tərəfindən qoyulmuşdu. Son iyirmi ildə qarmonun sol tərəfində artıq tək (unison) səslə müşayiət deyil, ikisəsli, üçsəsli və ya dördsəsli akkordlarla müşayiət etməyi bacarıqlı qarmonçularımız meydana çıxarıb yeni ifaçılıq qaydaları yaradıblar.

Not əsərlərinin musiqi məktəblərində, kolleclərdə, Mədəniyyət və İncəsənət Universitetində müntəzəm tədris olunması və hər əsərə uyğun sol əlin akkordlarla müşayiətinin öyrədilməsi bu alətin sağ və sol əllə birlikdə mükəmməl ifasına geniş yol açıb.

* * *

Bu adam zəhmətdən yoğrulub. Heç vaxt əziyyətdən qorxmayıb. Bütün həyatı boyu hünər göstərib. Hünərinin zəhmətinin bəhrəsini dərib, çalışqanlığının və fitri istedadının çörəyini yeyib.

Sənətinin qüdrəti və zəhmətsevərliyilə atasının böyük külfətinin yaxşı dolanmasına, qardaşlarının və bacılarının yer-yurd, ev-eşik olmasına kömək edən Zakir bu kimi əməllərilə rahatlıq tapıb.

İnsan kainat ağacının ən yetkin, ən möhtəşəm meyvəsidir. Zakir yetkin çağlarından doğma ailəsinə, qohum-əqrəbaya, el-obasına, xalqına xidmət edib.

Həyatı oyun meydanına, səhnəyə bənzətsək, Zakiri öz rolunu oynayan aktyor kimi görərik. Zakir bu həyat səhnəsində öz sənəti və bəşəriyyətə xidmətilə özünü yaradıb, öz obrazını yaradıb, öz mükəmməl sənət obrazını yaradıb. O, özü keçdiyi ömür və sənət yolunu seyr etməkçün dönüb geriyə baxsa, orada sevinməli, öyünməli, fəxr etməli və mühüm əhəmiyyət kəsb edən çox şey görəcək!

Elə biz özümüz də bu kitabı yazmaqla Zakir Mirzənin əsl obrazını yaratmaq və oxucuların gözünün qarşısında canlandırmaq istədik. Canlandıra bildikmi, yarada bildikmi? Bax, bunu oxucular deyəcək!

Zakirin bütün yaradıcılığı lentlərə, disklərə yazılıb, nota köçürülüb qorunmalı, təbliğ və tədqiq olunmalı, tədrisdə istifadə edilməlidir.

Onun yaradıcılığını unutmaq, yaratdıqlarını vaxtında ortaya gətirməmək təkcə milli musiqi folklorumuzun müəyyən bir sahəsinin itkisi deyil, geniş anlamda dünya mədəniyyətinə daxil olmalı sənətin itkisi deməkdir.

Məhəbbət gözəl bir binadır. Hər bir varlığa, hər şeyə məhəbbət olduğu kimi, sənətə də məhəbbət vardır. Zakir müəllim musiqiyə və qarmon ifaçılığı sənətinə, yaradıcılıq işinə dərin məhəbbətlə, qəlbən bağlı bir insandır.

Zakir bu gün müqəddəs duyğularla yaşayır. Allaha böyük sevgisi, dinə dərin etiqadı, inamı, imanı olan həqiqi bir müsəlman kimi müqəddəs kitabımız "Quran"a sığınıb. Hər dəfə ibadət edəndə əlini göylərə qaldırıb dünyamıza əmin-amanlıq, xalqımıza qələbə, millətimizə xoşbəxtlik və firavan həyat arzulayır.

İslamda imandan sonra sədaqət gəlir. Dostluq sədaqətlə qidalanır. Zakir Mirzə öz sənətilə sadiq dostdur. Həmçinin dostluq etdiyi insanlara sadiqdir. Mehr-ülfət bağladığı dostlar arasında həmişə sədaqətilə seçilib, onların qəminə kədərlənib, uğuruna sevinib.

* * *

Zakir "Muğam və rəqs"i 1962-ci ildə bəstələyib. Həmin il əsgərliyə gedib. 1964-cü ildə əsgərlikdən qayıdıb və həmin ilin noyabr ayında radio fondu üçün yazıb və əsər qızıl fonda qəbul olunub. "Muğam və rəqs" 1965-ci ildən radioda səsləndirilir. O dövrün qaydalarına əsasən radionun "səsyazma evi"ndə yazılmış lentlərin dinlənilib, bəyənilib radionun əsas binasına gətirilib fonda köçürülməsi üçün müəyyən vaxt keçirdi. Az vaxt içərisində könülləri fəth edən bu musiqi hamı tərəfindən qəbul olunub və populyarlıq qazanıb. Bir zamanlar konsertlərimizin və toylarımızın daimi repertuarına daxil olan "Muğam və rəqs" öz yaradıcısına və ifaçısına böyük şöhrət gətirmişdir.

Haqqında söhbət açılan sənət əsəri bu gün də sevilə-sevilə dinlənilir, müəllifini hər an tamaşaçı sevgisinə qərq edir və dinləyici diqqətində saxlayır.

"Muğam və rəqs" Z. Mirzənin "Şah əsəri", yaradıcılığına çıraq tutan, ifalarının zirvəsinə ucalan əsərdir.



Filarmoniyada konsert. "Muğam və rəqs" ifa olunur. Müşayiət edirlər: Nadir Yusubov və Elçin

İfada çox incə duyumlar və "sirli dünya" var. Bu Zakirin öz dünyasıdır. "Muğam və rəqs"də o, yeni bir kəşf etmişdi. Öz dünyasını kəşf etmişdi.

Zakirin ifasında üstün cəhət həm də ondan ibarətdir ki, o, bütün çalğılarında (o cümlədən "Muğam və rəqs"də) sağ əlin səslənməsini sol əlin müşayiəti ilə zənginləşdirir, bütövləşdirir, tamamlayır.

"Muğam və rəqs" həqiqi sənət incisi kimi milli musiqi sənəti xəzinəmizə həmişəlik daxil olmuşdur.

Yeniyetmə dövründən və gənclik illərindən başlayaraq o, çoxillik yaradıcılığı ilə Azərbaycan ifaçılıq sənəti tarixində özünəməxsus məktəb yaratmış, istər əvvəllər, istərsə də pedaqoji fəaliyyəti ərzində istedadlı ifaçılar nəslinin yetişməsində böyük əmək sərf etmişdir.

"Muğam və rəqs"də ən yüksək bəşəri duyğuları özündə əks etdirən məhəbbət, ilahi sevgi vardır.

Doğrudan da bu ifa "vəhy"lə gəlib. Allah böyük istedad bəxş etdiyi öz sevimli bəndəsi Zakirin ürəyinə cümlə-cümlə, hikmətlərlə salıb bu sevgini, beyninə sətir-sətir ötürüb bu məhəbbət dolu fikir və cümlələri. Qüdrətli Yaradanın, o Ulu Tanrının sanki, izni, buyuruğu ilə mələklər Zakirin zahirən yığcam, kiçik, lakin daxilən çox geniş sinəsinə naxış-naxış yazıblar bu ulu musiqini, bu sirli nəğməni ki, "sehirlənmiş" sənətkar insanlarla danışa bilsin.

Şərqin böyük dühası İbn Sinaya görə: "Musiqi insan bədəninin bir hissəsidir. Elə bir hissəsidir ki, ürəkdən sinəyə axaraq insanı vəcdə gətirir, onu düşündürür, qəmləndirir, ovundurur, şənləndirir".

Z. Mirzənin "Muğam və rəqs"i öz ürəyindən gilə-gilə, damla-damla süzülüb saflaşaraq sinəsinə axıb ən əvvəl özünü saflaşdırıb ilahi eşq yoluna çıxardığı kimi, dinləyicilərin də ürəklərinə yol tapıb süzülərək sinələrinə axır. Onlar düşünürlər, rahatlıq tapırlar, dünyanın gözəlliklərini görmək və həyatı yaxından duymaq istəyirlər.

Bu musiqidə nə yoxdur ki? İstər fəlsəfi anlamdan, istərsə əsərin bəstələnmə quruluşu baxımından, istərsə də sənətkarlıq, ifaçılıq texnikası cəhətdən genişlik, aydınlıq, səlislik və musiqi elmi

qaydalarına əsasən "Moderato" (mülayim), "Allegro" (tez-tez, cəld templər) vardır.

Əsərdə improvizə yolu ilə muğam və rəqs melodiyası sintez edilmişdir. Özü də çox böyük ustalıqla. Bu sintez olduqca orijinal bir üsulla yaradılıb. Burada milli musiqimizin təsir gücünü özündə birləşdirən, xalq musiqimizdən gələn metro-ritmik əsası özündə cəmləşdirən təzə məzmun və ideya tərənnüm olunur.

Zakir Mirzənin sərbəst improvizə, "gəzişmələr"lə çaldığı "Segah" öz dövrü üçün yeni səpgili bir ifa idi. Əsərin əvvəlində ("Giriş"də) çaldığı lirik melodiyadan sonra muğamı "lya", "si", "do", "re", "mi bemol" səsləri (zil pərdələrdə) ilə başlaması doğrudan da orijinal bir ifa yolu, yeni bir tapıntı idi. O vaxta qədər bütün ifaçılar "Segah"ın bu hissəsini yox, əsasən "Mübərriqə" pərdələrini işlədərək çalırdılar. Lakin, "Muğam və rəqs" geniş yayıldıqdan sonra Zakirin "Segah"da işlətdiyi forma və üslubdan nəinki instrumental ifaçılar, hətta xanəndələr də istifadə etməyə başladılar. Misal olaraq xanəndə Q.Rüstəmovun (1935-2012) "Sona bülbüllər" xalq mahnısında oxuduğu "Segah"da işlətdiyi olduqca təsirli səs çalarlarını, "nəfəs"ləri göstərə bilərik. Bu üslübda çalınan və oxunan "Segah"ın emosional təsiri daha çoxdur. Bu cür ifa səpgisindən mahir zurna ifaçısı Əliəfsər Şəkili (1930-1984) də istifadə etmişdir.

Sanki, Zakirin qarmonunun da "ürəyi" var. Bəli, var. O, sevimli qarmonunu sinəsinə sıxanda, qarmon onun ürəyinə toxunaraq "qidalanır", "enerji" alır. Sinəyə, ürəyə toxunan qarmon sənətkarın ürəyilə bir döyünür, bir nəfəs alır, bir səslənir. Zakirin qarmonunun səsi onun öz məhəbbətli ürəyinin səsidir.

"Muğam və rəqs" həsrətli qəlblərin məhrəmi, sınıq könüllərin məlhəmidir. Çox təsirli, zəngin və məzmunlu olan bu əsl sənət əsəri həssas bir ürəyin pıçıltıları, yüksək insani keyfiyyətlərə, bəşəri məhəbbətə malik bir sənətkarın könül tərənnümləridir. Bu ifanı dinlədikcə doymursan, vəcdə gəlirsən.

Zakir Mirzənin dediklərindən: "1960-cı illərin əvvəllərindən "Muğam və rəqs"də işlətdiyim lad, səslər, pərdələr fikrimə gəlmişdi, beynimdə dolaşırdı. Bu hisslər, bu fikirlər məni tərpədirdi, özünə cəlb edirdi. Bu musiqi duyumları, fikirləri üzərində hərdənbir məşğələlər aparırdım. Lakin, bunu lentə almaq zamanında qəribə hisslər məni bürüdü, özgə bir aləmdə idim. Özümdə deyildim. Beynimə gələn fikirlər, ahənglər ürəyimə axıb oradan da barmaqlarıma süzülürdü. Birbaşa, birnəfəsə, dayanmaq bilmədən çalıb lentə aldığım bu musiqi bitənə qədər mənə elə gəldi ki, uzun bir zaman keçdim, bir insan ömrü, sirli və qəribə zaman, tale yaşadım. Görünür bu mənim taleyim idi. "Muğam və rəqs" mənim sənət taleyimdir".

Bəli, əziz oxucular, musiqisevərlər. "Muğam və rəqs" Zakir Mirzənin sənət "sənədi", "tanıtma vərəqi" (vizit vərəqi - Ə.R.), "peşə vəsiqəsi"dir.

1947-ci ildə Bakıda anadan olmuş, Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş məşhur bəstəkar Firəngiz Əlizadə mahir kamançaçalan Habil Əliyevin ifası əsasında yazdığı "Habilsayağı" adlanan əsərilə Avropa və Amerika səhnələrini fəth etmişdir. Firəngiz xanım uzun illər Almaniyada yaşayıb fəaliyyət göstərmişdir. O, 2007-ci ilin iyun ayının 20-də Azərbaycan Bəstəkarlar İttifaqının sədri seçilmişdir, xalq artistidir.


Zənnimizcə gənc bəstəkarlarımız Z. Mirzənin "Muğam və rəqs" adlı həmişəyaşar əsərinə diqqət yetirsələr, yaradıcı yanaşsalar, gələcək uğurlarını təmin edəcək materialı oradan ala biləcəklər. Adını çəkdiyimiz, milli muğamımız "Segah" mövzusu əsasında zənginləşmiş bu musiqi üzərində dünya səhnələrini səyahət edə biləcək böyük əsər yazmağı bəstəkarlarımızın öhdəsinə buraxırıq.

Muğam və rəqs

Moderato

Z. Mirzəyev





Ad. libitum.




şən və oynaq





* * *

Azərbaycan radiosu fonduna Zakirin gənclik illərində eşidib öyrəndiyi melodiyalar, özünün bəstələdiyi rəqs havaları, klassik muğamlar və bəstəkar əsərləri daxildir.

Aşağıda onun ifalarının radionun fonotekasına keçirilməsi üçün təsdiq olunma tarixləri göstərilir. Öz bəstələdiyi melodiyaların adlarının qarşısında sənətkarın öz adı (Zakir M.) yazılır.

"Bayatı-Şiraz" dəramədi (T. Dəmirov) - 10.05.1960
"Bakı" rəqsi (xalq musiqisi) - 10.05.1960
"Oynaq rəqs" (Zakir M.) - 08.06.1966
"Gülşəni" rəqsi (Zakir M.) - 08.06.1966
"Şəfayəti" rəqsi (Zakir M.) - 08.06.1966
"Simuzər" rəqsi (xalq musiqisi) - 24.01.1966
"Qazağı" rəqsi (xalq musiqisi) - 24.01.1966
"Azəri" rəqsi (Zakir M.) - 04.03.1967
"Səadəti" rəqsi (Zakir M.) - 04.03.1967
"Muğam və rəqs" (Zakir M.) - 16.09.1968
"Ulduzu" rəqsi (Zakir M.) - 16.09.1968
"Bəxtəvəri" rəqsi (Zakir M.) - 16.09.1968
"Dağıstan" melodiyası (Zakir M.) - 10.03.1970
"Segah" muğamı - 03.06.1970
"Səidə" rəqsi (Zakir M.) - 20.10.1978
"Səbuhi" rəqsi (Zakir M.) - 20.10.1978
"Firavan" rəqsi (Zakir M.) - 20.10.1978
"Aygün" rəqsi (Zakir M.) - 20.10.1978
"Şalaxo" rəqsi (xalq musiqisi) - 20.10.1978
"Şur" muğamı - 20.10.1978
"Cavani" (Zakir M.) -12.03.1984
"Cəmilə" rəqsi (Zakir M.) - 12.03.1984
"Rəhimi" rəqsi (Zakir M.) - 28.02.1984
"Samiri" rəqsi (Zakir M.) - 28.02.1984
"Kinto" rəqsi (xalq musiqisi) - 28.02.1984
"Gülnarə" rəqsi (Zakir M.) - 30.01.1984
"Qurban adına" (S. Rüstəmov) - 28.02.1984
"İftixari" rəqsi (Zakir M.) -17.07.1985
"Məhərrəmkənd" rəqsi (Ləzgi xalq musiqisi) - 17.07.1985
"Onu bağışlamaq olarmı? k/f-dən "Arzular" mahnısı (T. Quluyev) - 17.07.1985
"Tərəkəmə" rəqsi (xalq musiqisi) - 17.07.1985
"Şalaxo" rəqsi (xalq musiqisi) - 17.07.1985
"Sevinc" rəqsi (M. Əhmədova) - 07.04.1987
"Qızılgül" rəqsi (Zakir M.) -11.04.1988
"Qubanın ağ alması" (xalq musiqisi) - 11.04.1988
"Zəmin xarə" muğamı - 11.04.1988
"Xəyalə" rəqsi (Zakir M.) -11.04.1988
"Yar bizə qonaq gələcək" (xalq musiqisi) -11.04.1988
"Apardı sellər Saranı" (xalq musiqisi) -10.01.1994
"Bakı" rəqsi (xalq musiqisi) -10.01.1994

"Yunan melodiyası" (Yunan xalq musiqisi) - 02.02.1994
"Təbriz lövhələri" (Zakir M.) - 02.02.1994
"Tiflisi" rəqsi (xalq musiqisi) - 02.02.1994
"Ceyranım gəl" (Ə. Abbasov) - 02.02.1994
"Şikəsteyi-fars" muğamı - 02.02.1994
"Zabul avazında" (xalq musiqisi) - 02.02.1994
"Həzin tərzdə" (Zakir M.) - 02.02.1994
"Mart yallısı" (Macar musiqisi) - 02.02.1994
"Təbrizi" (Zakir M.) - 10.01.1994
3 hissəli simfonik orkestr üçün əsərin 2-ci hissəsi
"Xatirə" (T. Bakıxanov) - 02.04.1998
"Yaylaqların mahnısı" (T. Bakıxanov) - 02.04.1998
"Gözəlliklər məskəni" (T. Bakıxanov) - 02.04.1998
"Səbr eylə" (T. Bakıxanov) - 02.04.1998
"Sevən könül" (T. Bakıxanov) - 02.06.1998
3 hissəli simfonik orkestr üçün əsərin 3-cü hissəsi
"Rondo" (T. Bakıxanov)- 02.04.1998
3 hissəli simfonik orkestr üçün əsərin 1-ci hissəsi (T. Bakıxanov) - 27.02.1999
"Vətənimdir" (S. Ələsgərov) - 27.02.1999
"Qərənfil" (V. Adıgözəlov) - 29.03.1999
Məhəbbət əfsanəsi baletindən rəqs (A. Məlikov) - 27.02.1999
"Mürğü-səhər" (Ə. Bakıxanov) - 27.02.1999
"Konsert" (T. Bakıxanov) - 16.05.2001

* * *

Zakir Mirzə XXI əsrdə milli qarmon ifaçılığımızın möhürüdür. O, xalqın qəlbinə naxış-naxış möhürlənib.

Zakir Mirzə sənətini daim püskürən, sönməyən vulkana bənzətmək olar. Bu Azərbaycan vulkanıdır.

Bu gün o, qarmon ifaçılığında övliyaya, müqəddəsliyə çevrilir. Onun çalğısının canı, ruhu var. Sanki qarmon ifaçılığı Zakir sənəti ilə qidalanır.

Zakirin ifasının insan qəlbinə tez yol tapmasının əsas səbəbi sənətkarın həssas duyumlu ürəyinin və ifaçılıq texnikasının geniş olmasıdır.

Zakir müəllim özü gözəl rəqs melodiyaları bəstəkarıdır. Bu melodiyalarda onun incə duyumu, öz dəsti-xətti və ifaçılıq tərzi açıq-aydın sezilir. O, bəstəkar əsərlərini çalarkən həmin melodiyaları da dərindən duyaraq, oradakı məntiqə vararaq çalır.

Coşqun təb, yüksək bədii enerji, geniş ifaçılıq texnikası, çalğı zamanı səsləri özünə ram etmək, qəlbindəki duyğularla beynindəki fikirləri birləşdirmək, böyük yaradıcı təfəkkür və təsirli məzmun Z. Mirzə sənətinin əsas cəhətləridir.

İfa zamanı o, özünü unudur. Ürəyinin diktəsini, hökmünü icra edir. Onun rəqs melodiyalarındakı coşqunluq, parlaqlıq dinləyicinin hiss və duyğularına tez sirayət edir, onlar musiqinin ritminə, melodiyanın ahənginə qoşulurlar.

Zakir müəllimin 100-dən artıq bəstələdiyi melodiya var. Onlardan yalnız əllisini lentə yazdıra bilib.

Z.Mirzə bəstəkarlarımızdan T.Quliyev, C.Cahangirov, S.Rüstəmov, S.Ələsgərov, A.Məlikov,

V.Adıgözəlov və T.Bakıxanovun əsərlərini televiziyada, radioda və açıq konsertlərdə ifa edir.

Zakirə musiqi irsən keçib. Bu nəsildə, onların cismində, qanında güclü musiqi duyumu vardır ki, zamanında özünü göstərə bilib.

Zakirin sehirli qarmonunda sanki ilahidən gələn səs vardır. Onun qarmonundan çıxan səsin rəngi var. Orada əslində hər rəng vardır. Al-əlvan, könül oxşayan rənglər. Burada rənglərin ahəngi özünü biruzə verir.

Bədii ictimaiyyət Zakir sənətinə həmişə diqqət və maraqla yanaşıb.

Zakir həqiqi musiqiçi, əsl xalq ziyalısı kimi daim xalqın, müxtəlif nəsillərdən olan insanların arasındadır. Bu insan gəncliyini, dincliyini, biliyini, əməyini öz sənətinə həsr etmişdir. Onun ömür səhifələrini vərəqlədikcə bir-birindən maraqlı səhnələri, nəsnələri və əhvalatları görməli olursan.

Zakir pak ürəyə və iti zehnə malikdir.

Onun bütün ifa etdiyi oyun havalarında, istər xalq melodiyaları, istərsə də özünün yaratdıqları olsun, bunlarda yalnız milli musiqimizin ruhu, nəfəsindən yoğrulan ovqat, psixoloji məqam duyulur.

Zakir Mirzə mərhələləri adlayaraq öz gözəl ifaları ilə əvvəlki uğurlarının təsadüfi olmadığını sübut etdi. Sənətkarımız iştirak etdiyi saysız-hesabsız konsertlərdə, dəvət aldığı tədbirlərdə, elimizin şənliklərində ecazkar musiqi nümunələrinin ifası zamanı ürəyini qoydu, ürəklərə yol tapdı, musiqinin bəşəri dili ilə hətta xarici ölkə səfərlərində əcnəbiləri belə məftun etdi. Hər çıxışdan sonra təbəssüm dolu çöhrələrin şahidi oldu.

Zakir musiqinin fəlsəfəsini dərk edir, onun varlığı musiqi üzərində köklənib.

Zakir Mirzə XX yüzilin 70-ci illərində qarmon ifaçılığı sənətinin zirvəsini fəth etmişdir.

Xalqın yaradıcılıq çeşməsindən qidalanan, Əhəd Əliyev, Teyyub Dəmirov, Məmmədağa Ağayev ifaçılıq üslubundan bəhrələnən Z. Mirzə əsasən həmin ənənəni saxlayaraq müasir ifaçılıq sənətinə xas cəhətləri qarmon ifaçılığına gətirmişdir.

XX əsrin ikinci yarısında qarmon sənətinin inkişafında Zakirin xidmətləri ölçüyə gəlməzdir.

Sənət səmasında ulduz tək parlayan gündən Zakir öz üslubu ilə başqalarından yüksək dərəcədə fərqlənmişdir.

Zakir Mirzəni XXI əsrin əvvəllərində qarmon ifaçılığı sənətimizin zirvəsində şölələnən məşələ bənzətmək olar. Bu nəhəng sənətkarın öz ifaçılıq məktəbi vardır.

* * *

Zakir müəllim 1999-cu ildən Sumqayıt Musiqi Texnikumunda və Azərbaycan Konservatoriyası tərkibində Musiqi Kollecində qarmon ixtisasının muğam tədrisi üzrə çalışır. Pedaqoji fəaliyyəti dövründə öz işinə ciddi yanaşan və ürək yandıran Zakir Mirzə tələbələrinin əksəriyyətini peşəkar sənətə istiqamətləndirə bilib. Zakir müəllimin tələbələri onun dəsti-xəttini tutub, onun yapeşəkar sənətə istiqamətləndirə bilib. Zakir müəllimin tələbələri onun dəsti-xəttini tutub, onun yaradıcılıq izini davam edirlər. Tələbələr ondan klassik muğamlarımızı həvəslə öyrənirlər. O, olduqca tələbkar müəllimdir. Bütün yetirmələrindən qarmonu milli üslubda ifa etmələrini tələb edir.

Zakir müəllim həmişə qarmonun bir ixtisas kimi düzgün tədris olunması barədə düşünmüş, bu yolda səmərəli işlər görmüş və axtarışlar aparmışdır. O, 2006-cı ildə dərs demək üçün Mədəniyyət və İncəsənət Universitetinə də dəvət olunmuşdur. Ali tədris ocağında qarmonun tədris olunması bu ifaçılıq sənətinin prespektivindən və gələcək uğurlarından xəbər verir. Yüksək ixtisaslı, ali təhsilli qarmon ifaçılarının hazırlanmasında Zakir müəllim böyük əmək və bacarıq sərf edir. İstər kollecdə, istərsə də universitetdə hazırladığı tələbələr imtahan sesiyalarında layiqincə fərqlənir, yüksək göstəricilərlə çıxış edirlər.

Zakir müəllimin kollecə və universitetə dəvət olunması burada qarmonun muğam tədrisinin

daha da yüksəlməsinə səbəb oldu.

Zakir müəllim yalnız ifaçılıqla və yaradıcılıqla məşğul olduğu dövrlərdə, pedaqoji fəaliyyətə başlamadığı zamanda da öz sənətini neçə-neçə azərbaycanlı gəncə öyrətmişdir ki, onlar bu gün peşəkar sənətdə özlərini göstərə bilirlər. Misal olaraq, Müşviqə Mahmudova, Gülağa Əsgərov, Adil Rzayev və başqalarının adlarını çəkə bilərik. 1965-1970-ci illərdə Gülağa Zakir müəllimdən dərs alaraq ifaçılıq sirlərini yaxşı mənimsəmiş və bir müddət bu sənət üzrə fəaliyyət göstərmişdir.

Bakının Zabrat qəsəbəsindən Adil Rzayev Zakirin sevimli tələbələrindən olaraq 1969-1970-ci illərdə öz ustadından yaxşı dərs alaraq əsl qarmonçu kimi yetişmişdir. Sonra o, ali təhsil alaraq mühəndis ixtisasına yiyələnmiş, yaxşı mütəxəssis kimi çalışmışdır.

Müşfiqə xanım qadın ifaçılarımız arasında ən yaxşılarından sayılır. O da Zakir müəllimdən öyrəndiklərini mükəmməlləşdirmiş və peşəkar ifaçı kimi ad çıxarmışdır. Bu gün də bayram şənliklərində, konsertlərdə və qız toylarında öz sənətini xalqa sevdirə bilir. Müşfiqə Mahmudova öz müəllimi Z. Mirzə ilə televiziya konsertində çıxış etmişdir. O, bu konsertlə daha çox yadda qaldığı üçün sonralar da radio verilişlərinə və televiziya konsertlərinə dəvət olunmuşdur.

Sumqayıt Musiqi Kollecində qarmon ixtisası üzrə dərs deyən Vaqif Musayev də 1965-1970-ci illər arasında Zakir müəllimdən ifaçılıq qaydalarını öyrənmiş və peşəkar sənətə qədəm qoymuşdur. Vaqif qaboy ifaçılığına da yiyələnmiş, bu ixtisas üzrə ali təhsil alaraq əsl musiqiçi kimi yetişmişdir.



Zakir Mirzəmin yetirməsi, hazırda Bakı Humanitar Kollecinin müəllimi Ramil Nağıyev

Sumqayıt Kollecində Zakir müəllimin sonsuz həvəslə işə başlaması nəticəsində neçə-neçə istedadlı tələbələr yetişərək sənətə qədəm qoydular. Ramil Nağıyev, Gülnarə Əliyeva xüsusilə fərqlənərək, baxış-müsabiqələrdə uğurlu nəticələr əldə etdilər. Ramil Bakı Mədəni-Maarif Texnikumunda (hazırda kollec), Gülnarə Bakıdakı 8 saylı musiqi məktəbində dərs deməyə başladılar.

Aşağıda xalq artisti, professor, A.A.Bakıxanov adına mükafatın laureatı, bəstəkar Tofiq Bakıxanovun "Ekspress" qəzetinin "sənət/tarix" bölməsində (səh.19) 15 may 2001-ci il tarixli məqaləsini veririk:

"Bu günlərdə xalq artisti, əməkdar incəsənət xadimi, əməkdar müəllim Əhməd Bakıxanov adına 6 saylı musiqi məktəbinin zalında Bakı Musiqi Kollecinin müəllimi, görkəmli sənətkar, mahir ifaçı Zakir Mirzəyevin qarmon sinfi üzrə tələbələrinin hesabat konserti olub. Maraqlı odur ki, belə bir tədbir musiqi həyatımızın tarixində ilk dəfədir ki, nümayiş etdirilir. Bu isə məşhur qarmonçalan, qarmon ixtisası üzrə gözəl və bilikli müəllim Zakir Mirzəyevin adı ilə bağlıdır. Zakir Mirzəyevi nəinki ifaçı, müəllim, eyni zamanda qarmon ixtisası üzrə ilk alim kimi tanıyırıq.

Hesabat konsertində Zakir Mirzəyevin Sumqayıt şəhərindəki Soltan Hacıbəyov adına Musiqi Texnikumundakı və Qara Qarayev adına 8 saylı musiqi məktəbindəki tələbə və şagirdləri də iştirak edirdilər. XX əsrin əvvəllərində Azərbaycanda xalq çalğı alətləri ilə yanaşı, qarmon aləti üzrə də geniş inkişaf perspektivləri açıldı. Bu da dövrün görkəmli sənətkarı, qarmonçalan Əhəd Əliyevin adı ilə bağlıdır. Kor Əhədin çalğısı bir daha ona görə fərqlənirdi ki, onun çalğı texnikası bədii ifaçılıqla məharətlə birləşərək, çalınan havanın melodik imkanlarını artırırdı. Həmin qarmon məktəbinin davamçıları mərhum Teyyub Dəmirov, hal-hazırda bu sahədə fəaliyyətini ləyaqətlə davam etdirən Zakir Mirzəyevdir.

Bu gün də musiqi texnikumları və 7 illik musiqi məktəblərində təhsil alan gənclər qarmon ixtisası üzrə fəaliyyət göstərirlər. Yuxarıda adı çəkilən hesabat konsertində gənclərin ifasında muğamlardan "Hümayun", "Şur", "Bayatı-Şiraz", "Bayatı-Qacar", "Zabul", "Segah", Azərbaycan xalq mahnıları və rəqsləri ilə yanaşı, Azərbaycan bəstəkarlarının əsərləri də ifa olundu.

Konsertdə iştirak edən tələbələrdən Azad Abbasov, Elçin Bağırov, Zakir İsmayılov, Rafael İslamov, Elnur İmanov, Aslan Məhəmmədov, Rövşən Hüseynov, Elnur Haşımov öz çıxışları ilə tamaşaçı-dinləyiciləri razı saldılar. Tələbələrin arasında fərqlənən gənc istedadlar da az deyildi. Onlardan respublikada keçirilən Gənc Musiqiçilər Müsabiqəsinin laureatı Murad Süleymanovun "Hümayun"u təsirli çalması, Rafael İsmayılovun "Bayatı-İsfahan"ı insanın ruhi aləminin həyəcan və iztirabları ilə yanaşı, onun sevincini də ifadə və tərənnüm etməsilə diqqəti cəlb edirdi. Eləcə də Q. Qarayev adına 7 illik musiqi məktəbinin şagirdi Aslan Məlikov respublikada keçirilən Gənc Musiqiçilər Müsabiqəsinin laureatı olaraq, öz çıxışı ilə həmişə böyük uğurlar qazanıb. O, konsertdə Tofiq Quliyevin "Qaytağı"sını texniki cəhətdən çox asanlıqla, zövqlə və məharətlə ifa etdi. Belə mürəkkəb musiqi əsərini düzgün ifa etmək onun gələcəkdə gözəl bir musiqiçi və populyar ifaçı olacağını bir daha sübut edir.

Sumqayıt şəhərindəki S. Hacıbəyov adına Musiqi Texnikumunun tələbəsi olan Anar Abbasovun "Orta Segah" muğamı ilə çıxışı dinləyiciləri valeh etdi. O, respublikada keçirilən Gənc Musiqiçilər Müsabiqəsinin laureatlarından biridir. Gənc musiqiçi Anar böyük istedada malikdir. Bakı Musiqi Kollecinin istedadlı tələbəsi Şahin Seyidov isə "Zabul" muğamını böyük məharətlə və eləcə də "Şalaxo" rəqsini texniki cəhətdən yüksək səviyyədə ifa etdi.

Ümumiyyətlə, Zakir Mirzəyevin tələbələrinin hesabat konserti professional səviyyədə nümayiş etdirildi. Bununla əlaqədar olaraq, gözəl sənətkar Zakir Mirzəyevin əməyinə yüksək qiymət vermək düzgün olardı.



Zakir müəllim Milli Konservatoriya nəzdində Musiqi Kolleci tələbələri ilə. 2002-ci il

Bu konsertə Azərbaycanın görkəmli incəsənət xadimləri dəvət olunmuşdular. Həmin konsert hərarətli alqışlarla qarşılandı. Azərbaycan Respublikasının Dövlət Mükafatı Laureatı, görkəmli xalq yazıçısı Qılman İlkin bu tədbirə yüksək qiymət verərək, gənc ifaçılar və onların uğurlu çıxışlarına böyük əmək sərf edən gözəl sənətkar Zakir Mirzəyevi ürəkdən təbrik edib, gələcəkdə onlara bundan da artıq müvəffəqiyyətlər arzuladı.

Ümidvarıq ki, Zakir Mirzəyev gələcəkdə də ifaçılıqla yanaşı, müəllimlik fəaliyyəti ilə bizi sevindirəcək".

* * *

Z. Mirzə son dövrlərdə ifaçılıqla və tədrislə bərabər elmi fəaliyyətlə də məşğul olmuş, dərgilərdə və qəzetlərdə elmi məqalələrlə çıxış etmişdir. O, 1997-ci ildən başladığı tədqiqat işini 2004-cü ildə başa vurmuşdur.

Zakir Mirzə "Azərbaycan xalq musiqisində qarmonun rolu və əhəmiyyəti" adlı dissertasiya işini 2005-ci il yanvar ayının 31-də müdafiə etmişdir. Müdafiə Musiqi Akademiyasının binasında "Caz musiqisi zalı"nda keçirilmişdir.

Mövzu Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunda qəbul olunmuşdur.

Direktor Akademik Rasim Əfəndiyev,

Elmi katib İlham Qaziyev.

Apancı müəssisə: Azərbaycan Dövlət Pedaqoji Universiteti.

Elmi seminar üzvləri: Musiqi alətləri kafedrasının müdiri, pedaqoji elmlər namizədi (hal-hazırda doktor) Minarə Dadaşova; uşaq ədəbiyyatı kafedrasının müdiri, professor, şair Zahid Xəlil.

Rəylər:

Akademik Fuad Qasımzadə,

Xalq artisti, bəstəkar Tofiq Bakıxanov,

Xalq yazıçısı Qılman İlkin,

Xalq artisti, bəstəkar Azər Rzayev,

Xalq şairi Nəriman Həsənzadə,

Filologiya elmləri namizədi Elxan Məmmədli,

Milli Konservatoriyanın professoru Vaqif Əbdülqasımov,

Fizika-riyaziyyat elmləri namizədi Şamil Hacıyev.

Komissiyanın sədri: Musiqi Akademiyasının rektoru, professor, xalq artisti Fərhad Bədəlbəyli.

Sədr müavini: professor, əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru Ramiz Zöhrabov

Komissiyanın üzvləri:

Musiqi Akademiyasının elmi işlər üzrə prorektoru, professor, bəstəkar, fəlsəfə elmləri doktoru Gülnaz Abdullayeva, Bəstəkarlar İttifaqının katibi, professor Ramiz Zöhrabov, Elmlər Akademiyasının müxbir üzvü, sənətşünaslıq doktoru, professor Rəna Məmmədova, sənətşünaslıq doktoru, professor Zemfira Səfərova, fəlsəfə elmləri doktoru, musiqişünas-alim, professor Nigar Cərullah qızı, Musiqi Akademiyası fortepiano şöbəsinin müdiri, professor Tərlan Seyidov, Milli Konservatoriyanın elmi işlər üzrə prorektoru, sənətşünaslıq namizədi Vaqif Əbdülqasımov, professor, əməkdar incəsənət xadimi, musiqişünas-alim Elmira Abbasova.

Elmi rəhbər: sənətşünaslıq doktoru Rafiq İmrani

Elmi katib: sənətşünaslıq namizədi, dosent Fərəh Əliyeva

Apponentlər:

Musiqi Akademiyasının professoru, sənətşünaslıq elmləri namizədi (hal-hazırda doktor) Səadət Abdullayeva, pedaqoji elmlər doktoru, əməkdar müəllim, bəstəkar Oqtay Rəcəbov.

Dissertasiya müdafiəsi işində Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü Azərbaycan Dövlət Universiteti Şərqşünaslıq kafedrasının müdiri, Elmlər Akademiyasının müxbir üzvü, professor Vasim Məmmədəliyev də iştirak edirdi.

Zakir Mirzənin "Azərbaycan xalq musiqisində qarmonun rolu və əhəmiyyəti" mövzusundakı dissertasiya işinin müdafiəsi olduqca maraqlı və yüksək səviyyədə keçmişdir. Dissertantın çıxışı həvəslə dinlənilmiş, müxtəlif elmi suallar verilmiş, ifaçı kimi qarmon ifası da dinlənilmişdir.

Dissertasiya iki girişdən, iki fəsildən, nəticə, istifadə edilmiş ədəbiyyat, fotoqrafiya və əlavələr bölməsindən ibarətdir.

Zakir Mirzə uzun illər apardığı elmi işlər və tədqiqat sayəsində doğru və düzgün nəticə əldə etmişdir.

"Qarmonun mənşəyi və onun Azərbaycan musiqisində istifadəsi tarixindən" adlandırılmış I fəslin I bölməsində ("Qarmonun mənşəyi və texniki ifa xüsusiyyətləri") qarmon alətinin mənşəyi, inkişaf tarixi, texniki ifa və spesifik xüsusiyyətləri şərh olunur.

Zakir Mirzə alətin mənşəyi məsələsinə düzgün yanaşaraq, səsin hasil olunma prinsipi, yəni səsin körük vasitəsilə əldə edilməsini əsas götürərək qarmonun ilkin növlərinin Avropa və rus alimlərinin qəbul etdikləri "şeng" nəfəsli aləti əsasında deyil, məhz Şərq, o cümlədən Azərbaycan ərazisində mövcud olan tulum-zurna (bu alətdə körüyü dəri tuluq əvəz edir) və ərğənunun (oxu – ərğan - Ə.R.) əsasında təşəkkül tapması fikrini irəli sürür.

Həm də müəllif tulum-zurna-qarmon keçidini nəzərə alaraq belə bir nəticəyə gəlir ki, qarmonun mənşəyini Rusiya və Qərbi Avropada deyil, Şərq aləmi, o cümlədən Azərbaycan-Türk mühiti ilə əlaqələndirmək lazımdır.

Dodaqla çalınan ərğənun (əslində – ərğan) aləti və onun ifası haqqındakı məlumatlar olduqca maraqlıdır. Birinci bölmədə Zakir Mirzənin müasir Azərbaycan qarmonunun ədadlarından olan qarmonikalar, Qərbi Avropa dövlətlərində istifadə olunan akkordeonlar və onların ifaçılıq prinsipi haqqındakı məlumatları çox mühüm elmi əhəmiyyət daşıyır.

Zakir Mirzə "Qarmonun Azərbaycan musiqisinin inkişafında yeri" bölməsində qarmonun Azərbaycan musiqi mədəniyyətində tutduğu yeri müəyyənləşdirir, onun istifadə formalarını izah edir. Daha sonra Azərbaycanın məşhur qarmonçularının adını çəkir. Qarmonu əsl milli alətimizə çevirən Əhəd Əliyevin onun üzərində apardığı təkmilləşdirici fəaliyyəti işıqlandırır və bu kimi işlərin sonralar Teyyub Dəmirov tərəfindən davam etdirilməsi göstərilir.

Müəllif qarmonun Azərbaycan ərazisində geniş yayılmasında Bakı, Şuşa və Şamaxıda ayrı-ayrı mədəniyyət fədailəri tərəfindən təşkil olunan musiqi məclislərinin rolunu və əhəmiyyətini xüsusi olaraq qeyd edir. Belə məclislərdə qarmonun da çalınması və təbliğ olunması faqta məlumat verilir.

Tədqiqatçı qarmon ifaçılığında fərdi üslubların xüsusiyyətlərini, iki musiqiçinin eyni melodiyanı səsləndirərkən nəzərə çarpan cəhətləri - improvizə elementlərinə və ya texniki ifaya üstünlük verilməsini not yazılarına əsasən müqayisəli şəkildə araşdıraraq, oxşarlığı və fərdi cəhətləri müəyyən etmişdir.

İkinci fəsildə - "Qarmonun Azərbaycan xalq musiqisinin inkişafında əhəmiyyət." şərh olunur. Xalq çalğı alətləri orkestri və ansamblların tərkibinə daxil edilməsi və qarmonun bu musiqi kollektivlərinin ümumi səslənməsinə gətirdiyi yeniliklər sadalanır.

Qarmonun solo alət kimi istedadlı qarmonçuların ifa etdikləri instrumental muğam və rəqs melodiyalarının geniş yayılmasında və təbliğində, xalqın musiqiyə bağlılığının daha da yaxşılaşmasında rolu xüsusi vurğulanır. Əsasən rəqs musiqisi aləti olan qarmonun xüsusən muğam dəstgahlarında diringilərin ifasında misilsiz rolu qeyd olunur.

Zakirin dissertasiya işində qarmonun professional musiqi aləti kimi Azərbaycanda geniş təşəkkül tapmasının obyektiv səbəbləri açıqlanır.

Qarmonun özünəməxsus şəkildə səslənməsi konkret olaraq ifa olunan əsərlərin C. Cahangirovun xor və orkestr üçün yazdığı "Vətənim Azərbaycan" kantatası, T. Bakıxanovun qarmon üçün işlənmiş "Tar ilə simfonik orkestr üçün konsert"in timsalında hərtərəfli təhlil olunur.

Z. Mirzə qarmonun səslənmə gücünə, tembrinə və ifa imkanlarına istinad edərək, onun xalq və professional musiqi nümunələrinin səsləndirilməsi üçün münasib bir alət olmasını inamla göstərir. Bu səciyyəvi cəhət öz növbəsində bizim milli musiqi alətimiz olan qarmonun xalq sənətçiləri və peşəkar musiqiçilərimiz arasında geniş yayılmasına, təşəkkül tapmasına və instrumental musiqimizin inkişafına səbəb olmuşdur.

Dissertasiyada qarmonun musiqi mədəniyyətimizdə tutduğu mövqeyi, Azərbaycan xalq musiqisinin və peşəkar sənətin inkişafında rolu göstərilmişdir. Bu musiqi alətinin müşayiətçi və solo alət kimi əhəmiyyət daşıdığı da tutarlı izah olunmuşdur.

Zakir müəllimin tədqiqatı nəticəsində gəldiyi nəticələr elmi cəhətdən çox düzgündür, dəyərlidir. Bu nəticələrdən, bu sahədə aparılacaq elmi araşdırmalarda, ifaçılıqda və təhsil prosesində geniş istifadə etmək mümkün olacaq.

Tədqiqatçı qarşıya qoyduğu məqsəd və vəzifəni düzgün müəyyənləşdirmişdir ki, bunun da nəticəsində əldə etdiyi qənaətlər və nailiyyətlər məntiqi cəhətdən özünü doğrultmuşdur.

Zakir Mirzənin dissertasiya işinin müdafiəsi zamanı komissiya üzvləri və sədr çıxışlarında bəzi iradlarını bildirsələr də ümumi işi çox yüksək qiymətləndirmişlər. Rəyçilərin, apponentlərin, Ali Attestasiya Komissiyası üzvlərinin və bəzi dəvətlilərin də bu elmi iş barədə fikirləri çox yüksək olmuşdur.

Çıxışların bir neçəsini qısaca olaraq kitabımızda veririk.

Zemfira xanım Səfərova, əməkdar elm xadimi, sənətşünaslıq doktoru, professor.

- "Zakir gözəl ifaçı, virtuoz sənətkardır. Müdafiəsi də çox xoşuma gəldi. Burada təcrübədən elmə gəliş var. Təcrübə bu gün elmə vəsiqə alır. Bu yaşda, 62 yaşda elmə gələn hələ olmayıb.

Zakir həm novatordur, həm də mahir ifaçıdır. Qarmon ifaçılarımız çox olsa da Zakirin gördüyü işi edə bilən hələ olmayıb. Tarda novator Sadıqcan olduğu kimi, qarmon sənətində Zakiri deyə bilərik.

Zakirin elmi müdafiə işi, fikirləri nəzərə alınmalı və tədrisdə istifadə olunmalıdır".

Digər çıxışlar, o cümlədən Ramiz Zöhrabovun, Rəna Məmmədovanın, Nigar Cərulla qızının fikirləri də tutarlı, əsaslı, çox maraqlı idi.

Tofiq Bakıxanov, şöhrət ordenli, bəstəkar, xalq artisti.

- "Zakir Mirzəyevin yazdığı dissertasiyanı çox izləmişəm. Bu dissertasiyaya rəy də yazmışam. Bu barədə deyəcəm. Z.Mirzəyevin təqdim etdiyi bu əsərdə çox maraqlı tədqiqat işi var. Yaxından tanış olaraq gördüm ki, böyük zövqlə yazılmış dəyərli ilk elmi iş kimi təqdirəlayiqdir.

Respublikanın əməkdar artisti Zakir Mirzəyev nəinki Azərbaycanda, həmçinin neçə-neçə xarici ölkələrdə müvəffəqiyyət qazanaraq ölkəmizə baş ucalığı gətirib.

Tehran səfərlərində qazandığı uğurlar barədə orada nəşr olunan "Əxbar" qəzetində gözəl fikirlər yazılmışdır.

2002-ci il oktyabrın 24-25-də Tehranda keçirilən Birinci Beynəlxalq Azərbaycan elmi-bədii musiqi seminarında Zakirin çıxışları çox maraqla, həssaslıqla və hərarətlə qarşılandı.

Bəstəkarlarımızın neçə-neçə əsərlərini Zakir müəllim yüksək peşəkarlıqla ifa edir. O, dəfələrlə mənim əsərlərimə də müraciət edib.

İfaçı əsəri elə ifa edər ki, onu öldürə də bilər, yaşada da bilər.

Tofiq Quliyevin "Sənə də qalmaz" mahnısını Rəşid Behbudovdan qabaq oxuyan müğənnilər

olsa da, mahnı qəbul olunmamış, sevilməmişdi. Rəşid oxuyandan sonra bu mahnı həyata həmişəlik "vəsiqə" aldı.

Zakir də bəstəkar əsərlərini elə ifa edir ki, qarmon ifasında səslənən ən yaxşı musiqi töhfəsi kimi həmişəyaşarlıq qazanır.

Zakir müəllim dissertasiyanın II fəslində Azərbaycan xalq çalğı alətləri ansamblı və orkestri tərkibində qarmonun rolu haqqında məlumat verir. Buradakı fikirlər doğru və düzgündür.

Müslüm Maqomayev 1927-ci ildə Azərbaycan radiosunda musiqi verilişlərinin baş redaktoru vəzifəsində çalışarkən Üzeyir bəyin tövsiyyəsilə Əhməd Bakıxanovu çağırır və ona xalq çalğı alətləri ansamblı yaratmağı təklif edir. Əhməd müəllim ansambl yaradır. Bu solistlər ansamblı adlanırdı. Ə. Bakıxanov qarmonçu Əhəd Əliyevi də ansambla gətirmişdi.

Üzeyir Hacıbəyov uzaqgörən şəxs idi. O, qarmonun özünəməxsus tembrindən ansambl və orkestr tərkibində istifadə olunmasını gərəkli bilirdi. 1931-ci ildə ilk notlu orkestri yaradarkən Əhəd Əliyevi çağıraraq qarmonu da ora əlavə etmişdi.

Mən Zakiri bu günkü müdafiə işinə görə təbrik edirəm, ona yeni-yeni nailiyyətlər arzulayıram".

Vasim Məmmədəliyev, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan Dövlət Universiteti Şərqşünaslıq və İlahiyyat kafedrasının müdiri.

- "Hörmətli Sədr! Hörmətli komissiya üzvləri! Mən burada Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü kimi iştirak edirəm. Bu günkü müdafiəni sözün həqiqi mənasında Ali Attestasiya Komissiyasının təlimatına çox uyğun, çox gözəl, polemik və eyni zamanda tələbkarlıq qaydaları ilə yüksək səviyyədə keçən görürəm. Mən də Zakirin dissertasiya işinin qəbul olunmasını, təsdiqini istəyirəm, ona sənətşünaslıq namizədi - alimlik dərəcəsi verilməsinə tərəfdaram. Zakir Mirzəyevin bu böyük uğurunu təbrik edirəm".

Bu dissertasiya işinin müdafiəsində xalq şairi, əməkdar incəsənət xadimi Nəriman Həsənzadə də maraqlı çıxış etdi. O da Zakir Mirzənin elmi işinə rəy verənlərdən biridir. N. Həsənzadə çıxışını belə yekunlaşdırdı: "Qarmonun nəyi qaldı ki, Zakir onu tapmasın, ona toxunmasın, onu aşkar etməsin? O, ən mahir, ən birinci ifaçı kimi öz sözünü deyib, sənətini nümayiş etdirib. İstərsə də tədqiqatçı alim kimi bu alətin yaranma tarixini, mənşəyini, mərhələlərlə inkişafını araşdırıb, tapıb göstərib, qarmonun musiqimizdə rolu, əhəmiyyəti, bu günü və sabahı barədə söhbət açıb, fikirlərini məntiqli izah edib. Onun doktorluq işi yazması üçün daha nə qaldı ki?

Hörmətli komissiya sədri və komissiya üzvləri! Olmazmı ki, Zakirin bu günki işi doktorluq işi kimi qəbul olunsun? Ona birbaşa sənətşünaslıq doktoru elmi adı verilsin".

Bu təklif özü-özlüyündə məntiqli olub çoxlarının ürəyindən xəbər versə də, mövcud ali qanunlara əsasən qəbul oluna bilməzdi. Edilmiş bütün çıxışlar Zakir Mirzənin gördüyü çox böyük işin yüksək dərəcəsindən xəbər verirdi.

Zakir müəllimin elmi nailiyyətlərini işıqlandırmağımızın sonunda onun öz fikirlərini yazıya çevirməyi lazım bildim: "Mən elm sahəsinə xalq yazıçısı, böyük ziyalı, ağsaqqallıqda və xeyirxahlıqda misli bərabəri olmayan Qılman İlkinin məsləhəti və tövsiyyələri ilə gəlmişəm. Bu işi başa çatdırmaqda mənə dəstək olan, bu yolda mənə yol göstərən, bu işin yaranmasında, yazılmasında, müdafiəsində, nəhayət, bu günə gəlib çatmasında mənə köməklik

* * *

Sənətkarın təxəyyülündə, düşüncəsində, mənəvi ruhunda bir zənginlik, genişlik və özünəməxsus dəyərlər və harmoniya vardır. O, əvvəldən sənətə istedadla gəldiyi kimi də, etiqadla xidmət edib irəliləyib. Onun öz yaradıcılıq ovqatı və xisləti var. Bu insanda çılğın və hərarətli ifa ovqatı bütün fəaliyyəti boyu özünü göstərib. İfalarının əksəriyyəti heyrət doğurur. Heyrət isə insanı düşünməyə vadar edir.

Platon dialoqlarının birində deyirdi: "Fəlsəfənin başlanğıcı heyrətdir", yəni fəlsəfə heyrət etməkdən yaranıb.

Zakirin ifalarına onun qeyri-adi istedadı, coşqun ilhamı, düşüncələri, ruhu, mənəvi varlığı hopduğundandır ki, bunların fəlsəfəsi vardır. Bu fəlsəfi duyumun açılmamış məqamları, düyünləri, nöqtələri vardır. Onlar çözülməli, açılmalıdır. Bu ifalarda saf Azərbaycan ruhu, geniş parlaqlıq, qədim türkün düşüncə və idrak tərzi öz əksini tapır.

Zakirin çaldığı muğamlarda və lirik melodiyalarda, improvizasiyalarda aydınlıq, təsirlilik olduğu qədər də zərif hiss və kövrək duyğular və həm də geniş fəlsəfi duyum var. Bu sənətkarımızda eyni zamanda bədii hərəkət, bədii inkişaf, güclü bədii təsir hər an öz qüvvəsində qala bilir.

Milli ifaçılarımız həmişə qəlblərindən süzülüb gələn xalq sənət nümunələrini zaman-zaman bərbəzəkli, bənzərsiz yeni xallar, bədii modellər, yeni rənglər, boyalar və yeni bədii meyillərlə bizlərə çatdırıblar. Dediklərimiz Zakir Mirzə sənətkarlığında əks olunan, ona xas olan cəhətlərdir. Zakirin bəstələdiyi, radionun fonotekasında qorunan, tez-tez səsləndirilən rəqs melodiyaları indiyə qədər yaranmış xalq oyun havalarının yaranıb gəldiyi yollara bələdçilik edir. Onun bütün yaradıcılığında doğmalıq və səmimilik göz önündədir.

Zakir Mirzə böyüyə-böyüyə, ucala-ucala yol gələn sənətkarlarımızdan biridir. Zakir instrumental ifaçılığımızda özünə yer almış qarmon sənətinə uçulub dağılmayan möhkəm və möhtəşəm bina ucaltmışdır. Bu sarayın bünövrələrini onun mənsub olduğu xalqın nümayəndələri; Kərbəlayi Lətif, Kərbəlayi Abutalıb, Seyyid Həsən, Əhəd Əliyev qoymuş, kərpicləri isə Teyyub Dəmirov, Məmmədağa Ağayev, Səfərəli Vəzirov, Adil Hüseynov, Səttar Hüseynov, Abbas Abbasov, Rza Şıxlarov, Yusif Yusifov, Əflatun Ağayev və digərləri hörmüşdür. Bu binanı tam tikib qurtarmaq və möhtəşəm hala gətirmək Zakir Mirzəyə nəsib olub.

Zakir Qulamhüseyn kişinin Xaçmazdakı evindən, qartal yuvasından qanad çalıb uçdu, göylərdə dövrə vurdu, qartal dağların zirvələri üstündə qanadlandığı kimi sənətin zirvələrində qanad çaldı həmişə.

Ata gözünün qarası, bağrının parası, hər dərdin çarəsi olan ilkin övladının gələcəyinə böyük ümidli idi. Səhv etməmişdi. Ümid özünü doğrultmuşdu. Belə bir deyim var: "Arzu zirvədədir, ümid ətəkdə". Müdrik bir atanın arzusu da, ümidi də zirvədə idi. Onun sadə bir evdən, adi həyat tərzi keçirən azərbaycanlı ailəsindən pərvazlanan oğlu böyük bir xalqa imtahan verəcəkdi. Verdi də. "Muğam və rəqs" onun xalq qarşısında ən böyük imtahanı idi. Zakir Mirzənin bu imtahanı böyük, ulu bir nəslin, Güney Azərbaycandan köç edib Quzey Azərbaycana gələn, o taylı, bu taylı məskunlaşan əsli-nəcabətli, əzəli-əbədi bir nəslin doğma xalqa töhfəsi, ərmağanı idi.

Hansı yüksəklikdə, hansı mərtəbədə olmasından asılı olmayaraq Zakir sadə el adamı, müdrik elm adamı, vergili bir şəxs, ilhamlı insandır.

Sevimli musiqi alətini bağrına basaraq, uzun bir dövr ərzində çalıb çağıraraq, sehirli səslər aləmində bu səslərdən zəngin xalı toxuyaraq gələ-gələ, axtara-axtara musiqi elmi ocağına daxil olub. Elmi axtarışları və tapıntıları bəhrə verib. Nəticə göz qabağındadır. Könlünü, saf düşüncələrini əks etdirən qarmonun ecazkar səsinin haradan gəldiyini tədqiqatlar apararaq tapmış, yazılı mənbələrə əsaslanaraq qəti və məntiqli fikrə gəlmişdir. Əslində Zakir Mirzə ifaçılıq sənətimiz üçün Allah

payıdır, Tanrı sevgisidir.

Sənətkarımız geniş coğrafi miqyaslı sənət adamıdır. O, çox-çox ölkələrdə qarmonu ilə coşaraq səhnələri fəth edib. Vətənin dəyərini, xalqın sənət incilərini dünyaya tanıdıb.

İncəsənət aləmində, yaradıcılıq işində canlı ehtiras, pafos mühüm rol oynayır. Ehtiraslı və həyəcanlı pafos, haqqında ürək dolusu danışdığımız sənətkarın ifaçılıq ruhuna hakim kəsilib.

Zakir Mirzə özünü dərk edən, öz mənəvi aləmini zəngin etməyə, bütövləşdirməyə çalışan əsl ziyalıdır, mədəni bir insandır, xalq adamıdır, millətinə xidmət edən şəxsdir. O, vaxtını-vədəsini zamanın axarına buraxmır, istedadını və varlığını xalqımızın mədəniyyətinin inkişafına sərf edir. Bu gün Zakir Mİrzə qarmon ifaçılığının dəyərlərini ucalara qaldıran şərəf daşıyıcısıdır.

Deyirlər həyatın mənası sevgidədir. Yaşamaq özü sevgidir. Zakir Mirzəni yaşadan sənətinə olan böyük sevgidir. Onun ömür yaşı pillə-pillə artdıqca, indiyə qədər damla-damla qazandığı sənət də pillə-pillə artır.

Onun "Şur"unu, "Şahnaz"ını eşidəndə xəyalən səma ənginliklərində qanad çalıram, çox ecazkar, qənirsiz bir sehr aləminə düşürəm, çəmən çiçəklərinin rəngini görüb, ətrini duyuram.

Məlumdur ki, Qərb musiqisindən fərqli olaraq qədim Şərq musiqisi insanın həyatı ilə daha sıx bağlıdır, o Şərq adamının həyatının təzahürü olub, onun dünyanı hissetmə qabiliyyətini ifadə edir, indini keçmişlə və gələcəklə bağlayır.

Zakirin ifasında səslənən hər bir muğam havasında keçmişimiz öz əksini tapır, oradan tarixlərin səsi gəlir, uluların hikməti duyulur, ağsaqqallar, ağbirçəklər bizi halallığa səsləyir və həm də ayıq-sayıq olmağa çağırır.

Əgər Zakir Mirzə ən qədim alətlərimiz ney, çəng, bərbət, ud və s. alətləri çalsaydı və tarın, kamanın, sazın, balabanın, zurnanın ifaçısı olsaydı da onun ifalarında Qoca Şərqin mənəvi zənginliyi, Azərbaycan türklərinin mübariz ruhu, keçmişi, bu günü öz əksini tapacaq, çaldığı alətin səsinin "işığında" gələcəyə gedən yol görünəcəkdi.

Bu böyük sənət adamının ifasında xoşbəxtliyə inam var, xoşbəxt gələcəyə çağırış var, dinləyici insanın öz varlığına şükranlıq və İlahiyə şükür etmə, dərin sevgi və dualar var.

Sufilikdə belədir: Əgər musiqiçi özünə qərq olmağı bacarmırsa, o, həqiqi musiqi yarada bilməz. Sufizmə görə, muğam haqqa çatmaq yolunda, Allaha qovuşmaq yolunda pillələrdir.

Zakir Mirzə yetkinləşdikcə, özünü dərk etdikcə, yaşa dolduqca, kamilləşdikcə, Allaha olan inamı bütövləşdikcə, sevgisi dərinləşdikcə, səmimi ovqatlı, dərin məzmunlu sənətilə ilahi eşqə yol alır. Bu sənətin, bu ifaların da gücü bundadır. Onun sənətinin fəlsəfəsi İlahi eşqə yetişməkdir.

Filosofiyada idraka məhəbbət, müdrikliyə, həqiqətə sevgi var.

Sevgi anlayışı olduqca geniş mahiyyət daşıyır. Buraya insanın doğma, yaxın insana, həqiqətə, xeyirxahlığa, hakimiyyətə, var-dövlətə, vətənə, sənətə, Allaha və s. sevgisi daxildir.

Hər insan həyatında sevgi mühüm rol oynayır.

Zakir Mirzənin varlığında və düşüncəsində xeyirxahlığa, həqiqətə, idraka, müdrikliyə, sənətə, vətənə və Allaha dərin sevgisi özünü büruzə verir. Budur ömrünün müdrik çağını yaşamaqda olan yaradıcı insanın sənətinin gücü və fəlsəfəsi.

Qarmonun səsində biz onun öz qəlbinin səsini eşidirik. Danışdığı zaman bizə deyə bilmədikləri sözləri, səslər vasitəsilə eşidirik, duyuruq. Onun ifalarından öz qəlbinin ətri gəlir. Musiqi və könlünün nəğmələri Zakir Mirzənin həyat enerjisidir.

Onu sənətin sirli aləminə qoşub ardınca çəkib aparan yüksək eşqdir. Dünyanın bütün mütəfəkkirləri, filosofları, böyük şairləri eşqin fəlsəfi mənasını açıblar. Şərqin böyük müdriki Məhəmməd Füzulidə də eşqin anlamı var. Sadəcə izahını da verib: "Eşq bir bəladır ki, ona düçar olan bilər". Zakir Mirzə sənətin eşqinə mübtəla olaraq, əqidəsində, saf etiqadında saflaşdırıb müqəddəsləşdirərək, qoruyaraq, ilahiləşdirərək Uca Tanrıya doğru yüksəlməkdədir.

* * *



Solaxay qarmonla

2007-ci ilin yay aylarında adəti üzrə görüşdüyünüz istirahət guşələrinin birində, Bakının Əhmədli qəsəbəsində, Neapol dairəsində Hacı Rəhmanın öz əlilə əkib becərdiyi yaşıllıqlar qoynunda yerləşən çayxanasında üç dost, üç həmkar Zakir Mirzə, Baxışəli Əliyev və mən oturub çay içirdik. Söyüdlərin və çinarların saldığı kölgə və sərinlik, çəkib gətirdikləri meh xüsusi əhval, xoş ovqat yaradırdı. Qızmar yayın istiləri bu məkanda tamam hiss olunmurdu. Sevimli sənətkarımızın pürrəngi çay içə-içə söylədikləri, sənət haqqındakı maraqlı söhbətləri bizə ləzzət verirdi. Baxışəli söhbətin məcrasını dəyişmək üçün dilləndi: - "Zakir müəllim, buraya bu günki gəlişimizin əsas məqsədindən yayınırıq. "Solaxay" qarmon barədə danışaq".

Baxışəli Əliyev hələ 2007-ci ilin qış aylarında mənə məlumat vermişdi ki, Zakir müəllim "solaxay qarmon" üzərində çalışır, vaxt-məqam çatanda onu meydana çıxaracaq.

Zakir Mirzə tam yeni, "solaxay qarmon" barədə fikirlərini bizimlə bölüşdü. Özü-özlüyündə bu fikir çox maraqlı olduğu üçün ona xeyli suallar verdim və məntiqli cavablar aldım.

Sol əl ilə çalınacaq qarmon milli qarmon ifaçılığımız qarşısında geniş perspektivlər açır və gələcək nailiyyətlərdən xəbər verir.

Əlbəttə qarmonun ibtidaidən sol əl ilə çalınmağa başlaması, vərdiş qaydaları ilə ifaya nail olunması və gələcəkdə əsl peşəkar ifanın əmələ gəlməsi (indiki vəziyyətə gəlib çatması və ya ondan daha mükəmməl olması) üçün uzun illər, müəyyən dövr lazımdır.

Zakir müəllim fikrini belə əsaslandırır ki, dünya xalqlarının istifadə etdikləri, həmçinin Azərbaycanın qədim və müasir simli, nəfəsli alətləri sol əlin vasitəsilə çalınır və sağ əl müşayiətçi rolunu oynayır (mizrab, tazanə vurur, kamanı işlədir və s.). Yeganə klavişli (dilli) alətlərin ifası zamanı (fortepiano, akkordeon, bayan, bandeneon, harmon, qarmon) çalınarkən sağ əl əsas işi görür, "ifaçı" olur. Görünür ki, milliyyətcə alman olan Fridrix Buşman 1822-ci ildə ilk dəfə nəfəslə ifa olunan "dodaq qarmonu" (ağız qarmonu) düzəldib, daha sonra nəfəsli qarmon hazırlayanda sağ əlin "solist" kimi iştirakını, aparıcı rolunu nəzərə alıbmış. Sonra o, körüklü alət yaradanda da sağ əli ifaçılıq üçün əsas götürüb. Hər halda fortepiano alətində sağ əlin əsas "ifaçı" olduğunu da nəzərə alsaq F. Buşmanın bu reallığa da istinad etməsinə inanmaq olar.

Dünyanın hər yerində klavişli (dilli) alətlər, o cümlədən ruslar, tatarlar, inquşlar, çeçenlər, bütünlükdə Qafqaz xalqlarının ifa etdikləri qarmonlar, həmçinin Əfqanıstan, Hindistan, Pakistan və ərəb ölkələrində çalınan harmonlarda ənənəvi olaraq sağ əl aparıcı rol oynayırsa, yeganə olaraq milli Azərbaycan qarmonu sol əl ilə çalınaraq sağ əl ilə müşayiət olunacağı üçün seçiləcək, digər xalqların alətlərindən ayrılacaq, fərqlənəcək. Qarmonun körüyü indikinin əksinə olaraq sağ əlin vasitəsilə sağ tərəfə çəkiləcək.

Dediklərimizi ilk növbədə tədrisdə, ibtidai musiqi məktəblərində həyata keçirmək lazım gələcək. Hər bir şeyə mərhələlərlə nail olunacaq. Qarşıda böyük çətinliklər var. Sol (solaxay) qarmonlar düzəldilməli (şagird qarmonları rekonstruksiya edilməli), şagirdlər yetişdirilməli, əldə olunacaq nailiyyətlər lazımi qədər təbliğ olunmalıdır. Heç bir çətinlikdən qorxmamalı, sevimli sənətkarımızın, görkəmli alimimizin fikirlərini tədricən, pilə-pillə, addım-addım, mərhələ-mərhələ yerinə yetirib hasilə gətirməliyik. Yuxarıda qeyd etdiyimiz kimi Kazan şəhərində istehsal edilən, tədrisdə istifadəyə gərək olan "şagird qarmonları" rekonstruksiya edilməli, "solaxay qarmon" halına salınmalıdır. Bu kimi işləri yerinə yetirmək üçün qarmon alətlərinin təmiri, düzəldilməsi və rekonstruksiya edilməsi sexi də açılmalıdır. Burada çalışmaq üçün Azərbaycanda kifayət qədər ustalar vardır. Yeri gəlmişkən qeyd edək ki, təşəkkül tapdığı zamandan son 20-30 ilə qədər Azərbaycan qarmonlarını qeyri-azərbaycanlılar düzəldər və təmir edərdilər. Lakin son dövrlərdə millətimizin nümayəndələrinin bu peşəyə meyli artıb. Nəinki Bakıda, hətta Lənkəranda, Əlibayramlıda (haz. Şirvan), Gəncədə, Tovuzda, Qazaxda, Ağstafada və Şəmkirdə qarmon ustaları var və getdikcə yeni nümayəndələr meydana çıxır.

Hər bir yenilik, bir çox hallarda kəşf və yeni ixtira maneələrlə qarşılaşdığı kimi Z.Mirzənin də "solaxay qarmon ifaçılığı" (qarmonun sol əl ilə çalınıb, sağ əl ilə müşayiət olunması) fikirləri ilk əvvəllər etirazla qarşılana bilər. Lakin, virtuoz ifaçı, sənətşünas alim "Milli Azərbaycan qarmonu"nun gələcəyini gerçəkləşdirmək üçün fikirlərində qətiyyətlidir, elmi əsasları, dəyərli düşüncələri vardır. Tibbi nöqteyi-nəzərdən də qarmonun "solaxay" olması daha məqbuldur. Burada beyin yarımkürələrinin rolunu, icra qabiliyyətini əsas götürmək lazımdır. Zakir Mirzə fikirlərini mənimlə bölüşərkən mən ona tövsiyyə etdim ki, o, həkimləri də bu məsələyə cəlb etsin və onların tibb elminə əsaslanan fikirlərini əsas götürsün. Həmçinin Zakir müəllim mənim aşağıdakı fikirlərimlə də razılaşdı ki, qarmonun indiki vəziyyəti, bu qaydada çalınması, körüyün sol tərəfə çəkilməsi ürəyə yükdür, ağırlıq salır, ürəyi zəiflədir. (Yaxşı ki, son illər "peşəkar qarmonlar"ın sol gövdəsində, müşayiət rolu oynayan səslərin, tənəkələrin-plankaların sayı azaldılmış, alət xeyli yüngülləşmişdir). Yaşı əllini, altmışı keçmiş qarmon sənətçiləri öz ifaçılıq fəaliyyətini davam etdirməkdə çətinlik çəkirlər. Onların infarkt və ya iflic xəstəliyinə tutulması ehtimalı çoxalır. Qeyd etməliyik ki, digər xalq musiqiçilərimiz, xanəndələrimiz kimi qarmonçalanlarımızın da fəaliyyət meydanı və qazanc mənbəyi xalqımızın toy mərasimləridir. Qarmonun toylarımızda aparıcı musiqi alətlərindən biri olduğunu, mərasimlərin 5-6 saat çəkdiyini, üstəlik bəzi ifaçıların hər gün şənliklərdə çıxış etdiyini nəzərə alsaq qarmonçalanlarımıza nə boyda yük düşdüyünü dərk etmək olar.

Əlbəttə, Zakir müəllimin bu ixtirasını həyata keçirmək üçün on illər lazım gələcək.

Zakir Mirzə solaxay qarmonu indiki qarmonlarımızın həcmində (2 oktava yarım, do səsilə başlayıb fa səsilə bitir) usta Minəli Eyvazova (1956-2009) düzəltdirib. Bundan başqa hazırladığı



Tələbələr və özü solaxay qarmonda

tələbələr üçün də bir neçə "Kazan" markalı tədris qarmonlarını "solaxay" hala salaraq rekonstruksiya etdirib. Yeni alətlə sənətkar müntəzəm məşq edir, sol əl ilə ifaçılıq qaydalarına vərdişlə nail olur. Belə ifaçılıq qaydalarını tələbələrə öyrədir. O, artıq bu qayda ilə iki-üç tələbə hazırlayır. Gələcəkdə belə tələbələrin sayı çoxalacaq.

Zakir müəllim yeni ixtirasına azmlə yanaşaraq hazırladığı tələbələrlə geniş ictimaiyyət qarşısına çıxacaq, öz sözünü deyəcək və yeni nailiyyətləri ilə xalqımızı sevindirəcək.

"Solaxay qarmon"un ilk milli Azərbaycan qarmonu kimi meydana çıxaraq onun tibbi nöqteyi-nəzərdən insan fiziologiyasına mənfi təsir göstərmədiyini əsaslandırmaq üçün Zakir Mirzə tibb işçiləri ilə ciddi söhbət aparmışdır. Bakı şəhəri Dəmir Yolu Xəstəxanası "nevroloji şöbə"nin müdiri, nevropatoloq-həkim İlham Cavadov elmi mənbələrə əsaslanaraq Zakir Mirzənin fikrinə müsbət rəy vermişdir. Bundan başqa həkim Hacı Əbdül Əhəd Əliyev yazılı mənbələrə istinad edərək, fikirlərini şəxsi təcrübə üzərində quraraq xüsusi yazılı rəy hazırlamış və Zakir müəllimə dəstək olmuşdur.

Əsaslı fikir və düşüncələrinin müsbət təsdiqinə nail olmaq üçün ustad sənətkar Azərbaycan Milli Konservatoriyasının rəhbərliyinə rəsmi müraciət etmişdir. Bu elm ocağının xalq çalğı alətləri kafedrasının 21 noyabr 2007-ci il tarixli toplantısında Zakir Mirzənin rekonstruksiya etdiyi "sol əl ilə ifa olunan ilk milli Azərbaycan qarmonunun müdafiəsi" müzakirə olunmuş və 32 saylı protokolda öz təsdiqini tapmış, müsbət rəy verilmişdir. Milli Konservatoriyadan verilmiş sənədi əsas götürərək Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi bir ixtiraçı kimi Zakir Mirzəyə 05.12.2007-ci il qeydiyyat tarixli "Şəhadətnamə" təqdim etmişdir.

Zakir Mirzənin ixtirası barədə məlumat İnternet saytında yerləşdirilib. Sənətkarın bir böyük uğurunu da qeyd edək. 2-3 il ərzində çalışdığı "Qarmon məktəbi" kitabını 2008-ci il avqust ayında nəşr etdirib.

2013-cü il sentyabr ayının 9-da "Space" televiziyası Z.Mirzənin 70 illik yubileyini qeyd etdi. Görkəmli alimlər, bəstəkarlar, şairlər, sənət dostları ürək sözlərini dedilər. Yubiley tədbiri həmin il oktyabr ayının 30-da Dövlət Mahnı Teatrında keçirildi. Burada da alimlər, xalq artistləri, görkəmli sənət adamları təbriklər söylədilər. Müğənniləri Ə.Bakıxanov ad. x.ç.a. ansamblı müşayiət etdi. Qarmon ifaçılarından Baxışəli Əliyev, Teyyub Teyyuboğlu, xalq artisti Avtandil İsrfilov solo ifaları ilə yadda qaldılar. Sonda Z.Mirzə "Muğam və rəqs"lə bütün iştirakçılara bol-bol sevinc bəxş etdi.



Ə.Bakıxanovun ev-muzeyində. Alla Bayramova, Həkim Qəni, Zakir Mirzə və Məmmədrza Bakıxanov

AZƏRBAYCAN RESPUBLİKASI
STANDARTLAŞDIRMA, METROLOGİYA
VƏ MÜƏLLİF HÜQUQLARI AGENTLİYİ

PATENT

İXTİRA

İ 2008 0096

İxtiranın adı: **Azərbaycan qarmonu**

Patentin sahibi: **Mirzəyev Zakir Qulam oğlu (AZ)**

Müəllifi: **Mirzəyev Zakir Qulam oğlu (AZ)**

İddia sənədinin nömrəsi: **2007 0290**

İlkinlik tarixi: **26.12.2007**

Dövlət reyestrində qeyd olunub: **21.05.2008**

Baş direktor R.A.Həsənov

Patent şöbəsinin müdiri M.M.Seyidov

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRİNİN

ƏMRİ

AZ. 1008, Bakı şəh., Xətai prospekti, 49. Tel.: 491-05-47

№ 638 24.05.2008

Qrif verilməsi barədə

ƏMR EDİRƏM:

Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecinin əməkdaşı s.n. Zakir Mirzəyevin «Xalq çalğı alətləri» ixtisası üçün hazırladığı «Qarmon məktəbi» adlı əlyazması dərs vəsaiti kimi təsdiq edilsin.

Əsas:
- Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası «İncəsənət» bölməsinin 15.03.2008-ci il tarixli, 14 nömrəli iclas protokolundan çıxarış;
- Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kolleci Pedaqoji Şurasının 25.01.2008-ci il tarixli 4 nömrəli iclas protokolundan çıxarış;
- Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kolleci «Xalq çalğı alətləri» fənn birləşmə komissiyasının 14.01.2008-ci il tarixli, 5 nömrəli iclas protokolundan çıxarış;
- prof. T.Bakıxanov və X.Dadaşovun rəyləri;
- Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecinin 29.02.2008-ci il tarixli, 22-01-13/2 nömrəli məktubu.

MİSİR MƏRDANOV

Qarmonçalan Zakir Mirzə

Qəlbimizə nur çiləyər,
Məlhəm qoyar dərdimizə.
Bizi feyziyab eyləyər,
Qarmonçalan Zakir Mirzə.

Enişdən, yoxuşdan keçib,
Sənətin incəsin seçib,
Musiqi şərbətin içib,
Gərəklidi elimizə
Qarmonçalan Zakir Mirzə.

Küləklərdən qanad alıb,
Dostlarına sadiq qalıb,
Qəlbinin tellərin çalıb,
Atəş salıb qəlbimizə
Qarmonçalan Zakir Mirzə.

O, illəri yola saldı!
Neçə-neçə toylar çaldı!
Öz sənətilə ucaldı!
Şərikdir dərd-sərimizə,
Qarmonçalan Zakir Mirzə.

Eşqi bulaqdan durudu,
Vətənimin mərd oğludu,
İsrafilin qürurudu,
Yaxın dost, qardaşdı bizə
Qarmonçalan Zakir Mirzə.
İsrafil Əhədov, 16 may 2007-ci il.

Zakir Mirzənin 70 illiyinə

Sənət göylərində şimşək tək çaxdı,
Qarmona bağlandı taleyi, baxtı.
Buna sərf olundu bir ömür vaxtı.
Sənətilə dövran sürən Zakirdi,
Dürlü-dürlü işlər görən Zakirdi.

"Muğam və rəqs"lə yeni lad yaratdı,
Əsərilə tanındı, ad yaratdı.
Bizə zövq verdi, şirin dad yaratdı.
Peşəsində dəqiq, zərgər Zakirdi,
Dərin bilicidi, pərgar Zakirdi.

Bizim ustadların yadigarıdır,
Gözəl rəqslərin bəstəkarıdır,
Xalq musiqimizin sərvət-varıdır.
Qarmonu doğmalaşdıran Zakirdi,
Doğma dildə danışdıran Zakirdi.

Yaşlı vaxtlarında elmə gəldi o,
Mövzu müdafiə edə bildi o,
"Qarmon bizim deyil" - sözün sildi o.
Qarmonu elmə gətirən Zakirdi,
Sübutla milli etdirən Zakirdi.

Uzun illərdir yol gəlir uğurlu,
Yolu şərəflidir, qürurlu, nurlu,
Öndə, yüksəkdədir, ucadır, ulu.
Daim çalan zəfərləri Zakirdi,
Fəth eləyən zirvələri Zakirdi.

Qarmonu fərəhlə alır əlinə,
Həssaslıqla toxunur hər dilinə,
Ürək qoyur səslərin bəm-zilinə.
Bu səslərdən çələng hörən Zakirdi,
Zərif, nəfis bəzək verən Zakirdi.

"Segah"ında düşüncələr aləmi,
Məhəbbətin gəmidirmi, naləmi?
Səslənən qəlbinin incə telimi?
Bizi sevgiyə səsləyən Zakirdi,
Pak, ülvi arzu bəsləyən Zakirdi.

Yeni işlərlə aləmə səs salır,
Tutduğu bu yola o, sadiq qalır,
Qarmon ilə simfonik əsər çalır.
Simfonizmlə iş quran Zakirdi,
Çətin yolda mətin duran Zakirdi.

O, bir təkdi, heç bərabəri yoxdu,
Barmaqları cəldi, sürətli oxdu,
Pedaqoqdu, yetirmələri çoxdu.
Ustad dərslərini keçən Zakirdi,
Halal bəhrəsini biçən Zakirdi.

İndi çatıb yetmiş yaşın tamamı,
Təbi azalmayıb, coşur ilhamı,
Artıb ifasının ləzzəti, tamı.
Muğamları dürüst çalan Zakirdi,
Şirin xallardan zövq alan Zakirdi.
Sənətilə yaşa dolan Zakirdi,
İllər ötdükcə ucalan Zakirdi.
Eşqi cavan, gec qocalan Zakirdi.
Əhsən Rəhmanlı. 01.09.2013-cü il

2.30. ƏMİSİNİN VƏ ATASININ SƏNƏT YOLUNU DAVAM ETDİ



Fazil Yusifov

Fazil Yusif oğlu Yusifov 1939-cu ildə Ağdam şəhərində musiqiçi ailəsində anadan olub. Ailədə dörd övlad böyüyüb. Sonbeşik övlad Fazil atası Yusifin və və əmisi Kərbəlayi Abutalıbın sənət yolunu davam edərək qarmon sənətinə xidmət edib. O, 1947-1957-ci illərdə orta ümumtəhsil məktəbdə oxuyub. Sənət qədəmini öz istedadı sayəsində atsa da, əmisinin şöhrəti, onunla bağlı danışılan xatirələr, yazılanlar, atasının ifası, el-obada və sənət adamları arasında olan xətir-hprməti Fazili qarmon sənətinə daha güclü həvəslə bağlayıb. O, ilk sənət vərdişlərini atasından öyrənib. Atasının evdəki çalğılarını müntəzəm izləməsi, ondan götürdüklərini öz ifasına gətirməsi, bundan başqa qrammafon vallarını və radionu dinləməsi Fazili ifaçılıq sənətinə bağlayıb. Atasının sənət dostları tez-tez onların evinə toplaşar, çalıb oxuyar, sənətkarlardan söz açar, ifaçılıq sənətinin keşmişi və gələcəyi barədə söhbət edərdilər. Bütün bunlar qarmon ifaçılığına yeni başlamış bir gəncin sənət aləmi üçün yetişib formalaşmasında mühüm rol oynamışdı. İlk əvvəllər qədim oyun havalarını atasından öyrənsə də, geniş sənət meydanına çıxandan sonra onun muğam ifaçılığı yaranmış, biliyi artmış, repertuarı artmış və çalğı üslubu xeyli zənginləşmişdi.

Yaxşı deyirlər ki, hər bir sənəntkar öz dövrünün övladıdır. Kərbəlayi Abutalıb da, Yusif də, digərləri də öz dövrünün sənətkarları idilər. Əslində onlar çətin dövrdə, musiqi təhsili almadan sənətə gəlmişdilər. Qarmon bir alət kimi tam öz yerini almamış, tam təkmilləşməmişdi. Azəbaycanın beyin və mədəniyyət mərkəzi Bakı istisna olmaqla əksər bölgələrdə yarımtonsuz qarmondan istifadə olunurdu. Təbii ki, belə alətlərlə tam peşəkar sənət nümayiş etdirmək, zəngin xalq musiqimizi və muğamlarımımzı bütün incəliklərinə qədər dolğun şəkildə ifa etmək mümkün deyildi. Fazil qarmon sənətinə gələndə isə musiqi mədəniyyətimizin mənzərəsi tam başqa şəkil almışdı. Qrammafon valları daha geniş şəkildə yayılmış, radioda, televiziyada müntəzəm olaraq bir-birindən maraqlı və zəngin konsertlər verilmiş, ifaçılıq sənətimizin tarixini əks etdirən kitablar yazılmış, görkəmli sənətkarlarımız haqda qəzetlərdə, dərgilərdə oçerklər və elmi məqalələr öz əksini tapmışdı. Musiqi təhsili genişlənərək Azərbaycanın bütün bölgələrini əhatə etmiş, öz inkişafını taparaq yeni-yeni istedadlı musiqiçiləri meydana gətirmişdi. Təbii ki, Fazilin də belə bir zamanda tam peşəkar bir qarmon ifaçlsl kimi öz yerini alıb irəliləməsi üçün münbit şərait yaranmışdı. O da öz dövrünün sənət övladı idi. Fazil Məmmədağa Ağayevin, radiodakı ifalarından, qrammafon vallarından öyrənmişdi. Onunla şəxsi tanışlığı da var idi. Ağdam toylarında onu çox dinləmişdi.

Fazil Yusifov Ağdam musiqiçilərinin sırasında öz yerini alaraq buranın sayılıb seçilən sənətkarları ilə çiyin-çiyinə çalışıdı, tam sevildi və dərin hörmətə sahib oldu. O, 1960-cı ildən toylara, müxtəlif mədəni tədbirlərə və konsertlərə getməyə başladı. İlk dəfə atasının dəstəsinin tərkibində çalışdı. Sonralar isə sənət imkanları, ustalığı artdığı kimi, sənət dairəsi də böyüdü və fəaliyyəti

genişləndi. Yaxşı xatırlayırdı ki, Xan Şuşinski Qarabağa toya gələndə Yusif kişini də dəstəsinin tərkibinə götürürdü. Yusif xəstə olanda onun yerinə oğlu Fazil gedərək muğamat mülkünün Xanı ilə eyni şənliklərdə çıxış etmişdi.

Fazil Ağdamda xanəndələrdən Şahmalı Kürdoğlu, Yaqub Məmmədov, Zarıslı İsa, Barat Fərhadov, İldırım Həsənov, Mürşid Məmmədov, Aydın Məmmədov, Aydın Niftəli oğlu, Əlisəfa və Əliövsət qardaşları ilə yoldaşlıq edib.Belə sənətkarlarla nəinki Ağdamda, eləcə də ətraf rayonlarda ən gur keçən samballı məclislərdə olub. Fazilgil Ağcabədi, Yevlax, Beyləqan, İmişli, Saatlı, Sabirabad rayonlarında, Mingəçevir, Gəncə və Bakı şəhərlərində də toylarda olurdular. O, 5 il xanəndə Ramiz Bəşirov, tarzən, əməkdar mədəniyyət işçisi Rafiq Rüstəmov və qavalçalan Səxavətlə bir dəstədə çalışaraq Qarabağda və Azərbaycanın əksər bölgələrində el şənliklərimizə yaraşıq verənlərimizdən olub.

Fazil Yusifov da təhsilli xalq musiqiçilərimizdəndir. O, 1 saylı Ağdam musiqi məktəbində atasının dərs dediyi qarmon sinfini , Ağdam Musiqi Texnikumunun xor dirijorluğu şöbəsini, Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsini (qiyabi) bitirib. 1985-1987-ci illərdə Ağdam mədəniyyət sarayının direktoru olub. 1 saylı uşaq musiqi məktəbinin qarmon sinfində dərs deyib. Yetirmələrindən sənət aləmində çalışanlar da olub. Elçin İsmayılov istedadlı qarmon ifaçısı kimi yetişərək Bakıya gəlmiş, Azərbaycan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblında işləmiş və xalq musiqiçilərimiz arasında tanınmışdı. Əcəl onu aramızdan tez apardı.

Fazill müəllim Bakıda məskunlaşan, qaçqınlıq həyatı yaşayan musiqi məktəbində də pedaqoji fəaliyyətini davam etdirmişdir. F.Yusifov Ağdamın "Şur" x.ç.a. ansamblında çalmış və bir-neçə dəfə Bakıya konsertlərə gəlmişdi. Onun xatirələrinə yer verək: "Ustad xanəndə Seyid Şuşinski ömrünün yaşlı çağlarında Ağdam Musiqi Texnikumunda dərs deyirdi.

Bir dəfə çayxanada oturub çay içərkən gəlib salamlaşıb kefini xəbər aldım. O, xanəndə Barat Fərhadovdan soruşdu:-Bu oğlan kimdir? Barat dedi ki, qarmonçu Yusifin oğludur. Seyidin üzündə sevinc işartıları göründü:-Daha de ki, qardaşımın oğludur dayna...O, Abutalıb əmimi



F.Yusifov Ağdam şəhər 1 saylı uşaq musiqi məktəbində şagirdlə məşğələ zamanı, 2000-ci il

yada saldı, atamı da tərifləndi.

Bir dəfə də Seyid Şuşinskiyə küçədə rast gəldim. Hal-əhval tutdum, söhbət edə-edə texnikuma gəldik. Təbi gəlmişdi, oxumaq istəyirdi. Onun sinfinin müşayiətçisi Bəylər Balakişiyev tarı yaxşıca köklədi. Ağa "Çahargah" başladı, nə başladı.Muğama "Bərdaşt"la daxil olaraq yaxçı gəzişmələr, boğazlar edib yavaş-yavaş "Maya"ya gəldi. O yaşda onun "Çahargah" oxumağı əsl möcüzə idi.

Xan əmi ilə toylarda olurduq. O, mədəni, əxlaqlı, səbrli və ağayana adm idi. Toyda sazanda dəstəsi üçün pullara, verilən nəmərlərə nəzər yetirməzdi. Yığılan pullar qarmonumun qabına toplanırdı. Pulları özü bölməzdi, deyərdi özünüz bölün. O, bizimlə tən pay götürərdi, heç vaxt özü ilə bizim aramızda fərq qoymazdı. Mən o insanda həmişə gözütoxluq və alicənablıq gördüm".

Musiqi sənətimizə, el-oba şənliklərimizə ömür sərf etmiş bir şəxsin təbii ki, çoxlu xatirələri var. Lakin görüşümüz zamanı Fazil müəllimlə çox söhbət edə bilmədik. Çünki onun xəstəlik dövrü idi. O,iflic olmuşdu. Lap asta danışır, çox şeyi xatırlaya bilmirdi. Biz onunla 2012-ci il aprel ayının 10-da günorta çağı Əhmədli qəsəbəsində, Neapol dairəsində, qardaşım Hacı Rəhmanın çayxanasında görüşdük. Onu ora şəxsi avtomobili ilə oğlu gətirmişdi. Fazil müəllim çətinliklə yeriyirdi. Nitq qabiliyyəti isə yerindəydi.Yaxşı ki, Allahın izni ilə biz onunla görüşüb müsahibə ala bildik. Atası Yusifin fəaliyyəti barədə də ondan məlumat aldıq. Ömrünün ahıl, xəstə dövrünü yaşayan, sağlam çağlarını qarmon ifaçılığına həsr edən Fazil müəllimi də musiqi tariximizdə görmək istədik.

Fazil Yusifov 1967-ci ildə ailə qurub. Doqquz övlad böyüdüb. Dörd nəvəsi var. Nəvələrdən birinə öz adını verib.

2.31. BÖYÜK İSTEDAD SAHİBİ



Firudun Hüseynzadə

Bu mövzumuzun qəhrəmanı haqqında böyük rəğbət və xüsusi hörmət hissilə yazmaq istəyirəm. Çünki o da böyük istedad sahibi olan Azərbaycan oğullarından biridir.

Mən bu insanı 1968-ci ildən tanıyıram. Həmin il Bakı Mədəni-Maarif Texnikumuna qəbul olunmuşam. Qrup fənlərinin müəllimlərini dərs saatları zamanı bir-iki həftə ərzində yaxından tanısaq da, fərdi dərs müəllimiərini dəhlizdə görüb kənardan seyr edirdik. Əlbəttə hər bir tələbə öz fərdi fənn müəllimlərinin dərslərində iştirak etdiyi üçün yaxın münasibət yaranmışdı. Digər tələbələrin fərdi dərs müəllimlərini isə təbii ki, yoldaşlarımızın söhbətləri əsasında tanıyırdəq. Qrup yoldaşlarımızın bir-neçəsinə qarmon ixtisasından dərs deyən Firudun müəllimi televiziya konsertlərində görürdüm. O, Əhməd Bakıxanovun idarəsilə x.ç.a. ansamblının saz ifaçısı idi. Canlı çıxışlarda, istərsə də televiziya çəkilişlərinin yayımı zamanı onun saz ifalarına da yer verilirdi. Əlbəttə o zamanlar televiziyada seyr etdiyimiz musiqiçiləri yaxından görmək, səslərini eşitmək, söhbətlərini dinləmək biz gənclərə böyük sevinc bəxş edirdi. Firudun müəllim hətta bizimlə əl verib görüşürdü də. Bu onun sadəliyindən və sə-

mimiliyindən irəli gəlirdi. Texnikumun binasına daxil olarkən ağır addımlarla dəhlizdə sinif otağına doğru gedən çöhrəsi gülümsər, qıvrım qara saçlı, nazik biğl, səliqəli geyimli bu gənc müəllim təhsil alıb sənət aləminə qovuşmaq arzusu ilə yaşayan biz gənclər üçün numunə idi. Bir-neçə dəfə onun piano ifasını da eşitmişdim. Bu o zamanlar olurdu ki, birinci növbənin dərs saatları bitir, sinif otaqları boşalır və fərdi dərslər üçün şərait yaranırdı. Firudun müəllimin tələbələri sinfə gələnə qədər o, piano arxasına keçər və könlünə yatan musiqiləri ifa edərdi.Biz tələbələr onun ətrafına toplaşıb maraqla tamaşa edərək həssaslıqla dinləyərdik. Bax, elə bu şəxsin haqqında başladığım oçerkin məhəbbətlə yazılmasının bir səbəbi də onu ilk gənclik illərimdən tanımağım, ifasından bəhrələnməyim və sonrakı dövrdə onun fəaliyyətini izləməyimdir.

O, incə zövq və bədii təfəkkür sahibidir. Bu qeyd etdiyim onda zaman-zaman formalaşsa da kiçik yaşlardan musiqiyə həssaslığı, böyuk istedadı və güclü marağı buna şərait yaradıb. Sənət yollarında nə edibsə bunun məğzində, mahiyyətində, mayasında, böyük istedadın bitib – tükənməyən enerjisi dayanır. Erkən yaş dövründən onu müşayiət edən bu enerji özünü həmişə biruzə verib və sonralar ikinci, üçüncü dərəcəli işlərə sərf olunmayıb. Bu enerji azalmayıb, əksinə artıb, məzmunu, dəyəri zənginləşib.

Onun şəxsiyyəti, insanlığı və mədəni səviyyəsinə həsəd aparmamaq olmur. Ömrün müdrik çağına yetişmiş bu adam keçdiyi yaradıcılıq yollarını xatırladıqca gümrahlaşır, sanki cavanlaşır və fərəh hissi keçirir. Bu şəxsin adı Azərbaycanın musiqi mədəniyyətinin inkişaf tarixinə yazılmalıdır. Biz də elə bunu etdik. Çünki bu cür insanlardan qürur və bəxtiyarlıq duyuruq.

Firudun Meydan oğlu Hüseyhzadə 1943-ci il noyabr ayının 30-da Tovuz rayonunda anadan olub. Meydan Əliqulu oğlu Ağayev (1915-1974) 1938-ci ildə Naxçıvanın Şərur mahalından Tovuza gəlib. Burada Firəngiz Cəfər qızı(1923-1996) ilə ailə qurub, üç qız, iki oğul sahibi olaraq onların tərbiyəsi, təminatı, təhsili və gələcək həyatları üçün var gücünü sərf edib.

Firudun ailənin ikinci övladl olub.O, 1950-ci ildə ümumtəhsil məktəbin 1-ci sinfinə daxil olub. Orta təhsili 1960-cı ildə axşam fəhlə-gənclər məktəbində bitirib. Onun musiqi ilə məşğul olması 1957-ci iln yayına təsadüf edir. O, məktəblilərin yay tətili zamanı Şuşa şəhərindəki pioner düşərgəsində dincəlirdi. Burada kütləvi oyunlar keçirilirdi. Musiqili-əyləncəli proqram xüsusi maraq oyadırdı. Pianonu Firəngiz xanım dilləndirirdi və hər dəfə də Firudun onun yanında dayanıb əllərinə tamaşa edir, musiqini yaxından eşidib duyurdu. Həmin anlardan onda musiqiyə daha güclü maraq oyanmışdı. Firudun müəllimin xatirələrindən:" Firuzə xanım xəstə olduğu üçün bir gün işə gəlmədi. Əyləncəli tədbirdə pianonu mən çalası oldum. Yaddaşımda olan sadə melodiyaları, asan başa gələn mahnıları ifa edirdim. Əlbəttə, pianonu əsl qaydasında, iki əllə deyil, sadə formada, yalnız sağ əlimlə çalırdım. Hələ uşaqlıq çağlarımdan eşitdiyim, yaddaşımda saxladığım mahnıları ağzımda oxuyurdum. Bütün bunlar pioner düşərgəsində karıma gəldi.

Biz uşaq olanda atam patefon (qrammafon valı oxudan – Ə.R.) almışdı. Evimizdə Xan Şuşinski, Əbülfət Əliyev, Ağabala Abdullayev, Aşıq Əsəd və başqalarının qrammafon valları vardı. Atam evdə dincələrkən bu ifaları dinləyirdi və təbii ki, mən də eşidirdim. Aşıq Əkbərin səsi ya-Atam evdə dincələrkən bu ifaları dinləyirdi və təbii ki, mən də eşidirdim. Aşıq Əkbərin səsi yazılmış vala daha çox qulaq asırdım. Eşitdiyim mahnıların hamısı yadımda qalmışdı. Radio konsertlərini də izləyirdim. Qəlbimdə musiqiyə böyük həvəs oyanmışdı.

Pioner düşərgəsində məlum oldu ki, pianoçu Firuzə xanım xəstəliklə əlaqədar bir həftə işə gəlməyəcək. İş mənim üzərimə düşdü. Mən bir həftə zalda gecələyərək sabah əyləncəli proqramda çalacağım musiqiləri məşq edirdim. O zaman 7-ci sinifdə oxuyurdum. Dərslər başlayanda Tovuz rayon pionerlər evinə getdim. Piano çalmağa başladım. Buranın direktoru Maya xanım ifamı dinləyirdi. Əlini kürəyimə vurub tərif elədi və dedi ki, gəl dərnəkdə uşaqları öyrət. 7-ci sinfi bitirəndən sonra məni pionerlər və məktəblilər evinə dərnək rəhbəri götürdülər. Odur ki, 8-ci – 10-cu sinifləri axşam məktəbində oxudum". Firudun Hüseynzadə pionerlər evində qarmon və foto



1961-ci il. Sağda: F.Hüseynzadə Zaqatalada istirahətdə

dərnəklərinə rəhbərlik edirdi. Qarmon calmağı da özü öyrənmişdi. Yaxşı da çalırdı. Radiodan T.Dəmirov, M. Ağayev, Q. Dadaşova, S. Vəzirov və A. Abbasovun ifalarını eşitməsi Firudunun həvəsinin də, çalğı bacarığının da artmasına kömək olmuşdu. O, həmin mahir ifaçılardan eşitdiyi havaları dərnəyə gələn uşaqlara öyrədirdi.

F. Hüseynzadə özünə akkordeon almışdı. Bir müddət məşq etdikdən sonra alətin ifa qaydalarına uyğun olaraq sağ və sol əllərlə sərbəst calırdı. İfa etdiyi hər hansı melodiyanı sol əlin qaydasınca müşayiət edirdi. Fitri istedadı onu burada da irəli aparmışdı.

Pionerlər evində hər musiqi aləti var idi. Firudun alətlərin ifa qaydaları ilə də sərbəst olaraq özü tanış olurdu. Təmirə ehtiyacı olan alətlərə əl gəzdirir, təmir edirdi. Beləliklə o, tar ifaçısı kimi də yetişmişdi.

F.Hüseynzadə 1961-ci ildə Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinə qəbul olunur və buranı 1969-cu ildə uğurla başa vurur. 1962-1965-ci illərdə əsgərlikdə olur. Əvvəl Leninqrad, sonra isə Bakı hərbi dairəsində xidmət edir.

O, universitetə qəbul olunan kimi özfəaliyyət x.ç.a. ansamblına üzv olmuşdu. Ansambla Fərman Əzimov rəhbərlik edirdi. Sonralar isə həmin ansamblın rəhbəri məşhur tarzən Həbib Bayramov olmuşdu. Firudun ansamblda tar çalırdı.

Universitetin mahnı və rəqs ansamblının xormeysteri Hacıbaba Əliyev, baletmeysteri xalq artisti Əlibaba Abdullayev idi. Burada çox ciddi iş aparılır, konsertlərə, festivallara, müsabiqələrə hazırlıq gedirdi. Rəqs ansamblının qarmon müşayiətçisi Tofiq Qarabağlı (ləqəbi Lenin Tofiq) idi. Konsertlərdə o, x.ç.a. ansamblının tərkibində də çalırdı.

F.Hüseynzadənin xatirələrindən: "1961-ci ildə İmişli rayonunda bayram tədbiri keçirilirdi. Universitetimizin musiqi kollektivi də orada çıxış edirdi. Qarmonçalan Tofiq hansı səbəbdənsə iştirak etmirdi. Rəqs quruluşlarını müşayiət etmək üçün qarmon ifaçısı lazım idi. Mən rayona

qedəndə tarımı da, qarmonu da götürmüşdüm. Rəqs ansamblının repertuarını bilirdim. Bunları müntəzəm iştirak etdiyim məşqlər zamanı və konsertlərdə iştirak edərkən mənimsəmişdim. Konsertdə rəqs quruluşlarını qarmonumla mən müşayiət etdim. Əlibaba Abdullayev mənim bu işimdən razı qaldı. Dedi, Bakıya qayıdan kimi mənim məşqlərimə gəl. O, məni ştatla işə qəbul etdirdi və beləliklə 240 "rubl" maaş almaqla rəqs ansamblının qarmonçalanı oldum. Əlibaba müəllimlə birlikdə çalışmaq çox çətin olsa da bu işin öhdəsindən gəlirdim. O,olduqca çətin və maraqlı rəqs quruluşları verir, hamıya tələbkar yanaşır və dəyərli proqram hazirlayırdı".

Burada haşiyə çıxaraq bildiririk ki, F.Hüsenzadə Bakıya gələn kimi özünə yaxşı alət, sənətkar qarmonu almışdı. Bu digər qarmonlardan rəngi, ölçüsü, oktavalarının sayı ilə fərqlənirdi. O zamanlar Tula şəhərində yaşayan məşhur ustalardan biri Juravlyovun düzəltdiyi bu yeddi tənəkəli (rusca-planka), üç oktavalı, tünd qəhvəyi rəngli qarmonun çəkisi ağır, olçüsü böyük olsa da,yaxşı tembri ilə seçilirdi.

Əsgərlikdən qayıdan Firudun yenə də universitet ansamblının fəal üzvlərinin biri idi. Ansambla əməkdar artist (sonralar x.a.), tarzən Həbib Bayramov rəhbərlik edirdi. Firudun bu ansamblda qarmon çalırdı. Ansamblın saz çalanı isə tovuzlu Aşıq Mirzənin oğlu Zakir Bayramov idi. H.Bayramov onu Teleradioda Ə. Bakıxanovun rəhbərlik etdiyi x.ç.a. ansamblına aparmışdı.

Zakir 1966-cı ildə Xalq Təsərrüfatı İnstitutunu bitirərək Tovuz rayonuna gedir. Ə. Bakıxanovun ansamblına saz ifaçısı lazım olur. H. Bayramov Firuduna cürə saz verir və Əhməd Bakıxanovun evinə apararaq onu ustadla tanış edir. Əhməd müəllim gəncin ifasını dinləyir, ansambla gəlməsinə razılıq verir və tapşırır ki, o, özünə yaxşı cürə saz alsın. Firudun müəllimin dediklərindən: "Mən usta yanına getdim və özümə cürə saz sifariş verdim.Sazın çanağını kiçik düzəltdirdim ki, alətin qolunun uzunluğu artsın, pərdələr, yarımtonlar bir az da çoxalsın. Beləliklə şərəfli, məhsuldar yaradıcılıq yolu keçən bir ansamblın üzvü, sazçalanı oldum".

F.Hüseynzadə 1966-1979-cu illərdə Azərbaycan Teleradio Verilişləri Komitəsinin x.ç.a. ansamblında çalışaraq xalqımızın ən tanımlı müğənnilərini müşayiət etmişdir. Ansamblın qarmonçalanı Musa Həsənov idi. O, elmi-tədqiqat institutunun əməkdaşı olduğu üçün bəzən məşqlərə və konsertlərə gələ bilmirdi. Bu zaman ansamblın qarmonçalanı F.Hüseynzadə olurdu. Pianoçu Zaur Əliyev xəstə olduğu anlarda Firudun onu da dəfələrlə əvəz etmişdi. Ə. Bakıxanov F.Hüseynzadədən həmişə razılıq edirdi. Doğrudan da bu gənc, ansamblın hərtərəfli, bacarıqlı üzvü, canı idi. Çünki o, dəfələrlə Əhməd müəllimi çətin vəziyyətdən qurtarmışdı.


Ə. Bakıxanovun ansamblının müşayiətilə Tükəzban İsmayılova, İslam Rzayev, Zeynəb Xanlarova, Arif Babayev, Nəzakət Məmmədova, Teymur Mustafayev, Hacıbaba Hüseynov, İlhamə Quluyeva, Elmira Rəhimova, Rəna Xaspoladova, Zaur Rzayev və digər müğənnilər radio üçün səslərini yazdırır, televiziya, filarmoniya və respublika sarayındakı konsertlərdə oxuyurdular. F. Hüseynzadə ansamblda çalışdığı müddətdə bütün müğənnilərlə yaxın münasibət qurmuşdu. Onun mədəni rəftarı, həlim, xoş xasiyyəti, asta, yumşaq danışığı buna tam imkan yaratmışdı.

Bəstəkar Ələkbər Tağıyev öz mahnılarını Zeynəb Xanlarova ilə hazırlayarkən Firudun ansambl tərkibində akkordeon çalırdı.

F.Hüseynzadə 1969-cu ildə universitetin coğrafiya fakültəsini bitirərkən rektor Mehdi Əliyev onu burada müəllim saxlayır. Bundan əlavə o, həm də 1967-1981-ci illərdə təhsil nüəssisəsinin özünün burada müəllim saxlayır. Bundan əlavə o, həm də 1967-1981-ci illərdə təhsil nüəssisəsinin özfəaliyyət x.ç.a.ansamblına rəhbərlik edir. Ansamblı Firudun müəllim özü yaratmış, ona "Şələlə" adı vermiş və burada Ə.Bakıxanovun səpgisini yaşatmışdı. Bu ansambldan neçə-neçə musiqiçilər və Sakif Məmmədov, Əvəzxan Xankişiyev, Alidə Qəhrəmanova, Zemfira Məmmədova kimi müğənnilər yetişmişdi. "Şələlə" ansamblı respublika miqyasında tanınmışdı, televiziyada çıxış edir, rayonlarda keçirilən dövlət tədbirlərinə göndərilir, kolxozlarda və sovxozlarda konsertlər verirdi. Universitet ansamblı keçmiş SSRİ-nin şəhərlərinə də göndərilmişdi. 1968-ci ildə Xarkov şə-



Ə.Bakıxanovun idarəsi ilə x.ə. ansambli televiziyada. Soldan: dördüncü sazda F.Hüseynzadə, onda müğənni Rübabə Muradova, soldan birinci H.Bayramov



Moskva, 1965-ci il. Ali təhsil müəssisələrinin Ümumittifaq "Universiada"sı Soğdan 2-ci sıranda dəmir F.Hüseynzadə

hərinə olan səfəri və 1970-ci ildə Sovet dövlətinin hərbi dəniz donanması yaranmasının ildönümü münasibətilə Odessa şəhərində keçirilən möhtəşəm tədbirdəki şıxışları xüsusi qeyd etməliyik.

1969-cu ildə Azərbaycan Dövlət Universiteti yaranmasının 50 illiyi təntənə ilə qeyd olunurdu. Yekun tədbir Dzerjinski (indiki Şənriyar) adına sarayda keçirilirdi. "Şəlalə" ansamblı orada bəstəkar-müğənni Tamilla Məmmədzadəni yüksək səviyyədə müşayiət etmişdi. Ansamblın çıxışı dövlət rəhbəri Heydər Əliyevin xoşuna gəlmişdi. Onun göstərişilə həm ansambl, həm də rəqs kollektivi üçün qiymətli parçalardan konsert geyimləri tikilmişdi.

Firudun Hüseynzadənin rəhbərlik etdiyi x.ç.a. ansamblı ali təhsil ocaqları arasında keçirilən baxlş-müsabiqələrin iştirakçısı olur, bahar bayramlarında və bir sıra tədbirlərdə çıxış edirdi.

F.Hüseynzadə xanəndə Teymur Mustafayevlə toylara getdiyi zamanlarda dəstənin nağaraçaları Lənkəran şəhərində yaşayan Cavad Rəcəbov idi. Bu istedadlı musiqiçi müğənnilik qabiliyyətinə də yiyələnmişdi. Sonralar o, tam sərbəst olaraq müğənnilik fəaliyyətinə başlamış və populyarlıq qazanmışdı. Onun instrumental qrupu var idi. Firudun müəllim universitetdə "Nur" adlı instrumental ansambl yaradarkən, heyətin tərkibinə Cavadın qrupunun üzvlərindən də əlavə etmişdi. 1978-ci ildə "Nur" ansamblı AZTV-nin "Gənclik estradası" populyar verilişində çıxış etmiş və tamaşaçı sevgisi qazanmışdı. Firudun müəllim çox gözəl səslənmə yaratmışdı. Bu o dövr üçün yeni bir iş idi. Firudun Hüseynzadə bu ansamblda elektro-orqan çalırdı.

F. Hüseynzadə 1992-ci ilə qədər universitetin özfəaliyyət kollektivinin rəhbəri olmuşdur. Bu səmərəli və layiqli fəaliyyət həmişə təhsil müəssisəsi rəhbərliyi tərəfindən dəyərləndirilmişdir.

"Dan ulduzu" instrumental ansamblın bədii rəhbəri pianocu-bəstəkar Gülara Əliyeva F. Hüseynzadəni nizam-intizamlı və yaxşı musiqiçilərdən biri kimi qəbul edirdi. O, Firudun müəllimi öz ansamblına akkordeon ifa etməyə dəvət etmişdi. Lakin universitetdəki işlərinin çoxluğundan F. Hüseynzadə dəvəti qəbul etməmişdi.



Sağdan: Firidun, Elşad Cabbarov, Böyükağa Əbdülrüşüdov, Həbib Bayramov və Süleyman Abdullayev

Bəstəkar Ələkbər Tağıyev öz mənzilində mahnılarını o zaman gənc müğənni Nisə Qasımova ilə hazırlayarkən müşayiət edən qrupun tərkibində qarmon ifaçısı Firudun müəllim də olmuşdu.

Haqqında ürək dolusu yazdığımız sənətkarımız toy şənliklərində də xalqımıza əsl sənətkar kimi ləyaqətlə xidmət etmişdir. O, hələ 10-cu sinifdə oxuyarkən Tovuz rayonundakı toy-büsatda qarmon çalırdı. Rayonun el şənliklərində xanəndələrdən Vahid İsmayılov və dərzi Ziyadı müşayiət edərdi. Bakıya gəldikdə isə ilk əvvəllər universitet ansamblının musiqiçiləri və müğənni Fərhad Cəfərovla toy-nişan mərasimlərində olmuşdu. Oçerk qəhrəmanının xatirələrindən: "Bir dəfə ailəvi dostumuzun övladının toyuna qarmon çalmağa dəvətli idim. Klarnet ifaçısı məşhur sənətkar Nadir Axundov idi. Onun adını çox eşitmiş, üzünü görməmişdim. Radiodan onun ifalarını dinləmişdim. Onunla birlikdə çalacağımı ağlıma belə gətirməzdim. Lakin bu bir fakt idi ki, birlikdə toyda çalırdıq. O, çox tanınan, mahir nağaraçalan Ağasüleyman İmanovla gəlmişdi. Mən həmin toy şənliyində belə böyük sənətkarlardan çox şey öyrəndim. Onlardan mənə xoş xatirələr qaldı".

F. Hüseynzadə Bakıda və Azərbaycanın bütün bölgələrində toylarda olurdu. O, xanəndələrdən Rübabə Muradova, Bakir Haşımov, Teymur Mustafayev, Sabir Mirzəyev, Mais Məmmədov, Mais Salmanov, Qulu Əsgərov, Əbülfət Əliyev, Arif Babayev, Məmməd Salmanov, Sabir Novruzov, Razi Şükürov, Zaur Rzayev və digərlərini müşayiət edib. Klarnetçalanlardan Adil Bayramov, Əliağa Əliyev, Anzor Quluyev, Kazım Cavadov, Elşad Cabbarov, Tofiq Babayev (Şors Tofiq), Vaqif Kazımov (Şağanlı Vaqif), Elxan Səmədzadə, Çingiz Əliyev, Babaxan Bağırov, Əzizağa Quluyev və başqaları ilə toy mərasimlərində olub.

Mahir kaman ifaçısı Habil Əliyev xanəndə Teymur Mustafayevlə birlikdə konsertlərdə və toylarda çıxış edərkən o ansamblda qarmonu Firudun çalırdı. Firudun müəllim 1967-1973-cü illərdə xanəndə Zaur Rzayevlə sıx sənət əlaqələrində olaraq şənliklərdə səviyyəli fəaliyyət göstərib. Niyaməddin Musayevlə sənət yoldaşlığına başlaması Firudun müəllimi yeni bir instrumental an-



"Röya" ansamblı toyda. Sağdan: Niyaməddin Musayev (baz. x.a.), Firudun, Fikrət Əliyev və Qüdrət Zəkioğlu

sambl yaratmağa sövq edib. Bu ansambl "Röya" adlandırılıb. "Röya" az zaman kəsiyində çox populyar olmuşdu. Konsertlər, toylar və digər tədbirlərə dəvətlər o qədər çox olurdu ki, boş gün qalmırdı. Firudun Hüseynzadə 1979-cu ilə qədər "Röya" instrumental ansamblın tərkibində çalışmış və solo ionika alətini ifa etmişdir. Tələb olunan anlarda məlahətli səsə malik qarmonunu da səsləndirmişdir.

F. Hüseyzadə 1969-cu ildən Azərbaycan Dövlət Universitetində (haz. Bakı Dövlət Universiteti) baş labarant və müəllim işləmiş, sonralar baş müəllim olmuşdur. Hazırda qiyabi şöbə üsrə dekan müavinidir. Onun dörd övladı və üç nəvəsi var.

2.32. TEYYUB TEYYUBOĞLU



Teyyub Teyyuboğlu

Teyyub Teyyuboğlu 1944-cü il sentyabr ayının 27-də anadan olub.

İstedad ona genlə gəlib, qanında yoğrulub. Dünyaya göz açandan musiqi eşidib. Atasının çaldığı qarmonun səsinə yuxuya gedib. "Segah" və "Şur"un sədaları ona layla çalıb. Ayılanda yenə sirli-sehirli səslər eşidib.

Balaca Teyyub 1951-ci ildə Bakı şəhəri 19 saylı məktəbin birinci sinfinə gedib. Bu məktəbdə bir zamanlar çox məşhur şəxslər, o cümlədən əfsanəvi qəhrəman Mehdi Hüseynzadə (Mixaylo) təhsil almışdır.

Teyyub sonralar təhsilini 44 saylı məktəbdə davam etdirmiş və 1960-cı ildə oranı bitirərək Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olmuşdur. Məktəbdə oxuduğu illərdə Teyyub Bakı şəhəri 12 saylı musiqi məktəbində fortepiano sinfində təhsil almışdır. Kiçik yaşlarından qarmon çalmağı öyrənən Teyyub musiqi məktəbini bitirəndən sonra pianonu çox yaxşı çalmışdır.

Ata Teyyub oğul Teyyubdan bir gün soruşur: "Gələcəyin qarşıdadır. Hansı sənətə sahib olmaq istərdin?"

Oğul cavabında qarmonçalan olacağını söyləyir. Ustad sənətkar gülümsünərək deyir: - "Peşə seçməkdə sən tam sərbəstsən. Atam qarmonçalandır deyə, mən də qarmonçalan olacağam deyib, düşünmə. Mənə görə bu sənətə gəlməyini istəməzdim. Qəlbində sənətə, musiqiyə həvəs varsa, bunu özündə hiss edirsənsə, onda razılaşa bilərəm. Oğul, bu peşənin çətinlikləri lap çoxdur. Dözə biləcəksənsə buyur, gəl. Mən də bacardığım qədər kömək edərəm. Musiqiçilikdə istedad və həvəs əsas şərt olsa da, dözüm, səbr, nəzakət də böyük rol oynayır".

Teyyub Teyyuboğlu sənətə gəldi. Həqiqi qarmonçalan oldu. Ustad atanın başını uca etdi. Musiqi aləmində yaxşıların sırasında yer aldı, sayıldı, seçildi. "Teyyub bala" kimi tanındı və bu adla çağrıldı.

Teyyub balanın dediklərindən: "Mən sənətə atamın hörmət-izzətinə, şan-şöhrətinə görə gəlmişəm. Uşaqlıq və gənclik illərimdə harda olurdumsa, qarmonçalan T.Dəmirovun oğlu olduğum üçün mənə hörmət edər, nəvaziş göstərərdilər. Atamın adını hər yerdə hörmətlə çəkib, sənətindən

ürək dolusu danışardılar. Mən atamla birlikdə cəmiyyət arasına çıxanda onun necə qarşılandığını görüb qürur hissi keçirərək fərəhlənərdim. Düşünürdüm, gör musiqiçi olmaq necə böyük şərəfli işdir ki, atam Teyyub Dəmirov bir belə nüfuza malikdir. Ona bütün dövlət idarələrində hörmət edərdilər.

Az-çox sənətdə möhkəmlənib tanınandan sonra daha çox məsuliyyət hiss etməyə başladım. Axı, mən T.Dəmirovun oğlu, sənətinin davamçısı idim. Mən zəif sənətkar ola bilməzdim. Elə atam da bunları demişdi".

1964-cü ildə Azərbaycan radiosunda səslənmək üçün ilk dəfə lent yazdıran Teyyub Teyyub oğlu bir muğam və dörd rəqs melodiyası ifa edir. Ata Teyyub oğlunun çalğısının diqqətlə dinləyib xeyir-dua verməklə bərabər müəyyən tövsiyyələr edir, iradlarını bildirir. O, deyir: "Sənin ifanda tələskənlik hiss olunur. Buna mütləq diqqət et. Xüsusilə muğam çalarkən təmkinli ol. Təmkinli çalıb, fikirləri düzgün, aydın, bitkin çatdır. Muğam cümlələrində bitkin fikir olmalıdır. Bütünlükdə götürdükdə sənin lentlərdəki ifalarını bəyənmək də olar. Davam et. Məsuliyyətini, özünə qarşı tələbkarlığını bir də artır. Get-gedə daha yaxşı olacaq".

Ümumiyyətlə atası Teyyub balaya həmişə muğamları dərindən öyrənməyi məsləhət görürdü.

1963-cü ildə T.Teyyub oğlu əməkdar incəsənət xadimi, tarzən-bəstəkar Ağası Məşədibəyovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblına dəvət alır və beş il burada çalışır. Sonralar isə bir il Televiziya və Radionun xalq çalğı alətləri ansamblında fəaliyyət göstərir. Bu ansambla xalq artisti, tarzən Baba Salahov rəhbərlik etmişdir.

Teyyub bala atası barədə deyilən yüksək fikir və düşüncələrdən birini xatırlayıb belə deyir: "Ötən əsrin 60-cı illərinin əvvəlləri olardı. Bəstəkar Telman Hacıyev mənzilində öz ad gününü qeyd edərkən musiqiçi dəstəsmlə məni, klarnetçalan Vəli Qədimovu, nağaraçalan Ramiz Həsənovu və xanəndə Baba Mirzəyevi dəvət etmişdi. Tanınmış ziyalılardan neçəsi, həm də bəstəkarlarımızın bəziləri orada qonaq idi. Məşhur bəstəkar Fikrət Əmirov da iştirak edirdi. Məclisi də o idarə edirdi. Mənim T.Dəmirovun oğlu olduğumu əvvəldən ona demişdilər. Musiqiçiləri qonaqlara təqdim edəndə F.Əmirov milli musiqimizin sənətçiləri və atam haqqında danışıb onların sənət fəaliyyətlərini çox dəyərləndirdi. Sovet dönəmində bütün təhsilini rus dilində alan hörmətli bəstəkarımız o dildə danışırdı: "Они создали музыку тогда, когда не было музыки". Dediklərinin dilimizlə izahı təxminən belə alınır ki, hələ milli musiqimiz geniş şəkildə təşəkkül tapma-



Sağdan: Teyyuboğlu, Əlibala Nuriyev, Çingiz Mehdiyev, a.a. Əhsən Dadaşov və Niyamədin Musayev

dığı, bir o qədər inkişaf etmədiyi bir zamanda T.Dəmirov və digər xalq musiqiçiləri həqiqi musiqi yaradırdılar".

T.Teyyuboğlu 1965-ci ildə İncəsənət İnstitutunu bitirsə də bununla kifayətlənməyib 1970-ci ildə Xalq Təsərrüfatı İnstitutuna daxil olur və 1975-ci ildə oranı bitirir. O, musiqiçi fəaliyyətindən uzaqlaşmayaraq ticarətlə də məşğul olur.

Teyyub Teyyuboğlu 15-16 yaşlardan toylarda göründüyü və sənətdə baş çıxardığı üçün tez də parlamışdı. Məşhur bir qarmon ifaçısının oğlu olması da təbii ki, onun tez tanınıb geniş əhatədə calışmasına münbit şərait yaratmışdı. Teyyuboğlu gənclik illərindən məşhur xanəndələr və musiqiçilərlə birlikdə toylarda birlikdə çalışırdı. O, xanəndə Əbülfət Əliyev, tarzən Məmmədağa Muradov, kamança ifaçısı Tələt Bakıxanov və digər məşhurlarla o qədər toy-nişanda olmuşdu ki...

Teyyuboğlu tarzən Tahir Əliyev (mahir kaman ifaçısı, xalq artisti Habil Əliyevin qardaşı), xanəndələr Mürşid Abbasov, Süleyman Abdullayev, Sabir Mirzəyev və digərlərilə el şənliklərində sənət nümayiş etdirmişdi. O, muğamlara yaxşı bələd olduğu üçün xanəndələr, bu sıradan Əbülfət Əliyev onun məlahətli qarmonunun müşayiətilə oxumağı xoşlayırdı.

İlk anlardan böyük sənətkarlarla çiyin-çiyinə çalışması sənət yollarında onu daim irəli aparırdı. O, həmin dövrün tanınan klarnettçalanları ilə tez-tez toy-mağarda görünürdü. Qalalı Məlik (Məlik Fərmanov), Həsən əmi (Həsən Məhərrəmov), Suliddin İsmayılov, Məhərrəm Zeynalov, Adil Bayramov və Vəli Qədimov T.Teyyuboğlu ilə birlikdə çalmaqdan zövq alırdılar. Onun klarnet ifaçısını, müğənnini müşayiət etməsi də, solistliyi də belə sənətçiləri tam qane edirdi.

Sənət dostumuz, xalq artisti, xanəndə Baba Mahmudoğlu T. Teyyuboğludan söz düşərkən demişdi: "Bir-iki il idi ki, sənətə başlamışdım, toylara yenicə ayaq açmışdım. Hələ məşhurlaşmamışdım. Teyyub Dəmirov, onun oğlu Teyyub və digər sənət yoldaşları ilə bir dəstədə Siyəzəndə ikigünlük toyda oxumuşam. Dəstənin klarnetçalanı Teyyuboğlu idi. Yaxşı da çalırdı". Mən sevimli həmkarımızdan bu barədə soruşduqda müsahibim gülümsünərək cavab verdi: "Bəli! Tamamilə doğrudur. Mən klarnet ifaçısı da olmuşam. Bu belə olmuşdu. Çaldığımız toyların birində klarnetçalanın kökü qarmonla düz gəlmirdi. Rahatsız olmuşdum. Ondan klarnetin dilçəyini (qamış-trost) dəyişib daha münasibini quraşdırmasını tələb etdim. O, da hahını pozmadan, bir az da əda ilə: - Bu sənincün qarmon deyil götürən kimi çalasan, klarnetin işi çətindir, sən düşündüyün qədər də asan deyil –dedi. Səhərisi gün özümə klarnet aldım. Dörd ay ərzində ifanı tam öyrəndim. Hansı sənətkarla toylarda olurdumsa, inanmırdılar, deyirdilər ki, yox, sən bununla çoxdan məşğul olurmuşsan, 3-4 aya bu səviyyədə ortaya şıxmaq mümkün deyil. 1964-cü ildən 1968-ci ilə qədər toyların klarnetçalanlarından biri də mən olmuşam. Dərbənd şəhərinin usta və məşhur sənətkarı Şərafəddinlə üç il toy mövsümündə birlikdə işlədik. Dağıstanın hər yerinə şənliklərə gedirdik. Sonralar oralara öz təzə "QAZ-24" markalı avtomobilimlə gedirdim. Toy sahiblərinin xahişilə gəlini oğlan evinə öz avtomobllimlə mən apapırdım. 1968-ildə avyomobil qəzasına düşdük, əzildim, yeddi qabırğam sındı. Sağaldım, ayağa durdum. Bir müddət nəfəs almağımda çətinlik yarandı. Klarnet ifaçılığından uzaqlaşmalı oldum və qarmon sənətinə qayıtdım. Bu sənət atamın sənətidir, mənə daha çox doğma və əzizdir. Görünür mənim taleyim bu peşəyə bağlı imiş. Elə bu sənət də məni vaxtında çox yaxşı yaşadıb, hörmət-izzət sahibi edib, şöhrətləndirib. Əlbəttə bütün bu işlərin hamısında Allahın nəzəri, diqqəti və hikməti var. Uca Allahımdan çox razıyam, onun kərəminə şükür".

1970-ci ildə atasının vaxtsız vəfatından təsirlənən Teyyub oğlu ifaçılıq sənətindən uzaqlaşmaq istəsə də, T.Dəmirovun sənət dostları, onun və özünün pərəstişkarları bunun qarşısını alırlar. Ağıllı, səmimi məsləhətləri eşidən Teyyuboğlu öz qəlbinin də səsini dinləyərək sənət aləmində öz



Soldan: x.a. Habil Əliyev, Teyyub Teyyuboğlu, Məarif Teymurov və x.a. Arif Babayev



T.Teyyuboğlu, xalq şairi Zəlimxan Yaqub, müğənni Şamil Mustafayev və jurnalist Mahal İsmayıloğlu



Soldan: x.a. Avtandil İsrafilov, a.a. Zakir Mirzə, Teyyub Teyyuboğlu, Aydın Əliyev və a.a. Oqtay Sadıqov. 2005-ci il. "Yeşenə" şadlıq sarayında musiqiçilərin cəlbiri

işini davam edir.

Teyyub bala tanınmış klarnetçalan Şəmsi İmanovla 1965-1968-ci illər ərzində yoldaşlıq edərək konsertlər və toylara getmişlər.

Məşhur və Bakı toylarında nüfuza malik olan klarnetçalan Əşrəf Əşrəfzadə ilə 1968-1973-cü illər ərzində səmimi dostluq və həqiqi sənət yoldaşlığı edən Teyyuboğlu həmin dəstə ilə birlikdə hər bir məclisdə çox yüksək sənətkarlıq nümayiş etdirmişdir. Bakının və Abşeronun əksər toylarında Əşrəfin dəstəsi çalanda məclislər gur keçər, xalq yığışıb gələrdi. O toyların sözü-söhbəti bu gün də dillərdədir. Ə.Əşrəfzadə 1973-cü ildə avtomobil qəzasından ağır yaralanaraq vaxtsız dünyadan köçmüşdür. Bakı ağsaqqallarının məsləhətləri ilə həmin dəstəyə Əşrəfin tələbəsi olmuş, gənc klarnet ifaçısı Əlirza Orucov dəvət olunmuşdur. Teyyuboğlu düz 25 il Əlirza ilə sənət yoldaşlığı edərək Bakımızda və Azərbaycanımızın əksər bölgələrində ən məsuliyyətli, iri və geniş mağarlarda keçirilən toylarda çalaraq yaddaqalan və sevilən qarmon ifaçısı kimi qarşılanmışdır.

Teyyuboğlu səviyyəli, əxlaqlı, düz, doğru və halal sənət işlətmişdir. Sənət yoldaşlarına qarşı səmimi olmuş, getdiyi toy-mağarda məclisdəkilərə nəzakət göstərmiş, mehribanlıq yaratmış, hamı ilə mədəni rəftar etmişdir. Toy sənətçiləri arasında intellekt səviyyəsi, mədəni davranışı, sözü bütövlüyü və öz sənətinə olan hörməti, sevgisilə seçilmiş, çoxlarına örnək olmuşdur.

Onun bəstələdiyi bir neçə rəqs melodiyası vardır ki, onları radiomuzun fonduna yazdırmışdır. Bəstələdiyinin birini "Dilarə"rəqsi, digərini isə eləcə "Rəqs melodiyası" adlandırmışdır. O, atasının xüsusi ustalıqla bəstələdiyi "Qaytağı" rəqslərini də lentə aldırıb. Fondda onun çaldığı "Şüştər" muğamı da qorunur.

1971-ci ildə Teyyuboğlunun qrammafon valı buraxılıb. Sənətkar orada "Gül dəstəsi" adlanan lirik, həzin melodiyanı , "Qoçəli", "Tərəkəmə" və "Şalaxo" rəqslərini çalıb.

Xeyli müddət ifaçılıq sənətindən uzaqlaşsa da, 2006-cı il may ayında ifasını kompakt diskə yazdırmışdır. O, bu diskə atasından yadigar qalan melodiyaları: - "Xumarı", "Solmazı", "Dilşadı", "Elmira", "Məlahəti" rəqslərini və "Qoç Əli" xalq oyun havasını yazmaqla bərabər, burada atasının yaratdığı dəramədlərlə "Şur", "Zabul" və "Bayatı-Şiraz" muğamlarını da böyük məharətlə çalmışdır.

Teyyuboğlu qarmon ifaçılığı sənətinin gələcəyini uğurlu, davamiyyətli və həmişəyaşar görür. Gənc qarmonçalanlara tövsiyyəsi budur ki, onlar klassik formanı və qəbul olunmuş ümumi üslubu saxlasınlar. Musiqimizin kökü olan muğamlarımıza diqqətlə yanaşsınlar, bu sehirli, zəngin sənəti yaxşı mənimsəsinlər. Keçmiş sənətkarların qoyub getdikləri ifaları dönə-dönə dinləyib öyrənsinlər.

Həqiqəti cəsarətlə söyləməliyik ki, Bakı kəndlərində bir zamanlar keçirilən milli ruhlu toylarımızda T.Teyyuboğlu ustad xanəndələr Hacıbaba Hüseynovu, Yaqub Məmmədovu, Əlibaba Məmmədovu, Alim Qasımov və başqalarını öz qarmon ifası ilə müşayiət etmiş və belə böyük sənətkarları razı sala bilmişdir. Bütün bunlar onun yetkin, kamil bir sənətkar olmasına və muğamlarımızı yaxşı bilməsinə sübutdur.

T.Teyyuboğlu 1966-cı ildə ailə qurmuşdur. İki oğlu, bir qızı vardır. Ocağında nəvələr boy atıb, pərvazlanır.


Ömrünün ən mənalı çağında, 2001-ci ildə Teyyub Teyyuboğlu Məkkə şəhərinə müqəddəs Həcc ziyarətinə gedərək Hacı titulunu qazanmışdır.

2013-cü il oktyabr ayının 30-da Dövlət Mahnı Teatrının binasında əməkdar artist, dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru Z.Mirzənin 70 illik yubileyində T.Teyyuboğlu "Qəşəngi" rəqs havasını incə duyumla, şirin xallarla çalaraq alqışlar qazandı. O, atasının bəstəsi olan bu oyun havasını elə T.Dəmirovun üslubu ilə çox gözəl ifa etdi.

Teyyub Teyyuboğlu
"DİLARA" rəqsi

Nota yazdı: Gülşən Mirzəbəyova

Allegretto





2.33. DAĞLAR QOYNUNDA YETİŞƏN SƏNƏTKAR



Lənkəran Səlimov

Lənkəran Bahadur oğlu Səlimov axar-baxarlı, səfalı, saf havalı, əzəmətli dağlarla, meşələrlə əhatə olunmuş Laçın rayonunun İpək kəndində anadan olmuşdur. Lənkəran dördüncü övladdır. Onun atası həvəskar nağaraçalan idi. 5 yaşlı Lənkəran atasının əllərinə baxıb öyrənərək nağara çalmağa başlamışdı. Lənkəranın 8 yaşı olanda Bahadur kişi oğluna qarmon almışdı. Həmin vaxtdan o, qarmon çalmağı öyrənirdi. Toylardan eşitdiyi el havaları, radio dalğalarından dinlədiyi rəqs melodiyaları, mahnılar tədricən onun qarmon ifalarında özünə yer alırdı. Kənd-kəsəkdə onun qarmon çalmağı artıq hamıya bəlli idi. O, 13 yaşında olarkən artıq öz kəndlərində sərbəst olaraq toy şənliyində çalmış və hamının rəğbətini qazanaraq tərifli sözlər eşitmişdi. Kənd camaatının Lənkərana olan xoş münasibətini görən, oğlunun istedadını və bu sənətə olan marağını yaxşı dərk edən ata onun daha mükəmməl yetişməsinə çalışmışdı. Odur ki, onu Ağdama aparıb, qarmonçu Yelmar Zeynalovun yanına şagird qoymuşdu. On dörd yaşlı Lənkəran Yelmar kişidən dörd ay dərs almış və muğamlara müəyyən qədər bələd olmuşdu. İlk peşəkar sənətkar qarmonunu da ona müəllimi Yelmar bağışlamışdı. Bu Rusiyanın Tula şəhərində hazırlanan Azərbaycan qarmonu idi. Bu alətdə çalmaq Lənkərana xüsusi həvəs bəxş etmişdi. Qarmon onun əlindən yerə düşmürdü, hey çalır, çalırdı. Alət onun sadiq dostuna çevrilmişdi. Peşəkar alət onu peşəkar sənətə istiqamətləndirirdi. Həmin qarmonla o, Laçın toylarında çıxış edirdi. Lənkəran qrammafon vallarından, radiodan tez-tez dinlədiyi qarmon ifalarından məharətlə bəhrələnirdi. Məmmədağa Ağayevin, Teyyub Dəmirovun, Abbas Abbasovun çaldığı şirin havalar, muğamlar gənc ifaçı üçün tədris vəsaiti rolu oynayırdı. Dinlədiyi və öyrəndiyi havalar gənc Lənkəranı düz yola istiqamətləndirirdi.

Lənkəran Səlimov 1963-1965-ci illərdə Sovet ordusunda xidmət edib, orada mahir qarmon ifaçısı Zakir Mirzəyevlə rastlaşıb. Əsgərlərin istirahət saatlarında dəfələrlə Zakirin ifalarını dinləyib və onun sənət imkanlarından bəhrələnib. Əsgərlik illəri Zakirlə Lənkəran arasında dostluq yaradıb.

Hərbi xidmətdən doğma yurda qayıdan gənc musiqiçi yeni həvəslə sənət aləminə qoşulub. Özünə daha keyfiyyətli bir qarmon alıb və öz üzərində çalışıb. Rusiyanın Kirov (Vyatsk) şəhərində ustaların hazırladığı alət ("Vyatka") ona xüsusi zövq bəxş edib. Az sonra o, Laçın toylarının sevimli qarmonçalanı olub. Lənkəran yenə də ustad qarmon ifaçılarının lentlərindən öyrənərək sənət imkanlarını genişləndirib.

Lənkəran Laçın şəhər 1 saylı uşaq musiqi məktəbində qarmon sinfinin müəllimi olub. O, 1972-1975-ci illərdə Şuşa şəhər mədəniyyət evində özfəaliyyət dərnəyinin rəhbəri kimi fəaliyyət göstərib.

Lənkəran Laçın və Şuşa musiqiçiləri, xanəndələri ilə sənət münasibətləri quraraq birlikdə toybüsatda çalıb-çağırıb. Onun çalışdığı toy ansamblının üzvləri əsasən tarzən (həm də gitaraçalan) Firəddin Cabbarov, kaman ifaçısı Edilxan Yunusov, nağara ifaçılarından Səlim, Bahadur Səli-

mov və b. olub. Bundan əlavə Lənkərangilin dəstəsində mərhələlərlə xanəndələrdən Vəli, Ağdamlı İsa Bəşirov, şuşalı Hüseyn Məşədiyev, nağaraçılardan Novruz, Kamil və başqaları fəaliyyət göstərib. Klarnet ifaçısı Əfsər də bir müddət Lənkəranın toy dəstəsində çalışıb.

Lənkəranın lent yazısının olub-olmadığı ilə maraqlandıq. Məlum oldu ki, 1975-ci ildə Gəncə şəhər radiosunda onun ifasında "Zabul-Segah" muğamı lentə alınıb və xeyli müddət ərzində səsləndirilib.

Laçın torpağının yetirməsi olan qarmon ifaçısı xanəndə Əbülfət Əliyev (1926-1990), Səbir Novruzov (1944-2010), Məhəbbət Kazımov (1953-2014) və gitaraçı Rəmişlə sənət və dostluq əlaqələrində olub. Sənətkarın yetirmələrinin də adını hörmətlə çəkirik. Laçından nağaraçalan Novruz Lənkərandan qarmon dərsi alaraq bu sənətə qədəm qoymuşdur. O, hazırda qarmon ifaçısıdır və bu sənət üzrə müəllim işləyir. Laçınlı Nadir və Elman, şuşalı Rizvan da Lənkəranın şagirdi olmuş və ondan sənətin səciyyəvi cəhətlərini öyrənmişlər. Onların hər biri qarmon sənətçisi kimi fəaliyyətdədirlər.

Lənkəran Səlimov 1976-cı ildə ailə qurub, üç övladı var.

Lənkəran haqqında məlumat toplamaqda bizə iş yoldaşımız, dəyərli və xeyirxah insan, Sumqayıt Musiqi Texnikumunun (hazırda kollec) məzunu, Bakı Humanitar Kollecinin qarmon ixtisası üzrə müəllimi, tədrisə aid bir neçə proqramın müəllifi Xəqani Səmədovun köməyindən istifadə etdik. Əks halda qarmon sənətinə hünərlə xidmət etmiş, müəllim işləmiş, musiqi aləminə yetirmələr bəxş etmiş Lənkəran Səlimov barədə məlumatsız qalacaqdıq.

2.34. O, HƏRTƏRƏFLİ BACARIQLI İDİ



Ramiz Sadıqov

Qeyd etmək fikrindəyəm ki, Bakı musiqi mühitində İlqar Şəkili kimi tanıdığımız İlqar Kərimov əsl ziyalı, gözəl musiqiçi olmaqla bərabər, həm də xeyirxahlığı ilə seçilir. O, xahişimi yerinə yetirib, Şəkinin tanınmış, istedadlı qarmon ifaçıları haqqında məlumat əldə edərək mənə yetirdi. Əks təqdirdə Şəki ifaçılarının həyat və fəaliyyəti kitabımızda işıqlandırılmaya bilərdi. Belə ki, tədqiqatçı olsam da, əlil olmağım əyalətlərimizi gəzib dolanmağa mənə imkan vermir. Bu səhifələrdə bir daha İlqar bəyə çox-çox təşəkkür edirəm.

Şəki ölkəmizin çox səfalı, dilbər guşələrindən biridir. Bu gün Şəki nəinki ölkəmizdə və ya keçmiş SSRİ məkanında, artıq dünyanın çox yerində tanınır. Bu məkan füsünkar təbiəti, faunası, tarixi abidələri, istedadlı, müdrik insanları ilə həmişə seçilib. Şəki xalqımıza başucalığı gətirən tarixi şəxsiyyətlər, qəhrəmanlar və incəsənət xadimləri bəxş edib. Kitabımız Azərbaycan qarmon sənətindən bəhs etdiyi üçün biz də yalnız bu alət ifaçıları haqqında söhbət açırıq. Belə gözəl musiqiçilərimizdən biri haqqında bilgi verək.

Ramiz Abduləli oğlu Sadıqov 1944-cü il fevral ayının 25-də Şəkidə anadan olmuşdur. O, uşaq ikən

musiqiyə maraq göstərmişdir. İlk dövrlərdə tar çalmış, sonralar qarmona meyl etmişdir. Musiqiyə meyl göstərməsində Ramizin əmisi Ələsgər Sadıqovun böyük rolu olmuşdur. Çünki əmisi Ələsgər Şəkinin sevimli xanəndələrindən biri olmuşdur.

İlk dövrlərdə şəhər pionerlər evində qarmon dərnəyinin üzvü olan Ramiz uşaq olimpiadalarında öz məharətini göstərə bilmişdir. 2 saylı şəhər orta məktəbində təhsil aldığı illərdə artıq qarmon çalmaqla bərabər, mahnılar oxuyur və rəqs etməyə başlayır. O, hərtərəfli istedad idi, musiqi üçün doğulmuşdu.

Ramiz 1961-ci ildə Şamaxıda keçirilən gənc turistlərin VII – Respublika toplantısında iştirak etmişdir. Toplantının yekun konsertində qarmonda ifa etdiyi "Aişə" və "Qazağı" oyun havaları Azərbaycan radiosu tərəfindən lentə alınmışdır. Ramizin müəllimi radio və televizor olmuşdur. Müntəzəm olaraq Teyyub Dəmirov, Səfərəli Vəzirov, Səttar Hüseynov kimi qarmon ustalarının sənətinə böyük maraqla qulaq asmışdır. Dəfələrlə pioner və məktəblilərin Bakıda keçirilən olimpiadalarında uğurla çıxış etmişdir. Bütün bunlar onu musiqi üçün yetişdirmişdir.

Musiqiyə olan sonsuz həvəsi sayəsində 1962-ci ildə Şəki Musiqi Texnikumunun klarnet şöbəsinə daxil olmuşdur. Təhsil illərində görkəmli el sənətkarı Ələfsər Rəhimov, Əhməd Qafarov, Sabir İsmayılov, Ağasəf Musayev kimi musiqiçilərlə bərabər xalq çalğı alətləri orkestrində çalmışdır. 1963-1966-cı illərdə hərbi xidmətdə olmuşdur. Həmin illərdə Bakıda Azərbaycan SSR Daxili İşlər Nazirliyinin bədii özfəaliyyət kollektivlərinin fəal üzvlərindən biri olmuşdur. Kollektivə rəhbərlik edən bəstəkar Bəxtiyar Kərimov Ramiz Sadıqovun gələcəkdə böyük musiqiçi olacağını hiss etmişdi. O, fikrində yanılmamışdı. Ramiz peşəkar sənətdə öz sözünü deyənlərdən olmuşdu.

Ramiz ordudan tərxis olunduqdan sonra yenidən Şəkiyə qayıdaraq, əvvəlcə İpək Kombinatı klubunda, sonralar şəhər mədəniyyət evinin nəzdində qarmon dərnəyi təşkil edir, bu işdə xüsusi bacarıq göstərir.

O, 1966-1970-ci illərdə şəhər mədəniyyət evində fəaliyyət göstərən "Gənclik" xalq çalğı alətləri ansamblında qarmon çalmışdır. Onun ifası gözəl və şirin idi, qəlblərə yol tapmışdı.

R.Sadıqov dəfələrlə Bakıda keçirilən Respublika əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir. O, lirik mahnıların gözəl ifaçılarından biri olmuşdur. Həvəskar bəstəkar Şahid Abdulkərimovun "Ana məhəbbəti", "Könül açdım", "Məğrur baxışların", "Heç küsməyin yeridirmi" və s. mahnılarını ifa edən müğənnilərdən biri olmuşdur.

O, həm də gözəl rəqqas idi. 1977-ci ildə keçirilən Zəhmətkeşlərin Bədii Yaradıcılığı Festivalının laureatı olan "Zorxana" xalq rəqs ansamblının üzvü olmuş və özünü doğrultmuşdu.

R.Sadıqov dəfələrlə Moskvada Ümumittifaq Xalq Yaradıcılığı Festivalında, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində, Tumen Vilayətinin Koqalım şəhərində, Gürcüstanda, Dağıstanda keçirilən Ümumittifaq tədbirlərdə fəal iştirak etmişdir.

O, uzun illər ərzində respublikamızın bütün şəhər və rayonlarında "Səbuhi" xalq çalğı alətləri ansamblının tərkibində qastrol səfərlərində olmuşdur. Ansambl tərkibində onun solo çıxışları alqışlara qərq olurdu. O, qarmonu dilləndirə, danışdıra bilirdi. Onu Şəkidə çox sevirdilər. Toynişan mərasimlərində Ramizin məharəti daim önə çıxırdı. O, sənəti sevdirmək bacarığına yiyələnmişdi. Bəli! Axı o da fitri istedada malik idi.

Ramiz 1992-ci il aprelin 10-da 48 yaşında qəflətən vəfat etmişdir.

Hazırda onun hər üç oğlu; Vüqar – tarda, Rövşən – klarnetdə, Elşən isə nağarada mükəmməl çalırlar.

Şəki mədəniyyət şöbəsi tərəfindən şəhərdəki klublardan birinə Ramiz Sadıqovun adı verilmişdir.

2.35. HACI ABUTALIB

İncəsənət hər bir xalqın özünü ifadəsidir. İncəsənət xalqın mənəviyyatının, şüurunun aynasıdır. Hər bir xalqın incəsənətini xalq özü yaradıb, yaşadıb və yaşadacaq.

Hər bir xalqın yaradıcı dühasını ifadə edən, təcəssüm etdirən, vəsf və tərənnüm edən fərdlər, şəxslər var. İstedad təşnəsindən çıxan həmin dühalara xalqın özü ustad adı verib.

Seçdiyi, sevdiyi sənətə olan sonsuz məhəbbətilə, bu yoldakı fədakarlığı ilə, toy-büsatımızda ustad adı qazanan Hacı Abutalıbın ömür səlnaməsinə işıq salaq.



Hacı Abutalıb

Abutalıb Balakişi oğlu Sadıqov 1945-ci il fevral ayının 22-də Masallı şəhərində anadan olub. Balakişi musiqiyə bağlı bir şəxs idi. O, tütək və klarnet alətlərində ifa etməyi bacarırdı. Lakin bunlarla həvəskar kimi məşğul olurdu. Məsul işlərdə çalışırdı. Həyat yoldaşı, yeddi uşaq anası Əfruz xanım ömürgün yoldaşına sədaqətlə xidmət edər, övladlarının zəhmət və qayğılarını çəkərdi.

Abutalıb ailədə ən böyük uşaq idi. 1951-ci ildə çanta götürərək birinci sinfə gedib və 1962-ci ildə orta məktəbi bitirib.

1958-ci ildə Balakişi ailəsinin böyüklüyünü nəzərə alıb yeni ev tikintisinə başlayır. Pəncərələri sifariş vermək üçün gedəndə xarratın çalışdığı emalatxananın yanındakı dükanda qarmon görür. Pəncərələrin pulunu verib 12 dilli diotonik (yarım pərdəsiz) qarmonu alıb evə gətirir. Atası Abutalıbın istedadını və həvəsini bildiyi üçün onun musiqiçi olmasını istəyirdi. Abutalıb səkkizinci sinfə qədər nağara çalmış, altı ay Mirzə Salam adlı musiqiçinin yanında tar dərnəyinə getmişdi. Deməli Abutalıbın evə qarmon gələnə qədər musiqidən anlayışı var idi. O, həvəslə qarmon çalmaqla məşğul olurdu. Əvvəl "Çiçək" mahnısını çalmağa başladı. Sonra Ədilbəy adlı ibtidai sinif müəllimindən "Kəsmə şikəstəni", tarzən Kamil müəllimdən bəstəkar Q. Hüseynlinin "Kəndimiz" mahnısını öyrəndi.

1961-ci ildə Abutalıb üçün xromatik (yarımtonlu) "Kazan" qarmon alınır. Bu alətdə o daha yaxşı çalmağa başlayır. Masallı şəhər pionerlər evinə musiqi dərnəklərinə gedən bu istedadlı uşaq burada xeyli inkişaf edir. Hətta burada özünə yaxın dost, sənət yoldaşı da tapır. Bu qavalçalan Əliəşrəf Niftiyev idi. Onlar tez- tez birlikdə məşq edirdilər.

Günləri bir-bir sana,
Mən deyim bir-bir sana.
Bir elm, bir də sənət
Xəzinədir insana.

Atası Abutalıba həmişə tövsiyə edərdi: "Bala, sənətini yaxşı öyrən, çalış yaxşılardan ol. Sənət çörəkdir. Sənətdə pərgar olsan, elə bil ki, xəzinənin açarı cibindədir".

Abutalıb günlərin bir günü adəti üzrə musiqi dərnəyinə məşqə gedir. Əliəşrəf ilə ciddi məşq elədikləri vaxt qapı açılır və bir kişi gülümsəyərək onlara yaxınlaşır və deyir: "Bayaqdan qapı arxasında dinləyirəm. Yaxşı çalırsınız. İstəyirəm sizi toya aparam. Nə fikirləşirsiniz? Toyun öhtə-

sindən gələ bilərsinizmi?"

Uşaqlar bir az tərəddüd edəndən sonra razılaşırlar. Gəlib evdə valideyinlərinə məlumat verirlər. Abutalıbın valideyinləri bu xəbərdən həm təəccüblənirlər, həm də çox sevinirlər. Təəccüb və sevinc ondan irəli gəlir ki, övladları az vaxt müddətində sənətə yiyələnmişdi. Həmçinin demək onun çalğısı xoşa gələndir, xeyir işlərə çağrılır.

Həzərti Əbu Bəkir deyir: "Övladların qismətinə düşmüş ilk nemət valideyin sevgisi və məhəbbətidir".

Ata-ana hər əzaba qatlaşaraq, qayğı və zəhmətlə sevə-sevə böyütdükləri uşağın birdən-birə zəhmətə qatlaşmasına və məsuliyyətli işin altına girməsini də istəmirdilər. Odur ki, hər ikisi Abutalıbı dilə tutub deyirdilər "Bala, hələ bir az da boya-başa çat, bərkə-boşa düş, çalmağı daha mükəmməl öyrən. Lap yaxşı çalandan sonra toylara gedərsən".

Abutalıb dillənir:

- Axı, mən söz vermişəm. Toy sahibi mənə arxayın olub gedib. Sözümü neçə danım? Axı kişinin sözü bir olar.

Bu sözlər atanın çox xoşuna gəlir. Abutalıbın ilk toya getməsi üçün ata-ana xeyir-dua verir.

Abutalıb da, qavalçalan yoldaşı Əliəşrəf də ən təzə paltarlarını geyinib Şərəfə kəndinə qız toyuna gedirlər. Çalıb-çağırırlar. Kənddə hamının xoşuna gəlir. Onları çox tərifləyirlər. Toydan sonra bir ağsaqqal həyətdə camaatı başına toplayıb deyir:

-Ay Şərəfə camaatı. Bu uşaqlar yaxşı çalırlar. Toyumuzu yaxşı yola verdilər. Özləri də ədəbli-ərkanlı uşaqlardılar. Bundan sonra qız toylarına, xınayaxdıya elə bunları gətirək. Qoy gələcəkdə yaxşı sənətkar olsunlar. Yaxşı sənətkara ehtiyacımız var.

Beləliklə o gündən etibarən Şərəfə kəndinin qız toylarına Abutalıb və dəfçalan dostu getməyə başladı. Belə məclislərə getməsi Abutalıbı sənətdə fəallaşdıraraq kamilləşdirdi.

1963-cü ildə Balakişi oğluna əsl Azərbaycan qarmonu alır. Gənc qarmonçu "usta qarmon"da daha həvəslə çalaraq xeyli inkişaf edir. O, artıq peşəkar toy dəstələrinin tərkibində Masallı rayonunda tanınmış, qarmonçalan kimi toylara çağrılır, o dövrdə keçirilən ənənəvi məhsul bayramlarında və digər konsertlərdə çıxış edir.

1964-cü ildə Masallı rayon mədəniyyət evində ictimai əsaslarla birilik Musiqi Univerisiteti açılır. A. Sadıqov oraya daxil olur və bitirəndən sonra Səyyar avto-kluba müdir təyin olunur. Bununla yanaşı Masallı şəhər 3 saylı orta məktəbində musiqi-nəğmə müəllimi işləyir.

Belə bir məsəl var: "Evinə bax fikir elə, uşağına bax şükür elə". Balakişi Sadıqov ailənin dolanışığı üçün yorulmadan çalışmaqla bərabər onların təlim tərbiyəsinə xüsusi diqqətlə yanaşırdı. Balakişi Masallıda xeyirxah insan və əsl "Allah adamı" kimi tanınırdı. O, Allahın yetirdiyinə həmişə şükür edən bir insan idi. Övladları ilə də fəxr edirdi. Xüsusilə də onun böyük oğlu, böyük güvənc yeri, sonsuz ümidi olan Abutalıbla nəfəs alırdı. Allaha çox şükr edirdi ki, ona belə oğul qismət olub.

İngilis dramaturuqu V. Şekspirin belə bir fikiri vardır:

"Versən öz ömrünü övladına sən,
Onun varlığıyla ömr eyləyərsən".

Ata Balakişi əxlaqlı, tərbiyəli, cəmiyyət üçün gərəkli övladlar böyüdərək Allahın ona bəxş etdiyi davamlı ömrü yaşamaqda idi.

Ulu yaradanın hikməti böyükdür. O, yaratdığı insanları çox sevir, naümid qoymur, ruzisini yetirir.

Balakişinin ailəsi böyük olduğu üçün müəyyən çətinliklər olurdu. Əvvəllər işləyən, qazanc gətirən təkcə özü idi. Təkbaşına yeddi uşağı böyüdüb ərsəyə çatdırmaq asan olmayacaqdı.

O böyük Allah ailənin böyük övladı Abutalıba bacarıq, qabiliyyət, istedad bəxş etmişdi ki, ona əta olunmuş ağıl və fərasət müqabilində erkən yaşlarından evə, ocağa qazanc, ruzi gətirsin. Tanrının izni ilə bu oğul ailənin dikəlib durmasına, daha yaxşı dolanmasına kömək oldu. Sözün əsl

mənasında Abutalıb ata-anasına təkcə böyük övlad, böyük oğul yox, həmçinin ailəyə dirək, arxadayaq idi. Ata-anasına, ailə üzvlərinə sonsuz, dərəcəsiz məhəbbət bəslədiyindən idi ki, Tanrı onun gələcək yollarını işıqlı etdi. Abutalıb özündən kiçik olan qardaş-bacılarının təhsil almasına və ailə qurmasına köməyini əsirgəməmişdi.

Qeyd etməliyik ki, uşaqların anası Əfruz xanım müdrik qadın olaraq övladlarını kiçik yaşlardan ciddi tərbiyə edərək cəmiyyət üçün layiqli insanlar kimi hazırlamışdı.

Abutalıbın yaxşı qarmon çalmağından razı qalan elliləri, dostları, musiqiçi yoldaşları məsləhət gördülər ki, o, Bakıya gəlsin. Çünki əsl sənət, həqiqi sənətkarlıq, inkişaf həmişə ölkənin mərkəzində öz yerini tapır və qiymətini alır. Odur ki, A. Sadıqov Bakıya gələrək Filarmoniyaya yollanır. Onu yaxşı dinlədikdən sonra Azərbaycan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblna işə götürürlər. Bir müddət o, burada çalışır. Atasının çağırışı ilə yenilən doğma Masallıya qayıdır. Balakişi ata çox güvənib arxalandığı oğlunu gözündən uzağa qoymaq istəmirdi. Axı atanın nə dərdi-səri, çətinliyi var idisə, onunla bölüşürdü. Burada bir incə mətləb də var idi ki, ata oğlunu elinə, obasına çağırıb tanıdıqlarından evləndirmək istəyirdi. Beləliklə 1966-cu il avqust ayının 7-də Abutalıba toy vuruldu. Ona Masallının tanınmış ailələrindən, seyid nəslindən qız aldılar. Seyid qızının ayağı sayalı oldu. Ailə quran Abutalıbın işləri rəvan gedir, hər addımında xeyir tapır, hər bir işi uğurlu gəlirdi. O, şəhər məktəblərinin birində musiqi-nəğmə müəllimi işləməklə bərabər Masallının və oraya yaxın olan rayonların ən hörmətli toylarına çağrılır. Toy-büsatda uğurlu sənətlə şan-şöhrət qazanır. Qeyd etməyimiz yerinə düşər ki, deyək, onların ailəsində Abutalıbdan başqa da istedadlı övladlar var idi. Fərahim kiçik yaşlarından qardaşını dinləyərək, əlinə baxaraq çalğı öyrənmişdi. O, məktəbdə əla qiymətlərlə oxuyurdu. Fərahim 1964-cü ildə müvəffəqiyyətlə Pedaqoji Universitetə qəbul olunmuşdu.

1965-ci ildə Fərahinin 18 yaşı tamam olanda, evdə, ailə çərçivəsində şadyanalıq qurulur. Abutalıb xüsusi həvəslə, yüksək təbllə qarmon çalıb qardaşının ad gününü təbrik edir və öz qarmonunu ona bağışlayır. Fərahim oxuduğu ali təhsil ocağının xalq çalğı alətləri ansamblının fəal üzvlərindən biri olur. Bütün tədbirlərdə çıxış edir. Ali təhsil alaraq o, elmi işlərlə məşğul olmaqla bərabər universitetlərdə dərs deyir. F. Sadıqov o dövrlərdə musiqiçi kimi də fəaliyyət göstərir və bir sənətkar kimi tanınır. Onun ifasında radionun fonduna muğam və oyun havaları yazılmışdı. Fərahimin pedaqoji fəaliyyətinin müəyyən hissəsi qarmon ixtisasının tədrisi ilə bağlıdır. Bu ixtisasın tədrisinə aid ilk vəsait hazırlayanlardan biri də Fərahim müəllim olmuşdur. Bu vəsait 1986-cı ildə nəşr olunmuşdur.

Abutalıb Sadıqov 1970-ci ildə Bakıya gəlir. O, "Ədəbiyyat və incəsənət" qəzetində bir elana rast gəlmişdi. Elandan məlum olurdu ki, Bakı Mədəni Maarif Texnikumunda qarmon ixtisası üzrə dərs demək üçün müsabiqə keçirilir. Abutalıb müsabiqədə iştirak edir və 32 nəfər iştirakçının içərisindən seçilərək işə qəbul olunur. O, əvvəllər qiyabi şöbədə, sonra isə həm də əyani şöbədə dərs deyir. 1975-ci ilə qədər burada çalışır. Həmin illərdə Abutalıb müəllim tanınmış musiqiçilər və xanəndələrlə yoldaş olaraq Azərbaycanın bütün bölgəsinə konsertlərə və toylara gedir.

Məşhur yazıçılardan biri deyir: "Ona görə yazmağa başladım ki, yazmaya bilməzdim". Abutalıb ona görə qarmon çalmağa başladı ki, çalmaya bilməzdi. Onun daxilində aşıb-daşan təlatüm, vulkan var idi. Onun istedadı qaynayıb daşan, çağlayan bulağa bənzəyirdi. Bir də ki, qismətinə düşən, bu istedad taleyinə yazılaraq onun həyat fəaliyyətini tənzimləyib sənətə istiqamətləndirirdi.

Respublikamızın xalq artisti, misilsiz sənəti olan, tarzən Hacı Məmmədov bir məclisdə Abutalıb müəllimin ifasını diqqətlə dinləyib yeni yaratdığı xalq çalğı alətləri ansamblına dəvət edir. Ansambl Azərbaycan Dövlət Filarmoniyasında çalışırdı.

Azərbaycan Dövlət Qastrol-Konsert birliyi yaranana qədər bu ansambl filarmoniyada fəaliyyət göstərir. Ansamblın müşayiəti ilə xalq artistləri Ş. Ələkbərova, Ə. Əliyev, S. Qədimova, F.Mehrəliyeva, R. Həsənova, tanınan xanəndələrdən S. Mirzəyev, S. Abdullayev, N. Musayev və b. oxuyurdular. Abutalıb bu ansamblın tərkibində filarmoniyada, Bakının ən böyük mədəniyyət



Bakıda toy. 70-ci illərin əvvəlləri. Sağdan: Abutalıb Sadıqov, Fərhad Hüseynov (haz. ə.a.), Nüsrət Fətəliyev və müğənni Mais Məmmədov

ocaqlarında, rayon mərkəzlərində, kəndlərimizdə, keçmiş Sovet birliyinin neçə-neçə iri şəhərlərində konsertlərdə olmuşdur. Bütün bunların hamısı A. Sadıqovun kamil bir sənətkar kimi formalaşmasında əhəmiyyətli dərəcədə rol oynamışdı. Həmçinin həmin zamanlarda Abutalıb Azərbaycanın bölgələrini gəzərək toylarda çalıb-çağırmış, yaxşı iz qoymuş, ən yaxşı qarmonçalanlardan biri kimi tanınaraq sevilmişdi. Belə bir kəlam var: "Ev doğulmaq və ölmək üçündür, əsl həyat isə yollardadır".

Abutalıb müqəddəs vətən torpağı üzərində cəsarətlə addımlayaraq, gəzib dolandığı yollarda yaxşı iz qoymuş, toy-büsatımızda yaxşı üz görmüş və taleyinə düşmüş əsl həyatını yaşamışdır. Getdiyi, gəzdiyi yerlərdə təzə nə isə əxz edir, məclislərdən nə isə yeni bir şey götürürdü. El məsəli var: "Soruşan dağ aşar, soruşmayan düzdə çaşar". A. Sadıqov Hacı Məmmədovun kollektivində çalışarkən elə ustad tarzənin özündən, ansamblın müşayiətilə oxuyan ustad xanəndələrdən, ondan da qabaqkı zamanlar birlikdə çalıb-çağırdığı sənətkarlardan, oturub durduğu müxtəlif sənət adamlarından çox şey öyrənmişdi. Özü həmişə etiraf edib deyirdi: "Mən yaxşı sənətkarlardan həmişə öyrənmişəm. Bilmədiyimi soruşanda utanmamışam. Bu gün sənin lə oturub duran sənətkarlar sabah yoxdur. Dünyasını dəyişəndə bildiklərini də özü ilə aparır. Gərək hər şeyi vaxtında soruşub öyrənəsən ki, sonra əliboş qalmayasan. Səndən soruşanda bildiyini verəsən".

Abutalıb müəllim sonralar Azərbaycan Dövlət Qastrol-Konsert birliyinə sosist qarmonçalan dəvət olunur. "Zaqafqaziya festival" ında çıxış edir. O dövrdə Azərbaycanın bütün bölgələrində və ətraf respublikalarda müntəzəm konsertlərdə olur.

A. Sadıqov 1986 -cı ildə xalq artisti Səkinə İsmayılova, Yusif Məmmədov, Ruhəngiz Allahverdiyeva, tarzən Tofiq Məmmədov, kamança ifaçısı Qabil, nağaraçalan Əli Rzayev və pianoçu Çingiz Sadıqovla Vyetnam ölkəsində çıxış etmişdi.

Bir müddət sonra Konqo, Anqola ölkələrinə göndərilən Abutalıb müəllim konsertlərdə solo çıxışları ilə çox böyük alqışlar qazanır.

1987-ci ildə bir qrup musiqiçi Azərbaycandan Macarıstana göndərilir. Sevenc şəhərində yüksək səviyyədə konsert keçirilir. Müğənnilər; xalq artisti Qəndab Quliyeva, Zöhrə Abdullayeva, Süleyman Zeynalov idi. Heyətin rəhbəri dünya şöhrətli bəstəkar, SSRİ xalq artisti Arif Məlikov olmuşdur. Orada da Abutalıbın milli musiqi nümunələrimizi solo kimi təqdim etməsi Macarıstan tamaşaçıları tərəfindən hərarətlə alqışlanır. Arif Məlikov onun çıxışından çox razı qalır, konsertdən sonra tərif edir, əlini sıxıb ürək sözlərini bildirir.

Yazımızın bu yerində bir az arxa illərə dönək. A. Sadıqov 1972-1977-ci illər ərzində Azərbaycan Dövlət İncəsənət İnstitutunda qiyabi təhsil almışdır.

Xüsusi olaraq qeyd olunmalıdır ki, A.Sadıqov toy məclislərində adi qarmonçalan olmamış, hər yerdə aparıcı, əsas musiqiçi kimi özünü göstərə bilmişdir. Sözün həqiqi mənasında o toylarımızda can qoymuşdur. Tənbəllik, yorulmaq, dincəlmək nə olduğunu bilməyən bu insanın ifasında həmişə çeviklik, cəldlik və dinamika olmuşdur. Əbəs deyil ki, zəhməti, işgüzarlığı, yorulmazlığı və enerjisi hesabına özünə pərəstişkarlar qazanmış və uzun illər toy məclislərində dəbdə, hörmətdə olmuş, çox yerlərə öz dəstəsi, öz müğənniləri ilə dəvət olunmuşdur.

Ustad sənətkar kimi Abutalıb 1980-1990-cı illərdə Qobustan, Ələt, Nəvahi, Hacıqabul, Əlibayramlı (haz. Şirvan), həmçinin Sabirabad, Saatlı, İmişli, Beyləqan, Ağcabədi, Kürdəmir, Yevlax və Bərdə rayonlarında müntəzəm olaraq toy şənliklərinə dəvət olunmuş, dəstəsilə çalıb-çağırmış və yaxşı ad qazanmışdır.

1995-1996-cı illər ərzində A.Sadıqov Azərbaycan Dövlət Muğam Teatrında solist qarmonçu kimi çalışmışdır. Bir musiqiçi kimi solistlər Elza Qaybalıyeva, Zeynəb Behbudova, Famil Nəcəfov, Aygün Bayramova və Mehman Səmədovu açıq konsertlərdə, televiziya və radioda müşayiət etmişdir. Teatrın kollektivi ilə Abutalıb İsrail dövlətinə də konsert səfərinə getmişdir.

Özünün bəstələdiyi "Aybəniz" və "Tərənə" rəqslərini sənətçi 1970-ci ildə radionun fonduna yazdırmışdır. Həmin vaxt onun ifasında "Səməni", "Qaytağı" xalq melodiyaları da lentə alınıb. Abutalıbın ifasında "Segah" muğamı radioda, FM-105 dalğada tez-tez səsləndirilir.

Sənətkar 1975-ci ildə "Qars", "Məlahəti, 1977-ci ildə "Xalabacı", "Vahidi", "Rahimi" oyun havalarını (sonuncu iki hava Abutalıbın öz bəstələdiyidir), 1998-ci ildə "Nabat xanım", "Ayşadi", "Brilliant", "Zərifə" rəqs melodiyalarını çalıb lentə köçürmüşdür. Sonuncu dörd melodiya xalq artisti, müğənni M. Tağıyevin təkidi və səs rejissorluğu ilə lentə yazılıb. Sanki görkəmli müğənnimiz öncədən hiss etmişdir ki, sonralar Abutalıbın səhhətində müşküllər olacaq və xəstəlik onun ifasına son qoyacaq.

A. Sadıqov sənətkar kimi tanınandan televiziya və radio ilə əməkdaşlıq etmişdir.

1997-ci ildə ustad sənətçi Azərbaycan Teleradio şirkətinə solist dəvət olunmuşdu.

A. Sadıqov 1999-cu ildən ona çox doğma olan Bakı Mədəni- Maarif Texnikumunun xalq çalğı alətləri şöbəsində və Milli Konservatoriya tərkibində Musiqi Kollecində qarmonun muğam ixtisası üzrə dərs deyirdi. Onun hazırladığı tələbələr qarmonun muğam ifaçılığında sayılıb-seçilən tələbələr idi. Hacı Abutalıb tələbələrinin hamısına qayğı ilə yanaşır və bildiklərinin hamısını onlara öyrədirdi.



Soldan: Sabir Əliyev (haz. ə.a.), Möhlət Müslümov (haz. x.a.), Namiq, Tahir Hüseynov, Ədalət Mövsümov və Abutalıb Sadıqov toy şənliyində.

Musiqi müəllimi kimi o, özünü həmişə doğruldub. Muğamın tədrisinə həvəslə, ciddi və qayğı ilə yanaşan Abutalıb müəllim bu sənətin milli sərvət kimi keşiyində duranlardan idi.

O, bütün ifaçılığı boyu dərin təfəkkür tərzilə, yeni boyalarla, xüsusi yaradıcılıq fərdiyyətilə muğamlarımızı emosional tərzdə tamaşaçılara çatdırmışdır.

A. Sadıqov muğamlar və xalq mahnılarından başqa repertuarında bir neçə bəstəkar mahnıları da səsləndirmişdir. Xalq artisti, kaman ustası Habil Əliyevin dediklərindən: "Bəstəkar Oqtay Kazımının "İnanmaram" mahnısının melodiyasını Hacı Abutalıb elə çalıb ki, onu həmin əsərin ikinci müəllifi saymaq olar".

Sənətdə ad-san qazanmış, ustad adı almış sənətçilərimizin hamısı dindirilsə, Hacı Abutalıbın dərin məzmunlu çalğısından, milli koloritli ifasından danışırlar.

Ustad xanəndəmiz, xalq artisti Hacıbaba Hüseynov bütün sənəti boyu hər bir tədbirdə, hər toy məclislərində tar-kamanla oxuyub. Bir dəfə o, restoranda keçirilən toya çağırılıb. Ona məlumat verilir ki, həmin məclisdə müasir toy ansamblı çalacaq. Hacıbaba müəllim etiraz edir: "Mən yalnız tar-kamançanın müşayiəti ilə oxuyuram". Məclis sahibi bildirəndə ki, orada qarmonçalan Abutalıb olacaq, onda H. Hüseynov gülümsəyərək deyir: "Hə, Abutalıbın müşayiəti ilə oxuyaram. O muğama bələddir, xalq ruhunda çalır".

Abutalıb müəllimin həyatı və yaradıcılığı ilə bağlı o qədər maraqlı hadisələr var ki, ayrıca yazılacaq kitaba sığmaz.

Deyirlər ki, xatirə danışmağı bacaran xeyirxah olur. Abutalıb müəllimin o qədər maraqlı xatirələri var idi ki, danışdıqca dinləməkdən doymaq olmurdu. Xatirələrin şirin olduğu qədər də, lətifələri bir-birindən duzlu-məzəli, xoş əhval yaradan idi. O, çox yaxşı həmsöhbət idi. Onun üçündür ki, onu yaxından tanıyanların hamısı onu çox istəyir və əziz tuturdu.

Bəzən insan zərbəni gözləməyən yerdən, qəfildən alır. 1999-cu ildə Abutalıb müəllim iflic xəstəliyinə tutulur. O ifaçılıq bacarığını tam itirir. Ömrünün barlı-bəhərli, yaradıcılığının çiçəkləndiyi bir zamanda bu ağır zərbəni bir faciə kimi qarşılamır. Allahın məsləhətinə şükür edir. O, bir an da ibadətindən qalmır, bütün dini ayinləri icra edir. O, ən böyük arzularından birinə yetişmiş, 2005-ci ilin yanvar ayında müqəddəs Həcc ziyarətinə getmişdi. Ziyarətə yola düşməzdən əvvəl Masallıya gedib doğmalarından, qohum-əqrabadan, xüsusilə ömrünün son illərini yaşayan qoca atasından halallıq alır. Ata oğluna fikirini belə bildirir: "Sən məndən halallıq istəyirsən. Əslində mən də səndən halallıq almalıyam. Ağlın kəsəndən, əlin qazanc tutandan böyük külfətə kömək olmusan. Uşaqlarının böyüyüb ərsəyə çatmasında, yer-yurd olmasında nə boyda çalışmısan. Xoş əməlinlə, sənətinlə, halal zəhmətinlə, həm məni sevindirmisən, həm də yaxşı ad-san qazanmısan. Bütün bu işlərin mənim ömrümü uzadıb. Get oğul, Allah köməyin olsun. Sağ-salamat qayıdasan. O böyük yaradan ziyarətini qəbul etsin".

Hacı Abutalıbın üç qızı, bir oğlu ata-ana tərbiyəsilə layiqincə böyüyüblər. Hamısı təhsilli, ixtisaslı şəxslərdir. Oğul Ağasadıq atasının sənətini öyrənmişdir. O, musiqiçi kimi fəaliyyətdə olmasa da ailə şənliklərində qarmon çalıb doğmalarını sevindirir. İki ali təhsil ocağında oxuyub, İqtisad Universitetini və Naxçıvan Univerisitetini bitirib.

Ustad sənətkar oğlu Ağasadıqın övladına öz adını verib və qarmonunu ona bağışlayıb. Hacı Abutalıbın nəvələri şən və xoşbəxt yaşamaqdadırlar.

Sevimli sənətkarımız, əziz həmkarımız Hacı Abutalıb Sadıqov uzun sürən iflic xəstəliyindən sonra 2008-ci il aprelin 2-də Haqq dünyaya qovuşmuşdur.

Qeyd etməliyik ki, xəstəliyi dövründə ailəsi, övladları sona qədər onun xilmətində durub, xüsusi qayğı və nəvaziş göstərmişlər. Sənət dostlarından Əhsən Rəhmanlı, Zakir Mirzə, Baxışəli Əliyev, Xeyrulla Dadaşov, Nemət Hüseynov, Sərxan Abıyev və digərləri tez-tez ona baş çəkirdilər.

"İLKİN" RƏQSİ

Abutalıb Sadıqov

Nota yazan: Ə.Bayramov



2.36. SADƏ, TƏVAZÖKAR İNSAN, ƏSL MUSİQİÇİ



Əlibala Ağayev

O, həlim, yumşaq təbiətli, sadəlövh, özünü "gözə soxmağı" bacarmayan, həddən artıq təvazökar insandır. Görünür təvazökarlığın da həddi-hüdudu olmalıdır. Əks təqdirdə gördüyün işin dəyərini, qiymətini ala bilməzsən. Təvazökarlıq yaxşı şeydir, ancaq baxır hansı cəmiyyətdə. Bizim cəmiyyətdə, xüsusilə musiqi ictimaiyyətində təvazökar, utancaq, abırlı adamların vaxtında öz qiymətini alması ağlasığan deyil. Onun təvazökarlığının həddi-hüdudu yoxdur, utancaqlıq isə "normanı" aşır. Bəlkə də onun fikir və düşüncələri çox zəngindir. Lakin onu heç kəslə bölüşmədiyi üçün biz onun daxili aləminə tam bələd deyilik. Çox əfsus ki, yuxarıda qeyd etdiyimiz yüksək keyfiyyətləri, öz məziyyətləri ucbatından iki sənətin: qarmon və qoboy ifaçılıq sənətinin ən yaxşı nümayəndələrindən biri olan Əlibaba müəllimi lazımı qədər musiqi cəmiyyəti, geniş şəkildə isə xalq kütlələri tanımır. Biz isə öz vətəndaşlıq qayəsi baxımından öz vicdan borcumuza sadiq qalaraq onun adını musiqi tarixinə keçirəcəyik.

Əlibala Həsən oğlu Ağayev 1946-cı il yanvar ayının 29-da Bakıda anadan olub. Ailədə iki uşaq dünyaya gəlib, bir oğul, bir qız. Ata sürücü işləsə də musiqiyə bağlı şəxs idi, musiqini çox sevirdi. Odur ki, Əlibalanı musiqiçi görmək istəyirdi. Oğlunu 1953-cü ildə Ü.Hacıbəyli adına Konservatoriyanın nəzdində musiqi onilliyinin qoboy sinfinə qoymuşdu. Ona Azər Abdullayev dərs deyirdi. Əlibala burada yaxşı oxuyurdu.1964-cü ildə 11 illik təhsili başa vurub atasının arzusu və müəlliminin tövsiyəsilə Əlibala Azərbaycan Dövlət Konservatoriyasının qoboy sinfinə daxil oldu. Burada da Azər Abdullayevin sinfində oxuyurdu. Azər Abdullayev (1929-2010) çox savadlı, tələbkar, qayğıkeş müəllim kimi tələbələrin sevimlisi olmuşdur.

Əlibalanın xatirələrindən: "Atam qarmon sənətinə həddən artıq həvəskar idi. Teyyub Dəmirov, Abbas Abbasov, Ağahüseyn Əliyev və Bədəl Bədəlovla dostluq edirdi. Ayrı-ayrı vaxtlarda onların hər biri bizə gələrdilər. Bəzən birlikdə də olurdular. Hər birinin gəlişi evimizdə şadyanalığa çevrilirdi. Atam yaxşı süfrə açdırar, anam dadlı yeməklər hazırlardı. Yeyib-içəndən sonra qarmon dilə gələrdi. Atam masanı və ya kətili vurub ritm saxlardı. Onun əla ritm tutmaq qabiliyyəti, azca da oxumağı vardı. Qarmonun səsinə zümzümə edərdi. Onları dinlədikcə məndə qarmon sənətinə həvəs oyanırdı. 1958-ci ildə, 12 yaşım olanda atam Teyyub Dəmirovun vasitəsilə mənə əsl peşəkar qarmonu aldı. Boş vaxtlarda öyrənirdim. Atamın qramonçalan dostlarının bizə gəlişini səbirsizliklə gözləyirdim. Onlar çalanda əllərinə baxıb nəsə götürürdüm. Həm də melodiyalar, xalq havaları, muğam gəzişmələri beynimdə qalırdı. Atamın azca qarmon çalmağı da vardı. Lakin sənət ardınca getməmişdi. Görünür öz ürək arzularına mənim vasitəmlə çatmaq istəyirdi. İstedad ona ana tərəfdən gəlirdi. Səriyyə nənəm qarmon çalırdı. Lakin qara dilləri işlətmirdi. Onların sənətə gəlişi dövründə yarım tonlar olmayıb. Mən qarmon çalmağı özüm öyrəndim. Musiqidə oxumağımın da bu işdə rolu oldu. Axı ümumi fortepiano dərsi keçirdim. O da klavişli (dilli) alətdir.

Bir dəfə atamın ən yaxın dostu Ağahüseyn əmi mənim qarmon çalmağımı dinlədi, dedi: "Həsən, bu uşaq çalacaq" Atam çox sevindi. Yeri gəlmişkən deyim ki, Ağahüseyn Əliyev yaxşı qarmonçalan olub. Qəribə çalğı üslubu vardı. Xırda, incə barmaqlar vururdu. Atam dostlarını qaval ilə də müşayiət edərdi. Qoşa şapalaq vururdu. Onun sədaflə incə bəzədilmiş əla dəfi vardı.

İlk dəfə toya getməyim 1970-ci ilə təsadüf edir. Klarnetçalan Adil Bayramov, xanəndə Əli Bağırov, nağaraçı Əli Əmiraslanov və mən otaq şəraitində çalırdıq. Mənim üçün toyda çalmaq maraqlı idi. Ondan sonra toy məclisinə getməyə başladım."

Əlibala Ağayev konservatoriyanı 1969-cu ildə bitirib. 1966-cı ildən 6 saylı uşaq musiqi məktəbinin qoboy sinfində dərs deməklə əmək fəaliyyətinə başlayıb. Burada üç il çalışıb. Bu məktəbdə qoboya şagird qəbulu olmadığı üçün işdən çıxıb.

Həsən kişinin övladlarını musiqi sənəti üzrə təhsilli, ixtisaslı kadr kimi görmək arzusu yerinə yetmişdi.

Haşiyə: "Gülarə Həsən qızı 1958-64-cü illərdə 12 saylı uşaq musiqi məktəbinin fortepiano sinfində təhsil alıb və A.Zeynallı adına Musiqi Texnikumuna daxil olub. O, texnikumu 1967-ci ildə fortepiano ixtisası üzrə uğurla başa vurub. Gülarə xanım 1968-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano sinfinə daxil olmuş və buranı 1973-cü ildə müvəffəqiyyətlə bitirmişdir.

Sevdiyi, seçdiyi sənətə ürəkdən bağlı olan bu insan 1967-ci ildən bu günə qədər 12 saylı 11 illik musiqi məktəbinin fortepiano sinfində dərs deyir".


Əlibalanın özünü dinləyirəm: "Tarzən-pedaqoq Sabir Quliyev konservatoriyada bizim vaxtımızda oxuyurdu. O, Bakı Elektrik Maşınqayırma Zavodunun mədəniyyət və texnika sarayında tar və qarmon sənətindən dərs deyir, özfəaliyyət x.ç.a. ansamblına rəhbərlik edirdi. Məni də işlədiyi yerə apardı. 1967-ci ildən musiqi kurslarında qarmon üzrə dərs deməyə başladım. Beş ilə yaxın burada işlədim".

Əlibala Ağayev 1967-ci ilin sentyabr ayında Bakı özfəaliyyət incəsənəti festivalının iştirakçısı olub və 2-ci dərəcəli diploma layiq görülüb. Qoboyda Ü.Hacıbəylinin "Sənsiz" romansını ifa edərək münsiflər heyətinin diqqətini özünə cəlb edib. Həmin ilin oktyabrında o, Respublika özfəaliyyət incəsənəti festivalının laureatı adını alaraq 1-ci dərəcəli diplom alıb və qızıl medalla təltif olunub. Ə.Ağayev F.Əmirovun "Bulaq başında" adlı əsərini çalmışdı. Hər iki festivalda onu Sabir Quliyevin rəhbərlik etdiyi x.ç.a. ansamblı müşayiət etmişdi. Festival rəhbərliyinin təklifilə Ə.Ağayev həmin ansamblın müşayiətilə "Bulaq başında" əsərini televiziyada ifa etmişdi.

Əlibala Ağayev musiqi onilliyinin yuxarı siniflərində oxuyarkən konservatoriyanın tələbələ-



Pedaqoji İnstitutun estrada orkestri konsertdə. Ortada Əlibala Ağayev, sağdan birinci Sabir Quliyev, soldan birinci Adil Bayramov



Pedaqoji İnstitutun "Təhsil" x.ç.a. ansamblının televiziya çıxışı. Soldan birinci: bədii rəhbər, tarzən Sabir Quliyev, ikinci sırada birinci - qarmonçu Əlibala Ağayev və dördüncü - klarnetçalan Adil Bayramov

rindən ibarət sinfonik orkestrində çalırdı. Həmçinin konservatoriya illərində də həmin orkestrdə fəaliyyət göstərmişdi. Bütün bu illər onun bir qoboy ifaçısı kimi yetişməsinə tam imkan yaratmışdı. Onun üzvü olduğu orkestrə Süleyman Ələsgərov, Zakir Bağırov və Fərəc Qarayev dirijorluq edirdi.

Sabir Quliyevlə yaxşı münasibət gənc Əlibalanı onun Azərbaycan Pedaqoji İnstitutunda rəhbəri olduğu "Təhsil" x.ç.a. ansamblına da gətirmişdi. O, 1970-1973-cü illərdə bu ansamblda qarmon, estrada qrupunda isə qoboy çalırdı. Dostu Adil Bayramov ansamblın birində klarnet, digərində isə saksofon ifaçısı idi. Əlibala müəllimin arxivində o illəri əks etdirən şəkillər qorunur.

Əlibala Ağayev konservatoriyanı bitirib Akademik Opera və Balet Teatrının simfonik orkestrində işə başlamışdı. O vaxt bu kollektivin bədii rəhbəri və baş dirijoru Əfrasiyab Bədəlbəyli idi. Sonra isə Rauf Abdullayev oldu. Əlibala bu orkestrdə üç il işlədi. O, 1970-ci ildə Bakı Mədəni-Maarif Texnikumuna qarmon ixtisası üzrə müəllim dəvət olunub. 65 yaşa qədər burada çalışıb. Bu tədris müəssisəsində qarmonun not tədrisinin əsasını o qoyub. Əlibala müəllim 1980-ci illərin əvvəllərində texnikumda qarmon tədrisi üçün proqram hazırlayıb və təsdiq etdirib. O, qarmonun not tədrisində nümunəvi müəllim sayıla bilər. Əlibala müəllim 1997-ci ildə Milli Konservatoriya nəzdində Musiqi Kollecinə qarmon ixtisası üzrə müəllim dəvət olunub. O, ifaçılıqda və pedaqoji fəaliyyətdə həmişə özünü doğruldub.

Yazıçı Mir Cəlal hekayələrinin birində yazırdı: "Bəzi ulduzlar kiçik olduqları üçün yox, yüksəkdə olduqları üçün görünmürlər". Zənnimizcə yüksək bədii dəyərləri olan bu fikirləri Əlibala Ağayev kimi sənətkarlara aid etmək olar.

Əlibala müəllim Əliəkbər Tağıyevin yaratdığı və Nəriman Əzimovun rəhbərlik etdiyi instrumental ansamblda 1978-1980-ci illərdə fəaliyyət göstərmiş, qoboy çalmışdır. Bu ansamblda Hüseyn Həsənov qarmon, Baxışəli Əliyev isə akkordeon ifaçısı olub. Ansamblın repertuarı Əliəkbər Tağıyevin mahnılarından ibarət idi. Mahnıları Məmmədbağır Bağırzadə və Nisə Qasımova oxuyurdu. Radioya lentlər yazılır, televiziyada çıxışlar olurdu.

Əlibala Ağayev Gülarə Əliyevanın rəhbərlik etdiyi "Dan ulduzu" instrumental ansamblda da 1 il qoboy ifaçısı olmuşdur. Canlı çıxışlarda və lent yazılarında Leyla Şərifovanı, Yalçın Rzazadəni və Flora Kərimovanı müşayiət etmişdir. Sonrakı dövrlərdə Gülarə xanım hərdənbir zəng edib Əlibalanı məşqlərə çağırar və onun ifasından lent yazılarında istifadə edərdi.

1973-1975-ci illərdə Əlibala Azərbaycan Teleradio Verlişləri Komitəsinin xalq çalğı alətləri orkestrində olmuş, Gülağa Məmmədov, Şövkət Əliəkbərova, Sara Qədimova və Yalçın Rzazadənin konsertlərində çalmışdır. Bu orkestrin tərkibində o, İrəvanda konsertdə olmuşdur. Bu səfərin müğənniləri Məmmədbağır Bağırzadə və Nisə Qasımova yüksək alqışlarla qarşılanmışdı. Azərbaycan musiqisi öz qüdrətini bir daha göstərmişdi.

Musiqi uca məqsədə xidmət etməli və insan zövqü tərbiyə etməlidir.

Qoboyun gözəl, təsirli və ürəyə yatımlı səsi vardır. Bu alət inkişaf etmiş bütün ölkələrin simfonik və nəfəs alətləri orkestrlərində çalınır. İfa zamanı bu alətə solo verilir. Böyük bəstəkarlar qoboy üçün əsərlər yazıblar.

Əlibala Ağayevin sənəti doğrudan da ali məqsədlərə xidmət edir və insan zövqünü formalaşdırır.

Hörmətli Əlibala müəllim 2003-cü ildə yenidən S.Rüstəmov adına x.ç.a. orkestrinə dəvət olunub. O vaxtdan burada əzmlə çalışır. Ə.Ağayev orkestrin müşayiətilə 2008-ci ildə radionun fonduna Fikrət Əmirovun "Bulaq başında" və "Layla" mahnılarını yazdırıb. Bu əsərlər qoboyda çox gözəl səslənir. Orkestrin ifasında lentlərə köçürülən bəzi bəstəkar mahnılarının arasında da Əlibalanın muğam soloları vardır.

Əlibala Ağayevin toy fəaliyyəti də çox maraqlı və rəngarəng olub. Əvvəla, sənətdə tanınandan



"Arzu" instrumental ansamblın televiziya konserti. Soldan: nağaraçalan Tahir Quliyev, klarnet ifaçısı Şərbət Rzaquliyev, akkordeonçu Bəxtəli Əliyev, gitaraçı Ələsgər, qanun ifaçısı Vaciha Səfərova, qobyçalan Əlibala Ağayev, qarmonçalan Hüseyn Həsənov, kamançalan Fəxrəddin Dadaşov və pianoçu Natella xanım



Xanəndə İslam Rzayev, tarzən Kamil Əlməsdov, nağaraçalan Almaz Quliyev, klarnetçi Cəfər Həsənov və qarmonçu Əlibala Ağayev

o, tay-tuşları arasında seçilən, sevilən qarmonçalan kimi qəbul olunub və özündən böyük sənətkarlar onu toylara aparıblar. Azərbaycanın böyük xanəndələri və ən məşhur musiqiçiləri onu öz dəstələrinin tərkibinə daxil ediblər. Toy tədbirlərində yaxşı sənətin olması əsas şərt olsa da, burada digər incə məqamlar da var ki, əxlaq qaydalarına riayət etmək və xoş xasiyyətli olmaq da böyük şərtdir. Əlibala müəllim həmişə yüksək əxlaqı ilə seçilib. Onun ən çox yoldaşlıq etdiyi klarnetçalan Adil Bayramov olub. O, dövrünün tanınan klarnet ifaçısı idi. 1970-ci ildə Əlibalanı ilk dəfə toya aparan Adil Bayramov onu çox bəyənmiş və sonralar da bu gənc qarmonçalanla yoldaşlığı davam etdirmişdi. Bu mehriban ünsiyyət 1975-ci ildəki təyyarə qəzasına qədər davam etmişdir. Bu qəzada Adil Bayramov və xanəndə Mürşid Abbasov həlak olmuş, üç musiqiçimiz isə sağ qalmışdı. Üç musiqiçinin biri bu gün ömür və sənət davamını yaşayan Əlibala Ağayevdir. Əlbəttə bütün bunlar tale və qismət işidir. Təyyarə qəzasını təfsilatı ilə "Azərbaycanda klarnet ifaçılığı sənəti" kitabında (səh.257) Adil Bayramova həsr etdiyimiz yazıda verdiyimiz üçün, Əlibalaya aid bu bölümdə təkrarçılıq etmədik.

Əlibala Ağayev sevimli müğənnimiz Akif İslamzadə ilə də yoldaşlıq edib. Dəstədə qarmon çalsa da tələb olunan məqamlarda qoboya sololar verilirdi. Lirik melodiyalarda qoboy çalınırdı. O, A. İslamzadə ilə birlikdə 1975-1986-cı illərdə çalışıb. Bəstəkar Faiq Şücəddinov bu dəstədə ionika çalırdı. Onun özünün kiçik qrupu vardı ki, müğənnilərlə lentlər yazırdılar. Bu qrupun tərkibində Əlibala A.İslamzadənin radionun fonetekasında qorunan iki əvəzolunmaz ifasında, "Aman ovçu" xalq mahnısında və Ə. Tağıyevin "Sənsən həyatım mənim" adlı lirik mahnısında qoboy ifaçısı olub. Bu ifalarda çox gözəl səslənmə vardır.

Əlibala müəllim neçə rəqs melodiyasının da müəllifidir. Misal olaraq "Vüqarı" rəqsinin adını çəkə bilərik. Bu melodiya "Segah" muğamı əsasında bəstələnib və 1973-cü ildə Adil Bayramov (klarnet), Əlibala Ağayev (qarmon) və Almaz Quliyev (nağara) üçlüyünün ifasında Azərbaycan radiosunun fondu üçün lentə alınıb. Vaxtilə dəbdə olan "Vüqarı rəqsi toylarımızın repertuarına



Azərbaycan Teleradio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin S.Rüstəmov adına x.ç.a. orkestrinin məşqi. Ön sırada qoboy ifaçısı Əlibala Ağayev, ikinci Elxan Səmədzadə

daxil olmuşdu. 1970-1980-ci illərdə musiqi məktəbi və musiqi kurslarında dərs dediyim zaman bu oyun havasını yuxarı sinif şagirdlərinin proqramına da daxil etmişik.

Əlibala müəllim 1994-1996-cı illərdə İran İslam Respublikasının Tehran şəhərində də olmuş, ev şəraitində təşkil olunan qarmon tədrisində çalışmış və ev konsertlərində çıxış edərək azəri türklərinin zövqünün inkişafına və musiqi tələbatına xidmət etmişdir.1996-cı ildə Tehran mərkəzi televiziya və radiosunun əməkdaşları Əlibalanı studiyaya dəvət etmişlər və qoboy ifasında lirik melodiyaları radioda səsləndirmək üçün lentə almışlar. Oradakı mövcud rejimin qaydalarına əsasən şən, oynaq melodiyalar səsləndirilə bilməz. Yalnız muğamlar, inqilabi mahnılar və lirik musiqilər oxunub-çalınmalıdır. Odur ki, Ə. Ağayevin ifasında Azərbaycan xalq mahnısı "Laçın" və Ə.Tağıyevin "Külək" mahnısı fonda köçürüldü. Onun ifaları xoşa gəldiyi üçün Əlibalanı Tehran teleradiosunun orkestrinə qoboy ifaçısı dəvət etmişdilər. Lakin, o, evi, ailəni nəzərə alıb vətənə dönmüşdü.

2002-ci ilin yay fəslində Bakı caz mərkəzində Salman Qəmbərovun caz qrupunun müşayiətilə Əlibala S.Rüstəmovun "Hardasan" mahnısını və "Gözəlim sənsən" xalq mahnısını qoboyda ifa etmişdi. Mahnıların caz janrı üçün işləmələri Salman Qəmbərovun idi.

O, 2000-ci ildən klarnet ifaçıları ilə Bakı qəsəbələrində keçirilən mövsümü toy şənliklərinə də gedir. Dəstənin qarmon və qoboyçalanı kimi çıxış edir. Təbii ki, toy məclisində xanəndənin muğamları oxuması ilə bərabər, müxtəlif musiqi alətlərinin səslənməsi, o cümlədən qoboyun özünəməxsus tembri insanlara xoş əhval bəxş edir və zövqünü oxşayır. Əlibala Bakı toylarında qoboyda muğamı səsləndirəndə məclis əhlinin ruhu dincəlir. Elə biz də musiqimizə bacardığı qədər xidmət edən, lakin bunun əvəzini heç kəsdən, heç bir təşkilatdan tələb etməyən, sadə bir insanın ömür və sənət yolu barədə oxucuları tanış etməklə dinclik və rahatlıq tapdıq.

Əlibala Həsən oğlu Ağayev 1981-ci ildə ailə qurub. Bir oğlu, bir qızı və bir nəvəsi var. Övladlar ali təhsillidirlər.

"VÜQARI" RƏQSİ

Əlibala Ağayev



2.37. NEFTÇALADA QARMON SƏNƏTİNİ SEVDİRDİ VƏ UCALARA QALDIRDI

Mən ağ sular kimi axıb getmərəm,
Şimşəyəm, havayı çaxıb getmərəm,
Dünyanı pəncərə saydı babalar,
Mən ondan mənasız baxıb getmərəm.



Firuz Babaşov

Bu mənalı fikri şeiri vasitəsilə bizə yadigar qoyub gedən böyük şair Məmməd Rahimdir.

Haqqında səmimi fikirlərimizi bildirəcəyimiz, sözün əsl mənasında mənalı sənət ömrü yaşayan, həyatını işi, əməlilə mənalandıran Firuz müəllim ata-babalarımızm yolunu getmiş, el-oba insanı olmuş şəxslərdən biridir.

Firuz İmran oğlu Babaşov 1946-cı il oktyabr ayının 7-də Neftçala rayonunun Mirqurbanlı kəndində anadan olmuşdur. O, ailənin ilk övladıdır. Atası İmran kişi neft mədənlərində fəhlə işləmişdir. Halal, zəhmətkeş insan ömrü sürən bu kişi kənd-kəsəkdə nüfuz sahibi olmuşdur. Ömür-gün yoldaşı Məhbubə xanımla beş oğul, iki qız böyüdərək, onları oxutmuş və sənət sahibi etmişdir.

Firuz kiçik yaşlarından qarmon çalmağa başlamışdı. Boş vaxtlarında, soyuq aylarda evdə, yazyay zamanı həyətlərində həmişə qarmon çalar, evdəkiləri və qonşuları sevindirərdi. Onun istedadı üzə çıxandan sonra atası ona sənətkar qarmonu alır. Firuz oxuduğu məktəbin özfəaliyyət kollektivində iştirak edir və daha da inkişafa doğru gedir. Məktəbin bütün tədbirlərində onun qarmonunun səsi gəlir, müəllimlərin və şagirdlərin hörmətini qazanır. Bu sakit, təvazökar oğlan dost-yoldaşlarının ev yığıncaqlarında, ad günlərində təmənnasız çıxış edərdi. Az sonralar rayon mərkəzində, Neftçala şəhərindəki mədəniyyət evinin özfəaliyyət ansamblına çağrılır və müntəzəm məşqlərə gedir. Bayram tədbirlərində ansambl tərkibində çıxış etməsi, rayon ərazisində müxtəlif tədbirlərdə çalması onu püxtələşdirir və tanınmağına səbəb olur.

Firuz orta məktəbin yuxarı siniflərində oxuyarkən ondan yaşca böyük olan qavalçalan Sabir Quluyev və Vəli Mürvətovla xırda məclislərə, "xınayaxdı", "paltarkəsdi" (qız evində keçirilən toy məclisi), "şirni" məclisinə dəvət olunur. Belə tədbirlər Firuz Bakıda təhsil alıb rayona qayıdana qədər davam etmişdi.

Firuz radiodan eşitdiyi rəqs melodiyalarını dəqiq öyrənər, sonralar televiziya konsertlərini izlər, bəstəkar mahnılarını, muğam dəramədlərini və rənglərini, təsnifləri həvəslə dinlər, güclü yaddaşına köçürər və toylarda çalardı. Çox sonralar maqnitofon onun köməyinə çatmış, lentlərə köçürdüyü qədim rəqs havalarını, müasir melodiyaları bacarıqla öyrənib xüsusi şövqlə çalmışdır. Orta məktəbin 10-11-ci siniflərində oxuyarkən onun yaxşı qarmon çalmağını görüb həvəslənən və özündən bir neçə yaş kiçik olan həmkəndlilərinin neçəsinə müəllimlik etmiş, çalğı öyrətmişdir.

Firuz 1965-ci ildə orta məktəbi bitirib. Yeri gəlmişkən qeyd edək ki, Firuz orta məktəbdə dərslərini yaxşı oxumuşdur. Kiçik yaşlarından sənət çeşməsindən su içməsi onun taleyini musiqiyə bağlamış, o, ali məktəblərə sənəd verməmiş, gənc ömrünü musiqiyə həsr edərək doğma el-obasının toy-büsatında çalıb-çağırmış, evə qazanc gətirərək atasının böyük külfətinin dolanışığına kömək etmişdir.

Musiqiyə sonsuz həvəs gənc qarmonçalanı 1967-ci ilin yayında Bakı Mədəni- Maarif Texnikumuna gətirir. O, "Klub işçisi - özfəaliyyət xor kollektivi rəhbəri" ixtisası üzrə təhsil alaraq 1970-ci ildə uğurla texnikumu bitirir.

Oxuduğu illərdə o, öz sənətilə ciddi məşğul olmuş, notla çalıb-oxumağı, nəzəri dərsləri yaxşı mənimsəmiş, nümunəvi tələbə kimi tanınmışdır. Texnikumunun xalq çalğı alətləri ansamblının və orkestrin fəal üzvü, aparıcı qüvvəsi, solisti olmuş, doğma tədris ocağının bütün mədəni-kütləvi tədbirlərində, müxtəlif konsertlərdə yaxşı sənət nümayiş etdirmişdir. Ansamblın rəhbəri, nəfəs alətləri ifaçısı, məşhur sənətkar Elşad Cabbarovun (haz. əməkdar artist) dediklərindən: "Firuz texnikuma peşəkar musiqiçi kimi gəlmişdi. Təhsil illəri onu daha da ustalaşdırdı. Ansamblın məşqlərində seçilirdi, öyrədilən melodiyaları hamıdan tez mənimsəyər, sonra xüsusi bəzəklər, inciliklər, qarmona məxsus imkanlarla çalardı. O, əsl istedad idi".

O illərdə texnikumun qarmon sinfində dərs demiş, hazırda Bakı Dövlət Universitetinin müəllimi və dekanı olan Firudun Hüseynzadənin fikirləri: "Firuz tələbəlik illərindən mahir çalğısı ilə seçilirdi və hamımızın diqqətində idi. Onun ifa bacarığı tələbə səviyyəsində deyil, peşəkar qarmonçu səviyyəsində canlanırdı. Barmaqları cəld, çevik, usta olmaqla bərabər, yaxşı da ürəyi vardı. Çalğısı bütöv və tamam-kamal, kamil sənətkarın əlindən çıxan, qəlbindən gələn sənət təsiri bağışlayırdı. Bakıda qalıb fəaliyyət göstərsəydi mütləq yaxşı tanına bilərdi".

Firuzla bir kursda təhsil alan tarzən Vamiq Məmmədəliyevin, müğənni Zaur Rzayevin, nağaraçalan Heybət Babayevin dostluğu və işgüzar sənət yoldaşlığı da onların hər birinin gələcək uğuruna və inkişafına geniş yol açmışdır. Onlar birlikdə texnikum müəllimlərinin və onların dost-qohumlarının şənliklərinə, ad günləri, yubileylər, nişan və toy məclislərinə dəvət olunar və çıxışları ilə bəyənilərdilər. Zaurun gənclik illərində oxuduğu muğam, təsnif və mahnıları müşayiət edərək üç musiqiçi, elə bil ansambl, orkestr idi. Sonralar H.Babayev Dövlət Mahnı və Rəqs ansamblında, bəstəkar-tarzən A.Məşədibəyovun rəhbərlik etdiyi "Azərbaycan tərənələri" ansamblında çalmış, uzun illər kaman ustası Habil Əliyevi müşayiət etmişdir. 37 ildir nağaradan dərs verir.

Vamiq Məmmədəliyev ali təhsil almış, tarzən kimi fəaliyyətini artırmış, muğamlarımızı dərindən öyrənmiş, ustadların yolunu davam etdirmişdir. O, əməkdar artist adını almış (2006), uzun illər Mədəni-Maarif Texnikumunda, ali təhsil müəssisələrində müəllimlik etmiş, Mədəniyyət və İncəsənət Universitetində dekan vəzifəsinə qədər yüksəlmişdir.

Zaur Rzayev Mədəni-Maarif Texnikumundan sonra A.Zeynallı adına Musiqi Texnikumunu muğam və Ü. Hacıbəyli adına Konservatoriyanın vokal sənəti üzrə başa vurmuşdur. O, xalq artisti fəxri adını almışdır. Müdafiə Nazirliyinin mahnı və rəqs ansamblının bədii rəhbəridir. Z.Rzayev Dağıstan Respublikasının da xalq artistidir.

Firuz Babaşov Mədəni-Maarif Texnikumunda oxuduğu illərdə məşhur qarmonçalan, həmçinin o dövr üçün müasir sənətçi olan Zakir Mirzə, Avtandil İsrafilov, Həmid Haqverdiyevin lent yazılarından çox şey öyrənmişdi. Onların çaldıqları oyun havalarını Firuz elə çalırdı ki, elə bil adı yazılarından çox şey öyrənmişdi. Onların çaldıqları oyun havalarını Firuz elə çalırdı ki, elə bil adı çəkilən sənətkarların öz ifalarını eşidirsən. Firuz həmçinin Teyyub Dəmirov, Məmmədağa Ağayev, Abbas Abbasov, Teyyub Teyyuboğlu və bu kimi böyük qarmon sənətçilərinin ifalarını daim dinləmiş, öyrənmiş və öz çalğısında möhkəmlənmişdir.

Firuz tələbəlik illərində Nərimanov rayon pionerlər evindəki, Bakının bir neçə mədəniyyət saraylarındakı rəqs kollektivlərində dostu, nağaraçı Heybətlə müşayiətçi-musiqiçi işləmişdir. Bun-



Firuz Babaşov və Heybət Babayev konsertdə

dan başqa kirayədə qaldığı evlərdə fərdi qaydada tələbələrə dərs keçmişdir.

Firuz yay tətili zamanı doğma rayonu Nefçalaya gələr və toylarda gənc sənətkar eşqilə çalardı. Onun sənətini bəyənər, tərifləyər və düzgün dəyər verərdilər.

Neftçalada ondan əvvəllər də çox qarmonçalanlar olmuşdur. Buna misal olaraq Kor Nəcəf, Adil Nəcəf oğlu, Kor Niftulla, Əliağa Rəhimov, Həqiqət Qurbanov, Əlidəmir Kərimov, Əzizağa Əzizov, Nəriman Dadaşovun və digərlərin adını çəkə bilərik.

Firuz sənətə gələndə onun taytuşlarından Davud, Etibar, Qəhrəman, Rahim də qarmon çalırdı. Lakin, öz peşəkar sənəti, yüksək ifası və maraqlı çalğı manerası ilə Neftçala əhalisinə qarmonu aparıcı, geniş ifa imkanları olan alət kimi Firuz Babaşov sevdirmişdir. O, Aşıq Qurbanxan, Aşıq Qulam və digərlərinin dəstələrinin tərkibində Neftçala, Salyan, Əlibayramlı (haz. Şirvan), Sabirabad və ətraf rayonlarda toylarda çalmışdır.

Məşhur el sənətkarı , zurna-balaban ifaçısı, "Cəngi" zurnaçılar ansamblının solisti olmuş Əliməmməd Əmrahovun (1929-2007) 1970-ci ildə dediyi söz indi də yadımdadır: "Firuz çox yaxşı qarmon çalır. İti, güclü, cəld barmaqları var. Qrifdə olduqca sərbəst gəzişir. Qarmon havalarını əla bilir, müasir mahnıları da düzgün çalır. Ümumiyyətlə qarmon onun əlində tam sərbəst danışır".

1970-ci illərdə əyalət musiqiçiləri Bakıda məskunlaşıb fəaliyyət göstərən sənətçilərdən xeyli zəif idilər. Çünki Bakıda musiqi məktəblərinin sayı çox idi. Təhsil yüksək səviyyədə aparılırdı. Rayonlardakı məktəblərdə isə qarmon sinifləri 5-10 il idi ki, açılmışdı. Bakıda evlərdə də ən ustad sənətkarlar tələbələr hazırlayırdılar. Təbii ki, o zamanlar ən yaxşı qarmonçalanlar Bakıda yetişirdi. Belə bir dövrdə Firuz Babaşov əyalətlərimizdən yetişmiş ən yaxşı qarmonçalanlardan biri sayılırdı. Hətta Zakir Mirzəyev, Vaqif Şıxıyev, Teyyub Teyyub oğlu, Afdandil İsrafilov, Həmid Haqverdiyev və bir neçə qarmonçalanlardan sonra çəkinmədən, haqlı olaraq Firuz Babaşovun adı çəkilirdi.

Firuz Babaşov 1970-ci ildə Bakı Mədəni-Maarif Texnikumunu bitirib Neftçala rayon musiqi məktəbinə işə düzəlmişdir. Həmin dövrdən indiyə qədər ixtisaslı müəllim kimi qarmon sənətindən dərs deyir. Çalışdığı musiqi məktəbində qarmonun notla tədrisini Firuz müəllim başlamışdır. O, not tədrisini əla bilir və bu işləri yüksək səviyyədə apara bilir. Yetirmələrini orta ixtisas təhsil müəssisələrinə gətirəndə onların not savadı yoxlanılarkən hər dəfə F.Babaşova təşəkkür etmişlər.

Biryolluq rayona qayıdan F. Babaşov dostu xanəndo V. Mürvətovla dəstə düzəltmiş və 10 il yoldaşlıq edərək el-obasının əksər toylarında birlikdə çalışmışdır. Daha sonra Firuz müəllim müştərilərinin tələbinə uyğun olaraq müntəzəm Bakıdan xanəndələr aparmışdır. Xüsusilə Vidadi Bərdəli uzun illər Neftçalada toy şənliklərində olmuşdur. Müğənni Qara İsmayılov da Firuzgilin dəvətilə Neftçala toylarında çox çalışmışdır.

Firuzun güclü, coşqun çalğısından həvəsə gələn neçə-neçə yerli gənc qarmon ifaçılığına qədəm



Firuz müəllim Neftçala uşaq musiqi məktəbində şagirdlə məşğələ zamanı

qoymuş və rayonda fəaliyyətə başlamışdır. Çəkinmədən deməliyik ki, Firuz Neftçalada qarmonun geniş şəkildə təşəkkül tapıb inkişaf etməsində mühüm rol oynamışdır.

Firuz qardaşı Gülağa və Vahidin musiqi qabiliyyətini nəzərə alıb onları bu sahəyə həvəsləndirmiş və sənətə gətirmişdir. Gülağa klarnet ifaçılığına yiyələnmiş, bundan əlavə digər nəfəs alətlərini, kamançanı və simli alətləri ifa etmiş, uşaqlıqdan kamança, saz, tütək və balaban ifa etməyi bacaran Vahid isə elektro-gitara çalmağa yönəlmişdir. Beləliklə evdə müntəzəm məşq edən üç qardaş əlavə musiqiçiləri də cəlb edərək yaxşı dəstə düzəltmiş və ad çıxarmışlar. Onlar məşhurlaşaraq uzun illər Neftçala ərazisində bayram şənliklərinin, toyların, konsertlərin əsas musiqiçisinə çevrilmişlər. Ağabəy Manafov bu dəstənin xanəndəsi kimi çox tanınmışdır. Neftçala mədəniyyət evində bir zamanlar on beş ildən yuxarı fəaliyyət göstərən "Bahar" mahnı və rəqs ansamblının tərkibində Firuz müəllimin olması kollektivə böyük təkan idi. Ansambl Baltikyanı respublikalarda və Rusiyanın böyük şəhərlərində maraqlı proqramlarla çıxış etmişdir. Həmin konsertlərdə F. Babaşovun və qardaşı Gülağanın solo çıxışları xüsusi marağa səbəb olurdu.

Musiqi məktəbində Firuzun pedaqoji fəaliyyəti hərtərəfli, geniş və uğurlu olmuşdur. O, öz işinə ciddi, vicdanla yanaşaraq neçə-neçə güclü qarmonçalanlar yetişdirmişdir. Təkcə Tahir Zakirov kimi uğurlu bir sənətçini, əsl qarmonçunu, həqiqi bir musiqiçini hazırlayıb Azərbaycan incəsənətinə təqdim etməsi bəs edir ki, Firuzu peşəkar sənətkar və təcrübəli müəllim kimi tanıyaq, adını uca tutub fəxrli sayaq və bol-bol təşəkkürlər edək. Tahirin qarmon ifaçılığına gəlməsində Firuz müəllimin çox böyük zəhməti və misilsiz xidməti olmuşdur. Balaca Tahirin böyük istedadını əvvəldən duyan F.Babaşov musiqi məktəbindəki məşğələlərdən əlavə onunla fərdi qaydada evdə də məşğul olmuş, xüsusi çalışmalar, əlavə tapşırıqlar vermişdir. Sonralar onu daha da fəallaşdırmaq



"Bahar" ansamblı konsertdə. Sağdan ikinci: Firuz Babaşov, öndə Gülağa Babaşov

üçün öz yanında toylara aparmış, rayonda tanıtmışdır. Tahiri Mədəni Maarif Texnikumuna gətirmiş, onun savadlı, diplomlu, hərtərəfli sənət sahibi olması qayğısına qalmışdır. Tahir respublikamızın peşəkar ansambllarında çalaraq püxtələşmiş, qarmon sənətində öz gücü, izi ilə tanınmış və məşhurlaşmışdır. Firuz müəllim belə uğurlu yetirmələri ilə həmişə fəxr edir.

Neftçalada müəllimliyi dövründə Firuz müəllim yüzlərlə şagird hazırlamışdır. Onların əksəriyyəti öz müəlliminin məsləhəti ilə Bakı Mədəni-Maarif texnikumuna (haz. Bakı Humanitar Kolleci), Bakı Musiqi Kollecinə, Sumqayıt Musiqi Texnikumuna (haz. kollec) və başqa sənət ocaqlarına daxil olurlar. Təhsili başa vurub, doğma rayona qayıdıb, uğaq musiqi məktəbində Firuz müəllimlə çiyin-çiyinə çalışanlar da vardır. Onun peşəkar musiqiçi kimi fəaliyyətdə olan tələbələrindən Əlirza Rzayev, Əlizamin Xankişiyev, Səyavuş Hüseynov, Səyavuş Talıbov, Ramil Nağıyev, Seymur Babaşov, Samid Hüseynov, Ramil Abbasov, Xaqani Quliyev və digərlərini göstərmək olar.

Sözün həqiqi mənasında Nefıçalada Firuz müəllim öz qarmon məktəbini yaratmış, bu ifaçılıq sənətinə geniş yol açmışdır. Qarmon ifaçılığının bu rayonda sevilməsi və geniş təkamül tapması bilavasitə Firuz Babaşovun adı ilə bağlıdır. Yetişdirdiyi tələbələrdən biri Əlisahib Əsgərov Bakı Mədəni-Maarif Texnikumunu, Mədəniyyət və İncəsənət Universitetini bitirmiş, rayonda uşaq musiqi məktəbində dərs demiş, mədəniyyət müəssisələrində rəhbər işlərdə çalışmışdır. O, musiqi məktəbinin direktorudur.

F. Babaşov yüz ildən artıq bir dövr ərzində yaradılan, ifa olunaraq yaddaşlardan yaddaşlara köçən, sonradan T.Dəmirov, A.Abbasov, S.Hüseynov, M.Ağayev, Q.Dadaşova, S.Vəzirov, R.Şıxlarov, M.Vəlixanov, Ə.Ağayev və başqa sənətkarlar tərəfindən ifa olunan rəqslərin əksəriyyətini hafızəsində hifz edə bilib. Firuz müəllim Neftçala musiqi məktəbinin direktoru olmuş tarzən Vilayət Kərimovla birlikdə qədim melodiyaları ifa edib maqnitafon lentlərinə yazaraq tədris ocağı üçün fond yaratmışdır ki, onu bu günə qədər qoruyub saxlamışlar. Tələb olunan anlarda, tədris zamanı və konsertlər təşkil olunarkən müəllimlər yə şagirdlər bu lent yazılarından vəsait kimi istifadə edə bilirlər. Onun sevimli yetirmələrindən biri Ramil Nağıyev Sumqayıt Musiqi Texnikumunu (haz. kollec) bitirib. Oxuduğu illərdə özünü nümunəvi tələbə kimi göstərə bilib. Baxış-

müsabiqələrdə nailiyyət əldə edib. Ramil Bakı Humanitar Kollecinin müəllimidir.

F. Babaşov mənalı ömrünü davam edərək, bu dünyada yaxşı iz qoymaq əzmilə ona çox doğma olan iş yerində bu gün də yorulmadan çalışır və gələcək musiqiçilərin hazırlanması işinə xidmət edir. Bundan əlavə bu gün də o, el-obanın, Neftçala camaatının sevimli, unudulmaz sənətkarı kimi toylarda qarmonunu əvvəlki məhəbbətlə səsləndirir.

Firuz müəllim 1973-cü ildə ailə qurub. İki qızı, bir oğlu və dörd nəvəsi var. O, bir ata kimi övladlarına düzgün tərbiyə verib, təhsil almaları yolunda çalışıb. Allahdan ona sağlam can və ömür diləyək ki, Firuz baba nəvələrin də boy atıb xoş günlərə çatmasını görə bilsin.

Oğlu Seymur atası kimi qarmon ifaçısıdır. Milli Konservatoriya tərkibində Musiqi Kollecini bitirib. Bakıda musiqi məktəblərinin birində müəllim işləmişdir. İfaçı kimi fəaliyyətdədir. O, Daxili Qoşunların hərbi orkestrində çalışır.



Seymur Firuz oğlu Babaşov



Nəfəs və simli alətlərin məhir ifaçısı Vahid Babayev

Firuz müəllim dərs dediyi şagirdlərdən ibarət yaratdığı qarmonçalanlar ansamblı ilə də həvəslə işləyir. Ansamblın rəngarəng repertuarı var. Rayonda keçirilən tədbirlərdə, açıq havada meydan və parklarda təşkil olunan konsertlərdə qarmonçular ansamblının çıxışı böyük əhəmiyyət kəsb edir. Bu uşaqların tərbiyəsi, bədii zövqü formalaşır, tamaşaçılarla onların canlı ünsiyyəti yaranır. Həmçinin uşaqlar səhnəyə alışır, sənət mədəniyyətinə yiyələnirlər. Tədbirlərdəki konsertlər onların musiqiçi kimi yetişməsinə bilavasitə şərait yaradır. Ən əsası odur ki, gənc musiqiçilər erkən çağlarından xalqa xidmət edir və bu işin şərəfli olduğunu anlayırlar.

2.38. CƏBRAYILDAN BAŞLANAN ÖMÜR YOLU



Elman Həsənov

Onunla münasibətimiz saf və ləkəsiz müstəvi üzərində qurulmuşdur. Tanışlığımız belə olmuşdu. 1971-ci ildə ustad xanəndə Ağabala Abdullayevin (1910-1976) oğlu, o zamanlar Bakı elektrik maşınqayırma zavodunda mühəndis işləyən Avtandilgildə, övladının ad günündə yaxşı çalıb-oxumaq var idi. Məclisdə kiçik heyətlərdən ibarət iki qrup iştirak edirdi. Biri Ağabalanın kiçik oğlu, tarzən-xanəndə Nizamu Abdullayev və Elmangilin qrupu, digəri isə xanəndə Vəliş Yadigarovla biz idik. Məşhur xanəndə Süleyman Abdullayev üzürlü səbəbə görə yığıncağa gəlib çıxmadı. Hər qrupun öz qarmon ifaçısı var idi. İlk tanışlıqdan məclisin tamamına qədər Elmandan səmimiyyət, mehribanlıq və alicənablıq gördüm. İfası da sərbəst və dəyərli idi. Qarmonunun səsi də şirin səslənirdi. Mənim qarmonumun səsi onun xoşuna gəlmişdi. Hətta tərifləndə. Sonrakı dövrlərdə onunla xalq musiqiçilərinin toplaşdığı filarmoniya bağında tez-tez rastlaşırdıq. Əvvəlki səmimiyyət və mehribanlıq davamiyyətli idi. Üzünün nuru bir an da olsun çəkilməzdi. Səmimiyyətilə çoxları arasında nüfuz qazanmışdı. 1970-ci illərdə mən bunu həmişə müşahidə etmişdim. Respublikamızın ən məşhur xanəndələri və ən mahir klarnet ifaçıları onu öz dəstələrinin tərkibində toylara aparırdılar. Çünki o, həqiqətən yaxşı qarmon ifaçısı və tərbiyəli bir gənc kimi tanınırdı. XX əsrin 90-cı illəri sənət adamlarımızın əksəriyyətini bir -birindən uzaqlaşdırdı. Elmanla yalnız xanəndə Məmmədbağır Bağırzadənin (1950-2005) Azərbaycan Dövlət Mahnı Teatrının binasında keçirilən vida mərasimində rastlaşdıq. Sonrakı illərdə isə o,dost tanışdan həmişə məni xəbər alıb, mənimlə maraqlanıb və mənə salam göndərib. Bu dəfəki görüşümüz ondan müsahibə almaq üçün idi. Budur, 2012-ci il iyun ayının 14-də onun iş otağında qarşı-qarşıya əyləşib söhbət edirik. Mənim ora gəlib onu tapmağıma o qədər sevinirdi ki... Gülümsər çöhrəsində daim bərq vuran nur daha da artmışdı. Bu İlahidən, qüdrətdən gələn nurdur.

Elman İsa oğlu Həsənov 1946-cı il oktyabr ayının 6-da Cəbrayıl rayon mərkəzində dünyaya gəlib. Elmanın ilk övlad olduğu bu ailəyə Allah üç övlad da bəxş edib.

Uşaq çağlarında Elman böyüklərdən Cəbrayılın, bütünlükdə isə Qarabağın sazəndə dəstələri haqqında söhbətləri dinləyib. Onun atası İsanın xalası əri Baxış qarmonçu olub. Keçmişdə yarımtonsuz qarmonu ilə el-oba şənliklərində çalırmış. Elman onun özünü yox, şəklini görüb və haqqında eşidib.

Elman 1953-cü ildə Cəbrayıldakı M.Qorki adına ümumtəhsil məktəbin 1-ci sinfinə daxil olub. 1956-cı ildə, 10 yaşında ikən 18 dilçəkli diatonik "Kazan" qarmonla sadə el havalarını və kiçik həcmli mahnıları çalmağa başlayıb. Sonralar məktəb tədbirlərində iştirak edib. Onun oxuduğu tədris ocağının və Cəbrayıl rayonunun istedadlı şagirdləri də çeçilərək Bakıya yekun konsertə dəvət olunmuşdu. Münsiflər heyətinin sədri nəcib, xeyirxah insan, böyük ziyalı, məşhur musiqi

xadimi, bəstəkar Əfrasiyab Bədəlbəyli (1907-1976) idi. O, bütün iştirakçıları diqqətlə dinləyir və hər birinə xoş münasibət bəsləyərək qayğı ilə yaraşırdı.

Elmanın xatirələrindən: "Məni səhnəyə dəvət etdilər. "Orta Segah" çaldım. Əfrasiyab müəllim məni və atamı öz yanına çağırdı. Atama dedi ki, bu uşaq istedadlıdır. Onu musiqi məktəbinə qoymaq lazımdır. Atam razılaşdı. Ə.Bədəlbəyli 12 saylı uşaq musiqi məktəbinin direktoru Haçıyevə zəng vurub tapşırdı və bizi onun yanına göndərdi".

Musiqi məktəbində o zaman qarmon ixtisası olmadığı üçün Elmanı qarmon sinfinə qəbul edirlər. O, burada və 7 saylı ümumtəhsil məktəbdə oxuyur. Yaşayış yeri isə qohum mənzili olur. Olduqca məsuliyyətli bir məsələ meydana çıxır. Rayondan gələn, Bakıya bələd olmayan, əmanət kimi qohum evində qalan bir uşağın şəhər mühitində iki məktəbə gedib gəlməsi, onun dərs hazırlığına nəzarət, sağlamlığına, təhlikəsizliyinə zamanət böyük məsuliyyət deyildimi? Üstəlik rayonda yaşayan valideynlərin nigarançılığı da var idi təbii ki, mövcud vəziyyət Elmanı musiqi məktəbindəki təhsildən uzaqlaşdırır. Valideynlər onu rayona aparmağa qərar verirlər. Elmanın söylədiklərindən: "Musiqi təhsili almağa böyük həvəsim var idi. Rayona qayıtmaq istəmirdim. Qürur hissim, heysiyyatım və qeyrətim buna mane olurdu. Düşünürdüm ki, rayonda deyəcəklər, Bakıda oxuya bilmədi, qayıtdı gəldi. Elə bilirdim ki, məni qınayacaqlar".

Elman 1959-cu ildə Bakıdakı 8 saylı musiqi təmayüllü internat məktəbə qəbul olunur. Xalq çalğı alətləri şöbəsində təhsil alır. O vaxtlar həmin məktəbdə qarmon sinfi yox idi. Elman bütün nəzəri dərsləri öyrənir və məktəbin x.ç.a.ansamblında qarmon çalır. O, istirahət saatlarında daim qarmonla məşğul olur. Bundan əlavə Elman məktəbdə Əhmədağa müəllimin rəhbərlik etdiyi şagird rəqs qrupunu qarmonu ilə müşayiət edir. O, 1963-cü ildə burada orta təhsili başa vurur.

Elmanın dediklərinə qayıdaq: "1959-cu ildə atam, əmim və mən ustad qarmonçu Məmmədağa Ağayevin evinə qarmon almağa getdik. O, mənə bir qarmon verib dedi ki, bir şey çal. Mən "Kolxoz" rəqsini çaldım. Söylədi ki, bu uşaq yaxşıdır, bacarığı və istedadı var. Lakin çalışmalı, çox məşq etməli, öz üzərində işləməlidir. Bizə təklif etdiyi qarmonu aldıq. Çox yaxşı alət idi. O vaxtdan həmin qarmonla çaldım, elə indi də məndədir".

Elmanın valideynləri 1962-ci ildə Bakıya köçüb Yasamal qəsəbəsində ev alırlar. Gənc Elmanın həyatı həmişəlik olaraq paytaxtın elmi, mədəni və musiqi həyatına bağlanır. Onun xatirələrindən: "Bakıda təhsil aldığım bütün illərdə yay tətilində Cəbrayıla gedirdim. Oradakı musiqiçi dəstələri mənim qarmon çalmağımı bilirdilər. Odur ki, 14-15 yaşlarımdan məni özlərilə toylara aparırdılar.Tarzənlərdən Nəriman Vəliyev, Zahid Kazımovla rayon mərkəzində və kəndlərdə toylara gedirdim. Onlar mənim ifamı bəyənirdilər. Dağ Tumaslı kəndindən xanəndə Hümbət Əhmədov var idi. O, tez-tez Cəbrayıl toylarına çağırılırdı.Bu rayonda xanəndə az idi. Odur ki, Cəbrayılın sazəndaları Ağdam, Şuşa və Füzulidən xanəndələr gətirirdilər. Əsas Allahyar və Yusifi dəvət edirdilər.Ağabala Abdullayev isə öz dəstəsilə gəlirdi".

Haşiyə çıxaraq bir məsələni də qeyd etməyi lazım bilirik. Elman Həsənov Yasamalda bir dəfə əlində qarmon gedərkən yolda rastlaşdığı bir şəxs ondan soruşur:

-Sən qarmon çalırsan?

-Bəli. Mən sizi tanıyıram. Siz Musa Həsənovsunuz.

-Hardan tanıyırsan məni?

-Siz Əhməd Bakıxanovun ansamblının qarmonçalanısınız. Sizi televiziyadan tanıyıram.

-Müəllimin kim olub?

-Mənim müəllimim olmayıb.

-Qarmon dərsi almaq istəsən, mənə müraciət edə bilərsən.

Beləliklə gənc Elman 4 ay Musa Həsənovun evinə gedərək "Zabul-Segah" və "Rast" muğam dəstgahlarını, dəramədləri və rəngləri öyrənmişdi.

Ağabala Abdullayev Cəbrayıla növbəti toylara gəlişinin birində rayon tarçalanlarından biri Elmanı ustad xanəndəyə təqdim edir. Ağabala kişi qonaq olduğu evdə gənc qarmonçalanın ifasını dinləyir, "Zabul-Segah" muğamını da çaldırır. Sonra həmin muğamı "re" tonallığında da dinləyir. Elman muğamı həmin tonallıqda da xanəndəni qane edəcək səviyyədə ifa edir. O zamandan A.Abdullayev onu öz dəstəsinə götürür və dəvət olunduğu bütün yerlərə aparır. Xanəndənin əhatə dairəsi geniş, çağırıldığı yerlər çox idi. Onu Füzuli, Cəbrayıl, Qubadlı, Bərdə, Goranboy və Şəkiyə toylara aparırdılar. Elman ustad xanəndə ilə Masallıya və Şamaxının Cəyirli kəndinə toylara getməyini də yaxşı xatırlayır. Onun dediklərindən: "Ağabala əmi ilə birlikdə çalışmağım mənimçün əsl məktəb idi. Öyrəndiyim, bildiyim muğamları təcrübədə daha da mükəmməlləşdirdim. Yolları bildim və samballı çalğıya qədəm qoydum. Onunla işləyəndə əsl xanəndə müşayiətinə nail oldum. O, öz sənətinə dəyər verən, özünü qoruyan, səhhətinin, səsinin qayğısına qalan adam idi. Səsinə xələl gətirə biləcək yeməkləri yeməz, hər sudan içməz və soyuq suyu ümumiyyətlə yaxına qoymazdı. Onun dəstəsinin tarçalanı Əyyub, kamança ifaçısı Əhməd Vəliyev idi. Xanəndənin dəstəsinə qəbul olunmağım Əhmədin vasitəsilə olmuşdu.

Ağabala əminin toy ansamblında oğulları Zöhrab, Rövşən və Nizami qaval çalar və oxuyardılar. Toyun şirin yerində bir də görürdün ki, üçü də birdən ayağa qalxıb qavalları gur səsləndirir və məclisdəkilərin rəğbətini qazanırdılar. Bu anlarda masamızın üzərinə xeyli nəmər tökülürdü. Vallah, toylar o qədər maraqlı keçirdi ki, məclisin bitməsini istəmirdik. Doğrudan da o vaxtkı el toyları, toy-mağar əhvalı ürəkaçan, səviyyəli və abır-hörmətli idi.

Sonralar Zöhrab Abdullayev Sumqayıtda komsomol və məsul partiya işlərində çalışdığı üçün musiqidən uzaqlaşdı".

Haşiyə çıxaraq bidirək ki, Zöhrab Abdullayev istedadlı insan idi. Mahnı bəstələmək qabiliyyəti də vardı. Məşhur "Olmaz-olmaz" mahnısının musiqisi onundur. Bu mahnını neçə-müğənni sevə-sevə oxumuş və hətta lentə yazdırmışlar. Bu sırada xalq artisti Qədir Rüstəmovun da adını qeyd etməliyik. "Olmaz-olmaz" mahnısı bu gün də müğənnilərimizin repertuarını bəzəyir. Z.Abdullayev az yaşamış, cavan ikən dünyasını dəyişmişdir.

Elman Həsənov 1962-1968-ci illərdə Ağabala Abdullayevin toy ansamblında çalışmışdır. 1967-ci ilin yazında Azərbaycan Dövlət Filarmoiyasında "Xalq istedadları" adı ilə Ağabala Abdullayevin konserti olmuşdu. Elman da ansambl tərkibində idi.

E.Həsənov 1963-1969-cu illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunun (haz.Texniki Universitet) axşam şöbəsində oxuyaraq Y.Qaqarin adına mərkəzi pioner və məktəblilər sarayının (haz. T.İsmayılov ad. uşaqların və gənclərin yaradıcılıq mərkəzi) "Cücələrim" rəqs ansamblının müşayiətçi-qarmonçalanı olub. Baletmeyster, əməkdar artist (haz.x.a.) Böyükağa Məmmədovun quruluş verdiyi rəqsləri müşayiət edən Elman Həsənov qarmon sənətinin bu istiqaməti üçün də formalaşmışdı. Hazırda şöhrətli tarzən olan Ramiz Quluyev də Elmanla birlikdə müşayiətçi işləyirdi. "Cücələrim" rəqs ansamblının Bakıda, Azərbaycan bölgələrində dövlət tədbirlərində çıxış edir və SSRİ-nin böyük şəhərlərində konsertlər verirdi. Məşhur "Artek" pioner düşərgəsinə də maraqlı səfər olmuşdu. Macarıstan və Çexoslovakiya respublikalarında da "Cücələrim" ansamblının konsertləri alqışlarla qarşılanmış və mətbuatda geniş şəkildə işıqlandırılmışdı. Yaranmasının 30 illiyi münasibətilə bu rəqs kollektivini 1967-ci ildə Kremlin Qurultaylar Sarayına konsertə dəvət etmişdilər.

Elman Həsənov tələbəlik illərində Ağabala Abdullayevin oğlu Nizami ilə dostluğu və sənət yoldaşlığını davam edirdi. Birlikdə konsertlərə və şadlıq mərasimlərinə gedirdilər. Yaxşı tar çalmağı olan Nizaminin elə o vaxtlardan müğənnilik məharəti də vardı. Ürəkli və təsirli oxumağı onu sonralar əsl xanəndə səviyyəsinə gətirib çıxardı və o, geniş dairədə, xalq arasında tanındı. Nizami əvvəllər atasının yanında köməkçi xanəndə kimi çıxış etsə də, ustadın ölümündən sonra onun ye-



Xanəndə İslam Rzayev və qarmon ifaçısı Elman Həsənov

rini boş qoymadı, Füzulinin ən sevimli və məşhur oxuyanlarından birinə çevrildi.

Nizami Abdullayevlə Elman Həsənovun oxuyub-çalmağı bir-birini tamamlayır və bütöv sənət kimi dinləyənləri öz təsir dairəsinə salırdı. Xüsusilə "Zabul"u və "Segah"ı təsirli vurğularla təqdim edirdilər.

Elmanın Bakı toylarında pərvazlanması ilk anlarda İslam Rzayevlə bağlı olub. İslam müəllim onu öz toy ansamblının tərkibində rayonlarımıza və qonşu respublikalara da aparmışdı. E.Həsənovun İ.Rzayevlə birlikdə çalışması 1964-ci ildən başlamışdı.

Elman Bakı klarnetçalanlarından Ələkbər Əsgərov, Kamil Əzimov, Şəmsi İmanov, Bəhruz Zeynalov, Məhərrəm Zeynalov, Babaxan Bağırov və digərlərilə fəaliyyət göstərsə də, onun ən çox sənət yoldaşlığı etdiyi Cəfər Həsənov olub. 1978-ci ildə Moskvanın "Melodiya" firmasının Tbilisi filialı Cəfər Həsənovun qrammafon valını buraxıb. O, bu valda "Tərəkəmə", "Vağzalı", "Fəridə" rəqslərini və "Ruhiyyə" mahnısını ifa edib. Müşayiətçilər isə qarmonçalan Elman Həsənov, nağara ifaçısı Almaz Quluyev (haz.ə.a.) və balabançı-dəmkeş Baba Ağababa oğlu olub. Bu sətirlərin müəllifinin "Azərbaycanda klarnet ifaçılığı sənəti" kitabının 385-386-cı səhifələrində C.Həsəovun sənət yoldaşları ilə birlikdə çəkilən foto-şəkilləri öz əksini tapır. Orada Elman Həsənovun şəklini də seyr etmək mümkündür. Bunlar sənət tariximizin müəyyən anlarını əks etdirən şəkillərdir.

Elman Həsənov 1970-1980-ci illərdə sənət meydanında yaxşı tanınan bir qarmon ifaçısı olub. O da klassik qarmon ifaçılığı ənənələrindən layiqincə bəhrələnib müasir səpgidə sənət nümayiş etdirənlər sırasındaydı. Bəli, o, haqqında söhbət açdığımız dövrün dəbdə olan, bəyənilən, sayılıb-



Soldan: nağaraçı Tahir Hüseynov, qarmonçalanlar Həmid Haqverdiyev, Elman Həsənov, Rəhman, Vaqif Şıxıyev, Avtandil İsrafilov, nağaraçı Əli Əmiraslanov, qarmonçu Teyyub Teyyuboğlu, nağaraçı Rafiq Budaqov və balabançı Nizami Allahverdiyev

seçilən sənətkarlarından biri olub. Onun çalğısında ölçü-biçi, səviyyə, məzmun, təsir gücü və dəyər həmişə yerində olub. Əgər özünüreklamla məşğul olsaydı, ifalarını qrammafon vallarına, radio lentlərinə yazdırıb müntəzəm səslənməsinə çalışsaydı və solist kimi tez-tez televiziya konsertlərində görünsəydi geniş xalq arasında tanınar və məşhur qarmonçalanlarımızdan biri olardı.

E.Həsənov 1972-1979-cu illərdə məşhur xanəndə (haz.x.a.) Zaur Rzayevin qrupunda çalışmış, bu heyətin tərkibində konsertlərdə və toylarda olmuşdur. Dəvət olunduqları yerlər yalnız Bakı, Azərbaycanın bölgələri deyil, həm də Dağıstanın, Gürcüstanın, Ermənistanın (azəri türkləri yaşayan rayonlar), Tükmənistanın və Özbəkistanın şəhərləri və qəsəbələri olmuşdur. Zaurun filarmoniyamızda verdiyi konsertlərdə ansambl tərkibində Elmanın qarmonunun şirin səsi eşidilirdi. O, ayrı-ayrı muğam şöbələrində də müğənnini əla müşayiət edirdi.

1969-cu ildə Politexnik İnstitutu bitirən E.Həsənov Azərbaycan Dövlət Sənaye Layihə İnstitutunda mühəndis kimi işə başlayıb. O dövrdən indiyə qədər orada çalışıb. Hazırda isə həmin təşkilat belə adlanır: Fövqaladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi. E.Həsənov burada sektor müdiri vəzifəsində çalışır.

Hər bir sənətkar mənsub olduğu xalqa, onun mədəniyyətinə, musiqisinə arxalandığı kimi, bu mənbələrə, dəyərlərə borcludur. Yəni böyüdüyü, boy atdığı mühitə, qidalandığı zəminə borcludur. E.Həsənov istər məktəbli olarkən, istər tələbəlik illərində, istərsə də Layihə İnstitutunda çalışdığı zaman xalqımızın musiqi mədəniyyətinə sevgiylə xidmət edib. O, qazandığı sənətlə elimizin,



Filarmoniyada konsert. Soldan: müğənni Zaur Rzayev, Elman Həsənov və Ağacbürhan Abbasəliyev

obamızın, şadyana mərasimlərinə rövnəq verməyi özünə borc bilib. Konsertlərdə qarmonumuzu əsl milli çalarlarla, zəngin xalq ruhunda səsləndirərək, insanlara dərin zövq bəxş edərək sevincə qərq edib. Biz də belə bir dəyərli şəxsin, gözəl musiqiçinin xidmətini göz önünə gətirib adını şərəfləndirərək musiqi tariximizə qeyd etmək üçün soraqlayıb, tapıb qapısını döyməyi özümüzə borc bildik.

Elman Həsənov 1978-ci ildə ailə qurub. İki övladı var.

Tanındı əxlaqı, tərbiyəsilə,
İnsanlarla isti ünsiyyətilə.
Oldu Bakıda yaxşı qarmonçalan,
Nüfuz qazandı o, xoş niyyətilə.

Toy-büsata gedirdi məşhurlarla,
Əla ifa göstərirdi onlarla,
Çalğı yaradırdı ad-sanlılarla,
Çal-çağırlarda elin dəvətilə.

Elmanın çalğısı çox şirin idi,
Usta qarmonçalanlardan biriydi.
Qarmonunu dilləndirən qəlbiydi,
Tərifənirdi gözəl sənətilə.

Nurludur çöhrəsi, üzü, bənizi,
Musiqidə hələ də vardır izi,
Xoş rəftarıyla alıb qəlbimizi.
Bizlərə doğmadır ülviyyətilə

İstedadı bəlli idi Elmanın,
Sənətkarı idi dövrün, zamanın.
Xatırlayır ömrün xoşbəxt o anın,
Yada salır xoş duyğu, hörmət ilə.

Ə.Rəhmanlı, 22 noyabr 2013-cü il

2.39. İFAÇILIQDAN ELMİ RÜTBƏLƏRƏ VƏ UNİVERSİTET REKTORLUĞUNA QƏDƏR



Fərahim Sadıqov

Tanınmış alimin, professorun, pedaqoji elmlər doktorunun, prorektor və rektor vəzifələrində çalışmış bir insanın, şərəfli, səmərəli və məhsuldar bir ömür yolu keçmiş görkəmli ziyalının haqqında yazı başlamaq bilirsinizmi bizim üçün necə çətindir?! Əslində onun haqqında geniş bilgili, çox əhatəli, məlumatlı və sanballı bir kitab yazılmalıdır ki, bu da şükrlər olsun ki, artıq meydana gəlmiş və geniş şəkildə yayılmışdır.

Əziz oxucu! Çox dəyərli bir soydaşımızın, belə bir görkəmli şəxsiyyətin haqqında məlumata sahib olmaq istəsəniz Ağalar İsrafil oğlunun "Bir alim ömrünün salnaməsi" (Bakı, "Adiloğlu", 2007-ci il. 464 səh.) kitabını oxuya bilərsiniz. Biz isə sizə təqdim etdiyimiz qarmon ifaçılığından bəhs edən bu kitabımızda həmin ziyalımızın musiqi aləmindəki, incəsənət sahəsindəki xidmətlərini əhatə etməyə çalışdıq.

Fərahim Balakişi oğlu Sadıqov Azərbaycanımızın səfalı dağ rayonlarından biri olan Yardımlıda anadan olub. Bu, o zamanlar idi ki, atası həmin rayonun meşə təsərrüfatı idarəsinə rəhbərlik edirdi. İki ildən sonra onların ailəsi doğma rayonlarına, Masallıya qayıtdı. Fərahim ailənin ikinci övladı olmuşdur. O, 1958-ci ildə Dadva kənd ibtidai məktəbini, 1962-ci ildə Masallı şəhər 1 saylı səkkizillik məktəbi, 1965-ci ildə isə N.Nərimanov adına 2 saylı orta məktəbi çox böyük uğurla və əla qiymətlərlə bitirmişdir.

Hələ orta məktəbdə oxuyarkən onun böyük istedadı üzə çıxmışdır. Balakişi Sadıqovun özü kimi hər bir övladı istedadlı idi. O, özü uşaqlıq çağlarından tütək çalmış, gənclik illərində onu daha məharətlə ifa etmiş və digər nəfəs alətlərinin çalğı qaydlarını da öyrənmişdi. Məsul vəzifələrdə çalışan bu insan musiqi ilə həvəskar kimi məşğul olmuşdu.

Evdə daim musiqi səsi eşidən Fərahim kiçik yaşlardan musiqiyə can atmışdır. Əmisi Firudinin ecazkar səsində eşitdiyi muğamlar onun musiqi təxəyyülünün formalaşmasında rol oynamışdır.

O, hələ orta məktəb illərində peşəkar musiqiyə meyl etmişdir. İlk musiqi təhsilini cənub bölgəsində çox yaxşı tanınan, mahir tarzən Mirzə Salmandan alsa da, böyük qardaşı Abutalıbın çaldığı qarmonun sehrinə düşmüş, onun barmaqlarına baxıb öyrənmiş, bu sənətin ifa qaydalarını, sirlərini mənimsəmiş və müəyyən dövrdən sonra özü də mahir bir qarmonçalana çevrilmişdir.

Orta məktəbin yuxarı siniflərində oxuyarkən Fərahim Masallının irili-xırdalı şənlik məclislərinə dəvət olunmuş, el-obanın toy-büsatında qarmonunu sevə-sevə, sevilə-sevilə səsləndirmişdir. Sonrakı dövrdə, ali təhsil illərində də o, doğma rayonun toy məclislərinə təşrif gətirmiş, Masallı xanəndələrini müşayiət etmişdir.

Fərahim müəllimin xatirələrindən: "Musiqiyə hədsiz sevgi bəsləyirdim, qarmon sənətinin vurğunu idim. Böyük qardaşım Abutalıbın tay-tuşları arasında mahir qarmonçalan olması da bu işdə mühüm əhəmiyyət kəsb etmişdi. Radiodan qarmonçalanların ifasını eşidərək, çox şey öyrənir və bunları öz çalğımda mükəmməlləşdirirdim. Səkkizinci sinifdə oxuyarkən Masallıda Azərbaycan Dövlət Filarmoniyası işçilərinin konserti oldu. Xatırlayıram ki, onların içərisində xanəndə Bayram Məmmədov və məşhur qarmonçalan Abbas Abbasov da var idi. Abbasın ifalarını radiodan dəfələrlə eşitmiş və çaldıqlarını öyrənmişdim. Sevinirdim ki, onu Masallı mədəniyyət evinin səhnəsində görürəm. Onun qırmızı rəngli qarmonu var idi. Abutalıb da konsertin tamaşaçısı idi. Ümumiyyətlə o, Bakıdan Masallıya gələn bütün sənətkarların konsertinə gedər, onları əziz tutar, xidmətlərində olar və evimizə qonaq gətirərdi. Bu dəfə də belə olmuşdu. Qardaşım onları evimizə çağırmış, anamın bişirdiyi cürbəcür ləziz xörəklərə qonaq etmişdi".

Burada bir məsələni də qeyd etməyi lazım bilirik ki, tarixi məkan kimi Masallının əvvəlki yer adı Dəştivənd idi. Masallını bir ünvan, bir ərazi kimi yaradan, formalaşdıran Fərahimgilin ulu babaları olmuşlar. Öz adı ilə çox məşhur olan ulu baba Qara Kələntər aparıcı və qurucu sima kimi tarixdə silinməz iz qoyub. Belə ki, tarixi mənbələrdən bizə məlum olduğu kimi, Səfəvilər dövləti dağıldıqdan sonra Azərbaycanın hər bir bölgəsində xanlıqlar yaranıb. Cənub bölgəsinin xanlarından biri Qara Kələntəri Qala bazarına (yəni Masallıya) vali təyin edir. Vali olduğu müddətdə o, həmin ərazini formalaşdırır. Sonra onun işini böyük oğlu Xələf bəy davam etdirir.

Fərahim Sadıqovun dediklərindən: "Masallıda bizə xələflilər deyirlər. Ulu babam Xələf bəyin ziyalılığı, bu bölgənin təsərrüfatının, sənayesinin inkişafındakı xidmətləri böyük olmuşdur. Farscadan dilimizə tərcümə edilmiş "Əxbərnamə" adlı kitabda onunla bağlı xeyli çox sayda məlumatlara rast gəlmək mümkündür. Ulu babamızın quruculuğu, yaradıcılığı, xalqa, vətənə sevgisi bizə irsən keçib."

XX əsrin 60-cı illərində Masallının mədəni həyatında, teatr və musiqi sahəsində Abutalıb və Fərahim Sadıqov qardaşları ön planda olardılar. Fərahim uşaqlıqdan yalnız musiqiyə deyil, aktyorluğa, idmana da həvəskar olmuşdur. O, dram və x.ç.a. ansambllarında çıxış edirdi, istər məktəb, istərsə də rayon tədbirlərində bədii qiraətçi kimi sevilirdi. Həmin zamanlar oxuduğu məktəbdə və rayon mədəniyyət evində keçirilən konsertlərin və bədii-kütləvi tədbirlərin əksəriyyətinin ssenari müəllifi və aparıcısı Fərahim Sadıqov olurdu. O, mədəniyyət evinin xalq çalğı alətləri ansamblının qarmonçalanı olmaqla bərabər, dram dərnəyinin və miniatür teatrın da üzvü idi, Masallının özündə, kənd və qəsəbələrdə, ətraf rayonlarda verilən konsertlərdə çıxış edirdi. Fərahim öz istedadı, bacarığı, çalışqanlığı və enerjisi ilə yaşadığı rayonun ictimai, mədəni həyatında olduqca fəal idi. O, rəngarəng, maraqlı, zəhmət dolu uşaqlıq və gənclik həyatı yaşamışdı. Bu yolrulmaz gənc bədii özfəaliyyət kollektivlərinə rəhbərlik etməklə ilk rəhbərlik təcrübəsini bu ocaqdan almışdı. Elə bunların nəticəsi olaraq o, sonralar bədii özfəaliyyətlə, məktəb teatrları ilə bağlı xeyli səhnəciklər, hətta pyeslər yazdı.

Uşaqlıqdan Fərahim Sadıqovun çox güclü qavrama qabiliyyəti, möhkəm yaddaşı olmuşdur. Bu qabiliyyət istər ümumtəhsil fənnlərinin mənimsənilməsində, istər bədii ədəbiyyatın mütaliəsində və istərsə də musiqinin qavranılmasında özünü göstərirdi. Elm aləmində çalışarkən o, Şərqdə ilk dəfə olaraq qarmon və nağara ixtisası üçün dərsliklər yazdı, qarmonda ifa olunan rəqslərin müəllifi oldu.

Fərahim Sadıqov yalnız pedaqoji sahədə yox, həm də sənətşünaslıq sahəsində çoxlu elmi əsərlərin müəllifidir. Odur ki, yalnız pedaqoq alimlərin deyil, həmçinin sənətşünasların da ona dərin ehtiramı var.

1965-ci ildə orta məktəbi uğurla başa vuran Fərahim Sadıqov Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (hazırda universitet) filologiya-tarix fakültəsinə qəbul olunub. (Həmin dövrdə bu iki ixtisası bir fakültədə birləşdirmişdilər. Sonra isə ayırdılar) O, təhsil illərində yaxşı oxuyan tələbələr sırasında olmaqla bərabər, institutun bədii özfəaliyyət kollektivinin fəallarından biri oldu. Məşqlərdə, tədris ocağının tədbirlərində, digər yerlərdə verilən konsertlərdə qarmonu həvəslə dilləndirir, getdikcə daha çox tanınır və bir musiqiçi kimi formalaşırdı. Musiqi sənəti ilə məşğul olması əyalətdən gəlib tələbəlik həyatını yaşayan gəncin maddi təminatına əhəmiyyətli dərəcədə kömək edirdi. O, böyük bir külfəti dolandıran atasından maddi təminat almır, Bakı musiqiçiləri arasında tədricən tanınaraq onlarla birlikdə toy-nişan mərasimlərində qarmonçu kimi çıxış edərək özü öz dolanışığı, kitab-dəftərləri üçün xərclik qazanırdı. Hətta ata-anasına da pul göndərirdi. Fərahim Sadıqov tələbə yataqxanasında böyük hörmətə sahib olmuşdu. O, ağlı, fəhmi, bacarığı, təşkilatçılığı, məsləhətləri ilə tələbə yoldaşlarının, dostlarının sevimlisi idi. Yoldaşlarının yorğun anlarında qarmonunu qutusundan çıxarıb sinəsinə sıxır, çalıb hamını sevindirirdi. Gənc qarmonçu tələbəlik illərində yoldaşlarının, müəllimlərin ad günlərində, toy-büsatında çalır, istedadı ilə çoxların rəğbətini qazanırdı. Yay tətili illərində Masallı toylarında da onun qarmonunun səsi gəlirdi.

Fərahim Sadıqov 1967-ci ildə Ukraynanın Berdyansk şəhərində keçirilən VII Ümumittifaq tələbə festivalının laureatı olub.

Hələ lap erkən yaşlardan o, Masallıda yaşayan xanəndələrdən Bağı Ələkbərovu, Şahnəzəri, İsrafil Səfərovu, Kərim Həsənovu, Aşıq Məmmədəlini, Bakıdan dəvət olunan adlı-sanlı xanəndələri və musiqiçiləri toy şənliklərində dinləmişdi. Bütün bunların hər biri onun musiqi yaddaşında qalmış, gələcək fəaliyyəti üçün iz qoymuşdu. O, məşhur Kələntərlilər nəslinin nümayəndələri olmuş, musiqi mədəniyyətimizə adları şərəflə yazılmış xanəndələr Haşım Kələntərli, Minəvvər Kələntərli, Yavər Kələntərli, kaman ifaçısı İsmayıl Talışınski ilə eyni kökdən olmasından şərəf duyur və özünün də ürəyində gələcəkdə yaxşı musiqiçi olması arzusu baş qaldırırdı.

Fərahim müəllim bu yazı müəllifinə belə bir xatirə danışmışdı: "...1964-cü ildə 17 yaşlı yeniyetmə olaraq mən də el şənliklərində iştirak edirdim. Böyük qardaşım Abutalıb o zaman cənub bölgəsinin gənc, ən istedadlı qarmon ifaçısı kimi tanınırdı. O, Masallı musiqiçiləri ilə çox toylarda olurdu, rayonda nüfuz qazanmışdı. Bir dəfə onun dövlət tədbirində iştirakını vacib hesab etmişdilər. Bu səbəbdən o, Qızılağaclı Bağı Ələkbərovla Cəlilabadın Bəcrəvan kəndində olacaqları üçgünlük toy şənliyinin bir gününü keçirməyə məni göndərdi. Əvvəlcə etiraz etdim, xanəndə Bağıdan, onun ad-sanından, dəvət olunduğu sanballı məclisdən çəkindiyimi bildirdim. Abutalıb dedi: – Bağı böyük sənətkar olduğu qədər çox sadə, mehriban, istiqanlı və ünsiyyətli bir insandır. O, Bakıya və digər yerlərə də dəvət olunur, müxtəlif toy dəstələri ilə oxuyur. Bağı səni elə yola verəcək ki, toyun necə başladığını, havaxt bitdiyini hiss etməyəcəksən. Bir dəki, belə böyük sənətkarlarla birlikdə olmasan nə muğamlar öyrənə bilməzsən, nə də qəzəliyyata bələdliyin olmaz. Abutalıbın sözlərindən ürəkləndim və toya getim. Məclisin əvvəlindən axırına qədər hər şey yaxşı idi. Sona az qalmış bir nəfər "Qatar" muğamı sifariş verdi. Rahatsızlığımı hiss edən təcrübəli xa-



Fərahim Sadıqov və Avtandil İsrafilov

nəndə, arif insan Bağı əmi gülümsəyərək, heç nə olmamış kimi "mənə bir də-"Mahur" kökünü ver" deyərək, "Qatar təsnifi"ni oxumağa başladı. Təsnif qurtaran kimi muğamın zil hissəsində bir neçə dəqiqəlik elə qeyri-adi gəzişmələr elədi ki, mən qeyri-ixtiyari olaraq onun nəfəslərini qarmonda bir növ təqlid xarakterli muğam melodiyası şəklində ifa etdim. Məclis əhlindən elə alqışlar qazandım ki, bu günə kimi həmin sevdalı alqışlar mənim xatirimdədir və təxəyyülümdə olduğu kimi yaşayır. Dalınca qeyri-adi bir nəfəs də elədi. Çətinliklə olsa da bu nəfəsi də müşayiət edə bildim. Sonra "Üşşaq" şöbəsində Füzulidən bir qəzəl oxudu. Nəhayət Füzulinin daha bir qəzəli üstündə "Zil-Qatar"la muğamı yekunlaşdırdı. Onun mənə "sağ ol, ay bala, yaxşı müşayiət etdin" deməsi, mənim özümə olan inamımı təsdiqlədi. Görünür təsnifin, muğamın melodiyasını, rəngləri çalmağım onu qane etmişdi. Bir neçə gün məni – XI sinif şagirdini rayonumuzda artıq muğam bilən yeniyetmə kimi barmaqla göstərirdilər."

Fərahim Sadıqov 1968-ci ildə Bakı şəhər Oktyabr (indiki Yasamal) rayonundakı 161 saylı orta məktəbdə musiqi müəllimi işləyib. O, 1969-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (indiki ADPU) müvəffəqiyyətlə bitirib, təyinatla Masallı rayonuna göndərilib və Sərçuvar kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləyib.

Onun öz xatirələrindən: "Taleyimdə mühüm rol oynayan bir hadisəni qeyd etməyə bilmərəm. 1972-ci il idi. Mən Masallı Rayon Maarif şöbəsinə çağırıldım. Şöbənin müdiri mərhum pedaqoqumuz Xurşud müəllimlə maraqlı söhbətimiz oldu. O, qəti şəkildə bildirdi ki, qarşıda gözlənilən respublika festivalında rayonumuzun məktəbliləri də iştirak etməlidir. Sözünə əlavə edərək, o, özünəməxsus təmkinlə dedi: - Sən yaxşı filoloqsan, yaxşı ədəbiyyat müəllimisən. Həm də gözəl musiqiçisən. Rayonda hamı səni yaxşı tanıyır. Ona görə səni çağırmışam ki, istedadlı uşaqları bir

yerə yığıb, bədii özfəaliyyət kollektivini formalaşdırasan. Əgər uşaqlarımız festivalda yaxşı yer tutsalar, onda sənin gələcək fəaliyyətin üçün də yaxşı imkanlar açılacaq.

Üzərimə böyük məsuliyyət qoyulduğunu dərk edirdim. Bütün səy və bacarığımı bu vəzifənin öhdəsindən layiqincə gəlməyə yönəltdim. Tez bir zamanda bədii özfəaliyyət yaratdım. Festivalda uşaqlarımızın uğurlu çıxışları mükafata layiq görüldü. Bu nəticələr Masallı Rayon Partiya Komitəsində müzakirə olundu və əməyimə yüksək qiymət verildi. Məni maarif şöbəsində qiyabi məktəblər üzrə metodist vəzifəsinə irəli çəkdilər.

Elmə olan marağım və həvəsim də elə buradan başladı. Bakıya gəlib aspiranturaya daxil olmaq üçün çoxlu sayda elmi-tədqiqat materialları, jurnallar oxuyur və ciddi şəkildə hazırlaşırdım. Əvvəlcə keçmiş Lenin adına APİ-nin aspiranturasında özümü sınadım. Sonra məsləhət oldu ki, bu ərəfədə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda elan olunmuş müsabiqədə iştirak edim. Mən müvəffəqiyyət qazanaraq bu elm ocağının alimləri sırasında bərqərar oldum."

1965-1975-ci illərdə Masallıda və onun ətraf rayonlarında ən gur toy-düyünlər Fərahim Sadıqov və onun qardaşı Abutalıbın rəhbərliyi ilə keçərdi. Simli alətlər ifaçısı Nizami Mirzəyev də Fərahimin ansamblının tərkibində olardı. Bu toy ansamblı nəinki rayon xanəndələrini, həm də Bakıdan dəvət olunan xanəndələri də müşayiət edərdi.

Fərahimin bacısı Nazilə Sadıqova Masallı şəhər 1 saylı uşaq bağçasında musiqi tərbiyəçisi işləyirmiş. 1972-ci ildə rayonda 8 mart beynəlxalq qadınlar günü təntənəli şəkildə qeyd olunurmuş. Rayon partiya komitəsindən göstəriş verilibmiş ki, bayram tədbirində uşaq bağçasının kollektivi də iştirak etsin. Nazilə xanım qardaşından xahiş edir ki, bu işdə onlara kömək etsin. O, "Göyərçin" jurnalında Mədinə Gülgünün çap olunan şeirini qardaşına verir. Fərahim müəllim "Mənim



Fərahim Sadıqov, Məmməd Hüseynağa Yahyayev, Tofiq Məmmədov və xanəndə Süleyman Abdullayev

anam" adlı şeirə musiqi bəstələyir və bağçadakı istedadlı uşaqlardan birinə öyrədir. Rayon mədəniyyət evində keçirilən təntənəli tədbirdə həmin uşaq pionerlər evi ansamblının müşayiətilə oxuyur. Mahnı da, ifa da çox xoşa gəlir və böyük uğura səbəb olur. Həm musiqinin təsirindən, həm balaca müğənninin "mənim anam" deyib oxumasından zalda əyləşən tamaşaçıların hamısı ağlayırmış. Həmin uşaq həyata gələrkən anası dünyasını tərk edibmiş.

Fərahim Sadıqovun bəstəkarlıq fəaliyyəti bununla bitməmiş, Bakıdakı musiqiçilərlə çalışdığı dövrdə on beşə qədər mahnı yazmışdır. Misal olaraq "Yara qurban olum" mahnısını göstərmək olar. Mahnının ilk ifaçısı müğənni Rafiq Məmmədov olmuşdur. Sonralar isə bu mahnı populyar olmuş və digər müğənnilərin də repertuarında özünə yer tutaraq bu günə qədər yaşamışdır.

Fərahim müəllim Bakı musiqi mühitində özünə nüfuz qazanaraq xanəndələr İslam Rzayev, Arif Babayev, Əvəzxan Xankişiyev, Həbib Rəhimov, Rafiq Məmmədov, klarnet ifaçıları Zabit Əfəndi, Fərhad Hüseynov, Ədalət Mövsümov, Məhərrəm Zeynalov, Hacı Həmidoğlu, Akif Qürbətov və digərləriləBakıda, rayonlarımızda toy-büsatımıza rövnəq vermişdir. O, ən çox Əvəzxan Xankişiyevlə toy yoldaşlığı etmiş, Bakının, Şirvanın, Muğanın hər yerində qarmonu ilə el şənliklərini bəzəmişdir. Toylarımızda o, həm də hikmətli sözlər, şeirlər, qəzəllər, bəhri-təvillər söyləməsi, bədii söz ustalığı ilə seçilmiş, yadda qalmışdır.

Bacarıqlı qarmon ifaçısı radionun fonduna oyun havaları və "Humayun" muğamını yazdırmışdır. O, "Humayun"u 27 yaşı olarkən ifa etmişdir. İsfəndiyar Coşqundan sonra ikinci qarmon ifaçısı idi ki, bu muğamı radio fonduna təqdim edirdi. Onun bəstələdiyi "Məzəli rəqs", "Masallı", "Rahimi", "Lirik rəqs", "Təbrizi", "Miyanə" rəqsləri, "Şursayağı" adlı melodiyası və "Şüştər rəngi" də melodik baxımdan çox gözəldir. "Rahimi", "Miyanə rəqsi" və "Tello" radio fondu üçün lentə alınmışdır. O, şeir yazmaqla da qələmini sınamışdır. "Ana", "Yalan", "Ürək", "Şərab və insan", "Ay qız" və s. şeirlərin adlarını çəkə bilərik.

Fərahim Sadıqov Azərbaycan Televiziyasının birinci proqramında 14 il apardığı "Örnək" və "Kamillik" adlı verilişlərin 100-dən artıq ssenarisini yazmışdır. Onun yeddi hekayəsi, beş dram əsəri vardır. Sözün həqiqi mənasında da bu adam Allah vergisinə sahibdir. O, olduqca səmərəli və məhsuldar yaradıcılıq yolu keçmişdir.

Fərahim müəllim 1980-ci illərdə 8 saylı musiqi təmayüllü internet məktəbin x.ç.a. şöbəsinin müdiri işləmiş və qarmon sənətindən dərs demişdir. Elə burada çalışarkən qarmonun tədrisi üçün vəsait hazırlamış və 1985-ci ildə çap etdirmişdir. O, 1984-cü ilin dekabr ayında Tbilisi şəhərində "Məktəb özfəaliyyət musiqi dərnəklərinin təşkili, məzmunu və formaları" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib, alimlik dərəcəsi almışdır. Həmin vaxtdan Fərahim müəllim ifaçılıqdan uzaqlaşmış və bütün fəaliyyətini elmə və yaradıcılığa yönəltmişdir.

Onun həyat və yaradıcılığının digər əsas tarixlərini ardıcıllıqla təqdim edirik:

1985-1991-ci illərdə Azərbaycan Dövlət Dillər İnstitutunun pedaqogika kafedrasında müəllim kimi fəaliyyət göstərmişdir.

1986-cı ildə (26 iyun) Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda baş elmi işçi vəzifəsinə təyin edilmişdir.

1988-ci ildə həmin institutda pedaqogika nəzəriyyəsi və tarixi şöbəsində baş elmi işçi vəzifəsinə seçilmişdir.

1992-ci ildə Rusiya Ali Attestasiya Komissyasının birdəfəlik müdafiə şurasında "Uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin nəzəriyyəsi və praktikası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1992-ci ildə Moskva şəhərində Dünya Müsəlman Ölkələri Uşaqlarının Beynəlxalq festivalında Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyətinin rəhbəri olmuş, xüsusi diplomla layiq görülmüşdür.

1993-cü il yanvar ayından 2006-cı ilə qədər Azərbaycan Dövlət Televiziyasının "Tədris və maarifçilik baş redaksiyası"nın xətti ilə "Örnək" və sonra "Kamillik" verilişlərinin müəllifi və aparıcısı olmuşdur.

1993-2001-ci illərdə Bakı Özəl Universitetini ("Naxçıvan" Universiteti) təsis etmiş və həmin universitetə başçılıq etmişdir.

1994-cü ildə Azərbaycan Respublikası "Bilik" Cəmiyyətinin qərarı ilə akademik Yusif Məmmədəliyev adına Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

1995-ci ildə Azərbaycan Pedaqoji Kadrların Təkmilləşdirilməsi, İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutunun Təhsilin təşkili və idarə edilməsi kafedrasının professoru seçilmişdir.

1996-cı ildə (24 sentyabr) Məktəbdə təlim-tərbiyə prosesinin yeniləşməsi sayəsində səmərəli praktik və elmi fəaliyyətinə, yüksək nailiyyətlər qazandığına görə, akademik Mehdi Mehdizadə mükafatı laureatı adına layiq görülmüşdür.

1967-2007-ci illərdə Moskva, Leninqrad (Sankt-Peterburq), Ukrayna (Kiyev, Sumu, Xarkov, Lvov, Puskaveç, Donetsk. Odessa və s.), Belorusiya, Moldova, Latviya, Litva, Estoniya, Gürcüstan, Tacikistan, Simferopol, Krasnodar, Dağıstan, Osetiya, Acarıstan, Çeçenistan, Dərbənd və keçmiş SSRİ-nin digər yerlərində elmi ezamiyyətlərdə olmuşdur.

1998-ci ildə (oktyabr) Almaniya (Bonna, Münhen, Frankfurt-Mayn, Visbaden), Fransa (Paris) və Belçikada elmi ezamiyətlərdə olmuşdur.

1998-ci ildə M.Müşviqin yaradıcılığının tədqiqi və təbliğinə görə Mikayıl Müşviq mükafatı laureatı adına layiq görülmüşdür.

1998-ci ildə Azərbaycan Pedaqoji Kadrların təkmilləşdirilməsi, İxtisasının artırılması İnstitutunun Pedaqogika kafedrasına yenidən professor seçilmişdir. İtaliyada elmi ezamiyyətdə olmuşdur.

1999-cu ildə (28 iyun) Azərbaycan Respublikası Qızıl Aypara Cəmiyyəti İcraiyyə Komitəsinin qərarı ilə şəhid və köçkün ailələrinə, əlillərə, kimsəsiz və imkansızlara göstərdiyi köməkliklərə görə Cəmiyyətin fəxri fərmanına layiq görülmüşdür.

1999-2001-ci illərdə Ərəb ölkələrində ezamiyyətdə olmuşdur. (Abu-Dabi, Əyman, Dubay, Füceyra, Qatar, Əmman, Bəhreyn)

2000-ci ildə Beynəlxalq Türk Akademiyasının həqiqi üzvü seçilmişdir.

2000-ci ildə (17 yanvar) Azərbaycan Jurnalistlər Həmkarlar İttifaqı (Azərbaycan KİVİHİ) Rəyasət Heyətinin qərarı ilə tələbə gənclərin Azərbaycan bayrağına, gerbinə və himninə sədaqət ruhunda tərbiyə edilməsində təşkilatçılıq uğurlarına və elmi-pedaqoji nailiyyətlərinə görə Azərbaycan Bayrağı mükafatına layiq görülmüşdür.

2001-ci ildə Beynəlxalq Lütfi Zadə Assosiasiyasının Ali Şurasına seçilmişdir.

Türkiyədə elmi ezamiyyətdə olmuşdur.

2001-ci ildə Hollandiyada (Amsterdam şəhərində) elmi ezamiyyətdə olmuşdur.

2001-ci ildə Daşkənd şəhərində Beynəlxalq Lütfi Zadə Assosiasiyasının xəttilə elmi ezamiyyətdə olmuşdur.

2002-ci ildə Azərbaycan Dövlət Dillər Universitetinin "Pedaqogika" kafedrasının professoru təyin edilmişdir.

2002-ci ildə Moskva şəhərində elmi ezamiyyətdə olmuşdur.

2005-ci ildən Bakı Elm və Təhsil Mərkəzinin prezidentidir.

2006-cı ildə Azərbaycan Universitetinin rektoru təyin edilmişdir.

2007-ci ildə ABŞ-da beynəlxalq konfransda iştirak etmişdir.

Professor F.Sadıqovun rəhbərliyi altında 10 nəfər namizədlik, 2 nəfər doktoruluq dissertasi-



Professor Fərahim Sadıqov

yasını müdafiə etmişdir. O, 83 kitabın və 800-dən çox elmi məqalələrin müəllifidir.

Professor F.Sadıqov "Milli pedaqogika məktəbi" jurnalının baş redaktorudur. 1996-cı ildə ABŞ-ın Knoksvel ştatının fəxri vətəndaşı seçilmişdir.

Yorulmaq bilmədən çalışan, musiqimizə, muğamımıza qəlbən bağlı olan, bu sahədə elmi araşdırmalar aparan professorun 2011-ci ildə "Maarif" nəşriyyatında 256 səhifəlik "Muğam" kitabı işıq üzü görmüşdür. Ali məktəblərin muğam ixtisasında təhsil alan tələbələr üçün dərs vəsaiti kimi nəzərdə tutulan bu kitabdan şagirdlər, müdavimlər, müəllimlər, valideynlər, tədqiqatçılar və müxtəlif zümrələrdən olan muğam həvəskarları da istifadə edə bilərlər. Əsərdə muğamlarımızın yaranma tarixi, təşəkkül dövrü, muğamların adlarının, şöbə və guşələrinin izahı, məzmunu emosional təsir gücü və bu janra aid olan incəliklər haqqında səhih məlumat verilir. Onun 2013-cü ildə nəşr olunan "Qarmon ifaçılığında muğam" kitabı da ("Adiloğlu" nəşriyyatı, 2013, 140 səh.) çox dəyərli və tədris üçün əhəmiyyətlidir.

Fərahim Sadıqov 1969-cu ildə qrup yoldaşı Suriyyə xanımla ailə qurub. Suriyyə xanım ali dərəcəli müəllimədir. Sevgi ilə qurulan bu ailədə üç uşaq tərbiyə alıb böyüyüb.

Ailənin yeganə qız övladı Təranə Müslümova biologiya elmi üzrə fəlsəfə doktoru, böyük oğul Rahim Sadıqov iqtisad elmləri üzrə fəlsəfə doktoru, Rasim Sadıqov isə polis mayorudur. Fərahim Sadıqovun altı nəvəsinin hər biri zehinli, bilikli, elmə meyilli uşaqlardır. Onların hər birinə xoşbəxtlik və nailiyyətlər arzulayırıq.

2.40. İSTEDADI BÖYÜK, TALEYİ KƏM OLDU...



Həmid Haqverdiyev

O, böyük istedad sahibi olsa da, tale üzünə gülmədi. Bəxtsizlik axarında sənətdən və həyatdan çox erkən getdi. Bu gün orta və gənc nəsil nümayəndələri onu tanımır, lakin yaşlı nəslin musiqiçiləri belə bir sənətçini çox yaxşı xatırlayırlar. Axı onlar öz dövründə qarmon aləminə yeni nəfəs, yeni təravət, yeni güc-təpər gətirmiş bir istedadlı gənci necə unuda bilərlər?

Həmid Əbdürrəhman oğlu Haqverdiyev 1947-ci il yanvar ayının 26-da Bakıda anadan olub. Onların əsil-nəcabəti Xızı mahalının Fındığan kəndindəndir. Bu kənd Azərbaycanımıza böyük ziyalılar bəxş edib.

Həmid 1954-1964-cü illərdə 161 saylı orta məktəbdə təhsil alıb. Bunu əla qiymətlərlə bitirib. 1964-cü ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun neft-mexanika fakültəsinə daxil olub və buranı böyük uğurla, qırmızı diplomla mühəndis ixtisası üzrə bitirib.

Oçerkimizin qəhrəmanı hələ orta məktəbin aşağı siniflərində oxuyarkən, özü sərbəst olaraq qarmon çalğısını öyrənmişdi. Sonralar bu işin onda yaxşı alındığını görüb-dinləyən dost-tanış, qohum-əqrəbanın marağı, tərif dolu sözləri onu sənət aləminə bir addım da yaxınlaşdırmışdı. Atası onun həvəsini görmüş, duyğularını, qabilliyyətini hiss etmiş, oğlunu ustad yanına şagird qoymaq qərarına gəlmişdi. Əbdürrəhman kişi Azərbaycan Dəmir Yolu İdarəsində çalışırdı. O, Azərbaycan ərazisində və ondan kənarlarda hərəkət edən qatarlarda vaqon bələdçisi işləyirdi. Yaxşı pul qazanırdı. Özü də çox abırlı-hörmətli kişi idi. Cəmiyyətdə tanınırdı. Qohum-qonşuda, kəndçiləri və iş yoldaşları arasında ağsaqqal kimi qəbul olunurdu. Onu əksər Bakı musiqiçiləri də tanıyırdılar. Əbdülrəhman məşhur qarmonçalan Məmmədağa Ağayevlə də yaxşı münasibətdə idi. Odur ki, o, oğlunun Məmmədağa Ağayevdən dərs alması arzusunda oldu. Beləliklə məktəbli Həmid 13 yaşından başlayaraq bir neçə il Məmmədağa Ağayevin İşərişəhərdəki evinə getmiş və canı qədər sevdiyi peşənin incəliklərini, xırdalıqlarını, muğamları və çətin ifa olunan xalq havalarını öyrənmişdi. Ustad sənətkar ona çox şey öyrətmişdi. O, öz işindən zövq alırdı. Çünki Həmid onun göstərişlərini dərhal qavrayır, çalğısı ilə müəllimin tələbinə cavab verirdi. Beləliklə Həmid ustadının ən sevimli tələbələrindən biri oldu. Sonrakı dövrlərdə onlar arasında hətta möhkəm dostluq yaranmışdı. Məmmədağa Ağayev Həmidi digər yetirmələrinə nümunə göstərirdi. Hörmət və məhəbbət qarşılıqlı idi. Həmid ustadı ilə fəxr edirdi.

"Gül dəstəsi" – qarmonda çalır Həmid Haqverdiyev. Bu kəlmələri radio dinləyiciləri ilk dəfə 1962-ci ildə eşitmişdilər. Adı çəkilən rəqs melodiyası gənc ifaçının öz bəstəsi idi. Bu rəqs havası Azərbaycan radiosunun fonduna qəbul olunmuşdu. Səkkizinci sinif şagirdi, 15 yaşlı gənc öz yaşına uyğun olmayan tərzdə, əsl peşəkar ifaçılıq qaydaları ilə, şirin barmaqlarla çalmışdı. O, çox erkən yaşlarda özünü təsdiq etmiş, sənətdə öz yerini tapmışdı. Tanış musiqiçilər onu özlərilə toy-

nişana da aparırdılar. Bəs necə? Axı o bu işin öhdəsindən gələ bilirdi. Lakin Həmid toylara getməyə elə də meyilli deyildi. Onun məqsədi mükəmməl sənət öyrənərək qabağa çıxmaq, məktəbdə "əlaçı" adını qoruyub saxlayaraq dərin bilik alıb ali məktəbə qəbul olmaq idi. Elə valideynlərin də arzusu onu ali təhsilli, ixtisaslı bir vətəndaş, həm də yaxşı sənətkar kimi görmək idi. Həmid öz arzularını ata-ananın niyyətlərinə qataraq, ali məktəbə qəbul olmuşdu.

Gənc tələbə ilk günlərdən təhsilə ciddi yanaşmış, elmin sirlərinə yiyələnmiş və yaxşı oxuyanlar sırasına qoşulmuşdu. O, həm də institutun xalq çalğı alətləri ansamblının ən fəal üzvlərindən biri idi.

Yazı müəllifi kimi bildirirəm ki, Həmid adlı istedadlı qarmonçu barədə ilk dəfə 1970-ci ildə sənət dostum, tar ifaçısı Sübhan Əzizovdan eşitmişəm. Onun xatirələrindən: "Mən 1967-ci ildə Neft və Kimya İnstitutuna qəbul olunmuşam. 1968-ci ildə yeni tədris ilindən institutun xalq çalğı alətləri ansamblına üzv yazılaraq bu kollektivdə tar çalmağa başladım. Ansamblın rəhbəri tarzən Fərhad Paşayev idi. Həmidlə tanışlığımız buradan başladı. O, ansamblın çox mahir qarmonçalanı idi. Sənət fədaisi olan bu adam məşqlərimiz zamanı bir dəqiqə də boş dayanmır, ele hey çalırdı. Fasilə veriləndə də onu məşq edən görürdük. Samballı çalğısı, iti barmaqları var idi. Onu dinləmək adama zövq verirdi".

Mahir nağara ifaçısı Rafiq Budaqovun (ləqəbi Eysebio) söylədikləri: "Mən 1969-1971-ci illərdə Həmidlə birlikdə Neft və Kimya İnstitutunun mahnı və rəqs ansamblında çalışmışam. Elə o vaxtlardan özünü yaxşı qarmonçalan kimi göstərmişdi. Tələbəlik illərində o, musiqiçilər, xanəndələr toplaşan filarmoniya bağına gələrdi. Dərslərdən sonra gəldiyi üçün daim əlində portfel olardı. Onunla toylara çox getmişik. 1967-ci ildən onun həbsinə qədər şənliklərdə çalmışıq. Klarnetçalan Bayram, mən və Həmid Bakıda və Sumqayıtda toy-nişanda çalardıq. Toyların əksə-



Sağdan: Balakərim, Həmid Haqverdiyev, Əyyub, Fərman Hüseynov, Nizami Allahverdiyev və Tənha Qiyasov

riyyəti Sumqayıtda olurdu. Bunun da əsas səbəbi Bayram Vəliyevin orada sevilən sənətkar olması və Həmidgilin dağlı qohum-qəbiləsinin əksəriyyətinin Sumqayıtda yaşaması idi. Həmidin atası və Həmidgilin dağlı qohum-qəbiləsinin əksəriyyətinin Sumqayıtda yaşaması idi. Həmidin atası qohum-əqrəbanın ağsaqqalı və hörmətli şəxsi sayılırdı. Bütün qohumlar öz toylarını Həmidlə vədələşirdilər. Bir yandan Bayramla, bir yandan Həmidlə danışılan toylar çox olduğu üçün işimizin qaynar, sənətimizin məhsuldar dövrü idi. Həmid bir sənətkar kimi toylarda daha da yetişdi".

1968-ci ildə Moskvanın "Melodiya" firmasının Tbilisi şəhərindəki filialı Həmid Haqverdiyevin qrammafon valını buraxaraq geniş yaymışdır. Sənətkar burada "Qarabağ", "Güləri", "İlahə", "İlhamı" rəqslərini çalmışdır. Bunlar onun öz işləmələri, öz bəstələri idi. Bu ifaların nağara müşayiətçisi Almaz Quliyev olmuşdur. Könül oxşayan bu rəqslər radio fonduna daxil edilmişdir. Həmin melodiyaların hər biri o dövr üçün həddindən artıq maraqlı və orijinal ifalar idi. 21 yaşlı bir gəncin belə səviyyəli işi diqqəti çəkmiş və böyük marağa səbəb olmuşdur.

Onu xüsusi qeyd edirik ki, onun çaldığı "Qarabağ" rəqsi dərhal sevilmiş, populyar olmuş və bütün gənc qarmonçalanların və o sıradan bu yazı müəllifinin repertuarında özünə yer almışdı. Həmin rəqs havası sonralar "Hop-stop" adı ilə klarnet ifaçılarının repertuarında əks olunaraq uzunömürlülük "vəsiqəsi" almış, toylarda daim ifa olunmuş və bu günümüzə qədər gəlib çatmışdır.

Məharətli qarmonçalan Teyyub Teyyuboğludan aldığımız müsahibə: "Mən Həmidlə çox yaxın olmuşam. Onun ifasını bəyənmişəm. Çalğısında sərbəstlik, aydınlıq, çeviklik və güc var idi. Qarmon sənətinə yeni üslubla gəlsə də, bu ifalarda milli forma da özünü əks etdirirdi. Öz ifasında akkordeonda olduğu kimi birinci barmağın (baş barmaq) istifadəsinə də yer verirdi. Bəzən ifanı başlayan andan, bəzən də çalğının ortasında müəyyən mürəkkəb cümlələrdə baş barmaqdan ustalıqla istifadə edirdi. O dövrdə qarmon çalğısında bu kimi işlər də yenilik idi. Qarmonun klassik ifaçılıq ənənəsində, milli üslubda, elə bizim yaşıdların sənətə gəldiyi anlarda birinci barmaqdan istifadə olunmayıb. Lakin bizim bu sənətdə tanındığımız anlarda istisnalar var idi. Aftandil, Həmid, mən və bir neçəsi baş barmaqla ifaya meyl etmişik.

Mən Ağası Məşədibəyovun Azərbaycan Dövlət Filarmoniyasında yaratdığı xalq çalğı alətləri ansamblının qarmonçalanı idim. Odur ki filarmoniyanın binasına daxil ola bilirdim. Həmidi də içəri buraxdırırdım. Fortepiano olan geniş otağa gedib, orada bir neçə saat məşq edirdik. Mən piano arxasına keçib onu müşayiət edirdim. O, bilirdi ki, mən musiqi məktəbində yeddiillik fortepiano sinfini bitirmişəm. Odur ki, məndən xahiş edirdi onu müşayiət edim. Hər dəfə qarmonu götürüb filarmoniyaya mənimlə məşq etməyə gələndə onda sevinc hissləri özünü biruzə verirdi. Musiqi təhsili aldığım üçün harmoniyaya bələd olmuşdum. Həmid, çalğısının fortepianoda harmonik akkordlarla müşayiət olunmasından ruhlanır, ilhama gəlir və ifasında qəribə, çox maraqlı gəzişmələr meydana çıxırdı. Deyirdi: -Ay Teyyub, sənin akkordların beynimə yeni fikirlər gətirir, bədahətən təzə cümlələr, çalğı yolu gəlir ağlıma.

Deyim ki, Həmidin çalğı manerası, zəngin gəzişmələri mənim çox xoşuma gəlirdi. O, həm də Teyyub Dəmirovun, Məmmədağa Ağayevin rəqslərini mükəmməl bilir və bəzən bunları elə əla tərzdə çalırdı ki, adam mat qalırdı. Bu kimi rəqslərdə təbii ki, onun öz çalğı manerası, öz üslubu, geniş imkanları daxilində daha cazibədar və yar-yaraşıqlı səslənirdi.

Bizim filarmoniyadakı məşqlərimiz dörd-beş dəfə təkrar olunmuşdu və hər ikimiz bu işdən zövq almışdıq".

Həmid Haqverdiyev qarmon sənətinin parlaq simalarından birinə çevrilmişdi. O, o dövrdə nəinki özündən sonra meydana çıxan qarmonçuların; hətta öz yaşıdlarının diqqətini özünə cəlb etmiş və onlar üçün bir nümunə olmuşdu. Onun öz çalğı üslubu tez bir zamanda öz təstiqini tapmış və qəbul olunmuşdu. Onun ifalarını maqnitofon lentlərinə yazıb öyrənməyə başlamışdılar. Həmidin ifaları keçmişlə bu günü birləşdirir desək, səhv etmərik. Həmidin ifa tərzi qarmon sənətimizin keçmişi və bu günü arasında möhkəm bir körpüdür. Artıq son on-on beş ildə qarmon

ifaçılarımız Həmidin sənət izini tapmış, onun ifa yoluna üz tutmuş, orada onlara lazım olan cəhətləri əxz edərək öz çalğı maneralarına gətirmişlər. Onun öz yaradıcılıq məhsulu olan rəqslərin bir neçəsi qarmon repertuarına daxil olmuşdur. Belə melodiyalardan ən zəngin çalarlısını, cəld barmaqlarla çalınanını "Həmidi" rəqsi adı ilə çoxları ifa edir.

Həmid Haqverdiyevin beş, müxtəlif illərdə lentə yazılmış on ifası: "Qoçəli", "Gül dəstəsi", "Şən rəqs", "Rəqs melodiyası", "Qazağı", "Aygül", "Kolxoz", "Təbəssüm", "Şalaxo", "Tərəkəmə" adlı oyun havaları və "Şur" muğamı Azərbaycan Dövlət Səsyazıları Arxivində qorunur. Görkəmli sənət adamlarımızın nadir ifaları toplanmış lentlərin qorunmasında həmin idarənin rəisi Yaqub Mədətova yalnız minnətdarlıq etməliyik. Belə arxiv idarələri keçmiş SSRİ-nin bütün respublikalarında mövcud olmuşdur. Lakin, hazırda bu yalnız Moskva və Bakı şəhərlərində qorunub saxlanılır.

Həmid Haqverdiyev savadlı, elmli şəxs olduğu üçün ədəbiyyata, şeyriyyətə də bələd idi. Müşviqin yaradıcılığını çox sevirdi. O, sevimli şairin əksər şerlərini əzbər bilirdi. "Musiqi sənincün nədir?" –dedikdə buna Müşviqin şeri ilə cavab verirdi. Onda daxilən kövrəklik də var idi.

Həmid lap az, cəmi 33 il yaşadı. Lakin, qarmon ifaçılığında öz izini qoyub getdi. O, çox çılğın, haqsızlıqla barışmayan, söz götürməyi bacarmayan, əyilməyən, inadkar bir adam idi. Məhəlləmizdən, tay-tuşlarından biri, vəzifəli şəxsin övladı onu təhqir etmişdi. Buna dözməyən Həmid onu qətlə yetirmişdi. Öldürülən oğlanın adamları hakimdən ölüm cəzası tələb edirdilər. O zamanlar cinayət məcəlləsində ölüm hökmü mövcud idi və Həmid bununla cəzalandırıla bilərdi. Lakin, görünür savadlı, elmli olması, orta və ali təhsili yüksək göstəricilərdə başa vurması və ilk dəfə cinayət törətməsi nəzərə alındığı üçün ona, cəzasını xüsusi rejimli islah-əmək müəssisəsində çəkməklə uzunmüddətli iş kəsilmişdi. Beləliklə sənət fədaisi olan, həddən artıq istedadlı bir insanın ifaçılıq karyerası bəlcə bitdi. Həyatı isə, o, ikinci dəfə həbsxana divarları arasına düşərkən sona yetdi.

Məşhur qarmonçalan-müğənni Hüseyn Həsənovdan aldığımız müsahibə: "Mən Respublika müəllimlər evinin özfəaliyyət xalq çalğı alətləri ansamblında çalırdım. Rəhbəri tanınmış tarzən, əməkdar artist Baba Salahov olan bu ansambl "Arzu" adlanırdı. Baba müəllim həm də Azərbaycan Teleradio Verlişləri Komitəsinin "Araz" xalq çalğı alətləri ansamblına da rəhbərlik edirdi. Bu ansamblı da o, özü yaratmışdı və burada qarmon ifaçısı Aftandil İsrafilov idi. 1967-ci ildə Aftandil Azərbaycan incəsənət ustalarının tərkibində Hindistana səfər etmişdi. Baba Salahov mənə dedi ki, televiziyada konsertimiz var. Aftandil burada yoxdur, məşqə gəl, konsertə çıxaq."

Mən əvvəl Aftandilin yerinə televiziyaya çıxmağa cürət etmədim. Fikrimi də ona bildirdim. Lakin, sonra müəllimimizin sözünü yerə salmayıb razılıq verdim. Cəmi bir dəfə məşq edib canlı çıxışa getdik. Ansambl xalq artisti Sara Qədimovanı müşayiət edirdi. Onun repertuarında "Segah təsnifi" də var idi. Bunu "do" kökündə oxuyurdu. Təsnifin arasında "Segah"ı mən çalırdım və müğənnini müşayiət edirdim. Bu Baba müəllimin tapşırığı və Sara xanımın razılığı ilə olmuşdu. Özüm də hiss etdim ki, canlı çıxışda solam yaxşı alındı.

Konsertin səhəri günü filaroniyanın bağına gəlmişdim. Sənətkarlar üç-bir, dörd-bir, toplanıb söhbət edirdilər. Onu da deyim ki, o vaxta qədər musiqiçilərin toplaşdığı bu məkana demək olar ki gəlmirdim. Çox adamı tanımırdım axı.. Bağa daxil olub tanıdığım musiqiçilərə yaxınlaşıb dayanmışdım ki, bir nəfərin mənə tərəf gəldiyini gördüm. O, diqqətlə üzümə baxıb soruşdu: -Dünən yanmışdım ki, bir nəfərin mənə tərəf gəldiyini gördüm. O, diqqətlə üzümə baxıb soruşdu: -Dünən televiziya konsertində Sara Qədimova üçün muğam çalan sən idin? "Hə" cavabı aldıqda çalğının, ifa tərzinin xoşuna gəldiyini bildirdi. Onu da dedi ki, o, həmin anda müəllimi Məmmədağa Ağayevin evində imiş və konsertə birlikdə tamaşa edirlərmiş. Məmmədağa Ağayev maraqlanıb ki, göyəsən bu cavan oğlan kimdir? Həmid söylədi ki, müəllimin sualına görə ekrana yaxınlaşdım ki, qarmonçalanın kim olduğunu təyin edim, lakin tanıya bilmədim.

17 yaşlı bir qarmonçalanın o dövrdə "Do" tonallığında "Segah" çalması, üstəlik televiziyada,

canlı çıxışla belə sərbəst bacarıq göstərməsi maraqlı hadisə idi.

Həmid öz adını dedi, tanış olduq. Mən də çox sevindim ki, belə mahir bir qarmon ifaçısı, tanınan şəxs mənimlə maraqlandı, çalğıma qiymət verdi. Fərəhimə səbəb olan bu tanışlıq yaxın əlaqələrimizi yaratdı, yoldaşlıq etdik və az sonra dost olduq. Tez-tez evlərinə gedib, üzbəüz əyləşib onu diqqətlə dinləyirdim. Onun çalğısı həddən artıq cəlbedici idi. Maraqlı cəhətin biri də o idi ki, Həmid öz ifalarını sol əldə akkordlarla çox gözəl müşayiət edirdi. O, sağ əl ilə çaldıqlarının sol əlin akkordları ilə ritmini tuturdu. Yarımtonlarda işləməyi çox sevirdi. Texniki imkanlara meyl edirdi və özünü çətinləyə alışdırırdı. Mən etiraf edirəm ki, onun sənətindən bəhrələnmişəm. Mənim sənət inkişafımda onun da sənət təsiri olub. Həbsxanaya düşənə qədər onunla sənət əlaqələrində və fikir mübadiləsində olmuşam. Heyf, çox heyf ki, nümunəvi qarmon ifaçısının taleyi belə oldu. O, qarmon sənətinin inkişafı üçün çox iş görə bilərdi. Bu adam sənətə ildırım sürəti ilə gəlmişdi. O, sənətindən zövq alırdı.

Bir dəfə filarmoniyanın bağında eşitdim ki, müğənni Mais Məmmədov (1939-1998) həbsxanada konsert vermək üçün qrup yığır. Maraqlandım və bildim ki, Həmidin olduğu cəzaçəkmə müəssisəsinə gedəcəklər. Həmidi görmək istədiyim üçün məni də qrupa daxil etməsini Maisdən xahiş etdim. Məlum oldu ki, konsert qrupunda qarmonçalan var, bu Xanlar Qabribovdur. Maisə dedim ki, Xanlar həm də pianoçudur. O, ansamblda piano çalar, mən də qarmonu ifa edərəm. Əgər oradakı səhnədə piano olmasa Xanlar elə qarmon çalar, mən solist kimi bir neçə solo ifa edərəm. Təki imkan olsun ki, mən ora gedim və dostum Həmidi görüm. Razılaşdıq və məhbuslar üçün konsertə getdik.

1 saylı cəzaçəkmə müəssisəsinə çatarkən oranın rəisinə birinci sualım bu oldu ki, Həmid hanı? O da bildirdi ki, Həmid bizim tədbirlərdən yayınır. Rəis sözünə davam edərək dedi: -Mən çox istəyirəm ki, Həmid mənim otağımda qarmon çalsın, onu dinləyim. Mən musiqi vurğunuyam. Həmidin sənətini də çox sevirəm. Ona deyirəm ki, evdə köhnə qarmonumuz var, onu yaxçıca təmir etdirim və gətirib qoyum bu otağa, ürəyin istəyəndə gəl çal. Sən məşq elə ki, sənətini yadırğamayasan, mən də dinləyim, xoşhal olum. O isə razı olmur.



Filarmoniyanın bağında. Soldan üçüncü Həmid Haqverdiyev

Konsertimiz çox maraqlı keçdi. Məhbuslar arasına göz gəzdirdim. O da zalda əyləşmişdi. Baxışlarımızla salamlaşıb görüşdük.

Tədbirdən sonra islah-əmək müəssisəsinin rəisi konsert qrupu üçün öz otağında çay və şirniyyat süfrəsi düzəltdirmişdi. Bizi ora dəvət etdi. Rəisdən Həmidin də dəvət olunmasını təvəqqe etdim. O, razılıq verdi və onu da əlavə etdi ki, Həmid gəlsə də qarmon çalmayacaq. Söylədim: -Rəis, o, bizim ən yaxın sənət dostumuzdur, xahiş edərik bir şey çalar. Şəxsən mənim özüm üçün onun ifasını eşitmək çox maraqlıdır.

Həmidi çağırtdırdılar, gəldi, görüşüb, hal-əhval tutub söhbətləşdik. Hamı onu dinləmək arzusunda olduğunu bildirdi. O isə razılaşmadı. Belə olduqda onu bir kənara çəkdim, dost kimi xahiş etdim, sənətinə həsrət qaldığımı və dinləmək istədiyimi dilə gətirdim. Həmid sözümü qəbul etdi və qarmonu götürdü. Həbsə düşdüyü vaxtdan o ana qədər əli qarmona dəyməmişdi. İndiyə qədər yadımdadır ki, alətdə bir az gəzişmələr edib barmaqlarını açandan sonra "Laçın" xalq mahnısını, ardınca "Zemfira" rəqsini çaldı. Onun ifasının ilk cümləsindən son akkorduna qədər hönkürüb ağladım. Hiss edirdim ki, həyəcanlanır, kədərli anlar yaşayır və pərt olur. Vallah, çox təsirli səhnə idi. O, əvvəlki virtuoz çalğısını göstərə bilmirdi.

Mən ona məsləhət gördüm ki, müəssisə rəisi ilə yaxın olsun, sözünü eşidib, onun otağında məşq eləsin ki, ifasını yadırğamasın. O isə bildirdi ki, bunu heç vaxt etməyəcək. Həbsxananın öz qayda-qanunları, dustaqların öz düşüncəsi, öz psixologiyası, öz fikirləri və hər işə öz baxışı var. Rəhbərliyin otağına gedib gəlməyimə pis baxacaqlar, məni onların adamı sayıb, içəridən bayıra xəbər aparıb-gətirən kimi qələmə verəcəklər.

Bu Həmidlə mənim sonuncu görüşüm idi. Sonrakı taleyindən isə xəbərim olmadı".

Müəllifdən haşiyə: "Bakı Elektrik Maşınqayırma zavodunun mədəniyyət və texnika sarayında qarmon sinfinin müəllimi işləyirdim. Həm də burada qardaşım Rəhmanın rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında qarmon çalırdım. Ansamblda çalmaqda məqsəd həm qardaşıma kömək etmək və həmçinin müntəzəm məşqlərdə olaraq sənət formamı qorumaq idi. Bizim ansambl dövlət bayramlarında Isaylı islah-əmək müəssisəsinə konsertlərə göndərirdilər. Çünki, zavodun bir sexi həmin müəssisədə idi. Məhbuslar həmin sexdə BEMZ-də hazırlanan elektrik motorları üçün müəyyən hissələr hazırlayırdılar. Odur ki, zavodun mədəniyyət sarayı həmin islah-əmək düşərgəsinin bayram tədbirlərini himayə edirdi.

Növbəti tədbir Sovet dövlətinin 7 noyabr bayramı ilə əlaqədar idi. Oru konsertə gedirdik. Müəyyən bir iş ardınca rayona göndərilən qardaşım Rəhmanı ansamblın rəhbəri kimi mən əvəz etməli oldum. Ansambl topladım, məşqləri edib, konsert proqramını hazırladım. 1 saylı həbs düşərgəsinə gedəcəyimizi eşidən tarzən Əfqan İbrahimov onun da konsertə aparılmasını xahiş etdi. Mən razılıq verdim. Konsert günü görüş yerinə o, məshur müğənni Zaur Rzayevlə gəldi. Onlar yaxın dost və qohumdurlar. Əfqanın kiçik qardaşı da həmin həbsxanada cəza çəkirdi. Konsertə daha səviyyəli heyətlə gedirdik. Həbsxanada Əfqangil həm qardaşı, həm də Həmidlə görüşdülər. Düşərgənin klubunun səhnəsində səsgücləndirici cihazları quraşdırıb, səhnə arxasında artistlər üçün mövcud olan otaqda simli alətləri kökləyənə qədər onların əziz adamları ilə görüşməsi üçün yaxşı imkan yaranmışdı.

Yeri gəlmişkən fikir söyləməliyəm ki, Zaur Rzayev populyarlaşdığı ilk illərdə və ondan əvvəl də Həmidlə çox yaxın olub. Onun sənəti Zaurun xoşuna gəlirdi. Odur ki, onunla razılaşdırılmış şəhər toylarının əksəriyyətinə özü ilə Həmidi də aparırdı. Onların sənət yoldaşlığı yaxşı tuturdu. Həm də bir-birinə hüsn-rəğbət göstərirdilər. Elə filarmoniyanın bağında dəfələrlə Zaur Rzayevin dilindən Həmidin çalğısı haqqında tərifli sözlər eşitmişdim. Həmid həbs olunandan sonra Zaur Rzayev öz toy ansamblına digər qarmon ifaçılarını gətirdi.

Mətləbə qayıdaraq bildirirəm ki, konsert ilk anlarından öz səviyyəsini aldı və sürəkli alqışlarla

qarşılandı. Mən həm də konsertin aparıcısı idim. Bir neçə musiqi təqdim etdikdən sonra zaldan səslər gəldi. Onlar "Həmid", "Həmid", "Həmid çalsın", "Həmidi eşidək" deyirdilər. Mən sağ əlimi qaldırıb onları sakitləşdirib dedim: -Arxayın olun, Həmid səhnəyə dəvət olunacaq. Onsuz da əvvəldən fikrimizdə olub ki, sənət yoldaşımız Həmidin ifası üçün bu səhnədə şərait yaradaq.

Konsertin əvvəlində zala nəzər yetirdikdə Həmidin səhnə qarşısında üçüncü sırada əyləşdiyini müşahidə etmişdim. Ansamblın qarşısında, səhnənin ön tərəfində kətil, üstünə də qarmonumu qoydum. Həmidi təm-təraqla səhnəyə dəvət etdim. Zalı alqış bürüdü. O gəlib səhnədə bərqərar olundu və çalmağa başladı. Son nöqtəni vurarkən başını qarmonun üstünə qoyub ağladı. Konsert briqadamızın bütün üzvləri mütəəssir oldular. Bax, Həmidi sonuncu dəfə belə gördüm.

O, cəzasının çox hissəsini çəkərək azadlığa buraxılıbmış. Lakin az müddətdən sonra yenidən həbs olunub. Axı düşmənli idi. Onun azadlıqda gəzməsi ilə barışa bilməzdilər.

Həmidin qohumu Qurbanın söylədiklərindən: "O, öldürdüyü şəxsin məzarını ziyarət etməyə mənimlə birlikdə getdi. Orada çox mütəəssir oldu, kövrəldi və pıçıltı ilə: Nə özün yaşadın, nə məni yaşamağa qoydun" – dedi.

Əziz oxucu! Uğurlu başlamış ömür və sənət yolunun bədbəxt nəticə ilə sonuclanması onun doğmalarını, biz sənət yoldaşlarını ağrıtdığı kimi sizi də incidəcək. O, sağ qalsa idi, qarmon sənəti üçün çox iş görə biləcəkdi. Az zaman kəsiyində yiyələndiyi ifa tərzini, daha da rövnəqləndirəcək, yaratdığı melodiyaların, ifa etdiyi xalq havalarının sayını artıracaq və bu günkü məşhur sənət adamlarımızın sırasında dayanacaqdı. Lakin acı tale buna imkan vermədi. Onun haqqında yazılan bu oçerki tamamladıqdan sonra yazı masamın arxasından çəkilib dincəlməyə getdim. Qəribə hisslər məni yuxulamağa qoymadı və beynimə bir neçə bənd şeir gəldi. Yataqdan qalxıb masa arxasına gəldim və acı tale yaşamış bu insanın xatirəsinə aşağıdakı şeiri yazdım.

Nərmənazik oğlan idi,
İstedadlı cavan idi,
Mahir qarmonçalan idi,
Sənətdə iz qoydu Həmid,
İzini düz qoydu Həmid.

Sənət ona qol-qanaddı,
Daim bu işə can atdı,
Öz üslubunu yaratdı,
Usta, pərgar idi Həmid,
Əsl sənətkar idi Həmid.

Qarmon onun ürəyiydi,
Qazandığı çörəyiydi,
Hər bir zaman gərəyiydi,
Sənətdə bir boydu Həmid,
Öz yolunu qoydu Həmid.

İstedaddan yoğrulmuşdu,
Musiqiyçün doğulmuşdu,
Bu iş üçün çağrılmışdı.
Allahdan pay idi Həmid,
İşıqlı ay idi Həmid

O, təhqirə dözəmmədi,
Çılğınlığından enmədi,
Fikrindən geri dönmədi,
Cinayət törətdi Həmid.
Məhbəslərə getdi Həmid.

Zil nəğmələri bəm oldu,
Taleyi acı, kəm oldu,
Həyatı dərd-ələm oldu,
Ağır bir iş etdi Həmid,
Həm də bir ibrətdi Həmid.

Acı taleh yaman olur,
Çox uğursuz zaman olur,
İnildəyən kaman olur,
Tələsdi, səhv etdi Həmid,
Tamam oldu, bitdi Həmid.

Ömrünün baharı soldu,
Ürəyinə kədər doldu,
Yeri həbsxana oldu,
Sənəti tərgitdi Həmid,
Belə sona yetdi Həmid.

Ayrı düşdü qarmonundan,
Ömrünün xoşbəxt anından,
Qaldı sənət karvanından,
Həyatdan tez getdi Həmid,
Unuduldu, itdi Həmid.

Mən nə deyim bu fələyə,
Törətdiyi bu kələyə,
Ağı deyək bu taleyə,
Zaman sazın çaldın, Həmid!
Yerinsə boş qaldı Həmid!

Qalıbdı lent yazıları,
Zəngin gənclik ifaları
Ondan öyrənir çoxları,
İndi örnək olub Həmid,
Könüllərə dolub Həmid.

09.02.2012 Ə.Rəhmanlı

2.41. İFAÇI-PEDAQOQ



Xeyrulla Dadaşov

Sevimli şairimiz Mikayıl Müşviqin belə bir şeiri var:

İstər bəstəkar ol, istər rəqqas ol,
Şair ol, rəssam ol, heykəltəraş ol!
Yaratdığın şeyi sevərək yarat
Hamıdan yüksək ol! Hamıdan baş ol!

Haqqında söhbət açacağımız insan öz işini sevən, əməllərindən zövq alan, yazıb-yaratdıqlarını əziz tutan, yorulmadan işləyən, olduqca təvazökar, təhsil verdiyi tələbələrin xoşbəxtliyinə çalışan, onları əsl sənət adamı kimi görmək istəyən, öz peşəsində həmişə yüksəkdə duran bir şəxsdir. Bu şəxs görkəmli qarmon ifaçısı, səriştəli pedaqoq Xeyrulladır.

Xeyrulla İslam oğlu Dadaşov 1947-ci il may ayının 6-da Bakı şəhərində anadan olub. Atası sadə, zəhmətkeş bir insan idi. O, elektirik montyoru işləyirdi. Həyata gətirdiyi yeddi övladı ömür-gün yoldaşı Zivər xanımla mir bir zəhmətlə, əzizləyərək, sevə-sevə böyüdürdülər. Ata dörd oğlunu və üç qızını təhsilli, sənədli, müxtəlif peşə sahibi kimi görmək arzusu ilə yaşayırdı. Bu nəsildə heç vaxt musiqiçi olmayıb. İslam kişi Xeyrullanın musiqiçi yox, ali təhsilli başqa peşə sahibi olmasını istəyirdi.

Xeyrulla uşaqlıqdan musiqinin vurğunu idi. Radioda Teyyub Dəmirovun, Məmmədağa Ağayevin qarmonda çaldıqları muğam və rəqs havalarını dinləyən Xeyrullanın qəlbində qarmon çalmaq arzusu baş qaldırır. O radionu dinləyərək evdəki kətili (stul) qıçları üstünə alıb diz üstə ora-bura çəkir, barmaqlarını onun üzərində gəzdirərək özündə elə bir hal yaradırdı ki, güya qarmon çalır. Ata onun fitri istedadına diqqət yetirməsə də, ana bu işə laqeyd qalmadı. Zivər xanım ərindən xahiş edib dedi: "Xeyri balam özünü musiqidən kənar qoya bilmir. A, kişi, bu uşaq radio konsertlərindən əl çəkmir. Deyəsən qarmonçalan olacaq. Ona qarmon al".

İslam kişi günlərin birində Bakının bir zamanlar çox məşhur olan, "Kubinka" adlanan məhəlləsinə bazarlığa gedir və orada qarmon satıldığını görür. Qiymətləşib 18 dilli, yarımtonsuz "Kazan" (tatar) qarmonu alıb evə gətirir. Bu 1957-ci ilə təsadüf edir.

Xeyrulla ona qarmon alındığı üçün həddsiz sevindi. Fərəhindən gözləri yaşardı. Zivər xanım kövrəldi, oğlunun boynunu qucaqlayıb öpdü və xeyir dua verdi: "Əziz balam, bir arzun yerinə yetdi. Kaş bütün arzuların belə çin olsun. Sən mənim qarmonçalan balam olacaqsan".

Xeyrulla bütün günü qarmondan ayrılmırdı. Elə hey dartışdırır, nəsə öyrənmək istəyirdi. Bu iş hər gün davam edirdi. Uşaq artıq xeyli xalq havaları və rəqs melodiyaları öyrənmişdi.

Az vaxt içərisində Xeyrullanın istedadı ailəsində, qonşular və tay-tuşları arasında üzə çıxmışdı. Atası onun qarmonçalan olmasını istəməsə də oğlunun uşaq arzusunun və istedadının da əleyhinə çıxmadı. İslam kişi bir gün Xeyrullanın əlindən tutub qarmon düzəldən məşhur usta Saşa Zverevin emalatxanasına gəldi. Xeyrulla sevincindən özünə yer tapa bilmirdi. Axı atası onun üçün

ustaya əsl sənətkar aləti, Azərbaycan qaromonunu sifariş vermişdi.

Belə bir deyim var: "Həyat ötən günlər deyil, yadda qadan günlərdir". Atasının qarmonu usta Zverevin emalatxanasından götürüb evə gətirməsi Xeyrullanın ömrünə yazılan, həmişə yaddaşında qalan gün oldu. Böyük istedad sahibi olan bu uşaq az müddət ərzində çoxlu musiqi nümunələri, xalq mahnıları, dəramədlər, rənglər, oyun havaları öyrəndi, tay- tuşları, qohum- əqrabası arasında sayılıb-seçilməyə başladı. O, evdə yorulmadan həmişə məşq edirdi. Onu neft-yağ zavodunun 8-ci km qəsəbəsində yerləşən mədəniyyət sarayına gətirirlər. Xeyrulla orada çalaraq daha da püxtələşir. Həmin illərdə Xeyrulla həmçinin mədəniyyət sarayındakı rəqs kollektivində də çalışır. Rəqs üçün çalması onun iti barmaqla ifa etməsinə, cəld, çevik çalğı manerasına yiyələnməsinə çox böyük kömək edir.

Xeyrulla orta məktəbdə yaxşı qiymətlərlə oxumuşdur. Müəllimləri həmişə ona ali məktəbə daxil olmasını tövsiyyə edirdilər.

1965-ci ildə orta məktəbi bitirən Xeyrulla Qara Şəhərdəki mədəniyyət sarayında fəaliyyət göstərən xalq konservatoriyasının xor dirijorluq şöbəsinə daxil olur. Burada o zaman Azərbaycanın tanınmış bəstəkarları, dirijorları, musiqi nəzəriyyəçilərinin bəziləri dərs deyirdilər. Burada cəmi bir il təhsil alan Xeyrulla musiqi nəzəriyəsinə aid çox şey öyrənmişdi. Çünki özü də sərbəst olaraq mütaliə edir, əlavə ədəbiyyat oxuyurdu. Xalq konservatoriyasında o, notu öyrəndi. Sərbəst olaraq notla çalmağı və oxumağı bacardı.

Xeyrulla 1966-cı ildə xalq konservatoriyasında təhsilini yarımçıq qoyaraq sənədlərini M.F.Axundov adına Pedaqoji Dillər İnistutuna verir, oraya daxil olur və 1971-ci ildə buranı uğurla bitirir. Burada oxuduğu illərdə müntəzəm musiqi ilə məşğul olur. İnstitutun xalq çalğı alətləri ansamblında fəal üzvlərdən biri kimi tanınır. Ansamblın rəhbəri Tahir Əliyev idi. Sonrakı illərdə bu ansambla xalq artisti, məşhur tarzən Əliağa Quliyev, Əbdülağa Nəcəfov, Adil Bağırov rəhbərlik etmişdir. Adı çəkilən məşhur tarzənlərin rəhbərliyi altında ansamblda çalışması Xeyrullanın bir sənətkar kimi yetişməsində əhəmiyyətli dərəcədə rol oynamışdır. Onu da qeyd etməliyik ki, Xeyrullanın qarmon ifaçılığı institut rəhbərliyinin nəzərindən yayınmamışdı.

Onu həm də rəqs kollektivinə cəlb etmişdilər. O dövrdə institutda Azərbaycanın xalq artisti, görkəmli baletmeyster, yaradıcı insan Əlibaba Abdullayevin rəhbərliyi ilə rəqs ansamblı fəaliyyətdə idi. Əlibaba Abdullayev Xeyrullanın çalğısını çox bəyənirdi. Rəqs ansamblında çalmaq çox çətin işdir. Belə ki, burada musiqiçiyə çevik, cəld barmaqlar gərək olur. Həmçinin musiqiçidən dəqiq, diqqətli, nizamlı çalğı tələb olunur. Rəqs üçün lazım olan musiqinin ritmi, ölçüsü, bütünlükdə hər bir musiqi cümləsinin nizamı rəqqasın edəcəyi hərəkətlərə hesablanır. Bütün bunlar Xeyrullanın ifaçılığında cəmlənmişdi.

Xeyrulla dəfələrlə Pedaqoji Dillər İnstitutunun x.ç.a. ansamblı və rəqs kollektivinin tərkibində Azərbaycanın şəhər və rayonlarında, keçmiş SSRİ məkanındakı böyük-böyük şəhərlərdə konsert səfərlərində olurdu. Bütün bunlar hamısı Xeyrullanın gələcəkdə yaxşı, peşəkar musiqiçi olmasına öz müsbət təsirini göstərmişdi.

Bir dəfə PDİ-də Ə. Abdullayev olduqca çətin, səviyyəti, çox gözəl bir rəqs kompozisiyası qurmuşdu. Məşhur bəstəkar C.Cahangirov musiqi tərtibatı üçün dəvət olunmuşdu. Rəqsin kompozisiyasının quruluşu zamanı Xeyrullanın musiqini hamıdan tez öyrənməsi və olduqca dəqiq çalması böyük sənət adamları olan C. Cahangirovu və Ə.Abdullayevi valeh etmişdi. Onlar hər yerdə, həmişə bu gənc qarmonçalanı tərif edərdilər. Ə.Adbullayev həmişə təklif edib Xeyrullanı Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblına musiqiçi aparmaq istəmişdi. Lakin Xeyrulla buna razı olmamışdı. Belə ki, onun meyli həmişə müəllimlik etməyə olub.

Elə sonrakı illərdə belə də oldu. O, ifaçılıqla bərabər əsasən pedaqoji fəaliyyətə üstünlük verdi.

PDİ-nin rəqs ansamblı 1967-ci ildə Moskvada, Kremilin Qurultaylar Sarayında keçirilən

böyük bir festivala dəvət olunur. Xeyrulla da ansamblın tərkibində idi. Rəqs ansamblı festifalın laureatı olur. İnstitutun rəqs kollektivi Moskva festivalında 10 gün çıxış edir. Hər bir çıxış uğurlu keçir və alqışlarla qarşılanır. İştirakçılara diplomlar, medallar, fəxri fərmanlar verilir. Həmçinin Xeyrulla da yaxşı musiqiçi kimi medal və diploma layiq görülür.

Burada bir az geridəki illərə qayıdaq. Xeyrulla İnstitutun ikinci kursuna keçərkən 13 saylı şəhər musiqi məktəbinə qəbul olunur. Çünki musiqi təhsili almaq fikiri onu bir an da rahat buraxmırdı. Gözəl musiqi qabiliyyəti, çalğısı, savadı nəzərə alınaraq o, musiqi məktəbinin dördüncü sinfinə götürülür. Xeyrulla burada yaxşı təhsil alır, nəzəri biliklərə yiyələnir. Məktəb konsertlərində, müsabiqələrdə müntəzəm çıxış edib özünün və oxuduğu tədris ocağının başını uca edir. İmtahanlarda həmişə tərifllənir. O, 1969-cu ildə musiqi məktəbini müvəffəqiyyətlə bitirir. Buraxlış imtahanında çalğısı, suallara aydın, düzgün, dolğun cavab verməsi münsiflər heyyəti tərəfindən böyük rəğbətlə qarşılanır. Həm də ali təhsil ocağında oxuyan 22 yaşlı bir gəncin musiqi təhsili almağa maraq göstərməsi özü də xüsusi diqqət doğururdu. Axı, 20 yaşında musiqi məktəbinə daxil olanda Xeyrulla əsl qarmonçalan idi. O, özü musiqi məktəbində oxuyanda, həmçinin sonrakı institut illərində artıq orta məktəbin nəzdindəki, mədəniyyət sarayındakı musiqi kurslarında və dərnəklərdə qarmon müəllimi işləyirdi. Bundan əlavə o musiqi heyyətlərimizin tərkibində, toylarımızda sənət nümayiş etdirirdi. Təhsil illərinə, musiqiçilik fəaliyyətinə, müəllimlik peşəsinə yiyələnməsinə və bu yolda əzmlə çalışmasına diqqət yetirsək onun sənətə sonsuz həvəs, sevgi göstərməsinin şahidi olarıq. Allah! İnsanda neçə böyük səbr, dözüm, enerji olarmış!

Məhəmməd peyğəmbərin belə bir kəlamı var: "Tapanlar axtaranlardır". Xeyrulla uşaqlıq və gənclik illərindən həmişə axtarışda idi. O, axtardığını müqəddəs peşə olan müəllimlikdə tapdı.

Azərbaycan mətbuatının əsasını qoyan, böyük maarifçi, əsl ziyalı H.B. Zərdabi demişdir: "Əgər məndən soruşsalar ki, ən şərəfli sənət hansıdır, çəkinmədən iftixarla deyərdim, müəllim".



Filarmoniyada konsert. Şəkildə: müğənni Zaur Rzayev, Babaxan Bağırov və Xeyrulla Dadaşov

Xeyrulla 1962-ci ildə neft-yağ zavodunun mədəniyyət sarayındakı rəqs ansamblında qarmonçalan kimi əmək fəaliyyətinə başladı. 1969-cu ildə 13 saylı şəhər musiqi məktəbini bitirən kimi onu burada müəllim saxladılar. Onun yaşı, savadı, biliyi, musiqiçilik qabiliyyəti buna tam imkan verirdi.

Ali təhsil aldığı və sonrakı illərdə Xeyrulla Dadaşov məşhur musiqiçilər Habil Əliyev, Əliəkbər Əsgərov, Adil Bayramov, Vəli Qədimov, Həbib Bayramov, xanəndələr Əlibaba Məmmədov, İslam Rzayev, Teymur Mustafayev, Sabir Mirzəyev, Süleyman Abdullayev, Hacıbaba Hüseynov, Zaur Rzayev, Səxavət Məmmədov və başqaları ilə sənət yoldaşlığı edərək müntəzəm toy şənliklərində olmuşdur.

Məşhur tarzən, xalq artisti Həbib Bayramov Xeyrullanın əxlaqını, tərbiyəsini, istedadını, əsl musiqiçi olmasını nəzərə alıb onu rəhbərlik etdiyi Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblına dəvət edir. 1974-75-ci illər ərzində Xeyrulla bu ansamblda çalışır. Radio və televiziyadakı canlı çıxışlarında, lent yazılarında ansamblın tərkibində fəaliyyət göstərir. O, İlhamə Quliyeva, Canəli Əkbərov, Nəzakət Məmmədova və Zaur Rzayevin səsi qrammafon vallarına yazılarkən ansambl tərkibində çalmış, həmçinin solo hissələri də ifa etmişdir.



Ə.Bakıxanov adına x.ç.a. ansamblının televiziya konserti. Yuxarı sırada sağdan birinci Xeyrulla Dadaşov

Bu ansambla rəhbərlik edən xalq artisti Möhlət Müslümov Xeyrullanı 2002-ci ildə yenidən kollektivə dəvət etmişdir. O, burada bir il də fəaliyyətdə olmuş, Mələkxanım Əyyubova, Bəsti Sevdiyeva, Arif Babayev və Gülüstan Əliyevanın ifasında lentə alınan muğam dəsgahlarının yazılışında çalmışdır.

Xeyrulla Dadaşov 1983-cü ildən müğənni Səməd Səmədovla bir musiqi heyətində çalışıb. Bu ansamblın adı "Qismət"dir. Dəstəyə cəmləşən musiqiçilər burada bəlkə də öz sənət yoldaşlığını, səmimi dostluq qismətlərini tapıblar ki, uzun müddət ərzində birlikdə çalıb çağırıblar. Başda S. Səmədov olmaqla ansamblın üzvlərinin bir neçəsi elə kollektiv yaranan gündən bir yerdə çalışanlar idi.



Müğənni Səməd Səmədov, Xeyrulla Dadaşov və Ramiz Şirinov

Xeyrulla müəllim "Qismət" ansamblının tərkibində Rusiyanın iri şəhərlərində, həmçi-

nin Moskvada, Sankt-Peterburqda uğurlu konsertlərdə olmuşdur. Həmçinin Gürcüstanan Tbilisi şəhərində bu ansamblın çıxışları maraqla qarşılanıb.

1991-ci ildə S. Səmədov İsrail dövlətinə dəvət olunarkən. Xeyrulla müəllimin də daxil olduğu heyət bu ölkədə 70 gün qalaraq müxtəlif şəhərlərdə konsert vermişdir.

Xeyrulla müəllimin pedaqoji fəaliyyəti xüsusi qeyd olunmalıdır. Yazımızın bu hissəsində yalnız bu barədə danışacağıq. O, 13 saylı şəhər musiqi məktəbində 26 il müəllim işləmişdir. İstər burada, istərsə də ondan qabaq musiqi kurslarında müəllimlik fəaliyyəti dövründə X. Dadaşov saysız-hesabsız şagirdlər yetişdirmişdir ki, onların əksəriyyəti ifaçı və musiqi müəllimidirlər.

Xeyrulla müəllim öz peşəsini ürəkdən sevən bir insandır. O, tələbələrinə həmişə mehribanlıqla, qayğı və məhəbbətlə yanaşır. Onları həmişə bilikli görmək istəyir. Öz bildiklərinin hamısını onlara öyrətmək istəyir. O, əsl pedaqoqdur. Hər bir şagirdə, tələbəyə fərdi yanaşmağı bacarır.

X.Dadaşov musiqi məktəbində dərs dediyi dövrdə həmişə bacarıqlı, savadlı, işgüzar, öz üzərində çalışan şəxs kimi tanınıb, nümunəvi qarmon müəllimi kimi qəbul olunub. Bu sözləri Milli Konservatoriya tərkibində Musiqi Kollecinin direktoru, sənətşünaslıq doktoru, professor, əməkdar incəsənət xadimi Nazim Kazımov deyir. O, əlavə olaraq söyləyir: "Tanıdığım 36 il müddətində onu həmişə eyni həvəsdə, eyni çalışqanlıqda, pedaqoji işinə sadiqlikdə görmüşəm. Bü gün də bizim kollecdə qarmon üzrə əsas, aparıcı ixtisas müəllimi, fərqlənən işçidir. Onun pedaqoji fəaliyyəti çoxlarına örnəkdir".

X. Dadaşrov 13 saylı şəhər musiqi məktəbində çalışdığı zamanlar metodik seminarlarda iştirakçı olaraq həmişə maraqlı fikirlər, təkliflərlə çıxış edib. Onun dəyərli və öz dövrü üçün aktual, çox gərəkli olan çıxışları hamı tərəfindən həmişə maraqla qarşılanıb. Qarmon ixtisası müəllimlərinin təkmilləşdirilməsi kurslarında Xeyrulla müəllimin mühazirələri, praktik nəzəri seminarları bu sahədə çalışanların bilikli, məlumatlı olmasına çox kömək etmişdir. Hətta musiqi məktəblərində dərs deyən tanınmış qarmonçalanlar elə bu seminarlarda məmnuniyyətlə iştirak edir və çox şey öyrənirdilər.

1995-ci ildə A. Zeynallı adına Musiqi Texnikumunda qarmon sinfi açılarkən X. Dadaşov bura ixtisas – not üzrə ilk müəllim olaraq dəvət olunur və az vaxt içərisində özünü bacarıqlı ixtisas müəllimi kimi göstərir.

Kollecə müəllim gəldiyi ildən bu vaxta qədər 200-dən çox tələbə yetişdirmişdir ki, onların əksəriyyəti Bakıda və rayonlarımızdakı musiqi məktəblərində çalışırlar. Musiqi məktəbində yetişdirdiyi şagirdlərin, kollecdə təhsil verdiyi tələbələrin ümumi sayını nəzərə alsaq çox böyük say əmələ gələr ki, bu doğrudan da çox böyük göstəricidir.

Xeyrulla müəllim ömründə xoş anların çox olduğunu deyir və söyləyir: "Ömrümün ən xoşbəxt çağları elə pedaqoji fəaliyyətimlə bağlıdır. Məni yaşadan bu işdir. Bu işdən ayrılsam yaşaya bilmərəm. Pedaqoji iş mənim həyatımın ayrılmaz hissəsidir".

Qarmon tədrisi ilə bağlı məqalələr yazmağa o, 1970-ci illərin sonundan etibarən başlayıb. Mədəniyyət Nazirliyi Metod Kabinetinin rəhbərliyi X. Dadaşovun çalışdığı sahə üzrə elmi-metodiki fəaliyyətini nəzərə alaraq ona proqram yazmağı tövsiyə edir. Xeyrulla müəllimin qarmon tədrisi ilə bağlı ilk proqramı 1984-cü ildə işıq üzü görür. Musiqi ictimayiəti tərəfindən bu proqram maraqla və rəğbətlə qarşılanır. Tədrisdə bu proqramdan uzun illər istifadə olunur.

Bu uğurunu görən Metod-Kabinet rəhbərliyi X. Dadaşova qarmon kitabı yazmağı təklif edir. Beləliklə o, 1984-cü ildən kitab yazmağa başlayır və 1986-ci ildə başa vurur.

"Qarmon məktəbi" kitabı 1988-ci ildə çapdan çıxmalı idi. Lakin məlum hadisələr respublikamızda hər sahəyə təsir etdiyi kimi, kitab nəşrindən də yan keçmədi. Düşmən qonşularımızın ərazi, torpaq iddiaları, Qərbi Azərbaycandan xalqımızın deportasiyası, müharibə təhlükəsi, bütün bun-



X.Dadaşov Milli Konservatoriya nəzdində Musiqi Kollecində dərs zamanı.

larla əlaqədar respublikamızda xalq hərəkatının geniş vüsət alması elmə, incəsənətə, maarifə, iqtisadiyyata təsir göstərməyə bilməzdi.

X. Dadaşovun "Qarmon məktəbi" kitabı 1999-cu il, avqust ayının 30-da hazır olur. Nəşr olunmuş 500 nüxsə kitab az vaxt içərisində Bakı şəhərindəki musiqi məktəblərinə paylanır. Rayon yerlərindəki, çoxsaylı müraciətlərə əsasən, əlavə nəşrlər olunur və əyalətlərə yönəldilir. Bu günün özündə də tələbata uyğun olaraq həmin kitablardan əlavə olaraq nəşr edilir və musiqi sənəti ilə bağlı ədəbiyyatın yayımı ilə məşğul olan dükanlara verilir.

Xeyrulla müəllim 1995-ci ildə musiqi kolleci və texnikumları üçün proqram hazırlamışdır. Bundan əlavə o dünyanın və Azərbaycanın böyük bəstəkarlarının ən populyar və sevilən əsərlərini qarmon tədrisi üçün hazırlayıb nota köçürmüşdür. Belə hazırlamalarda o, fortepiano partiyasını olduğu kimi saxlayır. İri həcmli konsertlər, rapsodiyalar, fantaziyalar və s. toplayaraq qarmonun tədrisinə yönəldir və bütün bunları kollecdə yüksək səviyyədə tələbələrinə öyrədir.

Xeyrulla müəllimin hazırladığı "Qarmon üçün etüdlər", "Qarmon üçün pyeslər" məcmuələri musiqi kollecləri qarmonun tədrisi üçün nəzərdə tutulur. Hər iki tədris vəsaiti öz çapını gözləyir. O, ümumiyyətlə qarmon tədrisinin və ifaçılığının gələcəyini uğurlu görür. Çünki Xeyrulla müəllim bu sahədə 48 ildir ki, müəllimdir. Onun ifası və təcrübəsi bunu deməyə əsas verir.

Rus yazıçısı Lev Tolstoy yazmışdır: "Xoşbəxt o kəsdir ki, o, ailədə xoşbəxtdir". Sanki, bu sözlər Xeyrulla müəllim üçün deyilib. O, 1972-ci ildə ailə qurub. Həyat yoldaşı da musiqidən dərs demişdir. Hazırda təqaüddədir. Çox xoşbəxt yaşayırlar. İki övlad böyüdüblər. Qızı elmi işçi, oğlu hüquqşünasdır. Xeyrulla müəllimin ailəsində nəvələr böyüyür.

Rus xalq mahnısı "QIZIL DAĞLAR"

İşləyəni ***Xeyrulla Dadaşov***








Doğun, geniş müşayiət etmək
Qammanın tersiya ilə məşqələsi

"Sürət çarxı" A.FOSSEN
(flik-flyak) *işləyəni Xeyrulla Dadaşov*






f daha ritmik
mf


əvvəldən işarəyə qədər çalmaq
sonya sonluğa ("Coda") keçmək
Coda
f
ff

Onu tanıdığım illər ərzində,
Sadəlik gördüm davranış tərzində.
Səmimilik çox aydındır üzündə,
Hər mətləbi duyan, qanan Xeyrulla.
Dost yolunda mərd dayanan Xeyrulla.

O, öz yerində, dövran gərdişində,
Çox peşəkardır sənət vərdişində.
Nümunədir pedaqoji işində,
Öz amalına inanan Xeyrulla,
Uğurlarından boylanan Xeyrulla.

Qarmon tədrisində nailiyyəti,
Bu sahəni ucaltmaqdı niyyəti,
Hər tələbəylə safdır ülviyyəti.
Peşəsinə qəlbən yanan Xeyrulla,
Gördüyü işi az sanan Xeyrulla.

Dəyişmədi onu bu uzun zaman,
Necə vardı, yenə eladır, haman.
Kimsədən təmanna deyildir uman,
Təmiz qazancla şadlanan Xeyrulla,
Doğruluqla qanadlanan Xeyrulla.

Bu adam saf yaşamaqçün doğulub,
Əməllərilə öz adı doğrulub.
Sədaqətdən və düzlükdən yoğrulub,
Təmiz xislətli adlanan Xeyrulla,
Halal zəhmətlə dolanan Xeyrulla.

Musiqi Kollecində işlər gördü,
Qarmon ixtisasına bina hördü,
Yazdı, yaratdı, bu günə ötürdü.
Bundan uzaq düşməz bir an Xeyrulla.
Şerim səmimidir, inan, Xeyrulla.
Ə.Rəhmanlı, 10 avqust 2013-cü il.

2.42. ƏSGƏR HƏSƏNOV

Azərbaycan musiqi səmasında istedadlı və tam peşəkar qarmon ifaçılarımız da ulduz kimi parlamışlar. Düzdür bu geniş sənət səmasında öz yerini tuta bilməyən, tez yanıb tez sönən ulduzlarımız da olmuşdur. Lakin ömrün ixtiyar çağına, sənətinin şirəli, daha dadlı-tamlı, ləzzətli, sanballı vaxtına qədər sevimli işinə fədakarlıq göstərənlərimiz də kifayət qədərdir. Yazdığımız bu kitab boyu onların ömürlərini səhifələmişik. Onlardan biri barədə də ürəklə qələm işlədirik.

Əgər qarmon sənətinə xidmət edənləri bir orduya bənzətsək, o da fəal, nümunəvi, daim ön sıralarda öz yerini tutan bir əsgər sayıla bilər. Elə isə səmimi söhbətə başlayaq. Çünki, o, təkcə

yüksək sənətilə deyil, həm də səmimiyyətilə qəlbimizdədir.


Əsgər Həsənov

Əsgər Həsən oğlu Həsənov 1947-ci il iyun ayının 7-də Ağstafa şəhərində dünyaya gəlib. Həsən kişi (1928-2011) və evdar qadın olan Gülsüm xanım həyata gətirdikləri iki oğulu göz bəbəyi kimi qoruyaraq, onların hər bir qayğısına qalaraq, sevib əzizləyərək boya-başa çatdırmışlar. Saqif və Əsgərin orta təhsilinə xüsusi nəzarət edən ata-ananın arzu və ümidləri yerinə yetmiş, hər iki oğul ali təhsil alaraq vətən üçün çalışmışlar. Saqif Həsənov hazırda istefada olan polis polkovnikidir.

Əsgərgilin ana tərəfdən babası Həsən Mülkülü (1904-1994) Tovuz rayonunda yaşayıb yaradan məşhur el şairi idi. Onun 4 kitabı nəşr olunub. 2011-ci ildə millət vəkili, şairə, yazıçı-publisist Qənirə Paşayevanın təşəbbüsü ilə Bakıda, Musiqili Komediya Teatrının binasında və Tovuzda Həsən Mülkülünün yubiley tədbirləri keçirilmiş və İctimai Televiziya vasitəsilə yayımlanmışdır.

Əsgərin dayısı, 6 kitab müəllifi Əziz Məftun (1936-1978) Tovuzun Mülkülü kəndində yaşayıb yaratmışdır. 2010-cu ildə Qənirə Paşayevanın təşəbbüsü ilə Azərbaycan Dövlət Muğam Teatrında Əziz Məftunun yubileyi təntənəli şəkildə qeyd olunmuşdur.

Əsgərin ata babası Aşıq Əsgər (?-1934) xalqın sevimli sənətkarlarından biri olmuşdur. Əsgər öz babasının adını daşıyır.

Əsgər Həsənov 1954-1965-ci illərdə Ağstafa şəhərindəki 1 saylı orta məktəbdə təhsil alıb və buranı medalla bitirib. Musiqiyə gəlişi 6-7 yaşlardan başlayıb. 12 dilli yarımtonsuz qarmonda çalğı öyrənib. O, bu işə heç kəsdən təlimat almadan yiyələnib. Uşaqlar balaca olanda atası Bakının Kubinka adlanan məhəllələrindəki bazardan Əsgərə 12 dilli diatonik qarmon, Saqifə isə dodaqla ifa olunan qarmon (qarmoşka) almışdı. Əsgərin qarmona olan həvəsi və bacarığı göz önündəydi. Atası ona akkordeon da almışdı. Uşaq bu alətdə də bacarıq göstərirdi. Bir müddətdən sonra o, artıq akkordeonu tələb olunan formada, beş barmaqla çalır və sol əldəki bas akkordlarla özünü müşayiət edirdi. Sonrakı dövrlərdə peşəkar qarmon ifaçısı kimi yetişərkən beş barmaqdan məharətlə istifadə etməyi onun karına gəlmiş və onu çoxusundan qabağa apararaq fərqləndirmişdi.

Atası Əsgərin musiqidə get-gedə kamilləşməsini görüb, 1957-ci ildə ona Gəncədəki qarmonçalan İmamquludan bakılı Bədəl Bədəlovun qarmonunu alıb gətirmişdi. Bu Əsgərin sevincini və qarmon sənətinə olan sevgisini birə-on qat artırmışdı.

Əsgər o dövrün böyük qarmonçalanları Teyyub Dəmirov, Məmmədağa Ağayev, Qızxanım Dadaşova, Abbas Abbasov kimi sənətkarların radio çıxışlarından çox şey əxz etmişdi. Həmçinin yaşadığı bölgənin el sənətkarlarının toylarda çaldıqlarını əyani şəkildə görüb eşidirdi. O, Ağstafada qarmonçu Səfəri, Vahidi (el arasında dyadya Vasya) və Zakiri (ləqəbi Zirçik) dinləmişdi. Həmin vaxtlar Zakir Ağstafanın ən yaxşı qarmonçalanı idi.

Əsgərin uşaqlıq illəri həm də Tovuzda keçirdi, ora ana babasıgilə gedirdi. Toylarda tovuzlu qarmonçalanlardan solaxay Məhərrəm Aviloğlu, Xas Tofiq və digərlərinin ifasını eşidirdi. Tovuzun ən mahir qarmonçalanı Xas Tofiq idi. Hər bir sənətkarın ifası Əsgərin beynində öz əksini tapır və onun təxəyyülünü formalaşdırırdı. İstər radiodan və qrammafon vallarından, istərsə də el şənliklərindən eşitdiyi xalq havalarını və muğamları barmaqlarına köçürürdü.

O vaxtlar Ağstafa ayrıca rayon deyildi, Qazax rayonuna daxil idi. Əsgər Həsənov Qazax rayon pionerlər evinin (hazırda uşaqların və gənclərin yaradıcılıq mərkəzi) rəqs kollektivini qarmonla müşayiət edirdi. Rəqs dərnəyinin rəhbəri Əli Ağacanov, pionerlər evinin direktoru Əminə xanım idi. Əsgəri Qazaxa atası öz avtomobili ilə aparıb gətirirdi. 1946-cı ildən Həsən kişinin şəxsi avtomobili olub.

Əsgər Qazax rayon mədəniyyət evinin x.ç.a. ansamblında da çalırdı. Ansamblın rəhbəri müğənni Vasif Tağıyev idi. O, Respublika üzrə baxış-müsabiqənin laureatı olmuşdu. Ansambl Qazax, Ağstafa, Tovuz bölgəsində, Gəncədə, Bakıda və digər yerlərdə konsertlər vermişdi.

Əsgərin xatirələrindən: "Uşaqlıqdan "Segah" muğamına meyl etmişəm. Yaxşı yadımdadır, konsertlərdə bu muğamı öz bacarığım, öz düşüncəm səviyyəsində ifa edirdim. Səhnədə hər dəfə "Segah" çalanda özüm də kövrəlirdim, gözlərimdən yaş gilələnirdi. Sonrakı dövrlərdə Bakıda musiqi fəaliyyətimi davam etdirəndə də bu hallar baş verirdi. Elə rayonda da, Bakıda da "Segah" çalanda kövrəldiyim üçün mənə "özü çalıb, özü də ağlayan qarmonçalan" deyirdilər".

Müəllifdən haşiyə: "XX əsrin 70-ci illərinin sonlarında mədəni mallar satışı dükanından Əsgər Həsənovun ifaları olan qrammafon valı almışdım. Valda onun "Segah" ifası da var idi. Bu valı arabir dinləyirdim və hər dəfə Əsgərin "Segah"ı məni vəcdə gətirir, düşündürürdü. Doğrudan da "Segah"da o, ürəyini boşaldıb qəlbini açа bilirdi və həqiqətən bu muğamı incə çalarla, təsirli təqdim edirdi".

1959-cu il martın 21-də Respublika baxış-müsabiqəsinin yekun konserti Opera və Balet Teatrının binasında keçirilirdi. Proqramda Əsgərin "Segah" ifası da var idi. O, "Segah"ı əvvəlki həvəslə çalmışdı. Sonra isə ansambl tərkibində müğənninin oxuduğu "Azərbaycan" mahnısını (bəstəkar Rauf Hacıyev) müşayiət etmişdi. Münsiflər heyətinin sədri Əfrasiyab Bədəlbəyli (1907-1976) Əsgəri yanına çağırıb demişdi: – A bala, sözün düzü sənin "Segah"ını diqqətlə dinləmədim. Lakin mahnıdakı müşayiətin məni özünə cəlb elədi, çox gözəl, əla çaldın. Neçə yaşın var?

– Vallah, 12 yaşım var – demişdi Əsgər.

Əməkdar incəsənət xadimi, məşhur bəstəkar Ə.Bədəlbəyli təəccübünü gizlətmədən demişdi:

– Bacarıqlısan, istedadın yaşından böyükdür, bundan sonra da musiqilə məşğul ol, mütləq öz üzərində çalış.

Həmin müsabiqədəki nəticə, yüksək nailiyyət Əsgəri geniş anlamda tanıtdırdı və bu səs-soraq Qazax-Ağstafa bölgəsində böyük əks-səda doğurdu. Ağstafanın bütün mədəni-kütləvi tədbirlərində Əsgərə diqqət və qayğı göstərərək onun solo çıxışlarına imkan yaradılırdı. O, artıq rayon musiqiçilərinin də diqqətində idi, onu toylara aparmağa başlamışdılar. Orta məktəbi bitirənə qədər Əsgər Ağstafadakı klarnetçalanlar Mikayıl, Aydın, nağaraçalan Akif, xanəndə Qərib Allahverdiyevlə toy məclislərinə gedirdi. Həmin illərdə Gəncədən xanəndə Cavad, nağaraçı Cəmil gəlib Əsgəri özlərilə Gəncə toylarına və ətrafdakı el şənliklərinə aparırdılar. Şəmkirdən olan klarnetçalan Nəriman, Tovuzdan xanəndə Vahid də Əsgərin ifasını dəyərləndirərək onu vədələşdikləri məclislərə öz dəstələrinin tərkibində aparırdılar. Əsgər o zamanlar toy repertuarına daxil olan, yeni dəbə düşmüş mahnıların, rəqs havalarının hamısını bilir və yerli-yerində çalırdı. Musiqi yaddaşı çox güclü olduğu üçün o, tələbata uyğun olan musiqilərin hamısını öyrənə bilirdi. Ağstafada artıq geniş Azərbaycan məkanı üçün layiqli, istedadlı qarmon ifaçısı yetişirdi.

Yazımızın bu məqamında maraqlı bir hadisəni də yazıya köçürməli oluruq. 1963-cü ildə ustad



1962-ci il. Əsgər Həsənov (ortada) Ağstafa orta məktəbinin müəllim və şagirdləri arasında

qarmonçalan Teyyub Dəmirov Azərbaycan Dövlət Filarmoniyasının artistlərilə Ağstafaya konsertə gəlir. Konsertdən sonra Əsgərin atası Həsən Həsənov musiqiçiləri evinə dəvət edir və onların şərəfinə qonaqlıq verir. Tanışlıq zamanı Əsgərin ifasını da dinləmək istədiklərini bildirirlər. Əsgər dərin məsuliyyət hissilə ustadlar qarşısında "Segah" ifa edir və bu evdəki "Dnepr" markalı maqnitofona yazılır. 17 dəqiqə ərzində çalınan bu muğamı Teyyub Dəmirov bəyənir və deyir: "Sən yaxşı qarmon ifaçısı olacaqsan. Sənə təvəqqəm, məsləhətim o ola bilər ki, bu işlə ciddi məşğul olasan. Bakıya gələndə mənlə əlaqə saxla, səni oğlumla tanış edim, o da musiqiçidir".

Ustadın rəyi və tövsiyəsi 16 yaşlı qarmon ifaçısının həvəsini və məsuliyyətini daha da artırmışdı. O gündən Əsgər daha çox məşq etməyə başlamışdı.

Əsgər Həsənov 1965-1970-ci illərdə Politexnik İnstitutun elektrotexnika fakültəsində təhsil alıb və kabel izolyasiyası mühəndisi ixtisasına yiyələnib. Ali təhsili qırmızı diplomla başa vurub. İnstitut illəri gənc musiqiçinin bu sahədə çalışması üçün də geniş şərait yaradıb. Həmin dövrdə digər ali təhsil ocaqlarında olduğu kimi Politexnik İnstitutda da peşəkar gücə malik özfəaliyyət kollektivləri fəaliyyətdəydi. Burada tarzən-dirijor Nəriman Əzimovun (hazırda xalq artisti) rəhbərlik etdiyi x.ç.a. ansamblı da var idi. Əsgər həm həmin ansamblda, həm də görkəmli baletmeyster, xalq artisti Əlibaba Abdullayevin (1915-1980) rəhbəri olduğu rəqs ansamblında çalırdı. Həmin rəqs ansamblında Əsgərdən qabaq Avtandil İsrafilov işləmişdi. Əsgər rəqsləri müşayiət etdiyi üçün 35 "rubl" maaş da alırdı.

Bakı musiqi cəmiyyətinə daxil olması Əsgəri tam peşəkar musiqiçi kimi yetişdirirdi. Səhnələrdə, televiziyada institut ansamblının tərkibindəki soloları Əsgərin tanınmasına xidmət edirdi.

Politexnik İnstitutda dövlət tədbiri keçirilərkən filarmoniyanın məşhur sənətkarları da dəvət olunmuşdular. Konsertdə institutun ansamblı da öz proqramını təqdim edirdi. Teyyub Dəmirov

filarmoniyadan öz qrupu ilə gəlmişdi. Əsgərin söylədiklərindən: "Mən Teyyub müəllimi görən kimi sevincək ona yaxınlaşıb salamlaşdım və Ağstafada bizim evdə qonaq olarkən mənim ifamı dinlədiyini, tövsiyəsini və öz oğlu ilə məni tanış edəcəyini xatırlatdım. O, məni gördüyündən məmnun olduğunu bildirdi və oğlu Teyyubu çağırıb mənimlə tanış etdi. Xoşbəxtlikdənmi, ya ki, təsadüfdənmi Teyyub Teyyuboğlu da atasının qrupu ilə gəlmişdi, ansambl tərkibində o zaman klarnet çalırdı. Mən Teyyuboğlu ilə yaxından tanış oldum və sonrakı dövrlərdəki münasibətimiz aramızda dostluq yaratdı. Bu səmimi dostluq bu günə qədər davam edir".

Nəriman Əzimov Azərbaycan Televiziyasının nəzdində x.ç.a. ifaçılarından ibarət kiçik qrup yaratmışdı. Heyətin tərkibində qarmonçalan Əsgər Həsənov, tarzən Bəhram Nəsibov, klarnet ifaçısı Anzor Quluyev və digər istedadlı gənclər var idi. Ansamblın televiziyada konsertləri olurdu.

Artıq Bakı musiqiçilərilə Əsgərin yaxın münasibəti yaranmışdı. O, tanınan musiqiçilərlə toylara gedirdi, Bakıda, rayonlarda məclislərdə olurdu. Bu sırada nağara ifaçı Çingiz Mehdiyev (1932-1992), klarnet ifaçıları Adil Bayramov (1932-1975) və Babaxan Bağırov (1939-2006) da var idi. Sonrakı illərdə Əsgərin tanınmasında Babaxanın xüsusi rolu olmuşdu. O, istər özüylə vədələnmiş, istərsə də məşhur xanəndələrlə danışılmış sanballı toy şənliklərinə Əsgəri özüylə aparırdı. Beləliklə uzun illər ərzində Babaxanla Əsgər birlikdə çalışmışdılar. Ümumiyyətlə Əsgər Həsənov Bakının ən mahir klarnet ifaçılarının hamısı ilə şənliklərdə olmuşdu. Bu sırada Məlik Fərmanov (1918-1994), Həsən Məhərrəmov (1922-1982), Məhərrəm Zeynalov (1932-2005), Kamal Axundov (1932-2012), Ələkbər Əsgərov (1933-1995), Anzor Quluyev, Elşad Cabbarov, Cəfər Həsənov, Vəli Qədimov (1940-2009), Əşrəf Əşrəfzadə (1940-1973), Vaqif Kazımov (1943-1993), Əlikram Quluyev, Hacı Həmidoğlu, İntiqam Dadaşoğlu, Dağlı Hüyseynağa, Elxan Səmədzadə, Əlirza Orucov və Kazım Cavadovun (1942-1996) adları qeyd olunmalıdır.

Əsgərin mahir kaman ifaçısı, xalq artisti Habil Əliyevlə bir qrupun tərkibində konsertlərdə və toylarda çıxış etməsinin də səbəbkarı Babaxan Bağırov olmuşdu.

Bir xatirəni də qələmə alaq. 1970-ci ildə Bakının məşhur "Ceyran" restoranında adlı-sanlı kişilərdən birinin övladının toy şənliyi imiş. Məclisdə öz ansamblı ilə xalq artisti Gülağa Məmmədov (1925-1994) oxuyurmuş. Toy bitəndən sonraya isə tanımlı musiqiçilər qonaq çağrılmış və onlar üçün yenidən süfrə açılmış, məclis qurulmuşdu. Bunun obyektiv səbəbi bu idi ki, musiqiçilər və xanəndələr müxtəlif ünvanlarda şənlik mərasimlərində idilər. Hər kəs öz işini yola verdikdən sonra "Ceyran" restoranına gəlirdi. Əsgər Həsənov da Adil Bayramovla bu yığıncaqda iştirak edirdi. Məşhur klarnet ifaçısı Əşrəf Əşrəfzadə də öz müşayiətçisi, dəmkeş-balabançısı Firudin Nuruyevlə və qarmonçu Teyyuboğlu ilə burada idi. Firudin Əsgər haqqında bir-neçə dəfə Əşrəfə danışmış, onun yaxşı qarmon ifaçısı olmasından söz açmışdı. Odur ki, Əsgərin ifasını eşitmək Ə.Əşrəfzadə üçün çox maraqlı idi. Əsgər Firudunun təkidilə bir nümunə ifa etməli olur. O, qarmonu götürərək bəstəkar C.Cahangirovun "Durnalar" mahnısını ifa edir, muğam gəzişmələrindən sonra "Çahargah"ın "Müxalif"inə keçid alaraq "Çahar-mizrab" ladında yaxşı bir çalğı göstərir,. Bu Əşrəfin çox xoşuna gəlir. Bu anda balabançı Firudun kişi sevincək Əşrəfə tərəf dönüb: "Sənə tərif elədiyim qarmonçalan Əsgər bu oğlandır" – deyir. Əşrəf Əsgərə yaxınlaşıb əlini onun çiyninə qoyaraq deyir: "Sən doğrudan da tərifə layiqsən". O gündən Əşrəfin göstərişlə xeyli toyların siyahısını Firudun Nuruyev Əsgərə yazdırır. Rəhmətlik Əşrəflə Əsgərin səmimi və mehriban yoldaşlığı olmuşdu.

Əsgər Həsənov ali təhsili başa vuraraq 1970-1978-ci illərdə Bakı Sovetində (hazırda Bakı İcra Hakimiyyəti) mühəndis işləmiş və həm də həmkarlar komitəsinin sədri olmuşdur.

O, 1979-1990-cı illər ərzində Bayıldakı İliç adına mədəniyyət sarayının qarmon sinfində dərs demişdir. Azərbaycan müstəqillik qazandıqda "Çinar" – kiçik müəssisəsi yaradaraq fəaliyyət göstərmişdir. Bütün bu illər ərzində o,ifaçılıq sənətindən bir an da ayrılmamışdır.



1978-ci il. Almaniyanın Drezden şəhərində. Soldan: Əsgər Həsənov, Tahir Hüseynov, İslam Rzayev, Kamil Əzimov və Adil Bağırov



Soldan: Əsgər Həsənov, Kamil Allahverdiyev, Ələkbər Əsgərov və Əyyub



1978-ci il - Düşənbə şəhərində konsert. Sağdan: Əsgər Həsənov, Tahir Hüseynov, Nəzakət Məmmədova və Rüstəm

Yorulmaz qarmon ifaçımız 1970-ci ildə Əliağa Quluyevin, 1971-ci ildə Əlibaba Məmmədovun, 1973-cü ildə Əhməd Bakıxanovun rəhbərlik etdiyi x.ç.a. ansambllarında çalmışdır.

1973-cü ildə Ümumittifaq "Melodiya" firmasının Tbilisi filialı Əsgər Həsənovun ifalarını qrammafon valına yazaraq satışa buraxmışdır. İfaçı həmin valda "Segah" muğamını, öz bəstəsi olan "Gülsümü", "Çiçək" rəqslərini və yaxın dostu Babaxan Bağırovun bir rəqs melodiyasını çalmışdır.

1977-ci ildə Əsgər Həsənovun müştərək olaraq nağara ifaçısı Çingiz Mehdiyevlə qrammafon valı nəşr olunaraq yayılmışdır. Valın bir üzündə Çingizin, digər tərəfində isə Əsgərin solo ifaları öz əksini tapmışdır.

1970-ci illərin əvvəllərində klarnetçalan Adil Bayramovla Əsgər Həsənovun çaldıqları oyun havaları Azərbaycan radiosunun fondu və "Melodiya" firmasının qrammafon valları üçün yazılmışdır.



Sağdan: Əsgər Həsənov, Babaxan Bağırov, Telman

Əsgər Həsənov klarnet ifaçıları Məhərrəm Zeynalovun, Kamal Axundovun "Melodiya" firması tərəfindən buraxılan vallarında müşayiətçi olmuşdur.

Vaxtilə Əsgərin ifasında radio fonduna qəbul edilən "Tərəkəmə", "Şəlalə" və başqa oyun havaları müntəzəm səsləndirilirdi. Onun istər radiodakı, istər qrammafon vallarındakı ifalarını diqqətlə dinlədikdə hiss olunur ki, bütün bunlar öz biçimində, dürüst və kifayət qədər tutarlıdır. Onun yaradıcılığını izlədikdə təkamül və inkişaf yolunu izləmək mümkündür. O da cazibədar sənət yollarını mərhələlərlə keçib gəlmişdir.

Qarmonunu xarici ölkələrin tamaşaçıları qarşısında səsləndirmək onun da qismətinə düşüb. İnstitut ansablının tərkibində ilk səfər 1965-ci ildə Polşaya olub. Sonra hər il sosialist ölkələrinin birində yenə həmin ansamblın konsertləri təşkil olunub.

Əsgər Həsənov Azərbaycan incəsənət ustalarından ibarət qrupların tərkibində 1982-ci ildə Çexoslovakiyada, 1985-1986-cı illərdə Almaniya və Yuqoslaviyada konsertlərdə çıxış edib.

Əsgər Həsən oğlu Həsənov 1979-cu ildə ailə qurub. Üç övladı, üç nəvəsi var.

Əsgərin toyunda Avtandil İsrafilov və Vəli Qədimov çalıb. Bu toyda bir-birindən maraqlı, zəngin və məzmunlu ifalar səslənib. Əsgər toyun gur məqamında o zaman çox gənc olan, qarmonçalan Xanlar Cəfərovun ifası üçün şərait yaradıb. Hələ sənət aləmində tanınmayan, 23 yaşlı Xanlar yüksək səviyyəli qarmon ifasıyla toy iştirakçıları olan məşhur sənətkarların diqqətini cəlb edib. Toyun səhərisi günü filarmoniya bağında Əsgərə yaxınlaşan xalq artisti, virtuoz tarzən Hacı Məmmədov (1920-1981) ondan Xanlar barədə məlumat alır və onu öz ansamblının tərkibində görmək istədiyini bildirir.

Uşaqlıqdan çalırdı o, qarmonu,
Dəqiq, həssas tuturdu hər bir tonu.
Xeyir-dua aldı Teyyub Dəmirdən,
Üzüağ keçdi sənət xəlbirindən.
Bakıdakı ali təhsil illəri,
Sürətlə apardı onu irəli.
İnstitutda, ansamblda yetişdi,
Qarmon çalmaq ona sevgili işdi.
Sonra digər ansambllarda çaldı,
Daha yüksək bir sənətə yol aldı.
Oldu Bakl musiqi aləmində,
Çaldı xalqımızın toy-düyünündə.
Böyük sənətkarlar onu tanıdı,
Əla ifaçılardan biri sandı.
Qarmonu sevərək çaldı,hey çaldı...
Hər yerdə tərif və təşəkkür aldı.
Qrammafon valındakı "Segah"ı
Titrədir qəlblərdə amanı-ahı.
"Segah"ı radioda da çalıbdı,
Fonotekamızda, fondda qalıbdı.
Öz rəqsləri də gözəl səslənib,
Duyğulu zövqlə, oynaq bəstələnib.
Sənətdə olub Əsgərin öz yeri,
Ardıcıl gəlib uğurlu illəri.
Keçdiyi yol ilə fəxr edə bilər,
Əsl qarmon sənətkarıdır Əsgər.
Ə.Rəhmanlı, 25.11.2013-cü il

2.43. MƏNƏ SADİQ İNSANLARI SEVDİM, DAİM ONLAR ÜÇÜN YAŞADIM...



Bəxtiyar Nurməmmədov

Yazımızın başlığındakı bu sözlər onun xatirə dəftərindəndir. Həmin sözlər onun məzar daşında da əks olunub. Doğrudan da o, öz ailəsinə, doğmalarına, əzizlərinə, yaxınlarına, qonşularına, dostlarına, iş yoldaşlarına, tələbələrinə sədaqətli idi və hamıyla mehriban ünsiyyət yaratmışdı. Həm də onu anlayanları, ona sadiq olanları sevir və daim xoş münasibət bəsləyirdi. Onda özünəsadiqlik, işinə, əməlinə sevgi də var idi. Bu özü də xoşbəxtlikdir.

Mən onu uzun illər idi ki, tanıyır, zəhmətkeş və çalışqan bir insan kimi qəbul edirdim. Zaman gəldi biz iş yoldaşı olduq və onun bir pedaqoq kimi özünütəstiqinin şahidinə çevrildim.

Bəxtiyar Nəsibulla oğlu Nurməmmədov 1947-ci il avqust ayının 10-da Bakının Balaxanı kəndində anadan olub. O,ailənin tək övladı idi. Atası Nəsibulla Nurməmməd oğlu Azərbaycan dəmir yolu idarəsində qatar bələdçisi işləyirdi. Anası Umxanım Bəşir qızı yeganə övladını sevə-sevə böyütməklə bərabər müxtəlif idarələrdə çalışmışdı.

Bəxtiyarın uşaqlıq dövrü Böyük Vətən müharibəsindən sonrakı ağır illərə təsadüf etmişdi. Həmin, çətin zamanda böyüyüb boy atan, təhsil alan bütün Azərbaycan övladları kimi Bəxtiyarin da həyatında həmin illər müəyyən iz buraxmışdı.

Bəxtiyarın atasının əmisi neftçi, sosialist əməyi qəhrəmanı, usta Baba Pirməmməd bu nəslin nümayəndələrinin qürur məmbəyi olmuşdur.

7 yaşlı Bəxtiyar 1954-cü ildə 69 saylı məktəbə daxil olmuş, 8 illik təhsili başa vurduqdan sonra 204 saylı məktəbdə oxumuşdur. O,1965-ci ildə orta məktəbi bitirmişdir. Bəxtiyar bundan əlavə texniki təlim verən məktəbdə də oxumuş, ümumtəhsil məktəbi bitirərkən burada da tam kursu başa vuraraq tornaçı peçəsinə yiyələnmişdir. O, uşaqlıq və gənclik illərindən hərtərəfli, bacarıqlı insan kimi yetişmişdi. Dəmir üstündə döymə sənətini bilir, ədəbiyyatı sevir, şeirlər yazır, fars dilində gözəl danışır, rəsmlər çəkir və musiqi və teatrla məşğul olurdu. Kiçik yaşlarda onun ən böyük arzusu tar çalmaq olub. Atası uşağın musiqiyə olan həvəsini və istedadını hiss edib Sabunçu qəsəbəsindəki mədəniyyət sarayında fəaliyyət göstərən üçillik qarmon kursuna qoyur. O, Əyyub Babayevin (1932-1977) sinfində sənət öyrənir və buranı 1965-ci ildə bitirir.

Orta təhsil illərində Bəxtiyar Balaxanıdakı M.Ə.Sabir adına kitabxanada yaradılmış "Şeir yazarlar" dərnəyinin fəal üzvi idi. Sonralar xalq şairi fəxri adına qədər ucalmış, Azərbaycanın və türk dünyasının sevimli şairi Bəxtiyar Vahabzadə o dövrdə həmin dərnəyə rəhbərlik edirdi. O, dərnək üzvlərini, həmçinin Bəxtiyar Nurməmmədovu şeir, hekayə, xırda satirik səhnə əsərləri yazmağa istiqamətləndirirdi. Bəxtiyar həm də Balaxanı mədəniyyət evinin o dövrdə çox məşhur olan "Təravət" özfəaliyyət xalq çalğı alətləri ansamblının qarmon ifaçılarından biri idi. Ansambla tarzən Sidqi Mustafayev rəhbərlik edirdi. Balaxanı mədəniyyət evinin fəaliyyətinin gur vaxtları idi. An-



Sabunçu mədəniyyət sarayının qarmon sinifi. Ortada müəllim Əyyub Babayev, soldan ikinci Bəxtiyar

samblın mədəniyyət evində, məktəblərdə, istehsalat müəssisələrində konsertləri olur, baxış müsabiqələrdə nəaliyyətlər əldə edirdi. Məşqlərdə və bütün konsertlərdə iştirak edən Bəxtiyar bir sənət adamı kimi öz istiqamətini alırdı. O, burada gələcək ömür-gün yoldaşı Füruzə xanımla tanış olur. Ansamblın əsas müğənnilərindən biri olan gözəl səsli Füruzə xanım Azərbaycan bəstəkarlarının əsərlərini yüksək səviyyədə ifa edirdi.

Ailənin tək övladı olduğu üçün Bəxtiyarı ordu sıralarına aparmadılar. O dövrün mövcud qanunlarına əsasən ali məktəbə qəbul olunmaq üçün Bəxtiyar iki il istehsalatda çalışmalı idi. 1965-ci ilin oktyabr ayında o, Bakı vaqon təmiri zavoduna I dərəcəli tornaçı işinə götürülür. Bəxtiyar burada çalışdığı zaman işdən kənar ictimai işlərdə də fəallıq göstərir, müəssisədə çalışan həvəskar gəncləri ətrafına toplayaraq özfəaliyyət ansamblı yaradır və ona bacarıqlı rəhbər olur. Bu istedadlı, fəal gənc çalışdığı müəssisə kollektivinin və onun rəhbərliyinin sevimlisinə çevrilir.

Bəxtiyar Nurməmmədov 1967-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna (hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) daxil olur və 1972-ci ildə buranı yüksək ixtisaslı mədəni-maarif işçisi ixtisasına yiyələnməklə bitirir. O, Mərdəkan qəsəbəsində yerləşən 3 saylı uşaq evində musiqi müəllimi işləmişdir. 1968-ci ildən etibarən Sabunçu rayonu ərazisindəki 80, 96, 112, 169, 252 sayli orta umumtəhsil məktəblərdə musiqi-nəğmə müəllimi olmuşdur. Hər bir məktəbdə onun şagirdlərdən ibarət yaratdığı özfəaliyyət ansamblları tədris müəssisələrinin tədbirlərində xüsusi fəallıq göstərmişdir. Musiqidən, yaradıcılıq işindən bir an belə ayrılmağı sevməyən bu fədakar insan uşaqlarla, özfəaliyyətlə işləməkdən heç vaxt yorulmamışdır. Ümumtəhsil məktəblərdə çalışdığı müddətdə onun həmişə şer və dram dərnəkləri də olmuşdur. Konsertlərin, məktəb tədbirlərinin ssenarilərini, proqramlarını həmişə Bəxtiyar müəllim hazırlamış və həmişə də onun hər bir işi təqdirə, tərifə layiq olmuşdur. Rayon səviyyəsində keçirilən bədii-kütləvi tədbirlərdə də onun işindən bəhrələnir və ssenarini ona həvalə edirdilər.

Yazıçı Gülrux Əlibəyli deyir: "Hər günü Allah payı, təbiətin sovqatı kimi qavramaq, hər saatdan, dəqiqədən, saniyədən şükranlıqla zövq almaq hər kəsin haqqıdır".

Bəxtiyar müəllim ona verilmiş payın dəyərini yaxşı anlayırdı, işə, yaxşı əməllərə, dəyərlərə sərf etdiyi məqamların qiymətini yaxşı bilir və bütün bunlardan şükranlıqla zövq alırdı.

B.Nurməmmədov 1971-ci ildə Bakı Kitabxanaçılıq Texnikumuna (sonralar Bakı Mədəni Maarif Texnikumu, hazırda Bakı Humanitar Kolleci) qarmon ixtisası üzrə müəllim dəvət olunub və ömrünün sonuna qədər burada çalışıb. O, qarmonun not tədrisi üzrə bacarıqlı müəllim kimi özünü doğruldub. Bu elə bir dövrə təsadüf edirdi ki, orta ixtisas təhsili müəssisələri arasında qarmon yalnız Mədəni-Maarif Texnikumunda tədris olunurdu və bu ixtisas üçün proqramlar və tədris vəsaitləri yox idi. Hələ buna aid kitablar nəşr olunmamışdı. Müxtəlif not əsərlərindən, digər çalğı alətləri üçün yazılmış vəsaitlərdən köçürmələr etmək lazım idi. Bütün bunları Bəxtiyar müəllim əziyyətə, zəhmətə qatlaşaraq edirdi. Texnikumda çalışdığı illərdə o, müəllim heyətinin və bütün tələbələrin rəğbətini qazanmışdı. İşgüzarlıq, işə məsuliyyət, nümunəvi əxlaq, yüksək mədəniyyət, mehribanlıq və təmizlik öz nəticəsini vermiş və sahibinə hörmət gətirmişdi. Bu sətirlərin müəllifi 2002-ci ildə Bakı Mədəni-Maarif Texnikumunda pedaqoji fəaliyyətini davam edərkən bu qeyd olunanların şahidi olmuşdur. Bəxtiyar Nurməmmədov 1971-1975-ci illərdə Bakıxanov (əvvəlki adı Razin) qəsəbəsindəki Adil İsgəndərov adına mədəniyyət sarayında "Məktəbli teatrı" yaratmış, burada həvəslə və bacarıqla yaradıcılıq işləri ilə məşğul olmuş, teatrı sevən məktəblilərin asudə vaxtlarının mənalı və səmərəli keçməsi üçün əlindən gələni etmişdir. O, uşaqlara teatrı, incəsənəti



Soldan: Çingiz Maqsudov, Zümrüd Həbibova və Bəxtiyar Nurməmmədov. Bakı Mədəni-Maarif Texnikumunda tələbələrdən kurs imtahanı götürərkən.

sevdirir, onlarla ciddi iş aparır və tamaşalara maraqlı quruluşlar verirdi. Onun hazırladığı tamaşalar mədəniyyət sarayının özündə və məktəblərdə nümayiş etdirilirdi. Bəxtiyar teatr sənətini çox sevirdi. Bakıdakı teatrların tamaşalarına gedib baxırdı. Milli Dram Teatrı Moskvaya səfər edərkən ora da gedər, tamaşa edər və teatrımızın uğuruna sevinərdi.



Bəxtiyar Nurməmmədov səhnədə aktyor kimi

Bəxtiyar müəllim 1980-ci ildən 2000-ci ilə kimi A.İskəndərov adına mədəniyyət mərkəzinin "Mahur" adlı özfəaliyyət instrumental ansamblına rəhbərlik etmiş, musiqi həvəsli yeniyetmələrin və gənclərin sənət öyrənmələrinə, bu yolu davam etmələrinə şərait yaratmışdır. Onun ansamblının yaşlı, qocaman müğənniləri də var idi. "Mahur" ansamblı öz bacarıqlı və işgüzar rəhbəri Bəxtiyar Nurməmmədovun sayəsində şərəfli və məhsuldar yaradıcılıq yolu keçib. Ansambl rəhbəri kimi o, öz yerində olan bir musiqiçi idi, bu işi ürəkdən sevirdi, yetirmələrinin püxtələşməsinə çalışırdı. Bəxtiyar müəllim doğrudan da ansambl işini bacarırdı. O, ansambla rəhbərlik etdiyi illərdə dəfələrlə fəxri fərmanlar, diplomlarla təltif olunmuş və pul mükafatları almışdır. 1985-ci ildə faşizm üzərində qələbənin 40 illiyinə həsr olunmuş bədii özfəaliyyət müsabiqəsində ona laureat medalı, bədii özfəaliyyətin inkişafında xidmətlərinə görə döş nişanı verilmişdir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Bəxtiyar Nurməmmədovu "Həmkarlar İttifaqında xidmətə görə" döş nişanı ilə təltif etmişdir.

Respublikamızda mərhələlərlə "İstedadlar axtarırıq" devizi ilə baxış-müsabiqələr təşkil edilmişdir. Belə bir tədbir 1985-ci ildə də uğurla keçirilmişdir. Müsabiqədə "Mahur" ansamblı da iştirak etmiş və onun solisti, müğənni Mehriban Quliyeva birinci yerə layiq görülmüşdür.

"Mahur" ansamblı nəinki mədəniyyət sarayında, eləcə də istirahət parklarında, istehsalat müəssisələrində, hərbi hissələrdə, rayonlarda, məktəblərdə konsertlər verir, baxış-müsabiqələrdə nəaliyyətlərə imza atır, Rayon İcra Hakimiyyətinin bayram tədbirlərini rövnəqləndirirdi. Bu ansamblda ilk addımlarını atan, sənət qaydalarını, ifaçılıq sirlərini öyrənən və buradan pərvazlanların sayı xeyli çoxdur. Bəzilərinin adını çəkməklə kifayətlənəcəyik. Əməkdar artistlərdən Almaz Ələsgərova, Teyyub Aslanov, tanınan müğənnilərdən Rüfət Axundov, Xuraman Ələsgərova, Cahid Əlibəyov, Mehriban Quliyeva, Aynurə Şirinova və b. bu sıradadırlar. Müxtəlif alətlərin ifaçıları olan neçə-neçə musiqiçilər də "Mahur"un yetirmələri olmuşlar.

Yazı müəllifi kimi qeyd edirəm ki, oğlum, qarmon ifaçısı Mikayıl Rəhmanlı 1990-cı illərin sonlarında həmin ansamblın üzvlərindən biri idi. Bir dəfə onların məşqində olmuş, əyləşib dinləmişdim. Bəxtiyar müəllimin ansambl ilə işləməsi, hər bir musiqiçiyə fərdi yanaşması, səbrlə hər bir musiqi cümləsi üzərində işləməsi və müğənniləri müşayiət etmə məsələlərinə ciddi yanaşması çox maraqlı idi.

Qarmon ixtisasının tədrisində xüsusi təcrübə qazanan və bu işin inkişafına çalışan Bəxtiyar

Nurməmmədov dərs kitabları hazırlamaq barədə də düşünürdü. 1989-cu ildən başlayaraq üç hissəli "Qarmon məktəbi" adlı tədris vəsaiti hazırlamışdı. Gərgin əməyin və zəngin zehnin bəhrəsi olan bu işin yaxşı nəticəsi ola bilərdi. Təkcə nəşr işi qalırdı.

Mədəni-Maarif Texnikumu yataqxanasının birinci mərtəbəsindəki otaqlarda fərdi dərslər keçilirdi. Otaqların biri də Bəxtiyar müəllimin sinif otağı idi. Qarabağ müharibəsi zamanı döyüş bölgələrindən Bakıya pənah gətirən soydaşlarımızın bir dəstəsi də Mədəni-Maarif Texnikumunun yataqxanasında yerləşdirilmişdi. Müharibə gedən ərazidən canlarını götürüb çıxan qaçqınlar yerləşdikləri otaqlarda özləri üçün yaşayış şəraiti düzəldərkən buradakı proqramları, dərs vəsaitlərini, jurnalları gərəksiz sanıb ora-bura tullamışdılar. Atılan dəftər-kitablar arasında Bəxtiyar müəllimin "Qarmon məktəbi" də it-bata düşmüşdü. Beləliklə onun neçə illər üzərində zərgər dəqiqliyi ilə işlədiyi vəsait tələf olmuşdur.

Bəxtiyar Nurməmmədov 4 saylı UMM-də dərs demiş, bu işindən xüsusi zövq duymuş və burada xüsusi təcrübə ilə çalışmışdı.

O, Qara şəhərdəki "Qırmızı ulduz" klubunda da səmərəli fəaliyyət göstərmişdi. Burada çalışmaq onu ilgiləndirir və dərin zövq bəxş edirdi.

Bəxtiyar müəllim 2000-ci ilin sentyabr ayında Milli Konservatoriya nəzdində Musiqi Kollecinə qarmon ixtisası üzrə dərs demək üçün dəvət olunmuşdu. O, kollecdə xüsusi həvəslə işə başlamışdı. Lakin, ürək xəstəliyi onu bütün fəaliyyətindən kənar qoydu. Bu fədakar insan 2000-ci ilin yanvar ayından ürək xəstəliyinə tutulmuşdu. Səhhətindəki ciddi narahatlıqlar onu sevimli işindən ayırdı. O, 2001-ci ilin avqust ayından öz ərizəsi ilə işdən azad olundu. Ömrünün sonlarında o, ev şəraitində müalicə alırdı. Xəstəliyi isə get-gedə şiddətlənirdi.

Yazı müəllifi kimi öz fikirlərimi əlavə etməli oluram: "2001-ci il sentyabr ayının 28-də ağır avtomobil qəzasına düşərək əlil qalıb, iki ay səkkiz gün xəstəxana həyatı yaşayıb evə qayıdandan sonra, xeyli müddət gəzə bilmədiyim üçün Bəxtiyar müəllimlə bir neçə dəfə ev telefonu vasitəsilə əlaqə saxladım. İki ağır xəstənin, iki əlilin kövrək, qəmli hisslərini başa düşmək, dərk etmək zənnimcə oxucular üçün o qədər çətin deyil. Telefon söhbətlərimizdə mən onun bərk kövrəldiyini, məsafələr verərək danışdığından isə ağladığını hiss edirdim. Elə əslində mən özüm ondan daha həyəcanlı, ağrılı və kövrək anlar yaşayırdım".

Allah Bəxtiyar müəllimə rəhmət eləsin. O, 2002-ci il fevralın 5-də, 54 yaşında dünyasını dəyişib. Mən səhhətimlə bağlı onun dəfn günündə və "üç mərasimi"ndə iştirak edə bilməsəm də, nəhayət özümdə güc tapıb, qoltuq ağacları vasitəsi və sənət dostumuz Baxışəli Əliyevin köməkliyi ilə Bəxtiyarın "cümə axşamı" mərasimində gedə bildim. Binanın dördüncü mərtəbəsinə, onların mənzilinə pilləkanlarla qalxmağıma Baxışəli və onun əmisi oğlu Məmmədqulu kömək etdi. Ailə üzvləri belə xəstə, əlil vəziyyətimdə ora gəlməyimdən narahatlıqlarını bildirdilər. Onlar mənim əziyyət, zəhmət çəkdiyimi söyləyib, hüzrə gəlməyimi məndən ummadıqlarını bildirib, razılıqlarını dilə gətirsələr də, mən Bəxtiyarın yas mərasiminə gəlməklə insanlıq borcumdan çıxdığımı və rahatlıq tapdığımı dedim.

Haşiyə çıxaraq, Bəxtiyar Nurməmmədovun kino sahəsindəki fəaliyyətini də oxucu nəzərinə çatdırmaq istərdik. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının çəkdiyi neçə-neçə filmlərdə Bəxtiyar epizodik rollarda və kütləvi səhnələrdə çəkilmişdir. Nümunə üçün "Yeddi oğul istərəm", "Arxadan vurulan zərbə", "Qərib cinlər diyarında", "Şir evdən getdi" filmlərini qeyd edə bilərik. O, "Mosfilm"in istehsalı olan "Andam üzərində gecə" ("Noç nad Andami") filmində də çəkilmişdir. Bütün bunlar onun kino sənətinə olan sevgisi ilə bağlı idi.

Bəxtiyar Nurməmmədov 1968-ci ildə Füruzə Şahhüseyn qızı ilə ailə həyatı qurub. Məhəbbətlə yaranan bu ailədə üç övlad pərvazlanaraq həyata qol-qanad açıb. Ata-ana övladların şad-xürrəm böyüməsi, sənət sahibi olub cəmiyyətdə özlərinə layiqli yer tutması üçün var gücünü sərf etmişdir.

Füruzə Nurməmmədova ixtisaslı mütəxəssis kimi 42 il mədəniyyət sahəsində çalışmışdır.

Böyük oğul Etibar A.Zeynallı adına Musiqi Texnikumunun tar sinfini bitirmişdir. Bakının Bül-Bülə qəsəbəsindəki mədəniyyət evində bədii rəhbər vəzifəsində çalışmışdır. O, A.İsgəndərov adına mədəniyyət mərkəzinin tar sinfində dərs deyir. Foto yaradıcılığı ilə məşğul olur. Etibar iki oğul atasıdır.

Kiçik oğul Elxan A.Zeynallı adına Musiqi Texnikumunun kamança sinfini bitirmişdir. Azərbaycan Dövlət Filarmoniyasında çalışır. Fikrət Əmirov adına Azərbaycan Dövlət mahnı və rəqs ansamblında kaman ifaçısıdır. Atasından sonra "Mahur" instrumental ansambla rəhbərlik edir. O, iki övlad atasıdır.

Zeynəb Bəxtiyar qızı Əbdülrəhimova Bakı Xoreoqrafiya məktəbini bitirmişdir. Bir oğul anasıdır.

Bəxtiyar müəllimin fəaliyyəti, gördüyü işlər və qazandığı uğurlar haqqında qəzetlərdə, dərgilərdə elə sağlığındaca xeyli sayda məqalələr getmişdir. Füruzə xanım bütün bunları əziz xatirə və dəyərli sənədlər kimi qoruyub saxlayır. Yazılmış oçerklər, alınmış müsahibələr Bəxtiyar müəllimin haqqında çox şey deyir. Ətraflı təəssürat yaradır. Bütün bunlar mədəniyyətimizə, bədii özfəaliyyətə, yaradıcılıq işlərinə ömür həsr etmiş sədaqətli bir insan həyatının müəyyən anlarını əks etdirir. Biz də onun unudulmamasına çalışdıq, gördüyü işlərin dəyəri naminə onun şərəfli adını musiqi mədəniyyətimizin tarixinə yazmaq istədik. O da bu dünyada yaxşı iz qoyan, xatırlanmağa layiq soydaşlarımızdan biridir.

2.44. QƏRBİ AZƏRBAYCAN TOY-BÜSATINDA QARMON SƏSLƏNİRDİ

Haqqında oçerk yazdığım qarmonçu ilə 1990-cı illərin ortalarında Bakı şadlıq saraylarındakı toylarda birlikdə çıxış etmişik. Həmin toyların bəziləri həmin qarmonçalanla, bəziləri isə müğənni Teymur İmanlı ilə vədələşib danışılmış məclislər idi. Tanışlığı, aramızdakı münasibəti Teymur İmanlı yaratmışdı. Onlar toy dəstəsi şəklində birlikdə çalışırdılar. Qarmonçu Abbası 1988-ci ildə Qərbi Azərbaycandan (Ermənistan respublikasından) köçkün düşüb Azərbaycana pənah gətirən həmkəndliləri öz toy-nişanına dəvət edirdilər. Mən toyların idarə edəni, masabəyi idim. Abbasın öz elliləri tərəfindən sevilməsinin, hörmət-izzətlə qarşılanıb yola salınmasının şahidi olmuşdum. Abbas Bakıda məskunlaşarkən müğənnilərdən Qəhrəman Rəhimov, Nəbi Qafanlı və digərləri ilə toylarda çıxış edirdi.

Abbası həmişə həlim təbiətli, istiqanlı, söhbətcil, mərifətli və mədəni adam kimi müşahidə etmişəm.

Abbas Məşədi İsmayıl oğlu Qasımov 1947-ci il sentyabrın 15-də Qərbi Azərbaycanın Zəngibazar əyalətinin Yuxarı Necili kəndində anadan olub.

Məşədi İsmayıl kişi və Həvva xanımın mehriban, zəhmətsevər ailəsində iki qız və bir oğul pərvazlanıb. Abbas sonbeşik övladdır.



Abbas Qasımov

Məşədi İsmayıl Abbas oğlu (1898-1981) savadlı şəxs idi. Əvvəllər mollaxanada oxumuş, ərəb dilini mükəmməl öyrənmiş, sonralar isə sovet təhsili almışdı. O, kommunist partiyasının üzvü olub. 1939-1942-ci illərdə öz kəndlərində kolxoz sədri işləyib. Təltiflər alıb. 1942-ci ildə Sovetlər ölkəsi ilə Almaniya arasında gedən müharibəyə çağrılıb. Müxtəlif döyüş bölgələrində olub və 1946-cı ildə evə qayıdıb. O, sonrakı illərdə təsərrüfat işlərində çalışıb.

Həvva xanım (1905-1985) ömür yoldaşına arxa, dayaq olaraq, ailənin bütün çətinliklərini zərif çiyinlərində daşıyaraq övladlarını qayğı və məhəbbətlə böyüdüb. Onun çox gözəl səsi olub. Arabir evdə özü üçün oxuyarmış. Yaxşı hafizəsi varmış, dastanları əzbər bilirmiş.

Zəngibasar ərazisi vaxtilə Uluxanlı adlanıb. Zəngi çayın adıdır. Bu çay öz mənbəyini Alagöz (el arasında Ələyəz) adlanan dağdan götürür və gəlib Araza qovuşurdu. Zəngi çayı dəfələrlə aşıb-daşar və ətrafı basardı. Elə bu səbəbdən də bu torpağı xalq Zəngibasar adlandırmışdır. Müəyyən dövr ərzində bu ərazi Uluxanlı adlansa da, 1957-1958-ci illərdə çayın aşıb-daşması bu yerlərin tarixi adını özünə qaytarıb. Lakin ermənilər 1969-cu ildə Zəngibasar adını dəyişib, Masis adlandırıblar.

Zəngi çayı Zəngi kəndi ilə Yuxarı Necili və Aşağı Necilinin arasından keçirdi. Bu ərazi ilə Türkiyə sərhədi arasında 5-6 km məsafə vardır.

Abbas Qasımov 1954-cü ildə kənddəki məktəbin 1-ci sinfinə daxil olub və 1966-cı ildə orta təhsili başa vurub. Abbas da adi kənd uşaqları kimi müxtəlif oyunları oynayar, çəmənliklərdə qaçıb-yürüyər, qoyun-quzu otarar, eşidib yadında saxladığı, radiodan dinlədiyi mahnıları züm-zümə edərdi.

Abbasın dilindən eşitiklərim: "Musiqiyə, çalıb-oxumağa o qədər həvəskar idim ki... Kəndimizdə toy olanda mağarda əyləşib sazanda dəstəsini dinləyirdim. Elə az yaşlarımdan toylara həvəs göstərmişəm. Diqqətim musiqiçilərdə olurdu. Rəqs edənlərə tamaşa edəndə oynamaq həvəsinə də düşürdüm. Anam xəbər göndərirdi ki, Abbasa deyin, gəlsin evə, getmirdim. 7-8 yaşlarından toy-mağardan əl çəkməmişəm. Elə bil hansısa bir cazibə qüvvəsi məni musiqi olan yerə çəkib aparırdı.

4-cü sinifdə nəğmə dərsində uşaqların hamısı müəllimin proqram üzrə bizə öyrətdiyi mahnıları oxuyanda, mən Qulu Əsgərovun ifasından eşitdiyim "Dilkeş" muğamını və təsnifi oxuyurdum. Uşaqlar gülüşəndə müəllim deyirdi: – Sakitləşin, o, yaxşı oxuyur, gələcəkdə xanəndə ola bilər.

Coğrafiya fənnindən bizə Sənan Qədiməliyev dərs deyirdi, mənim oxumağımı xoşlayırdı. Tənəffüs zamanı məni müəllimlər otağına aparar və oxudardı. Qulu Əsgərovun repertuarından "Bəyənmir məni", "Muğana ceyran" mahnılarını, Zeynəb Xanlarovanın ifasından öyrəndiyim "Şur" təsnifini oxuyardım.

Əyani şəkildə qarmonu birinci dəfə kəndçimiz Miriş Mir Əziz oğlunda görmüşəm. O, həvəskar musiqiçi idi, yarımtonsuz qarmonu vardı, onu çalardı. Qarmonu ilk əvvəl onda görüb-eşitmişəm. Həm çalır, həm də oxuyurdu. Məndə həvəs baş qaldırırdı ki, kaş mənim də qarmonum olaydı, çalğı öyrənəydim".

Abbasın qavalı var idi, onu çalırdı. Qarmon çalmaq həvəsi isə onu bir an da tərk etmirdi. Radiodan, qrammafon vallarından Teyyub Dəmirov, Məmmədağa Ağayev və Abbas Abbasovun ifalarını eşidərək qarmon sənətinə həvəsi daha da çoxalmışdı. O, qarmon səsinin sehrinə düşmüşdü. Axşam yatağına girəndə yuxudan əvvəl və səhər oyanan kimi qarmonun səsi onun qulaqlarında, beynində idi. Abbas qarmon tapmaqda Mirişin ona kömək etməsini xahiş etdi.

Abbasın xatırladıqlarından: "Miriş dedi, İrəvan univermağına baxmışam, orada qarmon yoxdur. Sarvanlar kəndində bir nəfərdə qarmon var, gedək o aləti sənə alaq. 1964-cü il idi. Miriş kişi ilə Sarvanlar kəndinə getdik. Həbibgildən qarmonu istədik. Əvvəl vermədilər. Xeyli xahiş-mindən sonra axır ki, qarmonu ala bildik. Bu da Mirişin qarmonu kimi yarımtonsuz idi. Onu da deyim ki, Mirişin seyid nəslinin nümayəndəsi olması karımıza gəldi. Qarmonu onun xətir-hörmətinə mənə verdilər. 2 il bu qarmonda çaldım və əsgərliyə getdim".

Abbas Qasımov 1966-1969-cu illərdə əvvəl 1 il yarım Belarusiyada, sonra 1 il də Almaniya De-

mokratik Respublikasında xidmət edib. O, həmin müddətdə, boş vaxtlarda bayan və akkordeon çalırdı. Əsgərlikdən kəndə qayıdan Abbas, az sonra 1969-cu ilin yayında Bakıya gəlir və ümumi mallar satılan mərkəzi mağazadan "Kazan" markalı, xromatik səs düzümlü (yarımtonlu) qarmon alır. Onun sevinci yerə-göyə sığmır. Hədsiz sevinclə kəndə qayıdır və gecə-gündüz məşq edir. Lent yazıları və qrammafon vallarında olan bütün qarmon çalğılarını dinləyib sənət öyrənir.

Abbasın xatirələrinə qayıdaq: "Zəngibasarın digər kəndlərində zurnaçı dəstəsilə toylar olurdusa, Yuxarı və Aşağı Necilidə şənliklərimizin əsas musiqiçi heyəti tar, kaman və xanəndə idi. Ağlım kəsəndən görmüşəm ki, bizim kənddə tar, kamança və qavalçalan çalıb-çağırıb. Xanəndə həm də qaval çalaraq oyun havalarını, mahnıları müşayiət edirdi. Xanəndə Yusif Babayev və Əyyub toy məclislərimizdə tar-kamanın müşayiətilə oxuyurdular. Tarçalan Kamil Misgərov, Hüseynalı, Sabir, kamança ifaçıları Kamil, Abbas kəndimizin toy şənliklərində çalardılar. Bu dəstələrin üzvləri İrəvan şəhərində yaşayırdılar. Mənim 10-12 yaşım olanda İrəvandan kamançaçalan Hüseyn kişi də toy-büsatımıza dəvət olunurdu. Toylar üç gün-üç gecə, sonralar iki gün-iki gecə olardı. Daha sonralar bir günlük toylar dəb şəklini aldı."

Haşiyə: "Kamança ifaçısı Hüseyn İrəvan şəhərində müğənniliyə qədəm qoymuş, SSRİ xalq artisti Rəşid Behbudovun vasitəsilə Bakıya gəlmiş, onun rəhbərlik etdiyi Mahnı Teatrında çalışmış, hazırda xalq artisti fəxri adını daşıyan Mübariz Tağıyevin atası idi."

XX əsrin 50-ci, 60-cı illərində Zəngibasar ayalətinin toy-nişanının əsas sənətkarlarından biri də qarmonçu İsa Cəfərov olmuşdur. Onu bütün kəndlərin şənliklərində görmək mümkün idi. Əfsus ki, ailə üzvlərindən heç kəs qalmadığı üçün onun haqqında geniş məlumat toplaya bilmədik. Onun həmyerliləri, bu gün Bakıda məskunlaşan soydaşlarımız vaxtilə doğma el-obada toy-nişan şənliklərinin carçısı olan, sevimli qarmonunu sinəsinə sıxıb şənlik mərasimlərinə şirinlik qatan İsa Cəfərovu hörmətlə xatırlayırlar. Bu sətirlərin müəllifilə birlikdə çalışan, Bakı Humanitar Kolleci direktorunun təlim-tərbiyə işləri üzrə müavini Qabil öz gənclik çağlarında, tələbəlik illərində yay tətili zamanı doğma yurda dönərkən, tez-tez İsa Cəfərovun toylarda çaldığını gördüyünü söylədi. Onun məlumatı əsasında qarmonçu İsanın adını 2008-ci ilin fevralında nəşr etdirdiyimiz "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi" adlı əsərimizdə ümumi siyahılara salınmış ifaçılar sırasında qeyd etmişik.

Uşaqlıq və gənclik illərində Abbas Qasımov el şənliklərində İsa Cəfərovun ifasını dəfələrlə dinləmişdir. İsadan sonra o yerlərin toylarının əsas qarmonçalanı Abbas Qasımov olmuşdur.

Onun söhbətlərindən: "Qarmonçu İsa toylarda çalanda arabir oxuyardı da. Yaxşı yadımdadır ki, o, "Xalabacı" xalq rəqs melodiyası əsasında bir məzəli mahnı oxuyardı:

Mənim toyuğum ağ idi,
Dərisi dolu yağ idi,
Dünən bu vaxtı sağ idi.

Nəqərat:
Səni yanasan toyuq aparan,
Odlanasan toyuq aparan.

Mənim toyuğum banlardı,
Nənəm onu çox danlardı,
Adam kimi dil anlardı.

Nəqərat:
Səni yanasan toyuq aparan,
Odlanasan toyuq aparan.

Mənim toyuğum çil-çil idi,
Qanadları mil-mil idi,
Toyuq deyil, bir fil idi.

Nəqərat:
Səni yanasan toyuq aparan,
Odlanasan toyuq aparan.

Qarmonçu İsa ilə kənd toylarına xanəndələrdən ya Əyyub, ya Əli Quluyev, ya da Yusif Babayev gələrdi."

Abbas Bakıdan alıb gətirdiyi qarmonla toylara getməyə başlamışdı. Bu 1970-ci ilə təsadüf edir. Onun ilk çaldığı toy çox uğurlu olmuşdu. Dəstəsinin klarnetçalanı Kamil Mehdiyev, nağaraçalanı Yolçu idi. Bu dəstə Zəngibasarın (Masis) mərkəzinə və bütün kəndlərə toylara gedirdi.

Abbas qarmon ifaçılarından Zakir Mirzəyev və Aftandil İsrafilovun radio lentlərini və qrammafon vallarını lap çox dinləyirdi. O, özünü əsl qarmon ifaçısı kimi hazırlayırdı. Çalğısını Zakir Mirzəyevin sənətinə bənzətmək istəyirdi.

Abbas Qasımov 1971-ci ilin avqust ayında Bakıya gəlmiş, soraqlaşıb Zakir Mirzəyevi tapmış və onun vasitəsilə özünə əsl sənətkar qarmonu almışdı. Bu alətlə daha yaxşı çalırdı. O, 1976-cı ildən klarnet ifaçısı Etibar və nağaraçalan Allahverdi Kərimov qardaşları ilə sənət yoldaşlığı edirdi. Toy şənliklərinə özlərilə xanəndə aparsalar da məclis iştirakçıları mütləq Abbası da oxudardılar. Hətta "bəy tərifi"ndə də Abbasın bir-iki ağız oxuması labüd idi. Abbas Qasımov şənliklərdə Qulu Əsgərov kimi "Bayati-kürd" muğamını, "Bəyənmir məni" mahnısını, Teymur Mustafayev kimi "Segah" üstdə, Sədinin "Ey sarıban, ahəstə get, aramı canımdır gedən" rədifli qəzəlini, Sabir Mirzəyev kimi "Çahargah"ın "Bəstənigar" şöbəsini, Novruz Feyzullayevin ifasındakı təsnifləri, Süleyman Abdullayevin ifasından qavradığı "Mirzə Hüseyn segahı"nı və hətta Qədir Rüstəmovun "Sona bülbüllər"ini oxuyurdu. O, adı çəkilən xanəndələri məharətlə təqlid edə bilirdi. Təbii ki, bu özü də istedad tələb edir.

Abbas Qasımov 1981-85-ci illərdə Aşağı Necili kənd mədəniyyət evində bədii rəhbər işləmişdir. Həmin vaxt o, İrəvan şəhərindəki mədəniyyət işçilərinin ixtisasartırma kursunda təhsil almışdır.

Abbas klarnetçalan və nağaraçı ilə evdə və ya mədəniyyət evində tez-tez məşqlər edərdi. Onlar Aftandil İsrafilov və Vəli Qədimovun vallarından bəhrələnirdilər. Əşrəf Əşrəfzadənin ifaları əks olunan vallar da onların karına gəlirdi. Dövrün tələbinə uyğun olaraq sonralar Abbasgilin dəstəsinə gitara, qoşa nağara və ionika da əlavə edilmişdi.

Abbas xatırlayır ki, 1980-ci ilə qədər üçgünlük toylarda çıxış ediblər. 1981-82-ci illərdən etibarən toy mərasimlərinin günü azaldılıb. Abbasgil Türkiyə ilə sərhəddə yerləşən Rəncbərdə, Sarvanlarda və Həbilikənddə də toy-büsatda çıxış edirdilər. Oralara gedəndə əvvəllər Naxçıvandan xanəndə dəvət edərdilər. Demək olar ki, Naxçıvanın bütün oxuyanları oralara gəlib. Adıçəkilən kəndlər sərhədə yaxın ərazidə yerləşdiyi üçün dəvət olunan musiqiçilərin siyahısı tərtib olunur və 10 gün qabaq hüquq orqanlarına təhvil verilir və buraxılış vərəqəsi alınırdı.

1976-cı ildə Həbilikənddən (Abbasgilin qonşu kəndi) Ələkbər adlı müğənni, Ələddin adlı klarnetçalan yetişdi. Zəngilər kəndindən isə Rəfael peyda oldu. Onları sənət üçün Abbas Qasımov hazırlamışdı. Zəngibasarın daha bir kəndindən, Rəhimabaddan Heydərəli musiqi aləminə qoşa-nağaraçalan kimi gəlsə də, bir müddətdən sonra müğənnilik fəaliyyətinə başlamışdı. O, xüsusilə türk mahnılarını yaxşı oxuyurdu. Abbas adlarını qeyd etdiyimiz müğənniləri Türkiyə ilə Zəngibasar arasında yerləşən kəndlərin şənliklərinə aparırdı. Abbasgilin dəstəsi İrəvanın özündə



Mart 1978-ci il. Kəmddə toy. Sağdan Abbas Qasımov, klarnetçi Ələddin, nağaraçı Allahverdi



1982-ci il. Necili kənd mədəniyyət evinin ansamblı İrəvan şəhərində baxış-müsabiqədə.

keçirilən toy-nişanda da çalırdı.

Abbasın xatirələrindən: "İrəvanlı mahir tarzən Kamil Misgərovla ilk dəfə bizim kənddə, sonra isə Vedinin Şirazlı kəndində toy məclisində birlikdə çalmışıq. O zaman Kamil kişinin yaşı 50-dən yuxarı olardı. Bir dəfə də xanəndə Yusif və Kamillə birlikdə toy yoldaşlığımız olub.

Bizim qonşu kənddən olan Etibar Bakı Kitabxanaçılıq Texnikumunun mədəni-maarif şöbəsində oxuyurdu. Orada Elşad Cabbarovdan balaban dərsi alır, həm də klarnet çalmaq öyrənirdi. Etibarın tələbə yoldaşı, bakılı Hüseynqulu Abdullayev yaxşı nağaraçalan idi. Etibar toylarımıza gələndə onu da özüylə gətirirdi. Hüseynqulu 2 il bizim tərəflərə gəlib və dəstəmizin nağaraçalanı olub. O, Türkiyə sərhədinə yaxın kəndlərdə də bizimlə toy mərasimlərində çalıb. 1976-cı il olardı. Etibara demişdim ki, Bakıdan nağaraçalan və tarçalan gətir. Tarzən Vamiq Məmmədəliyev (hazırda əməkdar artist – Ə.R.) və nağaraçalan Füzuli Əminov (1954-2013) gəlmişdi. Yaxşı çalıb-oxumaq vardı. Zəngibasar rayonunun daha bir kəndindən olan Kamil bu eldən yetişən ilk klarnet ifaçısı olub. O, 1970-ci ildən klarnet sənətinə qədəm qoub.

1976-cı ildən Zəngilər kəndindən Etibar klarnetçalan kimi meydana çıxmışdı. 1980-ci illərin əvvəllərində Qaraqışlaqdan Mehman və Gülağa, həmin illərin ortalarından isə Nizami kəndindən Fərəməz klarnet ifaçılığı sənətinə gələrək, şadyana günlərimizdə xalqımıza xidmət göstərmişlər. Abbas Qasımov adlarını hörmətlə qeyd etdiyimiz bu klarnetçalanların hər biri ilə qədim Zəngibasar elinin hər guşəsində və onun ətrafında toy-büsata rövnəq vermiş, el havalarımızı qanadlandırmışdır.

2.45. RƏQQAS, QARMONÇU VƏ MÜĞƏNNİ



Vaqif Əsədov

İstedadlı insanlarda qeyri-adilik və qəribəliklər olur. Onun qəribəliklərini vaxtında başa düşməyən, dərk etməyənlər çox olur. O isə öz fikirləri və düşüncələri ilə yaşayaraq ömür sələnməsini yaza-yaza gəlir.

İnsan dünyaya gəlir, ona ad verilir. Lakin hər adam öz adını doğrultmur. Vaqif isə ona verilmiş adı keçdiyi şərəfli sənət ömrü ilə təstiq etmişdir. Doğrudan da o, qismətinə düşmüş sənətə, musiqi elminə vaqifdir. Xalqımızın yaradıcılıq çeşməsindən qidalanan, müqtədir sənət nümunəsi göstərən bu insan musiqidə axtardığı səsin sehrinə düşərək şirin xatirəli bir yol gəlib. Onun başqa şəhərlərdə və müxtəlif ölkələrdə pərəstişkarları vardır.

Vaqif Nəsrulla oğlu Əsədov 1948-ci il sentyabrın 20-də Bakıda anadan olub.

O, Bakıdakı 25 saylı orta məktəbdə təhsil alıb. Dərslərini yaxşı oxuyurmuş.

Vaqifgilin ailəsi musiqiyə bağlı idi. Evlərində olan tarı öyrənmək istədikdə onun 10 yaşı var idi. Tarın sinədə tutulma qaydası, xüsusilə köklənməsi Vaqifə çətinlik törətdiyi üçün o, bu aləti çalmaq istəmir. Evdəki diotonik qarmona meyl edir və onda bir-neçə havanı sərbəst çalır.

Vaqifin atası Təbrizdən, anası isə Şuşadan olub.

Ana babası Möhsün kişi məşhur xanəndə, şuşalı İslam Abdullayevlə yaxın dostluq edərdi. O, "Segah İslam" təxəllüsü ilə tanınırdı. İ. Abdullayev Bakıda olarkən Möhsüngilə gələrdi. Balaca Vaqif yarımtonsuz qarmonu ilə çalarkən ustad xanəndənin diqqətini cəlb etmişdi. Hətta bir neçə dəfə Vaqif İslamın oxuduğu "Segaha" dəm tutmuşdu. Məşhur xanəndə öz dostuna tövsiyə edib deyir: "Sənin bu nəvənin incə musiqi duyumu var. Ona yaxşı qarmon alın".

Vaqif diatonik qarmonda xalq havalarının düzgün alınmadığını duyurdu, ustad qarmonçu Adil Hüseynov uşağın qarmonunu usta yanına apararaq, səslərin köklərində dəyişiklik etdirərək Azərbaycan musiqisinə uyğunlaşdırmışdı.

Dostunun məsləhətilə Möhsün kişi nəvəsinə xromatik səsdüzümlü "Kazan" qarmon alır. Vaqifin istedadı aşıb-daşırdı. O qarmon çalırdı, rəqs edirdi, mahnı oxuyurdu. Kiçik yaşlarında olanda Əbilov adına mədəniyyət evindəki rəqs kollektivində, sonralar şəhərin mərkəzində olan böyük mədəniyyət sarayındakı (keçmiş adı "26-lar") rəqs ansamblında oynayırdı. Rəqs sənəti sanki, onun qabiliyyətinə və boy-buxununa biçilmişdi. Allah Vaqifə gözəllik, yar-yaraşıq, qəddi-qamət bəxş edəndə istedadı da ona uyğun vermişdi.

Vaqif oynadığı rəqs ansamblarında xüsusi istedadı ilə seçilirdi. Hər iki kollektivin rəhbəri rəqqas-baletmeyster Adil Rəhimov idi. O, Vaqiflə xüsusi işləyər, qurduğu rəqslərin solo yerlərini ona həvalə edərdi.

Vaqif Əsədov 1960-cı illərin birinci yarısında Azərbaycan Dövlət Televiziyası və Radiosu uşaq xorunun solisti olmuşdur. Xalqımızın məşhur müğənnilərinin əksəriyyəti böyük sənətə buradan boy atıb gəlmişlər.

V. Əsədov uşaq xorunun televizya çıxışlarında "Vətənim" bəstəkar mahnısını, "Şuşanın dağları" xalq mahnısını oxuyurdu.

1965-ci ildə mədəniyyət sarayında üzvü olduğu rəqs kollektivindən seçim edərək Vaqifi Azərbaycan Dövlət Filarmoniyasına, mahnı və rəqs ansamblına işə qəbul etdilər. Gənc rəqqas 10 gün sonra həmin ansamblın tərkibində Moskvaya yola düşür, burada keçirilən mədəniyyət və incəsənət ongünlüyündə iştirak edir.

1967-ci ildə Azərbaycan televiziyasında lentə alınmış "Şur" adlanan filmdə çəkilmiş dörd rəqqas arasında V. Əsədov da vardır. Filmin rejissoru Arif Qazıyevdir.

Artıq 1968-ci ildə mahnı və rəqs ansamblında bəzi kompozisiyalarda Vaqif solist kimi çıxış edirdi. O, məşqlərdə bəzən oxuyur, bəzən isə qarmon çalırdı. Məşhur baletmeyster, xalq artisti Əlibaba Abdullayev Vaqifin hərtərəfli qabiliyyətinə malik olduğunu görüb quruluş verdiyi rəqslərdə bunu nəzərə alır. O, bəstəkar, xalq artisti C. Cahangirovun musiqisi əsasında qurduğu kompozisiyada Vaqifi qarmonçu-rəqqas kimi səhnəyə çıxarır. Bundan başqa "Bulaq başında" adlanan tərtibatda V. Əsgərov müğənni-rəqqas olur.

1968-ci ildə Naxçıvan Muxtar Respublikasına gedən Vaqif bir il yarım burada çalışır. O, Naxçıvan Filarmoniyasının əsas, aparıcı rəqqaslarından biri olur. V.Əsədov 1969-1973-cü illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır. Həmin dövrdə o, qarmon ifaçılığına daha önəm verir və respublikamızın bütün şəhər və kəndlərində toy şənliklərində olur. Yaxşı qarmonçalanlardan biri kimi tanınan Vaqif X. Şuşiniski, Ş. Ələkbərova, S. Qədimova, Ə. Əliyev, R.Muradova, bir sözlə bütün məşhurlarla konsertlərə gedir. Həmçinin o, tanınan xanəndələrin hamısı ilə, o cümlədən Q.Əsgərov, S.Mirzəyev, S.Abdullayev, M.Mütəllimov, Y.Məmmədov, H.Hüseynov, M.Abbasov, İ.Həsənov, R.Şükürov, A.Babayevlə toylarlıda fəaliyyət göstərib.

V. Əsədovun qarmon ifaçılığı milli üslüba istiqamət alaraq həmişə bu ruhda davam etmişdir. Onun çalğısı çox şirin, həddən ziyadə təsirlidir. Onun sənət yolunu mübaliğəsiz klassik formadan qaynaqlanan, xalq musiqisi intonosiyasından güc alan və düzgün istiqamətə yönələn yol saymaq olar.



"Humayun" ansamblının konserti. Müğənni Əlibaba Məmmədov, sağdan üçüncü Vaqif Əsədov

Hörmətli sənətkar 1970-1980-ci illər ərzində "Bakı musiqiçiləri birliyi"ndə çalışmışdır.

Vaqif 1980-1986-cı illər ərzində xalq artisti, xanəndə Ə.Məmmədovun rəhbərlik etdiyi "Humayum" xalq çalğı alətləri ansamblında çalmışdır. 1980-ci ildə bu ansamblın tərkibində Özbəkistanın Daşkənd şəhərində konsertlərdə olmuşdur. O, "Azkonsert"də çalışdığı illərdə "Humayun" ansamblının tərkibində müğənni-qarmonçu kimi çalışmış və müxtəlif yerlərdə konsertlərdə çıxış etmişdir. V.Əsədovun milli ruha köklənmiş çalğısı xanəndə Səxavət Məmmədovun diqqətini cəlb etdiyi üçün onu özü ilə toylara aparmışdır.

Bakı İcraiyyə Komitəsi rəhbərliyinin və Mədəniyyət Nazirliyi İşlər İdarəsinin rəhbərinin göstərişi ilə ilk dəfə 1986-cı ildə restoranlarda musiqi qrupları yaradıldı. Məqsəd yalnız estrada mahnılarının deyil, o cümlədən xalq musiqimizin dinlənilməsi, rəqslərimizə tamaşa edilməsi üçün şərait yaratmaq idi. Vaqif ona verilən tapşırığın öhtəsindən bacarıqla gəlir. Bədii rəhbər kimi V.Əsədov "Karvansaray", "Abşeron" və "Moskva" mehmanxanalarındakı restoranlarda işləmək üçün ansambllar yaradır. O, bu ansambllara milli musiqiçilər, rəqqaslar və müğənnilər cəlb edir və maraqlı proqramlar hazırlayır.

V. Əsədovun xarici ölkələrə sənət səfərinə getməsi 1989-1993-cü illəri əhatə edir. O, "Vətən Cəmiyyəti"nin xəttilə 1989-cu ildə xanəndə Baba Mahmudoğlu və digər sənətkarlarla İsveç ölkəsinə konsertlərə gedir. Həmin ildə xanəndə Arif Babayev, tarzən Ağasəlim Abdullayev, kamançaçı Elman Bədəlov, nağaraçı Xanlar Hüseynov və rəqqaslarla Danimarkaya səfər edir.

Dəfələrlə müğənni B.Dadaşova ilə xarici ölkələrdə olan Vaqif, başqa sənətçilərimizlə, o cümlədən kaman ustası H.Əliyevlə, xanəndə S.Əliyevlə, S.İsmayılova, tarzən F.Verdiyevlə, kamançaçalan Ş.Eyvazova ilə müxtəlif dövlətlərdə çıxışlarda olmuşdur.

Ümumiyyətlə qarmonçu-müğənni 20-dən artıq ölkəyə sənət səfərlərinə yollanmışdır. Bu ölkələrin bəzilərində o, 2-3 dəfə olmuşdur.



1992-ci il. Xarici ölkəyə səfər ərəfəsində. Sağdan birinci Vaqif Əsədov, nağaraçalan Böyükağa Muradov, rəqqaslar və rəqqasələr, soldan birinci Ramiz Quluyev və Şəfiqə Eyvazova.

V. Əsədov 1995-ci ildə yaşamaq üçün ailəsilə birlikdə Almaniyaya köçmüşdür. O, 2001-ci ilə qədər Fransada yaşamışdır. Bu müddət ərzində Avropadakı Türk, Azərbaycan cəmiyyətləri və Kültür dərnəklərilə müntəzəm əlaqədə olaraq onların tədbirlərinə yaxından kömək etmiş, çalıb-oxuması ilə hamını sevindirmiş, Azərbaycan diasporunun yaxın köməkçisi olmuşdur. Vaqif Fransada yaşayaraq Almaniya, Belçika, Hollandiya ölkələrində soydaşlarımızın mədəni-kütləvi tədbirlərinə dəvət almışdır. Sənətçimizin oğullarının üçü də ailələrilə Avropa ölkələrində yaşadıqları üçün ata öz övladlarını və nəvələrini görmək üçün onların məskən saldıqları şəhərlərə hər il gedir.

Hörmətli sənətkarımız 2005-ci ildən öz vətənimizdə daimi yaşamaqda və fəaliyyətdədir.

Vaqif bəy ANS - müstəqil yayım və media şirkətinin 2004-cu ildə "Əməkdar artisi" adı ilə keçirdiyi müsabiqənin diplomantı olmuşdur. O vaxtdan qarmonçu-müğənni kimi məşhurlaşmışdır. V.Əsədov toylara, konsertlərə, şou-proqramlara tez-tez dəvət olunur.

Vaqif Əsədov 2002-ci ildən müğənni kimi səsini lentlərə yazdıraraq 8 xalq mahnısı, 8 bəstəkar əsəri, muğam hissələri oxumaqla xeyli qədim təsnifləri radiomuzun qızıl fonduna təqdim etmişdir.

Vaqif bəyin həyat və yaradıcıq yolu haqqında çəkilən film "Space" telekanalında "Sənətkarın emalatxanası" verlişində 2001-ci ildə nümayiş etdirilmiş və sonralar dəfələrlə təkrar göstərilmişdir. Bu verilişdə onun çəkildiyi "Mahur təsnifi" klipi də xüsusi maraq oyatmışdır.

V. Əsədovun haqqında 2005-ci ildə Vüqar Tapdığın rejissorluğu ilə AZTV-nin çəkdiyi "Tənhalıqdan sonra" sənədli filmi mənalı və təsirlidir.

Sənətkardan jurnalist Tərənə xanımın 13-15 avqust tarixli "Kaspi" qəzeti üçün götürdüyü müsahibə "Mənim Bakımı sökdülər" adlanır.

Vaqif 1991-1993-cü illər ərzində mərhələlərlə İran İslam Respublikasına səfər etmiş, Təbriz və Tehran şəhərlərində ayrı-ayrı fərdlərə və musiqi məktəbində oxuyanlara qarmon ifaçılığının incə-



Vaqif Əsədovun Fransada çıxan diskindən görünüş

liklərini və düzgün qaydalarını öyrətmişdir. Sənətkar ev konsertlərinə, toy şənliklərinə də gedərək ifaçılıq sənətimizi təbliğ etmişdir.

Bir məsələni də xüsusilə qeyd edək ki, Vaqif bəyin 2003-cü ildə Fransanın Lil şəhərində diski çıxıb. O, qarmonda xalq mahnılarımızı çalıb oxuyub.

Vaqif bəy qarmon ifaçılığına başlayandan axtarışdadır. 30 il qarmon düzəldən ustalarla söhbətlər aparmış, qarmonlarımızın səs çalarlığı, səs ardıcıllığı, zilin, bəmin əlaqəsi və s. barədə fikirlərini söyləmiş, sehrinə düşüb axtardığı səsi tapmalarını istəmişdir. O, uzun illərdir ki, sıradan çıxmış qədim qarmonlarımızı bərpa etdirərək ifaçılarımıza qaytarır.

Yeri gəlmişkən bir məsələni də söyləyək ki, vaxtilə ustad sənətkarlarımızda, Kərbəlayi Lətif, Kərbəlayi Abutalıb, Ələkbər Nəzərli, Kor Əhəd və digərlərində olan diatonik qarmonoardakı səs düzümü bizim qədim musiqi ladlarımıza, xalq musiqimizə uyğun nizamlanmışdı. Belə olmasaydı sənətkarlar klassik muğamlarımızı ifa edə bilməzdilər.

V. Əsədov XIX əsrin 90-cı illərinə aid olan 18 dilli, yarımpərdəsiz qarmonu bərpa etdirərək özünə çox maraqlı gələn səs düzümünün şahidi olmuşdur. Bu alətdə 18 ağ dil (klaviş) olsa da, burada qeyri-bərabər temperasiyalı səs düzümü vardır. Qarmonda qədim ladlarımıza uyğun səs düzümü diqqəti cəlb edir. 18 dilin özündə yarımtonlara uyğun səslər köklənib. Həmin qarmonda yuxarıdan 1-ci səs "lya bemol", aşağıdan sonuncu səs "do diyezdir". Qeyd etdiyimiz məsafədə qeyri-bərabər temperasiyalı səs düzümü, qədim ladımız var.

Vaqif bəy qarmon alətinin düzəldilməsi və onun ifaçılığı yolunda ömür sərf etmiş bir fədakardır. Qarmon tembrinin axtarışında zaman sərf edən, alətin səs çalarlığının daha da zənginləşməsinə çalışan, bu işləri özünün tədqiqat obyektinə çevirən Vaqif Əsədov milli musiqimizi qoruyanlardan biri kimi tarixdə qalmalıdır.

2013-cü ildə Vaqif Əsədov müğənni dostu, əməkdar artist Eyyub Yaqubovla Amerika Birləşmiş Ştatlarının bir neçə şəhərində konsertlərdə olmuşdur. Uğurlu keçən konsertlərdə Azərbaycan qarmonuna maraq göstərənlər var idi. Vaqifin ifaçılığı barədə Amerikada çıxan qəzetlərdə yazılar getmişdir. Orada Azərbaycan qarmonunun sehrli səsindən, ifaçılıq qaydalarından söz açılır.

Vaqifin ifasında əsl Azərbaycan üslubu ilə səslənən qarmonun ecazkar, şirin tembri böyük maraq doğurmuşdur. Əlbəttə, bu da bir daha qarmon sənətimizin uğurundan xəbər verir.

2.46. HƏRTƏRƏFLİ BACARIQLI İNSAN



Adil İsrafilov

O, maraqlı söhbətləri, təmkini, geniş, hərtərəfli məlumatlı olması ilə ilk anlardan adamı özünə cəlb edir. Bacarıqlı əllərə, yüksək qabiliyyətə, texniki biliklərə malik bu insan Əmircandakı evinin həyətində yaratdığı səliqəli emalatxanasında kimlərin işinə yaramayıb ki... Buraya radio cihazlarının, maqnitofonların texniki nasazlığını tənzimlətdirmək istəyən tanışlar, qonum-qonşular, səsgücləndirici aparatlarının xarab olan hissələrini düzəltdirmək zərurətində bulunan toy ansamblarının üzvləri, qarmonun içərisinə mikrofon qoşdurmaq istəyən ifaçılar və b. gəlirlər. Gördüyü işlərin çoxunun əvəzini almayan, xərc istəməyən bu xeyir əməlli insana əmircanlılar hətta təxəllüs də veriblər, onu "Şefskiy" Adil kimi tanıyırlar. "Şefskiy" rus sözüdür, "pod şefstfo" sözündəndir, dilimizdə izahı himayə etmək, hamiliyə götürmək, bir sözlə, bir işi görərkən qarşı tərəfdən maddi vəsait almadan öz hesabına etmək deməkdir. İranda pul alınmadan iş yerinə yetirilərkən, buna "məccani" deyirlər.

Haqqında yazı başlamaq istədiyimi bildikdə tərəddüd etdi. Mən isə öz istəyimdə qətiyyətli və israrlı idim. Çünki o, yaxşı musiqiçi, çox bacarıqlı, dəyərli və çoxlarına, həm də musiqi aləminə gərəkli insanlardan biridir.

Adil Fazil oğlu İsrafilov 1948-ci il sentyabr ayının 15-də Bakımızın ən qədim yaşayış yeri İçərişəhərdə, sənətkar ailəsində anadan olub. Adilin əmisi içərişəhərli Hacıağa dövrünün xalq musiqiçiləri arasında yaxşı tanınırdı. O, xanəndə-nağaraçalan idi. Tanınmış nəfəs alətləri ifaçısı Həsən Məhərrəmov və balalbançı-dəmkeş Firudin Nuruyevlə yoldaşlıq edər, toy-nişanda çalıb-oxuyardı.

Adilin atası Fazil ilə anası Nuriyyə xanımın ömür yolları ayrılmalı olur. Fazil kişi yenidən ailə qurur və bu ailədə onun üç oğlu və bir qızı dünyaya gəlir. Adilgil 1963-cü ildə Əmircan qəsəbəsinə köçüblər.

Adil 1955-ci ildə 97 saylı ümumtəhsil məktəbin birinci sinfinə daxil olub və 1963-cü ildə 8-ci sinfi bitirib. O, təhsilini 109 saylı şəhər axşam fəhlə-gənclər məktəbində davam etməklə bərabər, həm də iki il dəmiryolçuların peşə məktəbində oxuyaraq, metropoliten üçün eskalator üzrə maşinist peşəsinə yiyələnib. Bakı metropoliteni istifadəyə verilməzdən əvvəl, Adil artıq burada işləyirdi. İşə qəbul olunmazdan əvvəl o, Moskva şəhərində 4 ay təcrübə keçmişdi.

Adilin 6 yaşı olarkən Nuriyyə xanım sevimli, şirin-şəkər oğluna qarmon almışdı. Bu Kazan şəhərindəki musiqi alətləri fabrikində istehsal edilən 21 dilli diatonik (yarımtonsuz) alət idi. Alətin sol tərəfindəki səs düzümü bizim qarmonlardakı kimi deyildi, "züy"lər yox, baslar var idi. Odur ki, alət üzərində təkmilləşmə aparmaq üçün o dövrdə Bakının Basin (hazırda Füzuli) küçəsində emalatxanada çalışan usta Velçev Valentinə müraciət olunmuşdu. Usta qarmonun sol tərəfində dəm tutmaq üçün 7 ədəd "züy" düzəltmişdi. Çalğı üçün hazır vəziyyətə gətirilsə də anası qarmonu



Adil doğmaları ilə

Adilə vermirdi. Axı o, hələ balaca idi. 21 dilli qarmona gücü çatmazdı. Ana uşağı ağırlığa salmaq istəmədiyi üçün demişdi: "Bir az da boy at, böyü, qarmona gücün çatsın, onda götürüb çalıb öyrənərsən." Nuriyyə xanım qarmonu dolaba qoymuş, qapısını da açarla bağlamışdı.

Nuriyyə xanım məsul işlərdə çalışırdı. Adilin 8 yaşı olarkən o, Çexoslovakiya Sosialist Respublikasına ezamiyyətə getmişdi. Anasının evdə olmamasından istifadə edən Adil mismarla dolabın qıfılını açıb qarmonu götürmüş, dizləri üstə qoyub sinəsinə sıxaraq, çalğı öyrənməyə həvəs göstərmişdi. Onun ən böyük arzusu həyata keçmişdi. Bəs necə? Axı 2 il idi ki, onunçün alınmış qarmonu çalmağa can atırdı. Həvəsdən savayı onun istedadı da böyük idi. Odur ki, az vaxt içərisində sərbəst olaraq öz bacarığı əsasında üç melodiya öyrənmişdi. Bu melodiyalar o zamanlar Azərbaycanda nümayiş etdirilən "Baycu Bavra" məşhur hind bədii filmindən idi. Uşaq bu musiqiləri elə həvəslə çalırdı ki... Balaca Adil Nuriyyə xanımın evə qayıtmasını səbirsizliklə gözləyirdi. O, öz qarmon ifasını, öyrəndiklərini anasına hədiyyə etmək istəyirdi. Ezamiyyətdən qayıdan ana oğlunun qarmon çalğısını görüb, həddsiz dərəcədə sevindi. Fərəhindən gözləri yaşardı. Adili bağrına basdı, saçlarına sığal çəkdi, üz-gözündən, əllərindən öpdü və onu xeyli tərifləyi. Beləliklə, Adil qarmon sənətinə daha da həvəsləndi və radiodan eşitdiyi mahnıları, xalq oyun havalarını öyrənməyə başladı. Adil anasının ona hədiyyə etdiyi qarmonda 15 yaşa qədər çaldı. Əmisi Hacıağa onu məşhur qarmonçu Məmmədağa Ağayevin evinə apardı. Ustad sənətkar İçərişəhərdə yaşayırdı. Ondan Adil üçün Rusiyanın Tula şəhərində çalışan ustaların düzəltdikləri qarmonlardan birini aldılar. O illərdə yenicə sənətə addım atan gənc qarmonçalanların əksəriyyəti Tula qarmonları alıb çalırdılar.

Adil əsl sənətkar qarmonunu öz qazancı ilə almışdı. Axı o, artıq əmisi Hacıağa kişi ilə toylara gedirdi. Təbii ki, özünün yarımtonsuz qarmonu bu işə yaramırdı. Odur ki, toylara gedəndə anasının xalası Bəyimxanımın qarmonunu götürməli olurdu. Bəyimxanım dövrünün yaxşı qarmonçalanlarından biri idi. 50 ildən artıq Suraxanıda və Bakının əksər kənd və qəsəbələrindəki qız toylarında çıxış etmişdi. O, Yeni Suraxanıda yaşayırdı. Əla qarmonu var idi, nadir qarmonlardan sayılırdı. Bu qarmonun sorağı məşhur qarmonçu Teyyub Dəmirova da çatmışdı. O, bu qarmonu ilə toy şənliklərinə, nişan məclislərinə, ad günü və yubiley tədbirlərinə getmişdi. Budur, qarmonu ilə toy şənliklərinə, nişan məclislərinə, ad günü və yubiley tədbirlərinə getmişdi. Budur, artıq o, öz halal qazancına əldə etdiyi alətlə tam sərbəst olaraq şənliklərə gedirdi.

Suraxanı mədəniyyət sarayında qarmon kursu açılarkən orada ilk əvvəllər Əyyub Babayev dərs deyirdi. Adil həmin kursun ilk şagirdlərindən olsa da burada cəmi 7-8 ay məşğul olmuşdu.

O, Əyyub müəllimin tapşırığı ilə şagird yoldaşlarına öyrədirdi.

Sənət qaydalarını pillə-pillə əxz edən Adil İsrafilov 1967-ci ildə L.Şmidt (sonralar Səttarxan) adına maşınqayırma zavodunun mədəniyyət və texnika sarayının özfəaliyyət rəqs ansamblında müşayiətçi-qarmonçalan kimi çalışmağa başlamışdı. O zaman bu ansamblın rəhbəri rəqqas Şahvələd (təxəllüsü Şurik) idi. Ondan əvvəlki illərdə və həmin zaman bu ansamblın əsas müşayiətçi-qarmonçalanı mahir sənətkar Məmmədağa Ağayev olmuşdu. Adilgillə birlikdə tarzən Adil Bağırov da (hazırda xalq artisti) çalışırdı.

Rəqs ansamblının musiqiçisindən xüsusi bacarıq, iti yaddaş və sürətli çalğı tələb olunur. Adil rəqsləri müşayiət edərək, Bakıda, rayonlarımızda və Sovet respublikalarında saysız-hesabsız konsertlərdə olmuş və bir musiqiçi kimi xeyli inkişaf etmişdi. Həmin rəqs ansamblında o, iki ilə yaxın bir müddət ərzində çalışmışdı. Adil Böyükağa Məmmədovun rəhbərlik etdiyi rəqs ansamblında da çalmışdı. Bu özfəaliyyət kollektivi İçərişəhərin qala qapısı yaxınlığında yerləşən Avtomobil Nəqliyyatı İşçilərinin mədəniyyət evində fəaliyyət göstərirdi. Adil artıq qarmon ifaçısı, rəqs quruluşlarını müşayiət edən musiqiçi kimi xeyli inkişaf etmiş və barmaqları cəldləşmişdi.

Azərbaycan Dövlət mahnı və rəqs ansamblının solistlərindən biri olmuş, məşhur rəqqas Ramiz Məmmədov Suraxanı mədəniyyət sarayına istedadlı gəncləri toplayaraq yüksək səviyyəli özfəaliyyət rəqs ansamblı yaratmışdı. Musiqi vurğunu, bacarıqlı qarmonçu Adil İsrafilov 7 aya yaxın müddətdə həmin kollektivin musiqiçisi olmuşdu.

Adil 1970-1972-ci illərdə Moskva şəhərində əsgərlik dövrü keçib. O, hərbi xidmət illərində də musiqidən ayrılmayıb. Hərbi hissədə Qafqazdan gəlmiş əsgərlərdən ibarət rəqs ansamblı və instrumental heyət yaradılmışdı. Adil hər iki ansamblın qarmonçalanı idi. Əsgərliyə gələrkən özü ilə gətirdiyi "Kazan" markalı xromatik qarmon onun işinə yaramışdı. O, ilk əvvəllər ansamblda bu alətdən istifadə edirdi. Sonra isə o, məşqlərdə və konsertlərdə Tulada bizim respublikamız üçün hazırlanan əsl peşəkar, usta qarmonu ilə çıxış edirdi. Bu belə olmuşdu. Nuriyyə xanım hərbi hissəyə oğlunun görüşünə gəlmişdi. Qaydalara əsasən hərbi hissə rəhbərliyi anası ilə görüş üçün Adilə 1-2 günlük gəzinti, istirahət bəxş etmişdi. Moskvaya yaxın olduğu üçün ana və oğul qatarla



Hərbi hissədə konsert. Sağdan: Adil İsrafilov əsgər yoldaşları ilə

Tula şəhərinə gedərək, evlərdə qarmonlar düzəldən ustaları soraqlamışdılar. Ana oğluna 600 "rubl" dəyərində qarmon almışdı və birlikdə hərbi hissəyə qayıtmışdılar.

Adil əsgərlik illərində bayan musiqi alətində çalmağı da öyrənmişdi. Bütün bunlar onun istedadı və həvəsi sayəsində başa gəlirdi. Bayan çalmağı öyrənmək xeyli sonralar da onun karına gələcəkdi. Hərbi hissədə və digər yerlərdə verilən konsertlərdə Azərbaycandan gəlmiş əsgər çox fəal idi. O, özfəaliyyət ansamblının əsas üzvlərindən biri sayılırdı. Axı o, artıq peşəkar musiqiçi olmuşdu. Adil İsrafilov 1972-ci ilin noyabr ayında hərbi xidməti başa vuraraq vətənə dönüb. O, 1973-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olub. Ona tələbə bileti təqdim olunarkən həmin gün onunçün ikiqat uğurlu olmuşdu. O gün onun toyu idi, ailə həyatı qururdu. Toyunda onun öz musiqiçi dostları çalırdı.

Yeri gəlmişkən, qeyd etməliyik ki,hərtərəfli insan olan Adil İsrafilov 1966-1970-ci illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunda oxuyub.

Adil əsgərlikdən sonra Bakı Metropoliteninə, əvvəlki iş yerinə qayıtmamış, tanınmış dövlət xadimi, şəhərimizdəki mühüm tikintilərə məsul şəxs Əliş Ləmbəranskinin yanına gəlmişdi. O, Adili Respublika sarayında ekskalator üzrə mexanik işinə götürmüşdü. Sonralar isə Adil 1974-cü ilə qədər burada mühəndis, elektrik-mexanik işləyib, buradan isə Gənc Tamaşaçılar Teatrına işıq üzrə baş rəssam işinə dəvət olunub və burada bir ilə qədər çalışıb. Həmin vaxt ən iri tamaşa "Üç muşketyor"a işıq tərtibatını vermişdi. Rəngarəng, maraqlı ömür və həyat tərzi keçirən bu layiqli soydaşımız Xalq Təsərrüfatı İnstitutunda 1981-ci ilə qədər klub və kitabxana müdiri olmuş, tədris ocağının klubunda "Xürrəmilər" estrada ansamblının fəaliyyət göstərməsində xüsusi fəallıq göstərmişdir. Adil İnstitutun klubunda müdir işlərkən özfəaliyyət x.ç.a. ansamblına əvvəl tarzən Sabir Ramazanovu, sonra isə qarmonçalan Baxışəli Əliyevi rəhbər dəvət etmişdir. Baxışəlinin Az.TV-də ilk solo çıxışı da bu xətlə olmuşdu.

Adil hərbi xidmətdən sonra foto işi ilə də məşğul olmuşdu.

Adil İsrafilovun ifaçılıq yolu klassik Azərbaycan qarmon sənəti üslubundadır. Onun çalğı qaydaları ustad Teyyub Dəmirovun üslubuna əsaslanıb. Bu üslub onun ifasında həmişə çox gözəl alınıb, məzmununu və təravətini saxlayıb.

Adil vaxtilə əmircanlı klarnetçalanlardan Tofiq Şərifovla, İsrafil Əzimovla və Suraxanı musiqiçiləri ilə toy-büsat anları yaşayıb, məclislər yola verib gəlib. Sonralar restoranlarda, şadlıq evlərində, çadırlarda keçirilən toy şənliklərində səsgücləndirici cihazlar quraşdıraraq səs operatoru, səs rejissoru kimi fəaliyyət göstərib. Bu istedadlı şəxs hərbi xidmət dövründən sonra akkordeon ifaçılığına da yiyələnib. Rusların və tatarların toy şənliklərində bayan və akkordeon çalıb. Bunlardan əlavə o, 10 il ərzində mədəniyyət ocaqlarında keçirilən yeni il şənliklərində (yolka şənliyi) akkordeon və bayan ifaçısı kimi çıxış edib. 2011-ci il dekabr ayının 12-də ARDNŞ-nin Suraxanıdakı mədəniyyət sarayında ondan öz iş otağında müsahibə götürərkən qırmızı rəngli akkordeon və qara rəngli bayan alətləri nəzərimi cəlb etdi. Tərəddüd etsə də xahişimi və marağımı nəzərə alıb, bu alətləri bir-bir götürüb çalan Adil mənə xüsusi zövq bəxş etdi. Bir anlıq 30-40 il əvvəlki dövrlər xəyalən gözümdə canlandı. Qarmon, klarnet, nağara üçlüyü ilə yeni il şənliklərində şam ağacı (yolka) ətrafında əyləşib xalq oyun havalarını çalmağımızla bərabər, akkordeon və bayan ifaçılarının çaldığı melodiyaları xatırladım. Adil öz ifalarında bunları səsləndirərək, sanki məni o illərə, gənclik dövrünə qaytarırdı. Uzun illər ifaçılıqla məşğul olmasa da bu maraqlı insan akkordeon və bayanın repertuarını yadında saxlayıb.

Adil İsrafilov 1990-cı illərin əvvəllərində Moskva restoranlarında qarmon, akkordeon və sintezator çalmışdır. 1992-ci ildə Sankt-Peterburq ətrafındakı Kolpino şəhərində Azərbaycan diasporu xəttilə çalışmışdır. O, burada bizneslə məşğul olsa da, bədii-kütləvi tədbirlərdə musiqiçi kimi öz bacarığını nümayiş etdirmişdir. Adil 1996-cı ilə qədər orada çalışıb. Sonra isə Bakıya qayıda-



"Ocaq başı" restoranında. Ortada Adil İsrafilov, solda əməkdar artist Natiq Nurəyev



Bakıdakı "İzmir" restoranında. Adil İsrafilov restoran rəhbəri ilə



Soğdan: əməkdar incəsənət xadimi Vaqif Gərayzadə və Adil İsrafilov pult arxasında

raq "Sinema-klub"da və "Əyləncə mərkəzi"ndə səsgücləndirici aparatların işləməsinə nəzarət edib və həm də "Qalareya", "Ocaq başı" restoranlarında akkordeon çalıb. O vaxtlar adı çəkilən restoranları türklər işlədirdilər.

Bacarıqlı iş adamları olan Ərcan Günalp və Əyyub Ərməğan restoran işini, bu xidmət sahəsini yaxşı bilirdilər.

Adilin xatirələrindən: "Bakıdakı İzmir, Şıx adlanan ərazidəki restoranda səsgücləndirici aparatlara nəzarət edərək səs rejissoru işini yerinə yetirir və həm də akkordeon çalırdım. Rəşad İlyasov burada həm müğənni kimi çalışır, həm də qanun (kanon) çalırdı. O zaman mən Rəşaddan türk şarkılarını və türkülərini öyrəndim. Restorana təşrif gətirən müştərilərin əksəriyyəti türklər olduğu üçün qardaş xalqın musiqilərini öyrənməyim zərurət idi. Məndə sənət işlətməyə yenidən maraq oyanmışdı.

Ərcan Günalp məni 1999-cu ildə Türkiyənin İzmir şəhərinə apardı. Dəniz kənarında onların restoranı var idi. Orada da akkordeon çalırdım. Ayağım düşərli olmuşdu, işlər əla gedirdi. Odur ki, məni buraxmaq istəmirdilər. Deyirdilər, sən buranın "gözmuncuğu"san, heç yerə getmə, qal bizimlə işlə.

Mən orada tək çalırdım. Məndən əlavə isə türk musiqi qrupu və müğənni çıxış edirdi."

İstəkli soydaşımızın daha bir qabiliyyətini qeyd etməli oluruq. O, 1997-1998-ci illərdə Riqa şəhərində dama mədəniyyəti üzə xalq universitetində təhsil alıb və buranı bitirib. Adil İsrafilov bu sahə üzrə idman ustasıdır. O, həm də 1-ci dərəcəli dalğıcdır. 54 yaşında oradan pensiyaya çıxıb.

Adil İsrafilov 2005-ci ildən ARDNŞ-in Suraxanıdakı mədəniyyət sarayında səs rejissoru işləmişdir. Bədii-kütləvi tədbirlərin, konsertlərin, yubiley və s. şənliklərin yüksək, gözəl səslənmə ilə təşkilində onun mühüm rolu olmuşdur. O, bu gün də musiqi aləmində, sənət adamları arasındadır.

Adil Fazil oğlu İsrafilovun iki övladı, beş nəvəsi var.

2.47. BUZOVNALI MALİK



Malik Dadaşov

XX əsrin 70-ci illərinin əvvəllərindən qarmon ifaçıları arasında bir nəfərin də adı hörmətlə çəkilir və haqqında tərifli sözlər söylənirdi. Tanıtma kimi ona Buzovnalı Malik deyilirdi. Əslində isə o, buzovnalı deyil, maştağalıdır. Lakin Buzovnada dünyaya gəlib, burada boya-başa çatıb, təhsil alıb, sənət öyrənib və ilk uğurlarını da elə burada qazandığı üçün əvvəldən buzovnalı sayılıb.

Yazı müəllifi və bir musiqiçi olaraq, 1960-cı illərin sonları, 1970-ci illərin əvvəllərində sənət yollarına çıxıb kövrək addımlarımla irəliləyərkən, Malikin adını toy sənətçiləri arasında tez-tez eşidirdim. 1976-cı ilin sonlarında əsgərlikdən vətənə dönərkən qardaşım Rəhmanın maqnitofonunda Malikin klarnet ifaçısı Elşad Cabbarovla Buzovnada eyni dəstə tərkibində çıxış etdikləri toydan yazılmış ifalarını diqqətlə dinlədim. Rəhman E.Cabbarovun tələbəsi olub. Odur ki, ustadının toy ifalarının kasetlərini dinləyib öyrənirdi. Həmin ifalarda Malikin klarnet ifaçısı ilə birlikdə çalğısı, xanəndə Şahməddin Salayevi və digərlərini müşayiət etməsi səviyyəli, sanballı və yetərli idi. Beləliklə mən daha bir gənc həmkarımın sənətilə tanış olmuşdum. Sonrakı illərdə Bakı musiqiçiləri arasında həmişə onun sənət meydanında parlamasının və xüsusilə Buzovna qəsəbəsinin toy-büsatının əsas musiqiçilərindən biri olmasının sorağını eşitmişəm.

Malik İmaməli oğlu Paşayev 1948-ci il mayın 3-də Bakının Buzovna qəsəbəsində anadan olub. Bu ailədə altı övlad böyüyüb boy atıb. Malik ikinci övladdır.

Malik istedadlı insanlar, məşhur sənət adamları və böyük ziyalılar yetirən Buzovna qəsəbəsinin zəngin və işıqlı mühitində yetişərək, musiqi incəsənətimizə gəlib. Yeri gəlmişkən qeyd etməliyik ki, onun bibisi Fatma Paşayeva öz dövrünün yaxşı nağara ifaçılarından biri olub. Uzun illər Buzovnada və ətraf qəsəbələrdə qarmon ifaçısı Əşrəfxanımla qadın məclislərinin əsas musiqiçilərindən biri kimi sevilib və böyük məhəbbət qazanıb. Fatma xanım ömrünün gənclik illərini və orta yaş həddini sevimli sənətkarlarımızdan biri kimi xalqımızın çal-çağırına həsr edərək qız-gəlinləimizi, ana-bacılarımızı sevindirib. O, 83 il ömür yaşayıb.

Malikin əmisi Mikayıl Malik oğlu həvəskar klarnet ifaçısı idi. O, 52 yaşında dünyasını dəyişib.

Malik Paşayev 1956-cı ildə 206 saylı ümumtəhsil məktəbin 1-ci sinfinə daxil olub və 8 illik təhsili başa vurduqdan sonra 125 saylı məktəbin axşam şöbəsində oxuyub.

O dövrün tanımlı qarmonçalanlarından biri Xanlar Məlikov Buzovnada Malikgilin məhəlləsində yaşayırdı. Xanlar müəllim Mərdəkan qəsəbəsindəki mədəniyyət sarayında yaradılmış qarmon kursunda dərs deyirdi. Həmin dövrlərdə Buzovnada hər evdə televizor olmasa da Malikgildə var idi. Məhəllənin xanımları televiziya verilişlərini seyr etmək üçün axşamlar Malikin anasının ətrafına toplaşar və saat 22^{00}-a qədər televizora baxardılar. Xanların anası Malikin anasına deyibmiş ki, oğlum Mərdəkanda qarmon kursu açıb, yaxşı olar ki, uşağı ora göndərəsən, dərs alsın.



Malik Paşayevin sənətdə ilk qədəmləri

sənət öyrənsin.

Malikin "Kazan" qarmonu var idi. o, Mərdəkan mədəniyyət sarayındakı qarmon kursunda 5 il təhsil alaraq, ifaçılıq sənətinə qədəm qoydu. Təhsil müddətində o, Xanlar Məlikovdan 7 əsas muğamları, dəramədləri, rəngləri və xalq oyun havalarının əksəriyyətini öyrənmişdi. Bütün bu öyrəndikləri sonrakı illərdə onun karına gəlmişdi. O, evdə məşq edərkən qardaşı Nizami onu nağarada müşayiət edirdi. Malik hələ təzə-təzə qarmon çalmağa başlayanda Nizami masanın üstünü nağara əvəzinə döyəcləyər və ritmləri öyrənərdi. Sonralar isə qardaşının həvəsinə təhsil almış və ən mükəmməl nağara ifaçılarımızdan biri kimi yetişmişdir. Malik musiqi üzrə ikinci sinifdə oxuyarkən uşaqlardan ibarət x.ç.a. ansamblının tərkibində televiziya konsertində çalmışdı. Qohumların, qonşuların, məktəb yoldaşlarının tərifi onu musiqiyə daha da həvəsləndirmişdi.

15-16 yaşlarında Buzovnada xırda şadyana məclislərə; nişan, gəlin gətirdi, ad günü, əsgər yola salınması, əsgər qarşılanması kimi tədbirlərə dəvət olunan Maliki kiçik qardaşı Nizami öz yaş səviyyəsi həcmində çox gözəl müşayiət edirdi. Maliki məclislərə ilk zamanlar klarnetçi Adil aparırdı. Nizami musiqi aləmində tanınan nağara ifaçılarımızdan və bu ixtisas üzrə dərs deyən ən yaxşı müəllimlərimizdən biri kimi göz önündədir.

Malik evdə məşqləri davam etdirir və öz ifaçılıq keyfiyyətlərini yüksəldirdi. Bu işdə ona Avtandil İsrafilovun qrammafon valları, radio ifaları, toylardan toplanmış lentləri yardımçı olurdu. Radioda onun hər hansı bir ifasını eşidən kimi tez qarmonu götürüb təkrar edər, yaddaşına köçürərdi.

Malikin xatirələrindən: "Bir dəfə yoldaşlarımla məhəllədə söhbətləşirdik. Evlərin birinin pəncərələrindən radionun səsi eşidilirdi. Növbəti musiqi səslənəndə Aftandilin ifasını dərhal duydum. İfasında həmişə işlətmədiyi bir "xal" vurdu. Dayanmayıb evimizə yüyürdüm. Qaça-qaça evə daxil olanda anam heyrətlə soruşdu: - A bala, nə olub? Niyə təşvişə düşmüsən? Tez qarmonu qutusundan çıxarıb yenicə eşitdiyim "xal"ı dönə-dönə təkrar edərək mənimsədim. Qarmonu yerinə qoyub ayağa durarkən köks ötürüb dedim: – Ana, bax, mənə lazım olan və məni özünə cəlb edən musiqi hissəsi eşitmişdim, onu yaddaşıma köçürüm deyə, tez evə qaçmışdım".

Söhbət əsasında Malik bunları da qeyd etdi: "Avtandilə qədər də kamil, mükəmməl, mahir qarmonçalanlarımız olub. Onların çalğılarını da dinləmişik. Lakin bizim dövrümüzdə nəzərimizi cəlb edən ən çox Avtandilin ifaları, üslubu və repertuarı olub."

Malik Paşayev 18 yaşında Binə qəsəbə mədəniyyət evinin qarmon kursunda müəllimlik fəaliyyətinə başlayıb və burada 10 il işləyib. O vaxtlar qarmon sənətini öyrənməyə həvəs göstərənlər

çox olurdu. Malikin də şagirdləri çox idi. Hamısı sənət ardınca getməsə də, bu sahədə çalışanlar da olurdu. Malik müəllimin sinfindən yetişənlərdən Ağaqulu, Yaqut və digərləri peşəkar sənətə yönəldilər. Yaqut xanım Binə mədəniyyət evində qarmon dərsi deyir. Malik 3 il idi ki, burada çalışırdı, onu Buzovnadakı 19 saylı uşaq musiqi məktəbinin qarmon sinfində dərs deməyə dəvət etdilər. Malik Paşayev burada da özünü əsl müəllim kimi göstərdi. Ümumiyyətlə qarmon ixtisası üzrə çalışan müəllimlər arasında o, həmişə nümunəvilərdən sayılıb. Buzovnadakı yetirmələrindən bu sahədə bacarıq və hünərlə çalışanlar vardır. Bu sırada Dadaş (Etibar), Kamal Məlikli, Əli, Gülbacı, Fəxriyyə, Gülzar və başqalarının adını çəkə bilərik. Onlardan Buzovnadakı 4 saylı incəsənət məktəbində (əvvəlki 19 saylı UMM) dərs deyənlər də var.

Malik müəllim 4 saylı incəsənət məktəbində 1992-ci ilə qədər çalışıb.

Malik Paşayevin toy fəaliyyəti də geniş və əhəmiyyətli olub. O, uzun illər müxtəlif xanəndələr və musiqiçilərlə çiyin-çiyinə çalışıb. 16 yaşından toylara gedib. İlk əvvəllərdən sənət işlətmək qaydalarını öyrənib, çoxları ilə ünsiyyət qurub, seçdiyi peşəni damla-damla, səbrlə və dözümlə öyrənib. Sənətin ilk illərində Şirvan aşıq məktəbinin nümayəndəsi Aşıq Mərdanla Şamaxı rayonu ərazisində və ətraflarda el-oba toy-büsatında çalıb-çağırıb. O, Aşıq Mərdanla çalışdığı 3 il ərzində bərkiyib, toyların tələbatına uyğun musiqiləri yaxşıca mənimsəyib, el adətləri ilə yaxından tanış olub, ağıra, çətinə alışıb, yuxusuz gecələrə tab gətirib, bir sözlə, əsl el sənətkarı olaraq yetişmək, həqiqi xalq musiqiçisi kimi formalaşmaq üçün buralarda bir növ təcrübə qazanıb, imtahanlardan və sınaqlardan çıxıb. Belə sənətkarlarımız bu gün sənətə qədəm qoyan gənclərimiz üçün əsl örnək sayılırlar.

Malik müəllimin xatirələrindən: "O illərdə Aşıq Mərdanın dəstəsilə Şamaxı bölgəsində qız toylarında da çalırdıq. Belə toylarda kişi cinsi qəti gözə dəyməzdi. Yəni qadın məclislərinə kişilərin



Buzovnada toy həyətində. Malik Paşayev, klarnetçi Elşad Cabbarov və nağaraçı Böyükağa Əbdürrüşüdov

tamaşa etməsi ədəbsizlik sayılırdı. Həmçinin oğlan toyunda qadınların nəinki toyxanaya daxil olması, hətta çadırın ətrafından tamaşa etməsi də məqbul deyildi. Həmin dövrlərdəki toylarda mən həmişə ədəb-ərkanın, böyüyə, qadına hörmətin, el adət-ənənələrinə məhəbbətin şahidi olmuşam. Gənclik illərindən beləcə görə-görə, öyrənə-öyrənə sənət addımlamışıq."

Öz dövrünün tələblərinə əsasən Malik həm də klarnet dəstələrinin məharətli qarmonçaları kimi formalaşmışdı. O, klarnet ifaçılarını yaxşı müşayiət edirdi. Çoxları ilə, bu sıradan Həsən Məhərrəmov (Həsən əmi), Məhərrəm Zeynalov, Vəli Qədimov, Şəmsi İmanov, Elxan Səmədzadə, Əşrəf Əşrəfzadə, Ağaəli Əliyev, Vaqif Hüseynxanlı (Qaraçuxur Vaqif), Tahir Qasımov və Qobulu Əhmədlə toylarımızda çıxış etmişdir.

XX əsrin 70-ci illərində Azərbaycan xanəndəlik sənətinin səmasında bir ulduz da parladı. Bu Məmmədbağır Bağırzadə (1950-2005) idi. O, hələ Azərbaycan məkanında tanınmasa da Bakıda ən sevilən və qəbuledilən bir müğənni idi. Sonralar isə geniş şəkildə nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda məşhurlaşdı, repertuarı, mahnıları hər yerə yayıldı, xalq artisti kimi dünya ölkələrində musiqimizi təmsil etdi.

Malik Paşayev 1970-1975-ci illərdə Məmmədbağır Bağırzadə ilə sənət yoldaşlığı edərək Bakı və Abşeronda saysız-hesabsız uğurlu toylarda çıxış etmişdir. Bu dəstənin tərkibində klarnetçalan Tahir Qasımov, gitaraçı Tofiq Məmmədov (Qara Tofiq), dəmkeş-balabançı Firudun Nuruyev, nağara ifaçısı Ağarza Heybətov və qoşanağaraçı Hüseynbala var idi.

Malik müəllimin xatirələrindən: "Məmmədbağırla tanışlığımız kaman ifaçımız Əlibəndə Əliyev vasitəsilə olmuşdu. Əlibəndə müəllim Buzovna mədəniyyət evinin yetirməsidir. Sonra isə A.Zeynallı adına Musiqi Texnikumunu bitirib, musiqi məktəbində dərs deməklə yanaşı qəsəbəmizin mədəniyyət evinin özfəaliyyət x.ç.a. ansamblına rəhbərlik edib. Məmmədbağır da həmin ansamblın üzvü olaraq məşqlərə gəlir, konsertlərə gedir, sənət öyrənir və püxtələşirdi. O, Əlibəndə müəllimlə birlikdə toylara da getmişdi. O vaxtlar toy şənliklərində elektro-gitara dəbə düşdüyü üçün Məmmədbağır öz toy ansamblına gitaraçalan götürmüşdü. Deməliyəm ki, gitaranın müşayiətilə çox yaxşı oxuyurdu. Bu alətin imkanları və müşayiəti onun oxuma manerasına daha çox



1973-cü il. "Arzu" şadlıq evində toy. Soldan: Məmmədbağır Bağırzadə (1950-2005), Ağarza Heybətov, Vaqif Bağırov, Mirzəağa Məmmədov və Malik Paşayev

uyğun gəlirdi. Onu da deməliyəm ki, klarnetə və qarmona yapışan muğamlarda isə mütləq bu alətlərin müşayiətindən istifadə edirdi. "Segah"da, "Zabul"da qarmonun ecazkar səsindən doymazdı. O, ilk gənclik illərindən şeiriyyətə, qəzəliyyata yaxşı bələd idi. Muğamlarımızın incəliklərini ustadların oxumağından öyrənirdi. Doğulduğu, böyüdüyü Nardaranın şeir, sənət, muğam mühiti onun yetkinləşməsi üçün bir məktəb olmuşdu. Məmmədbağırla hansı toya gedirdiksə, "öz möhürümüzü" vururduq. Gənclik eşqilə, yorulmadan həvəslə çalıb-oxuyurduq. Bizim dəstəni hər yerdə sevirdilər, toyların içindən toylar gəlirdi. Mən o illəri hörmətlə anıram. O vaxtlar doğrudan da əsl sənət işlətməli dövr idi.

Məmmədbağır "Vesna" maqnitafonunu hər toya gətirir, bütün oxuduqlarını ora yazır, evdə qulaq asıb özü üçün çıxdaş edirdi. Sonralar artıq-əskiyi düzəldirdi".

M.Bağırzadənin öz toyunun qarmon ifaçısı M.Paşayev olub. Bu təmtəraqlı gur toyda tarzən Bəhram Mansurov, kaman ifaçısı Tələt Bakıxanov (1927-2000), xanəndələr Hacıbaba Hüseynov (1919-1993), Yaqub Məmmədov (1930-2002), Arif Babayev, Ağababa Novruzov və Canəli Əkbərov da çıxış etmişdi.

Malik Paşayev gənclik illərində Əlibəndə Əliyevin onu özüylə Əhməd Bakıxanovun rəhbərlik etdiyi x.ç.a. ansamblına aparmağını da xatırlayır: "Məşqə getdik. O, əvvəlcə mənim ifamı dinlədi və sonra ansamblın üzvü olmağıma razılıq verdi. Bəzən məşqlər gec qurtarırdı. Elektrik qatarının sonuncu hərəkət edəninə özümü bir təhər çatdırırdım. O illərdə hələ şəxsi avtomobilim yox idi. Bu səbəblərdən ansamblda fəaliyyət göstərə bilmədim."

2012-ci il avqust ayının 4-də günorta saatlarında qarmon ifaçısı, buzovnalı Dadaşdan müsahibə alarkən Malik Paşayevin də həyat və fəaliyyətini kitabımızda işıqlandırmaq istədiyimi bildirdim. O, sevincək dilləndi: "Bəli, bəli, Əhsən müəllim, bayaqdan sizin suallarınıza cavab verərkən mən həm də elə o barədə düşünürdüm. Gözləyirəm söhbətimiz bitsin ki, sizə fikrimi bildirim, razılıq alım və onlara aparım. O, mənim ustadımdır, yazmaq istədiyiniz kitabda adının şərəfləndirilməsinə məndən çox onun haqqı çatır."

Dadaş müəllim öz avtomobili ilə məni ustadının evinə apardı. Malik müəllim bizi qapıda qarşıladı. Həyətə daxil olduqda gözəlliklər qoynuna düşdük. O qədər də böyük olmayan həyətdə səliqə-səhman göz oxşayırdı. Hasara yaxın yerlərdə meyvə ağacları, onlardan azca aralı əkilmiş hər növ gül-çiçək gözəllik yaradaraq insana zövq bəxş edir. Bu gözəllik, bu gül-çiçək, bu səliqə-səhman yalnız belə zövqlü ailəyə və onun başçısı, musiqi incəsənətimizə ömür bəxş etmiş Malik müəllim kimi şəxslərə məxsus ola bilər.

Malik Paşayevin arxivi ilə tanış olduqda musiqiçilərimizlə birlikdə çəkilmiş xeyli şəkillərə tamaşa etdim. O qədər maraqlı idi ki, hansını seçim etməkdə çətinlik çəkirdim. Əlbəttə kitabda hər ifaçı üçün ayrılmış səhifələrdə yalnız bir neçə şəkilə yer ayıra bilirik. Arxiv sənədləri arasında bir diploma da rast gəldim. Sən demə M.Paşayev 1984-cü ildə Bakı Sovet Ticarəti Texnikumunu da bitirib.

Zəhmətkeş qarmon ifaçımız Buzovna toylarında əvvəllər klarnetçalan Zabit Məmmədovla, 1974-1975-ci illərdən isə Elşad Cabbarovla çalışıb. E.Cabbarov və M.Paşayev buzovnalıların istəkli sənətkarı olaraq, 2011-ci ilə qədər birlikdə çalışıblar. Onların toy ifalarını özündə əks etdirən audio və video kassetlər, disklər hər bir buzovnalının evində var. Bütün bunlar şərəfli, fərəhli və məhsuldar yol gələn sənət adamlarımızın dinlənilməli ifaları, tamaşa edilməli çıxışlarıdır. Buzovna toylarında onlarla üzbəüz dəstələrdə Azərbaycanın adlı-sanlı xanəndələrinin hamısı çıxış edib.

M.Paşayev bir zamanlar Moskvaya da toylara dəvət olunub. Bunlar əlbəttə orada məskunlaşan soydaşlarımızın təntənəli məclisləri olub.

Qarmon sənətimizə, onun tədrisinə, toy-büsatımıza bütöv bir ömr həsr edən Malik müəllim bu gün də gümrah görünür; sinəsi sənət eşqilə döyünür, keçdiyi yolu fərəhlə xatırlayır, onunla əlaqə

saxlayan gənc musiqiçilərə tövsiyə verməyi də unutmur.

Malik Paşayev 1973-cü ildə ailə qurub. Ömür-gün yoldaşı Sevil Hüseynağa qızı istedadlı qarmon ifaçısı olsa da, ailə qayğıları onu bu işdən uzaqlaşdırıb. Bu məhəbbətli və mehriban ailədə iki oğul böyüyüb. Beş nəvə isə ömürə şirinlik bəxş edir. Nəvələrdən biri Sevil Paşayeva 4 saylı incəsənət məktəbinin fortepiano sinfində təhsil alır.

Mən bu müsahibəni götürərkən Sevilin fortepiano ifasının səsi həyətə gəlirdi. O, qammaları təkrar edirdi. Kim bilir, bəlkə də bu istedadlı qızcığaz gələcəkdə sənət yolu tutub gedərək böyük musiqiçilərimizdən biri olacaq. Bu tale işidir. Allah uğur versin.

2.48. ASLAN İLYASOV



Aslan İlyasov

Aslan Mikayıl oğlu İlyasov 1948-ci il mayın 22-də Salyan şəhərində anadan olmuşdur. Salyan müsiqi mühiti, xüsusilə bu şəhərin qarmon ifaçılarının fəaliyyəti bu sənətə onda məhəbbət oyatmışdır. O, ilk əvəllər tar çalmağı öyrənmişdir. Sonralar isə qarmon çalmağa başlamış, bunun onda daha yaxşı alındığını, bu işin onu öz ardınca çəkdiyini hiss edərək taleyini həmişəlik bu sənətə bağlamışdır. Onun ilk sənət müəllimi Saleh Nəzərov olsa da, uşaqlıq və gənclik illərində Salyan toy-nişanında, mədəniyyət evində verilən konsertlərdə ustad qarmon ifaçıları Rza Şıxlarov və Əflatun Ağayevin ifalarını dinləməsi Aslanın çalğı qaydalarını formalaşdırmışdır. Aslanda Əflatunun üslubu müəyyən incəliklərilə öz əksini tapmışdır. Aslanın təmkinli, təsirli xalları, şirin səs çalarları ilə səslənən "Segah"ında Əflatun sənətinin ətri, təravəti, nəfəsi tam aydınlığı ilə təzahür edir.

Aslan Salyan aşıqlarının sevimli qarmonçalanı kimi, onların dəstələrinin tərkibində çox yerlərdə toy məclislərində olmuşdur. Onun xalq arasında ilk tanınması elə aşıq dəstələri ilə çalıb-çağırdığı zamanlara, bir də ki, Salyan və ətraf yerlərdə keçirilən qız toylarında klarnet dəstəsinin tərkibində çıxış etdiyi anlara təsadüf edir. Aslan Salyanın Babazənən (el dilində Babazanlı) qəsəbəsindən yetişən, səsini radioya yazdıraraq məşhurlaşan xanəndə İnşallah Hüseynovun dəstəsində də çalışmışdı. Onunla birlikdə Salyanla Əlibayramlı (indiki Şirvan) arasındakı kəndlərdə, Neftçala və Sabirabadda çox toylarda çalmışdı. Bütün bunlar Aslanın gənclik illərində özünə yer almışdı. Həmin illərdə Aslan Salyan aşıqları ilə Bakı toylarına da gəlmiş və ən böyük qəsəbələrin toylarında bərkimişdi. Aslan bütün məclislərdə özünü sevdirməyi, insanların diqqətini özünə yönəltməyi bacarırdı. Bu hallar onda sənətə başladığı dövrdən son anlara qədər olmuşdur. Toylarda diqqəti özünə cəlb etməyi, iş görməyi bacaran sənət adamlarına "tutuzduran", "tutduran" deyirlər. Burada "tutdurmaq", "tutuzdurmaq" sözünün izahı, anlamı belədir: - yəni bacarıq nümayiş etdirmək, özünə diqqət yönəltmək, özünü sevdirə bilmək, işini, sənətini göstərə bilmək, göz önündə canlandırmaq deməkdir. Sadə dildə desək, sənətini "satmağı" bacarmaq özü də iste-



Bakıda toy. Sağdan: Aslan İlyasov, Elşad Cabbarov, Valeh, Elçin, Aqşin Quluyev və Mais Məmmədov



Bakıda toy. Sağdan: Aslan İlyasov, Məhərrəm Zeynalov, Zöhrab Məmmədov, Tehmun İlyasov, Vahid

daddır. Aslanda belə bir istedad var idi. İndiki təbircə desək o, şou yaratmağı, maraq oyatmağı bacarırdı.

Aslan Salyanda nağaraçalan Ulduz kişi ilə neçə illər yoldaşlıq etmişdir. Onunla bir dəstədə Salyana yaxın olan bütün kəndlərdə çalıb-çağırmışdılar. Ulduz xanəndələri Bakıdan gətirirdi. Klarnetçalan Elşad Cabbarov da Bakıdan idi. Artıq Aslanı Bakı musiqiçiləri və xanəndələri tanımağa başlamışdılar. Bəzən də bu dəstənin klarnetçalanı Salyandan Elman Bədəlov və ya Tahir Səmədov olardı.

Salyanda və ətrafda məşhur qarmonçalan olduqdan sonra onu toy şənliklərinə dəvət edənlər çoxalmışdı. Onların Salyandakı evlərinin qapısına toy vədələşməyə gələnlərin avtomobilləri düzülərdi. Qeyd etməliyik ki, ümumiyyətlə, Aslan Salyanda tay-tuşları olan sənət adamlarının hamısından tez tanınmışdı. Aslan sonrakı anlardan başlayaraq məşhur xanəndələrlə vədələşərək Bakıdan Salyan toylarına gətirirdi. Belə hallar onun hörmət-izzətini daha artırmış və onu Azərbaycanın ən məşhur xanəndələri və musiqiçiləri arasında tanıtdırmışdı. Aslan Salyanın özündə xanəndələrdən Arif Babayev, Süleyman Abdullayev, Eyvaz Həsənov, Razi Şükürov, Zaur Rzayev, Sabir Mirzəyev, Teymur Mustafayev və digərləri ilə toylarda olurdu.

Aslanın Azərbaycan radiosunun fonduna təqdim etdiyi, dövründə tez-tez səsləndirilən ifaları ona böyük şöhrət gətirmiş, geniş miq-yasda tanıtmış və sahibinə ümumxalq məhəbbəti qazandırmışdı. Onun ifasında səslənən oyun havalarında və "Segah" muğamında milli üslub, xalq ruhu,milli kolorit xeyli cazibədardır. Radioda və televiziyada "Tərəkəmə", "Yanıq Kərəmi" xalq havalarını və özünün bəstələdiyi rəqsləri çaldıqdan sonra A.İlyasov Bakıda və rayonlarda keçirilən toybüsatın dəbdə olan sənətkarına çevrilmiş və xalqın sevimli qarmonçalanı olmuşdu. Radioda səslənən, onun bəstələdiyi "İrani", "Zeynəbi", "Üzümçülər", "Nazənin", "Ülviyyə" və s. rəqslər dəbə düşmüş və toyların repertuarına daxil olmuşdu.



Aslan İlyasov və Çingiz Abbasov çəkiliş zamanı

A.İlyasovun televiziya konsertlərinə cəlb olunaraq daha artıq sevilib məşhurlaşmasında AzTV-nin musiqi redaksiyasının böyük redaktoru Çingiz Abbasovun xüsusi rolu olmuşdur. Bu xeyirxah, nəcib, diqqətli və təmənnasız insan ağıllı tövsiyələri, məsləhəti ilə həmişə Aslana düzgün istiqamət vermiş, onun televiziya konsertlərində tez-tez görünməsinə şərait yaratmışdır. O, həm də Aslanı teleradio əməkdaşları ilə yaxından tanış etmiş, qarmon ifaçımızın bu kollektivin işçiləri ilə sıx əlaqədə və mehriban münasibətdə olması üçün bacarığını əsirgəməmişdi. Çingiz müəllim sona qədər Aslana hörmət, etiqad göstərmişdi.

1980-ci illərin əvvəllərində Azərbaycan

Dövlət Filarmoniyasında Aslan İlyasovun solo konserti olmuşdu.

Onu Azərbaycanın hər yerinə, həmçinin Gürcüstanda və Ermənistanda öz tarixi torpaqlarında yaşayan azəri türklərinin şadlıq mərasimlərinə dəvət etmişlər. 1980-ci illərdə dəbdə olan sənətkarın Dövlət Filarmoniyasında da solo konsertləri olmuşdur. O, 2010-cu illərdə Azərbaycan radiosuna yeni ifalarını; "Qoçəli", "Kolxoz", "Beşatılan", "Keçiməməsi" və b. xalq rəqslərini və özünün bir-neçə melodiyasını təhvil vermişdir.

Güney Azərbaycanın bütün el-obasında, kəndlərində, qəsəbələrində və şəhərlərində, hətta İranın mərkəzi Tehranda Aslan sənətini sevənlər, audio kasetlərini, disklərini toplayıb dinləyənlər, video kasetlərə, disklərə tamaşa edib sevinənlər və zövq alanlar vardır. Xarici dövlətlərdə yaşayan güneylilər içərisində Aslanın ifalarını sevənlər də az deyil. Amerikada yaşayan bir təbrizli A.İlyasovun repertuarını dinləyərək sonra Bakı ilə telefon bağlantısı yaradıb sənətkara təşəkkürünü çatdırandan sonra bu ifalardan vətən torpağının ətrini duyduğunu bildirirdi.

"Azərbaycanfilm"in çəkdiyi "Bəyin oğurlanması" bədii filmin toy səhnəsində səslənən "Tərəkəmə" xalq rəqsi Aslanın ifasındadır. Bu ifadan xoreoqrafik rəqs quruluşlarında istifadə olunur.

A.İlyasov 40 yaşı ötdükdən sonra boğaz nahiyəsində ciddi xəstəliyə düçar olmuş, İranın Tehran şəhərində əməliyyat olunaraq sağalıb yenidən həyata və sevdiyi sənətə qayıtmışdı. 60-yaşı ötdükdən sonra da tale onu yenidən sınağa çəkmiş, o, daha ağır daxili xəstəliyə tutulmuş, Bakıda ciddi əməliyyata məruz qalaraq bəxtin bu imtahanından da çıxmış, ailəsinə, doğmalarına və pərəstişkarlarına qovuşmuşdu.

Aslan da Tanrının sevimli bəndələrindən biri idi. Böyük yaradan onu şöhrətləndirmiş və ruzi dolu bir tale bəxş etmişdi. Belə şəxslərə naxışkar adam deyirlər. Bəli, onun naxışı həmişə gətirmişdir. Bəxt, naxış öz gücündə, qüvvəsində, öz təsirində idi. İlahinin verdiyinə şükür. Allahın verdiyinin qarşısını heç bir qüvvə kəsə bilməz. Bu sevimli bəndə həmişə də Allah nəzərində idi. Toylarda, şənliklərdə qarmonunu səsləndirməkdə, sənətilə ailəsinin ruzisini qazanmaqda olaraq Tanrıya şükr edirdi.

Xalqın sevimli qarmonçusunun Bakıdakı evi daim qonaq-qaralı olurdu. Sənətini sevənlər, pərəstişkarlar və bir sıra sənət yoldaşları onun evinə tez-tez təşrif gətirərdilər. Əksər hallarda o, əziz qonaqlarını müxtəlif təəmlarla birlikdə balığa da qonaq edərdi. Balıq onun süfrəsinin şahı idi.

A.İlyasovun iki övladı var. Qızı Aslanın anasının, oğlu isə Aslan adını daşıyır.

Aslan İlyasov 2013-cü il dekabrın 19-da dünyasını dəyişib. Salyandakı mülkündən götürülərək son mənzilə aparılıb. Onun dəfn mərasimi insan seli ilə müşayiət olunub. Bu ona olan ümumxalq sevgisinin təzahürü idi. Avtomobillərin və insanların sayı o qədər çox olub ki, dövlət yol polisləri magistral yolu bağlamalı olublar. Aslan Salyan şəhər qəbiristanında, doğmalarının yanında dəfn olunub. Qardaşı oğlu Mikayılın söylədiklərindən: "Əmim gözlərini əbədi yumana qədər ağlı, huşu yerində idi. Vəsiyyətini də əvvəlcədən eləmişdi. Onun bütün vəsiyyətləri yerinə yetirildi. Dəfni də onun vəsiyyətinə əsasən icra edilib. Bakı-Astara yolunun kənarında, Salyan şəhərinə az qalmış yolun sağ tərəfəində Aslan əmimin 5 hektarlıq torpaq sahəsi var. Orada ilk əvvəllər məscid tikdirmişdir. Sonralar həmin ərazidə öz əllərinin zəhməti ilə böyük, gözəl bir bağ salmış, göl yaratdırmışdır. Orada mülk də tikdirmişdir. Özü vəsiyyət etmişdi ki, onun yerdən götürülməsi və yas mərasimi Bakıdakı evində yox, Salyandakı bağında-mülkündə olsun".

Bu sətirlərin müəllifi səhhətinin ağırlaşdığı üçün sənət dostunun dəfnində iştirak edə bilməsə də, Salyan adət-ənənəsinə uyğun olaraq mərhumun dördündə olmuşdur. Bakıdan sənət dostları Salyan adət-ənənəsinə uyğun olaraq mərhumun dördündə olmuşdur. Bakıdan sənət dostları əməkdar artist Zakir Mirzə, klarnet ifaçısı Qulammirzə Mirzəyev, qarmonçalan Baxışəli Əliyev və nağaraçalan Elşən Qasımovla birlikdə Aslanın yas mərasimində iştirak etmiş və məzarıstana gedərək sənətkarın qəbrini ziyarət etmişdir. Məclisdə iştirak edərkən yazı müəllifinə məlumat verilmişdir ki, fasiləsiz olaraq Aslan sənətini sevənlər və musiqi aləminə xidmət edənlərin əksəriyy-

əti dəfn günü və sonrakı günlərdə məclisdə iştirak etmişlər. Ümumiyyətlə Aslanın 7 günlük yas mərasimində Azərbaycanın hər yerindən gələn soydaşlarımız iştirak etmişlər. AzTV-nin məsul işçisi Çingiz Abbasov Aslanın yas mərasiminin 6-cı günü iştirak edərək sənətkarın qəbrini də ziyarət etmişdir. O, A.İlyasovun 40 mərasimindən iki gün öncə "Mədəniyyət" kanalının "Musiqi xəzinəsi"nin sevimli sənətkara həsr olunmasına nail olmuş və olduqca maraqlı veriliş təşkil etmişdir. Verilişin aparıcısı bəstəkar, əməkdar incəsənət xadimi S.Fərəcov, qonaqlar xalq artisti A.İsrafilov və professor F.Sadıqov sənətkarın fəaliyyəti barədə danışmış, A.İlyasovun müxtəlif illərdə çəkildiyi konsertlərdən nümunələr nümayiş etdirilmişdir. Ç.Abbasov yanvarın 29-da Salyana gedərək Aslanın yas mərasiminin 40-da iştirak edərək dost kimi bir borcundan da çıxmışdır.

Dünyaya gəldim Salyan mahalında,
Məğrurluq rəmzi var Aslan adında.
Yaxşı oğul elin adın ucaldar,
Yurdunu ucaltdın öz timsalında.

Vardır qarmon ifaçısı çoxları,
Sənin öz ifan var, yoxdur oxşarı.
El sənətçisi adı qazanmısan,
Səni sevir Azərbaycan diyarı.

Barmaqların toxunduqca dillərə,
İlham verir oxuyan bülbüllərə.
Efirdə qarmonun səsi gələndə,
Aslan sənəti bəxşidir ellərə.

Hatəm səxavəti vardır qanında,
Xeyirxahlıq xislətində, canında.
Yaş ötdükcə sənətin ululaşır,
Sənə halaldır bu adın, sanın da.

Toylar bəzəyidir şux rəqslərin,
Nəğməkarısan sehirli səslərin.
Şənliklərdə sevimlisi olursan,
Sevən könüllərin, duyan kəslərin.

Məşədisən, var dinə ehtiramın,
Təmizdir niyyətin, xoşdur məramın.
Evində gül balaların boy atır,
Kaş gül açsın sənin hər arzu-kamın.

Əhsən istər bu hörmətdə qalasan,
Bu həvəsdə, bu istəkdə olasan.
"Aslan segahı" qəlbləri oxşasın,
Qarmonunla aləmə səs salasan.

Ə.Rəhmanlı, may, 2007-ci il

2.49. O, ATASINA ƏSL OĞUL, AİLƏYƏ DAYAQ OLDU

Onunla tanışlığımız 1971-ci ilə təsadüf edir. M.F.Axundov adına Akademik Opera və Balet Teatrının səhnəsində Bakıdakı mədəniyyət saraylarının özfəaliyyət x.ç.a. ansamblları arasında baxış-müsabiqənin yekunu keçirilirdi. Səhnə kənarlarında və səhnə arxasında toplaşmış ansamblar səhnəyə öz dəvətlərini gözləyirdilər. Hər ikimiz əlimizdə qarmon qarşılaşdıq. Tanış olduq. O, mənim qarmonumla maraqlandı. Alıb, çalıb baxdı və bəyəndiyini bildirdi.



İslam Süleymanov

Sonrakı dövrlərdə mən bu sənət adamının fəaliyyətini izləmiş və usta çalğıya malik bir qarmon ifaçısını kəşf etmişdim. O, meydanda olan, çox xanəndələrin və musiqiçilərin bəyənib qəbul etdiyi sənətkar kimi özünü təsdiq etmişdi. Sənət fəaliyyətini öz doğma yurdunda davam etdirsə də, yaxşı sorağı gəlib mənə çatır, gec-gec də olsa Bakıda musiqiçilər toplaşan bağda rastlaşırdıq.

İslam Məmməd oğlu Süleymanov 1949-cu il iyunun 26-da Ağstafa şəhərində anadan olub. Məmməd kişi ilə Güləsər Cahangir qızının qurduğu halal, mehriban ailədə doqquz övlad dünyaya gəlib, boy atıb böyüyüb. Üçüncü övlad İslamdır. Güləsər xanım ömür-gün yoldaşı Məmmədə arxa-dayaq olaraq övladların sağ-salğam, xoşbəxt böyüməsi üçün çalışır, onları dərin ana nəvazişi və sevgisilə əhatə edirdi.

Məmməd Süleymanov dəmiryolu üzrə hərbiləşdirilmiş mühafizə bölməsində rəis müavini işləyirdi. Onun çox yaxşı saz çalmaq bacarığı vardı. Bütün saz havalarını bilirdi. Musiqilə evdə, özü üçün məşğul olurdu. 1957-ci ildə özünə qarmon da almışdı. Bu 16 dilli diatonik qarmon Tatarıstanın Kazan şəhərindəki musiqi alətləri fabrikində istehsal olunmuşdu. Məmməd Süleymanov boş vaxtlarda qarmon da çalırdı. 7 yaşlı İslam qarmon çalmağa can atırdı. Atasının ifasını seyr edir, dinləyir və maraq göstərirdi. İslam da qarmonu götürür, gücü çatmasa da dartışdırır, nəsə öyrənməyə çalışırdı. O, ilk havanı atasından öyrəndi. Ata ona "Mahur" muğamına əsaslanan, sadə quruluşlu, kiçik həcmli bir mahnı öyrətdi. Bu Səməd Vurğunun məşhur "Azərbaycan" şeirinə bəstələnmiş ("El bilir ki, sən mənimsən" misrası ilə başlanan şeir) və aşıqlarımızın, aşıqlar xorunun çalıb-oxuduqları mahnı idi. İslam bu havanı yaşına görə çox gözəl çalırdı. Beləliklə o, öz yaddaşı və həvəsi sayəsində evlərindəki sadə qarmonun imkanları daxilində xeyli havalar öyrəndi. Öyrəndikcə də həvəsi çoxalırdı.

İslam Süleymanov 1956-66-cı illərdə dəmir yolçuların Ağstafa şəhərindəki 24 saylı (sonralar 1 saylı və 3 saylı adlanıb) orta məktəbində təhsil alıb. O, çox zehinli və enerjili uşaq idi və dərslərini çox yaxşı oxuyurdu. İslamın musiqiyə həvəsini, istedadını duyan, həm də onun məktəb dərslərinin öhdəsindən bacarıqla gəldiyini görən ata, ona yeni bir qarmon alıb hədiyyə etdi. Bu İslamın 4-cü sinifdə oxuduğu dövrə təsadüf edir. Məmməd kişi qarmonu Tbilisi şəhərindən, gürcülərdən alıb gətirmişdi. 18 dilli, qəhvəyi rəngli, diatonik (yarımtonsuz) alət gürcülərin çaldıqları qar-

monlardan idi. Alətin sol tərəfindəki səs sırası (baslar) gürcülərin musiqisinə, ifaçılığına uyğun hazırlanmışdı. İslam 6-cı sinfə qədər bu qarmonda çaldı. Bu cür sadə, primitiv alətlər vasitəsilə sənət zirvələnmişdi. İslam 6-cı sinfə qədər bu qarmonda çaldı. Bu cür sadə, primitiv alətlər vasitəsilə sənət öyrənən istedadlı soydaşımız gələcəyin çox böyük qarmon ifaçısı olacaqdı. Qeyd etməliyik ki, 4-cü sinifdə oxuyarkən İslamı istedadlı uşaq kimi rayondan Bakıya müsabiqəyə yollamışdılar. Azyaşlılar arasında keçirilən müsabiqədə İslam "Vağzalı" çalmış, diplom və hədiyyə almışdı.

6-cı sinifdə oxuyarkən ata oğluna tam peşəkar qarmon almalı oldu. Kiçik həcmli bu alət çox yaxşı qarmon idi. Uşaq bu alətdə tam sərbəst çalır, istedadını, bacarığını daha yaxşı üzə çıxara bilir və çoxlarının diqqətini özünə cəlb edirdi. İslam qarmona könül vermişdi, ürək bağlamışdı, dərsdən gələn kimi məşq edirdi, radiodan eşitdiyi qarmon havalarını öyrənirdi. O, əsasən Teyyub Dəmirovun, Məmmədağa Ağayevin, Abbas Abbasovun, İsfəndiyar Coşqunun və Səttar Hüseynovun qarmon ifalarından bəhrələnir, getdikcə öz çalğısını cilalayır və sürətli inkişafa yol alırdı.

Ağstafa şəhərindəki toylarda isə o, qarmonçalan Səfər Kərimovu və Vahid kişini görüb dinləmişdi. Vahid kişini el arasında "Dyadya Vasya" çağırırdılar. ("Dyadya" rus sözüdür, dilimizdə əmi, dayı deməkdir). Vahid 1941-45-ci illər Alman-rus müharibəsinin iştirakçısı olmuşdu. Əsgər yoldaşları onu öz dillərinə rahat və uyğun olsun deyə, Vasya adlandırmışdılar. Ağstafada da onu elə beləcə çağırırdılar.

İslam Ağstafa toylarında qarmonçu Əhliman Əliiskəndərovun sənətini də görüb dinləmişdi. O, İslamdan 4-5 yaş böyük idi.

7-ci sinifdə oxuyarkən İslam artıq Ağstafada bacarıqlı qarmonçu kimi tanınırdı. Odur ki, onu uşaq bağçasına müşayiətçi-musiqiçi, qarmonçalan kimi işə götürmüşdülər, ştatda olan işçi idi, maaş alırdı və öhdəsinə düşən işi məharətlə yerinə yetirirdi. Onu işə götürərkən sənədləşmədə hər şey düz gəlsin deyə, yaşı artıq göstərilmişdi. Bu ştata Ağstafanın yaşlı qarmonçalanları dəvət olunsalar da onlar bu işin öhdəsindən gələ bilməmişdilər. Çünki onlar azyaşlı uşaqlar üçün bəstələnmiş nəğmələri bilmirdilər və həmin musiqiləri öyrənib mənimsəmək onlar üçün çətin idi. İslam isə o cür mahnıları, musiqiləri çala bilirdi. Bilmədiklərini isə müəllimələr ağzında oxuyan kimi dərhal öyrənir və çalırdı.

İslamın uşaq bağçasında işləməsini tövsiyə edənlər yaşlı musiqiçilər, onu konsertlərdə görən böyüklər olmuşdu. Axı İslam kiçik yaşlardan dəmiryolçuların mədəniyyət evində keçirilən tədbirlərdə, teatr tamaşaları, səhnəciklər arasındakı fasilələrdə qarmon çalıb, alqışlar və tamaşaçıların rəğbətini qazanmışdı. O, Ağstafada diqqətdə olan istedadlı bir uşaq idi. Hələ səhnəyə çıxdığı ilk anlarda o, stulda əyləşərkən ayaqları yerə çatmırdı. Qarmonu dizləri üstə alıb, rahat çalmaqdan ötrü bu balaca musiqiçinin ayaqları altına kiçik kətil qoyurdular. Onun belə şəraitdə solo ifaları maraqla qarşılanırdı.

İslam ilk dəfə toya getməsini belə xatırlayır: "8-ci sinifdə oxuyurdum. Qarmonçalan Səfər kişi bizə gəldi. O, klarnet də çalırdı. Toylara klarnetçalan kimi də gedirdi. Dedi ki, dəstəmizin qarmonçalanı xeyli əvvəl başqa toy üçün vədə verib. İndi bizim dəstəyə toy gəlib. İstəyirik ki, səni özümüzlə aparaq.

Bildirdim ki, mənim sabah dərsim var, mən sizinlə toya gedə bilmərəm, inanmıram ki, bu işi bacaram. O, izah etdi ki, toy günün ikinci yarısında başlanır, dərs saatlarından sonradır. Səfər kişi atamla söhbət etdi, mənə görə ondan icazə istədi. Atam razılıq verdiyi üçün onlarla toya getdim. Bu toy şənliyi Ağstafanın özündə idi. Şənbə günü o məclisdə çıxış etdik. Dəstədə xanəndə də vardı, nağaranı Cocan çalırdı. İlk sınaqdan yaxşı çıxdım. Səfər dayı sabah da, bazar günü də məni dəstələrinin tərkibində toy mərasiminə apardı. Beləliklə toy-nişn məclislərinə ayaq açdım. Lakin məktəb dərslərindən geri düşməyim deyə, yalnız həftənin bazar günləri toylara gedirdim. Qazaxda yaşayan klarnetçalan Cəfər də məni tez-tez Qazaxa toy-büsat şənliklərinə aparırdı. O, əslən Güney Azərbaycanlı idi. Əvvəllər kamança çalmışdı. Toylarda kamançaya ehtiyac olmadığı üçün



1964-cü il. Ağstafa şəhər uşaq bağçası və körpələr evi. 15 yaşlı İslam uşaqları müşayiət edir

klarnet çalmağı öyrənmişdi. Qazaxda saatsaz işləyirdi."

İslam Süleymanov orta təhsili başa vurub Bakıya gəlir, sənədlərini Xalq Təsərrüfatı İnstitutuna verir, qəbul olunur və 1971-ci ildə buranı uğurla bitirir. Bakının mədəni mühiti və musiqi aləmi onu öz qoynuna alır və tam peşəkar musiqiçi kimi yetişdirir. O, ilk əvvəllər təhsil aldığı ocağın özfəaliyyət x.ç.a. ansamblında çalır və inkişaf edir. Həmin zamanlar institut ansamblına tarzən Yusif Heydərov rəhbərlik edirdi.

Musiqiyə olan qədərsiz sevgi gənc İslamı Respublika Müəllimlər Evinin x.ç.a. ansamblına da gətirmişdi. Ansambla müxtəlif vaxtlarda məşhur tarzən Əhsən Dadaşov (1924-1976) və kaman ifaçısı, bəstəkar Ramiz Mirişli rəhbərlik etmişdi.

Sənət sevgisi, bu işə olan dərin həvəs gənc qarmonçalanı "Azərnəşr"in özfəaliyyət x.ç.a. ansamblına da gətirmişdi. Ansamblardakı məşqlər, konsertlərdəki çıxışlar ifa olunan instrumental musiqilər, xalq mahnıları, bəstəkar əsərləri, müğənniləri müntəzəm müşayiət etmək İslamı qarmon aləminə, musiqi sənətinə həmişəlik bağladı. Bütün bunlara baxmayaraq o, hələ də Bakının toy musiqiçiləri və adlı-sanlı sənətkarlar arasında tanınırdı. Tələbə idi, vaxtının çoxu dərslərə və ansambl məşqlərinə sərf olunurdu. Qəlbində isə məşhur sənətkarlarla birlikdə olmaq, onlarla sənət işlətmək, çiyin-çiyinə çalışmaq arzusu vardı. Bakıda toylara getmək həm də onun maddi vəziyyətinə xeyli kömək olacaqdı.

İslamın xatirələrindən: "II kursda oxuyurdum. Tbilisi-Bakı qatarı ilə rayondan gəlirdim. Kupeyə bilet almışdım. Kupedə tək idim. Darıxdım və qarmonu götürüb çalmağa başladım. Qapı döyüldü, durub açdım. İki nəfər idilər. Onlardan biri qatar bələdçisi, digəri isə dəmir yolu müfəttişi idi. Dinləmək istədiklərini bildirdilər və izn alıb əyləşdilər. Çalmağa başladım. Hər ikisi diqqətlə dinləyirdi. Qarmonu qabına qoyanda bi-birimizlə yaxından tanış olduq. Qatar bələdçisi Məstağalı Yusif toya gedib-getməməyimlə maraqlandı. Dedim ki, arzum, istəyim olsa da Bakıda

toylara gedə bilmirəm. səbəbi odur ki, o işlərlə məşğul olan sənətkarlarla tanışlığım yoxdur. Yusif dedi: – Sən klarnetçalan Məhərrəm Zeynalovu tanıyırsanmı? Cavabında söylədim ki, özü ilə tanışlığım yoxdur, üzünü belə görməmişəm, lakin radioda lentlərini dinləmiş, qrammafon valınn

idi. O, İslama Azərbaycan Dövlət Filarmoniyasında xanəndə (o dövrdə əməkdar, sonralar xalq artisti) Əlibaba Məmmədovun rəhbərlik etdiyi x.ç.a. ansamblında çalmağı təklif etdi. Hüseyn artisti) Əlibaba Məmmədovun rəhbərlik etdiyi x.ç.a. ansamblında çalmağı təklif etdi. Hüseyn özü isə Salyan kazarmasında hərbi xidmətdə olduğu üçün ansamblda çalışa bilmirdi. İslamın razılığını alan Hüseyn onu filarmoniyaya "Hümayun" ansamblının məşqinə apardı. Onu da deməliyik ki, Əlibaba Məmmədovun məşqlərinə bəzi qarmonçalanlar gəlirdi. Elə Hüseyn İslamı məşq otağına gətirərkən orada yaxşı qarmonçalan gənclərdən iki nəfər əyləşmişdi. Bütün üzvlər toplanmışdı. Hamı məşqin başlanmasını gözləyirdi.

İslamın xatirələrindən: "Hüseynlə birlikdə gecikmədən məşq yerinə gəlmişdik. İçəri daxil olduqda ansambl üzvlərini, Əlibaba müəllimi və qarmonçalanları görüb bir az özümü itirdim. Əlibaba Məmmədov məni başdan ayağa süzdü və soruşdu: – Hüseyn, dediyin oğlan budur? Hüseyn cəld dilləndi: – Bəli!

– Lap yaxşı. Qarmonu çıxart, bir şey çal.

Əlibaba müəllim mənə müxtəlif tonalıqlarda "Şur" və ayrı-ayrı muğamlar üzərində bəzi melodiyalar çaldırdı. O, məndən "Humayun" rəngini bilib-bilmədiyimi, ansamblın repertuarına bələd olub-olmadığımı soruşdu. Mən bütün bunları çala bildiyimi söylədim. O da bir-iki melodiya çaldırıb dinlədi və ansamblda öz yerimdə əyləşmək üçün göstəriş verdi. Məşqə başlayarkən ətrafa nəzər saldım, hər iki qarmonçalan çıxıb getmişdi. Onlar dərk etmişdilər ki, ansambla mən qəbul olundum.

Məşqdən sonra Əlibaba müəllim mənə bildirdi ki, konsertlərə çıxmaq üçün qara kostyumum, qara ayaqqabılarım, ağ köynəyim olmalıdır. Məşqlər II-V günlər saat 14^{00}-dadır."

Beləliklə İslam Süleymanov "Humayun" x.ç.a ansamblının tərkibində Filarmoniyada, televiziyada, Bakının mədəniyyət və təhsil ocaqlarında, konsertlərdə çıxış edir, radionun fondu üçün lent yazılarında çalırdı. Gənc qarmon ifaçısı üçün geniş imkanlar, daha yaxşı tanınması üçün şərait yaranmışdı. O, konsertlərdən başqa Əlibaba Məmmədovla və ansamblın digər müğənnisi Novruz Feyzullayevlə (1928-2008) toy mərasimlərinə gedirdi. Novruz Feyzullayevin dəvət olunduğu məclislərdə tarzən Əhsən Dadaşov olurdu. Müğənnilərdən Qulu Əsgərov (1928-1987), Məmməd Salmanov (1930-2005) və Nazim Ağayev də İslamı öz toy ansambları ilə vədələşdikləri toylara aparırdılar.

Qulu Əsgərov və Nəzakət Məmmədova (1944-1981) çalışdıqları Opera Teatrında x.ç.a. ansamblı yaratmışdılar. Qulu müəllimin tövsiyəsilə İslam həmin ansamblın da məşqlərinə gedirdi.

O illərdə artıq gənc müğənni Zaur Rzayev populyar olmuşdu. Mahir kaman ifaçısı Habil Əliyev konsertlərə və toylara Zaur Rzayevlə birlikdə gedirdi. Onların birgə yaratdıqları toy ansamblının tərkibində bir müddət İslam Süleymanov da məharət göstərmişdi.

İslamın xatırladıqlarından: "1973-cü ildə atam iflis xəstəliyinə tutuldu. Atama, ailəyə, böyük külfətə kömək edim, dayaq olum deyə, rayona getməli oldum. Həmin ilin may ayında anam dünyasını dəyişdi. Şəhərə gəlib Bakı Baş Tikinti İdarəsinin 2 saylı evtikmə kombinatında işə girərək institutda yiyələndiyim ixtisas üzrə iqtisadçı kimi çalışmağa başladım və yenə də qarmon çalmaq fəaliyyətimi davam etdirdim. Gündüz ixtisasım üzrə işləyir, axşamlar isə məni tanıyan müğənnilərlə restoran toylarına (kampaniyalar) gedirdim. Qazancımın çox hissəsini rayona, böyük ailəmizin dolanışığı üçün göndərirdim. Evin biş-düşünü bacılarım edirdi.

1973-cü ilin dekabr ayında Sovet ordusu sıralarına çağrıldım və 1974-cü ilin dekabr ayına kimi Arxangelsk vilayətində xidmət etdim. Əsgərlikdən Bakıya qayıtdığım gün musiqiçilər toplaşdığı yerdə göründüyüm zaman bir gün sonraya mənə toy dedilər. Nazim Ağayevgilin dəstəsində toy məclisində çaldım. Əvvəllər çalışdığım 2 saylı evtikmə kombinatındakı işimə bərpa olundum və toy musiqiçisi kimi fəaliyyətdə oldum. 1975-ci ilin avqust ayına qədər Bakıda çalışdım. Gənc mütəxəssis kimi mənzil növbəsinə götürülmüşdüm, 1 ildən sonra mənzillə təmin olunacaqdım.

İki bacım məndən böyük idilər. Ailə qurmuşdular. Üçüncü bacım orta məktəbi bitirirdi. Evin biş-düşü, təmizlik işləri, səliqə-sahmanı onun çiynində idi. O, məktəbi bitirib Bakıya ali təhsil almağa gəldi. İmtahan verib qəbul olunsaydı, o zaman mən yığışıb rayona gedib ailə qurmalı idim ki, evin gəlini ailənin biş-düşünü etsin, qadına aid səliqə-sahmanı yerinə yetirsin. Bacım imtahanlardan kəsilsəydi, rayona qayıdacaq, mən isə Bakıda qalıb öz işlərimi davam etdirəcəkdim. Bacım instituta qəbul olundu, mən isə həmişəlik Ağstafaya getməli oldum. Rayonda, ətrafda çaldığım toylardan qazandıqlarımla ailəmizə əsl dayaq oldum."

Əziz oxucu! Haşiyə çıxaraq bildirmək istərdik ki, əsl oğul belə olmalıdır. Ailənin köməyi, dayağı olanlar, valideyn borcunu yerinə yetirmək istəyənlər əsl oğul sayıla bilərlər. İslam da belələrindən oldu. Atalar deyib: "Oğul əl ağacıdır". Bu hikmətli sözlərdə çox mətləblər toplanıb. İslam həqiqi oğul kimi hərəkət etmişdi.

O, Bakıda bir musiqiçi kimi tanınacaq, respublika miqyasında məşhur qarmonçalanlardan biri olacaqdı. Onun istedadı, geniş ifaçılıq imkanları buna tam imkan verirdi. Bakı Azərbaycan musiqiçiləri üçün sənət dəryası, inkişaf etməyə, tanınmağa şərait yaradan sənət məbədidir. Əyalət sənətkarlarının hamısı Bakıda pərvazlanıb, burada inkişaf edib, paytaxtdan qol-qanad açıb şöhrətlənibər. İslam Süleymanov da belələrindən biri olacaqdı. Ansamblarda çalışacaq, ifalarını radio fonduna, qrammafon vallarına yazdıracaq, televiziyamızda çıxış edəcək və xarici ölkələrdə sevimli qamonunu səsləndirərək musiqi sənətimizi təmsil edəcəkdi. Lakin o, bütün bunları buraxaraq evinə, doğma ocağına, ailəsinə qayıtdı.

Özünün dediklərindən: "Bakıda tanınmış müğənnilər mənə təqvimlə xeyli toy günləri yazdırmışdılar. Onların hər birindən üzr istəyib, toylardan imtina edib rayona qayıtdım."

İslam Ağstafada ilk əvvəllər dərnək rəhbəri, sonra isə uşaq musiqi məktəbində qarmon sinfinin müəllimi işlədi. 1981-ci ildən 1991-ci ilə qədər iqtisadçı vəzifəsində çalışdı. O, 1 saylı tikinti-quraşdırma idarəsinin iqtisadçısı oldu. 1991-ci ildə həmin idarə bağlandı.

Bütün bu illərdə İslam Ağstafanın və ətrafların ən mahir və məşhur qarmonçalanı kimi fəaliyyətdə olmuşdu. Onun sənəti sevilir, bəyənilir, örnək, nümunə kimi qəbul olunurdu. İslam Ağstafanın, Gürcüstanın Tiflis şəhərinin Sabutali (Sabutala) məhəlləsinin, Qardabani rayonunun (Qarayazı elinin) Kosalı, Nazarlı kəndlərinin, Ermənistan ərazisinə düşən ellərimizin ən gur məclislərində çalırdı. Onun ifasında muğamlarımız, xalq mahnılarımız, rəqs melodiyalarımız və aşıq havalarımız elə gözəl səslənirdi ki, sanki bütün bunlar qarmon sənəti üçün yaranıbmış. İslam müğənni Şəhadət Ömərovla, klarnetçi Aydın Əsədovla (o, Bakıdan gəlirdi), Qırlı kəndindən Mobil və digərləriylə bir dəstədə çıxış edirdi. O, Gəncə toylarına gələndə müğənni Ələddin Mövsümov olurdu. İslam Süleymanovun Aşıq Xanlarla da yoldaşlığı vardı. Onunla Tovuz və Bakı toylarına gəlirdi.

İfaçılıq sənətindən əlavə İslam qarmon alətinin təmiri, bərpası və düzəldilməsilə də məşğul olur. O, 1976-79-cu illərin qış aylarında Rusiyanın Tula şəhərinə gedir və qarmon düzəldən ustaların işlərilə tanış olub, bu sənətin sirlərini öyrənirmiş. Hər dəfə orada olarkən nəsə mənimsəyib gələr, öyrəndiklərini öz təcrübəsinə keçirərdi. İslam hər gələndə qarmon üçün lazım olan hissələri və iş prosesi üçün gərəkli alətləri, bəzi dilləkləri alıb gətirərmiş. Qarmon sənətimizə ürəkdən bağlanan, bu işə sədaqətlə xidmət edən bu insan həm də alətlərin təmirini, köklənməsini çox yaxşı mənimsəmişdir. O, qarmon işini Tuladakı ustalar Robert Vasilyeviş Tatarinov, Yermak və Filippovdan öyrənmişdir.

Özünün dediklərindən: "Məni Filippovun evinə Tatarinov apardı və tanış etdi. Filippov və arvadı qoca idilər. O, əvvəlcə mənə heç nə öyrətmək istəmədi. Lakin bir xeyli söhbətləşdikdən sonra mənim davranışım, əxlaqım onun xoşuna gəldi. Dedi ki, haçan Tulaya yolun düşsə, mənim yanıma gələ bilərsən. Mən cəmi 2-3 dəfə onun mənzilində olmaqla qarmonların köklənməsini öy-



Bakı, 2007-ci il Vahid poeziya evi. Sağdan: xalq artistləri Firidun Ələkbərov və Əlibaba Məmmədov, İslam Süleymanov və əməkdar artist Nazim Ağayev

rənmişəm. Ən çox Tatarinovdan tövsiyələr almışam."

İslam Süleymanov 1991-ci ildən bir müddət Ağstafa rayon məişət evində emalatxana açaraq, qarmonların təmirilə məşğul olmuşdur. O, bu işi ifaçılıqdan ayrılmadan işlədirdi.

1993-cü ildə ilk dəfə İran İslam Respublikasının Tehran şəhərinə səfər edən İslam Süleymanov burada ev şənliklərində, toylarda çalır, həm də orada yaşayan soydaşlarımızın qarmonlarını və akkordeonlarını təmir edir, kökləyirdi. Onun oralara gəlişi qarmon və akkordeon ifaçıları üçün bir fürsət olur, rahatlıq yaradırdı. İslam alətləri az müddət ərzində, lakin keyfiyyətli təmir edir və kökləyirdi. Ustanın belə cəldliyini görən ifaçılar onu "Kalaşnikov" avtomat silahına bənzətmiş və "Kalaşnikov" təxəllüsü vermişdilər. İslam 1999-cu ilə qədər Tehrana gedib gəlmişdir. Bu səfərlərin müəllifi 1994-95-ci illərdə Tehrana səfərləri zamanı orada İslamla rastlaşmış və hətta bir neçə tədbirdə ("bərnamə") birlikdə çıxış etmişdir. İslam 2009-cu ildə dəvətlə yenə Tehran şəhərində olmuşdur. O, 1996-cı ildə Tehranda xanəndə Baba Mahmudoğlunu konsertlərdə müşayiət etmiş, öz solosunda alqışlar qazanmışdır. Həmin illərdə İslam Baba Mahmudoğlu ilə Azərbaycan rayonlarında da konsertlərdə olmuşdur. 1999-cu ildə Babanın ifasında diskə və radioya on iki mahnı yazılmışdır. Onu müşayiət edən ansambl tərkibində İslam Süleymanov da olmuşdur. Həmin mahnılarla müğənninin konsertlərinin Az.Tv üçün çəkilişində ansambl tərkibində İslamı da dəfələrlə görmüşük.

Qarmon ifaçılığına həvəs bu ailənin digər üzvlərinə də sirayət etmişdir. İslamın çalğısını, ev

məşqlərini görüb həvəslənən, əllərinə baxıb öyrənən qardaşlar Sahib, Afiq və Qəzənfər qarmon çalmağı öyrənmişlər. Onlar bunu özlərinə sənət etməmiş, ifaçılıq səviyyələri yaxşı olsa da bu işlə həvəskar kimi məşğul olmuş və hər biri ali təhsil alaraq başqa sahədə çalışmışlar. Sahib az zaman ərzində toylara getmişdir. Qəzənfər toylarda bir müddət sintezator çalmışdır.

Hə, əziz oxucu! Sizləri daha bir istedadlı soydaşımız, əsl musiqiçi və zəhmətkeş bir insanla tanış etdik, onun hünər və zəhmət dolu ömür yoluna səyahətə çıxdıq. Bizə elə gəlir ki, bu cür işləri görməklə savab qazanırıq.

İslam haqqında necə yazmaya bilərik? Axı o, doğrudan da atasına həqiqi, sədaqətli oğul, bacı-qardaşlarına köməkdar, arxa-dayaq olmuşdu. Bir də ki, qarmon ifaçılığından bəhs edən kitabımızda görünməyə onun haqqı çatır axı! O, hərtərəfli inkişaf etmiş qarmonçalandır və repertuarı çox zəngindir. İfaçılıq manerası XXI əsrlə, bu günümüzlə səsləşən yurddaşımızın ifasında oyun havalarımız, xalq və bəstəkar mahnılarımız, aşıq sənəti nümunələrimiz və qardaş türk ellərinin populyar mahnıları çox gözəl və zəngin çalarlarla səslənir.

İslam Məmməd oğlu Süleymanov 1976-cı ildə ailə qurub. Üç övladı və səkkiz nəvəsi var.

Oğlu Elsəvər Ağstafa şəhər uşaq musiqi məktəbinin skripka sinfini başa vursa da, musiqi ilə məşğul olmur. O, Gəncə Pedaqoji Universitetinin hərbi fiziki hazırlıq fakültəsini bitirib.

Oğlu Eldəniz də musiqiyə istedadlıdır, qarmon çalmaq qabiliyyəti vardır. Musiqi sənətilə məşğul olmur. O, Azərbaycan Dövlət Pedaqoji Universitetinin hərbi hazırlıq kafedrasında təhsil alıb. Ehtiyatda olan zabitdir.

Güləsər İslam qızı Ağstafa uşaq musiqi məktəbinin, Gəncə Musiqi Texnikumunun (hazırda kollec) fortepiano sinfini bitirib. Vaxtilə təhsil aldığı musiqi məktəbində fortepiano ixtisası üzrə dərs deyir.

2.50. BİR SIRA TANINANLAR VƏ MƏŞHURLAR

• • •



Qarabağın ən mahir qarmon ifaçılarından biri **Əli Səlim oğlu Quluyev** (1918-1988) olmuşdur. O, Ağdamın Muradbəyli kəndində dünyaya gəlmişdir. Sonralar bu kənd böyüyərək qəsəbə statusu almış və Ağdam şəhərinə bitişmişdi. Əligilin əsli-kökü Abdal-Gülablı kəndindəndir.

3 yaşı olarkən Əli "qızılca" xəstəliyinə tutulur. Xəstəliyin fəsadları acı nəticələr verir. Uşağın görmə qabiliyyəti itir və yalnız bir gözü 50 faiz görə bilir. 6-7 yaşlarında olarkən əmisi Xanların ona düzəltdiyi tütəkləri çalmaq onun məşğuliyyəti olur. Atası 10 yaşlı Əliyə o dövrün istehsalı olan yarımtonsuz qarmon alır. O, bu alətə mehr salır və dərd-qəmini qarmon çalmaqla dağıdır. Sənət qədəmləri 17 yaşdan başlayır. Hamı kimi əvvəllər xırda məclislərdən başlasa da sonradan onun qarmonunun səsi böyük məclislərdən gəlir. Qarabağda qarmoncalanlardan biri kimi tanınır. Maliyyə Nazirliyində mühüm vəzifədə çalışan dayısı ilə 1948-ci ildə Bakıya gəlir və məşhur usta Arxip Karpuşkinə qarmon sifariş verir. Vaxt-vədə gəlir və məşhur usta Arxip Karpuşkinə qarmon sifariş verir. Vaxt-vədə yetişir, gəlib qarmonu aparkən ustanın yanında Teyyub Dəmirovla rastlaşır. Ustad qarmonçu Əliyə deyir: "Cavan oğlan, sən heç bilirsən özünlə Ağdama nə aparırsan? Sən qızıldan qiymətli bir şey aparırsan. Bu nadir, bənzərsiz bir qarmondur. Belə alət hələ-hələ ələ düşməz".

Əlbəttə bu tale işi idi. Əlinin qarmonunun ecazkar səsi Qarabağ toylarına şirinlik qatır. Bu alət onun sənət həvəsini daha da ucaldır.

Əli Quluyev Ağdamın bütün sənətkarları ilə çalıb-çağırmış və sevimli ifaçı olmuşdu. Onun xa-

siyyəti də gözəl idi. Hər yerdə xətri əziz tutulurdu. O, yaşa dolarkən ustad səviyyəsində yetişmişdi. Muğamları və xalq havalarını yüksək peşəkarlıqla çalırdı. Xanəndələri əla müşayiət edirdi.

Məşhur qarmonçu Məmmədağa Ağayev Ağdam toylarına çağırılarkən qarmonçu Yelmar Zeynalovun qonağı olardı. Çalıb-oxuyanlar ora toplaşıb Məmmədağanın sənətindən zöv alardılar. Məmmədağa bir-neçə dəfə Əlini dinləmiş və yaxşı fikirlər söyləmişdi.

Əli Quluyev 1960-cı illərin əvvəllərindən Ağdamın 1 saylı uşaq musiqi məktəbinin, yaşının ahıl çağlarında isə Ağdam Musiqi Texnikumunun (haz. kollec) qarmon siniflərində dərs deyirdi.

Əli "Bayatı-Qacar", "Zabul" və "Rast" muğamlarını T.Dəmirovun radio ifalarından öyrənmişdi. Şakəri, sevdiyi, könlünü verdiyi isə "Zabul" muğamı idi. Onu Qarabağda "Zabul Əli" kimi tanıyırdılar.

Əli Quluyev 1988-ci il iyun ayının 2-də bu dünya ilə vidalaşıb. Elin sevimli sənətkarının dəfni izdihamlı olmuşdu. Evdən qəbristana qədər gedən insanların sayı-hesabı yox idi.

• • •



Musa Yusif oğlu Həsənov 1934-cü il sentyabrın 3-də Bakının Çəmbərəkənd mənəlləsində anadan olub.

1960-1970-ci illərdə qarmon sənətinə gələnlərin əksəriyyəti Musa Həsənovu tanıyırdı. Onu Əhməd Bakıxanovun x.ş.a.ansamblının tərkibində tez-tez televiziya ekranlarında görürdük. O, bu məşhur ansamblda 1950-ci illərin ikinci yarısından 1970-ci illərin birinci yarısına qədər çalışmışdır. O dövrdəki konsertlərin televiziya çəkilişlərində də onu görmək mümkündür. "Şur" televiziya filmində də Ə.Bakıxanovun idarəsilə ansamblın tərkibində qarmonçalan Musadır, muğamın şöbələrindən birini ifa edir.

M.Həsənov fasilələrlə İ.Əbilov adına mədəniyyət evinin qarmon sinfində dərs demiş, bütün dövrlərdə öz mənzilində qarmon çalmağı öyrənmək istəyənləri hazırlamışdır. Yetirmələri çoxdur. Bu sırada Firuz Eyvazov, Valeh Rəhimov, Elxan Rəhimov, Səkinə İsmayılova (haz.x.a., müğənni), Etibar Qasımbəyli, Pənah İşərişəhərli və b. qeyd edə bilərik. Özü isə yeniyetmə və gənclik illərində ustad qarmonçalan Məmmədağa Ağayevdən dərs almışdır.

Musa müəllim Neft və Kimya İnstitutunu bitirmiş və Elmi Tədqiqat İnstitutunda elmi işçi olmuşdur.

Moskvanın "Melodiya" firmasının Tbilisi filialı 1975-ci ildə M.Həsənovun ifasını qrammafon valına yazaraq yaymışdır. O, valda "Zabul" muğamını, "Tərəkəmə" oyun havasını, Ş.Axundovanın "Təbriz" rəqsini ifa etmişdir.

M.Həsənov 1975-1985 ci illər arasında xalq artisti, ustad tarzən B.Mansurovun rəhbərliyilə x.ç.a.ansamblının tərkibində "Melodiya" firması tərəfindən müğənnilərimizin səsinin vallara yazılmasında müşayiətçi olmuşdur. O, 1993-cü ildə Dövlət Mahnı və Rəqs ansamblında çalmışdır. Musa müəllim Sovetlər Birliyi dağılandan sonra 1994-cü ilə qədər Tütkiyəyə, sonralar isə 2012-ci ilə qədər İranın Tehran şəhərinə səfərlər etmişdir. Tehranda müsiqi məktəbində və evlərdə qarmon sənətindən dərs demişdir. Bu ölkənin radiosu qarmonçalanın ifasında Azərbaycan xalq rəqslərini fonda almış və səsləndirmişdir. Hətta bu melodiyalar Amerikaya göndərilmişdir. Musa müəllim Tehranda diskə yazdırdığı xalq havalarımızın bəzilərini Azərbaycan milli radiosuna da təqdim etmişdir.

• • •

Kamil Səfərəli oğlu Vəzirov 1949-cu il sentyabrın 2-də Bakı şəhərində anadan olub. Şəcərəsindən saflaşaraq süzülüb gələn istedad az yaşlardan üzə çıxdığı üçün musiqi ilə məşğul olmuş, qarmon çalmağa başlamışdır. Çalğını atasından öyrənmişdir.

Kamil 1959-1964-cü illərdə 31 saylı orta ümumtəhsil məktəbdə təhsil alıb. O, 1960-1964-cü illərdə 6 saylı uşaq musiqi məktəbində oxuyaraq tar sinfini bitirib. 1964-1968-ci illərdə A.Zeynallı

adına Musiqi Texnikumunun tar sinfində bəstəkar-pedaqoq Adil Gəraydan (1919-1973) not, Elxan Müzəffərovdan muğam dərsi alıb.



Kamil evdə atasından qarmonda muğamın ifa yollarını da öyrənib. Ata bütün övladlarının ali təhsilli musiqiçi kimi yetişməsinə çalışardı. Kamil 1977-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. O, 1967-ci ildən Opera və Balet Teatrının simfonik orkestrində tar ifaçısı kimi əmək fəaliyyətinə başlamışdır.

Əvəzolunmaz müğənni, böyük sənətkar Rəşid Behbudov (1915-1989) Mahnı Teatrı yaradarkən seçdiyi musiqiçilər içərisində Kamil Vəzirov da var idi. O, burada tar, ud, saz, eloktrogitara , qarmon və dodaqla çalınan qarmon çalmışdır. Kamil bu teatrın tərkibində dünya səhnələrində Rəşid Behbudovu və teatrın müğənnilərini müşayiət etmişdir.

K.Vəzirovun qarmon ifasında "Zabul" muğamı, "Qıtqılıda", "Nurtacı", "Rəqs suitası", "Azərbaycan tərənələri", "Bayram rəqsi", "Abşeron ritmləri" melodiyaları radio fondu üçün qəbul olunub və səsləndirilir. Həmçinin akkordeonla çaldığı "Sənə də qalmaz", tarda ifa etdiyi "Ana" (C.Cahangirov), "Arzu" (Niyazi) mahnıları da fonda daxil edilmişdir.

K.Vəzirov 2000-ci ildə əməkdar artist, 2010-cu ildə xalq artisti fəxri ad almışdır.

• • •



Əhliman Zabitoğlu 1952-ci ildə Ağdaş şəhərində anadan olub. Uşaqlıqdan qarmon çalmağa başlayıb. Az yaşlardan nəzər-diqqəti cəlb etdiyi üçün musiqiçilər onu özlərilə toylara aparıblar. Istedadı onu tez qabağa aparıb və tanıtdırıb. Onların ailəsi Göyçaya köçüb. Bu zaman Əhlimanın 16 yaşı olub. O, burada yerli xanəndə Murtuzəli Məmmədovla toylara gedib. Göyçay mədəniyyət evinin qarmon sinfində dərs deyib. Onun burada dərs deməsi həmin rayonda qarmon sənətinin inkişafına təkan verib. Ə.Zabitoğlu 1973-cü ildə Bakıya gəlib və Aqşin Quluyevin rəhbərlik etdiyi "Şənlik " x.ç.a. ansamblında fəaliyyətə başlayıb. Az sonra ansamblın solistinə çevrilib. Həmin ildən başlayaraq Dövlət Filarmoniyasında "Şənlik" ansamblının müşayiətilə Ə. Zabitoğlunun dəfələrlə solo konsertləri olub. Bu konsertlər və onun səhnə çıxışlarından lentlərə yazılan ifalar onu az zaman kəsiyində respublikamızda geniş şəkildə tanıtdırmışdır. Çaldığı "Segah" və Şahid Əbdülkərimovun "Təki sən səslə məni" mahnısı o dövrdə onun repertuarını bəzəmiş və sənətkara rəğbət gətirmişdir. O, həmin konsertlərdə "Sanqam" hind kinofilmindən bir mahnı da çalmışdı ki, bu və digər hind melodiyaları da maqnitofon kasetləri vasitəsilə geniş təşəkkül tapmışdı. Bütün bunlardan sonra o, adlı-sanlı xanəndələrimizlə Azərbaycanın hər yerinə toylara getmişdir. Onun özü də dəbdə olan, sevilən sənətkar kimi öz toy ansamblı ilə çox yerlərə dəvət olunmuşdur. Əhliman ürəkli, təsirli qarmon ifaçısı olaraq həmişə seçilmişdir. Onu da qarmon sənətimizin qabaqçıllarından, usta ifaçılarımızdan saymalıyıq.

Ə.Zabitoğlu Teleradioda fəaliyyət göstərən, tarzən Ağasəlim Abdullayevin rəhbəri olduğu "Araz" x.ç.a.ansamblında 30 ildən artıq çalışıb. Müxtəlif illərdə müğənnilərin televiziya çıxışlarında, səslərinin radio fonduna yazılışlarında layiqli müşayiətilə xidmət göstərib. Radio fonduna öz solo ifalarını da təqdim edib. Bu ifalar arasında "Segah" muğamı, bəstəkar mahnıları və xalq havaları da vardır.

2.51. İFAÇI, PEDAQOQ, YARADICI İNSAN



Zair Mustafayev

Yaşam müdrikliyindən əmələ gələn əməllər sahibi olan daha bir insanın xidmətlərini işıqlandırmaqda qərar tutduq. Sənəti sevmək, muğamı, milli musiqini sevmək, xalq musiqisinə həvəslə yanaşmaq onun ruhuna hopub. Çünki bu musiqinin kökündə və budaqlarında gözəllik bitir. O, bu gözəl sənəti yetirmələrinə də sevdirir. Zair Veysəl oğlu Mustafayev 1949-cu il iyunun 1-də Şəki şəhərində anadan olmuşdur. 1968-ci ildə Şəki Pedaqoji Məktəbini, 1975-ci ildə isə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsini bitirmişdir.

1966-1970-ci illərdə Şəki şəhər mədəniyyət evində və pionerlər evində qarmon dərnəyinin rəhbəri olmuş, 1975-1981-ci illərdə Şəki İpək kombinatında mühəndis-memar işləmişdir. 1980-ci ildən isə Şəki Musiqi Kollecində qarmon ixtisası üzrə pedaqoji fəaliyyət göstərir.

1976-2009-cu illərdə Şəkinin "Zirvə" xalq instrumental ansamblının solisti olmuşdur.

Z.Mustafayev üzvü olduğu ansambllarla birlikdə 1968, 1971, 1972, 1978-ci illərdə SSRİ məkanında, 1995 və 1996-cı illərdə Türkiyədə keçirilən festival və müsabiqələrdə iştirak etmiş və fəxri diplomlar almışdır. 1971-73-cü illərdə Politexnik İnstitutda Nəriman Əzimovun rəhbərlik etdiyi x.ç.a. ansamblının üzvü olmuş və Daşkənddə keçirilən "TaşPİ-71" festivalında, 1972-ci ildə isə SSRİ-nın 50 illiyinə həsr olunmuş Ümumittifaq Televiziya festivalında uğurla çıxış etmişdir. Bu konsertlər SSRİ-nin bütün ərazisinə televiziya ilə canlı yayımlanmışdır.

1971-72-ci illərdə institut təhsili zamanı görkəmli baletmeyster, xalq artisti Əlibaba Abdullayevin rəhbərliyi ilə fəaliyyət göstərən rəqs kollektivini müşaiyət etmişdir. 1972-ci ildə x.ç.a. ansamblı və həmin rəqs kollektivi ilə birlikdə SSRİ kosmonavtlarını hazırlayan Bauman adına Moskva Ali Texniki Məktəbində (M VTU) konsert proqramı ilə çıxış etmişdir.

"Zirvə" xalq instrumental ansamblı ilə birlikdə 1978-80-ci illərdə Azərbaycan televiziyasının "Gənclik estradası" adlı veriliş-müsabiqəsinin iştirakçısı və qalibi olmuşdur.

1999-cu ildə Sumqayıt Musiqi Texnikumunun və Milli Konservatoriyanın müəllimi, mərhum Natiq Rəsulov ona, qarmon üçün xalq rəqslərini nota köçürərək işləməyi və məcmuə buraxmağı təklif edir. O, bir qədər tərəddüddən sonra razılaşır. Bir neçə aylıq gərgin işdən sonra N.Rəsulovun redaktorluğu ilə Z.Mustafayev 10-u xalq rəqslərindən, 5-i isə özünün yazdığı rəqs melodiyalarından ibarət " Azərbaycan xalq rəqsləri" adlı məcmuəni qarmon üçün tədris vəsaiti kimi çap etdirir. Məcmuəyə görkəmli bəstəkar, respublikanın xalq artisti, professor Süleyman Ələsgərov ön söz yazmışdır. Məcmuə çap olunandan sonra onunla tanış olan Sankt-Peterburq Pedaqoji Akademiyasının müəllimi, elmlər doktoru, professor Faiq Çələbi "Xalq" və "Şəki" qəzetlərində "Gərəkli məcmuə" adlı məqalə ilə çıxış etmişdir.

Bu məcmuə qarmon ifaçılığı tarixində nadir hadisə idi, çünki, 2009-cu ilədək heç bir qarmon

ifaçısı öz əli ilə rəqs melodiyalarını qarmon üçün nota köçürməmişdi.

Buna qədər qarmonçalanların adından nəşr olunan məcmuələr aşağıdakılardır:

1) "10 rəqs" Bakı-1960. (Melodiyalar Məmmədağa Ağayevindir. Fortepiano üçün işləyəni T.Quliyev).

2) " Rənglər və rəqslər". Bakı – 1961. (Melodiyalar Teyyub Dəmirovundur. Fortepiano üçün işləyəni R.Rüstəmov).

2007-ci ildə Z.Mustafayev yeni bir layihə üzərində işləməyə başlayır. Məşhur qarmon ifaçısı, respublikanın xalq artisti Avtandil İsrafilovun yaratdığı və ifa etdiyi 15 rəqs melodiyasını nota almaq qərarına gəlir. Rəqslərin əlyazması hazır olarkən Z.Mustafayev A.İsrafilovla onun evində görüşərək fikir mübadiləsi aparır və yazdığı notları qarmonda səsləndirərək onun bu barədə müsbət rəyini alır.

Nəhayət rəqslərin notunu öz əlləri ilə kompüterdə çıxardan (7 ay əvvəldən kompüterdə not yazmaq proqramını öyrənməyə başlamışdı). Z.Mustafayevin (A.İsrafilov "Rəqslər") məcmuəsi 2012-ci ilin mayında işıq üzü gördü və "Space" televiziya kanalının "Virtuoz" verilişinin 9 may yayımında ictimaiyyətə təqdim olundu.

Zair Mustafayev qarmon üçün işlənmiş rəqslərdən ibarət iki məcmuənin, dörd əsərin (çapa hazırlanır), iki mahnı və 10-a qədər rəqsin müəllifidir. Ümidlərimiz böyükdür. O, hələ də çalışmaqda, axtarış etməkdədir. Bu yaradıcı və çalışqan insan qarmon tədrisinə yeni-yeni töhfələrini verəcəkdir. Bununçün onun tam potensial imkanları vardır. Yaş üstə yaş gəldikcə billurlaşan istedadı və işgüzarlığı onun qarşısında geniş imkanlar açır.

Zair müəllim yadında qalan hadisələri yazıya köçürüb. Bunu olduğu kimi oxucu nəzərinə çatdırmağı lazım bildik:

"1961-ci ilin yazı idi. Bir gün anamla günorta vaxtı dayımgilə qonaq getmişdik. Dayım Adışirin İsrafilov məşhur zurnaçalan Ələfsər Şəkilinin xalası oğlu, həm də onun dəstəsində kosvuran (böyük nağara çalan) idi. Biz eyvana daxil olduğumuz zaman dirəkdəki radioda qarmonda muğam çalınırdı. (Sonralar bildim ki, bu Məmmədağa Ağayevin çaldığı "Orta Segah" muğamıdır). Dayımla anam evdə söhbət edir, mən isə dirəyə söykənib muğama qulaq asırdım və gözlərim yaşarmışdı. Bu vaxt dayım məni çağırdı və gözlərimdəki yaşı görərək soruşdu: - "A bala, niyə ağlıyırsan?" Mən də cavab verdim ki, həm muğam xoşuma gəlir, həm də mənə qarmon almırlar!.. O, anama məzəmmətlə: - "Ay bacı, görürsüz ki, uşağın böyük həvəsi var, ona bir qarmon alın daa..."

Bir gün məktəbdən evə gəldikdə çarpayının altında karton yeşik gördüm və evdəki qonaqlara "xoşgəldin" deməyi belə unudaraq cumub qarmonu götürdüm. Həyətdə oturub "çalırdım" amma bir şey çıxmırdı. Bir neçə saatdan sonra atama dedim ki, istəmirəm, qarmonu aparıb qaytarın . Çünki, təsadüfi, əlaqəsiz səslər başıma düşmüşdü. Sözsüz ki, rəhmətlik atam bunu etmədi. İkinci gün də bu minvalla keçdi. Üçüncü gün yarımpərdələri olmayan bu qarmonda 3 səsin əlaqəsini taparaq bu pərdələrdə "Sudan gələn sürməli qız" mahnısını "hecalamağa" başladım. Bu mənim sonrakı musiqiləri öyrənməyim üçün açar rolunu oynadı. Bir neçə aydan sonra "Kazan" qarmonum var idi.

...1966-cı il idi. Artıq mən çoxlu mahnı və rəqs öyrənmişdim və muğamlardan bir az baş çıxarırdım. İndi istəyirdim ki, məni daha geniş auditoriya dinləsin. Ona görə də bir gün anama dedim ki, məni öz xalası nəvəsi olan tarzən və rəssam İsmayıl Tağıoğlunun yanına aparıb ona tanıtsın. Belə də oldu. O mənim çalğımı görüb bəyəndi. Sonra onunla üç ildən artıq birlikdə çalışdıq."

"1968-ci ildə Şəkiyə xarici qonaqlar gəlmişdilər. Qonaqları səhər yeməyi vaxtı əyləndirmək üçün musiqi qrupuna Ələfsər Şəkili rəhbərlik edirdi. Dördyol adlanan ərazidə yerləşən yeməkxanada hazır vəziyyətdə qonaqları gözləyirdik. 15-20 nəfərdən ibarət nümayəndə heyəti gəldi. Onları rayon rəhbərliyi: katiblər, rəis, prokuror, idarə müdirləri və b. müşaiyət edirdilər. Bir-iki

çıxışdan sonra sakitlik yarandıqda mən qeyri-ixtiyari olaraq, pıçıltı ilə qarmonda "İnternasional" himnini zümzümə etdim. Bu zaman qonaqlar hamısı ayağa qalxaraq, himni oxumağa başladılar (Bunu heç gözləmirdim). Mən özümü itirməyərək onları müşaiyət etməyə başladım. Qonaqlar oxuyur, bizim partiya rəhbərləri isə başlarını aşağı salıb dayanmışdılar. Milis rəisi və bir neçə nəfərin mənə hiddətlə baxdığını gördükdə, fikirləşirdim ki, görəsən, bu hadisəyə görə nə cəza alacağam və məni tər basdı. Xülasə, himni oxuyub qurtardıqdan sonra qonaqlar və "bizimkilər" əl çalaraq əyləşdilər. Tədbirin sonunda şəhər Partiya Komitəsinin III katibi İzzət Həmidov bizə yaxınlaşdı və Ələfsər müəllimlə görüşüb hal-əhval tutduqdan sonra mənə dönərək dedi: " - Bir də heç vaxt özbaşına belə qələt eləmə!"

"1973, ya da 1974-cü il idi. Şəkidə müsabiqə keçirilirdi. Münsiflər heyətində görkəmli aktyor, xalq artisti Məlik Dadaşov və Şəki RPK-nin II katibi Ənvər Nəzərli var idı. Mən özüm bəstələdiyim rəqs melodiyasını ifa elədim. Böyük sənətkarımız Məlik Dadaşov rəqs melodiyasının çox xoşlarına gəldiyini və onun adını "Şəki rəqsi" qoymağımı tövsiyə etdi və mən sözsüz ki, buna əməl etdim. Mənim 1999-cu ildə buraxılmış məcmuəmdəki "Şəki rəqsi" elə həmin rəqsdir.

1993-cü il noyabr ayının 3-də Şəkidə Şəkili Ələsgərin xatirəsinə həsr olunmuş muğam festivalı keçirilirdi. Adlı-sanlı muğam ustalarından gənc ifaçılara qədər Bakıdan böyük bir kollektiv iştirak edirdi. Mən də bu konsertdə Şəkili Ələsgərin vaxtilə oxuduğu və onun bütün Şərqdə ən gözəl ifaçısı olduğu "Rahab" muğamını ifa edərək onun ruhunu şad etmək istədim. Səhnə arxasında, müxtəlif yerlərdə öz çıxışıma qədər məşq edirdim ki, barmaqlarım formadan düşməsin. Bir qarmonçalanın bu qədər muğam ifaçısının olduğu bir konsertdə nə edəcəyinə maraq və ya əksinə, etinasızlıq göstərənlər də var idi.

Nəhayət, mənim çıxışım elan olundu və mən səhnəyə çıxdım. Bu zaman səhnənin yan pərdəsinin həndəvərində heç kəs yox idi. Mən muğama ("Əmiri", "Rahab", "Şikəsteyi-fars", "Mübərriğə", "Əraq", "Qərai", "Məsihi" və "Rahaba ayaq") ayaq verib səhnədən çıxmaq istədikdə, ustad xanəndəmiz, xalq artisti, prof. Arif Babayev və onun arxasında olan böyük bir dəstənin səhnənin girişinə yığışaraq məni maraqla dinlədiklərinin şahidi oldum. Hörmətli xanəndəmiz mənə əl verərək: - "Çox sağ ol, ay qardaş! Qarmonda muğamı belə çalarlar. Bəzi qarmonçalanlar muğamın anasını ağladır", – dedi. Mən də öz növbəmdə ifama yüksək qiymət verdiyinə görə Arif müəllimə minnətdarlığımı bildirdim.

Sonradan konsertin aparıcısı Vaqif Kərimov mənə danışdı ki, sən səhnədə olarkən hörmətli pedaqoq Nəriman Əliyevdən soruşduqda ki, – Nəriman müəllim, bundan sonra sizin çıxışınızdır, nəyi elan edim? O, demişdi: – Vaqif, mən "Rahab" oxuyacaqdım, ancaq bu oğlan onu həm çaldı, həm də oxudu.

1999-cu ildə görkəmli bəstəkar, xalq artisti, prof. Süleyman Ələsgərovu evimdə qonaq eləmişdim. İstirahət zamanı toylardan birində ürəkdən çaldığım bir "Segah" muğamının videoyazısına baxırdıq. Süleyman müəllim mənim ifamı böyük maraqla dinləyir və bəzən də başını tərpədirdi. Bu məni həm həyəcanlandırır, həm də böyük bir bəstəkarın ifama qiymət verməsi məni sevindirirdi."

İfaçılıqla məşğul olduğu dövrdə Z.Mustafayev bir çox adlı-sanlı müğənni və musiqiçiləri müşayiət etmişdir. Onlardan: Polad Bülbüloğlu, Mirzə Babayev, Ələfsər Şəkili, Flora Kərimova, Alim Qasımov, Məmmədbağır Bağırzadə, İslam Rzayev, Zaur Rzayev, Baba Mirzəyev, Könül Xasıyeva, Gülyaz və Gülyanaq Məmmədovalar, Aygün Bayramova, Natiq Nuriyev, Aybəniz Haşımova, Nüşabə Ələsgərova, Aygün Bəylər, Almaz Ələsgərli, Rəya, Nadir Qafarzadə, Zöhrə Abdullayeva, Firuzə İbadova, Eyvaz Həsənov, Tərənə Vəlizadə və b. göstərmək olar.

Bu dəyərli şəxsin, əsl pedaqoqun həyat və fəaliyyəti barədə yazılması üçün onun haqqında məlumatı bizə yetirən qarmon ifaçısı İlqar Kərimova (İlqar Şəkili) təşəkkürlər etməkdən usanmırıq.

NAZİLƏ

Müəllif: Avtandil İsrafilov
Nota yazdı: Zair Mustafayev

Zair Mustafayevin tərtib etdiyi "Avtandil İsrafilov - Rəqslər" məcmuəsindən nümunə (Bakı, 2012).





2.52. FİRUZ EYVAZOV



Firuz Eyvazov

O da həyatının mənalı, sənətinin məhsuldar dövründə bu dünyaya əlvida deyib. Əzizlərinin, doğmalarının, onu sevənlərin qəlbində, dilində, sənət yoldaşlarının xatirələrində yaşayır. Biz də onun sənət dəyərinə qiymət verərək adını şərəflən-dirib musiqi tarixində yaşatmaq istədik.

Firuz Alxas oğlu Eyvazov 1949-cu il dekabrın 7-də zəhmətsevər və halallıqla yaşayan bir ailədə dünyaya qədəm qoyub. Ailə köhnə Bakımızın tanınan məhəllələrindən olan "Cənub Sovet meydanı"nda yaşayırdı. Həmin sadə ömür sürən ailədə halal çörəklə, dərin məhəbbətlə və ata-ana nəvazişilə üç oğul, üç qız balası boy atıb böyüyüb. Firuz beşinci övlad idi.

Alxas kişi və Nurxanım ana haqq adamı idilər, düzlüyü sevib halallığa sığınmışdılar. Hər ikisi iman əhli olaraq İslam dininin qaydalarına düzgün riayət edirdilər. Alxas kişi (1907-1966) musiqisevər, həssas qəlbli, duyumlu və düşünən bir insan idi. Pəsdən, xoş avazla, şirin-şirin muğam və xalq mahnılarını oxuyardı. Xanəndə Ağabala Abdullayevin və Zülfü Adıgözəlovun səsini, oxumağını çox xoşlardı. Bazar günləri muğamat konsertinin vaxtını ötürməzdi, mütləq evdə olub muğamları dinlərdi.

Alxas kişi "İrəvanda xal qalmadı" mahnısını gözəl ifa tərzilə, şirin boğazlarla, zərif xırdalıqlarla elə oxuyardı ki... O, doğrudan da istedad sahibi idi. Elə bu istedad Allahın hikmətilə övladlara da sirayət etmişdi. Firuzda da beləcə.

Qəlbi nurlu Nurxanımın (1912-1977) qardaşı müharibədə həlak olanda elə təsirli bir şikəstə oxumuşdu ki, eşidənlər bu təsirdən bir müddət çıxa bilməmişdilər.

Firuz 1966-cı ildə 161 saylı orta ümumtəhsil məktəbi, 1971-ci ildə M.A.Əliyev adına ADİİ-nin (haz.Mədəniyyət və İncəsənət Universiteti) mədəni-maarif fakültəsini bitirib.

F.Eyvazov kiçik yaşlardan qarmon sənətinə meyl edib. 7 yaşdan qarmon çalmağa başlayıb. Radiodan tez-tez eşitdiyi qarmon ifaları onu sehirləmiş və özünə doğru çəkmişdi. Ailədə musiqi ilə ilk məşğul olan Firuz olub. Atası onu məhəllədəki Rəcəb adlı qarmonçalanın yanına dərs almağa qoyb. On yaşından isə Musa Həsənovun evinə gedərək dərs alıb. Musa müəllim 3 ildən artıq bir vaxt ərzində Firuzla məşğul olaraq ona xalq oyun havalarını, muğamları, dəramədləri və rəngləri öyrədib. O, M.Həsənovdan dərs almaqdan əlavə özü də sərbəst olaraq şox şey öyrənmişdi. Qrammafon vallarını, maqnitofondakı lent yazılarını dinləyirdi. Əsas qulaq asdığı Teyyub Dəmirovun və Məmmədağa Ağayevin ifaları idi. Ən çox da T.Dəmirovun sənətini sevirdi. 13 yaşlı Firuz baletmeyster Kamil Dadaşovun özfəaliyyət ansamblının rəqs quruluşlarını müşayiət etmək üçün Donetsk şəhərinə getmişdi. Həvəs onu İ.Əbilov adına mədəniyyət evinə gətirdi. O, neçə illər buradakı özfəaliyyət x.ç.a.ansamblında çalıb, mədəniyyət evində , digər yerlərdə verilən konsertlərdə olub, ansambllar arasında keçirilən müsabiqələrdə iştirak edib. Günləri daim mədəniyyət evində keçirdi, bura ona doğmalaşmışdı. Burada yetkinləşirdi, sənət addımlarını

atırdı, sənət istəklərinə yetişirdi, məşqlərdən və konsertlərdən zövq alırdı. Onun mədəniyyət evinə, musiqiyə bağlılığını və çalğı bacarığını görüb "Könül" rəqs ansamblına müşayiətçi qəbul etmişdilər. Rəqs ansamblının rəhbəri Arif Hüseynovla neçə illər birlikdə çalışmışdı. Firuz rəqs quruluşlarını dəqiqliklə müşayiət edə bilirdi. O, İncəsənət İnstitutunda oxuduğu illərdə oranın x.ç.a.ansamblında da bir müddət çalmışdı. Bədii rəhbər tarzən Adil Bağırov (haz.x.a.) idi. Firuz həm də səviyyəli bir ansambl qarmonçalanı və müğənniləri müşayiət etməyi bacaran musiqiçi kimi formalaşmışdı.

F.Eyvazov gənclik illərində müsiqi cəmiyyətində tanınaraq yaşıdları olan musiqiçilər və özündən yaşca böyük, həm də məşhur sənətkarlarla toylara qədəm qoymuşdu. Onun işlətdiyi qarmonu usta Juravlyov düzəltmişdi. Keyfiyyətli və mülayim səsə malik alət idi. Həmin alət indi də onun ailəsində qorunur.

Firuz o dövrdə gənc qarmon ifaçıları içərisində məharətli çalğısı ilə seçilən Həmid Haqverdiyevlə (1947-1980) də yoldaşlıq edirdi. Tez-tez görüşərdilər. Bir-birinin ifasını dinlər və fikir mübadiləsi aparardılar. O zamanlar Həmidin ifasında hind, Firuzun ifasında isə türk musiqisi özünü biruzə verirdi. Firuzun türk üslubunda çalmağı Həmidin xoşuna gəlirdi. Düzdür Azərbaycan qarmonunda türk musiqilərini tam dolğun çalarlarla ifa etmək çətindir, lakin mümkündür. Burada da istedad, fəhm və bacarıq kara gəlir ki, bu da Firuzda var idi. O, duyğuları və imitasiyası ilə istəklərini göstərə bilirdi.

Firuz artıq 1966-cı ildən yaxşı qarmonçu kimi xalq musiqiçilərinin nəzərində idi. Toylara ən çox məşhur nağaraçalan Çingiz Mehdiyev (1932-1992) və klarnet ifaçısı Əzizağa Quluyevlə gedərdi. O, tanımlı tarzən Fərman Hüseynovla da xeyli sənət əlaqələrində olmuşdu. Müğənni Hüseynağa Hadıyev (1946-1994) populyar olduğu ilk illərdə Firuz onun toy ansamblında çalışmışdı.

F.Eyvazov 1970-ci ildə öz ifalarını Azərbaycan radiosunun fonduna təqdim etməyi də unut-



Sağdan: Firuz Eyvazov, Ələkbər Əsgərov və Zöhrab Məmmədov.



Əbilov ad. mədəniyyət evində tədbir. Sağdan: Maestro Niyazi, Nəsimi (m.e.-nin direktoru), Çingiz Mehdiyev və Firuz Eyvazov

mamışdı. O, klarnetçalan Əzizağa Quluyevlə birlikdə "Arzu" rəqsini də çalmışdı. Fond üçün çaldığı musiqilər içərisində özünün bəstələdiyi, "Bayatı-Şiraz" muğamına əsaslanan lirik melodiya onun ifasında çox gözəl səslənir.

Qarmon ifaçımız gənclik illərində "Dənizçilərin mədəniyyət evi"ndə məşhur baletmeyster, əməkdar artist Kamil Dadaşovun rəhbərlik etdiyi rəqs ansamblında da çalışmışdı. 1969-cu ildə isə L.Şmidt (son.Səttarxan) adına maşınqayırma zavodunun mədəniyyət və texnika sarayının rəqs ansamblının müşayiətçisi olmuşdu. Ona çox doğma olan Əbilov adına mədəniyyət evində sonralar yenə fəaliyyətini davam etdirmiş, həm qarmon sinfində dərs demiş, həm də "Könül" özfəaliyyət rəqs ansamblında müşayiətçi işləmişdir. O, həmin ansambl ilə Meksika, Almaniya və digər ölkələrdə səfərlərdə olmuşdur. Firuz 1997-ci ildə Hollandiyaya da "Könül" ansamblı ilə getmişdir. Həmin səfərdə musiqiçilər sırasında Firuzun qardaşı Yasəf də var idi.

Firuz Eyvazov 1994-1996-cı illərdə mövcud olmuş "Fərid" x.ç.a.ansamblında çalışıb. Musiqi rəhbəri Arif Əsədullayev idi. Ansamblın müşayiətilə Ağaxan Abdullayev (haz.x.a.) muğam təsnifləri, Nazpəri Dostəliyeva (haz.x.a.) xalq mahnılarını, Ədilə Əflaki (haz.ə.a.) bəstəkarlardan Tahir Əkbər və Oqtay Kazımının mahnılarını lentlərə yazdırmış və AzTV-də çəkilişlər etmişdilər. "Fərid" ansamblı Avropanın bir neçə ölkəsinə səfər etmiş və 1994-cü il aprelin 6-dan 24-nə qədər İraqda keçirilən festivalın iştirakçısı olmuşdur. İraqdan əvvəl Suriyada konsert verilmişdi. Səfərə müğənnilərdən Əli Ədilə Əflaki və Səfalət Səmədov, klarnet ifaçısı Vaqif Mirzəyev (haz.ə.a.), nağaraçalan Əli Xiləli, qarmon ifaçısı Firuz Eyvazov və digər alətlərin ifaçıları, həm də rəqs qrupu getmişdi. "Fərid" ansamblı qısa zaman ərzində səmərəli çalışmış və bəzi yaradıcılıq uğurlarına nail olmuşdu.

F.Eyvazov sənətşünaslıq doktoru, kaman, klarnet və milli nəfəs alətlərimizin ifaçısı Abbasqulu Nəcəfzadənin 1989-cu ildə yaratdığı "Günaydın" instrumental ansamblın üzvü idi, lent yazılarında, televiziyadakı canlı çıxışlarda iştirak edirdi.

Qarmon sənətimizə, musiqi mədəniyyətimizə, milli rəqs quruluşlarının müşayiətinə sədaqətlə xidmət edən bir sənətkar özünüreklamdan qaçsa da onu tanıyanların xatirəsində yaxşı qarmon ifaçılarımızdan biri kimi qalıb. O, mərd və cəsarətli idi, haqqı sevirdi, halallığa xidmət edirdi, dostlara,

qohumlara, sənət yoldaşlarına ehtiram bəsləyirdi. Bütün bunların nəticəsidir ki, onun vaxtsız itkisi bu gün də çoxlarını yandırır.

Firuz Eyvazov 2000-ci il iyunun 17-də ürək xəstəliyindən dünyasını dəyişib. İki oğul və dörd nəvə onun yarımçıq ömrünün layiqli və fəxrli davamçılarıdır.

Firuzun böyük qardaşı, Eyvazovlar ailəsinin böyük oğlu və fəxri olmuş Yavər (1935-1975) gözəl ədəbiyyatçı idi. 12 yaşından ərəb əlifbasını öyrənmişdi. Bu onun əski əlifbə ilə yazılmış nadir nüsxələri oxuyub bilik əldə etməsinə şərait yaradırdı. Arivlərdə qorunan xeyli qiymətli marerial ilə tanış olmuşdu, ciddi araşdırmalarla məşğul olmuşdu. O, filologiya elmləri namizədi idi. Doktorluq işinin müdafiəsinə hazırlaşarkən əcəl macal verməmişdi.

Yavər dilimizin saflığını qoruyanlardan biri olaraq özü də səlis, aydın danışır və bu dilə aid olmayan yad sözlər işlətmirdi. Elm aləmində, çalışdığı yerlərdə, yaşadığı məhəllədə, dostlar və qohumlar arasında böyük nüfuz qazanmışdı. Əgər yaşasaydı elmimizə öz töhfələrini verəcəkdi.

Şəfiqə Alxas qızı Eyvazova da bu ailəyə baş ucalığı gətirənlərdəndir. Bu ad musiqi ictimaiyyətinə və xalqımıza yaxşı tanışdır. O, sevimli kaman alətilə və gözəl ifaları ilə musiqi mədəniyyətimizi zənginləşdirmişdir.

Şəfiqə Eyvazova 1957-ci ildə 2 saylı musiqi məktəbinə daxil olaraq kamança sinfində dərs almış və ilk anlardan istedadı ilə seçilmişdir. Sonralar 1 il Bülbül adına orta ixtisas məktəbdə oxumuşdur. 1962-1966-cı illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunda, 1966-1971-ci ilərdə Azərbaycan Dövlət Konservatoriyasında kamança ixtisası üzrə təhsil almışdır.

Əhsən Dadaşov 1963-ci ildə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində x.ç.a. ansambl yaradarkən Şəfiqə xanımı da dəvət etmişdir. O, bu ansamblda çalışarkən mükəmməl bir musiqiçi kimi yetişərək geniş tamaşaçı kütləsi qarşısında tanınmış və mahir kaman ifaçısı kimi xalqın sevimlisinə çevrilmişdir. Şəfiqə xanım radioda, televiziyada, filarmoniyada və respublika sarayında verilən konsertlərdə ansambl tərkibində öz maraqlı soloları ilə seçilmişdir. Onun məşhurlaşması kamança sənətinə yiyələnmək istəyənlərin sayını artırmışdır. O zamanlar musiqi məktəblərində kamança ixtisasına axın yaranmış, qızlar arasında da bu sənəti öyrənmək istəyənlər çoxalmışdı. O illərdə uşaq musiqi məktəblərində və musiqi texnikumlarında qəbulda iştirak edən müəllimlər, məşhur sənət adamları və bəstəkarlar da bunu etiraf edir və bu işdə Şəfiqə xanımın xidməti olduğunu dilə gətirirdilər.



Xalq artisti Şəfiqə Eyvazova

Ş.Eyvazova 1968-ci ildə Ə. Dadaşovun ansamblı ilə Qahirədə səfərdə olmuşdur. Yeganə hal idi ki, xarici ölkəyə Azərbaycandan göndərilən ansambl bütün heyəti ilə gedirdi. Heç sonralar da bu cür hal təkrar olunmayıb. Maliyyə xərclərinə görə xarici dövlətlərə səfər edən ansamblar həmişə kiçik heyətlə getmişlər. Bu gün də belədir.

Ərəb tamaşaçıları Şəfiqə xanımın kamança ifalarından məmnun qalmış, onun sənətini sevmişdilər.

Ş.Eyvazova R.Behbudovun Mahnı Teatrının tərkibində 5 il xarici ölkələrdə kaman sənətini təbliğ edib.

Mahir kaman ifaçımız Avropa və ərəb ölkələrinə, Amerikaya, Yaponiyaya və Türkiyəyə 50-dən artıq səfər etmişdir. O, 1975-ci ildə SSRİ dövlətinin paytaxtı Moskvada Beynəlxaiq Qadınlar Konqresinin iştirakçısı olmuş və sülh naminə medalla təltif edilmişdir.

1978-ci ildə Kuybışev şəhərində keçirilən "Muğam simpoziumu"nda iştirak edən Ş.Eyvazova həm solist, həm də üçlük tərkibində səviyyəli ifası ilə seçilirdi. Tarzən Bəhram Mansurov, xanəndə Canəli Əkbərov idi. Musiqişünas kimi çıxışçı bəstəkar Nəriman Məmmədov olmuşdu. Həmin ildə Moskvada məşhur bəstəkar Tixon Xrennikovun rəhbərliyi ilə keçirilən "Muğam simpoziumu"nda da Şəfiqə xanım iştirak etmişdir. Tarzən Həbib Bayramov, xanəndələr Tükəzbən İsmayılova və Yaqub Məmmədov idi. 1987-ci ildə Səmərqənddə "IV Beynəlxalq muğam simpoziumu" keçirilmişdi. Sənətkarlarımız Şəfiqə Eyvazova, xanəndələr Alim Qasımov, Səkinə İsmayılova, Könül Kərimova, tarzənlər Ağasəlim Abdullayev və Ramiz Quliyevin çıxışları çox böyük uğur qazanmışdı.

2002-ci ildə sevimli ifaçımızın Heydər Əliyev adına sarayda solo konserti olmuşdur.

Şəfiqə Eyvazovanın solo ifaları Azərbaycan radiosunun və AzTV-nin fonotekasında qorunur. O, 10-dan artıq bəstəkar əsərlərini, "Şur" və "Rahab" muğamlarını ifa etmişdir. Hacı Xanməmmədovun (1918-2005) məşhur "Kamança ilə simfonik orkestr üçün konsert"ini böyük ustalıqla ifa etmişdir. Əsərin premyerasında müəllif özü də böyük bəstəkarlarla birlikdə iştirak edərək solistin ifasına yüksək dəyər vermişdilər. Ş.Eyvazova bu əsəri Türkiyənin orkestrləri ilə Türkiyədə və başqa dövlətlərin iri konsert salonlarında səsləndirmişdir.

Dünya ölkələrinin ən məşhur musiqiçiləri, orkestrlərin konsertmeysterləri,ali musiqi təhsili müəssisələrinin professorları Türkiyəyə toplaşıb eyni orkestrdə əsərləri məşq edib Türkiyədə, həmçinin neçə-neçə böyük ölkələrdə konsertlər verirlər. Şəfiqə xanım 2003-ci ildən 2008-ci ilə qədər həmin orkestrin solisti kimi konsertlərdə çıxış etmişdir. Dünya ölkələrinin tamaşaçıları Şəfiqə xanımın ifasında H.Xanməmmədovun və digər böyük bəstəkarlarımızın əsərlərini maraqla qarşılamışlar. Türkiyədə toplanıb fəaliyyət göstərən həmin orkestrin 2012-ci ildə 20 illiyi qeyd olunmuşdur.

Ş.Eyvazova Milli Konservatoriyanın professorudur. Onun həyat yoldaşı, tanımlı kaman ifaçısı Arif Əsədullayev geniş yaradıcılıq yolu keçmiş və pedaqoji sahədə də yüksək göstəricilərə nail olmuşdur. O, Musiqi Akademiyasının professorudur. A.Əsədullayev Azərbaycan muğamlarını nota köçürmüş və nəşr etdirmişdir. Bu ailənin istedadlı qızı Mehri valideynlərinin sənət yolunu tutaraq xeyli nailiyyətlərə imza atmışdır. O, kamança sənəti üzrə çox yaxşı solistdir. Bir müddət müğənniliyə üz tutsa da kaman ifaçısı kimi öz üzərində işləmiş və sənət meydanında parlamışdır. Mehri xanım konservatoriyanın kamança sinfini bitirmişdir. Bu istedadlı qız 15 yaşında ikən Braziliya ölkəsində çıxış edərək böyük uğur qazanmışdır. Sonrakı illərdə isə Almaniya, Avstriya, Fransa və digər ölkələrdə sənət səfərlərində olmuşdur. Onun ifaları toplanmış disk də işıq üzü görmüşdür. Diskdə "Şəki gözəlləməsi", "Şalaxo" və digər xalq havaları, Azərbaycan bəstəkarlarının əsərləri və dünya xalqları musiqilərindən nümunələr ifa etmişdir. Azərbaycanda fəaliyyət göstərən televiziyalar və radiolar onu verilişlərə dəvət edirlər.



Mehri Əsədullayeva

O, 2013-cü ilin sonlarında Misirdə uğurlu solo çıxışlara imza atmışdır. 2014-cü il yanvarın 31-də Almaniyada "Dədə Qorqud" layihəsində həmin ölkənin simfonik orkestrinin tərkibində solo çıxışı ilə alqışlar qazanmış və uğurları mətbuatda, informasiya kanallarında işıqlandırılmışdır.

Vəzifə Alxas qızı da bu ailənin tarixinə və sənət şərəfinə öz imzasını atmışdır. Bir zamanlar Azərbaycan radiosundan tez-tez eşidirdik: "Qarmonda çalır Vəzifə Eyvazova". O, xalq havalarımızı bacarıqla ifa edirdi. Atası Vəzifəni Musa Həsənovdan dərs almağa aparırdı. Bu ailə Musa müəlimdən həmişə razı qalıb.

1969-cu ildə Vəzifə xanımın ifasında "Tərəkəmə", "Qazaxı" rəqsləri və digər melodiyalar radionun fonduna qəbul olunmuş və müntəzəm səsləndirilmişdir. O, muğamlara da yaxşı bələd



Vəzifə Eyvazova

olmuş və yüksək səviyyədə ifa etmişdir. Onun daha bir istedadı var idi. İfa etdiyi zaman sərbəst danışır, söhbət edirdi, çaşmırdı. Əlbəttə, bu çətin işdir. Burada da istedad rol oynayır.

V.Eyvazova məşhur adamların övladlarının şənliklərində qarmonu ilə məclisəkilərə sevinc bəxş etmişdir. O, qəzəlxan şair Əliağa Vahidin qızının toyunda, müğənni, əməkdar artist Məmməd Salmanovun oğlunun nişan mərasimində yüksək ifa bacarığı göstərmişdir.

Vəzifə Eyvazova toylara gedərkən dəstəsinin müğənniləri Suğra İbrahimova, Zeynəb və Nazpəri Dostaliyeva və Kəmalə Rəhimli olardı.

Vəzifə xanım Politexnik İnstitutu bitirib trikotaj fabrikində məsul işdə çalışarkən kollektivin böyük rəğbətini qazanmışdır. O, həmin təşkilatdan 1970-1973-cü illərdə Bakı şəhər sovetinə deputat seçilmişdi.

Vəzifə Alxas qızı ailə quraraq cəmiyyətimiz üçün layiqli övladlar böyütmüşdür.

Yasəf Alxas oğlu Eyvazov 1953-cü il yanvarın 12-də anadan olub. 12 saylı uşaq musiqi məktəbinin tar sinfində tanınmış pedaqoq, tarzən-bəstəkar Adil Gəraydan (1919-1973) 2 il dərs alıb. Sonra isə ud alətinə meyl edib. Bu alətin sehirli səsi onu öz tilsiminə salıb. Müəllimi A.Gəray deyirmiş: "Sən, səviyyəli tarzən ola bilərsən. Bu əlamətlər, bu bacarıq və istedad səndə özünü indidən biruzə verir. Gəl, də tar ixtisası üzrə təhsili davam et". Yasəfin xatirələrindən: "Böyük qardaşım, ədəbiyyatçı alim Yavər yazı işləri və mütaliə ilə əsasən gecələr məşğul olardu. Bir dəfə gecə yarısı ayılmışdım. Evdəkilərin hamısı yatmışdı. Qardaşımın otağının işığı yanırdı. Onun otağına keçdim və gördüm ki, o, radioqəbuledicini az səsdə qoyaraq musiqi dinləyir. Bu hansı alətinsə səsi idi. Tanımadığım bir alətin səsi məni cəlbetdi. Radio qəbuledicisinə yaxın gəldim. Türklər çalırdılar. Az sonra Yavər dalğanı dəyişdi. Bu dəfə ərəblərin ifası səslənirdi. Qardaşımdan soruşduqda məlum oldu ki, bu ud alətinin səsidir. O zaman musiqi məktəbinin 1-ci sinfində oxuyurdum. Elə eşitdiyim andan ud mənim fikrimdə və sonrakı fəaliyyətimdə dönüş yaratdı. Sonralar udu Əhsən Dadaşovun ifasında görüb dinlədim, bu aləti daha da sevdim və taleyimi bu sənətə bağladım"



Yasəf Eyvazov

Y.Eyvazov 1970-1974-cü illərdə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində təhsil alıb. Təhsil illərində burada tarzən Adil Bağırovun (hazırda) rəhbərlik etdiyi x.ç.a.ansamblında ud alətini ifa edib. O, 1969-cu ildə Azərbaycan Dövlət Filarmoniyasında xalq artisti Əlibaba Məmmədovun rəhbəri olduğu "Humayun" x.ç.a ansamblına dəvət olunub və 1 il burada çalışıb. 1970-ci ilin yayından 1975-ci ilin yayına qədər Əhsən Dadaşovun (1924-1976) x.ç.a.ansamblının ud ifaçısı olub. Onun xatirələrindən:"17 yaşım vardı. 3 ay idi ki, Əhsən müəllimin ansamblında çalırdım. Ansambl Moskvaya dəvət etdilər. "Mosfilm" "Ulduzlar sönmür" bədii filmini çəkirdi. Ansambl müğənnini müşayiət edirdi. Ud üçün solo var idi. Onu mən ifa etdim".

"Azərbaycanfilm"ia çəkdiyi "Nəsimi" bədii filmində də Yasəfin ud ifası və həm də bir epizodda çəkilişi var. 1981-ci ildə çəkilən "Babək" bədii filmində, Həzrəkin ölüm səhnəsində Yasəfin ud ifası təsirli səslənib. Filmdə şənlik səhnəsində səslənən musiqidə isə o, ansambl tərkibində çalıb. Bu ifalar Moskva studiyasında yazılıb.

Yasəf Eyvazov xarici ölkələrdə də udu məharətlə səsləndirib. Hollandiya, Belçika (2 dəfə), Polşa, Hindistan, Fransa və b. dövlətlərdə o, Azərbaycanın incəsənət ustaları ilə birlikdə çıxış edib. YUNESKO xətrilə Fransada rəssam S.Bəhlulzadənin əsərlərinin sərgisində sənətçilərimizin konserti maraqla qarşılanmışdı.

1990-cı illərdə Yasəf bəyin ifasında "Qars" rəqsi, "Şur" muğamı, "Şur təsnifi" və b. musiqilər radiomuzun fonduna qəbul edilərək vaxtaşırı səsləndirilmişdir.

Y.Eyvazov 1990-cı ildə yaranmış "Ümid" instrumental ansamblında da çalışıb. Burada bədii rəhbər Xanlar Cəfərov idi. Ansambl Şərq və Avropa musiqisinin sintezini yaratmışdı. Bu ansamblın çox gözəl səslənməsi var idi.

2002-ci ildə "Azərneftyağ" istehsalat birliyinin mədəniyyət sarayında yaranmış "Neftçi" mahnı və rəqs ansamblında da Yasəf ud ifaçısı idi.

Y.Eyvazov 2005-ci ildə Bakı Caz Festivalında Rain Sultanovun qrupunun tərkibində çıxış etmişdir. Bura dünyanın 8 ölkəsindən caz qrupları gəlmişdi.

Yasəf xalq musiqiçiləri arasında piano və sintezator ifaçısı kimi də tanınır. O, bəzi musiqi qruplarını sintezatorla müşayiət edir.

İstedadlı musiqiçimizə, mahir ud ifaçımıza 2008-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı verilmişdir.

2.53. YENİLİKÇİ İFAÇI

İstedad doğulanın özü ilə dünyaya gəlir.

Həyata istedadla gələn və ona uğurlu yol açan bu qabiliyyətdən layiqincə və bacarıqla istifadə edən, özünü sənətdə yaxşı bir ifaçı kimi təsdiqləyən daha bir sənətkarımızdan söz açaq.

Hüseyn Həsənəli oğlu Həsənov 1950-ci il (Pələng ili) aprel ayının 7-də (qoç bürcü) Bakıda anadan olub. Həsənəli müəllim inzibati işlərdə çalışıb. Üç uşağın, iki qız və bir oğlanın anası Gülsüm xanım balalarını məhəbbətlə böyütmüş, cəmiyyətə layiqli övladlar bəxş etmişdir.

Hüseyn ailənin ikinci övladıdır. Hüseyn 1957-ci ildə Bakıdakı 12 saylı orta məktəbin birinci sinfinə daxil olmuş, 1965-ci ildə 8 illik təhsili bitirmişdir. Həmin ildə Rabitə Texnikumuna qəbul olunmuş, 4 il burada təhsil alaraq diplom almışdır. Lakin bu sahədə çalışmamışdır. Çünki uşaqlıqdan onun musiqiyə hədsiz həvəsi olmuşdur. Hüseynin istedadı kiçik yaşlarından üzə çıxmışdır. O, uşaq ikən bir dəfə şəhərdə küçə ilə gedərkən dükanın vitrinində çarmon görür. Evə gələn kimi atasından xahiş edir, həmin çarmonu aldırır. Həmin alət 12 dilli yarımtonsuz çarmon idi. Bu 1959-cu ilə təsadüf edir. Hüseyn istedadı, musiqi yaddaşı hesabına "Dar-



Hüseyn Həsənov

çını" rəqsini, Q.Hüseyinlinin "Cücələrim" mahnısını, "Heyvagülü", "Tərəkəmə" oyun havalarını və neçə-neçə melodiyaları sərbəst olaraq öyrənir. O, bir ilə yaxın bir müddətdə bu qarmonda çalır. Həsənəli ata oğlunun istedadına bələd idi. Üstəlik də onun qarmon çalmağa sonsuz həvəsi olduğunu görüb Hüseyn üçün yarımtonlu "Kazan" qarmon alır. Ata oğlunun yaxşı musiqiçi olması arzusu ilə yaşayırdı. Onun özünün də musiqiyə sonsuz həvəsi, bu işdə müəyyən bacarıq və qabiliyyəti var idi. Həsənəli simli alət mandalinanı yüksək bacarıqla çalırdı. O, mandalinada çaldığı, özünün çox xoşuna gələn melodiyaları oğluna həvəslə öyrədirdi. Evdə ata-oğul kiçik ansambl yaratmışdılar. Dinləyiciləri isə ailə üzvləri idi. Gülsüm xanım belə ailə konsertlərindən sonra Hüseynin boynunu qucaqlar, saçını tumarlayıb, üzündən öpüb onu tərifllər və xeyir-dua verərdi. Ana oğlunu daha da həvəsləndirmək üçün hər dəfə deyərdi: "Oğlum, bu dəfə lap yaxşı çaldın. Maşallah gündən-günə inkişaf edirsən. Lap radiodakılar kimi çalırsan. O gün olsun ölməyim, görüm ki, televiziyada konsert verirsən".

Ananın xeyir-duasını, arzu və istəklərini Ulu yaradan eşitdi. Sonralar həqiqətən Hüseyn əsl sənətçi olacaqdı. Televizya və radioda çıxışlar edəcəkdi.

Əmisi ustad xanəndə Hacıbaba Hüseynov da bir neçə dəfə Hüseyni dinlədikdən sonra onun gələcəkdə yaxşı musiqiçi olacağına zəmanət vermişdi.

Hüseynin xatirələrindən: "Atam axşamlar və gecələr radiodan Türkiyə verilişlərini, konsertlərini dinləyirdi. Səsini xoşladığı müğənnilərin mahnılarını bəzən maqnitofona yazardı ki, işdən yorğun gəldiyi anlarda istirahət edərkən bir daha dinləsin. Bu mahnılar mənim də xoşuma gəlirdi. Bu musiqilərin təsiri mənim gənclik illərimdə ¼ (çetvert) tonlu qarmon düzəltdirib çalmağımda hiss olundu. Əmim, xanəndə, xalq artisti Hacıbaba Hüseynov (1919-1993) atamın maqnitofona köçürdüyü türk mahnılarını 1950-1970-ci illərdə çox dinləyib. O, bu mannıları sevirdi və oxumağı xoşlayırdı. Həmin mahnıların bəzilərini ömrünün və həyatının müdrik çağlarında repertuarına daxil etmiş, xalqa sevdirmişdi.Bizim muğam pərdələrində, milli alətlərimizin müşayiətilə oxuduğu üçün, bunlar xalq musiqimizin inciləri kimi qəbul olunur, türk musiqiləri olduğu bilinmirdi. Əmim o mahnıları həm də bizim sözlərimizlə oxuyurdu axı...".

1962-ci ildə Latviya Respublikasının Riqa şəhərində keçirilən "Məktəblilərin Ümumdünya festival"ında Azərbaycandan iki uşaq, Firuz Eyvazov və Hüseyn Həsənov iştirak edib. Hüseynin bu möhtəşəm tədbirdə həm müğənni, həm də qarmonçalan kimi çıxışları olub. O "Ögey ana" kinofilmindən "İsmayılın mahnısı"nı ("Kəndimiz") tədbir üçün xüsusi hazırlamış kompozisiya daxilində oxuyaraq alqışlar qazanmışdı. Riqada çıxan qəzetlərdə Hüseyn məktəbli müğənni kimi təqdim olunmuş, şəkili verilmiş, haqqında maraqlı yazılar getmişdi.

Hüseynin musiqiyə olan hədsiz-hüdudsuz marağı onu Bakının mərkəzində yerləşən Respublika Müəllimlər Evinin "Arzu" xalq çalğı alətləri ansamblına gətirir. O burada 1965-ci ilin əvvəlindən 1966-cı ilin sonuna kimi məşğul olur. Bədii rəhbər əvvəl tarzən Əbdülağa Nəcəfov, sonra isə xalq artisti Baba Salahov olmuşdur. Onlar Hüseynin çalğısından həmişə razı qalmış, konsertlərdə ona müntəzəm solo çıxışlar vermişlər. Ansamblın o zamanki üzvlərindən kamançaçalan Fəxrəddin Dadaşov və başqaları bu ansamblda yetişərək sonradan məşhur musiqiçi olmuşlar.

Baba Salahov həm də televiziyanın və radionun xalq çalğı alətləri ansamblının rəhbəri idi. Ansamblın solisti, məşhur qarmonçu A.İsrafilov xarici ölkələrdə səfərdə olarkən televiziyadakı canlı çıxışa B. Salahov gənc musiqiçi Hüseyni gətirir. Bu konsertlərdə Hüseyn xalq artisti, muğam ustası Sara Qədimovanı "Segah" muğamı ilə müşayiət edir. Çalğı çox uğurlu və təsirli alınır. Xalq artisti, məşhur və ustad sənətkar Əlibaba Məmmədov evində bu konserti televizya vasitəsiylə seyr edirmiş. Bu zaman o gənc Hüseynin çalğısını bəyənir və 1968-ci ildə yaratdığı "Humayun" xalq çalğı alətləri ansamblına dəvət edir. Beləliklə bu ansambla ilk qarmonçu kimi dəvət olunan H. Həsənov burada 12 il fəaliyyət göstərir. Televiziya və radiodakı çıxışları zamanı ansambl tər-



Filarmoniyada "Humayun" ansamblının konserti. Önda: Hüseyn Həsənov və Əlibaba Məmmədov

kibində Hüseynin çıxışları onu az vaxt ərzində məşhurlaşdırır. Hüseynin dediklərindən: "Mən bu kollektivdə işləməkdən böyük zövq almışam. Burada püxtələşmiş, əsl sənət yoluna burada cığır açmışam. Əlibaba Məmmədov özü bir məktəbdir. Ansamblın üzvləri tarzən T. Məmmədov, klarnetçi Ə.Əsgərov, nağaraçı Zöhrab Məmmədovun əhatəsində və təsir dairəsində sənət işlətmək özü böyük məsuliyyət tələb edirdi. Elə çiynimə düşən bu məsuliyyət məni həqiqi peşəkar sənət üçün hazırladı. Ansamblın məşqlərindən gələndən sonra evdə də çoxlu məşq edirdim. "Humayun" ansamblının solistləri uzun illər müğənni Novruz Feyzullayev, Validə Mahmudova, Məmmədbağır Bağırzadə, Zümrüd Məmmədova, Təhmiras Şirinov, Səxavət Məmmədov olmuşlar. Ansambl müntəzəm olaraq Bakıda, Azərbaycanın bütün bölgələrində, keçmiş SSRİ-nin ən böyük şəhərlərində müntəzəm konsertlər vermişdir". H.Həsənov Moskvanın Sütunlu salonundakı böyük müvəffəqiyyətlə keçən konsertləri həqiqi sənət imtahanı sayır.

Hüseyn Azərbaycanın ən məşhur xanəndələri və müğənniləri ilə toylara getmiş, öz sənəti ilə hər yerdə sevilmiş, əsl qarmon sənəti nümayiş etdirmişdir.

Ustad sənətkar Ələkbər Əsgərov və Zöhrab Məmmədovla birlikdə musiqi üçlüyündəki toy büsatda çalıb-çağırmalarını Hüseyn həmişə böyük fərəh hissi ilə xatırlayır. Ümumiyyətlə Hüseyn müəllim xalqın şənliklərində, toylarda çalıb-oxumağı doğma millətə əsl xidmət sayır və bundan şərəf duyur.

1978-ci ildə "Humayun" ansamblı Dövlət Filarmoniyasından Azərbaycan Konsert Birliyinə keçdiyi üçün Hüseyn bu müəssisədə işini davam etdirir. Bu idarədə o, 1980-ci ildən 1995-ci ilədək solist-qarmonçalan vəzifəsində çalışır.

Məsəl var: "Kimə niyyət, kimə qismət" Hüseyn qismətindən çox razıdır. Niyyət etdiklərinin əksəriyyətini qismətində görüb.

H.Həsənov öz sənətinin həqiqi vurğunu olub. Öz işinə çox ciddi və məsuliyyətli yanaşdığındandır ki, əsl sənətdə özünə yol açıb. Özündən əvvəlki ustad qarmonçalanlardan öyrəndiklərini öz yaradıcılıq süzgəcindən keçirərək püxtələşmiş sənətkar kimi meydana çıxarkən XX əsrin 80-ci illərində qarmon ifaçılığına Hüseyn Həsənov yeni üslub, yeni çalğı manerası gətirdi.

1977-ci il radionun fondu üçün yazdığı "Pərvanə" rəqsində qarmon ifaçılığına yeni yanaşma, təzə keçidlər, başqa cür səslənmənin olması daha çox nəzərə çarpırdı.

"Bayatı-Şiraz" muğamı əsasında bəstələdiyi, 1978-ci ildə radionun fonduna yazdırdığı "Nuranə" rəqsi zövqü oxşayan, könüllərə tez yol tapan, sümüyə düşən oynaq bir melodiyadır. Lent yazısında rəqsin əvvəlində Hüseyn cəld, çevik olduqca maraqlı, ustavari gəzişmələr etmişdir. Bu lentlərdə Hüseyn Həsənovu nağarada Rafiq Balabəyov, qoşa nağarada İlqar Sail, balabanda Baba Ağayev, fortepiano da Həsənağa Qurbanov müşayiət etmişdir.

Sənətkar 1973-cü ildə xalq artisti, tanınmış tarzən Həbib Bayramovun musiqi qrupu ilə Saxalın şəhərində keçirilən Zaqafqaziya ongünlüyündə çıxışlar etmişdir. Bu qrupun tərkibində seçmə musiqiçilər olmuşdur. Heyətin hər birinin, həmçinin ayrılıqda solo çıxışları xüsusi marağa səbəb olmuşdur.

1989-cu ildə Azərbaycanın görkəmli nümayəndələri, millət vəkillərindən bir neçəsi və musiqiçilər heyəti Almanyada səfərdə olarkən Hüseyn müəllim də bu tərkibdə idi. Bu heyətin üzvü olan xalq artisti, bəstəkar Vasif Adgözəlov, aktyor Həsən Turabov, pianoçu Fərhad Bədəlbəyli, Fidan və Xuraman Qasımovalar, xalq yazıçısı Anar və sayılıb-seçilən musiqiçilərmiz H.Həsənovun çaldığı musiqi nümunələrindən razı qalmış və ona təşəkkür etmişlər.

Burada bir məsələni də qeyd etmək yerinə düşər ki, Hüseynin könlünün nəğmələri olmuşdur ki, o bunları yalnız səsilə, oxumağı ilə təqdim edərək qəlbinin atəşini söndürə bilmişdir. Qarmon sənətində püxtələşdikcə uşaqlıqda onda olan oxumaq qabilliyyəti get-gedə güclənərək üzə çıxmış, oxuduqca səsi daha da çilalanmış getdiyi toylarda özünün səs çalarlarına uyğun mahnılar oxumuşdur. 1980-ci illərdə öz dəstəsi ilə Bakı toylarında tanınmış, çox yerlərə dəvət olunmuşdur. Belə toylarda Hüseyn qarşısında qurulmuş mikrafonla özünəməxsus tərzdə oxumuş, ən yaxşı qarmonçalan kimi özünü göstərə bilmişdir.

Hüseyn həmişə təhsilinin qayğısına qalmışdır, bu barədə düşündüyü üçün bu arzusu onu 1981-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına gətirir. O, müvəffəqiyyətlə imtahan verib vokal fakültəsinə daxil olur və burada professor Kamal Kərimovun sinfində oxuyur. Oxuduğu müddətdə vokal sənətinin sirlərinə yiyələnir, həm də ixtisasından və bütün fənnlərdən əla qiymətlər alır. 31 yaşında ali təhsil ocağına gələn Hüseynin qarşısına müəyyən manelər çıxmışdı. Belə ki, o dövrdə Sovet dövləti qanunları bu yaşda ali təhsil müəssisələrində əyani şöbədə təhsil almaq üçün qadağalar yaratmışdı. Professor Kamal Kərimov H.Həsənovun istedadını, vokal oxumaq bacarığını, təhsilə sonsuz həvəs və arzusunu nəzərə alaraq rektor Elmira xanım Nəzirovaya məktub yazır.

Rektor və qəbul komisiyasının üzvləri məktubda K.Kərimovun Hüseyn haqqında yazdığı müsbət fikirləri, dəlilləri nəzərə alaraq, Hüseynin oxuduğu klassik əsərlərin yüksək səviyyədə təqdimini əsas götürərək istisna etməli olurlar. Beləliklə H.Həsənov konservatoriyaya götürülür.

H.Həsənov uğurlu qarmonçalan kimi musiqi ictimaiyyətinin nəzər diqqətində olmuşdur. Cazmen, bəstəkar, xalq artisti Rafiq Babayevin rəhbərlik etdiyi "Cəngi" vokal-instrumental ansamblına Hüseyni dəvət etmişdi. Bu musiqi qrupu 1989-cu ildə yaranmışdır. Yaranan gündən və Rafiq Babayevin faciəli həlakı dövrünə qədər Hüseyn bu kollektivdə xalq artistləri Mübariz Tağıyev, Brilliant Dadaşova, əməkdar incəsənət xadimi, bəstəkar Siyavuş Kərimi, müğənni Firəngiz

Rəhimbəyova ilə birlikdə çiyin-çiyinə çalışmışdır.

Bir zamanlar Azərbaycan televiziyasında çox populyar olan "Səhər görüşləri" adlanan veriliş vardı. Xalq artisti Nəsibə Zeynalova, Hacıbaba Bağırov, Səyavuş Aslan və başqalarının iştirak etdiyi bu verilişdə musiqi tərtibatı və müşayiətçi kimi qarmon ifaları Hüseyn müəllimin olurdu.

Hacıbaba Bağırovun baş rolda oynadığı, məzhəkəli, yumorlu televizya tamaşaları olan "Sonqulunun sərgüzəştləri", "Bildirçinin bəyliyi", "Sonuncu məhəbbət"dəki musiqi tərtibatı da Hüseyn tərəfindən işlənmişdir. O, burada oxunan mahnıları qarmon ilə müşayiət etmiş, rəqs melodiyalarını çalmışdır. Bütün bu işləri istedadlı musiqiçimiz heç bir maddi yardım, qonorar almadan, təmənnasız edirdi. O, belə yaradıcılıq əlaqələrindən yüksək zövq alır və bunu da doğma xalqına müəyyən xidmət sayırdı.

H. Həsənov bəstəkar Ə. Tağıyevin yaratdığı və rəhbərlik etdiyi "Arzu" ansamblında da bir müddət fəaliyyət göstərmişdir. Solistlər, xalq artistləri N. Qasımova, M. B. Bağırzadə idi. Sonralar sənətçimiz qarmonunu SSRİ xalq artisti Z.Xanlarovanın rəhbəri və sosisti olduğu ansamblın tərkibində səsləndirmiş, solo çıxışlarını təqdim etmiş, bu ansambl ilə birlikdə xeyli dövlət tədbirlərində çıxış etmişdir. Hüseyn bu ansambl ilə birlikdə Moskvada, İsveçdə, Norveçdə, Çində və s. yerlərdə konsertlərdə olaraq öz dünya görüşünü və sənətini daha da artırmışdır.

Məşhur və lirik səsli müğənni Hüseynağa Hadıyev XX əsrin 80-ci illərində Bakının restoran və şadlıq evlərində keçirilən toyların əsas müğənnisi idi. H. Həsənov onun toy ansamblında 12 il çalmışdır. Onların çox səmimi sənət dostluğu olub.

H. Həsənovun repertuarı çox genişdir. Rus, ərəb, fars, ispan, moldav, bolqar, Kuba musiqisindən seçmə nümunələri məharətlə çalır. Onun kinofilmlərin çəkilişində də xidmətləri olmuşdur. Çəkilən filmlərə yazılmış musiqilərin həm müğənni, həm də musiqiçi kimi ifası üçün H.Həsənova bir neçə dəfə müraciət olunmuşdur. Bunlara misal olaraq "Bağlı qapı arxasında" kinofilminə Vasif Adgözəlovun yazdığı musiqiləri göstərmək olar. Adı çəkilən filmdə Hüseyn həm mahnıları oxumuş, ayrı-ayrı musiqiləri isə qarmonda çalmışdır. burada həmçinin ağızla çalının qarmon-




"Arzu" instrumental ansamblın televiziya konserti. Müğənni M.Bağırzadə, sağda: H.Həsənov



Müğənni Hüseynağa Hadıyev və Hüseyn Həsənov

dan da istifadə olunub. Eldar Mansurovun "Bəxt üzüyü", Cavanşir Quliyevin "Zovodilo" filminə yazdıqları musiqilərin neçəsini qarmonda H. Həsənov çalmışdır.

Hüseyn müəllim Azərbaycan qarmon ifaçılığında öz misilsiz xidmətlərini göstərməklə bərabar, bu alətin təkmilləşməsi, üzərində islahatlar aparılması barədə də düşünmüşdür. O, böyük bəstəkarlarımızdan musiqimizdə vaxtilə 1/4 səslərin, həmçinin onların not işarələrinin olması barədə fikirlər eşitmişdir. Həm də 1/4 səslərin tarımızda, kamanımızda, ud, balaban və s. alətlərimizdə istifadə olunmasını, gözəl və təsirli səslənməsini eşitmiş və çox xoşlanmışdı. H.Həsənov belə səsdüzümlü qarmonu ortaya çıxarmış və həmin alətin vasitəsilə "Zəmin-xarə" və "Şur" muğamları əsasında yaranan melodiyaları lentə yazdırmışdır. Bu çalğının və bu səslənmənin də özünə məxsus gözəlliyi vardır. Bəzi sənətkarlarımız bu gün də belə qarmondan istifadə edirlər. Bundan başqa Hüseyn müəllim sağ və sol klaviaturada eyni səs düzümü olan üç oktavalı, xromatik qarmon da düzəltdirib istifadə etmişdir. Hal-hazırda bu alətdən Musiqi Kollecində tədrisdə istifadə olunur. Hüseyn müəlim 1/4 səslər düzdürdüyü qarmonun sol gövdəsindən eyni ölçüdə iki ədəd düzəltdirmişdir. Onların biri adi, hər kəs tərəfindən istifadə olunan iki oktava yarım səsə malik xromatik səs düzümlü, düymələr



Hüseynin 4/1 tondu qarmonu

vasitəsilə çalınan gövdədir. Digəri isə akkordeon və bayan musiqi alətlərinin sol tərəfindəki səs düzümünə uyğun, akkordla düyməçiklər vasitəsilə ifa olunan sol gövdədir.

Sənətkarımız hansı musqi əsərlərini çalacağından asılı olaraq sol gövdənin (korpusun) birini çıxarıb, digərini onun yerinə birləşdirir. Bu özü də maraq doğuran bir iş, sənətkar təxəyyülünün müsbət nəticəsidir.

Hüseyn Həsənov qarmonumuz üzərində apardığı bir çox islahatlara görə, yenilikçi musiqi kimi qəbul olunur və tanınır.

Sevimli sənətkarımızın sənət səfərlərində olduğu ölkələrin adlarını və tarixi göstəririk: Hindistan - 1981, Nepal -1983, Yaponiya - 1985, Almaniya - 1989, 1990, 1993, Macarıstan - 1989, Türkiyə - 1991, 1992, 1995, İsveç - 1998, Norveç -1998, Çin -1996, Kipr - 1999.

1995-ci ildə Musiqi Kollecində ilk dəfə qarmon ixtisası tədris olunmağa başlarkən dəvət olunan ilk müəllimlərdən biri olaraq H.Həsənov not və muğam üzrə işə başlamışdır. Sonra isə yalnız muğam ixtisasından dərs demişdir. İşlədiyi dövrdə nümunəvi müəllim kimi tanınmışdır. Hazırladığı tələbələr imtahan sesiyalarında, respublika baxış-müsabiqələrində özlərini layiqincə göstərə bilirlər.

H. Həsənovun yenilikçi fikirlərindən biri də zurna nəfəsli alətində səslənən havaları qarmonda gözəl səsləndirməsidir. O, məşhur zurnaçalan, ustad sənətkar Əliəfsər Şəkilinin çaldığı "Şəki" yallısını və "Cütcü" rəqsini ardıcıllıqla çalaraq lentə almışdır.



Müğənni Hüseyn Həsənov öz oğlu Pərvinin "Avanqard" qrupu ilə konsertdə. Ondə Pərvin

Qeyd edək ki, "Cütcü" rəqsinin melodiyası XIX əsrin sonları, XX əsrin birinci yarısında yaşayıb yaradan zurna, tütək, balabanın misilsiz ifaçısı Əli Kərimovundur.

Hüseyn "Naxçıvan yallısı" və "Şərur yallısı"nı qarmon ifasına gətirib, gözəl səslənmə yaradaraq lentə yazdırıb. Radioda onun ifasında səslənən "Rast" muğamı da qorunur.

H. Həsənov 2000-2004-cü illər ərzində xalq artisti, müğənni Ağadadaş Ağayevin rəhbərlik etdiyi insturumental ansamblda aparıcı musiqiçi və müğənni kimi çıxış etmiş, toylarda, konsertlərdə və lent yazılarında yaxşı sənət göstərmişdir. 2005-ci ildən Hüseyn müəllimin sərbəst müğənnilik fəaliyyəti başlanmışdır. Bu dövrdən başlayaraq H.Həsənov səsini lentlərə yazdırmış, kasetləri və diskləri çıxmışdır. O, artıq toyların və konsertlərin sevimli və populyar müğənnilərindən biri olaraq Hüseyn Bakılı kimi məşhurdur.

Hüseyn müəllim 1975-ci ildə ailə qurub. Onun halal ocağında qızı Pərvanə, oğlu Pərvin xoş gün görərək xoşbəxt boy atıblar. Oğlu Pərvin Bülbül adına orta ixtisas musiqi məktəbini, Mədəniyyət və İncəsənət Univerisitetini bitirib.

O, atasının sənətini davam etdirir, mahir qarmonçalandır. Onun gənclərdən ibarət "Avanqard" instrumental qrupu vardır. Bu qrup televiziya müsabiqələrində gənc müğənniləri, müşayiət edir və müxtəlif verilişlərdə çıxış edir.



Pərvin Həsənov

Hüsn sözündən yaranan adı var,
Böyük nəsildəndir, qol-qanadı var.
Belə tanınan vətən övladı var,
Çöhrəsinə nur qonubdur Hüseynin.

"Humayun" ansamblında çalışdı,
Sənətkarlara qaynayıb-qarışdı,
Vətəni gəzdi, ölkələr dolaşdı.
Çox yerdə izi qalıbdır Hüseynin.

"Pərvanə", "Nuranə" rəqsini çaldı,
Radio bunları fonduna aldı,
Səsləndirildi, aləmə səs saldı,
Rəqsləri məşhur olubdur Hüseynin.

Yeni fikirlərlə sənətə gəldi,
Yeni üslub tutub yola düzəldi,
Tanınıb, sevimli olub yüksəldi,
Yolu qəbul olunubdur Hüseynin.

Çoxları bu gün də bu yolu çalır,
Bəyənilir, sevilir, həm ucalır,
Pərvin ata yoluna sadiq qalır,
Yerində oğlu çalıbdır Hüseynin.

Müğənni oldu Hüseyn Bakılı,
Səsinə kökləndi sənət əhvalı.
Toylar idarə eləyir sanballı,
Qəlbi mahnıyla dolubdur Hüseynin.

Əhsən Rəhmanlı 28.11.2013

2.54. UNUDULMAZLAR SIRASINDA



Vahid İskəndərov

Tanıyanlar onu bu gün də unutmayıblar. Xatırlayaraq yaxşı sənətindən söhbət açırlar. O, siyəzənlilərin də daimi xatirindədir. Siyəzəndən boy atıb yetişən musiqiçilər, istər gənc olsun, istər yaşa dolmuş, onun adını fəxarət və iftixarla çəkib, haqqında fərəhlə danışıb, hörmətlə yad edirlər. Bir sənətkar kimi o, insan Siyəzən musiqiçilərinin fəxrli və fəxri sənətkarıdır və görünür zaman, dövr dəyişdikcə həmişə də belə olacaq. O, siyəzənlilərin xatirində iki adda: Vahid və Nizami kimi yaşayır. Sənədlə adı Vahid olsa da onu Nizami adıyla tanıyanlar, bu adla çağıranlar da çox idi. Elə bu gün də Nizami kimi xatırlayanlar çoxdur.

Bu yazının müəllifi olaraq Siyəzəndə və Bakıda onu tanıyanlarla eyni fikirdə olaraq onu yaxşı musiqiçilərimizdən biri kimi xatırlayıram. Bu kitabımla eyni adda olan və 2008-ci ildə nəşr olunub yayılan "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi" əsərimdə Vahid haqqında yazmaq istəsəm də buna nail ola bilmədim. Səbəb onun doğmaları ilə tanışlığımın olmaması və yaxınları ilə əlaqə qura bilməməyim olub. Düzünü deməliyik ki, yaxşı qarmon sənətkarı kimi həmin kitabda onun yeri görünürdü. Əslində isə hər yerdə, hər anda, hər məqamda Allahın nəzəri, izni, göstərişi, hikməti əsas şərt olduğu kimi, görünür elə bu işdə də Böyük Yaradanın izni və müəyyən zaman lazım imiş. Uca Allahın icazəsi məni təsadüfən Vahidin qardaşı Nizaməddin müəllimlə rastlaşdırdı. Nizaməddin müəllim Vahiddən 2 yaş kiçikdir. Rastlaşmağımız belə olub. 2013-cü il oktyabr ayının 31-də yaxın dostumuz, məşhur klarnet ifaçısı Hacı Həmidoğlunun oğlu Fuadın toyu idi. Toy mərasimi Bakının "Tural" şadlıq sarayında keçirilirdi. Nizaməddin bəylə eyni masa arxasında yanaşı əyləşmişdik. Xatirə şəkli də çəkdirdik. Söhbət əsnasında onun Vahidin qardaşı olduğunu bildim. Dərhal ürəyimdə Allaha dualar oxudum və şükranlıq etdim ki, bir istəyimə də çatacaq və dünyanı vaxtsız tərk etmiş yaxşı sənətkarlarımızdan birini də qarmon sənətimizin şanlı tarixində yaşada biləcəyəm.

Vahid Ağacan oğlu İskəndərov 1950-ci il aprelin 17-də Siyəzən şəhərində zəhmətkeş ailədə dünyaya gəlib. Onlar dörd qardaş, üç bacı böyüyüblər.

Ağacan Teymur oğlu İskəndərov (1911-1989) əslən Xızı mahalının Baxşılı kəndindən idi. İstedad sahibi olaraq milli nəfəs alətlərimizi ifa edirdi. Gənclik illərində zurna ifaçısı kimi toy-mağarda olmuşdu. Sənət adamları ilə əlaqəli idi. Dəvəçili (haz. Şabran) mahir və məşhur zurnaçalan Ağası ilə dostluq yaratmışdı.

Ağacan İskəndərov 1941-1945-ci illər Böyük Vətən müharibəsi adlanan o müdhiş davada sona qədər döyüşmüşdü. Müharibə bitəndən, vətənə qayıdandan sonra bir müddət baytar həkim işləmiş, sonralar isə ticarət sahəsində çalışmışdı. O, və ömür-gün yoldaşı Tuğra Ağası qızı İskəndərova (1918-2000) mehriban həyat yaşayaraq əl-ələ verib övladlarını min-bir zəhmət, qayğı, arzu

və istəklə böyütmüşdülər.

Vahid 1957-1967-ci illərdə Siyəzəndə orta məktəbdə təhsil alıb. O, 11-12 yaşlardan qarmona xüsusi həvəs göstərib. Atası ona "Kazan" qarmon alıb. İstedadlı uşaq sənət öyrənməyə başlayıb. Vahidin bibisi oğlu Tərlan Xankişiyev (1936-1992) yaxşı qarmon ifaçılarından biri kimi tanınırdı. O, Bakıda yaşayırdı. Vahid arabir Bakıya gəlir və bibioğludan qarmon dərsi alır və bu sənətin incəliklərini öyrənirdi. Bundan əlavə Ağacan kişi özü də oğlunun sənət öyrənməsinə biganə qalmır, irəliləməsinə vasitəçi olurdu. Onun klarnet çalmaq bacarığı da var idi. Klarnetdə xalq havalarını səsləndirərdi və Vahid də dinləyərək öyrənib qarmonda çalardı. Boş vaxtlarda Vahid yalnız qarmona könül verər, günlərini yalnız məşqlərə sərf edərdi. Beləcə gündən-günə, aydan-aya, ildən-ilə irəliyə doğru addımlayan gənc qarmonçu öz layiqli yerini tutacaqdı. Tutdu da. Onun evdəki sonsuz həvəsli,fasiləsiz məşqləri, öz nəticəsini verirdi. Bu həvəsli oğlan radiodan, qrammafon vallarından, televiziyadan, Siyəzən toyxanalarında çalan sənətkarlardan eşitdiklərini hafizəsinə toplayaraq qarmonda ifa edərdi. Onun çox iti hafizəsi, güclü musiqi duyumu və təpərli, cəld barmaqları var idi ki, xalq musiqiçisi üçün əsas şərt olaraq sahibini qödrətli sənət yoluna aparırdı.

Siyəzən mədəniyyət sarayının direktoru Məmmədxan İskəndərov burada layiqli işlər görərək səmərəli fəaliyyət göstərirdi. O, burada işləməkçün Bakıdan gəlmişdi. Tarzən-bəstəkar Şahid Əbdülkərimovu xalq çalğı alətləri ansamblına rəhbər gətirmişdi. Şahid burada yaxşı ansambl yaratmış və 3 il bacarıqla rəhbərlik etmişdi. Vahid də həmin ansamblın üzvü idi. Əvvəllər dodaq qarmonu ifa edirdi, sonra isə milli qarmonumuzu çalmağa başlamışdı. Ansamblda sənət öyrənib, inkişaf edib meydana çıxmaq istəyən gənclər var idi və Vahid də bu sırada birincilərdən sayılırdı. Siyəzən mədəniyyət evinin ansamblı yalnız Siyəzəndə deyil, Dəvəçidə (haz.Şabran), Qubada, Qusarda və Xaçmazda da konsertlər verirdi.

Atası Vahidlə birlikdə Bakıya gəlmiş və ustad sənətkar Səttar Hüseynovdan "Karpuşkin" qarmon almışdı. Bu alətin xoş, məlahətli səsi Vahidin qəlbinə hakim olmuş, sənət eşqini daha da artırmış, çalğısına şirinlik və təpər gətirmişdi. 15-16 yaşlardan artıq onu Siyəzənin toy-nişan məclislərinə aparırdılar. Bu istedadlı gəncin ifası yalnız musiqiçilərin deyil, Siyəzəndə hamının xoşuna gəlirdi. O, doğrudan da yaşından xeyli qabağa getmişdi, qarmonu yüksək bacarıq və ilhamla çalırdı. Vahid musiqini hiss edərək, anlayaraq, qarmonun çoxçalarlı səsini, ahəngini duyaraq ifa göstərə bilirdi. Əlbəttə bu duyğular, bu incəliklər hər bir gəncə nəsib olmur. Beləliklə qarmon sənətinə olan dərin sevgi onu Bakı Mədəni-Maarif Texikumuna gətirdi və o, burada 1968-1971-ci illərdə "klub işçisi- özfəaliyyət xalq çalğı alətləri orkestri rəhbəri" ixtisası üzrə təhsil aldı. Nəzəri bilikləri axz etdi, orkestrə, xora dirijorluq və rəhbərlik etməyi öyrəndi və həm də qarmon sənətinə yiyələndi. O, istedadı,bacarığı, istiqanlı olmağı və qarmon ifası ilə məktəb rəhbərliyinin, nəzəriyyə müəllimlərinin və bütün kollektivin diqqətində idi. Texnikum ansamblında çalır, tədbirlərdə və konsertlərdə çıxış edirdi. Bu tədris oçağının ansamblını və xorunu bəzən digər tədris və mədəniyyət müəssisələrinə bayram konsertlərinə göndərirdilər. Belə tədbirlərdə bir qarmonçalan kimi Vahid İskəndərov fəal olur və dəyərli ifası ilə özünə mühüm yer tuturdı. Xor sənəti üzrə mütəxəssis, texnikumda həm də nəzəri dərsləri aparan Ənvər Məmmədov (1931-2013) Vahidin sənətini çox bəyənir və onu aparıcı musiqiç kimi bütün tədbirlərdə görmək istəyirdi. Tələbə müəllimlikdən başqa onlar arasında möhkəm dostluq yaranmışdı.

V.İskəndərov texnikum illərində müntəzəm olaraq Bakı toylarında çalırdı. O, Avtandil İsrafilovun ifa üslubuna meyl edərək gözəl çalğı manerası əldə etmişdi. Bu ifa yolu Vahiddə mükəmməl və sanballı alınır, onu musiqiçi yoldaşları arasında ucaldır və tanımlı edirdi. Allah-təala Vahidə yalnız istedad, həvəs deyil, həm də boy-buxun, yaxşı, cəlbedici görünüş, gözəl sima, yaraşıq da vermişdi.İncəsənət adamları bilirlər ki, gözəl xarici görünüş özü də sənət nümayəndəsi olmaq üçün əsas şərtlərdən biri sayılır. Bəli, səhnə sənəti gözəllik sevir. Vahiddə bunlar var idi.

Qeyd etdiyimiz kimi Allah ondan heç nəyi əsirgəməmişdi. Onun daxili gözəlliyi ilə xarici görünüşü vəhdət təşkil edir və onu çoxlarına sevdirirdi. Bu gənc musiqiçi səmimiyyəti, səxavəti və mehribanlığı ilə rəğbət qazanmışdı. Toylardan qazandığını tələbə yoldaşlarına xərcləyir, bəzən imkansız tələbələrin çibinə xərclik qoyurdu.



Vahid İskəndərov

Vahidin qardaşı Nizaməddin bəyin xatirələrindən: "Orta məktəbi bitirib Bakıya gəldim və ali məktəbə daxil oldum. Vahid oxuduğu texnikumun Dərnəgüldəki yataqxanasında yaşayırdı. O, komendantla danışıb məni də öz yanına gətirdi. Onunla bir otaqda qalırdıq. Dərsdən sonra həmişə məşq edirdi və hiss olunurdu ki, inkişafa doğru gedir. Xanəndə Zaur Rzayev də Mədəni-Maarif Texnikumunun tələbəsi idi. O vaxtlar yataqxanada qalırdı. Bizimlə qonşu otaqda idi. Müntəzəm öz otağında məşq edirdi, səsini cilalayır, formalaşdırır, boğazlar, xırdalıqlar, zəngulələr işlətməyi öyrənirdi. İstədiklərini də tədricən alırdı. Onda çox böyük həvəs var idi.Yorulmaq bilmədən oxuyurdu. Səsi bizim otağa gəlirdi. Zaur doğrudan da çox ciddi məşq edir, öz üzərində işləməkdən usanmır, çalışır, hey çalışırdı...O, tar çalıb özünü müşayiət edirdi. Vahid onun özünə də, istedadına da hörmətlə yanaşır və deyirdi ki, Zaurun böyük gələcəyi var. Zaur da Nizaminin çalğısını xoşlayırdı. Deyirdi ki, onun yaxşı barmaqları, ürəyi, şirin çalğısı var.

Bəzən yataqxanada bizim otağa yığışan tələbə yoldaşları üçün Vahidin müşayiətilə Zaur oxuyurdu. Onların birgə çalıb-oxumağı hamıya ləzzət verir, zövqümüzü oxşayırdı.

Vahidin adına çox toylar gəlirdi. Yataqxanada Vəli adlı xanəndə yaşayırdı. Vahid vədələşdiyi toylara Vəlini çox aparmışdı".

Bu oçerkin müəllifi kimi qeyd edirəm ki, 1968-1970-ci illərdə mən də Bakı Mədəni-Maarif Texnikumunda təhsil almışam. Vahidlə tanışlığım tələbəliyimizin ilk ayından başlayıb. O, ağayana oğlan idi. Səliqəli geyinər və özünü ciddi aparardı. Geyimi qəddü-qamətinə yaraşardı. Aylar ötdükcə o, özünə böyük nüfuz qazandı, istər tələbələr, istərsə də müəllimlər arasında. Qarmon sənəti üzrə dərs alan tələbələr ixtisas dərslərinə öz qarmonları ilə gələrdilər. Böyük tənəffüsdə və ya qrup dərslərindən sonra Vahid qarmon çalmağa başlayan kimi, hamımız onun ətrafına toplaşıb diqqət yetirir, maraqla dinləyirdik. Bəli, axı o, bizim hamımızdan yaxşı çalırdı. Bir də görürdün sabahı gün gəlib deyirdi: "Avtandildən təzə bir xal eşitmişəm, onu vurum, görüm alınır". Həmin xalları və ya çümləni işlədirdi, biz də maraqla tamaşa edib götürürdük. Həmin illərdə bizim texnikumun tələbələri arasında iki güclü qarmonçalan var idi: biri neftçalalı Firuz idi, digəri Vahid İskəndərov. Firuz bizdən yaşca böyük idi. O, 1946-cı ildə anadan olub. Bizdən iki kurs yuxarıda oxuyurdu. Onun haqqında bu kitabımızda, ayrıca bölüm açmış və ətraflı məlumat vermişik.

Firuz Vahidin, Vahid də Firuzun ifasını bəyənirdi.

Bir həqiqəti də söyləməliyəm ki, mən bu iki ifaçının səviyyəsinə baxıb öz çalğımdan utanırdım. Ona görə də evə gedən kimi, boş vaxtlarımı yalnız qarmon çalmağa sərf edirdim ki, geri qalma-

yum. Vahidin çalğısı da məndə həvəs oyadır, məsuliyyət hissimi artırır və öz üzərimdə işləməyə sövq edirdi. Doğrudan da tay-tuşumuz, həmyaşımız olsa da o, bizdən irəlidə idi, ifa səviyyəsi bütöv, sanballı və şirin olaraq yoldaşlarına nümunə idi. Onu da qeyd etməliyəm ki, bütün üstünlükləriylə o, sadə idi və yanımızda heç vaxt qürrələnməzdi. Vahid bir insan kimi də xatirimdə dərin iz buraxmışdır.

Texnikumda, tələbələr arasında onun dostları çox idi. Ən yaxın dostlarından ramanalı, qarmonçu Nurağanı və "özfəaliyyət teatr kollektivi rəhbəri" ixtisası üzrə təhsil alan, Qərbi Azərbaycandan olan Telli Pənah qızını xatırlayıram. Sonralar Telli xanım Azərbaycan Dövlət Universitetini bitirmiş və yazıçı-yurnalist kimi tanınmışdır. Dostluq sonrakı illərdə də davam etmiş, hətta Vahidin xəstəlik dövründə Telli xanım Siyəzənə gedib ona baş çəkmişdi.

Vahidin az zaman kəsiyində milli qarmon sənətimiz üçün can-zəka yandıran şəxslərimizdən biri saya bilərik. O, mənalı, sağlam, enerjili gənclik illərini qarmon sənətimizə həsr etmişdir. O, Zakir Mirzə sənətilə, Avtandil sənətilə, bütünlükdə isə zəngin qarmon sənətimizlə nəfəs alır, qidalanırdı. Musiqi sənətinə onun saf, təmiz, ülvü məhəbbəti var idi.

Nizaməddin bəyin xatirələrindən: "Vahidlə birlikdə məşhur klarnet ifaçısı Suliddin İsmayılovun (1923-1983) evində kirayədə qalırdıq. Suliddin əmi və ailəsi bizə mehribanlıq göstərirdilər. Oğlu Samәddin də dəyərli və səviyyəli adamdır. Biz onlardan heç vaxt incimədik, elə həmişə mehriban dolandıq. Suliddin əminin yaxşı oxumağı da vardı. Boş vaxtlarda Vahid çalar, o da oxuyardı. Bəzən Vahidin özünü oxudardı. Qardaşım oxuyanda o, "bəh-bəh" deyib dinləyərdi. Vahid pianonu da yaxşı çalırdı".

V.İskəndərov istər tələbəlik illərində, istərsə də sonralar Bakıda yaxşı sənətkarlarla işləyib, hörmətli məclislərə gedib. O, 3-4 il də klarnetçalan Əlirza Oruçovla yoldaşlıq edib. Xanəndələrdən Əbülfət Əliyev, Əlibaba Məmmədov, Məmmədbağır Bağırzadə və digərlərilə toy mərasimlərində çıxış edib. O, ən çox klarnetçalan Rəhim Quluyev (1947-1997) və qardaşı, nağaraçalan Səlim Quluyevlə (1944-2005) sənət yoldaşlığında olub. Siyəzənə köçəndən sonra da o, Rəhimi və Səlimi özüylə toylara aparırdı. Bəzən də Səlim olmayanda dəstəyə Raisi görürərdilər. Vahid öz dəstəsilə Türkmənistan toylarında da çox olub.

Nizaməddin onu da xatırladı ki, tələbə vaxtı və sonralar Vahid Salyan toylarına gedərdi və xələt kimi onlara verilmiş parçalar və kələğayılar gətirərdi.

Vahid 1972-1974-cü illərdə Sovet ordusu sıralarında, Bilbilcan əyalətində xidmət edib. O, 1975-ci ildə ailə qurub və Siyəzəndə yaşayıb fəaliyyət göstərib.

V.İskəndərov Bakı ilə doğma Siyəzən arasında işıq seli kimi yaşadı. Bu istedadlı qarmonçu Siyəzəndə, onun ətraf kənd və qəsəbələrində tanınır, hörmətlə qarşılanır və sevilirdi. Onunla danışılan toylara Bakıdan xanəndələrdən Mais Məmmədov, Mais Salmanov, Təbriz Musayev, Rusif Məmmədov, Eyvaz Həsənov, Oqtay Əsgərov, Əvəzxan Xankişiyev və başqalarını gətirirdi. Həmçinin o, Sumqayıtda yaşayan xanəndələri də toylara aparırdı. Bu sırada xaçmazlı Zakiri, "Humayun" ansamblının solisti Təhmiras Şirinovun adlarını çəkə bilərik. Vahid öz toy ansamblı ilə Dəvəçidə, Xudatda, Xaçmazda, Qubada, Qusarda və Dərbənddə çalıb çağırardı. Vahidgili tez-tez Bakı ilə Siyəzən arasındakı qəsəbələrdə, Zaratda, Nasosnıda (haz.H.Z.Tağıyev), Giləzidə, Şurabadda və başqa yerlərdə görmək mümkün idi.

Vahidin atasıgil məşhur opera müğənnisi Şirzad Hüseynovla (1906-1971) qohum idilər. O, Şirzadın oğlu, tanınan tarzən Fərman Hüseynovla da toylara və konsertlərə getmişdi.

Mahir ifaçı kimi V.İskəndərov Siyəzəndə qarmon sənətinin inkişafında mühüm əhəmiyyətli rol oynamışdı, istər ifaçılığı, istərsə də müəllimliyilə. O, Siyəzən mədəniyyət sarayının qarmon sinfində dərs demiş və bacarıqlı yetirmələrini ifaçılıq meydanına çıxarmışdır. Bu gün Siyəzəndəki yaxşı qarmonçalanlar sırasında onun tələbələri vardır. O, öz evində də şagirdlərlə məşğul olmuşdu.

Vahidi Bakı qarmonçalanları, həmçinin virtuoz ifaçı Zakir Mirzə də tanımışdır. SSRİ xalq artisti,şöhrətli müğənnimiz Zeynəb Xanlarova və onun ansamblının üzvləri də V.İskəndərovu tanıyır və onunla maraqlanırdılar.

Toy-büsatda Vahid ən çox klarnetçalan Gülmuradla birlikdə çalışıb. Vahid həm solist, həm də toy dəstəsini müşayiət edən musiqiçi kimi onunla birlikdə çalışanları razı salırdı.

Nizaməddin bəy yüksək ixtisaslı mütəxəssis, gözəl ziyalı olmaqla bərabər, həm də musiqiyə qəlbən bağlı, bu sahəni duyan, bilən və dərindən başa düşən insandır. O, musiqi aləminin nümayəndələrinin əksəriyyətini tanıyır və hər birinin sənət keyfiyyətləri haqqında səhih, doğru fikir yürüdə bilir. Bu sədaqətli insan qardaşı Vahid haqqında hədsiz qürur, iftixar hissilə danışır və bu fikirlərində haqlıdır. Bəs necə ?! Axı Vahid doğrudan –doğruya əsl istedad sahibi olan musiqiçi idi.

Siyəzəndə yaşayarkən V.İskəndərov 2 ay ərzində özü sərbəst olaraq, heç bir kəsdən təlimat almadan klarnet çalmağı öyrənmiş, toylarda bu alətlə sənət nümayiş etdirmiş və çox da bəyənilmişdir. Bilirik ki, Bakıda və onun ətrafında fəaliyyət göstərən toy ansambllarında klarnetçalan "usta", aparıcı qüvvə sayılır. Klarnet xalq musiqimizə, Azərbaycan toylarına daxil olandan bu, belə qəbul olunub. (Bax. Ə.Rəhmanlı "Azərbaycanda klarnet ifaçılığı sənəti", Bakı, MBM nəşriyyatı- 2010, 981səh) . Məhz Vahidi bu səbəb klarnet sənətinə yiyələnməyə sövq etmişdi. O, usta olmaq, əsas yükü, məsuliyyəti öz üzərinə götürmək, dəstəyə rəhbərlik edib daha yaxşı nəticələr göstərmək arzusunda olmuşdu.

Yazı müəllifi kimi deyirəm ki, Bakıda rastlaşdığım Siyəzən musiqiçilərindən Vahid barədə soruşduqda onun klarnet sənətkarı kimi çalışdığını söyləmişdilər.

Görən, bilən, eşidənlərin hamısı onun 2 ay müddətinə klarnet ifaçısına çevrilməsinə təəccüb edirdilər. Hətta nəhəng klarnet ifaçısı Vəli Qədimov (1940-2009) da buna çox təəccüblənmişdi.

Vahid klarnet ifaçısı kimi az çalışsa da yaxşılardan idi. Əlbəttə ki, o, buna fitri istedadı sayəsində yiyələnmişdi.

Nə yaxşı ki, haqlar itmir, təzələnir qələm ucunda, yazılarda. Biz də qələmi haqqa doğru işlədərək bu mövzu, bu yazı ilə belə bir iş görmək istədik ki, istək və arzuları yarıda qırılaraq bu dünyanı vaxtsız tərk eləyən soydaşımızı xatirələrə qovuşduraq.

Vahid İskəndərovun bu dünyada yalnız sənət izi və əziz xatirəsi deyil, həm də üç qızı və nəvələri qalıb. O, 1990-cı ildə, həyatının və sənətinin ən məhsuldar dövründə, 40 yaşında dünyasını dəyişib.

Xoşbəxt keçirdi həyatın hər anı,
Gözəl idi sənətinin zamanı,
Vardı sənət işlətməyə məkanı.
Çiçəkləri nə tez soldu, Vahidin?
Arzuları nakam oldu, Vahidin.

Adı xatirələrdə əziz qalıb,
İfasının dad-tamı ləziz qalıb,
Ad-sanında ən xoş sözümüz qalıb.
Toy-mağarda yeri qaldı Vahidin.
Haqqında xoş sözlər boldu, Vahidin.

Əhsən Rəhmanlı
13.11.2013-cü il

2.55. TƏDQİQATÇI-SƏNƏTÇİ ÖZÜ HAQQINDA



Əhsən Rəhmanlı

1950-ci il (Pələng ili) oktyabr ayının 5-də (Tərəzi bürcü) Neftçala rayonunun Xıllı qəsəbəsində (Aşağı Xıllı) sadə yaşayış tərzi olan, zəhmətkeş ailədə anadan olmuşam. Ailənin sonbeşiyi, səkkizinci övladıyam. Yeddi qardaş, bir bacı idik, lap nağıldakı kimi. Atam Mikayıl kişi neft mədənlərində fəhlə işləmişdir. El arasında şəxsi keyfiyyətləri, xeyrixahlığı və mərdliyi ilə seçilmişdir. O, təqaüdə çıxandan sonra şəxsi təsərrüfatı, bağçılıq və heyvandarlıqla məşğul olar, əldə etdiyi gəlirdən müəyyən qədər əlsiz-ayaqsızlara, imkansız ailələrə kömək edərdi. El ağsaqqalı adı qazanmışdı.

Mikayıl kişi səkkiz övladını xeyirxah, humanist ruhda tərbiyə etmiş, hamısını səxavətli olmağa səsləmişdi.

Anam Mənsurə Kərbəlayi Cavad qızı olduqca cəfakeş, zəhmətkeş, övladlarını xüsusi qayğı və məhəbbətlə böyüdən, əsl azərbaycanlılara məxsus evdar qadın idi. Savad almasa da fitrətən bilikli, fəhmli olaraq çoxlu bayatılar söylər, nağıllar danışardı. Yaxşı musiqi duyumu olduğu üçün uşaqlıqdan yadında qalan qədim nəğmələri iş-güc zamanı astadan, aşağı səslə oxuyardı.

Yadımdadır, mənim 5-10 yaşım olanda anam böyük qardaşımın övladlarına layla çalanda mən həmişə kövrəlib ağlayardım. Onun ahəstəcə oxuduqları mənim kövrək uşaq qəlbimi titrədirdi. Görünür anamın söylədiyi həzin, təsirlə nəğmələr mənim musiqi duyumuma köçür, qan yaddaşıma hopurmuş. Sonralar başa düşdüm ki, saf, təsirli, qəmli ana nəğmələri mənim gələcək musiqi dünyamı yaradırmış.

Valideyinlərim xalaoğlu-xalaqızı idilər. Atam 1903-cü, anam 1910-cu ildə anadan olub. Onlar öz ömürlərində üç dövlət quruluşu görmüş, Çar Rusiyası hökuməti, Azərbaycan Xalq Cümhuriyyəti və Sovet dövləti dövründə yaşamışlar. Anam 1991-ci ildə bərpa olunan müstəqil Azərbaycan Respublikası dövründə də ömr etdi. Dayılarım savadlı, istedadlı, musiqi duyumlu olmuşlar. Abdul Qafar və Abdul Manaf dayım tar çalmış, rəssamlıq qabiliyyətləri olmuş, foto işlərini yaxşı bacarmışlar. Onlar yüksək elm, bilik və təşkilatçılıq qabiliyyətinə malik olduqları üçün vəzifədə çalışmışlar. Hər birinin yüksək nitq qabiliyyəti və natiqliq bacarığı olmuşdur.

Qədim yaşayış məskənlərindən biri olan Xıllı savadlı, elmli və istedadlı adamların məskənidir. Xıllı qəsəbəsində muğam biliciləri, sənətə xiridar olan şəxslər, həmçinin ömürlərinin müəyyən dövrlərində musiqi sənətilə məşğul olan bacarıqlı adamlar var idi.

Kənd-kəsəkdə toylar olanda musiqi səsi eşidərkən bütün uşaqlar kimi oraya qaçır və maraqla çalğıçılara tamaşa edərdik. Qonşuluqda zurnaçalan var idi. Yaz-yay aylarında öz evlərinin eyvanında məşq edib toya hazırlaşanda çaldığı zurnanın səsi ətrafa yayılırdı. O zaman mən də ağac budaqlarından kəsib hazırladığım qoşa nağara çubuqlarını götürüb kətili qarşıma qoyar və nağara kimi çalardım. Eşitdiyim musiqilərin ritmini düz tuturdum. Beləliklə ilk istedadım üzə çıxdı.

Böyük qardaşımdan biri istedadımı və musiqiyə olan həvəsimi görüb mənə qoşa nağara düzəltdi. Radioda oyun havaları eşidən kimi ritmi tutar, qoşanağara çalardım. Evimizdə qaval var idi. Onu qıçlarımın arasına qoyub çalmağı öyrəndim. Bir neçə ildən sonra alətin əldə tutmaq qaydasını vərdiş etdim.

Böyük dayım oğlanları Cavad və Sənan yaxşı tar çalmışlar. Xüsusilə Sənan peşəkar tarzən olmuş, ömrünün müəyyən hissəsini musiqiyə həsr etmişdir.

Ailəmizin üçüncü övladı İsrafilə Allah qeyri-adi yaddaş, güc-qüvvət, yüksək enerji, bədii keyfiyyətlər və istedad bəxş etmişdir. O, gənclik illərində tar çalmış, aydın, şaqraq, saf, gözəl səslə oxumuşdur. Neft və Kimya İnstitutunda təhsil alarkən buranın özfəaliyyət kollektivinin, həmçinin Bakının bir neçə iri mədəniyyət saraylarındakı xalq çalğı alətləri ansambllarının üzvü olmuş, uzun illər irli-xırdalı tədbirlərdə çıxış etmişdir. O, 1961-ci ildə Bakıda Azərbaycan Dövlət Filarmoniyasına solistlər seçmək məqsədilə keçirilən baxış-müsabiqənin qalibi olmuşdur. İsrafil münsiflər heyyətinin üzvü olmuş bəstəkar C.Cahangirov, xormeyster H.Əliyev, müğənni Ş.Ələkbərova tərəfindən bəyənilir. İsrafili Azərbaycan Dövlət mahnı və rəqs ansamblına solist götürürlər. O, isə öz peşəsinə, mühəndisliyə üstünlük verir.

Mən 1958-ci ildə Xıllı məktəbinin birinci sinfinə getmişəm. Yaxşı oxuyurdum. Üçüncü sinfə keçəndə atam məni daha yüksək təhsil alım deyə Neftçala şəhər internat məktəbinə apardı. O, məni savadlı, təhsilli görmək üçün həmişə tövsiyyə edib deyirdi: "Dərslərinə ciddi fikir ver, yaxşı oxu. Çalış təhsil alıb ya müəllim, ya həkim, ya da mühəndis olasan. Bunlar yaxşı sənətdir". Adları çəkilən peşələri atam çox bəyənir və önəm verirdi.

İnternat məktəbin 6-cı sinfində oxuyarkən burada nəfəs alətləri orkestri yaradıldı. Rayondakı hərbi hissələrin birindəki musiqi taqımının tranbonçalanı, moldav millətinin nümayəndəsi Anastas Kuzmiç orkestrə rəhbər dəvət olunmuşdu. O sinfləri gəzib oğlanların istedadını yoxlayarkən məni də bəyəndi. 2-3 il məktəbimizin orkestrində solo tenor alətini çaldım. Mənim nəfəs alətləri orkestrindəki fəaliyyətimə nəinki sinif yoldaşlarım, tanışlar, qohumlar, hətta doğmalarım da təəccüb qalmışdılar.

Qarmon çalmağı öyrənməyimin qəribə tarixcəsi var. Məndən dörd yaş böyük olan qardaşım Rəhman böyük qardaşımız Əhəd müəllimin ilk övladı Qalibin ad gününə 14 dilli, yarımtonsuz qarmon almışdı. Bu 1964-cü ilə təsadüf edir. Qalibin 9, mənimsə 14 yaşım var idi. Yaxşı yadımdadır, ilk öyrəndiyim musiqi Q. Hüseynlinin məşhur "Cücələrim" mahnısı oldu. Sonralar isə Ə.Tağıyevin "Bülbül", "Ya bir olar, ya iki", "Tarla bülbülü", kinofilmindən mahnı, muğam rəngləri, "Qatar" təsnifi, "On dörd nömrə", "Darçını" rəqslərini və s. melodiyaları öyrənib çalmağa başladım. Deməli, 14 yaşım olanda 14 dilli qarmonda çalğı öyrəndim. Bu ya təsadüfdür, ya da burada bir uyğunluq, qismət məsələsi var.

Əslində 14 yaşında milli musiqi alətlərində çalmağı öyrənmək çox gecdir. Bu yaşda xalq musiqisilə məşğul olanlar heç vaxt gəlib sənətin zirvəsinə çata bilməzlər. Görünür mənim taleyimə belə yazılıbmış. Sənətə gec gəlməyim böyük nəticələrə nail olmamağıma səbəb oldu.

İnternat məktəbin özünün ciddi tədrisi və təlim tərbiyə rejimi olduğu üçün orada sərbəst olaraq musiqi ilə məşğul olmaq mümkün deyildi. Şənbə günü dərsdən evə gəlib, bazar ertəsi qayıraq musiqi ilə məşğul olmaq mümkün deyildi. Şənbə günü dərsdən evə gəlib, bazar ertəsi qayıdırdım. Yalnız bir gün qarmonla məşğul ola bilirdim. Həvəsim, istedadım olsa da, mövcud vəziyyət, şərait mənə musiqi ilə məşğul olmağa imkan vermirdi.

Atam istedadımı və həvəsimi görüb mənim üçün 18 dilli, yarımtonsuz qarmon aldı. O zaman nə mən, nə də o, bilmirdik ki, əsl qarmonun yarım pərdəsi olur. Xeyli sonralar qardaşım Rəhman mənim üçün Rusiya istehsalı olan, peşəkar musiqiçi üçün nəzərdə tutulan, bütöv akkardeon aldı. Bu alətdə xeyli havalar öyrəndim. Sol əlin ifasında müəyyən çətinlik yaransa da öhdəsindən gəlirdim. Musiqi ilə əsasən yay tətili aylarında məşğul olurdum. Ailənin sonbeşiyi olduğum üçün

qardaşlarım, ailəmizin ilk gəlini Qönçəxanım və bacım Nərıngül (1940-2003) məni əzizlər və həmişə qayğıma qalardılar. Bacım mənim qayğımı, zəhmətimi çox çəkib. O, ata-anamın tövsiyəsi və xeyir-duası ilə kəndçimiz Böyükkişi Əsgərovla ailə qurmuş, bir qız və beş oğulu düzgün tərbiyə edərək Azərbaycan cəmiyyətinə bəxş etmişdir. Bacımın övladları ev-eşik quraraq oğul-uşaqlı olub halal ömür sürməkdədirlər. Böyük qardaşım Əhəd (1931-2010) müəllim mənim musiqi ilə məşğul olmağımı bəyənir və daha da həvəsləndirirdi. Həvəsim daha da artsın deyə oğlu Qalibə nağara aldı ki, bir yerdə məşğul olaq ki, ritmlə çala bilim. Yay aylarında Qaliblə qarmon-nağara məşq edirdik. Bir müddətdən sonra isə dost-qohumlarda olan xırda məclislərə və xınayaxdılara dəvət olundum. Qalib orta məktəbi bitirib elm ardınca getdi. O, bütün ömrünü pedaqoji sahəyə həsr etmişdir. Mənalı ömür sürərək iki övlad və üç nəvənin şirinliyini dadmışdır.

Bizim nəsil nümayəndələrinin hamısı xeyirxahlığı, nəcib əməlləri ilə həmişə seçiliblər. Hər birinin tanış-bilişləri, dost-tanışları, qohumlar arasında və bütünlükdə cəmiyyətdə xətir-hörməti olub. Adi bir insanın, ailənin yeddinci övladı, altıncı oğul Əkrəmin həyat və fəaliyyətini çoxlarına nümunə göstərmək olar. O, uzun illər rayonlararası sərnişindaşıma xidməti müəssisəsində (Şəhərlərarası avtobus parkı – Ə.R.) sürücü işləyərək xalqa hünərlə xidmət etmişdir. O, yaşayış məntəqələrindən minib mənzil başına yetişmək istəyən əsgərlərdən,qocalardan, arxasız– köməksiz adamlardan, imkansızlardan heç vaxt bilet pulu almaz, belə şəxsləri yol kənarındakı yeməkxanalarda nahara qonaq edərdi.

Əkrəm Rəhmanlı halal zəhmətlə ömür sürərək, dörd qızını və bir oğlunu təhsilli, tərbiyəli böyüdüb ərsəyə yetirərək onları, ailəli, evli-eşikli etmişdir.

Əkrəm uşaqlıq və yeniyetməlik çağlarında qardaşlarının istedadını görüb özünü musiqidə sınamaq istəmiş, lakin ötəri həvəs sonra tez də ötüb keçmişdi. Əslində onun da istedadı var idi. Əhsənin əlinə baxaraq bir-iki hava çalmağı öyrənmişdi. Bir az da qoşa-nağara çalmışdı. Onun həvəsi əvvəldən avtomobilə idi. Odur ki, öz taleyini sürücülük peşəsinə bağladı. Neçə illər qardaşı Rəhmanın toy dəstəsini şəxsi avtomobili ilə Azərbaycanın müxtəlif bölgələrinə toylara apardı və bu işdən məmnunluq duydu. Çünki, özü də daim musiqi içərisində oldu.

1968-ci ildə Bakı Mədəni-Maarif Texnikumuna daxil oldum. Təhsil illərində musiqiyə olan həvəsim və bacarığım daha da artdı. "İnşaatçılar" mədəniyyət sarayının xalq çalğı alətləri ansamblına üzv oldum. Buradakı bir neçə illik fəaliyyətim dövründə xeyli konsertlərə getdim.

Evdə müntəzəm olaraq məşhur qarmonçalanlar Məmmədağa Ağayev, Abbas Abbasov və İsfəndiyar Coşqunun lentlərini dinləyirdim. Həmçinin Zakir Mirzə, Teyyub oğlu, Vaqif Şıxıyev, Aftandil İsrafilov və Həmid Haqverdiyevin ifalarını eşitməkdən doymazdım. Onlardan çox şey öyrəndim. Bu sənətçilər mənim üçün sehirli aləm idi. Onları əlçatmaz zirvə sanırdım. Artıq sənət məni öz aləminə qovuşdurmuşdu. Ayrılmaq mümkün deyildi. Bəzən yüngülvari toylara da gedirdim. Əsl alətim, toy qarmonum isə yox idi. Texnikumda tələbə yoldaşım, xeyirxah, alicənab gənc olan Tahir Məmmədovun qarmonu ilə əvvəllər neçə toylarda çaldım. Sonralar atam mənim taleyimi musiqiyə, incəsənətə bağladığımı, bu sahədə təhsil aldığımı nəzərə alaraq mənim üçün əsl sənətkar qarmonu aldı və bu işlə məşğul olmağım üçün xeyir-dua verdi.

Texnikumda yay tətilinə çıxarkən hər yay Neftçalaya gedərdim. Evdə məşq edəndə anam məni həvəslə dinləyər və çox sevinərdi. Qonşumuz, uşaqlıq dostum Soltan dəf çalırdı. Bizə məşqə gələrdi. Qardaşım Abdurəhman (1943-2005) bizə qoşulub oxuyurdu. O, M.M.Seyidzadə, Ə.Vahidin qəzəllərini "Rast", "Cahargah", "Şur", "Segah" muğamları üstə oxuyar və sonra təsniflərlə tamamlardı. Yeri gəlmişkən qeyd edim ki, onun ifasını tez-tez müşayiət etməyim məni xalq musiqimizə, muğamlara, təsniflərə bir az da yaxınlaşdırdı. Sənətimdə irəliləyiş yarandı. Abdurəhman bu işi davam etsəydi xanəndə ola bilərdi. Lakin peşəsinə, müəllimliyə bağlandı, ömrünü orta məktəbdə dərs deməyə həsr etdi.

Mənim musiqiçi kimi yetişməyimdə qardaşım İsrafil müəllimin çox böyük təsiri olmuşdur. Sənət eşqi, istedadı coşub çağlayan bu insan musiqiyə xiridardır, şeirə-qəzələ, ədəbiyyata yaxından bələddir. Onun həm də gözəl, aydın diksiyası vardır. İstər Bakıdakı, istərsə də rayondakı evimizdə olan ailə şənliklərində o, həmişə qarmon çalar, oxuyardı. Sonra qarmonu mənə verər, mən də onun oxumalarını müşayiət edərdim. Onun daxilində güclü, bədii enerji var. Görünür bədii enerji onu tərpətdiyi, narahat etdiyi üçün boş vaxtlarımızda həmişə qarmonu qutusundan çıxarıb mənə verər, özü isə şövqlə muğam, təsnif və mahnılar oxuyub məni də həvəsə gətirərdi.

Xıllıdakı evimizdə tamaşaçılarımız qohum-qardaş, ailə üzvlərimiz, Bakıdakı mənzilimizdəki məşqimiz zamanı dinləyicilərimiz isə həyətdə gəzib-dincələn qonşularımız və pəncərələrimizin altından keçib gedərkən musiqi səsi eşidib ayaq saxlayıb dayananlar olardı. Məşqimiz bitəndən sonra pəncərələrə yaxınlaşdıqda görürdük ki, aşağıda xeyli dinləyicimiz toplanıb. Bütün bunlar mənim sənət eşqimi daha da yüksəldirdi. Qardaşım İsrafil müəllimlə arabir toy məclislərinə də dəvət alırdıq. İsrafil müəllim elmin, maarifin, mədəniyyətin müxtəlif sahələrinə bələd olan kamil şəxsdir. Həmçinin bədii söz ustasıdır. Son 20-30 ildə o, xeyli şeirlər yazmışdır ki, bunların hər biri poetik və bədii dəyər cəhətdən çox yüksəkdir.

Bizim nəslin nümayəndələrinin keçdikləri ömür yoluna nəzər salaraq bu qənaətə gəldim ki, istedad bizə gendən, nəsildən, kökdən gəlir.

Böyük qardaşım Əhəd müəllim və Raqib (1933-2006) bəyin şairlik təbləri var idi. Hər biri təqaüdə çıxandan sonra təblərinə uyğun şeirlər yazdılar. Əhəd müəllimin 2001-2006-cı illərdə iki şeirlər kitabı çapdan çıxmışdır.

Mən texnikumun sonuncu kursunda oxuyarkən Bakının Əhmədli qəsəbəsindəki (Kənd Əhmədli adlanır) mədəniyyət evinin qarmon kursunda dərs demək üçün dəvət olundum. Buranın müdiri İmran müəllim məni həvəslə işə götürdü. Əmək fəaliyyətimə ilk dəfə burada başladım.

1970-ci ildə Mədəni-Maarif Texnikumunu bitirdim. Bakıdakı 8 saylı uşaq musiqi məktəbində də dərs deməyə başladım. Burada az işlədim. Az sonra Bakı Şəhər Xalq Yaradıcılığı Evinə işə qəbul olundum. Buradakı "Qaravəlli" xalq teatrında quruluş hissə müdiri işlədim və musiqiçi kimi çalışdım. Yaradıcılıq Evinin direktoru Əhməd Mirzəyev çox mehriban insan olduğu üçün hamımıza hörmətlə yanaşırdı. Burada yaxşı kollektiv, isti münasibət var idi. "Qaravəlli" teatrının rejissoru Ələsgər (Fərəc) Nağıyev idi. O, məşhur milyonçu Musa Nağıyevin nəvəsidir. Fərəc müəllim təqaüdə çıxandan sonra məşhur aktyor, xalq artisti Məlik Dadaşov rejissor dəvət olundu. Buradakı işçiləri, Zemfira xanım, Bilqeyis xanım, Əliağa Mövsümov, İbrahim Əliyev, pianoçu Gülşən Mirzəbəyova və nağaraçalan Tahir Hüseynovu hörmətlə xatırlayıram. Gülşən Mirzəbəyova məşhur pianoçu Rüxsarə Mirzəbəyovanın qızı və onun sənətinin həqiqi davamçısıdır. Gülşən xanım da tanınmış sənətçidir. Müxtəlif dövrlərdə ansambllarda, orkestrdə çalmış və uzun illər xalq artisti Baba Salahovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında pianoçu kimi çalışmışdır. Gözəl bəstəkardır. Xeyli mahnılar, muğam dəramədləri və rəqsləri vardır. O, ali təhsil müəssisələrində uzun illərdir dərs deyib. Gülşən xanım bədii rəhbəri, xalq artisti, xanəndə Baba Mahmudoğlu (1940-2006), musiqi rəhbəri Əhsən Rəhmanlının olduğu "Misri" ansamblında pianoçu kimi öz yaradıcılıq töhfəsini vermişdir.

Mən texnikumda oxuduğum illərdə qardaşım Rəhman klarnet musiqi aləti aldı. Onun əvvəldən musiqiyə böyük həvəsi olub. Əsgərlikdə olarkən hərbi-hissənin özfəaliyyət dərnəyində bir az musiqiylə məşğul olmuşdur. O, 1970-ci ildə 24 yaşı olarkən musiqi təhsili almaq üçün Bakı Mədəni-Maarif Texnikumuna daxil oldu. Məşhur musiqiçi Elşad Cabbarovun balaban sinfində təhsil aldı və klarnet ifaçılığını öyrəndi. Təbii ki, 24 yaşında ifaçılıq sənəti ilə məşğul olmaq çox çətindir. Amma ondakı həvəs, dözüm, səbr onun sənət öyrənməsinə imkan verdi. Onunla evimizdə müntəzəm məşq etməyimiz hər ikimizin inkişafına xidmət edirdi. Yaxşı dəstə düzəltdik və

qardaşımla 20 ildən artıq sənət yoldaşlığı etdik. Toy ifaçılığının çox incə mətləbləri, məziyyətləri, həm də irli-xırdalı çətinlikləri vardır ki, uzun illər birlikdə yoldaşlıq etmək mümkün olmur.

Bir filosofdan soruşurlar: "Dost yaxşıdır, yoxsa qardaş?". Cavab verir ki, "Qardaş da dost olsa yaxşıdır". Mən qardaşlıqdan başqa Rəhmanla həqiqi dost və əsl sənət yoldaşı idim. Onunla Bakıda və ayalətlərdə çoxlu konsertlərdə və toylarda olduq. Xanəndə Bakir Haşımov, Canəli Əkbərov, Baba Mahmudoğlu, Teymur Mustafayev, Niyaməddin Musayev, Sabir Mirzəyev, Zaur Rzayev, Eyvaz Həsənov, Səxavət Məmmədov, Səfa Qəhramanov, Qara İsmayılov, Səxavət Babayev, Təhmiraz Şirinov, Rusif Məmmədov, Sabir Novruzov, Mais Məmmədov, Məhəbbət Kazımov, Əvəzxan Xankişiyev, İlkağa Şahbazov, Şamil Quluyev, Bayram Musayev, Tahir Xəlilov, Məzahir Kuhi, Şücaət Kərimov, Dünyamalı Saraclı (1953-2010) və başqaları ilə mehriban, səmimi sənət yoldaşlığımız olub. Bir neçə dəfə xanəndələrimiz Hacıbaba Hüseynov, Alim Qasımov və Zahid Quliyevlə də birlikdə toy məclisləri keçirmişik.

"Könül" adlanan bizim toy ansamblı Azərbaycanı qarış-qarış gəzmiş, Qərbi Azərbaycanda, Borçalı, Qarayazı, Başkeçid ellərində, həmçinin Tiflis şəhərində çox-çox toy məclislərində olmuşdur.

1992-ci il may ayının 13-də, Qarabağ savaşının qaynar vaxtında Rəhmanın ilk övladı 19 yaşlı Elman Rəhmanlı Ağdamın Xramort kəndində erməni hərbi birləşmələrinin mühasirəsini yarıb keçmək istəyərkən döyüş yoldaşları ilə son nəfəsə qədər döyüşərək şəhid olmuşdur. O, Bakının Şəhidlər Xiyabanında uyuyur. Ruhu şad olsun!

Həmin dövrdən Rəhman Rəhmanlı sənətdən uzaqlaşmış, ibadətlə məşğul olmağa başlamışdır. "Quran" oxuyaraq Ulu Tanrıdan xalqımıza kömək olmasını diləyir. Bir də səhər, axşam bütün şəhidlərimizin ruhuna dualar oxuyur.

2003-cü ildə həyat yoldaşı Hacı Kamilə ilə müqəddəs Həcc ziyarətinə gedərək Hacı tituhunu qazanmışdır.

Mən 1972-ci ilin yanvar ayından Bakı Elektrik Maşınqayırma Zavodunun mədəniyyət və texnika sarayına dəvət olundum. Burada qarmon kursunda dərs deməklə bərabər, həm də orada Rəhmanın rəhbərlik etdiyi "Könül" xalq çalğı alətləri ansamblında çalırdım. Müntəzəm olarq konsertlərə gedirdik. 1974-1976-cı illər ərzində Ukraynada hərbi xidmətdə olmuşam. Evdən mənim üçün "Kazan" qarmon göndərmişdilər. Boş vaxtlarda çalırdım. Bəstəkarlıq qabiliyyətim 1975-ci ildən meyana çıxdı. İlk bəstələrim "Segah rəngi", "Əsgər anaları" mahnısı və "Şur təsnifi" oldu. Hər iki musiqinin sözlərini də özüm yazmışam.

1974-cü ildə əsgərliyə gedəndən 2-3 ay sonra artıq şeir yazmaq qabiliyyətim meydana çıxmışdı. İlk yazdığım şerlərimi öz doğmalarıma həsr edib məktub vasitəsilə evdəkilərə, qohum-qardaşa göndəritdim. Deyilənə görə pis alınmırdı.

1975-ci ildə Ukrayınanın İzyaslov şəhərində hərbi hissədə ezamiyyətdə olduğum zaman həmyerlilərimizdən ibarət mahnı və rəqs ansamblı təşkil etdim. Bu kollektivə çeçenləri, gürcüləri, Dağıstan xalqlarının bir-neçə nümayəndəsini də cəlb etdim. Az vaxt içərsində iş görə bildik. Hərbi hissələrdə, ətrafdakı kolxoz və sovxorzlarda konsertlər verdik. Hərbi hissənin rəhbərliyi tərəfindən təşəkkürlər aldım.

1976-cı ildə hərbi xidməti başa vurub Bakıya döndüm. Əvvəlki iş yerində çalışmağa başladım. Mənə çox doğma olan BEMZ-nin mədəniyyət və texnika sarayında 12 il işləmişəm. Burada mənimlə çalışan, yaxından bir-birimizə bələd olduğumuz, sevdiyim qızla, fortepiano müəlliməsi Fəridə xanımla ailə qurmuşam. 1978-ci ilin iyun ayında toyumuz olub.

1986-cı il inşaatçıların mədəniyyət sarayına gəldim və burada qarmon kursunda əmək fəaliyyətimi davam etdim. Burada təhsil alan şagirdlərdən ibarət qarmonçalanlar ansamblı yaratdım.

1980-ci ildə Mədəniyyət və İncəsənət Universitetinə daxil olub qiyabi yolla təhsil alaraq 1985-ci ildə buranı bitirdim.

Bütün əmək fəaliyyətim dövründə yaradıcılıq işlərim bir an da dayanmayıb. Sözlər yazıb, mahnılar bəstələmişəm. Bəzən də şairlərin şerlərinə mahnılar qoşmuşam. Muğam dəramədləri və rənglərim var.

1977-ci ildən başlayaraq müxtəlif oxuyanlarla yaradıcılıq əlaqələri qurmuş, onların ifasında mənim mahnılarımdan ibarət audio-kasetlər buraxmışam. Misal olaraq Şücaət Kərimov (Az. Konsertin solisti), Tahir Xəlilov, Şahməddin Salahov (vaxtilə filarmoniyanın solisti olub), Qara İsmayılov və Vəliağa Tağıyevi (Az. Konsertin solisti) göstərə bilərəm. Bu lent yazılarında "Könül" instrumental ansambl çalıb.

Adları çəkilən müğənnilərlə toylara da bir zamanlar bir yerdə getmişik.

1999-cu ildə Azərbaycan Televiziyası və Radiosu xorunun solisti Bayram Musayevin albomu işıq üzü görüb. O, bu albomda mənim dörd mahnımı oxumuşdur. Mahnıları mənim musiqi qrupum müşayiət etmişdir.

2001-ci ildə xanəndə Qəhraman Rəhimovun səsi yazılmış albom nəşr olunarkən oraya mənim dörd mahnım daxil edilib. Q.Rəhimov uzun illər Azərbaycan Qastrol-Konsert Birliyinin solisti olub.

Respublikanın xalq artisti İlqar Muradovun toy repertuarında sözləri və musiqisi mənim olan "Məlahət", "İnadkar əzizim" adlı mahnım var. Müğənni Nizami İsmayılov sözləri şair Zakir Fəxrinin, musiqisi mənim olan, estrada janrına aid "Qızlar qəribə olub" adlı mahnını 1990-cı illərdə televiziya çıxışlarında dəfələrlə təqdim edib. Opera və Balet Teatrının solisti olarkən mənimlə yaradıcılıq ilişgiləri quran müğənni Məzahir Kuhi (1960-2011) 1994-cü il Novruz bayramı ərəfəsində mənim "Salam Novruz bayramı" mahnımı televiziya konsertlərində oxuyub. Mahnının sözləri Hikmət Ziyanındır. Həmçinin bu mövzuda digər mahnımı xanəndə Bayram Musayev televiziyada nümayiş etdirilən "Bayram şənliyi"ndə oxumuşdur. Bu mahnının sözləri şair İsmayıl Dadaşovundur.

2006-cı il avqust ayında müğənni Dünyamalı Saraclının kompakt diski və albomu buraxılıb. Oxunan mahnıların bəzilərinin yeni səpgidə işləmələrinin və şair Əflatun Saraclının sözlərinə bəstələnən "Borçalı", Tariyel Qəribliyə aid olan "Saracl" mahnılarının musiqisi mənimdir.

Mən 1990-1993-cü illər ərzində Bülbülə qəsəbəsindəki M.Ə.Sabir adına mədəniyyət evinin direktoru işləmişəm. Burada çalışdığım müddət ərzində bir-birindən maraqlı tədbirlər təşkil etmiş, Azərbaycanın tanınmış şairləri, yazıçıları, ictimai-siyasi xadimləri ilə görüşlər keçirmişəm. Bütün bunlar qəsəbə sakinlərinin xatirəsində indi də qalmaqdadır. Həmçinin burada müxtəlif səviyyəli konsertlər də olub. Hansı işdə çalışmağımdan aslı olmayaraq sevimli peşəmdən, qarmon ifaçılığından ayrılmamış, həm də müəllimlik işimi davam etdirmişəm.

1989-cu il sentyabr ayında xalq artisti, xanəndə Baba Mahmudoğlu məni, musiqiçi yoldaşlarımla birlikdə "Dastan" folklor ansamblına dəvət etdi. Ansamblın birinci heyəti dağılmışdı. Bizim toplanmağımız ikinci heyəti yaratdı. Yaradıcı şəxs olduğum üçün B.Mahmudoğlu məni musiqi rəhbəri təyin etdi. Həmçinin inzibati işləri mənə tapşırdı. Qarqdaşım Rəhman da bu ansamblda nəfəs alətlərini ifa edirdi. Neçə-neçə qədim xalq mahnılarımızı yeni səpgidə işlədim və B.Mahmudoğlunun ifasında radionun fonduna yazdırdıq. Bunlara misal olaraq "Azərbaycan maralı", "Sarı bülbül" və s. xalq mahnılarını göstərə bilərəm. "Dastan" ansamblının televiziyada və radiodakı çıxışları sevgi ilə qarşılanırdı. Xalq artisti Səfa Qəhramanov, Xalidə Yaqubova da ansamblın solistləri idilər. Respublika sarayında bayram konsertlərində çıxışımız, Dövlət Filarmoniyasında konsertlərimiz, bölgələrə səfərlərimiz olmuşdu. Dəramədlərim, rənglərim ansamblın repertuarını zənginləşdirir, rəngarəng edirdi. Bəstələdiyim "Şur ahəngi" 1991-ci ildə "Dastan" ansamblının müşayiətilə mənim solo qarmon ifamla radionun fondu üçün yazılıb. O, dövrdən müntəzəm olaraq radioda səslənir.

Həmin ildə xanəndə Səfa Qəhramanovun ifasında "Cahargah" muğam-dəsgahı Azərbaycan televiziyasında lentə alınıb və dəfələrlə nümayiş etdirilib. Bu muğam dəsgahında səslənən dəramədlər və rənglər mənim bəstələrim idi.

İçərişəhərdəki xalça muzeyində "Dastan" folklor ansamblının üç konsertini çəkdilər. Hər konsertdə bir müğənni, Baba Mahmudoğlu, Səfa Qəhramanov, Xalidə Yaqubova oxuyurdu. Bundan başqa müxtəlif bayram günlərilə əlaqədar televiziya çəkilişlərimiz olurdu.

Baba Mahmudoğlu özü yaradıcı şəxs olduğu üçün musiqidə həmişə yenilikçi işləri və fikirləriləseçilib. O əksər musiqi əsərlərinə yeni fikirlər əlavə edər, solo hissələrdə əsasən saz, zurna, tütək, balaban, ney alətlərindən istifadə edərdi. Həmişə mənim təklif və fikirlərimi öyrənər, əksər hallarda bunlarla razılaşardı. O zamanlar onunla birgə yaradıcılıq işimiz, lent yazılarımızda etdiyimiz yenilik və s. bəzən etirazla qarşılanardı və təzyiqlərə məruz qalardıq. Hətta oranjemanetdiyimiz neçə-neçə xalq mahnıları bədii şura tərəfindən pozulmuşdur. Çox heyif ki, o cür yaradıcılığ işlərimizi köçürüb özümüzdə saxlamamışıq.

XXI əsrdə Azərbaycanda yeni yaranan ansamblların əksəriyyəti bizim o zamankı ansambl səpgimizdən, yaradıcılıq qaydalarımızdan, bəzi məqamlarda xor səslərindən istifadə edərək və s. işlərimizdən bəhrələnərək işləyirlər.

Mən və bizimlə uzun illər sənət yoldaşlığı edən musiqiçilər 1992-ci ilin sonuna qədər "Dastan" ansamblında olduq.

1990-93-cü illər ərzində o zaman Bakı restoran toylarında çox populyar olan müğənni Nizami İsmayılovla toy məclislərində çalıb-çağırdıq.

1994-95-ci illərdə İran İslam Respublikasının bəzi şəhərlərində, əsasən Tehranda çalışdım. Orada Azərbaycandan gedən sənət adamları ilə, əsasən isə Azərbaycan Konsert-Qastrol Birliyinin solisti, şair-xanəndə Bahadur Həkəri ilə yoldaşlıq edirdim. Bahadurla toy məclislərində, müxtəlif ev tədbirlərində, ev konsertlərində müntəzəm çıxışlarımız olurdu. Bundan başqa sənətdə mənə ən yaxın yoldaş, sirdaş olan Bahadur Həkəri ilə Tehranda "Əlillər və qocalar" evində, müxtəlif xeyriyyə tədbirlərində çıxışlarımız olub. Bahadur Həkəri milli üslublu, xoş səsli xanəndə, yaradıcı insan, gözəl şair idi. Həkəri onun təxəllüsüdür. Növbəti Tehran səfərinə getmə ərəfəsində o, 44 yaşında dünyadan köçdü. Heyf, belə sadiq dostu, istedadlı insanı tez itirdik. Onun vəfatından sonra mən İranda çalışmağa son qoydum. Çünki, onun kimi etibarlı və sadiq sənət yoldaşı tapmaq çətin işdir.

Baba Mahmudoğlu ilə də Tehranda müəyyən tədbirlərdə çıxışlarımız olub.

Mən 1995-ci il noyabr ayında Bakı Bələdiyyə Teatrının yaradıcı heyətilə Naxçıvan Muxtar Respublikasının bütün bölgələrində konsertlərdə olmuşam. Dövlət səviyyəsində oradan Türkiyə Respublikasına sənət səfərinə göndərildik. 12 gün bu ölkədə olaraq Ərzurum, Qars, Van, Ağrı şəhərlərində çıxışlar etdik. Oynanılan teatr tamaşaları, verilən konsertlər seyrciləri heyran etmişdi. Konsertlərin açılışında mənim bəstəm olan "Vətən təranəsi" səslənirdi. Konsertlərdə solo ifam da olurdu. Türk tamaşaçıları qarmonun ecazkar səsini və bizim milli üslubu çox bəyənirdilər. Musiqi qrupumuzun üzvləri; virtuoz sənətçi, gitaranın, sazın, zurna, balaban, tütəyin mahir ifaçısı Vahid Babaşov, nağaraçı Niyaz Hüseynzadə, sintezator ifaçısı Səftər, müğənnilər isə Bələdiyyə Teatrının gənc aktyorları və aktrisaları idilər. Vahidin, Niyazın solo ifası gözəl alınırdı.

1996-cı ildən 2000-ci ilə qədər Bakı Xoreoqrafiya Məktəbində konsertmeyster- qarmonçalan işlədim.

2000-ci ildə Bakı Mədəni Maarif Texnikumunun (haz. Bakı Humanitar Kolleci) rəhbərliyi məni işə dəvət etdi. O zamandan burada qarmon ixtisasının muğam tədrisi ilə məşğulam. Bundan əlavə burada "muğam tarixi" fənni üzrə də dərs demişəm. 2003-cü ildə "Muğam tarixi" fənni üzrə proqramım çapdan çıxıb. Musiqi kolleci üçün adı çəkilən fənn üzrə ilk proqram mənim tə-



16.11.2004-cü il. AzTV-də "Səhər" musiqi proqramından sonra. Soldan: Heybət Babayev, Tahir Əliyev, Əhsən Rəhmanlı, Baba Mahmudoğlu, Ceyhun Həsənov, Əlbəndə Əliyev və Hacı Həmidoğlu

rəfimdən yazılıb. Elə bu fənnin tədrisi özü də bu dövr üçün yeni hadisə idi. Bizə qədər isə "Muğam tarixi" kursu milli konservatoriyada tədris olunurdu və bu iş bu gün də davam edir.

2001-ci il sentyabr ayının 28-də Bakı şəhərində ictimai nəqliyyatda sərnişin olaraq avtomobil qəzasına düşüb ömürlük əlil qalmışam. Bir il fəal həyat fəaliyyətim olmayıb. Allahın izni ilə yenidən fəaliyyətə başlayıb Azərbaycan musiqi mədəniyyətinə xidmətimi davam etmişəm.

2002-ci ilin ortalarında Baba Mahmudoğlu məni yenidən rəhbərlik etdiyi ansambla dəvət etdi. "Günəş" adlanan bu instrumental ansambl "Dastan" və "Xəzinə" folklor ansamblarının davamçısı idi. Baba müəllim "Günəş" ansamblına məni musiqi rəhbəri təyin edərək heyəti toplamağı mənə həvalə etdi. Az vaxt içərisində xeyli iş gördük və ansambl "Misri" adlandırdıq. Baba müəllimin bəstələdiyi neçə-neçə mahnıları mənim oranjemanımda radioya, fonda yazdırdıq. Televiziya çıxışlarımız oldu. Bəzi çəkilişlərimiz televiziya fondunda qorunur.

Fransa dövlətinin musiqi təbliğatı ilə məşğul olan böyük şirkətlərindən biri Bakıya gələrək bizim ansambl dinlədi, bəyəndi və yaradıcılıq ilişgiləri qurmaq üçün müqavilə bağladı. İlk səfərimiz 2004-cü il noyabr ayının 4-də Şimali Afrika ölkəsi Tunisə oldu. Hazırladığımız konsert proqramı, Baba Mahmudoğlu sənəti orada çox bəyənildi. İki uğurlu konsert verdik.

İkinci səfərimiz 2004-cü ilin dekabrın 5-i ilə 10-u arasında Türkiyənin Konya şəhərinə oldu. Burada çox böyük bir tədbir, "Mistik musiqi festivalı" keçirilirdi.

2005-ci il aprel ayının 2-də Fransa dövlətinin Marsell şəhərində bu ölkədə ilk dəfə keçirilən çox möhtəşəm "Musiqi sənəti sərgisində" çıxışımız böyük uğura və nailiyyətə səbəb oldu. Dünyanın 800 musiqi kollektivlərinin lent yazıları dinlənilmiş, video-kasetlərinə baxılmış və 300-nün çıxışları bəyənilmişdi. Münsiflər heyəti 32 ölkənin folklor ansamblını "Musiqi sərgisinə" buraxmışdı. Bu böyük tədbirdə Azərbaycanımızın möhtəşəm və zəngin musiqisi bir daha özünü təsdiq etdi və qələbə qazandı. Birinci yer Baba Mahmudoğlunun səsinə və onun kiçik tərkibli heyətinə verildi. Müğənnini üç musiqiçi ilə müşaiyət edirdik. Dörd sənətçi ilə o boyda sənəti və rəngarəng, zəngin proqramı əhatə etməyimiz münsiflər heyətini, Fransa tamaşaçılarını və dünyanın çox ölkəsindən



Noyabr 2004-cü il. Tunis səfəri. Soldan: Ceyhun Həsənov, Baba Mahmudoğlu, Tahir Əliyev, Əhsən Rəhmanlı, Əlibəndə Əliyev



Fransadakı "Fuar"da. Soldan: Heybət Babayev, Baba Mahmudoğlu, Hacı Həmidoğlu, Əhsən Rəhmanlı



Fransanın Marsel şəhərində türklərin incəsənət muzeyində konsert. Sağdan: Əhsən Rəzmanlı, Hacı Həmidoğlu, Heybət Babayev və Baba Mahmudoğlu

sərgini görməyə gələnləri heyran qoymuşdu. Səfərdə bizimlə olan məşhur musiqiçi, nəfəs alətləri ifaçısı, Hacı Həmidoğlu, zərb alətlərini məharətlə çalan Heybət Babayevin proqram daxilindəki solo çıxışları, mənim qarmon ifam B.Mahmudoğlunun olduqca coşqun, çılğın, rəngarəng oxumalarını və bütünlüklə konsertimizin əhvalını və ruhunu tamamlayırdı.

Bu çıxışımız dünyanın çox ölkələrinə müntəzəm konsertlərə getməyimiz üçün geniş yol açmışdı.

2005-ci il iyun ayının 21-də İsveçrəyə sənət səfərinə getdik. İyunun 23-də İsveçrənin Martini şəhərində konsertimiz oldu. Bizi bu ölkəyə dəvət edən Fransa şirkəti növbəti konsertimizi öz ölkələrinə təyin etmişdi. İyunun 25-də Fransanın Culifi şəhərində konsert verdik. Ecazkar Azərbaycan musiqisi hər iki ölkə tamaşaçılarına möcüzəli gəlirdi. Deyim ki, getdiyimiz səfərlərimizin hamısında Azərbaycan qarmonuna maraq, onun səsinə aludəlik hiss etdim. Bu özü-özlüyündə qarmon ifaçılıq sənətinin uğuru sayılmalıdır. Konsertlərdən sonra səhnə arxasına gələn musiqi biliciləri, ifaçılar, jurnalistlər qarmonla maraqlanır, səs düzümünə diqqət yetirir, yaxından səsini eşitmək istəyir və foto şəklini çəkirdilər.

Böyük sənətkarımız, sənət fədaisi, özünün fəlsəfi fikirləri ilə seçilən, elm, bilik, mərifət sahibi, xalq artisti, xanəndə Baba Mahmudoğlu ömrünün ən müdrik və məhsuldar çağında 2005-ci il noyabr ayının 9-da qəflətən iflic xəstəliyinə tutuldu. Noyabrın 7-də onun 65 yaşını məşq zamanı ansamblın üzvləri ilə qeyd etmişdik.

Baba müəllimin xəstələnməsi ilə müxtəlif ölkələrə olacaq səfərlərimizə son qoyuldu. O, 2006-cı il dekabrın 6-da dünyasını dəyişdi.

Mən 1998-2005-ci illər ərzində Bakıda köçkün həyatı yaşayan Ağdam X.Şuşinski adına muğam musiqi məktəbində müəllim işləmişəm. 2002-ci il sentyabr ayında Milli Konservatoriya tərkibində Musiqi Kollecinə qarmon ixtisası üzrə muğam tədrisi üzrə müəllim kimi dəvət olunmuşam. Bakıda məskunlaşan Şuşa Musiqi Texnikumunda 2006-cı il sentyabr ayından dərs demişəm.



2011-ci il. Əhsən Rəhmanlı "Şuşa" musiqi kollecinin I kurs tələbəsi Azər Babayevlə məşğələ zamanı



2009-cu il. Ə.Rəhmanlı, Bakı Humanitar Kollecində tələbələri Xatir Osmanov (sağda) və Sahib Şeyxxanov

İndiyə qədər müəllim işlədiyim dövr ərzində yüzlərlə tələbə yetişdirmişəm. Yetirmələrimdən İfaçılıqda və tədrisdə çalışanlar çoxdur. Bəzilərinin adlarını çəkməklə kifayətlənmək olar. Əhmədli mədəniyyət evində şagirdim olmuş Ramazan, 8 saylı uşaq musiqi məktəbində şagirdim olmuş Aslan Aslanov, BEMZ-nin mədəniyyət sarayında şagirdim olmuş Raman Əliyev ifaçılıqda, Bakı Mədəni-Maarif Texnikumunda (haz. B.H.K) tələbələrim olmuş Aynurə İskəndərova 36 saylı uşaq musiqi məktəbində, Afət İsmayılova 3 saylı uşaq musiqi məktəbində, Avtandil Fərhadov görmə qabiliyyəti zəif olan uşaqlar üçün musiqi məktəbində, Ənvər 13 saylı uşaq musiqi məktəbində və ifaçılıqda, Xatir Osmanov İsmayıllı şəhər uşaq musiqi məktəbində və ifaçılıqda, Abil Məmmədov ifaçılıqda,Milli Konservatoriya nəzdində Musiqi Kollecində tələbələrim olmuş Gülşən



Ə.Rəhmanlı Xan Şuşinski ad. Ağdam muğam-musiqi məktəbində şagirdlərlə məşğələ zamanı



Noyubr 2002-ci il. Ə.Rəhmanlı X.Şuşinski ad. Ağdam muğam-musiqi məktəbində dərs zamanı

Eyvazova Şuşa Musiqi Kollecində, Orxan Bilasuvar şəhər uşaq musiqi məktəbində və ifaçılıqda, Zamiq Mahmarzayev X.Şuşinski adına Ağdam Muğam-Musiqi məktəbində, Rəşad Cəfərov 9 saylı uşaq musiqi məktəbində, Camal Şeydabəyov N saylı hərbi hissənin nəfəs alətləri orkestrində və ifaçılıqda, Muğam-Musiqi Məktəbində şagirdim olmuş Vidadi Cəyirli ifaçılıqda, Şuşa Musiqi Kollecində tələbəm olmuş Müşviq Əhmədov X.Şuşinski ad. Ağdam Muğam-Musiqi məkətəbində və ifaçılıqda, Azər Babayev və digərləri ifaçılıqda çalışmaqdadırlar.

2013-cü ildən Mədəniyyət və İncəsənət Universitetinin "instrumental ifaçılıq" kafedrasında, "musiqi sənəti" fakültəsində çalışıram. Həmin ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüyəm.

Sevinirəm ki, musiqi mədəniyyətimiz üçün az da olsa, iş görə bilmişəm. Neçə illərdir ki, Milli Konservatoriyanın, kollec və musiqi məktəblərinin müəllimlərindən bir neçəsini, Mədəniyyət və İncəsənət Universitetinin, musiqi kollecləri tələbələrindən neçələrini "Misri" ansamblının tərkibinə gətirərək gənclərimizin musiqi sənətində püxtələşməsinə kömək etmişəm.

Ailəmdə məndən başqa da musiqiçilər vardır. Həyat yoldaşım Fəridə Mədət qızı Musiqi Texnikumunun fortepiano şöbəsini bitirib, uzun illər musiqi sahəsində dərs deyib. Hazırda təqaüddədir.

Böyük oğlum Anar Bakı Texniki Kollecini bitirib. O, çox istedadlıdır. Zərb alətlərində məharətlə çalır. Lakin başqa sahədə çalışır. 2006-cı ildə ailə qurub. Fəridə və Mədinə adında qızları var.



Oktyabr 2013-cü il. Mikayıl Rəhmanlı

Kiçik oğlum Mikayıl Bakı Texniki Kollecini bitirib. Qarmon çalmağı məndən öyrənsə də, Ənvər Sadıqovu özünə ustad sayır. Mikayıl qarmonçalan kimi fəaliyyətdədir. O, 2013-cü ildə ANS Müstəqil Teleyayım Şirkətinin "Kamerton" verilişinin instrumental ansamblının qarmonçalanı olub. Mikayıl 2010-cu ildə ailə qurub. Aişə adlı qızı var.

Qızım Nurayı Allah-təala mənim ad günümə hədiyyə verib. O həddən artıq istedadlıdır. Güclü musiqi duyumu olsa da, bu sahədə təhsil almasını məsləhət bilməmişik. Türk Litseyində təhsil almışdır. 2013-cü ildə Mədəniyət və İncəsənət Universitetini musiqili teatr rejissoru ixtisası üzrə bitirmişdir. Onun diplom tamaşası çox uğurlu olmuşdur.

Azərbaycan milli radiosunda mənim ansamblımın ifasında yazılmış xalq musiqisi nümunələri, bəstəkarlarımızın əsərləri və öz bəstələrim müntəzəm səsləndirilir. Bu sırada tarzən Sənan Əliyevin, qanun ifaçısı Gülşən Eyvazovanın, klarnet ifaçıları Hacı Həmidoğlunun, Elxan Səmədzadənin, Rameş Paşayevin, Aydın Murtuzayevin, balabançalan, əməkdar artist Fərhad Hüseynovun və nağara ifaçısı Heybət Babayevin solo ifaları əhəmiyyət daşıyır.

2008-ci ildə "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi", "Zakir Mirzə zirvəsi", 2010-cu ildə "Azərbaycanda klarnet ifaçılığı sənəti", 2012-ci ildə "Səhnəmizin Məcnunu Baba Mahmudoğlu" kitablarım nəşr üzü görərək yayılmışdır. Kitablarım ANS, "Space" və AzTV-də işıqlandırılmışdır.

2013-cü ilin fevral ayında Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə Musiqi Mədəniyyəti Muzeyində "Səhnəmizin Məcnunu Baba Mahmudoğlu" kitabımın təqdimetmə mərasimi keçirilmiş, televiziyaların mədəniyyət xəbərlərində işıqlandırılmışdır.

Xalq artisti Yaşar Nurinin (1951-2012) "Space" televiziyasında aparıcı olduğu "Unudulmazlar" verilişində rəhbərli olduğum ansamblın dəfələrlə çıxışları olmuşdur. Ansamblın müşayiəti ilə bir sıra müğənnilər və instrumental ifaçılar çıxış etmişlər.

Musiqi elmini sənət seçmişəm,
Özünəxas peşə yolu keçmişəm,
Peşəmə sadiqliyə and içmişəm.
Yenə yoldayam, geri qalmamışam,
Hələ sənətdəyəm, qocalmamışam.

Bu elmi-dəryadı, heç sonu yoxdu,
Kim nə qazanıbsa, bu baxtabaxtdı,
Yüksəlmək də bəzən ötəri taxtdı.
Sadə taxtımdan düşüb aşmamışam,
Hələ sənətdəyəm, qocalmamışam.

Bəzən təb gələndə aşıb-daşmışam,
Neçə-neçə nəğmələr də qoşmuşam,
Ad-san, şan-şöhrətdən uzaq qaçmışam,
Yazıb-yaratmaqdan yorulmamışam,
Hələ sənətdəyəm, qocalmamışam.

İllər keçdi ölkələrdə, səfərdə,
Uğurlu illərdə, həm də zəfərdə,
Musiqiylə oldum axşam, səhər də.
Elə arzum var, nail olmamışam,
Hələ sənətdəyəm, qocalmamışam.

Qəzaya düşəndə yaman darıxdım,
Sənət yollarıma, geriyə baxdım.
Qarmonu götürüb sinəmə sıxdım,
Hiss etdim, həvəsdən azalmamışam.
Hələ sənətdəyəm, qocalmamışam.

İndi də peşəmə sadiq qalıram,
Öz işimi sevib ilham alıram,
Qarmonu bağrıma basıb çalıram.
Ən uca nəğməmi mən çalmamışam,
Hələ sənətdəyəm qocalmamışam.

Yanvar – 2012-ci il, Ə.Rəhmanlı

Bəstəçi: Əhsən Rəhmanlı
Nota köçürən: Gülşən Mirzəbəyova

Çahargah dəraməd








Sentyabr 2011-ci il. "Space" televiziyasında xalq artisti Yaşar Nurinin 60-illik yubileyində. Ortada: Yaşar Nuri, Əhsən Rəhmanlı, Yaqub və Heybət Babayev

Bəstəçi: Əhsən Rəhmanlı
Nota köçürən: Gülşən Mirzəbəyova

Vətən təranəsi







Soldan: Müğənni Qara İsmayılov, xalq artisti Teymur Mustafayev və Əhsən Rəhmanlı

Əhsən Rəhmanlı

Segah rəngi

Nota yazan: Əlibala Ağayev



2.56. ÖMRÜNÜ PEDAQOJİ İŞƏ HƏSR ETMİŞDİR



İlham Abadov

O da çoxları kimi musiqini sevib ifaçılıq sənətinə gəlsə də, pedaqoji işi üstün tutub və bütün ömrü boyu bu sahədə çalışıb. Səbrli, dözümlü, sakit təbiətli, ağır adam olması onun musiqi müəllimi kimi uzun illər çalışmasına, dözüb tab gətirməsinə imkan verib.

İlham Meybulla oğlu Abadov 1950-ci il aprel ayının 2-də Bakının Bülbülə qəsəbəsində dünyaya göz açıb. Bu ailədə beş oğul boya-başa çatıb. İlk övlad İlhamdır. O, 1957-1965-ci illərdə Bülbüldəki 208 saylı məktəbdə təhsil alıb. 1964-67-ci illərdə Sabunçu qəsəbəsindəki mədəniyyət sarayının üçillik qarmon kursunda sənət öyrənib. Birinci kursda ona ilk sənət qaydalarını Əyyub Babayev (1932-1977) öyrədib. Sonrakı iki il ərzində isə İlhamın sənət müəllimi Əyyub Babayevin bacısı Tamilla Babayeva olub. Müəllimləri bu əxlaqlı, ciddi, bacarıqlı uşağın musiqi üzrə təhsili davam etdirməsini tövsiyə ediblər. İlham Abadov 1967-ci ildə 208 saylı məktəbin 8-ci sinfini bitirərək, Bakı Kitabxanaçılıq Texnikumuna (sonralar Bakı Mədəni Maarif Texnikumu, hazırda Bakı Humanitar Kolleci) "klub işçisi – özfəaliyyət xor kollektivi rəhbəri" ixtisası üzrə daxil olub. Qarmon sənətindən onun müəllimi Telman Musəvi və Kamil Cəlilov idi. Təhsil illərində İlham öz üzərində çalışır, televiziya və radiodan ifaçılarımızın çıxışlarını izləyir və özfəaliyyət ansambllarının məşqlərində, konsertlərində iştirak edirdi. O, texnikumda not biliyini də mükəmməlləşdirmişdi. Beləliklə, 1970-ci ildə texnikumu uğurla bitirən İlham Abadov qarmon ixtisası üzrə müəllim kimi tam hazır idi. Yeri gəlmişkən qeyd etməliyəm ki, İlhamgilin qrupunda istedadlı tələbələr çox idi. Onların əksəriyyəti sonralar musiqi müəllimi kimi fəaliyyət göstərdilər. Tar ifaçısı Vamiq Məmmədəliyev, qarmonçalan Firuz Babaşov və nağaraçalan Heybət Babayevin adlarını xüsusi qeyd etməliyik.

İlham Abadov əmək fəaliyyətinə 1970-ci ildən Qaraçuxur qəsəbəsindəki mədəniyyət sarayının qarmon sinfində dərs deməklə başlayıb. Düz 10 il burada səmərəli çalışaraq, musiqisevər uşaqların təlim-tərbiyəsilə məşğul olmuş və istedadlı şagirdlərdə qarmon sənətinə məhəbbət oyatmışdır. O, 1980-ci ildə 8 saylı uşaq musiqi məktəbinə dəvət olunmuşdur. İlham müəllim indi də həmin məşhur məktəbin qarmon sinfində dərs deyir. 8 saylı məktəb dünya şöhrətli bəstəkar Qara Qarayevin adını daşıyır və hazırda onbirillik musiqi təhsili verir.

İlham Abadov gənclik illərində cəmi 4-5 il ifaçılıq fəaliyyəti göstərmiş və toy şənliklərində çalmışdır. Onu pedaqoji iş daha çox özünə cəlb etmiş və ömrünü bu sahəyə bağlamışdır. O, 2003-cü ildə Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecinə dəvət olunmuşdur. Hazırda da burada qarmonun muğam ixtisası üzrə müəllimidir. İlham müəllim 2007-2011-ci illərdə Şuşa Musiqi Texnikumunda da (2011-ci ildən kollec) çalışmışdır. Bütün pedaqoji fəaliyyəti boyu onun yetirmələri saysız-hesabsızdır.

İlham Abadov 1977-ci ildə ailə qurub. Üç övladı və üç nəvəsi var.

2.57. QARMONUMUZUN VƏ MUSİQİMİZİN TƏBLİĞİ ONLARIN NİYYƏTİDİR



Rəhman Əsədullahi-Niyari

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycan televiziyasında hamının diqqətini cəlb edən maraqlı bir veriliş olmuşdu. "Vətən" cəmiyyətinin sədri, xalq yazıçı Elçin Almaniya səfərindən söz açır, vətən, millət aşiqi, musiqi vurğunu, əslən Cənubi Azərbaycandan olan qarmon ifaçısı Rəhmanla tanışlığından danışırdı. Qeyd edirdi ki, onun darısqal mənzilində, Güneydəki Azərbaycan türkləri kimi xalça, döşəkçə üstündə bardaş quraraq əyləşib, bu geniş ürəkli soydaşımızla söhbət etmək maraqlı və olduqca xoş idi. Söhbət əsnasında məlum olurdu ki, qarmonunu sinəsinə sıxıb el nəğmələrini, "Segah"ımızı yanıqlı, yanğılı hisslərlə çalan vətən nisgilli qardaşımızı emosiyasız dinləmək mümkün deyildi. Verilişdə Rəhmanın Almaniyada bir konsertdə çaldığı "Ana" mahnısını (bəstəkarı C.Cahangirov – Ə.R.) və "Segah" muğamını video görüntülərlə nümayiş etdirdilər. Qarmonçalan gözlərini yumub yanıqlı-yanıqlı çalırdı. Olduqca təsirli səhnə idi. Çoxları kimi mənə də təsir etmişdi. Sonralar ictimaiyyət arasında bu veriliş haqqında xeyli söhbət getdi. Uzaq diyarda, qərib ölkədə yaşayan Rəhman çoxlarının sevimlisi oldu, könüllərdə özünə yurd saldı.

1989-cu ildə Baba Mahmudoğlunun "Dastan" folklor ansamblında çalışırdım. Sentyabr ayı idi. Məşqlərimiz Azərbaycan Dövlət Filarmoniyasının binasında olurdu. Filarmoniyanın qarşısındakı lövhələrdə Almaniyadan gəlmiş Rəhmanın konsertinin elanları asılmışdı. Konsert filarmoniyanın yay salonunda olacaqdı. Günü dəqiq yadımda saxlamışdım. Məşqimizin biri elə həmin konsertlə eyni günə təsadüf edirdi. Məşqimizi bitirib yoldaşlarla konsert salonuna daxil olduq. Bütün yerlər dolmuşdu. Biz yoldaşlarla arxada, ayaq üstə durub dinləyirdik. Rəhman hər ifasından öncə şirin cənublu ləhcəsilə danışır və sonra çalırdı. Onun söhbətlərinin mövzusu o qədər təsirli idi ki, bütün konsert boyu təsirlənib ağladım. Qonağı Bakıdakı ansambllardan biri müşayiət edirdi. Haqqında söhbət etdiyim tədbir xeyli mənim xatirimdə qaldı.

Rəhman Süleyman oğlu Əsədullahi-Niyari 1951-ci il martın 1-də İranın Tehran şəhərində anadan olub. Əslən Cənubi Azərbaycanın Ərdəbil əyalətindəndir. Niyari onun təxəllüsüdür. Ərdəbilin Niyari kəndinin adını soyadına əlavə edib. Çünki əsli-kökü Niyaridəndir. Rəhmanın atası Süleyman 1940-cı ildə Tehrana köçmüşdü. 6 uşaqlı ailənin ikinci övladı Rəhman olub. O, 7 yaşında məktəbə gedib və 12 il təhsil alıb. Sonra universitetə daxil olub və tarix fakültəsində oxuyub.

Rəhman 10 yaşında qarmon çalmağa başlayıb. Ana tərəfdən bu nəsildə musiqiçilər olub. Böyük baba Əbdürrəhim və böyük bibi Xavər xanım qarmonçalan idilər. Onlar Ərdəbilin Üçdükan məhəllələrində yaşayıblar. Əbdürrəhim qarmon çalmağı öz atasından öyrənib. O vaxt onların qarmonu yarımtonsuz olub. Təbii ki, o dövrdə oralara usta qarmonu yox, yarımtonsuz qarmonlar gedib çıxmışdı. Odur ki, onların hər biri belə sadə quruluşlu alətlərlə sənət öyrənmişlər. Rəhmanın dayısı Məmiş də qarmonçalan olub. O, Ərdəbilin özündə yaşayıb, sonralar mərkəzə, Tehrana köçüb və burada dünyasını dəyişib. Məmiş də yarımtonsuz qarmonla sənət işlədib.

Rəhman dayısını görməyib.

Rəhmanın anası Məsturə Əbdü qızı da istedadlı idi, yaxşı qarmon çalırdı. O da yarımtonsuz qarmonla ifa göstərirdi. Rəhman əvvəllər qaval çalırdı. Qarmon çalmağı isə ona anası öyrətmişdi. Daha mükəmməl öyrənsin deyə onu Əliəkbər Əfrənginin yanına şagird qoymuşdular. Qeyd edək ki, Əfrəngi də əslən Cənubi Azərbaycanlı olub. Bakıda yaşayan, 1938-ci ildə Sovet dövlətinin başçısı Stalinin göstərişilə zorla İran dövlətinə göndərilənlərdən biri idi. Əliəkbər qarmon sənətini Bakıda öyrənmişdi. Tehranda uzun illər öz mənzilində və arzu edənlərin mənzillərində onların övladlarına qarmon ifası qaydalarını öyrətmişdi. O, ömrünün sonuna qədər bu işlə məşğul olmuşdu. Bu sətirlərin müəllifi 1994-1995-ci illərdə Tehran səfərlərində olarkən tanış olduğu və bu günə qədər dostluq etdiyi Rəsulun dilindən Əfrənginin adını eşitmişdi. O zaman Əfrəngi artıq dünyada yox idi. Rəsul qarmon ifası ilə həvəskar kimi məşğul olurdu, özü ali təhsilli mütəxəssis kimi baytarlıq sahəsində çalışırdı. O, söyləyirdi ki, Əfrəngi qoca kişi idi, bizə gəlib mənə qarmon çalmağı öyrədirdi.

Rəhman Ə.Əfrənginin ən sevimli, ən istedadlı və gələcəyinə ümid bəslədiyi şagirdlərindən biri idi. O, hiss edirdi ki, Rəhman qarmon sənətini hədsiz dərəcədə sevir. Odur ki, bu uşaqla xüsusi həvəslə məşğul olurdu. Rəhman Əsədullahi sənət meydanına çıxanda Tehranda və Təbrizdə akkordeon çalırdılar. Qarmon televiziyada, radioda, səhnələrdə görünmürdü. Bu alət oralarda hələ təsdiqini tapmamışdı. Bu alətin Tehran və Təbriz toylarında qəbul olunub sevilməsində Rəhmanın əhəmiyyətli rolu oldu. O, qarmonun əsl təbliğatçısı idi. İstedadlı soydaşımız qarmonu sevdiyi qədər sevdirə də bilirdi. Həsən Gilani də Tehranda yaşayır və qarmon çalırdı. Əslən Gilan əyalətindən olduğu üçün Gilani təxəllüsünü götürmüşdü. Həsən də bir zamanlar Bakıda yaşamış və burada qarmon sənətinə yiyələnmişdi. O da 1938-ci ildə Azərbaycandan köçürülənlərdən idi.

İrandakı akkordeon çalanlar bu aləti "koron" (1/4 səsli, çetvertli) edərək çalırdılar. Həsən Gilani və Əfrəngi də toylara "koron" akkordeonla gedirdilər. Orada yaşayan bir neçə qarmonçalanlarımız isə bizdəki səs sisteminə uyğun alətlə fəaliyyət göstərir və xalq musiqimizi, muğamlarımızı bu cür ifa edib sevdirirdilər.

Tarzən Əli Səlimi də Bakıdan İrana deportasiya olunmuş əslən cənublumuz idi. O, Bakıda bir musiqiçi, tarzən kimi yetişmişdi. Burada musiqi təhsili almışdı, Əhməd Bakıxanovun rəhbərlik etdiyi x.ç.a. ansamblının üzvü idi. İrana tam peşəkar musiqiçi kimi getmişdi. Orada bəstəkarlıqla da məşğul olmuşdu. Bakıdan gedərkən əvvəl 1 il Ərdəbildə yaşamış, sonra Tehranda məskunlaşmışdı. Burada Azərbaycan musiqisinə xidmət edən x.ç.a. ansamblı yaratmışdı. 1945-1946-cı illərdə mərkəzi Təbriz olan, S.C.Pişəvərinin rəhbərlik etdiyi Milli Hökumətin radiosunda (Təbriz radiosu) Bakıdan dəvət olunmuş bəstəkar C.C.ahangirovun yaratdığı, rəhbəri, dirijoru olduğu xorun, x.ç.a. ansamblının tarzən-konsertmeysteri Əli Səlimi olmuşdu. Ə.Səlimi sonralar istər Şah üsuli-idarəsi, istərsə də İran İslam Respublikası yarandığı dövrdə mərhələlərlə Tehranda və Təbrizdə yaşamışdı. 1984-cü ildə isə həmişəlik Təbrizə köçmüşdü.

Rəhman qarmonu bir milli Azərbaycan musiqi aləti kimi təsdiq etməyə çalışdığı, bunun x.ç. alətləri ilə birlikdə çalınmasının mümkünlüyünü, geniş imkanlara malik olduğunu sübut etdiyi ərəfədə Əli Səliminin köməyindən yararlanır. Axı ustad Əli Səlimi Bakıda yaşayıb çalışarkən Ə.Bakıxanovun ansamblının tərkibində qarmonu da görmüşdü. Tehranda yaşayan qarmonçalanlar yaşlı kişilər idilər. Bu sənətlə məşğul olsalar da qarmonu geniş auditoriyaya, səhnələrə, radiodakı orkestr və ansambllara gətirmək əzmində deyildilər. Bu çətin, keşməkeşli, şərəfli iş Rəhmanın üzərinə düşmüşdü. Odur ki, bu işi Tehranda ilk dəfə o, yerinə yetirdi. Hələ o zaman universitet tələbəsi idi. Mədəniyyət idarəsinə, bədii şuralara, radioda bu işlə məşğul olan səlahiyyətli şəxslərə müntəzəm müraciət edirdi. Şah hakimiyyəti dövründə Rəhman və nağara ifaçısı olan kiçik qardaşı Vəhidlə birlikdə bədii şurada baxış (imtahan) verdilər. Ustad Təcviri, ustad

Hənnanə onları diqqətlə dinlədilər, dəramədlərə, ranglərə, muğamlara, xalq havalarına diqqətlə qulaq asdılar. Onların rəyi əsasında qarmon televiziyanın və radionun ansambllarına daxil oldu. Rəhman 1 il Tehran teleradiosunun ansamblının qarmon ifaçısı oldu. Bu ifaçı artıq solo çalmaq səlahiyyətinə də malik idi. Rəhman ilk dəfə radioda canlı çıxış vasitəsilə Cahangir Cahangirovun "Ana" mahnısını və "Segah" muğamını ifa edərək bu təşkilata qəbul olundu. O zaman Tehranda Azərbaycan musiqisinə xidmət edən iki x.ç.a. ansamblı var idi. Bunların birinə Səfərəli Cavidi, digərinə Əli Səlimi rəhbərlik edirdi. Ustad tarzən Səfərəli də Azərbaycandan İrana deportasiya olunanlardan biri idi. O, da musiqiçi kimi Bakıda formalaşmışdı. Bakıda Sabunçu qəsəbəsində yaşamışdı.

Rəhman Əsədullahi Tehran radiosundakı ansamblın ştatda olan əməkdaşı kimi maaşla işləyirdi. O, Burada 8 il çalışdı. 5 il Rza şah rejimi, 3 il İslam Respublikası dövrünə təsadüf edir. Əvvəlki 5 il ərzində Rəhman müxtəlif yerlərdə verilən konsertlərdə də çıxış edirdi. O, tez-tez toylara da dəvət olunurdu. Toy məclislərində qarmonu dəfçalan və ya dəfçalan-xanəndə müşayiət edirdi. Azəri türklərinin bütün şənliklərində xalq musiqimiz ifa olunurdu.

Əli Səlimi 1978-ci ildə Rəhman və Vəhid Əsədullahi qardaşlarını, ustad tarzənlər Dastanpur və Musapur, dəfçalan Lətif Təhmasib, klarnet ifaçısı Bağır Savurai, müğənnilər Huşəng Oc Azəroğlu (hazırda Türkiyədə yaşayır), Həmid İbadi, Abazər və Rahilə xanımı Təbriz şəhərinə aparmışdı. Ansamblın alətləri Rəhmanın "si" köklü qarmonu ilə köklənirdi. Təbrizdə yaşayan mahir piano ifaçısı Rza Rəzəvi də ansamblın tərkibinə əlavə olunmuşdu. Əli Səlimi topladığı ansambl ilə Təbriz televiziyasında və radiosunda uğurlu konsertlər təşkil etmişdi.

Rza Rəzəvi Təbriz x.ç.a. ansamblının fortepiano ifaçısı idi. Hazırda Tehranda yaşayır və bəstəkarlıqla məşğul olur. Əli Səliminin yaratdığı ansamblın müşayiətilə Yaqub Zurufçu da oxuyurdu.

Rəhman 1987-ci ildə Almaniya ölkəsinə gedib və Hamburqda yaşayıb. 1998-ci ilə qədər burada məskunlaşan Əsədullahi Azərbaycan mədəniyyət mərkəzinin rəhbərliyində çalışaraq musiqimizin təbliğilə məşğul olub. O, bizim mədəniyyət və incəsənət xadimlərinin Almaniyaya dəvət olunmasında xüsusi fəalhq göstərib. Misal olaraq qeyd edə bilərik ki, Rəhmanın vasitəsilə xalq artisti Nəsibə Zeynalova, Cahangir Zeynalov, tarzən Fikrət Verdiyev, müğənnilər Könül Xasıyeva, Mələkxanım Əyyubova və digərləri konsertlərə dəvət edilmişdilər.

İstəkli soydaşımız ağır xəstəliyə mübtəla olub. O, onkoloji mərəzdən neçə dəfə əməliyyat olunub. Yüksək həyat eşqinə malik olan bu insan əzablara sinə gərərək xəstəliklə mübarizə aparır. ABŞ-a köçən R.Əsədullahi Kaliforniya ştatının Los-Anceles şəhərində yaşayır və qarmon ifaçılığından bir an da ayrılmır.

Bir müddət Amerikada yaşamış və Bakıya qayıtmış mahir nağara ifaçısı Tahir Nurməmməd oğlu Quluyevin (İçərişəhərli) söhbətlərindən: "1990-cı illərin sonlarında Rəhmanla əlaqələrim olub. O və həyat yoldaşı İkram xanım bütün varlıqları və düşüncələrilə vətənimizə bağlı insanlardılar. Onlar həyatlarını Azərbaycanın təbliğinə həsr ediblər. Hər ikisinin niyyəti, amalı Azərbaycan mədəniyyətinin geniş şəkildə tanınmasıdır.

Hyustonda yaşayan Azərbaycan türklərinin cəmiyyəti var. 2009-cu ildə Amerika-Türkiyə mədəni əlaqələri çərçivəsində Hyustonda festival keçirilirdi. Tədbir keçirilən məkanda Amerikanın və Türkiyənin bayraqları dalğalanırdı. Huystondakı Azərbaycan türklərinin cəmiyyəti istəmişdi ki, onlar da orada təmsil olunsunlar. Buna nail olmuşdular. Cəmiyyətin üzvləri soraqlaşıb Rəhmanı tapmışdılar. Mən Nyu-Yorkda yaşayırdım. Rəhman da məni tapmışdı. Orada xalq musiqimizdən incilər təqdim etdik. Azərilər Azərbaycan bayrağı tapıb gətirmişdilər. Amerika və Türkiyə bayraqları ilə yanaşı Azərbaycan bayrağı da dalğalandı.

1999-cu il mart ayında San-Fransiskoda Azərbaycan diasporu Novruz bayramı ilə bağlı tədbir keçirirdi. Konsert üçün Rəhmana müraciət olunmuşdu. O, orada yaşayan məşhur pianoçu,

bakılı Çingiz Sadıqovu, Bakıdan məni, müğənni Bilal Əliyevi, qoşa nağara və elektro-gitara ifaçısı Camaləddin Dadaşovu dəvət etmişdi. San-Fransiskoya çatıb yaxşı məşq edərək ansamblın repertuarını hazırladıq. Təşkilatçılar böyük konsert salonu kirayələmişdilər. İki möhtəşəm konsert verdik. Bir bilet 25 dollara satılırdı. Çox maraqlı keçdi. Konsertlərin video-disklərini əldə edib Bakıya gətirdik. Konsertdən sonra Rəhmanın sevincinin sərhədi yox idi."

Hazırda R.Əsədullahi öz ifalarını internet vasitəsilə dünyaya yayır. Onun ifalarından "Zabul-Segah", "Şüştər", "Bayatı-Şiraz" muğamlarını, C.Cahangirovun "Ana" mahnısını və xalq havalarını dinləmək mümkündü. Hazırda o, caz qrupu ilə birlikdə çalışır.

Rəhman Əsədullahi 1987-ci ildə ailə qurub.

Mahir qarmon ifaçısı və müğənni Hüseyn Həsənovun fikirlərindən: "Azərbaycanın "Vətən" cəmiyyətinin xəttilə 1987-ci ildə Almaniya ölkəsinə getmişdik. Qrupun tərkibində vətənimizin tanınmış şəxsləri, o sıradan müğənnilər Fidan və Xuraman Qasımova bacıları, Səkinə İsmayılova, qanun ifaçısı Vəcihə Səfərova, tar-kaman ifaçıları Malik və Elşən Mansurov qardaşları, nağaraçalan Elşən Qasımov və nəfəs alətlərimizi çalan Elşad Cabbarov da var idi. Köln şəhərində konsertlərimiz oldu. Olduqca maraqlı keçdi. Bu konsertlərə cənublu qardaşımız Rəhman da cəlb olunmuşdu. Onun solo çıxışına "Vətən" cəmiyyətinin rəhbərliyi icazə vermişdi. Konsertdə mənim də solom oldu. Bir konsertdə iki qarmon ifaçısının solo ifa etməsi, birinin Bakıdan gələn sənətkar, digərinin Almaniyada yaşayan musiqiçi olması xüsusi maraq oyatdı. Rəhmanla ilk tanışlığımızın əsası həmin səfər zamanı qoyuldu.

Həmin ölkəyə ikinci səfərimiz zamanı qrupun tərkibində Fərhad Bədəlbəyli, Xuraman və Fidan Qasımovalar, Alim Qasımov və onun tar-kaman müşayiətçiləri Malik və Elşən Mansurovlar, bəstəkar Vasif Adıgözəlov, aktyor Həsən Turabov və Mahnı və Rəqs ansamblının kiçik qrupu



R.Əsədullahi Bakıda bizim musiqiçilərlə televiziyada çıxış edərkən

getmişdi. Bu konsert proqramına da Rəhman Əsədullahinin solo ifası daxil edilmişdi.

Rəhmanla üçüncü görüşümüz Almaniya ölkəsinə Zeynəb Xanlarova ilə səfərimiz zamanı baş tutdu. Mən artıq o vaxtlar Zeynəb xanımın ansamblında çalırdım.

Almaniyada konsertimiz olacaq şəhərə çatarkən Rəhman bizi qarşıladı. Bu konsertdə o, tamaşaçı kimi iştirak edirdi. Onun həyat yoldaşı İkram xanım da konsertdə Rəhmanla yanaşı idi. Rəhman nağaraçalan Elşənlə məni evlərinə qonaq çağırdı. O və İkram xanım qonaqpərvərlik göstərdilər. O vaxtlar Rəhmanın xəstəlik dövrü başlamışdı, cərrahi əməliyyatlara məruz qalmışdı.

Onu da deyim ki, öz qarmonunun üstünə Azərbaycan bayrağını ilk dəfə həkk etdirən Rəhman Əsədullahi olmuşdur."

Xarici ölkədə qarmonumuzu, bütünlükdə musiqimizi təbliğ edən soydaşımız barədə məlumatı bizə çatdıran onun Tehranda yaşayan qardaşı Vəhid oldu. Bakıya gəlib bizimlə görüşən Vəhiddən fürsətdən istifadə edərək müsahibə aldıq. Qonşu ölkədə yaşayan, musiqimizə xidmət edən qardaşımızın fəaliyyətindən qeydlər zənnimizcə oxucularımız üçün maraqlı olar.

Vəhid Süleyman oğlu Əsədullahi 1960-cı il iyul ayının 1-də Tehran şəhərində anadan olub. Ailənin sonbeşik övladıdır. 1967-1979-cu illərdə mədrəsədə təhsil alıb. 10 yaşından musiqiylə məşğul olmağa başlayıb. Əvvəl qardaşı Rəhmandan dəf çalmağı öyrənib. Nağara çalmağa sonsuz həvəsi olduğu üçün bu peşəyə meyl edib. Dəf çalmaq onu qane etməyib. İlk dəfə əyani olaraq nağaranı Huşəng Zivədə görüb. Huşəng Zivə (əslən Zivə kəndindən) nağaranı öz qaydasında, diz üstə deyil, qıçları arasına alaraq çalırdı. Çünki əslində o, nağaraçı deyil, qavalçalan idi. Zivə Rəhmanın qavalçalanı olmuşdu. Qonşuya nağara gətirmişdilər. Rəhman onu qardaşına almışdı.

Vəhid televiziyada çıxış edən orkestrin tərkibində nağaraçalanı görüb seyr etmişdi. Həmin ifaçı milliyyətcə erməni idi.

Rəhman Əli Səliminin ansamblında çalırdı. O, Vəhidi ora apardı. Ansamblda nağaranı erməni çalırdı. Çünki Tehranda nağaraçalan azəri türkü yox idi. Əli Səlimi Vəhidə xeyli göstərişlər verdi, bu sənətə istiqamətləndirdi və şərait yaratdı ki, bu istedadlı uşaq ansambla gələrək bir nağara ifaçısı kimi yetişsin. Sonralar Vəhid Əsədullahi Tehranda nağaraçalan kimi az-çox tanındı, musiqiçilərlə tədbirlərə ("bərnamə"), toy-nişana getdi.

1990-cı illərin əvvəllərində Azərbaycan-İran sərhəd məntəqələrindən keçərək Güney Azərbaycan əyalətlərinə, Tehrana gedənlər vasitəsilə bizim sənət adamlarının ifası toplanan audio və video kasetlər aparılıb yayıldı. Vəhid ansamblar, orkestr tərkibindəki nağara ifaçılarının, məşhur ritm ustaları dəfçalan Əzizağa Nəcəfzadənin, nağaraçalan Zöhrab Məmmədovun çaldıqları sololoru toplanmış video-kasetlərin vasitəsilə çox şey öyrəndi və sənətini inkişaf etdirərək mükəmməlləşdirdi. Özünün etiraf etdiyi kimi əvvəllər sadə quruluşlu nağaraçalan olub. Bakıdan Tehrana gələn mahir nağaraçalanları yaxından, əyani şəkildə görüb dinlədikdən sonra ritm sənətinin incəliklərini mənimsəyib.

Onun dediklərindən: "1990-cı illərdə Bakı sənətkarlarından Tahir Quluyev, Səlim Quluyev və Almaz Quluyev Tehrana gəlirdilər. Onların hər biri mənim qonağım olublar. Bu nağaraçalanların sənətilə lap yaxından tanış oldum. Hər birinin çalğısından bəhrələndim. Belə sənətçilər mənimçün məktəb oldular. Almaz Quluyev hər dəfə Tehrana səfər edəndə ən əziz qonağım kimi bizdə qalırdı. Bəzən aylarla bizdə olub. Həmin anlarda mən belə böyük ritm ustasından ən kiçik xırdalıqlara qədər soruşub öyrənirdim. Mən nağarada forte, piano çalmaq məsələlərini də məşqlər əsasında formalaşdırmışam.

Ritm elə bir vasitədidir ki, bununla əslində musiqi ahəngindəki bütün cümlələri ən kiçik incəliklərə qədər müşayiət etmək mümkündür. Mən gözümü açıb farsları belə gördüm. Onların timpo (zərb) ifaçıları əvvəldən belə formalaşıblar."

Vəhiddən müsahibə götürərkən bu fikirləri lap mənim ürəyimdən oldu. Axı doğrudan da bizim



Vəhid Əsədullahi Tehranda Zakir Mirzənin televiziya konsertini müşayiət edərkən. 1993-cü il

nağarada musiqi əsərlərinin, dəraməd və rənglərin, lap elə oyun havalarının ən incə yerlərini belə çalmaq, gözəl, zərif ritmləri vermək mümkündür. Bir yazı müəllifi olaraq qeyd edirəm ki, artıq neçə illərdir ki, Baba Mahmudoğlu adına "Misri" x.ç.a. ansamblının bədii rəhbəri kimi bu musiqi heyətinin nağara ifaçısı Heybət Babayevdən bunu tələb edirəm. O da dediklərimi, əlavələrimi, tələb etdiklərimi bütün xırdalıqlarına qədər yerinə yetirir. Əlbəttə bu çox çətindir. Lakin məşqlər əsasında bunu almaq mümkündür. Nəticə çox gözəl olur. Toy şənliklərinin nağara çalmaq qaydası başqa, ansambl müşayiəti tamam başqadır.

Mətləbə qayıdaq. Vəhid Əsədullahi bu gün İranda nağarada ritmlərimizi bütün incəliklərinə qədər çala bilən, bunları nağaraçalanlar arasında təbliğ və tətbiq edən bir musiqiçimizdir. O, artıq 25 ildir ki, İran İslam Respublikasının Teleradio Verilişləri İdarəsində ikinci əsatit orkesinin (orkestr, ustadlar ansamblı) rəhbəridir. Orkesin 8 üzvündən biri də Vəhid özüdür. Ayda 2 dəfə bu qrupun televiziyada konsertləri olur. Vəhid Əsədullahi Azərbaycan musiqisi üzrə mütəxəssis kimi bədii şuranın üzvüdür. Azərbaycan musiqisi üzrə hər hansı tədbir, konsert üçün icazə alınmasında onun rəsmi razılığı əsas götürülür.

1993-cü ildə mahir qarmon ifaçımız, əməkdar artist Zakir Mirzənin İrandakı solo konsertlərinin təşkili üçün razılıq məsələlərində Vəhid Əsədullahinin mühüm rolu olmuşdur. Sənətkarımızın ilk böyük və uğurlu konserti Tehranın "Rudəki" sarayında baş tutmuş və böyük hadisəyə çevrilmişdir. Sonrakı, Təbriz və İsfahandakı konsertlər də yüksək coşqu ilə keçmiş, alqışlar və böyük sevgiylə qarşılanmışdı. Bütün konsertlərdə Zakir Mirzəni ustalıqla Vəhid Əsədullahi və Zakirin oğlu, zərb ifaçısı Firudun müşayiət etmişdi.

Vəhid Əsədullahi hər il Bakıya gəlib müxtəlif milli musiqi alətlərimizin mahir ifaçıları ilə görüşərək studiyalarda onların ifasını müşayiət edib disklərə yazdıraraq Tehrana aparır, bədii şurada təsdiq etdirərək, İran radiosuna təqdim edir. Həmin ifalardan Azərbaycan musiqisinin yayımlanmasında istifadə olunur. Vəhid qardaşı Rəhmanın ifası toplanmış diski də nəşr etdirərək yaymışdı. Bu diskdəki muğamlar, dəraməd və rənglər efirə verilir.

2.58. LƏNKƏRANIN YETİRMƏSİ



Rahim Abdullayev

Tarixən Lənkəran bölgəsi elm, maarif, sənət və istedad adamları ilə həmişə fərqlənmişdir. Zaman-zaman burada istedadlı musiqiçilər yetişmişdir. Burada qarmon sənətinə xidmət edənlər də az olmamışdır. Qarmon ifaçıları el şənliklərində, toy-büsatda, folklor festivallarında və məhsul bayramlarında xalqın sevimli sənət adamlarına çevrilmişlər. Belə ifaçılarımızdan biri də Rahimdir. Onun babası da, atası da qarmon sənətinə könül vermişdilər.

Rahim Məmmədhüseyn oğlu Abdullayev 1951-ci il yanvar ayının 1-də Lənkəran şəhərində dünyaya gəlib. Bu ailədə dörd qız, dörd oğul böyüyüb. Rahim üçüncü övladdır. Məmmədhüseyn Abdullayev Lənkəranda tanınan qarmon ifaçısı idi. O, el şənliklərinə ifaçı kimi xidmət etməklə bərabər Lənkəran mədəniyyət şöbəsində metodist vəzifəsində çalışıb.

Rahim qarmon çalmağı atasından öyrənib. Onun kosertlərdə, toylardakı ifalarını görüb bu sənətə daha çox bağlanıb. O, bundan əlavə radio və televiziyada çalan qarmon ifaçılarının sənətindən də layiqincə bəhrələnib. Rahimin fikirlərindən: "Ata tərəfdən nənəm Nənəbacı (əsl adı Tutu) xanım dövrünün sayılıb-seçilən qarmonçalanlarından biri olub. Lənkəran və ətraf yerlərin qız toylarının əsas musiqiçisi o, idi. Gözəl, məlahətli səsli "Karpuşkin" qarmonu olub. Bundan başqa bizdə Tula şəhərində istehsal olunan qarmon da var idi. 1968-69-cu illərdə nənəmlə bitlikdə toylara gedib nağaraçalan qızın müşayiətilə qarmon çalırdım".

Rahim musiqi təhsili almasa da istedadı, musiqiçi ailəsində boy atması və Lənkəran musiqi mühiti onun sənət aləmində pərvazlanmasına imkanlar yaratmışdı. Uşaqlıq, gənclik illərində o, Lənkəran şəhərində keçirilən toylara gedərək sənətkarları dinlər, xüsusilə Bakıdan dəvət olunan çalıb-oxuyanları eşitməkdən doymazdı. Hər ifaçıdan nəsə öyrənməsi nəticədə onu tam peşəkar qarmonçalan səviyyəsinə gətirib çıxarmışdır. Avtandil İsrafilovun ifalarını dinləməsi bu işdə onun üçün əhəmiyyətli dərəcədə rol oynamışdır.

Rahim 1977-2004-cü illər ərzində Lənkəran rayon mədəniyyət evinin "Şənlik" rəqs ansamblında müşayiətçi-qarmonçalan olmuşdur. Bu ansambl rayonda, Bakıda keçirilən dövlət tədbirlərində çıxış etmiş, keçmiş SSRİ-nin bir sıra respublikalarına konsertlərə göndərilmişdir. "Şənlik" ansamblı 1982-ci ildə Almaniya Federativ Respublikasında olmuşdur. Həmin səfərin iştirakçıları sırasında müğənnilərdən Xədicə Abbasova, Canəli Əkbərov və tarzən Həmid Vəkilov da var idi. Rahim Allahverdiyevin şəxsi arxivində səfərləri əks etdirən xeyli foto-şəkilləri seyr etmək mümkündür. Rahim 1971-ci ildə klarnetçalan Mübariz Vəliyev və nağaraçı Elçin Məmmədovla birləşərək toylara getmişdir. Sonralar xanəndə Əliyar Əmirov, klarnet ustaları Balakişi, Yüzbaşı, İsmayıl və digər sənətkarlarla yoldaşlıq etmişdir.

Rahim Abdullayev Lənkaranda yaşayıb fəaliyyət göstərən, Cənub bölgəsinin sevimli, populyar



Lənkəran musiqi üçlüyü el şənliyində. Sağdan: Məmmədhüseyn, Nəsir və Firudin



1980-ci illər. Respublika sarayında konsertdən öncə. Arxada Salyanın "Cəngi" zurnaçılar ansamblı, öndə Lənkəran musiqiçiləri - ortada Rahim Abdullayev.

müğənnisi olan Cavad Rəcəbovla birlikdə də çalışmışdır. O, 2012-ci ildən Cavadın ansamblının qarmonçalanı olmuşdur. Ansamblın klarnetçalanı Elman Liftiyev idi.

Abdullayevlər ailəsinin nümayəndəsi, bu şəcərəyə baş ucalığı gətirən, milli nəfəs alətlərimizin və klarnetin ən mahir ifaçılarından biri Hakim Abdullayev Rahimin qardaşıdır. Lənkəran torpağı Hakim kimi istedadlı və əvəzsiz sənətkarı Azərbaycana bəxş etmişdir.

Rahim Məmmədhüseyn oğlu 1974-cü ildə ailə həyatına qovuşmuşdur. Üç oğlu, maşallah on üç nəvəsi var. Böyük oğul Zamiq Lənkəran Musiqi Kollecinin tar, ortancıl oğul Namiq və kiçik oğul Nurlan həmin tədris müəssisəsinin fortepiano sinfini bitirmişlər.

2.59. QARMONUN TƏDRİSİ ÜÇÜN MÜHÜM İŞLƏR GÖRDÜ

Qarmonun tədrisində mühüm xidmətləri olan pedaqoqlardan biri Natiq Rəsulov olmuşdur. Aramızdan vaxtsız gedən bu insanın hələ nə qədər görüləsi işləri var idi. Sağ qalsaydı o, bu sahəyə yeni-yeni töhfələr verəcəkdi.

Natiq Məmmədsaleh oğlu Rəsulov 1952-ci il yanvarın 9-da Şəki şəhərində dünyaya gəlib. Beşuşaqlı ailənin ikinci övladı Natiq idi. Ailənin başçısı Məmmədsaleh Rəsul oğlu Abdulxalıqov mühəndis olub. Övladların anası Sayalı Məmməd qızı Abdullayeva kitabxana işçisi idi. Natiqgilin ana tərəfi ziyalılar nəsli olub. Böyük dayı Abdürrəhim Abdullayev S.Mümtaz adına Əlyazmalar İnstitutunun direktoru vəzifəsində çalışıb. Natiqin qardaşı Rəşid Abdulxalıqov 1955-ci ildə doğulub. O, Şəki Musiqi Kollecində müəllim işləyir.

Natiq lap kiçik yaşlardan musiqiyə meylli idi, eşitdiyi, yadında saxladığı mahnıları ağzında zümzümə edər, ev əşyalarını, masanı, kətili döyəcləyib ritm tutardı, guya nağara çalır. Sonralar da bu həvəs davam etmişdi. Həvəs göz önündəydi. Valideynlər də bunu görürdülər. Məmmədsaleh kişi Sayalı xanıma deyir: "Uşağı apar musiqi dərsinə qoy". Həmən vaxtlar Şəki şəhər pionerlər və məktəblilər evində (haz. uşaqların və gənclərin yaradıcılıq mərkəzi) Natiqgilin qohumu işləyirdi. Anası Natiqi tar dərnəyinə yazdırmaq istədikdə nəsə alınmayıb. Onu qarmon dərnəyinə qəbul ediblər. Görünür tale işi burada öz əhəmiyyətli rolunu oynayıb. İlk musiqi təlimini qarmon sənətilə başlaması çox sonralar bu işin onun fəaliyyətinin əsas hissəsinə çevrilməsinə, bu sahədə çoxlarının edə bilmədiyi dəyərli işlərə imza atmasına səbəb olacaqdı.

Natiq bir müddət qarmon dərnəyində dərs alır. Qarmon təhsilinin sonralar davamı olmayacağı prizmasından yanaşaraq ata-ananın razılığı ilə kamança sinfində məşğul olur. İstedadı güclü olduğu üçün Natiq qarmonu da, kamançanı da ifa etməyi yaxşı öyrənir. Onun ilk sənət müəllimi Kamal Məmmədov olmuşdur. Sonralar Şəki şəhər 1 saylı yeddiillik uşaq musiqi məktəbinin kamança sinfində oxuyarkən ona ixtisasdan Qurban Ələkbərov dərs demişdir. Natiq musiqi məktəbinin ən istedadlı, çalışqan və nümunəvi şagirdlərindən biri olmuşdur. O, UMM-ni 1967-ci ildə bitirmişdir.

N.Rəsulov 1959-cu ildə Şəki şəhər 12 saylı ümumtəhsil məktəbin birinci sinfinə daxil olub və 1968-ci ildə natamam orta təhsili uğurla başa vurub. Həmin il Əliəfsər Şəkili adına Şəki Musiqi Texnikumunun (haz. Musiqi Kolleci) kamança sinfinə daxil olub və 1971-ci ildə buranı müvəffəqiyyətlə bitirib. Oxuduğu illərdə 1 saylı UMM-də müəllimlik fəaliyyətində olub. Orta təhsil ocağında və musiqi məktəbində oxuduğu illərdə şagirdlərdən ibarət ansambllarda çalıb. Texnikum illərində isə rayon mədəniyyət evində Əliəfsər Rəhimovun rəhbərlik etdiyi x.ç.a. ansamblında fəaliyyət göstərib. Bu ansambl Şəkidə, kəndlərdə, ətraf rayonlarda konsertlər verir və respublika üzrə keçirilən müsabiqələrdə fərqlənirdi. Belə geniş fəaliyyət ansamblın gənc üzvlərini və bu sırada N.Rəsulovu mükəmməl musiqiçi kimi yetişdirirdi.

Natiq 1972-ci ildə Bakıya gəlir və Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının

xalq çalğı alətləri fakültəsinə daxil olur və təhsil almarla yanaşı 22 saylı UMM-nin kamança sinfində dərs deyir. O, Aqşin Quluyevin rəhbəri olduğu "Şənlik" x.ç.a. ansamblında çalaraq tanınmışları və gənc müğənniləri radioda, televiziyada və filarmoniyadakı konsertlərdə müşayiət edir. Onun səviyyəli kaman ifaçısı olması xalq artisti, virtuoz tarzən Hacı Məmmədovun diqqətindən yayınmır. Ustad tarzən onu Dövlət Filarmoniyasında yaratdığı x.ç.a. ansamblına işə götürür. Burada çalışması N.Rəsulovu Azərbaycan musiqi ictimaiyyətinə daha yaxşı tanıdır.

Dərin idrak və zənqin mənəviyyat sahibi Natiq istər ifaçılıq sənətində, istərsə də pedaqoji sahədə bacarıqla və vicdanla çalışırdı. O, 1977-ci ildən 2000-ci ilə qədər Sumqayıt Musiqi Texnikumunun müəllimi olub. Əvvəlcə kamança sinfində dərs desə də, 1984-cü ildən,texnikumda qarmon sinfi açılan andan bu sinfin ixtisas (not) müəllimi olmuşdur.O, 1998-ci idən Bakıdakı İncəsənət Gimnaziyasında da çalışırdı. 1999-cu ildə Mədəniyyət və İncəsənət Universitetində qarmon sinfi açılarkən burada da dərs deyirdi.

N.Rəsulov milli nəfəs alətlərimizin və klarnetin mahir ifaçısı Ələkbər Əsgərovun (1933-1995) Sumqayıt Musiqi Texnikumunda yaratdığı "Dügah" folklor ansamblın kaman ifaçısı olmuşdur.

Natiq konservatoriyada oxuyarkən kafedra müdiri, görkəmli bəstəkar, xeyirxah insan Süleyman Ələsgərov (1924-2000) da ona dərs demişdi. Bu insandan elm, bilik almaqdan əlavə Natiq onun səxavətli cəhətlərindən və xeyirxah əməllərindən də bəhrələnmiş və bu xüsusiyyətləri öz xislətində də yaşatmışdı. Süleyman müəllimlə Natiq arasında ən xoş və mənəvi dəyərlərə söykənən münasibət yaranmışdı. S.Ələsgərov öz mənzilində dərs keçərkən onları həmişə nahara da qonaq edərdi. Natiq tətil zamanı Şəkiyə gedərkən Süleyman müəllim semimli tələbəsi vasitəsilə onun valideynlərinə sovqat göndərərdi.

Natiq Rəsulov tədris müəssisələrində əsl pedaqoq kimi çalışaraq yaxşı kadrlar hazırlamışdır.



"Dügah" folklor ansamblı. Sağdan Natiq Rəsulov, ortada Ələkbər Əsgərov

O, Sumqayıt Musiqi Texhikumunda kamança üzrə dərs deyərkən Kazbek Əliyev, Abbasqulu Nəcəfzadə (haz. elmlər doktoru), Elşən Mansurov (haz. ə.a.), Fəridə Məlikova (haz. ə.a.), Azər Əliyev, Aida və Aybəniz bacıları, Xəyyam, Sevil Əliyeva onun yetirmələri olmuşlar. Natiq müəllim özü yaxşı kaman ifaçılarımızdan biri olduğu üçün tələbələrini də yüksək səviyyədə hazırlayırdı. Zəhməti hədər getməmişdi. Adlarını qeyd etdiyimiz kaman ifaçıları öz adlarını yaxşı musiqiçilərimiz sırasına yazmışlar.

Natiq müəllimin qarmon sinfində hazırladığı tələbələr də istər Sumqayıt Texnikumundakı təhsil illərində, istərsə də sonralar həmişə fərqlənmişlər. Bu sırada Ramil Nağıyev, Xaqani Səməd, Gülnarə Əliyeva, Cəmilə, Elnur Həşimov, Anar Abbasov, İlqar Talıbov, Könül Babayeva, Ulzana Məmmədova və Şirin Səlimovun adını qeyd etməliyik.

Ramil Nağıyev və Xaqani Səməd bu sətirlərin müəllifi ilə birlikdə Bakı Humanitar Kollecinin qarmon sinfində bacarıqla çalışırlar.

Qarmon üçün ilk dəfə 1997-ci ildə əsər yazan S.Ələsgərov olmuşdur. O, "Skerso" və "Lirik pyes"adlanan bu əsərləri sevimli yetirməsi və qarmonun not tədrisində əhəmiyyətli işlər görən N.Rəsulova vermişdi. Natiq müəllim qarmon üçün ilk qaranquş, ilk müşdə, ilk töhfə olan bu əsərləri ən sevimli və ən istedadlı tələbəsilə hazırlamaq qərarına gəlmişdi. Odur ki, o, Ramil Nağıyevin əsgərlikdən gəlməsini gözləməli olmuşdu. Ramil hərbi xidmətdən təhsilə qayıdan kimi Natiq müəllim S.Ələsgərovun hər iki əsərini onunla hazırlamış və nəticə uğurlu olmuşdu.

N.Rəsulov "Skerso"nun x.ç.a. otkestri üçün partiturasını da hazırlamışdı. Azərbaycanın tanımlı musiqiçilərindən biri (hazırda xalq artisti) N.Rəsulovdan qaytarmaq şərtilə partituranı almış, lakin qaytarmamışdı.

1995-ci il may ayında Sumqayıt Musiqi Texnikumunun zalında maraqlı bir konsert olmuşdu.



1996-cı il. N.Rəsulov Sumqayıt Musiqi Kollecinin tələbəsi Gülnarə Əliyeva ilə məşğələ zamanı

Bu qarmon sinfinin tələbələrindən biri Ramil Nağıyevin solo konserti idi. Konsertin sonunda N.Rəsulov tələbələri Könül, Gülnarə və Ramillə birlikdə özü də qarmon ifaçısı kimi çıxış etmişdi. O, tələbələrilə birlikdə xarici ölkə bəstəkarlarının əsərlərini hazırlamışdı. Hər kəs öz partiyasını çalırdı.

N.Rəsulov ömrünün sonuna qədər Sumqayıt Musiqi Texnikumunda (hazırda kollec) x.ç.a. şöbəsinin müdiri vəzifəsini icra edib. Həmin texnikumda qarmon üzrə ilk ixtisas-not müəllimi o olub. 1996-cı ildə N.Rəsulovun dəvətilə Gülağa Zeynalov bu təhsil müəssisəsində qarmonun not tədrisinə başlayıb. Natiq müəllimin kamança sinfini bitirən Natəvan Həşimova qarmonun not müəllimi kimi həmin texnikumda saxlanıb. Əsərlərin qarmon tədrisi üçün nota alınmasında Natəvan Həşimova həmişə Natiq müəllimə küməkçi olub.

Natiq müəllimin ən böyük xidmətlərindən biri musiqi əsərlərinin qarmon tədrisi üçün köçürülməsidir. O, əsərlərdə sağ əlin partiyasının daha zəngin səslənməsi üçün sol əlin klaviaturasına da xüsusi əhəmiyyət verir və onu hazırlayıb əsərdə-notda göstərirdi.

Bir sənətkar kimi o, xalq musiqisini və klassik musiqini gözəl bilirdi.

N.Rəsulov vaxtında öz işini görmüş, qarmon sənətinin inkişafı və onun tədrisi qarşısında dayanan problemlərin həlli yollarında mühüm addımlar atmış və nailiyyətləri imzalamışdı. O, Sumqayıt texnikumunda dərs dediyi illərdə qazandığı böyük təcrübə əsasında qarmonun not tədrisi üçün kitablar yazaraq nəşr etdirmişdir:

1."Qarmon məktəbi", Bakı-Çaşıoğlu, 1999-cu il.

2."Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi", I kitab.

3."Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi", II kitab.

4."Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi" (Xarici ölkə bəstəkarlarının əsərlərindən köçürmələr), Bakı-Çaşıoğlu, 2002-ci il.

Sumqayıt Musiqi Texnikumunda Natiq müəllimin qarmon sinfinin konsertmeysteri pianoçu Sevinc Mustafayeva idi. O, olduqca savadlı, bacarıqlı və çalışqan musiqiçidir. Natiq müəllim kitablarını yazarkən fortepiano müşayiətinin hazırlanmasında Sevinc xanımın xüsusi rolu olmuşdur. Ümumiyyətlə N.Rəsulovun qarmon üçün yazdığı tədris vəsaitlərinin hazırlanıb ortaya çıxması üçün Sevinc xanım əhəmiyyətli şəkildə kömək göstərib. O, Natiq müəllimimn ölümündən 2 il sonra onun məcmuəsinin nəşr olunması üçün təşəbbüs göstərmişdir. Natiq müəllimin tələbələri olmuş musiqiçilərlə söhbət aparan Sevinc xanım onlardan topladığı vəsait hesabına kitabın nəşrinə nail olmuşdur.

N.Rəsulov yetirmələrinin qəlbində öz hücrəsini qurmuşdur. Əbəs deyil ki, bütün tələbələri onu hörmətlə xatırlayırlar. Onun vaxtsız itkisi yalnız ailə üzvlərini, doğmalarını deyil, tələbələrini də yandırır. Bu sədaqətli, səxavətli və saf insanın yeri hər an görünür.



Xaqani Səməd

Xaqani Səmədin xatirələrindən: "Natiq müəllim mənə 3 il dərs deyib. İşə can yandırır, dərsin boş, səmərəsiz keçməsinə imkan vermir, hər birimizlə ciddi məşğul olurdu. Onun davranışında, hər əməlində xeyirxahlıq hiss olunurdu. Xeyirxahlıq və səxavət onun xislətində idi. Bakıdan, evdən səhər erkən çıxıb Sumqayıta çatır, 8.30-da qarmon ixtisası üzrə Natiq müəllimin dərsində olurdum. Ümumi dərslərimiz bəzən axşam saat 17.00-a,18.00-a qədər çəkirdi. Dəfələrlə olmuşdu ki, belə vaxtlarda dərsdən çıxıb evə gedərkən dəhlizdə mənə rast gələn Natiq müəllim qoluma girər, çantasını mənə verib deyərdi: - Yaman yorulmuşam, çanta da mənə ağırlıq edir. Onu al, götür, söhbət edə-edə gedək.

O, Sumqaayıtda yaşayırdı. Yaşadığı binaya catanda onunla xudahafizləşib getmək istədikdə məni buraxmır, yaşadığı mənzilə dəvət edirdi. Hər dəfə də süfrə açdırıb məni şam yeməyinə qonaq eləyirdi. Bişirilən Şəki pitisi o qədər dadlı olurdu ki...

Xeyli sonralar anladım ki, çantasının ağırlığını, yorğunluğunu bəhanə edib məni özüylə şam yeməyinə aparırmış. O, fikirləşirmiş ki, səhər tezdən evdən çıxan tələbə, axşam dərsdən Bakıya qayıdıb evə çatana qədər ac qala bilər. Qoy axşam yeməyini Sumqayıtda yeyib Bakıya rahat gedib çıxsın.

O, bizimlə müəllim-tələbə münasibətlərindən əlavə, dostluq münasibətləri də qurmuşdu. Allah o xeyirxah insana qəni-qəni rəhmət eləsin".



Ramil Nağıyev və Bakı Humanitar Kollecinin IV kurs tələbəsi İsa Həsənli

Ramil Nağıyevi dinlərkən: "Texnikumda oxuduğum illərdə Sumqayıtda kirayədə qalırdım. Muğam üzrə müəllimim Zakir Mirzəyev idi. O, Bakıda öz mənzilində dərs keçirdi. Natiq müəllim də bəzən ixtisas dərsimiz üzrə öz mənzilində məşğul olurdu. Deyirdi ki, bəzi not əsərləri var, evdədir, gəl bizə onlara birlikdə nəzər yetirək. Gedirdim, dərsi keçib qurtarandan sonra süfrə arxasında əyləşdirməmiş, təamlara qonaq etməmiş məni buraxmazdı. O, bilirdi ki,mənim valideynlərim rayonda yaşayırlar, Sumqayıtda kirayədəyəm, ola bilər ki, hər zaman isti ev xörəkləri yemirəm Mənimlə öz mənzilində dərs keçməsinin əsas səbəbi sən demə, məni ev xörəklərinə, Şəki pitisinə qonaq etməsiymiş.

Natiq müəllim tələbələrə hörmət və sevgiylə yanaşırdı. O, bizi həm ifaçılıq sənətinə və həm də pedaqoji sahəyə hazırladı. Onu unutmaq günahdır. Daim qəlbimizdə və xatirimizdədir. Həmişə Allahdan ona rəhmət diləyirəm".

Həqiqi pedaqoq, əsl vətəndaş, gözəl musiqiçi, nəcib insan N.M.Rəsulov 2000-ci il oktyabrın 24-də dünyasını dəyişmişdir. O, ailə üzvləri, müəllim yoldaşları və tələbələri tərəfindən daim xatırlanır. Çap etdirib qoyub getdiyi kitablardan tədris vəsaiti kimi istifadə edən şagirdlər, tələbələr və müəllimlər müəllif haqqında olan bölümə nəzər yetirdikdə onu yada salırlar.

O, az yaşasa da çox iş gördü.

N.Rəsulovun "Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi"ndən nümunə (Bakı, "Çaşıoğlu", 1999)

T.Quliyev

Sevinc mahnısı





2.60. ALLAHIN SEVİMLİ BƏNDƏSİ



Qəhrəman Eynullayev

Oçerkimizin qəhrəmanı Qəhrəmanla tanışlığımız 1969-cu ilə təsadüf edir. Bakının Montin qəsəbəsində Ağa Nemətulla küçəsinin başlanğıcında qonşu həyətlərdəki binalarda yaşayırdıq. Məhəllədə tez-tez rastlaşıb əhvallaşırdıq. Bir-neçə dəfə bir-birimizin mənzillərində olmuş, qarmon çalaraq ifa mübadiləsi etmişdik. Xatırlayıram ki, onun tünd qəhvəyi rəngli, iri həcmli, üç oktavalı gözəl səsli qarmonu vardı. Onu simli alətlər və qarmon ifaçısı Firudun Hüseynzadədən almışdı. Qəhrəmanla sonrakı illərdə "Filarmoniya bağı"nda rastlaşırdıq.

Qəhrəman Əhəd oğlu Eynullayev 1952-ci il fevralın 14-də Bakıda anadan olub. Bu ailədə beş uşaq böyüyüb. Qəhrəman üçüncü övladdır. O, 1958-ci ildə Hacıqabul qəsəbəsi yaxınlığında mövcud olan Muğan qəsəbəsindəki ümumtəhsil məktəbin 1-ci sinfinə daxil olub. Ailə o zaman həmin qəsəbədə məskunlaşmışdı. Əhəd Eynullayev orada zavod direktoru işləyirdi.

Qəhrəman 1960-cı ildən Montindəki 39 saylı ümumtəhsil məktəbdə oxuyub və buranı 1968-ci ildə bitirib.

Əhəd Eynullayevin qarmon çalmaq bacarığı da var idi. Evdə istirahət edərkən özü və ailəsi üçün çalırdı. Qəhrəmana da qarmon sənətinə həvəsi o, oyatmışdı. Qəhrəman 1962-1967-ci illərdə Bakı elektrik maşınqayırma zavodunun mədəniyyət sarayının qarmon sinfində oxuyub. Tanımlı musiqiçi, tarzən-pedaqoq Sabir Quluyevdən dərs alaraq qarmon sənətinə yiyələnib. Sabir Quluyev (1939-2001) sonralar elmlər doktoru,Azərbaycan Dövlət Pedaqoji İnstitutunda kafedra müdiri və professor oldu. O, elmi işi ilə əlaqədar Leninqrad (haz.Sankt-Peterburq) şəhərinə gedərkən Qəhrəman aşağı sinif şagirdlərinə qarmon dərsi keçirdi. Bu onun 4-cü, 5-ci siniflərdə oxuduğu vaxtlara təsadüf edirdi. Sabir müəllim mədəniyyət sarayının özfəaliyyət x.ç.a. ansamblına rəhbərlik edirdi. Qəhrəman seçilən, bacarıq göstərən, istedadı ilə fərqlənən və xüsusi həvəs göstərən uşaq olduğu üşün Sabir müəllim onu ansambla cəlb etmişdi. Həftədə iki dəfə keçirilən məşqlər, mədəniyyət sarayında, zavodun yataqxanasında verilən konsertlər, bayram tədbirlərindəki çıxışlar və baxış-müsabiqələr Qəhrəmanı qeyri-ixtiyarı peşəkar sənət üçün hazırlayırdı.

S.Quluyev Pedaqoji İnstitutda müəllimlərdən ibarət "Təhsil" adlı x.ç.a.ansamblı yaratmışdı. O, Qəhrəmanı da həmin ansambla cəlb etmişdi.

Qəhrəman 1969-cu ildə DİN-nin ştatda olan x.ç.a.ansamblında çalışmağa başladı. Ansamblın rəhbəri bəstəkar Bəxtiyar Kərimov gənc qarmonçalanın ifa səviyyəsini, qabiliyyətini yoxlayaraq ansambla götürmüşdü. SSRİ DİN-nin yaranmasının 50 illiyi münasibətilə Kremlin Qurultaylar sarayında keçirilən möhtəşəm tədbirdə Azərbaycan DİN-nin ansamblı da çıxış edərək laureat olmuşdu.

Qəhrəman sonralar qısa müddət ərzində Azərbaycan Dövlət mahnı və rəqs ansamblında və



Yuqoslaviyanın Sarayevo şəhərində. Soldan 2-ci qarmonçu Qəhrəman Eynullayev

L.Şmidt adına maşınqayırma zavodunun mədəniyyət sarayının "Çoşqun" özfəaliyyət rəqs kollektivində işləmişdir. Adlarını qeyd etdiyimiz yerlərdə işləməklə bərabər o, Neft və Kimya İnstitutunun Lenin komsomolu mükafatı laureatı "Gənclik" mahnı və rəqs ansamblının qarmonçalanı olmuşdur. O, burada 2005-ci ilə qədər çalışmışdır. Rəqs qrupunun rəhbəri məşhur rəqqas, əməkdar artist Kamil Dadaşov bir-birindən maraqlı rəqs quruluşları verirdi. Ansamblın müşayiətçisi olaraq Qəhrəman SSRİ-nin şəhərlərində, Yuqoslaviya, Polşa (3 dəfə), Çexoslovakiya, Macarıstan, Almaniya, Suriya, Hindistan, Nepal, Misir, Kipr, Yunanıstan, Türkiyə, İtaliya və Fransada olub.

Q.Eynullayev 1972-ci ildə İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinə daxil olub. 1974-1976-cı illərdə Xəzər Hərbi Dəniz Donanmasında xidmətdə olduqdan sonra təhsilini davam edib və 1979-cu ildə ali təhsili başa vurub. Qeyd etməliyik ki, institututda tarzən Adil Bağırovun (haz.xalq artisti)) rəhbərlik etdiyi x.ç.a. ansamblının üzvü olan Qəhrəman 1974-cü ildə, əsgərlikdən öncə ansamblın tərkibində Moskvada keçirilən Azədbaycan mədəniyyəti və incəsənəti günlərinin iştirakçısı olmuşdur. Ansambl paytaxtın müxtəlif yerlərində, həmçinin Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində konsert vermişdi. Q.Eynullayev institut illərində tələbələrdən ibarət rəqs ansamblının müşayiətçi-qarmonçalanı olub. Rəqsin rəhbəri Əliükram Aslanov idi.

Q.Eynullayev Neft və Kimya İnstitutunun yataqxanasında "Dostluq" klubunda bədii rəhbər, sonralar isə müdir işləmişdir.

O, 1969-cu ildən toy ansamblarının tərkibində el şənliklərimizin musiqiçilərindən biri olaraq geniş fəaliyyət göstərmişdir. Müğənnilərdən Məmməd Salmanov, Arif Babayev, Süleyman Abdullayev, Canəli Əkbərov, Sabir Mirzəyev, Yaqub Məmmədov, Sabir Novruzov, Rübabə Muradova, Teymur Mustafayev, Baba Mirzəyev, Bahəddin Fətəliyev, Vəliağa Tağıyev, Eldar



1970-ci il. Neft və Kimya İnstitutunun rəqs ansamblı. Aşağıda sağdan üçüncü: Qəhrəman Eynullayev

Səfərov, Solmaz Kosayeva, klarnet ifaçılarından ən çox Akif Qürbətov, Anzor Quluyev, Oqtay Dadaşov, Elxan Səmədzadə, Arif Gəndabılı ilə yoldaşlıq etmişdir. Bu insan demək olar ki, Azərbaycanımızın hər guşəsində və ətraf respublikalarda toy şənliklərində və konsertlərdə çıxış etmişdir.

Qəhrəman gənclik illərində, sənətə gəldiyi ilk dövrlərdə Yusif Heydərovun rəhbərlik etdiyi "Tərənə" gənclik ansamblında çıxış etmişdir. Həmin x.ç.a. ansambl Azərbaycan Teleradio Verilişləri Komitəsinin nəzdində fəaliyyət göstərirdi. Qəhrəman bir müddət "Şənlik" x.ç.a. ansamblında da çalışıb. Aqşin Quluyevin rəhbərlik etdiyi bu ansambl "Azərittifaq"ın nəzdində yaradılmış və geniş fəaliyyətə başlamışdı. Ansamblın Dövlət Filarmoniyasında və televiziyada konsertləri olmuşdu.

Bacarıqlı qarmon ifaçımız uzun illər məşhur xanəndəmiz, xalq artisti Teymur Mustafayevlə sənət yoldaşlığı etmişdir. Onlar birlikdə Azərbaycanı qarış-qarış gəzmişlər. 1999-cu ildə Teymur Mustafayevlə Şamaxının Cəbirli kəndinə toya getmişdik. Çox yaxşı çalıb-oxumaq oldu. Toydan sonra xanəndə belə bir fikir söylədi: "Əhsən müəllim, sənətdə olduğum böyük bir dövr ərzində dəstəmdə çox qarmonçalanlar olub. Bir dəfə Qəhrəman bizimlə bir toyda oldu. Hiss etdim ki, ayağı şüxumlu, qisməti uğurlu, xisləti xeyir-bərəkətlidir. Onu özümlə toylara aparmağa başladım. Ardıcıl bir-neçə toyda da ayağının ruzili olduğunun şahidi oldum. Beləliklə o, dəstəmdə ən çox, uzun illər fəaliyyət göstərən qarmonçalan oldu".

Əslində Teymur uzun illər mənim müşahidə etdiklərimi, çıxardığım məntiqi nəticəni, gəldiyim qənaəti təsdiq etmişdi. Bəli, həqiqətən şahid olmuşam ki, mənimlə eyni dövrdə sənətə qədəm qoyan, tay-tuşum olan Qəhrəman ilk anlardan meydanda olub, hamı tərəfindən qəbul olunub, əksər dəstələr onu özləriylə toylara, konsertlərə aparıblar. Demək olar ki, bu adamın boş güzəran keçirən vaxtı olmayıb. Onun ruzisi həmişə qarşısına çıxıb,öz ayağına gəlib, heç vaxt maddi



Polşaya gedən qrupun reklam üçün çəkilmiş şəkil. Aşağıda: Qəhrəman Eynullayev, Zaur Dadaşov, yuxarıda soldan Xalıq Dadaşov, Canəli Əkbərov, rəqqasə, Vidadi Paşayev və rəqqas



1993-cü il. Sağdan: Qəhrəman Eynullayev və Teymur Mustafayev İranın Urmiya şəhərində soydaşlarımızla birlikdə

çətinlik çəkməyib və həmişə yaxşı qazanc görürüb. Bu onun bəxt, tale yazanının, Allahın göndərdiyi ruzidir. O da bəzi uğurlu sənət ömrü yaşayan, bəxti özündən yeddi addım öndə gedib sahibini ardınca aparan sənətkarlarımızdandır. Bu gün də, bu yaşında da o,sənətdədir, qarmon əlində toy-büsatda, şən həyatdadır. Allah qüvvət versin!

Mən 1994-1995-ci illərdə İranın Tehran şəhərində çalışırdım. 1995-ci ildə Qəhrəman klarnetçalan Elxan Səmədzadə və nağaraçalan Nüsrət Fətəliyevlə Tehrana gəlmişdi. Bizim yaşadığımız hoteldə qalırdılar. Elə ilk günlərdən Tehran xanəndələri və çalğıçıları onu özlərilə toylara və qonaqlıq məclislərinə (bərnamələrə) aparmağa başladılar. Sanki onu uzun illər tanımış, müntəzəm birlikdə çalıb-çağırıb yoldaşlıq etmişdilər. İstər Bakıdan onunla birlikdə gələn öz yoldaşları, istərsə də Tehran musiqiçilərilə şənliklərə getdiyi üçün demək olar ki, onun boş vaxtı yox idi. Uzun illər yaxın həmkar, keçmiş məhəllə yoldaşı olaraq ruzili, bərəkətli, xoşbəxt sənət və ömür yolunu müşahidə etdiyim üçün ürəkaçıqlığı ilə onu Allahın sevimli bəndəsi adlandıra bilərəm.

Qəhrəman 1993-cü ildə xalq artisti, məşhur xanəndəTeymur Mustafayevlə İranda konsertlərdə olub. Onlar 1994-cü ildə də birlikdə Tehran və Kərəc şəhərlərində təntənəli tədbirlərdə, bərnamələrdə və toylarda olublar. O, xalq artisti Arif Babayevlə Daniyada, xalq artisti Canəli Əkbərovla Almaniyada, Ukrayna və Özbəkistanda, son dövrlərdə isə İranda səfərlərdə olub.

Onun çörək ağacı, dostu, sirdaşı qarmonu yenə onunladır. Qarmon bu gün də onun əlində səslənməkdədir.

Qəhrəman Eynullayev 1979-cu ildə ailə qurub. İki övladı var.

2.61. MUSİQİMİZİ XARİCİ ÖLKƏLƏRDƏ TƏMSİL EDƏNLƏRDƏN BİRİ



Faiq Əlibalayev

Musiqi aləmində çalışmağa başladığım dövrdən mən onu səliqə-sahmanlı ansambl qarmonçalanı kimi görüb tanımışam. Bunu elə həmdövr həmkarlarımız, yaş həddləri bizimlə uyğun olan musiqiçilərimiz də təsdiq edə bilərlər. Özü də ilk anlardan o, yaxşı, samballı, bütöv ifaçılığı ilə nəzəri cəlb edib. Mən onunla son dövrlərdə musiqiçilərimizin xeyirşər məclislərində rastlaşmış, qarşı-qarşıya, yaxud da yanaşı əyləşib həmsöhbət olmuşam. Onun mədəni davranışı, yüksək tərbiyəsi, əxlaq normalarına riayət etməsi, sadəliyi və ən əsası səmimiyyəti diqqətimi cəlb edib. Ondan bu yazı üçün müsahibə alarkən bu insanda kəşf etdiyim yüksək insani keyfiyyətlərin bir daha şahidi oldum. Həmkaralarına ürəkaçıqlığı, hörmət və ehtiramla yanaşan, hər birinin sənətini sevib bəyənən bu şəxsin qəlbinin saflığını duydum. Bir də onu dəqiq kəşf etdim ki, bu adam tam şəkildə paxıllıq hissindən və riyadan uzaqdır. Bu məntiqdən nəticə çıxararaq onun haqqında həvəs və məhəbbətlə yazıya istiqamət götürdüm.

Faiq Seyfəl oğlu Əlibalayev 1952-ci il avqust ayının 17-də Bakıda anadan olub. Ailədə iki oğul və bir qız boy atıb böyüyüb. Böyük oğul Azər, ikinci

oğul Faiqdir. Ata ikinci oğulun adını Baycan qoymaq istəmşdi. O, oğullarının adında doğma Azərbaycanımızın adını daim eşitmək istəyirdi. Sonra nədənsə fikrindən daşınıb ikinci oğluna Faiq adını vermişdir. Ailənin qız balası, gül kimi ətirli, nar çiçəyi kimi zərif, gözəl Gülnarə xanım şad xoşbəxt böyüyərək arzulara çatmış, yurnalist peşəsinə yiyələnərək əsl vətən övladı kimi yaşamış və fəaliyyət göstərmişdir. Bu gün də fəaliyyətdə və şərəfli yaşamaqdadır.

Seyfəl Əmir oğlu Əlibabayev (1914-1989) vokal səsli müğənni idi. O, Azərbaycan Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblı yaranan ilik anlardan orada çalışrdı. Pensiya yaşına qədər 40 il Azərbaycan Dövlət mahnı və rəqs ansamblında işləmişdir. O, 1938-ci və 1959-cu illərdə SSRİ nin pattaxtı Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünluyunun iştirakçısı olmuşdur. Seyfəl mehriban ailəsilə Bakının o zamankı dağlı məhəlləsində yaşayırdı. Onun həyat yoldaşı Hökumə Ələkbərova (1922-1993) ixtisasca həkim idi.O, Azərbaycanın səhiyyə sahəsində tanınan simalardan sayılırdı.

Seyfəl Əlibabayev 1941-1945-ci illər Sovet-Alman müharibəsində döyüşüb.Davadan sonra əvvəlki iş yerində çalışıb. Misirdə, Çində və başqa ölkələrdə sənət səfərlərində olaraq səs sənətini təmsil edib.

Faiqin xatırladıqlarından: "Atamın dostları arasında filarmoniyanın artistləri də var idi. Qarmonçalan Səttar Hüseynov (1929-1981), kaman ifaçısı Tələt Bakıxanov (1927-2007) və digər sənətkarlar bizə gələrdilər".

Faiqgilin yaşadığı məhəllədən xeyli musiqiçilər yetişib. Eyvazovlar ailəsinin nümayəndələrini misal olaraq göstərə bilərik: kaman ifaçısı, xalq artisti, professor Şəfiqə Eyvazova, qarmon ifaçıları Firuz Eyvazov, Vəzifə Eyvazova, udcalan Yasəf Eyvazov. Onlardan başqa da bu ərazinin musiqiçi yetirmələri olub.

F.Əlibalayev 1959-1969-cu illərdə 161 saylı ümumtəhsil məktəbdə oxuyub. Məşhur müğənnilər SSRİ xalq artisti Zeynəb Xanlarova və Azərbaycanın xalq artisti Nisə Qasımova və digər tanımlılar da həmin məktəbin məzunları olmuşlar. Nisə Qasımova Faiqdən bir sinif aşağıda oxuyurdu.

3-cü sinifdə oxuyan Faiqi uşaq musiqi məktəbinin skripka sinfinə qoymuşdular. Sınaq imtahanında əla qiymət almışdı. Uşağın musiqi məktəbinə qəbul olunmasına ata çox sevinirdi. Anası isə buna razı olmadı. Faiqin skripka sinfinə getməsi onun ürəyincə deyildi. Belə olan təqdirdə Seyfəl kişi oğlu üçün "Kazan" qarmon aldı. İstedadı qaynayan Faiq sərbəst olaraq qarmon çalmağa başladı. O da digər qarmon həvəskarlarımız kimi ustad qarmon ifaçılarımızın qrammafon vallarından, radiodakı konsertlərdən maqnitofona köçürülmüş lentlərdən öyrənirdi. 8-ci sinif şagirdi olarkən Faiq artıq xırda şadyana məclislərdə çalırdı. 9-cu, 10-cu siniflərdə oxuyarkən o, atasının dostu, Azərbaycan Dövlət mahnı və rəqs ansamblının aparıcı musiqiçisi, mahir qarmonçalan Səttar Hüseynovdan dərs alırdı. Məşğələlər məşhur sənətkarın evində keçirilirdi. Faiq ustad qarmonçudan "Şur", "Zabul-Segah", "Rast" və "Bayatı-Şiraz" muğamlarını öyrənmişdi. Faiqi dinlərkən: "Səttar müəllim muğamlarımızı yaxşı bilirdi. Lap o dövrün tar, kaman ifaçıları qədər muğam yollarına bələd idi. Özü də muğam ifaçısı kimi ustalıq göstərirdi. Çalırdı, dinləyib heyran olurdum.Onun evinə dərs almağıma getməyim belə olmuşdu; bir dəfə bizdə olanda atamın xahişilə o, mənim çalmağımı dinləmişdi. Soruşmuşdu ki, muğam bilirsən? Demişdim ki, yox. Elə bundan sonra atam məni ondan dərs almağa göndərmişdi. Səttar əmi bu işi təmannasız, dostluq naminə edirdi. Lakin mənimlə əsl ustad kimi, vicdanla məşğul olurdu".

F.Əlibalayev oxuduğu məktəbin özfəaliyyət ansamblında 1965-1969-cu illərdə ən fəal üzvlərdən biri olaraq bütün məşqlərdə və konsertlərdə iştirak edirdi. Ansamblın rəhbəri, fortepiano ifaçısı Yusif Səlimov tədbirlərdə, bayram konsertlərində Faiqin solo ifaları üçün şərait yaradırdı. Çünki bilirdi ki, Faiq çaldığı şən, oynaq rəqs havaları ilə tamaşaçı ovqatını yüksəyə qaldıracaq.

Ansambl məktəblərarası olimpiadalarda fərqlənirdi.

Faiq Əlibalayev orta məktəbi bitirib Politexnik İnstitutun memarlıq fakültəsinə qəbul olunur. Bir il təhsil aldıqdan sonra təhsildən uzaqlaşır. Onu yalnız musqi sənəti düşündürürdü. Elə institutda təhsil aldığı zaman oranın özfəaliyyət x.ç.a.ansamblında çalmışdı.

Qarmon sənəti, musiqi aləmi gənc Faiqi özünə tərəf çəkirdi. Böyük şairimiz M.Şəhriyarın şeirlərinin birində deyilir:"Şair ola bilməzsən, anan doğmasa şair". Anadan musiqi üçün doğulmalısan ki, musiqiçi olasan. Faiq dünyaya musiqiçi olmaq üçün gəlib. Elə ona görə də öz uğurlu sənət taleyinə qovuşaraq əsl musiqiçi oldu, ölkələri gəzib-dolandı, qarmonu bağrına basıb hey çaldı... çaldı...

F.Əlibalayev 1970-ci ilin yayında filarmoniyaya işə girdi, Azərbaycan Dövlət mahnı və rəqs ansamblının qarmonçalanı oldu. O zaman bu ansamblın bədii rəhbəri Adil Qafarov, baletmeyster Əlibaba Abdullayev, konsertmeyster tarzən Firudun Yarməmmədov idi. Burada çalışmaq Faiqə çox şey vermiş, o, peşəkar sənətə qovuşmuş və sənət adamı kimi yetişmişdi. O, 1971-ci ilin noyabr ayında Sovet ordusu sıralarına çağrıldı. Türkmənistandakı hərbi hissələrin birində xidmət edirdi. 1973-ci ilin noyabr ayında ordudan tərxis olundu.

Faiq 1974-cü ildə 8 saylı musiqi təmayüllü internat məktəbin qarmon sinfində dərs demək üçün dəvət olunmuş, burada cəmi bir il çalışmışdır. O, yenidən filarmoniyaya gəlmişdir. Səhnə, ifaçılıq sənəti onu özünə cəlb edirdi. Gənc və istedadlı qarmon ifaçısı əməkdar incəsənət xadimi, tarzən-bəstəkar Ağası Məşədibəyovun (1912-1984) rəhbərlik etdiyi "Azərbaycan tərənələri" x.ç.a.ansamblına işə düzəldi. Həmin məşhur ansambl tanımlı xanəndələr ; Teymur Mustafayev, Sabir Mirzəyev (1943-2011), Anatollu Qəniyev (1931-1985), Elmira Rəhimova, Niyaməddin Musayev, Zaur Rzayev, İlhamə Quluyeva və başqa sənətkarları müşayiət edərək filarmoniyada, Bakının mədəniyyət müəssisələrində, təhsil ocaqlarında, rayonlarımızda, SSRİ-nin ən iri şəhərlərində konsertlər verirdi. Ansambl heyətinin üzvləri tarzən Zamiq Əliyev (haz.x.a.), kamançaçı Kamil, klarnetçalan Tofiq Babayev (1942-2004), nağara ifaçısı Almaz Quluyev (haz.ə.a.), balabançı Kamil Allahverdiyev, pianoçu Yaşar, qoşanağaraçı Fərhad, udçalanlar Oqtay Babayev (1953-2011) və Sabir idi. 1975-ci ildə xalq artisti Zeynəb Xanlarova da dövlət konsertlərində bu ansamblın müşayiətilə çıxış edirdi. O, 1976-cı ildə bu ansamblın bir qrup üzvünü və başqa ansambllardan bir-neçə seçilən musiqiçiləri ətrafına toplayaraq özünə instrumental ansambl yaratdı. F.Əlibalayev də bu heyətə dəvət olunmuşdu. Həmin vaxtdan indiyə qədər Faiq bəy dünya şöhrətli müğənnimizi müşayiət edir.

F.Əlibalayevin xarici ölkəyə ilk səfəri 1977-ci ilə təsadüf edir. O, Qvineya-Bissau ölkəsində müğənnilər Elmira Rəhimova, Hüseynağa Hadıyev, tarzənlər Ramiz Quluyev (solist), Zamiq Əliyev, nağaraçalan Almaz Quluyev və bir-neçə digər musiqiçilərlə birlikdə çıxış edib. Faiq 1978-ci ildə Mozambikə səfər etmələrini də yaxşı xatırlayır. Bu ölkəyə müğənnilər Elmira Rəhimova, Teymur Mustafayev, kaman ustası Habil Əliyev (adı çəkilən sənətkarlar haz. x.a.-ləridir), tarzən İdris Səmədov və nağaraçalan Oqtay getmişdi.

1980-ci ildə Z.Xanlarova İspaniya ölkəsinə iki həftəlik səfər etmişdi. Onu orada öz ansamblıdan bir qrup müşayiət edirdi. Bu sırada klarnetçi Vəli Qədimov (1940-2009), tarzən Zamiq Əliyev, kaman ifaçısı Ədalət Vəzirov (1951-2002), nağara ifaçısı Almaz Quluyev, pianoçu Gülara Əliyeva və udçalan İbrahim Qasımov (1952-2009) getmişdi. Həmin səfərdə müğənni Akif İslamzadə də iştirak edirdi.

1981-ci ildə Zeynəb Xanlarovanın Əfqanıstandakı konserti böyük sensasiyaya səbəb olmuşdu. Müğənnini İspaniyada müşayiət edənlər Əfqanıstanda da onunla birlikdə idilər. Yalnız qoşanağara ifalısı Sadıq Zərbəliyev musiqi qrupuna əlavə olunmuşdu. Bura SSRİ-dən xeyli musiqi heyətləri gəlmişdi. Əfqanıstana Moskvadan SSRİ xalq artisti Moiseyevin rəqs ansamblı,



Ağası Məşədibəyovun rəhbərlik etdiyi x.ç.a. ansamblının konserti. Müğənni Niyamәddin Musayev. Sağdan ikinci: Faiq Əlibalayev



Z.Xanlarovanın rəhbərlik etdiyi instrumental ansamblın konserti. Önda Zeynəb Xanlarova, aşağı sırada sağdan ikinci Faiq Əlibalayev

Tacikistandan müğənni Corabek Muradov, Özbəkistandan rəqqasə Məleykə (onu dəflə əri müşayiət edirdi) və digər adlı-sanlı sənət admları göndərilmişdi. İki həftəlik səfərdə maraqlı konsertlər verilmişdi.

Zeynəb xanım 1982-ci ildə Yəmən ərəb ölkəsində 45 günlük səfərdə olmuşdu. Bu ərəfədə onun ansambl üzvləri arasında əməkdar artist, virtuoz qarmon ifaçısı Avtandil İsrafilov da (haz. x.a.) var idi. Müğənni Nizami İsmayılov da bu heyətin tərkibində Yəməna göndərilmişdi. Faiqin xatırladıqlarından: "Olduğumuz bütün səfərlərdə rəqqas və rəqqasəmiz də olurdu. əvvəllər Afaq Məlikova və Nəriman Kərimov göndərilirdi. Sonralar isə başqalarına da imkan yaradılırdı.

Uğurlu səfərlərdən biri də 1983-ci ildə olmuşdu. Z.Xanlarova ilə birlikdə Yunanıstana İslam Rzayev (1934-2008), rəqqas və rəqqasə də getmişdi. 14 günlük səfərdə verilən konsertlər bir-birindən gözəl, təmtaraqlı, gur və məzmunlu keçmişdi. Musiqi heyətinin hər bir üzvü, o sıradan Faiq vətənə zəngin təəssüratla qayıtmışdı.

Faiq 1984-cü ildə Zeynəb Xanlarova ilə birlikdə Şimali Afrika ölkələri olan Tunis və Əlçəzairdə olduqları səfəri də unutmayıb. Ansamblın tərkibində tarzən Fikrət Verdiyev də olmuşdu. Xanəndə, xalq artisti İ.Rzayev də heyətin tərkibində idi.

F.Əlibalayevin xarici ölkələrə sonrakı səfərləri Hollandiya, İsveç, Almaniya, İngiltərə (2 dəfə), Türkiyə, Zimbabve, Zambiya və Kuba ölkələrinə olub. O, əksər səfərlərdə Z.Xanlarova ilə olsa da, Zambiya və Zimbabvedə müğənnilər Baba Mahmudoğlu (1940-2006) və Nisə Qasımovanı,



Mozambik ölkəsinə səfərdə.
Faiq Əlibalayev və müğənni Teymur Mustafayev



Z.Xanlarovanın x.ç.a. ansamblı səhnədə. Ön sırada sağdan: Ə.Vəzirov, F.Əlibalayev, Z.Əliyev, yuxarıda sağdan: İ.Qasımov, A.Quluyev, V.Qədimov, Rafiq, Y.Səlimov, N.Dadaşov

Kubada isə Yaqub Məmmədov (1930-2002) və Züleyxa Mirismayılovanı müşayiət edib. Faiqin yol yoldaşlığı onunla səfərdə olanları həmişə qane edib.

İstedadlı qarmon ifaçımız 1991-1995-ci illərdə Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblda da çalışıb, neçə-neçə müğənnilərin səslərinin disklərə yazılmasında və televiziya konsertlərində iştirak edib. Həmin ansamblın tərkibində biz Faiqi televiziya konsertlərində dəfələrlə seyr etmişik.

Penn belə bir fikir söyləyib: "Hər bir insan müqəddəs tarixdir". Əlbəttə bunu hər adama aid etmək mümkün deyilsə də, bəzi adamlara aid etmək olar. Faiq də belə insanlarımızdandır. O, milli musiqi tariximizin bir hissəsidir. Bu şəxs görün neçə illərdir səhnədədir. Uzun bir zaman ərzində qarmonun ecazkar səslə insanlara mənəvi zövq bəxş edir. Onun toy-büsatımıza göstərdiyi xidmət zəngin olsa da qısa məlumat verməyə çalışdıq. O, ilk sənət addımlarını özündən yaşca çox böyük sənətkarlarla atıb. Bu sırada Həmid Məhərrəmov (1926-1985), Məlik Fərmanov (1918-1994), Həsən Məhərrəmov (1922-1982), Məhərrəm Zeynalov (1932-2005), Adil Bayramov (1932-1975) , Vəli Qədimov (1940-2009) və Tofiq Babayevin (1942-2004) adlarını çəkə bilərik.

F.Əlibalayevin xatirələrindən: "Toy-nişan məclislərinə ilk qədəmlərimi Həmid əmi ilə atmışam. Onun öyüd və nəsihətlərindən çox şey götürmüşəm. Mülayim təbiətli, əli düz, sözü düz olan bu kişi heç kəsin haqqını tapdamaz, heç kimin haqqını kəsməzdi. O, həmişə halallığı üstün tuturdu. Bu insan övladı yaşında olan, təzəcə sənətə çıxan musiqiçilərin onun yanında pərvazlan-



Azərbaycanın kənd zəhmətkeşləri qarşısında konsert. Sağdan: Zamiq Əliyev, Zeynəb Xanlarova, Faiq Əlibalayev, Vəli Qədimov, Almaz Quluyev və Fərhad. 1979-cu il

masına, qol-qanad açmasına imkan yaradırdı. Onu həmişə hörmətlə xatırlayıram".

F.Əlibalayev musiqi sahəsinə daxil olduğu ilk anlardan sağlam bir çığır başlayıb və tutduğu düz yolla addımlayıb. O, indiyə qədər də əkdiyi çiçəkləri bəsləyib. Düz yoldan sarpmayan, səmimiyyətdən uzaqlaşmayan bu insan öz adını nüfuzlu musiqiçilərimizin sırasına yaza bilib.

Hazırda toy sənətçiliyindən uzaqlaşsa da vaxtilə Bakımızın ən gur toylarında çalan musiqiçilərimizdən biri də Faiq olub. O, daha şox o dövrün şaqlıq saraylarında, restoranlarda keçirilən toyların (el arasında "kampaniya" adlanırdı) qarmonçalanı idi. Faiq uzun illər populyar müğənni Hüseynağa Hadıyevin (1946-1994) qrupunun tərkibində çalıb-çağırıb.

Deyirlər ki, illər dəyirman kimi üyüdür bizi. Illər çox insanları sınayır, çoxlarını keyfiyyətcə dəyişə bilir. SSRi adlı qüdrətli bir dövlət dağıldıqda, quruluş dəyişdikdə, keçid dövrü adlanan zamanla üz-üzə dayanaraq əlbəyaxa olduqda nə qədər insan simaca dəyişdi, nə qədəri insani dəyərləri itirdi. Musiqiçi olduğumuz üçün biz öz mühitimizi, öz əhatəmizi daha tez gördük, daha aydın hiss etdik və duyduq. Faiq bəy öz biçimində, öz əxlaqında, öz xislətində və öz dəyərlərində qaldı. Müxtəlif zaman kəsiklərində biz onu necə vardısa, elə gördük. O, öz saflığını qoruyub saxlaya bildi. Həm də o, şöhrətpərəstlikdən uzaq olan şəxsdir, mənəmlik duyğusuna malik olanlardan deyil. İstəsəydi indiyə qədər olan imkanlardan istifadə edib özünə şöhrət qazanar və geniş reklam oluna bilərdi. Təvəzökarlığı və sadəliyi onu bu işlərdən uzaqlaşdırıb.

Biz onu musiqiçilərimiz və qarmon ifaçılarımız arasında xoşbəxtlərdən sayırıq. O, uğurlu, mə-

nalı, məhsuldar və xoşbəxt sənət yolu keçib gəlib. Bu adam boy atıb böyüdüyü ailədə də, xidmət etdiyi sənətdə də, qurduğu ailədə də, nəsil davamçıları ilə də xoşbəxt olub.

Faiq Əlibalayev 1979-cu ildə ailə qurub. İki övladı, üç nəvəsi var. 2011-ci ildə ona Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı verilib.

Ondan bu oçerk üçün müsahibə alarkən sevimli sənətkarımız qəlbində Amerikadakı konsertlərin xoş duyğularını yaşayırdı. O, 2012-ci ilin mart-aprel ayında Zeynəb Xanlarova ilə ABŞ-ın Nuyu-York şəhərində olmuşdur. Orada bir-birindən dəyərli, fərəhdaşıyıcı iki konsert verilmişdir. Biz həmin konsertin çəkiliş lentlərini Azərbaycan televiziyasının yayımları vasitəsilə seyr etmişik.

Ansambl onun həyatı olubdur,
İli, günü, xoş saatı olubdur.
Dilində nəğmə-bayatı olubdur,
Qarmon çalmaq qol-qanaddı Faiqə.

Ilk gənclikdən səhnələrdə boy atıb,
Məşqlərdə gecəni gündüzə qatıb,
Pərvaz edib, böyük arzuya çatıb.
Qarmon çalmaq toy-büsatdı Faiqə.

Ömrü keçib konsertlərdə, səfərdə,
Saraylarda, hər rayon, hər şəhərdə,
Onu ucaldıbdır hər bir zəfər də,
Qarmon çalmaq şən həyatdı Faiqə.

Zeynəb Xanlarla gəzibdir dünyanı,
Şimal, Cənub, Şərqi, Qərbi, hər yanı,
Asiya , Avropa, Amerikanı.
Qarmon çalmaq şöhrət, addı Faiqə.

Xasiyyəti həlim, xisləti safdı,
Özünü qarmon sənətində tapdı,
İfadə millilik, şirinlik yapdı,
Qarmon çalmaq zövqdü, daddı Faiqə.

Hörmət, nüfuz qazanıb yaşa doldu,
Fəxri adla "əməkdar artist" oldu,
Düz əməllər, sədaqət onda boldu.
Xəbis hislər tamam yaddı Faiqə.

Ömrün çətinliklərini dəf etdi,
Əhsən onu tanıyaraq kəşf etdi.
Bu şeirlə o, Faiqi vəsf etdi,
Sözlə bir heykəl ucaltdı Faiqə.
Əhsən Rəhmanlı
19.11.2013

2.62. ADI ONA SƏNƏT BƏXTİYARLIĞI GƏTİRMƏDİ



Bəxtiyar Mədətov

Qədim çin mütəfəkkiri Konfutsi demişdir: "İnsan dünyasını dəyişdiyi zaman yox, onu son xatırlayacaq adam öləndə ölür". Haqlı olaraq deyirlər ki, insan xatirələrdə yaşaylr. Bu oçerkimizin qəhrəmanı barədə də böyük ilham və vicdanla yazı başladıq ki, o, elə sağlığındaca yaxşı-yaxşı xatırlansın. Kitaba nəzər yetirən, diqqətlə oxuyan musiqiçilərimiz onu yaddaşa gətirsinlər, yaxşı da xatırlasınlar. Doğrudan da o, xatırlanmağa haqqı olan musiqiçi, yada düşməli, anılmalı olan insanlardan biridir. Bu səmimi insanın ömrü nə qədər olacaqsa, bu Ulu Yaradana aiddir. Biz isə vicdanın səsini eşidərək elə sağlığındaca onun hörmətlə xatırlannasını istədik və bu qənaətimizdə səhv etmədiyimizi qət etdik. Təbii ki, o, sonralar da xatırlanacaq. Ən çox da doğmaları, əzizləri, nəsil davamçıları tərəfindən.

Bir yazı müəllifi olaraq qeyd etməliyəm ki, bu insan gənclik illərimizin sənət yoldaşı kimi sadəliyi, sakit təbiyyəti, tərbiyəsi, mənəvi saflığı, düzlüyü və enerjili qarmonçalan olmağı ilə yadımda qalıb. Elə ona görə də dəyər sahibi olan soydaşımız haqda rəğbətlə yazıram. Belə adamları cəmiyyətə, geniş oxucu kütləsinə tanıtmaq xeyirxah əməllər cərgəsindədir.

Bəxtiyar Mollaəli oğlu Mədətov 1953-cü il mart ayının 13-də Bakıda anadan olub. Mollaəli Ağagül oğlu Mədətov (1917-1997) milis orqanlarında çalışırdı. O, əslən qubalı idi. Onun xanımı, əslən bakılı Zibeydə Mirzəbaba qızı (1917-1979) həyat yoldaşına arxa-dirək olaraq dörd ciyərparəsini məhəbbət, qayğı və zəhmətlə əhatə etmişdi.

Ailənin üçüncü övladı Bəxtiyar elə kiçik ikən musiqiyə maraq göstərirdi. 5-6 yaşlarda o,evlərindəki qırmızı rəngli, 12 dilli, diatonik qarmonu tez-tez götürüb dartışdırır, balaca barmaqlarını alətin dillərinə toxundurub xırda-para havalar çalırdı. Təbii ki, bütün bunlar uşaqlıq şıltaqlığından, həvəsindən və balaca canında qaynayan istedadından əmələ gəlirdi. Boy atdıqca onun qarmon çalmağa həvəsi çoxalır, istedadı artırdı.

Bəxtiyar 1960-cı ildə 31 saylı məktəbə daxil olub. Sonra isə təhsili 39 saylı məktəbdə davam etdirib və buranı 1970-ci ildə bitirib.

Ailənin böyük oğlu Oqtay balaca qardaşının qarmon çalmağını daim fərəhlə qarşılamışdı. Həmişə də deyirdi:" Səndən bir şey çıxacaq, deyəsən sən bu işi bacaraqsan axı...". Odur ki, o, 1963-cü ilin sentyabr ayında qardaşı Bəxtiyarın əlindən tutub Montində hamının DK kimi tanıdığı mədəniyyət ocağına aparıb qarmon kursuna yazdırdı. Bura Bakı elektrik maşınqayırma zavodunun mədəniyyət və texnika sarayı idi. (haz. həmin binada "Cünəş" şadlıq sarayı fəaliyyət göstərir). Bəxtiyar istedadlı şagird olduğu və proqramı tez qavradığı üçün onu sinifdən sinifə keçirmişdilər. Beləliklə o, qarmon kursunu 1965-ci ildə bitirmişdi. Bəxtiyar burada Sabir Quluyev (1939-2001) və Əlibala Ağayevdən dərs alıb. Hər iki müəllim Bəxtiyarın musiqi qavrama qa-


biliyyətindən və dərsə davamiyyətindən razı qalırdı. Bəxtiyar muğamların əksəriyyətini, mahnıların bəzilərini və xalq oyun havalarını öyrənmişdi.Sabir müəllim qarmon sinfində təhsil alan şagirdlərdən ibarət ansambl yaratmışdı. Qarmonçalanlar ansamblı tez-tez valideynlər qarşısında və mədəniyyət sarayında keçirilən bayram tədbirlərində çıxış edirdi. Bütün bunlar ansambl üzvlərində musiqiyə həvəs oyadırdı. Bəxtiyar o günləri iftixar hissilə və saf duyğularla xatırlayır. Onun "Kazan" qarmonu əlindən yerə düşməzdi. Evdə hey çalıb məşq edərdi. 1965-ci ildə ona Tula şəhərindən qarmon alınmışdı. Bu qarmonçu Vahab Səmədovun oğlu Fərhad vasitəsilə olmuşdu. Fərhadgil Şüvalında, Hacı Mohsüm bağlarında Bəxtiyargillə bağ qonşusu idilər. Bağ evi Fərhadın bibisinin idi. O, tez-tez bibisigilə gələrdi. Gələndə qarmonunu da gətirərdi. Fərhad gənclik illərindən sənət meydanında tanınırdı və qarmonu çox yaxşı çalırdı. O, bağa gələndə çal-çağır olardı. Qonşular qarmon səsinə toplaşar və şadyanalıq yaradardılar. O zamanlar bağlar arasında hasarlar mövcud deyildi. Bir hay çəkən kimi hamı bir-birini eşidir, bir yerə toplanırdı. Bağ qonşuları arasında düzlük, sədaqət və mehribanlıq hökm sürürdü. Bəxtiyar çal-çağır anlarında mütləq mənada fəal olardı. Bəs necə, axı o, qarmon səsinin vurğunu idi, onu sehrləmiş bu səsin çevrəsindən çıxa bilmirdi. Bəxtiyar Fərhad Vahaboğluna lap yaxın məsafədə əyləşər, diqqətlə tamaşa edər, dinlər və görüb-götürməyə çalışardı. Camaat dağılışıb gedəndən sonra Fərhad Bəxtiyara maraq verən söhbətlər edər, toy sənətkarları haqqında bildiklərini danışardı. Bunlar 1967-68-ci illərə təsadüf edərdi. Avtandil İsrafilov barədəki söhbətlər Bəxtiyar üçün daha məraqlı idi. Çünki, Avtandil o dövrlərdə artıq tanınır və bütün cənc qarmonçalanlar tərəfindən sevilirdi. Bəxtiyar Avtandil haqda eşitdikcə sənət həvəsi daha da yüksəlirdi.

Bəxtiyar ev məşqlərində Teyyub Dəmirov və Məmmədağa Ağayevin ifası toplanan lentləri müntəzəm olaraq dinlər və onlardan öyrənərdi. Bundan əlavə o, Zakir Mirzə, Həmid Haqverdiyev, Vaqif Şıxıyev və Avtandilin ifalarından bəhrələnirdi. Zakirin "Muğam və rəqs"ini eşitməkdən doymaz və hər dəfə ilham alardı. Bu əsəri öz ifasında mükəmməlləşdirərdi. Adı çəkilən sənətkarlar dəbdə olsalar da, gənc Bəxtiyar Məmmədağa Ağayevin üslubunu seçmiş, bu ifa yolunu öz çalğısında qüvvətləndirmişdi. Bəxtiyarın barmaqları iti idi, ən cəld rəqs melodiyalarını asanlıqla çalırdı. Məmmədağa kimi bir ustadın ifa yolu, vurduğu barmaqlar və xallar bu gəncin ifasında yaxşı alınırdı. O, H.Haqverdiyevin rəqs melodiyalarını da öz repertuarına gətirmişdi. "Qarabağ" rəqsinə isə xüsusi önəm verirdi.

B.Mədətov peşəkar sənətə 1969-cu ildə gəlib. Özü də xüsusi həvəs, böyük arzu-istək və güclü enerji ilə. Yaşıdları olan musiqiçilər onun ifasını bəyənir və hər yerdə tərifləyirdilər. Əslində elə onun çalğısını dinləyən hər kəs gedib orada-burada onun bacarığı haqda xoş sözlər danışırdı. O, gənc sənətçilərin, həmkarlarının diqqətində idi, yoldaşları ilə toy şənliklərinə gedirdi.Bəxtiyar 1969-70-ci, 1972-ci illərdə Türkmənistan Respublikasının Mari, Bayraməli və Yolatan şəhərlərində sənət fəaliyyətində olub. Burada yaşayan azəri türklərinin toylarında da qarmonunu səsləndirib.

Oçerkin bu yerində haşiyə çıxmalı oluram. Bəxtiyarın gənclik illərindən indiyə qədər sadiq dostu,tanınan ifaçımız, nağara sinfinin müəllimi, Heybət Babayevin xatirələrindən: "Bəxtiyar ilk sənət addımlarını birlikdə atdığı, çörək kəsdiyi, yaxın yoldaşlıq etdiyi insanlara doğmalığı, sədaqətilə həmişə seçilib. Yaxşı yadımdadır, 1977-ci il idi, nişanlanmışdım. Bu arada qəfildən maddi durumum çətinləşdi. Qazana bilmirdim. Görünür Allah-təala məni sınağa çəkirmiş. Həmin vaxtlar Bəxtiyar Türkmənistan toylarındakı qazancından mənə pul göndərirdi".

B.Mədətovun yüksək ifaçılıq qabiliyyətini nəzərə alıb onu filarmoniyaya işə qəbul etdilər.O, 1971-73-cü illərdə Azərbaycan Dövlət mahnı və rəqs ansamblının qarmonçalanı olub. Bəxtiyar bu kollektivdə işləməkdən böyük zövq alır, məsuliyyət hiss edir və ifaçılıq bacarığını artırırdı. Ansamblın aparıcı musiqiçisi, qarmon sənətimizin öncüllərindən biri, bu sənətə öz töhfələrini



13.07.1972-ci il. Filarmoniyanın yay zalında Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının konserti. Aşağı sıradan soldan dördüncü Bəxtiyar Mədətov və ustad qarmonçu Səttar Hüseynov

verən Səttar Hüseynovla (1929-1981) çiyin-çiyinə çalışmaq fərəhli olduğu qədər də məsuliyyətli idi. Belə ustad qarmonçalanla birlikdə işləmək, müntəzəm alaqədə olmaq gənc Bəxtiyara çox şey vermiş, təcrübə qazandırmışdı. Təbii ki, ondan öyrənməli incəliklər kifayət qədər dəyərli və lazımlı idi. Bəxtiyarın dediklərindən: "Səttar Hüseynov mahnı və rəqs ansamblı üçün yaranmışdı.Bu kollektivdə onu indiyə qədər heç kim əvəz edə bilməmişdir. Onun ifası bu ansamblın repertuarına xüsusi gözəllik gətirirdi. Repertuarı da əla bilirdi. Biz onunla filarmoniyada verilən konsertlərdə, dövlət tədbirlərində, rayonlara səfərlərdə birlikdə olmuşuq. Kolxoz və sovxozlarda, hətta çobanların yaylaqlarında, alaçıqlarda konsert vermişik. Səttar əminin qarmonunu Karpuşkin düzəltmişdi. Bu alətin qəribə və möcüzəli səsi var idi. Qarmonun səsi məni valeh etmişdi. Bir dəfə ondan xahiş edib qarmonunu alıb evimizə gətirdim, bir gün çaldım və yenə həmin səsdən doymadım".

B.Mədətov mahnı və rəqs ansamblında bir müddət idi ki, işləyirdi, onun qarmonu oğurlanmışdı. Məşqlərdə bekar oturur, konsertlərə gedə bilmirdi. Özünə alət alana qədər ona müvəqqəti işlətmək üçün qarmon lazım idi. Bəxtiyarın dilindən eşitdiklərim: "Avtandil dəbdə, dildə-ağızda olan hörmətli sənətkar idi. Haqqında maraqlı söhbətlər eşidilir, xeyirxahlığından danışılırdı.

Musiqiçilərin filarmoniya bağına toplaşdığı saatlar idi. Ona yaxınlaşıb vəziyyəti danışdım və xahiş etdim ki, imkanı varsa, özümə qarmon tapana qədər, kömək məqsədilə mənə qarmon versin. Dedi: - Hə, eşitmişəm, qarmonu oğurlanan sənsən? Yaxşı, sabah bizə gəl, sənə qarmon verim, apar çal.

Səhərisi gün onun evinə getdim. Üçtəkər, nənnili motoskletlə getmişdim. Motoskleti görən kimi həvəsləndi və çoxdan motosklet sürmək arzusunda olduğunu bildirdi. Dedi ki, bir dəfə bizə gələrsən, mən də sürərəm. Halbu ki, onun o zaman ən dəbdə olan "QAZ-21" markalı avtomobili var idi.

Avtandil xeyirxahlıq göstərərək müvəqqəti işlətmək üçün mənə yaxşı bir qarmon verdi".

1972-ci lidə Dövlət Filarmoniyasından iki rəqqas və iki musiqiçi Qzaxıstan Respublikasının Ust-Kamenoqorsk şəhərinə göndərilmişdi. Rəqqas Kamil Dadaşov, rəqqasə Tamilla Ağayarova qarmon və nağaranın müşayiətilə çıxış edirdilər. Qarmon ifaçısı B. Mədətov, nağaraçalan Fəxrəddin Məmmədov (1954-2011) idi. SSRİ respublikalarından gəlmiş rəqs kollektivlərinin çıxışları maraqla qarşılanırdı. Tədbirə SSRİ xalq artisti, dünya şöhrətli baletmeyster İqor Moiseyev rəh-



Toyda. Sağdan: Rəşid, Bəxtiyar, Akif və Heybət

bərlik edirdi. Tədbirin həlledici anında, konsertin 1-ci hissəsində digər respublikalardan gələnlər, 2-ci hissədə isə İ.Moiseyevin ansamblı şıxış etmişdi. Ən kiçik heyətlə konsertə qatılan Azərbaycan artistlərinin çıxışı uğur almış və fasiləsiz alqışlarla qarşılanmışdı.

Dünyada sivilizasiya bərqərar olandan bəxt, tale anlayışı da mövcudluğunu davam etdirmişdir. Bu bir aksiomadır ki, insan həyatında bəxt xüsusi rol oynayır. Bu barədə dünyanın ən böyük mütəfəkkirləri fikirlər söyləmişlər. Bəxt məsələsinə ən çox inananlardan biri elə bu sətirlərin müəllifidir. Keçdiyi keşməkeşli, təlatümlü, çətin, təzadlı və ağrılı ömür yolları onu naxış, tale məsələlərinə inandırıb. İfaçılıq sənətində onun bəxti gətirməmişdir. Bu barədə ayrıca danışmaq, ayrıca səhifə açmaq olar. Bu ayrıca mövzudur. Mətləbə keçək. Bu oçerkimizin qəhrəmanının da sənət bəxti uğursuz olmuşdur. Necə deyərlər "şans"ı tutmamışdır. O, həqiqətən sənət aləminə istedadla və sonsuz həvəslə gəlmişdi. Əgər sənət taleyi uğurlu olsaydı o, bu gün meydanda olan qarmonçalanlarımızdan birinə çevrilərdi. Lakin belə olmadı. Heyfsilənməyə isə dəyməz. İstedadı da, bəxti də, taleyi də, uğuru da, ömürü də verən Allahdır. Ona görə də dilimizdə belə söz işlənir:-Allah özü bilən məsləhətdir.

Valideynlər ona gözəl ad vermişdilər: - Bəxtiyar! Bu ad sahibinin adında şən, vüqarlı səslənsə də onun sənət bəxtiyarlığında özünü doğrulda bilmədi. Halbuki, onun sənət ovqatını dəli dağ çayına bənzətmək olardı. Bu adamın çox güclü qabiliyyəti var idi. Sənət məhəbbəti də öz yerində. Yazımızın əvvəlində qeyd etmişəm ki, Bəxtiyarın qismətinə düşən istedad dərəcəsini yaxın ətrafı kəşf etmişdi.

B.Mədətov qarmonun tədrisində də özünü sınayıb. O, 1974-1982-ci illərdə Sumqayıt şəhərindəki S.Vurğun adına mərkəzi mədəniyyət sarayının qarmon sinfində dərs deyib və müəllim kimi özünü doğruldaraq tədrisdə yetirmələrilə seçilib. Onun şagirdləri yay və buraxılış imtahanlarında həmişə yuxarı səviyyələrilə fərqlənirdilər.



1978-ci il. Bəxtiyar Mədətov Sumqayıt şəhərindəki S.Vurğun adına mədəniyyət sarayının qarmon kursunda dərs zamanı

Bəxtiyar1982-84-cü illərdə yenidən Dövlət Filarmoniyasında, mahnı və rəqs ansamblında çalışmış və xeyli sayda konsertlərdə olmuşdur.

Belə bir layiqli insanın, yaxşı musiqiçinin fəaliyyətini əhatə edən oçerki yazmaqdan olduqca məmnunam, qürur duyuram və iftixar hissi keçirirəm.

Bəxtiyar Mədətov 1980-ci ildə ailə qurub. İki övladı və iki nəvəsi var.

2.63. SƏNƏT YOLUNU SALYANDAN ALDI



Böyükağa Qurbanov

Bir musiqiçi kimi onu əvvəl Salyan, sonra isə Bakı musiqi mühiti yetirib. Qarmon onun əlində əsl milli üslubda danışır. Çünki az yaşlardan Salyanın mahir qarmon ifaçıları Rza Şıxlarov və Əflatun Ağayevin toylardakı, Teyyub Dəmirov, Məmmədağa Ağayev, Abbas Abbasov və digər böyük sənətkarların radiodakı ifaları onun ruhuna hopub zehninə həkk olunaraq sonralar barmaqlarına süzülüb gəlib. Adlarını qeyd etdiyimiz sənətkarları milli qarmon bağçamızda açılan qızıl güllərə bənzətmək olar. O da bu ətirli güllərdən dərərək, hər gülün də təravətini sinəsinə çəkərək belə zəngin bağçadan ətirlənmişdir. Sonralar Zakir Mirzənin də, Avtandil İsrafilovun da və digər mahir sənətkarların da sənət bağçasına daxil olmuş, onlardan da şirə çəkmişdir. Beləcə öyrənə-öyrənə gəldikcə bir vaxt gözünü açıb özünü sənət aləmində hiss etmiş, bu çevrədən çıxa biməyəcəyini dərk edib duyduqca daha artıq məsuliyyətə qapılmışdır. Nəhayətdə seçkin sənətkarlardan birinə çevrilmişdir. Elə buna görə də onun barəsində yazmaya bilməzdik.

Böyükağa Tofiq oğlu Qurbanov 1953-ci il aprelin 3-də Salyanda anadan olub. Bu sadə, işgüzar, zəhmətsevər, nümunəvi ailədə iki oğul, üç qız cəmiyyət üçün yetişərək halallıqla pərvazlanıb. Böyükağa ilk nübar, ilk bar kimi əziz-xələf, əziz-girami böyüyərək valideynlərin xüsusi məhəbbəti və diqqət-nəzarəti ilə dövrələnmişdir.

Böyükağanın ata babası Məşədi Ağa Kərbəlayi Göyüş oğlu ailəsilə Bakıda yaşamış, dahi bəstəkar Ü.Hacıbəyli ilə qonşu olmuşdur. Onların yaşadığı ev hazırda "Ü.Hacıbəylinin ev muzeyi" kimi mövcud olan binanın qonşuluğunda idi. Onunla Üzeyir bəy arasında mehriban ünsiyyət yaranmışdı. 1937-ci ilin rüzkar külәkləri Məşədi Ağanın da həyatından yan keçməmiş, o, repressiya qurbanı olmuşdur.

Böyükağanın atası Tofiq musiqiyə məhəbbətli və həm də istedadlı idi. Gənclik illərində nağara çalmış, bir müddət toy-nişana getmiş, sonra bu işdən uzaqlaşmışdı.. Lakin ömrünün sonuna qədər özünü musiqi aləmində hiss etmiş, bu sahə ilə maraqlanmış və daim musiqi zövqü almışdı.

Böyükağanı dinlərkən: "Atamın əmisi Abdullanın oğlu Kamil Məlikov Opera və Balet Teatrının əməkdaşı idi. Tamaşalarda obrazlar yaradırdı. Onun övladları musiqi ilə məşğul olurdular. Hər biri fortepiano, tar, kaman və qarmon çala bilirdilər. 4-cü sinifin yay tətilində Kamil əmimgilə qonaq gəlmişdim. Əmiuşaqlarının calğılarını eşidib mən də həvəsləndim. Mənə qarmon çalmaq öyrətdilər. "Cücələrim" mahnısını calmağa başladım. Atam ardımca məni aparmağa gələrkən qarmon çalmağımı görüb təəccübünü gizlətmədi və həm də sevindi. Evə gedərkən Bakıda yolumuzu dükana saldı və mənə "Kazan" qarmon aldı. Hər ikimiz sevincdən Salyana nə vaxt çatdıq, bilmədik. Elə bil Bakı-Salyan magistral yolu qısalmışdı.

Deməliyəm ki, əslində musiqiyə olan həvəsim lap az yaşlarımdan oyanıb. Uşaq bağçasına

gedərkən tarzən Hüseynağa müəllim gəlib bizim musiqi tərbiyəmizlə məşğul olurdu. O, burada musiqi rəhbəri işləyirdi. Tar çalırdı, biz də mahnıları xorla oxuyurduq. Musiqiyə məhəbbətimin ilk cücərtiləri uşaq bağçasından boy atmışdı".

Bakıdan qarmonla qayıdan Böyükağanın artıq bir məşğuliyyəti də artmışdı. Qonşu uşaqlarla, məktəb yoldaşları ilə müxtəlif oyunları oynasa da tez evə qaçıb qarmonla məşğul olurdu. Bəzi mahnıları və rəqsləri də öz bacarığına uyğun öyrənə bilirdi. 5-ci sinifdə oxuyarkən o, Salyan rayon pionerlər və məktəblilər evinin qarmon dərnəyinə gedirdi. Əvvəl Saleh Nəzərovdan, sonra isə Tofiq Məlikovdan dərs almışdı. O, bacarığı, çevikliyi və qavrama qabiliyyəti ilə seçilirdi. Müəllimin göstərdiklərini tez yerinə yetirirdi. Bu fəal uşaq pionerlər evinin xorunda oxuyur, qarmon-çalalardan ibarət ansamblda çalırdı. Elə o zaman hiss olunurdu ki, onun da xəmiri musiqidən yoğrulub və bu sahə üçün yetişəcək.

B.Qurbanov 1960-1970-ci illərdə orta təhsil alıb. 8 il 6 saylı məktəbdə, 2 il 2 saylı məktəbdə oxuyaraq ümumtəhsil məktəbi bitirib. 2 saylı məktəbin özfəaliyyət ansamblının fəallarından olaraq müntəzəm olaraq məşqlərdə, tədbirlərdə iştirak edib, konsertlərdə çalıb. Ansamblda istedadlı uşaqlar vardı. Azər tar, ud, fortepiano, Niyaz klarnet, Əfrail nağara, digər üzvlər o biri alətləri çalırdılar. Məktəbdə, rayon mədəniyyət evində, kolxozlarda bu ansamblın çox gözəl çıxışları olmuşdu. Hər konsertdə Böyükağanın solo ifaları alqışlar alırdı. Bu alqışlar, tərifli, ürək açan sözlər gənc qarmonçunun titrək addımlarını möhkəmlədir,gələcək sənət işinə stimul verir və daha əzmlə çalışmağa çağırırdı.



1980-ci il. Dostlarla filarmoniya bağında. Sağdan: qarmonçalan Zeynal İsayev, müğənni Dünyamalı Bayramov, simli alətlər ifaçısı Sübhan Əzizov və Böyükağa Qurbanov

Yuxarı siniflərdə oxuyan Böyükağa Salyanda hənayaxdı məclislərində dostu, nağaraçalan Rafiqlə birlikdə çalırdı. "Kazan" qarmonu belə işlərdə onun karına gəlirdi. Məclisdə işrirak edən ana-bacılar, qohum-əqrəba və qonşu xanımları bu yeniyetmə qarmon, nağara çalanı o ki var tə-riflərdilər...

Böyükağa artıq musiqi sənəti ardınca gedəcəyini qət etmişdi. Bu barədə atası ilə də məsləhətləşmişdi. Beləliklə o, ata-anasından xeyir-dua alıb Bakıya gələrək sənədlərini Bakı Mədəni-Maarif Texnikumuna verir. Bu işdə ona nağara ifaçısı, Salyan şəhər mədəniyyət evinin bədii rəhbəri Sahib Bədəlov vasitəçilik etmişdi.

B.Qurbanov 1970-ci ildə BMMT-nin mədəni-maarif şöbəsinə əyani olaraq "klub işçisi-özfəaliyyət xalq çalğı alətləri orkestri rəhbəri" ixtisası üzrə qəbul olunur. Nəzəri dərsləri yaxşı mənimsəməklə bərabər, qarmon sənəti üzrə Əlibala Ağayevdən dərs alır. Texnikumun bütün bədii tədbirlərində çıxış edir. Tələbə yoldaşları ilə birlikdə müxtəlif yerlərdə konsertlərdə çıxış edir.

O, 1972-74-cü illərdə hərbi xidmətdə olmuşdur. Qayıdaraq təhsilini davam etmiş və 1975-ci ildə texnikumu uğurla başa vurmuşdur.

B.Qurbanov təhsil illərində texnikumun müəllimi, tarzən Yadigar Əliyevin dəvətilə İ.Əbilov adına mədəniyyət evinin özfəaliyyət x.ç.a.ansamblının üzvü olmuşdu. Bu ansambl vasitəsilə xeyli musiqiçilərlə tanışlıq yaratmış, Bakıda və rayonlarda keçirilən konsertlərdə çıxış etmiş və müsabiqələrin iştirakçısı olmuşdu. Bu ansambla tarzən Yusif Heydərov da rəhbərlik etmişdi.

Əsgərlikdən qayıdan Böyükağa Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ictimai peşələr kafedrasında çalışmış və həvəskar tələbələrə qarmon sənətinin sirlərini öyrətmişdi. Burada 177-ci ilin sonuna qədər çalışmışdı.

B.Qurbanov tələbəlik illərində xor ixtisası üzrə müəllim, məşhur xormeyster Ənvər Məmmədovun (1931-2013) dəvətilə L.Şmidt adına zavodun mədəniyyət sarayının mahnı və rəqs ansamblına işə qəbul olunmuş və rəqs quruluşlarını müşayiət etmişdir. Ə.Məmmədov xorun, Şirvələd isə rəqs qrupunun rəhbəri idi. Gənc qarmonçu burada 1 il çalışmışdı və bu müddətdə rəqs quruluşlarını müşayiət etməyi kifayət qədər yaxşı öyrənə bilmişdi. Təbii ki, o zaman o, bilə bilməzdi, bu iş, bu öyrəndikləri gələcəkdə ona lazım olacaq və o, rəqs sənəti kafedralarında konsertmeyster kimi çalışacaq.

1974-cü ilin sonlarından İ.Əbilov adına mədəniyyət evinin qarmon sinfində bacarıqla çalışan gənc müəllim 2 ildən sonra 8 saylı musiqi təmayüllü internat məktəbə dəvət olunur və layiqli pedaqoji fəaliyyət göstərərək 1983-ci ilin sonuna qədər burada işləyir.

Böyükağa müəllim İnşaat Mühəndisləri İnstitutunda özfəaliyyət x.ç.a.ansamblına rəhbərlik etdiyi illərdə də özünü bacarıqlı təşkilatçı və musiqi rəhbəri kimi təsdiq edib.

Qeyd etməliyik ki, ulduzu parlayan sənətçilərimiz var ki, onlar Böyükağa kimi musiqiçilərin gördüyü işləri yerinə yetirə bilməzlər.

Böyükağa Salyan qarmonçalanlarından yalnız Rza Şıxlarov və Əflatun Ağayevin ifalarından bəhrələnməmişdi, o, Saleh Nəzərov, Əlisahib Dadaşov, Sadıq Sadıqov, Elman Bədəlov, Çingiz Qurbanov, Həsənağa Sadıqov və Aslan İlyasovun çalğılarını da dəfələrlə yaxından görüb eşitmişdi. Bakıda fəaliyyətə başlarkən Salyanda mənimsədiyi üslubu daha da təkmilləşdirmiş, şəhər mühitindən əxz etdiyi qarmon ifalarını o dövrə qədər öyrəndiklərilə sintez edərək öz yolunu tapmışdı. Onun üslubu tam milli olaraq fərdi cəhətlərə söykənir və sənətçinin şəxsiyyət vəsiqəsini xatırladır.

Böyükağa Salyan sənətkarlarından Aşıq Qurbanxan, Aşıq Valeh, Aşıq Əlisahib, Aşıq Vahab və Aşıq Kamillə toylara gedərkən Şirvan aşıq havalarını yaxşıca mənimsəmişdi. Bilirik ki, aşıqlar zurna-balaban dəstələrilə çıxış edirdilər. O zamanlar aşıq sənətinin öz tonallığı var idi. Yəni, x.ç.a. ansamblarında olduğu kimi "si" (In H) tonallığında çalıb oxumurdular. Odur ki, dəstəyə gətirilən qarmonçular aşıq havalarını yarımtonlarda calmalı olurdular. Böyükağanın həmin vaxtlar yarımpərdələrdə çalmağı ona qrifdə sərbəst gəzməyə və bütün tonallıqlarda ifa etməyə şərait yaratmışdı. 1970-ci illərin ortalarından etibarən aşıq ansamblarının zurna və balaban alətlərini "si" kökündə hazırlamağa başladılar. Çünki bu dövrün tələbi idi. Aşıq dəstələrinə mərhələlərlə qarmon, klarnet və eloktrogitara daxil edilmişdi.

Oçerkimizdə B.Qurbanovun toy fəaliyyətinə də nəzər salmağı lazım bilirik. O, Bakıda ilk dəfə klarnet ifaçısı Hacı Həmidoğlu, nağaraçı Niyaz Hüseynov və xanəndə Vahid Abdullayevlə (1948-2002) birlikdə toya getmişdi. Sonrakı dövrlərdə o, geniş çalışmalara nail olaraq Bakımızın və Azərbaycanımızın hər yerində qarmonuyla çal-çağıra, toy-mağara qoşulmuşdu. O, klarnet ifaçıları Rəhman Rəhmanlı, Fikrət Əliyev, Hüseynağa, Aydın İbrahimov (1947-2000), simli alətlər ifaçıları Sübhan Əzizov, Vahid Babaşov, nağaraçalanlar İslam İslamov, Heybət Babayev, Əbülfəz Dağlı, Heydər Əzizov, sintezator ifaçıları, Eicin Əhədov, Səməd Səmədov, Cabbar Musayev, Fərəc Xudazarov, qoşanağaraçalanlar Muğamat Əzizov, Salman Mehdiyev, Sadıq Zərbəliyev, xanəndələr Zaur Rzayev, Eyvaz Həsənov, Niyaməddin Musayev, Sabir Mirzəyev, Süleyman Abdullayev, Qulu Əsgərov, Qara İsmayılov, Rusif Məmmədov, Oqtay Əsgərov, İlkağa Şahbazov, Mahir Rzayev və Səttar Nəsirovla sənət yoldaşlığı etmişdir. B.Qurbanov sonrakı illərdə hamı kimi Bakının şadlıq saraylarında musiqi fəaliyyətində olmuşdur. Bu gün də onun sənətlə, ifa etdiyi alətlə sirdaşlığı davam edir.

Sevimli sənətçimiz yenidən, ona çox doğma olan Əbilov adına mədəniyyət evinə dəvət olunmuş və qarmon sinfində pedaqoji fəaliyyətini davam etdirmişdir. O,1990-2006-cı illərdə burada çalışmış, istedadı güclü olan şagirdləri qarmon sənətimiz üçün hazırlamışdır. O da yetirmələri ilə öyünə bilər. Yetirmələr müəllimlərinin mənəvi övladlarıdırlar. Əminlik istiyirik ki,bu xidmətlər unudulmayacaq, Böyükağa müəllim də gələcəkdə sənətdə, cəmiyyətdə müəyyən mövqe tutmuş mənəvi övladlarının xatirində yaşayacaq.



2001-ci il. Böyükağa Qurbanov Əbilov adl. mədəniyyət evində şagirdlə məşğələ zamanı



Böyükağa Qurbanov və Fərəc Xudazarov

B.Qurbanov rəqs dərslərinin bacarıqlı müşayiətçisi kimi də formalaşmış qarmonçudur. O, 1999-2002-ci illərdə Bakı Xoreoqrafiya Məktəbində Zakir və Leyla Ağayevlərin sinfində çalışmışdır. Bu ərəfədə o, Zakir Ağayevlə birlikdə Bakı Ali Hərbi Məktəbin rəqs ansamblında da işləmişdir. Nağara müşayiətçisi Heybət Babayev olmuşdur.

B.Qurbanov 1999-2012-ci illərdə Mədəniyyət və İncəsənət Universitetinin xoreoqrafiya fakültəsində də Heybət Babayevlə birlikdə müşayiətçi kimi çalışmışdır. Bu sahədə fəaliyyətini davam etdirən B.Qurbanov 2006-cı ildən Milli Konservatoriya tərkibində İncəsənət Gimnaziyasının xoreoqrafiya şöbəsində çalışır. Əvvəllər Azad Hüseynovun, hazırda isə Kərim Kərimovun sinfində konsertmeyster-müşayiətçi kimi bu işi bacarıqla yerinə yetirir.

Dünyanın böyük mütəfəkkirlərinin əksəriyyəti insan xoşbəxtliyinin ailə ilə daha çox bağlı olduğunu qeyd etmişlər. Böyükağa da ailə xoşbəxtliyi ilə qarşılaşmışdır. O, 1974-cü ildə tələbə yoldaşı Fazilə xanımla ailə qurub. Fazilə xanım tar ifaçısıdır. Əvvəllər "Lalə" qızlar ansamblında çalışıb. Sonra uzun illər Əbilov adına mədəniyyət evinin tar sinifində dərs deyib. Hazırda Musiqili Komediya Teatrının əməkdaşıdır.

Dərin sevgi, güclü eşq və ülvi məhəbbətlə qurulan bu ailədə qamətli, gözəl-göyçək, yüksək zəkalı dörd övlad dünyaya gəlmiş və təhsil alaraq Azərbaycan cəmiyyəti üçün yetişdirilmişdir. Qurbanovlar ailəsinin baldan, şəkərdən, elə bu dünyanın özündən şirin olan, ömrə məna gətirən dörd nəvəsi var.

2.64. O ÖZÜNÜ PEDAQOJİ FƏALİYYƏTDƏ TAPMIŞDIR



Əliövsət Piriyev

Müəllim adı müqəddəs və ülvüdür. Müəllimi olan hər bir adama bu ad əzizdir. Müəllim böyük tərbiyəçidir.

Hər bir insan nə qədər yaşa dolsa da müəllim qarşısında özünü kiçik və uşaq sayır.

Müəllimin hər bir deyimi, hərəkəti, davranışı uşaqların qəlbində cücərir, izlər salır. Müəllimlik şərəfli peşədir.

Musiqi sənəti üzrə dərs deyən müəllimlərin özünə xas xüsusi cəhətləri də olur. Bu işdə hövsələ, böyük səbr, dözümlə bərabər, hər bir fərdə ayrıca yanaşma qaydaları da xüsusi əhəmiyyət kəsb edir. Burada istedad da əsas meyardır.

Əlövsət müəllim öz işinin vurğunu, sənətinin fədaisidir. Gənclik illərində ifaçılıqla yanaşı müəllim kimi özünü bu işdə sınayıb və sonrakı ömrünü bu peşəyə həsr edib.

Əliövsət Əziz oğlu Piriyev 1953-cü il oktyabr ayının 30-da Bakıda anadan olub. 1960-cı ildə 1-ci sinfə gedib, əvvəllər 205, sonra 182 saylı orta məktəbdə oxuyaraq 1970-ci ildə təhsili başa vurub. Əliövsət 1963-cü ildə Binəqədi qəsəbə mədəniyyət evindəki qarmon kursuna daxil olaraq 1968-ci ildə bitirib. İstedadı, çevikliyi ilə seçilib. Ona qarmon sənətindən dərs deyən müəllimlər Abbas Hüseynov, Vahab Səmədov, Səməd Əliyev və Ağahüseyn Məmmədov Əliövsətlə ciddi məşğul olaraq bir musiqiçi kimi yetişməsinə çalışırdılar.

Əliövsət musiqi təhsili aldığı mədəniyyət evinin "Qönçə" özfəaliyyət xalq çalğı alətləri ansamblına üzv olaraq yiyələnmək istədiyi sənəti daha da inkişaf etdirir. Ansamblın rəhbəri Əlislam Cavadov kollektivi müxtəlif tədbirlərdəki çıxışlara, konsertlərə aparırdı. Bu kollektivdən çox peşəkar musiqiçilər, Səxavət Məmmədov, Şahməddin Salayev və başqa xanəndələr yetişmişdir.

Ə.Piriyev 1967-1970-ci illərdə Binəqədi qəsəbəsindəki məktəblilərin yaradıcılıq mərkəzindəki (keçmiş adı pionerlər evi) rəqs kollektivində müşayiətçi-qarmonçu işləmişdir. O, 1970-71-ci illərdə bir zamanlar təhsil aldığı qarmon kursunda dərs demişdir. 1971-1973-cü illərdə Sevestopol şəhərində hərbi xidmətdə olan Əliövsət əsgərlərin rəqs kollektivində akkardeon və qarmon çalaraq ətrafdakı hərbi hissələrə və hərbi gəmilərə tez-tez konsertlərə gedir. Əsgərlikdən qayıdan gənc musiqiçi yüksək enerji və böyük həvəslə sənəti ilə məşğul olur, not savadını artırır və mütailə edir.

Əliövsət 1974-1978-ci illərdə Yasamal rayonu ərazisindəki 13 saylı orta məktəbin nəzdindəki musiqi kursunda müəllim işləyir. Nümunəvi müəllim kimi ad-san qazanır və yaxşı təcrübəyə yiyələnir.

1978-ci ildən 1980-cı ilə qədər Bakı neftayırma zavodunun mədəniyyət sarayında özfəaliyyət xalq çalğı alətləri ansamblının bədii rəhbəri işləyən Ə.Piriyev özünü əsl musiqiçi və bacarıqlı təşkilatçı kimi göstərə bilir. Rəhbərlik etdiyi ansambl ilə Azərbaycanın əksər rayonlarında konsert-

lərə gedərək xalqa xidmət göstərir. Əliövsət 1980-ci ildən etibarən S.Ələsgərov adına 1 saylı uşaq incəsənət məktəbində işləyərək bu günə qədər özünü nümunəvi müəllim kimi göstərib. Yetişdirdiyi 100-ə qədər şagirdin əksəriyyəti musiqiçi kimi fəaliyyətdədirlər. Məşhur İtalyan rəssamı Leonardo Da Vinçi demişdir: "Elm sərkərdə, təcrübə isə onun əsgəridir".

Qazandığı zəngin təcrübə sayəsində hazırladığı şagirdlərlə nailiyyətlər əldə edən Əliövsət müəllim öz işindən zövq almağı və bundan qürurlanmağı bacaran insandır.

Əliövsət müəllim işləyə-işləyə təhsilinin qayğısına da qalmış, 1980-ci ildə Azərbaycan Dövlət İncəsənət İnsititutuna daxil olmuş, buranı qiyabi yolla 1985-ci ildə bitirmişdir.

İfaçılıq sənətini yaxşı mənimsəmiş Ə.Piriyev 20 ilə yaxın bir dövrdə ən populyar müğənnilər və musiqiçilərlə konsertlərə və toylara getmişdir. O, əvvəllər qarmonçu, sonralar isə ionika (orqan) və sintezator ifaçısı kimi fəaliyyət göstərmişdir. Onun çox yaxşı piano ifası vardır. Əliövsəti ən yaxşı ifaçılardan biri kimi tanısaq da o, özünü müəllimlikdə daha əzmkar, işgüzar və məhsuldar göstərə bilib. Musiqidən dərs demək onun amalı, eşqi, ən yüksək həvəsi və məqsədidir. Sözün həqiqi mənasında işindən böyük zövq alır, yetirmələri ilə fəxr edir və öz əməlini vətəndaşlıq borcu sayır. 1995-ci ildə incəsənət və musiqi məktəblərinin Bakı şəhərində keçirilən "Qönçə" müsabiqəsində Əliövsət müəllimin dərs dediyi 1 saylı incəsənət məktəbinin 4-cü sinif şagirdi İsa Səfərov 1-ci dərəcəli mükafata layiq görülüb. Onun qarmonda ifa etdiklərini münsiflər heyəti çox bəyənmişdir.

Ə. Piriyevin gərgin əmək, yüksək həvəs və böyük müəllim sevgisi ilə hazırladığı istedadlı Orxan Mirzəyev 2002-ci ildə ənənəvi "Qönçə" baxış-müsabiqəsində bir çox əsərləri, o cümlədən T.Quliyevin "Qaytağı"sını heyratamiz, peşəkarlara məxsus şəkildə ifa edərək diplomant olmuşdur. Əliövsət müəllim Orxana həmişə öz övladı kimi yanaşmış, bu uşağın istedadını daha da inkişaf etdirmiş, daim qayğısına qalmış, onunla əlavə məşqlər edərək yüksək səviyyəli qarmon ifaçısı kimi yetişməsi üçün bacarığını əsirgəməmişdir. Orxan incəsənət məktəbini başa vurandan sonra da Əliövsət müəllimin sinifinə və mənzilinə gəlir, tövsiyələr alır və bilmədiklərini soruşur.

2002-ci ildə ixtisas müəllimi Ə.Priyevin məsləhəti, qayğısı və zəhməti nəticəsində, "Böyük şəhinlər" studiyasının himayəsi hesabına Orxanın kompakt diski və albomu buraxılıb. O, vaxtdan O. Mirzəyev ifaçılıq qabiliyyəti ilə ölkəmizdə məşhurlaşmış, musiqi bilicilərinin nəzər-diqqətini özünə cəlb etmişdir.

Əliövsət müəllim qarmonun ixtisas-not tədrisi üzrə ən təcrübəlilərindən biri kimi sayıla bilər. O, bütün şagirdləri ilə xüsusi məşğələlər aparır, etüdlər, qammalar, pyeslər müxtəlif səpgili əsərlər çaldırır. Müəllimi Orxanla da bu cür ciddi məşğələlər apararaq bu gün xalqımıza iti barmaqlı, sürətli ifa texnikası olan qarmonçalan təqdim edib.

Orxan klassik qarmon ifaçılığını da izləməli, ustad qarmonçuların lent yazılarını dinləməli və muğam ifaçılığına ciddi yanaşaraq ona nail olmalıdır. Onun ifasında məzmun və təmkin çatmır.

2003-cü ildə Orxanın ilk klipi çəkilib. "Cütcü" rəqsinin ifa olunduğu bu klip Azərbaycan Televiziyasında və "Space" televiziyasında klipin çəkildiyi ildə aylarla nümayiş etdirilib.

2005-ci ildə O, Mirzəyev AZTV, "Lider" və digər telekanallarda verlişlərə dəvət olunmuş, müxtəlif melodiyalar ifa edərək uğur qazanmış və geniş miqyasda tanınmışdır. Verlişlərdə məşhur qarmonçalanlar Ənvər Sadıqov, Xanlar Cəfərov və o cümlədən onun ilk ustadı Əliövsət müəllim öz fikir və rəylərini tamaşaçılarla bölüşmüşlər.

2005-ci ildə "Oxu tar" baxış-müsabiqəsində iştirak edən Orxan Həsən Rzayevin "Çahargah rapsodiyasını" ifa edərək "Qran-Pri" mükafatını alıb. Orxan 1989-cu il martın 9-da Bakıda anadan olub. O, hazırda respublikamızda tanınan qarmonçalandır. Xalq artisti Brilliant Dadaşovanın instrumental ansambılının üzvüdür. Orxan Mirzəyev Milli Konservatoriyanın nəzdində

Musiqi Kollecini bitirmişdir.

2006-cı ildə Əliövsət müəllim AZTV -nin 1-ci proloramına dəvət olunaraq verlişdə çıxış etmiş, incəsənət məktəbində dərs dediyi 3-cü sinif şagirdləri Tahir Səfiquluyev və Cavid Əzizovun qarmon ifalarını ölkə tamaşaçılarına təqdim etmişdir. Şagirdlərin ifasında Q.Qarayevin "İldırımlı yollarla" baletindən rəqs, T.Quliyevin "Vals", "Qaytağı" əsərləri, R.Hacıyevin "Saçlarına gül düzüm", S.Rüstəmovun "Hardasan" mahnısı səslənmişdir.

Əliövsət müəllim ürəkdən bağlandığı sevimli işini bu gün də incəsənət məktəbində məhəbbətlə davam etdirir.

O, 2001-ci ildə Azərbaycan Konservatoriyası tərkibində Musiqi Kollecinə qarmonun not tədrisi üzrə müəllim dəvət olunub və burada 10 il çalışıb. Ə. Priyev burada vicdanla və ləyaqətlə çalışaraq öz işini ortaya qoya bilib.

Onun yetirməsi III kurs tələbəsi Ramiz Məmmədov 2004-cü ildə Respublikamızın musiqi kolleclərı və texnikumları arasında keçirilən müsabiqənin 1-ci dərəcəli diplomunu almışdır. Ramiz müsabiqədə Motsartın "Rondo", H.Rzayevin "Çahargah rapsodiyası", Q.Qarayevin "Yeddi gözəl" baletindən "Vals", "Şur" və "Segah" muğamını ifa etmişdir.

Ə.Priyevin bizim qarmonumuzun təkmilləşməsi barədə fikirlərimizlə tam razılaşır.

O, qarmonun üç oktava həcminə qədər artırılması, sol əlin ifası üçün akkord sisteminin tətbiqinin gələcəkdə həyata keçəcəyi ümidindədir.

Əliövsət Piriyev 1977-ci ildə ailə qurub, 2 qızı, bir oğlu var. Hamısı ali təhsillidir. Ailə qurublar. Əliövsət müəllim nəvələrin şirinliyini yaşamaqdadır.

Çoxlarına olsun əyan,
Sözlərimi edim bəyan.
Əsl müəllim Əliövsət
Zəhmət adamı, xoş niyyət.
Bir zinətdi, saf incidi,
Öz işində birincidi.
Bu dünyanı yorub gəlib,
Halallıqla ömür sürüb.
Nə etsə sahmanlı olar,
Musiqidə öz izi var.
Pedaqoq kimi tanınıb,
Bu işdə alışıb-yanıb.
Qarmonçalanlar yetirib,
Sənət yoluna gətirib.
Yaxşı ifaçı olsa da,
Sənətdə yaşa dolsa da,
Gətirmədi sənət bəxti,
Olmadı bunun xoşbəxti.
Nə sirdisə, alınmadı,
Ifaçı tək tanınmadı.
Lakin çoxları söyləyir:
"Böyük ifaçıdır" - deyir.
Həqiqətdir deyilənlər,
Vardır onda böyük hünər.

Əla çalır o, qarmonu,
Tanıyanlar bilir bunu.
Ifaçılıq etməsə də,
Toy-düyünə getməsə də,
Özün tapdı dərs deməkdə,
Qarmonu tədris etməkdə.
Bu yolu çox uğurludur,
Şərafətlidir, nurludur.
Nəticələr göz önündə,
Yüksəkdədir, daim öndə.
Tələbə yoldaşım olub,
Yaxınım, sirdaşım olub.
Dostu kimi o illərin,
İncə, təmiz könüllərin,
Nümunəsi Əliövsət,
Mərdi-mərdanə, xoş söhbət.
Ə.Rəhmanlı, 25.08.2013-cü il

2.65. ALLAHYAR



Allahyar Əliyev

Allahyarla tanışlığım 1973-ci ilə təsadüf edir. O, həmin vaxt çalışdığım iş yerinə gəlirdi. BEMZ-nin mədəniyyət və texnika sarayında bizimlə tanımlı musiqiçi, pedaqoq, tarzən Sabir Quluyev də qarmon sinfində dərs deyirdi. O, Pedaqoji İnstitutun müəllimi idi. Sonralar isə professor olmuş və kafedra müdiri kimi mühüm vəzifə daşımışdı. Sabir müəllim doktorluq müdafiəsi ilə bağlı Leninqrad (haz. Sankt-Peterburq) şəhərinə gedirdi. Həmin vaxtlar mədəniyyət sarayında onun qarmon sinifinin şagirdlərinə Allahyar dərs keçirdi. Sabir Quluyev (1939-2001) institutdan tanıdığı tələbə Allahyara etibar edir və qarmon kursundakı şagirdlərinə dərs deməsini məsləhət bilirdi. Beləcə Allahyarla Bakının Montin qəsəbəsindəki mədəniyyət sarayında tanışlığımız başladı. Bir dəfə o, dərsə öz qarmonu ilə gəlmişdi. Sinif otağına daxil olub ifasını xahiş etdim. Diqqətlə tamaşa etdim, dinlədim və deyim ki, çox xoşuma gəldi. Əsl istedad gözlərim qarşısında idi. O, həmin vaxtlar bütün ifaçılar tərəfindən qəbul olunan Avtandil İsrafilovun üslubu ilə çalırdı. Çöhrəsi nurlu, qara saçlı bu mehriban, mədəni oğlan mənim xatirimdə həmişəlik belə qaldı.

Sabir müəllim öz dərslərinə qayıdandan sonra Allahyarı bir daha heç zaman, heç yerdə görmədim. Yalnız bir-iki dəfə onu Pedaqoji İnstitutun x.ç.a. ansamblının tərkibində televiziya konsertlərində seyr etdim.

Allahyar Əlixan oğlu Əliyev 1953-ci il mart ayinin 1-də Bilasuvar rayonunda həyata gəlib. Üç uşaqlı ailənin ikinci övladı Allahyar olub. Ata ticarət işçisi, ana evdar qadın idi. Onlar əslən Bilasuvarın Ağalıkənd kəndindən idilər, orada yaşamışdılar. Əlixan Əliyev musiqiyə böyük maraq göstərirdi. Gənclik illərində qarmon çalmağı öyrənmişdi. Hətta kəndin xeyir işlərində də çalmışdı.

Allahyarın xatirələrindən: "Mən uşaq olanda atam mənə deyirdi ki, sənə təzə qarmon alacağam. 1961-ci il idi. Atam bir nəfərlə evə gəldi. Məni yanına çağırıb bildirdi ki, bu cavan oğlan qarmonçalan Şərifağadır, özü də bu sənətdən dərs deyir.

Həmin gündən Şərifağa "Kazan" qarmonla mənə dərs keçməyə başladı. Bir ildən sonra ustadım öz qarmonunu mənə verib dedi:-Səkkiz nəfər şagirdim arasında yalnız sənə ümid bəsləyirəm.Sən bu sənətdə bir iş görə biləcəksən.

Onun mənə verdiyi qarmonu Rusiyanın Tula şəhərindəki ustalar düzəltmişdilər. Məlahətli, xoş səsi və rahat çalmaq imkanı olduğu üçün bu qarmonda daha həvəslə çalmağa başladım. 1969-cu idə Azərbaycan televiziyası ilə verilən konsertlərin birində bir qarmonçu solo ifa edərək sərbəst gəzişmələriylə diqqətimi çəkdi. Həqiqətən onun ifasına vuruldum. Sonra öyrəndim ki, o, Avtandildir"

Allahyar 1959-cu ildə Bilasuvar rayonundakı Nizami adına 1 saylı ümumtəhsil məktəbin 1-ci sinfinə daxil olub. 9 il burada oxuyub və 10-cu sinifdə təhsili Neftçala rayonunun Bənkə qəsəbəsindəki məktəbdə davam etdirib. Buna səbəb atasının Bənkə qəsəbəsində işləməsi olub. Harada təhsil almasından asılı olmayaraq o, məktəb tədbirlərində sevimli qarmonu ilə xüsusi fəallıq göstərərək nəzər-diqqətdə olub, sevilib və rəğbət qazanıb.

1970-ci ildə orta ümumtəhsil məktəbi bitirən Allahyar Əliyev Bakıya gəlir və Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olur. Burada da musiqidən ayrılmır. Fakültə müəllimi istedadlı tələbələri, çalıb-oxumaq bacarığı olanları ətrafına toplayıb kiçik bir ansambl yaratmışdı. Bir müddət məşqlərdən sonra konsertlər başlamışdı. Tamaşaçı alqışları tələbə musiqiçilərə qol-qanad verir və onlarda sənət marağı oyadırdı.

1971-ci ildə istedadı və şirin çalğısı ilə seçilən Allahyar institutun x.ç.a.ansamblına qəbul olunur. Həmin vaxt ansamblın rəhbəri musiqi kafedrasının müdiri Sabir Quluyev idi. Böyük heyətdən ibarət olan bu ansamblın məşqləri ciddi, çətin və çox maraqlı olurdu. Bayram günləri münasibətilə institutda təşkil olunan konsertlərdə x.ç.a. ansamblı rəngarəng proqramla çıxış edirdi. Respublika üzrə keçirilən "Oxu tar" müsabiqəsində də institut ansamblı uğurlar qazanmış, ansamblın üzvləri və solisti Sədaqət 1-ci dərərcəli diplomla təltif olunmuşdu. Belə olduqda bu ansamblın şöhrəti daha da artmış və SSRİ dövləti üzrə keçirilən tələbə festivallarına göndərilmişdi. 1973-cü ildə Zaporojye, 1974-cü ildə isə Leninqrad şəhərlərində keçirilən tələbə festivallarındakı çıxışlarda da APİ-nin x.ç.a. ansamblı diqqətlə izlənərək bəyənilmiş və 1-ci dərəcəli diplomlar almışdı. Şübhəsiz ki, belə nailiyyətlərə imza atılmasında işgüzar, tələbkar və bacarıqlı rəhbər S.Quluyevin mühüm xidməti olmuşdu.

İnstitut ansamblı dəfələrlə Azərbaycan televiziyasında çıxış etmişdi. Dəraməddlər, rənglər arasında və müğənniləri müşayiət etmələrdə Allahyarın solo ifaları çox gözəl alınırdı. Beləliklə ali təhsil alıb müəllimlik sənətinə yiyələnməklə o, musiqiçi kimi də yetişirdi.

Sabir Quluyev 1930-cu-1950-ci illərdə, sonrakı dövrdə nota alınmış qədim mahnıları arxivdən götürərək onları məşhur müğənnilər Şövkət Ələkbərova, Gülağa Məmmədov, Elmira Rəhimova

və Rauf Adıgözəlovla işləmişdi. Həmin retro mahnıları müğənnilər Allahyarın da üzvü olduğu x.ç.a. ansamblının müşayiətilə televiziya və radioda oxumuşdular.

Allahyar təhsil illərində artıq şənliklərə, toylara da gedirdi. Öz tay-tuşları olan musiqiçilərdən başqa o, məşhur xanəndələrlə də toy-büsatda olurdu. Bu sırada Əlibaba Məmmədov, Sabir Mirzəyev və neçəsinin adını çəkə bilərik. Yay tətili zamanı Allahyar doğma rayonu Bilasuvarda xanəndələrdən Qurban Əliyev, Qərib Xanhüseynovla toylarda olurdu. O, rayona qayıdandan sonra da Qurban Əliyevlə sənət yoldaşlığı etmişdi. Allahyar ilk sənət çağlarında Salyan el sənətkarlarından Aşıq Valeh və Aşıq Kamil ilə də Salyanətrafı bölgələrdə və Cənub rayonlarında çal-çağırın sevimli qarmonçalanı olmuşdu. Toylarda qarmona aid oyun havalarını, dəbdə olan yeni mahnıları tələb edirdilər. Təbii ki, bunlar aşıq repertuarına aid deyildi. Belə musiqiləri aşıq dəstəsinə gələn qarmonçu ifa edirdi.

Gənc qarmonçu oyun havalarını bütün gözəlliklərilə çalmaqla bərabər, yeni dəbə düşən mahnıları da ifa edib aşıq dəstəsindəki xanəndəni rahat oxudurdu.

Allahyarın yaddaşından: "1975-ci ildə ali təhsili başa vurub Bilasuvara gəldim. Həmin vaxtlar xalq artisti Şövkət Ələkbərovanın evində onun repertuarını məşq edirdik. Ona dedim ki, Şövkət xanım, növbəti məşqdə mən olmayacağam. Səbəbini soruşduqda, təyinatla rayona, iş yerimə gedəcəyimi bildirdim. Heyfsiləndiyini söylədi. Onu da qeyd etdi ki, şəhərə havaxt qayıtsan, bizim sıralarımızda sənin yerin var"

Ansambl tərkibindəki çıxışları gənc qarmonçunu doğma rayonda az da olsa tanıtmışdı. Odur ki, yaxşı bir musiqiçi kimi qəbul olunurdu. Hətta doğmaları, məktəb yoldaşları onunla fəxr edirdilər. Xanəndə Qurban Əliyev Allahyarı öz dəstəsinin tərkibində görmək istədiyini bildirmişdi. Təklifi qəbul edən Allahyar 1981-ci ilə qədər onunla rayonda bir dəstədə olmuşdu.

Haşiyə (müəllifdən): Qurban Əliyev 1941-ci ildə Biləsuvarda dünyaya gəlmiş, burada boya-başa çatmışdı. Rusiyadan hərbi xidmətdən qayıdandan sonra Bakıda qalmış və xanəndə kimi çalışmışdı. O, filarmoniyada solist olaraq yaxşı xanəndələrdən biri kimi tanınır və konsertlərdə çıxış edirdi. Təbii ki, bütün xanəndələr kimi toy şənliklərinə də gedirdi. Onun tay-tuşu olan, tanınan qarmon ifaçıları Zakir Mirzə və Avtandil İsrafilov da onu toylara aparırdılar. O, gənc xanəndə kimi perspektivli idi.

Bu kitabın müəllifi kimi qeyd edirəm ki, 1960-cı illərin ikinci yarısında, 1970-ci illərin əvvəllərində, yay aylarında Qurbanı Neftçalanın Xıllı qəsəbəsindəki toylarda görüb dinləmişəm. O, həmin toylara populyar xanəndə kimi dəvət olunurdu. O, Xıllıya ilk dəfə dayım oğlu Sənanın toyuna gəlmişdi. Onlar birlikdə əsgərlikdə olmuşdular. Xıllıda muğam xiridarları vardı. Səs imkanları olan xanəndələrə mütləq muğam dəstgahları oxudardılar. Mən Qurbanın toylarda "Çahargah" və "Mİrzə Hüseyn Segahı" muğamlarını oxuyan görmüşəm. Xatırlayıram ki, cavanlar üçün "Yeni Dehli" hind filmindən mahnı da oxuyardı. Onun televiziya konsertini də seyr etmişəm. 1970-ci il olardı. Televiziyada o, Ağabacı Rzayevanın "Pəri" mahnısını elə gözəl oxumuşdu ki... Bir-neçə il sonra həmin mahnını A. İsrafilov qarmonda çalaraq radio üçün yazdırdı. Adətən əyalətlərdə yaşayıb fəaliyyət göstərən xanəndələr az-çox tanınandan, özlərini tutandan sonra Bakıya gəlib respublika miqyasında tanınırlar. Qurbanda isə bu əksinə oldu. Bakıda tanınandan sonra rayona getdi.Bakıda qalıb çalışsaydı ən məşhur sənətkarlarımızdan biri ola bilərdi. O, Bilasuvarda dünyasını dəyişib. Haşiyə çıxaraq onu oxuculara tanıtmaq istədim.Qoy ruhu şad olsun! Həm də onu bidirmək istədim ki, Allahyar belə bir peşəkar xanəndəni müşayiət etmişdi. Hər qarmonçu onunla çiyin çiyinə çalışa bilməzdi".

Allahyarın dediklərindən: "1981-ci il idi. Qonşuluqdakı toy məclisində qonaq idim. Toy çadırında deyil, bağda ağaclar altında əyləşib yemək yeyirdik. Gündüz olduğu üçün musiqiçilər arabir, fasilələrlə çalırdılar. Sonra müğənni oxumağa başladı, nə başladı. Bir "Zəmin-xarə" oxudu ki, gəl görəsən... Yeməyi kəsib dinləməyə başladım. O, çox təsirli oxuyurdu. Səsi büllur kimi parlaq, aydın, bulaq çeşməsindən axan su kimi saf idi. Səs şüşə kimi cingildəyirdi. Bu səs mənə tanış deyildi, ilk dəfə idi ki, eşidirdim. O, oxumağını sona yetirəndə toyda əldə-ayaqda olan, qonaqlara xidmət edənlərin birinə dedim: - Xahiş edirəm xanəndəyə çatdırın ki, bağda əyləşən qonaqlardan biri onu görmək istəyir. O, gəldi, əl verib görüşdük, mənimlə masa arxasında əyləşdi, tanış olub söhbət etdik. Bu tanışlıq bir aydan sonra bizim uzun müddət birlikdə sənət yolunda olmağımıza imkan yaratdı. Xanəndə Xanhüseyn Hüseynovla tam peşəkar, yaxşı səviyyəli bir toy ansamblı yaratmaq qərarına gəldik. Cəlilabaddan klarnetçalan Rəhmanı və musiqi müəllimi Füzulini dəstəyə dəvət etdik. Digər yoldaşlar gitaraçı Cavanşir, nağaraçalan Kamil və qoşanağaraçalan Fazil bilasuvarlı idilər. Ansamblı yaradıb müntəzəm məşqlərə başladıq. Həftədə 4 dəfə və hər dəfə 5-6 saat məşq edirdik. Beləcə məşqlərimiz 8 ay davam etdi. Maraqlı repertuar düzəltdik. Gərgin əməyimiz öz bəhrəsini verdi. Ansamblın adını "Ya nəsib, ya qismət qoyduq". Ansambl üzvlərinin yratdığı və oranjeman etdiyi mahnıları Bakıda studiyada kasetlərə yazdırdıq. Kasetlər satışa çıxan kimi dərhal geniş miqyasda Azərbaycana yayıldı, Xanhüseyn Hüseynov və onu müşayiət edən ansambl çox populyar oldu. Respublikanın hər yerindən, xüsusilə Aran bölgəsindən və Cənub rayonlarından müntəzəm olaraq toylara dəvətlər aldıq. Hər yerdə hörmət-izzət və sevgi gördük. Yaradıb kasetlərə yazdırdığımız repertuarı bütün toylarda istəyirdilər. Sənət işlətməyimin ən məhsuldar, məsuliyyətli və şirin dövrü həmin illərdə oldu. Vallah, sevimməli, öyünməli və fəxr etməli vaxtlar idi. Onu da deməliyəm ki, əziyyətlərimiz, çətinliklərimiz də kifayət qədər çox idi. Yuxusuz gecələr, ardıcıl fasiləsiz toylar, günlərlə rayonlar, kəndlərarası yolları avtomobillə qət etmək və s. çox çətin olurdu. Bəzi rayonlarda toylar günortadan başlayıb gecə yarısı və ya səhər tamamlanırdı. Cavanlıq, sənətə olan məhəbbət, ansambl üzvləri arasındakı mehribanlıq, səmimiyyət, qarşılıqlı hörmət bizi bütün çətinliklərə dözməyə sövq edirdi. Həmin dövrdə bizim bir-neçə kasetimiz də nəşr olunaraq yayıldı. Həmin toy ansamblı ilə 1990-cı ilə qədər fəaliyyət göstərdik.

Bir dəfə toyu bitirib yola düşərkən yoldaşlarıma bildirdim ki, bu gün onlara qonaqlıq verəcəyəm. Bilasuvar rayonunda "Kiçik körpü"nün kənarında kafe-yeməkxana var idi. Avtomobilləri ora sürdürdüm. Yaxşı süfrə açdırdım, növbənöv kabablar gəldi və səhərə qədər yeyib-içmək oldu. Məclisin axırında yoldaşlarımdan izn alıb dedim:- Dostlarım, qardaşlarım, sabahdan etibarən indiyə qədər xidmət etdiyim, və az-çox nəyəsə nail olduğum musiqi sənətindən həmişəlik ayrılıram. Sizinlə halallaşaraq bu işdən gedirəm".

Qeyd etməliyəm ki, Allahyar Əliyev əyalətdə yaşasa da tam peşəkar, zəngin çalarlı və şirim ifaları ilə seçilən qarmonçalanlarımızdan biri olub. Hara gedibsə onun sənətinə diqqət kəsilib, sifariş verib sənətini dəyərləndiriblər. Onu yaxından tanıyanların, sənətini görüb, eşidənlərin hamısının xatirində o, belə də qalıb.

Allahyar musiqidən uzaqlaşdıqdan sonra gömrük xidmətində çalışıb .

Allahyar Əliyev 1974-cü ildə ailə həyatı qurub. Üç qız, bir oğul böyüdüb. Maşallah səkkiz nəvəsi var. Biz, ömrünün şirin və müdrik çağında Allahyar bəyin sənət yollarını işıqlandırmaqla özünün, övladlarının və xüsusilə nəvələrinin fəxarət hissi keçirmələrini istədik. Allahyar öz qarmonunu övladı Əvəzin oğlu Ayaza bağışlayıb. Nə bimək olar, bəlkə də nəvə Ayaz gələcəkdə babasının qarmonunu səsləndirib onun sənət iziylə gedəcək.

2.66. SƏNƏTLƏ ƏXLAQIN VƏHDƏTİ



Baxışəli Əliyev

Ruzbeh demişdir: "Əxlaq və şərəf həyatın ən böyük sərvətidir".

Yüksək əxlaq, tərbiyə, abır-ismət, səmimiyyət sahibi olan, şərəfli bir ömür yolu gələn sənət adamlarımızdan biri haqqında ürəklə söhbət açaq.

Baxışəli Həbib oğlu Əliyev 1954-cü il (at ilində) oktyabr ayının 22-də (tərəzi bürcündə) Bakının Balaxını qəsəbəsində anadan olmuşdur. Bu həyata bir oğul, üç qız gətirən Həbib kişi həyat yoldaşı Fatimə xanımla sadə ömür-gün sürürdü. O, sürücü işləyirdi. Fatimə xanım evdar qadın idi. Həbib ata ilk arzusu, ümidi olan ilk övladı Baxışəlini 1961-ci ildə Balaxanıdakı 204 saylı məktəbə qoyur. Baxışəli 1971-ci ildə orta məktəbi bitirir.

Bayatımızın birində deyilir:

Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı?
Qız gözümün qarası,
Oğlan ürək başıdı.

Sadə peşə adamı olan Həbib ata ürəyinin başı, gözünün nuru, dizinin taqəti saydığı oğlu Baxışəlinin ali təhsil almasını, hüquqçu, iqtisadçı, həkim və mühəndis olmasını istəyirdi. Neçə dəfə oğluna məsləhət edib demişdi: "Bala, məktəbdə dərsələrini yaxşı oxu, gələcəyini fikirləş, instituta gedərsən. Qarmon çalmaqdan bir şey çıxmaz. Mən də gənclik illərində musiqiyə həvəskar idim. Tar dərsinə gedirdim, kifayət qədər çalmağı öyrənmişdim. Müəllimim rəhmətə gedəndən sonra, həvəsdən düşdüm, tar çalmağı atdım".

Ata oğlunun istedadını nəzərə almaq istəmirdi.

Şair Zəlimxan Yaqubun fikri burada yerinə düşür:

"İstedad gür yanan çıraq kimidir,
İstedad çağlayan bulaq kimidir."

Uşaq çağlarında Baxışəlinin qarmon çalmağa olan həvəsi və istedadı aşıb-daşırdı. Bu istedad və maraq onun gələcəkdə peşəkar sənətkar olması üçün zəmin yaratdı.

Baxışəli tez-tez əmisigilə gedər, qarmonu götürüb gizlincə çalardı. Əmisinin yarımtonsuz "Kazan" qarmonu var idi və həvəskar kimi çalmağı da bacarırdı. Bu zaman Baxışəlinin 9 yaşı olardı. Artıq əmisinin qarmonu ilə müəyyən qədər havalar çalırdı. Əmisi bunu biləndən sonra az-çox çala bildiklərindən bir qədər də qardaşı oğluna öyrətdi.

Baxışəlinin anası Fatimə xanım oğlunun gizlincə qarmon çalmaq öyrənməsinə, hədsiz həvəsinə və istedadına ürəkdən sevinərək qarmon almaq qərarına gəldi.

Ana bir gün oğluna dedi:-"Baxış balam, ömrümə naxış balam. Pul toplamışam. Sabunçuda qarmon görmüşəm. Dur gedək onu alaq. Öyrənib soruşmuşam, o qarmonlar musiqi dərsi oxuyanlar üçündür. Səni qarmon dərsinə qoyarıq, gedib yaxşı öyrənərsən"

Baxışəlinin qanadı olsaydı, sevincindən uçardı. Yarımtonlu qarmon alınıb evə gətirildi. O gündən evdən hər gün qarmon səsi gəldi.

Anası hərdən deyirdi: - "Baxış, bəsdir, yorulub əldən düşdün, bir az da dincəl də!" Lakin həvəs və qabiliyyət bu uşağa qarmonu yerə qoymağa imkan vermirdi.

1968-ci ildə Baxışəlini Sabunçu qəsəbəsindəki mədəniyyət sarayının musiqi kursuna gətirdilər. O zaman burada mövcud olan qarmon kursu üç illik idi. Uşağın qabiliyyətini yoxlayıb, sərbəst olaraq qarmon çalmaq bacarığını görüb onu ikinci sinifə qəbul etdilər. O, burada daha yaxşı çalmaq öyrəndi. Müəllimi Əyyub Babayev Baxışəlinin qavrama qabiliyyətini görüb onu daim nəzarətdə saxlayırdı və deyirdi: "Bu uşaq gələcəkdə çox yaxşı qarmonçalan olacaq". Zaman göstərdi ki, o, fikrində yanılmayıb.

Haşiyə: "Əyyub Babayev Bakı Mədəni- Maarif Texnikumunda, Sabunçudakı və Suraxanıdakı mədəniyyət sarayında, həmçinin öz evində fərdi qaydada dərs deyərək çox qarmonçalanlar hazırlamışdır ki, onların əksəriyyəti sonralar yaxşı ifaçı, bəziləri isə müəllim kimi fəaliyyətdə olmuşlar".

12 yaşlı Baxışəli Bakıxanov (əvvəlki adı Razin) qəsəbəsində yerləşən Neft və Qaz Sənayesi İşçilərinin mədəniyyət sarayının x.ç.a.ansamblının məşqlərinə gəlirdi. Balaxanıdan əlində "Kazan" qarmon avtobusla Bakıxanov stansiyasına gələr, oradan da məşqə yollanardı. Bu yaşda olan uşağın əlində qarmon daşıyaraq bir qəsəbədən başqa qəsəbəyə gəlib məşqlərdə iştirak edərək yorğun-argın geri qayıtması asan iş deyildi. Bütün bunlara qatlaşmağa onu vadar edən təbii ki, çalmaq, çalmaq və yalnız çalmaq həvəsi idi.

Stansiyada çörək və ərzaq dükanları, yeməkxana və kafe xidmət göstərirdi. Kafenin pəncərəsinin birindən satış təşkil edərək küçə xidməti də yaratmışdılar. Bulka və kakao alanlar hündür, dayaq stolların yanında ayaqüstü nahar edirdilər. Məşqdən gələn, bərk açmış Baxışəli də kakao və bulka alıb iştahla yeyirdi. Qarmonu da yanına qoymuşdu. Yeyib qurtardıqda, qarmonu götürüb getmək istədikdə yerindəcə donub qaldı. Qarmon yox idi. Arzusu, istəyi olan,onunçün ən qiymətli olan bir şeyi aparmışdılar. O, ağlamağa başladı, evdəkilərə nə cavab verəcəkdi? Ağlamaqda davam edirdi. Stansiyadakı növbətçi milis işçisi yaxınlaşıb nə baş verdiyi ilə maraqlandı və uşağı yanına salıb ətrafı, dükanların, avtobusların və qatar stansiyasının içərisinə nəzər yetirdi. Bir şey tapılmadı. Qəmli, peşman uşaq evə qayıdıb hadisəni olduğu kimi ata-anaya danışdı. Atası Baxışəli ilə Bakıxanov stansiyasına gəlib dükanların satıcılarından, küçə ticarəti ilə məşğul olanlardan, tanış-bilişdən və bir daha kafe işçilərindən qarmonun tapılması ilə maraqlansa da, gördüm deyən olmadı. Ata-bala dilxor olaraq Balaxanıya qayıtdılar. Kasıbçılıq idi. Sadə, kasıb yaşayan ailə üçün təbii ki, bu itki idi. Bəyəm istənilən vaxt istədiyin bir şeyi almaq olurdu?

Balaca musiqiçiyə həvəs gəlirdi, çalmaq istəyirdi, lakin qarmonun olmaması onun qol-qanadını qırırdı. O, az müddət də olsa iztirab çəkdi. Uşağın fikir çəkdiyini hiss edən ananın ürəyi sıxılırdı. O, gedib kənddə yaşayan atası Malikəjdər kişidən borc pul götürərək oğlu ilə Sabunçu qəsəbəsindəki mədəni mallar dükanına gəldi. Müxtəlif rəngli "Kazan" qarmonlar balaca musiqiçinin gözlərini qamaşdırırdı. Bilmirdi hansını alsın. Bir-bir götürüb çalırdı. Çaldıqca da həvəsə gəlirdi. Bəs necə?! Axı neçə vaxtdı sevimli işinə həsrət qalmışdı. Elə cuşə gəlmişdi ki, dükanda olduqlarını da unutmuşdu. Bu yaşda uşağın belə məhərətli qarmon çalmağına o qədər adam toplaşmışdı ki... Onu satıcının səsi ayıltdı: "Ay oğlan,hansı qarmonu bəyəndinsə, göstər, onu qutusuna qoyub verim". Qarmon alındı. Ana-bala avtobusla kəndə qayıtdılar. Hər ikisinin sevinci dünyaya sığmırdı.

Baxışəli nümunəvi şagird kimi üç illik təhsili iki ilə uğurla bitirib vəsiqə alır. Onun bacarığını görüb həmin mədəniyyət evində qarmon ixtisası üzrə müəllim saxlayırlar. Bir müddətdən sonra Baxışəli özünü müəllim kimi təsdiq edir. Bundan əlavə o, həmin mədəniyyət sarayındakı xalq çalğı alətləri ansamblında çalmağa başlayaraq tez-tez konsertlərə gedir. Mədəniyyət sarayında

qarmon dərsi deyən, tarzən Bağır müəllimlə yaxşı tanışlıq Baxışəlinin toylara getməsi üçün imkan yaradır. Bağır müəllim həm də klarnet ifaçısı idi. Onların yaratdıqları dəstə Bakı və onun ətrafındakı qəsəbə və kəndlərdə toylarda çalırdılar. Toylarda çalmaq musiqiçilər üçün əsl sınaq, təcrübə və peşəkarlığa açılan geniş yoldur. Bu yol Baxışəlini də peşəkarlığa aparırdı.

Hələ bundan da əvvəl 13 yaşında ikən Baxışəli doğma kəndi Balaxanıda Roza xala deyə çağırılan dəvçalanla sənət yoldaşlığı edərək "xınayaxdı" məclislərində iştirak edirdi. Roza xalanın həm də oxumağı var idi. Onlar birlikdə bir müddət Balaxanıda xırda məclislərdə çalıb-oxudular. Uşaq yaşlarından Baxışəlinin beləcə kiçik yığıncaqlarda çalması onun gələcəkdə daha böyük və yüksək səviyyəli yerlərdə çıxış eləməsi üçün bir astana idi.

Baxışəli 1974-cü ildə ordu sıralarına çağırılır. Başqırdıstan Muxtar Respublikasının Ufa şəhərindəki hərbi hissədə 6 ay qulluq edəndən sonra Gürcüstanın Tbilisi şəhərindəki hərbi hissələrdən birinə göndərilir, xidməti burada başa vurur və 1976-cı ildə vətənə dönür. Həmin dövrdən doğma iş yerinə qayıdaraq müəllim kimi işini davam etdirir və toy-büsatda çalıb-çağırır. Məşhur xanəndə Məmmədbağır Bağırzadə ilə bir dəstədə yoldaş olur. Burada bir məsələni qeyd etmək lazımdır ki, onların birgə fəaliyyəti hələ 1970-ci illərin əvvəllərinə təsadüf edir. Onlar tez-tez toy məclislərində bir yerdə olurdular. O vaxtlar Məmmədbağır bir gənc xanəndə olaraq hələ ad-san qazanmamışdı. Ancaq Bakıda və onun ətraf kəndlərində yavaş-yavaş tanınmağa başlamışdı.

Əsgərlikdən yeni həvəslə, enerji ilə qayıdan Baxışəli Məmmədbağırın toy dəstəsinə daxil olur və əsasən onunla yoldaşlıq etməyə başlayır. Onun çalğı üslubu, muğamları yaxşı çalması, xüsusilə müğənnini müşayiət etməsi M.Bağırzadəni tam qane edirdi. Üstəlik də Baxışəlinin sözündə, işində düzlüyü, səliqəsi, ciddiliyi və yüksək tərbiyə sahibi olması M.Bağırzadəninin neçə-neçə qarmonçalanların içərisindən məhz onu seçməsinə əsas yaratmışdı. Onların birlikdə yaratdıqları dəstə Bakı və onun qəsəbələrində toyların əsl carçısı, sevimlisi, yaraşığı və bəzəyi oldu. Belə bir dəstənin toylarda uğurlu çıxış etmələri haqqında xalq arasında olduqca maraqlı söhbətlər və şirin xatirələr vardır.



Səhnədə: Məmmədbağır Bağırzadə və Baxışəli Əliyev

Çox olub ki, bu dəstənin çalıb-oxuduğu toylarda məşhur xanəndələr Hacıbaba Hüseynov, Yaqub Məmmədov, Arif Babayev, Qulu Əsgərov, Zaur Rzayev, Ağaxan Abdullayev, Alim Qasımov və başqaları öz sazəndə dəstəsi ilə iştirak etmişdir.

Belə ustadların çıxışlarını dinləməsi, bəzi hallarda onları müşayiət etməsi Baxışəlini muğam ifaçılığına yönəldirdi.

Bütün bu müddət ərzində Baxışəli Sabunçudakı mədəniyyət sarayında musiqi müəllimi işləyir.

Artıq M.Bağırzadə məşhur müğənni olduğu üçün onlar Azərbaycanın bölgələrində, Qərbi Azərbaycanda və Borçalı elində, Tbilisi şəhərində çox böyük məclislərdə olmuşdular.

Bakı toyları üçün Şəmsi İmanov, Ələkbər Əsgərov, Vəli Qədimov kimi mahir klarnetçalanların M.Bağırzadənin dəstəsinə tez-tez dəvət olunması Baxışəlinin bir musiqiçi kimi formalaşmasına daha da kömək etdi.

1981-ci ildə M.Bağırzadənin rəhbəri və solisti olduğu "Dilkəş" ansamblı Azərbaycan Dövlət Qastrol-Konsert Birliyinə işə dəvət olunur. Baxışəli həmin ilin iyun ayından bu təşkilatda işləyir. "Dilkəş" ansamblının tərkibində o, Bakının mədəniyyət ocaqlarında, respublikamızın kənd rayonlarında, xırda və iri şəhərlərdə, vətənimizdən kənarda müxtəlif konsertlərdə, toy məclislərində yaxşı sənət nümayiş etdirərək bir qarmon ifaçısı kimi tanınır. Bütün konsertlərdə Baxışəlinin solo çalğıları hərarətlə qarşılanır, toylarda isə dəstənin əsas, aparıcı çalğıçısı kimi sevilir.

M.Bağırzadə getdiyi yerlərdə həmişə rəğbətlə qarşılanır, həqiqi və təsirli sənət nümayiş etdirir, hər tədbirdə dinləyicilərin sevgisini qazanırdı. Dəstəsi onu həvəslə müşayiət edərdi. Mahnı və təsniflərin solo yerlərini, muğamların ayrı-ayrı şöbə və guşələrini Baxışəli müəllimin qarmonda çalması həmin çıxışlara xüsusi rövnaq, yaraşıq verər, sanki hər şeyi tamamlayırdı. Ümumiyyətlə Baxışəli yaxşı muğam ifaçısıdır. Geniş ifaçılıq fəaliyyəti ilə məşğul olan bu sənətkar öz evində müntəzəm olaraq fərdi dərs keçməklə tələbələr hazırlamışdır.

M.Bağırzadə 1985-ci ildə Azərbaycan Televiziyası və Radiosuna solist kimi dəvət olunur. Baxışəli də "Dilkəş" ansamblının tərkibində Azərbaycan Qastrol-Konsert Birliyindən işdən çıxır.

Baxışəli həmin ildən etibarən Bakıxanov qəsəbəsindəki məktəblilərin yaradıcılıq mərkəzində qarmon müəllimi kimi əmək fəaliyyətini davam etdirir. Öz sənətini burada məktəblilərə həvəslə öyrədir. Həm də M.Bağırzadə ilə müntəzəm yaradıcılıq əlaqələrində olur.

Demək lazımdır ki, "Dilkəş" ansamblı yaranan gündən M.Bağırzadənin bütün lent yazılarında və televiziyadakı hər bir çəkilişdə Baxışəlinin iştirakı olmuşdur.

B.Əliyev 1986-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin qiyabi şöbəsinə daxil olur və buranı 1991-ci ildə bitirir.

Baxışəli müəllim Məmmədbağırla 30 il sənət dostluğu etmişdir. Bu hər sənətkara nəsib olmur. Burada şəxsi keyfiyyətlər, bir-birinə qarşı səmimi münasibət, düzlük, sədaqət və doğmalıq böyük rol oynayır.

2002-ci il sentyabr ayından etibarən Baxışəli Əliyev Milli Konservatoriya tərkibində Musiqi Kollecində qarmonun muğam tədrisi üzrə müəllim işləyir. Onun bu tədris müəssisəsinə dəvət olunması kolecdə qarmon müəllimi işləyən Hacı Abutalıb Sadıqovun (1945-2008) zəmanəti, tövsiyəsi və məsləhəti ilə olmuşdur.

Az vaxt içərisində Baxışəli Əliyev özünü əsl müəllim kimi göstərmiş, rəhbərlikdən dəfələrlə təşəkkür almışdır. Onun dərs dediyi tələbələr qış və yay imtahan sessiyalarında, buraxılış imtahanlarında bacarıqlı tələbə kimi fərqlənirlər.

Baxışəli müəllimdən soruşduqda ki, hansı sənətkardan daha çox öyrənmisiniz, cavab verir: "Uşaqlıq çağlarımda Əhəd Əliyevin qrammafon valını dinləməkdən doymazdım. Ondan üzü bəri bütün sənətkarlardan öyrənə-öyrənə gəlmişəm. Teyyub Dəmirov, Məmmədağa Ağayev, Abbas Abbasov, Həmid Haqverdiyev, Vaqif Şıxıyev, Teyyub Teyyub oğlu və Avtandil İsrafilovun lent yazılarından çox şey öyrənib götürmüşəm. Qarmon sənətində Zakir Mirzəni özümə ustad sayıram. Onun unikal sənəti həqiqi mənada məna örnəkdir, bir məktəbdir. Bu gün də onun canlı çıxışlarını və lent yazılarını müntəzəm dinləyirəm. Ümumiyyətlə onun yaradıcılığını izləyirəm. Ona görə də ifa üslublarımızda azca da olsa oxşarlıq var. Zakir Mirzə milli sərvətdir. Onun çalğı səpgisində qeyri-adilik, bir sirr var. Bu ifada milli sərgi, Azərbaycan koloriti, xalq ruhu daha çoxdur".

Sual: – Müasir qarmon ifaçılığı sizi qane edirmi?

Cavab: – Hal-hazırdakı qarmon ifaçılığında bəzi şərtlər, inkişaf nöqtələri məni qane edir. Lakin bütünlükdə götürdükdə yox. İndi gənclərin əksəriyyəti səhv yol tutub gedirlər. Çaldıqları melodiyanı tam təhfil vermək əvəzinə, harmonik gedişlərə, arpecio və improvizasiyaya daha çox yer ve-



Tarzən Baba Salahovun rəhbərlik etdiyi x.ç.a. ançamblının televiziya konserti. Ön sırada sağdan üçüncü: Baba Salahov, Ağasəlim Abdullayev, Mirnazim Əsədullayev, yuxarıda sağdan birinci Baxışəli Əliyev, ikinci Vəli Qədimov



M.Bağırzadənin rəhbərlik etdiyi "Dilkeş" x.ç.a. ansamblının televiziya konserti. Sağdan üçüncü: Baxışəli Əliyev

rilir. İfa etdikləri musiqinin əsas mövzusu bilinmir, sanki hansı lad üzərindəsə məşğələ, fasiləsiz barmaq işləmələri, keçidlər göstərirlər. Onunçün də çaldıqlarının təsir gücü, tutumu olmur, milli ruh bilinmir.

Baxışəli müəllim tövsiyə edir ki, gənc qarmon ifaçıları tar, kaman, balaban, klarnet ifaçılarını da dinləsinlər. Tarzən-pedaqoqlar Ə.Bakıxanov, K.Əhmədov və B.Mansurovun lentlərini eşitsinlər.Hacı Məmmədov, Ə.Dadaşov, H.Əliyev, S.İbrahimov, Ə.Vəzirov, B.Zeynalov, Ə.Əsgərov, V. Qədimov, F.Dadaşov və başqa musiqiçilərin ifaları olan kassetlərə qulaq assınlar. Elxan Müzəffərov muğam bilicisidir. Xüsusilə ondan çox şey öyrənmək olar.

Yazımızda bir anlıq yenidən Baxışəlinin uşaqlıq və gənclik dövrünə qayıdaq.

Həbib kişinin xəyalına da gəlməzdi ki, onun sadə evində boy atan bu arıq, çəlimsiz uşaq yaxşı musiqiçi kimi ad-san qazanacaq, müəllim işləyəcək, sənətdə sayılıb-seçiləcək, Azərbaycanı gəzib xalqına dəyərli xidmət göstərəcək, qazancı ilə evə, ailəyə dayaq olacaq.

Doğmalar söyləyirlər ki, ata sonralar oğlunun uğurlarından qürurlanırdı. Baxışəlinin ilk televiziya çıxışında ata evdəki televizora yaxınlaşıb ekranı öpmüş, kövrəlmişdi.

B.Əliyevin çalğısında parlaqlıq, cəldlik, gümrahlıq, coşqunluq olduğu qədər də, həzinlik, yumşaqlıq və lirizm vardır. O, hər bir melodiyanı, dəstgahı həmin muğamın xarakterinə, ruhuna uyğun duyğularla çalıb təhvil verir, hər şöbənin və guşənin məzmunu və mənasını dinləyiciyə çatdırır, bütün bunları tədris ərəfəsində də yerinə yetirir.

Böyük sənətkar, dünya şöhrətli bəstəkar F.Əmirov yazmışdır: "Əgər muğamlarımız təmiz ifa olunmazsa, orada yad musiqi ünsürləri özünə yer taparsa, gələcək nəsil də onu belə qəbul edəcək".

Baxışəli müəllim muğamlarımızı milli zəmində, Azərbaycan ürəyi ilə, azərbaycanlı ürəyi ilə, xalq ruhunda olan bir üslubda çalır və dərs dediyi tələbələrə də belə öyrədir və sonda da onlardan o cür tələb edib təhvil alır.

Əfsus ki, radiomuzun fondunda və kassetlərdə onun ifasında yalnız bir-neçə oyun havası vardır.

Bu insan sənətə bir məbəd kimi baxdığından ifasını lentə yazdırmağa cürət etmir. Düşünür ki, hələ buna hazır deyil. Deyir: "Gərək muğamlarımızı lentə elə yazdırasan ki, unikal ifalar kimi həmişə dinlənilsin". Zakir Mirzə, Hacı Abutalıb kimi sənətkarlar həmişə onun muğamlarımızı və qədim oyun havalarımızı yüksək səviyyədə ifa etdiklərini söyləmişlər. Belə düşünürük ki, bu yazılarımızdan sonra Baxışəli müəllim öz ifalarını lentlərə, disklərə köçürüb xalqımıza armağan edəcək.

Baxışəli sənət yoldaşları arasında mərdliyi, xeyirxahlığı, ürəyiaçıqlığı və mülayim xasiyyətilə fərqlənir. Dostlara qarşı həmişə sədaqətli, diqqətli olan bu insan çoxlarına qayğıkeşlik edərək, neçə-neçə sənət yoldaşlarının zəhmətini, qayğısını çəkib.

Aşıq Hüseyn Bozalqanlının şeirlərinin birində dostluq haqqında belə bir beyt vardır:

Hüseyn dost yolunda qoyar sərini,
Yada salar ustadını, pirini,
Gəzər həqiqəti, tapar yerini,
Verər dost yolunda canı həmişə.

Sanki bu şer Baxşəli kimi insanlar üçün deyilmişdir. Baxışəli özünə üstad saydığı, sənətindən bəhrələndiyi sənətçilərə həmişə hörmətlə yanaşır. Həqiqəti,düzlüyü, səmimiyyəti çox sevən bu şəxs dostların cəfasını çəkməkdən nəinki bezib, hətta onların yolunda başından keçməyə hazırdır.

Səhhətini itirən, ömürlük xəstəlik tapan, əlil qalan sənət yoldaşlarının daim xidmətində olan Baxışəli müəllim tez-tez onları yoluxur, şəxsi avtomobili ilə dostları istədikləri yerlərə, həmçinin həkimə, müalicə mərkəzlərinə aparır.

30 il sənət yoldaşlığı etdiyi xanəndə Məmmədbağırın xəstəlik dövründə həmişə onun xidmətində duran Baxışəli dostunun son nəfəsinədək yanında oldu.

İndi də ötən xoşbəxt günləri dönə-dönə xatırlayan Baxışəli müəllim Məmmədbağırla yoldaşlıq

edib sənət işlətdikləri dövrü ömrünün ən məhsuldar, gözəl anları sayır və deyir: -"Mən o illəri, o çalıb-oxumaları, konsertləri, şənlikləri, toyları heç vaxt unutmaram.

M.Bağırzadə ustad olmuşdu, xanəndəlikdə zərgər işi görürdü. O, yaradıcı şəxs idi, gözəl bəstəkarlığı və şairliyi var idi. Mən onun yoldaşlığından, sənətindən doymadım. Heyif, onu itirdik. Çox böyük bir sənətkar vaxtsız dünyadan köçdü. Hələ nə qədər yazıb-yaradacaqdı". Baxşəli müəllim dost itkisinə yanıb-yaxılır. "Dilkəş" musiqi alətləri ansamblını yaşatmaqla təsəlli tapır. İstəkli sənət dostu Məmmədbağırdan yadigar qalan bu ansamblın fəaliyyətini bərpa etməklə o, ustad sənətkarın xatirəsini əziz tutur və onun qurılmış arzularını yaşatmaq istəyir.

Oğlu Rahim Bağırzadənin təşəbbüsü ilə 2007-ci il fevral ayının 4-də Azərbaycan Dövlət Muğam Teatrında xalq artisti Məmmədbağır Bağırzadənin xatirə gecəsi keçirildi. Hamımız dəvətli idik. Tədbirdə bəstəkarlar, görkəmli musiqi xadimləri, tanınmlı xanəndələr, ziyalılar, mərhum sənətkarın dostları və həmkəndliləri iştirak edirdilər. Müğənnilər M.Bağırzadənin repertuarından mahnıları və təsnifləri oxudular. Baxışəli Əliyevin rəhbərliyi və iştirakı ilə "Dilkəş" ansamblı bütün proqram boyu müğənniləri layiqincə müşayiət etdi. Həmin il noyabr ayının 26-da ikinci belə bir tədbir M.Bağırzadənin doğulub boya-başa çatdığı Nardaran kəndində keçirildi. Burada da mərhum xanəndə yad olundu, yaradıcılığı işıqlandırıldı, bəstələdiyi mahnılar və təsniflər bir daha yenilənərək müğənnilərin ifasında səsləndi. Əslində bu tədbir Tarıyel Əhmədovun dünyanı vaxtsız tərk etmiş xanəndə-bəstəkarın həyat və yaradıcılığı barədə tərtib etdiyi "Azərbaycan oğluyam" adlı kitabın təqdimetmə mərasimi ilə bağlı düzənlənmişdi. İştirakçılara kitablar hədiyyə olundu. Baxışəli Əliyevin qarmonunun ecaskar səsi, vurduğu xallar yenə də müğənnilərin şirin nəfəslərini, zənglələrini bəzəyirdi. Onun rəhbərliyilə "Dilkəş" instrumental ansambl "Nardaran" şadlıq sarayının səhnəsinə yaraşıq verməklə bərabər, hər çıxış edən müğənnini müşayiət etməsilə böyük rəğbət qazandı. Bircə M.Bağlrzadə özü çatmırdı. Musiqi xadimlərinin, sənət yoldaşlarının, Nardaran camaatının yaddaşına köçən bu tədbir Rahim Bağırzadənin təşkilatçılığı, Nardaran qəsəbə nümayəndəliyi və bələdiyyəsinin təşəbbüsü ilə baş tutmuşdu. Göründüyü kimi Məmmədbağıra ata məhəbbəti və övlad sədaqəti ilə böyüyən cəmiyyətdə öz yerini tutan Rahim Bağırzadə atası ilə uzun dövr ərzində sənət dostluğu edən, özünə doğma əmi bildiyi Baxışəli müəllimlə müntəzəm əlaqə saxlayaraq "Dilkəş" ansamblının yaşamasına və ustad xanəndənin xatirə tədbirlərinin keçirilməsinə təşəbbüs göstərərək buna nail olur.



Rasim Əliyev

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 2011-ci ilin mart ayında Dövlət Filarmoniyasında Məmmədbağır Bağırzadənin xatirə gecəsi keçirilib.Bu tədbirin başa gəlməsi üçün də Rahim Bağırzadənin təşəbbüsü olmuşdu. Bu xatirə gecəsində də müğənnilər Məmmədbağırın mahnılarını oxudular və onları Baxışəli Əliyevin rəhbərliyilə "Dilkəş" ansamblı müşayiət edirdi. Haqqında danışdığımız bütün bu tədbirlərin çəkilişləri olmuş və televiziyalar vasitəsilə yayımlanmışdır.

Baxışəli müəllimin ailə həyatı uğurlu olmuşdur. O, 1979-cu ildə ailə həyatı qurmuşdur. Həyat yoldaşı müəllimədir. Ailədə iki övlad böyüyüb. Qız orta ixtisas, oğul isə ali təhsillidir.

Oğul Rasim atasının peşəsinə yiyələnmişdir. Gözəl qarmonçalandır. Bundan başqa fortapiano və sintezator alətlərini məharətlə çalır. Neçə illər "Dilkəş" ansamblının



04.02.2007-ci il. Dövlət Muğam Teatrında Məmmədbağır Bağırzadənin xatirəsinə həsr olunmuş tədbir. Sağdan: Baxışəli Əliyev, önda Rəhim Bağırzadə

tərkibində sintezatorçalan kimi fəaliyyətdə olmuşdur və bu gün də bu işi davam etdirir. O, Milli Konservatoriya tərkibində Musiqi Kollecinin qarmon sinfini də bitirmişdir. 2011-ci ildən 33 saylı uşaq musiqi məktəbinin qarmon sinifində dərs deyir.

Baxışəli Əliyevə 03 noyabr 2011-ci il tarixdə Azərbaycan Kütləvi İnformasiya Vasitələrinin Həmkarlar İttifaqı (Azər KİVİHİ) Rəyasət Heyətinin qərarı ilə Mədəniyyət və İncəsənət sahəsində göstərdiyi xidmətlərə görə "Ustad sənətkar" Ali Mediya Mükafatı verilib.

"Azərbaycan" qəzetində (20 dekabr 2011-05 yanvar 2012-ci il) Elşad Dağlının "Mahir qarmon ifaçısı Baxışəli Əliyev" adlı məqaləsi oxucularda maraq oyadaraq onları sənətkarla bir daha yaxından tanış edib.

Onun dörd nəvəsi var. Tumurcuq-tumurcuq boy atan nəvələrini görüb sevinən Baxışəli müəllimin yaşamaq eşqi, qurub-yaratmaq həvəsi daha da qüvvətlənir.

Baxışəli müəllim 2013-cü ilin sentyabr ayından Mədəniyyət və İncəsənət Universitetinin qarmon sinfində dərs deyir.

Sonda fikrimizi ona həsr etdiyimiz şeirlə bitiririk.

Sehirli səslərlə bizi bürüyür,
Dərdli ürəklərin buzu əriyir.
Cəlddir barmaqları, çevikdir əli,
Sənətdə hünərlidir Baxışəli.
Özü tək oğuldur, yox bəradəri,
Dostluqda təmizdir, yox bərabəri,
Musiqi aləmində nüfuzu var,
Qarmonunda nikbin nəğmələr çalar.
Otuz il çalışdı Məmmədbağırla,
Həmişə çıxış etdilər uğurla,
Dost getsə də itirmədi özünü,
"Dilkəş"i yaşatdı, tutdu izini.
Ə.Rəhmanlı, iyul 2007-ci il

***

Sadaqətlə dostlar xidmətindədir,
Xəstənin, böyüyün zəhmətindədir,
Həqiqi dost kimi qiymətindədir,
Təmannasız işlər görən Baxışəli.

Möhkəm dözümündən razı qalırıq,
Məsləhət, sözündən razı qalırıq,
Fikrindən, özündən razı qalırıq,
Yaxşılığa bina hörən Baxışəli.

İnsanlıq hisslərini mühüm sanır,
Yaşa dolduqca o, nüfuz qazanır,
Ləyaqətli ömrü nura boyanır,
Kişi tək yaşayan, ərən Baxışəli.

Lap əvvəldən qarmona vurğun gəlib,
Sənətilə əxlaqı uyğun gəlib,
Hər ifasına ilham, duyğu gəlib,
İstedadın barın dərən Baxışəli.

Bu gün çox hünərli qarmonçalandır,
Ilk sıralarda, öndə dayanandır,
Toyda, konsertlərdə alqış alandır,
Vaxtında ustada dönən Baxışəli.
Əhsən Rəhmanlı 20.11.2013

2.67. TEYYUB DƏMİROVUN İFASI ONU QARMON SƏNƏTİNƏ GƏTİRDİ



Hacımurad Yarəhmədov

Azərbaycanda yaşayan bütün xalqlar; ləzgi, talış, kürd, yəhudi (dağ yəhudiləri), dargin, kumık, saxur, qrız, avar, tat, inqiloy, yasay, lak, gürcü, sambal, buduq və uti xalqlarının nümayəndələri də bizim milli alətimiz kimi formalaşıb meydana cıxan, Azərbaycan türklərinin sevimli musiqi aləti olan və toy-büsatın, çal-çağırın yaraşığına çevrilən qarmon alətini sevmiş və çalğı öyrənərək bu sənətdə çalışmışlar. Bu gün də həmin xalqların istedadlı nümayəndələri Azərbaycan qarmonundan istifadə edirlər. Belə ifaçılardan biri haqqında məlumat veririk. O, Dağıstanda doğulub boy atsa da qarmon sənətinə Bakıda qədəm qoyub.

Yarəhmədov Hacımurad Yarəhmədoviç 1928 il iyulun 5-də Dağıstanda, Qasımkənddə anadan olub. Ailədə üç uşağın böyüyü olan Hacımurad az yaşlardan işə-gücə yarayıb zirəklik göstərərək həyət-bacada, xırda təsərrüfat işlərində atasına kömək edib. O, erkən yaşlardan anasını itirib. Kənd məktəbində dördüncü sinfi bitirib. Musiqi ilə məşğul olmaq həvəsi onu uşaq yaşlarından öz çevrəsinə salsa da, kənddəki şərait, yaşadığı dövr və mühit bunu mümkünsiz edib. Hacımurad radio vasitəsilə Dağıstan və Bakı musiqisini dinlərkən saz və qarmon çalmaq arzusu ilə yaşayıb. O, Bakı radiosundan verilən konsertləri dinlərkən Teyyub Dəmirovun qarmon ifalarına diqqət kəsilib. Hər dəfə qarmon səsi eşidərkən radioya daha yaxın əyləşib.

Hacımurad 1948-ci ildə saz çalmağı öyrənib. Həmin ildə Bakıya gələrkən o, artıq saz çalmağı bacarırdı. O, qarmon sənətini Teyyub Dəmirovun ifaları ilə sevib. T.Dəmirovla tanışlıqdan sonra onunla yaxınlıq edib. Hacımurad qarmonçalanlardan Bədəl Bədəlov və Səttar Hüseynovla da yaxın münasibətlərdə olub. O, qarmon çalmağı diatonik alətdə öyrənsə də dostlarında xromatik qarmonları görüb, özünə T.Dəmirovdan peşəkar sənətkar qarmonu alıb.

Hacımurad Bakı mühitinin qarmonçalanı olduğu üçün məsuliyyət hiss edərək boş vaxtlarından layiqincə istifadə edib qarmon sənətilə çox ciddi məşğul olurdu və bacarığını artırmağa çalışırdı. Bakının zəngin musiqi mühiti onun həvəsini gücləndirməklə bərabər inkişafını artırır, ifaçılıq səviyyəsini də yüksəldirdi. O, əvvəllər iş yoldaşlarının, dost-tanışın toylarına, nişan məclislərinə, ad günləri və yubileylərə gedərək sənət adamı kimi tanınmağa başlamışdı. Sonralar isə fəaliyyətini genişləndirərək Lökbatan, Sahil, Bayıl, Qaradağ qəsəbələrinə, 20-ci sahə adlanan yaşayış yerinin toylarına çağırılırdı. O, Montin və 8-ci kilometr qəsəbəsində də xeyli sayda toy-nişan mərasimlərində çalıb-çağırmışdı. Hacımurad 1960-ci illərin sonlarından əksər qarmonçalanlar kimi klarnet-qarmon dəstəsində də çalmışdır. O, doğma Dağıstan toylarında da fəaliyyət göstərmişdir. Getdiyi əsas yerlər Qasımkənd, Məhərrəmkənd olub. Bu kəndlərin toylarında onu çubuqlarla çalınan nağarada Manaf kişi müşayiət edib.



Soğdan: Hacımurad şənlikdə

Hacımuradın oğlu Yarəhmədin xatirələrindən:" Atamın 21 dilli, 7 tənəkəli (rusca-planka), ağır bir qarmonu var idi. O, alətdə 6 il çalıb. "Si" tonallığında olan qarmon idi. Onu Bakıdan almışdı. Dağıstan toylarına gedərkən qarmonu orada satmışdı.

1979-cu ildə mən Dərbənd şəhərində bir toy mərasimində çalırdım. Bir nəfər yaxınlaşıb tanış oldu və bildirdi ki, o da qarmonçalandır. Bildirdi ki, istifadə etdiyi alət 21 dillidir, onu Bakıdan gələn sənətkardan alıb. Onu da dedi ki, alətin çox gözəl, təmiz və məlahətli səsi var, heyif ki, çox ağırdır, məni yorur. Mən söylədim ki, əlinizdə olan qarmonun əvvəlki sahibi mənim atam olub".

Hacımurad 1968-ci ildə B. Bədəlovdan qarmon almışdı. Bu rahat alətlə şənliklərə getmişdi. Həmin qarmonu o, oğlu Yarəhmədə bağışlayıb. Oğul atadan yadigar qalan qarmonla toy-büsat məclislərini bəzəyir.

Hacımurad kişi klarnet ifaçılarından Bağır, Nəsrulla Səmədov və balaxanılı Nurağa Qədimovla sənət çalışmalarında olmuşdu. O, qədim xalq havalarımızı, ləzgi xalq rəqslərini yaxşı bilirdi. Bir-birindən maraqlı o qədər ləzgi havaları çalırdı ki... Bu melodiyaların əksəriyyəti onun yaddaşına hopmuşdu. Dağıstana gedəndə toylarda istifadə olunan ləzgi havalarını və orada yaşayan xalqların rəqs melodiyalarını ustalıqla çalırdı. O, 1978- ilə qədər musiqi ilə məşğul olub. Çalışdığı neft müəssisəsində iş zamanı baş verən qəza nəticəsində onun sol əli ciddi zədələnmiş, buna görə də o, ifaçılıq qabiliyyətini itirmişdi. Çox heyif ki, onun ifasında çox gözəl səslənən Dağıstan xalqlarının melodiyaları lentlərə alınmayıb.

Hacımurad Yarəhmədov 1949-cu ildə ailə qurub. Dörd qız və iki oğul böyüdüb. Səkkiz nəvəsi var. O, 28 fevral 2008-ci ildə dünyasını dəyişib. Oğlu Yarəhməd qarmon, Əlimurad klarnet ifaçısıdır. Nəvəsi Murad yaxşı nağaraçalandır.

Atasının qarmonunu cəsarətlə ələ alıb onun sənət yolunu davam edən oğul barədə qeydlər etməyi lazım bildik. Yarəhməd Hacımurad oğlu 8 yaşında ikən qarmon çalmağı atasından öyrənib. Ata ona ilk əvvəllər Qəmbər Hüseynlinin "Cücələrim" mahnısını, sonra isə kiçik həcmli melodi-



Yarəhməd Yarəhmədov

yalar öyrətməyə başlayıb. O, evdə qarmon çalarkən Yarəhməd yaxında dayanıb atasının əllərinə baxırdı. Beləliklə çox şey öyrənmişdi. Musiqiyə həvəs onu İliç adına mədəniyyət sarayının özfəaliyyət x.ç.a. ansamblına aparmışdı. Bu zaman onun 10 yaşı vardı. O, heç vaxt yoruldum deməz, ansambl məşqlərindən qalmazdı. Qarmonu aparmaq ona ağır olduğu üçün bu işdə ona özündən böyük bacısı kömək edərdi. Özfəaliyyət ansamblının üzvləri müxtəlif yaş həddində olanlar idi. Balaca qarmonçu ansamblda özünü sevdirə bilmişdi. Məşqlərdə özünün "Kazan" qarmonu ilə çalsa da, fəhlə yataqxanalarında və digər yerlərdə olan konsertlərə atasının qarmonu ilə gedirdi. Yarəhməd Yarəhmədov mədəniyyət sarayının ansamblında 1966-1971-ci illərdə çalmışdı. Həmin illərdə ansamblın rəhbəri Azərbaycan Dövlət mahnı və rəqs ansamblının xormeysteri Hacıbaba Əliyev idi.

Özfəaliyyət ansamblında çalması Yarəhmədin yetişib peşəkar sənətə qədəm qoymasında mühüm rol oynamışdır. Beləliklə o, addım-addım, pillə-pillə qarmon sənətkarı kimi yetişmişdir. Çoxsaylı peşəkar qarmonçalanlarımızın, ustad sənətkarlarımızın ifaları neçə-neçə gənclərimizin, o sıradan Yarəhmədin formalaşıb əsl sənət yoluna çıxmasına rəvac vermişdir.

Yarəhməd ritm işinə də həssasdır, nağara da çalır. Bundan başqa klarnet ifa etməyi də yaxşı bacarır. O, 1975-1977-ci illərdə Rusiyanın Sibir vilayətində, Sovet ordusu sıralarında xidmət etmişdir. Əsgərlikdən evə dönüb yenidən musiqi aləminə qatılaraq əzmlə çalışmışdır. Özünəinam yarandıqdan sonra, 1978-ci ildə öz yaşıdları ilə şadyana tədbirlərə, toylara getməyə başlamışdır. Bu gün cəsarətlə deyə bilərik ki, Yarəhməd yaxşı qarmon ifaçılarımız sırasında dayanır. O, Azərbaycan musiqisinə yaxşı bələddir. Bundan əlavə Dağıstan xalqlarının melodiyalarını, xüsusilə ləzgi xalq havalarını bütün incəliklərinə qədər bilir və bunları əla çalır. Vaxtilə o, Cecenistanın Qroznı şəhərində də toylarda çalaraq sevilən sənətkar olmuşdur. Hazırda isə Bakının şadlıq saraylarında keçirilən tədbirlərin, toy-büsatın qarmonçalanlarından biridir. O, ən cox əməkdar artist, klarnet ifaçısı Vaqif Mirzəyevin instrumental heyətinin tərkibihdə çıxış edir. Əvvəllər isə əməkdar artist, klarnetçalan Şərbət Rzaquliyevin ansamblının üzvü olub. 2002-ci ildə Ş. Rzaquliyevin "Gözüm yoldadır" adlı diski çıxıb. Buraya 10 melodiya daxil edilib. Solisti müşayiət edən musiqiçilərdən biri Yarəhməd olub.

Yarəhməd Hacımurad oğlu Yarəhmədov 1984-cü ildə ailə qurub. Dörd övladı var.

2.68. ORDUBADLI USTA RƏHMAN



Rəhman Hacıyev

Onunla XX əsrin 90-cı illərində tanış olmuşuq. Məsələ belə olmuşdu. O, keçmiş illərdə hazırlanmış qarmona ¼ tonlar əlavə edərək hazırladığı aləti Bakıya, xalq musiqiçiləri toplaşan bağa satmağa gətiribmiş. Çoxları yaxınlaşıb alətə baxsalar da, çalıb tanış olsalar da, alan olmamışdı. Həmin illərdə ölkədə Qarabağ uğrunda döyüşlər getdiyi üçün ümumi maddi vəziyyət ağır idi. Odur ki, musiqiçilərin də alət almaq imkanı məhdudlaşmışdı. Haqqında mövzu başladığım Rəhman da aləti Bakıya satmağa gətirmişdi, geriyə aparmaq lüzumsuz idi. Dənizkənarı parkda onunla tanış olan, əslən gədəbəyli qarmonçalan Nofiq Şirinov Rəhmana gətirdiyi qarmonu mənə də göstərməyi tövsiyyə etmişdi. Nofiqlə Rəhman bizə gəlmişdilər. Mən onları ən əziz qonaq kimi qarşıladım. Rəhmanla yaxından tanış oldum. Gətirdiyi ¼ tonlu qarmonu çalıb yoxladım, xoşuma gəldi. Sözün düzü çoxları kimi mənim də maddi durumum ürəkaçan deyildi. Lakin qapımıza gəlmiş belə mədəni, gülərüz, çöhrəsindən nur yağan həmkarımızın, həm də Azərbaycan qarmonlarının təmirinə, bərpasına və təkmilləşməsinə qoşulan bir ustanın gətirdiyi aləti yenidən özüylə geriyə, Naxçıvana aparmasını rəva bilmədim. Odur ki, evdəki olan-qalan pulumuzu, üstündə də əlavə dəyər olaraq məndəki qarmon tənəkələrini (planka) verib Rəhmanın gətirdyi aləti götürdüm. 2-3 ildən sonra həmin qarmonu tələbələrimdən biri gəlib apardı.

1-2 ildən sonra Rəhman yenidən Bakıya gələrkən bir də məni tapdı. Məndən xahiş etdi ki, məşhur qarmon ustası Velçev Valentinlə onu tanış etdim. Mən onu Valentingilə apardım . Valentindən xahiş etdim ki, Rəhmanı maraqlandıran məsələləri izah etsin, öz təcrübəsinə əsasən bəzi işləri ona anlatsın. Valentinlə çox yaxşı münasibətdə olduğumuzdan o, sözümü yerə salmadı. Rəhmanı maraqlandıran suallara cavab verdi, bəzi incə məsələləri izah etdi. Rəhman onun sözlərini, izahlarını diqqətlə dinləyirdi, kağız qələm çıxarıb qeydiyyat aparırdı. Hər ikimiz usta Valentinin evindən məmnunluqla çıxdıq.

1990-cı illərin sonlarında Rəhmanın düzəldib hazırladığı qarmonları bəzi ifaçılarda gördüm. Bu alətlər arasında ¼ tonlu olanlar da var idi. Qarmonlarla yaxın tanış olduqda ordubadlı Rəhmanın tam peşəkar usta kimi yetişməsi qərarına gəldim.

Budur, artıq 2011-ci ilin isti iyul ayında onunla yenidən götüşmüşəm. Bakının Bakıxanov qəsəbəsində onun kirayələdiyi üçotaqlı mənzildə, otaqların birində yaratdığı emalatxanasında əyləşmişəm. Gördüyü işlərlə, düzəltdiyi qarmonlarla yaxından tanış oluram. O, öz təcrübələrindən danışır, bəzi maraqlı məlumatlar verir. Hazırladığı və özünün ifası üçün nəzərdə tutduğu ¼ tonlu qarmonu çalıb mənə göstərir. Həmin qarmonu mən də ifa edirəm, məndə maraq oyadır.

Rəhmanın ustalığı məni qane etdiyi üçün öz ifa qarmonumu, mənimlə 40 ildən artıq sənət yolu gələn alətimi onun kökləməsini rəva bilirəm. 2-3 gündən sonra Rəhmanın telefonuna cavab ve-

rərkən o, mənə deyir: - Əhsən müəllim, qarmonunuz hazırdır, bu alətin nə gözəl tembri var, buyurub gəlib apara bilərsiniz.

Məhir qarmonçalan Manaf Rza ilə getdik. Hər birimiz qarmonu çalıb yoxladıqda xoşumuza gəldi. Alət təmiz köklənmişdi. Rəhman əvvəldən dediyi kimi, qarmonumu təmənnasız kökləmiş, mənə hədiyyə etmişdi.

Mən ona dedim ki: "Rəhman bəy, etdiyiniz hörmətə, mənə göstərdiyiniz qayğıya görə çox sağ olun. Lakin, "tərəzi bürcü"ndə anadan olduğum üçün, bu işin borcu boynumda qalır. Doğulduğum bürcə görə məndə hər şeyin öz hesabı var. Özümdən asılı olmayaraq bürcümün diqtəsilə heç kəsə borclu qala bilmirəm".

Cavabında bunu eşitdim: "Əhsən müəllim, siz bürcünüzün hesabını çoxdan vermisiniz. Yadınızdadırsa, siz məni usta Valentin Velçevin evinə apardınız. Sizin xatirinizə, hörmətinizə o, bildiklərini məndən əsirgəmədi. Bilmədiklərimi, qarmonun bəzi sirlərini ondan soruşub öyrəndim. Onun evində apardığım qeydiyyatlar, qarmon düzəldilməsi işindəki incəliklər, xüsusilə alətin içindəki incə ölçülərə aid yazdıqlarım sonralar mənə çox lazım oldu. Valentingildə olarkən o, böyük ustaya da, sizə də minnətdar olmuşdum. İndi isə borcumdan çıxmaq istəyirəm".

Sözün düzü bu əhvalat mənim yadımda deyildi. Rəhman bəy bunu xatırladarkən məmnunluq duydum. Sevindim ki, bu gün aşınma gedən cəmiyyətimizdə nə gözəl ki, yaxşılığı unutmayanlar, itirmək istəməyənlər var.

Emalatxanasında əyləşərək ona bəzi suallar verib, məntiqli cavablar alıram. O, deyir: "Qarmon düzəldən bütün ustalar öz təcrübələrinə əsasən və ya indiyə qədər olan ustaların təcrübələrini əsas götürərək işləyirlər. Mən isə nəzəriyyəyə əsasən işləyirəm".

Onun gördüyü işlərdən bir nümunəni misal gətirmək istəyirem. Rəhman qarmonların qrifindəki yarımtonların altında olduğu kimi,ağ dillərin (klavişlərin) altında da nazik dəmirlərdən qəlib (çərçivə, yuva) düzəldib bərkidir. Bunun əvvəlki təcrübələrdən üstünlüyü odur ki, həmin dillər sonralar yerində oynamır, dillər qoşulmuş pəncələrin(lapki) bir-birinə ilişməsinn qarşısını alır. Rəhmanın düzəltdiyi ¾ tonlu qarmonlar da öz orijinallığı ilə fərqlənir.

Rəhman Əsgər oğlu Hacıyev 1955-ci il aprelin 11-də, qoç bürcündə Ordubad rayonunun Unus (Kələkiyə bitişik) kəndində anadan olub. Onun babası Məşədi Molla Həsən dövrünün savadlı və nüfuzlu şəxslərindən sayılıb. O, Şam şəhərində ali ruhani məktəbi bitiribmiş. Tez-tez Orta Asiya ölkələrinə dini tədbirlərə dəvət olunarmış. Çox olurmuş ki, Unus kəndinə Səmərqənddən, Buxaradan, İranın Xorasan əyalətindən, Məşhəd və Qum şəhərlərindən on dəvə yükü nemətlər, kişmiş, xurma, cürbəcür meyvə quruları, ədviyyat və s. sovqat gəlirmiş. Məşhədi Molla Həsən gələn sovqatların hamısını kənd əhalisinə paylarmış, Onun atası bu kənddən Hacc ziyarətinə gedən ilk şəxs olub. Bu nəslin Hacıyev (əslində Hacılı) soyadını daşıması da ordan gəlir. Məşhədi Molla Həsən 1937-ci ildə repressiyaya düçar olaraq Komi vilayətinə sürgün olunub. Onun son məktubu da Komidən gəlib. Ölümündən sonra ona da bəraət verilib.

Rəhmanın atası Əsgər müəllim orta ixtisas təhsili almışdı. İbtidai siniflərdə dərs deyirdi. O, Azərbaycan xalq hərəkatının öncülü, Azərbaycan Xalq Cəbhəsinin rəhbəri, 1992-1993-cü illərdə Azərbaycan Respublikasının Prezidenti vəzifəsində çalışmış, Türk dünyasının tanınmış simalarından biri Əbülfəz Elçibəyin də ibtidai sinif müəllimi olmuşdu. Əsgər Hacıyev (1918-1997) dini elmlərə də yiyələnmişdi. Bunlarla əlaqədar onun nüfuzu daha da artmışdı. O, həm də həvəskar musiqiçi idi. Əla səsi ilə sevilirdi. Yaxşı "Zabul-Secah" muğam-dəstgahı oxumağı varmış. Bu muğamı məşhur xanəndə Ağabala Abdullayevin üsulu ilə oxuyarmış. Nağara çalmaq bacarığı olduğu üçün arabir toylara da gedərmiş.

Əsgər Hacıyev Zeynəb xanımla ailə qurub. Onların mehriban ailəsində dörd oğul, üç qız boy atıb yetişib. Beşinci övlad Rəhmandır. O, 1962-1972-ci illərdə kənd orta ümumtəhsil məktəbində

oxuyub. Uşaqlıqdan musiqiyə maraq göstərib. Onun uşaqlıq xatirələrindən: "1965-1966-cı illərdə kəndimizdə ilk dəfə olaraq elektrik xətləri çəkilirdi. Bu işlə məşğul olan dəstənin briqadiri Haqverdi və bütün briqada üzvləri bizim evdə qalırdılar. Onun 12 dilli diatonik qarmonu vardı. O, bu qarmonla çalğı öyrənmək istəyirdi. Mən də alətə tamaşa edib çalmaq istəyirdim. Haqverdi çox yaxşı adam idi. Sonralar bizimlə kirvə oldu. Haqverdigil kəndlərdə elektrikləşməni başa vurub, çıxıb getdilər. O, öz qamonunu bizdə qoydu. 10 yaşım vardı. Həmin qarmonu çalıb öyrənməyə başladım. İlk öyrəndiyim hava Məşədi İbad ("Darçını" rəqsi) oldu. 10-cu sinfi bitirənə qədər bu yarımtonsuz qarmon mənim sevimli alətim oldu. Ibrahim adlı sinif yoldaşım səkkizillik təhsili başa vurub, Bakıya gəlmişdi. Qarmonu evdə qalmışdı. Onun aləti xromatik idi. Ibrahimgilin ailə üzvlərindən xahiş edib, o qarmonu götürüb məşq edirdim. 9-cu, 10-cu siniflərdə əsasən bu qarmonda çalırdım".

Ordubad şəhərində iki qarmonçalan olub. Onlar Rəhmanın atasından yaşca böyük insanlar idilər. Toylara getməsələr də yaxşı çalırdılar. Hər ikisinin qarmonu usta Karpuşkinin düzəltdikləri idi. Doktor Abbasov və Seyid ocağından Mirhaşım ağa Ordubadın ilk qrmonçalanlarından sayılırdılar.


Rəhman Hacıyev 1972-ci ildə Bakıya gələrək Politexnik İnstituta daxil olur və burada cəmi iki ay təhsil alır. 1973-cü ildə sənədlərini Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinə verir və qəbul olur. 1978-ci ildə buranı əla qiymətlərlə başa vurur. Onun xatirələrindən: "İnstituta daxil olan kimi özümə Kazan musiqi alətləri istehsal edən fabrikin buraxdığı "İdel" adlı qarmon aldım və müntəzəm məşq etdim. Özümə yaxşı qarmon, sənətkar aləti almaq qərarına gəldim. 1975-ci ildə Tula şəhərinə getdim və qarmon aldım. İnstitut illərində Ordubadın, Naxçıvanın kəndlərində toylara gedirdim. 1979-cu ilin oktyabr ayında Kələki kəndində Əbülfəz Elçibəyin toyunda da mən çalmışam".

Rəhman Hacıyev institutu bitirib təyinatla öz doğma kəndinə gedir və məktəbdə coğrafiya fənnindən dərs deyir. İki il burada çalışır. Vənənd kəndində uşaq musiqi məktəbi açıldığı üçün onu qarmon ixtisasından dərs demək üçün dəvət edirlər. Rəhman 1990-cı ilə qədər musiqi məktəbində işləmişdir. Sonra isə Ordubad rayon mədəniyyət evində bədii rəhbər olmuşdur. Həm də oranın xalq çalğı alətləri ansamblında qarmon çalmışdır. O, rayonun mədəniyyət tədbirlərində, konsertlərdə çalmış, hətta Naxçıvan televiziyasında çıxış etmişdir. Televiziyada ifa etdiyi sololar maraqla qarşılanmış, onun geniş tamaşası kütləsi tərəfindən tanınmasına şərait yaratmışdır. Rəhman Hacıyev 1993-cü ildə Naxçıvan televiziyasının təşəbbüsü və təşkilatçılığı ilə keçirilən baxış-müsabiqədə məşhur qarmonçalan Zakir Mirzənin "Gülnarə" rəqsini ifa edərək ikinci yeri tutmuşdur. O, ümumiyyətlə Naxçıvan bölgəsinin tanınan qarmonçalanlarından biri olmuşdur.

1994-1998-ci illərdə Rəhman Hacıyev o zamankı iqtisadi vəziyyətlə əlaqədar sənətdən uzaqlaşaraq ticarət işlərilə məşğul olmuşdur. Lakin sonra yenə sevimli peşəsinə qayıtmışdır.

İfaçılıqdan başqa qarmonun təmiri və düzəldilməsilə məşğul olmasının səbəbini belə izah edir: "Vaxtılə Tula şəhərindən aldığım qarmon uğursuz alət çıxmışdı, tez-tez təmirə ehtiyac olurdu. Bakıya gəlmək məcburiyyətində qalırdım. O vaxtlar usta Velçev Valentin 8-ci kilometr qəsəbəsində emalatxanada çalışırdı. Usta Vasili də onunla yanaşı işləyirdi. Qarmonumu Vasiliyə təmir elətdirirdim. Ustaların əllərinə diqqət yetirir, necə işləmələrinə tamaşa edirdim".

Rəhmanın müşahidə və görüb-götürmək qabiliyyəti çox güclü olduğu üçün hər dəfə usta yanında olarkən nəsə öyrənib gedirmiş. Bu işdə onun əl qabiliyyətinin də mühüm əhəmiyyəti olmuşdur. Beləliklə onda qarmon düzəldilməsilə məşğul olmaq, usta olmaq meyli baş qaldırmışdır. Onun dediklərindən: "Eşitmişdim ki, Ağdamda Vaqif adlı qarmon ustası var. Onun yanına gəlib tanış oldum və qarmon ustası olmaq istədiyimi bildirdim. Vaqif ustadan ilk iş qaydalarını, müəyyən üsulları öyrəndim. Bir gecə orada qalıb usta Vaqifə bəzi suallar verib mənə lazım olan cavablar aldım".



Usta Rəhman emalatxanada

Rəhman Hacıyev mənimlə birlikdə Valentinin yanında olmasını bir daha xatırladı və sorğu vasitəsilə ustadan öyrəndiklərinin sonrakı mərhələdə onun işinə yaradığını dilə gətirdi. O, Bakıdakı mahir usta Rafiq Seyidovun evində də bir dəfə olmasını, onun gördüyü işlərlə tanışlığını xatırladı. Rəhman neçə illər ərzində bu işlərlə məşğul olmuş, təcrübə qazanmış və bu sənətə mükəmməl yiyələnmişdir. O, onu da qeyd etdi ki, qarmonun tənəkələrinin (tirlərinin, rusca – planka) üzərinə səslər (rusca – qolos) vurulmasını bakılı usta Arkadidən öyrənmişdir.

Naxçıvanda ilk və yeganə qarmon hazırlayan, təmir edən usta Rəhman Hacıyevdir. O, 1998-ci ildən başlayaraq hazırladığı qarmonları realizə etməyə başlamışdır. Onun qarmonları Güney Azərbaycanımızın Culfa, Xoy, Mərənd, Urmiya və Təbriz şəhərlərinə də satılmışdır. Milli musiqimizə, qarmon ifaçılığına həvəs göstərən soydaşlarımız usta Rəhmanın hazırladığı mükəmməl alətlərdən bəhrələnirlər. Rəhman vaxtilə Təbrizə gedər və oradakı ifaçıların qarmonlarını təmir edərdi. O, İran İslam Respublikasında yaşayan qarmon ifaçılarımıza ¼ (çetvert) tonlu qarmonlar da vermişdir. Belə qarmonlardan biri də təbrizli Rəhim Şəhriyariyə çatmışdır. O, hazırda Tehranda yaşayır, qarmon ifaçılığı və bəstəkarlıqla məşğuldur.

Rəhman Hacıyev XX əsrin 90-cı illərində və sonralar Türkiyənin Naxçıvana yaxın olan İğdır şəhərinə toy şənliklərində çalmağa gedir, sənətə həvəs göstərənlərə qarmon aparırmış. Oralarda usta kimi tanınandan sonra nəinki İğdırdan, hətta Qars və Ərzurumdan da qarmon həvəskarları Rəhmanın yanına gəlib, düzəltdiyi alətləri alıb aparıblar. Bundan başqa oralardakı qarmon ifaçıları gəlib ustanı tapıb öz qarmonlarını təmir etdiriblər. İran ölkəsindəki soydaşlarımızın bəziləri Rəhmanın hazırladığı milli qarmonlarımızı alıb aparıb Kanada, Hollandiya və digər ölkələrdə yaşayan azəri türklərinə hədiyyə edirlər.

Rəhman Hacıyev 2005-ci ildən Bakıda kirayə etdiyi mənzildə tam sərbəst və tam peşəkar qarmon ustası kimi çalışır. Bu alətə aid bütün işləri mükəmməl yerinə yetirir. Ona ən çox qarmonun

körüyünü düzəltdirmək üçün müraciət edirdilər. Hazırda isə yüksək səviyyəli alətlər hazırlayır. Artıq ölkəmizin bütün bölgələrindən, İran ölkəsindən onun yanına gəlir ya öz qarmonlarını təmir etdirir və yaxud da yeni alətlər sifariş verirlər. Onun düzəltdiyi qarmonların sayı-hesabı yoxdur. Bu alətlər çox yerə yayılıb. Ustanın əlindən çıxan qarmonlar yerdə qalmır, tez də öz ahıcısını tapır.

Yaponiyanın istehsalı olan "Korq" elektro-kamerton (rəqəmsal, digital cihaz) vasitəsilə qarmon köklənməsini də ilk dəfə usta Rəhman yerinə yetirib. Bu cihazı İranda yaşayan soydaşlarımızdan biri gətirmişdi. İndi bütün ustalarımız bu cihazla işləməyi üstün tuturlar.

Rəhman 1991-ci ildə Tatarıstan Respublikasının Kazan şəhərində musiqi alətləri istehsal edən fabrikdə olmasını danışdı: "İrandan tez-tez gəlib alət alıb aparmaq istəyirdilər. Ehtiyat hissələr tükəndiyi üçün Kazana getdim. Fabrikdə oldum və fikrimi, məqsədimi bildirdim. Usta olduğumu bilib nəvazişlə yanaşdılar. Lakin onu bildirdilər ki, alət almaq istəsən bu fərdi qaydada mümkün deyil, bu respublikalararası əlaqə, müqavilə vasitəsilə və pul köçürmə yolu ilə ola bilər. Dedim ki, ehtiyat hissələr, lazım olan material almaq istəyirəm. Bunun da baş tutmayacağı aydınlaşdı. Sex rəisindən məni fabrik direktoru ilə görüşdürməsini xahiş etdim. Direktorla görüşərkən dedim ki, bizim respublika üçün istehsal etdiyiniz alətlər yararsız və keyfiyyətsizdir. O, hirsləndi və əsəbiləşdi. Soruşdu ki, bunu nə ilə əsaslandıra bilərsən? Fikirlərimi bir-bir izah etdim. O, masasının üstündəki elektron düymələri bir-bir basıb, sex rəislərini, bütün mühəndis-texniki heyəti öz iş otağına topladı. Mənim iradlarımı onlara bildirdi. Sorğu-suallar başladı. Məni rahatsız edən fikirlərimi bildirdim və "Kazan" qarmonlarda olan kəm-kəsirləri sübut etdim. Onlar da diqqətlə dinlədilər. Dedilər ki, burada müzakirə olunanlar nəzərə alınacaq. Direktor mənə təşəkkür etdi və tapşırdı ki, mənə qarmon üçün istədiyim ehtiyat hissələr və lazım olan material verilsin. Kazan şəhərindən yükü dolu gəldim".



Rəhmanın nəvəsi 7 yaşlı Ramazan

Usta Rəhman artıq neçə illərdir ki, həyatını, arzusunu, istəyini, sevgisini sənətinə verib. O, milli musiqimizə sədaqətlə xidmət edənlərdən biridir. Rəhman çalışır ki, düzəltdiyi qarmonlar milli çalarlı, peşəkar və rahat olsun ki, ifaçılar onlardan yaxşı yararlana bilib yüksək sənət göstərsinlər. O, Azərbaycan qarmonlarının daha mükəmməl olması və düzgün təkmilləşməsi üçün var gücünü sərf edir. Usta Rəhman məşğul olduğu sənət vasitəsilə çox yaxşı dolanır.

Emalatxanasında olarkən, o, düzəltdiyi qarmonlarla məni tanış edərkən dəfələrlə alətləri götürüb ifa etdi. İfalar xoşuma gəldi, qəlbimə yatdı. Bu əsl azərbaycan qarmonu çalğısına yaraşan üslub idi. O, 2004-cü ilə qədər ifaçılıqla da məşğul olmuş, Naxçıvan ərazisində toylara getmişdir.

Usta Rəhmanın emalatxanasında bir maraqlı qarmon da gördüm. Bu onun öz kiçik yaşlı nəvəsi üçün düzəltdiyi ən balaca qarmon idi. Kazan qarmonun dilçəklərindən düzəldilən bu bir oktavalı alətin xarici görünüşü peşəkar Azərbaycan qarmonuna bənzəyir. Öz-özümə fikir etdim ustalarımız azyaşlı, istedadlı uşaqlarımız üçün bu biçimdə qarmonlar hazırlasaydılar nə yaxşı olardı. Axı, buna böyük ehtiyac və tələbat var. Belə kiçik həcmli qarmonları nəinki azyaşlı oğlanlar, hətta 5-7 yaşlı qızlar da çala bilərlər.

Rəhman Əsgər oğlu Hacıyev 1979-cu ildə ailə qurub. İki qızı, iki oğlu və iki nəvəsi var.

2.69. İFAÇI, USTA



Vaqif Bağırov

Vaqif Şaban oğlu Bağırov qarmon ifaçılığı sənətində tanınanlardan biridir. O, 1955-ci ildə anadan olub. Göz açıb evdə həmişə musiqi səsi eşidib. Onun xatırladıqlarından: "Qardaşım Arifin Yusif adlı dostu tez-tez bizə məşqə gəlirdi. O, Mexaniki zavodda çalışırdı. Həm də həvəskar qarmonçu idi. "Kazan" qarmonunu daim bizim evdə qoyub gedirdi. Arifla Yusif növbəti məşqini bizim evdə edərkən əyləşib onlara diqqətlə tamaşa edirdim. Yusif təzə bir melodiya öyrənmişdi. Onu məşq edirdilər. O vaxt "Avropalı gəlin" İran kinofilmindən "Tormoz Hüseyn" mahnısı dəbdə idi. Toylarda da çalınıb-oxunurdu.

Yusif həmin mahnını qarmonun ikinci oktavasının "fa" kökündə çalırdı. Mən onun barmaqlarına və qarmonun dillərinə baxıb o pərdələri yadımda saxladım. Həm də melodiya artıq beynimdə idi. Arif və Yusif məşq edib, alətləri yerinə qoyub getdilər. Qarmonu götürüb "Tormoz Hüseyn" mahnısını çalmağa başladım. Beləliklə, qarmonda ilk havanı öyrəndim. Günlər ötdükcə öyrəndiklərimin sayı artırdı. Atam həvəsimi və götürmə qabiliyyətimi görüb klarnetdə çalaraq oyun havalarını mənə öyrətdi".

Vaqif Bağırov qarmon sənətinə 1970-ci ildən qədəm qoyub və az zaman ərzində sürətlə irəliləyib. Onun musiqi yaddaşı, öyrənmək qabiliyyəti çox iti idi. Onun özünün musiqi aləti olmasa da Yusifin "Kazan" markalı qarmonundan istifadə edirdi. Vaqifin dedikləri: "Teyyub Teyyuboğlunun 1968-ci ildə çıxmış qrammafon valı mənim ilk əvvəllər istifadə etdiyim vəsait oldu. Bu valda sənətkar "Sənsən" mahnısını və bir-neçə oyun havasını çalmışdı. Onların hamısını çalmağa başladım. Mənə ilk sənət verdiyi üçün həmin valı indi də qoruyuram. O dövrdə Zakir Mirzənin valına da çox qulaq asdım. Onun "Muğam və rəqs"i çox sevilirdi. Qrammafon valından bu əsəri olduğu kimi öyrənib çalmağa başladım. Virtuoz sənətkarın "Cəld rəqs"ini də repertuarıma daxil etdim. O illərdə "Melodiya" firması bir üzündə Əşrəf Əşrəfzadənin "Bayatı-kürd" muğamı, digər üzündə Aftandil İsrafilovun "Laçın" xalq mahnısı və "Qazaxı" rəqsi ifaları yazılan qrammafon valını nəşr etmişdi. Bunları da sevə-sevə öyrəndim. Mahir sənətkar Məmmədağa Ağayevin valını da əldə etmişdim. Əla "Segah" çalmışdı. Onu da dinlədim və öyrəndim. O çağlardan "Segah"a məhəbbətim artdı. Qrammafon valları mənim ilk müəllimim oldu".

Vaqif Bağırov Qızxanım Dadaşovanın, Teyyub Dəmirovun qrammafon vallarındakı ifalarından da bəhrələnmişdi. Xeyli sonralar isə Əhəd Əliyevin "Segah"ı yazılmış valını əldə etmişdi.

Həmyaş olan Vaqiflə Xanların yaxın dostluğu onların az zaman ərzində xeyli dərəcədə inkişaf etməsinə zəmin yaratmışdı. Onlar bir-birinin evində tez-tez məşq edər, lentləri, qrammafon vallarını birlikdə dinlər və öyrəndikləri şirin xalları bir-birinə ötürərdilər. Gənclər bu qərara gəlmişdilər ki, Qaraçuxurdakı mədəniyyət sarayına gedib Mirzə İbrahimovdan dərs alsınlar. Eşitmişdilər ki, Mirzə təcrübəli müəllimdir və şagirdlərə yaxşı muğam öyrədir. Xanlar Cəfərov və Vaqif Bağırov Mirzə müəllimin sinfinə getdilər. O, hər iki gəncin bacarığını yoxladı və çox bəyəndi. Vaqif və Xanlar oyun havalarını əla çalırdılar. Mirzə müəllim onlara yalnız muğamları öyrədirdi. Xanlar Mirzə müəllimdən az müddət, Vaqif isə cəmi 4 ay dərs aldı. Bu 1971-ci ilə təsadüf edir. Vaqif həmin ildə 2 saylı texniki-peşə məktəbə daxil olmuşdu. Dərzi peşəsinə yiyələnirdi. Hər gün dərsə getdiyi üçün qarmon sinfində təhsilini davam etdirə bilmədi. Həm də axı o, artıq sərbəst özü hər melodiyanı, yeni mahnıları və muğamları öyrənə bilirdi. Onun müəllimdən dərs almasına heç ehtiyac yox idi. Vaqif 1973-cü ildə texniki-peşə məktəbi təhsilini başa vurdu.

Vaqif artıq 1972-ci ildən toylara gedirdi. O, ilk dəfə dayısı oğlu Ramazanın toyunda çalmışdı. Bu toya özüylə klarnetçalan İsrafil Əzimovu aparmışdı. Onun xatırladıqlarından: "Toyda çalmaq üçün sənətkar qarmonum (el deyimində "zakaz qarmon") yox idi. Əmircanda yaşayan Şamil kişidən nisyə qarmon aldım. Toydan sonra aparıb ona 100 "rubl" verdim. Beləliklə hər çaldığım toydan sonra aparıb qarmonun pulunu hissə-hissə ödəyirdim".

Sonralar isə Şaban kişi 2 dəfə Rusiyanın Tula şəhərinə getmiş və oğluna qarmon alıb gətirmişdi.

Vaqif ilk əvvəllər Əmircan və Bül-Bülə klarnetçalanları ilə toylarda olurdu. Bu sırada Ragib Ağatahir oğlu, Tofiq Şərif, Cabar Şərif, İsrafil Əzimov, Dostməmməd, Fikrət Əliyev və Vahidin adını çəkməliyik. Vaqif Əmircan toylarına maştağalı Fazili də gətirirdi. Yaxşı tanınandan sonra Vaqifin toy dairəsi genişlənmişdi. Bir müddət xanəndə Ağaxan Abdullayevin də qohumlarının toylarında çalmışdı.

Vaqif Bağırov 1975-77-ci illərdə Riqa şəhərində hərbi xidmətdə olub. İlk əvvəllərdən məktub vasitəsilə xahiş etmişdi ki, əsgərliyə onunçün "Kazan" qarmon göndərsinlər. Şaban kişi elə də etmişdi. Vaqifin "Kazan" qarmonu daim çarpayısının altında idi. Boş vaxt olan kimi məşq edirdi. Vaqif əsgər getdiyi ilin əvvəllərində Bayıl qəsəbəsindəki İliç adına mədəniyyət sarayında qarmon sənətindən dərs demişdi. Əsgərlikdən gələndən sonra da bir müddət həmin mədəniyyət sarayında çalışmışdı. Vaqifin müəllimlik fəaliyyəti bununla məhdudlaşmayıb. O, 1978-82-ci illərdə Əmircandakı mədəniyyət evində qarmon kursunun müəllimi olub.

Bir vaxtlar uşaqlarını musiqi təhsilinə qoyanlar daha çox idi. Xüsusilə qarmon sənətinə axın olurdu. (Son 20 ildə sintezator ifa etməyi öyrənmək istəyənlər həddsiz çoxaldı və buna görə də mədəniyyət evlərində və saraylarında sintezator dərnəkləri və kursları açıldı). Orta məktəblərin nəzdində də musiqi kursları fəaliyyət göstərirdi. Vaqif 1985-89-cu illərdə 204 saylı orta ümumtəhsil məktəbin qarmon kursunda dərs demişdi.

Vaqif Bağırov öz üzərində çalışan musiqiçi olub həmişə. O, seçdiyi və çox sevdiyi peşədən zövq alıb daim. Sənətə məhəbbət onu görkəmli sənətkar, ustad tarzən Elxan Müzəffərovun Suraxanı mədəniyyət sarayında rəhbərlik etdiyi "Vətən" x.ç.a. ansamblına gətirib. Bacarıqlı qarmonçalan bu ansambl tərkibində sənət səriştəsini və təcrübəsini daha da artırıb. O, "Vətən" ansamblında 1978-1989-cu illərdə xüsusi fəaliyyət göstərib, müntəzəm məşqlərə gəlib və bütün konsertlərin iştirakçısı olub. "Vətən" ansamblı Suraxanı mədəniyyət sarayının özündə, Bakının müxtəlif mədəniyyət müəssisələrində, rayon zəhmətkeşləri və neftçilər qarşısında tez-tez çıxış edirdi. Konsertlərdə Vaqif Bağırov müğənniləri müşayiət edir, öz solo ifaları ilə tamaşaçı sevgisi qazanırdı. "Oxu tar!" Respublika baxış-müsabiqələrində "Vətən" ansamblı hər il birincilik qazanırdı. Uzun illər ərzində uğurlu fəaliyyət göstərən bu ansamblda saya-hesaba gəlməyən gənc musiqiçilər və müğənnilər peşəkar sənətə yol almışlar. "Vətən" ansamblı həmişə yüksək peşəkarlıqla çalışmışdır. Bütün bunlara görə bədii rəhbər Elxan Müzəffərovun böyük xidmətləri hər yerdə qeyd olunmalıdır.

Məşhur müğənni Xeyransa Məmmədova (1866-1995) da "Vətən" ansamblının yetirməsi idi.



Əmircan qəsəbə mədəniyyət evinin özfəaliyyət x.ç.a. ansamblı səhnədə. Soldan birinci: bədii rəhbər Vahid Axundlu, sağdan beşinci Vaqif Bağırov



"Vətən" x.ç.a. ansamblının konserti. Soldan birinci: Elxan Müzəffərov, yuxarı sırada sağdan ikinci Vaqif Bağırov

Elxan məllim onun istedadını hiss edib kiçik yaşlardan ansambla qəbul etmiş, onunla xüsusi hazırlıq apararaq böyük səhnə üçün hazırlamışdı. 1980-ci ildə Respublika sarayında keçirilən təntənəli dövlət tədbirindən sonra verilən konsertə "Vətən" ansamblının da çıxışı salınmışdı. Xeyransa Məmmədova konsertdə Cahangir Cahangirovun "Dəli Kür" kinofilminə bəstələdiyi "Ana Kür" əsərini yüksək səviyyədə oxumuş və ardı-arası kəsilməyən alqışlarla yenidən səhnəyə qaytarılmışdı. O, "Sarı bülbül" xalq mahnısı ilə bir daha tamaşaçıların ürəklərini fəth etmişdi. Konsertdə Azərbaycan dövlətinin başçısı Heydər Əliyev də iştirak edirdi. Tədbirin sonunda o, Xeyransa Məmmədovanı, "Vətən" x.ç.a. ansamblının rəhbərini və üzvlərini təbrik etmişdi. Dövlət rəhbərinin göstərişilə Xeyransa musiqi təhsilinə cəlb olunmuş, onun gələcək həyatı və fəaliyyəti üçün mühüm işlər görülmüşdü. Əfsus ki, o, həyatının və sənətinin çiçəkləndiyi bir dövrdə xəstəlik taparaq həyatdan erkən getdi. Vaqif "Vətən" ansamblının bütün uğurlarını bu gün də unutmayaraq xoş xatirələr yaşayır. O, "Vətən" x.ç.a. ansamblının tərkibində 1980-ci ildə Ukrayna Respublikasının Kiyev, Xarkov və başqa şəhərlərində konsertlərdə olmuşdu.

Elxan Müzəffərov Vaqif Bağırovun istedadına yaxşı bələd idi, onun qayda-qanuna, nizam-intizama riayət etməsini ansamblın digər üzvlərinə nümunə göstərirdi. O, Vaqifin xətrini çox istəyirdi. Elə bu gün də bu sıcaq münasibət davam edir. "Təşviqat qatarı" adı altında təşkil olunan konsertlərdə də "Vətən" ansamblı fəal idi.

Elxan müəllim Vaqifi 1990-cı illərin əvvəllərində Opera və Balet Teatrında yaranan x.ç.a. ansamblına dəvət etmişdi. Bu ansambl xalq artisti Səkinə İsmayılovanın təşəbbüsü ilə yaradılmışdı. Rəhbər o özü olsa da, ansambl üzvlərinin toplanması və ona bədii rəhbərlik edilməsi bilavasitə E.Müzəffərova aid idi. Bu ansamblın müşayiətilə yalnız Səkinə xanım özü deyil, Opera teatrının digər müğənniləri də oxuyurdular. 2 ilə yaxın bir müddətdə Vaqif Bağırov bu ansamblda çıxış etmişdi.

Vaqif qardaşları Arif, Akif, Rafiqdən ibarət ailə ansamblı ilə çox toylarda çıxış edib. Onun şirin çalğısı, ifaçılıq bacarığı çox sənətçilərimizin diqqətində olduğu üçün o, neçə toy dəstələrinin tərkibinə dəvət olunmuşdu.

Vaqif Bağırov 1979-80-ci illərdə Həsənağa Sadıqovun toy ansamblının tərkibində olub. Onun Həsənağa kimi virtuoz bir sənətkarın ansamblına qəbul olunması təsadüfi olmamış, bu işə aşıq-xanəndə Bilal Sadıqov zəmanət vermişdi. Rəhmətlik Aşıq Bilal Həsənağanın atası idi. Məsələ belə olmuşdu. Bilal Sadıqov Bakıda öz qohumlarının toyunda oxuyarkən onu müşayiət edən dəstənin tərkibində Vaqif də çalırdı. Həmin toyda Vaqifin müşayiət qabiliyyəti, solo ifaları, lirik nəğmələri xüsusi ürəklə çalması xanəndə Bilalın diqqətini cəlb etmişdi. O, Vaqifi Həsənağaya nişan vermiş, tərifləyib dəstəyə gətirmişdi.

Həsənağanın dəstəsi atasından və öz qardaşlarından ibarət olsa da klarnet və qarmon ifaçıları əksər hallarda Bakıdan dəvət olunurdular. O vaxtlar həmin dəstədə klarnet ifaçılarından Elxan Səmədzadə və ya lənkəranlı Əsgər çalırdı.

Vaqif salyanlı Həsənağanın ansamblı ilə Salyanda, Neftçalada, Əlibayramlıda, Sabirabadda, Saatlıda, Lənkəran bölgəsində və Bakıda çox toylarda olmuşdu.

İstedadlı qarmonçalan kimi tanınan Vaqif Azərbaycan Dövlət Muğam Teatrına da dəvət olunmuşdu. O, 2003-cü il oktyabr ayının 1-dən 2005-ci il fevral ayının 1-ə qədər həmin mədəniyyət müəssisəsində çalışıb və müxtəlif səviyyəli konsertlərdə çıxış edib. Yuxarıda qeyd olunan tarixlərdə biz onu tez-tez televiziya ekranında görürdük. Bunlar Muğam Teatrında keçirilən tədbirlərin video yazıları idi. Köhnə tarixləri əks etdirən tədbirlərin lentləri televiziyada nümayiş etdirləndə biz yenə Vaqifi ekranlarda seyr edirik.

İstəkli sənət dostumuzun fəaliyyəti bütün bunlarla bitmir. O da şəcərə nümayəndələri kimi, atası və qardaşları kimi daim çalışır. Zəhmətdən yoğrulmuş bu nəsil nümayəndələrini bir an işgücsüz təsəvvür etmək olmaz.



"Yaşar" ansamblının üzvləri və tanınmış sənətkarlar. Ön sırada soldan birinci: Balaxan Müzəffərov, Tofiq, İslam Rzayev, Xeyrulla Məmmədov, Səid Rüstəmov, Ramiz Mehdiyev və Elxan Müzəffərov, yuxarı sırada sağdan beşinci: Vaqif Bağırov

V.Bağırov 1996-cı ildə qarmonunu götürüb iki dəfə Təbrizə yollanmış, oradakı soydaşlarımızla yaxşı əlaqələr qurmuşdur. O, ev konsertlərində çıxış edərək musiqisevərləri klassik muğamlarımız və xalq havalarımızla tanış etmişdir. Hər dəfə olduğu kimi təbrizlilər yenə də milli qarmonumuzun ecazkar səsini hərarətlə qarşılayırdılar.

Son 20 ildə milli qarmonumuzun təmiri və yenilərinin düzəldilməsilə məşğul olan ustalarımız çoxalıb. Bu çox yaxşıdır. Vaqif də adını yaxşı ustalarımızın sırasına yazıb. O, çox az müddətdə, cəmi 2 il ərzində özünü qarmon ustası kimi tanıtdı və ifaçılarımızın əksəriyyəti onun ünvanına tərəf yol aldı.


2004-cü ildən qarmon ustası kimi çalışan yurddaşımızı "Hövsan Vaqif" kimi tanıyırlar. Hövsan qəsəbəsində yaşadığı üçün ona bu tanıtma verilib. Onun hazırladığı qarmonlar başqalarından xüsusilə gözəl tembri ilə seçilir. Qarmon üzrə mütəxəssis kimi deyə bilərəm ki, Vaqif gələcəkdə ən məşhur və ən keyfiyyətli qarmonları düzəldən ustalardan biri olacaq. Çünki, bunun işartıları və əlamətləri artıq açıq-aydın görünməkdədir. O, artıq tam mükəmməl, bacarıqlı ustadır.

Vaqif Bağırov 1983-cü ildə ailə qurub. Üç övladı var.

Oğul Fərid çox istedadlıdır. Qarmon çalmağı atasından öyrənib. Boş vaxtlarda atasına kömək edərək qarmonların təmirilə məşğul olur. O da yaxşı usta olmağı qarşısına məqsəd qoyub. Fərid firmaların birində çalışır. O, ibadət əhlidir, mömin insandır. 2008-ci ildə Məşhəd ziyarətində olub. 2010-cu ilin yazında biz onun toyunda iştirak edərək xeyir-dua vermişik. Dostlar adından Vaqifə nəvə şirinliyini yaşamağı arzu etmişik. Allah ona bu şirinliyi qismət edib. 2013-cü ildə nəvəsi dünyaya gəlib. Ona Əsma adı veriblər.

Usta Vaqif xeyirxah insandır. Dostlara münasibətdə də həssasdır. Yazı müəllifi kimi qeyd edirəm ki, onun xeyirxahlığından və dosta isti münasibətindən mənə də pay düşüb.

2010-cu ildə nəşr olunan "Azərbaycanda klarnet ifaçılığı sənəti" kitabımın ərsəyə gəlməsi ərəfəsində maddi çətinliklə üzləşdim. Heç kim, hətta klarnet ifaçılarının özləri də mənə yardım etmədilər. Nəşriyyat xərcini ödəmək üçün qarmonumun birini satmalı oldum. Lakin alıcı olmadığı üçün qarmonu sata bilmədim. Bunu eşidən usta Vaqif bizə gəlib mənim qarmonumu satmaq adıyla öz evinə apardı. 2-3 gündən sonra bizə gəldi, mənə 2200 manat pul verdi və dedi: "Bu pulu öz düzəltdiyim qarmonlardan birini sataraq sənə verirəm ki, kitabını nəşr edə bilərsən. Sənin qarmonun isə məndə qalır, haçan satılar, satılar... Səni darda qoymaq olmazdı, axı..."



Usta Vaqif iş zamanı

Səksəninci illərdən tanımışam
Tərbiyəli, mərifətli Vaqifi.
Özümə, qəlbimə yaxın sanmışam
Əhdinə düz, sədaqətli Vaqifi.

Üzündə həmişə nur şölələnir,
Təbəssümündən də işıq ələnir,
Könlü gülür, əhvalı çiçəklənir,
Tanımışıq ünsiyyətli Vaqifi.

Əsli-nəsli, nəcabəti təmizdir,
Qəlbi bir ümmandır, geniş dənizdir,
Xatiri xoşdur, o, bizə əzizdir,
Düz duymuşuq şərafətli Vaqifi.

Dostların evinə sovqatla gedər,
Sevincli, fərəhli ovqatla gedər,
Həmişə hörmətlə, urvatla gedər,
Daim gördük səxavətli Vaqifi.

Etməyib pis niyyət, heç bir pis güman,
Öz zəhmətilə yaşayıb hər zaman.
Onu əyə bilməyib çətin dövran,
Əzəmətli, mətanətli Vaqifi.

Ömrü düz yaşayıb, verməyib yelə,
Tutduğu düz yolu əyməyib hələ.
Çətin anlarda da görmüşük belə,
Əyilməyən dəyanətli Vaqifi.

Müdrik kişinin layiqli oğludur,
Əməlləri aydın, dürüst, doğrudur.
Onu sevdirən xisləti, ağlıdır,
Çox sevirik xoş niyyətli Vaqifi.

İstedadı vardır qanı-canında,
Sənətkardır yaxşılar sırasında.
Qarmonlar düzəldir öz ad-sanında,
İş tanıdır zehniyyətli Vaqifi.

Dost sayqılı, dost qayğılı insandır,
Dostlarından ötrü qəlbi yanandır.
Ürəyi dost üçün gözəl məkandır
Bu cəhət edib hörmətli Vaqifi.
Əhsən Rəhmanlı
10.10.2013-cü il

2.70. YARADICI SƏNƏTKAR



Xanlar Cəfərov

Aşıq sənətinə qulluq edənlərin fəaliyyətinə nəzər salanda görürük yaradan aşıq, ifası aşıq və ustad aşıq var.

Dastanlarımızı, aşıq oxumalarını, saz havalarını yaradan aşıqlarımız olmuşdur. Onların yaratdıqları nadir sənət inciləri zaman-zaman yaşanmış və dövrümüzə qədər gəlib çatmışdır. Həmçinin muğam sənətimizdə də istər xanəndələrimiz, istərsə də alət ifaçılarımız olmuşdur. Xanəndələr Hacı Hüsü, Cabbar Qaryağdı oğlu, Xan Şuşinski, tarzənlər Sadıqcan, Cəmil Əmirov, Mirzə Fərəc, Əhməd Bakıxanov və neçə-neçə sənətkarlarımız mahnılar, təsniflər, diringilər, dəraməd və rənglər yaratmışlar ki, bu günümüzə qədər gəlib çatmışdır. Musiqi tariximizin sonrakı dövrlərinə nəzər salsaq, nə qədər yaradıcı sənət adamlarının adlarına rast gələrik. Zurna, balaban, tütək ifaçısı, ustad Əli Kərimov çoxlu sayda oyun havaları yaratmışdır. Sonrakı sənətkarlar o havaları yaşatmış, toy-büsatda çalmışlar. Hafizələrdə, dillərdə yaşayan bu oyun havaları indiki toylarımızın da əsl rəqs musiqisidir.

Xanəndələr Qulu Əsgərov, Əlibaba Məmmədov, Niyaməddin Musayev, Məmmədbağır, Baba Mahmudoğlu, kaman ustası Habil Əliyev, tarzən Əhsən Dadaşov, qarmonçalanlar Teyyub Dəmirov, Məmmədağa Ağayev, Qızxanım Dadaşova, Abbas Abbasov, Zakir Mirzə, Aftandil İsrafilov, Zahid Məmmədzadə, klarnetçalan Ələkbər Əsgərov, tar, gitara ifaçısı Bəhram Nəsibov və onlarla sənət adamlarımızın adlarını çəkmək olar ki, onların yaradıcılıqlarından bizə könül oxşayan musiqilər, nəğmələr qalıb.

Qarmon sənətində öz yeri, xüsusi çəkisi olan, müsiqi aləmində yaradıcı şəxs kimi tanınan bir vətəndaşımızdan söhbət açaq.

Onun yaratdıqları sözün əsl mənasında həqiqi sənət nümunələridir.

Cəfərov Xanlar Məmmədağa oğlu 1956-cı il (meymun ili) fevral ayının 2-də (dolça bürcü) Bakının Əmircan (Əmirhacan) qəsəbəsində anadan olmuşdur.

Atası Məmmədağa müəllim Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. O, uzun illər NBNZ-də mühasib işləmişdir. Onun həyat yoldaşı Roza xanım bu dünyanı gənc yaşlarından tərk etmişdir. Xanlar anasını foto-şəkillərdən xatırlayır.

Körpə yaşlarından belə bir acılıq dadan Xanlar əsl ata sevgisi, qayğısı ilə böyüyürdü. Ata oğlanlarının hər ikisinin tərbiyəsiylə ciddi məşğul olur, gələcək xoşbəxtlikləri üçün əlindən gələni edirdi.

7 yaşında Əmircan kəndindəki 84 saylı məktəbin I sinifinə gedən Xanlar VIII sinifdən etibarən 97 saylı məktəbdə təhsilini davam etdirir. Daha sonra iki il 204 saylı orta məktəbdə təhsil alaraq buranı 1973-ci ildə bitirir.

Xanların istedadı uşaqlıqdan hiss olunurdu. O, ağzında mahnılar oxuyar, masa üstündə ritm

tutub nağara kimi vurardı. Sonralar sərbəst olaraq nağara çalmağa başlayır. Xanlar uşaq çağlarında həmişə dişlərini bir-birinə sıxıb ritm tutarmış. Bu özü çox maraqlı bir işdir. Aydın məsələdir ki, musiqidə ritm əsas meyardır Xanların sonralar yaxşı musiqiçi kimi yetişməsində uşaqlıqdan ritminin güclü olması bir faktordur.

Xanlar uşaqlıqda qoşa nağara da çalıb. Daha sonra 12 yaşında ikən sərbəst olaraq, öz bacarığı hesabına kamançа çalmağı da öyrənib.

12-13 yaşlarında Xanlar artıq Əmircan qəsəbə mədəniyyət evində xalq çalğı alətləri ansamblında kamançа çalırmış. Atası onun musiqi qabiliyyətini görüb təhsil alması üçün 5 saylı uşaq musiqi məktəbinin violençel sinifinə gətirir. O, burada 1 il təhsil alandan sonra həvəsdən düşüb uzaqlaşır. Görünür bütün bunlar onun uşaq şıltaqlığından irəli gəlirmiş.

Xanlar atasından xahiş edir ki, onu fortepiano sinifinə qoysun. O, burada da 1 il təhsil alır və yarımçıq qoyur. Daha sonrakı 1 il ərzində ümumiyyətlə musiqi ilə məşğul olmur.

Xanlargilin həyətində 2 iri, qollu-budaqlı tut ağacı var idi. O, tez-tez tut ağacına dırmaşar, evdəkilər üçün tut çırpar, özü isə iri, yoğun budaqların birində əyləşib ayaqlarını sallayaraq mahnı oxuyardı. Günlərin birində ağaca çıxıb, tut yeyib, öz "uşaq konsert"ini verərkən qəfildən onda belə bir arzu yaranır ki, qarmon çalmalıdır. Beləliklə o, fikir və düşüncələrini qarmon çalmağa yönəldir. Özünün qarmonu isə yox idi. Bu o vaxtlar idi ki, Xanlar 97 saylı məktəbin 8-ci sinifində oxuyurdu.

Məktəbin musiqi-nəğmə dərsləri keçirilən sinif otağında qarmon var idi. Nəğmə dərsini aparan musiqi müəllimi Vahid Axundlu özü də qarmonçalan idi. Dərs zamanı fortopiano və qarmon çalırdı. Xanlar dərsdən sonra həmin sinif otağına gələr və qarmon çalmağı öyrənərdi. Əvvəllər gizlincə məşğul olsa da, sonralar aşkarlandı və müəllimlər onu daha da həvəsləndirdilər. Vahid Axundlu və digər müəllimlər dedilər: "Xanlar, sən bununla daha ciddi məşğul ol. Bu iş səndə alınır. Əcəb qabiliyyətin var".

Xanlar daha da həvəslənir, qarmon alır və evdə müntəzəm məşğul olur. Ata onun bu məşğuliyyətinə çox sevinir və tez-tez onu dinləyir.

Bir müddətdən sonra Xanlar atasından xahiş edir ki, ona əsl sənətkar qarmonu alınsın. Məmmədağa müəllim oğluna bahalı qarmon alır. Xanlar sonsuz həvəslə bu alətlə irəliyə doğru addımlamaqda idi.

1971-ci ildə Xanlar Rusiyanın Tula şəhərinə gedir və özünə daha yaxşı qarmon alır. Qeyd edək ki, 2-ci Cahan müharibəsindən sonra Tula şəhərində Azərbaycan qarmonları hazırlanırdı. Bizimkilər gedib sifariş verib bəyəndikləri alətləri gətirirdilər.

Xanlar təzə qarmonla təzə həvəs olub daha ciddi məşq etməyə başlayır. Yoldaşları onun yaxşı qarmon çalmağını görüb ondan öyrənməyə gəlirlər.

XX əsrin 60-cı, 70-ci illərində Bakıda bir çox şadyana, ailə tədbirləri olurdu ki, sonrakı dövrlərdə zamanın diqtəsilə aradan çıxdı. Məsələn, "Əsgər yola saldı", toy mərasimindən bir gün qabaq "Toy axşamı", "Toy verdi" "Qaranquşdu" adlanan şən məclislər və s. keçirilərdi. Xanlar öz kiçik dəstəsilə tez-tez belə məclislərə çağrılardı. Bundan başqa ad günləri, yubileylər, oğlan uşağına qurulan "kiçik toy"larda çalması Xanları daha böyük məclislərin astanasına gətirirdi.

Gənc olmasına baxmayaraq Xanlar Əmircan qəsəbəsində musiqiçi kimi qəbul olunurdu. Yavaş-yavaş toylara ayaq açırdı. Xanlar ilk dəfə toyda məşhur gitaraçı Rafiq Hüseynovla (Rəmiş) çalmasını indi də xatırlayır. Deyilənə görə gənc qarmonçu ustad sənətkarı neçə müşayiət etmişdisə Rəmiş buna məəttəl qalmışdı.

1974-cü ilə qədər Xanlar ətraf kənd və qəsəbələrə məclislərə çağrılır. Həmin illərdə o, klarnet musiqi alətini ifa etməyi də öz bacarığı nəticəsində öyrənmişdi. Hətta bəzi yaşıdları bu alətlə məşğul olmağı ondan öyrənmişdilər. Lakin özü bu alətin ifaçısı olmağı yox, qarmonu daha üstün

tuturdu.

Bütün bu kimi işlərə baş vurması onu sübut edirdi ki, bu gənc çox böyük istedad sahibi idi və bu fitri qabiliyyət getdikcə daha qabarıq şəkildə üzə çıxırdı.

Böyük şairimiz Səməd Vurğunun belə şeiri vardır.

"Arzular, diləklər həvəsdən doğur,
Can nəyə lazımdır həvəs olmasa."

Artıq uşaqlıq şıltaqlığı arxada qalırdı. Onun fitri istedadı ilə həvəsi vəhdət yaradaraq onu gələcək musiqiçi kimi hazırlayırdı.

Dahilərdən biri deyib: "İncəsənət çox qısqancdır, o, istəyir ki, bütün ömrünü ona həsr edəsən".

Xanlar gənc ömrünü artıq musiqi ilə keçirirdi. Bu aləm onu özünə çəkirdi. El arasında belə bir söz var: "Musiqi bəzəkli gəlin kimidir. O, səni özü tərəfə çəkir". Əsl sənətə xidmət edənlər musiqinin necə cazibədar, ovsunlu olduğunu yaxşı anlayırlar.

Rus bəstəkarı Dmitri Şostakoviç demişdir: "Musiqini sevmək üçün onu dinləmək lazımdır". Xanlar əlinə düşən qrammofon vallarını, lentləri dinlər, sevdiyi nəğmələri, xüsusilə oyun havalarını qeyri-adi yaddaşı hesabına tezcə də öyrənərdi.



Mirzə İbrahimov

Yazımızın bu hissəsində bir az geriyə dönməli olacağıq. 1970-ci ildə Xanlar qarmon sənətini daha mükəmməl öyrənmək üçün Qaraçuxur qəsəbəsindəki mədəniyyət sarayının musiqi kursuna daxil olur. Uşaqlıq dostu Vaqif Bağırov da onunla bir oxuyur. Burada Mirzə müəllimin sinifində çox şey öyrənir. Mirzə müəllim ona xüsusilə muğamları diqqətlə öyrədir. Çünki, Xanlar oraya gələndə artıq mahnılar və oyun havalarının çoxusunu demək olar ki, bilirdi.

Bütün bu qeyd olunanlar tarixə çevrilir deyə bir haşiyə çıxaq: "Mirzə müəllim qəlbi təmiz, vicdanlı və əxlaqlı adam olduğu üçün bütün bildiklərini ən istedadlı tələbələrə ürəklə öyrədirdi. O, işlədiyi mədəniyyət sarayında uzun illər tələbələr hazırlamışdır. Mirzə müəllim tar və qarmon ifaçısı idi. Toylara qarmon ifaçısı kimi gedirdi. Əslən qazaxlı olan bu kişi Bakıya gələrkən əvvəllər neft sənayesi sahəsində çalışmış, sonra isə qarmon müəllimi kimi ömrünün sonuna qədər layiqli və səmərəli fəaliyyət göstərmişdir. Onun hazırladığı yetirmələrin əksəriyyəti qarmon sənətində tanınıblar. Xanlar həmişə Mirzə müəlimin xatirini əziz tutur və Allahdan ona rəhmət diləyir".

Xanlar beşillik qarmon kursunu üç ilə bitirib vəsiqə alır.

"Kəlilə və Dimnə" kitabında yazılıb. "Nə qədər çalışsalar da hünər və istedadın qarşısını almaq mümkün deyil". Düzdür, Xanların musiqi ilə məşğul olması qarşısında heç bir sədd yox idi. Atası və doğmaları onun bu əməlindən məmnun idilər. Lakin qeyd edək ki, bu cavan oğlan öz istedadı, çalışqanlığı, musiqiyə bağlanması ilə özünə yol açırdı. Artıq o, özü də fitri istedadın onu öz ardınca çəkib aparmasının əksinə sıxa bilməzdi.

İstəkli şairimiz Məhəmməd Hadi demişdir:

"Elmin, hünərin mərifətin varsa, buyur gəl!
Yoxsa bu həyat aləminə olma bir əngəl".

Xanlar sənətə öz hünərilə gəlmişdi.

Bəzi valideynlər özlərinin arzusu əsasında musiqi qabiliyyəti olmayan övladlarını musiqi təhsilinə gətirirlər. Musiqi müəllimləri onlara övladlarının istedadsız olduqlarını dedikdə, razılaş-

mırlar, hətta inciyirlər. Sonrakı dövrdə bu uşağı müxtəlif yollarla, tanışbqla kollecə, ali musiqi ocağına düzəltməyə nail olanlar da olur. Lakin həmin övladlar ya sənətimizə əngəl olurlar və yaxud bu işdən uzaqlaşırlar.

Xanlargilin yaşadığı Əmircan qəsəbəsində Rafiq adlı kamança ifaçısı var idi. O, bir gün Xanların qarmon çalmağını görüb çox bəyənir və onu Azərbaycan Dövlət Filarmonyasına aparır. Rəhbərlik onun ifasını diqqətlə yoxlayandan sonra işə götürürlər. Beləliklə Xanlar Cəfərov 1972-ci ilin sonlarından etibarən Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblında işləyir. Burada çalarkən o, ansamblın tərkibində keçmiş SSRİ məkanının böyük şəhərlərində, həmçinin ölkənin paytaxtı Moskvada konsertlərdə olur. Belə məsuliyyətli konsertlər Xanları get-gedə peşəkar musiqiçi kimi daha da formalaşdırır və dünya görüşünü artırır.

Bir gün əməkdar incəsənət xadimi, bəstəkar-tarzən Ağası Məşədibəyov filarmoniyada məşq zamanı Xanları dinləyir, çox bəyənir və onu rəhbəri olduğu "Azərbaycan tərənələri" xalq çalğı alətləri ansamblına dəvət edir. Bu məşhur ansambl da filarmoniyada yaranmışdı. Ansamblın solistləri Azərbaycanın ən tanınmış xanəndələri, əməkdar və xalq artistləri idi. Həmçinin xalq artisti Zeynəb Xanlarova konsertlərə o dövrdə "Azərbaycan tərənələri" ansamblı ilə gedirdi. Xanlar bu ansamblın tərkibində ən iri, bir-birindən maraqlı və möhtəşəm konsertlərdə çıxış edirdi. Zeynəb xanımla onların İrəvan səfərində də təmtəraqlı, izdihamlı konsertləri olmuşdu. Məşhur qarmonçu Avtandil İsrafilov da bu konsertdə solist kimi çıxış edirdi. A.Məşədibəyov rəhbərlik etdiyi ansambla mahir ifaçıları cəlb etmişdi. Bəzən konsert səfərlərinə gedəndə ansambla əlavə olaraq daha məşhur, ustad musiqiçiləri də dəvət edərdi. belə sənətkarlardan mahir klarnetçalan Şəmsi İmanov, qarmonçalan Abbas Abbasov və başqalarının adlarını göstərmək olar.

Bu ifaçılar sənət səfərlərində həm də solist kimi öz ifalarını təqdim edirdilər. Ansambl hər il bütün yay aylarını Şimali Qafqazın ən görməli yerlərində, kurort şəhərlərində konsertlər verirdilər. Keçmiş SSRİ məkanının hər yerindən istirahətə gələn müxtəlif xalqların nümayəndələri üçün verilən konsertlər Azərbaycanın musiqi mədəniyyətinin əsl və layiqli təbliği idi.

Belə konsertlərin hazırlığı üçün keçirilən məşqlərdə iştirak edən Şəmsi İmanov Xanlar haqqında belə söyləmişdi: "Səhnədə məşq gedirdi. Yanımda qarmonçalan uşaq əyləşmişdi. Olduqca usta çalğısı var idi. İnanmağım gəlmirdi. Gözümü yumurdum, elə bilirdim böyrümdə yaşlı, ustad bir sənətkar əyləşib. Gözümü açıb görürdüm ki, yanımdakı qarmonçu uşaqdır. Doğrudan da heyrətli bir iş idi".

Göründüyü kimi Xanlar 1970-ci illərin əvvəllərində nəinki dinləyicilər, hətta ən böyük sənətkarlar tərəfindən qəbul olunurdu.

Xanlar Cəfərov 1974-1976-cı illər ərzində ordu sıralarında olmuşdur. Ordudan qayıtdıqdan sonra əvvəlki iş yerinə Dövlət Filarmoniyasına qayıdır, "Azərbaycan tərənələri" xalq çalğı alətləri ansamblında çalışır.

1978-ci ildə Azərbaycan Qastrol-Konsert Birliyi yaranır və filarmoniyada çalışan xalq çalğı alətləri ansamblları və bütün solistlər oraya köçürülür.

1982-ci ilin iyul ayına qədər Xanlar bu mədəniyyət müəssisəsində çalışır. Bir müddət tarzən Tofiq Məmmədovun qrupunda, daha sonra xalq artisti, tarzən Hacı Məmmədovun rəhbəri olduğu xalq çalğı alətləri ansamblında solist və müşayiətçi olan Xanlar daha yaxşı tanınmağa başlayır.

Şair Ramiz Rövşənin belə bir fikri var: "Yazmaq üçün insanın içində bir işıq, sevinc olmalıdır". Bütünlükdə bunu yaradıcı adamların hamısına şamil etmək olar.

Xanlar artıq yaratmağa, musiqi bəstələməyə, eşitdiyi, çaldığı xalq musiqi nümunələrinə yeni əlavələr etməyə başlamışdı. Məşq etməkdən doymurdu. "Ən ağıllı dərs özünə keçdiyin dərsdir" – deyirlər. Xanlar evində məşq zamanı özünə dərs keçirdi elə bil. O, özünü əsl sənətdə axtarırdı,

onun ürəyində əsl sənət eşqi vardı.

1970-ci illərdə Əmircanda Bağırovlar musiqiçi ailəsi var idi. Ailənin başçısı Şaban kişi bacarıqlı insan, ali təhsilli mühəndis idi. Onun musiqiyə bağlı olması övladlarına da sirayət etmişdi. Şaban kişi yaxşı klarnetçalan idi və Şəmsi İmanovla yaxşı münasibətdə olurdu. Onun oğlanları Arif nağara, Vaqif qarmon, Akif balaban, Rafiq isə qoşa nağara çalırdı. Şaban kişi övladlarının musiqi tərbiyəsi ilə də ciddi məşğul olurdu.

Xanlar bu ailədən Arifla, xüsusilə özü ilə tay-tuş olan qarmonçalan Vaqiflə yaxın dostluq edirdi. Arifla birlikdə toylarda çalardı. Xanlarla Vaqifin sənət yoldaşlığı çox maraqlı idi. Bir-birinin evlərində tez-tez görüşər, hərə öz qarmonunu götürərək birlikdə məşq edərdilər. Bəzən məşqlər saatlarla uzanardı. Onların bir-birinin həvəsinə çalması, bir-birlərindən geri qalmaq istəməmələri, həqiqi sənət rəqabəti hər ikisini daha da püxtələşdirirdi. Xanların gənclik illərini xatırlayanlar deyir ki, o, sənətinə qarşı həmişə tələbkar olub. Ev məşqlərində bəzən elə olub ki, ifası cəld, çətin olan rəqs melodyasının üzərində bir ay çalışıb.

Xanlar "Az-konsert"də Hacı Məmmədovun kollektivində işlərkən ən məşhur müğənnilərlə birlikdə Bakıda və rayonlarda sayı-hesabı bilinməz qədər konsertlərdə olmuşdur.

1983-cü ildə Xanları klarnet, balaban, tütək ifaçısı Fərhad Hüseynovun rəhbərliyi ilə instrumental ansamblın tərkibinə keçirmə yolu ilə Nizami adına mədəniyyət və istirahət parkına işə göndərirlər. Bir müddət burada çalışır. Rəhbərliyin əmrilə o, 1984-cü ildən yenidən Azərbaycan Qastrol-Konsert Birliyinə qaytarılır və ən böyük tədbirlərə göndərilir. Xanlar 1988-ci ilə qədər burada fəaliyyətdə olur.

Xanların 1979-80-cı illərdə estrada müğənnisi Akif İslamzadə ilə də sənət yoldaşlığı olmuş, Bakının şadlıq saraylarında və restorantlarında çalıb-oxumuşlar.

Ümumiyyətlə ən yaxşı musiqiçilərdən biri kimi çoxları onunla yaradıcılıq əlaqələri qurmuşlar. Buna misal olaraq cazmen-bəstəkar, xalq artisti Rafiq Babayevin, əməkdar İncəsənət xadimi (haz. x.a., professor) Səyavuş Kəriminin adlarını göstərmək olar.

O insanlar həyatda nüfuz və uğur qazanırlar ki, onlar ömür pillələrini bir-bir qalxırlar. Xanlar ömür pilləkanında səbrlə, dözümlə qalxdıqca, sənət pillələrini də bir-bir uğurla qalxaraq ucalırdı.

1980-ci illərin ikinci yarısından müğənni Nisə Qasımova ilə sənət əlaqələrinə başlayan Xanlar Cəfərov istedadlı musiqiçiləri ətrafına toplayır. Əslində bu ansambl əvvəllər bəstəkar Ələkbər Tağıyevin rəhbərliyi altında "Arzu" adı ilə tanınırdı. Nisə Qasımova və digər müğənnilər bu ansamblın müşayətilə Ə. Tağıyevin çox sevilən mahnılarını oxuyurdular. Xanlar ansamblın musiqi rəhbəri kimi ciddi yaradıcı işlər quraraq yeni səslənmə yaradır. Bu dövrdə musiqiçi kimi digər müsbət cəhətləri üzə çıxır. Məlum olur ki, ansambl ilə işləmək qabiliyyəti, alətlərin səslənməsini duyma bacarığı, onların bir-birilə uzlaşdırma səriştəsi artıq onun əsl işidir.

Xanlargil Nisə Qasımova ilə televiziya və radiomuzda müntəzəm çıxışlar edir, Bakı və ətrafda konsertlərdə olurlar. Nisə Qasımova ilə ansambl Dağıstanda uğurlu konsertlər verir.

Nisə Qasımova ilə sənət yoldaşlığı Xanlara şöhrət gətirir. Belə ki, ifaçılıqdan başqa onun digər yaradıcılıq cəhətləri də daha qabarıq şəkildə üzə çıxır. Musiqi ictimaiyyəti Xanları yaradıcı sənətkar kimi qəbul edir.

Xanların N.Qasımova ilə yaradıcılıq əlaqələri bu günə qədər davam edir.

1988-ci ildə Azərbaycan Dövlət Muğam Teatrı yaranarkən Xanlar da işə dəvət olunur. O, burada bir il fəaliyyəti dövründə səmərəli iş göstərir. Müxtəlif saraylarda, həmçinin televiziyada, radioda xanəndələrimizdən, xalq artistləri İslam Rzayevi, Qədir Rüstəmovu, Aygün Bayramovanı, Famil Nəcəfovu və b. müşayiət edir. Buradakı fəaliyyəti zamanı Xanların zərgər dəqiqliyi kimi göstərdiyi solo çalğıları, unikal sənəti aşkar olur.



1989-cu il. Muğam Teatrında konsert. Ansambl tərkibində sağdan birinci Xanlar Cəfərov.

1990-cı ildə Bakıda "Ümid" instrumental ansambl yaranır. Ansamblın tərkibi Özbəkistandan yaşayış yerlərindən çıxarılmış Axısxa türklərindən və Qərbi Azərbaycandan deportasiya olunmuş azəri türklərindən ibarət idi. Kollektivi yaratmaqda məqsəd onların doğma yurdlara qayıtmaq arzu və həvəsini gücləndirmək, ümid çırağını yandırmaq idi. "Ümid" ansamblını yaradan



İçərişəhərdə konsert. Sağdan: Xanlar Cəfərov, Xalid, Ağacəbrayıl Abbaszəliyev və digərləri

Axısxa türkü Faiq Azğurluya məsləhət görürlər ki, təşkilatçılıq, yaradıcılıq qabiliyyəti olan, ansambıl işini gözəl bilən Xanları musiqi rəhbəri kimi dəvət etsin. F.Azğurlu belə də edir. Ansamblı təşkil etmək Xanlara həvalə edilir.

1990-cı il 20 Yanvar faciəsindən sonra axıdılan günahsız qanların yerdə qalmaması üçün savaşan, öz azadlığı və dövlət müstəqilliyi uğrunda çarpışan xalqımızın arzuları və ümidləri çox böyük idi. Belə bir dövrdə yaranan "Ümid" ansamblının özü də çoxlarının ürəyində ümid çırağı yandırmışdı.

Xanlar ansambl üçün zəngin, rəngarəng repertuar yarada bilmişdi. Burada səslənən hər bir əsər, hətta xalq mahnıları özü də yeni səpgidə idi. bütün xalq çalğı alətləri və instrumental ansamblarımızdan öz ifa tərzi, üslubu, çalğı manerası ilə fərqlənən "Ümid" Şərq və Avropa üslubunun birgə sintezini yaratmışdı. Bütün bunlar Xanlar kimi yeni fikirli bir sənətkarın musiqi duyumunun və aydın, parlaq düşüncələrinin məhsulu idi.

Ansamblın tərkibində Azərbaycan milli alətləri ilə birlikdə, violençel, skripka, baş gitara, Avropa zərb alətləri dəsti birlikdə gözəl həmahənglik yaradaraq orkestr səviyyəsində səslənirdi. Burada X.Cəfərovun incə zövqü, yaradıcılıq təxəyyülü və işgüzarlığı mühüm rol oynayırdı. Ansambl ilk mərhələdə üç il fəaliyyətdə olmuşdur.

1941-ci ildə dahi şəxsiyyət, böyük bəstəkar Üzeyir Hacıbəylinin göstərişi və iştirakı ilə xalq çalğı alətləri ansamblı yaradılır və rəhbərlik muğam bilicisi, tarzən-pedaqoq Əhməd Bakıxanova tapşırılır. Ə. Bakıxanov ansambl ilə xüsusi zövqlə, ustalıqla,dəqiqliklə işləyərək repertuara klassik muğamları, təsnifləri, dəraməd və rəngləri, xalq mahnılarını və bəstəkar əsərlərini daxil edərək lentə yazdırmışdır. O, bu ansamblda ardıcıl olaraq musiqiçilər və xanəndələr yetişdirmişdir.

1963-cü ildə məşhur tarzən Əhsən Dadaşov Azərbaycan Televiziya və RadioVerilişləri Komitəsi nəzdində xalq çalğı alətləri ansamblı yaradır. Ansambla əsasən gəncləri cəlb edir. Yeni həvəslə, yeni tərzdə, yeni ampulada işə başlayan kollektiv böyük və uğurlu yaradıcılıq yolu keçir.

Ə.Dadaşovun rəhbərlik etdiyi kollektiv yaradıcılıq səpgisi ilə Ə.Bakıxanovun və Ə.Quliyevin yaratdığı kollektivlərdən fərqlənir. Əhsən müəllimin sənətində fantaziya, incə, həssas duyum və bəzəklər çox olduğu üçün bunlardan ansambl işində ustalıqla istifadə edirdi.

Adları çəkilən kollektivlər və onlardan sonra meydana gəlmiş neçə-neçə ansambllar özlərinə məxsus sənət yollarını addımlayaraq bu günə qədər gəlib çıxmışlar.


Mübaliğəsiz deyə bilərik ki, ustad sayılan və ansambl yaradıcılığında öz dəsti-xətti olan Ə.Bakıxanov və Ə. Dadaşovdan sonra Xanlar Cəfərovun ansambl fəaliyyəti, rəhbərliyi xüsusi qeyd olunmalıdır. Xanların rəhbərlik etdiyi ansamblların həmişə öz dəsti-xətti olmuşdur.

"Ümid" ansamblı heç bir mənbədən maliyyə dəstəyi almasa da az vaxt içərisində xeyli iş görmüş, şərəfli yol gəlmişdir. Xanların incə duyumlarla, zərif duyğularla işlədiyi melodiyalar, yeni oranjemanlarda müğənnilərin ifaları Azərbaycan radiosunun fonduna yazılmışdır. Təbii ki, gələcəkdə yaranacaq ansambllar "Ümid"in lent yazılarından çox şey öyrənəcəklər.

"Ümid" instrumental ansambl fəaliyyətdə olduğu müddətdə Bakının ən böyük mədəniyyət ocaqlarında, Naxçıvanda, Mingəçevirdə, Salyanda və digər şəhərlərdə konsertlər vermişdir. Konsertlərdə əməkdar artistlər Brilyant Dadaşova, Nazpəri Dostəliyeva, İlqar Muradov, Nisə Qasımova (haz. xalq artistləri), həmçinin Nadir Bayramlı, Ruhəngiz Allahverdiyeva, Səbinə İlyasova, Tunar Rəhmanoğlu və Əlinağı İrəvanlı (rəhmətlik) iştirak etmişlər.

1988-ci ildə X.Cəfərov tanınan sənətçimiz Həsənağa Sadıqovun rəhbərlik etdiyi "Mahirlər" ansamblının tərkibində Vyetnam ölkəsində konsertlərdə olmuşdur. O, 1989-cu ildə məşhur cazmen, bəstəkar, xalq artisti Rafiq Babayevin musiqi qurupu ilə birlikdə Afrikaya maraqlı səfərlərinə getmişdir.

Xanlar eyforiyaya qapılmır, uğurları ilə kifayətlənmir və daim yaradıcılıq axtarışlarında olur.



"Neftçi" ansamblının konserti. Soldan birinci Xanlar Cəfərov

Radiomuzun fondunda Xanların bəstələdiyi, öz ifasında yazılmış lentləri qorunur. Sədi Şirazi deyib:

"Düzlüyü çox sevər taleyi yazan,
Görmədim düz yolda yolunu azan".

Xanlar öz tale yazısının hökmü ilə öz düz, doğru yolunu tutaraq həyat və sənət səlnaməsini yazaraq yol gəlir. Neçə deyərlər, karvan yöndə, sarvan öndədir.

X.Cəfərov 1999-2001-ci illər ərzində Moskva və Sankt-Peterburq şəhərlərində N.Qasmova ilə birlikdə çalışmış, musiqimizi ləyaqətlə təmsil etmiş, milli qarmonumuzun ecazkar səsini başqa xalqların nümayəndələrinə sevdirmişdir.

Xanlar milli qarmonumuzun təkmilləşməsi yolunda da öz fikirlərini yürütmüşdür. O, ilk dəfə Azərbaycan qarmonuna akkordeonda olduğu kimi "registr" düzəltdirmişdir.

1989-1991-ci illərdə müxtəlif vaxtlarda qardaş Türkiyə ölkəsində səfərlərdə olaraq Xanlar öz solo təqdimi ilə qarmonumuzu türklərə sevdirmişdir. Bu səfərlərə o, Dövlət Muğam Teatrının tərkibində getmişdir. 2002-ci ildə "Azərneftyağ" İstehsalat Birliyində "Neftçi" mahnı və rəqs ansamblı yaradılmışdı. Ansamblın bədii rəhbəri əməkdar artist Fikrət Verdiyev idi. O, musiqi rəhbəri kimi kollektivə Xanlar Cəfərovu dəvət etmişdi. Milli rəqs quruluşlarını baletmeysterlər Fərhad və Tamilla xanım verirdilər. Ansamblın tərkibinin seçilməsində, repertuarın hazırlanmasında, kompozisiya quruluşlarında, mahnıların yeni səpgidə hazırlanmasında, oranjemanlarda Xanların çox böyük rolu var idi. Bu yaradıcı insan üçün burada geniş imkanlar yaranmışdı ki, onun bu böyük istedadı özünü tam şəkildə büruzə verirdi. Xanlar hər bir musiqi əsərinə yaradıcı yanaşaraq əhəmiyyətli işlərilə gözəl səslənmə yaradırdı. Müğənnilərin hər biri onun yaradıcı fikirlərindən və işləmələrindən razı qalırdılar.

Xalq ruhundan qopub gələn xoş ahəngli melodiyalar, diringilər Xanların oranjemanında canlı konsertlərdə səslənmiş, lentlərə yazılmışdır.

Misal üçün Ə.Dadaşovun "Rahab rəngi"ni, "Rast rəngi"ni və s, göstərmək olar. Bu melodiyalar elə işlənib oranjeman olunmuşdur ki, dünya səs xəzinəsinə daxil olmalı havalardır.

Xanların bəstələdiyi "Çahargah dəramədi" bu muğama xas olan bütün xüsusiyyətləri özündə əks etdirir. Çahargahın bütün şöbə və guşələri burada təcəssüm tapır. "Neftçi" ansamblının bütün konsertlərində "Çahargah dəramədi" əzəmətlə səslənirdi. Bunlardan başqa X.Cəfərov klassik muğam "Çahargah"ı ansambl üçün xüsusi məharətlə işləmişdir. Burada ansambl ifası, ayrı-ayrı alətlərin solo çıxışları, xanəndələrin muğamın hər bir şöbə və guşələrini oxuması tam əhatə olunur. "Çahargah" bu şəkildə Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində böyük uğurla səslənmişdir.

2004-cü ildə "Neftçi" mahnı və rəqs ansamblı Moskva şəhərində konsertlər vermişdir. Bu konsertlərdə kaman ustası, xalq artisti Habil Əliyevin də çıxışları hərarətlə qarşılanmışdır. Xanların hazırladığı repertuarı Moskva tamaşaçıları alqışlamışdır. Ansambl solistlər Aygün Bayramovanı, Feyruz Səxavəti, Nazpəri Dostəliyevanı, Bilal Əliyevi müşayiət etmişdir.

Ansamblın müğənniləri Aygün Bayramova (haz.x.a), Könül Xasıyeva (haz.ə.a.), Teyyub Aslanov (haz.ə.a.), Cabir Abdullayev (haz.ə.a.), Əyyub Aslanov, Rövşən Behçət, Feruz Səxavət (haz.ə.a.), Babək Niftəliyev, Səbuhi İbayev (haz.ə.a.), Aytən Məhərrəmova, Məzahir Gəncəli, Ehtiram Hüseynov, İlkin Əhmədov, Bəsdi Sevdiyeva, Sərdar Bərdəli, Bəyimxanım və Samir Cəfərov üçün gözəl, məzmunlu və bədii cəhətdən çox yüksək səviyyəli repertuar hazırlanmışdı. Kollektivdə Aşıq Qələndər, Aşıq Dəmir, Aşıq Altay, Aşıq Ədalət Dəlidağ da çalışırdı. Konsertlərin aparıcıları İlham Əzizov və Pünhan İsmayıl idi. "Neftçi" ansamblının "Azərneftyağ" İstehsalat Birliyinin mədəniyyət sarayında, Heydər Əliyev sarayında və televiziyada konsertləri olmuşdu. 2005-ci ildə Nazpəri Dostəliyevanın (haz.x.a.) Moskvadakı konsertində müğənnini "Neftçi" an-

samblı müşayiət etmişdi. Repertuarın hazırlanmasında X. Cəfərovun xüsusi xidməti olmuşdu.

Xanların rəhbərliyilə "Ümid" ansamblı 2007-ci ildə "Nərmin-Kəmalə" şadlıq sarayında məşhur müğənni Azəri qızı Günelin konsertinə xüsusi gözəllik vermişdi. 2011-ci ildə Günelin Heydər Əliyev sarayında keçirilən konsertində müğənnini Türkiyədən gətirdiyi orkestr və X.Cəfərovun rəhbərlik etdiyi "Ümid" ansamblı müşayiət etmişdi.

Qeyd etməliyik ki, Xanların əhəmiyyətli və səviyyəli yaradıcılıq bacarığından zaman-zaman bəstəkarlar, müğənnilər, teleaparıcılar və digərləri istifadə etmişlər. O da bacarığını heç vaxt, heç kəsdən əsirgəməmişdir. Bu adam Allahın ona bəxş etdiyi istedadı xalqa, insanlara sərf etməyi özünə borc bilmişdir. 2011-2012-ci illər arasında teleaparıcı Murad Dadaşovun layihəsilə fəaliyyət göstərən "Qlobus-bənd" verilişləri bir-neçə televiziyada estrada musiqiləri səsləndirirdi. Toplanmış musiqi heyətində Xanların da olması işin səviyyəsini daha da yüksəldir və tamaşaçı zövqünə müsbət yönüm verirdi. Məhs Xanlara görə gənc musiqiçilər "Qlobus-bənd"in daimi tamaşaçısı idilər. Xanlar ora Azərbaycan musiqisinin bilicisi və həm də musiqilərin seçilib hazırlanması üçün və tərtibatçı kimi dəvət olunmuşdu.

Müğənni, əməkdar artist Lalə Məmmədova da Xanların yaradıcılığından bəhrələnmişdir. O, qarmoncunun "Xanları" adıyla tanınan, "Ümid" ansamblının müşayiətilə yazılıb səsləndirilərək populyarlıq qazanan melodiyasını mahnı kimi oxumuşdur. Yazılışda müğənnini müəllif özü də müşayiət etmişdir. Çox gözəl bir mahnı alınmışdır.

"Space" televiziyasında "Görüş yeri" adlı musiqi proqramı vardı. 2006-cı ildə müğənni Zakir Əliyevi (haz.ə.a.) Xanlar Cəfərov öz qrupu ilə əla müşayiət etmişdi.


Xanların bəstəkarlıq fəaliyyəti olduqca səmərəli və bəhrəlidir. Onun 100-ə yaxın melodiyasının arasında mahnıları da vardır. Mahnılarının bəzilərini xalq artistləri Səməd Səmədov, Nisə Qasımova və əməkdar artist Teyyub Aslanov oxumuşlar. O, qarmon üçün "Daimi hərəkət" bəstələmişdir. Göründüyü kimi bu çür zəngin yaradıcılıq yolu keçən, Azərbaycan musiqisinə öz töhfələrini verən bir sənətkarın yaradıcılıq nümunələrindən bəhrələnənlərin, rəhbərlik etdiyi ansamblardan yetişənlərin coxu əməkdar, xalq artisti fəxri adlara yüksəlsələr də onun özü bu titullardan kənar qalıb. Belə bir atalar misalı var: "Çıraq öz dibinə işıq salmır". Musiqi mədəniyyətimizin inkişafında böyük xidmətləri olan, qarmon sənətimizi inkişafa aparan yaradıcı bir sənətkar diqqət və qayğıdan kənarda qalmamalıdır.

X.Cəfərov mahir qarmon ifaçımız Avtandil İsrafilova "Şur təranələri" həsr etmişdir. Bu melodiyanı musiqiçilərin tədbirlərində ifa edir. Son dövrlərdə o, öz bəstələrindən biri olan, iti sürətli "Yevropeyka" adlı melodiyanı da gənc qarmon ifaçılarımızın arzusunu nəzərə alaraq əksər məclislərdə ifa edir. Populyarlıq qazanan bu əsər gənc qarmonçalarlarımızın repertuarındadır. Gənc musiqiçilər onun "Ayxanı" rərsini də çox sevir və ifa edirlər. O, melodiyanı nəvəsinə həsr etmişdir.

X.Cəfərov 2012-ci il iyunun 18-də Əmircan qəsəbəsində nəvəsi Ayxana kiçik toy məclisi keçirmişdir. Bu məclis xalq musiqisi aləmində mühüm hadisə idi. Uğurlu keçən bu tədbirdə Azərbaycanın hər yerindən musiqiçilər və sənətsevərlər dəvət olunmuşdular. Sənət öyrənmək istəyən cavanlar hamılıqla bura toplanmışdılar. Maraq dairəsi lap geniş idi. Yaxşı çalıb-oxumaq vardı. Say-seçmə musiqiçilər və müğənnilər öz bacarıqlarını göstərə bilirdilər. Qonaqların xahişi ilə Zakir Mirzə, Avtandil İsrafilov və Xanlar Cəfərov birlikdə bədahətən gələn ifalarla gözəl kompozisiya təqdim etdilər. Bu təntənədə say-seçmə musiqiçilər və müğənnilər çalıb-oxuyaraq gələn qonaqlara xoş istirahət və zövq bəxş etdilər.

X.Səfərovun ömür səlnaməsinə nəzər salsaq uğurlu bir sənət yolu keçmiş məhsuldar bir sənət adamıyla yaxından tanış olmuş olarıq.

İstedadlı qarmon ifaçımız 2013-cü ilin sonlarında Misir Ərəb Respublikasında səfərdə olmuşdur.



Xanlar Cəfərov, Nəsibulla Nəsibullayev və Rafiq Balabəyov

Onu deməyə borcluyuq ki, X. Səfərov öz istedadı, bacarığı, işgüzarlığı, cəsarəti hesabına gördüyü işlərin, etdiyi xidmətin əvəzini və cavabını layiqincə almamışdır. Bu cür istedadlar daimi nəzarətdə olmalı və layiqincə təbliğ olunmalıdır.

Klarnet ifaçısı İntiqam Dadaşoğlu ilə Xanlar Cəfərov bir nişan məclisində çalarkən xalq artisti, ustad xanəndə Hacıbaba Hüseynov da qonaq kimi iştirak edirmiş. İntiqamın atası ilə Hacıbabanın möhkəm dostluşu varmış. Xahiş olunur ki, o, bir şey oxusun. Hacıbaba müəllim deyir: "Axı, mən həmişə tar-kamanla oxumuşam. İndi xahiş edirsiz, onda gərək qarmonla oxuyam". Bu zaman yerbəyerdən hamı səslənir ki, Hacıbaba müəllim oxu... Oxusan hamıya xoş olar...Otaq şəraitində keçirilən məclisdə masanın bir başında qarmon, klarnet, nağara üçlüyü, o biri başında isə Hacıbabagil əyləşmişdilər. Ustad xanəndə Xanlara üz tutub deyir: "Do" pərdəsini ver, bir şey oxuyaq". Xanəndə "Şur" üstdə qəzəllər oxuyur. Xanlar müşayiətilə onu çuşa gətirir. İlhama gələn Hacıbaba müəllim deyir: "Qarmoncalanın çalğısı xoşuma gəldi, gəlirəm onların yanına". O, təsnifə keçir və yenə guşəxanlıq edərək muğam oxuyur. Sonra "Segah"a keçid edir, muğamı və sonda bir xalq mahnısını elə şövqlə oxuyur ki, məclisə böyük zövq bəxş edir. Alqışlar kəsilmir... Hətta özü də oxuduğundan məmnun qalaraq Xanlara üz tutub onu belə ustalıqla müşayiət etdiyi üçün razılığını bildirir. Deyir: "Sənin çalğınla oxumaq mənə çox rahatdır". O vaxtdan neçə müddət keçsə də, hər dəfə rastlaşanda həmin nişan mərasimini yada salaraq Xanlara xoş sözləri əsirgəməzmiş.

Toy musiqiçilərinin belə bir ənənəsi vardır. Onların toy məclisləri başqalarınkından xeyli fərqlənir. Bu məclislərdə qonaqlar əsasən toy musiqiçiləri olur. Belə toylarda çalmaq üçün ən mahir ifaçılar dəvət olunurlar. Adi çalğı çalan musiqiçilər belə tədbirlərdə baş çıxara bilməz və bəyənilməzlər. Bu kimi toyların repertuarı da adi məclislərdəkindən fərqlənir. Beləliklə bu toylarda samballı, çətin, nadir musiqilər, ən yaxşı oyun havaları, nadir bəstəkar əsərləri səslənir, ayrı-ayrı alətlərin solo təqdimatları dinlənilir.

Hər dövrün çoxlar tərəfindən qəbul olunan, bəyənilən musiqiçiləri olur. Həmin musiqiçilər öz dövrünün "musiqiçi toyları"nı idarə edirlər.

Vaxtilə Ələkbər Əsgərov, Zakir Mirzə, Zöhrab Məmmədov və ya Aftandil İsrafilov, Vəli Qədimov, Ramiz Həsənovdan ibarət toy dəstələri (bir çox hallarda gitaraçı Rəmiş də belə heyətə daxil edilərdi) musiqiçi toylarında çalardılar.

1990-cı ildən başlayaraq belə toylarda ya Xanlar Cəfərovun və ya Ənvər Sadıqovun dəstələri çıxış edirlər. Gənc musiqiçilər belə toylardan kənar qalmırlar. Onlar belə məclislərdə qonaq kimi həvəslə və maraqla iştirak edir və çox şey öyrənirlər. Toydan sonra həmin gənclər belə musiqiçilərin audio və video kassetlərini və ya diskləri əldə edib ondan layiqincə bəhrələnərək inkişaf edirlər. Belə toyların repertuarı internetdə "YouTube" vasitəsilə yayımlanır və bütün bunlara dünyanın hər yerində tamaşa etmək imkanı yaranır.

Xanların son dövrlərdə çaldığı toyların lent yazılarının, disklərin hesabına gənc musiqiçilərimiz xeyli inkişaf tapmışlar. Beləliklə "Xanlar məktəb"inin davamçıları durmadan artır.

X.Cəfərov 1979-cu ildə ailə qurub. İki oğlu, bir qızı vardır. Oğlu Şimran skripka ifaçısıdır. Xanlar şirin-şəkər nəvələrilə nəfəs alır. Nəvələrin şən səsləri, ətir-təravəti sənətkarımızı ilhama gətirir və onun yaradıcılıq işinə stimul verir.

Sənət meydanına çıxandan bəri,
Həmişə hər yerdə çalıb zəfəri.
Çox illər tanıdır Xanlar Cəfəri.
Heç kəs böylə uğuru ala bilməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.

Qarmonunda çalır hər bi əsəri,
Hər janrda vardır gücü, təpəri.
Bu çür zəngin göstərin bir nəfəri,
Belə ifa solub, üzülə bilməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.

Zəif çalğıdan, sadədən qaçıbdı,
Özünə bir üslub, cığır açıbdı,
Qarmon aləminə o, nur saçıbdı.
Onun ilhamı hər könülə gəlməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.

Sənət yolunda alışıb yanıbdı,
Gördüyü işi müqəddəs sanıbdı,
Professor adını o, qazanıbdı.
Belə bir nəhəng niyə dilə gəlməz?
Xanlar tək sənətkar heç ələ gəlməz.

Qarmon ifaçılığında zəhməti,
Zəngin işlərilə alıb şöhrəti.
Musiqidə öz ətri, təravəti,
Bu təravət hər çiçək, gülə gəlməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.

Uğurludur musiqiyə gəlişi,
İllərlə yaradıb ifa vərdişi,
Zərgər dəqiqliyindədir hər işi.
Xanlar tək sənətkar heç ələ gəlməz,
Gəlsə də inanın heç belə gəlməz.

"Ümid" kimi ansamblı yaratdı,
Yeni səpgi, ənənəni yaşatdı,
Məşhur oldu, böyük şöhrətə çatdı.
Halal ad-san asan əmələ gəlməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.

Xiridarıdır yaratmaq işinin,
Öz yolu var peşəyə gəlişinin,
Vardır çığırdaşları bu kişinin.
Kimsə də bu izi heç silə bilməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.

Sənət onun yaxın dostu, yarıdır,
Qarmon sənətinin iftixarıdır,
Peşəsinin solmayan baharıdır.
Belə xiridar hələ-hələ gəlməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.

Öz üzərində müntəzəm çalışır,
Qarmon əlində dil açıb, danışır.
Kəhkəşanda ulduz kimi sayrışır,
Onun dəyərin hər kəs bilə bilməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.

Hər alətlə qarmonu səsləndirir,
Ansamblda onları dilləndirir.
Səsləri birləşdirirb selləndirir,
Bu coşqunluq dağdakı selə gəlməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.

İnkişafdadır daha geri getməz,
Bir bulaqdır, onun ilhamı bitməz,
O, yüksək ilhama hər adam yetməz.
Vurdyğu xallar mizrab, telə gəlməz,
Xanlar tək sənətkar heç ələ gəlməz.
Ə.Rəhmanlı, may 2012-ci il

2.71. HƏM İFAÇI, HƏM DƏ USTA İDİ



Minəli Eyvazov

Minəli Güləli oğlu Eyvazov 1956-cı il martın 3-də Balaxanıda anadan olub. 1971-ci ildə 204 saylı məktəbdə natamam orta təhsili başa vurub. 1966-71-ci illərdə Balaxanıdakı M.Ə.Sabir adına mədəniyyət evində Rafael Orucovun qarmon sinfində təhsil alıb. Şagirdlər arasında istedadı ilə seçilib. O, 15 yaşından qarmon ifaçısı kimi xalq musiqisinə gəlib. Əvvəllər doğma qəsəbədəki özfəaliyyət ansambllarında, 204 saylı ümumtəhsil məktəbin dərnəyində çıxış edib. Ustad qarmon ifaçılarından Teyyub Dəmirov, Məmmədağa Ağayev və Abbas Abbasovun lent yazılarından bəhrələnib. Minəli Zakir Mirzə və Aftandil İsrafilovun canlı çıxışlarını çox görüb, eşitmişdi. Bundan əlavə hər iki qarmon ifaçısının radio və televiziya ifalarını müntəzəm izləyərək öz sənət inkişafına nail olmuşdu. Gənclik həvəsinin, sənət sevgisinin, qarmon ifaçılığına olan güclü marağının və bir də Balaxanı musiqiçiləriləmşqlərin sayəsində Minəli Eyvazov əsl sənət adamı kimi yetişmişdi. O, yaxşı qarmonçalanların sırasında dayanmışdı. Minəli elə sənətə qədəm qoyandan yaxşı çalırdı. Sonrakı çalışqanlıq və toylarda müntəzəm çalması bu zəhmətkeş insanı həqiqi peşəkar səviyyəyə çatdırmışdı.

Minəli Eyvazov 1-ci Zabrat qəsəbəsindəki mədəniyyət sarayının qarmon sinfində dərs demişdi. Həmin mədəniyyət ocağında 1990-92-ci illərdə milli rəqs qrupunun müşayiətçisi olmuşdu. Rəqs kollektivinin rəhbəri baletmeyster Danil Rabayev Minəlinin musiqiçi kimi fəaliyyətindən, rəqs quruluşunu yetərincə müşayiət etməsindən həmişə razı qalmışdı. Yazı müəllifi olaraq deyirəm ki, D.Rabayevlə ilk tanışlığımda o, mənim qarmon ifaçısı olduğumu bilib, Minəli haqqında söhbət açdı, onu xeyli tərifləndi. O zaman mən hələ Minəlini tanımırdım.

Minəli Eyvazovu nəinki Balaxanı sənətçiləri, həmçinin Bakının kənd və qəsəbələrində olan ən güclü, ən peşəkar musiqiçilər də tanıyır və onu öz dəstələrinin tərkibində toylara aparırdılar. Minəli də bu işlərin qarşılığında öz işini layiqincə görür, qarmonunu el dilində dindirir, toyların bütün repertuarını çalır və klarnet dəstəsini əla müşayiət edirdi.

Musiqişünas, dissertant, Suraxanı rayonu üzrə 2004-cü ilin ən yaxşı müəllimi fəxri adını almış Kəmalə Cabbarovanın xatirələrindən: "Minəli mənim dayım oğludur. 1983-85-ci illərdə Zabratdakı 1 may adına mədəniyyət sarayında musiqi nəzəriyyəsi müəllimi işləyirdim. Minəli ilə iş yoldaşı idik. O, məndən xeyli əvvəl buranın qarmon sinfində dərs deyirdi. Minəli mənim fortepiano müşayiətimlə Tofiq Quluyevin mahnılarını hazırlamışdı. Seçib işlədiklərimiz bəstəkarın "Ürək nəğmələri" kitabından idi. Minəli Tofiq Quluyevin, Rauf Hacıyevin mahnılarını ifa etməkdən zövq alırdı. O, Avropa klassik bəstəkarlarından da bir-neçə əsəri repertuarına daxil etmişdi. Hazırladıqlarını mədəniyyət sarayında keçirilən konsertlərdə və səviyyəcə yüksək olan məclislərdə çalırdı. Əsərləri disklərə yazmaq arzusunda idi. Heyif, əcəl imkan vermədi".



"Gilan" şadlıq sarayı instrumental ansamblının üzvləri. Soldan 1-ci: Ə.Rəhmanlı, altıncı Minəli Eyvazov

Minəli sakit təbiətli idi, astadan, mülayim danışırdı, heç kəslə mübahisə etməz, bir kimsənin xətrinə dəyməzdi. Bu insan elə sənət üçün, xalq işinə yaramaq üçün, toy-büsata şirin, məlahətli, ecaskar qarmon səsi bəxş etmək üçün yaranmışdı. Elə musiqi sənətində o, öz yerində, öz tutumunda idi. Elə öz işini də görüb getdi. Qarmon ifaçılığı sənətində Minəli Eyvazovun yeri özünün tutduğu layiqli yer boyda boş qaldı.

Minəli dostumuzla 1 il 3 ay Qaraçuxur qəsəbəsindəki "Gilan" şadlıq sarayında birlikdə çalışmışam. Zalın musiqiçiləri Minəligilin ansamblı idi. Mən məclisləri idarə edirdim. 2001-ci il sentyabr ayının 28-də, axşamüstü mən növbəti toy məclisini idarə etməyə gələrkən avtomobil qəzasına düşdüm və bərk yaralandım. Hadisəni ətrafdan seyr edənlərdən bir neçəsi gəlib məni avtomobildən çıxarıb yol kənarında təhlükəsiz bir yerə uzandırdılar. Şadlıq sarayına cəmi 30-40 metr qalırdı. Tamaşaya gələn cavanların birini "Gilana" göndərdim ki, qəzaya düçar olmağımı mənim sənət yoldaşlarıma bildirsinlər. Mənim köməyimə ilk yüyürüb gələn Minəli Eyvazov oldu. Dərhal boynumu qucaqlayıb üzümdən öpdü, mənə "can-can" deyib təskinlik verdi. Hər dəfə başıma gələn faciəni xatırladıqda Minəlinin dərhal özünü mənə yetirməsi yada düşür və çox kövrəlirəm.

Minəli Eyvazovun daha bir istedadı üzə çıxmışdı. O, qarmon alətinin təmirilə məşğul olmağa başlamışdı. 1998-ci ildən təmir işləri görürdü. 2003-cü ildən etibarən artıq özü Azərbaycan qarmonları düzəldirdi. Sifarişlər də get-gedə artırdı. Qarmon ifaçıları onun işini bəyənirdilər. O, 30 qarmon düzəltmişdi. Həmin qarmonlar sənətçilərin əlində səslənir. Minəli usta-təmirçi kimi get-gedə daha artıq tanınırdı.

Virtuoz qarmonçu, əməkdar artist, sənətşünaslıq namizədi, Mədəniyyət və İncəsənət Universitetinin dosenti Zakir Mirzənin "Azərbaycan qarmonu-solaxay qarmon" ixtirası Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi tərəfindən 05.12.2007-ci il tarixdə təsdiq olunub və "Şəhadətnamə" verilib. "Solaxay qarmon" hazırlanmasını Zakir Mirzə Bəxşəli Əliyevin məsləhətilə Minəli Eyvazova tapşırmışdı. Minəli həmin qarmonu layiqincə düzəldib ustad sənətkara



08.08.2008-ci il. Minəlinin nəvəsi Əlinin ad günündə. Soldan: əməkdar artist Zakir Mirzə, Baxışəli Əliyev, Əhsən Rəhmanlı və Minəli Eyvazov

təqdim etmişdi. Bundan əlavə Minəli Zakir müəllimin tələbələrinə "Solaxay qarmon" hazırlanması üçün "Kazan" qarmonların beş-altısını rekonstruksiya etmişdi.

Minəli 1988-ci ildə ailə qurub. Bir qızı, bir oğlu, bir nəvəsi var. Minəli Eyvazov qısa xəstəlik dövrü keçirərək 2009-cu il sentyabrın 22-də dünyasını dəyişib.

Minəli haqqında məlumat almaq üçün sənət dostumuz Baxışəli Əliyevlə onların mənzilinə gedərək ailə üzvlərilə görüşdük. Ailə üzvlərinin hamısı evdə idi. Yalnız özü yox idi. Yeri görünürdü. Onu yad etdik. Hamı kövrəlmişdi. Təkcə Minəlinin nəvəsi, atasının dizləri üstündə əyləşən 2 yaşlı Əli bu ağır itkini hiss etmirdi. O, şirin, əziz girami uşaqlıq dövrünü yaşayır. Bu kitab nəşr olunan da Əlinin artıq 6 yaşı var. Əli Minəlinin ilk nəsil davamçısıdır. Kim bilir bəlkə də o gələcəkdə babasının sənət yolunu da davam edəcək. Biz isə Əliyə şirin, şən, ata-analı uşaqlıq dövrü və gələcək üçün mənalı insan ömrü arzulayırıq.

2.72. HÜNƏRLƏ, ZƏHMƏTLƏ VƏ ZƏNGİNLİKLƏRLƏ DOLU YARADICILIQ YOLU



Gülağa Zeynalov

Onun adı Sumqayıt Musiqi Kollecinin məzunları olan, mənimlə birlikdə Bakı Humanitar Kollecində çalışan Ramil Nağıyevin və Xaqani Səmədin dilindən bir an belə düşmür. Axı o, kollecin sonuncu kursunda onlara qarmon ixtisasından dərs demiş və tələbələrinin qəlbində özünə həmişəlik hücrə qurmuşdur. Bu tələbkar müəllim tələbələrin əsl ixtisaslı kadr kimi yetişməsi üçün var qüvvəsini həsr etməklə bərabər, həm də onlara qayğı ilə yanaşmış və nəvaziş göstərmişdi. Zəhmət hədər getməmişdir.Hər iki gənc qarmon ixtisası üzrə bacarıqlı kadr kimi pedaqoji sahədə özlərini təsdiq etmişlər. O illərin müəllim-tələbə münasibətləri bu gün də hörmət-izzətlə davam edir.

Bu sətirlərin müəllifi olaraq söyləməliyəm ki, 2000-ci illərdə Şuşa Musiqi Kollecində çalışdığım zaman Gülağa müəllimin adı Şuşanın ən birinci, ən böyük musiqiçisi kimi çəkilirdi. Onun istedadı, zəngin, hərtərəfli, uğurlu sənətindən fəxrlə danışırdılar. Elə bu gün də qürur duyurlar.

Yaxşı xatırlayıram, 2001-ci il sentyabr ayının lap əvvəlləri idi. Qaraçuxur qəsəbəsindəki "Gilan" şadlıq sarayında şuşahların toy şənliyi keçirilirdi. Məclisi idarə edirdim. Toyun şirin yerində məclis sahibi xahiş etdi ki, Gülağa adlı qonağı səhnəyə dəvət edək və qarmon çalmağına şərait yaradaq. Çağırdıq, səhnəyə ucaboylu, cüssəli bir oğlan gəldi. O, toy havaları yox, bəstəkarlarımızın bir-neçə mahnısını ardıcıl olaraq çaldı və həqiqi mənada musiqi çələngi hördü. Məclisdəkilər diqqətlə dinləyirdilər. O,yüksək peşəkarlıq göstərdi. Məclisin ovqatı və bədii səviyyəsi daha da yüksəldi. Alqış səsləri və "sağ ol, Gülağa müəllim" sözləri yerbəyerdən səslədi. Deyim ki, bir musiqiçi olaraq onun qarmon ifasını, peşəkarlığını çox bəyəndim. Daha sonrakı dövrdə ona heç yerdə rast gəlmədim. Sonralar isə oçerkimizdə qeyd etdiyim kimi onun yetirmələri Xaqani Səməd və Ramil Nağıyevdən onun haqqında xoş sözlər eşitdim və məlumat aldım.

Gülağa Tapdıq oğlu Zeynalaov 1956-cı il aprelin 28-də Şuşa şəhərində dünyaya göz açıb. O, beş uşaqlı ailənin birinci övladı olub. Ata musiqiçi, ana şərqşünas idi. Hər ikisi pedaqoji sahədə çalışırdılar. Qədim mədəniyyətə, ənənələrə malik Şuşa şəhərində hər məhəllənin öz adı, hər nəslin öz tanıtması var. Gülağanın ata tərəfi lavaşçılar (çörəkçilər), ana tərəf isə Allahverdilər adlanırdı.

Tapdıq müəllim Səriyyə xanımla baş-başa verərək övladlarının tərbiyəli, ağıllı, savadlı, elmli, ixtisaslı insanlar kimi yetişib doğma vətənə, anamız Azərbaycana ləyaqətlə xidmət etməsi üçün çox çalışmış və buna nail olaraq özlərini xoşbəxt saymışdılar.

Gülağanın istedadı lap kiçik yaşlardan üzə çıxmış və ilk növbədə valideynlərin diqqətini çəkmişdi. Çoxları kimi o da musiqiyə ritmlə başlamışdı, 5-6 yaşlardan qaval çalmağı öyrənmişdi. Atası onu pionerlər və məktəblilər evinə (son. uşaq və gənclərin yaradıcılıq mərkəzi) rəhbəri ol-

duğu xalq çalğı alətləri ansamblına aparmışdı. Gülağa bu ansamblda daha həvəslə, bacarıqla çalmağa başlamış və konsertlərdə çıxış etmişdi. Atasının tapşırıqları, öyrətdikləri onu gündən-günə, aydan-aya irəli aparırdı. Beləcə balaca Gülağanın ilk musiqi müəllimi atası olmuş, sonralar onun qarmon, tar, fortepiano sənətinə gələrək bu alətlərin mükəmməl ifaçısı olması da Tapdıq müəllimin vasitəsilə başa gəlmişdi.

Pionerlər evinin ən kiçik musiqiçisi Gülağa Zeynalov haqqında qəzetlərdə və jurnallarda dəfələrlə bir-birindən maraqlı yazılar getmişdi. Çünki bu uşağın istedadı çoxlarının marağına səbəb olmuşdu. O, sonralar həmin kollektivin xorunda oxumuş və həm də solist olaraq tanınmışdı. Onun istedadı burada da özünü güclü şəkildə biruzə vermiş, səsi hamının xoşuna gəlmişdi.

G.Zeynalov 1962-ci ildə Şuşadakı Ü.Hacıbəyli adına orta ümumtəhsil məktəbin birinci sinfinə daxil olur. İkinci sinifdə oxuyanda atası ona tar çalmağı öyrədir. Gülağa evdə çalınan qarmona da biganə qalmır, məşğul olaraq qarmon çalmağı da öyrənir. Atasının müəyyən göstərişləri də onun bacarığını artırır. Onların evində xeyli sayda qrammafon valları vardı. Bunlar arasında məşhur xanəndələrin səsləri yazılan vallarla bərabər, tar, kaman, klarnet və qarmonda çalınan ifalar da çoxluq təşkil edirdi. Gülağa bunlardan çox bəhrələnmişdi. Tapdıq müəllim ona fortepianoda və akkordeonda da çalğı öyrədir və ondan tələb edirdi ki, evdə bu alətlərlə daim məşğul olsun.

G.Zeynalov 1970-ci ildə 8-ci sinfi bitirib.Məktəbdə yaxşı təhsil alıb. O, 1965-ci ildə S.Şuşinski adına uşaq musiqi məktəbinin tar sinfinə daxil olub. Sonralar bu məktəb Niyazinin adını daşıyıb. Bu məktəbdə onun ilk ixtisas müəllimi atası, sonra isə Oqtay Allahverdiyev və Nadir Abbasov olmuşdur.

Gülağa musiqi məktəbinin, Ü.Hacıbəyli adına ümumtəhsil məktəbin,bütünlükdə isə Şuşa musiqi həyatının, ictimai, bədii-kütləvi tədbirlərin fəalı olaraq diqqətdə idi. Təhsil aldığı müəssisələrin, məktəblilərin yaradıcılıq mərkəzinin, mədəniyyət evinin bədii dərnəklərində və ansambllarda çalırdı. Onda yüksək bədii enerji və hər bir işə məsuliyyətlə yanaşma olduğu üçün çox işin öhtəsindən gəlirdi. Tay-tuşlarından fərqli, üstün cəhətlər, müntəzəm məşqlər və çalışmalar onu əsl musiqiçi kimi yetişdirirdi. Odur ki, o illərdə Dağlıq Qarabağda, Azərbaycanda və Ümumittifaq məkanında keçirilən müsabiqələrdə, festivallarda çıxış edir, doğma Şuşaya təltiflər, fəxri fərmanlar, diplomlar və medallarla qayıdırdı. Öhtəsinə düşən məsuliyyəti dərk etməsi, ifa edəcəyi repertuarı yaxşı hazırlaması onu hər yerdə zəfərlərə yüksəldirdi və beləcə də uçala-ucala sənət yolu gəlirdi. Bu yolun başlanğıcı yaxşı başlamışdı, davamı daha uğurlu olacaqdı, oldu da. Bütün bunlarda heç şübhəsiz ki, Uca Allahln əmri və göstərişi var idi. O yerinə yetməli, öz haqqını almalı idi, zaman gəldi, aldı da.

G. Zeynalovun özfəaliyət, peşəkar ansambllarda çalışması, müsabiqələrdə və festivallarda çıxış etməsi 1962-1980-ci illər arasında müntəzəm davam etmişdi.

G.Zeynalov 1970-1974-cü illərdə Xankəndi Musiqi Texnikumunun tar sinfində təhsil alıb. O, 1975-ci ildə Ü.Hacıbəyli adına Azərbayacan Dövlət Konservatoriyasının tar sinfinə (haz. Bakı Musiqi Akademiyası) daxil olub və buranı 1980-ci ildə böyük uğurlarla başa vurub. Burada ixtisas üzrə müəllimi Məmmədağa Kərimov olub. Dirijorluq sənəti üzrə xalq artistləri, məşhur bəstəkarlar Süleyman Ələsgərov, Hacı Xanməmmədov və Vasif Adıgözəlovdan dərs alıb. Müəllimləri sarıdan bəxti gətirən gənc musiqiçi bu imkandan bacarıqla istifadə edərək, tam peşəkar, yüksək savadlı, dərin bilikli, əsl ixtisaslı kadr kimi yetişərək sənət meydanına atılıb və tədris sahəsində gördüyü mühüm və əhəmiyyətli işlərlə, yetirdiyi bacarıqlı tələbələrlə seçilib.

G.Zeynalov 1980-1982-ci illərdə Moskva şəhərində hərbi xidmət keçib. Hərbi hissədə mahnı və rəqs ansamblı yaradıb və özü akkordeon çalıb. Onun rəhbərlik etdiyi ansambl digər hərbi hissələrdə və mədəniyyət müəssisələrində konsertlər vermişdi. Bütün bu xidmətlər unudulmamışdı. Hərbi hissə rəhbərliyi ona fəxri fərmanlar və tərifnamələr təqdim etmişdi. Bu istedadlı və bacarıqlı Azərbaycan övladı hərbi hissənin fəxri olaraq nüfuz qazanmışdı.

Gülağa Zeynalov 1971-ci ildən bu günə qədər pedaqoji fəaliyyətdədir. İfaçılıqdan da bir an belə uzaqlaşmayıb. Radioda və televiziyada tar və qarmon ifaçısı kimi dəfələrlə çıxışları olub. Bu konsertlərin radioda lentləri və televiziyada çəkilişləri vardır. 1980-ci ildən qarmon ifaçısı kimi də fəaliyyət göstərməklə bərabər diriyorluq da etmişdir. Dərs dediyi tədris müəssisələrində, mədəniyyət evində keçirilən ən böyük tədbirlərdə orkestrə və xora dirijorluq qabiliyyətilə nəzər-diqqəti cəlb etmişdir. O, Şuşada yaşadığı illərdə konsertlərdə və toy şənliklərində mahir bir qarmon ifaçısı olaraq geniş şəkildə tanınmışdır. Doğrudan da o, Şuşada qarmonçalan Gülağa kimi tanınırdı.Gülağa müəllim yalnız Şuşanın deyil, bütün Qarabağ torpağının ən mahir qarmonçalanlarından biri olmuşdur. O, qarmon havalarını, muğamları ustalıqla çalmaqla bərabər, bəstəkarlarımızın populyar mahnılarını da sevə-sevə ifa edir və müğənniləri yaxşı müşayiətilə seçilirdi. Şuşa müğənnilərindən Hafız Sədirzadə, İsa Rəhimov və digərlərilə, həmçinin Bakıdan dəvət olunan Səfa Qəhrəmanov, Vidadi Bərdəli ilə konsertlərdə və el şənliklərində, onlardan başqa Arif Babayev,Sara Qədimova, Qaraxan Behbudov kimi sənətkarlarla Azərbaycanın, Ukraynanın, Rusiyanın və Qazaxıstanın şəhərlərində konsertlərdə olan Gülağa Zeynalov bir musiqiçi kimi özünü sevdirmişdir.

G.Zeynalaov vaxtılə Qarabağın və bu doğma yurdun tacı Şuşanın bədii sənət güzgüsü idi. Bu şəxsin yaradıcılıq aləmində, ifaçılıq xüsusiyyətlərində vətən, ocaq sevgisi daim özünü göstərirdi. İstər tar, istərsə də qarmon ifalarında o, riqqətə gələn ürək döyüntülərini ifaya çevirirdi. Onun hər bir solo ifası bütöv əsərə çevrilərək tamaşaçı və dinləyici hisslərini ram etmək qabiliyyətinə malik idi. Bu bir faktdır ki, böyük sənətçilərin ifasından dinləyici yalnız məmnun qalmır, həm də coşqun olur. Gülağa da gənclik illərindən seçkin ifaçıya çevrilərək, böyük sənət yollarında addımlayaraq böyük sənətə doğru gəlirdi. Nəhayətdə o, həyatda və sənətdə yetkinləşdikcə sənəti daha yaxşı duymuş və anlamış, böyük ifaçılardan biri olmuşdu. Odur ki, onun sənəti sevilir, alqışla



Sentyabr 1986-cı il. Sağdan: Mədəniyət naziri Z.Bağırov Ü.Hacıbəyli ad. I respublikalararası müsabiqənin filarmoniyadakı yekununda Gülağa Zeynalova laureat diplomunu təqdim edərkən



Sentyabr 2012-ci il. Mədəniyyət və İncəsənət Universitetinin x.ç.a. alətləri orkestrinin Beynəlxalq Muğam Mərkəzində konserti. Sağdan ikinci: Gülağa Zeynalov



24.02.2014-cü il. Gülağa Zeynalov Mədəniyyət və İncəsənət Universitetinin tələbələri ilə məşğələ zamanı

qarşılanır, dəyərləndirilir, tamaşaçılar və dinləyicilərdə xoş ovqat yaratmaqla bərabər coşqunluq da yaradırdı.

Bu insanın həyat və yaradıcılıq fəaliyyətində ifaçılq və pedaqoji iş qoşa olaraq daim bir-birini tamamlamışdır. İlk əvvələr tar, sonralar isə qarmon siniflərində dərs deyərək öncül müəllimlərimizdən biri olmuşdur. Şuşa uşaq musiqi məktəbində tar, 1982-ci ildə Şuşa Musiqi Texnikumunda qarmon sinfi açılan andan bu ixtisas üzrə dərs deyərək pedaqoji sahədə özünü tanıtmışdır. O, texnikumların qarmon sinfi və ali məktəblər üçün not proqramı hazırlamış, bəstəkarların əsərlərini qarmon və fortepiano üçün işləmiş və köçürmələr etmişdir.

Gülağa müəllim 1992-ci il Şuşa işğal olunandan sonra Bakıda Şuşa Mədəni-Maarif Texnikumunda, Sumqayıt Musiqi Texnikumunda, Mərdəkan və Zabratdakı uşaq musiqi məktəblərində qarmon sənəti üzrə dərs demişdir. Xeyli sayda əsərlərdən qarmon üçün köçürmələr etmişdir. Bu sırada tar, fortepiano,akkordeon üçün əsərlər var ki, Gülağa müəllim bunlar üzərində gərgin iş apararaq müxtəlif yaş həddləri və ayrı-ayrı siniflərə uyğun köçürmələr hazırlamışdır. Bunlar içərisində Avropa, Rusiya və Azərbaycan bəstəkarlarının əsərləri özünə yer tutmuşdur.

G.Zeynalov 1994-cü ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dirijorluq sənəti üzrə də dərs deyir. 2005-ci ildən instrumental ifaçıq kafedrasının müdiridir. 1999-cu ildə bu tədris ocağında qarmon sinfinin açılmasında, bu fənn üçün proqramın hazırlanmasında onun mühüm rolu olmuşdur.

Bu işgüzar insan qarmon sənətinin tədrisi və inkişafı üçün daim mühüm işlərilə seçilmişdir. SSRİ xalq artisti, dünya şöhrətli bəstəkar Arif Məlikovun "Skerso" əsərini üç qarmonun müşayiətsiz ifası üçün hazırlayaraq televiziyada və Musiqi Akademiyasının böyük zalında ifa olunmasına nail olmuşdur. Xalq melodiyaları əsasında altı qarmon və bir nağara ifaçısı üçün hazırladığı "Çahargah rapsodiyası" da onun gördüyü dəyərli işlərdən biri olaraq maraqla qarşılanmışdır. Özü tar aləti üzrə ixtisaslı kadr və yüksək səviyyəli ifaçı olduğuna görə tar üçün yazılmış neçə-neçə iri həcmli əsərləri qarmon və fortepiano üçün ustalıqla və yüksək peşəkarlıqla köçürmüşdür. O,Mədəniyyət və İncəsənət Universitetinin tələbələrdən ibarət x.ç.a. orkestrinə rəhbərlik edir. Burada zəngin repertuar hazırlayaraq bayram günlərində və tədris ocağının mühüm tədbirlərində konsert verir. Rəhbərlik etdiyi orkestrin tərkibində qarmon alətinin gözəl səslənməsinə nail olur. Onun fikirləri düzdür. Qarmon bir milli alət olaraq bütün x.ç.a. orkestrlərinin tərkibinə daxil edilməlidir. Respublikamızdakı x.ç.a. orkestrlərinin rəhbərləri bu barədə qəti qərara gəlməli və G. Zeynalovdan nümunə götürməlidirlər. Yaxşı xatırlayıram ki, 1968-1970-ci illərdə Bakı Mədəni-Maarif Texnikumunda təhsil aldığım illərdə oranın x.ç.a.orkestrində qarmon olur və bütün bəstəkar əsərlərində çalınırdı. Əslində həmin texnikumda musiqi alətlərinin tədrisi başlandığı andan bu günə qədər hər tədris ilində yaranan x.ç.a. orkestrinin tərkibində qarmon səslənir. Gülağa müəllimin ali təhsil ocağında orkestrə qarmon daxil edib gözəl səslənmə yaradaraq səhnələrə çıxarması təqdirəlayiq bir iş kimi təbliğ olunmalı və geniş şəkildə yayılmalıdır.

G.Zeynalovun qarmonun tədrisinə aid metodik göstəriciləri və bir sıra məqalələri də var. O, bu yolda yorulmadan çalışır və bu ixtisasın inkişafı üçün ən mühüm işlərə imza atır.

O, Gürcüstan, Qazaxıstan, Rusiya, Ukrayna və Tatarıstanda konsertlərdə olmuş, Almaniyada və Hollandiyada festivallarda çıxış etmişdir. Oçerkimizi diqqətlə izləyən oxucular hünərlə, zəhmətlə və zənginliklərlə dolu yaradıcılıq yolu keçmiş bir sənət adamının həyatı ilə tanış ola biləcəklər. Biz də bir araşdırıcı kimi üstümüzə düşən bir vəzifəni yerinə yetirib bu oçerki yazaraq kitaba daxil edib qəlb rahatlığı tapdıq.

Qeyd etməliyik ki, onun yaradıcılıq fəaliyyəti haqqında dövrü mətbuatda geniş yazılar, maraqlı məqalələr yazılmışdır.

Gülağa Zeynalov 1984-cü ildə ailə qurub. Bir övladı var.

2.73. "CÜCƏLƏRİM" ANSAMBLININ MÜŞAYİƏTÇİSİ



Ağaəmi Ağayev

Bu ifaçı ilə mənim heç vaxt yaxın münasibətim olmayıb. Lakin onun rəqs sənətimizə xidməti, məşhur "Cücələrim" ansamblındakı geniş fəaliyyəti nəzərimdən qaçmayıb. Belə bir fədakar qarmonşumuz haqqında geniş olmasa da, hər halda məlumatım olub. Onunla yaxın tanışlığım müsahibə aldığım zaman oldu və ətraflı məlumat alaraq yazıya başladım.

Bu şəxsin təmiz, pak, könlüaçıq, xeyirxah, mərhəmətli və səxavətli olması barədə mənə mahir qarmon ifaçımız Manaf Rza məlumat vermiş, üzərində işlədiyim kitabda onun haqqında da yazmağımı məsləhət bilmişdi. Məsləhəti qəbul etməkdə heç də səhv etmədim. Çünki bu ifaçımızın da sənət yollarında həvəslə, eşqlə, yorulmadan fasiləsiz çalışması adının musiqi tariximizin müəyyən anlarını əks etdirən bu kitaba düşməsinə tam ixtiyar verir.

Ağaəmi Balaəmi oğlu Ağayev 1956-cı il iyulun 30-da Bakının qədim kəndlərindən biri olan Bibi-Heybətdə dünyaya gəlib. Zəhmətlə və halalıqla yaşayan bu ailədə üç qız və iki oğul pərvazlanaraq həyata qovuşublar. Ağaəmi dördüncü övladdır.

Haşiyə çıxaraq bu ailənin başçısı olmuş Balaəmi Ağayev (1920-1968) barədə məlumat verməyi məqbul saydıq. O, 1939-cu ildə Sovet ordusu sıralarına çağrılır. Hərbi xidmətinin tamam olmasına 1 həftə qalmış dava başlayır. Böyük Vətən Müharibəsi adlanan 1941-1945-ci illərdə o dövrün bütün zillətlərini, əzablarını çəkən milyonlarla insanlardan biri də Balaəmi olur. O, Belarus cəbhəsində döyüşür. Ağır döyüşlərin birində əsir düşür. Az sonra əsirlikdən qaçır və hərbi hissəyə qayıdır. Döyüşə-döyüşə Berlinə, Reyxstaqın zirvəsinə Sovet bayrağı sancılmasına qədər gedib çıxır. Qələbə elan olunan kimi ordudan tərxis olunur və evə qayıdır. Məşhur Neft Daşlarında xilasetmə briqadasında çalışır. O, işindən əlavə ovçuluqla və balıqçılıqla məşğul olurdu. Bu işi çox sevirdi.

Balaəmi 1948-ci il 9 may qələbə günündə Tamamxanım Əsədulla qızı Muğbilova ilə ailə qurub.

Ağaəminin sevinclə ailə arxivindən mənə göstərdiyi bəzi sənədlərlə, həmçinin 1945-ci il 9 may qələbə bayramı münasibətilə Sovet dövlətinin başçısı, ali baş komandan İ.V.Stalinin imzası ilə Balaəmi Ağayevə təqdim olunmuş fəxri fərmanla tanış oldum.

Ağaəminin xatirələrindən: "1968-ci ilin yayında atam, anam və mən Minsk şəhərinin yaxınlığındakı Valişkovşina kəndinə getdik. Atam bu yerlərin hər qarışına bələd idi. Vaxtilə bu yerlərdə döyüşmüşdü. Onun döyüş yoldaşlarından sağ qalanlar da var idi. Uzun illər idi ki, məktublaşırdılar. Poçt vasitəsilə bir-birlərinə hədiyyələr, sovqatlar göndərirdilər.

Bizim ora gəlməyimizə keçmiş döyüş yoldaşları o qədər sevinirdilər ki... Ora gedəndə "Kazan" qarmonumu da aparmışdım. "Yabloçka" mahnısını, rus və Ukrayna melodiyalarını çalırdım. Atamın dostlarının xoşuna gəlirdi. Vallah, o qədər sevinirdilər ki... Oradan Krımın Smeis (Pişik

dağı) şəhərinə gəldik. Bacım orada müalicə olunurdu. O, ağır şəkər xəstəsi idi. Bacımla görüşdük. Səfərdən qayıdandan 2 ay sonra atam dünyasını dəyişdi".

Balaəminin anası Hürü xanım qarmon çalırmış. Əvvəllər diatonik, sonralar isə xromatik qarmonu olub. Bibi-Heybətin və ətraf qəsəbələrin qız toylarında çalarmış. O, bayram günlərində nümayişlərdə də qarmonunu səsləndirirmiş. Nağarada onu həmkəndlisi Şəfi Rzayev (qarmonçu Namusun babası) müşayiət edərmiş. Şəfi özü də yaxşı qarmonçu kimi toylara çağrılarmış. Hürü xanım 80 yaşında dünyasını dəyişib.

Ağaəmi 5-6 yaşlarından Hürü nənəsinin ifalarını eşidərək qarmona həvəs göstərməyə başlayıb. Hürü xanım qarmonu götürən kimi balaca Ağaəmi onun yanını kəsdirər, əyləşib dinlərdi.

Ağaəmi 9-10 yaşlarını xatırlayaraq deyir: "Radioda Teyyub Dəmirovun ifalarını eşidəndə səsləyirdim ki, nənə, Teyyub çalır. Qoca olsa da pilləkənləri sürətlə qalxıb, gəlib konserti dinləyirdi.

Atam da yarımtonsuz qarmonda çalır, həm də oxuyurdu. Evdə istirahət edəndə qarmon çalmağa da vaxt sərf edərdi.

Anam Fatmayı kəndindəndir. Söyləyir ki, onun toyunda Qızxanım Dadaşova çalıb. Böyüklərin söhbətlərindən eşitmişəm ki, əla çalırmış, camaatın sevimlisi imiş".

Ağaəmi Ağayev 1964-cü ildə 50 saylı ümumtəhsil məktəbin 1-ci sinfinə daxil olub və 1972-ci ildə 8-ci sinifi bitirib. O, 6-cı sinifə qədər əlaçı olub. Lakin musiqiyə dərin sevgi onun ümumtəhsil fənlərinə münasibətini zəiflədib.

Ağaəmi 1967-1972-ci illərdə Bibi-Heybətdəki (o vaxtlar Xanlar qəsəbəsi) mədəniyyət evinin qarmon kursunda təhsil alıb. Burada ona sənətdən üç müəllim: Telman Musəvi, Oqtay və Bahəddin Fətəliyev dərs deyib. Bahəddin Fətəliyev bədii rəhbər vəzifəsində çalışır, özfəaliyyət x.ç.a. ansamblına da rəhbərlik edirdi. Ağaəmi həmin ansamblda çalır, mədəniyyət evində, məktəblərdə və digər yerlərdə verilən konsertlərin fəal iştirakçısı olurdu.

Musiqiyə həvəs gənc Ağaəmini 1973-cü ildə Əmək Ehtiyatları Cəmiyyətinin ansamblına gətirdi. Ansamblın rəhbəri Ramiz onun bacarığını yoxlayaraq ansambla götürmüşdü. Ansambl o vaxtlar Yaşıl Teatrda, məktəblərdə, Bakının müxtəlif müəssisələrində konsertlər verirdi. Həvəskar və istedadlı gənclərlərimiz bu kollektivdə fəaliyyət göstərirdilər.

Ağaəminin söylədiklərindən: "Ansambldakı işimdən əlavə evdə məşq edir, öz üzərimdə müntəzəm çalışırdım. Qarmon sənətinin sehri məni öz qoynuna almışdı. Maqnitofonumda T.Dəmirov, M.Ağayev, A.Abbasov, A.İsrafilov və Z.Mirzəyevin ifaları toplanmışdı. Qrammafon valları da karıma gəlirdi. Elə hey dinləyir, öyrənir və əxz etdiklərimi öz çalğıma gətirirdim.

Üzvü olduğum ansamblın mövcud olduğu yerdə güclü rəqs kollektivi də fəaliyyət göstərirdi. Rəhbər Böyükağa (əsl adı Mirməmməd) Mircəfər oğlu Məmmədov mənim x.ç.a.ansamblında çaldığımı bilirdi. Rəhbərlik etdiyi rəqs ansamblının klarnet və qarmon ifaçıları şənbə və bazar günlərində toylara gedirdilər. Buna görə də Böyükağa müəllimin məşqləri pozulurdu. O. bizim ansamblın rəhbəri Ramiz müəllimə müraciət edirdi ki, Ağaəmini göndər bizə kömək etsin. Mən də "Kazan" qarmonumu götürüb gedib onların məşqlərində çalır və repertuarı öyrənirdim. Atasız uşaq idim, sənətkar qarmonu almağa imkanım yox idi. 1973-cü ildə mənə yaxşı qarmon alındı. Həmin ildə Bakı Mədəni-Maarif Texnikumuna imtahan verdim. Qabiliyyət imtahanında məni çox bəyəndilər. Bir-neçə melodiya, həmçinin Avtandil İsrafilovun qrammafon valından "Laçın" xalq mahnısını çaldım. Dedilər çox sağ ol, afərin, yaxşı çalırsan. Bunları kimdən öyrənmisən? Müəllimin kim olub? Müəllimlərimin adlarını çəkdim və bildirdim ki, A.İsrafilovun lentlərindən, qrammafon valından eşitdiklərimdən öyrənmişəm. İmtahan komissiyasının sədri dedi ki, «5»-dən artıq qiymət olsaydı, sənə yazardım. Sən, ixtisas imtahanından əla qiymətlə keçdin.

Səhəri gün təzə, peşəkar sənətkarlara məxsus, Rusiyanın Tula şəhərində düzəldilmiş qarmonumla ansambla yollandım. Böyükağa müəllim qarmonumu görcək sevindi və soruşdu:- Qarmon

özünündür, yoxsa dost-tanışdan müvəqqəti işlətmək üçün götürmüsən? Dedim:-Özümündür. Sual verdi:-Bir yerdə oxuyursan? Dedim:-Texnikuma daxil olmaq istəyirəm, ixtisas imtahanından keçmişəm, o biri imtahanları verməliyəm.

Məni həvəsləndirdi: «Gəl, səni Y.Qaqarin adına mərkəzi pionerlər və məktəblilər evinin (haz. T.İsmayılov adına uşaqların və gənclərin yaradıcılıq mərkəzi- Ə.R) "Cücələrim" mahnı və rəqs ansamblına işə düzəldim. Mən orada rəqs quruluşlarına rəhbərlik edirəm. Bu ansambl çox məşhurdur, hər yerdə tanınır. Sən 76 "rubl" maaş alacaqsan, səfərlərə gedəcəksən, SSRİ-nin hər yerini gəzəcəksən».

O, mənim razılığımı aldı və işə düzəltdi. 1973-cü il oktyabr ayından pionerlər və məktəblilər sarayında işə girdim və 1996-cı ilə qədər T.İsmayılov adına uşaqların və gənclərin yaradıcılıq mərkəzində işlədim.

Ağaəmi rəqs ansamblarının əsl musiqiçisi kimi yetkinləşib. O, bu aləmdə özünü çox gözəl hiss edir. Rəqs sənətinin müşayiətində lazım olan bütün melodiyaları say hesabıyla, ölçülərlə, yerli yerində ustalıqla çalır. İndiyə qədər Azərbaycanda hazırlanmış rəqs quruluşlarında tələb olunan musiqiləri və kompozisiyaları bilir.


Onun xatirələrindən: "Cücələrim" ahsamblının televiziya çəkilişlərində klarnetçalan Bahadur Əlibabayevlə birlikdə çaldığımız melodiyalar yaxşı alınırdı. Axı, müntəzəm məşqlərdə, canlı konsertlərdə eyni melodiyaları birlikdə ifa etməyimiz bizi hazırlamışdı. Deyilənə görə televiziyada "Cücələrim"in rəqslərini müşayiət etməyimizi Avtandil və Vəli kimi nəhəng sənətkarlar seyr edib dinlərkən bəyənirlərmiş. Belə xoşagələn sözlər, təriflər qulağımıza çatanda daha da həvəslənirdik".

Ağaəmi Ağayev 1974-cü il iyulun 8-də "Cücələrim" ansamblı ilə Gürcüstanda Zaqafqaziya Festivalının iştirakçısı olub. Bizim ansambl birincilik qazanaraq diplom, fəxri fərmanlar və medallarla təltif olunub. Ansambl 1977-ci ilin yayında Krımda "Artek" pioner düşərgəsində keçirilən "Qoy həmişə günəş olsun" adlı Ümumdünya Festivalın laureatı olub. Bu möhtəşəm tədbirə 177 ölkədən uşaq bədii kollektivləri gəlmişdi. Ağaəmi 1982-ci və 1992-ci illərdə "Artek"də keçirilən festivallarda da "Cücələrim" ansamblı ilə iştirak etmişdir.

1985-ci ildə SSRİ-nin paytaxtı Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində 45 gün ərzində düzənlənən Ümumdünya Gənclər Festivalında da "Cücələrim"in çıxışı böyük marağa səbəb olmuşdu. Bütün bunları Ağaəmi böyük iftixar hissi ilə xatırlayır. Özünə çox doğma bildiyi ansamblın tərkibində o, Baltikyanı respublikaların və Gürcüstanın ən böyük şəhərlərində, bundan başqa Volqoqrad, Kiyev, Xarkov kimi şəhərlərdə dəfələrlə konsertlərdə və festivallarda olmuş-



SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində. Sağdan üçüncü: Ağaəmi Ağayev



"Cücələrim" ansamblı konsertdə. Qarmon ifaçısı Ağaəmi Ağayev



1990-cı il. Türkiyənin Ankara şəhəri. Soldan ikinci: Bahadur Əlibabayev, Əfsər Cavanşirov, beşinci Elmira Cahangirbəyova, Ağaəmi Abğayev, sağdan birinci: Böyükağa Məmmədov və Türkiyə vətəndaşları

dur. İstedadlı musiqiçimiz İrəvanda və Naxçıvanda verdikləri konsertləri də unutmayıb.

1984-cü ildə Özbəkistanın Daşkənd şəhərində keçirilən Azərbaycan incəsənəti və mədəniyyəti günlərinə vətənimizin ən məşhur sənət adamları göndərilmişdi. Bu sırada SSRİ xalq artistləri Rəşid Behbudov (1915-1989), Zeynəb Xanlarova, Azərbaycanın xalq artisti Şövkət Ələkbərova (1922-1992) və digərlərini hörmətlə xatırlayırıq. Azərbaycan incəsənətinin təbliğində mühüm əhəmiyyət daşıyan bu tədbirdə baletmeyster Böyükağa Məmmədovun "Cücələrim" rəqs ansamblı ilə təqdim etdiyi rəqs kompozisiyaları da münüm əhəmiyyət kəsb etmişdi.

Ağaəminin xatirələrindən:"1990-cı ildə Türkiyəyə "23 nisan cocuq festivalı"na getdik. İlk dəfə idi ki, qardaş ölkəyə Azərbaycandan uşaqlardan ibarət yaradıcı kollektiv göndərilirdi. Festivalı TRT-1 kanalı keçirirdi. SSRİ hələ dağılmamışdı. Odur ki, Bakı hava limanından Moskvaya, Şeremetyev-2 hava limanından isə İstambula uçduq".

Bu "Cücələrim" ansamblının xarici ölkəyə ilk səfəri idi. Səfər Türkiyədə hər il ənənəvi olaraq keçirilən "23 nisan cocuq festivalı" ilə bağlı olduğu üçün daha böyük əhəmiyyət kəsb edirdi. Festival Ankara şəhərinin Atatürk adına möhtəşəm stadionunda keçirilirdi. "Cücələrim" ansamblının çıxışı burada o qədər uğur qazanmışdı ki, bunu sözlə ifadə etmək çox çətindir. SSRİ dövlətindən bura yalnız bir kollektiv, "Cücələrim" rəqs ansamblı məxsusi dəvət olunmuşdu. Konsertin sonunda Türkiyənin o zamankı prezidenti Turqut Özal onlara yaxınlaşıb təbrik etmiş, təşəkkürünü bildirmiş və soruşmuşdu:-Siz İstanbulda olmusunuzmu? Cavab verilmişdi: - Xeyr! Bu zaman prezident ətrafındakı yüksək çinli məmurlara tapşırmışdı ki, qarşıda olacaq böyük kültür törənlərinin (mədəniyyət tədbirləri-Ə.R.) birinə bu sanatçıları dəvət edin, onlar buna layiqdirlər. Turqut Özal çöhrəsinə təbəssüm və dilinə bir az da şirinlik qataraq demişdi: «İstambulda olmayan, gəzib onu görməyən, elə bilin ki, Türkiyədə olmayıb". Beləliklə "Cücələrim" rəqs ansamblı 1990-cı ilin yayında yenidən Türkiyəyə yollanaraq İzmit və İstanbul şəhərlərində konsertlər verdi. İstanbuldakı konsertin biri Gülhanə parkında oldu. İstər Ankarada, istərsə də İzmit və İstambulda olanda "Cücələrim" ansamblının üzvlərini gəzintiyə aparır, muzeylərlə, tarixi əhəmiyyətli yerlərlə tanış edirdilər. Ağaəmi o yerlərlə bağlı olub-keçənləri bu gün də xatırlayır və ömrünün mənalı anları sayır.

Aprel ayındakı səfər zamanı Fransadan gələn nümayəndələr "Cücələrim"in çıxışını çox bəyənmiş və öz ölkələrinə dəvət etmişdilər. 15 günlük səfər zamanı Paris, Leon və bir-neçə şəhərdə verilən konsertlər alqışlarla qarşılanmış, dövrü mətbuatda işıqlandırılmış və radiolarda, televiziyalarda məlumatlar verilmişdi. Fransaya səfərə gələnləri tarixi məkanlara gəzməyə aparmış və Eyfel qülləsinə çıxarmışdılar.

1996-cı ilə qədər A.Ağayev hər il Türkiyədə keçirilən cocuq festivalına işlədiyi ansambl ilə getmiş və qarmonun ecazkar səsilə tamaşaçıları valeh etmişdir. Sonuncu səfərdə "Kral" telekanalı "Cücələrim" ansamblını məxsusi olaraq çəkilişə dəvət etmiş və maraqlı proqramla yayımlamışdı.

Ağaəmi Ağayev 1991-ci ildən Azərbaycan Teleradio Verilişləri Komitəsinin nəzdindəki "Bənövşə" mahnı və rəqs ansamblında da çalışırdı.Burada baletmeyster əvvəl Böyükağa Məmmədov, sonralar isə fasilələrlə Nəriman Kərimov və Əli Əşari olmuşdur. Ümumiyyətlə Ağaəmi 1989-cu ildə və 1990-cı illərdə müxtəlif rəqs kollektivlərində çalışmışdır. Bu sırada misal olaraq "Cırtdan" uşaq rəqs ansamblını və Tibb İşçiləri mədəniyyət evinin rəqs kollektivini və "Səyyah" qrupunu göstərmək olar. Rəqs sənətinə məxsus çalğı qaydalarını, repertuarı və iş prinsipini yaxşı bildiyi üçün kollektiv rəhbərləri Ağaəmi ilə birlikdə rahat işləyirdilər. Ağaəmi "Xəzər" Özəl Universitetinin tələbələrdən ibarət rəqs qrupuna da dəvət olunmuşdu. Neçə illər burada çalışmışdı. Oğlanlar qrupunun rəhbəri əməkdar artist Xanlar Bəşirov, qızlar qrupunun rəhbəri əməkdar artist (sonralar x.a.) Cəmilə Bayramova idi.

Onu da yazmalıyıq ki, "Cücələrim" rəqs ansamblı uzun illər ərzində Azərbaycana gələn rəsmi qonaqların hava limanında qarşılanması və yola salınması zamanı iştirak edirdi. Gələn qonaqları milli geyimli rəqqasə qızlar duz-çörək və gül-çiçəklə qarşılayırdılar. Qarmonun, klarnetin, nağaranın səsi şən əhval bəxş edir, uşaqların rəqsi əsl şənlik yaradırdı.

Səbayel rayonu mərkəzi seçki məntəqəsi T.İsmayılov adına yaradıcılıq mərkəzində yerləşir. "Cücələrim" ansamblı seçkilər ərəfəsində məntəqədə çıxış edir və bayram əhval-ruhiyyəsi yaradırdı. Ağaəminin qarmonun gur səsi dəhlizlərə yayılırdı.

A.Ağayev 1994-cü ildə "Cücələrim"lə Fransanın Sammeksam şəhərində də festivalda olmuş və 10 günlük səfərdən xoş təəssüratlarla qayıtmışdı.1996-cı ildə Türkiyənin Quş adasında sənət səfərində olan Ağaəmi zəngin təəssüratlara sahib olmuşdu. Bu gözəl məkana o, qızını da aparmışdı.

Sovet dövründə "Cücələrim" ansamblı təşviqat qatarı ilə ölkənin əksər bölgələrinə konsertlərə göndərilirdi.

A.Ağayev 1996-cı ildə Azərbaycan Dövlət rəqs ansamblına dəvət olunmuş və burada 6 ay çalışmışdı. Hazırda onun əsas iş yeri Teleradio Yayımları Qapalı Səhmdar Cəmiyyətində məktəblilərin "Bənövşə" mahnı və rəqs ansamblıdır.

Azərbaycan musiqi tarixində elə işıqlı admlarımız olub ki, onlar haqqında mütləq istər sənət adamlarına həsr olunmuş ümumi kitablarda, istərsə də ayrıca monoqrafiyada yazılmalıdır. Biz də A.Ağayevin yorulmaz xidmətlərini əsas tutaraq adını şərəfləndirib kitabımıza daxil etdik.

Hər bir sənətkar sənət dünyasına müxtəlif çür ayaq basır.Ağaəminin qədəmləri rəqs sənətimizin şərəfli yollarında sınandı və bərkidi. O, bu çətin yolda rəqslərimizin müşayiətçi qarmonçalanı kimi hünərlə addımladı, yorulmadı və büdrəmədi. Bu insan özünü bu işdə tapdı, tale yazısının hökmüylə milli rəqs sənətimizə sədaqətlə xidmət etdi.



Ağaəmi Ağayev və Bahadur Əlibabayev "Bənövşə" uşaq xorunun məşqində



"Qoruq" ansamblı İçərişəhərdə konsertdə. Soldan birinci: tarzən ŞahinVerdiyev, qarmonçu Ağaəmi Ağayev, kamançaçalan Vidadi Paşayev

Ağaəmi əksər qarmon ifaçılarımız kimi tot-büsatımıza da xidmət edib. Bu işə ilk əvvəllər 1972-ci ildən öz doğma kəndi Bibi-Hetbətdən başlayıb. Xırda məclislərə, şadyana tədbirlərə, nişan mərasimlərinə gedərək bir növ "sənət imtahanı" verib. İlk əvvəllər klarnet ifaçısı Məhəmməd Xasıyevlə (1954-2003) sənətə başlayıb. Məhəmməd həm də qarmon çalırmış. O, müğənni Suğra İbrahimovanın qardaşı idi.

Ağaəmi sonralar geniş əhatədə tanınmış, müxtəlif musiqi heyətlərinin tərkibində Bibi-Heybət, Bayıl, 20-ci sahə, Sahil, Qaradağ, Qızıldaş, Buta, Səngəçal və Bakıxanov qəsəbələrində keçirilən toy mərasimlərində sənətini sevdirə bilmişdir.

Ağaəmi İçərişəhərin "Qoruq" x.ç.a.ansamblında çalışır. Bədii rəhbər Haçı Şahin Verdiyevdir.

Ağaəmi Ağayev klarnetçi Bahadur Əlibabayev və nağaraçalan Ələkbər Məmmədovla birlikdə Fikrət Əlizadənin bəstələdiyi rəqs melodiyalarını studiyada disklərə yazdırmışdır. Mən bu diski dinlədim və bəyəndiyimi bildirdim. Bu musiqi qrupu yaradıcılıq işlərini davam etmək əzmindədir. Biz də uğur arzulayaq.

Ağaəmi Balaəmi oğlu Ağayev 1982-ci ildə ailə qurub. İki övladı, iki nəvəsi var.

2.74. "XƏZƏR" ANSAMBLININ RƏHBƏRİ



Faiq Süleymanov

Mən onun ifasını ilk dəfə 1976-cı il dekabr ayının sonlarında eşitmişəm. Həmin il fevral ayının 5-də məndən 4 yaş böyük qardaşım Rəhmanın öz mənzilində ailə üzvləri, doğmaları və dostları ilə birlikdə qeyd etdiyi ad günündə yaxşı çalıb-oxumaq olub. Həmin vaxt mən Ukrayna Respublikasında hərbi xidmətdə olmuşam. 1976-cı il dekabr ayının əvvəllərində hərbi xidmətdən Bakıya qayıdıb doğmalarıma qovuşmuşam. Rəhman öz ad gününü qeyd etməsi haqqında söhbət etdi, kimlərin iştirak etməsindən söz saldı və maqnitofonu şəbəkəyə qoşdu. Qarmonun zəngin çalarlı xoş ahəngi otağa yayıldı. İki il hərbi xidmətdə olub Azərbaycan musiqisindən uzaq düşmüş bir qarmon ifaçısına bu səsin necə təsir etdiyini təsəvvür edə bilərsinizmi? Lentdən eşitdiyim "Rast" muğamının "Bərdaşt"ını "Əraq"la başlamışdı. (Yeri gəlmişkən qeyd edək ki, bir çox xanəndələrimizin radio fonduna daxil olmuş "Rast" muğamı ifalarında tarzənlərimiz "Bərdaşt"ı "Novruzi-rəvəndə" ilə yox, məhz "Əraq"la başlayıblar. Əslində isə "Rast"ın "Bərdaşt"ı "Novruzi-rəvəndə"dir. Musiqi tədrisində də belə öyrədilir və son 20-30 ildə də bütün konsertlərdə belə eşidirik)

Mətləbə qayıdaq. Maqnitofonda eşitdiyim "Bərdaşt"ı qarmonçalan səlis, aydın, bitkin cümlələrlə, peşəkar barmaqlarla elə ifa edirdi ki, heyran olmamaq mümkün deyildi. Dərhal qarmonçalanın kim olduğunu soruşdum. Qardaşım onun Faiq Süleymanov olduğunu söylədi və bu gəncin çox istedadlı qarmonçalan olmağından söz açdı.

Söhbət əsnasında Rəhmanın ad günündə çıxış edən musiqi üçlüyünün klarnetçalan Akif Qürbətov, qarmon ifaçısı Faiq Süleymanov və nağaraçı keşləli Nadirdən ibarət olduğu bəlli oldu. Adı çəkilən musiqiçilər və qarmon ifaçısı, mərhum Fərhad Salamov Rəhmanla sənət yoldaşlığında idilər.

Faiqin ustalıqla müşayiət etdiyi "Rast"ı və təsnifləri oxuyan böyük qardaşım İsrafil olmuşdu. Beləliklə həmin vaxt Faiq Süleymanovu bacarıqlı qarmonçalan kimi kəşf etmiş və sonrakı dövrlərdə onun yaradıcılıq yolunu bacardığım qədər izləmişəm.

Faiq Ağamehdi oğlu Süleymanov 1956-cı il oktyabrın 2-də Bakıda anadan olub. Əslən içərişəhərlidirlər. Bu ailədə beş övlad böyüyüb. Faiq üçüncüdür. Atasının anası Rübabə xanımın (1910-1994) qarmon çalmaq bacarığı var idi, yarımtonsuz qarmonda xalq havalarını şirin-şirin çalardı. O, bu işlə özü, ailəsi üçün, həvəskar kimi məşğul olurdu. Balaca Faiq ilk dəfə qarmonu nənəsində görüb, onun ifasından eşidib. Rübabə xanımın 67 yaşı olanda nənənin çaldığı qarmon səsinə daha çox diqqət kəsilmiş, maraqlanmağa başlamışdı. O, sinini götürüb dizləri üstə qoyar, elə təsəvvür yaradardı ki, guya qarmon çalır. Ondan böyük qardaşı Səməd əla nağara çalmaq qabiliyyətinə sahib idi. Teleradionun "Qərənfil" məktəblilər ansamblında çalır, "Bənövşə" uşaq xorunu müşayiət edirdi.

Faiq xatırlayır ki, onun uşaqlıq illərində qohum-qəbilənin toy-büsatının qadın şənliklərinə dəvət

çalan xanım (xalq artisti, xanəndə Tələtin anası) öz qarmonçalanı ilə, kişi məclislərinə isə Tələt Qasımov gələrdi. Klarnetçalan Suliddin İsmayılov və ya Məhərrəm Zeynalov olardı. Faiqin atası Ağamehdi Məhərrəm Zeynalovla dost idi.

Ağamehdigil Bakımızın köhnə məhəllələrindən birində "Sovetski"də (Sovet küçəsi) yaşayırdılar, sonra isə ailə Yasamal yaşayış sahəsinə köçmüşdü. Odur ki, Faiq əvvəl 173, sonra isə Yasamaldakı 13 saylı orta məktəbdə oxuyub. Onun ümumtəhsil dövrü 1963-1973-cü illəri əhatə edir.

Çox maraqlı və istisna haldır ki, Faiq 7 yaşında olarkən qarmon sinfinə gəlib. O, Respublika Müəllimlər Evində fəaliyyət göstərən 5 illik qarmon sinfində təhsil alıb. Ona Tofiq Quluyev (o, həm də ixtisasca tarzən idi) dərs deyib. Balaca Faiq qarmon çalmağa o qədər həvəskar idi ki, alətin ona ağır gəldiyinə də məhəl qoymur, çalmaq, elə hey öyrənmək istəyirdi. Bütün bunları görən, duyan ata belə az yaşlı oğlunu qarmon sinfinə qoymalı olmuşdu. Müəllimi də bunu həmişə qeyd edirdi ki, bu uşaq enerjilidir, yorulmazdır, istedadlıdır.

Faiq xatırlayır ki, Tofiq müəllim ona ilk dəfə ən sadə, kiçik bir melodiyanı, "Şən qazlar" Ukrayna xalq mahnısını öyrətmişdi. Sonralar isə proqrama əsasən sadədən mürəkkəbə doğru xeyli materialı mənimsəyən Faiq irəliyə doğru getmişdi. Erkən musiqiyə gəlməsi onun kiçik yaşlardan inkişaf etməsinə və sənət üçün tez formalaşıb yetkinləşməsinə xidmət etmişdi.

Faiq onun oxuduğu qarmon kursunda təhsil alan istedadlı uşaqların, sonradan yaxşı qarmonçalan kimi yetişən Fuad Əliyev (Kürdəxanıdan), Yusif Ağayev və digərlərinin adını hörmətlə çəkir. Yusif sonralar xeyli müddət Azərbaycn Dövlət Mahnı və Rəqs ansamblının aparıcı qarmonçalanı olmuşdur. Fuad Bakı toylarının əsas qarmon ifaçılarından birinə çevrilmişdir.

Respublika Müəllimlər Evindəki musiqi təhsili ilə kifayətlənməyən Faiq həm də qaboyçalan Kamil Cəlilovdan muğam dərsi almışdır. Onlar o zaman Yasamalda qonşu idilər. K.Cəlilov həm də balaban (dəmkeş), qarmon və nağara ifaçısı olmuşdur. Faiq Kamil müəllimdən ən çox işlənən, toy-büsatda, konsertlərdə, xanəndə müşayiətində lazım olan muğamları öyrənmişdi. Sonralar musiqi aləmindəki geniş fəaliyyəti muğamlara onun daha yaxından bələd olmasına şərait yaratmışdı.

Faiqin bir qarmon ifaçısı kimi yetişməsində o zamankı Bakı musiqi mühitinin, radiodakı, televiziyadakı konsertlərin, toy şənliklərindən yazılmış maqnitofon lentlərinin də mühüm əhəmiyyəti olmuşdur. Konsertlərdən, lentlərdən öyrəndiklərini öz ifasına gətirərək Faiq evdə daim məşq edirdi. Mahir qarmon ifaçıları Məmmədağa Ağayev, Səttar Hüseynov, Zakir Mirzəyev və Aftandil İsrafilovun radio lentləri və qrammafon vallarındakı ifalar həlledici dərəcədə Faiqin köməyinə çatmışdı. Faiq Aftandilin Bakı toyxanalarından çalğıları toplanan maqnitofon lentlərini də əldə edib dinləmiş, virtuoz çalğı qaydalarına meyl etmişdi.

İstedadlı musiqiçi olacağına ümid yaradan Faiq Süleymanov 13 yaşından sənətə daxil olmuş və şadyana məclislərdə çalmağa başlamışdır. O, getdiyi ilk toy haqqında belə söyləyir: "Klarnet və qarmon ifaçısı Nəsrullah Səmədov, dəmkeş-balabançı Məmməd Hüseyn İbrahimov, nağaraçalan-xanəndə Məmmədəli Əliyev (Sail təxəllüslü qəzəlxan-şair – Ə.R.) ilə birlikdə olduq. Onlar sonralar da bir müddət məni toylara apardılar. Mən 14 yaşlı uşaq, onlarsa yaşa dolmuş sənətkarlar olsalar da pul müddət məni toylara apardılar. Mən 14 yaşlı uşaq, onlarsa yaşa dolmuş sənətkarlar olsalar da pul bölgüsündə fərq qoyulmurdu. Onların hər birinə düşdüyü pay qədər mənə də pul verilirdi. Beləliklə mən ilk sənət tərbiyəmi belə insanlardan götürdüm. Belə hallar mənim üçün nümunə, örnək və məktəb idi."

Həmin vaxtlar Kamil Cəlilov Faiqi uşaq bağçalarındakı tədbirlərə çalmağa aparırdı.

Faiqi dinləyirəm: "1970-ci illərdə klarnetçalan Şəmsi İmanov, qarmonçalan Avtandil İsrafilov ən mahir və populyar sənətkar kimi toyların yaraşığı idilər. Hər birinin də öz dəstəi var idi. Lakin bu iki sevimli sənətçini öz şənliklərində birlikdə görmək istəyənlər də olurdu. Odur ki, bəzi hallarda Şəmsi və Avtandil toylarda birlikdə çalırdılar. Düzdür, onların ifa tərzi bir-biri ilə o qədər



"Gənclik" rəqs ansamblı. 3-cü sırada soldan üçüncü: F.Süleymanov, 2-ci sırada sağdan beşinci: K.Dadaşov

uyuşmasa da, hər halda məclislərdə olurdular. Şəmsi ilə Aftandilin eyni toyda birləşdiyi anlarda mən Aftandilin dəstəsilə, Vəli Qədimovla şənliklərə gedirdim. Bu hallar, Vəli və onun sənət yoldaşları ilə birlikdə çalmağım mənim sənət artımıma təkan verdi. Aftandil Şəmsi ilə digər toylara gedəndə öz dəstəsində yerinə məni qoyurdu. O zamanlar Aftndili Əmircan və Suraxanı toyxanalarına tez-tez dəvət edirdilər. Həmin vaxtlar Aftandilin toy ansamblının müğənnisi Rövşən Behcət idi.

1977-ci ildə Aftandil İsrafilovun qardaşı Ənuşiravanın toyunda Vəli Qədimovla mən çaldım."

Faiq Süleymanov sonrakı illərdə Azərbaycan Neft və Kimya İnstitutunun "Gənclik" mahnı və rəqs ansamblının ştatda olan işçisi olmuş, rəqs quruluşlarını məharətlə müşayiət etmişdir. Rəqsin rəhbəri əməkdar artist, məşhur baletmeyster Kamil Dadaşov, xorun rəhbəri Ənvər Məmmədov, konsertmeyster, tarzən Yadigar Əliyev idi. Yəhudi əsilli mahir qarmonçu-müğənni Xaniko Yegizarov da bu ansamblın işçisi idi. Fikrət Əliyev balaban, tütək və klarnet çalırdı. Bu ansambl baxış-müsabiqələrdə, festivallarda çıxış etmiş, yüksək nailiyyətlərə imza atmış, keçmiş SSRİ məkanında, xarici dövlətlərdə bir-birindən uğurlu çıxışlar etmişdi. Faiq Süleymanov Çexoslovakiya, Polşa, Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Almaniya Demokratik Respublikası və digər ölkələrdəki səfərləri indi də xatırlayır və bütün bunları sənətinin, həyatının maraqlı anları sayır.

Onu da qeyd etməliyik ki, rəqs ansamblının musiqiçisi olmaq çətin və məsuliyyətlidir. Faiq bu çətinliyin öhdəsindən gələ bilirdi.

Faiqin xatırladıqlarından: "Mən 1975-ci ildən etibarən 5-6 il "Şənlik" x.ç.a. ansamblının da qarmonçalanı olmuşam. Məndən əvvəl bu ansamblın qarmonçalanı Əhliman Zabitoğlu olub. "Gənclik" mahnı və rəqs ansamblında işlədiyim illərdə "Şənlik"də də çıxış edirdim. Radioya lentlərin yazılmasında, televiziya çıxışlarında olur, bəzən rayonlara da konsertlərə gedirdik. Ansamblın bədii rəhbəri və konsertmeysteri kamançaçalan (həm də tar ifaçısı) Aqşin Quluyev idi."

Aqşin Quluyevin fikirləri: "Rəhbəlik etdiyim ansamblda Faiq öz yerində olan bir musiqiçi idi. Mən onun dəqiqliyindən, ciddiliyindən, məsuliyyətli olmasından, sənətindən, yaxşı musiqi yaddaşından həmişə razı qalmışam. Əsl ansambl çalanı olduğu üçün, səliqəli ifası bütün alətlərlə uyuşurdu. Onun sənət yoldaşlığı da səmimidir. Hara getsə üzağardandır. O vaxtlar gənc olsa da əla qarmonçalan idi. Sonralar lap püxtələşdi. Hazırda özünün "Xəzər" adlı çox səviyyəli bir ansamblı var. Onu televiziya ekranlarında tez-tez görürəm.

"Şənlik" ansamblının ilk müğənnisi Cavanşir Həsənov və Sürəyya İbrahimova olub. Sonralar



"Şənlik" ansamblının televiziya çıxışı. Yuxarı sırada sağdan birinci: F.Süleymanov, ikinci M.Salmanov

Xavər Yusifova, Qara İsmayılov, Səxavət Məmmədov, Əlisa Xalıqoğlu, Məmmədbağır Bağırzadə, Rafiq Məmmədov, Knyaz Əliyev, Elmira Rəhimova, Mais Salmanov, Teymur Mustafayev, Rusif Məmmədov, Eyvaz Həsənov, Tərənə Vəlizadə və Baba Mahmudoğlu da "Şənlik"lə birlikdə çıxış ediblər. Radioda, televiziyada, filarmoniyada, rayonlarda konsertlərimiz olurdu. Əməkdar artist (hazırda xalq artisti – Ə.R.) Elmira Rəhimovanın filarmoniyada əməkdar incəsənət xadimi, professor, bəstəkar Oqtay Rəcəbovun mahnılarından ibarət solo konserti oldu. Bu çox uğurlu konsertdə müğənnini bizim "Şənlik" ansamblı müşayiət edib. Adları sadalanan müğənniləri qarmonçalan Faiq Süleymanov ansambl tərkibində ustalıqla müşayiət edib və solo hissələrdə məharət göstərib."

Faiq 1973-1975-ci illərdə Rəsulzadə (o vaxtkı Kirov) qəsəbəsindəki mədəniyyət sarayının qarmon sinfinin müəllimi olmuşdur. Burada klarnet ixtisasından dərs deyən Akif Qürbətovla tanış olmuş və 15 il onunla toy yoldaşlığı etmişdir.

Onun xatirələrindən: "Akif Qürbətov o dövrün populyar klarnetçalanlarından biri idi. Ay ərzində toyları çox olardı. Onunla Bakıda, rayonlarda, Əlibayramlı (hazırda Şirvan) və Gəncə şəhərlərində, qonşu respublikalarda toylarda olmuşam."

Faiq 1973-1978-ci illərdə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində qiyabi yolla təhsil alıb. İnstitutun rəqs ansamblında və tarzən, əməkdar artist (hazırda xalq artisti) Adil Bağırovun rəhbərlik etdiyi özfəaliyyət x.ç.a. ansamblında çalıb. 1977-1979-cu illərdə Sovet ordusu sıralarında, Azərbaycanda, Xıdırlı qəsəbəsindəki hərbi hissədə xidmət edib. Əsgəlikdən əvvəl və sonra gənc musiqiçi Respublika avtomobil nəqliyyatı işçiləri həmkarlar ittifaqının mərkəzi mədəniyyət evində çalışıb və "Avtomobilist" (avtomobilçi) ansamblına rəhbərlik dib. Bu ansamblın Baltikyanı respublikaların müxtəlif şəhərlərində, həmçinin Yurmalada, Polşa, Çexoslovakiya və Bolqarıstan ölkələrində konsertləri olmuşdu. Faiqin çalışdığı mədəniyyət evi Kəlbəcər rayonunu himayəyə götürmüşdü. Odur ki, hər yay oraya konsertlərə gedilirdi. Kəlbəcərə çatana qədər yolüstü Ağdərə, Xankəndi və Şuşada da konsertlər verilirdi. Ansambl rəhbəri olan F.Süleymanov sonralar 1993-cü ilə qədər həmin mədəniyyət evində bədii rəhbər vəzifəsində çalışmışdır. Bu mədəniyyət müəssisisəi həmin il bağlanmışdır.

Səmərəli sənət yolu addımlamış sənətkar 1988-ci ildə öz təşəbbüsü ilə "Xəzər" adlı instrumental ansambl yaratmışdır.

Onun dediklərindən: "Ansambl yaratmaq çoxdankı arzum olub. İstəmişəm ki, sərbəst fəaliyyət göstərək, geniş repertuarımız olsun, dəstədə halallığı yaradaq, hamıya bərabər halda əmək haqqı bölünsün. Axı toylarda, konsertlərdə ansambl üzvləri hamı birlikdə çalışır. Həmişə düşünmüşəm ki, dəstə üzvlərinə hörmətlə yanaşılsın, onlara bərabər halda zəhmət haqqı verilsin. Uzun illər getdiyim toylarda haqsızlıqla qarşılaşmışdım. Harama qarşı daxilimdə güc yaranmışdı. Bütün bunlardan uzaqlaşmaq istəyirdim və ansambl yaratmaqla buna nail oldum. Ansamblın adının necə olması barədə düşünərkən o vaxtkı üzvlərdən klarnetçalan Nurulla Bədəlov və ionikaçalan Pərviz Zeynalov (hazırda sintezator ifaçımız) təklif etdilər ki, bəlkə "Xəzər" adlandıraq? Mən razılaşdım. Onu da deyim ki, halal qrup yaratmağı mənə hansı qüvvə isə təhrik edirdi. Daxilimdən gələn səsin hökmü ilə bu işi icra etdim."

Düzlüyü, halallığı sevən Faiqi Uca Allah sevdi, dəyərləndirdi. Halallıq bu saf insana halal şöhrət gətirdi. O, geniş məkanda tanındı, musiqi ictimaiyyətində, xalq arasında sevildi və şöhrətləndi. Allah-təala tərkibində, fəaliyyətində halallığı, təmizliyi qoruyub saxlaya bilən "Xəzər" ansamblını da şöhrətləndirdi. Bu ansambl nəinki musiqi mühitində, hətta respublikamızın hər yerində, onun hüdudlarından kənarda da tanındı və məşhurlaşdı. Belə bir musiqi heyətinin yaranmasında, yaşamasında, geniş fəaliyyətində, uğurlu işlərində Faiq Süleymanovun xidmətləri çox böyükdür. Yazdığım bu oçerk üçün müsahibə alarkən, Bakı Humanitar Kollecindəki sinif otağımda onunla qabaq-qənşər əyləşib söhbət edərkən onun səmimiyyətini, təmiz qəlbini duydum, saf duyğularını hiss etdim. Bu insan paxıllıqdan, xəbislikdən, şər-böhtandan, riyakarlıqdan tam uzaqdır. O, iman əhlidir, xeyirxah əməllər sahibidir və düzlüyə xidmət edir. Dini ayinlərimizi doğru-düzgün icra etməyə çalışan bu adam bir an ibadətindən qalmır, cümə namazını məsciddə qılaraq, Allaha dualar edir, insanlarımıza xoşbəxtlik, xalqımıza xoş güzəran və əmin-aman həyat arzulayır.

Haşiyə çıxaraq bildirmək istərdik ki, Faiq 1989-1991-ci illərdə veteran rəqqaslardan ibarət olan ansamblda da çalmış, Kipr, Türkiyə və İsrail ölkələrində səfərlərdə olmuşdur. Həmin səfərlərə müğənni, xalq artisti Yalçın Rzazadə də getmişdi.

Faiqin xatırlamalarından: "Səfərlər zamanı Yalçın Rzazadə ilə yaxın tanışlığımız yarandı. Odur ki, bu təmiz, vicdanlı, mədəni insanla Bakıda 3-4 il toy yoldaşlığı etdik. O zaman ən elit toy şənliklərinə onu dəvət edirdilər. Biz "Xəzər" ansamblımızla onu müşayiət edirdik."

"Xəzər" ansamblı yaranan andan bu günə qədər olduqca məhsuldar bir yol keçərək yalnız toybüsatda deyil, lent yazılarında, televiziya konsertlərində də fəallıq göstərmişdir. Ansambl uzun illərdir ki, müğənnilərdən Ruhəngiz Allahverdiyevanı, Səbinə İlyasovanı, Zöhrə Abdullayevanı, Mələkxanım Əyyubovanı, Aybəniz Haşımovanı, Vəliağa Tağıyevi, Sabir Əliyevi, Rusif Məmmədovu, Rafiq Cəfərovu, Elşad Qarayevi, Cavanşir Məmmədovu, Gülüstan Əliyevanı, Samir Cəfərovu, Nazpəri Dostəliyevanı, Elnarəni, Aynur Dadaşovanı və digərləini müşayiət edərək səslərinin disklərə yazılmasında ustalıqla çalışmışdır. Şair Tağı Sadiqin (Bakı Metropoliteninin rəisi Tağı Əhmədov) şeirlərinə tarzən, xalq artisti Zamiq Əliyevin bəstələdiyi mahnılarını müxtəlif müğənnilərin ifasında stuiyalarda yazılmasında "Xəzər" instrumental ansamblı iştirak edir. Bütün qeyd etdiyim yaradıcılıq işlərinin məşqləri Faiqin mənzilinin altındakı yarımzirzəmidə keçirilmişdir. Hazırda da həmin məkan "Xəzər" ansamblının yaradıcılıq emalatxanasıdır. Qeyd etdiyim ünvanda həftədə 2 dəfə ansamblın məşqləri keçirilir. Könül oxşayan neçə-neçə musiqi əsərləri, mahnılar Faiqgildə yaradıcılıq süzgəcindən keçərək cilalanmış, meydana gəlmiş, buradan pərvazlanaraq dinləyici və tamaşaçı məhəbbəti tapmışdır.

"Xəzər" ansamblının kiçik heyəti 1994-cü ildə səkkiz nəfər rəqqasə ilə birlikdə Dubaya getmiş və "SİVİS Plaza" hotel-restoranda üç ay çalışmışdır. Bu ansamblın çıxışını çox bəyənən iş adamı, əslən fars Əbdürrəzaq "Xəzər"i "Sancorc" 5 ulduzlu hotelə aparmışdır. Faiqgil burada 6 ay işlə-

mişlər və tamaşaçı alqışları qazanmışlar. Əbdürrəzaq 1999-cu ildə Bakıya gəlib Faiqlə görüşmüş, "Xəzər" ansamblı ilə müqavilə bağlayaraq yenə Dubaya dəvət etmişdir. O, özü ilə 4 nəfər fars musiqiçi də gətirmişdi. 6 nəfər Faiqgil, 4 nəfər isə fars sənətçilər Bakıda birlikdə 2 ay məşq edərək Azərbaycan, fars, türk və ərəb musiqisindən ibarət repertuar hazırlamışdılar. Bu ansambl ilə səfərə bakılı müğənni Samirə Yusif qızı getmişdi. Faiqgil bu dəfə Dubayın "Qulfin" ingilis hotelində çalışmışdılar. Burada işi başa vurandan sonra bir ərəb onları öz şəxsi "Bəhreyn-İnterneyşl" hotelinə dəvət etmişdi. Burada yalnız ərəb və fars mahnıları çalınıb-oxunurdu. Faiqgil az zaman içərisində onlara təqdim olunmuş disklərdəki repertuarı dinləyərək öyrənmiş və hər gün verilən konsertlərdə maraqlı çıxışlarla tamaşaçıları sevindirmişdilər. Buradakı fəaliyyət üç ay çəkmişdi. Sonra isə bu ansambl Qətərdə, Sərca və Abu-Dabidə konsertlər vermişdi.

"Xəzər" bu gün də sənət meydanında olaraq aparıcı ansamblardan biri kimi tanınan müğənniləri və gəncləri müşayiət etməkdə, konsertlərdə və toylarda çıxış edərək geniş tamaşaçı auditoriyasını sevindirməkdədir.

Faiqdə öz işinə, sənətinə yaradıcılıq üfüqlərindən boylanan bir münasibət vardır. O, öz bacarıq və istedadını tam məsuliyyətlə sənətinə yönəldib. Bu yaradıcı şəxs ansambl işini gözəl bilir, səslənməni düz qurur, hansı alətin hansı musiqi hissəsini solo çalmasını düzgün həll edir. Sənətkarımız yaxşı oranjemançıdır. Müğənnilərin ifa etdikləri mahnıların "Xəzər" ansamblı ilə hazırlanmasında Faiqin dəsti-xətti, yaradıcılıq işi və oranjemanının mühüm dəyəri və tutumu vardır.

Sevimli sənətkarımızın xarici ölkə səfərlərinə bir də səyahət edək. O, 1985-ci ildə Bakı şəhər Soveti Memarlıq İdarəsinin xəttilə Fransanın Paris və Bordo şəhərlərində konsertlərdə olub. Bu heyətin tərkibində Azərbaycan memarları, kiçik musiqi qrupu, rəqqaslar və rəqqasələr olmuşdu.

Faiq 1992-ci ildə Portuqaliya ölkəsinə gedən rəqs ansamblının müşayiətçi musiqiçilərindən biri idi. Həmin ildə o, İran səfərində də olmuş, tarzən Fərman Hüseynov, klarnetçalan Akif Qürbətov, nağaraçı Şahvələd Qürbətov və müğənni Vəliağa Tağıyevlə birgə xalq musiqimizdən ibarət maraqlı konsert proqramı ilə soydaşlarımız yaşayan Ərdəbil, Qəzvin, Zəncan və Təbriz şəhərlərində çıxış etmişdi. Faiq 1995-ci ildə də İran İslam respublikasında konsertlərdə olmuşdur. Dəyərli sənətçimiz 1997-ci ildə üç həftəlik Danimarka, Norveç və İsveç ölkələrindəki uğurlu konsertləri də unutmur. Azərbaycan diasporunun təşkil etdiyi bu səfərdə musiqimizi müğənnilər Baba Mahmudoğlu, Nüşabə Ələsgərli, tarzən Vahid Qarabağlı, kaman ifaçısı Aqşin Quluyev, klarnetçi Akif Qürbətov, nağaraçalan Şahvələd Qürbətov və qarmonçu Faiq Süleymanov təmsil etmişdi.

Danimarkadakı konsertdə Cəmşid adlı soydaşımız musiqiçilərimizlə tanış olmuş, özünün qarmonçu olduğunu bildirmişdi. Qarmon sənətinə həddən artıq vurğun olan bu insan Faiqin sənətinə sevgi bəslədiyini dilə gətirmişdi. O, Faiqin qarmon ifasından zövq almaq və nəsə öyrənib mənimsəmək üçün məxsusi olaraq Norveç və İsveç konsertlərinə gəlib tamaşaçı olmuş və azarkeşlik etmişdi.

2007-ci ildə "Xəzər" instrumental ansamblı Berlindəki "Azərbaycan evi" mədəniyyət mərkəzinin sədri Tofiq Qarayevin dəvətilə Almaniya və Avstriyada konsertlər vermişdi. Ansambl bu konsertlərə özü ilə xalq artistləri Bilal Əliyev və Mələkxanım Əyyubovanı aparmışdı. Novruz bayramı münasibətilə təşkil olunmuş konsertlər çox səviyyəli keçmiş və alqışlar qazanmışdı.

Sevimli oxucu, bu oçerkimizlə daha bir istedadlı yurddaşımızın ömür və sənət salnaməsinə nəzər yetirə bildik.

Faiq Süleymanov 1981-ci ildə ailə qurub. Üç övladı və bir nəvəsi var.

2.75. USTA AZƏR

Böyük fransız yazıçısı Viktor Hüqo yazıb: "Zəhmət həyatdır, fikir dünya".

Dünyanın bütün zəkalı və düşünən şəxsləri, mütəfəkkirlər və aqillər insanları zəhmətə səsləmişlər. Ulularımız da həmişə bizə zəhmət çəkib bar dərməyi, əziyyətə qatlaşıb bəhrəsini görməyi tövsiyə ediblər. Onu da deyiblər ki, zəhmətsiz yediyin çörək də, təam da sənə dad verməz. Zəhmətlə qazandığın yavan çörəyi isə ləzzətlə yemək olur.

Bu oçerkdə haqqında söhbət açdığımız qəhrəmanımız ailənin tək övladı olsa da ərköyün olmayıb, əzəldən zəhmətə alışıb, seçdiyi peşəyə düzgün münasibət bəsləməklə ucalıb və öz dəyərli əməyi ilə Azərbaycan qarmon sənətinə xidmət edib.

Azər Əhməd oğlu Yaqubdust 1956-cı il dekabr ayının 12-də Bakıda anadan olub. Əhməd Yaqubdust (1925-1996) aslən Güney Azərbaycanımızın Tikmədaş kəndindən idi. O, 1965-ci ildə Bakıda Asiyət xanımla ailə qurub. Asiyət xanım Dağıstandan olaraq lak xalqının nümayəndəsi idi. Ailə Bakının köhnə məhəllələrindən birində, Mirzə Fətəli küçəsi 17 ünvanında kirayədə yaşayırdı. Ev sahibi Əbülfəz Rəhimov dükan (mağaza) müdiri idi, Bakıda hörmətli kişilərdən sayılırdı, böyük nüfuza sahib olmuşdu.

Müsahibə alıb, həyat və fəaliyyəti barədə məlumatları öyrənib kitaba daxil etmək üçün Azərlə olan söhbətlərimiz səmimi idi. 2012-ci il avqust ayının 2-də, günorta vaxtı, el arasında Varovski adlanan qəsəbədə Azərin səliqəli həyətində, evin qarşısında, üzüm talvarının altında, sərinlikdə əyləşib çay içə-içə şirin söhbətlər etdik. Suallarımdan biri belə oldu:

– Qarmona ilk həvəs səndə havaxt və necə yarandı?

Cavab verdi:

– Kirayə qaldığımız evin sahibi Əbülfəz əminin İbiş adlı oğlu var idi. O, oğlu üçün Teyyub Dəmirovdan qarmon almışdı. Uşaqlıq marağı və həvəsilə ona baxmaq, görmək istəyirdim ki, görüm qarmon necə olur? Bu mənimçün sirli idi. Odur ki, İbişgilin yaşadığı ikinci mərtəbəyə qalxdım. Qarmonu çarpayının altına qoymuşdular ki, uşaqların əlinə keçməsin. Sürünüb çarpayının altına girdim ki, qarmonu götürüm, imkan vermədilər. Axı, mən balaca idim, qarmonla davranmağı bacarmırdım, salıb sındıra bilərdim. O gündən qəlbimdə qarmon alətinə istək yarandı və bu arzu getdikcə artaraq sonda məni qarmon kursuna gətirdi.

Azər 1963-1973-cü illərdə 19 saylı ümumtəhsil məktəbdə oxuyub. Üçüncü sinifdə oxuyarkən məktəbdəki beşillik qarmon kursuna daxil olub və səkkizinci sinfin sonunda musiqi dərsini tamamlayıb. İxtisas müəllimi Bahəddin Fətəliyev olub.

Azərin dediklərindən: "Bir şagird kimi Bahəddin müəllimdən razı qalırdım. Yaxşı dərs keçirdi. Bütün incəliklərə qədər izah edir və öyrədirdi. Özü xanəndə olsa da nəzəriyyəni və qarmon sənətini çox yaxşı bilirdi. Beşillik təhsildə qarmona aid olan xeyli vəsait əldə etdim".

Azərgildən evə dönüb həyətimdə tut ağacının altında dincəlirdim. Təsadüfən Bahəddin müəllim mobil telefonuma zəng vurdu, hal-əhval tutub dedi: "Əhsən müəllim, telelviziyada əvvəlki illərdəki çəkilişlərinizi verirlər, ona tamaşa edirəm. Zəng etdim ki, sizi təbrik edim, həm də keyfinizi soruşum, əhvalınızdan xəbər tutum." Mən Azərgildə olan söhbəti nəql etdim. O, çox məmnun oldu, sevindi və dedi: "Hə, Əhsən müəllim, Azər Yaqubdust sevimli və istedadlı şagirdlərimdən biri olub. O, indi də mənim xatirimdədir. Əgər musiqi fəaliyyətini davam etsəydi, ən yaxşı qarmon ifaçılarımızdan biri ola bilərdi. Xatırlayıram ki, aşağı siniflərdə onu anası dərsə gətirirdi. Azər xatirini istədiyim şagirdlərimdən biri olub. Elə onun valideynləri də mənim xatirimi əziz tuturdular. Hətta onların yaxın qohumlarından birinin toyunun xanəndəsi mən olmuşam."

Fəlsəfənin qanunu var: "Təsadüfdən zərurət doğar". Doğrudan da Bahəddin Fətəliyevin təsadüfən mənə zəng etməsi müəllim və şagird arasında olan hörmət və məhəbbətin təsdiqinə vardı.

bu yazımıza şirinlik, sevgi qatdı və daha da mənalandırdı. Əlbəttə belə məsələlərdə Allahın izni və hikməti vardır.

Azər ilk gənclik illərində artıq sənət meydanına çıxmışdı, toylara gedirdi, qazancı da pis olmurdu. Tay-tuşu olan bir neçə musiqiçilə, o sıradan klarnet ifaçısı Hacı Həmidoğlu ilə sənət yoldaşlığı edirdi. Yığışıb arabir məşq də edirdilər, bilmədiklərini bir-birlərindən öyrənirdilər. Toylarda da birlikdə gənclik təpərilə və eşqlə çox yaxşı çalırdılar.

Azərin söylədikləri: "Mən hiss etdim ki, bu işlə bir nəticəyə nail ola bilməyəcəyəm. Yaxşı qarmonçalanlar gündən-günə artırdı. Qarmon sənətinin istedadlı və ya istedadsız davamçıları çoxalırdı. Düşündüm ki, bu aləmdə itib-batacağam. Odur ki, qarmon hazırlayan və təmirlə məşğul olan usta olmaq fikrinə düşdüm."

Qeyd etdik ki, Azər sənət yoldaşı Hacıgildə məşqlərdə olurdu. Hacının atası Həmid Məhərrəmov Azərin xətrini istəyirdi. Ümumiyyətlə o, oğlunun yoldaşlarına, gənc musiqiçilərə hörmətlə yanaşırdı. Həmid kişi klarnet ifaçısı idi.

Əhsən Rəhmanlının 2010-cu il dekabr ayında "MBM" nəşriyyatında nəşr olunmuş "Azərbaycanda klarnet ifaçılığı sənəti" kitabında (səh. 679) Azər Yaqubdustun fikirlərindən oxuyuruq: "Həmid əmi mənə elə xeyirxahlıq etdi ki, bu gün də həmin xeyirxah əməlin çörəyini yeyirəm. O, məni qarmon ustası Nikolay Yuravlyovun evinə apardı. Hamı həmin ustanı Kolya kimi tanıyırdı. Həmid əmi Kolyadan xahiş etdi ki, məni özünə şagird götürsün. Həmid kişi nüfuzlu şəxs olduğu üçün N.Yuravlyov onun sözünü yerə salmadı. Beləliklə mən həmin rus ustadan sənətin sirlərini öyrənməyə başladım. Sonra peşəkar qarmon düzəldən usta oldum. Rahat, evimdəki emalatxanamda əyləşib halal zəhmətlə çörəyimi qazanıram. Həmişə Həmid əmiyə rəhmət oxuyuram."

Azəri qarmon ustası olmağa sövq edən digər səbəb də var idi. O, həmişə düşünürdü ki, niyə Azərbaycan qarmonlarını rus ustalar və ya digər xalqların nümayəndələri düzəltməlidirlər? Məgər bunu bizim azərbaycanlılar bacarmazlarmı?

Onu dinləyirəm: "Kolya Yuravlyov həssas adam idi. Üzümün cizgilərindən, baxışlarımdan hiss edibmiş ki, mən bu işi öyrənmək üçün tab gətirə bilərəm, ya yox. Sonralar özü etiraf edib, bunu mənə demişdi. Danışırdı ki, çoxları onun yanında olublar, lakin bu işin çətinliklərinə dözməyib gediblər.

Kolya hər incəliyi mənə öyrətməsə də, özüm tamaşa edib bəzi qaydaları götürürdüm. O, mənə çirkli işləri tapşırırdı. Bir dəfə rayondan müştəri gəlmişdi. Məni N.Yuravlyovun emalatxanasında görüb soruşdu:

– С вами еще один мастер?! (Sizinlə bir usta da çalışır?!)

Cavab verdi:

– Какой он мастер, он чернорабочий. (O usta deyil, qara fəhlədir)

Bu söz mənə dəydi, çox pərt oldum. Ustaya cavab verib xətrinə dəymək istəmədim. Lakin qəlbimdə tələtüm yarandı. Qürurum mənə təlqin etdi ki, mən bu işin ustası olmalıyam. Ustanın o sözləri o anda məni ağrıtsa da, gələcək istiqamətim üçün həlledici rol oynadı. Mən prinsipə gedərək bu işin yaxşı ustası olmağımı qarşıma məqsəd qoydum. Texniki kitablar aldım, oxuyub məlumatlar əldə etdim.

Mən bir dəfə usta Velçev Valentinin şəhərdəki emalatxanasına gedib bildirdim ki, bəzi xırda işləri bacarıram, razı olsanız sizə kömək edə bilərəm və burada da nəsə öyrənərəm. O, razılıq verməyib dedi:

– Bura sənincün sənət öyrədilən yer, tədris kombinatı deyil."

Uzun illər ötmüş, Azər əsl usta kimi tanınmış, sorağı, gördüyü işlər Valentinə də çatmışdı. Görüşüb yaxından tanış olarkən Azər bunu ona xatırlatdıqda o, demişdi: "Həmin oğlan sən idin? Necə də inadkarsan, məqsədinə nail olmusan."

Azər qarmon ustasına lazım olan alətləri toplamışdı. Alətləri ona N.Yuravlyov vermişdi. Azər ondan qarmon təmiri və düzəldilməsi üçün lazım olan ləvazimat, material da almışdı. Bütün bunlar gənc Azərə ustanın tapşırığı əsasında, gördüyü işlərin müqabilində, ona çatası pulun dəyərində verilmişdi. Usta hər dəfə soruşurdu: "Деньги, или материал?" (Pul, yoxsa əvəzinə material?) Azər isə əlbəttə ki, material alırdı ki, sərbəst işləməyə başlayanda əlində ləvazimat olsun.

Ustalıq sənətinə qədəm qoyan Azər onun yanına təmirə gətirilən alətlərin, Saşa Zverevin, Valentin Velçevin, Qorbunovun, Nikolay Tarasovun düzəltiyi qarmonların içinə, yığılma quruluşuna, mexanizmlərə diqqətlə baxaraq öyrənir və özü üçün bəzi nəticələr çıxarırdı.

Oçerkimizin bu yerində qeyd etməliyik ki, A.Yaqubdust 1974-1983-cü illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda təhsil alıb və "Santexnika, istilik qaz təchizatı mühəndisi" ixtisasına yiyələnib. Təhsil illərində o zəngin bilik əldə etmişdi. Ali texniki təhsil, savad və həm də elmi kitablarla tanışlıq təbii ki, Azərin biliyini xeyli artırmış, onun qarmon ustası kimi daha kamil olmasına gətirib çıxarmışdır. Söhbət əsnasında Azər söylədi: "Qarmonun bir musiqi aləti kimi hazırlanmasında, köklənməsində və ya təmirində, bərpa işlərində o qədər sirlər, incəliklər, dəqiqliklər var ki, bunları bilmədən, o məsafələri, ölçüləri yerli-yerində tətbiq etmədən işin uğuruna imza atmaq olmaz. Bu özü bir elmdir. Onu hər adam duya bilməz. Elmi yanaşma olmadan ürək istəyən qarmon hazırlaya bilməzsən. Burada hər bir iş, hər bir mexanizm dəqiq ölçülərə cavab verməlidir. Qarmonda səsin hasil olma prinsipi, müəyyən qaydalar bu işin elmi tərəfinin müəyyən hissəsidir. Bu günə qədər axtara-axtara, çalışa-çalışa gəlmişəm. düşünürəm ki, hələ xeyli sirlər var ki, onları tapmamışam."

Söhbətin bu yerində usta qarmona aid olan xırda bir hissəni götürüb oradakı incəlikləri izah etməyə başladı və mən həqiqətən inandım ki, onu hər usta yetərincə bacarmaz.

Axtarışları, çalışqanlığı, öz üzərində ciddi işləməsi nəticəsində Azər Yaqubdust 1994-cü ildən tam peşəkar qarmon ustası kimi meydana çıxıb. Əslində isə o vaxta qədər o, çox işlər görmüşdü, qarmonların yığılıb hazırlanmasına, təmir və bərpasına çalışqanlıqla yanaşmışdı, onun xidmətindən çoxları istifadə etmişdi.

Onun Vorovski qəsəbəsindəki ünvanına Bakıdan, rayonlarımızdan xeyli qarmon ifaçıları gəlmişdi.

Yazı müəllifi və qarmon sənətçisi olaraq qeyd etməliyəm ki, onun emalatxanasında dəfələrlə olaraq işlərinə baxmışam. Xarici ölkələrə səfərlərə gedərkən mənim qarmonumun kökünü yoxlamış, bəzi səsləri qaydaya salmışdı.

Azər ilk qarmonu 1982-ci ildə bilgəhli Rasim (əslən Şamaxılı) üçün hazırlamışdır. Bu ilk böyük həcmli iş, uğurlu alınmış, onun ünvanını çoxlarına tanıtmışdır. Rasim indiyə qədər həmin qarmonda çalır.

Azərin hazırladığı və xeyli sayda təmir etdiyi alətlər başqa türk respublikalarına və bir neçə xarici dövlətə gedib çıxıb.

Birini misal çəkmək istərdim. Vaxtilə ən məşhur qarmon ifaçılarımızdan biri olmuş İsfəndiyar Bərxunun (Coşqun) qarmonunu onun oğlu Xəyyamın sifarişilə yenidən yığmış, o da Almaniyaya köçərkən aləti özüylə ora aparmışdı. Hazırda həmin qarmondan yaşadığı ölkədə istifadə edir.

Azərin dediklərindən: "Mahir usta Valentin Velçev (1924-1999) ömrünün sonlarında xəstəlik dövrünü yaşayarkən telefon vasitəsilə mənimlə əlaqə saxlayırdı, mənə iş göndərirdi ki, onları hazırlayım. O, həmişə səliqəli iş görürdü, hamıya nümunə idi. Mən bu gün cəsarətlə deyə bilərəm ki, Valentin də, mən də yalnız puldan ötrü deyil, keyfiyyət və yüksək səviyyə üçün işləmişik. Əgər düzəltdiyim və ya təmir edib, köklәyib yaxşı hala çatdırdığım alətlər ən yaxşı qarmonçalanların əlində səslənirsə, mən özümü xoşbəxt sanıram."


Azər təvazökarlıq edib mahir və tanımlı qarmon ifaçılarının adını çəkmək istəməsə də, mənim

bu barədə məlumatım vardır. Xanlar Cəfərov bu gün böyük sənətkarlarımızdan biridir. Bakıda keçirilən musiqiçilərin toylarında Xanlar Cəfərov çalır. Toydan çəkilmiş disklərdəki musiqilərdən gənc qarmon ifaçıları sənət öyrənirlər. Belə disklər xarici dövlətlərdə yaşayan musiqisevərlərə də gedib çıxır. Xanların qarmonunu Azər yığıb hazırlayıb və daim onun nəzarətindədir.

Mahir qarmonçalanlarımızdan xalq artisti Aftandil İsrafilov, əməkdar artist Zakir Mirzə, əməkdar artist Faiq Əlibalayev, Baxışəli Əliyev, Şəmsi Ağamalıyev, Nemət Hüseynov, Tahir Zakirov, Aydın Əliyev və digərləri Azər Yaqubdustun xidmətindən istifadə etmiş və razı qalmışlar.

Azərin əlindən çıxan üç ədəd yüksək səviyyəli Azərbaycan qarmonundan Dərbənd musiqiçiləri də istifadə edirlər.

Rəqs ansamblarından yetişmiş qarmonçu Rafiq Əsgərov uzun illərdir ki, Türkiyənin Əskişəhər Universitetində rəqs sənəti fakültəsində müşayiətçi musiqiçi işləyir. O da sifariş əsasında Azər ustaya iki alət hazırlatdırmış və özüylə Türkiyəyə aparmışdır. Qarmonun biri də "do" kökündə hazırlanıb ki, Türkiyədəki ansamblların tərkibində rahat istifadə oluna bilsin.



Usta Azər Yaqubdust iş zamanı

Usta Azərin fikirlərindən: "Bu sənətin icra olunmalı tələblərindən biri də odur ki, yeni hazırlanmış qarmon, çalınmaq üçün sahibinə verildikdən sonra alətin üzərində mərhələlərlə iş aparılmalıdır. Qarmonda elə incəliklər, elə hissələr var ki, bunlar tədricən öz yerini alır. Sonradan əl gəzdirib yerinə yaxşıca oturdandan sonra o işlər daha mükəmməl vəziyyətə düşür. Əlbəttə bu fikirləri də kamil sənətkarlar, təcrübəli ifaçılar dərk edir".

Hazırda Bakımızda və bir sıra digər şəhərlərimizdə də meydana çıxmış qarmon ustalarımızın düzəltdiyi alətlər xarici ölkələrə aparılır.

Azərin fikirləri: "Bəzi ölkələrdə azəri türkləri bu alətləri çalırlar, bəzi soydaşlarımız isə əldə etdikləri qarmonu evlərinin görkəmli yerinə, fortepianonun və ya mebelin üstünə yaraşıq üçün qoyurlar. Onlar qarmonun xarici görünüşünü əsas sayırlar, alətə bəzək əşyası kimi baxırlar. Lakin

qarmon çalğı alətidir, xalqımızın ruhuna çox yaxındır, ondan bəzək əşyası kimi yox, çalğı aləti kimi istifadə olunmalıdır."

Usta Azər ömrünün 30 ildən çoxunu Azərbaycan qarmon sənətinə həsr edib. Bu yerə gəlib çatmaq, həqiqi usta adı qazanmaq, ifaçıların tələbatını ödəmək, onların rəğbətini almaq üçün axtarışlar, illərin gərgin və ağır zəhməti tələb olunub. Göründüyü kimi o, artıq mərhələləri keçib gələrək, özünü bu işdə tapıb və yaxşı usta adını qazanıb. Hələ görüləsi xeyli işlər qalıb. Allahdan ona sağlam ömür və yeni nailiyyətlər arzulayırıq.

Azər Yaqubdust 1983-cü ildə ailə qurub. Dörd övladı və üç nəvəsi var.



Usta Azad Azəroğlu iş zamanı

Azad Azər oğlu 1983-cü ildə dünyaya gəlib. Atasının sənətilə məşğuldur. 15 yaşından qarmon ustalığını atasından öyrənməyə başlayıb. Sənətin bəzi sirrlərini, əsas işləri öyrənə bilib. Sərbəst olaraq yeni qarmonlar hazırlamağı bacarsa da, özünün dediyi kimi: "Ata zəhmi, ata tələbkarlığı və ata qarşısında məsuliyyət" onu bu işdən çəkindirir.

2005-ci ildə Fransaya növbəti səfərlərimin birində usta Azər qarmonumun səslərinə nəzər yetirərkən dedi: "Əhsən, qarmonunun gül-çiçək bəzəkləri çox gözəl düzülüb. Lakin bu görüntüdə iki bülbül və bir kəpənək şəkli çatmır. İcazə versən, onu Azada həvalə edərdik". Razılaşdım. Səhərisi gün dostum, qarmon ifaçısı Baxışəli Əliyev öz avtomobili ilə gedib Azərgildən mənim qarmonumu gətirdi.

Azad Azər oğlunun qarmonuma əlavə etdiyi bəzəklər gözəldir və bu gənc ustadan bir xatirə kimi qorunur.

Əxlaqı, tərbiyəsi, xoş xasiyyəti bu boy-buxunlu, üzü nurlu, yaraşıqlı oğlanın vücudunu və xarici görkəmini tamamlayır. O, əsl, nümunəvi Azərbaycan gəncidir. Əminliklə deyə bilərəm ki, az yaşlardan zəhmətə qatlaşan, atasının işinə yarayan bu cavan, istedadlı oğlan əsl usta kimi yetişib, musiqi mədəniyyətimizə xidmət edəcək. Uğur olsun!

2.76. İFAÇILIQDA VƏ TƏDRİSDƏ KEÇƏN ÖMÜR



Sərxan Abıyev

Bu gün cəsarətlə deyə bilərik ki, qarmon tədrisi üzrə çalışan ixtisaslı kadrlarımız yetərincə və qədərincədir. İstedadlı musiqiçi, müəllim adını doğruldan Sərxan Abıyev də onlardan biridir. Sənətini sevə-sevə, hər çətinə cəsarətlə, inamla sinə gərə-gərə, damla-damla, qarış-qarış, addım-addım gələ-gələ və öz peşə naxışlarını ilmə-ilmə toxuya-toxuya əsl peşəkar sənətə və pedaqoji sahəyə gəlib o.

Sərxan Abıyev 1958-ci il yanvarın 15-də Bakının Binəqədi qəsəbəsində Əmirağa kişinin ailəsində göz açıb. Sevilib, əzizlənib. Həzrəti Əbu Bəkirin belə bir kəlamı var: "Övladların qismətinə düşmüş ilk nemət valideyn sevgisi və məhəbbətidir". Bütün xoşbəxt uşaqlar kimi, Sərxan da ata-ana nəvazişindən qidalanaraq qayğı və məhəbbətlə əhatələnmişdi.

Əmirağa kişi muğamı sevən və ona xiridar bir insan idi. Tez-tez muğamat konsertlərini dinlərdi və ondan böyük zövq alırdı. Təbii ki, evlərində müntəzəm muğam səsləri eşidən uşaq bu sirli-sehirli aləmin içində olaraq özü də bilmədən bu səsləri beyninə köçürürdü. Sərxanın musiqi duyumu formalaşırdı. O, incə duyğularla böyüyürdü.

Sərxanın dediklərindən: "Uşaqlıqda çox döyüşkən, dəcəl və çox emosional idim. Lakin bununla bərabər kövrək hisslər də mənə doğma idi. Anam Manisə xanım məni musiqi aləminə qoşmaq qərarına gəlmişdi. Görünür anam mənim musiqi ilə məşğul olaraq dəcəllikdən, tərslikdən uzaqlaşdırmağı düşünmüşdü. Əslində anam düşüncəsində səhv etməmişdi. Mən musiqi ilə, çalğı ilə məşğul olduqca, bu işi sevdikcə duyğularım da dəyişirdi və başqalaşırdım".

Sərxan Binəqədi qəsəbəsindəki mədəniyyət evində fəaliyyət göstərən 5 illik qarmon kursunda 1970-1975-ci illərdə təhsil alıb. Üçüncü sinifdə oxuyarkən o, Bakı Mədəni Maarif Texnikumunun xalq çalğı alətləri orkestri rəhbəri şöbəsinə daxil olub və burada musiqi elminə yaxından bələd olub. Sərxan 1973-76-cı illərdə texnikumda təhsil alıb. Qeyd edilməlidir ki, həmin dövrdə qarmon ixtisası üzrə təhsili yalnız bu texnikumda davam etdirmək mümkün idi.

Sərxan Mədəni Maarif Texnikumunda oxuyaraq Binəqədi mədəniyyət evindəki qarmon kursunu 1975-ci ildə uğurla başa vurub.

1973-1976-cı illərdə Sərxan Binəqədi mədəniyyət evinin "Qönçə" adlanan çalğı alətləri ansamblının tərkibində çox səmərəli və səviyyəli fəaliyyət göstərmiş, hər il, ənənəvi olaraq keçirilən "Oxu tar" festivalının iştirakçısı olmuşdur. Sonralar çox məşhurlaşan və sevilən xanəndə Səxavət Məmmədov (1953-1991) da həmin dövrdə "Qönçə" ansamblının solisti olmuşdur. Bədii rəhbər Sidqi Mustafayev idi. 1973-cü ildə Azərbaycanımızı vəsf edən "Çiçəklən doğma yurdum" devizi altında keçirilən, "İstedadlar sorağında" adlanan müsabiqənin laureatı olan Sərxan Abıyev o dövrün musiqi ictimaiyyətinin, adlı-sanlı sənətçilərin diqqətini cəlb etmişdir. Şair Z.Yaqubun təbirincə desək:

"İstedad çağlayan bulaq kimidir,
İstedad gur yanan çıraq kimidir".

Gənc Sərxanın istedadı qaynayırdı, aşıb-daşırdı. Bu istedad düz istiqamətlənməli, lazımınca sərf olunmalı idi, olunurdu da. Sərxan müntəzəm məşq edir, ustad musiqiçilərin lentlərini dinləyib öyrənir, müxtəlif tədbirlərdə çıxış edirdi.

S.Abıyev 1978-1983-cü illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində, axşam şöbəsində təhsil almış və buranı uğurla bitirmişdir.

"İnşaatçılar" mədəniyyət sarayında fəaliyyət göstərən, məşhur baletmeyster, Azərbaycan Dövlət İncəsənət Universitetinin professoru Kamal Həsənovun rəhbərlik etdiyi "Cəlalə" rəqs ansamblında çalışan Sərxan 1980-1982-ci illərdə burada özünü əsl musiqiçi kimi göstərmiş, rəqs quruluşlarını dəqiq və dəyərincə müşayiət edən qarmonçalan kimi formalaşmışdı. O, artıq bacarıqlı musiqiçi kimi tanınırdı. Məşhur sənətkarlarla, o sıradan xanəndələr, Qulu Əsgərov, Hacıbaba Hüseynov və başqaları ilə sənət yoldaşlığı etməsi onun kamil bir sənətkar kimi yetişməsinə çox kömək etmişdi.

Sərxan Abıyev 1987-89-cu illər ərzində Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun (indiki İqtisadiyyat Universiteti) xalq çalğı alətləri ansamblının rəhbəri olmuşdur. Alətlərin bir-biri ilə uzlaşmasını, yaxşı səslənməni tərtib etmək, ümumi ansambl şəklində xoş ahəngi yaratmaq yüksək bacarıq, incə duyum, bədii zövq və həqiqi peşəkarlıq tələb edir. Bütün bunlar və təşkilatçılıq qabiliyyəti Sərxan müəllimdə olduğu üçün o, ansambl rəhbəri kimi də özünü təsdiq etmişdi.

Sərxanın televiziyada və radiodakı çıxışları da xoşa gəlmiş, musiqisevərlərin rəğbətini qazanmışdır. O, müxtəlif illərdə Az.TV-də "Sarı bülbül" xalq mahnısını, "Yanıq Kərəmi" saz havasını, "Kəsmə" rəqsini və özünün bəstəsi olan "Manisəyi" melodiyasını yüksək şövq və bədii ustalıqla ifa etmişdir. Bu ifalarda rəngarəng çalarlar, dəyərli məzmun, coşğun ilham özünü göstərmiş və tanınmış sənət adamları tərəfindən öz qiymətini almışdır.

Sərxanın çaldığı "Qubanın ağ alması" və "Xalabacı" xalq havaları radiomuzun fonotekasında qorunur və tez-tez səsləndirilir.

Pedaqoji sahədə də böyük uğurlar qazanan Sərxan müəllim bu işdən böyük zövq alır. Hələ Bakı Mədəni Maarif Texnikumunda təhsil aldığı illərdə o, yaxşı not savadı almaq üçün çalışmış və sonralar da bu işi davam etdirərək öz üzərində ciddi çalışmışdır. Qarmonun not tədrisi bir müəllim kimi onu daim düşündürmüşdür. Bu ixtisasın tədrisi də yüksək yaradıcılıq qabiliyyəti tələb edir. Sərxan müəllimin istər işlədiyi uşaq musiqi məktəblərində, istərsə də texnikumlarda proqramın tərtibinə yaradıcı münasibət bəsləmiş, ciddi yanaşaraq yaxşı nəticələr əldə etmişdir. O, qarmon üçün müxtəlif həcmli və müxtəlif səciyyəli pyeslər işləmişdir. Bir çox əsərlərin qarmonda ilk ifası onun yüksək müəllim əməyinin sayəsində ortaya gələrək tələbələri tərəfindən ifa olunmuşdur. Sərxan ilk dəfə qarmon tədrisi müəllimi kimi 1978-80-ci illərdə Ramana qəsəbəsinin mədəniyyət evində çalışmışdır. 1980-ci ildən 1999-cu ilə qədər 11 saylı musiqi məktəbində dərs deyən Sərxan müəllimin şagirdləri imtahanlarda, məktəbdə keçirilən və ondan kənarlardakı tədbirlərdə daim seçilmişlər.

Sərxan Abıyev qəbul olunmuş əxlaq qaydalarını həmişə gözləmiş, müəllim peşəsinin şərəfini daim ucada saxlamışdır. Bakıdakı "Metodkabinet" adlanan təşkilatda keçirilən yığıncaqlarda qarmon tədrisi ilə bağlı təvsiyə, təklif və proqramların müzakirəsi zamanı Sərxan müəllim ora dəvət olunur. Əksər hallarda onun fikir və düşüncələri, əsaslı təklifləri nəzərə alınır. Qarmonun not tədrisi üzrə nümunəvi müəllim kimi onun təcrübəsindən istifadə olunur. Sərxan Abıyev 1991-ci ildə Milli Konservatoriya tərkibində Musiqi Kollecinə müəllim gələn gündən səmərəli əməyi ilə bu günə qədər tədrisdə uğurlara nail olmuşdur. O, yaradıcılığı ilə şəxsiyyəti qovuşduran sevimli sənətkarımızdır. Tarixən də daim belə olub, ucalmağın bir yolu var: İstedad, çalışqanlıq, xidmət etdiyi peşəyə vurğunluq və ləyaqət yolu. Sərxan başladığı yaradıcılıq yolunu və pedaqoji işi ləyaqətlə və cəsarətlə davam edir. O, 2005-ci ildə Şuşa Musiqi Kollecinə qarmonun not tədrisi üzrə



Sərxan Abıyev Mədəniyyət və İncəsənət Universitetinin tələbələri ilə

müəllim dəvət olunub.

Sərxan Abıyev 1986-cı ildən başlayaraq Azərbaycan, rus və Avropa bəstəkarlarının əsərlərini işləyib, hazırlayıb, ifaya nail olaraq ilk dəfə qarmon ixtisasının tədrisində istifadə olunması üçün çevirmişdir. Bu iş bu günə qədər davam edir və qarmon üçün çevrilmiş, hazırlanmış əsərlərin sayı yüzdən artıqdır. Yüksək bacarıq, qabiliyyət, savad və hövsələ tələb edən bu iş əsl pedaqoji işdir.


Sərxan müəllim Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi sənəti dekanlığı nəzdində instrumental ifaçılıq kafedrası"nda ciddi yaradıcılıq işləri ilə məşğul olan işçilərdəndir. Aşağıda adları qeyd olunan mövzular onun yaradıcılıq işləridir:

1. Qarmon alətinin milli musiqi alətlərimiz ilə uyarlığı və musiqimizdə yeri. (Mündəricat) Bakı 2003 (Azərbaycan Respublikası Təhsil Nazirliyi)
2. İxtisas aləti (qarmon), "xalq çalğı alətləri orkestrinin bədii rəhbəri" ixtisası üzrə bakalavr dərəcəsi alan tələbələr üçün proqram. Bakı 2003 (Azərbaycan Respublikası Təhsil Nazirliyi)
3. Sehirli səslər aləmində alətlərin möcüzəsi. (Mündəricat) Bakı 2003 (Azərbaycan Respublikası Təhsil Nazirliyi)
4. Vamiq Məmmədəliyev "Musiqi sənəti: problemlər perspektivlər". Bakı 2002 (Elmi redaktor R.Zöhrabov)

V.Məmmədəliyevin adı çəkilən kitabında Sərxan Abıyevin "Qarmon alətinin tədrisi, milli musiqi alətlərimiz ilə uyarlığı və musiqimizdə yeri" adlı məqaləsi daha geniş və ətraflı şəkildə verilib. Bu mövzu üzərində elmi iş aparan Sərxan müəllim onu müdafiə üçün hazırlayır.

Sərxan müəllimin hazırladığı tələbələr çoxdur. Musiqi Kollecində və Mədəniyyət və İncəsənət Universitetində onun yetirmələri olmuş Gümüşəli Salayev, Anar Niftəliyev, Aytən Əliyeva, Vüsal Qəhrəmanov, Rövşən Məmmədov, Əfqan Camaləddinov, Gülnar Mirzəyeva, Elman İsmayılov və başqaları artıq ifaçılıq sənətində fəaliyyətdə olub, musiqi məktəblərində və orta ixtisas təhsili müəssisələrində müəllim işləyirlər.

Elman İsmayılov 4 saylı uşaq musiqi məktəbində, Şuşa Musiqi Kollecində müəllim işləyir. O, Mədəniyyət və İncəsənət Universitetində magistr dərəcəsi üzrə təhsili başa vurub. 2010/2011 təd-


AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ "ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN TƏLƏBƏLƏRİ ARASINDA MUSİQİ İFAÇILARININ MÜSABİQƏSİ"

BAKI 2013

DİPLOM

Müsabiqədə iştirak edən tələbələri yüksək professionallıq nümayiş etdirdiyinə görə təltif olunur

Abiyev Sərxan Əmirağa (ADMİU)

Azərbaycan Respublikasının təhsil naziri
Mikayıl CABBAROV

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor
Timuçin ƏFƏNDİYEV

29 aprel - 3 may 2013, Bakı

ris ilindən doğma universitetdə dərs deyir.

S.Abıyev Mədəniyyət İşçilərinin Təkmilləşmə İnstitutunda mühazirələr oxuyur, qarmon tədrisilə bağlı əyani, göstərici dərslər keçir. 2007-ci ilin, yay sessiyasında Lerik rayon uşaq musiqi məktəbindən gəlmiş müəllim Namiq Qasımov xüsusilə fərqlənmiş, mühazirələrdə, açıq dərslərdə fəallıq göstərmiş, muğamların və not əsərlərinin çalınmasında əsl nümunə olmuşdur.

2013-cü ildə respublikamızda ali təhsil müəssisələri arasında Beynəlxalq müsabiqə keçirilərkən S.Abıyevin Mədəniyyət və İncəsənət Universitetində hazırladığı tələbələrdən Fidan Dadaşova, Nicat Nəbizadə və Becan Hüseynov da iştirak etmişdir. F.Dadaşova II yeri tutmuş, digərləri isə müsabiqənin diplomantı olmuşlar. Təhsil naziri Mikayıl Cabbarovun imzası ilə Sərxan Abıyevə I dərəcəli diplom verilmişdir.

Mədəniyyət və İncəsənət Universitetinin 90-illiyi yubileyi ilə əlaqədar Sərxan Abıyev medalla təltif edilmişdir. 2013-cü il dekabr ayında ona əməkdar artist fəxri adı verilmişdir.

Sərxan Abıyev hazırda magistr dərəcəsi təhsili alan tələbələrin qarmon – ixtisas tədrisi proqramı üzərində işləyir.

Yarım əsr ömür etmiş Sərxan müəllim onun 30 ilini qarmon ixtisasının tədrisinə və ifaçılıq sənətimizə həsr edib. Ona gələcək işlərində daha böyük uğurlar arzulayırıq.

Yazımızda virtuoz qarmon ifaçısı, əməkdar artist, sənətşünaslıq namizədi Zakir Mirzənin ürək sözlərinə yer veririk: "İnsan sevdiyi peşəyə nail olub onu işlətdiyi zaman əsl xoşbəxtdir. Ulu Tanrı istədiyi bəndəsinə özünün istədiyi bir çox nemətlə dolu gözəl anlar və sənət bəxş edər. Müəllimlik sənəti şərəfli olduğu kimi, o qədər də böyük səadətdir. Sərxan Abıyev bu səadətin ətrilə yaşayan, sözün əsl mənasında səmimi bir insan olaraq bilikli, məlumatlı şəxs, həm də çox gözəl müəllimdir. Uzun illərdir o, ifaçılıq sənəti üzrə ciddi araşdırmalar və tədqiqat işi görür. Ona yaradıcılıq və elmi işində böyük nailiyyətlər, şəxsi həyatında mənalı günlər və can sağlığı arzulayıram. 50 yaşın mübarək, əziz qardaş!" Zakir Mirzənin bu fikirləri Sərxan Abıyevin yubileyindən qeydə alınmışdır.

Sərxan müəllim mətbuatda məqalələri ilə çıxış edir. O, 2013-cü ildə H.Əliyev Fondunun Ü.Hacıbəylinin yubileyi ilə bağlı təşkil etdiyi elmi simpoziumda rus dilində «Qarmonun mənşəyi və tarixi» adlı mövzu üzrə mühazirə oxumuşdur.

Bizim Azərbaycan adlı ad-sanımız var,
Şanlı tarixlərə aid dastanımız var.

Şərqə, Qərbə karvan yolu burda olubdur,
İpək yolunun üstündə ünvanımız var.

Varlı, sərvətli, hikmətli bu məmləkətə
Bütün ölkələrdən gələn mehmanımız var.

Allah bu diyara gözəl təbiət verib,
Bağ-bağatlı, gül-çiçəkli sahmanımız var.

Dünya musiqisində öz yerini tutan
Daimyaşar, böyük sənət ümmanımız var.

Tar, kaman, balaban, klarnet, ud, ney,ilə
Birlikdə səslənə bilən qarmonumuz var.

Ömrünü musiqi elminə həsr eyləyən
Qarmon tədrisində fəal Sərxanımız var.

Sərxan kimi müəllimlər nə qədər ki, var
Qarmon yaşadan gələcək dövranımız var.
Əhsən Rəhmanlı 21.11.2013

2.77. ALMANİYADA DA QARMONUMUZU SƏSLƏNDİRDİ



Manaf Rza

Mən Manafın yaxşı qarmon ifaçısı olması barədə tay-tuşlarım olan toy musiqiçilərindən, tar, gitara ifaçısı Xeybər Bağırovdan (1950-2008), klarnetçalan Fikrət Əliyevdən və nağaraçı Zaur Dadaşovdan çox eşitmişdim. 1990-cı illərin sonlarında isə mən bu ifaçını dəfələrlə dinlədim və yaxından gördüm. Bu o zamanlara təsadüf edir ki, artıq mən toy məclislərinə aparıcı (idarə edən, masabəyi) kimi dəvət olunurdum. O, öz toy ansamblı ilə Bakının Bakıxanov qəsəbəsindəki "Badu-Kubə" şadlıq sarayında işləyirdi. Orada səviyyəli məclislər olanda inzibatçılar məni dəvət etmək məcburiyyətində qalırdılar. İdarə etdiyim toylarda Manafın neçə peşəkar sənət göstərməsinin şahidi olurdum. Onun dəstəsinin klarnetçalanı Ramiz Ağayarov, nağaraçısı Eldəniz Hacıağayev, qoşanağaraçalanı Hamlet Hacımirzəyev, sintezator ifaçısı Səfər və ya Natiq olardı. Manaf bu heyətlə elə çıxış edirdi ki, sanki böyük bir orkestr çalır. Mən onun ifasında belə bir keyfiyyət də hiss etdim ki, xalq artisti Avtandil İsrafilov və digər bir neçə qarmonçalanlarda olduğu kimi onun da ifası samballı alınır, dolu səslənir. Bəzən solo ifalar göstərəndə də onun ifası zəngin və dolu alınırdı.

Manaf Vərqa oğlu Rzayev 1958-ci il yanvar ayının 17-də Bakıda anadan olub. Vərqa Rzayev Naxçıvanın Şərur rayonundandır. Əslən Güney Azərbaycanın Təbriz şəhərindəndirlər. O, 1944-cü ildə Şərurdan Bakıya gəlib, təmir-tikinti idarəsində qaynaqçı işləyib. Vərqa kişi 1946-cı ildə Şəfiqə xanımla ailə qurub. Şəfiqə xanım əslən Bakının Bibiheybət kəndindən idi. Qurulan mehriban və zəhmətkeş ailədə dörd qız və iki oğul boy atıb. Manaf beşinci övladdır. Onların ana tərəfdən məşhur qarmon ifaçısı Aftandil İsrafilovgilə qohumluğu çatır. Şəfiqə xanım Aftandilin anası ilə əmiqızı idi.

Manaf 1965-ci ildə Razin (hazırda Bakıxanov) qəsəbəsindəki 169 saylı ümumtəhsil məktəbin 1-ci sinfinə daxil olub, sonra təhsili 80 saylı məktəbdə davam edib və buranı 1975-ci ildə bitirib.

5 yaşı olarkən onun istedadı bəlli olub. Valideynlər bunu duyub, ona kiçik həcmli qarmonlar, akkordeonlar alırdılar. Belə alətlər o zamanlar Rusiyanın bir neçə şəhərindəki musiqi alətləri istehsal edən fabriklərdə hazırlanırdı. Onu da qeyd etməliyəm ki, bu cür kiçik həcmli alətlər o dövrdə istedadlı, balaca uşaqlarımızın karına gəlirdi.

Ata-ana Manafın 8 yaşı olarkən onu müəllim yanına aparmaq qərarına gəlirlər. Tar, klarnet və qarmon sənətindən dərs deyən Bağır Bağırov (1940-2002) onlarla qonşu idi. O, Sabunçu qəsəbəsindəki mədəniyyət sarayının musiqi kurslarında dərs deməkdən əlavə, öz mənzilində də şagirdlər hazırlayırdı. Beləliklə Manafa "Kazan" markalı qarmon alınır və o, iki il Bağır müəllimin mənzilində fərdi qaydada dərs alır. Sonra isə o, Bağır Bağırovun Sabunçudakı mədəniyyət sarayında işlədiyi qarmon sinifində öz müəlliminin şagirdi olur. Bu 1970-ci ilə qədər davam edir. Həmin ildə isə valideynlər onu Bakıxanov qəsəbəsindəki 4 saylı uşaq musiqi məktəbinə gətirirlər.



1972-ci il. 80 saylı məktəbdə bayram şənliyi. Soldan üçüncü: Manaf Rza

Rəhbərlik onun istedadını, çalğı bacarığını görüb ikinci sinfə qəbul edir. Sonrakı davamiyyət daha yüksək olduğu üçün Manaf Rzayev 5 illik musiqi təhsili 3 ilə bitirir. Burada onun ixtisas müəllimi Hacıağa Məhərrəmov (1933-1994) idi. (Bax, Əhsən Rəhmanlı "Azərbaycanda klarnet ifaçılığı sənəti". Bakı, "Min Bir Mahnı" nəşriyyatı-2011, səh. 288-294).

Həvəs Manaf Rzayevi Bakıxanov qəsəbəsindəki mədəniyyət sarayının (hazırda Adil İsgəndərov adına) "Mahur" özfəaliyyət x.ç.a. ansamblına da gətirmişdi. O, 1973-1976-cı illərdə bu ansamblın bütün məşqlərində və konsertlərində fəallıq göstərir, durmadan inkişaf edirdi. Manaf həm də təhsil aldığı 80 saylı ümumtəhsil məktəbin özfəaliyyət ansamblının və rəqs qrupunun qarmonçalanı idi. Yaşadığı qəsəbənin stadionunda (hazırda İsmət Qayıbov adına) may bayramları ilə bağlı keçirilən möhtəşəm tədbirlərdə çalırdı. O, rəqs ansamblını yüksək bacarıqla müşayiət edirdi. Çalmaqdan yorulmayan, məşqlərdən usanmayan bu çalışqan gənc evdə də dinc durmur, öz üzərində çalışırdı. Qarmon onun həmdəmi, sirdaşı və dostu idi.

Manaf təhsil almaq barədə də düşünürdü. Odur ki, 1975-ci ildə M.Ə.Sabir adına Pedaqoji Texnikuma daxil oldu. Onun oxuduğu şöbə orta ümumtəhsil məktəblər üçün musiqi müəllimləri hazırlayırdı. Manafa qarmon sənəti üzrə də dərs keçirdilər. İxtisas müəllimi Kamil Əlibala oğlu bu gəncin gələcəkdə tam peşəkar qarmonçalan olacağını əminliklə söyləyirdi. Texnikumda təhsil alarkən Manaf bəzi musiqiçilərin diqqətini cəlb etmişdi. Onu özlərilə toylara aparırdılar. O, əsgərliyə gedənə qədər məşhur musiqiçilərdən, klarnetçalanlar Zabit Əfəndi (Məmmədov), Molodoy Rafiq, Vəli Qədimov, Rəcail, nağara ifaçıları Ağasüleyman İmanov, Çingiz Mehdiyev, xanəndə Məmmədəli Sail (Əliyev) və digərlərilə toylarda çalırdı. Yaşının az olmasına baxmayaraq, sənətdə özünü göstərə bilirdi və yaşlı, səriştəli, böyük musiqiçiləri qane edirdi.

Manaf Rzayev 1977-1979-cu illərdə Gürcüstan SSR-nin Batumi şəhərində Sovet ordusunda hərbi xidmət keçib. Orada o, əsgər yoldaşlarından ibarət özfəaliyyət dərnəyi düzəldib. Manaf piano çalırmış. Onun yaratdığı özfəaliyyət ansamblı hərbi hissələrdə konsertlər verirdi. Əsgərlikdən qa-

yıdan Manaf texnikumda təhsilini davam etdirmiş və buranı 1980-ci ildə başa vurmuşdur. Həmn ildə Ik iş yeri Azərbaycan Korlar Cəmiyyətinin x.ç.a. orkestri olmuşdur. Orkestrin bədii rəhbəri, tanınmış bəstəkar İsrail Kərimov bu gəncin çalğısını, qabiliyyətini bəyənərək, işə qəbul etmişdi. Musiqi kollektivinin konsertmeysteri mahir kaman ifaçısı Ədalət Vəzirov (1951-2003) idi. Manaf Rza həmin orkestrdə 6 ay çalışıb. Onun sonrakı əmək fəaliyyəti Binə qəsəbəsində yerləşən 24 saylı uşaq musiqi məktəbi ilə bağlıdır. O, 1981-ci ildən 1989-cu ilə qədər adı çəkilən musiqi tədrisi ocağında qarmon sinfinin müəllimi olmuşdur. Manaf müəllim burada istedadlı uşaqlardan qarmon ifaçıları yetişdirmişdir. Binə qəsəbəsində çalışarkən o, bir sənətkar kimi el arasında da yaxşı tanınmış, musiqiçilərlə əlaqə qurmuş və 1981-ci ildən 1995-ci ilə qədər orada keçirilən toyların carçısına çevrilmişdir. Binədə yaşayan, 24 saylı uşaq musiqi məktəbində klarnet ixtisasından dərs deyən çox istedadlı musiqiçi, gözəl xasiyyətli, saf əqidəli, əli düz, sözü düz, səxavətli insan Vaqif Məmmədovla Manafın səmimi dostluğu olmuşdur. Manaf Vaqifin toy ansamblının əsas qarmonçalanı idi. (Əziz oxucu! Vaqif Məmmədovun həyat və sənət fəaliyyəti ilə tanış olmaq istəsəniz, adı çəkilən kitaba nəzər yetirə bilərsiniz. Bax. Əhsən Rəhmanlı, "Azərbaycanda klarnet ifaçılığı sənəti". 2011. səh. 472-481)

Vaqif və Manafın toy ansamblında nağaraçalan Eldəniz Hacıağayev, gitaraçalanı Xeybər Bağırov, ionika ifaçısı Əliövsət Piriyev, qoşanağaraçı Sərdar və ya Hamlet Hacımirzəyev, xanəndələrdən Vahid Abdullayev, Səfər Məmmədov, Səfa Qəhrəmanov, Vilayət İbrahimov, Sabir Mirzəyev, Xaqani Bərdəli, Məsum İbrahimov, Tacir Şahmalıoğlu, Nadir Bayramlı, Kəmalə Rəhimli, Xeyransa Məmmədova, Ruhəngiz Musəvi və digərləri olurdu. Manaf Rza 1989-cu ilin



02.05.1980-ci il. AzTV-nin "Səhər görüşləri" verilişində. Aktrisa Ofelya Məmmədzadə, Manaf Rza

sentyabr ayından vaxtilə özü təhsil aldığı 4 saylı uşaq musiqi məktəbinin qarmon sinfində pedaqoji fəaliyyətini davam etdirib və 1999-cu ilə qədər burada çalışıb. İlk dəfə onun Az.TV-də çıxışı 1980-ci il may ayının 2-nə təsadüf edir. Özünü doğruldan bu ifaçını o zamanlar yayımlanan "Səhər görüşləri"nin rejissoru Məhərrəm Bədirzadə dəfələrlə çəkdiyi verilişlərə dəvət etmişdir. Manaf öz kiçik qrupu ilə səhnəciklərin musiqilərini ifa edib. Həmin ərəfədə o, "Kolxoz" və "Günay" rəqs melodiyalarını Azərbaycan radiosunun fonduna yazdırıb. Bu ifalarda zəngin qarmon çalarları və həqiqi peşəkarlıq vardır. Qismət belə gətirib ki, Manaf 1993-cü ildə Azərbaycan Kinostudiyasının istehsalı olan "Yuxu" filmindəki toy səhnəsində öz dəstəsilə çəkilib. Manaf Rza 1995-ci ildə Az.TV-nin Teleteatr məkanında keçirilən Novruz bayramı şənliyinə dəvət olunmuş və sənətkar orada "Kolxoz" rəqsilə tamaşaçılarımızı sevindirmişdir. Manaf Az.TV-2 də "Günay" rəqsini də əla çalmışdır. Həmin verilişin rejissoru Samir Əsgərxanov idi. Televiziya çıxışları ilə daha geniş şəkildə tanınan qarmon ifaçımız 1997-ci ildə Az.TV-də "Karnaval" adlanan əsəri (əslində isə Braziliya rəqsi "Tiko-Tiko") elə bacarıqla çalmışdı ki, artıq musiqi ictimaiyyəti də onunla maraqlanmağa başlamışdı. Bu əsər Braziliyanın milli ritmində bəstələnib. Oranın ifaçıları əsərin bəstələndiyi kimi bir ritmdə, bir tonallıqda ifa edirlər. Manaf isə öz peşəkarlığından, yüksək çalğı manerasından istifadə edərək adı qeyd olunan melodiyanı "modulyasiya" (intiqal – Ə.R.) yolu ilə müxtəlif tonallıqlarda ifa edir. "Karnaval" bizim "Bayatı-Şiraz" muğamına oxşar lad əsasında yazılıb. Manaf isə ustalıqla "Mahur" muğamı əsasında olan tonallığa da keçərək həmin melodiyanı daha da zənginləşdirmiş və ahəngdar etmişdir.

Manafın bu uğurlu ifası televiziyanın səhər proqramlarının birində səslənmişdi. Rejissor Natiq Ağayev idi. İfaçının bu çıxışını seyr edən tamaşaçılar, musiqiçilər onu təbrik etmiş və bəyəndiklərini söyləmişdilər.

Manafı dinləyirəm: "Bu çıxışımdan sonra tanınan bəzi sənətçilər və hətta Aftandil İsrafilov mənimlə maraqlanmışdı. Bu çıxış mənə uğurlar, hörmət gətirdi, daha yaxşı tanınmağa başladım, televiziya verilişlərinə dəvətlər oldu, adıma gələn toylar çoxaldı. Bu mənimçün əsl reklam oldu."

Manaf Rzanın televiziyadakı həmin çıxışını 2002-ci ilə qədər efirə verirdilər. O, artıq 1999-cu ildən Almaniyanın Berlin şəhərinin Qərb hissəsində yaşayırdı. 2001-ci ildə Berlinə konsertə gələn qrupun tərkibində tarzən Möhlət Müslümov, kaman ifaçısı Fəxrəddin Dadaşov, müğənnilər: Mənsum İbrahimov, Mələkxanım Əyyubova və Aygün Bayramova var idi. Manaf onlarla rastlaşmışdı, gəlişlərinə çox sevincək olmuşdu. Sənətçilərimizi Almaniyada yaşayan Əbdül adlı türk gətirmişdi. Manafı görən kimi Mənsum İbrahimov onu təbrik edərək demişdi ki, bu günlərdə televiziyada sənin çıxışını verdilər. Qarşı tərəf isə bildirmişdi ki, o artıq 1 il yarımdır Almaniyada yaşayır. Manaf Rza qastrola gələn sənət adamlarımıza bacardığı qədər kömək etmək istəmişdi ki, onlar vətənə pul-para ilə qayıtsınlar. Misal olaraq aşağıdakıları qeyd edə bilərik. Həmən ərəfədə Türkiyənin tanınan müğənnilərindən biri Azər Bülbül də Berlində konsert verməyə gəlmişdi. O, həm də öz səsini burada disklərə yazdırıb yayacaqdı. Onun səsi Berlində yaşayan azəri türkü, əslən İğdırdan olan Saim Çakarın şəxsi studiyasında yazılırdı. Müğənnini qarmonda Manaf Rza, klarnetdə Hanover şəhərində yaşayan, Bakıdan ora köçmüş Samir, sintezatorda Rəsul Bərxu müşayiət edirdi. Tar-kaman ifaçılarına ehtiyac vardı. Fürsətdən istifadə edən Manaf Berlinə gəlmiş, hazırda xalq artistləri olan tarzən Möhlət Müslümovu və kamanzən Fəxrəddin Dadaşovu studiyaya aparmışdı. Beləliklə həm lent yazıları zəngin olmuş, həm də Bakıdan gedən ifaçılarımıza yaxşı pul ödənmişdi.

Manaf Rza 1999-cu ildə ailəsilə Almaniyaya köçüb. Oraya o, Saimin dəvətilə gedib. Manafgil 2005-ci ilə qədər Berlində yaşayıblar, yüksək səviyyəli həyat tərzi ilə qarşılaşıb, mədəni və inkişaf etmiş cəmiyyətdə ömür ediblər.

Manaf orada da sənətə biganə qalmayıb. Güney və Quzey Azərbaycandan oraya köçənlərdən



2002-ci il. Berlin şəhəri. Manaf Rza qrup tərkibində

ibarət "Araz" instrumental ansambl yaradaraq, soydaşlarımızın, Anadolu türklərinin təntənəli günlərində, toy-büsatlarında çalıb-çağırıb. Onun qrupu reklam afişaları nəşr etdirərək, Almaniyada konsertlər verməyə də nail olmuş və Azərbaycan musiqisini təbliğ etmişdir. Manaf Rzanın "Araz" musiqi qrupunda bakılı Ramiz Ağayarov klarnet, güneyli Şəhram tar, qarabağlı Yavər nağara çalırdı. Bu qrupda bakılı Zaur Hacımirzəyev də nağaraçı olmuşdu. Sonra o, Bakıya qayıtmışdı. Ansamblın müğənnisi Almaniya vətəndaşlığına nail olmuş, əslən Quzey Azərbaycanın Təbriz şəhərindən Nazir Səhənd idi. Bu ansambl ilk əvvəllər çətinlik çəksə də, sonralar toylarda və konsertlərdə çıxış etməyə nail olmuşdu.

Manafın xatırladıqlarından: "Əsasən iğdırlı azəri türklərinin toylarında çalırdıq. Berlinin şadlıq evlərində cümə günü xınayaxdıda, şənbə günü isə toyda çalırdıq. Beləliklə, ayda 4 dəfə belə məclislərdə çıxış edirdik.

Erkən gənclik illərindən köçüb, Berlində yaşayan, əslən İğdırdan olan azəri türkü Dönməz öz həmyerliləri arasında yaxşı tanınmışdı. İğdır türkləri toy-düyünlərinə onu dəvət edirdilər. O da kiçik qrup düzəldib, dəvət olunduğu tədbirlərə gedirdi. Toylar Berlinin şadlıq salonlarında (türklərin təbirincə "Düyün evi", "Düyün salonu") keçirilirdi. Dönməzin qrupundan başqa toylarda "Düyün sarayı"nın türklərdən ibarət qrupları da çalırdılar. Toy ərzində iki dəfə türk qrupu, iki dəfə də bizim azəri qrupu ("Araz" adlandırdığım qrup) çıxış edrdi. İran azərilərinin toyunda bizim qrup "Araz", İğdır azəri türklərinin toyunda isə "Azəri" adıyla təqdim olunurdu.

Toy bazar günü idisə, şənbə günü iğdırlılar mütləq xınayaxdı mərasimi keçirirdilər. Məclisə yalnız kişilər dəvət olunurdu. Xınayaxdı çox da böyük olmayan kafelərdə keçirilirdi. Burada musiqiyə də yer verilirdi. İki nəfər, qarmonçu və nağaraçı və yaxud qarmonçu və sintezator ifaçısı məclisin musiqiçisi olurdu. Burada musiqiçilər üçün toydakından da çox pul yığılırdı. Mərasim çox şən keçirdi. Cürbəcür xalq oyunlarına yer verilir, bəzi xalq mahnılarımız xorla oxunurdu. Axşam saat 19^{00}-da və ya 20^{00}-da başlanan mərasim 23^{00} və ya 24^{00}-a qədər çəkirdi. Bəzən həmən saatda musiqini bitirib, özləri əyləşib, məclisi davam edərdilər.

İğdırlıların toy-düyünündə məxsusi olaraq mütləq öz musiqilərindən istifadə olunurdu. "İğdırbarı" adlanan musiqi ilə başlanan rəqslər davam edirdi. ("İğdırbari", halay, yəni "İğdır yallısı" – Ə.R.). Bu musiqi "Vilayəti" pərdəsində çalınır və sonra çalğı "Mahur" pərdələrində davam edir. Sonda "Şur"a keçid olur və "Sarı gəlin" mahnısına yer verilir. Bu misiqilə qadınlar və kişilər əl-ələ tutaraq "Yallı" gedirlər.

"Eyvah-Dümbə" "Mahur" muğamı əsasındadır və 6/8 ölçüdə ifa olunur. Sonra 6/8 ölçülü ritm artır və daha iti sürətlə "Qəmərinski" səslənir. (Ehtimal etmək olar ki, "Qəmərinski" "Qəmərli" yer adı ilə bağlıdır. Görünür Sovet hökumətini qəbul etməyən qəmərlilər İğdıra köçərək, adət-ənənələrini və musiqilərini yaşatmış və oradan da Almaniyaya aparmışlar. – Ə.R.). "Qəmərinski"dən sonra isə "Qaç ge" adlı musqiyə keçid olur. Bu musiqi daha iti sürətlə ifa olunur. (Çox güman ki, "Qaç ge" "qaç, get" sözündəndir. Qaçmaq, sürətlə rəqs etmək və ya "qaç ge" etmək cəld, becit rəqsə keçid eləmək mənasını verir. – Ə.R.). Bu melodiya "Çahargah" muğamına əsaslanır. Əvvəl "Müxalif" pərdələrində çalınır və sonra "Maya" səslərinə qayıdır. Dəfələrlə bu yerdəyişmələr olur. Sonda isə "Çahargah" mayəsində musiqi tamamlanır. Bütünlüklə bu yallı rəqsi 40 dəqiqə çəkir. Məclisdəki bütün qonaqlar rəqs zamanı meydanda olur, restaranın ortasında rəqs edirlər.

İğdırlıların düyünündə "Sarıköynək", "Yar yaxasın düymələsin", "Əjdər əmi" və bu kimi xalq havaları da çalınıb-oxunur. Rəşid Behbudovun oxuduğu bir neçə xalq mahnısı və qədim rəqs melodiyalarımıza da tələbat olur".

Berlində Cənubi Azərbaycandan köçənlərin "Ocaq" cəmiyyəti vardır. Müğənni Nazir və qarmonçu Manaf həmin cəmiyyətin musiqiçiləri idilər. Manafın Berlində musiqiçi kimi tanınmasında "Ocaq" cəmiyyətinin xüsusi rolu olmuşdu. Həmçinin bu təşkilatın vasitəsilə Manaf Rza Almaniyanın hər yerində, Avstriyada, Fransada, Hollandiyada, Belçikada və İtaliyada konsertlərdə və toylarda çıxış etmişdi.

Manaf Rza 2005-ci ildə Bakıya qayıtmışdır. O dövrdən indiyə qədər o, sənət fəaliyyətini əsasən şadlıq saraylarında davam etdirir. Sənətkarımız son zamanlar "Bahar" və "Günay" rəqs melodiyalarını diskə yazdırıb. Hələ neçə-neçə çətin əsərləri, rəqs havalarını ifa edərək disklərə yazdırmaq və təbliğ etmək arzusu ilə yaşayır. Biz də onun arzu və istəklərinin, xoş niyyətlərinin yerinə yetməsi üçün Allaha əl açırıq. Qeyd edək ki, M.Rza 2014-cü ilin mart ayında Jorj Bizenin "Karmen" operasından bir musiqini məharətlə ifa edərək diskə yazdırmış və YouTube vasitəsilə yayımlamışdır.

Manaf Vərqa oğlu Rza 1981-ci ildə ailə qurub. Bir qızı, bir oğlu var.

Saçları düm ağ olubdu sənətdə,
Bar-bəhərli bağ olubdu sənətdə,
Əzəmətli dağ olubdu sənətdə,
Öz işinə sadiq qalan Manafdı.
Yaş ötdükcə müdrik olan Manafdı.

Avtandilin sənətindən güc alıb,
Qarmon ifaçısı kimi ucalıb,
Sinni artsa da sanmayın qocalıb,
Qəlbi, ruhu, eşqi cavan Manafdı.
"Tıko-tıko"nu ilk çalan Manafdı.

Qəddü-qaməti qarmona yaraşır,
Çalğı qaydasına düzgün yanaşır,
İfasında imkanlar aşıb-daşır,
Toy-düyündə "sağ ol" alan Manafdı.
Saf könüllərə iz salan Manafdı.

Neçə illər yüksəlişlə yol gəlir,
İfasında sağla bahəm sol gəlir,
Solda müşayiəti əla bilir,
Qəlbi musiqiylə dolan Manafdı.
Səmalarda qanad çalan Manafdı.

2.78. DADAŞ-ETİBAR



Dadaş Dadaşov

Yaxşı müəllim tələbənin xoşbəxtliyidir. Bəli, bu fikir özünü doğruldur. Elmin, incəsənətin bütün sahələrində yaxşı müəllimin, əsl ustadın istedadlı yetirmələri önə çıxır, öz sözlərini deyir, əməlləri və gördüyü layiqli işlərilə seçilirlər. Bu oçerkimizin qəhrəmanı Dadaş da belələrindəndir. Azərbaycan qarmon sənətində onun öz izi, öz sözü, öz çəkisi və öz xüsusi bacarığı var. O, hər yerdə öz müəlliminin adını hörmətlə çəkir. Hələ musiqi məktəbində təhsil alarkən ona ixtisas üzrə dərs deyən Malik müəllimin onun kövrək barmaqlarını qarmonun dilləri üzərində düzgün gəzdirməyi öyrətməsi, ölçülərə riayət edib ritmlə çalmağı izah etməsi, sonrakı mərhələlərdə qarmon ifaçılığının ən mühüm şərtlərini göstərməsi, oyun havalarına, muğamlara yanaşma xüsusiyyətlərini anlatması nəticədə daha bir uğurlu qarmon ifaçımızın, bu sahədə çalışan müəllimlərdən birinin yetişməsinə gətirib çıxardı. Bəli, doğrudan da Malik Paşayev yaxşı müəllim, həqiqi ifaçı olaraq yetirmələri ilə fəxr edə bilər. Onlardan biri Dadaşdır.

Dadaş Adil oğlu Dadaşov 1958-ci il mart ayının 27-də müəllim ailəsində dünyaya gəlib. Adil Fərəməz oğlu Dadaşov (1925-1980) klarnet ifaçılarımızdan biri idi. O, 1943-1946-cı illərdə Sovet ordusu sıralarında, Bakıdakı Salyan kazarması adlanan hərbi hissənin musiqi taqımının nəfəs alətləri ifaçılarından biri olub. Hərbi xidmətdən sonra texniki təhsil alıb və Maştağadakı 128, Buzovnadakı 125 saylı orta ümumtəhsil məktəblərdə əmək təlimi fənni üzrə müəllim işləyib. O, az müddət ərzində Maştağadakı uşaq musiqi məktəbinin klarnet sinfində də dərs deyib. Adil müəllim toy-büsatımızda klarnetin xoş ahəngilə xalqımıza bol sevinc və dərin zövq bəxş edib. Onun çoxlu dostları olub. Bu sırada klarnet ifaçılarından Nadir Axundov (1917-1969), Əliağa Əliyev (1924-1985) və xanəndə Nəriman Əliyevin (1930-1998) adlarını dərin rəğbətlə çəkirik. Adil Dadaşov Əhməd Bakıxanovun (1892-1973) rəhbərlik etdiyi x.ç.a. ansamblının məşqlərinə, konsertlərinə gedər və sadiq dostu Nadir Axundovu tələb olunan anlarda əvəz edərdi. Nadir müəllim xəstələnəndə və ya vacib işlərlə qarşılaşanda Adil müəllim onun yerində olardı.

İşlədiyi kollektivdə, Buzovna camaatı arasında, dost-tanışlarının sırasında böyük nüfuza sahib olan Adil müəllim həm də gözəl ailə başçısı idi. O, Allahın ona bəxş etdiyi üç övladı halal çörəklə və dərin məhəbbətlə böyüdərək ərsəyə çatdırıb. Bu gün atasının adı ilə qürur hissi keçirən Dadaş (o, həm də Etibar adını daşıyır) həyatda və sənətdə özünə layiqli yer tutub.

Dadaş Dadaşov 1965-1975-ci illərdə 125 saylı orta ümumtəhsil məktəbdə oxuyub. 1968-ci ildə 19 saylı uşaq musiqi məktəbinin qarmon sinfini uğurla başa vurub. O, 1975-ci ildə 19 saylı uşaq musiqi məktəbinin (hazırda 4 saylı incəsənət məktəbi) qarmon sinfində dərs demək üçün işə qəbul olunub. Hələ 16 yaşı olanda o, atası ilə toy-nişana gedər və sənətdə mükəmməl qaydalara yiyələnərdi. Əsgər yaşına qədər o, atasının dəstəsinin qarmonçalanı olmuşdu.



B.Salahovun rəhbərlik etdiyi x.ç.a. ansamblının televiziya konserti. Qarmonçalan Dadaş Dadaşov

Dadaşı 1974-1975-ci illərdə məşhur xanəndə Canəli Əkbərov (haz. x.a.) Dadaşı öz dəstəsinin tərkibində Bakıda və rayonlardakı toylara aparıb.

Dadaş-Etibar 1976-1978-ci illərdə Çita vilayətində Sovet ordusu sıralarında xidmət edib. Hərbi hissənin orkestrində klarnet ifaçısı olub. O, hələ uşaq yaşlarında atasının ev məşqlərinə diqqət yetirmiş, ondan alətlə ilk tanışlıq qaydalarını götürmüş, bəzi şərtləri soruşub öyrənmiş və əllərinə diqqət yetirərək incəlikləri mənimsəmişdi. Notu isə musiqi məktəbi illərində öyrənmişdi. Bütün bunlar onun hərbi hissədə musiqiçi olmasına şərait yaratmışdı.

Əsgərlikdən vətənə dönən Dadaş əvvəlki iş yerinə qayıdaraq, qarmon ixtisası üzrə dərs deməklə fəaliyyətini davam etdirmişdir. O, hazırda 4 saylı uşaq incəsənət məktəbi adlanan bu tədris ocağında çalışmaqdadır. 1994-cü ildən burada x.ç.a. şöbəsinin müdiridir.

Dadaş Dadaşov 1979-cu ildə tarzən Əliağa Quluyevin (1917-1998) rəhbərlik etdiyi x.ç.a. ansamblında çalıb. Məşqlər, konsertlər, peşəkar müğənniləri, əməkdar və xalq artistlərini müşayiət etmək hər bir ansambl üzvü, eləcə də Dadaş üçün sənətinin inkişafına təkan verirdi. O, 1980-1983-cü illərdə Baba Salahovun (1923-1982) x.ç.a. ansamblında çalmışdır. Bu ansambl Teleradio Verilişləri Komitəsinin nəzdində fəaliyyət göstərdiyi üçün xeyli sayda müğənnilərin repertuarını məşq etməli olurdu. Müğənnilər radio fonduna səs yazdırıb və televiziyada canlı çıxış edib və ya çəkiliş etmək üçün çalışır, məşqlərdə bunların üzərində dəfələrlə işləyirdilər.

Məşqlər və konsertlər gənc Dadaşı müşayiət üçün formalaşdırırdı. Həmin illərdə D.Dadaşovu televiziyada tez-tez görür və qarmonunun səsini dinləyirdik. Müğənnilər Rübabə Muradova (1933-1987), Nəzakət Məmmədova (1944-1981) və tarzən Baba Salahovun solo ifalarının televiziya çəkilişlərində Dadaş da ansamblın tərkibində olub. Bu konsertlərin lentləri Az.TV-nin fonotekasında hazırda da qorunur və arabir nümayiş etdirilir.

Həmin ansamblın tərkibində Dadaş rayonlarımızda konsertlərdə çıxış edərək Laçına qədər gedib çıxmışdı.

D.Dadaşov hələ musiqi məktəbinin şagirdi olarkən istedadlı uşaqlarla birlikdə Macarıstanda sənət səfərində olmuşdur. O, 1990-cı illərdə xoreoqraflar Zakir və Leyla Ağayevlərin rəqs qrupunun müşayiətçisi olaraq Türkiyədə və daha bir neçə ölkədə konsertlərdə çıxış etmişdir.



1995-ci il. Türkiyədə festivalda. Öndə Dadaş Dadaşov

Dadaş sənətə yenicə qədəm qoyduğu illərdə o dövrün tanınan və yaşlı klarnet ifaçılarından Həsən Məhərrəmov və Əyyub Əliyevlə toylara getmişdir. B.Salahovun ansamblında çalarkən bu heyətin klarnet ifaçısı Vəli Qədimov gənc qarmonçalanı özüylə şəhər toylarına (kampaniyalara) aparırdı.

1980-ci illərdə klarnet ifaçısı Vaqif Bağırovun toy dəstəsinin tərkibində olan Dadaş Bakının əksər qəsəbələrinin toyxanalarında yaxşı qarmon ifaçısı kimi öz sənətini xalqa sevdirə bilmişdi. O, 10 ilə yaxın zaman ərzində Vaqifin toy ansamblının tərkibində yüksək bacarıq göstərərək çalışmışdır.

Son illərdə isə Dadaş Buzovna toylarında klarnet ifaçısı, əməkdar artist Elşad Cabbarovla çiyin-çiyinədir.

Bu sətirlərin müəllifi və həm də qarmon sənəti üzrə mütəxəssis kimi Dadaşın yaxşı musiqiçilərdən biri olduğu barədə ürəkaçıqlığı ilə söz açdım. Son 20 ildə bir neçə toyun idarə edəni (masabəyi) olaraq Dadaşı müxtəlif toy ansambllarının tərkibində görmüş və göz-görəsi, əyani şəkildə dinləmişəm. Cəsarətlə deyirəm ki, o, texniki imkanlı, cəld barmaqlı qarmonçalan və əsas şərtlərdən biri olan müşayiəti bacaran sənətçidir. O, son dövrlərdə, şadlıq saraylarında klarnet ifaçısı Fikrət Əşrəfzadə ilə bir qrupda fəaliyyət göstərir. Onun adı mahir qarmon ifaçılarımızın sırasındadır. Dadaş müəllim musiqiləri oranjeman etməklə də məşğuldur.

Ailənin musiqi ənənələri bu gün də davam edir. Babasının adını şərəflə daşıyan Adil Dadaş oğlu 1985-ci ildə həyata göz açıb. 4 saylı uşaq incəsənət məktəbini qarmon ixtisası üzrə bitirib. O, çox istedadlı musiqiçidir, əla sintezator ifaçısıdır və populyar müğənnilərlə çalışır.

Dadaşovlar nəslinin istedadlı nümayəndələrindən biri Gülnar Etibar qızı Milli Konservatoriya tərkibində Musiqi Kollecini bitirib. O, 4 saylı incəsənət məktəbinin qarmon sinfində dərs deyir.

2.79. ZEYNAL İSAYEV



Zeynal İsayev

Zeynal Fazil oğlu İsayev 1960-cı il noyabr ayının 28-də Salyan şəhərində anadan olub. Ailədə dörd övladın ilki Zeynal az yaşlardan fitri istedadı ilə böyüklərin diqqətini cəlb edib. Əksər ailələrdə olduğu kimi istedad ona nəsildən gəlib. Nənəsi Safurə müəllimənin atası Yüzbaşı Quluyev dövrünün (19-cu əsrin sonları - 20-ci əsrin birinci yarısı) mahir və tanımlı sənətkarlarımızdan biri olub, sədəfli tarı sinəsinə sıxaraq el-oba şənliklərində solo ifaları və xanəndəni müşayiət etməsilə xalqın sevimlisinə çevrilib. Məşhur tarzən Qurban Pirimov (1880-1965) Salyana konsertlərə və toylara gələrkən hər dəfə Yüzbaşının evində günlərlə qonaq qalarmış. Bu insanlar həm də ifaçılıq sənətimiz barədə fikir yürüdər, söhbərlər edər və bir-birinin sənətindən bəhrələnərdilər. Yüzbaşı Quluyev tar və bir sıra musiqi alətlərini düzəldən və təmir edən çox mahir usta idi. Onu nəinki Bakıda, Azərbaycanın hər yerində tanıyırdılar, hətta sorağı Qafqazın bütün bölgələrinə gedib çıxmışdı.

Yüzbaşının oğlu, filoloq-alim Mirzəağa Quluzadə (1906-1979) Füzuli lirikasının ilk araşdırıcılarından biri olub. Bu mövzuda yazdığı və müdafiə etdiyi elmi iş yüksək dəyərləndirilib və kitab şəklində nəşr olunub. O, filologiya elmləri doktoru, professor olaraq Azərbaycan elminə qiymətli töhfələr verib. Məşhur politoloq Vəfa Quluzadə də bu nəslin nümayəndəsidir, Mirzəağa Quluzadənin oğludur.

Safurə xanım Salyanın tanımlı ziyalılarından biri olub, dil-ədəbiyyat fənnindən dərs deyib, məktəb direktoru işləyib. Qeyd etdiklərimiz oçerkimizin qəhrəmanı Zeynal İsayevin ana tərəfdən doğmaları olub. Onun ata tərəfdən babası Zeynal Abdin varlı-hallı, imkanlı şəxs olaraq gəmilərə sahib idi. Kür boyu yuxarı, aşağı daşınan yüklər onun gəmiləri vasitəsilə yerlərə çatdırılırdı. Salyan şəhərində gəmilərin sahilə yan alması üçün Zeynal Abdin kişinin limanı vardı. Bu liman Kür çayı gəmiçiliyi üçün əsas məntəqələrdən biri idi. Xəzər dənizindən Kür çayına daxil olan gəmilər də bu limana yan ala bilirdilər. Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra Zeynal Abdinin də sərvəti, şəxsi mülkiyyəti əlindən alınmış, gəmiçilik fəaliyyətinə son qoyulmuşdu. Ona məxsus olan liman ərazisi, tikililər sonralar başqa idarəyə verilmiş, xalq arasında "Kontor üstü" adlanmışdır. Hazırda həmin yerdə kiçik gəmi (barkaz) işləyir. Bu gəmi vasitəsilə Salyan şəhəri ilə üzbəüzdə yerləşən Babazanlı (əslində Babazənən) arasında sərnişin daşınır.

Mövzumuzun qəhrəmanı Zeynala babasının adı verilmişdir. Zeynalın atası Fazil İsayev (1932-1997) ixtisasını yaxşı bilən bacarıqlı baytar kimi Qaramanlı sovetliyində Nuruş Əliyevin rəhbərlik etdiyi kolxozda çalışıb. O, 1970-ci ildə Bakıya köçüb. Əvvəllər Elmi Tədqiqat Baytarlıq İnstitutunda işləyib. Sonra Nazirlər Soveti nəzdində quşçuluq idarəsində çalışıb və Azərbaycanda ilk dəfə Respublika Quşçuluq Labaratoriyasını yaradıb. Zeynalın anası Zemfira Mehdi qızı İsayeva (1937-2007) pedaqoq olub. Azərbaycan Dövlət Pedaqoyi İnstitutunun Azərbaycan ədə-



5 yaşlı Zeynal qarmonu həvəs göstərərkən

biyyatı kafedrasında çalışıb.

Zeynal İsayev 1967-ci ildə Salyan şəhər 2 saylı ümumtəhsil məktəbin 1-ci sinfinə daxil olub. İbtidai sinifdə ona Xanım müəllimə dərs deyib. 3-cü sinifdən təhsilini 7 saylı məktəbdə davam edib. Uşağın istedadını hiss edən ata 5 yaşlı Zeynala nağara almışdı. O vaxtlar dükanlarda 6 "rubl" dəyərində, azyaşlı uşaqlar üçün nəzərdə tutulmuş nağaralar satılırdı. Zeynalın da nağarası belə idi. Bu aləti çalmaqla Zeynalın başı qarışsa, nağara ilə oyuncaq kimi rəftar etsə də bacarığı da özünü biruzə verirdi. Radioda konsert verilən kimi balaca Zeynal eşitdiyi melodiyaların nağara ilə ritmini tuturdu.

Zeynalın atası mandalina, gitara və qarmon çalırdı. O, Gəncə şəhərində Kənd Təsərrüfatı İnstitutunda oxuyarkən təhsil ocağının bədii özfəaliyyət ansamblının fəal üzvlərindən biri olmuşdu. Bədii rəhbər, məşhur bəstəkar Telman Haçıyev Fazilin istedadını həmişə qiymətləndirirdi. Zeynalın nənəsi Safurə xanımın gözəl səsi, oxumaq və qarmon çalmaq bacarığı var idi. Hətta o qədər yaxşı oxuyurmuş ki, bəzi peşəkar müğənnilərin ifası onu qane etmirmiş. O, 6 yaşlı Zeynala diatonik "Kazan" qarmon almışdı. Bu balaca oğlanın heç kəsdən təlimat almadan, sərbəst olaraq qarmon çalmağı öyrənməsi təəccüb doğuran bir iş idi. Safurə xanım sevimli, istedadlı nəvəsini pioner və məktəblilər evinin (haz. uşaqların və gənclərin yaradıcılıq mərkəzi) qarmon dərnəyinə üzv etdi. Uşağın yaşının az olduğu, həm də qarmona gücü çatmadığı üçün nənə nəvəsini məşqlərə müntəzəm özü aparıb gətirirdi. Hələ məktəbə getməsə də bacarığı və güclü həvəsi olduğu üçün Zeynalı pionerlər və məktəblilər evinə qəbul etmişdilir. Qarmon dərnəyində həvəsli uşaqlara Tofiq müəllim dərs deyirdi. O, Safurə xanıma bildirmişdi ki, Zeynalın qarmonu yarımtonsuz olduğu üçün tamam-kamal alət deyil, musiqiləri öyrənmək üçün bu yaramır. Beləliklə ata oğluna xromatik qarmon almışdı. Zeynal dərnəkdə yalnız azyaşlılığı, kişik olması ilə deyil, həm də bacarığı və musiqi yaddaşının yüksək olması ilə seçilirdi. Müəllimin ona nəsə göstərməsinə ehtiyac yox idi, dərnək rəhbərindən və uşaqların ifasından eşitdiyini dərhal çalırdı. Tofiq müəllim uşaqlara "Sabirabadı", "Aşqabadı" rəqslərini və bir-neçə digər melodiyaları öyrətmişdi. Bütün bunları Zeynal öz yaşı səviyyəsində çox yaxşı çalırdı. Bu dərnəyə qarmon həvəskarı olan xeyli sayda məktəbli gəlirdi. Salyan pioner və məktəblilər evinin ən gur çağları idi. Burada x.ç.a. və estrada ansamblları, dram, şeirsevərlər və bacarıqlı əllər dərnəkləri fəaliyyət göstərirdi. O illərdə buranın estrada ansamblı güclü idi. Ansambla əksər alətlərin ifaçısı Binyamin (Tahir) Səmədov rəhbərlik edirdi.

Zeynalı uşaq musiqi məktəbinin fortepiano sinfinə qoymuşdular. Burada iki il oxumuşdu. Yaddaşı o qədər güclü idi ki, müəllimə əsəri çalarkən onun yadında qalır, növbəti dərsə gələrkən çalıb təhil verirdi. Bir gün müəllimə əsəri not üzrə çaldırmaq istədikdə məlum olub ki, uçaq notları bilmir. Müəllimə deyib ki, uşağı məktəbdən çıxarın, ondan musiqiçi olmayacaq.

Zeynal İsayev 1967-ci ildə Salyan şəhər 2 saylı ümumtəhsil məktəbdə oxuyarkən Tofiq Məlikov burada özfəaliyyət ansamblına rəhbərlik edirdi. O, Zeynalı ansambla qarmonçalan kimi yox, müğənni kimi götürmüşdü. Bu iş Zeynalın ürəyincə olmasa da, ümumi işin xeyrinə o, oxumalı oldu. Ansamblda qarmonu Tofiq Məlikov özü çalırdı. Zeynal C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının çəkdiyi "Yenilməz batalyon" kinofilmindən Teymurun mahnısını (musiqi C. Cahangirovun) çox gözəl oxuyurdu. O, bu mahnı ilə məktəblərdə, kolxozlarda, rayon mədəniyyət evində, kəndlərdəki klublarda verilən konsertlərdə alqışlar qazanırdı.

Bakıya köçəndən sonra atası Zeynala daha bir "Kazan" qarmon aldı. O, 1975-ci ilin avqust ayına qədər həmin qarmonla dost-sirdaş oldu, xeyli inkişaf etdi. Hamı onun "Kazan" qarmonda bacarıqla, şirin barmaqla şalmağına təəccüb edirdi. Deyirdilər ki, bunun peşəkar qarmonu olsa, əla çalacaq.

1975-ci ilin isti avqust günlərinin birində Tofiq Məlikovun vasitəsilə Salyanın Kərimbəyli kəndində yaşayan qarmonçu Əflatundan Zeynala Tula şəhərində hazırlanmış peşəkar sənətkar qarmonu alındı. O gündən Zeynal durmadan hey çaldı... çaldı... Yaxşı da inkişaf edirdi. Tay-tuşları olan ifaçıları üstələmişdi.

Z. İsayev istər Salyanda yaşadığı zaman, istərsə də Bakıya köçəndən sonra yay tətili zamanı doğma Salyan şəhərində toyxanalarda qarmonçalanlardan Rza Şıxlarov, Əflatun Ağayev, Elman Bədəlov, Həsənağa Sadıqov və Aslan İlyasovun ifalarını dinləmişdi. Onlar Salyanın tanınan qarmonçalanları idilər. Bəzisi yaşlı, bəzisi cavan olan bu sənətkarların hər biri öz ifa şirinliyi ilə seçilirdi. Zeynal bunların hər birini maraqla seyr etmişdi. O dövrdə şadlıq sarayları yox idi. Odur ki, Salyanda toylar yay aylarında keçirilirdi. Yay tətili zamanı Salyanda olan Zeynal Bakıdan rayona dəvət olunan dəstələrin qamonçalanlarını da dinləmişdi.

Zeynal 4-cü sinifdən etibarən Bakıdakı 18 saylı ümumtəhsil məktəbdə oxumuş və buranı uğurla bitirmişdir. O, məktəbin özfəaliyyət ansamblında çalırdı. Ansambla bir müddət məşhur müğənni, əməkdar artist Rauf Adıgözəlov rəhbərlik etmişdi. Məktəb ansamblı ilə bir tədbirdə çıxış edərkən Zeynal öz yaşıdlarından klarnet ifaçısı Babək Vəzirovla tanış olmuşdu. O, musiqiçilər ailəsinin üzvü idi. Babəkin atası Səfərəli Vəzirov (1929-1982) qarmon, qardaşları Kamil Vəzirov tar, qarmon ifaçısı, Ədalət kamançaçalan, Ramiz pianoçu idi. Babək Zeynalı evlərinə dəvət edib ailə üzvləri ilə tanış etmişdi. Zeynalın tərbiyəsini, qarmon çalmasını bəyənən Səfərəli kişi Babəkə bu istedadlı oğlanla dostluq etməyi məsləhət görmüşdü. Həm də o, bu evin qapısının Zeynalın üzünə açıq olduğunu bildirmişdi. Beləliklə bu musiqi ocağına Zeynalın gəlməsinə şərait yaranmışdı. Onun söylədikləri: "Səfərəli əmigildə məşqlər üçün rahat şərait var idi. Tez-tez bir yerə toplaşıb məşq edirdilər. Mən də əyləşib dinləyirdim. Bu evə kaman ifaçıları Mirnazim Əsədullayev, Arif Əsədullayev, Fəxrəddin Dadaşov, xanəndə Ağaxan Abdullayev, Vahid Abdullayev və digərləri gəlirdilər. Mən onların hər birinin söhbətlərini dinləyirdim və hər dəfə nəsə öyrənirdim. Muğamların "Bərdaşt"ları, sonluqları (muğama ayaq) barədə sual verib, cavab alırdım. Çalıb-oxumaqlarından da çox şey axz edirdim. Onu da deməliyəm ki, ilk dəfə muğam çalmağı atamdan öyrənmişəm"

"Azərnəşr"in nəzdində və onun binasında "Mədəniyyət işçiləri evi" var idi. 1975-ci ildə burada x.ç.a.ansamblı yaradılır.Tarzən, əməkdar artist (sonralar x.a.) Baba Salahov rəhbər gətirilir. 1977-ci ilə qədər həmin ansamblın qarmonçalanı Zeynal İsayev olur. O, həmin ildə Neft və Kimya İnstitutuna qəbul olunur və 1982-ci ildə uğurla başa vurur. Zeynal 1980- ilə qədər institutun "Gənclik" rəqs ansamblının qarmonçalanı olur.

1978-ci ildə bəstəkar Ələkbər Tağıyevin təşəbbüsü ilə "Arzu" instrumental ansambl yaranır. Rəhbərlik etmək S.Rüstəmov adına x.ç.a.orkestrinin bədii rəhbəri və baş dirijoru, əməkdar incəsənət xadimi Nəriman Əzimova həvalə olunur. Zeynal 6 ay müddətində həmin ansamblda çalır. Müxtəlif müğənnilərin konsertlərində, səs yazılarında yaradıcı əmək sərf edir. Burada uzun zaman

fəaliyyət göstərə bilməməsinin əsas səbəbi o olmuşdu ki, institutda hərbi dərslərin saatları ansamblın məşqləri ilə eyni vaxta düşürdü.

Zeynal İsayev mahir kaman ifaçısı Ədalət Vəzirovun (1951-2002) təşəbbüsü ilə Azərbaycan Teleradio Verilişləri Komitəsində Baba Salahovun rəhbəri olduğu "Araz" x.ç.a. ansamblına gətirilmişdi. O, 1980-1981-ci illərdə bu ansamblın qarmonçalanı olaraq əksər məşhur müğənnilərin səs yazılarında, televiziyada və mədəniyyət ocaqlarında olan konsertlərdə çalmışdı. Yazımızın bu yerində əvvəlki illərə qayıtmalı oluruq. Z.İsayev 1976-1977-ci illərdə AzTV-də, "Məktəblilərin rəqs klubu" adlı verilişdə baletmeyster, professor Kamal Həsənovun hazırladığı qədim milli rəqs quruluşlarımızı müşayiət etmişdir. Mərhum Kamal Həsənov Azərbaycan Dövlət İncəsənət İnstitutunda rəqs sənətindən dərs deyirdi. Odur ki, televiziyada öz verilişində rəqs etmək üçün dərs dediyi tələbələri cəlb edirdi. O tələbələr sonralar tanınmış akyyorlar, xalq artistləri oldular.

Neft və Kimya İnstitutunda təhsil alanların bir qrupunu 1979-cu ilin yayında tələbə inşaat dəstəsilə Rusiyanın Smolensk Vilayətinin Qaqarin şəhərinə tikintiyə göndərmişdilər. SSRİ-nin 15 respublikasının 15 qəhrəman şəhərindən tələbələr gəlmişdi. Həm tikinti işləri, həm də mədəniyyət, incəsənət sahəsi üzrə yarışırdılar.

Hər respublikanın nümayəndələri öz bacarıqlarını nümayiş etdirirdilər. Zeynal o günləri ömrünün ən məsuliyyətli və ən xoş anları kimi xatırlayır. Deyir: "Bəzi respublikalardan konservatoriya tələbələrindən ibarət orkestrlər gəlmişdi. Çox güclü, istedadlı tələbələr var idi. Heyran qalmamaq mümkün deyildi. Moldavların orkestri xüsusilə fərqlənirdi. Azərbaycandan gələnlər də yarışmada yüksək yerlərdən birini tutmağa çalışırdılar". Zeynal nağaraçalanı ilə yaxşıca məşq etmiş, seçib hazırladığı repertuara ciddi yanaşmışdı.O, moldavların tələbə orkestrini çox bəyənmiş və onların müşayiətilə çıxış etmək qərarına gəlmişdi. Odur ki, onlarla birlikdə məşqlərə başlamışdı. Moldavların ifa tərzinə, musiqi hissiyyatına yaxın olsun deyə repertuarına "Bayatı-Şiraz", "Mahur" ladlarına əsaslanan rəqs melodiyalarını daxil etmişdi. Onun xatırladıqlarından: "Orkestrin üzvləri həssas və istedadlı cavanlar idilər. Bizim melodiyalarla tanış olmağa, ifa etməyə maraq göstərirdilər. Orkestr mənim repertuarımı yaxşı mənimsəmiş və əla müşayiət etmişdi. Odur ki, bizim musiqimiz, qarmon ifasıyla melodiyalarımız həddən artıq xoşa gəlmiş və bəyənilmişdi. Bunun nəticəsi olaraq Azərbaycandan gələn tələbə musiqiçilər də birincilik qazananlar sırasında oldular".

1979-cu il avqustun 1-də "Komsomolskaya pravda" qəzetində Zeynal İsayevin qarmon ifası, məharəti barədə xüsusi məqalə getmişdi. O dövrdə bu nüfuzlu qəzet SSRİ dövlətinin ən ucqar nöqtələrinə də gedib çıxırdı. Onu da qeyd etmək lazımdır ki, hər qarmon ifaçısının bacarmadığı, yalnız bəzi qarmonçalanlara məxsus olan ifaçılıq üstünlüyü, yəni alətin sol gövdəsindəki (sol klaviatura) səsləri akkordlarla çalmaq, sol əl ilə sağ əlin ifasını müşayiət etmək kimi lazımlı bir üslub Z. İsayevdə də vardır. Onun söylədiklərindən: "Mərhum Ramiz Vəzirov əla piano ifaçısı idi. Onların evlərindəki ailə məşqlərinin iştirakçısı olarkən mən onun gözəl ifalarını və akkordlarını çox eşitmişəm. Bu istedadlı musiqiçi məşhur sənətkarımız, pianoçu, cazmen Rafiq Babayevlə (1936-1994) yaradıcılıq əlaqələrində olaraq ondan öyrəndiklərini öz ifasında mükəmməlləndirmişdi. Mən akkordları Ramizdən öyrəndim və bu qaydaları yalnız pianoda deyil, qarmonda da məşq etdim. Gərgin məşqlər nəticəsində bunları qarmon ifamda formalaşdırdım".

Z.İsayev toylarımızın qarmon ifaçılarından biri olub. Onun çalğısı və tərbiyəsi elə ilk anlardan musiqiçilərin diqqətini cəlb edib. Sonrakı illərdə o, əksər sənətkarlarla, əsasən xanəndələrdən Arif Babayev, Vahid Abdullayev, Səxavət Babayev, musiqiçilərdən qaboyçalan Kamil Cəlilov və digərləriylə yoldaşlıq edərək Bakıda və rayonlarda el şənliklərimizə, toy-mağarımıza rövnəq verib. Bu istedadlı musiqiçi ən yaxşı qarmonçalardan biri kimi həmişə nəzər-diqqətdə olub. Ansamblda çalışarkən konsertlərdə və lent yazılarında Şövkət Ələkbərova, Elmira Rəhimova, Rübabə Muradova, Anatollu Qəniyev, Nəzakət Məmmədova, Canəli Əkbərov və Ağaxan Abdullayevi müşayiət edib.



Sağdan: Zeynal İsayev, Elxan Səmədzadə, Balaağa, Xidmət, Tofiq Məmmədov, Mahir Rzayev

Yazı müəllifi və bir musiqiçi olaraq Zeynalın uşaqlıq çağları barədə bir xatirəmi qeyd edirəm: "1972-ci ilin yayı idi. Bakıdan Neftçalaya toya gedirdik. Dəstəmizin musiqiçilərindən biri, dostumuz Sübhangilin ailəsinə baş çəkdik. Sübhanın qardaşı Seyran Əzizov (haz. alimdir) Bakıdan valideynlərinə dəyməyə gəlmişdi. Çay süfrəsi arxasında o, mənə dedi:-Bakıdan bir uşaq bura, yay tətilinə, bizim qonşuluğumuza, nənəsi Safurə müəlliməgilə gəlib. Burada balaca qardaşım Heydərlə tay-tuşluq edir. Adı Zeynaldır, yaxşı qarmon çalır. Bizim əyləşdiyimiz bu eyvanda məşq edəndə görmüşəm. Heydər onu nağarada müşayiət edir. Xahiş edirəm bu uşağı dinlə. Məni maraq bürüdü, məmnuniyyətlə dinləmək istədiyimi bildirdim. Uşaqlar qaçıb Zeynalı çağırmağa getdilər. Xəbər gətirdilər ki, o, Kürdə çimib sərinlənir.

Bizimsə vaxtımız yox idi, az sonra yola düzəlib Neftçalaya toya getməli idk. Odur ki, xəbər göndərdik Zeynal tez gəlsin. Yoldaşları onu yanımıza gətirdilər. Sudan yenicə çıxmış, saçlarının, bədəninin yaşı qurumamış yanımıza gətirilmiş bu uşaq utana-utana quləngəşə (evin qarşısındakı artırma-Ə.R.) çıxdı. Qarmonu qutusundan çıxarıb, sağ kəməri kiçildib aləti ona verdim. 12 yaşı tamam olmayan bu uşaq yaşından qat-qat artıq çalğı göstərdi, gözlərimiz qarşısında əsl qarmon ifaları sərgiləndi. Seyran müəllim mənim rəyimi soruşduqda, dedim:- Seyran müəllim, siz bu uşağın istedadını düz kəşf etmisiniz. O, çox bacarıqlıdır, davam etsə yaxşı musiqiçi olacaq. Bunu onun yükçək göstəriciləri, müsbət əlamətləri və yaşından tez böyümüş ifaşılıq səviyyəsi təsdiq edir. Mən bu gün, bu saat və bu dəqiqələrdə çox sevinərək deyirəm ki, ifaçılıq sənətimizə yeni bir istedad gəlir".

Bu əhvalatın üstündən 10-15 il ötdü, Zeynal sənət aləmində yetişdi, püxtələşdi, özünü təsdiq etdi, tərifləro layiq oldu. Bir daha əmin oldum ki, mən vaxtılə səhv etməmişəm.

Uşaq çağlarından piano çaimağı sonralar da Zeynalı tərk etməyib. 1995-ci ildən sintezator çalmağa başlayıb və bu işin pərgarlarından birinə çevrilib. 1998-1999-cu illərdə bu alətdə milli alətlərimizin səsini imitasiya edərək ifalarını disklərə yazdırıb. Diskdə olan 2 saatlıq proqramı Azərbaycan radiosunun fonduna təhvil verib. Bu ifalar radioda səsləndirilir. Bədii-kütləvi tədbirlərdə, bəzi verilişlərdə, hətta toy mərasimlərində Z.İsayevin ifası toplanmış disklərdən istifadə olunur. O, sintezatorda "Tərəkəmə", "Cütçü" və neçə-neçə xalq havasını zurna səsinə oxşar (imitasiya etməklə) elə gözəl çalıb ki... "Xalabacı" rəqsini isə qarmon tembri ilə çalmağı bir başqa



Zeynal İsayev

aləmdir. Bu melodiya zəngin əsər kimi çox təsirlidir. Qaboy səsini imitasiya etməklə "Aşıqsayağı" adlandırdığı Qərb aşıq məktəbi nümunəsini də usta səsləndirib.

2002-ci ilin sonlarında "Lider" televiziyasının səhərlər yayımlanan musiqili proqramlarında müğənni Rəşid Tovuzlunun estrada qrupunun tərkibində Z.İsayevi tez-tez görürdük. Verilişdə onun sololoları marağa səbəb olurdu. Belə verilişlərin birindən sonra Moskva konservatoriyasının profesoru (əfsus ki, ad və familiyasını unutmuşuq) "Lider" TV-yə telefon açaraq demişdi: "Xahiş edirəm, sintezator ifaçısına mənim təbrikimi və təşəkkürümü çatdırın. Mən zövq aldım və məmnun qaldım. İnanmazdım ki, klavişli alətdə nəfəs alətlərinin səsini bu cür imitasiya etmək olarmış".

Zeynal 1988-ci ildə ailə qurub. Bir övladı var. Z.İsayev İnstitutu bitirərkən təyinatla Tacikistan Respublikasının Düşənbə sement kombinatına göndərilmiş və o, 1982-1983-cü illərdə burada mühəndis işləmişdir. Sonra isə Bakıya qayıdaraq 1il 6 ay B.Sərdarov adına maşınqayırma zavodunda mühəndislik fəaliyyətini davam etdirmişdir. Buradan göndərişlə Hidrometerologiya Komitəsinə işə təyin olunan Zeynal 1989-cu ilə qədər atmosfer havası mühafizəsi üzrə dövlət müfəttişi vəzifəsində çalışmışdır. Burada işlədiyi zaman Leninqrad (Sankt-Peterburq) şəhərinə Hidrometerologiya İnstitutuna göndərilən Z.İsayev 6 aylıq təhsili başa vuraraq diploma yiyələnmişdir. Burada SSRİ Elmlər Akademiyasının müxbir üzvləri Smirnov və Berliand kimi görkəmli alimlərdən dərs almışdır. Leninqrad təhsilindən qayıdaraq əvvəlki işində çalışmışdır. Hidrometerologiya İnstitutu 1989-cu ildə Təbiəti Mühafizə Komitəsinə birləşdirilərkən o, haqsız olaraq ixtisara salınmışdır. Halbu ki, Z.İsayev ixtisaslı kadr idi. Sonra o, Elmi Ekoloji Mərkəzə direktor vəzifəsinə təyin olunmuş və 1995-ci ilə qədər bu işdə çalışmışdır. Sonrakı əmək fəaliyyətini isə (1996-2006) «Qamma-Servis» MMC-də davam etdirmişdir. Zeynal İsayev 2007-ci ildən Bakı Musiqi Akademiyasının "Qədim musiqi alətlərinin bərpası labaratoriyasi"nda kiçik elmi işçi işləyib.2008-ci ildən həmin tədris və elm müəssisədə "Musiqi Akustikası"elmi labaratoriyasının müdiri vəzifəsində çalışır. Elmi-tedqiqat işləriylə məşguldur."Azərbaycanın qədim və muasir musiqi alətlərinin akustik xüsusiyyətləri" elmi mövzusunu müdafiəyə hazırlayır. Onun elmi-nəzəri fikirləri çox qiymətlidir.

2.80. BÜZOVNALI AYDIN



Aydın Bədəlbəyli

Aydın Ətərullah oğlu Bədəlbəyli 1960-cı il iyul ayının 15-də Bakının Buzovna qəsəbəsində anadan olub. Ətərullah Bədəlbəyli (1920-2007) elektrik mütəxəssisi olaraq bu işdə bacarıqla çalışmışdı. Elektrik materiallarının quraşdırılıb hazırlanmasında mahir idi. Hətta bu sahə üzrə bir müddət vəzifə də daşımışdı. Ətərullah Əzizə Ağabala qızı ilə ailə quraraq dörd qız, bir oğulu xüsusi qayğı və dərin məhəbbətlə böyüdərək cəmiyyətimiz üçün ləyaqətli övladlar kimi hazırlamışdılar. Aydın sönbeşik övlad olaraq əziz-xələf oğul kimi böyümüşdü. Əzizə ana evdar qadın olsa da müəyyən dövr ərzində Buzovna qəsəbə sovetində çalışmışdı. Əzizə xanımgil əslən İçərişəhərli idilər, sonra Buzovnaya köçmüşdülər. Ətərullanın anası Tamamnaz xanım məşhur bəstəkar C.Cahangirovun (1921-1990) əmisi qızı idi.

Aydın 1967-75-ci illərdə 206 saylı səkkizillik məktəbdə oxuyub. Sonra isə təhsili 26 saylı orta məktəbdə davam edərək buranı 1977-ci ildə bitirib.

Ətərullah musiqiyə xiridar şəxs idi. Həyat yoldaşı Əzizə xanım oğlunun musiqilə, qarmon sənətilə məşğul olmasını arzu etmişdi. Əslində Aydın özü də bu sənətə həvəs göstərirdi. Ana söz-söhbətlərilə oğlunu musiqiyə daha da həvəsləndirmişdi. Qarşılıqlı istək 1972-ci ildə Aydını Buzovnadakı 19 saylı uşaq musiqi məktəbinin qarmon sinifinə gətirdi. Aydın beşillik təhsil ərzində ixtisas üzrə iki müəllimdən; əvvəl Elmira Şabanova, sonra isə Malik Paşayevdən dərs aldı. O, istər nəzəri dərslərə, istərsə də ixtisas fənninə həvəs göstərir və bunların öhdəsindən bacarıqla gəlirdi. Hələ musiqi məktəbinin x.ç.a. ansamblında da çalırdı. Ansambla Yusif Quliyev (1949-2009) rəhbərlik edirdi. Aydın orta ümumtəhsil məktəbin özfəaliyyət dərnəyində də çox fəal idi. Məktəbin x.ç.a. ansamblına özü rəhbərlik edirdi. Bayram tədbirlərində solo ifaları ilə yadda qalırdı.

Haşiyə çıxaraq bildirirəm ki, bu nəsil savadlı və istedadlı şəxslərilə tanınır. Aydının əmisi Əhmədin oğullarını misal göstərək: Nurulla Bədəlov bacarıqlı musiqiçilərimiz sırasında tanınıb. O, A.Zeynallı adına Musiqi Texnikumunun klarnet sinfini, M.A.Əliyev adına İncəsənət İnstitutunun mədəni-maarif fakültəsini bitirib. Ramiz Bədəlov da yaxşı klarnet ifaçılarımızdan biridir. Nadir Bədəlov İncəsənət İnstitutunu bitirib, teatrşünasdır. O, ANS televiziyasında «Dahilərin divanı» verilişinin müəllifi və aparıcısı olub. Hazırda C.Cabbarlı adına Azərbaycan Dövlət kinostudiyasında çalışır.

Aydın Bədəlbəyli musiqi məktəbini 1976-cı ildə bitirib. Yaşıdları olan musiqiçilərlə yoldaşlıq edib. Təbii ki, öz üzərində işləməkdən, məşqlərdən kənar qalmayıb. 17 yaşından toylara gedib. Klarnet ifaçılarından Adil Dadaşov (1925-1982), Mirzə Babayev (1933-1991) və Vaqif Bağırov Aydını özləriylə toy-nişan mərasimlərinə aparıblar. Belə yaşlı sənətkarlarla birlikdə ifa qaydalarını yerinə yetirən, yoldaşlıq etməyi bacaran Aydın üçün bunlar bir növ sənət məktəbi idi. Aydının fikirlərindən: «Adil Dadaşovu həmişə hörmətlə yad edirəm. Mənim musiqiçi kimi yetişməyimdə, sınaqdan çıxmağımda bu sadə qəlbli, zarafatçıl, mehriban və qayğıkeş insanın böyük rolu olub».

Aydın Bədəlbəyli 1979-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna (hazırda Mədəniyyət və İncəsənət Universiteti) daxil olub. İnstitutun rektoru Rahib Hüseynov həmin il həbs olunub. Qarışıqlıq ərəfəsində bəzi tələbələr, bu sırada Aydın Bədəlbəyli ali təhsil ocağından xaric olunub. O, 1980-82-ci illərdə Ukraynanın Zaporojye şəhəri ətrafında məxfi raket hərbi hissəsində xidmət edib. Əsgərlikdən vətənə qayıdaraq Binə qəsəbəsindəki 24 saylı uşaq musiqi məktəbinin qarmon sinifində pedaqoji fəaliyyətə başlayıb və burada 13 il çalışıb. Yetirmələri çox olub. Onların hamısı bu sahədə çalışmasalar da, bəziləri musiqiyə könül veriblər. Ellaza Atakişiyeva və Mahir Babayev bitirdikləri məktəbin qarmon sinifində dərs deyirlər.

Xalq artisti, xanəndə Əlibaba Məmmədovun Azərbaycan Dövlət Qastrol-Konsert birliyində rəhbərlik etdiyi «Humayun» x.ç.a. ansamblının qarmon ifaçısı 1983-cü ildən 1985-ci ilə qədər Aydın Bədəlbəyli olmuşdur. Dövlət Filarmoniyasında, Respublika sarayında, ali təhsil ocaqlarında, rayonlarımızda verilən konsertlərdə ansambl müğənnilərdən Əlibaba Məmmədov, Təhmuraz Şirinov, Səxavət Məmmədov, Alim Qasımov, Zümrüd Məmmədova və başqalarını müşayiət etmişdir. Bütün bunlar Aydının peşəkar sənətdə qol-qanad açmasına, yüksəlməsinə şərait yaratmışdır.

Aydın 24 saylı UMM-də onunla birlikdə çalışan mahir qarmon ifaçısı Manaf Rzanın vasitəsilə usta Vasilidən sənətkar qarmonu alıb. Bu çox uğurlu alət çıxıb. Sənətkar hazırda da həmin qarmonda çalır. Yeri gəlmişkən qeyd edək ki, Manaf Rza ilə Aydını səmimi, qırılmaz dostluq telləri birləşdirir. Elə bu oçerkin müsahibəsini almaq üçün şərait yaradıb bizi Aydın Bədəlbəyli ilə görüşdürən Manaf Rza oldu.

Aydının xatirələrindən: «Əsgərlikdən gələndən sonra sənətimi daha da mükəmməlləşdirim deyə, buzovnalı Xanlar Məlikovdan az zaman ərzində olsa da dərs aldım. Xanlar müəllimdən muğamları, qədim rəqs havalarını öyrəndim. O, yaşa dolmuşdu, ifaçılıqla məşğul olmurdu, qarmonların təmiri və düzəldilməsi işində çalışırdı. Ustadım mənə bu işləri də öyrədirdi. Demək olar ki, təmir işlərinin bəzilərini öyrənmişdim. O, alətlərini də mənə bağışlamışdı. Ömrü bəs etmədi, yoxsa mənə çox şey öyrədəcəkdi. Xanlar müəllimin mənə bağışladığı təmir alətlərini mən Azər İbrahimova verdim».

Əsgərlik illərindən sonra Aydın gənclik eşqilə sənətdə irəliləyirdi. Onun sənət dairəsi də xeyli



Tədbirdə. Sağdan: akademik Ziyad Səmədzadə, Aydın Bədəlbəyli və Dilavər Məmmədov

genişlənmişdi, neçə-neçə klarnetçalanlarla toy şənliklərinə gedirdi. Bu sırada klarnet ifaçılarından Nurulla və Ramiz Bədəlovlar, Seymur Ramazanov, Vaqif Məmmədov, Elşad Cabbarov, maştağalı Sərdar və Ağəli Əliyevin adlarını çəkirik.

Aydın Bədəlbəyli 1994-cü ildən Buzovnadakı 4 saylı işaq incəsənət məktəbində (əvvəlki 19 saylı musiqi məktəbi) qarmon ixtisası üzrə dərs deyir. İstedadlı tələbələrindən Elnur Muradov, Elçin Mehdiyev və Ədalət musiqi ilə məşğul olurlar. Elnur, Elçin və Cahangir Milli Konservatoriya tərkibində Musiqi Kollecinin qarmon sinifində təhsil almışlar. Ədalət Bakı Musiqi Akademiyasının vokal sinfini bitirmişdir, hazırda müğənni kimi fəaliyyət göstərir. Təbii ki, bağban öz ağaclarının barını görüb sevindiyi kimi, Aydın müəllim də istedadlı tələblərilə fərəh duyur.

Musiqi sevmək və sevdirmək vasitəsidir. Musiqimizə ömr həsr edən Aydın öz sənətilə neçə-neçə insanlara sənət sevgisi, ömür şirinliyi və mənəvi hisslər bəxş edib. Bundan əlavə bu hissləri öz yetirmələrinə də aşılayaraq onlara da musiqini sevməyi öyrədib.

Yazı müəllifi kimi qeyd edirəm ki, Aydın Bədəlbəyli ilə bir neçə toy şənliyində birgə çalışmışam. Onların dəstəsinin çaldığı toyu idarə etmişəm. Aydın müəllimdən mehribanlıq görmüşəm. Bu sadədil insan söhbətcildir, açıqürəklidir və səmimidir.

Müəlimlik insan böyüklüyünün zirvəsidir – müridliyin mürşidliyidir, şəyirdliyin ustadlığıdır, sarvanlığın sarbanlığıdır. Musiqi təhsilində, qarmon tədrisində çalışan müəllimlərimiz də bu yolun saribanıdırlar. Elə oçerkimizin qəhrəmanı Aydın Bədəlbəyli bundan sonra da neçə şagirdin ustadı, qarmon sənəti yoluna çıxan yetirmələrinin həqiqi saribanı olacaq. Biz də arzu-istək bolluğu ilə xeyir-dua verək!

Aydın Bədəlbəyli 1985-ci ildə ailə qurub. Toyunun qarmon ifaçısı, sadiq dostu Manaf Rza olub.

Aydının ailəsində iki qız boy atıb. Bir nəvəsi var. Nailə Aydın qızı Bədəlbəyli Milli Konservatoriya nəzdində Musiqi Kollecinin nəzəriyyə şöbəsini bitirib. 4 saylı uşaq incəsənət məktəbində dərs deyir.

Əzizə Aydın qızı Cavadova 4 saylı uşaq incəsənət məktəbinin fortepiano sinfini bitirib. Başqa sahəyə üz tutub. Tibb Kollecini başa vurub. O sahədə çalışır.



15.04.2012-ci il. Sağdan: Aydın Bədəlbəyli, klarnet ifaçısı Yavər və qrup üzvləri.

2.81. İLQAR KƏRİMOV



İlqar Kərimov

Alətşünas alim, musiqi mədəniyyətimizə dair kitablar müəllifi, Milli Konservatoriyanın müəllimi, sənətşünaslıq doktoru Abbasqulu Nəcəfzadənin dilindən dəfələrlə İlqar müəllimin yaxşı musiqiçi, yaradıcı şəxs və gözəl insan olması barədə eşitmişəm.

İlqar Abdulkərim oğlu Kərimov 1960-cı il avqustun 21-də Şəki şəhərində anadan olub. Abdulkərimin babası Əkbər Ağa XIX əsrin ikinci yarısı və XX əsrin birinci yarısında Şəkidə ipək fabrikinin sahibi idi. Həmin fabrikin istehsalı çox yerə, o cümlədən xarici ölkələrə gedirdi. Əkbər Ağa böyük nüfuz sahibi olaraq geniş xeyriyyəçilik fəaliyyətilə də tanınırdı.

İlqarın anası Rəfiqə Məmməd-Sadıq qızı Kərimova 1968-2000-ci illərdə Şəki Mədəniyyət Şöbəsinin «Gənclər klubu»nun müdiri vəzifəsində çalışıb. Bu işgüzar qadın işlədiyi yerlərdə xeyli səmərəli işlər görüb. O, «Gənclər klubu»nda ilk əvvəllər musiqi dərnəkləri açmışdı. Uzun illər ərzində bu dərnəklərdə böyük musiqiçilər yetişib. R.Kərimova 2000-2008-ci illərdə «Şəki ziyalılar evi»nin direktoru olub. Xidmətləri nəzərə alınaraq Rəfiqə xanım Kərimovaya əməkdar mədəniyyət işçisi fəxri adı veriləcəkdi, lakin, 2008-ci ildə o, dünyasını dəyişdi.

Dünyaya istedadla gələn İlqar 7 yaşı olarkən valideynlərinə qarmon çalmaq həvəsində olduğunu bildirib. Onun təkidi qəbul olunub və ona qarmon alınıb. Qarmona çətinliklə gücü çatan 7 yaşlı uşaq az vaxtda xeyli göstərici əldə etmişdi. Belə ki, o, müəllimdən dərs almadan xalq mahnılarını və rəqs havalarını sərbəst olaraq özü öyrənib çalmağa başlamışdı. Onun bacarığını nəzərə alıb musiqi dərnəklərinə getməsinə icazə vermişdilər. Burada onun müəllimləri Nurəddin Bədəlov və Vaqif Mustafayev olmuşdu.

İlqar Kərimov 1967-75-ci illərdə Şəki şəhərindəki 2 saylı məktəbdə natamam orta təhsilə yiyələnib. Həmin məktəbi fərqlənmə (qırmızı şəhadətnamə) ilə bitirib.

Musiqi dərnəyində İlqar öz həvəsi və istedadı ilə yoldaşlarından fərqləndiyi üçün müəllimlərinin diqqətində idi. 1970-ci ildə 10 yaşında ikən rayon səviyyəsində keçirilən rəsmi tədbirdən sonra verilən konsertdə ilk dəfə çıxış edərək hamının sevimlisinə çevrilmişdi. Rayon musiqi ictimaiyyəti də artıq onunla maraqlanırdı. 12 yaşında olarkən İlqarı tez-tez Bərdə şəhərinə toylara aparıb bu bacarıqlı uşağın ifalarına böyük maraq göstərirdilər. 1974-cü ildə, 14 yaşında ikən artıq peşəkar musiqiçilərlə birlikdə ansambllarda çalır, onlara qoşulub konsertlərə, toylara gedir, məharət göstərərək tanınır və rəğbət qazanırdı. O, tədricən muğamlara da bələd olurdu. Musiqi dərnəklərində ona öyrədilən muğamlarla kifayətlənmir, qrammafon vallarını, audio kassetləri, radio konsertlərini dinləyirdi. Hər bazar günü saat 14.00-da Azərbaycan radiosunun birinci proqramıyla verilən muğamat konsertinə həvəslə qulaq asırdı. İlqar 16 yaşından ətraf rayonlara da toylara gedirdi.

İlqar 1975-78-ci illərdə Şəkidəki 43 saylı texniki-peşə məktəbində təhsil alarkən burada ansambl yaratmış və ona bacarıqla rəhbərlik etmişdi. Həmin illərdə onun təşkilatçılıq və yaradıcılıq qabiliyyəti də özünü biruzə vermişdi. O, artıq Şəkidə özünü yaxşı musiqiçi və qarmonçalan kimi təsdiq etmişdi. İlqar texniki peşə məktəbini də fərqlənmə diplomu ilə bitirib.

Az.TV-nin «Biz romantiklərik» adlanan verilişində İlqar Kərimovun texniki-peşə məktəbindəki ansamblı dəfələrlə qonaq olmuş, maraqlı proqramla çıxış etmiş və geniş tamaşaçı auditoriyasının diqqətini özünə cəlb etmişdi. O, Şəkinin «Səbuhi» ansamblı ilə, həm də tək solo ifaçı kimi rayon tədbirlərində çıxış edirdi.

İlqar Kərimov 1979-84-cü illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda təhsil alıb. O, təhsil illərində institutun x.ç.a. ansamblının fəal üzvü olmuş, məşqlərdə fəallıq göstərmiş, konsertlərdə, bütün tədbirlərdə çıxış edərək bir qarmon ifaçısı kimi öz ustalığını artırmışdır. Ansamblın rəhbəri Abbasqulu Nəcəfzadə ilə onun arasında dostluq yaranmışdır ki, həmin münasibət bu gün də davam edir. Təhsil illərində o, Abbasqulu müəllimlə el şənliklərinə də gedirdi. İnşaat Mühəndisləri İnstitutunun ansamblında, 1983-cü ildə Əliikram Quluyev rəhbər olmuşdu. İlqarın qarmon ifası Əliikramın xoşuna gəlmiş və onunla yaradıcılıq əlaqələri qurmuşdu. Həmin illərdə və sonralar onlar birlikdə xeyli toylarda çalmışdılar. Əlaqələr, bir-birlərinə olan inam, etiqad onların arasında dostluq yaradıb. Yaşa dolduqca bu dostluq daha da möhkəmlənir.

1978-ci ildən başlayaraq İlqar müxtəlif ansambllarda çıxış etmişdir. O, Azərbaycan Konsert Birliyinin «Azərbaycan tərənələri» x.ç.a. ansamblında, İnşaat Mühəndisləri İnstitutunun «Ozan» estrada qrupunda çalırdı. İ.Əbilov adına mədəniyyət evinin «Könül» rəqs ansamblının müşayiətçisi olması da onun inkişafına kömək etmişdi. İlqar Kərimovun ən geniş fəaliyyəti B.Mahmudoğlunun rəhbəri olduğu «Dastan» folklor ansamblı və A.Nəcəfzadənin rəhbərlik etdiyi «Günaydın» instrumental ansamblı ilə olub. Radioya lentlərin yazılması, televiziyadakı çıxışlar, Dövlət Filarmoniyasında, Respublika sarayındakı konsertlər və rayonlardakı tədbirlər İlqarın musiqiçi kimi formalaşmasında və tanınıb rəğbət qazanmasında mühüm əhəmiyyət kəsb edirdi.

İlqar dəfələrlə dövlət tədbirlərində və bölgələrimizdə məşhur ifaçılarımızla birlikdə çıxış etmişdir. O, keçmiş SSRİ-nin müxtəlif şəhərlərində və xarici ölkələrdə milli musiqimizi ləyaqətlə təmsil edə bilmişdir.

İlqar Kərimov Şəkidə yaşadığı illərdə mahir zurna ifaçısı şəkili Əliəfsərlə də toy şənliklərində çıxış etmişdir. Ustad Əliəfsər İlqarın qarmon ifasını bəyənirdi.

A.Nəcəfzadənin rəhbərliyilə bir zamanlar fəaliyyət göstərən və populyar olan «Meyxana» ansamblında 1976-78-ci illərdə İlqar da çalışıb. Meyxana ustası Nizami Rəmzinin və «Meyxana» ansamblının Respublika sarayındakı ilk konsertində ansamblın qarmonçalanı İlqar Kərimov olmuşdu.

İlqar məşhur usta Saşa Zverevlə söhbət apararaq ona qarmon sifariş vermiş, ¼ tonlar əlavə olunmuş alət düzəltdirmişdir. Təbii ki, bu işlə əlaqədar qarmonun qrifində də dəyişiklik edilmiş, dillər (klavişlər) əlavə olunmuşdur. O, özünə və pərəstişkarlarına çox sevimli olan bu qarmonla ərəb, fars, türk və Şərq xalqlarının musiqi nümunələrini incəliklərinə qədər çala bilir. Bəzi musiqiçilər qarmona gətirilmiş bu səs sistemini bəyənmir və ya qəbul etmək istəmirlər. Lakin bütünlükdə götürdükdə həmin pərdələr (səslər) bizim qədim musiqimizdə ol-



İlqar Kərimov gənclik illərində



1989-cu il. Abbasqulu Nəcəfzadə, Bolqarıstandan türk klarnetçi və İlqar Kərimov



May 1990-cı il. Türkiyənin Ankara şəhəri. Soldan ikinci: tarzən Abdulla Qurbani, İlqar Kərimov, müğənni Səyyad Əlizadə və türk vətəndaşı Gənccahan

muşdur. Lazım gələn, tələb olunan anlarda ¼ tonlardan istifadə musiqini bayağılaşdırmır, əksinə gözəlləşdirir və emosional gücünü artırır.

İlqarın xatirələrindən: «1990-cı ildə Türkiyəyə səfər etdik. Heyətimizdə Abbasqulu, İlham və Məhərrəm Nəcəfov qardaşları, nağaraçalan Cavanşir, müğənnilər Elçin Cəlilov və Səyyad Əlizadə də var idi. Ankara şəhərinin «Atatürk stadionu»nda konsertlərimiz oldu. Azərbaycan xalq musiqisi və bəstəkar əsərlərindən əlavə, proqrama qardaş türk xalq musiqisindən «türkü»lərin bəzilərini əlavə etmişdik. Bunları qarmonda ifa edərkən stadionda alqışlar kəsilmirdi. Bakıdan İrana, oradan da Türkiyəyə köçən tanınmış tarzən Abdulla Qurbani və türk musiqiçiləri konsertdən sonra hotelə, otağımıza gəldilər. Mənim ¼ tonlu qarmonumla maraqlanırdılar. Onların xahişilə qarmonu çalırdım. Qarmonda ifa olunan «türkü»lər onlarda xüsusi maraq oyatmışdı. Musiqiçilər deyirdilər ki, Azərbaycandan bizə gətirilən qarmonların heç birisi belə deyil, həm də akkordeonlarda belə pərdələr yoxdur. Mən izah edirdim ki, bu qarmonu xüsusi sifarişlə düzəltdirmişəm.

Abdulla Qurbani çox xahiş edirdi ki, bu qarmonu ona satım. Deyirdi ki, sənin qarmonun Türkiyədə çox xoşa gəlib, bu alətdən türk ansambllarında istifadə edəcəyik. Türk musiqiçiləri böyük məbləğdə pul təklif etsələr də, bahalı, komfort maşınla qarmonu dəyişmək istədiklərini bildirsələr də təbii ki, mən razılıq vermədim. Türkiyənin «Raks» firmasının əməkdaşları hotelə gəlib mənimlə söhbət apardılar. Təklif belə oldu ki, qarmonda türküləri ifa edim, disklərə yazıb satışa buraxsınlar. Bu isə baş tutan iş deyildi. Azərbaycanda 1990-cı ildə hələ Sovet qanunları mövcud idi. Ölkəmiz müstəqillik qazanmamışdı. SSRİ hələ dağılmamışdı. Bizim səfər heyətimizin tərkibində DTK nümayəndəsi və digər məsul şəxslər vardı. İcazəsiz bir addım da atmaq olmazdı». Söhbətin bu yerində mən İlqar bəyə sual verdim: «Siz türküləri haxaxt və kimdən öyrənmisiniz?» Cavab belə oldu: «Uşaqlıq illərində Türkiyə radioları ilə verilən konsertləri çox dinləmişəm. Elə bu havaları da o zaman öyrənmişəm. Həmin musiqilər o çağlardan hafizəmə həkk olunub».

İlqar 1992-ci ildə də Türkiyənin ən möhtəşəm şəhərlərində konsert səfərlərində olub. O, sevimli qarmonu ilə yenə də türk tamaşaçılarının könüllərini fəth edib.

Bakı mühitində, musiqi aləmində çalışdığı anlardan İlqar Kərimov məşhur müğənniləri, o sıradan Baba Mahmudoğlu, Gülağa Məmmədov, Teymur Mustafayev, İlhamə Quluyeva, Səfa Qəhrəmanov və Qəndab Quluyevanı müşayiət etmişdir.

«Azərbaycanfilm» kinostudiyasının Rövşən Ağayevin ssenarisi əsasında çəkdiyi «Lətifə» filmində (rejissor Nizami Musayev, bəstəkar Cavanşir Quluyev) səslənən qarmon ifaları İlqar Kərimova məxsusdur.

Demək lazımdır ki, İlqar Kərimovun bütün sənət fəaliyyəti qarmon ifaçılığı sənətinin daha da təşəkkül tapmasına və inkişafına xidmət edir.

Mən İlqar bəylə söhbət edərkən ondan maraqlı fikirlər aldım. Xalq musiqimizin qarmonda səslənməsi və qədim oyun havalarının bu alət üçün işlənib hazırlanması barədə mülahizələri və tutarlı izahları məni qane etdi. O, unudulmuş xalq havalarını axtarış apararaq tapmış, yaşayış məskənlərinin adıyla adlanan «Sarıbaş», «Balakən» və «Şəki» rəqslərini lentlərə yazdıraraq radionun fonetekasına vermişdir. Hazırda qədim xalq havaları üzərində tədqiqatlarını davam etdirir, tapdıqlarını isə qarmona gətirərək məşqlərini aparır. Onu da qeyd edək ki, o, 10-a yaxın lirik melodiyaları ifa edərək radioya təqdim edib.

İlqar Kərimov məsul vəzifədə çalışır. 1989-cu ildən "Azərkinovideo" istehsalat Birliyi Təmir-Tikinti Trestinin müdiri işləyir. Hazırda həmin idarə Mədəniyyət və Turizm Nazirliyinin Təmir-Tikinti Trestidir. İlqar müəllim həm də iş adamıdır. Özünün şirkəti var. O, «İfan» şirkətinin prezidentidir.

İlqar Kərimov 1984-cü ildə ailə qurub. 2 övladı var.

2.82. ASLAN ASLANOV



Aslan Aslanov

Onun barəsində də fərəh duyulan sözlərlə yazmaq istəyirəm. Çünki, o, buna layiqdir. Axı bu ifaçı mənim fərəhduyucu yetirmələrimdəndir. Düzdür mən ona çox yox, cəmi bir il dərs demişəm. Lakin bu az zamanda o mənim qəlbimdə qalmış, mən də onun ürəyində özümə hücrə qura bilmişəm. 1970-1971-ci tədris ilində Bakının Montin qəsəbəsindəki 8 saylı uşaq musiqi məktəbində (hazırda Q.Qarayev adına) çalışarkən sevimli, çalışqan və sənət həvəsli şagirdlərimdən biri Aslan olub. O, sakit təbiətli, arıq uşaq idi. Dərslərə atası və yaxud da anası gətirirdi. Valideynlər həmişə soruşurdular: «Aslan necədir, dəsrlərə lazımınca hazırlaşa bilir, çalğısı sizi qane edir?» Mən də həmişə ümid hissi yaradan cavablar verirdim.

Aslan Əsədullah oğlu Aslanov 1961-ci il avqust ayının 20-də Bakıda həyata gəlib. Dörd qızın tək qardaşı Aslan ailənin ilk övladı olub. Əsədullah qəzəliyyatı və musiqini sevən bir insandır. Ailə yığıncaqlarında, dost-tanışlarla olan qonaqlıqlarda, qohumların şad günlərində qəzəllərimizdən nümunələr söyləyərək yığıncaqları daha məzmunlu edirdi. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, tanımlı xanəndə Hüsnü Qubadov qonşu binada ikinci mərtəbədə yaşayırdı. Əksər hallarda eyvanda əyləşib nərd oynayardı. Əsədullahı görcək salamlaşıb, hal-əhval tutar, mikrofonu aşağı sallayıb səslənərdi: «Qardaş, otağın içində səsgücləndirici aparatlar quraşdırılıb, «exo» da verilib. Bir-iki qəzəl de, könlümüz açılsın». Əsədullah da ən mehriban və yaxın qonşularından biri olan Hüsnü kişinin sözünü yerə salmaz, onun ruhuna yaxın qəzəlləri dilə gətirər, sonra öz iş-gücü ardınca gedərdi.

Qeyd etməliyik ki, Hüsnü Qubadovun oğulları musiqiçi idilər. Evdə müntəzəm məşq edirdilər. Odur ki, səsgücləndirici aparat həmişə quraşdırılmış halda olurdu.

Əsədullah Aslanov qəlbinin fərəhi, ürəyinin təpəri olan oğlunu musiqiçi görmək istəyirdi.

Aslan 1968-1978-ci illərdə 82 saylı orta ümumtəhsil məktəbdə təhsil alıb. 1970-1975-ci illərdə 8 saylı uşaq musiqi məktəbinin qarmon sinfində oxuyub. İxtisas üzrə müəllimləri 1-ci, 2-ci siniflərdə Aydın Cananov, Əhsən Rəhmanlı, qalan üç ildə isə Zakir Muradov olub. Aslan imtahanlarda həmişə yaxşı göstəricilərlə seçilir, konsert proqramlarında yaxşı sololar təqdim edirdi. O, 1974-cü ildən orta təhsil ocağının özfəaliyyət ansamblında da çalırdı. Onun ifası tədricən öz yerini alır, sənət həvəsi də çoxalırdı.

1976-cı ildə T.Bəhramov adına stadionda məktəblərarası mahnı bayramı keçirilirdi. Nərimanov rayonunun məktəblərindən istedadlı uşaqları seçərək bu rayonun uşaq yaradıcılıq mərkəzində yaxşı ansambl yaratmışdılar. Ansamblın tərkibində qarmonçalan A.Aslanov da var idi. Müntəzəm məşqlər öz nəticəsini vermişdi. Ansamblın çıxışı mahnı bayramında böyük marağa səbəb olmuşdu.

Aslan artıq ifaçılıq sənətinə daxil olmuşdu. Özünü bu işdə hiss etməyə başlamışdı. Radiodan

Teyyub Dəmirovun, Məmmədağa Ağayevin, Abbas Abbasovun ifalarını eşidərək klassik qarmon çalğımızın mühüm cəhətlərini mənimsəyirdi. Zakir Mirzənin və Avtandil İsrafilovun radioda, televiziyada konsertlərini izləmək, ifalarını dinləmək onu qarmon sənətinə daha çox bağlayır və fasiləsiz irəliləməsini təmin edirdi. Özünün dediklərindən məlum olur ki, ən çox Zakir sənətinin vurğunu olub.

Atasının arzusu və tövsiyəsi, bir də Aslanın öz qətiyyətli fikri onu 1978-ci ildə Bakı Mədəni-Maarif Texnikumunun x.ç.a. orkestri rəhbəri şöbəsinə gətirdi. Uğurla imtahan verib bura qəbul olundu. 1979-cu il noyabr ayında əsgər çağrıldı. 3 ay Zakarpatye vilayətində xidmət etdikdən sonra Azərbaycana göndərildi və Sumqayıtdakı hərbi hissənin əsgəri oldu. Hərbi xidməti başa vurub təhsilə qayıtdı və 1982-ci ildə texnikumu bitirdi.

Aslanın xatırlamalarından: «1978-ci ildən şadyana məclislərdə çalmağa başladım. İlk toya qonşumuz, atamın dostu, xanəndə Hüsnü Qubadovla getmişəm. Opera Teatrında Hüsnü əminin tərəf-müqabillərindən biri olan xanəndə Gülbala Əliyev də məni toy şənliklərinə aparıb. Müğənni Dünyamalı Saraclı ilə də olurdum. Hətta Borçalıya, Dünyamalının doğma kəndi Saraclıya da gedib çıxmışıq. Klarnetçi Akif Qürbətov idi. Montində qonşu məhəllədə klarnetçalan Soltan var idi, onunla da, onun oğlu Samirlə də toy-nişana gedirdim. O dövrdəki məclislər mənə o qədər maraqlı gəlirdi ki...

Uşaqlıqda klarnetçalan Seyidəli Məmmədov, nağaraçı Həmid Hüseynovla evdə, hər dəfə 2-3 saat məşq edirdik. O qədər həvəsimiz var idi ki, yorğunluq hiss etmirdik. Sonralar isə Həmidi Çingiz Abusəlimov əvəz etdi».

Texnikumun sonuncu kursunda oxuyarkən Aslan 12 saylı uşaq musiqi məktəbinin qarmon sinfində dərs deyirdi. Burada 1 il çalışdıqdan sonra hazırkı Xətai rayon ərazisindəki mədəniyyət sarayında şagirdlərdən ibarət qarmonçalanlar ansamblına rəhbərlik etmişdir.

Xarici Dillər İnstitutunun «Şəlalə» x.ç.a. ansamblında çalması Aslanın geniş musiqi aləmində tanınmasına şərait yaratmışdı. Ansambl rəhbəri tarzən və nağara ifaçısı Şahvələd Qürbətov idi. Aslan bu ansamblda maaşla 3 il çalışmışdı. Müğənni Elxan Şirinov bu ansamblın solistlərindən biri idi. «Şəlalə» x.ç.a. ansamblı Respublika komsomol komitəsinin xəttilə keçmiş SSRİ dövlətinin müxtəlif şəhərlərinə konsertlərə göndərilirdi. Ansambl gənclər festivallarında çıxışlar edərək diplomlar, mükafatlar alıb.

Aslan Jiloy adasında, neftçilərin klubunda bölmə müdiri işləyib. «Qırmızı ulduz» elektrik şəbəkəsi zavodunun klubunda uşaq bölməsi şöbəsinin təlimatçısı vəzifəsində çalışıb. 2 ildən sonra isə burada qarmon sinfinin müəllimi kimi əmək fəaliyyətini davam etdirib. Sonralar isə 2002-ci ilə qədər «Vüsal» kiçik müəssisəsində musiqi rəhbəri işləyib.

A.Aslanov toy-büsatımızın əsas qarmonçalanlarından biri olmaqla bərabər dövlət təşkilatlarındakı işindən də ayrılmırdı. O, 2007-2009-cu illərdə Azərbaycan Dövlət Filarmoniyasında F.Əmirov adına Dövlət Mahnı Rəqs ansamblının qarmonçalanı olmuşdur.

«Şəlalə» x.ç.a. ansamblı fəaliyyət göstərdiyi dövrdə Respublika Sarayında bir-neçə dəfə «İstedadlar axtarırıq» adlı müsabiqələr keçirilmişdi. Bəzi müğənniləri müşayiət etmək «Şəlalə» ansamblına tapşırılmışdı. Bu sırada Raqub Tağıyev, Elşad Qarayev və başqaları var idi. Bu müğənnilərlə tanışlıq Aslanın toy fəaliyyətini daha da genişləndirmişdi. Həmin dövrdə Aslan gənc xanəndələr Qara Yaqub və Adil Bilasuvarlı ilə də çox yerlərə getmişdi.

Xarici Dillər İnstitutunda yaranan tanışlıq müğənni Elxan Şirinovla Aslan arasında mehriban münasibət qurmuşdu. O, E.Şirinovun rəhbərlik etdiyi «Durna teli» instrumental ansamblda 1995-ci ilə qədər geniş, səmərəli fəaliyyət göstərmiş və yaradıcılıq işlərilə məşğul olmuşdur. Bu ansambl öz ifasını diskə yazdırıb yayır, televiziyada, tədris və mədəniyyət müəssisələrində konsertlər verirdi. «Durna teli» Bakının və bölgələrimizin toy mərasimlərinə də dəvət olunur və geniş populyarlıq qazanırdı. 1991-ci ildə Türkiyənin Ankara şəhərində Azərbaycan mədəniyyəti günləri



Soğdan: Aslan Aslanov, Nazpəri Dostəliyeva və Elxan Şirinov

keçirilərkən ora vətənimizin xeyli musiqiçiləri getmişdi. Onların tərkibində Elxan Şirinov və onun qrupunda Aslan Aslanov var idi. Əfsus ki, Elxan Şirinovun ciddi xəstəliyə düçar olması «Durna teli»ni səhnədən çıxardı.

A.Aslanov müğənni Səyyad Əlizadənin rəhbəri olduğu «Bəyaz gecələr» instrumental ansamblda 2000-ci ilə qədər çalışmışdır.

2000-2005-ci illərdə Aslanın Moskva şəhərinə səfərləri olmuşdur. Onu orada çalışan musi-



Müğənni Səyyad Əlizadənin "Bəyaz gecələr" qrupu, qarmon ifaçısı Aslan Aslanov

qiçilərimiz dəvət etmişlər.

A.Aslanovun 2000-ci ildə diski çıxıb. Disk üçün «Segah təranələri»ni, T.Quliyevin «Qədəhlər» mahnısını, «Arzu», «Sülh», «Bakı» oyun havalarını, lirik melodiyaları ifa edib.

Onun da mayası qarmonla yoğrulub. Onu da qarmon sənətindən ayrı təsəvvür etmək olmaz. O, qarmon sənətinin gücünə həmişə inanıb, etibar və etiqad edib. Odur ki, musiqinin əbədi işığına üz tutub və həmişə ona doğru gedib.

2012-ci il sentyabr ayının 16-da saat 14^{00}-da Bakıxanov parkındakı çay evində üzbəüz əyləşib Aslandan müsahibə alarkən onun 1971-ci ildəki uşaqlıq görkəmi gözlərim qarşısında canlandı. Aradan düz 41 il keçib. Qarşımda 51 yaşlı müdrik kişi, xidmət etdiyim sənətin ön sıralarında dayana bilən bir insan əyləşib. Zaman öz hökmünü verib. İllər çox sürətlə ötüb keçib. Hamımız öz ömür və sənət taleyimizi yaşayaraq yaşa dolmuşuq. Bir zamanlar titrək, nazik barmaqlarını çaşqınlıqla «Kazan» qarmonun dilçəkləri izərində gəzdirərkən əlindən tutub istiqamət verdiyim şagirdim qarşımda əsl kişi görkəmindədir. Saçları ağappaq şəkil alaraq onun simasını daha da işıqlı edir. Çay stəkanına, qəndə uzatdığı əllərinə diqqət yetirirəm, bu artıq 41 il əvvəlki şagirdimin titrək barmaqları deyil, dünyanın çox çətinliklərinə dözə-dözə gəlmiş bir kişinin, sənətdə öz sözünü deyə bilmiş bir sənətkarın barmaqlarıdır.

Aslan Aslanov 1987-ci ildə ailə həyatına qovuşub. Bir oğul və bir qız böyüdüb. Hər ikisi ali təhsillidir.

2.83. XXI ƏSRDƏ DƏ MİLLİ QARMON İFAÇILIĞI ÜSLUBUNU QORUYUB SAXLAYIB



Şəmsəddin Ağamalıyev

Xalq musiqisinə yaxından bələd olan, ona bacarıqla xidmət edən, yorulmaz təbliğatçı vəzifəsini çiynində daşıyan sənətkarlarımız zəngin bədii irsimizi, çoxçalarlı musiqimizi, mənəvi dəyərlərimizi qoruyanlar və yaşadanlar sırasında duraraq ən şərəfli işə xidmət edirlər. Elə sənətçilərimiz vardır ki, ifaçılıq sənətimizə öz zəngin töhfələrini versə də, reklamdan, məşhurluqdan uzaq dayanıblar. Onlardan biri haqqında da söhbət açacağıq. O, xalq musiqiçiləri arasında ən mahir qarmon ifaçılarımızdan biri kimi qəbul olunur. Bu ifaçı özünü solist kimi təqdim etməyib. Lakin ən bacarıqlı müşayiətçi kimi hamımızın gözü qarşısında həqiqi sənət yolu keçib gələrək yüksəlib.

Obyektiv olmağı bacarmaq lazımdır. Obyektiv fikirlər söyləməyə çalışacağıq.

Etiraf edim ki, o, sənətkar kimi sevdiyim və bir insan kimi hörmət bəslədiyim simalardandır.

Şəmsəddin (Şəmsi) Oqtay oğlu Ağamalıyev 1961-ci il oktyabr ayının 25-də Bakıda anadan olub. Onların yaşadığı məhəllə Mirzə Fətəli küçəsinə aid idi. Təzə Pir məscidinin aşağı qapısı tərəfdə yerləşirdi. Şəmsi üçuşaqlı ailənin ikinci övladıdır.

Oqtay Əsəd oğlu Ağamalıyev başqa sahədə ça-

lışsa da musiqiyə xiridar, həm də istedadlı idi. Yaxşı rəqs etməyi, nağara və piano çalmağı vardı. Radio və televiziyadan müntəzəm olaraq xalq musiqisini dinləyib xüsusi zövq alardı. Evdə dincəldiyi vaxtlarda piano arxasına keçər və həvəslə xalq havalarımızı ifa edərdi. O, ailənin birinci övladı Fəxrəddin üçün qarmon almışdı. Fəxrəddin də istedadlı idi, pianoda çalırdı. Lakin qarmonda çalmaq ona çətin gəlirdi. Səbəb onun fiziki cəhətdən zəif olması idi. Qarmonun dillərini sərbəst işlədib musiqiləri yaratsa da körüyü çəkib geri qaytarmaq ona asan deyildi.

7-8 yaşlarında Şəmsi evdəki "Kazan" qarmona biganə qalmamış, sərbəst olaraq götürüb çalmağa başlamışdı. Xatırlayır ki, ilk öyrəndiyi mahnı, o illərdə tez-tez eşitdiyi, Zeynəb Xanlarovanın oxuduğu və toylarda çalınan "Tbilisi" mahnısı (bəstəkar Ə.Tağıyev) idi. Az sonra isə neçə-neçə mahnıları, xalq havalarını öz uşaq təxəyyülü ilə, yaşına uyğun səviyyədə öyrənmiş və sonsuz həvəslə çalmağa başlamışdı. Ailə üzvləri sevinirdilər. Bəs necə... Axı o, bacarıqlı idi, heç kəsdən təlimat almadan nə qədər mahnı öyrənmişdi. Ata Şəmsinin qabiliyyətini görüb onu məhəllədəki, Əliağa adlı qarmonçalanın yanına dərs almağa qoydu. O, musiqi məktəbinin qarmon sinfində dərs deyirdi. Şəmsi Əliağadan 2 ilə yaxın bir müddət ərzində, ev şəraitində dərs alaraq ifa qaydalarını öyrəndi. Əliağa müəllim Şəmsinin səviyyəsini görüb onun atasına uşağın musiqi məktəbində təhsil almasını tövsiyə etdi. Beləliklə Şəmsini 12 saylı uşaq musiqi məktəbinin qarmon sinfinə qoydular. O, 1972-1976-cı illərdə burada təhsil aldı. Musiqi məktəbində onun ixtisas müəllimləri Paşa, Qüdrət və Camal olmuşdur.

Şəmsi Ağamalıyev 1968-1978-ci illərdə Yasamal (əvvəl Oktyabr) rayonu ərazisindəki 199 saylı orta məktəbdə təhsil alıb. Onun xatirələrindən: "Atam Respublika Müəllimlər Evinin direktoru Tofiq Quluyevlə dost idi. Burada musiqi kursları, həmçinin qarmon sinifləri mövcud idi. Tofiq müəllimin məsləhətilə atam məni ora gətirdi. Burada Tofiq müəllimdən dərs alan, qarmon sinfində dərs deməyə başlayan Fuad Əliyevdən muğamları öyrəndim".

Şəmsi Ağamalıyev musiqi məktəbinin 2-ci sinfində oxuyarkən istedadlı uşaq kimi seçilərək AzTV-nin nəzdində fəaliyyət göstərən, məktəblilərdən ibarət "Qırmızı qərənfil" x.ç.a. ansamblına qəbul olunmuşdu. Ansamblın bədii rəhbəri Nazim Nağıyev uşaqlarla dəramədlər, rənglər və bəstəkar mahnılarını hazırlayırdı. Radio üçün lentlər yazılır, televiziyada canlı çıxışlar olurdu. Şəmsi bu kollektivin sevimli, bacarıqlı və ən uğurlu yetirmələrindən biri oldu. O, burada 4 il çıxış etmişdi.

Ş.Ağamalıyev oxuduğu ümumtəhsil məktəbin bədii özfəaliyyət kollektivinin də üzvü idi. Məktəb tədbirlərinin hamısında çalır, olimpiadalarda və müsabiqələrdə fəallıq göstərirdi. Məktəbdə musiqi və nəğmədən dərs deyən Vaqif müəllim ansambla rəhbərlik edirdi.

Bir zamanlar Bakının "Azneft meydanı" adlanan məkanında Tibb İşçiləri mədəniyyət evi yerləşirdi. Burada məşhur "Səadət"özfəaliyyət x.ç.a. ansamblı fəaliyyətdə idi. Bu kollektivdən xeyli sayda musiqiçilər və müğənnilər yetişərək peşəkar sənətə gəliblər. Ansamblın rəhbəri tarzən-pedaqoq Ağasaleh Abbasəliyev (1931-1991), konsertmeyster onun oğlu Ağacəbrayıl Abbasəliyev idi. Şəmsi "Qırmızı qərənfil" ansamblındakı fəaliyyətindən sonra "Səadət" ansamblına gəlmişdi. O, 1978-ci ilə qədər bu ansamblda çıxış etmişdi. Həmin vaxtlar bu kollektivə musiqi tədrisi müəssisələrində təhsil alan istedadlı gənclər toplanmışdı. Bu sırada fortepiano ifaçıları Həsənağa Qurbanovu və Malik Paşayevi, klarnetçalanlar Şərbət Rzaquluyevi, Samiri və qobulu Həsənağanı, tarzənlər Fikrəti (haz. Lənkəran Musiqi Kollecinin direktoru) və Aydın İbrahimxəlilovu (haz. Şəki Mədəniyyət və Turizm şöbəsinin müdiri), zərbçalan Mirzəli Abbasəliyevi və b. misal göstərə bilərik. Ansambl konsertlərdə və müsabiqələrdə yüksək səviyyəli çıxışlarla fərqlənirdi. "Səadət" x.ç.a. ansamblı bütün baxış-müsabiqələrdə birincilik qazanırdı. Şəmsi bu ansamblda olmasından xeyli məmnun olmuş, sənət yetkinliyi artmış, ansambl müsiqiçisi kimi də iri addımlarla qabağa getmişdi. O, artıq peşəkar sənətə qovuşurdu.

Sənətkarın xatirələrindən: "Müğənni Mais Məmmədov (1939-1998) bizim məhəllədə, bir həyətdə yaşayırdı. O, məni özüylə toylara aparırdı. Hələ uşaqlıq yaşlarımı tamam etməmiş onunla neçə-neçə şadlıq mərasimlərində, toy-büsatda olmuşdum. 1977-ci ildə məşhur müğənni İslam Rzayev (1934-2008) instrumental ansambl yaratmışdı. Ora xeyli musiqiçilər cəlb edilmişdi. Mənim də ki, həvəsim aşıb-daşırdı. Peşəkar ansambllarda çalışmaq istəyirdim. Mais Məmmədov məni İslam müəllimin yanına gətirdi. Bu ansambl Azərbaycan Qastrol və Konsert Birliyinin tərkibinə daxil edilmişdi. Orada geniş şərait olmadığına görə məşqlər Dövlət Filarmoniyasında keçirilirdi. İnstrumental ansambl olduğu üçün ilk əvvəllər bura qarmon ifaçısı götürmürdülər. Odur ki, 1 il faemi çaldım.



İslam Rzayevin rəhbərlik etdiyi instrumental ansamblının konserti. Ondə müğənni Mais Məmmədov, qarmon ifaçısı Şəmsi Ağamalıyev

1978-cu ildə Zaqatala rayonuna konsertə getdik. İslam müəllimin icazəsilə qarmonumu da özümlə götürdüm. Əvvəldəm düşündüyümüz düz şıxdı. Rayon ərazisində konsert verdiyimiz bəzi yerlərdə elektrik cərəyanı olmurdu. Səsgücləndirici aparatları işlədə bilmədiyimiz üçün faemini, elektro gitaranı ifa etmək mümkün deyildi. Belə olduqda qarmonumu çalırdım. İslam müəllim dedi ki, sən nə ağıllı oğlansan, əvvəldən bilirdin ki, qarmonu da götürmək lazımdır.

Konsertdə qarmon çalmağım onun xoşuna gəldi və dedi ki, bundan sonra ansamblın faemi çalanı yox, qarmonçalanısan".

Oxucu nəzərinə çatdıraq ki, İ.Rzayevin rəhbərlik etdiyi instrumental ansamblın fəaliyyəti geniş, çoxşaxəli olduğu qədər də əhatəli və dəyərli idi. Müğənniləri müşayiət edərək radio fonduna mahnılar yazılır, televiziyada tez-tez konsertlər verilir və rayonlara səfərlər olurdu. Neçə illər ərzində bu ansamblda müxtəlif musiqiçilər yetişmişdir. O illərdə heyət üzvləri arasında dəyişiklik olsa da Şəmsi Ağamalıyev əsas və davamiyyətli ifaçılardan biri olmuşdur.

Ansambl yaranarkən Qurbani qardaşlarından Abdulla tar, Möhsüm kamança, Yadulla isə akkordeon, Elşən Qasımov və Pövşən Aslanov nağara, Mirzəli Abbasəliyev və Fərhad Rəhimov

zərb, Natiq Nuruyev skripka, Kazım gitara, Vilayət Bərini banco (sonralar gitara), Əlikram Quluyev və Məhəmməd Hüseynov klarnet, İsmayıl Əliyev fortepiano, Eldar akkordeon, Aydın İbrahimxəlilov bas tar çalırdı. Sonralar tarzən Firuz Əliyev (haz. x.a.), kaman ifaçısı Munis Şərifov (haz. ə.a.), nağaraçalan Əli Rzayev ansamblın daimi üzvü oldular. Ansambl çox müğənilərlə işləyirdi. Bu sırada İslam Rzayevin özünün, Qulu Əsgərov, Elmira Rəhimova, Zaur Rzayev, Mais Məmmədov, Zöhrə Abdullayeva, Mais Salmanov, Qədir Məmmədov, Ağadadaş Ağayev, Baloğlan Əşrəfov, Yusif Mustafayev, Həbib Rəhimov, Məhəbbət Kazımov, Səbinə İlyasova, Fərman Cəfərov, Gülnarə Mahmudova, Azad Zamanov və Zahidə Məmmədsalahovanın adlarını qeyd etməliyik.

İ.Rzayevin rəhbərlik etdiyi ansambl hər yay Şuşada keçirilən Azərbaycan musiqi günlərinə göndərilirdi. Cıdır düzündə keçirilən təntənəli mərasimdə Azərbaycan Dövlət simfonik orkestri SSRİ xalq artisti, maestro Niyazinin dirijorluğu ilə çıxış edirdi. İslam müəllimin instrumental ansamblı bu möhtəşəm tədbirdən sonra Şuşaətrafı rayonların hamısında konsertlər verirdi.

Şəmsəddin Ağamalıyevin xarici ölkələrə ilk səfəri 1983-ci ildə çox uğurlu olub. O zaman Azərbaycan Dövlətinin rəhbəri Heydər Əliyevin təşəbbüsü və bilavasitə təşkilatçılığı ilə Azərbaycan gəmisi vasitəsilə sənət ustalarımız 6 ölkəyə: Yunanıstan, İspaniya, Malta, Fransa, İtaliya və Türkiyəyə olduqca maraqlı səfər etmişdi. Bu səfərə yığma heyət getmişdi. Tarzənlər Həbib Bayramov, Adil Bağırov, kamançaçalan Fəxrəddin Dadaşov, nağaraçalan Böyükağa Muradov, zərbçalan Mirzəli Abbasəliyev, nəfəs alətləri ifaçısı Elşad Cabbarov, qarmon ifaçıları Cavanşir Məmmədov, Şəmsi Ağamalıyev və Yusif Ağayev musiqiçilər heyətinin üzvləri idilər. SSRİ xalq artisti Lütfiyar İmanov, əməkdar artist Xuraman Qasımova (sonralar x.a.), Akif İslamzadə say-seçmə musiqiçilərimizin müşayiətilə oxuyaraq Azərbaycan vokal sənətini xarici ölkələrin tamaşaçılarına layiqincə təqdim edərək sevdirmişdilər. Qarmonçu Yusif Ağayev rəqqaslarımızı müşayiət etmişdi.

Burada haşiyə çıxaraq qeyd etməliyik ki, Şəmsi peşəkar musiqi sənətinə qədəm qoyduğu anlarda dövrün ən populyar qarmon ifaçıları Avtandil İsrafilov və Zakir Mirzənin ifalarından bacarıqla bəhrələnmişdir. Nəticədə özü də usta bir qarmonçalana çevrilərək bu sənətin öncülləri, bu gün isə artıq nümunə olanları sırasına çıxmışdır.

Ş.Ağamalıyev 1984-cü ildə 2 ay müddətində Almaniyada festivalda iştirak etmələrini də yaxşı xatırlayır. Qrupun tərkibində müğənnilər Elmira Rəhimova və Tələt Qasımov (1933-2013) (qeyd edək ki, sonralar hər iki müğənni xalq artisti idi), nağaraçalan Tahir Hüseynov, nəfəs alətləri ifaçısı Əlikram Quluyev, tarzən Ramiz Həsənov, rəqs sənətçilərimiz Nigar Zeynalova və Tərənə Muradova (haz.x.a.), Abgül və Müseyib var idi.

1986-cı ildə müğənni Nisə Qasımova (haz.x.a.) Şəmsini öz ansamblına dəvət etmişdi. O, bu instrumental amsamblın tərkibində də öz yerində olan bir musiqiçi idi və öz ustalığı, dolu, tamamkamal, bütöv çalğısıyla ümumi səslənməyə təkan olur və rövnəq verirdi. Bundan əlavə ona həvalə olunan sololarda, müğənninin oxuduğu muğam parçalarındakı müşayiət hissələrində də o, mahir bir qarmonçu olduğunu sübut edirdi. Nisə xanımın radioya təqdim etdiyi səs yazılarında, televiziya çəkilişlərində və canlı çıxışlarda Şəmsinin ifa yolu xüsusi əhəmiyyət kəsb edirdi. Ş.Ağamalıyev Nisə xanımın ansamblının tərkibində Azərbaycanın rayonlarında, keçmiş SSRİ-nin bir çox şəhərlərində, Türkiyə ölkəsində dəfələrlə konsertlərdə olmuşdur.

1991-ci ildə Bakıda daha bir musiqi heyəti təşkil olunmuşdu. Bu heyət yalnız xarici ölkələrə səfərlər üçün yaradılmışdı. Səfər öncəsi toplanıb məşq edirdilər. Heyətin tərkibinə tarzən Möhlət Müslümov (haz.x.a.), kaman ifaçısı Fəxrəddin Dadaşov (haz.x.a.), nəfəs alətləri ifaçıları Elşad Cabbarov (haz.ə.a.), Akif Qürbətov (haz.ə.a.) qarmonçalan Şəmsi Ağamalıyev və nağaraçalan Rafiq Budaqov var idi. Qrup 1992-ci ildə Amoko şirkətinin yaranması münasibətilə Amerikaya konsertə dəvət olunmuşdu. Həmin konsertdə xalq artistləri Fərhad Bədəlbəyli, Fidan və Xuraman Qasımovalar, kiçik qrupla "Qaya" vokal-instrumental ansambl, xanəndə Səkinə İsamayılova (haz.x.a.) və milli alətlər ifaçısı Həsənağa Sadıqov olduqca maraqlı proqramla çıxış etmişdilər.

Ş.Ağamalıyev 1979-1983-cü illərdə Balıq Sənayesi Texnikumunda təhsil alsa da bu sahədə heç vaxt çalışmayıb və bir an da musiqisiz olmayıb. Tanrımız onu musiqi sənəti üçün dünyaya gətirib. O da musiqili bir ömür yaşamaqda, qarmonumuza sədaqətlə xidmət etməkdədir. Texnikum təhsili illərində qarmon ifaçısı Akif Bədəloğlu da onunla bir kursda oxuyurdu. Dərsdən sonra əksər hallarda Akifgilə gedərdilər və qarmon çalardılar. Akifin valideynləri qarmon ifaçıları Bədəl Bədəlov (1907-1982) və Məryəm xanım (1927-2011) onları diqqətlə dinlər, tövsiyələr edər, gənclərin bilmədikləri xalq havalarını onlara öyrədərdilər.

Şəmsi ilk əvvəllərdən solistliyə meyl etməmiş, özünü yaxşı müşayiətçi və ansambl ifaçısı kimi formalaşdırmışdır. Mövzumuzun əvvəlində bu məsələyə toxunmuşuq. Əslində ansambl ifaçısı olmaq çətin və məsuliyyətli işdir. Burada müxtəlif alətlərin səslənməsinə uyğun ifa yaratmaq, oktavalarda düzgün seçim etmək, zil-bəm çalğılara, forte və piano ifalara nail olmaq, repertuar zənginliyini mənimsəyərək yadda saxlamaq və s. amillər tələb olunur. Bundan başqa hər bir ansamblın dəsti-xəttini dərk edərək ona uyğun ifa qaydaları tətbiq eləmək, tələb olunan anlarda muğamların şöbə və ya guşələrini yetərincə calmaq və başqa incəliklər əsas şərtləndəndir. Bütün bu saydıqlarımız usta qarmonçumuz Şəmsəddin Ağamalıyevdə vardır. Onun sənətində milli üslub, qarmon alətinə xas cəhətlər üst qatdadır. Sənətkarın ifası cəlbeçididir, tutumludur, doludur, boy-biçimlidir və yaraşıqlıdır. Zaman-zaman müdrik, ustad qarmonçalanlarımızın qarmon sənətinə hördükləri hər bir kərpic bizə fərəh verib, sənəti ucaldıb və yaşadıb. Bu insanlar bir qarmon sənəti binası ucaldıblar. Şəmsi kimi sənətkarlarımızı da həmin binanın divarlarına kərpic qoyaraq mərtəbələri ucaldanlar sırasında görürük. Çəkinmədən deyə bilərik ki, o, XXI əsrdə milli qarmon ifaçılığımızı qoruyub saxlayan, onu əsl nümunə kimi öz çalğısıyla göstərib təbliğ edə biləılərdən biridir. Şəmsi sənəti bu əsrdə Azərbaycan qarmon ifaçılığı sənəti üçün əsl örnək və nümunədir.

Elə şeylər vardır ki, onları gizlətmək olmaz. Hər şey bulaq suyu kimi şəffaf, aydın və duru olmalıdır.

XXI əsrdə bəzi qarmon ifaçılarımızın sənəti, ifa tərzi, yolu, üslubu, səpgisi milli kökdən, milli ənənələrdən tamam uzaqlaşıb. Bu qaydada davam etsə Azərbaycanın gənc qarmonçalanlarının hansı xalqın musiqilərini ifa etmələri dərk edilməyəcək. Yaxşı ki, hələ Avtandil İsrafilov, Zakir



Konsertdə. Öndə M.Məmmədov, sağdan: Ş.Ağamalıyev, Ə.Quliyev, Nadir, tarzən N.Məmmədov

Mirzə, Teyyub Teyyuboğlu, Xanlar Cəfərov, Şəmsi Ağamalıyev, Faiq Əlibalayev, Xeyrulla Dadaşov, İslam Süleymanov, Ənuşiravan İsrafilov, Faiq Süleymanov, Baxışəli Əliyev, Aydın Əliyev, Nemət Hüseynov və digərləri var. Cavan ifaçılar bunlardan nümunə götürməlidirlər.

Böyük Fransız yazıçısı Balzak yazırdı: "Bizlərdən yalnız əxlaqlılar qalacaq". Sənət aləmində də əxlaqi münasibətlər əsas şərtlərdən biridir. Burada biz sənət əxlaqını nəzərdə tuturuq. Sənət işlətmək qaydalarında bəzi cəhətlər var. Ətrafındakı sənətkarların ifasını düzgün dərk etmək, onun gücünə, bacarığına dəyər vermək, hörmətlə yanaşmaq, qarşılıqlı anlaşma və alətlərin bir-birinə uyuşması şəraitində birgə çalışmaq, ümumi gözəl, ürəkaçan, qəlbəyatan, səviyyəli səslənmə yaradaraq müğənniləri və ya hər hansı bir alətdə solo ifa edən birisini layiqli müşayiət etmək bacarığı özü də sənət əxlaqına söykənir. Təmiz, layiqli, nümunəvi, samballı, səbrli, ardıcıl cümlələrlə aqilanə çalğı da sənət əxlaqından yaranır. Bütün bunlar sevimli sənətkarımız Şəmsi sənətinə xas cəhətlərdir. Belə sənətlər, əxlaqlı sənətlər yaşayacaq. Biz bu kimi sənətkarların zamanın və tarixin iç qatlarına çəkilərək unudulmasına imkan verməməliyik. Onların sənət fəaliyyətinə dəyər verərək təbliğ etməliyik. Bundan qarmon sənətimiz qazanar.

Şəmsi son dövrlərdə müasir müğənnilərimiz Rəşad İlyasov, İzzət Bağırov və Nazim Pişiari (ləqəbi Faytonçu) ilə sənət yoldaşlığı edərək yaradıcılıq əlaqələrindədir. Onları müşayiət edən ansamblın musiqi rəhbəri Ş.Ağamalıyevdir. Bu müğənnilərin səslərinin disklərə yazılmasında, konsertlərdə, toylarda və televiziya çıxışlarında mahir qarmonçumuzun əhəmiyyətli dərəcədə rolu olur. O, N.Pişiari ilə Bakıda , Azərbaycanın və Rusiyanın iri şəhərlərində toylarda olmuşdur. Onlar İsrail ölkəsinə də səfər etmişlər.

Bu oçerk üçün Şəmsidən müsahibə alarkən onunla tam səmimi söhbət edərək böyük qardaş məsləhətimi verdim. Söylədim: "İndi sənətinin və yaşının ən məhsuldar dövrü, musiqini ən yaxşı duyub, dərk edən çağlarındır. İfalarını disklərə yazdırıb nəşr etdir, radiolara təqdim elə, internetə sal və geniş şəkildə yayılmasına çalış. Buna sənin tam haqqın çatır. Həm də bu , XXI əsrdə qarmon ifaçılığı sənətimizin təbliği üçün layiqli töhfə olar". O, mənim səmimi fikirlərimi duydu, xahişimi və tövsiyəmi eşitdi və dediklərimi yerinə yetirəcəyinə söz verdi. Əmin oldum ki, arzumuz öz yerini alacaq və qarmon sənətimiz yeni incilərlə bəzənəcək.

Meydanda olan bir sənətkardı o,
Qarmonuna sadiq dostdu, yardı o,
Bu sənətdə solmaz bir bahardı o.
Ömrü bu aləmə qıyan Şəmsidir,
Həqiqi sənətə uyan Şəmsidir.

Neçə illər ansambllarda çalıb,
Buna könül bağlayıb, mehr salıb,
Zaman ötüb, böyük təcrübə alıb.
Müşayiəti düz duyan Şəmsidir,
Belə yönümdə iz qoyan Şəmsidir.

Sənət dünyamızda çoxdan tanınır,
Hamı onu yaxşı qarmonçu sanır,
Milli ifaları nura boyanır.
Bəlkə, qarmon səmasının "Şəms"idir?
Ucalardan biri sanın, Şəmsidir
Əhsən Rəhmanlı, 18.11.2013

2.84. QISA ÖMRÜN BÖYÜK SƏNƏT BƏHRƏSİ



Zahid Məmmədzadə

Azərbaycanımızın dilbər guşəsi sayılan Qarabağ ərazisinin bir hissəsi, füsunkar təbiətli ulu Bərdə xalqımıza nadir şəxsiyyətlər, sərkərdələr, alimlər, memarlar, şairlər, yazıçılar və müxtəlif sənət adamları bəxş edərək öz ad-sanını, şan-şöhrətini daha da ucaltmışdır.

850 il öncə Şeyx Nizami Gəncəvi (1141-1209) Bərdəni, bu ərənlər yurdunu sevə-sevə vəsf etmişdir.

Tarixən bu torpaqda gözəl səsli xanəndələr və peşəkar musiqiçilər yetişmişdir. Belə sənətkarların hər biri sənətilə el-obasına, xalqına öz sənətinin dəyərincə xidmət edərək vaxtında öz işini görüb getmişlər.

Az yaşamış, lakin qısa ömründə böyük sənət nailiyyətləri ilə sevilib-seçilmiş, qarmon ifaçılığında öz cığırını açmış, sənət dünyamıza öz ifa tərzilə gəlmiş, barlı-bəhrəli bir iş görmüş Zahid Bərdə torpağından tumurcuq-tumurcuq boy ataraq Azərbaycan musiqisində məşhurlardan birinə çevrilmişdir.

Zahid İsbəndiyar oğlu Məmmədzadə 1962-ci il mart ayının 4-də Bərdədə dünyaya göz açmışdır.

İsbəndiyar Süleyman oğlu Məmmədov şuşalıdır. O, Şuşada anadan olmuş və orada boya-başa çatmışdır. Doğma yurdunda mühasib və mağaza müdiri işləmişdir. Həyat yoldaşı Humay Kərim qızı Məmmədova Tərtərdə anadan olmuşdur. O, da Şuşa şəhərində mağaza müdiri işləmişdir. Ailə sonralar Bərdə şəhərinə köçmüşdür.

Zahid 1968-ci ildə Bərdə şəhərindəki 1 saylı məktəbin 1-ci sinfinə getmişdir. O, 1978-ci ildə orta məktəbi uğurla başa vurmuşdur.

Kiçik yaşlarından Zahidin musiqiyə həvəsi özünü büruzə vermişdi. Qardaşı Cahidin xatirəsindən: "Biz balaca olanda ailəmiz yay aylarını həmişə Şuşa şəhərində keçirərdi. Zahidin 4-5 yaşı olardı. Anam yenə bizi Şuşaya aparmışdı. Bir dəfə şəhər gəzintisinə çıxarkən dükanda uşaq oyuncaqları şöbəsində balaca qarmonu görən Zahid əlini uzadıb onu istədi. Anam həmin qarmondan ikisini - birini Zahidə, birini isə mənə aldı. Yadımdadır, səhərdən axşamacan balaca Zahid qarmonla əlləşir, çalmağa çalışır, yorulmaq bilmirdi. Axşam yatanda da qarmonu yastığının yanına qoyurdu. Bir müddətdən sonra onun qarmonunun dilləri sınıb töküldü. Mənimçün alınan qarmonu götürüb öyrənməyə başladı. Mən isə nağara çalmağı öyrəndim".

Zahidin musiqiyə olan sonsuz həvəsini görən Humay xanım oğlunun musiqi təhsili alması qərarına gəlir. Beləliklə, 1973-cü ildə Zahid Bərdə şəhərindəki 1 saylı uşaq musiqi məktəbinin qarmon sinifinə qəbul olunur. İxtisasca tarixçi olan, həm də muğam bilicisi, yaxşı musiqiçi, gözəl qarmon ifaçısı kimi tanınan, Bərdə musiqi məktəbində qarmon sənətindən dərs deyən Əşrəf Əzimov (1938-1996) qardaşı oğlu Zahidin nadir istedadını görüb öz sinfinə gətirərək, onunla sonsuz həvəslə və çox ciddi məşğul olur. 1974-cü ildə musiqi məktəblərinin qarmon sinfində təhsil alan şagirdlərin "Rayonlararası baxış-müsabiqəsi"ndə iştirak edən Zahid birincilik qazanaraq diplom və fəxri fərman alır.

Həmin ildə Z.Məmmədzadə təhsil aldığı musiqi məktəbinin xəttilə Azərbaycan televiziyasının proqramlarının birində həm məktəb şagirdlərindən ibarət xalq çalğı alətləri ansamblının tərkibində və həmçinin ayrıca olaraq solist kimi iki xalq oyun havasını ifa etmişdir. Hər il Bərdə musiqi məktəbinin ansamblı və Zahid televiziya konsertlərinə dəvət olunurdu. Bütün bunlar onun istedadını geniş şəkildə üzə çıxarmaqla bərabər ifaçılığa olan maraq və həvəsini daha qüvvətləndirirdi.

İlk dəfə Zahid 1975-ci ildə gənc xanəndə Vidadi Bərdəli ilə toy şənliyində çıxış etmişdir. 13 yaşlı Zahid tay-tuşu olan Vidadi ilə toyda məharətli çıxışları ilə çox sevilmiş və sonralar elimizin şənlikləri onları öz çevrəsinə almışdır. Vidadi böyük istedada və yüksək diapazonlu şaqraq, zəngulələ səsə malik olduğu üçün yetkinlik yaşa çatanda məşhurlaşdı. O, 1980-ci illərdə xüsusilə Salyan, Neftçala, Əlibayramlı, Sabirabad rayonlarında çox sevilib. Vidadi 2013-cü ildə dünyasını dəyişib.

1976-cı ildə Qarabağ toylarının birində Zahid tanınan xanəndə Yaqub Məmmədovla birlikdə olduğu zaman şirin çalğı ilə ustad sənətkarın diqqətini cəlb etmişdi. Y.Məmmədov bu uşağın gələcəkdə yaxşı qarmonçalanlardan biri olacağına inandığını söyləmiş və dəfələrlə Zahidi özüylə Bərdə toylarına aparmışdı. Onların sənət yoldaşlığı xeyli sonralar da davam etmişdi.

Zahidin ustad xanəndələrdən Ə.Əliyev, Ş.Kürdoğlu, Q.Rüstəmov, İ.Nəbiyev, S.Məmmədov və başqaları ilə sənət ilişgiləri olmuş, onlarla konsertlərə və toylara getmişdir.

Tanınan müğənni M.Kazımov hələ tanınmazdan əvvəl Bərdədə texnikumda təhsil alarkən Z.Məmmədzadə ilə toy yoldaşlığı edərdi.

1976-cı ildə Xan Şuşinski Bərdədə, ən yaxın dostu xanəndə Cəlal əminin qohumunun toyunda



Bərdə şəhərində toy. Xanəndə Yaqub Məmmədov, Zahid Məmmədzadə və sənət dostları

oxuyarkən, həmin məclisdə qarmonçu Zahid toy dəstəsinin üzvü olmuş, onun çalğısı Xan əminin çox xoşuna gəlmiş və tərifli sözlər söyləmişdir.

Zahidin ailədə aldığı tərbiyə və nəslindən gələn saflıq, yüksək mənəvi dəyərlər həlim xasiyyətinə, sakit təbiətinə sirayət etmiş, əxlaqlı bir insan kimi yetişməsində mühüm rol oynamışdı. Onun yüksək tərbiyəsilə sənət əxlaqı bir-birinə təkan verərək yaradıcılıq yolunu rövnəqləndirirdi. Bundandır ki, o, az yaşlarından böyük sənətkarlarla davranmağı, ünsiyyət yaratmağı bacarır, onlarla yanaşı sənətdə addım ata bilirdi.

Zahidin çalğısı çoxlarını məftun etmiş, sadə insanların sevimlisinə çevrilməklə bərabər yaradıcı adamların, ziyalıların da nəzər-diqqətini özünə yönəltmişdi. Haqqında qəzetlərdə, jurnallarda məqalələr yazılaraq, yüksək fikirlər söylənmiş, ona şerlər həsr olunmuşdu.

Cavansan, ürəyin, eşqin çeşməsi,
Talehin həmişə gülsün, qardaşım.
İstərəm çaldığın qarmonun səsi,
Hər eldən, obadan gəlsin, qardaşım.

Bu fikirləri "Əzizim Zahid" adlı şerində Tofiq Bayram (1934-1991) söyləmişdi.

Z.Məmmədzadə 1978-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olaraq 1982-ci ildə buranı bitirir. Təhsil aldığı ocaqda keçirilən bütün ədəbi-bədii gecələrdə, mədəni-kütləvi tədbirlərdə bir ifaçı kimi çıxış edir. Həmin dövrdə o, tələbə və müəllim heyətinin və rəhbərliyin dərin hörmətini qazanaraq, ən sevimlilərdən biri olmuşdu.



Televiziya rejissoru Azər, Zahid Məmmədzadə və müğənni Brilliant Dadaşova

Zahidin peşəkar musiqiçi kimi ilk televiziya çıxışı 1978-ci ilə təsadüf edir. O, "Xoş gördük, tələbə" adlı verilişidə özünün bəstələdiyi "Ülviyyə" adlı rəqs melodiyasını və bir neçə xalq mahnısını ifa edərək yaddaşlarda qalmışdır.

Gənc ifaçı 1979-cu ildən mərhələlərlə öz bəstələri "Ülviyyə", "Əfsanə", "Məftunə", "Nişanə", "Fərqanə", "Qarabağ gözəlləməsi", "Diyarı", "Nigarı", "Lətafəti", "Turalı", "Dostluq", "Badamı", "Vüsalə", "Zəriflik", "Sara gözəlləməsi", "Anarı", "Tərlanım", "Məhəbbət", "Nərminə", "Elbəyi" rəqs melodiyalarını Azərbaycan radiosunun fondu üçün yazıdırmışdır.

Onun ifa etdikləri tez-tez radioda səslənərək sevilmiş, televiziya çıxışları pərəstişkarları tərəfindən daim izlənilmişdir. Zahidin çaldığı "Əfsanə" rəqsi XX əsrin 80-ci illərində toylarımızın repertuarına daxil olmuş və Azərbaycanın əksər bölgələrində bu melodiyanın sədasına şənliklərdə həvəslə rəqs etmişlər. Həmin dövrdə bütün qarmonçular bu rəqs havasını öyrənmiş və çalmışlar.

1987-1993-cü illərdə Z.Məmmədzadə Bərdə şəhəri 2 saylı uşaq musiqi məktəbində direktor vəzifəsində çalışmış və eyni zamanda öz sənəti üzrə dərs demişdir. İşlədiyi müddətdə özünü bacarıqlı rəhbər, əsl təşkilatçı kimi göstərə bilmiş, həmçinin sənətini dərs dediyi şagirdlərə sevdirmişdir.

Zahid 1993-cü ildə ailəsi ilə Bakıya köçmüş və burada yaşamışdır.

Zahid müəllim sənət yoldaşları Y.Məmmədov, N.Musayev, İ.Nəbiyev, V.Bərdəli, Arif Qədimov və V.Quliyevlə tez-tez sənət səfərlərində olardı. Onun tanınmış bəstəkarlar S.Ələsgərov, H.Xanməmmədov, O.Zülfüqarovla yaxın əlaqəsi var idi. Yaradıcılıq barədə fikir və düşüncələrini onlarla bölüşmüşdü. Bəstəkar R.Paşayevlə, şairlərdən Y.Nəğməkar, M.Məftun ilə Zahidin səmimi dostluğu vardı.

Xalq şairləri B.Vahabzadə, Hüseyn Arif, T.Bayram, xalq artistləri, müğənni L.İmanov və bəstəkar Ş.Axundova Zahidin sənətinə yüksək qiymət vermiş, onun haqqında mətbuatda çıxış etmişlər.

Bütün gənc ömrünü musiqimizə həsr edən Z.Məmmədzadə tanınmış sənətçilərimizlə müntəzəm əlaqədə olmuş, onlarla yoldaşlıq, dostluq edərək konsertlərdə, müxtəlif tədbirlərdə və toybüsat məclislərində iştirak etmişdir. Xalq artisti, klarnet ustası V.Qədimov, gitaraçı R.Hüseynov (Rəmiş), tarzənlər R.Rüstəmov, Ə.Əsədov, skripkaçalan N.Nuriyev, bəstəkar V.Gərayzadə, mahir qarmonçular H.Həsənov, X.Cəfərov və çoxları Zahidlə olduqları anları hörmətlə xatırlayır və onun yoxluğuna heyfslənirlər.

Z.Məmmədzadə ona çox doğma olan Bərdə şəhərində müxtəlif vaxtlarda sənət dostlarını başına toplayaraq dəfələrlə solo-konsertlər vermiş, el-obasını sevindirmişdir.

Yorulmaq bilməyən bu insan qarmonu ilə sədaqətlə xalqımıza və onun musiqi mədəniyyətinin çiçəklənməsinə xidmət etmişdir.

1981-ci ildə Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərinə çağırılmış, səsyazma studiyasında Zahidin ifası lentlərə yazılaraq Moskva şəhərinə göndərilmişdir. 1987-ci ildə sənətçinin qrammafon valı buraxılmış, az vaxt ərzində Azərbaycanda, SSRİ respublikalarında yayılmış və hətta bəzi xarici dövlətlərə belə gedib çıxmışdır. Qrammafon valında sənətkarımız "Əfsanə", "Qarabağ gözəlləməsi", "Diyarı", "Turalı", "Nigarı", "Dostluq", "Segahsayağı" və "Lətafəti" adlandırdığı melodiyaları ifa etmişdir.

1988-ci ildə dünya şöhrətli xanəndə, xalq artisti Alim Qasımov öz tar-kaman çalanı Malik və Elşən Mansurovlarla Fransa dövlətinə dəvət olunarkən həmin səfərə Z.Məmmədzadə də getmişdir. Fransada bu sənət səfərinin təşkilatçısı və himayəçiləri Zahidi şəxsən özləri dəvət etmişdilər. Belə ki, Z.Məmmədzadənin qrammafon valını əldə edib, dinləyib bəyənənlər onun sənətilə yaxından tanış olmaq istəmişdilər.

Həmin vaxt Zahidgilin Bərdədəki evinə Mədəniyyət Nazirliyindən telefonla zəng vurulub, təcili Bakıya çağırılmış və A.Qasımovla Fransaya göndərilmişdir.



Fransada. Soldan: M.Mansurov, A.Qasımov, E.Mansurov, Z.Məmmədzadə və tədbirin təşkilatçıları

Azərbaycan muğam üçlüyünün çıxışları və Zahidin solo ifaları xarici ölkə tamaşaçıları tərəfindən maraqla qarşılanmışdır.

Fransanın Almaniya ilə sərhədində yerləşən Strasburq şəhərində keçirilən körüklü alətlər, akkordeon və bayan ifaçılarının müsabiqəsinə qatılan Zahid çox böyük uğur qazanmış və yüksək mükafata layiq görülmüşdür.

Sənətkarın fəaliyyətini daha geniş işıqlandıraq deyə, yazımızın bu yerində arxadakı illərə dönməli oluruq.

Z.Məmmədzadənin 1982-ci il mart ayının 8-də Azərbaycan Dövlət Filarmoniyasında solo-konserti düzənlənmiş və böyük əks-səda doğurmuşdur. Tədbirin son dərəcə uğurlu və anşlaq keçməsinə, tamaşaçıların arzu və istəklərinə rəğmən az müddətdən sonra Z.Məmmədzadənin solo-konsertləri filarmoniyada bir neçə dəfə də təşkil olunmuşdur.

1983-cü ildə Bakının Binə qəsəbəsində tanınmış, hörmətli bir şəxsin oğlunun toyunda 4-5 toy dəstəsi, sazəndə qrupları, həmçinin məşhur xanəndələr iştirak edirmiş. Bu məclisə mahir saz ifaçısı Aşıq Ədalət və qarmonçu Zahid də dəvət olunubmuş. Məclisdə sənətçilərin çox olduğundan hər bir ifaçıya bir-iki dəfə çalıb-oxumaq üçün vaxt çatırmış. Növbə Zahidə çatanda, o, "Segah" üstdə gəzişmələr edərək "Baş sarıtel" havasını çalır. İfa nəinki toya dəvət olunmuş qonaqların, o cümlədən xanəndələrin, sazandaların və Aşıq Ədalətin də çox xoşuna gəlir.

Zahid elə uşaqlıqdan aşıq havalarına meyl etmiş və onları öyrənərək hafizəsinə toplamışdır. Erkən çağlarından Laçın rayonuna toylara gedərkən "Ruhani", "Naxçıvani", "Baş sarıtel", "Qəhrəmani" və "Yanıq Kərəmini" arzu edən qonaqların sifarişilə çalırmış.

Efirdə ilk dəfə qarmonda "Baş sarıtel"i səsləndirən Z.Məmmədzadə olmuşdur.

Şairlərimiz B.Vahabzadə və H.Arif ziyahların toy məclislərinə dəvət olunmuş Zahidin qarmonda ifa etdiyi el havalarını və aşıq melodiyalarını həssaslıqla dinləmiş və razılıqlarını bildirmişdilər. H.Arif Zahidlə dəfələrlə görüşmüş və onunla aşıq yaradıcılığı barədə söhbətlər etmişdir.

1970-ci illərin sonları, 1980-ci illərin əvvəllərində Zahid xoş səsli, gözəl avazlı ağdamlı xanəndə Sədi Məmmədovla (1954-2003) da sənət əlaqədlərində olaraq Qarabağda keçirilən toy şənliklərində və konsertlərdə iştirak edərək, el-obaya bol-bol sevinc bəxş etmişdir.

Yevlaxda yaşayan, geniş səs diapozonuna malik, qüdrətli xanəndə İdris Nəbiyevlə Zahid ansambl yaradıb 1980-ci illərdə Türkmənistan və Özbəkistan respublikalarına səfərlərə yollanaraq, milli musiqimizi tərənnüm etmişlər.

Zahid 1991-ci ildə Türkiyəyə səfərə getmiş, türk qardaşlarımızı qarmonunun səsilə valeh etmişdir. Xanəndə Arif Qədimovun oxuduğu xalq mahnıları, "Qarabağ şikəstəsi" alqışlanmışdı.

1994-1995-ci illərdə Z.Məmmədzadənin İran İslam Respublikasının Təbriz və Tehran şəhərlərinə səfərləri Azərbaycan musiqisinin, qarmon ifaçılığımızın orada yaşayan soydaşlarımız qarşısında əyani surətdə və daha yaxından təbliğinə şamil edilməlidir.

Evlərdə keçirilən konsertlər və cürbəcür şənlik tədbirlərində soydaşlarımız Zahidlə yaxından tanış olur, qarmon ifaçılığı haqqında suallar verir, onun çalğılarını dinləyir, video-lentlərə alırdılar. Belə tədbirlərin (bərnamə) əksəriyyətində türk (azərbaycan) musiqiçiləri iştirak edir, onları maraqlandıran el havalarını Zahidin ifasında eşidir, audeo və video kassetlərə yazıb apararaq öyrənirdilər.

Qarmonçalanlar Zahidin yaxınlığında əyləşib muğamlar və oyun havaları çaldıraraq, onun barmaqlarına baxıb öyrənirdilər. Belə sənət səfərlərində müğənnilər Arif Qədimov və Məzahir Kuhi (1960-2012) də onunla birlikdə olmuşlar.

Arif Qədimovun xatirələrindən:

- Biz Təbrizə gedəndə əksər evlərdə Zahidin qrammafon valı və radioda çaldığı melodiyalar var idi. Dərhal hiss olundu ki, oralarda Zahid tanınan və sevilən qarmonçalandır. Təbrizli qarmonçalanların bəziləri onun çalğı üslubunu tutub, sənət öyrənirdilər.

Bizimlə səfər edən xanəndə Məzahir Kuhinin Astara, Ərdəbil, Təbriz və Tehran şəhərlərində çoxlu qohum-əqrabası var. Onlar gəlişimizə çox sevinir, bizim rahatlığımız üçün hər bir şərait yaradır və ev konsertlərini təşkil edirdilər.

Çıxış etdiyimiz belə mərasimlərdə oxuduğumuz muğam, təsnif və xalq mahnılarında Zahidin məni və M.Kuhini müşayiət etməsi də qonaq gələn musiqiçiləri çox maraqlandırırdı. Hər bir ifadan sonra Zahidə sual verib, soruşub öyrənirdilər. Hamının diqqəti Zahidin qarmonunda olur, nəzərlər onun barmaqlarına dikilirdi".

Zahidin Güneydəki soydaşlarımız qarşısındakı çıxışları açıq dərs, göstərici məşğələ, bir növ tədris xüsusiyyətləri daşımış, xalq musiqimiz və həm də qarmon ifaçılığı sənətinin inkişafına xidmət edən təbliğat əhəmiyyəti kəsb etmişdir.

Zahid müğənni dostları ilə tarzən bəstəkar Əli Səlimi ilə Təbrizdə görüşmüş, onun məktəbində olmuşdur. Tehranda yaşayan müğənni-qarmonçalan Rəhim Şəhriyari Zahidi studiyaya dəvət edərək onun ifasında xalq musiqisi nümunələrini və ifaçının yeni bəstələrini lentə alaraq kassetləri Güney Azərbaycanın Təbriz, Ərdəbil, Zəncan, Mərənd, Xoy, Urmiyə, Culfa, Miyanə, Muğan, Parsabad və digər şəhərlərinə göndərmişdir.

Haşiyə: "Rəhim Şəhriyari Təbrizdə anadan olub, boya-başa çatıb. Uşaqlıqdan musiqi ilə məşğul olub. Müğənnilik və qarmon ifaçılığı qabiliyyəti var. Bəstəkarlıqla da məşğul olur.

O, 1991-ci ildən üzü bəri Təbrizə və Tehrana səfər edən Quzey Azərbaycan sənətçiləri ilə əlaqə yaradaraq, onlardan öyrənərək öz sənətini inkişaf etdirmişdir. Hal-hazırda Tehranda yaşayaraq musiqimizin təbliği ilə məşğul olur. Təbriz, Tehran və Bakı musiqiçilərinin birgə ifalarını lentlərə



Zahid Məmmədzadə Təbriz şəhərində Şəhriyarın məqbərəsi önündə

alaraq xarici dövlətlərdə yaşayan azəri türklərinə göndərir.

Zakir Mirzə, Vaqif Əsədov, Zahid Məmmədzadə Tehranda olarkən Rəhim onlardan fərdi qaydada öz evində dərs almış və qarmon ifaçılığına daha mükəmməl yiyələnmişdir. O, öz ansamblı ilə Bakıya, Türkiyənin bir çox şəhərlərinə və neçə-neçə xarici dövlətlərə səfər etmişdir".

Z.Məmmədzadə 1996-cı ildə Almaniyada konsertlər vermişdir.

Fransada yaşayan Əhmədağa bəy adlı yurddaşımız "Fransa-Azərbaycan Dostluq Cəmiyyəti"nin xəttilə Zahidin audeo və video lentlərini əldə edərək, vətəndaşı olduğu ölkənin teleradio verlişlərində musiqimizi təbliğ edirdi.

1996-cü ildə bir neçə dəfə şair Y.Nəğməkar və Z.Məmmədzadə birlikdə "Xeyriyyə konserti" keçirərək "Qarabağ fondu"na kömək etmişlər.

1996-1999-cu illərdə Zahid müəllim ifaçılıq fəaliyyətini əsasən Moskva şəhərində davam etdirmişdir.

Zahid 1990-cı ildə ailə qurub, iki oğlu var. Tural və Elbəy. Onlar da istedadlıdırlar. Şaroyeva adına musiqi məktəbinin fortepiano sinfində təhsil alıblar. Elbəy qarmon ifaçısı kimi yetişərək atasının sənət yolu ilə cəsarətlə addımlayır.

Sanki Zahid ölümə tələsdi. Xalqının musiqisi ilə döyünən, yaratmaq eşqilə vuran bir həssas ürək qəfildən dayandı. 37 yaş nədir ki? Hələ nə qədər işlər görəcəkdi. Nə qədər saf arzular qırılıb yarımçıq qaldı. Zahid İsbəndiyar oğlu 1999-cu il noyabr ayının 23-də, həyatının mənalı, yaradıcılığının çiçəkləndiyi bir vaxtda dünyasını dəyişdi. Zahid az ömrü ilə çox yaşadı. Ürəyindən süzülüb gələn nəğmələri doğma xalqına bəxş edib getdi.

Biz dostlar, yaxınlar isə hörmətli sənətkarımız haqqında yazmaq üçün qələmə sığınırıq və yazımızın sonunda bir daha demək istəyirik ki, ömrünü milli musiqi mədəniyyətimizə bəxş edən Zahidin adı musiqi tariximizdə yaşamalı və həm də əbədiləşdirilməlidir.

2.85. AYDIN ƏLİYEV



Aydın Əliyev

Əliyev Aydın Əkbər oğlu 1962-ci il oktyabrın 2-də Bakı şəhərində anadan olub. 1970-ci ildə 116 saylı orta məktəbin birinci sinfinə daxil olub. Elə həmin ildə atası balaca Aydını Xəzər Dənizçiləri Mədəniyyət Evinin Əhmədli qəsəbəsindəki filialının qarmon sinfinə qoyur. Ata Aydının musiqiçi olacağına inanırdı. Elə sonralar bu arzu və ümid öz təsdiqini tapdı.

Xoşbəxtlikdən qarmon sinfinə Aydının müəllimi canıyanan insan , vicdanlı şəxs, peşəsinin vurğunu, əsl pedaqoq Amalya Hüseynovanın olması bu uşağın gələcəkdə peşəkar musiqiçi, tanınan sənətkar olacağına zəmin yaratmışdır.

Amalya xanım Aydını övladı kimi əzizləmiş, onun yaxşı bilik alması və not təhsili qayğısına qalmış, xalq musiqisi incilərini ona sevə-sevə öyrətmişdir.

Bu gün ötən günləri hörmətlə xatırlayan müəllim-şagird bir-birlərinin haqqında ürək dolusu danışır, Aydın müəlliminin zəhmətini itirməyib təşəkkür edir, Amalya xanım ən əziz və sevimli şagirdi ilə fəxrlənir və qürur hissi keçirir.

Aydına ilk dəfə 1968-ci ildə qarmon alınıb. Əslində onun ilk müəllimi Bəylərxan olub. O, Aydına evdə dərs keçirmiş.

Əkbər kişinin evində dəf, nağara və tütək alətləri varmış. Özü bu alətlərdə mükəmməl çalırmış. Əkbər başqa sahədə çalışsa da musiqi ilə də məşğul olurdu. Aydın balaca vaxtlarından evlərində gördüyü zərb alətlərini və tütəyi sərbəst olaraq öyrənməyə çalışmış və buna nail olmuşdu.

1976-cı ildə atası Aydını H.Z.Tağıyev adına toxuculuq fabrikinin mədəniyyət sarayındakı "Sahil" adlanan özfəaliyyət xalq çalğı alətləri ansamblına gətirir. Sonralar məşhur musiqiçi kimi tanınan klarnetçalan Məşədi Məhəmməd, nağaraçı Elşən Qasımov da bu özfəaliyyət kollektivindən peşəkar ifaçılığa vəsiqə alıblar.

Aydın 1976-1978-ci illərdə "Sahil" ansamblında çalmışdır. Ansamblın bədii rəhbəri tarzən-pedaqoq Ağaqardaş Mürşüdov Aydının bacarığını görüb ona xüsusi qayğı göstərirdi.

Əkbər ata Ağaqardaş müəllimdən bütün muğamlarımızı Aydına öyrətməsini xahiş edir. Ağaqardaş müəllim ansamblın məşqlərindən əvvəl əlavə vaxt ayıraraq tarda çaldığı muğamları bütün şöbə və guşələrilə Aydına öyrədir. Əbəs deyil ki, çəkilən zəhmət hesabına Aydın Əliyev muğamlarımızı tamam-kamal bilir və qarmonda onları əla ifa edir. XXI əsrdə bu sənətkar qarmon musiqi alətilə muğamlarımızın dolğun, təsirli, doğru-düzgün çalıb, təhvil verən ifaçılar sırasında özünə əsas yer tutur.

1975-ci ildən A.Əliyev toy sənətçiləri sırasına qoşulub, tədricən sənətkarlar arasında tanınıb və çox yerlərə dəvət olunub.

1978-1981-ci illərdə Azərbaycan Televiziyası və Radiosunun musiqi kollektivlərində, xalq artisti tarzən Baba Salahovun rəhbərlik etdiyi "Araz" xalq çalğı alətləri ansamblında çalan Aydın

böyük təcrübə qazanır. Çalışdığı müddətdə məşhur müğənniləri müşayiət edir, solo hissələr çalır, musiqiçilər arasında da çox tanınır.

A.Əliyev 1986-1991-ci illər ərzində Mədəniyyət və İncəsənət Universitetində təhsil alır və qiyabi yolla mədəni-maarif fakültəsini bitirir.

Sənətkarımız 1986-1989-cu illərdə dünya şöhrətli müğənni, xalq artisti Zeynəb Xanlarovaya məxsus xalq çalğı alətləri ansamblında çalmışdır. Bu müddət ərzində musiqi heyətinin tərkibində Azərbaycan rayonlarında, SSRİ-inin ən böyük şəhərlərində, 1989-cu ildə Danimarkada konsertdə olan Aydının sənəti daha da yetkin olur və mükəmməlləşir.

Onun xarici ölkəyə ilk səfəri isə 1984-cü ildə Almaniya Federativ Respublikasına olmuşdur.

Universitetdə təhsil aldığı zaman ictimai, mədəni-kütləvi işlərdə çalışmış, musiqiçi kimi sevilmiş, IV kursda ona Tədris Teatrında xalq çalğı alətləri ansamblı yaratmaq tapşırılmışdır.O, bunun öhdəsindən bacarıqla gəlmiş, Mələkxanım Əyyubova və Zahid Quliyevi ansambla solist gətirmişdir. Ansambl Şirvan və Qarabağ bölgəsində, Şuşa şəhərinin özündə konsertlər vermişdir.

A.Əliyev bir zamanlar təhsil aldığı qarmon kursunda 1980-1981-ci illərdə dərs demişdir. İfaçılıq və müəllimlik Aydının həyatında və sənətində vəhdət təşkil etmişdir. O, 1983-1987-ci illərdə Çingiz Mustafayev adına mədəniyyət evindəki qarmon sinfində müəllim işləmişdir.

Xalq artisti, bəstəkar-cazmen, fenomen musiqiçi R.Babayev qarmonçalanlar H.Həsənov, X.Cəfərovdan başqa Aydınla da işləməyi xoşlarmış. 1991-1994-cü illərdə A.Əliyev R.Babayevin rəhbərlik etdiyi kollektivdə çalışmışdır. Hazırda Milli Konservatoriyanın rektoru, xalq artisti, bəstəkar Səyavuş Kərimi də həmin orkestrdə bir zamanlar fəaliyyətdə olub. Bu gün də Aydın S.Kərimi ilə müntəzəm yaradıcılıq əlaqələrindədir.

A.Əliyev Türkiyə, Norveç, İsveç, Hollandiya (2 dəfə), Belçika, İtaliya, İsveçrə, Kanada, Danimarka (2 dəfə) və Skandinaviya ölkələrində səfərlərdə olmuşdur.

YUNESKO-nun səlahiyyətli nümayəndəsi, Fransanın Paris şəhərində yaşayan, dünyanın ən qədim musiqisinin elmi araşdırıcısı və təbliğatçısı olan, xüsusilə Şərq mədəniyyətini öyrənən Jan Dürinq 1997-ci ildə Bakıya gələrək Aydının ifasında Azərbaycan muğamlarını, qədim xalq oyun havalarını diskə yazaraq aparmış, klassik musiqi nümunəsi kimi ən böyük ölkələrdə yaymışdır. Bu iş öz-özlüyündə Aydın, bütünlükdə isə Azərbaycan qarmon ifaçılığı sənəti üçün böyük müvəffəqiyyət sayıla bilər.

J.Dürinq Aydının çalğısını klassik formada, yalnız dəfin müşayiətilə istəmişdir. Kompakt diskə yazılmış bu ifalar 1898-ci ildə Azərbaycan radiosunun fonduna da qəbul olunmuşdur.

Qeyd etdiyimiz diskin uğuru hesabına A.Əliyev 2002-ci ildə YUNESKO xətti ilə keçirilən "İpək yolu" adlı dünya xalqlarının folklor musiqisi festivalında iştirak edib və bu böyük tədbirin diplomantı olub.

Amerikada yaşayan məşhur musiqiçi Yoyomanın orkestrinin festivalın iştirakçıs olması bu böyük əhəmiyyətli tədbirin dəyərini xeyli artırmışdır. Aydın Əliyev adı çəkilən tədbirin 52 gün iştirakçısı olmuş, Amerikada və Avropa ölkələrində konsertlərdə çalmışdır.

2003-cü ildə keçirilən, Jan Dürinqin dəvətilə "Şərq musiqisi festivalı"nda iştirak üçün Tayvan ölkəsinə gedən Aydın xalq artisti, tarzən M.Müslümov, xalq artisti, kamançaçı F.Dadaşov və xanəndə, əməkdar artist Zabit Nəbizadə ilə çıxış etmiş, özünün solo ifasını da göstərmişdir.

Sevimli qarmonçumuz müxtəlif zamanlarda müğənnilər, A.İslamzadə, M. Bağırzadə, B.Dadaşova, N.Dostəliyeva və başqaları ilə yoldaşlaq edərək toylara və konsertlərə getmişdir.

2006-cı ildə A. Əliyev "Səda" ansamblının tərkibində əməkdar artist N.Dostəliyeva ilə Rusiyada və Türkiyədə konsertlərdə olmuşdur.

Bütün sənət fəaliyyəti boyu o, klassik qarmon ifaçılığı yolunu tutmuş, Ə.Əliyev, T.Dəmirov, M.Ağayev, A.Abbasovun sənəti əks olunmuş lent yazılarından bəhrələnmişdir.

1984-1985-ci ildə Aydın böyük sənətkar Abbas Abbasovla (1924-1997) sənət əlaqələri quraraq ondan 100 ədədə yaxın rəqs havası öyrənib. A.Abbasov klassik qarmon ifaçımız, xalq oyun havalarını və muğamlarımızı incəliklərinə qədər bilən şəxs idi. Bu gün sevimli sənətkarımız bu dünyada olmasa da onun bildikləri, musiqi inciləri hal-hazırda da, gələcəkdə də gənc musiqiçilərə lazım olacaq deyə Aydın maqnitofon lentlərində və hafizəsində qoruyur.

Son dövrlərdə qarmon sənətinə gələn gənclər A.Əliyevin evinə tez-tez gəlib ondan dərs alır, bilmədikləri incə mətləbləri öyrənirlər. Bütün bunları Aydın müəllim təmənnasız edir.

Mərhum atasının tövsiyəsi, nəsihəti və vəsiyyətinə görə T.Dəmirovun sənət yoluna, yaradıcılığına məhəbbətlə yanaşan, həmişə ustad sənətkarlardan öyrənən Aydın bu gün də bu işə sadiq qalır. O, ustadın həyat və yaradıcılığı haqqında ciddi araşdırmalar aparır, bəzi anlarda mətbuatda və efirdə onu işıqlandırır.

Aydın 2006-cı ilin əvvəllərində öz vəsaiti hesabına T.Dəmirovdan bizə yadigar qalan muğam ifalarını və oyun havalarını kompakt diskə köçürtdürmüşdür. Məqsəd budur ki, gənc musiqiçilərimiz bu sərvətdən bəhrələnsinlər.

A.Əliyev hazırda Azərbaycan Dövlət Milli Konservatoriyanın "İnstrumental ifaçılıq kafedrası"nda çalışır. Milli alətlərimiz üzrə təhsil alan tələbələrə milli rəqs melodiyalarımızı öyrədir. O, xalq rəqs havalarımızı bütün incəliklərinə qədər bilir və tədris zamanı bunlardan layiqincə istifadə edir.

Aydın Əliyev elmi mövzu üzərində işləyərək müdafiəyə hazırlaşır. Biz isə uğurlar diləyirik.

2.86. NARDARANIN YETİRMƏSİ



Sərraf Zəkiyev

Ən yüksək insani keyfiyyət mənəviyyatdır. Mənəvi cəhətdən saf insanlardan cəmiyyətə yalnız xeyir gələ bilər. Mənən saf insanlar sırasında duran sadə, mədəni, sakit təbiətli, səbrli, el arasında deyildiyi kimi özünü-sözünü, öz yerini bilən bir sənət yoldaşımız barədə də istiqamət götürək.

Sərraf Zəki oğlu Zəkiyev 1962-ci il iyunun 7-də Bakının Nardaran kəndində anadan olub. Ailənin dördüncü, sonbeşik övladı kimi sevilib, əzizlənib.

Zəki kişi (1928-1999) musiqiyə qəlbən bağlı, bu sənətin xiridarı olan bir insan idi. El arasında sayılıb-seçilən, nüfuza malik olan, adətlərimizə hörmətlə yanaşan Zəki Zəkiyev 30 il Nardaranın toylarını idarə etmiş, sərpayı olmuşdu. Onun evinin ən əziz qonaqları xalq musiqiçiləri, sazanda dəstələri, məşhur xanəndələr idi. Ustad xanəndə Zülfü Adıgözəlov (1898-1963) və ondan sonra sənət meydanında ad çıxaran bütün xanəndələr və onları müşayiət edən musiqiçilər Zəki kişinin halal süfrəsinin çörəyini kəsmiş, öz evlərində olduqları kimi burada istirahət etmişlər.

Sərrafın ana babası Fail Muxtar (1903-1973) şair olub və qəzəllər yazıb. Qəzəllərini xanəndələr toylarda, konsertlərdə oxuyublar. 2008-ci ildə Azər-

baycanda keçirilən televiziya muğam musabiqəsində gənc müğənni Güllü Muradova Fail Muxtarın qəzəllərinə müraciət edib. Fail Muxtarın oğlu Əbülfəz Vəfa (1942-2000) da qəzəl şairi idi. Qəzəlləri Bakı toylarında oxunur. Ata və oğulun qəzəllərindən ibarət "Beləbir" adlı kitab nəşr olunub. Fail Muxtarın digər oğlu Kərbəlayi Arif (1930-2008) 1970-ci illərin ortalarına qədər xanəndəlik edib.

Sərraf Zəki oğlu 1969-1979-cu illərdə Nardarandakı 130 saylı uümumtəhsil məktəbdə oxuyub. O, qəsəbə mədəniyyət evinin musiqi kursunda təhsil alıb. 5 illik qarmon sinfini 3 ilə bitirib. Bu zaman onun 15 yaşı var idi. Sərrafın sənət müəllimi Fəxriyyə Atakişiyeva olub. Sərraf Nardaran mədəniyyət evində tarzən Ağasəlim Abdullayevin (haz. x.a.) rəhbərlik etdiyi "Dilkeş" özfəaliyyət xalq çalğı alətləri ansamblının qarmonçalanı olub. S. Zəkiyevin bu absamblda 5 il fəaliyyəti təbii ki, onun bir musiqiçi kimi irəliləməsində əhəmiyyətli dərəcədə rol oynamışdı.

Sərraf Zəkiyev 1980-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olub və mədəni-maarif fakültəsində əyani təhsil alaraq buranı 1984-cü ildə bitirib. O, təhsil ocağının fəal tələbələri sırasındaydı. İnstitutda professor Kamal Həsənovun rəhbərlik etdiyi mahnı və rəqs ansamblının qarmonçalanı idi. Bundan əlavə həmin təhsil müəssisəsində ustad xanəndə Qulu Əsgərovun rəhbəri olduğu x.ç.a. ansamblında da çalırdı. Doğma təhsil ocağındakı tədbirlərdə, paytaxtın müxtəlif mədəniyyət müəssisələrindəki konsetlərdə Sərrafın müğənniləri müşayiət etməsi, solo ifaları tamaşaçı tərəfindən maraqla qarşılanırdı. 1983-ci ildə Moskva şəhərində keçirilən Azərbaycan incəsənəti və mədəniyyəti günlərində Sərraf Zəkiyev də İncəsənət İnstitutunun bədii kollektivinin tərkibində şıxış edirdi. Ansamblın müğənniləri hazırda xalq artisti fəxri ada sahib olan Yaqut Abdullayeva, Mələkxanım Əyyubova və digərlər idi.

O illərdə İncəsənət İnstitutunun x.ç.a. ansamblı Azərbaycanın əksər rayonlarında konsertlər vermiş, kolxoz və sovxozlarda, pambıq tarlalarında çıxışlara da yer ayırmış, əmək, zəhmət adamlarına bol-bol istirahət bəxş etmişdi. Sərrafın qarmonunun məlahətli, ecazkar səsi tamaşaçıların zövqünü oxşamışdı.

1984-cü ildə S.Zəkiyev ali təhsilli mədəniyyət işçisi kimi təyinatla Astara rayonuna göndərilmiş və az müddətdən sonra hərbi xidmətə çağrılmışdı. O, 1 il 6 ay Xəzər dənizinin Jiloy adasındakı hərbi hissənin əsgəri olmuşdu.

1976-cı ildən toy şənliklərinə qədəm qoyan Sərraf bir müddətdən sonra toy ansambllarının, şadlıq mərasimlərinin əsas qarmonçalanlarından biri olmuşdur. O, mədəni səviyyəsi, tərbiyəsilə nümunə olduğu üçün əksər xaiq musiqiçiləri onunla yoldaşlıq etməyi münasib bilmişlər.

Sərraf 14 yaşında ikən musiqiçisi olduğu ilk toyu belə xatırlayır: "Nardaranda şair Ələmdar Mahirin toyu idi. Çox təmtəraqlı və səviyyəli məclis qurulmuşdu. Kəndimizə tez-tez dəvət olunan məşhur xanəndələrin hamısı bu təntənəli gecədə oxuyurdu. Bütün muğam dəstgahlarına yer verildi. Mən adəti üzrə klarnet dəstəsinin tərkibində çalırdım. Klarnetçalan qardaşım Balaş (1954-1913), nağara ifaçısı Şirzad Həsənov idi".

Babası və dayısının şairliyi, digər dayısının bir müddət xanəndəlik fəaliyyəti göstərməsi, Nardaran toylarında say-seçmə xanəndələrin muğamları oxuması Sərrafın sənət yoluna işıq salmış, onu hazır vəziyyətə gətirmiş və məsuliyyətini artırmışdır. Bir də ki, Zəki kişinin evinin sazanda dəstələrinin, xanəndələrin üzünə açıq olması, burada musiqi məclisləri, muğam müsamirələrinin keçirilməsi, maraqlı söhbətlərin aparılması da Sərrafın bir sənət adamı kimi yetişməsində mühüm rol oynamışdır.

Sərraf əsgər getməzdən əvvəl Azərbaycan Teleradio Verilişləri Komitəsində tarzən Ağasəlim Abdullayevin rəhbər olduğu "Araz" x.ç.a. ansamblında çalırdı.

Qarmon sənətinə sədaqətlə xidmət göstərən bu insan pedaqoji sahədə də özünü sınamış və bu işdə də bacarıq göstərmişdir. O, 2002-ci ildən Milli Konservatoriya nəzdində Musiqi Kollecinin,



2013-cü il. Sərraf Zəkiyev Sumqayıt Musiqi Kollecinin tələbələri ilə



S.Zəkiyev Milli Konservatoriya tərkibində Musiqi Kolleci tələbələri ilə. 2013-cü il

2006-cı ildən Sumqayıt Musiqi Texnikumunun (2010-cu ildən kollec) qarmon sinfində muğam tədrisi üzrə müəllimdir. Sərraf bir musiqiçi və bir müəllim kimi gördüyü işin dəyərini çox yaxşı duyur. O, daim öz üzərində işləməkdə, arayıb axtarmaqda və öyrənməkdədir.

Repertuarı geniş olan bu musiqiçinin ifasında ləzgi və Dağıstan xalqlarının rəqs melodiyaları öz xüsusi cəhətləri, incəlikləri ilə və sağ-sol ifalarla çox gözəl səslənərək insanın ruhunu oyadır və sümüyü tərpədir.

Sərraf Zəki oğlu Zəkiyev 1987-ci ildə alə qurub. Üç övladı var.

Sərrafın toyu da Nardaran toylarına uyğun olaraq məzmunlu və bədii cəhətdən zəngin olmuş, ənənəvi məclislər şəklində keçirilmişdi. Mahir qarmon ifaçısı Avtandil İsrafilov öz dəstəsilə çalmış, sazanda dəstələrinin müşayiətilə ustad xanəndələr Hacıbaba Hüseynov, Yaqub Məmmədov, Əlibaba Məmmədov, Ağaxan Abdullayev, Arif Babayev və b. oxumuşdular.

Məlumat üçün bildirirk ki, şair, tədqiqatçı alim Hacı Ələmdar Mahirin "Söz və muğam beşiyi Nardaran" kitabında (Bakı-2009) Sərraf Zəkiyev haqqında qeydlər vardır.Həmçinin həmin əsərdə Sərrafın babası Fail Muxtarın (səh.114-131), dayısı Əbülfəz Vəfanın (səh.314-336) həyat və yaradıcılıqları barədə bilgi almaq və qəzəllərlə tanış olmaq mümkündür. Bu kitabda xanəndə Kərbəlayi Arifin (səh.192) həyat və fəaliyyətinə də işıq salınmışdır.

Qan yaddaşından, kökdən gələn istedad bu nəslin nümayəndələrində həmişə özünü biruzə vermişdir. Sərrafın anası Solmaz Muxtar qızı (1936-1996) incə ruhlu şeirlər və qəzəllər yazmışdır.

Sərraf dünyaya gələndə Əbülfəz Vəfa Sevastopol şəhərində Sovet hərbi donanamasında 4 illik hərbi xidmətdə idi. O, həmin vaxt belə bir qəzəl yazmışdır.

Gör nə gözəl ad verib əhli cahan, Sərrafa,
Pişvazına baş əyir gülü reyhan, Sərrafa.

Başlasam gər tərifi, qorxuram ki, dörd ilə
Qurtara bilməm bunu mən yazam gilə-gilə.
Avazımın xoşluğu ilham verər bülbülə,
Bu sahədə heyrandır tar-kaman Sərrafa.

Qoy yazılsın tarixə anadan olduğu gün,
Evdə bir qayda olsun, eyləsinlər toy-düyün.
Fəxarətlə söyləsin cümlə müsalman bütün,
Əcəb gözəllik verib şahi-zaman Sərrafa.

Arzumdur sərraf kimi böyü, ucal, dol yaşa.
Firdovsidən incimə, o, qardaşdır Balaşa.
Etibar ilə Şəfa veribdilər baş-başa
Huşyarə qıl nəzər, baxır hər an Sərrafa.

Dörd tərəfi bağça-bağ, içində solmaz gülü,
Süxənpərvər olanın dilində solmaz gülü,
Vəfa deyir, saxlasın əlində Solmaz, gülü,
Gəlib üstəlik olsun o da heyran, Sərrafa.

2.87. SƏNƏTİ DƏRİN MƏHƏBBƏTLƏ SEVDİ



Abbas Abbasov

İnsan ümidlərlə və arzularla yaşayır. Bəzən fikirlərini bölüşmək üçün həmsöhbət axtarır, onu narahat edən mövzulardan söhbət etmək istəyir. Abbas da belələrindəndi. Özü yaxşı həmsöhbət olmaqla yanaşı, dinləmək mədəniyyətinə, çox şey öyrənmək həvəsinə malik olaraq arzularına yetmək naminə daim nəyisə axz etmək, daha artıq nəyəsə nail olmaq üçün çalışır. Özü demişkən kiçik yaşlardan musiqiyə can atıb. Öyrənə-öyrənə gəlib və bu gün də öyrənməkdə və axtarışlardadır. Ağıllı, savadlı, dünyagörüşü zəngin insanlarla söhbətləşməkdən zövq alır.

2011-ci ilin iyul ayında qarmonların hazırlanması və təmirilə məşğul olan ordubadlı usta Rəhmanın Bakıxanov qəsəbəsindəki emalatxanasında onunla rastlaşanda adımı çəkib, ayağa durub ədəb-ərkanla salamlaşanda öz adını Abbas deyə qeyd etdi. Üzünə diqqətlə baxdım, üz cizgiləri tanış gəlsə də xatırlaya bilmədim. O, mehribancasına dilləndi: "Əhsən müəllim, mən sizi çoxdan tanıyıram. İlk dəfə sizinlə Bakının "Gənclik" metrostansiyası yaxınlığındakı restoranda rastlaşmışıq. Qarmonçalan dostumuz, rəhmətlik Zahid Məmmədzadə həmin restoranda çalırdı. Siz onun yanına gəlmişdiniz. Zahid məni sizinlə tanış etdi. Çay içib şirin söhbət etdik".

Onun dediklərini xatırladım. 20 ildən artıq vaxt ötmüşdü. Abbas 2-3 il öncə mənimlə Milli Konservatoriya tərkibində Musiqi Kollecində də qarşılaşdığımızı, məndən məsləhət almaq istəyi ilə gəldiyini yada saldı.

Usta Rəhmanın emalatxanasında köklənən qarmonunu götürüb gedərkən bir-birimizə ev və mobil telefonlarımızın nömrələrini yazıb verdik. Həmin vaxtdan etibarən o, telefon vasitəsilə təmas tutur, nəvaziş göstərir, mənimlə görüşmək istədiyini, söhbətlərimə ehtiyacı olduğunu bildirirdi. Beləliklə, müəyyən məqam məsafələrində biz onunla görüşür, fikirlərimizi bölüşürük. Elə ilk anlardan onun mədəni davranışı, əxlaqi keyfiyyətləri, səmimiyyəti, sənətə və yaxşı sənətkarlara düzgün münasibəti məni özünə cəlb etdi. Onun sağlam sənət fikirlərini dinlədikcə, rəftarını, davranışını seyr etdikcə və səmimiyyətinə inandıqca daha bir ziyalı insanı və həqiqi sənət adamını kəşf etdim.

Abbas Rafiq oğlu Abbasov 1962-ci il sentyabrın 5-də Füzuli şəhərində anadan olub. Bu ailədə dörd övlad yetişib. O, üçüncü övladdır.

Rafiq Abbasov (1933-1999) işgüzar, bacarıqlı insan, yaxşı təşkilatçı və əsl ziyalı idi. Əvvəllər müəllim işləmiş, sonralar təhsildə və digər sahələrdə mühüm vəzifələrdə çalışmışdı. Rafiq Abbasovgilin əsli Sərdarlı kəndindəndir. Onun həyat yoldaşı Hacıyeva Şamayıl Əbülfət qızı ziyalı ailənin nümayəndəsi idi. O, öz işinin öhdəsindən bacarıqla gələn, rayonun səhiyyə sahəsində tanınan

tibb bacısı olaraq özünə yüksək nüfuz qazanmışdı. Şamayıl xanımın atası Əbülfət müəllim Füzuli rayonunda yüksək vəzifələrdə çalışmışdı.

Abbas 1969-1979-cu illərdə Füzuli şəhərinin 1 saylı ümumtəhsil məktəbində oxuyub. Musiqiyə, qarmon sənətinə olan sonsuz həvəs onu 1972-ci ildə Füzuli şəhər uşaq musiqi məktəbinə gətirib. 1977-ci ilə qədər burada təhsil alan Abbas qarmon sənətinin ifaçılıq qaydalarını, ilk incəlikləri layiqincə öyrənə bilib. İxtisas müəllimi Bəylər Əhmədov sevimli şagirdlərindən biri olan Abbasın aşıb-daşan sənət həvəsini və istedadını elə ilk məşğələlərdən hiss etmişdi. Odur ki, bu uşaqla daha ciddi və daha əhəmiyyətli məşğul olurdu. Abbas az keçməmiş musiqi məktəbinin ən bacarıqlı şagirdi kimi tanındı. O, artıq 2-ci sinifdən musiqi məktəbinin x.ç.a. ansamblının qarmonçalanı idi. Müntəzəm məşqlər, açıq konsertlər, məktəb tədbirləri və bayram şənlikləri Abbası gələcəyin mahir qarmonçalanlarından biri kimi yetirməkdə idi. Ansamblın rəhbəri Bəhram Məmmədov hər konsertdə Abbasın sololarından istifadə edirdi.

Abbas ixtisas müəllimi Bəylər Əhmədovun bütün tapşırıqlarını yerinə yetirir və evdə daim məşq edirdi. O, Bəylər müəllimin xatirəsini həmişə hörmətlə yad edir və ruhuna dualar oxuyur.

Abbasla ilk tanışlığımızda o, Bəylər Əhmədovun böyük qarmon ustası, əsl sənətkar olması barədə ürək dolusu danışdı və belə bir musiqiçinin adının tarixdə yaşamasının labüd olduğunu dilə gətirdi.

Abbas kiçik yaşlarda sevimli müəlliminin onun kövrək barmaqlarını qarmonun dilləri üzərində necə ardıcıllıqla gəzdirməsini, aplikaturanı öyrətməsini səmimiyyətlə xatırlayarkən bir anlıq kövrəldi də. O, Bəylər müəllimin oğlu Rasimin mobil telefonuna zəng edərək, onu Bakıya çağırdı və mənimlə görüşdürdü. Rasim müəllimdən atası barədə müsahibə aldığım anda Abbas Abbasov o qədər sevinirdi ki... Əlbəttə, qarmon sənətimizin tarixinə aid hazırladığımız kitabda Bəylər Əhmədov haqqında məlumat veriləcəyi üçün iş görülərkən nə mən, nə də Abbas müəllim onun özü barədə də yazılacağını fikrimizə belə gətirməmişdik. Lakin sonrakı anlarda Abbas müəllimlə tez-tez görüşüb anlaşarkən, onun ziyalı, xeyirxah xislətini dərk edərkən, sənət mülahizələrini dinlərkən, ifaçılığını eşidərkən və tədrisdəki fəaliyyətilə tanış olarkən belə bir qarmonçalanımızın da ömür yolunu nurlandırmağa qərar verdim. Bu qərarda səhv etmədiyimi səmimi oxucularımız hiss edəcəklər. Düşünürəm ki, bu işdə Allahın izni oldu. Allahın buyurduğu bir işi biz necə yerinə yetirməyə bilərik ki?

Əsas məqsədə qayıdaq. Musiqi vurğunu Abbas oxuduğu orta ümumtəhsil məktəbin özfəaliyyət ansamblında da çalırdı. O, məktəbin bütün bədii-kütləvi tədbirlərində fəallıq göstərirdi. Məktəb özfəaliyyət ansamblının rəhbəri məktəbin tərbiyə işləri üzrə direktor müavini Mehpara Quluyeva idi. Yuxarı siniflərdə oxuyarkən bu ansambla artıq Abbas özü rəhbərlik edirdi. Tez-tez təşkil olunan konsertlərdəki çıxışlar Abbas Abbasovu gələcək peşəkar sənətə hazırlayırdı.

Burada bir həqiqəti də qeyd etməliyik ki, Rafiq müəllim oğlu Abbasın həmişəlik musiqiyə bağlanmasını, peşəkar sənətə qovuşmasını nəzərdə tutmamışdı. Ata, istedadı güclü olsa da, övladının eləcə musiqidən xiridar olmasını, cəmiyyət üçün hərtərəfli, geniş diapazonlu insan kimi yetişməsini istəmişdi. Rafiq Abbasov oğlunun başqa sahə üzə ali təhsil alıb çalışmasını, müəyyən mərtəbələrə çatmasını arzu etmişdi. Əslində o, öz tövsiyələrilə Abbası həmin istiqamətə yönləndirirdi. Lakin tale də öz rolunu oynamışdı. Abbas musiqidən ayrıla bilmirdi, qarmon ifaçılığına istiqamət götürmüşdü, bu yol onu ardınca çəkib aparırdı.

Abbas orta məktəbin 8-ci sinfində oxuyanda Füzuli şəhər mədəniyyət evinin x.ç.a. ansamblında çalırdı. Xeyli konsertlərdə çıxış etmişdi. O, burada əsl ansambl qarmonçalanı kimi yetişirdi.

Abbas 14-15 yaşlardan artıq toylara da gedirdi. Toy dəstələrində özündən xeyli böyük musiqiçilr, xanəndələr onun ifasındakı işsartıları duyur və Füzulidə daha bir uğurlu qarmonçalanın yetişdiyini görürdülər. Əlbəttə, gənc Abbas yaşlı, təcrübəli sənətkarların tövsiyələrindən də



Füzuli mədəniyyət evinin x.ç.a. ansamblı konsertdə. Soldan: rəhbər Ramiz Əliyev, Cəmil İmranov, Yaşar, qoşa nağaraçı Şahmar İmranov, nağaraçı Yusif İsaoğlu, tarzən Kamil, klarnetçi Kamran, balabançı Əli, müğənni Səlim Fərhadov, qarmonçu Abbas Abbasov

yararlanırdı. O, neçə illər ansambl tərkibində yaşadığı rayon ərazisində, qonşu rayonlarda saysız-hesabsız konsertlərdə olmuşdu. Abbas xanəndələri bacarıqla müşayiət edirdi.



1980-ci il. Abbas Abbasov və Səlim Fərhadov

Abbasgilin evində mahir qarmon ifaçılarının lent yazıları, qramofon valları toplanmışdı. Bunları o, özü əldə etmişdi. Gənc qarmonçu Aftandil İsrafilovun, Zakir Mirzəyevin, Aslan İlyasovun və Zahid Məmmədzadənin ifalarını dinləyirdi. O, radioda və televiziyada verilən konsertləri də müntəzəm izləyir, oradan çox şey öyrənirdi. Abbas uşaq vaxtı Füzuli toylarında Ərşad Ağayar oğlunu da dinləmişdi.

Füzulidə özünü qarmonçalan kimi tanıdan Abbas ilk əvvəllər xanəndə Nizami Abdullayevlə (məşhur xanəndə olmuş Ağabala Abdullayevin oğlu), gitaraçalan Elbrus Səfərovla toylara gedirdi. Sonralar isə o, xanəndə Eyvaz İsgəndərovun dəstəsində çalışırdı. Bu toy ansamblı yalnız Füzuli ərazisində deyil, Masallıda, Lənkəranda, Ağcabədidə, Zəngilanda, Qubadlıda, Şəkidə, Mingəçevirdə, Beyləqanda və Bakıda da toylarda çalıb-çağırırdı.

Abbas Abbasov ən çox müğənni Asif Əliyevin dəstəsində çalışıb. O, rayon toylarında xalq mahnılarını, oyun havalarını, muğamları bacarıqla çalaraq hünər göstərir, məclislərin tələbatını tam ödəyirdi. Abbas müğənni Səlim Fərhadovla da səmimi yoldaşlıq edib və birlikdə el şənliklərində ad-san qazanıblar. Həmin müğənninin 1980-ci ildə audio-kasseti çıxmış və geniş yayılmışdı. Onu müşayiət edən musiqiçilər arasında Abbas Abbasov da xüsusi məharət göstərmişdi.

2009-cu ildə Abbas Abbasovun ifalarını özündə əks etdirən disk işıq üzü görüb. 1000 tirajla nəşr olunan bu disk ifaçının ilk böyük uğuru sayıla bilər. Abbas müəllifi mərhum sənətçimiz Zahid Məmmədzadənin "Turalı" rəqsini xüsusi şövqlə ifa edərək klip çəkdirib.

Bir zamanlar "Space" telekanalında yayımlanan, sevimli aktyorumuz, xalq artisti, professor Yaşar Nurinin aparıcısı olduğu "Unudulmazlar" verilişində, 2009-cu ilin yayında tamaşaçılar Abbas Abbasovun da yaradıcılıq yolu ilə tanış olmuş, ifasını dinləmişlər. Abbas "Xəzər" TV-nin "Ahəng" verilişinə də dəvət olunmuş və burada onun klipi də nümayiş etdirilmişdir.

Hörmətli ifaçımız pedaqoji sahədə də çalışır. O, 1980-ci ildən Füzuli şəhər Seyid Şuşinski adına 1 saylı uşaq musiqi məktəbinin qarmon sinfində dərs deməyə başlayıb. Bununla yanaşı Abbas Abbasov rayon müəllimlər evində fəaliyyət göstərən qarmon sinfinin də müəllimi olub, həm də bu mədəniyyət ocağının x.ç.a. ansamblında çalıb.

Abbas müəllimin çalışdığı musiqi məktəbi 1993-cü ildən köçkün təhsil ocağı kimi Bakıda məskunlaşıb. O, ona çox doğma olan bu təhsil müəssisəsində pedaqoji fəaliyyətini davam etməkdə və Bakı musiqi mühitinə qoşularaq ifaçılıq sahəsində çalışmaqdadır.

Abbas Abbasov 1980-ci ildə ailə qurub. Üç övladı var.

2.88. QARMONÇALAN-XANƏNDƏ



Nəhməd Hüseynov

Hər kəsin öz alın yazısı, öz taleyi var. Hər kəs öz taleyinin barını-bəhrəsini dərir. Allahın ona bəxş etdiyi istedada söykənərək uğurlu bir sənət ömrü yaşayır Nəhməd. Tanrının Nəhmədə verdiyi ağıl, kamal, saf düşüncə, fitri istedad bu gün öz bəhrəsini verməkdə, onu şana-şöhrətə çatdırmaqdadır.

Hüseynov Nəhməd Əhməd oğlu 1962-ci il sentyabr ayının 21-də Bakının Əmircan (Əmirhacan, Xilə) kəndində anadan olub. O, pələng ili, qız bürcündəndir.

Vaxtilə bu kənddən məşhur adamlar, böyük şəxsiyyətlər yetişmişdir. Böyük istedad sahibi, tarixçi, yazıçı, hərbçi Abbasqulu Ağa Bakıxanov, Axund Hacı Turab, dünya şöhrətli rəssam Səttar Bəhlulzadə, şair Səməd Mənsur, Tofiq Bayram və neçə-neçə istedadlı insanlar, elm və incəsənət adamları dünyaya Xilə kəndindən boylanmışlar. Bu kənd bu gün də istedadları ilə fəxr edir. Belə istedadlardan bir idə Nəhməd Hüseynovdur.

Dülgər sənətilə ailəsini dolandıran, halal zəhmətlə övladlarını böyüdən Əhməd kişi musiqisevər adam idi. Həm də ilk övladının kiçik yaşlarından musiqiyə olan həvəsini və qabiliyyətini hiss etmişdi. Nəhməd 3-4 yaşlarından ağzında hey nəğmələr oxuyurdu. Bu uşağın hansı mahnını zümzümə etdiyini ata-anası hiss etməsələr də buna sevinərdilər. Düşünərdilər ki, görünür nə isə var. Bir az boy atdıqdan sonra Nəhməd radioda və televiziyada verilən konsertlərin hamısını dinləməyə çalışardı.

Həyət-bacada oynayanda ağzındakı zümzümələrindən qalmazdı. Məhəllələrində toy-nişan olanda, klarnet-qarmon dəstəsi gəlin aparmağa gələndə balaca Nəhməd musiqi səsi eşitcək, ora qaçar, öz balaca yoldaşları arasında dayansa da bu sehirli musiqilər onu gələcək böyük sənət aləminə aparırdı. Bütün bunları seyr edən Əhməd ata gülümsünər, Həqiqət ana isə ürəkdən sevinərək oğlunu öpüb-oxşayıb, iyləyib boyuna baxar, saçlarını tumarlayıb: "Mənim balaca, nəğməkar balam"-deyərdi.

Nəhməd boy atıb məktəb yaşına çatdı. 1970-ci il sentyabr ayının 1-də anası Nəhmədin titrək, kövrək əllərindən tutub 84 saylı məktəbin birinci sinifinə apardı. Bir neçə aydan sonra balaca Nəhməd sinif yoldaşlarının və müəllimlərinin sevimlisinə çevrildi.


1972-ci il sentyabr ayında atası ad günü münasibətilə Nəhmədə Tatarstanın Kazan şəhərindəki musiqi fabrikində istehsal olunan, təhsil almaq (öyrənmək) üçün nəzərdə tutulan qarmon aldı. Qarmon nəinki Nəhmədi, bütün ailə üzvlərini sevindirdi.

Nəhməd 10 yaşında ikən özü sərbəst qarmon çalmağa çalışdı. Bir neçə hava öyrəndi. Sonra qəsəbələrindəki mahir qarmon ifaçısı Xanlar Cəfərovdan ev şəraitində fərdi dərs almağa başladı. Bir müddətdən sonra müəllimi Xanların qohumu Rauf Bünyadovun evinə gedərək çalğı öyrənməsini davam etdirdi.

Onun az vaxt içərisində öyrəndiklərini görüb duyanlar, düşüncəli insanlar Hüseyn kişiyə tövsiyə etdilər ki, oğlunu musiqiyə qoysun.

Beləliklə Nəhməd 1973-cü ildə Suraxanı rayonundakı Səttar Bəhlulzadə adına mədəniyyət sarayındakı beşillik musiqi kursunun qarmon sinifinə daxil oldu. Burada müəllimləri Əyyub Babayev, Vahid Axundlu, Kamil Cəfərov, Zemfira Hüseynovadan qarmon sənətinin ibtidaisini, incəliklərini öyrəndi. Adları çəkilən müəllimlər Nəhmədin dərsə davamiyyətindən, sənətə həvəsindən, əxlaq və tərbiyəsindən, səmimiyyətindən və qabiliyyətindən razılıq edərdilər.

Nəhmədgil orada təhsil aldığı illərdə onlara "Musiqi savadı" və "Solfecio" fənnlərindən Ü.Hacıbəyovun yetirməsi, bəstəkar, əməkdar incəsənət xadimi Hökumə Nəcəfova dərs deyirdi. Burada musiqi təhsili aldığı zamanlar 1975-76-cı illərdə Nəhməd o vaxtlar əməkdar incəsənət xadimi olan, sonralar isə bütün fəxri adları qazanan, bəstəkar, drijor, xormeyster Ramiz Mustafayevin mədəniyyət sarayında yaratdığı və rəhbərlik etdiyi xorda oxuyurdu. Göründüyü kimi, qarmon sənəti üzrə təhsil alan, bu işə həvəslə yanaşan Nəhməd oxumağa, mahnı və nəğmələrə heç vaxt biganə qalmamışdır. Həmçinin bu gənc musiqiçi uşaq xalq çalğı alətləri ansamblında da məşğul olurdu. Bütün bunlar onu gələcək peşəkar yola, izə hazırlayırdı.



Nəhməd qardaşı Hikmətlə məşq edərkən

1977-ci ildə beşillik qarmon kursnu bitirən Nəhməd sənədlərini Bakı Mədəni-Maarif Texnikumunun xor drijorluğu şöbəsinə verdi və buraya daxil oldu. Təhsil illərində onun xor drijorluğu üzrə ixtisas müəllimi Ənvər Məmmədov olmuşdur. Nəhməd texnikumda keçirilən bütün musiqi fənnlərini mükəmməl öyrənməyə çalışırdı. Həmçinin ona burada tar ixtisası üzrə də sənət öyrədirdilər. Gənc və istedadlı tələbə Ramiz Aşurbəylidən üç il ərzində tar çalmağı da öyrənə bildi. Texnikum həyatı Nəhmədin gələcəkdə peşəkar musiqi yoluna qədəm qoymasında xüsusi rol oynadı.Musiqi aləmi bu istedadlı müsiqiçini Nemət adıyla tanıyır. Yaşadığı məhəllədə, oxuduğu yerlərdə, musiqiçilər arasında hamı onu Nemət deyə çağırıb. Çünki, Nemət adı dilə daha tez yatır.

Həm də düşünürük ki, adında qazandığı Nemət sözü, elə bacarığının, qabiliyyətinin, uğurlu musiqiçi sənətinin, işgüzarlığının, çalışqanlığının, hörmət-izzətinin öz həyatına, doğmalarına, əsl-nəcabətinə və onu sevənlərə gətirdiyi əsl nemətdən qaynaqlanıb. Görünür bu da qismətdən doğur.

1981-ci ildə texnikumu bitirən Nemət Hüseynov təyinatla Quba rayonunun Püstə-Qasım kəndinə yollanır və burada mədəniyyət evinin direktoru işləyir. Çox çəkmir ki, o, hərbi xidmətə çağırılır. Keçmiş SSRİ-məkanının Krasnoyarsk vilayətində 2 illik hərbi xidmətdə olarkən Nemət musiqi işini davam edir. Hərbi hissədə boş saatlarda qarmon çalır, əsgər yoldaşlarını sevindirir. Burada o, "Yallı" ansamblı düzəldib istedadlı əsgərləri ora cəlb edir. Özü qarmon çalır, oxuyur, yoldaşlarından ibarət rəqs qrupu yaradır və hərbi hissədə verilən konsertlər ona başucalığı gətirir. Komandirlər onun ailəsinə tez-tez tərifnamələr göndərirlər. Nemətin "Yallı" ansamblı hərbi hissələr arasında 1982-ci ildə keçirilən baxış müsabiqədə 1-ci yer alır. Nemətə "Fəxri fərman"lar təqdim olunur, ona məzuniyyət verilir.

Nemət 1983-cü ildə hərbi hissədən vətənə dönərək ciddi şəkildə məşqlərə başlayıb sənətini püxtələşdirir, peşəkar sənətə qədəm qoyur. Toy-şənliklərində çalıb-çağırır, uğurlu çıxışlar edir, sevilir və seçilir.

Əmircan, Suraxanı, Hövsan, Türkan, Binə və s. qəsəbələrdə Nemət həm qarmonçalan, həm də müğənni kimi yaxşı tanınır. Onu öz dəstəsiylə birlikdə tez-tez toylara dəvət edirlər.

Nemət Hüseynov 1983-1985-ci illər ərzində Bakı şəhəri 30 saylı uşaq musiqi məktəbində qarmon ixtisası üzrə müəllim işləmişdir. Sonrakı illərdə müxtəlif musiqi kurslarında və dərnəklərində öz pedaqoji fəaliyyətini davam etdirmişdir.

1995-ci ildə Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecində qarmon ixtisası açılarkən Nemət oraya dəvət olunan ilk müəllimlərdən biri idi. O vaxtdan 2012-ci ilə qədər həmin tədris müəssisəsində not və muğam üzrə nümunəvi müəllim kimi çalışmışdır. Həmin ildən Binə qəsəbəsindəki 24 saylı onbirillik musiqi məktəbinin qarmon sinfində dərs deyir. Nemət sözün həqiqi mənasında əsl müəllimdir. Öz üzərində müntəzəm çalışır, bilik və bacarığını artırır. O, əsl ifaçı və həqiqi pedaqoqdur. Səbrlə, dözümlə, həvəslə və vicdanla bildiklərini öz tələbələrinə öyrətmişdir. Onun hazırladığı tələbələr imtahan sessiyalarında və baxış-müsabiqələrdə həmişə seçilmişdir. Bundan başqa o, işdən kənar, fərdi qaydada tələbələr yetişdirir ki, bu gənclər peşəkar musiqiylə məşğul olmağa başlayır, təhsillərinin qayğısına qalır, toy-büsatda, konsertlərdə və müxtəlif tədbirlərdə xalqa xidmət göstərirlər.

Nemətin evində korifey sənətçilərin ifaları olan lent yazılarından ibarət çox zəngin, qeyri-adi "fond"u vardır. O, özü bu sənətçilərin yaratdıqlarından vaxtaşırı öyrənərək sənətini artırır və



May 2011-ci il. Nəhməd Hüseynov Milli Konservatoriya nəzdində Musiqi Kollecinin tələbələri ilə

bunları sevimli tələbələrinə öyrədir. Bu gün Azərbaycan qarmon məktəbinin inkişafında Nəhmət Hüseynovun böyük rolu var desək, səhv etmərik.

Bu gün Nemətin çalğısında Teyyub Dəmirovun, Məmmədağa Ağayevin, Aftandil İsrafilovun qarmon ifalarının ətri duyulur. Bununla belə artıq onun da öz dəsti-xətti görünməkdədir. Onun çox böyük musiqi duyumu və böyük ürəyi var.

Nemət 1996-cı ildən "Suraxanı neft" NQÇİ-nin mədəniyyət sarayında tanınmış musiqiçi Elxan Müzəffərovun rəhbərlik etdiyi "Vətən" adlı xalq çalğı alətləri ansamblında çalışırdı. O, burada həm qarmonçalan və həm də müğənni kimi solist idi.

Tarzən-pedaqoq Elxan Müzəffərov əsl muğam bilicisidir. Nemət muğamların demək olar ki, hamısını bu şəxsdən öyrənmişdir.

Yeri gəlmişkən deyək ki, "Vətən" ansamblı 1961-ci ildən müvəffəqiyyətli bir yola qədəm qoyub. İndiyədək bu ansamblda neçə-neçə musiqiçilər və müğənnilər yetişərək peşəkar sənətdə özlərinə yol tapmışlar. Onlardan biri də Nemət Hüseynovdur. Bu kimi işlərdə Elxan Müzəffərovun zəhməti danılmazdır.

Nemət "Vətən" ansamblının tərkibində tez-tez Suraxanı rayonunun ən mühüm tədbirlərində, bayram şənliklərində konsertlər vermişdir. Ansamblın tərkibində olmaqla, müğənniləri müşayiət etməklə kifayətlənməyib, özü də xalq mahnıları oxuyaraq alqışlar qazanmışdır.

M.Hüseynov 2008-ci ildən «Vətən» ansamblının bədii rəhbəri olub. Həmin dövrdən ansambl dövlət bayramlarında Bakıda və rayonlarımızda konsertlər vermişdir.

Bir xatirəyə yer verək: Bir gün tarzən Elxan Müzəffərov rəhbərlik etdiyi ənənəvi Azərbaycan muğam üçlüyü ilə Bakının muğamsevər kəndlərindən biri olan Türkana toy məclisinə dəvət olunur. Nemət də klarnet-qarmon dəstəsinin tərkibində həmən toyda çalırmış. Xanəndə bir neçə muğam hissələri, təsniflər, mahnılar oxuyandan sonra səsi yorulur.

Bu təbii haldır, xanəndə hər gün toyda oxuduğu üçün yorulur, soyuqdəymə nəticəsində xəstə-





N.Hüseynovun kasetindən görünüş

lənir və s.

Toyda iştirak edən qonaqlar "Çahargah" muğam-dəstgahını sifariş verirlər. Çıxılmaz vəziyyət yaranır. Elxan müəllimin baxışları Nemətə dikilir. Nemət baxışı başa düşür. Fikrini toplayaraq dəfi əlinə götürür və tar-kamanın müşayiətilə "Çahargah" dəstgahını lazımınca toy iştirakçılarına təqdim edir və alqışlar qazanır.

Nemətin xanəndəlik sənətinə yiyələnməsinin bir sirri də vardır. O, 1988-ci ildə xanəndə Əliyusif Əlizadədən xüsusi olaraq fərdi qaydada muğam, xanəndəlik dərsi almışdır. Əliyusif Əlizadə vaxtilə ustad xanəndə Zülfi Adıgözəlovun muğam sinifində oxumuşdur. Əliyusif müəllim Bakıdakı 3 saylı incəsənət məktəbinin səs-muğam sinifində çalışmışdır.

2000-ci ildə qarmon ifası ilə Nemət müəllim Azərbaycan radiosunun fondu üçün "Rəvahi", "Zabul", "Bayatı-İsfahan", "Segah", "Çahargah", "Dilkəş", "Bayatı-Qacar" muğamlarını, "Ənzəli", "Sevinci", "Arifi", "Qızıl gül", "Cüt bacı", "Firuzə", "Kolxozu", "Dilican", "Kinto, "Tiflisi" adlı oyun havalarını yazdırmışdır.

İfaçının 2011-ci ildə muğamlar və rəqslərdən ibarət audiokaseti və kompakt diskləri işıq üzü görmüşdür. Bunlar az vaxt içərisində ölkəmizdə və onun sərhədlərindən uzaqlarda yayılaraq sənətçiyə şöhrət gətirmişdir.

Nemətin kassetlərindən tədris vəsaiti kimi də istifadə etmək olur. Çoxdan unudulmuş oyun havaları Nemətin ifasında yenidən yaddaşlara qayıtdı. Çaldığı muğamları tələbələr və şagirdlər kassetlərdən və disklərdən öyrənirlər.

2002-ci ildə Nəhmət Hüseynovun Azərbaycan Televiziyasında solo çıxışları olmuşdur. Bu çıxışlar musiqi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmışdır. 2003-cü ildə Suraxanı mədəniyyət sarayında Nemətin qarmon ifaçısı kimi uğurlu solo-konserti yaddaşlarda qalan bir mədəniyyət tədbiri idi.

Nəhməd Hüseynov 1990-cı ildə ailə qurmuşdur. Bir qızı, bir oğlu vardır. Qızı Həqiqət xanım Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzəriyyə fakültəsinin sonuncu kurs tələbəsidir. Oğul Abbas hərtərəfli bacarıqlı gəncdir. Zərgər sənətinə yiyələnib bu sahədə çalışsa da, videoçəkilişlər etməyi, səsgücləndirici aparatları, digər cihazları, müxtəlif texniki avadanlığı işlətməyi bacarır.

Uşaqlıqdan nəğməyə vurulubdu,
Musiqidən, mahnıdan yoğrulubdu,
Bulaq kimi, çeşmə tək durulubdu,
Pakdır, safdır onun hər bir niyyəti,
Tanrımız qorusun bizim Nemətı.

Addım-addım sənət yolu gəlibdi,
Sevdiyi bu işi amal bilibdi,
Ürəklərdən qəm-kədəri silibdi.
Ustadlardan alıb bu əmanəti,
Tanrımız qorusun bizim Nemətı.

Müəllimlərini hörmətlə anır,
Onları bir örnək, nümunə sanır.
Qarmon aləmində alışıb, yanır,
Alovludur sənətə məhəbbəti,
Tanrımız qorusun bizim Nemətı.

Neçə üslubları o, birləşdirib,
Onları çalğıda gerçəkləşdirib,
Öz ifa yolunu gözəlləşdirib.
Axtarış edib, çəkib əziyyəti,
Tanrımız qorusun bizim Nemətı.

Sənətkar tək indi yüksəkdə durur,
Saf ürəyi sənət eşqilə vurur,
Neçə uğurlarla keçirir qürur.
Bu yollarda çəkib halal zəhməti,
Tanrımız qorusun bizim Nemətı.

Qarmon ifası disklərə yazılıb,
Azərbaycana , dünyaya yayılıb,
Hər yerdə ustad qarmonçu sayılıb.
Güclüdür onun sənət keyfiyyəti,
Tanrımız qorusun bizim Nemətı.

Bu gün öncül qarmonçalan sayılır,
Qarmonundan ətrafa nur yayılır,
Eşidən nadan insanlar ayılır.
Çalğı ilə qurur xoş ünsiyyəti,
Tanrımız qorusun bizim Nemətı.

Musiqi bağında barı gözəldi,
Xanəndə oldu, bu yola düzəldi.
Oxuduğu muğamatdı, qəzəldi,
Hər yerdə razı salır cəmiyyəti,
Tanrımız qorusun bizim Nemətı.

Ənsən Nemətlə fəxr edir, şadlanır,
Hər bir uğuruna o, qanadlanır,
Bu şeir dostun adına adlanır.
Qarmonda muğamın odur zinəti,
Tanrımız qorusun bizim Nemətı.
Ə.Rəhmanlı, 15.02.2012

2.89. BAKI TOY ANSAMBLLARININ İFTİXARI



İftixar Mütəllimov

İftixar Teyyub oğlu Mütəllimov 1963-ci il fevral ayının 19-da Bakıda ziyalı ailəsində anadan olub. Bu ailədə iki oğul böyüyüb. İftixar ilk övladdır.

Teyyub Eyyub oğlu Mütəllimov (1939-2000) Azərbaycan Pedaqoji İnstitutunda müəllim işləyib.O,1980-ci ildə "Riyaziyyatın orta məktəbdə tədrisi metodikası" mövzusunu müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi alıb. Teyyub müəllim ömrünün sonuna qədər Pedaqoji İnstitutda çalışıb.

Teyyub Mütəllimov musiqi xiridarı, muğamsevər bir insan idi. İstedad sahibi olan bu şəxs tar çalırdı. Ailə üzvləri evdə onun tar ifasını çox eşidiblər. Uşaq çağlarında İftixar atasının ifasını maraqla dinlər və musiqiyə həvəs göstərərdi.

Teyyub Mütəllimov ali təhsil aldığı illərdə Pirallahı qəsəbə mədəniyyət evinin x.ç.a. ansamblına rəhbərlik etmişdi.Həmin vaxt onun qardaşı Arif də tar çalır və Teyyub müəllimin rəhbərlik etdiyi özfəaliyyət ansamblında fəaliyyət göstərirdi. Sonralar isə Arif qarmon çalmağa başlamışdı.

Təbii ki, bu övladlara da istedad və musiqiyə vurğunluq gen vasitəsilə ötürülmüşdü. İftixarın babası Eyyub Səməd oğlu Mütəllimov (1915-1990) yaxşı tar çalırmış.Əslən Zirə kəndindən olan bu insanın musiqiçilər arasında böyük hörməti vardı. O, ustad tarzən, xalq artisti Bəhram Mansurovla dost idi. Xalq artisti, tarzən Əliağa Quluyevlə (1917-1988) birlikdə tar sinfində təhsil almışdı. Uustad tarzən Məşədi Məlik Mansurovun bir tarı Eyyub Mütəllimovda olub.Eyyub Səməd oğlu Moskva Ticarət İnstitutunun Bakı filialını bitirmişdi. O,1979-cu ilə qədər neft sənayesi işçilərinin Fəhlə Təchizatı Cəmiyyətinin ticarət idarəsində (ORS – Общество рабочих снабжений) baş mühasib işləmişdi. İstirahət vaxtlarında və məzuniyyət zamanı ailəsi,övladları,nəvələri və qohumlar üçün tarını səsləndirirdi. O, muğamlarımızı dərindən bilirdi. İftixar babasının tarının səsindən, muğamlardan doymazdı.

Arif Eyyub oğlu Mütəllimov 1945-ci ildə anadan olub. Ali təhsillidir. Orta ümumtəhsil məktəbin müəllimi olub. Qarmonu və tarı bacarıqla çalıb. 1968-ci ildən 1980-ci ilə qədər kütləvi tədbirlərdə, konsertlərdə və el şənliklərində çıxış edib. O, Pirallahı qəsəbəsində yaşayır. Həmin qəsəbənin mədəniyyət evinin özfəaliyyət x.ç.a. ansmblının uzun illər üzvü olduğu üçün bayram tədbirlərində, konsertlərdə qarmonu ilə xalqa xidmət göstərib.

Arif müəllim Zirə kəndinin sakinləri olan, klarnetçalan Ənvər Məmmədov və nağara ifaçısı Sabir Baxşıyevlə bir dəstədə olaraq toy-büsatın bacarıqlı və sevimli sənətkarlarından biri kimi tanınıb.Məşhur klernetçalan Həsən əmi (Həsən Məhərrəmov) Zirə toylarına gələrkən onun dəstəsində qarmonçalan Arif olardı.

Arif müəllim Pirallahı qəsəbəsində orta ümumtəhsil məktəbdə tədris hissə müdiri vəzifəsində çalışıb.Təqaüdə çıxana qədər burada işləyib.

Fikrət Eyyub oğlu Mütəllimov 1951-ci ildə dünyaya gəlib.Qarmon çalıb. İstedadı güclü olsa da



İftixar Mütəllimov, klarnetçalan Dilavər Məmmədov

musiqi ilə həvəskar kimi məşğul olub.

Səməd Eyyub oğlu Mütəllimov 1953-cü ildə həyata göz açıb.Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini bitirib.Pirallahıdakı 186 saylı orta ümumtəhsil məktəbin direktoru vəzifəsində caişıb. Hazırda neft sənayesində mühəndis işləyir. O da musiqiyə istedadlıdır.Tar,qarmon və kamança alətlərini mükəmməl ifa edir.

İftixarın kiçik əmisi Natiq Mütəllimov 1955-ci ildə anadan olıb. O da qarmon çalmaq bacarığına malikdir. Bununla həvəskar kimi məşğul olur.

İftixar ailə ənənəsinə sadiq qalaraq musiqisevər əmilərin ifa etdikləri musiqi alətlərinin səsini müntəzəm eşidər və canında bu sənətə sevgi hiss edərdi. Bütün bunlar onun musiqiçi olması ilə nəticələndi.

İftixar Mütəllimov 1970-ci ildə 240 saylı ümumtəhsil məktəbin birinci sinfinə daxil olmuş və 1978-ci ildə səkkizinci sinifi bitirmişdir. Sonra isə 54 saylı məktəbdə oxumuş,1980-ildə orta təhsili başa vurmuşdur.

O, az yaşlardan doğmalarından qarmon səsi eşitdiyi üçün bu səsin sehrinə düşmüş və bu alətdə çalmaq arzusunda olmuşdur. Virtuoz qarmonçu Zakir Mirzəyevin televiziyadakı ifaları onu özünə cəlb edirdi. Avtandil İsrafilovun da televiziya və radiodakı konsertləri, bu böyuk sənətkarın hər bir çalğısı İftixar üçün möcüzəli bir aləm yaradırdı.O,dördüncü sinifdə oxuyarkən atası ona tədris qarmonu "İdel" aldı. Buna qədər o, musiqi eşidən kimi evdə masanın üstünü əllərilə vurur, ritmlər tuturdu. Pirallahı qəsəbəsində Arif əmisigildə olanda, klarnetçalan Ənvərlə əmisinin məşqi zamanı nağaranı götürüb çalırdı. Bu uşaqlar üçün düzəldilmiş balaca nağara idi.

İftixar "İdel" qarmonu ilk əvvəllər bir barmaqla çalıb xırda mahnılar öyrənirdi. Sonralar isə tam sərbəst olaraq üç barmaqla çalmağa başlamışdı.

240 saylı ümumtəhsil məktəbin tərbiyə işləri üzrə direktor müavini Nazim Məmmədbəyov şagirdlərdən ibarət qarmonçalanlar ansamblı yaratmışdı.İftixar da məktəb özfəaliyyət dərnəyinin



2008-ci il. AzTV-nin "Səhər" proqramı. Əməkdar artist Bəsti Sevdiyeva, kaman ifaçısı Toğrul Əzədullayev, qarmonçu İftixar Mütəllimov, klarnetçalan Hacı Həmidoğlu və digərləri



2010-cu il. AzTV-nin "Ovqat" verilişi. Əməkdar artist Bəsti Sevdiyeva, qarmonçalan İftixar Mütəllimov, klarnetçalan Hacı Həmidoğlu, qanun ifaçısı Gülşən Eyvazova və ansamblın digər üzvləri

fəallarından biri idi. Məktəbdəki konsertlərdə çalırdı. Təhsil ocağının radio qovşağı ilə İftixarın sola ifalarını təşkil edirdilər. 6-cı-7-ci siniflərdə oxuyarkən o,daha sərbəst və yaxşı çalmağa başlamışdı. Məktəblərarası müsabiqələr keçirilərkən Nazim müəllim İftixarı da aparırdı. 54 saylı məktəbdə oxuduğu iki il ərzində də İftixar məktəbin özfəaliyyət ansamblında çalır və bütün konsertlərdə fəal olurdu.

İ. Mütəllimov 1980-1985-ci illərdə Politexnik Universitetin (haz. Texniki Universitet) maşınqayırma fakültəsində təhsil almış və mühəndis-mexanik ixtisasına yiyələnmişdir. O,instituta daxil olanda əmisi Arif öz qarmonunu ona bağışlamışdı. İftixar ali təhsil ocağında gənc bəstəkar Nazim Qəmərlinskinin (1957-1998) rəhbərlik etdiyi ansamblda, rəqs ansamblında və oxuduğu fakültənin ansamblında da çalırdı. Təyinatla Bakıdakı Elektron Hesablama Maşınları zavoduna gəlmiş və burada sex ustası,münəndis-konstruktor işləmişdir.O,zavodda Fərəc Xudazarovla birlikdə instrumental ansambl yaratmış, müəssisənin bədii gecələrində və bayram konsertlərində bacarıq nümayiş etdirmişdir.Bu ansamblın AZ TV-də "Biz əsgər gedirik " adlı verilişindəki çıxışı çox uğurlu olmuşdu.

İftixar 1991-ci ildə Bakı soyuducu zavoduna işə qəbul olunmuş və burada 1 il çalışmışdır. Sonra isə 3 saylı nəqliyyat idarəsində hərəkətin təhlükəsizliyi və təhlükəsizlik texnikası üzrə mühəndis işləmişdir. O, 1998- ci ildən ARDNŞ-də Xəzər dəniz neft donanmasının gəmi təmiri zavodunda mühəndis vəzifəsində çalışır.

Qeyd etməliyik ki,Sovet dönəmində bəzi ali təhsil müəssisələrində hərbi kafedra var idi. Burada tələbələrə hərb sənəti öyrədilirdi. İftixar Mütəllimov 1984-cü ildə Naxçıvan ərazisindəki Sovet hərbi hissəsinin birində qısa hərbi xidmət keçərək ehtiyatda olan zabit kimi ordudan tərxis olunmuşdur.

İftixar da qarmon sənəti üçün doğulanlardandır.Ürəyində bu peşəyə dərin sevgi olan bu insanın sənət üslubu tam şəkildə milli cizgilər və milli çalarlarla zənginləşmişdir. Doğrudan da bu gün milli üsluba xidmət edən qarmon ifaçılarımız içərisində İftixarın adını iftixarla çəkirik. O, klarnetçi dəstəsinin ən yaxşı və ən dürüst müşayiətçisi kimi birincilər sırasındadır. Elə bu üstün cəhətlər onu neçə-neçə toy ansambllarının tərkibinə daxil edib. Bu sırada Bakı toylarının ən sevimli, ən populyar klarnet ifaçılarının; Əlirza Orucov, Hacı Həmidoğlu və Dilavər Məmmədovun adını çəkə bilərik.

İftixarın müşayiətçi kimi formalaşıb önə çıxmasının obyektiv cəhətini söyləməliyik. O, ilk toylarda zirəli klarnetçalan Ənvərin dəstəsində ionika ifaçısı kimi çalışıb. Az sonra Ənvər sənətdən uzaqlaşıb, klarnetini və öz sənət yerini qardaşı Dilavərə verərkən onun dəstəsinin ionika ifaçısı da İftixar olmuşdur. Dilavər Məmmədov Teleradio Verilişləri Komitəsinin "Xatirə" x.ç.a. ansamblında çalarkən, həmin ansamblın qarmon ifaçısı Cavanşir Məmmədovla toylara da gedirdi. Bu dəstəni İftixar Mütəllimov elektro-orqanla məharətlə müşayiət edirdi. Cavanşir onun yaxşı musiqiçi, əla müşayiətçi olduğunu duyub İftixarı Hacı Həmidoğlunun toy ansamblının tərkibinə aparmışdı. Sonralar Hacının da, Dilavərin də dəstəsinə qatılan İftixar onları əla müşayiət edirdi. Üstün cəhət o idi ki, o, ionikada sağ-sol əllərlə müşayiət edib harmonik akkordlarla boşluğu doldurur, lazım gələn anlarda tonika verirdi və həm də həmin dövrdə Bakı toy klarnetçalanlarının bütün repertuarını öyrənirdi. Odur ki, vaxtında öyrəndikləri və geniş təcrübəsi onu neçə-neçə toy ansambllarının daimi klarnetçalanı etdi. O, yaxşı klarnetçalanlardan biri olan Raufla uğurlu toy-büsat anları yaşayıb. Rauf da zirəli nağaraçalan Sabirlə Zirə qəsəbə toylarında çalırdı.

İftixarın söylədiklərindən: "Toylarda ionika çaldığım zaman repertuara daxil olan bütün melodiyaları evdə qarmonla məşq edirdim. Beləliklə özümü toylara qarmonçalan kimi hasırlayırdım".

İftixar Azərbaycan Teleradiosu nəzdində fəaliyyət göstərən x.ç.a. ansambllarına dəvət olunsa



2009-cu il. Zirə kəndi. Soldan: Namiq, İftixar, Nizami, Dilavər, Rasim, İlqar, Sabir, Gülnarə, Zakir

da gedə bilməyib. Səbəb onun istehsalatda çalışması olub. Bəzi hallarda isə "Araz" x.ç.a. ansamblının və bəzi qrupların tərkibində televiziyada çalıb.

İ.Mütəllimov 1985-ci ildən indiyə qədər mahir klarnet ifaçıları Dilavər Məmmədov və Hacı Həmidoğlunun toy ansambllarının əsas qarmonçalanı kimi layiqli və dəyərli sənət nümayiş etdirməkdədir. H.Həmidoğlunun studiyalarda yazdırdığı bütün ifaların qarmon ifaçısı İ.Mütəllimov olub. Biz tez-tez AZ TV-də və "Space" telekanalında H.Həmidoğlunun solo ifalarında İftixarı onun ansamblının tərkibində görürük.

"Səyyad" uşaq rəqs qrupu 2000-ci ildə Türkiyə ölkəsində festivalda olarkən müşayiətçi musiqiçilər arasında İftixar və Dilavər də var idi.

Həm istehsalatda çalışmaq, həm də musiqi sənəti ilə məşğul olmaq heç kimə asan gəlməsin. Əlbəttə bu böyük işgüzarlıq, zəhmət və hünər tələb edir.

Qarmon sənətinə olan dərin məhəbbət İftixarı çətinliklərə sinə gərməyə və musiqi sahəsindən uzaq düşməməyə imkan yaratmışdır. Ümid etmək olar ki, o, hələ çox işlər görmək imkanını, qabiliyyətini və məharətini tam yerinə yetirməmişdir. Bu işgüzar insan, istedadlı musiqiçi öz milli çalğı üslubundan çıxış edərək qədim el havalarımızı, qarmonun səciyyəvi cəhətlərinə uyğun olan bir sıra bəstəkar əsərlərini disklərə yazdırmalı və internet vasitəsilə yayılmasına çalışmalıdır. Bizdən arzu etmək və tövsiyə vermək, İftixar bəydən isə əməl etmək qalır. Qoy onun milli boyalarla zəngin ifaları qarmon sənətimizin rövnəqlənməsinə xidmət etsin. İftixar Mütəllimov Bakı toy ansambllarının iftixarıdır desək, səhv etmərik. Mütəllimovlar şəcərəsi milli musiqimizə və sevimli qarmon sənətimizə layiqli bir nümayəndə bəxş etmişdir. O, ədəbi, tərbiyəsi və intellekt səviyyəsi ilə də fərqlənir. Belə bir nəcib insan və dəyərli sənətkar da musiqi tariximizdə yaşamalıdır.Çünki o da sənətdə və cəmiyyətdə mövqe tutmuş şəxslərdəndir.

İftixar Teyyub oğlu 1988-ci ildə ailə qurub. Bir oğlu, bir qızı vır.

2.90. «SEGAH»DA ONUN KÖNÜL TƏRANƏLƏRİ ÖZ ƏKSİNİ TAPIR



Elçin Yunusov

Onun adı xalq musiqimizə xidmət edənlərə yaxşı tanışdır. Musiqi aləmində bir mahir qarmon ifaçısı olaraq o, bərdəli Elçin kimi tanınır. Lakin o, əslən laçınlıdır.

İdarə etdiyim toy mərasimində və qonaq getdiyim bir-neçə toylarda onun ifasını yaxından görüb dinləmiş, özünəməxsus çalğılardan çox razı qalmış və ona səmimi rəyimi bildirmişəm. Bunu da deməliyəm ki, bu gün uğurla addımlayan sevimli, zəngin və çoxçalarlı qarmon sənətimizin şanlı səhifələrinə o, öz adını yaza bilib və öz imzasını qoyub. Musiqiçilərimiz arasında təsirli, emosional, özünəməxsus «Segah»ı ilə daha çox şöhrətlənib. Elə isə onun ömür və sənət səhifələrini vərəqləyək.

Elçin Edilxan oğlu Yunusov 1964-cü il aprelin 7-də Bərdə şəhərində musiqiçi ailəsində anadan olub. Edilxanın ailəsində iki qız və bir oğul böyüyüb. Elçin üçüncü övladdır.

Edilxan Yediyarov 1926-cı ildə Laçın rayonunun Kamallı kəndində dünyaya gəlib. Uşaqlıqdan musiqiyə meyilli olub və kamança çalmağı öyrənib. Bu sənətlə ciddi və mükəmməl məşğul olduğu üçün sənətdə öz yerini tutub. 1958-ci ildə Bərdəyə köçüb. Toyların birində çalarkən məşhur bəstəkar Soltan Hacıbəyovla (1919-1974) rastlaşıb. Bəstəkar onu diqqətlə dinləyib, çox bəyənib və təhsili ilə maraqlanıb. Edilxan musiqi üzrə heç bir təhsili olmadığını, kamança çalmağı özü öyrəndiyini bildirəndə S.Dadaşov təəccübünü gizlətməyib. Biləndə ki, qarşısındakı kaman ifaçısı X.Şuşinskini, Yaqub Məmmədovu müşayiət edib, söyləyib: «Sən elə bil konservatoriya bitirmisən».

Edilxan Yediyarov uzun illər Qarabağ toylarında Xan Şuşinski, Yaqub Məmmədov, bərdəli Cəlal, yevlaxlı İbris Nəbiyev, Vəli Məmmədov, Süleyman Abdullayev, Sabir Novruzov, Vahid Abdullayev kimi xanəndələrlə çiyin-çiyinə çalışıb. O, gənclik illərində respublikamızda keçirilən «Turac təranələri» adlı baxış-müsabiqədə iştirak edərək birinci yeri tutub.

2006-cı ildə Edilxan kişinin 80 illik yubiley tədbirində ölkəmizin ən tanınmlı musiqiçiləri, əməkdar və xalq artistləri iştirak edib. 1990-cı ildə rejissor Şahmar Ələkbərov görkəmli şair Əliağa Vahidin həyatından bəhs edən «Qəzəlxan» filmini çəkmişdir. Orada meyxana səhnəsində gözlərində tünd eynək kaman ifaçısı vardır. Həmən rolda Edilxan çəkilmişdir. Ş.Ələkbərovun arayıb-axtarıb bu epizoda Edilxanı çəkməsinin obyektiv səbəbi odur ki, Edilxan gənclik illərindən Ə.Vahidi tanımış və yaxın münasibətdə olmuşdu.

Edilxan Yediyarov radionun fondu üçün «Segah» muğamı və davamı olaraq xalq mahnısı ifa edib. O, 1986-cı ildə Bakıya köçüb. Şəhərə köçməsinin əsas səbəbi oğluna olan sonsuz məhəbbəti olub. Elçin 1982-ci ildə Bakıya gəlib. Ölkəmizin baş kəndində məskunlaşması əksər mahir ifaçılarımız kimi onun üçün də labüd idi. Geniş miqyasda tanınmaq və sənəti inkişaf etdirmək üçün mərkəz şəhərdə daha yaxşı şərait və böyük imkanlar var.



1962-ci il. Şuşanın Xəlfəli kəndinin üstü. Birinci sırada soldan ikinci: Xan Şuşinski, Vəli Məmmədov, sağdan birinci: Edilxan, qarmonçu Əyyub və tarzən Bəylər

Elçin Yunusov Bərdə şəhərindəki 3 saylı orta ümumtəhsil məktəbi 1981-ci ildə bitirib. Onun musiqi istedadı lap erkən yaşlardan hiss olunub. Edilxan kişinin sənət yoldaşlarının tez-tez onun evinə gəlməsi, maraqlı söhbətlər, çalıb-oxumaq uşağın musiqi təxəyyüllünün formalaşmasında mühüm əhəmiyyət kəsb edib. Əslində isə gendə olan coşqun istedad və atasının evdə tez-tez səsləndirdiyi kaman səsi Elçini uşaqlıqdan musiqiyə bağlayıb. İlk müəllimi olan atası əvvəldən ona səviyyəli qarmon aləti alıb. O, əksər uşaqlar kimi tədris aləti olan «Kazan»la yox, atısının Zakir Mirzəyevdən aldığı, Tula şəhərində hazırlanan sənətkar qarmonunun dilləri üzərində öz kövrək, titrək barmaqlarını hərəkət etdirərək musiqi öyrənib. 8 yaşından qarmon çalmağa başlayıb. Hər görəni təəccübləndirib. Atası ilə toya gedən məşhur xanəndələr bu bacarıqlı uşağı hər dəfə dinləyəndə «bəh-bəh» söyləyib başına sığal çəkiblər. Elçini 9-10 yaşlarından atasının çaldığı toylara onun sənət dostları olan məşhur xanəndələr özlərilə məclislərə aparıblar. Azyaşlı uşağın ustad sənətkarlarla bir səhnədə əyləşib çalmağı hər dəfə toy qonaqlarının böyük marağına səbəb olurdu. Bax, beləcə balaca musiqiçi sənət yollarında ilk kövrək addımları ilə irəliləyərək, bu cür boy ataraq böyüyüb və ucala-ucala gəlib.

Elçin 1978-ci ildə Bərdə şəhərindəki 1 saylı uşaq musiqi məktəbinin qarmon sinfinə qəbul olunub. Bacarığı nəzərə alınaraq sinifdən-sinfə keçirilib. 1979-cu ildə 3-cü sinifdə ikən yay baxış-müsabiqəsində iştirak edib. «Xalabacı» xalq oyun havasını çalaraq birinci yeri tutub. İxtisas müəllimi Əşrəf Əzimov və məktəb direktoru Yusif Vəliyev Elçinlə fəxr edir və uğurlarına təkan verirdilər.

Elçin Əşrəf Əzimovun ən istedadlı şagirdi olduğu və proqramı hamıdan qabaq hazırladığı üçün müəllimin başqa işləri olduqda o, şagirdlərinə dərs keçməyi bu bacarıqlı oğlanın öhdəsinə buraxırdı. Elçin 1981-ci ildə musiqi məktəbini uğurla başa vurub.

Məktəb illərində artıq Elçin Yunusov Qarabağ toylarında Yaqub Məmmədov, Arif Babayev, Süleyman Abdullayev, Əbülfət Əliyev, Şahmalı Kürdoğlu kimi xanəndələrlə bir dəstədə olurdu. O, xalq artisti Sara Qədimovanı Qarabağ konsertlərində müşayiət edib.

E.Yunusov 1982-1984-cü illərdə Bakıda Salyan kazarması adlanan hərbi hissənin orkestrində xidmət edib.

Elçin 1992-ci ildə İnşaat Mühəndisləri Universitetinin sənaye və mülki tikinti fakültəsini bitirib.

Gənc musiqiçi incəsənət sahəsi üzrə təhsil almaq arzusunu da yerinə yetirib. 2005-ci ildə Mədəniyyət və İncəsənət Universitetinin musiqi sənəti fakültəsini, qarmon sinfinin müəllimi və x.ç.a. orkestri rəhbəri ixtisası üzrə bitirmişdir. Burada onun ixtisas müəllimi Sərxan Abıyev olub. E.Yunusov köçkünlük həyatı yaşayaraq Bakıda məskunlaşan Xan Şuşinski adına muğam-musiqi məktəbinin qarmon sinfində dərs deyib. Azərbaycan Dövlət Filarmoniyasında xalq artisti Ağaverdi Paşayevin rəhbərlik etdiyi F.Əmirov adına Dövlət mahnı və rəqs ansamblında 5 il çalışıb. 1997-2012-ci illər arasında Səxavət Məmmədov adına «Qarabağ» x.ç.a. ansamblının qarmonçalanı olub. Bu ansamblın tərkibində müğənni Feyruz Səxavətlə səsyazma studiyalarında olub, televiziya konsertlərində çıxış edib, Rusiyanın şəhərlərində, həmçinin Moskvanın özündə verilən konsertlərdə xüsusi məharət göstərib. Həmin ansamblın tərkibində Elçin Türkiyənin İstanbul şəhərində konsertlərdə olub.

Bir qarmon ifaçısı olaraq Elçin özüdür. Elə sənətinin özünəməxsusluğu, öz təravəti və vurduğu incə, zövq oxşayan, zərif, təsirli xallarla yadda qalır. Onun istedadı zəngindir, zehnində qığılcım kimi doğub parlamaq istəyən musiqi fikirləri və duyğuları aşıb-daşır. O, sevimli qarmonunu musiqimizin bütün janrlarında səsləndirə bilir. Repertuarında bəstəkarlarımızın əsərləri, xalq oyun havaları və muğamlar necə də gözəl səslənir. «Segah» muğamında isə dinləyici üçün öz ürəyini daha həssaslıqla açır, hisslərini tərənnüm edir. Ona «Segah Elçin» də deyirlər. O, «Segah»la daha çox sevilir. «Segah»da onun könül tərənələri öz əksini tapır.

Milli qarmonumuzun ecazkar, şirin səsilə Azərbaycan aşıq sənəti nümunələrini xüsusi ustalıqla səsləndirə bilən sənətçilərimiz kifayət qədərdir. Bu sırada Elçin Yunusovun da adını məmnuniyyətlə çəkirik. O, xüsusi, dərin və səliqəli seçim apararaq aşıq havalarından özünə repertuar düzəldib. Bu havalar içində «Baş sarıtel» necə də cazibədar səslənərək könüllərimizi titrədir. «Segah» muğamına əsaslanan bu melodiya usta qarmonçumuzun ifasında o qədər böyük zövqlə səslənir ki, sanki bu əsər elə bu alətin imkanlarına və səs çalarlarına hesablanıb. Elçinin çaldığı «Baş sarıtel» havasını dinləyib vəcdə gələn şairlərimiz Alqayıt Göyçəli və Fariz Bərdəli məxsusi ona şeir həsr etmişlər.

Elçin mahir ifaçılarımızla bir sırada Suriyanın Hələb şəhərində də milli qarmonumuzu sevdirib. Bundan başqa o, xanəndə, xalq artisti Yaqub Məmmədova İran İslam Respublikasında konsertlər verib. Haşiyə çıxaraq bildirirəm ki, Yaqub Məmmədov Elçinin ifa yolunu çox bəyənir, onu müntəzəm olaraq özüylə hər yerə aparırdı. O, Elçinin müşayiətilə oxumaqla rahatlıq tapır, zövq alırdı.

Yaqub Məmmədov və Sabir Novruzovun Tehran şəhərində düzənlənən konsertində onları müşayiət edən kiçik qrupun tərkibində Elçin Yunusov da var idi. Elçin vurduğu şirin xallarla tamaşaçıların alqışını qazanırdı. Bu sətirlərin müəllifi Tehranda olarkən həmin qrupun, məşhur sənətçilərimizin konsert reklamlarına rast gəlmişdi.

Elçin Yunusov müğənni, Azərbaycan Teleradio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti xorunun solisti Səfalət Səmədovla Təbriz və Tehran şəhərlərində konsertlərdə və toy şənliklərində olmuşdur.

Elçin İran ölkəsinə olan səfərlər zamanı Məşhəd ziyarətini etmişdir.

İstedadlı qarmonçu 1997-ci ildə aktyorlar; xalq artisti Arif Quluyev, əməkdar artist Naibə Allahverdiyeva, xanəndə Feyruz Səxavət və musiqiçilərlə birlikdə Rusiyanın ən ucqar şəhərlərindən olan Norilskdə verilən çox maraqlı konsertlərdə öz ifası ilə könülləri fəth etmişdir.



1997-ci il. Səxavət Məmmədov adına "Qarabağ" ansamblı. Soldan: Əliağa Sədiyev, Cəfər, Feyruz Səxavət, Elçin Yunusov, Samidxan Mürşüdov, Qulu və Cəsarət Şükürzadəoğlu

Xanəndələrimizdən xalq artistləri Arif Babayev, Mənsum İbrahimov, əməkdar artistlər Könül Xasıyeva, Gülüstan Əliyeva və digərləri Elçinin sənətini sevərək onunla yaradıcılıq əlaqələrində olurlar. O, Arif Babayevin dəvət olunduğu əksər toy şənliklərində ustad xanəndəmizi müşayiət edir, çaldığı oyun havaları və lirik melodiyalarla özünə sevgi qazanır. Elçin Könül Xasıyeva ilə də Bakıda, rayonlarımızda konsertlərdə və toy mərasimlərində olur. Onların çiyin-çiyinə çalıb-oxuduqları əksər toyların lent yazıları, video-kasetləri nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarlarda da yayılmışdır. Elçin Könül Xasıyeva və Gülüstan Əliyevanı studiyalarda da ansambl tərkibində müşayiət edir. Bacarıqlı qarmonçumuzu neçə-neçə müğənnilərimizi televiziya verilişlərində müşayiət edən görmüş və onun qarmonunun sirli səsindən, şirin xallarından zövq almışıq.

Biz xalq musiqisi nümunələrini üzə çıxarıb qorumaq üçün çox iş görməliyik. Əlbəttə bunları yaxşı işləyib yeni görkəmdə, daha yaraşıqlı libasda, zənginləşdirilmiş şəkildə işləyərək xalqa qaytara bilərik. Bu işdə Elçin Yunusov kimi sənətkarlara ehtiyac duyulur və onların çiyninə böyük məsuliyyət düşür. Elçin enerjilidir, sənət sambalı yerindədir, sənət gücünü və formasını qoruyub saxlaya bilmişdir. Düşünürük ki, o, az işlənən, yaddan çıxan, lakin dəyərcə, mahiyyət və məzmunca yüksək olan el havalarımızı və bəstəkarlarımızın bir-sıra nümunələrini işləyib öz yaradıcılıq süzgəcindən keçirərək disklərə yazdırıb bu sevimli xalqa boxş edəcək və dünyaya yayılmış



Elçin Yunusovun Fransadakı konsertinin reklamı

azərbaycanlılara armağan göndərəcək.

Fransanın musiqi folkloru təbliğatı ilə məşğul olan təşkilatlarından biri 2009-cu ilin payızında İsveçrə və Fransada «Azərbaycan mədəniyyəti günləri» devizilə tədbirlər keçirmişdir. Həmin silsilə tədbirlərin davamı olaraq dekabr ayının 2-si və 4-də İsveçrənin Cenevrə, 5-də və 6-da isə Fransanın Leon şəhərində Elçin Yunusovun solo konsertləri təşkil olunmuşdur. Onun qrupunda Fransanın Leon şəhərində Elçin Yunusovun solo konsertləri təşkil olunmuşdur. Onun qrupunda dəmkeş-balabançı Nofəl Mirzəyev, nağaraçalan Elnur Rəhimov, Dövlət rəqs ansamblının üzvləri rəqqas Mətin Ələkbərli, rəqqasə Aypara Əhmədova və bir nəfər də kəndirbaz çıxış etmişdir. Elçinin solo konserti Fransanın Leon şəhərində böyük maraqla qarşılanmışdı. Bu konsertin reklamı Fransa televiziyasında getmiş, qəzetlərdə, dərgilərdə şəkilli məqalələr yazılmışdı.

E.Yunusov 2010-cu ildən Laçın şəhər 1 saylı uşaq musiqi məktəbinin direktoru vəzifəsində çalışır. Həmin məktəb Bakının Nizami rayonunda, 8-ci km. qəsəbəsində fəaliyyət göstərir.

Çalışmaq lazımdır ki, Elçin kimi sənətkarların ifaları toplanmış lentlər, disklər geniş coğrafi məkanda yayılsın və ecazkar Azərbaycan musiqisi ürəklərə yol tapsın.

Haqlı düşüncəmizi dilə gətirərək deyirik ki, hər bir ifaçımızın yaratdıqları Azərbaycan musiqi mədəniyyətinin bir səhifəsi olaraq dünya xalqları qarşısında sərgilənməlidir. Elçin də qarmon ifaçılığı sənətində öz səhifələrini açır.

Bir-çox məşhur xanəndələr o sıradan Arif Babayev Elçin sənətinin yüksək keyfiyyətlərindən ürək dolusu danışır.

Elçinin insani cəhətləri də yuxarı səviyyələrdədir. O, sözübütövdür, mülayim xasiyyətlidir, cəsarətlidir, mərddir, sənətinə və dostlarına sadiqdir, gözütox, əliaçıq və səxavətlidir. Bu insan halal ocaqdan boy atdığı kimi halallığı hər şeydən üstün tutur. Onun işıqlı, uğurlu sənətilə qoşa dayanan halallıq bu insanın doğru yolda olduğuna dəlalət edir.

Elçin Edilxan oğlu Yunusov 1993-cü ildə ailə qurub. İki övladı var.

Bərdədə yaşayan şair Fariz Muradov Eiçin sənətindən zövq alaraq ona şeir həsr edib.

Gəl, qarmonun fəryad çəkib inləsin,
Bülbüllər də sussun, səni dinləsin.
Bəlkə Kərəm açа bilsin ilməsin,
Taleyində lövbər salan dərdə çal,
Çal ay Elçin, "Baş Sarıtel"i bir də çal.

Çal qarmonu, qoy dil açıb ağlasın,
Sinəmizi çalın-çarpaz dağlasın,
Allah səni bəd nəzərdən saxlasın.
Nakam eşqi şirmayı dillərdə çal,
Çal, ay Elçin, "Baş Sarıtel"i bir də çal.

Ustad Elimxandan sən dərs almısan,
Sənətinlə göylərə ucalmısan,
Çal, Qarabağ fəryadını çalmısan.
Qarmonunu Arif olan yerdə çal.
Çal, ay Elçin, "Baş Sarıtel"i bir də çal.

2.91. KƏRBƏLAYİ VAHİD



Vahid Məmmədov

Vahid Zülfü oğlu Məmmədov 1964-cü il sentyabr ayının 5-də Ağdamın ən gözəl guşələrindən biri Abdal-Gülablıda anadan olub. O, musiqiçi nəslinin nümayəndəsidir. Ata tərəfdən babası Aşıq Hüseyn (1903-1943) xalq arasında çox məşhur olub. Bu kişi Qarabağ ellərinin ən mahir zurna ifaçılarından biri kimi tanınır, Abdal-Gülablı aşıqlarının dəstəsində çalışırdı. Bir zamanlar Qarabağda, bəzən Muğanda da zurna ifaçılarına aşıq deyirdilər. Aşıq Hüseyn xalqın sevimlisi, yaşadığı mahalın və ətraf yerlərin toy carçılarından biri, bir sözlə el yığnaqlarının yaraşığı idi. 1941-ci ildə Sovet-Alman müharibəsi başlarkən həyatının və sənətinin çiçəkli dövrünü yaşayan Hüseyni də səfərbərliyə almışdılar. Müxtəlif döyüş bölgələrindən ailəsinə məktublar yollayan Hüseyn Məmmədovun 1943-ci ildə həlak olması haqqında kağız gəlir. Xalq arasında buna "qara kağız" deyirdilər.

Müharibə bitdikdən sonra dinc həyata qovuşan, qurub-yaratmağa can atan xalqımız toy-büsat anlarını yaşamağa başlamışdı. Ətraf kəndlərdən Hüseyn Məmmədovun qapısına yenə toy etmək istəyənlərin ağsaqqalları gəlirdilər. Aşıq Hüseynin həyat yoldaşı Zivər xanım dilinə gətirmək ona ağır olsa da sənətkarın müharibədə həlak olduğunu söyləyirdi. Gələnlər kor-peşiman gedirdilər. Belə hal bir-neçə il çəkdi.

Zivər ana ərindən xatirə kimi qalan, ən qiymətli əşya kimi qoruduğu zurna, balaban, tütək alətlərini sandıqdan çıxarıb oğullarına verərək deyir: "Götürün bu diləkləri, nə qədər adam bu qapıdan ümidsiz qayıdır. Atanız sağ olsaydı bu diləklərlə nə qədər insanları sevindirərdi. Bu alətləri götürün, atanızın sənətini öyrənin. Bir zamanlar atanızın çalıb-çağırdığı yerlərə siz də gedin. Bu Allaha da xoş gedər, atanızın da ruhu şad olar".

1930-cu ildə anadan olan böyük oğul Məhəmməd atasının sənətini öyrənir. Az sonra kiçik qardaş Zülfü də (o, 1935-ci ildə dünyaya gəlib) bu işə sahib çıxır. Əslinə qalsa Aşq Hüseyn müharibə başlamazdan 1-2 il əvvəl Məhəmmədə tütək və balaban çalmağı, zurnada dəm tutmağı öyrətmişdi. Məhəmməd Hüseyn oğlu yaşlı vaxtlara qədər zurna ifaçısı kimi sənət meydanında olub. O, el toylarında, rayonun tədbirlərində, məhsul bayramlarında zurnanın möhtəşəm səsilə xoş ovqat yaradaraq şənliklərə sevinc qatıb.

Zülfü Məmmədov da Qarabağ toylarının nəfəs alətləri ifaçılarından biri idi. Əsgərlikdən öncə və sonra toy-büsata rövnəq vermişdi. O, 1959-cu ildə Bakıya köçüb. Təmir-Tikinti İdarəsində işə girib. Az sonra yaxşı usta kimi tanınıb. Tanımlı dövlət xadimi Əliş Ləmbəranskinin rəhbərliyilə Bakıda dövlət əhəmiyyətli binaların tikintisində Zülfü Məmmədov da çalışıb. O, işindən əlavə musiqi ilə də məşğul olub. O zamanlar Bakıda zurna alətindən istifadə olunmadığı üçün Zülfü Hüseyn oğlu öz bacarığı sayəsində qarmon çalmağı öyrənib, "İnşaatçılar" mədəniyyət sarayının özfəaliyyət x.ç.a. ansamblının üzvü olaraq sənət qaydalarını təkmilləşdirib, fəhlə yataqxanala-



Zülfü Məmmədov

rında verilən konsertlərdə çıxış edib və baxış müsabiqələrin iştirakçısı olub.

Zülfü Məmmədov 1963-cü ildə Qarabağın hörmətli şəxslərindən biri Duran kişinin qızı Nailə xanımla ailə qurub. Duran kişi uzun illər anbardar işləmişdi. 2012-ci ilin yayında biz bu oçerki hazırlayarkən onun 89 yaşı var idi, xəstəlik dövrünü, ömrünün sonlarını yaşayırdı.

Zülfü Məmmədovla Nailə xanımın məhəbbət üzərində qurduqları ailədə iki oğul və üç qız böyüyüb pərvazlanıb. Oçerkimizin qəhrəmanı Vahid ilk övladdır. Bu barədə az sonra oxuyacaqsınız.

Zülfü kişinin iki qarmonu var idi. Birini məşhur usta Saşa Zverev düzəltmişdi, o birini isə Tula şəhərindən gətirmişdilər. O, 1975-ci ilə qədər sərbəst sənət aləmində çalışıb. Xanəndələrdən tərtərli Murov, Sabir Novruzov, Xanlar Məmmədov, Qədir Rüstəmov, Rusif Məmmədov, tarzənlərdən Ramiz Quluyev (haz.x.a.), Bəhrəm Nəsibov (bəstəkar) və Eyvaz Həsənovla yoldaşlıq edərək toylara gedib. Eyvaz sonralar tanınan xanəndə olmuşdu.

Zülfü Məmmədov çalışdığı Təmir-Tikinti İdarəsində əmək qabaqcıllarından biri kimi tanınmış, təşəkkürlər, mükafatlar almış, fəxri fərmanlar və orden-medallarla təltif olunmuşdu. O, bir sıra dövlət xadimləri, əmək qabaqcılları, sosialist əməyi qəhrəmanları, yazıçı və şairlərlə birlikdə o vaxtlar mövcud olan sosialist ölkələrinə göndərilmişdi. O, bu kitabda oğluna həsr olunmuş bölümdə onun həyat və fəaliyyətini işıqlandırmağımıza hədsiz dərəcədə sevinirdi. Zəhmət və hünərlə dolu ömür yollarına çıraq tutmağımıza dəyər verir və bu kitabı səbrsizliklə gözləyirdi. Lakin ömrü buna çatmadı. O, 2012-ci il dekabrın 4-də dünyasını dəyişib.

Diqqətimizi oçerkimizin qəhrəmanına yönəldək. Vahid Zülfü oğlu 1972-ci ildə Bakının Nərimanov rayonundakı 93 saylı məktəbin 1-ci sinfinə daxil olub. Bu məktəb 8 illik idi. O, 1980-ci ildə natamam orta təhsili başa vuraraq o zamankı Fabritsius (sonralar İnqilab) küçəsindəki 36 saylı məktəbdə təhsilini davam etdirmişdir. Ailə Montin qəsəbəsinə bitişik Vtor-Çermet deyilən ərazidə yaşasa da uşaq hər gün şəhər daxilindəki məktəbə getməli olurdu. Vahid 1982-ci ildə orta məktəbi bitirib.

O, gözünü açıb evdə qarmon səsi eşidib və bu sənətə böyük maraq göstərib. Atası ona çalğı qaydaları öyrədib, həvəs və bacarığını görüb onu Q.Qarayev adına 8 saylı uşaq musiqi məktəbinin qarmon sinfinə qoyub. Vahid burada çox yaxşı göstəricilər əldə edib. Dərslərini yaxşı oxuyub, fəal şagird olub. Burada ona ixtisas üzrə 3-cü sinfə qədər Hüseyn, sonra isə Zakir Muradov dərs deyib. Vahid musiqi məktəbində birinci yarımildə və ilin sonlarında keçirilən konsertlərdə, imtahanlarda və müsabiqələrdə fərqlənir, müəllimlərin və rəhbərliyin diqqətini cəlb edirdi. O, hətta akkordeon sinfində təhsi alanlar içərisində seçilənləri də üstələyirdi. Akkordeon sinfinin müəllimi, Ü.Hacıbəyli adına sinfonik orkestrin zərb alətləri ifaçısı, böyük musiqiçi Tofiq Quluyev konsertlərdə və imtahanlarda Vahidin əlini sıxıb təbrik edir və öz şagirdlərinə nümunə göstərirdi. Vahid musiqi məktəbində tar müəllimi Ədalət Hüseynovun rəhbərlik etdiyi şagirdlərdən ibarət x.ç.a.orkestrində çalır və hər dərs ilinin sonunda filarmoniyada verilən konsertlərdə çıxış edirdi.

Vahid evdə məşq edərkən verilən tapşırıqlardan əlavə, atasından xalq havalarını və muğamları öyrənirdi. Avtandil İsrafilov və Zakir Mirzəyevin bütün ifa etdiklərini dinləyirdi. Bu iki böyük sənətkarın örnək ifaları çoxları kimi Vahid üçün də əsl məktəb idi. O, sonralar Aydın Əliyevin də

ifalarından bəhrələnib və bu gün də onu özünə ustad sayır.

Vahid Məmmədov Fioletov (sonralar Çingiz Mustafayev) adına klubda tarzən Xalıq Dadaşovun rəhbərlik etdiyi "Sünbül" özfəaliyyət x.ç.a.ansamblının üzvü idi. Xeyli konsertlərin iştirakçısı olmuş və baxış-müsabiqələrdə çıxış etmişdi. O, 1982-ci il musiqi məktəbini bitirənə qədər bu ansamblda çalmışdı. "Sünbül" özfəaliyyət ansamblı "Oxu-tar" müsabiqəsində laureat olmuşdu.

Vahid 93 saylı ümumtəhsil məktəbdə oxuyarkən buradakı özfəaliyyət dərnəklərinin ən fəallarından biri olmuşdu. Ansamblın məşqlərinə sevinclə qatılır, məktəb tədbirlərində çalır və dram dərnəyinin də üzvü olaraq rollar oynayırdı. O, hətta tamaşaların birində baş rolda oynamış, Hacı Qara obrazında çıxış etmişdi. Vahid Məmmədova məktəb rəhbərliyi, rayon təhsil şöbəsinin rəisi tərəfindən təriflənmələr, təşəkkürlər və fəxri fərmanlar verilmişdi. Bu kimi sənədlər onun şəxsi arxivində qorunur.

V.Məmmədov 1982-1984-cü illərdə Sovet ordusu sıralarında olub. Omskda və Sibirin əksər şəhərlərindəki hərbi hissələrdə və Monqolustanda əsgərlik edib. O, Omsk şəhərindəki hərbi hissədə Azərbaycandan gəlmiş əsgərlərdən ibarət ansambl yaratmış və özü piano ifa etmişdi. Sonrakı hərbi hissədə xidmət zamanı Bakıdan Vahidə qarmon göndərilmişdi. Vahid burada yaratdığı özfəaliyyət ansamblında qarmon çalmışdı.

Əsgərlikdən vətənə qayıdan gənc musiqiçi 1985-ci ilin fevral ayından Bakı dənizçilər mədəniyyət evinin özfəaliyyət rəqs qrupunda müşayiətçi qarmonçu işləyib. Rəqs ansamblının rəhbəri Fərhad idi. Burada 2 il çalışan cavan qarmonçu Səttarxan adına maşınqayırma zavodunun mədəniyyət sarayında Əlikram Aslanovun (1934-2006) rəhbərlik etdiyi özfəaliyyət rəqs ansamblına gələrək 1 il də burada işlədi. Beləliklə Vahid Məmmədov rəqs qruplarını müşayiət etməyi özünə peşə seçdi. O, 1993-cü ildə T.İsmayılov adına uşaqların və gənclərin yaradıcılıq mərkəzinin "Cücələrim" ansamblına işə düzəlmiş və 1998-ci ilə qədər burada çalışmışdır. Xalq artistləri Böyükağa Məmmədovun, Cəmilə Bayramovanın, Tamilla Eldarovanın və əməkdar artist Zemfira Həsənovanın milli rəqs quruluşlarını müşayiət edən Vahid bir musiqiçi kimi yetkinləşirdi. Bu kollektivdə çalışmaq onun xarici ölkələrə səfərlərə getməsi üçün şərait yaratmışdı. Fransaya, Türkiyəyə (4 dəfə), İraqa səfərlər, oradakı konsertlər məsuliyyətli olduğu qədər də maraqlı və qürurduyuçu idi. Kollektiv üzvləri səfər etdikləri hər ölkədən maraqlı təəssüratla qayıdırdılar. "Cücələrim" İraqa həmin dövlətin təhsil nazirliyinin xəttilə çağırılmışdı. Keçirilən görüşlər, verilən konsertlər, isti münasibət, görməli yerlər ürəkaçan və yaddaqalan idi. Vahidin təəbbüsü, təşkilatçılığı ilə musiqiçilər və rəqqaslar Babilistanda olmuş, Kərbəla, Nəcəf, Kufə şəhərlərini gəzərək müqəddəs yerləri ziyarət etmişdilər. Müqəddəs Kərbəla ziyarəti Vahidin həyatında, fikir və düşüncəsində, mənəviyyatında dönüş yaratmış və bu titul onun həyat və fəaliyyətinə təsir edərək bir müsəlman kimi daha məsuliyyətli, daha saf yaşamağa, axirəti düşünməyə yönəltmişdir. Həmin dövrdən bütün tanıyanlar, qohumlar, qonşular, dostlar, sənət yoldaşları onu Kərbəlayi Vahid çağırırlar.

Kərbəlayi Vahid 1998-ci ildən 2004-cü ilə qədər "Səyyah" uşaq rəqs qrupunun qarmonçalanı olmuşdur. Burada rəhbər əvvəllər Elmira xanım, 2000-ci ildən isə xalq artisti Təranə Muradova olmuşdur. Kərbəlayi Vahid "Səyyah" qrupu ilə Türkiyənin Ankara və Antalya şəhərlərində, İsveçrədə (2 dəfə), Avstriyada (2 dəfə), Fransada, İspaniyada və Kanar adalarında səfərlərdə olmuşdur. O, 2002-2004-cü illərdə "Cəngi" Dövlət rəqs ansamblında çalışmışdır. Bədii rəhbər Fərhad Vəliyev idi.

Vahid Məmmədov "Xəzər" Özəl Universitetinin tələbələrdən ibarət rəqs ansamblında da həvəslə çalışaraq bacarıq göstərmişdir. Oğlanlar qrupunun rəhbəri əməkdar artist Xanlar Bəşirov, qızlardan ibarət qrupun rəhbəri xalq artisti Cəmilə Bayramovanın hazırladıqları rəqs quruluşları o qədər zəngin, dinamik və maraqlı idi ki...



2001-ci il. Vyana şəhəri. Vahid Məmmədov və Avstriya qarmonçusu



2002-ci il. Vahid Məmmədov İspaniyanın Kanar adalarında səfərdə.

Gənclik illərindən ömrünü rəqs ansamblarında işləməyə həsr edən bu insan layiqli bir qarmon ifaçısı kimi öz sənətini müşayiətdə təstiqləyib. Müşayiətçilik də məsuliyyətli, çətin, həddən artıq diqqət, dəqiqlik və dözüm tələb edən bir sənətdir. Milli rəqs quruluşlarımızı müşayiət etməyin isə xüsusi özəllikləri və çətinlikləri vardır. Yazılarımızda bu barədə həmişə fikir bildirmişik.

Kərbəlayi Vahid 2004-cü ildə Bakı Xoreoqrafiya Məktəbinə dəvət olunub. O, burada tədris olunan milli rəqslərimizin konsertmeysteri, müşayiətçisidir. Xalq artisti, görkəmli sənətkar, respublikamızda tanınan xoreoqraf Yusif Qasımovun sinifinin konsertmeysteri olan V.Məmmədov hazırda da orada çalışır. Yusif müəllimin Xoreoqrafiya Məktəbində uzun illər dərs deməsi rəqs ansamblarımız üçün kadrların hazırlanması yolunda mühüm əhəmiyyət daşıyıb. İşinə vicdanla yanaşan bu insan sevdiyi və bütün mənalı ömrünü həsr etdiyi rəqs sənəti üçün saya gəlməz qədər sənətçilər yetişdirib. Onların əksəriyyəti bu gün Yusif Qasımovun çalışdığı Azərbaycan Dövlət rəqs ansamblının və digər məşhur rəqs kollektivlərinin işçiləridir. Onun yetirmələri bu gün ustad rəqqasımızla çiyin çiyinə çalışan əməkdar və xalq artisti fəxri adların sahibləridir. Zəhmətdən yoğrulmuş, rəqs sənəti üçün yaranmış, böyük bir dövr ərzində keçmiş SSRİ-də və xarici dövlətlərdə milli rəqs sənətimizi ustalıqla tərənnüm etmiş bu gözəl insan haqqında bu mövzumuzda həşiyə çıxaraq məhəbbətlə söz açmağımız əbəs deyil. Bu kitabın müəllifi də bir zamanlar Bakı Xoreoqrafiya Məktəbində Yusif müəllimin sinfində konsertmeyster işləmiş və onun bacarığını, öz sənətini dərindən bilməsini müşahidə etmişdir. Həm də onun şahidi olmuşdur ki, ustad sənətkar əzmlə, səbrlə min-bir əziyyətlə hazırladığı gənc rəqqasları özünün də çalışdığı və quruluşlar verdiyi Dövlət rəqs ansamblına aparıb.

V.Məmmədov Y.Qasımov kimi çox məşhur bir baletmeysterlə birlikdə calışaraq daha kamil bir müşayiətçi kimi formalaşmışdır. O, 2009-cu ildə Fransa, Belçika, Hollandiya ölkələrində səfərdə olaraq xoreoqrafiya məktəbi tələbələrinin rəqslərini müşayiət etmişdir.

Sənətkarın toylara həsr etdiyi anları da xatırlamağı lazım bildik. O, 1980-ci ildən şənliklərimizə ayaq açıb. Təbii ki, o da hər bir xalq ifaçımız kimi qədəmlərini xırda məclislərə açıb. Əsgərlik illərindən sonra tanımlı sənətkarlarla ünsiyyət yaradan Vahid xanəndələrdən Sabir Novruzov, Vahid Abdullayev,Yaqub Məmmədov, Arif Babayev, Səxavət Məmmədov, Səfa Qəhrəmanov, Süleyman Abdullayev, Sabir və Cabir Abdullayevlər, Qəndab Quluyeva, Vilayət İbrahimov, Mənsum İbrahimov, Feyruz Səxavət, Tahir Xəlilov, Qəzənfər Abbasov, Raqub Tağıyev, Yaqub Nəcəvov, Elşad Qarayev, Şücaət Kərimov və Bahadur Salmanovla sənət yollarında birgə addımlayıb. Bundan başqa o, Bakı toylarında Arif Babayev, Alim Qasımov, Hacıbaba Hüseynov. Yaqub Məmmədov, Ağaxan Abdullayev kimi nəhəng xanəndələrimizlə üzbəüz dəstələrlə birlikdə çalıb-çağırıb. Kərbəlayi Vahid Bakı qəsəbələrində klarnetçalanlardan Əlibaxış Məmmədov, Şükür, Elşad Cabbarov, Akif Qürbətov, Ata və digərlərilə dəstələrdə çıxış edib. O, hazırda əməkdar artistlər olan tarzən Elçin Haşımov, kaman ifaçısı



Vahid Yaqub Məmmədovu müşayiət edərkən

Elnur Əhmədov, xanəndə Cabir Abdullayevlə birlikdə "Qarabağ" qrupunda da fəaliyyət göstərir. Bu qrupla konsertlərdə, bədii-kütləvi tədbirlərdə və toy məclislərində olub. Bacarıqlı qarmonçu xalq mahnılarımız üzərində də işləyir. O, məşqlər nəticəsində qarmonun səslənməsi üçün hazırladığı xalq mahnılarımızın bəzilərini ifa edərək studiyada diskə yazdırıb. Düşünür ki, bu fəaliyyəti genişləndirərək xalq mahnılarından ibarət disklər nəşr etdirsin. Təbii ki, biz də bu yolda ona uğurlar arzulayırıq.

Kərbəlayi Vahid bir sıra xanəndələrimizlə İran İslam Respublikasına da səfərlər edib. Bu səfərlər orada yaşayan soydaşlarımızla yaxın təmas, ev konsertləri və toylar şəklində keçib. 1992-ci ildə xanəndələrdən Sabir Novruzovla Astarada, Tenranda, 1993-cü ildə Yaqub Məmmədovla Təbriz və Tehranda, həmin ildə Əli Bərdəli ilə Ərdəbil və Təbrizdə olan tədbirlər (bərnamə) ürəkaçan və səviyyəli olmuş, Bakı sənətkarlarının ifası azəri türklərinə zövq bəxş etmişdir.

Kərbəlayi Vahid 1985-ci ildə ailə qurub. İki qız və bir oğul böyüdüb. Aydın adlı bir nəvəsi var.

Oğul Səfa Məmmədov 33 saylı uşaq musiqi məktəbini və 2009-cu ildə Milli Konservatoriya nəzdində Musiqi Kollecinin fortepiano sinifini bitirmişdir. Yaxşı musiqiçilərimizdən biridir. "Araz" x.ç.a.ansamblının fortepiano ifaçısıdır. Toy qruplarının tərkibində sintezator çalır.

2.92. BUZOVNALI USTA AZƏR

Sənət aləmində hamı onu buzovnalı Azər kimi tanısa da, o, əslən buzovnalı deyil, Qərbi Azərbaycanlıdır. Buzovnada dünyaya göz açıb, burada boya-başa çatdığı, ilk sənət qədəmlərini burada atdığı üçün beləcə tanınıb.

Onunla ilk tanışlığımız 2000-ci ilə təsadüf edir. Qaraçuxur qəsəbəsindəki "Gilan" şadlıq sarayında toyları idarə edirdim. Azər qonşu zalın musiqiçisi idi. Oralarda rastlaşırdıq. İfasını eşitmişdim. Qarmon çalmağı xoşuma gəlirdi. Əxlaqı, tərbiyəsi, səmimiyyəti də öz yerində. 2000-ci il oktyabr ayında mənim 50 illik yubiley təntənəmin qarmon ifaçısı Azər olub.

Azər İbrahim oğlu İbrahimov 1966-cı il iyun ayının 9-da anadan olub. İlk övlad Azər bir bacı ilə dünyaya ekiz gəlib. Sonra Allah-təala bu ailəyə bir qız da bəxş edib. İbrahim Hacıağa oğlu həyat yoldaşı Flora xanımla övladları qayğı və məhəbbətlə böyüdərək ərsəyə çatdırıblar.

İbrahim İbrahimov (1935-2003) ixtisasca müğənni idi. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını vokal sənəti üzrə qızıl medalla bitirmişdi. Səsi lirik-tenor idi. O, radioda və televiziyada oxuyurdu. Oxuduğu vokal əsərlərin lentləri radionun fondundadır. Sənətdən uzaqlaşmasının səbəbkarı Flora xanım olub. O, ömür yoldaşının bu sahədə çalışmasını istəmirdi. İbrahim də onun sözünü yerə salmayıb sənətdən uzaqlaşmış, sürücü işləyərək ailəsinə ruzi gətirmişdi.

Əslində Flora xanımın da musiqi təhsili var idi, uşaq musiqi məktəbinin fortepiano sinfini bitirmişdi. Sonra isə özünə başqa sənət seçmiş, Tibb Texnikumunu bitirmiş və şəfqət bacısı ixtisası üzrə işləmişdi.

Azər İbrahimov 1973-1983-cü illərdə əvvəl 26, sonra isə 125 saylı orta məktəbdə təhsil alıb. O, 1975-1980-ci illərdə 19 saylı uşaq musiqi məktəbinin qarmon sinfində oxuyub. İxtisas üzrə Lalə Quluyevadan dərs alıb.

Azərin xalası oğlu Eldar Biləcəridə qarmon dərsinə gedirdi. Azər onu görüb həvəslənmiş, özünün də musiqi məktəbinin qarmon sinfinə qoyulmasını valideynlərindən xahiş etmişdi.

Məktəb proqramından əlavə evdə etdiyi məşqlər onun sərbəst çalğısını formalaşdırır, həvəsini daha da artırırdı. O, ən çox Zakir Mirzənin və Aftandil İsrafilovun ifaları yazılmış lentləri dinləyirdi. Yaşıdları olan musiqiçilər Azərin ifasını görüb eşitmiş, bəyənmiş və özlərilə toylara aparmağa başlamışdılar. Bu 1983-cü ilə təsadüf edir. O, ilk əvvəllər klarnetçalan Sərdarla bir dəstədə olurdu.

A.İbrahimov 1984-1986-cı illərdə Moskvada hərbi xidmətdə olub. Hərbi hissəyə onun "Kazan" qarmonunu göndərmişdilər. Azər əsgərlik illərində də məşqlər etmişdi.

Əsgərlikdən sonra peşəkar sənətə qədəm qoyaraq saysız-hesabsız toyların qarmonçalanı olub. Son dövrlərdə isə Bakının yeni-yeni möhtəşəm şadlıq saraylarında müxtəlif toy ansamblларının tərkibində çalışıb. Bu iş 2008-ci ilə qədər davam edib. Qarmon təmiri və düzəldilməsi ilə ciddi çalışması və işlərin çoxluğu onu ifaçılıq sənətindən uzaqlaşdırıb.

Azər qarmon ustalığına 1998-ci ildən başlayıb. İlk əvvəllər yalnız qarmonlar üçün qriflər düzəldirmiş. İşi bəyənilir, sifarişlər tədricən çoxalırmış. 1 ildən sonra qarmonun başqa hissələrini düzəltməyə maraq göstərib və hiss edib ki, bu işlər onda get-gedə yaxşı alınır.

Onun fikirlərindən: "Öz qarmonumu və digər qarmonları açıb baxıb, hissələrinə diqqətlə tamaşa edib, ölçüləri izləyib sənət öyrənmişəm. Hər dəfə nəsə yeni bir şey tapırdım."

Elə bu yazının müəllifi Velçev Valentinin ona düzəltdiyi ən yaxşı qarmonlardan birini bir neçə saatlığa Azərə vermişdi ki, o, həmin alətdəki bütün ölçülərə diqqət yetirib özündə qeyd eləsin. Digər ustalar kimi Azər də bu günə qədər öyrənə-öyrənə gəlir.

A.İbrahimov indiyə qədər 200-dən artıq qarmonlar düzəldib. Bu alətlərdən İrana və Türkiyəyə aparılanları da çoxdur. Əlbəttə, bütün bunları o təkbaşına yox, köməkçilərlə birlikdə edib. Amerikaya köçən soydaşlarımızdan biri usta Azərdən qarmon alıb aparıb. Türkiyə və İrandan onun yanına gələnlər olur.

Güney Azərbaycanın Urmiya şəhərində yaşayan gənc qarmonçalan Assan 2011-ci ilin yayında bu sətirlərin müəllifinin qonağı olmuşdu. O, neçə illər öncə usta buzovnalı Azərdən aldığı qarmonu onun özünə köklətdirməyə gətirmişdi.

2012-ci il avqust ayının ortasında günorta saatlarında Buzovnada Azərin öz həyətindəki emalatxanasında əyləşib söhbətləşir, suallar verib onun gördüyü işlərlə tanış olurdum. Bu görüş Ramazan ayına təsadüf edirdi. Azər müqəddəs dinimizdən, Qurandan söhbətlər etdi. Masanın üstündə möhür gördüm. Baxdım, bu Azərin öz adına hazırlanmış tanıtma möhürü idi. Hazırladığı qarmonlara öz möhürünü vurur. Məlum oldu ki, Fransanın məşhur muzeylərinin birində Azərin hazırladığı və öz möhürü vurulmuş qarmon var. Bunu Bakıda yaşayan soydaşlarımızdan biri Fransada görmüş və qayıdarkən gəlib Azərə danışmışdı.

A.İbrahimov qarmonlarımızın təkmilləşməsi və mükəmməlləşməsi barədə də düşünür. Söhbət əsnasında bildirdi ki, mahir qarmonçu Hacı Pərvizdən maraqlı bir sifariş götürüb. İfaçı arzusunda olduğu üçoktavalı qarmonu həm də çetverttonlu (1/4 tonlu) görmək istəyir. Bu alətin reqstrləri də olacaq. Sifariş qəbul olunmuş, iş başlanmışdı.

Oçerkimizin qəhrəmanının insani keyfiyyətləri barədə də danışmaq istərdik. Bu insan mənəvi cəhətdən safdır, kamilliyə doğru gedir. Azər ibadət əhlidir, dini rituallara riayət edir, şəriət qanunlarından kənara çıxmır. O, xeyirxah əməllərilə tanınır. Yazı müəllifi olaraq bir fikir bildirmək istərdim. 2001-ci ildə işdən qayıdarkən ictimai nəqliyyatda avtomobil qəzasına düşərək ömürlük əlil qaldım. Xəstəxanada olarkən ən böhranlı günlərimdə Azər mənim yanıma gəlmişdi. Sonra 1 il fəal həyat fəaliyyətim olmadı. Gəzməyə başlarkən xanəndə Baba Mahmudoğlu (1940-2006) məni x.ç.a. ansamblı yaratmağa dəvət etdi. Ansambl üzvlərini topladım. Məşqlərə başladıq. O zamanlar şəhərdaxili və şəhərətrafı işləyən, avtobusların əksəriyyəti kiçik həcmli və təkqapılı idi. Məşqlərə gedib gəlmək, alət aparıb gətirmək mənim üçün çox çətin idi. Azər öz təşəbbüsü ilə mənimçün kiçik həcmli, yüngül çəkili bir qarmon düzəldib bağışladı. Həmin qarmonun tirləri (planka, tənəkə) keyfiyyətli olduğu üçün qarmonun gözəl tembri var idi. Tənəkələri mənə ustad qarmonçu Əsədov Vaqif bağışlamışdı. Həmin qarmonla məşqlərə gedib gəlmək mənimçün xeyli rahat idi. 2010-cu il dekabr ayında "Azərbaycanda klarnet ifaçılığı sənəti" adlı A-4 formatlı, 1000 səhifəlik sanballı kitabımı nəşr etdirmək üçün maddi çətinliyə düşdüm. Hətta



Avqust 2012-ci il. Usta Azər iş otağında

həmin kitabda onlara səhifələr ayrılan, geniş bilgilər verilən, şəkilləri əks olunan klarnet ifaçıları da kitabın nəşri üçün maddi dəstək vermədilər. Nəşr xərclərini ödəmək üçün evimdən iki ədəd qarmon satmalı oldum. Həmin qarmonların biri Azərin mənə 2004-cü il dekabr ayının 31-də, Ümumdünya Azərbaycanlılarının Həmrəyliyi Günündə bağışladığı idi. Hədiyyəni satmazlar, qoruyub saxlayarlar. Mən isə 2 il üzərində işlədiyim və xalqımız üçün əhəmiyyətli və qiymətli bildiyim kitabın nəşr olunması üçün bu yolu tutdum. Kitabın meydana gəlməsi üçün Azər bəyin xeyirxahlığından istifadə etdim.

Azər mərddir, sözübütövdür, əliaçıqdır, səxavətlidir, mərhəmətlidir. Allah-təala ona ömür və sağlam can bəxş etsin ki, o bundan sonra da qarmon sənətimizin inkişafına öz töhfələrini versin və xeyir əməllərini davam etsin.

Azər İbrahimov 1991-ci ildə ailə həyatı qurub. İki qız balasını halal çörəklə böyüdür. Hər ikisinə xoşbəxt gələcək, nurlu həyat arzulayırıq.

O, Azərdi, Azərbaycan övladı,
Halaldır mayası, təmizdir zatı.
Hər bir işi halallığa köklənib,
Xeyirə açılır qolu-qanadı.

Əvvəllər ifaçı olub tanındı,
Qarmon peşəsini doğmaca sandı.
Burda da saflığı bizə əyandı,
Hörmətlə çəkilir həmişə adı.

Artıq xeyli vaxtdır o, usta olub,
Böyük zəhmət çəkib, təcrübə alıb,
Ülviyyətə, paklığa sadiq qalıb,
Müqəddəs hisslərədir əhdi-andı.

Xeyir əməlindən pay düşüb mənə,
Unutmaram keçsə də neçə sənə.
Dar macalda dayaq olub Əhsənə,
Azər çoxlarına kömək olandı.
Ə.Rəhmanlı, 30.11.2013-cü il

Usta Azərin köməkçiləri haqqında qısa bilgi verək.

Hikmət Mövsümov (1966-2009) orta ümumtəhsil məktəbə Azərlə bir sinifdə oxuyub. Həmişə yaxın yoldaş olublar. Hikmət İnşaat Mühəndisləri Universitetini bitirmişdi. Bir müddət zavodda çalışmışdı. Zavod bağlandıqdan sonra işsiz qalmışdı. O, Azərin emalatxanasında çalışaraq uşaqlıq dostunun köməkçisi olmuşdu.

Hikmət qarmonların sol tərəfini səliqə ilə düzəldir, digər işlərdə də Azərin istədiklərini yüksək bacarıqla yerinə yetirirdi. O, 2006-cı ildən Azərin emalatxanasında işləyirdi. Vaxtsız əcəl onu bu həyatdan apardı.



Vüqar Məmmədov

Vüqar Əhməd oğlu Məmmədov 1980-ci il dekabr ayının 18-də dünyaya gəlib. Ümumtəhsil məktəbdə oxuyub. 1999-cu ildə 19 saylı uşaq musiqi məktəbinin nağara sinfini bitirib. Burada ixtisas üzrə Tahir Əliyevdən dərs alıb. Daha mahir sənətkardan sənət incəliklərini öyrənsin deyə, 2011-ci ildən Gülağa Quliyevin ev dərslərinə gedib. 1998-ci ildən toylarda çalmağa başlayıb. Mədəniyyət və İncəsənət Universitetinin, Milli Konservatoriya tərkibində Musiqi Kollecinin tələbələrdən ibarət x.ç.a. ansambllarında çalıb. 1998-99-cu illərdə Bakı Mədəni-Maarif Texnikumunda xalq artisti, məşhur rəqqas Kamil Dadaşovun sinfində müşayiətçi olub. Hərbi xidməti Bakıda başlayaraq, Goranboydakı N saylı hissədə başa vurub. Hərbi hissənin klubunda çalışıb, ansamblın tərkibində nağara çalıb.

Vüqar usta Azərlə qonşudur. Azərin ifaçılıq sənətində olduğu illərdə toylarda onu müşayiət edib. Sənət yoldaşlığı, qonşuluq münasibətləri, dostluq əlaqələri 2003-cü il dekabr ayından Azərin emalatxanasında davam edib. Azərbaycan qarmonlarının təmiri və hazırlanması qaydalarını Azərdən öyrənməyə başlayıb. İlk əvvəllər işə alətin gövdəsinin (korpus) hazırlanması, ön tərəfə sədəf düzülməsilə başlasa da, sonralar digər işləri də mükəməl öyrənməyə çalışıb. Biz də onun tam peşəkar ustaya çevrilib Azərbaycan qarmon sənətinə sədaqətlə və bacarıqla xidmət etməsini arzulayırıq.

Vüqar Məmmədov 2005-ci ildə ailə qurub. Evində nənə-babanı hədsiz dərəcədə sevindirən iki gül balası boy atır.

2.93. EY DAN ULDUZU



Ənvər Sadıqov

Azərbaycan Respublikasının əməkdar artisti, böyük sənətkar və vətəndaş Sadıqov Ənvər Hidayət oğlu 30 aprel 1966-cı ildə Bakı şəhərində ziyalı ailəsində doğulub. O, İkinci dünya müharibəsində həlak olmuş əmisi Ənvərin adını daşıyır. İlk əvvəl öz yaşıdlarından heç də seçilməyən şıltaq və dəcəl bir oğlanın çox kiçik yaşlarından, məktəbəqədər dövrdə musiqiyə meyl göstərməsi musiqi duyumlu olan valideynlərin nəzərindən yayınmır, buna diqqət yetirilir və şərait yaradılırdı. Çünki uşağın musiqi yaddaşını, musiqi zövqünü hiss etmişdilər.

Deyirlər təsadüfün hökmü böyükdür. Qəribə də olsa məhz Ənvər doğulan il, 1966-cı ildə valideynlər musiqi məktəbində təhsil alan böyük övladları, qızları üçün "Belarus" markalı fortepiano almışdılar. Artıq 6 yaşından başlayaraq Ənvər həmin fortepianoda ifa edirdi.

Bakının Xətai rayonundakı 63 saylı orta ümumtəhsil məktəbin 5-ci sinfində oxuyarkən Ənvər tez-tez qonşudan gələn həzin qarmon səsini dinləyir. Gecənin sükutundan süzülüb keçən bu ecazkar səsin sehrinə düşür balaca Ənvər. Mənzili və ifaçısı bəlli olmayan bu səs onu sanki gələcəyə səsləyir, heç kimin görmədiyi, bilmədiyi uzaq və məchul zirvələrə doğru, anasının danışdığı nağıllardakı əfsanəvi aləmə aparır, açıq pəncərəyə söykənib bu səsi dinlədikcə gözünü gecənin uzaq ulduzlarına dikib sanki nağıllardakı uçan xalçalarda qalaktikanı səyahət edir, dan ulduzunu axtarır Ənvər.



1969-cu il. Balaca Ənvər



Ənvər uşaqlıq illərində

Hələlik sadə və təvazökar müəllim ailəsində heç kim bilmir ki, Azərbaycanın musiqi qalaktikasında yeni, kövrək dan ulduzu cilalanır. Hələlik heç kim bilmir ki, bu ulduzun milli ifaçılıq sənəti zirvəsində parlaması üçün nə qədər uzun və çətin yollar keçilməli, müəllim və valideynləri illərlə gərgin zəhmət çəkməlidirlər.

Qaranlıq gecədə səni gözləyib,
Durmaqdan yoruldum, ey Dan ulduzu!
Uzaq üfüqlərə göz gəzdirməkdən
Az qala kor oldum, ey Dan ulduzu!

Öksüz taleyimtək gecikdin nədən?
Karvarqıran doğdu, görünmədin sən,
Oxşatdım, yanıldım, könül verdim mən
Bilmədən vuruldum, ey Dan ulduzu!

Arxasınca qoşdum sonsuz bir yola,
Hər addımda tuş gəlincə bir kola,
Qaranlıqda çox baxındım sağ-sola,
Hər yana buruldum, ey Dan ulduzu!

Büsbütün yorulub gücdən düşərkən,
Bir ulduz parladı uzaq üfüqdən.
Bu görünən səndin, artıq gəldin sən,
Axır səni buldum, ey Dan ulduzu!

Cəfər Cabbarlı

Hələlik yeniyetmə Ənvər özündən bixəbər, biixtiyar mehr saldığı musiqi alətini, əslində isə bütün gələcəyinin simsarı olacaq qarmon əldə etmək arzusunu ehtiyatla valideynlərinə bildirir. İsrarlı xahişlərdən sonra atası Hidayət müəllim Əhmədli qəsəbəsindəki mağazaların birindən 12 yaşlı oğlu Ənvərə "Kazan" markalı qarmon alır və elə həmin gün oğluna sevdiyi "Laçın" mahnısını öyrənməyi tövsiyyə edir.

Ənvər 1978-1983-cü illərdə Bakı fəhləsi mədəniyyət evi nəzdində fəaliyyət göstərən qarmon kursunda müəllimi Tağı Tağıyevdən bu sənətin sirlərini, xalq oyun havaları və muğamları öyrənir, qarmon ifaçılığının incəliklərini mənimsəyir. Evdə müntəzəm olaraq musiqilə məşğul olur, əksər tanınmış ifaçıların canlı çıxışlarını izləyir, lent yazılarını dinləyib onlardan bəhrələnir.

Ə. Sadıqov hərbi çağırış yaşı çatanadək, 1983-84-cü ildə H.Z.Tağıyev adına mədəniyyət evinin qarmon kursunda dərs deyib. O, hərbi xidmətdən öncə Bakı radio zavodu klubunun, Səttarxan adına mədəniyyət sarayının, Bakı toxuculuq kombinatı mədəniyyət evinin özfəaliyyət xalq çalğı alətləri ansambllarında çalışmaqla bir musiqiçi kimi yetişir, konsertlərdə müşayiətçi və solist kimi formalaşır.

1984-1986-cı illərdə Ə. Sadıqov Moskva vilayətində hərbi xidmətdə olduğu dövrdə musiqidən, sevimli alətindən uzaq düşür. Hərbi xidmətdən



Ənvərin müəllimi Tağı Tağıyev



11.01.1986-cı il. Ənvər əsgərlikdə. Anası Tamilla xanım, bacısı Tərənə xanım, atası Hidayət müəllim

sonra isə öz çalğısı, ifası özünü qane etmədiyindən Ənvər ümumiyyətlə musiqiylə məşğul olmaq istəmir. Valideynlərinin təşəbbüsü və xahişilə dövrünün tanınmış klarnet ifaçısı Məşədi Məhəmməd Hüseynov onun musiqi duyumunu, bacarıq və qabiliyyətini yoxlayır, bu gəncin istedadına inanır, ona ruhdan düşməyib çalışmağı, öz üzərində işləməyi tövsiyyə edir. Sonralar Məşədi Məhəmməd gənc Ənvərə, onun istedadına xüsusi qayğı ilə yanaşaraq onun bir ifaçı kimi formalaşmasında yaxından iştirak edir. Gənc ifaçı Ənvər Sadıqovun bir musiqiçi kimi formalaşmasında onun sənət dostu, qarmon ifaçısı Rüstəm Həsənağa oğlu Quliyev də mühüm rol oynamışdır. Məhz bu səbəbdən istər Məşədi Məhəmmədin, istərsə də R. Quliyevin vaxtsız ölümü Ənvəri bərk sarsıtmışdı. Bu gün də Ənvər öz sənət dostlarını hörmətlə yad edir, onların əziz xatirəsinə ehtiramla yanaşır.

1994-2005-ci illərdə Ə. Sadıqov xalq artisti müğənni Brilliant xanım Dadaşova ilə çalışır, müxtəlif konsertlərdə, tədbirlərdə, televiziya verlişlərində onu müşayiət edir. Böyük sənətkarla birgə fəaliyyət Ənvərin musiqi zövqünün formalaşmasında, milli estrada və caz musiqisinin görkəmli simaları olan Rafiq Babayev, Akif İslamzadə və digər sənətkarlarla mənəvi körpünün, ilahi rabitənin yaranmasında böyük rol oynayır.

Özünəməxsus ifa tərzi, virtuoz ifaçılıq texnikası, taktiki improvizasiya bacarığı, milli musiqimizin mahiyyətinə xələl gətirmədən onun məzmununu zənginləşdirəcək oranjemançılıq istedadı, Ənvər Sadıqovun şöhrətini günbəgün artırır, onu mənsub olduğu xalqın sevimlisinə, ifa etdiyi milli musiqini isə dünyəvi dəyərlərə çevirir.

Ə. Sadıqov Azərbaycan mədəniyyəti və incəsənətini ləyaqətlə təmsil edir, ABŞ, Rusiya, Çin, İngiltərə, Fransa, Ukrayna, Avstriya, Çexiya, Gürcüstan, Almaniya, Norveç, Belçika, Türkiyə, İtaliya, Mərakeş, İsrail və digər ölkələrdə, möhtəşəm konsert salonlarında, dövlət səviyyəli rəsmi tədbirlərdə Azərbaycan musiqisini tərənnüm edir, onun qarmonu dünya xalqlarının, müxtəlif mil-



Brilliantın instrumental ansamblı. Soldan: Eldəniz , Elman, Ənvər , Brilliant, Elman və Vaqif

lətlərin dilində danışır.

2000-ci ildə Ə. Sadıqovun ilk audio-diski işıq üzü görür və artıq 2001-ci ilin martında Rusiyanın tanınmış və nüfuzlu "Эхо Москвы" radio kanalı dünyanın 58 ölkəsinə yayımlanan 2 saatlıq verilişini, xüsusi buraxılışını məhz Ənvər Sadıqovun ifalarının təhlilinə həsr edir. Veriliş ərzində aparıcılar Boris Alekseyev və məşhur akkordeon ifaçısı Valeriy Kovtun, habelə baş redaktor Aleksey Venediktov heyranlıqla Ənvər Sadıqovun ifaçılıq istedadından danışır, bu çalğını dinləyicilərə qeyri-adi, sanki ilahi bir səslənmə kimi təqdim edirlər. Veriliş ərzində Ə. Sadıqova canlı telefon əlaqəsi yaradılır və bu zaman Bakıda olan Ənvər telefonda 15 dəqiqə ərzində aparıcıların suallarını cavablandırır. Amerikada yaşayan bir soydaşımız birbaşa yayım vasitəsilə zəng edir, sevinclə Ənvərə təşəkkür bildirərək uğur arzulayır.

Ə. Sadıqov qarmon ifaçılığı sənətində ilk dəfə milli balet musiqisinə müraciət edərək böyük cəsarətlə bəstəkar Qara Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla", Fikrət Əmirovun "Min bir gecə", Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletlərinə bəstələnmiş musiqiləri qarmonda gözəl bir zövqlə ifa edir, milli balet musiqimizə yeni nəfəs verir, milli mənəvi dəyərlərimizə yeni ömür yaşadır. Azərbaycanda simfonik janrda yazılan əsərlərə, milli klassik musiqiyə müraciət etməklə Ə. Sadıqov həm qarmon alətinin geniş imkanlarını üzə çıxarır, həm bu alətin statusunu yüksəldir, həm də dinləyici və tamaşaçının musiqi zövqünün formalaşmasına cəsarətlə müdaxilə edib hər cür bayağılaşmanı, musiqimizə və milli dəyərlərimizə yad olan yersiz elementləri, ünsürləri sıxışdırıb meydandan çıxarır.

Özünü sənətdə tanıyandan, hələ 1991-ci ildən Ə. Sadıqov qarmonumuzun təkmilləşdirilməsi, onun səslənmə imkanlarının genişləndirilərək simfonik orkestrlə birgə ifa olunması barədə düşünür, axtarışlar aparır, material toplayırdı. O, 2003-cü ildə Zahir Dadaşova sifariş verərək üç oktavalı, registrli qarmon düzəltdirib. Səs ardıcıllığında fərq edib, adi qarmonlardakı "do" sə-



Xalq artistləri Mirzə Babayev, Tofiq Quliyev, Ənvər

sindən yuxarıya doğru səs artıraraq "sol" səsinə qədər əlavə edib. Bu alət "si" kökündədir. 2006-cı ildə Ə. Sadıqov qarmon ustası Zahir Dadaşova yenidən müraciət edərək öz yeni ixtirasını reallaşdırmışdır. Üç oktavalı, "do" kökündə, "fa"dan "fa"ya qədər səs ardıcıllığı olan yeni bir registrli qarmon hazırlatdırmışdır.

Ənvər Vladimir Tarasovla söhbət apararaq bu alətlər üzərində təkmilləşməyə nail olmuşdur. Təkmilləşmə nəhayət uğurlu sonluqla tamamlanmış və 2012-ci ildə yeni bir üç oktavalı, "si" tonallığında, registrli "Renever" adlı qarmon yaranmışdır. Usta V.Tarasov Ə.Sadıqovun tövsiyəsi və elmi fikirlərinə əsasən bu qarmonu yüksək səviyyədə hazırlamışdır. Burada 5 tənəkə tonlar, 4 tənəkə isə yarımtonlar üçün düzülmüşdür. Bu qarmonda registr və surdina (zil səsin tembrini bəmləşdirən) qoyulmuşdur. Qarmonun sol tərəfindəki səslər də ardıcıllıq cəhətdən eyni ilə sağ klaviaturadakı kimidir.

Qeyd etdiyimiz kimi Ə.Sadıqov Azərbaycan qarmonu üzərində təkmilləşmə aparılması barədə 1991-ci ildən düşünsə də ölkədəki ümumi vəziyyət, müharibə şəraiti buna imkan verməmişdi. Nəhayət, arzusuna çatan Ə.Sadıqov 2014-cü ildə ixtirasına müəlliflik şəhadətnaməsi almışdır.

Müəllim və valideynlərinin tövsiyyəsilə hələ çox kiçik yaşlarından bu günədək öndə gedən ustad sənətkarlar Əhəd Əliyev, Teyyub Dəmirov, Zakir Mirzəyev, Məmmədağa Ağayev, Aftandil İsrafilov, Abbas Abbasov, Teyyub Teyyuboğlu, Xanlar Cəfərov, Şəmsi Ağamalıyev, Aydın Əliyev və digərlərinin ifalarını dinləyən, bu sənətin incəliklərini, musiqimizin kökünü, ruhunu və mahiyyətini mənimsəyən Ənvər öz sələflərinin layiqli davamçısı və qanuni varisidir.

Öz yaradıcılığında Mirzə Babayev, Flora Kərimova, Arif Babayev, Məmmədbağır Bağırzadə, İlhamə Quliyeva, Brilliant Dadaşova, Azər Zeynallı, Nisə Qasımova, İbrahim Tatlısəs, Tarkan, Filip Kirkorov kimi müğənniləri, habelə Ramiz Quliyev, Şəfiqə Eyvazova, Məhəmməd Hüseynov, Rəşad Haşımov, Cəmil Əmirov, Emil Əfrasiyab, Hakim Abdullayev kimi ifaçılarla birgə çalışmaqla sənət zirvələrini fəth edib, dan ulduzu kimi parlaya bilib Ənvər Sadıqov.

Ənvər sənət aləmində tanınandan dünya dövlətlərində musiqimizi təmsil edib.

Aşağıda Ə.Sadıqovun xarici ölkələrə bəzi səfərləri barədə ümumi məlumat veririk:

1997-ci il, Norveç-Azərbaycan sənətçilərinin Norveçdə keçirilmiş müştərək konserti. Həmin ölkənin məşhur "Skruk" xoru, S.Kərimi, B.Dadaşova, İ.Muradov, H.Sadıqov, Ş. Eyvazova, E.Sadıqov. (Ənvər bu konsertlərdə Azərbaycan qarmonunu layiqincə səsləndirə bilib).

1999-cu il, Amerikanın Vaşinqton şəhərində Azərbaycan Respublikasının təşkil etdiyi konsert. Müğənnilər - B.Dadaşova, M.Babayev Azərbaycan Dövlət Rəqs ansamblı.

1999-cu il, İsrailin Hayfa şəhərində keçirilən "Azərbaycan mədəniyəti və incəsənəti günləri" B.Dadaşova öz ansamblı ilə, Mirzə Babayev və Dövlət Rəqs ansamblı (Ənvər bu tədbirlərdə solist-qarmonçalan kimi alqışlar qazanıb)

2000-ci il, Amerikanın Nyu-York şəhəri, "Millenium"zalı, Brilliant Dadaşovanın solo konserti. Konsert boyu Ənvərin müşayiəti, ayrıca solo çıxışları diqqətdə olub.

2002-ci il, Azərbaycan Dövlətinin Kıbrıs Türk Respublikasında düzənlədiyi möhtəşəm konsert. Müğənnilər: N.Musayev, B.Dadaşova, Aşıq Samirə, M.Əsədova, gənc müğənni A.Həsənoğlu.

2002-ci il, Türkiyə və Azərbaycan televiziyalararası ("TRT" və AZTV) təşkil edilmiş möhtəşəm tədbir, konsert. (qarmonçu Ənvərin və pianoçu E.Əzimovun solo çıxışları çox böyük nailiyyət sayılmışdır). Konsertlər Antalya və Ankara şəhərlərində keçirilmişdir.

1998-ci il may ayı: B.Dadaşovanın Rusiyada təşkil olunmuş ilk solo-konserti. Konsertin keçirildiyi yer- "Rossiya" zalı (Ənvərin qarmon və akkordeonda ifa etdiyi solo musiqi nömrələri). Konsert proqramının hazırlanması və oranjeman işləri Ənvərin zəhməti ilə başa gəlmişdi.

Qeyd etdik ki, 2000-ci ildən başlayaraq B.Dadaşova Ənvərin rəhbərlik etdiyi ansamblla Moskva şəhərində dəfələrlə konsertlərdə olmuşdur.



Məşhur türk müğənnisi İbrahim Tatlısəs və Ənvər

2005-ci ildə Türkiyənin Qars şəhərində Böyük Mədəniyyət Mərkəzinin açılışına Ənvər Sadıqov solist kimi dəvət edilmişdir. O, bu konsertdə də öz sənətçi dostlarından ibarət heyətlə çıxış etmişdir.

2000-ci ildə Ə.Sadıqovun ilk audio kasseti satışa buraxılıb. Kassetdə yazılmış melodiyalar rəngarəng və bir-birindən maraqlıdır. Sənətkar "Qaytağı", "Cığatay" rəqslərini, R.Qasımovanını "Anacan dostum evlənir" mahnısını, hind və moldov melodiyalarını, Argentina bəstəkarı Karlos Jardelin "Tanqo"sunu, Amerika musiqisindən "Teykfayf" adlı cazz nümunəsini və s. melodiyaları milli qarmonumuzda və akkordeonda çox yüksək peşəkarlıqla ifa etmişdir.

Ə.Sadıqovun ilk klipi "Teykfayf" adlı musiqiyə 1997-ci ildə çəkilib.

Çəkildiyi digər kliplərin məlumatını aşağıda göstəririk:

Karlos Jardel "Tanqo"-2003-cü il

A.Məlikov "Güllər"- 2004-cü il

Astor Piatzzolla "Liber Tanqo"- 2005-ci il

(Məlumat üçün bildiririk ki, A. Piatzzolla Argentina bəstəkarı, körüklü, dilli-klavişli alət olan bandoneon ifaçısıdır)

Xarici dövlətlərdə səfərlərdə istedadlı qarmonçalanımız virtuoz ifası ilə hər yerdə diqqəti cəlb edə bilmişdir. Müxtəlif musiqi qruplarımızın tərkibində o, üçoktavalı, reqstirli qarmonunu ustalıqla dilləndirib musiqilərimizin zəngin səslənərək dünya xalqlarının qəlbinə yol tapmasına xidmət etmişdir. Getdiyi səfərlərin əksəriyyəti Heydər Əliyev fondunun xətti və təşkilatçılığı ilə olmuşdur. Bu uğurlu, möhtəşəm konsertlərin bir-neçəsində Ənvərə ayrılmış solo qarmon ifalarını tamaşaçılar maraqla, yüksək həssaslıqla və odlu-alovlu alqışlarla qarşılamışlar.

Ənvər 2005-ci ildə YUNESCO-nun xətti ilə Fransanın Paris şəhərində konsertdə olmuşdur. Bu səfərdə də Azərbaycanın say-seçmə sənətçiləri çıxış etmişlər. Konsert akademik Yusif Məmmədəliyevin yubileyinə həsr edilmişdi. 2006-cı ildə YUNESCO-nun xətti ilə Fransada dünya xalqları sənətçilərinin konserti təşkil olunmuş və Ənvər Sadıqovun da daxil olduğu Azərbaycan musiqi qrupları maraqlı çıxışlarla seçilmişdi.

2008-ci ildə Mərakeşdə Azərbaycan incəsənəti və mədəniyyəti günləri keçirilmişdi. Vətənimi-



Ənvər Sadıqov

zin ən böyük sənət adamları ilə birlikdə Ənvər də öz qrupu ilə uğurlu çıxışlar etmişdi.

2011-ci il aprel ayında Fransanın paytaxtı Paris şəhərində Azərbaycanın müxtəlif musiqi heyətlərinin tərkibindən seçilib yaradılmış estrada – cazz qrupunun tərkibində Ə.Sadıqov da var idi. Bu qrup Azərbaycandan "Evrovision" Beynəlxalq musiqi yarışmasında iştirak etmiş müğənniləri müşayiət etməklə bərabər instrumental ifaçıların da sololoları təqdim olunurdu. Ənvər Azərbaycan bəstəkarlarının əsərlərindən seçmə olaraq "Vals-popurri" ifa etmişdi. Həmin ildə H.Əliyev fondunun təşkilatçılığı və maliyyə dəstəyilə Rusiyanın Moskva şəhərində, Kremlin Qurultaylar Sarayında da Azərbaycan artistlərinin möhtəşəm konserti olmuşdu. Həmin heyətin tərkibində olan Ə.Sadıqovun ifaları da paytaxt tamaşaçılarının marağına səbəb olmuşdu. Ümumiyyətlə mahir qarmon ifaçımız 2011-ci ildə 8 dəfə xarici ölkələrə səfərlər edərək bir-birindən uğurlu konsertlərdə olub. Həmin ilin iyun ayında Avstriyada verilən konsertdə caz-qrupun tərkibində röyal ifaçısı Emil Məmmədov, sintezator ifaçısı Eldar Məmmədov, bas gitara çalan Ruslan Hüseynov, zərb alətləri çalan İskəndər Ələsgərov və qarmonçalan, əməkdar artist Ənvər Sadıqov da var idi. Onlar hazırladıqları rəngarəng proqramı xüsusi virtuozluqla təqdim etmişdilər. Ənvər 2012-ci ilin mayında 1 ay Azərbaycan sənətçilərinin tərkibində ABŞ-ın Nyu-York şəhərində konsertdə olmuşdur. Bu konsertlər Birləşmiş Millətlər Təşkilatının xəttilə Azərbaycanı təmsil və təbliğ etmək üçün təşkil olunmuşdu.

Ənvər 1991-1992-ci illər arasında R.Behbudov adına Dövlət Mahnı Teatrında çalışıb.

O, 2006-cı ildən 2012-ci ilə qədər Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin "Cəngi" estrada-folklor ansamblının solisti olub. Bu ansamblın bədii rəhbəri və direktoru əməkdar artist, simli alətlərimizin ifaçısı Mircavad Cəfərovdur. Ə.Sadıqov 2012-ci ildə Azərbaycan Teleradio Verilişləri Qapalı Səhmdar Cəmiyyətində "Qaytağı" adlı instrumental ansambl yaradaraq ona rəhbərlik edir. Qrupda tarzən, Ələkbər Ələkbərov, sintezator ifaçısı Samir Şirinov, nağaraçalan Fuad Mehdiyev və zərb alətləri ifaçısı Taleh Qafarovdur. Bu ansamblın ifasında Azərbaycan və dünya bəstəkarlarının əsərləri səslənir. Həmçinin xalq musiqimizin nadir inciləri oranjeman edilərək yeni səpgidə, yeni səslənmədə dinləyicilərə və tamaşaçılara zövq bəxş edir.

Məşhur musiqiçimizin 2010-cu ildə diskləri çıxaraq geniş şəkildə yayılıb. "Seçmələr" adlanan



diskdə sənətkarın 2001-2010-cu illərdə ifa edib yazdırdığı müxtəlif janrlı əsərlər toplanıb. Bu proqram geniş repertuarlıdır. Ənvərin ifaları radiomuzun fondunda da müntəzəm səsləndirilir.

Ənvər 2006-cı ildə Pedaqoji Universitetin musiqi təhsili fakültəsinin əyani şöbəsinə qəbul olunub və 2010-cu ildə buranı uğurla başa vurub.

17 sentyabr 2007-ci ildə Ənvər Sadıqova Azərbaycan Respublikasının "Əməkdar artist"i fəxri adı verilmişdir.

Ənvərin gənc qarmonçalanlara tövsiyəsi: "Klassik musiqimizi, usdad ifaçılarımızın, qədim sənətkarlarımızın lentlərini dönə-dönə dinləsinlər. Musiqimizin kökünə bağlansınlar. Zəngin Azərbaycan musiqisinin, sənət dünyamızın özünün kökü, özülü, əsası vardır. Hər bir yeni ifaçı buradan başlamalıdır. Uşaqlıq və gənclik illərində həvəslə bədii özfəaliyyət kollektivlərinə üzv olurduq. Ən böyük ifaçılarımız özfəaliyyət ansamblarından yetişiblər. İndiki cavanlar bu incə mətləbləri anlamırlar. Onların əksəriyyəti özfəaliyyət dərnəklərindən uzaqdırlar. Gənclər müşayiəti də öyrənməlidirlər.

Peşəkar sənətə çatmaq, mərtəbələrlə tikilmiş möhtəşəm binaya bənzəyir. Binanın ən üst qatına mərtəbə-mərtəbə qalxırlar".

Ənvər Sadıqov 1995-ci ildə ailə qurub. İki övladı var. Hər ikisi Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil alır.

Uşaqlıqdan qarmonla əhd bağlayıb,
Əhd-peymana düz ilqar saxlayıb,
Oynaq çalğılarla coşub-çağlayıb,
Qarmon sehirdir, əlində Ənvərin
Dinib, danışır dilində Ənvərin.



"Qaytağı" ansamblı məşq zamanı




"Qaytağı" ansamblının üzvləri. Sağdan: Ələkbər Ələkbərov, Ənvər Sadıqov, Fuad Mehdiyev, Samir Şirinov, Taleh Qafarov

O ürəkdən bağlanıbdı bu işə,
Ustadlardan öyrənibdi həmişə.
Sənət qazanıb gedir yüksəlişə,
Qarmon coşur səs selində Ənvərin
Dinib, danışır dilində Ənvərin.
Ə.Rəhmanlı, noyabr 2007

• • •


Musiqiyə ülvi məhəbbəti var,
Sənətinin gücü və qüdrəti var,
Bu gün onun çox böyük şöhrəti var,
Yeni səpgi, üslub yaradıb Ənvər.
Davamçılar bu yoldadır səfərbər.

Dövrümüzün böyük sənətkarıdır,
Qarmon sənətinin iftixarıdır,
Ustadların əsl yadigarıdır,
Yeni səpgi, üslub yaradıb Ənvər.
Çox çalışıb, olub sənətdə sərvər.
Ə.Rəhmanlı, may 2010



Ə.Sadıqovun ixtira etdiyi üç oktavalı qarmon


Balamın balası
Musiqisi: Ənvər SADIQOV
Sözləri: Teymur MƏMMƏDOV
Moderato ♩ = 100
Səs
Piano
mf
Ba-lam gə-lir si-nə - si-nə,
Si-gir ba-ba si-nə - si-nə. Na-xan gə-lir si-nə - si-nə si-gir ba-ba
si-nə - si-nə. Tən-dən pey - dı,dö-yüb Ba-ba si-nə, na-nə - si-nə.
Ba-la-mın ba-la ba-la-sı, O-ba-sın ü-mid qə-la-sı. Ca-nım ma-nim na-xan - dı,


Səs
Piano
hey! Qa-da-sı mə - nə qə-la - sı. Ba-la-mın ba-la ba - la - sı, O-ba-sın ü-
mid qə-la-sı. Ca-nım ma-nim na-xan - dı, hey! Qa - da-sı mə - nə qə-la-sı.
Qal - bi ay - dın-sa - dır, Nə - lin sə-n si-ni. Ey-e-yi-yi
o qəy - mə-dır, Yox - dur na-xan ki-mi. Yox - dur na-xan ki - mi.
Ba-la-mın ba-la ba-la-sı, O-ba-sın ü - mid qə-la-sı. Ca-nım mə



1. Balam gəlir sinəsinə,
Sığır babə sinəsinə.
Nəvəm gəlir sinəsinə.
sığır babə sinəsinə.

Tanrıdan paydı, düşüb
Babəsına, nənəsinə.

Balamın bala balası,
Obanın ümid qalası.
Canım mənim nəvəmdi, hey!
Qadası mənə qalası.

Təkrar

Qəlbi aydın aynadır,
Nəsilin sarı simi.
Eveşiyi o qaynadır,
Yoxdur nəvəm kimi.
Yoxdur nəvəm kimi.

Balamın bala balası,
Obanın ümid qalası.
Canım mənim nəvəmdi, hey!
Qadası mənə qalası.

Təkrar

2. Nəvəm ilə açır səhər,
Nəvəm ilə düşür axşam.
Nəvəm mənə çox oxşayır,
Mən nəvəmə oxşamışam.

Tanrıdan paydı, düşüb
Babəsına, nənəsinə.

Balamın bala balası,
Obanın ümid qalası.
Canım mənim nəvəmdi, hey!
Qadası mənə qalası.

Təkrar

Qəlbi aydın aynadır,
Nəsilin sarı simi.
Eveşiyi o qaynadır,
Yoxdur nəvəm kimi.
Yoxdur nəvəm kimi.

Balamın bala balası,
Obanın ümid qalası.
Canım mənim nəvəmdi, hey!
Qadası mənə qalası.

Təkrar

2.94. USTA ZAHİR

Uzun illər milli qarmonlarımızı düzəldən, təmir edən, köklənməsilə məşğul olan ustalar ruslar və bir neçə nəfər isə digər xalqların nümayəndələri idilər. Onları həmişə hörmətlə xatırlayırıq. Çünki Azərbaycan qarmonlarının düzəldilib meydana gəlməsində səylə çalışmış və bu işdə xüsusi rol oynamışlar. Onların izi bu gün də görünməkdədir. Düzəltdikləri qarmonlar indiki dövrə qədər gəlib çataraq ən peşəkar qarmon ifaçılarımızın əlində səslənməkdədir. Bunu da söyləməliyik ki, həmin ustaların bəziləri qarmonun səslənməsi üçün əsas hissələrdən olan tənəkələri (tirlər, plankalar) ya Vyatsk, ya da Tulada yaşayıb işləyən ustalara sifariş verib gətizdirir və yaxud da özləri düzəldirdilər. Bakıda yaşayan ustalardan bu sırada Arxip Karpuşkin və Saşa Zverevin adlarını xüsusi qeyd edirik. Tuladan isə bizə məşhur ustalardan Flippov, Juravlyov, Stolbov və digərlərinin düzəltdikləri tənəkələr (planka) və ya hazır qarmonlar gəlirdi. Hazırda da istər Rusiyanın bir neçə şəhərlərindən bizə gətirilən və ya Bakıda hazırlanan milli qarmonlarımız evlərdə, vaxtilə ifaçılıqla məşğul olanların ailələrində, qarmon sənətçilərimizdə, onların sənətini davam edən övladlarındadır. Artıq köhnə qarmonlar azərbaycanlı ustalar tərəfindən yenidən bərpa olunur və istifadəyə verilir.

Rus ustalar dünyadan köçəndən sonra bu sahədə boşluq yaranmadı. O yeri, o sahəni öz millətimizin nümayəndələri tutdular. Bu sahədə çalışan, digər millətlərin nümayəndələri olan ustaların sonuncuları (əslində onlar 1-2 nəfər idilər) ömürlərini başa vurduqları ərəfədə bizimkilərdən bu yolda çıraq yandıranlar var idi. Onu da deməliyik ki, qarmon ustalığına qədəm qoyan vətən övladlarımızın əksəriyyəti qarmon ifaçılığı sənətindən gələnlərdir. Məmnuniyyətlə onlardan biri haqqında da söz söyləyək.

Zahir Bakir oğlu Dadaşov 1966-cı il iyul ayının 18-də Bakının Əmircan qəsəbəsində anadan olub. Əsilləri Azərbaycanın Cənub, Muğan bölgəsindəndir. Bu ailədə altı uşaq dünyaya gəlsə də, ikisi az yaşlarda tələf olub. Dörd uşaq böyüyüb-başa çatıb. Zahir ikinci övladdır.

Bakirin əmisi oğlu Hümmət Davud oğlu Talıbov el-obada yaxşı müğənni kimi tanınar, toy şənliklərində oxuyarmış. O, avtomobil qəzasında həlak olub. Ümumiyyətlə, bu şəcərənin genində musiqi istedadı özünü biruzə verib. Bakir Dadaşov səsə və oxumaq qabiliyyətinə malik idi. Operamızın solisti, Leyli rolunun ifaçılarından biri Rəsmiyyə Sadıqova ilə birlikdə məclislərə gedirdi. İsabala kişi oğlu Bakirin müğənnilik fəaliyyətini istəmirdi. Odur ki, ata əmrindən çıxmayan Bakir bu işdən uzaqlaşmışdı.

Fikrimizi bu oçerkin qəhrəmanı Zahirə yönəldək. O, 1973-cü ildə 8-ci km qəsəbəsindəki 220 saylı ümumtəhsil məktəbdə 4 il oxuyub. Sonra isə təhsili Əhmədli qəsəbəsindəki 95 saylı məktəbdə davam edərək burada 8-ci sinfi bitirib. Montindəki 56 saylı peşə-texniki məktəbdə 2 il 6 ay oxuyaraq "avto-elektrik" ixtisasına yiyələnib.

Atası Zahiri 6 yaşı olarkən qaboyçalan Kamil Cəlilovun yanına qarmon öyrənmək üçün qoyub. Balaca Zahir 3 il Kamil müəllimdən qarmon dərsi alıb. Sənəti daha mükəmməl öyrənsin deyə, 1976-1981-ci illərdə Qara şəhərdəki mədəniyyət sarayında mövcud olan beşillik qarmon kursunda təhsil alıb. Özünün dediklərindən məlum olur ki, onun musiqiçi olmaq arzusu yox imiş, lakin atasının tövsiyəsi və tapşırığı ilə musiqilə məşğul olub.

Zahir Dadaşov 1984-1986-cı illərdə Baltikyanı ölkədə əsgəri xidmət keçib. O, istər əsgərlikdən öncə, istərsə də sonra əsasən Aftandil İsrafilov və Zakir Mirzə sənətindən bəhrələnib. Özünün təbirincə: "Onların ifaları toplanan kasetlər sanki mənim stolüstü kitablarım idi."

Əsgərlikdən öncə Zahir Əhmədli qəsəbəsindəki "Bakı fəhləsi" mədəniyyət evinə, x.ç.a. ansamblının məşqlərinə gedirdi. Hazırda tanımlı qarmonçu, əməkdar artist Ənvər Sadıqov və digər istedadlı gənclərlə burada tanış olmuşdu. Məşqlər onların həvəsinə və sənət inkişafına zəmin ya-

ratmışdı. Onun toy fəaliyyəti ilk əvvəllər əmisi, nağaraçalan Zakirlə birlikdə başlayıb.

Özünün dediklərindən: "Əsgərlikdən 1 il öncə babat çalmağa başladıqda, atam məni rayona yolladı ki, oralarda toylara gedim. Zakir əmimin dəstəsində Cənub bölgəsində əsasən qız toylarına gedirdim. Hərbi xidmətdən qayıtdıqdan sonra yenə Zakir əmi ilə birlikdə çalışdım. Masallıda və ətraflarda, Bakıda, hətta Rusiyada toylarda olurdum. Bu minvalla 8 il toylarda qarmon çaldım. Yaz-yay zamanı elə olurdu ki, ayın bütün günü məclislərdə, toy-nişanda çalırdıq. 1995-ci ilə qədər bu işlə məşğul olmuşam."

Zahir 1990-cı ildə qarmon ustası, tatar millətinin nümayəndəsi Yusif (Yura) Hidayətullayevlə tanış olub. Əhmədlidə 9 mərtəbəli binaların birinin altında onun emalatxanası varmış. Zahir təsadüfən həmin binanın yanından ötərkən pəncərədən baxaraq, içəridə ustanın işlədiyini görmüş və maraqlanıb içəri daxil olmuşdu.

Zahirin söylədikləri: "Mən ona dedim ki, sənin yanında şagird olmaq istəyirəm, razı olarsanmı? Cavab verdi ki, razıyam, lakin bir şərtlə - 3000 rubl pul verməlisən. Mən də razılıq verdim. Yaxşı qarmonum var idi, usta Valentin düzəltmişdi. Həmin qarmonu satdım, üstünə də pul əlavə edərək Yuranın dediyi məbləği ona verdim. Onun yanında şagird olub ustalığı öyrənməyə başladım. Özümə babat qarmon alıb toylara da getdim. 1 il ərzində ondan qarmon təmirilə bağlı bəzi şeyləri öyrəndim.

Mənim ustalığa gəlməyimdə məşhur qarmonçalan Hüseyn Həsənovun da rolu olub. O, qarmon alətində yeniliklər etmək barədə düşünürdü, öz fikirlərini həyata keçirməyə çalışırdı. Hüseyn müəllim mənə qarmonla bağlı bəzi sifarişlər verirdi. Qalan işləri başqa ustalara gördürürdü. Onun sifarişlərini yerinə yetirərək hiss etdim ki, artıq nəsə bacarıram."

Zahir Dadaşov qarmon ustalığına daha mükəmməl yiyələnsin deyə 1993-94-cü illərdə Rusiyanın Tula şəhərinə gedir, 1 ay qalır, ustaların tövsiyələrini dinləyir, gördükləri işlərlə tanış olaraq, bəzi işləri öyrənirdi. Gedib-qayıtmaq, orada qalmaq xərclərini çıxarsın deyə, hər dəfə qayıdanda özüylə 1-2 qarmon gətirir və Bakıda alət arzusunda olanlara satırdı. O, Tulada əsasən usta Gennadi Bundindən təlimat almış, əlinə, işinə baxıb, göstərdiklərini yerinə yetirib sənət öyrənmişdi. Əlbəttə, həmin şəhərin digər qarmon ustaları ilə əlaqələr də mühüm rol oynamışdı. Axı oradakı hər ustanın öz işi var, kimisi qarmonun gövdəsini düzəldir, kimisi sədəf düzür, kimisi körük (mex), kimisi şəbəkə hazırlayır, kimisi tənəkə (planka) işilə məşğul olur, kimisi dilcikləri düzür, kimisi aləti kökləyir və s.

Zahirin xatirələrindən: "Leninqrad (hazırda Sankt-Peterburq) şəhərində Armiya küçəsində "Krasnıy partizan" adlı fabrik var idi. Hazırda "İlmira" adlanır. Orada musiqi alətləri hazırlanır. Ora getdim, sex rəisi və ustalarla tanış oldum. Onlar akkordeon, bayan və rus qarmonları düzəldənlər idilər. Fabrikdə ən yaxşı "nastroyşik" (alətləri kökləyən) Sergey Sokolov idi. Onunla yaxın münasibət qurdum. Sonralar onu Bakıya gətirdim. Burada 3 il mənimlə birlikdə çalışdı. Bu adamın qeyri-adi səseşitmə, səsduyma qabiliyyəti, fitri istedadı var idi. Səsi dəqiq eşidir və dəqiq kökləyirdi. Tula şəhərində yaxşı ustalardan biri də Gennadi Bundin idi. Onu da Bakıya gətirdim, 6 ay birlikdə işlədik."

Göründüyü kimi Zahir arzusunda olduğu peşəyə tam ciddi yanaşmış, peşəkar, təcrübəli ustalarla əlaqə quraraq hər işi yaxşı öyrənməyə çalışmışdı.

Onun fikirlərindən: "Qarmonun düzəldilib ortaya çıxmasında 7-8 sənət birləşir. Ruslarda bu işlə bağlı belə bir söz var: "Zakazçik", yəni sifarişçi. Usta müştəridən sifariş götürür, hər işi özü yerinə yetirir və ya müxtəlif işləri edən ustalara tapşırır, sonra hazır aləti sifarişçiyə təhvil verir."

Ustalığı dövründə Zahir Dadaşov qarmon ifaçılarımızın əksəriyyətilə münasibətdə olub. Onun fikirləri: "Mənim usta kimi yetişməyimdə ilk əvvəllərdən ifaçılarımızın rolu oub. Bu sırada Hüseyn Həsənov və Ənvər Sadıqovun adını xüsusi qeyd edirəm. Hər ikisi mənə sifariş verib, iş gördürüb-

lər. Əvvəl çəkinmişəm, işin məsuliyyətindən qorxmuşam. Ürək-dirək veriblər, razılaşmışam. Lakin sonradan məsuliyyət hissi məni bu işləri daha yaxşı etməyə, meydana layiqli iş çıxarmağa sövq edib."

Zahir özünü 2000-ci ildən etibarən tam peşəkar usta sayır. Çoxları üçün qarmon yığıb. Xalq artisti Aftandil İsrafilovun adına xüsusi qarmonlar da düzəldib. Həmin alətlərin ön tərəfinə ustad qarmon ifaçımızın adı həkk olunub. Bu adda olan, belə markalı 6 ədəd qarmon ölkəmizdə və onun hüdudlarından kənarda çalınır.



Usta Zahir iş otağında

Usta Zahir səmərəli çalışaraq indiyə qədər 300-ə yaxın qarmon düzəldib. Onun hazırladığı qarmonlar respublikamızın əksər məşhur qarmonçalanlarının, bu sırada Baxışəli Əliyev, Nemət Hüseynov, Aydın Əliyev, Elşən Dadaşov və Tahir Zakirovun əlində məlahətlə səslənir. Musiqi kolleclərində, Mədəniyyət və İncəsənət Universitetində təhsil alan tələbələr, məzunlar usta Zahirin qarmonlarını çalırlar. Onun əlinin səliqəsi, qəlbinin sevgisiylə yaranan alətlər İrana, Türkiyəyə, Orta Asiya respublikalarına da gedib çıxıb. İran İslam Respublikasından ustanın yanına gələnlər çoxdur. Onlardan Pərviz, Pərhan, Mahmud və Məhərrəmin adlarını çəkməklə kifayətlənirik.

Türkiyə Ankara Dövlət Opera və Balet teatrının solisti, tenor-vokalçı Şenol son dövrlərdə Zahirlə əlaqə saxlamış, onun işini təqdir etmiş və iki ədəd qarmon sifariş verib öz vətəninə aparmışdır. Şenol qarmon çalmağı da bacarır. O, Zahirə "do"kökündə olan qarmonlar hazırlatdırıb. Türkiyə televiziyalarına dəvət olunarkən verilişlərdə qarmonu da səsləndirir.

Qardaş ölkənin İğdır şəhərindən olan qarmonçalan İnham Ağgül usta Zahirin sorağına Bakıya gəlmiş, ona üç ədəd qarmon sifariş verərək aparmışdır.

Azərbaycan xalqını, onun musiqisini ürəkdən sevən, qarmon sənətinin vurğunu olan Hacı Naili Musabəyli demək olar ki, hər il ölkəmizə gəlir. O da usta Zahirə 2 ədəd qarmon düzəltdirmişdir.

Zəhmətkeş və hünərvər sənətkarımızın sorağı Dağıstan Respublikasına da gedib çıxıb. Azəri türkü, əməkdar artist, qarmonçalan Baba Mirzoyevin də əlində Zahirin qarmonu səslənir.

Qarmonlarımızın təkmilləşməsində də usta Zahirin xidməti vardır. O, əməkdar artist, virtuoz ifaçı Ənvər Sadıqov üçün iki ədəd üçoktavalı qarmon düzəldib. Təbii ki, alətin həcmi də böyüyüb.

Registrli olan həmin alətlərin biri "do", digəri "si" tonallığındadır. İfaçı bu alətlərin üzərində təkmilləşmə işləri gördürərək toylarda və konsertlərdə məharətlə istifadə edir. Artıq başqa ifaçılarımız da bu həvəsə düşərək digər ustalara belə alətlər sifariş verirlər. Əlbəttə bu yolda ilk qədəmi



Tofiq Zahir oğlu Dadaşov məşq zamanı



Usta Zahir şagirdi Aslan Məhəmmədovla öz emalatxanasında

usta Zahir atıb. Qeyd etməliyik ki, həmin qarmonlar nazik səslərə tərəf yox, qalın səslərə doğru artırılıb. Alətin hündürlüyü 42 sm, eni 19 sm-dir.

Zahir Dədaşov 1990-cı ildə ailə qurub. İki övladı var. Oğlu Tofiq qarmon sənətilə məşğul olur. 2008-ci ildə 33 saylı uşaq musiqi məktəbinin akkordeon sinfini bitirib. Müəllimi Aleksey Stepanoviç Papov olub. 2 ildən artıq müddət ərzində Nemət Hüseynovdan fərdi qaydada qarmon dərsi alıb, muğamları və xalq oyun havalarını öyrənib.

Usta Zahir oğlu Tofiq üçün üçoktavalı qarmon düzəldib. Onun 16 yaşı tamam olanda atası Tofiqə bu aləti hədiyyə edib. Tofiq Azərbaycanın özəl televiziya kanallarında gənclər üçün təşkil olunan yarışmalarda çıxış edərək ilk sıralara çıxıb. O, akkordeon və qarmon ifaçısı kimi önə çıxanlardan olacaq.

Yaxşı haldır ki, qarmonlarımızın istehsalı ilə məşğul olan ustalarımız yanlarına şagird götürürlər ki, həm köməkçiləri, həm də davamçıları olsun. Usta Zahirin emalatxanasında da şagirdə rast gəlmişəm. Bu ləzgi xalqının nümayəndəsi Aslandır. Aslan Fikrət oğlu Məhəmmədov 1982-ci il martın 24-də Bakıda anadan olub.33 saylı uşaq musiqi məktəbinin, Milli Konservatoriya nəzdində Musiqi Kollecinin qarmon sinfini bitirib. 2005-ci ildən usta Zahirin emalatxanasında şagird, köməkçi olaraq sənət öyrənir.

2.95. HACI PƏRVİZ



Pərviz Əhədov

O, qarmon aləmində çox yaxşı tanınır. Adı hörmətlə ən mahirlərin sırasında çəkilir. Haqqında daim müsbət fikirlər söylənir. Gözəl əməlləri, mənəviyyatı, saf niyyəti ilə çoxlarının hörmətini qazanıb. Yazı müəllifi olaraq deyə bilərəm ki, onun haqqında musiqiçilərdən yalnız xoş sözlər eşitmişəm. Yaxşı qarmon ifaçısı olması barədə neçə illər öncə soraq alsam da nə üzünü görmüş, nə də ki, çalğısını dinləmişdim. Deməliyəm ki, 1990-cı illərin əvvəllərində Salyanda Pərviz adlı bir gəncin uğurlu addımlar, yaxşı sənətlə meydana çıxması barədə Bakıya da xəbərlər gəlmişdi.

2005-ci il dekabr ayının 1-də sənət dostumuz məşhur qarmonçalan Abutalıb Sadıqovu (1945-2008) Həcc ziyarətinə yola salırdıq. Yola salanlar arasında əməkdar Zakir Mirzə və Baxışəli Əliyev də var idi. Ziyarətə gedənləri aparan avtobuslar Hökumət Evinin yaxınlığında dayanmışdı. Klarnet ifaçısı Raqib Hüseynov da Abutalıb müəllimə uğurlu yol arzulamağa gəlmişdi. O, dedi ki, mən həm də qarmoncalan, salyanlı Pərvizi yola salmağa gəlmişəm. Pərvizgili aparan avtobus da yaxındadır. Raqib bizimlə xudahafizləşib zəvvarların digər avtobuslarına tərəf getdi.

Pərviz Həcc ziyarətindən qayıdaraq müqəddəs Quranımıza sığınmış, dini ritualları yerinə yetirmiş, şəriət qanunlarına əməl etmiş. Uca Allaha gedən yolun yolçusu olmuşdur. Ziyarətdən qayıtdığı andan halal Hacı adını öz adının qarşısında

daşımağı bacarmışdır. O, xalq musiqiçilərimiz arasında Hacı Pərviz olaraq tanınır.

Oğlum, qarmonçalan Mikayıl Rəhmanlı musiqiçilərin toylarından yazılmış diskləri toplayaraq tamaşa edir, dinləyərək özünə lazım olanları öyrənir. 2010-cu ilin ortalarında o, musiqiçi toyunu əks etdirən bir diskə baxırdı. Bu zaman ekranda mənim üçün yeni olan bir qarmon ifaçısını seyr etdim. İfa mənə maraqlı gəldi və mən kağız-qələmdən ayrılıb diqqət kəsildim. Onun cəld, çevik barmaqlarla keçidlər etməsi, sürətli melodiyaları tam sərbəst və aydın təhvil verməsi çəlbedici idi. Çalğı mənə müəyyən qədər əməkdar artist Ənvər Sadıqovun ifa üslubunu xatırlatdı. Oğlum da diqqətlə tamaşa edirdi. Ondan soruşdum:-Bu ifaçı kimdir? Cavab verdi ki, Hacı Pərvizdir.

Beləliklə, nəhayət ki, ifasını eşitmək, üzünü görmək istədiyim bir ifaçı ilə qiyabi tanışlığım yarandı.

2012-ci il avqust ayının 14-də, həm də müqəddəs Ramazan zamanında, axşam saatlarında, iftardan sonra Bakının Bakıxanov qəsəbəsində yaşıllığın qoynuna aldığı cayxanada üzbəüz əyləşib çay içə-içə söhbət edib yaxından tanış olduq.

Pərviz Nəhməd oğlu Əhədov 1967-ci avqustun 6-da Salyan şəhərində anadan olub. Ata bənna, ana isə evdar qadın idi. Bu mehriban, zəhmətkeş ailədə beş uşaq halalıqla böyüyüb. Pərviz sonbeşikdir. O, 1974-cü ildə 4 saylı ümumtəhsil məktəbin 1-ci sinfinə daxil olub və 1982-ci ildə 8 illik təhsili bitirib. Həmin il Salyandakı texniki peşə məktəbinə daxil olub və burada 3 il təhsil alaraq sürücülük peşəsinə yiyələnib.

Salyanda qarmon sənətinə həmişə maraq və sevgi olub. Bu kiçik şəhərdə böyük qarmon ifaçıları yetişib. Digər bölgələrin qarmonçalanlarından onların fərqli cəhətləri o olub ki, həmin sənətkarların çalğısında şirinlik, sambal, təmkin, təsir və aydınlıq hiss olunub. Salyan qarmonçalanlarının ifa tərzində musiqili ürək daim özünü biruzə verib. Musiqi aləmində haqlı olaraq həmişə fikir yürüdülüb ki, Salyan qarmon ifaçıları şirin çalırlar. Salyanda Rza Şıxlarov, Əflatun Ağayev, Əlisahib Dadaşov, Sadıq Sadıqov, Elman Bədəlov, Saleh Nəzərov, Çingiz Qurbanov, Tofiq Məlikov, Aslan İlyasov, Süleyman İlyasov, Əliyusif kimi qarmon sənətkarlarları yetişib. Onlardan ən mahiri Rza Şıxlarov və Əflatun Ağayev, ən məşhuru isə Aslan İlyasov olub. Salyan camaatı həmişə qarmonsevərliklə seçilib. Heç bir şadyana mərasim, toy-nişan qarmonsuz keçirilməyib. Pərviz də belə bir mühitdə boy atıb pərvazlanıb.

Pərvizgilin qonşuluğunda da qarmonçalanlar var idi. Sadıq Eyvazov, Yaşar Haqverdiyev, Şahlar Ağalarov qonşuluqda yaşayırdılar. O dövrdə bütün gənclər Avtandil İsrafilovun üslubu ilə sənət öyrənirdilərsə, Şahlar yeni nəsə axtarırdı, tam fərqli cəhətlərlə çalırdı. Pərvizgilə ən yaxın qonşu Sadıq Eyvazov idi. Onların həyətini ortadakı çəpər ayırırdı. Yaşıdları olan musiqiçilər tez-tez Sadıqgilə yığışar, məşqlər edər və sənət barədə söhbətləşərdilər. Sadığın böyük qardaşı Aydın (ləqəbi Aqqa) qarmon, o biri qardaşı Yadigar isə nağara çalırdı. Onların bir qardaşı Sədiyar da vaxtıyla nağaraçalan olmuşdu.

Musiqiyə həvəskar 6 yaşlı Pərviz tez-tez Sadıqgilə gedər və onların məşqlərini həvəslə, həssaslıqla dinlərdi. Bu uşağın qeyri-adi musiqi yaddaşı var idi, nə eşidirdisə beyninə həkk olunurdu. Sadıq Pərvizə əvvəlcə bir mahnı öyrətdi. Uşaq bu havanı yaxçıca çalırdı. Sonrakı vaxtlarda 2-3 mahnı da öyrədib təhvil alandan sonra demişdi: "Daha sənə heç nə öyrətməyəcəyəm. Özün öyrənə bilərsən. Televizora bax, radionu dinlə, eşitdiklərini öyrən". Balaca Pərvizin həvəs və bacarığını görən valideynlər ona "Kazan" qarmon aldılar və 7 yaşında ikən onu Salyan mədəniyyət evində fəaliyyət göstərən qarmon kursuna qoydular. Əlbətdə azyaşlı uşağın qarmon çalması, alətlə davranması, gücü catması çox çətindir. Tədris qaydalarına əsasən qarmon sinfinə 10 yaşlı uşaqları götürürlər. Təcrübəmizdən bilirik ki, 6-10 yaş arasında olan uşaqlar hədsiz istedad sahibi olsalar belə, qarmonun çəkisi onlara ağır gəldiyi üçün az müddətdən sonra həvəsdən düşür və məşğul ol-

maqdan imtina edirlər. Lakin istisnalar da olmuşdur. Vergili uşaqlar hər çətinə tab gətirmiş, istedad və həvəsləri hər şeyə güc gəlmiş, az yaşlardan gələcəkdə mükəmməl qarmon ifaçısı olacaqlarına inam yaratmışlar. Pərviz də belələrindən biri olaraq mədəniyyət evində qarmonla məşğul olanlar arasında seçilirdi. Elə ona görə də onun musiqi məktəbinə keçirilməsi barədə düşünməli oldular. Mədəniyyət evində Pərvizin sənət müəllimi Alim Abbasov idi. O, şagirdinin gələcəyinə böyük ümid bəsləyirdi. Pərviz ondan 1 il dərs aldı. 8 yaşlı Pərvizi Salyan musiqi məktəbinin 1-ci sinfinə qəbul etdilər. Burada 5 il təhsil aldı, notu, nəzəriyyəni, qarmon sənətinə aid olan incəlikləri öyrəndi. Onun ixtisas müəllimi Vidadi Cəfərov olub. Pərviz musiqi məktəbinin x.ç.a. ansamblında çalırdı. Cəldliyi, çevikliyi və bacarığı ilə yoldaşları arasında seçilirdi. Onun xatirələrindən: "Musiqi məktəbi illərində müəllimin öyrətdiklərindən əlavə cəld ritmli melodiyaların demək olar ki,hamısını çalırdım. Televiziya konsertlərini izləyirdim. Oradan nəyi eşidirdimsə öyrənə bilirdim. Bir dəfə televiziyada qonşu respublikanın estrada orkestrinin müşayiətilə skripkaçalanın ifasında "Bayatı-Şiraz" muğamı əsasında melodiyanı eşitdim. Bu konserti iki dəfə Bakı, bir dəfə də Moskva televiziyası ilə seyr etmişdim. Bu musiqini yaxşıca öyrənmiş və özümküləşdirmişdim. İfam Vidadi müəllimin də xoşuna gəlmişdi. 1977-ci ildə rayonların musiqi məktəbləri arasında müsabiqə keçirilirdi.Oxuduğum məktəbdən müsabiqədə iştirak üçün mən layiq görülmüşdüm. Vidadi müəllim mənim böyük uğur qazanacağıma ümid etdiyi halda vəziyyət tam əksinə çevrildi. Digər qarmoncalan şagirdlər kimi mən də melodiyanı nağaranın müşayiətilə çalmalı idim. Səhnəyə çıxdım. Nağaraçalan yox idi, o, səhnədə görünmədi. Səslədilər, həmin anda o, tapılmadı. Münsiflər heyətinin üzvləri əsəbi vəziyyətdə dedilər: - Vaxtımızı alırsan, biz sənünçün müşayiətçi axtaran deyilik, tez ol, ifanı göstər.

Mən müəllimin razılığı ilə həmin o "Bayatı-Şiraz" üstündəki rəqsi çaldım. Ritm müşayiəti olmadan çaldığım üçün münsiflər heyətinin üzvləri narazılıq bildirərək dedilər:- Bu nə melodiyadır, çalırsan? Biz belə rəqs eşitməmişik. Nə ifa etdiyini anlamadıq.

Beləliklə ilk müsabiqədə uğursuzluğa düçar oldum. Vidadi müəllim pərt oldu. Hətta mənə acıqlandı da. Sonralar həmin melodiya Avtandil İsrafilovun ifasında "Basqalı" adıyla geniş yayıldı. Elə indi də onun özünün və əksər musiqiçilərimizin repertuarındadır".

Haşiyə: "Haqqında söhbət gedən melodiya rumın musiqisi olaraq, onların tanınmlı bir qrupunun ifasında səslənərək lentə alınmış və dünyaya yayılmışdır. Əsasən burada solist Rumıniyanın məşhur ifaçısı İonik adlı akkordeonçalandır. Əsər instrumental musiqidir. Avtandilin ifasında "Basqalı" adlı bu melodiya zəngin çalarla, şox gözəl səslənir. O, bu melodiya üzərində iş aparıb əlavələr və dəyişikliklərlə "sol" tonallığında ifa edib radio fonduna vermiş, televiziyada və digər yerlərdə canlı şıxışlarda ifa etmişdir. Həmin melodiya ustad qarmonçumuzun ifasında özünə "vəsiqə" alaraq xalq rəqslərimiz sırasına daxil olmuşdur.

Basqal İsmayıllı rayonu ərazisində qədim yaşayış məskənlərimizdən biridir. Avtandil ifa etdiyi rərs melodiyasını basqallı dostlarının şərəfinə "Basqalı" adlandırmışdır. İfaçı, araşdırmaçı və qarmon sinfinin müəllimi kimi əsl həqiqəti qeyd etməyi özümə borc bildim. Bu rumın melodiyasıdır. Həmin melodiyanı 1970-ci illərin lap sonlarında İrəvan teleradiosunun estrada orkestri skripka ifaçısının solistliyilə ifa edirdi. Həmin orkestr Azərbaycan televiziyasında qonaq olarkən həmin melodiyanı da repertuara daxil etmişdilər. Fakt isə faktlığında qalır,bu rumınların melodiyasıdır".

İlk uğursuzluqdan sınmayan, həvəsdən düşməyən Pərviz öz üzərində çalışaraq respublikamızın ən yaxşı qarmon ifaçılarından biri kimi meydana çıxdı.

Pərviz ilk əvvəllər virtuoz qarmon ifaçımız Zakir Mirzənin sənətini sevmiş və onun çalğısına azarkeşlik etmişdi. Sənətkarın cəld ifaları Pərvizi vəcdə gətirirdi. O, Zakirin ifalarını əsasən televiziya konsertləri vasitəsilə izləyirdi.

Pərvizdən müsahibə alarkən yaxın sənət yoldaşım Manaf Rza da mənimlə birlikdə idi. Pərviz



Pərviz Əhədov Salyan musiqiçiləri ilə. Ortada gitaraçalan İxtiyar Qədirov

dedi: "Manaf, mən sənin də televiziya çıxışlarına tamaşa etmişəm və xarici ölkə əsərlərini iti barmaqlarla ifa etməyini sevmişəm. Bu bir həqiqətdir ki, sənin də ifan diqqətimi çəkdiyi üçün azarkeşlik etmişəm".

Pərvizin yaşından xeyli böyük ifasını görüb dərk edən, bəyənən Salyan musiqiçiləri onu özləri-lə toylara aparıblar. O, ilk əvvəllər yeznəsi, nağaraçalan Səyyarla toy-nişanda çalıb. Atası Nəhməd məşhur musiqiçi Həsənağa Sadıqovla yaxın tanış idi. O, Həsənağadan Pərvizin ifasını dinləməsini xahiş etmişdi. Uşağın çalğısını dinləyən böyük musiqiçi gülümsünərək demişdi: "Bu əsl qarmonçudur ki... Onunçun qarmon al, onu özümlə hər yerə aparacam".

Pərvizgil Rza Şıxlarovla Bakıya gəlmiş və ustad qarmonçunun tanışından 1200 "rubl"a qarmon almışdılar. Bu Tula şəhərində hazırlanmış qarmonlardan idi. Beləliklə Pərviz Həsənağa Sadıqovun "Mahirlər" adlı ansamblının tərkibində 2-3 ay çalışaraq 20-dən artıq iri toy məclislərində olmuşdu. Özünün söylədiklərindən: "Mən onlarla uzun müddət fəaliyyət göstərə bilmədim. Toyun biri Salyanda idisə, digəri Lənkəranda olurdu. O biri gün Əlibayramlıya gedirdik, başqa gün isə Bakı kəndində çalırdıq. Gəncə toyundan sonra Masallıya gəlməli olurduq. Həmin toyun səhəri günü yenə Bakı məclisi, yenə Salyana qayıtmaq, bu rayonun kəndlərində çalmaq, Neftçala toylarına getmək və s. və i.a. Bir-birindən uzaq məsafələrdə olan ağır məclislər, şəhərlər, rayonlar arasındakı yolları avtomobillə qət etmək, yuxusuzluq, gərginlik və yorğunluq məni əldən salmışdı. Uşaq olduğum üçün bu əziyyətlərə dözə bilmədim".

Həsənağanın oğlu Elşən qarmon, fortepiano, sintezator çalır. Böyük istedadı var. Pərvizlə tay-tuş olduğu üçün tez-tez görüşürdülər. Pərvizgil onların evində məşq edirdilər. Bu məşqlər gənclərin inkişafına böyük təkan verirdi.

Azyaşlı uşağın bacarıqlı qarmon çalğısı bütün toylarda iştirakçıların diqqətini cəlb edirdi. Bəzən onun başına duz çevirirdilər. "Mahirlər"in rəhbəri Həsənağaya deyirdilər: "Bu uşağı qo-

ruyun".

Pərviz Salyanda mahir gitaraçalan İxtiyar Qədirovun dəstəsində də fəaliyyət göstərib. Düzdür bu məşhur sənətkarı da Neftçalaya, Şirvan şəhərinə (əvvəlki Əlibayramlı), Masallı, Lənkəran bölgəsinə dəvət edirdilər. Lakin o, ən çox Salyan şəhərinin toylarında fəaliyyət göstərirdi. Bu da Pərvizin İxtiyarla birgə çalışması üçün rahatlıq yaradırdı.

Pərviz Əhədov 1985-1987-ci illərdə Sovet ordusu sıralarında xidmət edib. İki ay Almaniya Federativ Respublikasında, sonra isə Bakıda, Salyan kazarmasında olub. Onun xatirələrinə nəzər yetirək: "Tabor komandiri musiqiçi olduğumu bilib məni musiqi taqımının komandirinə təqdim etdi ki, hərbi orkestrə götürsün. O, bayan və qarmon çalmağımı bilib etiraz etdi. Dedi ki, bizə nəfəs alətlərində, orkestr alətlərində çala bilənlər lazımdır. Onu da deyim ki, əsgərlikdə az vaxtda bayan çalmağı öyrənmişdim. Hərbi hissənin klubunda bayan var idi. Bu çoxsıralı, tam mükəmməl bayan sayılırdı. Hərbi orkestrin komandiri mənə trambon alətinin ifa qaydalarını azca öyrətdi, aləti və bəzi not yazılarını mənə verib tapşırdı ki, bunları öyrənib gəlim. Elə də etdim, notla çalmağı öyrənərək onun yanına gedib işi təhvil verdim. O, razı qalıb məni orkestrə götürdü. Bayan alətində "Çardaş" əsərini də çalırdım. Xidmət etdiyim hərbi hissə dislokasiyasını dəyişdi və Almaniyadan SSRİ məkanına qayıtdı. Mən Bakıda qulluq etməli oldum. Buradakı hərbi orkestrdə də mən trambon çalır və boş vaxtlarımda bayanla məşğul olurdum. Hətta bir-neçə dəfə bayram günlərində əsgərlər qarşısında bayanla yarımsaatlıq solo konsertlər vermişdim. Bu böyük marağa səbəb olmuşdu. Xarici ölkə bəstəkarlarının əsərlərini, rus melodiyalarını və bizim bəstəkarların əsərlərini çalırdım. Hərbi hissə rəhbərliyi mənə təşəkkür etmişdi. Elə indi də bayanla məşq edib bu işi davam etsəm, yaxşı nəticə ala bilərəm". Söhbətin bu yerində mən bu ifaçıya bəzi tövsiyələr etdim. Dedim ki, konsertlərdə, musiqiçilərin toplantılarında, sənət adamlarının öz toylarında bayanla çıxış edib rəngarənglik yarat, bir daha istedadını göstər, bacarığını nümayiş etdir, musiqilərimizi bayanda çalıb bunları toylardakı alətlərlə sintez et.

Əlbəttə bir mütəxəssis kimi bizim ən ümdə vəzifəmiz milli qarmonumuzu təbliğ etməkdir və əslində bu işlə məşğuluq. Lakin başqa xalqların musiqi alətlərilə möcüzə yaradan vətəndaşlarımızı, xalqımızın istadadlı övladlarını bir daha göz önünə gətirmək, nəzərə çarpdırmaq və diqqətə gətirmək də vicdan hisslərimizdəndir.

Hacı Pərvizin xatirələrindən: "Əsgərlikdən sonra Salyanda bir müddət mənim ifamı qəbul etmədilər. Deməliyəm ki, calğım dərk olunmurdu. Hətta ifa tərzimi bəzi musiqiçilər bəyənmirdilər. Deyirdilər ki, bu nədir, sən rusca çalırsan. Əslində isə bu belə deyildi.Bu fikirlər onların məni dərk edə bimədiklərindən doğurdu, çünki mən sadə yolla çalmırdım, daha doğrusu o üslubdan dərxırdım. Mən həmişə rəhmətlik Vaqif Mustafazadənin ifalarından, onun qızı Əzizə xanımın oxuduqlarından, piano çalğısından zövq almışam. Onların improvizasiyaları məni öz çevrəsnə salıb. Ümumiyyətlə klassik musiqini sevmiş, bunları öz ifamda təqdim etmək istəmişəm. Həm də adi, sadə çalğıdan uzaqlaşmaq fikrində olmuşam. Salyanda isə əvvəllər öz mövqeyimi təsdiq edə bilmədim. Məni toylara aprmadılar. 1 il bərbər işlədim. Ənvər Sadıqovu öz dəstəsilə Salyan şəhərinə toya gətirmişdilər. Onun ifası və repertuarı Salyanda maraq doğurmuş, msiqişilərin çox xoşuna gəlmişdi. Səhəri gündən başlayaraq bir müddət onun çalğısı, qəribə üslubu, say-seçmə musiqiləri qarmonda səsləndirməsi barədə söz-söhbət getdi. Deməli belə çalğı Salyanda qəbul olundu. Elə əslində mən də həmin üslubda çalırdım. Beləliklə bir qarmonçalan kimi mən doğma elimdə, Salyanda qəbul olundum. Ixtiyar Qədirovun dəstəsində çalışdım, bölgələrin el şənliklərində çaldım".

Aşıb-daşan istedad, inkişaf edib özünü sənətdə tapmaq həvəsi gənc ifaçını 1993-ildə Bakıya gətirir. "Luna-park"ın "Aysel" restoranında çalışır. 1 ildən sonra yenidən salyana qayıdır. 1 il də Salyanda yaşadıqdan sonra yenidən Bakıya gəlir və həmişəlik burada qalır. 5 il "Gülüstan" sa-



Sağdan: Nadir Bayramlı, Hacı Pərviz və instrumental qrup



Sağdan: Hacı Pərviz, soldan birinci: Coşqun, ortada: müğənni, əməkdar artist Yusif Mustafayev

rayında işləyərək tələbata uyğun olaraq əsasən akkordeon çalır və arabir toylara gedib qarmon ifaçısı kimi tanınır, bəyənilib sevilir. Burada musiqi aləmində Şəkili Elşad kimi tanınan, nağara ifaçısı Elşad Əbdürrəhimovla yaxın yoldaşlıq edir. Pərvizin fikirlərindən: "Elşad saf insandır, dinimizi sevir, rəğbət bəsləyir, ibadət edir. Onun əməlləri təmiz, mənəviyyatı pakdır. Bu gün də onunla sənət yoldaşlığı və dostluq edirəm. Mənə elə gəlir ki, Bakıda daimi məskunlaşmağımın səbəbi belə bir saf və sədaqətli insanı tapmağım olub".



Pərviz (ortada) Həcc ziyarətində

Pərviz Bakıya gəldiyi ilk zamanlarda Ənvər Sadıqovla yaxın münasibətdə olmuş, fikir və düşüncələr mübadiləsi aparmışdı. Ənvər ona demişdi: "Bizim qarmon ifamız, bu üslub tənqidlərlə, tənələrlə qarşılaşır. Sənə də bəzi iradlar tutacaqlar, xətrinə dəyənlər tapılacaq. Ancaq neyləməli, dözüb öz işimizi davam etməliyik. Sən də öz işində ol, tənqidlərə tab gətir və ifanla öz sözünü de... Biz öz işimizdə möhkəm olaq, ifa qaydalarımızı davam edək, görək sonrası necə olur...".

Hacı Pərviz 1998-2000-ci illərdə məşhur müğənnilərdən İlqar Muradov və Rüfət Mehdiyevlə (dünyasını dəyişib) toylara gedirdi. Bu işdə klarnet və saksafon ifaçısı Eldar Zeynalov vasitəçi olmuşdu. Eldar müəllim də iman əhlidir.

Hacı Pərviz 1998-2000-ci illərdə məşhur müğənni Nadir Bayramlının ansamblında çalışıb. 2005-ci ildən Elşad Şəkilinin vasitəsilə "Şeron" qrupunun qarmonçalanı olub. O, müğənni Elton Hüseynəliyevlə də müəyyən müddət çalışıb. Nacı Pərviz Nadir Bayramlı və Elton Hüseynəliyevlə MDB məkanına konsertlərə və toylara gedib.

Bir dəfə Hacı Pərviz Bakıdakı şadlıq saraylarının birində keçirilən toy mərasimində klassik Azərbaycan qarmonu üslubunda "Şur" muğamının "Bərdaşt" və "Mayə" şöbələrini çalıb. Xalq artisti, ustad xanəndə Alim Qasımov da həmin şənliyin iştirakçısı imiş. Hacı Pərvizin qədim köklərə bağlı, maraqlı ifasını, "Şur"unu eşidən Alim vəcdə gələrək yerindən sıçrayaraq "bəh-bəh" deyib əyləşib. Sonra o, musiqiçilərin əyləşdiyi səhnəyə yaxınlaşıb ədəb-ərkan göstərərək mikrofonu götürüb və deyib: "Mən məmnuniyyətlə belə "Şur"un təsiri ilə oxuyaram. O, Pərvizin müşayiətilə qeyr-adi və həddən artıq təsirli muğam gəzişmələri edib.

Pərvizin dedikləri: "Yeniyetmə çağlarımda mən Rza Şıxlarovdan az müddətdə muğam dərsi almışam. O, mənə "Şur" da öyrətmişdi. Mən həmin məclisdə ustadımdan öyrəndiyim üslubda "Şur" çalırdım ki, bu Alim Qasımovu yerindən oynatdı və oxumağa sövq etdi".

2.96. MAGİSTRATURA TƏHSİLLİ QARMON İXTİSASLI İLK KADRIMIZ



Elman İsmayıl

Mənə təqdim etdiyi tərcümeyi-halı, gənc ömründə keçdiyi çətin, keşməkeşli sənət və ömür yolu haqqındakı məlumatlar çox təsirlidir. Əgər bu məlumatların hamısını yazıya köçürsəm oxucular bütün bunları kövrək hisslərlə qarşılayacaqlar. Hər halda bəzi məqamlara toxunmağı lazım bildim. Bu təkcə onun deyil, xalqımızın faciələrlə dolu yaşadığı Qarabağ taleyinin müəyyən anlarıdır.

Elman Mirələm oğlu İsmayıl 1974-cü il iyul ayının 8-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində müəllim ailəsində dünyaya gəlib. Mərcanlı nəslinin Otuzikilər türk tayfa birliyilə qohumluq əlaqələrində olmaları haqqında bilgilər məlumdur. Şuşa şəhəri qurularkən orada Mərcanlı məhəlləsi də olmuşdur.

Elman altı oğul, üç qız böyüyən ailədə altıncı övladdır. Mirələm Qulu oğlu İsmayılov həyat yoldaşı Məlahət Məhəmməd qızı Behbudalıyeva ilə qurduğu saf, dəyərli, mehriban, ləyaqətli ailədə milli-mənəvi meyarları, halallığı əsas götürərək, nümunəvi Azərbaycan ailə həyatı yaşayaraq ağıllı, təhsilli və əxlaqlı övladlar böyütmüşlər. Mirələm İsmayılov doğma kənddəki Füzuli adına kolxozda bir-neçə il orta ixtisas təhsilli mühasib kimi çalışmışdı. O, sonra Gəncə şəhərində ali ixtisas təhsili alaraq mütəxəssis kimi 25 ilə yaxın Karxulu kəndində, son on ili isə Yuxarı Mərcanlıdakı kənd orta məktəbində kimya-biologiya fənni üzrə müəllim işləmişdi. Məlahət xanım əvvəllər kolxozun pambıq tarlalarında, sonra isə üzüm bağında və ev-ailə təsərrüfatında çalışmaqla bərabər böyük külfətin bütün qayğılarının öhtəsindən gələ bilmişdi. Zəhmətdən yoğrulmuş bu ailənin halal çörəyi və ruzisi həmişə bol olmuşdu.

İsmayılovlar şəcərəsində də musiqiyə istedad, maraq və meyl olmuşdur. Mirələm İsmayılov (1937-1994) həvəskar tarçalan idi. Elmanın dediklərindən: "Evimizdə üç ədəd tar olub. Tarın üzünün dərisi deşildikdə atam qaramalın ürəyinin pərdəsini özü aşılayar və alətin üzünə çəkərdi". 1948-ci il təvəllüdlü Məhərrəm Qulu oğlu İsmayılov da istedadlıdır, həvəskar müğənni kimi bacarıq sahibidir. Hazırda Saatlı rayonunda köçkünlər üçün salınmış Fin şəhərciyində yaşayır. 1932-ci il təvəllüdlü Hümmət Nəcəf oğlu İsmayılov orta ixtisaslı aqronom kimi kənddə bir-neçə il fəaliyyət göstərmiş, sonra isə Ağdam Musiqi Texnikumunu tar ixtisası üzrə bitirərək uzun illər Ağdam şəhər 1 saylı uşaq musiqi məktəbinin tar sinfinin müəllimi olmuşdur. Ağdam erməni işğalına məruz qaldıqdan sonra Ağcabədinin Boyat və Hacılar kəndində pedaqoji fəaliyyətini davam etdirmişdir. Bütün fəaliyyəti boyu uğurlu yetirmələrilə tanınmışdır. Hazırda təqaüddədir və Ağdam rayonu ərazisində məcburi köçkünlər üçün salınmış qəsəbədə yaşayır.

E. İsmayıl 1980-ci ildə Xanış Rüstəmov adına Yuxarı Mərcanlı kənd orta məktəbinin hazırlıq sinfinə qəbul olunmuş, 1981-ci ildə birinci sinfə daxil olmuşdur. O, 1989-cu ildə natamam orta təhsili fərqlənmə şəhadətnaməsilə başa vurmuşdur.

Elman İsmayıl 1986-cı ildə Böyük Mərcanlı kəndindəki uşaq incəsənət məktəbinin qarmon sinfinə daxil olmuş və buranı vaxtından əvvəl 1989-cu ildə fərqlənmə şəhadətnaməsilə bitirmişdir. Musiqi təhsilnə o, anasının arzusu, atasının xeyir-duası ilə qədəm qoymuş və nəticə uğurlu olmuşdu.

Elmangilin kəndindəki uşaq incəsənət məktəbi Şəki Musiqi Texnikumunun məzunu, xanəndə Baxış Atakişiyevin təşəbbüsü və vasitəsilə açılmışdı, respublikamızın kəndlərində fəaliyyətə başlayan ilk belə məktəblərdən biri idi. Elmanın ixtisas müəllimi Rafiq Oruc oğlu Əliyev olub. O, bu məktəbə üçillik təyinatla gəlmişdi. Rafiq müəllim Cəbrayıldan idi. Muğamdan isə Akif Qaraoğlan oğlu Rəhimov dərs deyirdi. Qubadlının Xanlıq kəndindən olan Akif müəllim də bu məktəbdə işləmək üçün üçillik təyinatla gəlmişdi. Məktəbdə direktor B. Atakişiyevin rəhbərliyilə x.ç.a. ansambl yaradılmışdı. Bu ansambl nəinki təhsil ocağının özündəki tədbirlərdə, hətta doğma kənd və rayon zəhmətkeşləri qarşısında maraqlı proqramlarla konsertlər verirdi. Elman bu ansamblın tərkibində musiqiçi kimi ilk kövrək addımlarını atır və yetişirdi. Rayonun "Kolxozçu" qəzetində ansamblın fəaliyyəti işıqlandırılmış və Elmangilin şəkilləri özünə yer almışdı. Elman İsmayıl oxuduğu ümumtəhsil məktəbin özfəaliyyət ansamblının da 1986-89-cu illərdə ən fəal üzvü olaraq təhsil müəssisəsinin öz tədbirlərində, kənd klubunda və rayon ictimaiyyəti qarşısında verilən konsertlərdə dəfələrlə çıxış etmişdi. Məktəbin ansamblına xanəndələrdən Oruc Həşimov və Sədaqət Ağayev rəhbərlik edirdi. Hazırlanan proqram, verilən konsertlər, tamaşaçı münasibəti o qədər maraqlı olurdu ki... E.İsmayıl həmin dövrün, uşaqlıq və gənclik anlarındakı ilk sənət fəaliyyətinin şirin xatirələrini bu gün də yaşayır. Məktəb özfəaliyyətinin üzvləri tarçalan Mehman, sazçalan Vaqif, kaman ifaçısı Narxanım, gitaraçalan Aydın və onun qardaşı Əbil, nağaraçı Elbrus, qoşanağaraçalan Şaiq, Vaqif və ionika ifaçısı Cəmiyyət Əhmədovdan ibarət idi. Məktəb şagirdlərindən Zərnigar və Arifə bacıları, Firuzə, Sevinc, Sənəm, Ofelya və Vidadi oxuyaraq həvəskar müğənni kimi bacarıqlarını göstərirdilər.

Yada salaq ki, əksər uşaqlar kimi Elmana da təhsil aləti, "Kazan" qarmon alınmışdı. O, sənət öyrənənə qədər belə alətlərdən neçəsini dəyişmişdi. Əyalətdə, ölkə mərkəzindən kənarda yaşamaq təbii ki, alətin təmiri üçün müntəzəm ustalara müraciət etmək məsələsi çətin idi. Valideynlər iş, zəhmət adamı, böyük ailənin qayğısını çəkənlər olduqları üçün uşağın qarmonlarını götürüb Bakıya gələrək ustaya göstərmək imkanlarından uzaq idilər. Axırda Elman atası ilə Ağdama gələrək qarmonu orada yaşayıb fəaliyyət göstərən usta Vaqifə təmir etdirməli olmuş, alətin tez-tez sınıb sıradan çıxan hissələrini möhkəm materialdan qoydurmuşdu. Bunları qeyd etməkdə məqsədimiz odur, bildirək ki, kəndlərdən yetişən, sənət yollarına qədəm qoyan Elman kimi insanlar çətinliklər keçib gəliblər. Əlbəttə yenicə sənət öyrənsə də Elmanın da arzusu əsl usta qarmonuna yiyələnmək idi. Toylarda belə qarmonları görüb, eşidib bu arzuya, bu həvəsə düşmüşdü. O, arzusunu atasına bildirmişdi. Ailə böyük, xərclər,qayğılar həddən artıq çox olduğu üçün əlbəttə ki, maddi sıxıntılar var idi. Bütün bunlara baxmayaraq ata oğlunun arzusunu yerinə yetirmək qərarına gəlmişdi. Odur ki, Elmanla birlikdə Ağdama gəlmiş, usta Vaqifə 500 manat (rubl) beh verərək 1500 manat (rubl) dəyərində sənətkar qarmonu sifariş vermişdi. Usta Vaqif isə vaxt-vədə yetişsə də qarmonu hazırlayıb verməmiş, nə də behi qytarmamışdı. Əsl Azərbaycan qarmonu ilə çalmaq, keyfiyyətli, rahat məşq etmək, yaxşı sənət öyrənmək arzusunda olan bir istedadlı, həvəsli gəncin arzusu başa gəlməmişdi.

Elmanın xatirələrindən: "İlk sənət müəllimim atam və atamın əmisi Hümmət müəllim olub. Onlar evdə tez-tez məclis düzəldərdilər, calıb-oxumaq da öz yerində. Tarda atam və ya Hümmət müəllim, qarmonda mən, əvvəllər nağara əvəzinə masada və ya kətildə, sonralar isə nağarada qardaşım Rövşən və ya bacım Elminaz, oxuyan isə atamın yeganə qardaşı, bizə çox əziz, çox sevimli Məhərrəm əmim olardı. Bu çal-çağır, bu şən əhval axşamlar baş verirdi. Səhəri gün qonşular məhlədə yığışanda həvəslə, mehribanlıqla və könül açıqlığı ilə axşamkı, "konsert"dən, ailə

ansamblından söz açardılar. Məhərrəm əmim oxumağa həddən artıq həvəsli idi və bu işi yaxşı bacarırdı. Hətta bu gün də bu fikirdədir ki, əgər vaxtında ona düz istiqamət verən, yol göstərən, kömək edən, əlindən tutub qabağa çəkən olsaydı, o, indi tanımlı xanəndə, hətta xalq artisti olardı".

Elman ilk vaxtlar Mərcanlı toylarında Cəbrayıl qarmonçalanlarından Ağ Nazimi, Əyyub müəllimi, Fəxrəddin müəllimi, Azəri, öz kəndlərindən Cəmiyyəti, Eldənizi, qonşu Maralyan kəndindən Qasımı görüb dinləmiş və hərədən nəsə götürüb öyrənmişdi. Bakıdan gələn sənət ustalarının kənd mədəniyyət evində verdikləri konsert zamanı mahir qarmonçu Abutalıb Sadıqovun maraqlı ifası onda sənət eşqini daha da yüksəltmişdi. Atası Elmanın sənətə bağlandığını hiss edib onunçün qarmon ifaçıları Zakir Mirzəyevin, Avtandil İsrafilovuvn, Zahid Məmmədzadənin, kaman ifaçısı Habil Əliyevin və digər müqtədir sənətkarların qrammafon vallarını almışdı. Elman bu ifaların hamısını dinləyib öyrənirdi.

Elman İsmayıl 1989-cu ildə M.M.Nəvvab adına Şuşa Musiqi Texnikumunun qarmon sinfinə daxil olub və buranı 1993-cü ildə fərqlənmə diplomu ilə başa vurub. 1992-ci ilin yayında özünə Cəbrayılın Minbaşı kəndində toyda çalan Faiqdən sənətkar qarmonu alan Elman doğma rayonun kəndlərində az müddət toy-mağarın qarmonçalanlarından biri kimi fəaliyyət göstərib. O, texnikum təhsilini bitirib təyinatla doğma kəndindəki uşaq incəsənət məktəbinə işləmək üçün göndərilsə də bu ona nəsib olmayıb. 1993-cü il avqustun 23-də Cəbrayıl rayon mərkəzi, oktyabrın 23-də isə Mərcanlı və digər ərazilər yağı düşmən, ermənilər tərəfindən işğal olunub. Elman müəllimin danışdıqlarından: "Ermənilər Horadiz qəsəbəsi tərəfdən yolu bağlayıb bizi mühasirəyə aldılar. Mülkü əhalini qorumaq və ya mühasirədən çıxarmaq üçün hərbçilərimiz yox idi. Əliyalın əhali quduz düşmənlə üz-üzə qalmışdı. Yeganə çıxış yolu nə təhər olsa kəndi tərk etmək oldu. Bütün kənd əhalisi, hətta yataqda xəstə olanlar da Araz çayının sahilinə, meşəyə üz tutdular. Bizim ailəmiz kənddən çıxmaq istəmirdi, deyirdilər doğma yurdda ölək. Bu fikirlərə baxmayaraq çətinliklə olsa da onları kənddən çıxara bildim. Araz çayına çathaçatda arxaya baxıb gördük ki, kəndə bir-neçə yerdən od vurdular. Əgər yarım saat geciksəydik düşmənlər bizi ya güllələyə tutacaq, ya da girov götürəcəkdilər. Qaranlığa düşdüyümüz üçün gecəni qorxu içində, birtəhər çay kənarında keçirdik. Hava işıqlanan kimi üzə bilməyənlər, çayı keçmək üçün köməyə ehtiyacı olanlar, yüklər camaatımızın əlində olan az sayda hərbi texnikanın vasitəsilə o biri sahilə, İran dövləti ərazisinə keçirildi. Üzə bilənlər çayı üzüb keçdilər. Kiçik qardaşım Rəhman və mən şəxsi təsərrüfatımıza məxsus 10 baş xırdabuynuzlu və 3 baş iri buynuzlu heyvanları çayın gur axan iki qolunu üzüb keçməklə İran dövlətinə aid sahilə çıxartdıq. Həmin vaxt payızla əlaqədar Araz çayı gur axırdı. Əhali təşviş və qorxu içində idi, nə edəcəyini bilmirdi. Sağ qalanlar doğmalarını görüb Allaha şükür edirdilər. Ermənilərin meşəyə qəfil hücumu kəndimizin əhalisindən neçəsinin məhvinə səbəb oldu. Canını qurtarmaq istəyənlər özlərini Araz çayına vurub əks sahilə keçmək istədikdə üzə bilməyənlər boğuldular.

İşğal zamanı biz demək olar ki, evdən heç nəyi çıxara bilmədik. Hətta atamın minik avtomobili həyətimizdə qaldı. Evin, ələmizin əmlakını, irili-xırdalı əşyaları əvvəldən kəndimizə gətirilən yük vaqonlarına yığmışdıq. Vaqonları vaxtında çəkib aparmadıqları üçün əhalinin bura toplanmış əmlakı erməni talanına məruz qaldı. Sənətkar qarmonumu, ilk "Kazan" qarmonumu yük vaqonuna qoymuşdum. Evimizə qayıtmaq ümidilə atamın üç ədəd tarını, bir ədəd nağaranı döşəmənin altında gizlətmişdim ki, düşmən əlinə keçməsin. Uşaq musiqi məktəbində, texnikumda oxuduğum zaman istifadə etdiyim, tədrisə aid topladığım vəsaiti, atamın mənə aldığı not kitablarını və digər ləvazimatı əvvəldən ayrıca qutulara yığmışdım. Qaça-qaçda onları iri bir kisəyə yığdım. Arazı keçərkən kisəni də özümlə keçirdim. Sonrakı dövrlərdə həmin ləvazimat çalışdığım yerlərdə və ali məktəbə qəbul üçün hazırlaşanda mənə gərək oldu, elə indi də lazımlıdır. Sanki Al-

lahdan mənə bir göstəriş idi ki, bunları götür, itib-batmasına imkan vermə, qoru, sənin sonrakı həyatında, fəaliyyətində lazım olacaq.

İran tərəfdə qoyunlarımızı dəyər-dəyməzə satdım. Evsiz-eşiksiz qaldığımız üçün bunlar da bir yük idi. Mən, qardaşım Rəhman və anam 10 gün İran tərəfdə, Araz çayının kənarında qaldıqdan sonra bizi İmişli gömrük məntəqəsindən Azərbaycan Respublikası ərazisinə keçirdilər. Ailə üzvlərimizdən hamının sənədləri kəndimizdəki vaqonda qaldığı üçün Biləsuvar rayonu ərazisində qaçqınlar üçün salınmış çadırda məskunlaşa bilmədik. Çox çətin, iztirablı və ağrılı günlər idi. Bütün bunları yada salmaq yenidən o günləri yaşamaq qədər mənə və doğmalarıma həddən artıq çətin və ağırdır. Nəhayət 1993-cü ilin sonlarında Biləsuvarın İsmətli kəndində Nizami adına kolxozun inzibati binasında bizə yer verdilər. Qaçqınlıq həyatına, başımıza gələnlərə, gördüklərinə, ağrı-acılara tab gətirməyən atam 1994-ci il noyabrın 15-də, 57 yaşında, kənd-kəsəyindən, doğma yurdundan uzaq, bizdən nigaran dünyadan köçdü. Onu İmişli rayonunun Qızılkənd qəbristanında dəfn etdik. Biləsuvarın İsmətli kəndinə gələrkən 3 baş iribuynuzlu heyvanları da gətirmişdik. 5 ilə yaxın burada məskunlaşdığımız zaman heyvanların südü, qatığı dolanışığımıza kömək etdi. 1996-cı ildə heyvanların bir-ikisini sataraq İsmətlidən Bakıya gəldim və Musa Həsənovdan özümə Tula istehsallı qarmon aldım.

Atamın vaxtsız-vədəsiz ölümündən sonra ailənin yükü mənim üzərimə düşdü"

Dəyərli oxucu! Elmanın başına gələnlər əzəli-əbədi düşmənlərimiz olan erməni millətçilərinin torpaqlarımıza təcavüz etmələri nəticəsində yurd-yuvalarından didərgin düşərək, əzablara, zillətlərə məruz qalan, doğmalarını itirən, əzizlərinin qəbirləri ölkəmizin müxtəlif istiqamətlərində olan minlərlə, yüzminlərlə soydaşlarımızın yaşadığı acı talelərdən biridir. Sual oluna bilər ki, qarmon ifaçılığı sənətindən bəhs etdiyimiz kitabda bunu işıqlandırmağımıza nə ehtiyac var idi?. Müəllif kimi cavab verirəm ki, bütün bu hadisələr tələb olunan anlarda faktlarla qeyd olunmalı, söylənməli, mütləq mənada yazılarımızda daim göstərilməlidir. Zaman-zaman başımıza gələn faciələr unutqanlığımızın nəticəsidir. Xalqımızın başına gətirilən faciələrin unudulmasına imkan verməməliyik. Bu oçerkdə yazıya aldığımız da ürəyi sənət eşqilə döyünən, ülvü sənət olan musiqi vasitəsilə, sevimli Azərbaycan qarmonu ilə doğma ellərə, sevimli xalqına xidmət etmək, boya-başa çatdığı, suyunu içib, saf havasını udduğu Mərcanlı kəndinin istedadlı uşaqlarına dərs verib sənət adamı kimi yetişdirmək istərkən arzu-istəyi qırılaraq məşəqqətlərə dözməli olub, çətinliklərə məruz qalan bir hünərli gəncimizin yaşadığı taledir. Yazımızın davamında onun təhsilli, mükəmməl, ixtisaslı kadr kimi yetişib, öz doğru yolunu tutub musiqi təhsilimizə xidmətlərilə yaxından tanış ola biləcəksiniz. Bu oçerki yazıb qurtarana qədər fikrimdə və gözlərim qarşısında bir film canlandı. Bu işğal altında qalan müqəddəs Qarabağ torpağının və onun ətrafında düşmən əlinə keçən ərazilərdən yetişən gənc musiqiçilərimizin yaşadığı ağrı-acılardan, məhrumiyyətlərdən, çətinliklərdən, çarpışa-çarpışa gəldiyi yollardan və s. bəhs edən bir film ola bilər. Elmanın və onun kimilərin taleyini əsas götürüb ümumiləşmiş obraz kimi verərək yaxşı və dəyərli film çəkmək olar. Əlbəttə dediklərim, bir arzu, bir ideyadır. İdeyanı vermək məndən olsa da qalan işləri yerinə yetirmək əlaqədar təşkilatlardan, imkanlı şəxslərdən, kinossenaristlərdən və kinorejissorlardan asılıdır.

E.İsmayılın xatirələrinə qayıdaq: "1995-ci ilin mart ayında İsmətli kəndindəki Xanlar Qafarov adına kənd orta məktəbinə işə düzəldim və ilk pedaqoji fəaliyyətimə başladım. Musiqi Texnikumunun diplomu karıma gəldi. Burada 4 ilə yaxın işlədim və bundan əlavə ifaçılıq fəaliyyətilə də məşğul oldum. İsmətlidən müğənni Bəxtiyar, gitaraçı Kamil, qonşu kənddən sintezator ifaçısı Cəmillə bir dəstədə kənd-kəsək toylarında çaldım.

Baxış Atakişiyev Böyük Mərcanlı kəndindəki uşaq incəsənət məktəbinin fəaliyyətini Biləsuvardakı çadır şəhərciyində bərpa etmək arzusunda olduğunu bidirmiş və tələbə yoldaşım, həm-

kəndlim Vahidlə danışmışdı. Şəhərcik İsmətlidən 50 km aralıda yerləşirdi. Baxış müəllim Vahidin vasitəsilə məni tapıb işə götürdü. Beləliklə 1996-cı ilin sentyabr ayından Biləsuvardakı çadır şəhərciyində bərpa etdiyimiz, vaxtilə məzunu olduğum, texnikum təhsilindən sonra təyinat aldığım Böyük Mərcanlı uşaq incəsənət məktəbində də dərs deməyə başladım. İşə başlamasaydıq, əks təqdirdə nazirlik məktəbi bağlayacaqdı.

Vahidin atası Yusif dayının həyətində saman- palçıqdan yoğrulmuş kərpic kəsib 15 kv.m.-lik bir otaq tikdik. Bunu sinif otağı elədik. Beləliklə Vahid müəllimlə burada çox çətin şəraitdə pedaqoji fəaliyyətə başladıq. Çadır şəhərciyində Mirzəliyə məxsus çadırda həftənin 3 gününü kirayə qalaraq tikdiyimiz sinif otağında tədrislə məşğul olurdum. 1998-ci il oktyabr ayının 1-də Azərbaycan ordusu sıralarına həqiqi hərbi xidmətə çağrıldım"

E.İsmayıl Xanlar (haz.Göygöl) rayonu ərazisindəki N saylı döyüşən hərbi hissədə xidmət edib. Əsgərlər hərbi and içib divizionlara bölünəndə Elmanın orta ixtisas musiqi təhsilli olması, Biləsuvardakı 4 illik musiqi müəllimliyi fəaliyyəti nəzərə alınmış, imtahan götürərək onu hərbi hissənin nəfəs alətləri orkestrinə qəbul etmişdilər. O, orkestrdə bas-b alətini, bəzən də kiçik və böyük baraban çalıb. Notu yaxşı bildiyi üçün qısa vaxt ərzində 15-dən artıq marşları və digər əsərləri sərbəst olaraq bas-b alətində ifa edirdi. Özünün dediyi kimi hərbi xidmət illəri maraqlı olub. Üç aylıq hərbi xidmətdən sonra 5 günlük məzuniyyət verilərək evə buraxılıb. Qayıdanda öz peşəkar qarmonunu hərbi hissəyə gətirib. Hərbi xidməti bitirənə qədər hərbi orkestrdən əlavə qarmonu ilə hərbi hissənin klubunda, açıq havadakı şənliklərdə, ad günlərində, komandirin istirahət bağında əsgərlər qarşısında konsertlər verib. Onunla birlikdə əsgər yoldaşlarımdan klarnetdə Kamil, zərb alətlərində isə Yalçın çalırdı.

Elmana hərbi xidmətin 6-cı ayında kiçik çavuş, 8-ci ayında çavuş əsgəri rütbəsi verilmişdir. Hərbi vəzifəsi isə bölmə komandiri olmuşdur. O, Hava Hücumundan Müdafiə hərbi hissəsində xidmət etmişdir. Orkestr xidmətindən əlavə hərbi hissənin gizir və zabitlər yaşayan şəhərciyində patrul nəfəri, bundan başqa tabeliyinə verilən dörd və ya altı nəfər əsgərlə birlikdə patrul rəisi kimi də xidmətdə olmuşdur. Ən çox da hərbi hissənin və hərbi şəhərciyin giriş qapısındakı nəzarət buraxılış məntəqəsində tabeliyində olan iki əsgərlə nümunəvi xidməti yerinə yetirmişdir. Layiqli xidməti nəzərə alınaraq ona hərbi orkestrdə qalıb işləmək təklif olunmuş, hətta hərbi hissə komandiri tərəfindən gələcəkdə mənzillə təmin olunacağı dilə gətirilmişdi. Elman isə öz peşəsinə, musiqi sənətinə, pedaqoji sahəyə qayıtmaq arzusunda olduğunu bildirmişdi. Beləliklə o, nümunəvi xidmət tərifnaməsi ilə təltif olunaraq 25.04.2000-ci il tarixdən ordudan tərxis olunmuşdur.

Əsgəri xidmətdən dönən Elman İsmətli kəndinə,anasıgilin yanına qayıdır. Bir aydan az artıq kənddə qalıb Bakıya gəlmək barədə fikirlərini doğmalarına bildirir. Onlar razı olmasalar da Elman fikrində qəti olur və 2000-ci il iyunun 1-də Bakıya gəlir. Elmanı dinlərkən: "Bakıda qalmağa yerim yox idi, çətinlik çəkirdim. 3 ay iş axtarsam da tapa bilməmişdim. Gətirdiyim pullar xərclənib qurtarmışdı, üstəlik borc götürməli olmuşdum. Nəhayət gərgin mübarizədən və axtarışlardan sonra Allah-təala mənə yol açdı. Birdən-birə üç yerdə işə girdim. Bunlar Bakıxanov qəsəbəsindəki 4 saylı uşaq musiqi məktəbi, ona yaxın yerdə yerləşən A.İskəndərov adına mədəniyyət mərkəzi, Bakı şəhərində fəaliyyəti bərpa olunan Cəbrayıl şəhər uşaq musiqi məktəbi idi. Burlarda ixtisasım üzrə çalışmaqla böyük təcrübə qazandım. 2004-cü ildə vaxtilə məzunu olduğum, Bakıda fəaliyyətini bərpa edən Şuşa Musiqi Texnikumunun (haz. kollec) qarmon sinfinə əvəzçiliklə işə düzəldim. 2006-cı ildən əsas iş yerim bu kollecdir".

E.İsmayıl 2001-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "musiqi sənəti" fakültəsinə daxil olub və 2005-ci ildə həmin fakültənin ilk məzunlarından biri kimi bakalavr pilləsini fərqlənmə diplomu ilə başa vurub. O, 2006-cı ildə həmin universitetin magistraturasına qəbul olunub və 2008-ci ildə bu sahənin ilk məzunu kimi buranı fərqlənmə diplomu ilə bitirib. Ma-



Fevral 2008-ci il. Mədəniyyət və İncəsənət Universitetinin tələbələrdən ibarət X.Ç.R. ansamblının "Kəpəllüsü"də konserti. Soldan ikinci Elman İsmayıl



Elman İsmayıl Cəbrayıl şəhər uşaq musiqi məktəbinin şagirdi Elvin Nəsirli ilə məşğələ zamanı



Mart 2014-cü il. Elman İsmayıl Şuşa Musiqi Kollecinin tələbələri ilə. Yuxarıda soldan: Elmədin Məmmədov, Rəşad Ələsgərov, Sulduz Həsənov, Mahir Quliyev, konsertmeyster Səbinə Zöhrabzadə



Fevral 2014-cü il. Elman İsmayıl Mədəniyyət və İncəsənət Universitetində dərs zamanı. Tələbələr: Həsən Məmmədov, Xəyalə Əhmədova, Sabir Rzayev və Ramilə Abqulıyeva

gistr dissertasiyasının mövzusu "Azərbaycan xalq rəqs janrının inkişafında qarmon alətinin rolu" adlı mövzu əsasında magistr dissertasiyasının nəticəsi 5 (əla) qiymətləndirilib. Elman İsmayıl kimi qarmon sənətçilərimizin bu ixtisas üzrə magistratura dərəcəsinə yüksəlməsi ardıcıllarımız, gənclərimiz üçün nümunə olmaqla bərabər həm də bir daha qarmon sənətinin uğurundan və daha da inkişaf edəcəyindən xəbər verir.

Universitet illərində E.İsmayıl tələbə elmi konfranslarında fəal iştirak ermişdir. O, universitetin tələbələrdən ibarət x.ç.a.ansamblının qarmon ifaçısı kimi layiqli fəaliyyət göstərərək doğma təhsil müəssisəsinin bütün bədii-kütləvi tədbirlərində, Bakıdakı "Kapellhaus" Alman-Azərbaycan mədəniyyət mərkəzində və digər mədəniyyət ocaqlarında keçirilən konsertlərdə qarmonunu səsləndirmişdir. E.İsmayılın fəaliyyəti və nailiyyətləri barədə bir neçə qəzetdə, jurnallarda və kitablarda maraqlı yazılar özünə yer almışdır. O, 2007-2010-cu illərdə Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində təşkil olunan 2 aylıq gücləndirilmiş, 20 günlük isə ənənəvi kurslarda dərs demişdir. 2010-cu ildən Mədəniyyət və İncəsənət Universitetinin "musiqi fakültəsi"nin "instrumental ifaçılıq kafedrası"nda qarmon sənətindən dərs deyir. Göründüyü kimi o, universitet müəllimi vəzifəsinə qədər yüksəlmişdir. Gələcəkdə onun elmi işlərlə məşğul olacağına və elmi rütbələrə yiyələnəcəyinə tam ümidliyik. Onun yüksək intellekt səviyyəsi, özünə qarşı tələbkar olması, öz üzərində çalışması, seçdiyi və sevdiyi sahəyə düzgün münasibəti və dəyər verməsi bizə yüksək ümidlər bəxş edir.

Elman İsmayıl 2011-ci ildə Odlar Yurdu Universitetinin "Hüquq və Beynəlxalq Münasibətlər" fakültəsinə "Beynəlxalq Münasibətlər" ixtisası üzrə qəbul olunmuşdur. O, 1-ci kursu əla qiymətlərlə başa vursa da müəyyən səbəblər və qarşılaşdığı problemlər üzündən təhsili yarımçıq dayandırmalı olmuşdur. 2013-cü ildən Azərbaycan Dövlət İqtisad Universitetində "İqtisadi Hüquq" ixtisası üzrə təhsil alır.

2.97. O, ÖZ ADINA, ADI ONA, SƏNƏTİ İSƏ ADINA VƏ ÖZÜNƏ ÇOX YARAYIR



Aygün Zeynalova

Valideynləri ona Aygün adı veriblər. Daxili aləmi çox saf və gözəl olan bu qızın çöhrəsində günəşin parlaqlığı və ayın nuru var. Onun seçdiyi, sevdiyi, xidmət etiyi sənətin də parlaqlığı göz önündədir.

Aygün İbrahim qızı Zeynalova 1983-cü il avqustun 4-də Bakıda anadan olub. 5-6 yaşlarında onun fitri istedadı üzə çıxıb. İstedad ona atadan gəlib.

İbrahim İbiş oğlu Zeynalov 1952-ci ildə dünyaya göz açıb. Yeniyetmə yaşlarında heç kəsdən dərs almadan qarmon çalmağı öyrənib, 20 yaşından toylarda çalıb. O, doğulub boya-başa çatdığı Ağcabədi rayonunun toy-büsatında, Orta Asiya respublikalarında, Şimali Qafqazda, Gürcüstanda, İran, Türkiyə və Rusiyada el şənliklərində öz məharətini göstərə bilib. İbrahim Zeynalov 2006-cı ilə qədər sənət



İbrahim Zeynalov

aləmində çalışıb. Arabir yenə öz sənətilə, məşğul olur.

Ailənin sevimli balası, nur parçası olan Aygün atasının qarmon ifasının səhrinə düşərək, 6 yaşında çalğıya başlayıb. XX əsrin birinci yarısında Azərbaycan qarmonlarını düzəldən məcüzəli usta Arxip Karpuşkinin əlindən çıxan alətlərdən biri də İbrahimdə idi. Aygün atasının bu gözəl səsli qarmonu ilə ifaya başlamışdı. Atanın Rusiyanın Vyatsk şəhərində hazırlanan qarmonu (musqiçilər bu alətləri "Vyatka" qarmon adlandırırlar) da var idi.

Aygün 3-4 ay qarmon çalmış, sonra nədənsə bu işə maraq göstərməmişdi. Onun xatirələrindən: "11-ci sinifdə oxuyanda qarmon çalmaq üçün yenidən həvəsləndim. Qarmon sənətini öyrənmək istəyən uşaqlar, gənclər atamın yanına gəlirdilər. Atam fərdi qaydada həvəslə onlara

sənət öyrədirdi. O uşaqların çalğısını görüb eşidəndə qibtə edirdim ki, niyə onlar çala bilsin, mən yox?! Beləliklə, həvəsləndim və qarmon ifaçılığı ilə məşğul oldum. Az zaman içərisində çox şey öyrəndim. Evimizdəki musiqi mühiti məni qanadlandırdı, həvəsim daha da artdı. Bu işdə atamın musiqiçi, qarmon ifaçısı olmağı mühüm əhəmiyyət daşıdı."

2000-ci ilin may ayında Ağcabədidə qarmon ifaçılarının rayonlararası müsabiqəsi keçirilirdi. Bu müsabiqə uşaqları və gəncləri əhatə edirdi. İfaçılar arasında Aygün də var idi. Müsabiqədə iştirak edən yeganə ağcabədili Aygün Zeynalova etimadı doğruldaraq birinciliyə layiq görüldü. O, müsabiqədə Tofiq Quliyevin "Axşam oldu", Cahangir Cahangirovun "Ay qız" mahnısını və xalq rəqs melodiyaları "Kinto", "Qazaxı" və "Şalaxo"nu məharətlə ifa etdi. Münsiflər heyətinin üzvləri onun ifasını çox bəyənmişdilər. Müsabiqədəki bu uğur, valideynlərin, dost-tanışların tərifli xoş sözləri, münsiflər heyətinin yüksək rəyi Aygünün sonrakı nailiyyətləri üçün mühüm mərhələ oldu.

İyun ayının 1-də H.Əliyev sarayında Uşaqların Ümumdünya Müdafiə Gününə həsr olunmuş konsertdə Aygün Zeynalovanın da çıxışı nəzərdə tutulmuşdu. O, Zakir Mirzənin bir neçə rəqsini, Cahangir Cahangirovun "Ay qız" adlı mahnısını və "Qazaxı" rəqs melodiyasını bacarıqla ifa etmişdi.

Aygün rayonda musiqi ilə məşğul olarkən atası İbrahimdən başqa, dil-ədəbiyyat müəllimi Mübariz Məmmədov da onu çox həvəsləndirir, istiqamət verirdi. Mübariz müəllim həvəskar qarmonçu kimi fəaliyyət göstərir.



Mübariz Məmmədov

Haşiyə: "Məmmədov Mübariz Yunus oğlu 1944-cü ildə Ağcabədi rayonunun Boyat kəndində anadan olub. Orta məktəb illərindən qarmona həvəs göstərib. İlk çalğını "Kazan" qarmonla öyrənib. Həmişə xalq musiqimizin, el havalarının, muğamlarımızın vurğunu olub və onları düz duymağa və yaxşı öyrənməyə çalışıb. Ustad sənətkar Məmmədağa Ağayevi özünə örnək və müəllim sayıb, onun ifalarından və üslubundan çox bəhrələnib. Peşəkar sənətkar qarmonunu da elə ondan alıb. Həmin qarmonu bu günə qədər qoruyur və həvəslə çalır. Mübariz Məmmədov böyük sənətkar Teyyub Dəmirovun qrammafon vallarını, radio ifalarını dinləyib və bunlardan öyrənərək, öz sənət gücünü artırıb. Teyyub Dəmirovdan öyrəndiyi "Bayatı-Qacar", "Zabul", Məmmədağa Ağayevdən əxz etdiyi "Şur", "Çahargah" muğamları, "Vağzalı", "Qoçəli", "Tərəkəmə", "Tiflisi", "Şalaxo" və b. oyun havaları onunçün əvəzolunmaz və müqəddəs musiqilərə çevrilmişdir. Mübariz Məmmədov 1974-cü ildə Pedaqoji İnstitutun dil-ədəbiyyat fakültəsini bitirmişdir. Uzun illərdir ki, Boyat kəndində müəllim işləyir.

Milli qarmon sənətimizi ürəkdən sevən bu insan istedadlı gənclərimizin bu sahədə inkişaf etməsindən və nailiyyətlərindən ilham alır. O, Aygünün ifasına yüksək dəyər verir".

Aygün Zeynalova 1989-2000-ci illərdə Ağcabədidə orta-ümumtəhsil məktəbdə oxuyub. O, Boyat kəndində fəaliyyət göstərən uşaq musiqi məktəbinin fortepiano sinfini bitirib. 2002-ci ildə Milli Konservatoriya nəzdində Musiqi Kollecinə qarmon ixtisası üzrə daxil olub və buranı 2006-

cı ildə uğurla bitirib. Kollecdə ona qarmon ixtisasından Arifə Vəlizadə (not) və Hüseyn Həsənov (muğam) dərs deyib.

Haşiyə: "Musiqi Kollecində dərs dediyim üçün qeyri iş günlərində arabir həmkarlarımı görməyə gəlirdim. 2005-ci il aprel günlərinin birində, günün ikinci yarısında qarmon üzrə ixtisas (not) müəllimi Xeyrulla Dadaşovun sinfinə gəldim. Sinifdə məşğul olan tələbələrdən biri not əsərini məşq edirdi. Xeyrulla müəllim ona imtahan öncəsi bəzi tapşırıqlar verirdi. Üzündə, çöhrəsində saf uşaqlıq cizgiləri əks olunan bu gənc qızın görkəmində ciddilik vardı. Mən Xeyrulla müəllimlə söhbət etsəm də, qızın ifasına da biganə qala bilmirdim. O, cəld, çevik barmaqlarla ona tapşırılan əsərləri yüksək bacarıqla ifa edirdi. Mən bu tələbəyə bir az da ürək-dirək verdim, daha da həvəsləndirdim. Tam səmimiyyətlə ona bildirdim ki, sən gələcəkdə yaxşı ifaçı ola bilərsən. Xeyrulla müəllim də mənimlə həmfikir olduğunu bildirdi.

Həmin tələbə qız sonralar bizim etimadımızı doğruldan, bu oçerkdə haqqında məlumat verdiyim Aygün idi."

2003-cü ildə Mahnı Teatrının binasında gənc musiqiçilər arasında keçirilən baxış müsabiqədə Aygün Zeynalova da iştirak edərək yeni bir nailiyyətə sahib olmuşdu. Həmin tədbirdə qarmonçalanlar oğlanlardan ibarət idi. Aygün "Basqalı" rəqsilə həm münsiflərin, həm də tamaşaçıların rəğbətini qazanmışdı.

2004-cü ildə Musiqi Kollecinin özündə keçirilən müsabiqədə də Aygün Zeynalova iştirak etmiş və virtuoz qarmonçalan, ustad Zakir Mirzənin bəstəsi olan "Firudini" və "Bəxtəvəri" ("Cəld rəqs") rəqsini əla çalmışdı. Bu müsabiqədə akkordeonçalanlar da iştirak edirdilər.

İlk gənclik illərində sənət aləmində tanınmağa başlayan Aygün Zeynalova artıq səfərlərə də dəvət olunmağa başlayıb. O, 2003-cü ildə müğənni Almaz Orucova ilə Tehranın "Talar-Vəhdət" (Birlik sarayı) binasında təşkil olunmuş, üç gün ardıcıl keçirilən konsertlərdə çıxış etmişdir. Əvvəlcə konsertlər yalnız qadın tamaşaçılar üçün verilirdi. Sonrakı konsertlər isə ümumi idi. Aygün qarmonunun xoş sədaları ilə rəqs qrupunu da məharətlə müşayiət edirdi. Əməkdar artist, rəqqas Şəhriyar Cəfərovun solo rəqsləri də marağa səbəb olurdu. Aygün xanım fəxri diplomlarla vətənə qayıtmışdı.

Aygün Zeynalova 2007-ci ildə də Tehranın ən iri konsert salonlarında qarmonunun ecazkar səsilə tamaşaçıların diqqətini özünə cəlb edib. Həmin konsertdə xalq artisti Ağaxan Abdullayevin tələbəsi, müğənni Afaq Ağayeva, Şahnaz Əliyeva, Səlim və Murad oxuyurdu. Konsertdə aşıqlarımız da çıxış edirdilər. Konsertin daha uğurlu və möhtəşəm alınmasında xalq artistləri, mahir qarmon ifaçısı Aftandil İsrafilovun, qoşanəğaraçalan Sadıq Zərbəliyevin çıxışları mühüm əhəmiyyət kəsb edirdi. Şairə Nazilə Səfərlinin lirik şeirləri tamaşaçıların qəlbinə hakim kəsilirdi.

2008-ci ildə də Aygün Zeynalovanın Tehran konsertlərinə dəvəti olub. Lakin o, üzürlü səbəblərə görə konsertlərə gedə bilməyib.

Aygün xanım ifaçılıqla bərabər pedaqoji sahəyə də uğurla qədəm qoyub. O, hələ IV kursda oxuyarkən, 2005-ci ildən Biləcəri qəsəbəsindəki F.Əmirov adına 6 saylı uşaq incəsənət məktəbində qarmon ixtisasından dərs deyir. Bundan əlavə Şuşa rayonunun Xəlfəli kənd uşaq musiqi məktəbində də öz sənətini həvəslə şagirdlərə öyrədir.

Haşiyə: "Bu sətirlərin müəllifi 2005-ci ildən 2012-ci ilə qədər Şuşa Musiqi Texnikumunda (hazırda Şuşa Musiqi Kolleci) da dərs deyib. 2007-ci ildə Aygün Zeynalova bu musiqi ocağına dəvət olunarkən tədris hissə müdiri Telman Hümbətov məndən soruşdu:

– Bu qızı tanıyırsınızmı?

Cavab verdim: – Bəli, tanıyıram, çox istedadlı qızdır, Bakı Musiqi Kollecində tələbəmiz olub.

– Onu qarmon sinfinə müəllim götürmək istəyirik, necə bilirsiniz, öhdəsindən gələ biləcəkmi?

– Əlbəttə, Telman müəllim, mən zəmanət verə bilərəm ki, o, bu kollecdə müəllim kimi özünü

doğruldacaq".

Aygün Zeynalova həmin ildən etibarən Şuşa Musiqi Kollecinin qarmon sinfində çalışaraq, yüksək bacarıq nümayiş etdirərək tələbələr hazırlayır.

Aygün xanım Zakir Mirzə, Aftandil İsrafilov, Abutalıb Sadıqov (1945-2008), Xeyrulla Dadaşov və Nemət Hüseynovu özünə ustad sayır. O, gənc qarmon ifaçılarının SMS-lə olmayan müsabiqələrinin keçirilməsini arzulayır. İstedadlı Aygün xanım vaxtilə ANS-telekanalındakı "Kamerton" verilişinin dəfələrlə qonağı olaraq, sənətini nümayiş etdirə bilmişdir.

Öz sevimli sənətinin vurğunu olan Aygün Zeynalova tarzən Murad Rzayevin uşaqlar və yeniyetmələrdən ibarət "Qarabağ bülbülləri" ansamblının da üç il üzvü olmuş və müxtəlif yerlərdə verilən konsertlərdə çıxış etmişdir. Qocalar və əlillər evində, Daxili Qoşunların Bakıdakı hərbi hissəsində, internat məktəblərdə, qaçqınlar və köçkünlər qarşısında, cəbhə bölgəsində verilən konsertlərdə onun qarmonda çaldığı bəstəkar əsərləri, oyun havaları həmişə alqışlarla müşayiət olunub. O, Bakıda məskunlaşan Şuşa Musiqili Teatrında 2007-2008-ci illərdə musiqiçi kimi çalışanda da çox konsertlərdə çıxış edib. Bu gənc qızın adını cəsarətlə yorulmaz və işgüzar ifaçılarımız sırasında çəkə bilərik. İlahi, insanda nə boyda həvəs və enerji olarmış?

Özünün dediklərindən: "Uşaqlıq illərində Aslan İliyasovun ifalarını dinləyirdim, Abutalıb Sadıqovun toy çalğılarından öyrənirdim. Hazırda Aftandil İsrafilovun bütün repertuarını bilirəm. Kollecdəki təhsil illərində Nemət müəllimin kasetini çox dinləmişəm. Ənvər Sadıqovun sənətini də bəyənirəm. Ən çox Zakir Mirzə sənətindən öyrənmişəm."

Qarmon ifaçısı, Musiqi Kollecinin müəllimi Abutalıb Sadıqov (1945-2008) Aygünün ifasını dinləmiş və çox bəyənmişdi. Xalq artisti Aftandil İsrafilov ilk dəfə Aygünün çalğısını eşidəndə onun gələcəkdə əsl qarmon ifaçısı olacağını dilə gətirmişdi. Ustad sənətkar ondan soruşub: – İbtidai çalğı qaydalarını kimdən öyrənmisən? Aygün cavabında: – İlk əvvəllər özüm sərbəst öyrənmişəm. Bu zaman A.İsrafilov bildirib: – Hə, yaxşı ki, ilk əvvəllər özün çalğıya başlamısan, ona görə də öz yolunu tapmısan.

Qarmonçalanlar sırasında yaxşılardan olan Vaqif Əliyev də bu gənc qızın sənətinə yüksək dəyər verir.

Aygün Zeynalova "Qarabağ bülbülləri" x.ç.a. ansamblı ilə Az.TV-də, "Azərbaycan inciləri" qızlar ansamblı ilə "İctimai" radioda, İctimai televiziyada, dəfələrlə çıxış edib. Az.TV qızlar ansamblını dəvət etmiş, Azərbaycanımızın füsunkar təbiəti qoynunda onların konsertini çəkmiş və dəfələrlə yayımlamışdır. Bu çəkilişlərdə biz Aygün xanımın solo ifalarını da seyr edir, dinləyirik. Aygün "Azərbaycan inciləri" qrupu ilə Türkiyənin "TRT Avaz" proqramında "Könül bağı" verilişində çıxış edib. Onlar Dərbənd şəhərində də uğur qazanıblar.

Gənclik eşqilə sənətdə cəsarətlə addımlayan Aygün xanım öz ifalarını disklərə yazdırmağı da unutmur. Onun ifasında "Yar bizə qonaq gələcək" xalq mahnısı, Abutalıb Sadıqovun "Rahimi" rəqsi, Zahid Məmmədzadənin "Qarabağ gözəlləməsi", bəstəkar Cahangir Cahangirovun "Zərif rəqsi, Zahid Məmmədzadənin "Qarabağ gözəlləməsi", bəstəkar Cahangir Cahangirovun "Zərif gülüşlüm" mahnısı və digər melodiyalar disklərdə peşəkarlıqla səslənir. Bu ifalar qarmon ifaçılığı sənətinə öz gücü, öz yüksək istedadı, təpəri ilə gələn bir ifaçının təsdiqi və sanki "sənət pasportu"dur.

Aygün Zeynalova öz qarmon soloları ilə toylarımızı da nurlandırır, daha şən, daha məzmunlu keçməsinə şərait yaradır. O, Bakıdakı şadlıq saraylarında keçirilən şənliklərə, boya-başa çatdığı doğma Ağcabədi rayonunun toy-büsatına dəvət olunur. Aygün xanım öz repertuarını, tələb olunan melodiyaları, oyun havalarını özünəməxsus gözəlliklə ifa edərək, mərasimlərə şuxluq gətirir.

Uca Allah bu qıza daxili və xarici gözəllik, yüksək istedad və bədii enerji bəxş edib. İnanırıq ki, Allah nəzərində olan bu sevimli bəndə gələcəkdə də incəsənətimizə öz sənət incilərini bəxş edəcək, böyük-böyük səhnələrdə qarmon sənətimizi sevdirəcək, yeni-yeni nailiyyətlərə imza atacaq



2009-cu il. "Azərbaycan inciləri" qrupu "Lider" TV-də "Solo" verilişində.
Sağdan: əməkdar artisti Fəridə Məlikova, Aygün Zeynalova, Ceyran Bədəlova və qanun ifaçısı Sevda

və pedaqoji sahədə uğurlar qazanacaq.

"Azərbaycan inciləri" qrupu 2010-cu ildə Neft Daşlarında çox uğurlu konsert verib. "Azərbaycan inciləri" qrupunun tərkibində Aygün xanım Azərbaycanda fəaliyyət göstərən televiziyalarda müğənnilər Ehtiram Hüseynov, Aytən Məhərrəmova, Nuriyyə Hüseynova, Sevinc Sarıyeva, Arzu Əliyeva, Səbinə Ərəbli və b. yüksək peşəkarlıqla müşayiət edib.

Aygün neçə illərdir ki, Bakımızın özündə və ətrafındakı qəsəbələrdə və kəndlərdə el adətilə keçirilən qız toylarının ən sevimli musiqiçilərindən biridir. Toylarda onun yolunu səbirsizliklə gözləyənlər var. Dəfələrlə belə hallar olub ki, qızlarına toy etmək istəyən valideynlər mərasimi Aygün xanımın vaxtı olduğu günlərə təyin ediblər. Bütün bunlar gənc qarmon ifaçımızın sənətinə olan tələbat, ehtiram və məhəbbətdən, bir də verilən düzgün dəyərlərdən irəli gəlir.

Biz 2012-ci il mart ayının 8-də Bakının "Zəngəzur" şadlıq sarayında Aygünün toy şənliyində iştirak etdik. Qohumlar, dostlar, qonşular, həmkəndlilər, iş yoldaşları və sənət dostları toplaşmışdılar. "Vağzalı" sədaları ilə bəy-gəlin salona daxil olarkən kövrəldim, gözlərim yaşardı. Aygünün xoş gününə sevinirdim. Toy mərasimi konsert şəklini almışdı. Çoxları çalıb-oxudu. Təbrik üçün mənə də söz verildi. Ürək sözlərimi bildirdim. Bəy-gəlini təbrik etdim və valideynlərə göz-aydınlığı verdim. Bu mərasim mənim də ömür tariximə yazıldı. Qurulan ailədə Murad adlı oğul tumurcuq-tumurcuq boy ataraq böyüyür.

2.98. SƏNƏT ADAMLARIMIZIN QARMONA SEVGİSİ



Səxavət Məmmədov (1953-1991)

Xalqımızın həyatı və məişətinə, musiqi mədəniyyətinə qarmon ifaçılığının həmişəlik daxil olmasını sübut etməyə bir daha ehtiyac olmasa da bir faktı da deməyi özümüzə borc bilirik. Xalq artistləri Niyaməddin Musayev, Səkinə İsmayılova, Səfa Qəhrəmanov, Mələkxanım Əyyubova, Nisə Qasımova, əməkdar artistlər Baloğlan Əşrəfov, Cavanşir Məmmədov, Könül Xasıyeva, Aygün Bəylər, Elza Seyidcahan, ustad xanəndə, mərhum Səxavət Məmmədov, Hüseyn Həsənov, Vaqif Əsədov, Adil Vəliyev (hal-hazırda Hollandiyada yaşayır), Vidadi Bərdəli: Lalə Dadaşova, Fatimə Rzaquliyeva, Almaz Orucova, Dünyamalı Saraclı, Ayaz Qasımov, Aşıq Zülfiyyə, Aşıq Vüqar və digərləri sənətə qarmon çalaraq gəlmişlər.

Musiqi tariximizə diqqətlə nəzər salsaq dediklərimizin dönə-dönə şahidi olarıq.

Şirvan aşıq məktəbinin nümayəndəsi 1905-ci ildə Göyçayın Bəydövül kəndində anadan olub, 1947-ci ildə dünyasını dəyişən Aşıq Mürsəl (Aşıq Şakirin ustadı) də qarmon çalırmış. Ağsu rayonunda yaşayıb-yaratmış Aşıq Şamil (1937-1984) də qarmon ifaçısı kimi tanınırmış.

Respublikanın xalq artisti, Prezident təqaüdçüsü, məşhur qaboyçalan Kamil Cəlilov musiqi aləminə qarmon ifaçısı kimi gəlmişdir. O, uzun illər bu sənət üzrə dərs demişdir.

Yaxşı klarnet ifaçısı kimi xalq arasında tanınan və sevilən Nəsibullah Nəsirullayev və mərhum Əlibala Nuriyev vaxtilə çox mahir qarmonçu idilər.

Tanımlı sənətçi Almaz Sarayla 13 saylı uşaq musiqi məktəbini bitirərək qarmon ifaçısı kimi çalışmış, sonra isə fəaliyyətini müğənni kimi davam etdirmişdir.

Nadir səsə, aydın tələffüz və diksiyaya malik olan, Azərbaycan radiosunda diktor işləyən, televiziyada tarixi əks etdirən verilişlərdə kadrarxası mətnləri səsləndirən, xarici ölkə filmlərinin televiziya dublyajında səsini eşitdiyimiz Respublikanın əməkdar artisti Bəxtiyar Şərifzadə musiqi təhsili almış, incəsənət aləminə qarmon sənətçiliyindən daxil olmuşdur.

Respublikamızın adlı-sanlı şairləri, memarları, heykəltaraşları, həkimləri, mühəndisləri, aktyorları, rejissorları və başqa sahə adamlarından neçəsi uşaqlıq və gənclik illərində könüllərini musiqiyə qarmon çalaraq vermişlər.

Dünya xalqlarının ritmlərini milli alətimiz dəf ilə səsləndirməyi bacaran və Azərbaycan ritmlərini xarici ölkələrdə ustalıqla göstərən, təbliğ edən mərhum Əzizağa Nəcəfzadənin yetirməsi Mahmud Salah son dövrlərdə sənətə gələn xanəndələrimizin əksəriyyətinə ritm tutmaq, qaval çalmaq qaydalarını öyrətmişdir. O, ritmlərimizin tədrisilə məşğul olan müəllimlərimizdən biri kimi musiqi ocaqlarında çalışır. Mahmud Salah uşaqlıq və gənclik illərində qarmon da çalırmış.

III FƏSİL. AZƏRBAYCANDA QARMONUN TƏDRİSİ

3.1. Qarmonun tədrisi

Xalqımızın sevimli musiqi aləti yerini alan qarmonun tədrisi barədə musiqişünaslar və musiqi ictimaiyyətinin rəhbərləri zaman-zaman düşünmüşlər.

1950-ci illərin əvvəllərindən Bakının mədəniyyət saraylarında və mədəniyyət evlərində başqa musiqi alətlərinin tədrisilə yanaşı qarmon kursları da fəaliyyət göstərmişdir. Əvvəllər qarmon dərnəkləri kimi yaradılsa da, sonralar qarmon kursları kimi geniş vüsət alaraq təşəkkül tapmışdır. Belə kursları əvvəllər 2-3 illik, sonralar 5 illik tədris üçün nəzərdə tutmuşdular. Kurslarda dərs demək üçün peşəkar musiqiçilər dəvət olunurdular. Neçə illərdən sonra Azərbaycanın əksər rayon mərkəzlərindəki mədəniyyət evləri və saraylarında da qarmon dərnəkləri və kursları açılmışdır. Musiqiçilər mədəniyyət ocaqlarında həvəslə sənət öyrətmişlər. Rayonlarda ad-san qazanmış qarmonçalanlar bilik və bacarıqlarını sənət həvəskarlarından əsirgəməmişlər.

1960-cı illərin əvvəllərindən etibarən Bakı şəhərindəki uşaq musiqi məktəblərində qarmon sinifləri açılmışdır. Tədricən bu iş rayon musiqi məktəblərində də davam etdirilmişdir.

3.2. Qarmonun orta-ixtisas məktəblərində tədrisi

Bakı Mədəni-Maarif Texnikumunda (hazırda Bakı Humanitar Kolleci) qarmonun tədrisi. Qarmonun tədrisinə ilk qədəm qoyan Bakı Mədəni-Maarif Texnikumu olmuşdur. Fəaliyyətinə kitabxanaçı ixtisası üzrə orta təhsilli mütəxəssis hazırlamaqla başlayan Bakı Kitabxanaçılıq Texnikumu yeni ixtisaslar açmaq məqsədilə 1957-1958-ci tədris ilindən etibarən "Klub işçisi – özfəaliyyət xor dirijoru" ixtisası üzrə tələbə qəbuluna başlayır. Təhsil dörd il üçün nəzərdə tutulurdu. Texnikuma Bakıdan, Azərbaycanın rayon və kəndlərindən 20 nəfər istedadlı gənc cəlb olunmuşdu.

Bu ixtisas üzrə tələbə qəbulu klub müəssisələrində xor kollektivlərinin yaradılması, onlara rəhbərlik edən ixtisaslı kadrların hazırlanması məqsədilə başlamışdı. Qəbul olunan tələbələr tar, kamança, balaban, qarmon nağara, klarnet, fortepiano alətlərini ifa etməyi bacaran, lakin heç bir musiqi təhsili olmayan, not bilməyən gənclər idi.

Texnikumda bu tələbələrə not öyrədilir, solfeçio, musiqi ədəbiyyatı və digər nəzəri dərslər keçilir, həmçinin onlar "özfəaliyyət-xor drijoru" peşəsinə yiyələnirdilər. Bundan əlavə bu gənclərə azçox çala bildikləri musiqi alətlərində daha peşəkar səviyyəli ifaçılıq öyrədilirdi.

Texnikumda yeni açılmış ixtisas üzrə dərs demək üçün Nəriman Məmmədov, Qulu Əsgərov, Balahüseyn Dadaşov, Kamil Əlibala oğlu, Tamilla Məmmədzadə, Ağabacı Rzayeva, Bəhruz Zeynalov, Adil Babayev, Adil Qafarov, Oqtay Quliyev kimi musiqiçilər dəvət olunmuşdular. Sonralar bu musiqi müəllimləri Azərbaycanın adlı-sanlı, məşhur sənət adamları kimi şöhrət tapdılar.

Heç bir orta ixtisas musiqi təhsili müəssisəsində qarmon üzrə qəbul olmadığı üçün bu alətdə çalmağı bacaranlar Kitabxanaçılıq Texnikumunun musiqi şöbəsində təhsil almağa başladılar. Deməli, qarmon alətinin texnikum həcmində tədris olunması bilavasitə Bakı Kitabxanaçılıq Texnikumu ilə bağlıdır. (1970-ci illərdən bu təhsil ocağı Bakı Mədəni-Maarif Texnikumu adlanırdı).

Bakı Kitabxanaçılıq Texnikumu 1950-1960-cı tədris illərindən "Klub işçisi-özfəaliyyət xalq çalğı alətləri orkestri rəhbəri" ixtisası üzrə tələbə qəbuluna başlayır. Tar, kaman, balaban və s. alətlərlə yanaşı qarmon çalmağı bacaran gənclər də savad almaq, əsl sənətə yiyələnmək və orta ixtisas təhsilli mütəxəssis kimi yetişmək məqsədilə texnikuma qəbul olunurlar. Qeyd etmək lazımdır ki, milli musiqi alətlərimiz musiqi texnikumlarında, konservatoriyada tədris olunduğu



1957-1961-ci illər. N.K.Krupskaya adl. Bakı Kitabxanaçılıq Texnikumu (sonralar Bakı Mədəni-Maarif Texnikumu, hazırda Bakı Humanitar Kolleci) xor-dirijorluğu şöbəsinin I buraxılışı.

halda qarmon bir ixtisas kimi yalnız Bakı Mədəni-Maarif Texnikumunda yuxarıda qeyd etdiyimiz tarixdən tədris olunmağa başlamışdır. Bu tədris müəssisəsini bitirən qarmonçalanlar ixtisaslı kadr kimi Bakının və Respublikamızın əksər yerlərindəki uşaq musiqi məktəblərində, mədəniyyət sarayları və mədəniyyət evlərindəki kurs və dərnəklərdə qarmon ixtisası üzrə dərs deməyə başladılar. Tədricən musiqi məktəblərini, qarmon kurslarını bitirən istedadlı gənclər texnikuma istiqamət alaraq buranı bitirib, bir musiqiçi kimi konsert birliklərində, toy-büsat şənliklərində, şadlıq saraylarında çalıb-çağırıb xalqımıza xidmət edirlər.

Uzun illər ərzində B.M.M. Texnikumunda (haz. Bakı Humanitar Kolleci) qarmon ixtisası üzrə təhsil alanlar ölkəmizin hər yerində musiqi təhsili ocaqlarında müəllim işləyirlər.

Bakı Humanitar Kollecində bu gün də qarmon ixtisası üzrə kadrlar hazırlanır. Hər il neçə-neçə gənc diplom alaraq əmək fəaliyyətinə başlayır. Onların bəziləri ali təhsil almaq üçün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin xalq çalğı alətləri və ya instrumental ifaçılıq fakültələrinə və yaxud da Pedaqoji Universitetin «musiqi, nəğmə müəllimi», «musiqi sənəti» fakültələrinə daxil olurlar.

Bu texnikumda musiqi şöbələri açılan ilk illərdə qarmon ixtisası üzrə Kamil Əlibala oğlu dərs demişdir.

1960-70-ci illərdə isə Mədəni-Maarif Texnikumunun qarmon müəllimləri Əyyub Babayev, Kamil Cəlilov (xalq artisti, məşhur qaboyçalan), Telman Musəvi, Tofiq Qarabağlı, Abutalıb Sadıqov, Bəxtiyar Nurməmmədov, Vahid Axundlu, Firudin Hüseynzadə. Novruzəli Əliyev, Aydın Cananov, Əlibala Ağayev, Zümrüd Həbibova, Çingiz Maqsudov və b. olmuşlar.

1971-ci ildə Ç.Maqsudov, Ə.Ağayev və B.Nurməmmədov birlikdə çalışaraq texnikumda qarmon tədrisinin not proqramını hazırlamış və tətbiq etmişlər.

Qeyd etmək yerinə düşər ki, yuxarıda adları çəkilən müəllimlərin bəziləri, Əyyub Babayev, Telman Musəvi, Novruzəli Əliyev, Aydın Cananov, Zümrüd Həbibova, Rasim Mehdiyev, Sərxan Abıyev və bu sətirlərin müəllifi vaxtilə Bakı Mədəni-Maarif texnikumunu bitirmiş, təhsili Mədəniyyət və İncəsənət Universitetinin mədəni-maarif fakültəsində davam etdirərək doğma Texnikuma müəllim kimi qayıtmışlar. Bu özü bilavasitə məşhur təhsil ocağının uğurudur.



Əvəz Rəhmətov

Ağdam Musiqi Texnikumunda (kollecində) qarmon sinfinin açılması. İstedadlı musiqiçi, tarzən-pedaqoq, sənətşünaslıq namizədi, üç kitab müəllifi, bacarıqlı təşkilatçı Əvəz Rəhmətov Ağdam Musiqi Texnikumunda direktor vəzifəsində işləyərkən burada qarmon sinifi açmıq fikrinə düşür. Onun bu qənaətə gəlməsinin əsası, obyektiv və subyektiv səbəbləri var idi. Belə ki, qarmon bir musiqi aləti kimi uzun illər idi ki, peşəkar xalq çalğı alətləri ansamblları tərkibində istifadə olunurdu. Bundan başqa bu alət böyük bir dövr ərzində ayrı-ayrı məşhur ifaçılar tərəfindən radioda və televiziyada səslənirdi və xalq tərəfindən sevilirdi.

Bütün özfəaliyyət kollektivlərində qarmon özünə yer tutmuşdu. Qarmon aləti ansamblların tərkibində xarici ölkələrdə də təbliğ olunur və seçilirdi. Həm də 1960-cı illərin əvvəllərindən etibarən respublikamızın uşaq musiqi məktəblərində qarmon musiqi aləti üzrə təhsil alan yeni-

yetmələr öz ixtisasları üzrə təhsillərini davam etdirmək istədikdə problem qarşısında qalırdılar. Elə Ağdam şəhər 1 saylı uşaq musiqi məktəbində 1958-ci ildən qarmon sinifi fəaliyyət göstərirdi. Həmin ilin sentyabr ayının 6-da Əlipaşa Daşdəmirov musiqi məktəbinin rəhbərliyindən irəli çəkilərək Ağdam Musiqi Texnikumuna direktor təyin olunur. O tarixdən etibarən Cəlal Əliyev 1 saylı uşaq musiqi məktəbində müdir işləməyə başlayır.

Cəlal Əliyev məktəbdə tar müəllimi işləyirdi. Müdir təyin olunan Cəlal müəllim Respublikamızın Mədəniyyət Nazirliyinə məktubla müraciət edərək işlədiyi məktəbdə qarmon sinifinin açılmasına icazə alır. Qarmon sənətçiləri Yusif Yusifov və Yelmar Zeynalov qarmon sinifinə müəllim götürülürlər.

Y.Yusifov Və Y.Zeynalov pensiya vaxtı çatana qədər həmin məktəbdə işləyirlər. Adları çəkilən qarmonçular Qarabağ bölgəsində tanınmış sənətkar olmuş, yaşa dolana qədər konsertlərdə və toylarda çıxış etmişlər. Y.Yusifov Qarabağda qarmon ifaçılığının təməlini qoyanlardan biri Kərbəlayi Abutalıbın qardaşıdır.

Haşiyə: "1958-ci ildə Mədəniyyət Nazirliyi Gəncə şəhər 1 saylı uşaq musiqi məktəbində də qarmon sinifinin açılmasına icazə vermişdi. İlk müəllim Müzəffər olaraq ömrünün sonuna qədər bu ixtisasdan dərs demişdi".

Ağdamda istedadlı musiqi təhsili alan qarmonçu gənclərin də orta ixtisas təhsilli kadr kimi yetişməsi qayğısına qalan Ə.Rəhmətov fikir və düşüncələrində haqlı idi. Belə ki, fikirlərimizin əvvələrində qeyd etdiyimiz kimi Bakı Mədəni-Maarif Texnikumu istisna olmaqla, heç bir orta ixtisas təhsili müəssisəsində qarmonun tədrisi yox idi.

Onu da deməyə borcluyuq ki, Bakı Mədəni-Maarif Texnikumuna qəbul olunan musiqiçi gənclərdən mədəniyyət evləri və saraylarındakı özfəaliyyət xor kollektivlərinə, ansambllara və orkestrlərə rəhbərlik edəcək kadrlar hazırlanırdı. Yəni onların diplomuna, «solist, ifaçı, uşaq musiqi məktəbinin müəllimi» ixtisası qeyd olunmurdu. Son illərdə isə Bakı Humanitar Kollecini (əvvəl Bakı Mədəni-Maarif Texnikumu) fortepiano, xalq çalğı alətləri və xanəndəlik ixtisası üzrə bitirənlər "ifaçı-uşaq musiqi məktəbinin müəllimi" ixtisasına sahib olurlar.

Görkəmli pedaqoq Əvəz Rəhmətov qarmonun bir alət kimi sevilməsini, onun ecazkar səsini, milli ruhumuza uyğun səslənməsini, özünəməxsus, geniş imkanlı çoxçalarlığını, bu ixtisas üzrə təhsil almaq istəyənlərin həvəs və arzularını nəzərə alıb çoxsaylı müraciətlərdən nəticə çıxarır. O, qarmon musiqi aləti haqqında elmi fikirlərini əsaslandıraraq Təhsil Nazirliyinə rəsmi sənədlə müraciət edir. Onun fikirləri yuxarılarda müzakirə olunaraq müsbət həllini tapır.

Ə.Rəhmətov direktoru olduğu Ağdam Musiqi Texnikumunda "musiqi nəzəriyyəsi" müəllimi işləyən Alim Yüzbaşıyevə, xor dirijorluğu şöbəsinin müdiri, bəstəkar Xəlil Cəfərova və Ağdam şəhər uşaq musiqi məktəbinin müəllimi Cingiz Əliyevə texnikumda qarmon tədrisinin 1 kursu üçün proqram hazırlamaq barədə tapşırıq verir. Bütün bu işlər 1980-cı ilin yay aylarına təsadüf edir. Proqram hazırlanır, nazirliyə göndərilir və təsdiq edilir. Beləliklə, Ağdam Musiqi Texnikumunda 1980-1981-ci tədris ili üçün xalq çalğı alətləri şöbəsində qarmon ixtisası üzrə beş tələbə qəbul olunur. Not və muğamdan Çingiz Əliyev dərs deyir. Sonralar Vaqif Məmmədov, Ramiz Cəfərov muğam üzrə müəllimlik edirlər.

Mərhum sənətşünas alim Ə.Rəhmətovun düzgün elmi fikirləri, zəhməti, qayğısı və uzaqgörənliyi sayəsində respublikamızda xalqımızın sevimli musiqi alətlərindən biri olan qarmonun bu günü və gələcəyi naminə müsbət addım atılır.

Texnikumda hazırda da qarmon ixtisası üzrə kadrlar hazırlanır.

Şəki Musiqi Texnikumunda (kollecində) qarmon sinfinin açılması. Bu sənət ocağında qarmon ixtisasının tədrisi 1980-cı ildən başlamışdır. Texnikumda bu sənət üzrə ilk müəllim Zair Mustafayev olmuşdur. O, peşəkar musiqiçi olmaqla bərabər, işgüzar və bacarıqlı şəxsdir. Zair müəllim qarmonun tədrisinə dair "Azərbaycan xalq rəqsləri" məcmuəsi hazırlamış və 1999-cu ildə nəşr etdirmişdir. Məcmuəyə xalq artisti, Dövlət mükafatı laureatı, bəstəkar, professor Süleyman Ələsgərov, Ü.Hacıbəyli adına Musiqi Akademiyasının, xalq çalğı alətləri kafedrasının baş müəllimi Natiq Rəsulov rəy vermişdilər.

Göründüyü kimi, Şəki Musiqi Texnikumunun rəhbərliyi Ağdam Musiqi Texnikumunda atılmış ilk qədəmə qoşularaq eyni ildə qarmon ixtisasının tədrisinə başlamışdır.

Şuşa Musiqi Texnikumunda (kollecində) qarmon sinfinin açılması. Şuşa Musiqi Texnikumunda qarmon ixtisası 1982-ci ildə açılıb. İlk qarmon müəllimləri Tapdıq Zeynalov, Vilayət Əliyev və Gülağa Zeynalov olmuşlar. Tapdıq Zeynalov muğam, digərləri isə not əsərlərinin tədrisilə məşğul idilər.

Gülağa müəllim T.Zeynalovun oğludur. Qarmon çalmağı atasından öyrənmişdir. Konservatoriyanı tar ixtisası üzrə bitirmişdir.

Şuşa Texnikumunun direktoru Eldar Əliyev tərəfindən tapşırıq alan Gülağa müəllim öz savad və biliyindən istifadə edərək qarmonun ixtisas kimi tədrisi üçün not əsərləri seçib işləmiş, dərslərin yüksək səviyyədə keçirilməsinə nail olmuşdur.

Gülağa Zeynalov hazırda Mədəniyyət və İncəsənət Universitetində «instrumental ifaçılıq» kafedrasının müdiridir.

Gəncə Musiqi Texnikumunda (kollecində) qarmon sinfinin açılması. Bu sənət ocağında qarmon ixtisası 1980-cı ildə açılmışdır. İlk ixtisas müəllimləri not tədrisi üzrə Müzəffər Gəncəli, Ziyad Xasanov, muğam tədrisi üzrə Yaşar Məmmədov, Həsən Babayev olmuşdur.

Gəncə tədris ocağında sevimli alətimizin tədrisi o bölgədə ixtisaslı qarmon ifaçılarının yetişməsi üçün əhəmiyyətli rol oynamışdır. Muğamların tədrisi ilə məşğul olan müəllimlər Valeh və Elxan da çox sevilən bu sənətin çiçək açıb ətirlənməsi üçün çox iş görüblər.

Sumqayıt Musiqi Texnikumunda (kollecində) qarmon sinfinin açılması. 1983-cü ildə Əvəz Rəhmətov Sumqayıt Musiqi Texnikumuna direktor təyin olunur. Bu təhsil müəssisəsində o, 1984-cü ildə qarmon ixtisası üzrə sinif açılmasına nail olur.

İlk qarmon müəllimləri, muğam üzrə Mirbaba Bağıyev, Arif Kərimov, Azər Həşimov, not əsərlərinin keçilməsi üzrə isə Natiq Rəsulov, Xatirə Cəbrayılova və Elbrus Əliyev idilər.

Texnikuma o dövrdə qəbul olunan tələbələr arasında ən istedadlıları bu gün də vətənimizin musiqi həyatında layiqli rol oynayır, töhfələrini əsirgəmirlər. Məzunlar arasında Zakir Mirzəni xüsusilə qeyd etmək lazımdır. Qarmon ifaçılığında xüsusilə seçilən, virtuoz sənətçi ömrünün ən məhsuldar və mənalı vaxtını yenidən təhsilə ayıraraq qarmonun not tədrisinə yiyələnmək üçün Sumqayıt Musiqi Texnikumuna gəlmiş və 1999-cu ildə buranı böyük uğurla bitirmişdir. Respublikanın əməkdar artisti adını alan Zakir Mirzə 2005-ci ildə "Azərbaycan xalq musiqisində qarmonun rolu və əhəmiyyəti" mövzusunda dissertasiya işini müdafiə edərək sənətşünaslıq namizədi alimlik dərəcəsi almışdır. O, 2012-ci ilə qədər Sumqayıt Texnikumunda muğamın tədrisi ilə məşğul olmuşdur.

Lənkəran Musiqi Texnikumunda (kollecində) qarmon sinfinin açılması. Burada qarmon sinifi 1987-1988-ci dərs ilində açılıb. İlk müəllimlər Bəxtiyar, Etibar Kərimov və Vasif Qədirov (ixtisasça

tar müəllimi) olub.

(Lənkəran 1 saylı uşaq musiqi məktəbində qarmon sinifi 1981-ci ildə açılıb. İlk ixtisas müəllimi Etibar Kərimov olub).

Naxçıvan Musiqi Texnikumunda (kollecində) qarmon sinfinin açılması. Bu tədris ocağında qarmon sinifi 1980-ci ildə açılmışdır. Qarmon sinifində ilk dövrlərdə tar ixtisası üzrə müəllim Aydın Məmmədov dərs demişdir.

Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecində qarmon ixtisasının tədrisi. Əvəz Rəhmətov Asəf Zeynallı adına Bakı Musiqi Texnikumuna 1992-ci il iyun ayının 12-də direktor vəzifəsinə təyin olunur. (Bu Texnikum 06.03.2000-ci il tarixdən Musiqi Kollecinə çevrilir və 10.08.2001-ci ildən etibarən Milli Konservatoriya tərkibində Musiqi Kolleci kimi fəaliyyət göstərir.)

1995-1996-cı tədris ili üçün bu musiqi ocağına ilk dəfə qarmon ixtisası üzrə tələbələr qəbul olunur. Bu ixtisasdan dərs demək üçün işə götürülən ilk müəllimlər not üzrə- Xeyrulla Dadaşov, muğam üzrə -Hüseyn Həsənov, not və muğam üzrə-Nəhməd Hüseynov olmuşlar. Sonrakı illərdə tələbata uyğun olaraq digər qarmon müəllimləri, o cümlədən 1999-cu ildə Zakir Mirzə Musiqi Kollecinə müəllim dəvət olunmuşdur. Doğruluqla və vicdanla deməliyik ki, üç Musiqi Texnikumunda qarmonun bir ixtisas kimi tədrisinin başlanması bilavasitə Əvəz Rəhmətovun xidmətləri müqabilində baş tutmuşdur. Orta təhsil müəssisələrində əsası bu xeyirxah insan tərəfindən qoyulmuş qarmon tədrisi digər texnikumlara (haz. kollec) da yol almışdır.

Hörmətli musiqişünas-alimin, Ə.Rəhmətovun ruhu şad olsun!

Bu gün Musiqi Kolecində qarmon ixtisasının yüksək səviyyədə tədrisi mövcuddur.

3.3. Ali təhsil ocağında qarmonun tədrisi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və instrumental ifaçılıq kafedrasının, musiqi sənəti fakültəsinin tərkibində 1999-cu ildə ilk dəfə qarmon ixtisası üzrə də tələbələr qəbul olunmuşdur. Bu fakültədə xalq alətləri orkestri rəhbərləri hazırlanır. Burada muğamlar deyil, yalnız, not əsərlərindən ibarət proqram tədris olunmağa başlamışdır.

Universitetdə qarmon sənətinin tədris olunmasının ilk təşəbbüskarı bu təhsil ocağında harmoniyadan dərs deyən Gülağa Zeynalov olmuşdur. Proqramın tərtibində G.Zeynalov müəllim, dəvət olunanlar Natiq Rəsulov və Sərxan Abıyev əzmlə, birlikdə çalışmışlar. G.Zeynalov hazırda instrumental ifaçılıq kafedrasının müdiridir.

Mədəniyyət və İncəsənət Universitetində qarmon sənəti üzrə ali təhsilli, ixtisaslı kadrlar, peşəkar instrumental ifaçılar hazırlanması yolunda ciddi işlər aparılır. Hələlik yeganə ali təhsil müəssisəsidir ki, burada milli qarmonumuz təmsil və tədris olunur. Orta ixtisas təhsili başa vuran qarmonçalanlar yiyələndikləri peşəni inkişaf etdirmək və ali təhsil almaq üçün Mədəniyyət və İncəsənət Universitetinə gəlirlər.

2006-cı ildən bu ali təhsil ocağında muğamlarımızın tədrisinə də xüsusi yer ayrılıb və sənətşünaslıq namizədi, dosent, əməkdar artist Zakir Mirzə dərs demək üçün dəvət olunub.

Gələcəkdə Milli Konservatoriyada qarmon ixtisasının tədris olunacağına heç şübhəmiz yoxdur. Ümidliyik həm də görürük ki, bu ixtisasın tədrisi tədricən daha da mükəmməlləşir, inkişaf edir və qarmon ifaçılığının daha da yüksəlməsinə geniş yol açır.



1962-1965-ci illər. Suraxanı mədəniyyət sarayındakı qarmon kursunun birinci buraxılışı.
Kursun rəhbəri Əyyub Babayev



1962-1965-ci illər. Sabunçudakı mədəniyyət sarayının qarmon kursunun birinci buraxılışı.
Kursun rəhbəri Əyyub Babayev



1963-1963-cü illər. Sabunçudakı mədəniyyət sarayının qarmon kursunun ikinci buraxılışı.
Kursun rəhbəri Əyyub Babayev



1964-1967-ci illər. Suraxanı mədəniyyət sarayının qarmon kursunun üçüncü buraxılışı.
Kursun rəhbəri Əyyub Babayev



1964-1967-ci illər. Sabunçudakı mədəniyyət sarayının qarmon kursunun üçüncü buraxılışı. Kursun rəhbəri Tamilla Babayeva



1968-ci il. Mərkəzi pioner və məktəblilər evinin (baxır T.İsmayılov adl. uşaq və gənclərin yaradıcılıq mərkəzi) qarmon dərnəyinin üzvləri. Dərnəyin rəhbəri (ortada) Sona İrzuquliyeva.



Bakı Mədəni-Maarif Texnikumunun mədəni-maarif şöbəsinin "klub işçisi - özfəaliyyət xalq çalğı alətləri orkestri rəhbəri" ixtisası üzrə 73 saylı buraxılış qrupu



Bakı Mədəni-Maarif Texnikumunun mədəni-maarif şöbəsinin "klub işçisi - özfəaliyyət xalq çalğı alətləri orkestri rəhbəri" ixtisası üzrə 73 saylı buraxılış qrupu. Hazırda Mədəniyyət və İncəsənət Universitetinin qarmon sinfinin müəllimi Sərxan Abuyev bu qrupun məzunu olmuşdur



Bakı Mədəni-Maarif Texnikumunun mədəni-maarif şöbəsinin "klub işçisi - özfəaliyyət xalq çalğı alətləri orkestri rəhbəri" ixtisası üzrə 177 saylı buraxılış qrupu



Bakı Mədəni-Maarif Texnikumunun mədəni-maarif şöbəsinin "klub işçisi - özfəaliyyət xalq çalğı alətləri orkestri rəhbəri" ixtisası üzrə 177 saylı buraxılış qrupu. Məhir qarmon ifaçısı Aslan Aslanov bu qrupun məzunu olmuşdur.



Mədəniyyət və İncəsənət Universitetinin 2003-cü il qarmon siniflərin ilk məzunları Gülnarə Əliyeva, Səxavət Nəcəfov və müəllim Səxavət Abbasov

Tədrisdə istifadə olunan əsərlərdən nümunə






Coda

Abdul Həşimov "10 zərbi-muğam", "Qarmon" sinifi üçün muğam fənni üzrə vəsait"dən nümunə

HEYDƏRİ

Heydər şəxs adıdır. Ərəbcədən dilimizdə mənası - şir deməkdir.

Heydəri – Heydərə xas, aid, məxsus, onun şə'ninə olan deməkdir. Qüvvət, güc, yenilməzlik anlamı kimi qəbul edilə bilər.

Tariximizdə Azərbaycan Səfəvilər dövlətinin hökmdarı Şah İsmayıl Xətainin atasının adının Şeyx Heydər olduğu məlumdur. Eyni zamanda İslam tarixindən də məlumdur ki, müqəddəs peyğəmbərimiz Məhəmməd əleyhissəlam, şücaətinə, döyüş qabiliyyətinə, hünərinə görə Cənab Əli əleyhissəlama verdiyi ləqəblərdən biri də Heydər olmuşdur. Bu haqda onun şə'ninə qoşulan mərsiyələrin birində deyilir:

Məzhəri-yezdan Əlidir, Əli,
Dərdlərə dərman Əlidir, Əli.
Natiqi-Qur'an Əlidir, Əli,
Heydəri-kərrar Əlidir, Əli.

Gədəbəy rayonunda Heydərli kəndi, Pakıstan İslam Respublikasında isə Heydərabad şəhəri vardır.

«Heydəri», «Şüştər» muğamının «Tərkib» hissəsinin lad-intonasiyası, kökü üzərində ifa edilən zərbi-muğamdır. Aşıq musiqisində «Heydəri» adlı hava vardır. Lakin ritmintonasiya, melodik quruluş cəhətdən fərqlər mövcuddur. Sözləri adətən klassik şairlərin qəzəllərindən ibarət olur.

Xarakter e'tibarı ilə amiranə, mərdanə ovqatlıdır. Sabit və dəqiq ritmlə ifa edilir.

«Heydəri»də daha çox oxunan sözlər:

I variant

Rö'yadə mən cənnət şamını can içrə rəxşan tapmışam,
Ol şəmə yüz pərvanəni bir anda qurban tapmışam.

II variant

Görək kimdir salan şura, əgər məşhuru Məcnunu,
Ki bilməz məndədir qafil, təriqi eşqin məzmunu.

HEYDƏRİ

Bəhram Mənsurov və Alim Qasımovun ifası əsasında





Solo
Ad libitum
a tempo


Solo
Ad libitum
poco
a
poco
rit

Rəqs melodiyası "XOŞ ARZULAR"

Zeynal İsayev









"RƏHAVİ " MUĞAMI

Nemət Hüseynovun ifasında
Nota köçürən Məmmədağa Umudov

"Bərdaşt" ("Əmiri" şöbəsi ilə)



3.4. Qarmon ixtisasının tədrisi üçün nəşr olunmuş vəsaitlər

1. Sona İrzaquliyeva "Musiqi məktəblərinin qarmon sinifi üçün proqram", Bakı, 1976
2.Xeyrulla Dadaşov, Rauf İmanov "Uşaq musiqi məktəblərinin qarmon sinifi üçün proqram", Bakı, 1984
3.Fərahim Sadıqov "Qarmon ixtisasının tədrisi üçün vəsait", Bakı, 1986
4. Xeyrulla Dadaşov "Qarmon məktəbi", Bakı, Şirvannəşr, 1999
5. Sona İrzaquliyeva "Qarmon məktəbi", Bakı, Şirvannəşr, 1999
6. Natiq Rəsulov "Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi" I kitab, Bakı Kənd Təsərrüfatı Nazirliyinin "Poliqrafiya" müəssisəsinin mətbəəsi, 1998
N.Rəsulov "Qarmon məktəbi". Bakı, Çaşıoğlu, 1999
Natiq Rəsulov "Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi" II kitab, Bakı-Çaşıoğlu 1999
Natiq Rəsulov "Qarmon ilə fortepiano üçün pyeslər məcmuəsi" (Xarici ölkə bəstəkarlarının əsərlərindən köçürmələr), Bakı, Çaşıoğlu, 2002
7.Ceyhun Qəmərliniski "Qarmon məktəbi", Bakı, Çaşıoğlu nəşriyyatı, 1999
8. Zair Mustafayev "Azərbaycan xalq rəqsləri məcmuəsi", Bakı, 1999
9. Əli Bayramov "Qarmon məktəbi", Bakı, R.N.Novruz -94 Nəşriyyatı, 2004
Əli Bayramov "Qarmon üçün texniki məşğələlər", Bakı, 2006
Əli Bayramov "Qarmon üçün ən gözəl melodiyalar", Bakı, 2006
10. Xəqani Səmədov "Orta ixtisas təhsil müəssisələrində, "Qarmon aləti üzrə muğam fənninin fərdi tədrisi" fənn proqqamı, Bakı, 2005
11. Abdul Haşımov "10 zərbi muğam", Qarmon sinifi üçün muğam fənni üzrə vəsait, Bakı, 2007.
12. Zair Mustafayev "Avtandil İsrafilov, rəqslər", Bakı, 2012.
13. Fərahim Sadıqov "Qarmon ifaçılığında muğam", Bakı, "Adiloğlu", 2013.

3.5. Qarmon və muğam

Biz bu mövzumuzda qarmonda muğam ifası barədə danışacağıq.

Qeyd edək ki, Azərbaycanda iki oktava yarım səs həcmli (hətta üç oktavalı) qarmonlar çalınan dövrdən, hətta ondan da qabaqkı zamandan toy-nişan və digər şadlıq məclislərində, konsertlərdə, daha sonralar radioda canlı çıxışlarda, televiziya konsertlərində, radio lent yazılarında, televiziya çəkilişlərində xalq havaları, rəqs melodiyaları ilə bərabər klassik muğamlarımız da səslənmişdir. Bu alətin peşəkar ifaçıları muğamlarımızı istər dəstgah halında, istərsə də ayrı-ayrı şöbələri bacarıqla, xüsusi ustalıqla, böyük məharətlə qəlblərə yol taparaq ifa etmişlər.

Bütün ömrünü xalq musiqimizə həsr etmiş qarabağlı tarzən Məşədi Nəriman belə bir fikir söyləmişdir. "Qarmonsuz toylarımızı təsəvvür etmirəm. Bu alət toylarımızın musiqisinin rəmzi, möhürü, gerbidir".

Hətta ən böyük xanəndələr özü də toy məclislərində və konsertlərdə muğamlarımızı qarmonun müşaiyətilə oxumuşlar. Ustad xanəndələr Xan Şuşinski, Əbülfət Əliyev, Ağabala Abdullayev, Eynulla Cəbrayılov, Ramiz Hacıyev, Qulu Əsgərov, Əliyar Əmirov, Süleyman Abdullayev, Baba Mahmudoğlu, Arif Babayev, Sabir Mirzəyev, Məmmədbağır Bağırzadə, Zaur Rzayev və b. qarmonun qəlb titrədən, könül oxşayan, cəlbedici, məlahətli və ecazkar səsinə bağlanaraq muğam- dəstgahların ayrı-ayrı şöbələrini və guşələrini toylarda, səhnələrdə bu alətin müşaiyəti ilə təqdim etmişlər. Bu gün də peşəkar xanəndələrimiz bu ənənəni davam etdirirlər. Radiomuzun və televiziyamızın fonetekalarında saxlanan, qorunan, istifadə olunan çoxsaylı lent yazılarında

muğam və ya təsniflərimizin ifası zamanı xanəndələrimizi xalq çalğı alətləri ansambllarında çalışan Teyyub Dəmirov, Məmmədağa Ağayev, Səttar Hüseynov, Musa Həsənov, Avtandil İsrafilov, Zakir Mirzəyev, Abutalıb Sadıqov, Hüseyn Həsənov, Xeyrulla Dadaşov, Əsgər Həsənov, İslam Süleymanov, Vaqif Əsədov, Kamil Vəzirov, Gövhər Rzayeva, Əhliman Zabitoğlu, Aydın Əliyev, Faiq Süleymanov, Baxışəli Əliyev, Rafiq Əsgərov, Tahir Zakirov, Şəmsi Ağamalıyev, Nazim Əsgərov, Cavanşir Məmmədov, Əhsən Rəhmanlı, Nizami Əsgərov, Ənuşirəvan İsrafilov, Zakir Qasımov, Natiq Babayev, Dadaş Dadaşov, Vaqif Bağırov, Oqtay Bayram, Natiq Mirzəyev, Qulam Nəzərov və b. xanəndələrimizi müşayiət etmişlər.

Hazırda kolleclərdə, Mədəniyyət və İncəsənət Universitetində qarmonun not tədrisi proqramlarında rəngarəng, çoxçalarlı, cəld, çevik, çətin ifa olunan, ustalıq tələb edən klassik əsərlərin öyrədilməsi sevimli qarmon sənətimizin həmişəyaşar və ümumbəşəri dəyər qazanacağına zəmanət verir. Müəllimlər və tələbələrimiz bu yolda həvəs və hünərlə çalışırlar.

Mətləbdən uzaqlaşmayaq. Mövzumuzun əvvəlində söyləmişdik ki, biz əsasən qarmonun muğam ifaçılığından söhbət açacağıq.

Zaman-zaman başqa milli musiqi alətlərimizlə yanaşı muğamlarımız qarmonda da səsləndirilib, dinlənilib, sevilib, lentlərə alınıb və qorunub saxlanıb.

Qarmonda muğamlar çalınarkən ifaçılarımız ona xüsusi yaraşıq verir, bəzək vurur, şirin xallar, cazibədar gəzişmələr əlavə edirlər. Muğam çalmaq üçün bu alətin özünəxas imkanları vardır.

Şərq musiqisinin, muğamların canı elə cürbəcür bəzəklərdə, şirin xallarda, melizimlərdədir. Hər muğamın öz xüsusiyyəti, öz xarakteri, öz təsir qüvvəsi, öz lad sistemi, tonallığı olduğu üçün onların ifa tərzləri də müxtəlifdir. Muğam bəzəkləri, xallar, qəmli, kədərli insanlarda dalğınlıq yaradan və ya sevinc, şənlik, coşqunluq, xoş ovqat bəxş edən ola bilər.

Muğam ifası hər ifaçının ürəyi, könül istəyi, ovqatı, qəlb çırpıntısı, onun iç dünyası, daxili aləmi, mənəvi dünyası, sevgisi, məhəbbəti, saf duyğuları, sevinci və kədəri ilə əlaqəli, insanın ruhuyla bağlı bir məvhumdur. Hər bir ifaçıda muğamlar müxtəlif səpgili, özünəməxsus və bənzərsiz səslənir. Bütün bunlara adi yanaşmaq olmaz. Bu məsələlər, incəliklər muğamların hikməti, sirləri, açılmamış kodları, göylərlə, kainatla əlaqəli olması ilə bağlıdır.

Yazıçı-jurnalist, şair Sabir Rüstəmxanlı müəllifi olduğu "Ömür kitabında" yazır: "Muğam azərbaycanlı ruhunun güzgüsüdür. Taleyin bizə bəxş etdiyi xəzinədir, xoşbəxtlikdir. Muğam okeandır! Nə dərinliyinə baş vurmaq olur, nə sonuna yetmək. Muğam yetkinlikdir, ağıldır, dərrakədir, düşüncədir. Biz azərbaycanlıların bəxtinə düşmüş zəngin xəzinədir".

Orta əsrlərdə Şərqin böyük dühaları muğamın hikməti, təsiri barədə fikirlərini söyləmiş, onun fəlsəfi anlamını açmağa çalışmış, risalələr yazmışlar. Əl-Kindi, Əbunəsir Fərabi, İbn Sina, Səfiəddin Urməvi, Nizami Gəncəvi, Nəsimi, Əbdülqadir Marağai, Cəlaləddin Rumi, Hümam Təbrizi, Qütbəddin Şirazi, Nurəddin Əbdürrəhman, Əbdüləziz Marağalı, Əbdülrəhman Cami musiqi, muğam haqqında qiymətli fikirlər söyləmişlər.

Xalq şairi Bəxtiyar Vahabzadə "Muğam" poemasında muğamlarımızın cəhətlərini, xüsusiyyətlərini, insanın daxili aləminə təsirini göstərmiş, bu zəngin musiqi janrının fəlsəfi anlamını açmağa çalışmış və buna müəyyən qədər nail olmuşdur.

Dedik ki, hər bir muğam ifaçısının göstərdiyi sənət onun daxili aləmi, fitri istedadı, ağlı və düşüncələrilə bağlıdır. Bu qarmonun muğam ifaçılığında da belədir. Hiss edirsən ki, ayrı-ayrı ifaçı eyni muğamı müxtəlif cür səsləndirir. Zakir Mirzə çap etdirdiyi "Azərbaycan qarmonu" kitabında ustad qarmonçular Əhəd Əliyevin, Teyyub Dəmirovun və özünün ifa etdiyi "Segah" muğamını nota yazmış və müqayisəli təhlillər aparmışdır.

Bir sıra Avropa və Şərq ölkələri musiqi alətlərinin, həmçinin öz tarımız, kamanımız, qanunumuz yanında ifa imkanları, ifaçılıq texnikası imkansız sayılan Azərbaycan qarmonu peşəkar və

ustad ifaçılarımız tərəfindən xeyli yüksəkliyə aparılmışdır. Artıq Azərbaycan qarmonu toy-nişan şənliklərindən, kiçik, böyük konsert salonlarımızdan üzü ağ çıxaraq dünyanın ən nəhəng səhnələrinə doğru inamla irəliləməkdədir. İndi Avropanın ən böyük ölkələrinin, Amerikanın, Yaponiyanın böyük səhnələrində keçirilən ən mötəbər tədbirlərdə qarmon ifaçılarımız Azərbaycan müğənnilərini müşayiət etməklə bərabər solo ifalar da göstərirlər.

İstedadlı musiqiçi və yaradıcı şəxslər olan mahir qarmon ifaçıları Aftandil İsrafilov (xalq artisti), Zakir Mirzə (əməkdar artist), Hüseyn Həsənov, Ənvər Sadıqov (əməkdar artist) və digərləri bəstələdikləri lirik, həzin melodiyalar və şux, oynaq rəqs havalarından başqa Azərbaycanın böyük bəstəkarlarının əsərlərini də repertuarlarına daxil etmiş, radioda lentə almış və televiziyada nümayiş etdirmişlər.

Zakir Mirzə xalq havalarını, özü yaratdığı melodiyaları, bəstəkarlarımızın ən yaxşı nümunələrini yüksək səviyyədə ifa etməklə bərabər, dünya klassik bəstəkarlarının əsərlərini də ilk dəfə qarmonunda səsləndirə bilib. O, 1979-2004-cü illərdə Hollandiya, Polşa, Ruminiya, Brüssel, Misir, Liviya, Anqola, Konqo, Türkiyə, İran ölkələrində zəngin proqramla çıxış etmişdir.

Sənətçimiz 1995-ci ildə İran İslam Respublikasının Təbriz və Tehran kimi iri şəhərlərində həmin ölkədə ilk dəfə olaraq qarmonda solo konsertlər vermişdir. Belə konsertlərdə o, muğamlarımızı da sevə-sevə səsləndirmişdir. Digər müqtədir sənətkarlarımızın davamlı uğurları və bütünlükdə bu uğurlar içərisində muğam ifaçılığı Azərbaycan qarmon məktəbinin və qarmon ifaçılıq sənətimizin yüksəlişindən, çiçəklənməsindən xəbər verir.

3.6. Qarmon alətinin səslənmə və texniki imkanlarına məxsus əsərlər, konsertlər yazılmalıdır

Tofiq Bakıxanovun "1 saylı-üç hissəli konsert" adlanan simfonik əsərində Zakir Mirzə ilk solo-qarmon ifaçısı kimi çıxış etmişdir. Əsər 1999-cu ildə fortepianonun müşayiəti ilə radiomuzun fondu üçün lentə alınmışdır.

2001-ci ildə "Konsert" əməkdar incəsənət xadimi Yaşar İmanovun dirijorluğu ilə Niyazi adına simfonik orkestrlə Azərbaycan televiziyasında nümayiş etdirilmişdir. Simfonik orkestrin tərkibində Z.Mirzənin qarmonu ecazkar səsləndirməsi musiqi ictimaiyyəti tərəfindən maraqla və rəğbətlə qarşılanmışdır. Bu qarmon ifaçılığı üçün böyük bir yenilik, daha bir uğurlu addım sayılmalıdır. Gələcəkdə "Qarmon ilə orkestr üçün" əsər yazılacağına tam əminik. Belə əsərlər qarmonun bir musiqi aləti kimi bütün imkanlarını göstərəcək. Milli Azərbaycan qarmonu üçün məxsusi əsərlər yazılmamışdır.

Qarmon ifaçılığı üçün ilk dəfə 1997-ci ildə əsərlər yazan böyük bəstəkarımız Süleyman Ələsgərov (1924-2000) olmuşdur. Onun qarmon üçün "Lirik pyes" və "Skerso" adlanan əsəri vardır.

Hər iki əsəri 2001-ci ildə Orta İxtisas Musiqi Məktəblərinin 8-ci Respublika Musabiqəsində Sumqayıt Musiqi Texnikumunun (haz. kollec) III kurs tələbəsi Ramil Nağıyev ifa etmişdir. O, müsabiqənin birinci dərəcəli diplomunu almışdır.

Təhsili başa vuran Ramil Nağıyev 2001-ci ildə Bakı Mədəni-Maarif Texnikumunda (haz. kollec) pedaqoji fəaliyyətə başlamış və az vaxtda özünü doğrultmuşdur. O, İstedadlı tələbəsi Maarif Nadirovu 2004-cü il may ayında musiqi texnikumları arasında keçirilən baxış -müsabiqə üçün layiqincə hazırlamışdır. M.Nadirov müsabiqədə S.Əsgərovun "Skerso" və "Lirik pyes"ini, S.Rüstəmovun "Konsert"ini, muğamlardan "Mirzə Hüseyn segahı" və "Orta Mahur"u ifa edərək birinciliyi almışdır.

Burada bir incə mətləbə toxunmaq istəyirik. 1984-cü ildə Bakıda keçirilən "Respublikalar arası xalq çalğı alətləri ifaçıları müsabiqəsi" zamanı məşhur qarmonçu Hüseyn Həsənov Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konsservatoriyasının vokal üzrə III kurs tələbəsi idi. Hüseyn keçirilən

bu tədbirdə Ü.Hacıbəylinin "Tar ilə orkestr üçün fantaziya"sını, Motsartın "Türk marş"ını, S.Raxmaninovun "Polka"sını və "Martov xorovodu"nu hazırlamışdı.

Müsabiqədən əvvəl keçirilən yoxlamada (dinləyiş)münsiflər heyətinin üzvləri Hüseynin çıxışını çox bəyənirlər. Lakin tədbirə buraxmırlar. Bəstəkar S.Əsgərov bildirir ki, ifaçının çaldığı alət Azərbaycan xalq çalğı aləti deyil Mili mənşəyi məlum olmayan bir aləti hansı xalqın musiqi aləti kimi tanıdıb təqdim edək?

Bir zamanlar bu fikirdə olan hörmətli bəstəkarımız sonralar qarmonun cəlbedici, təsirli səsini dinləyib ifa imkanları ilə maraqlanıb, onun xalqımıza çox doğma bir alət olduğunu nəzərə alıb qarmon ifaçılığı üçün yuxarıda adları qeyd olunan iki əsərini yazmışdır. Ömrü davam etsəydi bəlkə də Süleyman müəllim qarmon üçün neçə-neçə dəyərli əsərlər yazardı.

Bu kitabımızdakı yazılarımızda Zakir Mirzənin elmi işi, dissertasiya müdafisə barədə məlumat vermişik. Alim gərgin zəhmət və axtarışlar nəticəsində Azərbaycan qarmonunun mənşəyini tapmış və onun milli musiqi alətimiz olmasını sübuta yetirmişdir. Belə mühüm işlərdən sonra qarmon aləti üçün ən dəyərli, ən qiymətli əsərlər yazılacaqdır.

Qarmon ifaçılığı sənətinin 1990-2000-ci illər ərzində musiqi aləmində daha çox görünüb tanınan nümayəndəsi, virtuoz sənətçi, əməkdar artist Ənvər Sadıqov iti barmaqları, cəld ifa tərzi, çevikliyi, improvizasiyaları, alətə yeni üslubda yanaşması ilə bu peşəyə təzə bir çalğı manerası, yüksək ifaçılıq texnikası gətirmişdir. Ənvər bəstəkarlarımızın bəzi əsərlərini qarmon ifasına uyğunlaşdıraraq çalır. Çaldıqlarının əksəriyyətini sintezatorun müşayiəti ilə və ritimlərilə çalır. Bu zaman qarmonun səslənməsi millilikdən uzaqlaşır. Sənətçimiz bu məsələlərə ciddi və diqqətlə yanaşmalıdır.

Ənvər fortepiano, akkordeon və sintezator ifaçısı kimi də musiqi aləmində tanınır. O, çox istedadlı insan, özünə qarşı tələbkar şəxs, sənətdə fanatdır. Azərbaycan kinofilmlərinə bəstəkarlarımızın bəstələdiyi melodiyaları akkordeonda və qarmonda çalır. O, belə melodiyaları böyük ifaçılıqla ifa edir.

Hər bir qarmonçalanımıza, həmçinin Ənvərə tövsiyəmiz o ola bilər ki, qarmonda xalq mahnılarını, oyun havalarını çalarkən milli üslübü, milli ruhu verə bilsinlər. Çünki, bu melodiyalara xalqımızın adət-ənənələrinin toplumu, milli-mənəvi dəyərlərimizin ruhu hopub, Belə xalq havalarının öz gözəlliyi, öz dəyəri, öz ətri və təravəti vardır. İfalarda bunlar nəzərə çarpmalı, hiss olunmalıdır.

Azərbaycanda Pərviz Rüstəmbəyov, Niyazi, Tofiq Quliyev, Kələntərov, Seyfi, Rauf Quluyev, Əlimərdan Əliyev, Məmməd Əbusəlimov, Tofiq Əhmədov, Vaqif Mustafazadə, Rafiq Babayev, Əziz Əzizli, Tofiq Cəfərov kimi cazmenlər olmuşdur.

Hazırda vətənimizdə Səyavuş Kərimi, Vaqif Sadıqov, Fərəc Qarayev, Akif Süleymanov, Salman Qəmbərov, Cavan Zeynallı, Faiq Abbasov, Emil Məmmədov, Eldar Zeynalov, Emin Həsənov, Şahin Növrəsli, Eldar Məmmədov, Arif Hacıyev, Cəmil Əmirov, Emil Məmmədov, Vaqif Gərayzadə cazmen olaraq fəaliyyətdirlər.


Bilirik ki, əvəzolunmaz sənətkar, qeyri-adi istedada malik musiqiçi, bəstəkar, cazmen-pianoçu Vaqif Mustafazadə dünyada ilk dəfə olaraq yeni bir musiqi janrı, "caz-muğam" yaratmışdı. Onun işləmələri, fikir və düşüncələri, yaratdıqları Azərbaycanda ilk əvvəllər qəbul olunmadı, təzyiqlərlə qarşılandı. Lakin, V.Mustafazadə (1940-1979) keçmiş SSRİ-nin başqa respublikalarında, xarici ölkələrdə tanındı və sevildi. Sonralar isə (ölümündən sonra) Azərbaycanda da V.Mustafazadə öz dəyərini aldı. Bu gün də onun yaradıcılığından dünya miqyasında istifadə olunur. Onun qızı cazmen Əzizə məşhur cazmen kimi dünyanı gəzir. Ənvərin XX əsrin sonunda, XXI əsrin əvvəllərində Azərbaycan qarmon ifaçılığına yeni bir üslüb, caz ifa tərzi gətirməsi, özü də qarmon sənətimizin bu günkü və sabahkı inkişafına xidmət edir, yeni-yeni uğurlara imza atılacağından xəbər

verir.

Açıq deməliyik ki, son illərdə qarmon ifaçılığına gələn gənclərin əksəriyyəti Ə.Sadıqovun çalğı tərzinə meyl edərək milli qarmon ifaçılığı yolundan tam kənarda qalırlar. Söyləməliyik ki, Ənvər istedadlıdır, axtarışdadır, cazmendir. Gənclərimiz onun ifasını düz başa düşmədiyi, düz qavraya bilmədikləri üçün musiqimizdən, əsl ifaçılıq sənətindən ayrı düşüblər. Onunçün də gənc qarmonçularımızın əksəriyyətinin ifası səlist, aydın, bitkin deyil, məntiqsiz və təsirsizdir. Onlara ağsaqqal məsləhətimiz, tövsiyəmiz odur ki, Azərbaycan qarmon məktəbinin əsası sayılan Əhəd Əliyevdən üzü bəri, bütün klassik qarmonçalanlarımızın yaradıcılığını izləsinlər, lent yazılarını dinləyib bu gün və gələcək üçün nəticə çıxarıb milli musiqi mədəniyyətimizə sədaqətlə xidmət etsinlər.

Bizdə qarmon ifaçılığının milli üslubu, öz yolu vardır. Cavan qarmonçalanlarımız "Ənvər yolu" çalırıq deyib, düşünüb səhv edirlər. Ənvərin ifasının bir istiqaməti dediyimiz kimi əsasən caz janrına aiddir. Bütün ifaçılar cazmen ola bilməzlər. Caz janrında böyük istedad sahibləri bədahətən fikirlərinə gələn musiqiləri ustalıqla, ölçü-biçilərilə izah edə bilirlər.

Gənclərimiz bilməlidirlər ki, Ənvər musiqi sənətinə qədəm qoyan gündən öyrənir, axtarır, O, uşaqlıq və gənclik illərində tarzənlər B.Mansurov, H.Məmmədov, Ə.Dadaşov, H.Bayramov, klarnet ifaçıları Ə.Əsgərov, Ş.İmanov, V.Qədimov, qarmonçalanlar Ə.Əliyev, T.Dəmirov, M.Ağayev, A.İsrafilov, Z.Mirzəyev, H.Haqverdiyev, H.Həsənov, X.Cəfərov və başqalarının lentlərini müntəzəm dinləmiş, muğamları, dəraməd, rəng, diringilər və oyun havalarını həvəslə öyrənmişdir. O, 2005-ci ilin əvvəllərində "Space" telekanalının "Görüş yeri" proqramında "Rəhavi" muğamını bütün şöbələri ilə, dəstgah halında doğru-düzgün ifa etmişdir. Yaxşı olar ki, Ənvər muğam ifaçılığını davam etdirsin. Yaxın dövrdə və gələcəkdə Ənvər Sadıqovun orkestrlərin tərkibində bəstəkarlarımızın Azərbaycan qarmonu üçün yazdıqları əsərləri ifa edəcəyinə ümidliyik.





3.7. Azərbaycan qarmon məktəbi nümayəndələrinin radiomuzun fondu üçün lentə yazdırdıqları muğamlar

Aşağıda ifaçıların adlarını və onların ifa etdikləri muğamları ardıcıllıqla göstəririk.

1.Əhəd Əliyev- "Segah" (Onun qrammafon valına yazılmış bu ifası radio fondu üçün lentə köçürülmüşdür).

2.T. Dəmirov-"Rast", "Şur", "Bayatı-Qacar", "Zabul-Segah", "Çahargah", "Bayatı-Şiraz", "Orta segah"

3. Məmmədağa Ağayev- "Şur", "Çahargah", "Segah"

4.Qızxanım Dadaşova-"Zabul", "Şahnaz", "Segah"

5.Səfərəli Vəzirov- "Çahargah", "Zabul-segah"

6.İsfəndiyar Coşğun- "Humayun", "Segah"

7.Məmmədhüseyn Salamov "Bayatı-Qacar"

8.Zakir Mirzə-"Orta Segah", "Zəmin-xarə", "Humayun", "Mirzə Hüseyn segahı", "Şur", "Bayatı-Şiraz", "Dilkeş", "Zabul-Manəndi-müxalif"

9.Aftandil İsrafilov- "Bəstənigar", "Zabul-Segah"

10.Hacı Abutalıb Sadıqov- "Segah"

11.Teyyub Teyyub oğlu - "Şüştər", "Zabul", "Çahargah"

12.Fərahim Sadıqov- "Humayun"

13.Aslan İlyasov - "Segah"

14.Əsgər Həsənov -"Segah"

15.Əhliman Zabitoğlu - "Segah"

16.Hüseyn Həsənov - "Rast"

17.Gövhər Rzayeva - "Segah", "Zabul"

18.Kamil Vəzirov - "Zabul"

19.Nəhməd Hüseynov - "Segah", "Rahab-(Rəhavi)", "Zabul", "Çahargah", "Bayatı-İsfahan", "Dilkeş", "Bayatı-Qacar"

20.Təvəkkül Tağıyev "Zabul"

21. Əhsən Rəhmanlı "Dilkeş"

Məlumat veririk ki, instrumental muğamlar radionun fonduna yazılarkən və televiziyada ifa olunarkən vaxt ölçüsü nəzərə alınır. Yəni bu ifa, 5,8,10 dəqiqə ərzində təhvil verilməli, bitməlidir. Onunçün də ifaçı fikrini cəmləşdirib muğamı tamam -dəstgah yox, bir və ya iki-üç şöbədən ibarət çalır.

Kolleclərdə və ali təhsil ocaqlarında isə muğamlarımız proqramda nəzərdə tutulduğu kimi şöbə və guşələrlə tamam-dəstgah şəklində tədris olunur.

3.8. Müxtəlif xalqların istifadə etdiyi qarmonların səslənmə fərqi

Rusların istifadə etdikləri qarmonikalar (qarmoşkalar) alət yarananda bu günə qədər müxtəlif oktavalı olurlar. Bu alətlərin bəziləri dilli (klaviş), bəziləri düyməlidir. Həmin alətdən elə var ki, onların sol tərəfində müxtəlif saylı (iki, üç, dörd və ya beş) zənglər, bəzilərində müxtəlif sıralı səslər (baslar) olur.

Rus qarmonlarının öz tembri, özünəməxsus şən səslənməsi vardır. Bu kimi alətlərdə rus xalq mahnıları və rəqs melodiyaları, "Çastuşka"lar ifa olunur. Rus xalq çalğı alətləri orkestrlərinin tərkibi qarmonsuz deyil.


Tatar xalqının milli qarmonunda səs düzümü və ifa tərzi tamam başqa cürdür. Burada, sağ tərəfdə dilli (klaviş), bir sıralı səs düzümü olan qarmonlardan istifadə olunur. Həmçinin yarımtonlu (xromatik) qarmonlar da çalınır.

Lakin, hər iki halda sol tərəfin səsdüzümü tatar xalqının musiqisinin ifasına uyğun hazırlanır. Tatar qarmonlarının sağ tərəfi (sağ əlin ifası üçün) bizim Azərbaycan qarmonları kimi olsa da, sol tərəf tamam başqa cürdür. Tatarların toy şənliklərində, mədəni-kütləvi tədbirlərdə, xalq çalğı alətləri ansambllarında öz milli qarmonlarından istifadə edilir. Çuvaşların, qaraçay-çərkəzlərin, başqırdların qarmonları da təbii ki, hər xalqın musiqisinə uyğun səslənir.

Demək olar ki, Qafqazda yaşayan bütün xalqlar öz müsiqilərində qarmon çalğısından bəhrələnirlər. Belə qarmonlar həmin xalqların toy şənliklərində, rəqs və xalq çalğı alətləri ansambllarında işlənir. Çeçen, osetin, kabardin-balkar, acar, abxaz, gürcü, ləzgi, avar və Dağıstanda yaşayan digər xalqların sevə-sevə işlətdikləri qarmonların sağ tərəfi dilli (klavişli), xromatik olsa da, sol gövdədəki səs ardıcıllığında, müşayiətdə müəyyən fərqlər vardır.



Dağıstan musiqiçisi. 1950-ci il



Şimali Qafqazda istifadə olunan müasir qarmon

Həmçinin sağ tərəfin çalğısı, səslənməsi fərqlidir. Burada hər xalqın musiqi ənənələri öz əhəmiyyətini biruzə verir. Belə ki, alət hər xalqın öz musiqisinə və rəqs melodiyalarına uyğun akkordlarla çalınır. Belə qarmonlar zil tembrli, şaqraq, cingiltili səsli olur. Həmin alətlər "do" kökündədir. Azərbaycan qarmonları isə milli musiqimiz, muğamlarımız nəzərə alınaraq "si" kökündədir. Doğrudur məşhur usta A.Korpuşkin musiqiçilərimiz üçün "si"dən yarım ton aşağı, yəni "si-bemol" kökündə olan alətlər də düzəltmişdi. Belə alətlə xanəndələrimiz daha rahat muğam və təsniflər oxuyurdular. Bu qarmonları toylarda zərb aləti dəfin müşayiəti ilə çalar və xanəndəni oxudarmışlar. Bəzən toy dəstəsinə balaban, tar və kamanı çalanlar da dəvət olunarmış. Bu zaman həmin alətləri də qarmonun ümumi kökünə "si-bemol"a kökləmişlər. Beləliklə, ansambl yaranarmış. Sonralar xalq çalğı alətləri ansambllarını yaradılarkən qarmonu da oraya əlavə etmişlər. Bu zaman "si" kökündə olan qarmonlar Azərbaycan peşəkar musiqi həyatına tam vəsiqə almışdır. Həm də söyləmək gərəkdir ki, XX əsrin 60-cı illərində Azərbaycanın toylarına klarnetlə qarmonun birlikdə ifası qədəm qoymuşdur. O vaxta qədər toylarımızda klarnetə balaban

dəm tutaraq müşayiət edirdi. Yəni klarnet dəstəsində nağaraçı və dəmkeş balabançı olurdu.


Burada bir məsələni xüsusilə söyləmək lazım gəlir. Peşəkar Azərbaycan qarmonunda sağ və sol əlin ifası üçün səs düzümü eyni cür, iki sıralı, xromatikdir. Lakin alətin sağında dillər (klaviş), solunda isə düymələr tətbiq edilib. Ta keçmiş dövrdən üzü bəri qarmonumuz çalınarkən, istər muğam ifa olunsun, istərsə də hər hansı bir melodiya, bu zaman sol tərəfdə dəm tutulur. Bu da ifa olunan melodiyanın kökünü, əsasını, tonikasını təmin edib ümumi ahəngə xidmət etməklə bərabər mövzunun təsir qüvvəsini artırır. Melodiya daha şirin, daha ahəngdar olur.

Dövr, zaman dəyişdikcə, ustad ifaçılar yetişdikcə qarmon ifası zamanı sol gövdədə səslərin (dəm, zur) daha çox işlədilməsi, unison və ya iki üç səsli səslənmə və yaxud da akkordlarla müşayiət ortaya çıxdı.

Azərbaycan qarmonu bütün dövrlərdə çalğı yolu, öz üslubu, öz səslənməsi, tembri ilə fərqlənib və seçilib. Musiqimizin əsas və aparıcı janrı muğam olduğu üçün hər bir zaman Azərbaycan qarmonunda muğam ifa olunmuşdur. Muğam isə incə, zərif duyğularla, o cümlədən emosianal, xırdalıqlarla (tremola), melizmlərlə, təsirli barmaq oynatmaları, cəld sıçrayışla sürüşdürmələrlə, lal barmaqla ifa olunduğu üçün qarmonumuz zəngin səslənir və nəinki vətənimizdə, hətta dünyanın çox ölkələrində seçilir və qəbul olunur.

Əsas sirr qarmonun muğam ifaçılığından gəlir. Bu janrın qarmonumuzda alətin imkanlarına uyğun tərzdə səslənməsi, incəlik, zəriflik, sirr yaratması sevimli qarmonumuzu Qafqazda, Rusiyada çalınan qarmonlardan, hətta bütün dünyada istifadə olunan bayanlardan, akkardeonlardan, Pakistanda, bəzi ərəb ölkələrində ifa olunan harmonlardan tamamilə ayırır və yaxşı mənada fərqləndirir.

Kərbəlayi Lətif, İsa bəy, Kərbəlayi Abutalıb, Ələkbər Nəzərli və Əhəd Əliyevdən üzü bəri onların davamçıları olan T.Dəmirov, M.Ağayev, A.Abbasov, S.Hüseynov, Q.Dadaşova, S.Vəzirov, İ.Coşqun, Ə.Ağayev, Y.Yusifov, M.Vəlixanov, R.Şıxlarov kimi ifaçıların sırasına müasir qarmon sənətçilərini də əlavə etsək, cəsarətlə deyə bilərik ki, qarmonda muğamların peşəkar ifası, öz düzgün və davamlı yolunu tutmuşdur. Qarmonun Azərbaycanda təşəkkül tapdığı ilk dövrlərdə bu alətdə muğamların ayrı-ayrı şöbə və guşələri, diringilər, oyun havaları çalındığı halda bu gün bu ifaçılıqda muğam tamam-kamal, dəstgah halında təqdim oluna bilir. Bütün bunlar usta qarmonçalanlarımızın çalışqanlığı, ölkəmizdə fəaliyyət göstərən musiqi təhsili ocaqlarında qarmon ixtisası tədrisinin yaxşı işi, uğuru nəticəsində əldə olunmuşdur.




Bakı Musiqi Kollecinin 3 oktavalı tədris qarmonu




Qafqaz qarmonu




Rus qarmonu



Qaraçay-Çərkəz qarmonu




Çuvaş xalqının aləti - karmun



"Veltmeister" markalı qarmon




"Belarus" markalı qarmon




Tulada istehsal olunmuş rus qarmonu




"Vignoni" markalı qarmon




Sifarişlə hazırlanmış rus qarmonu




Avstriya qarmonu



"Müller" markalı alman qarmonu



"Müller" markalı alman qarmon




Ukraynanın "Mriya" markalı qarmonları



Gürcü qarmonu




Gürcü qarmonu




Nijeqorodsk şəhərində hazırlanan qarmon



Tatar qarmonu



"Vyatskaya" qarmonu



Vyatsk şəhərində hazırlanan "İvuşka" qarmonu

IV FƏSİL.
AŞIQ DƏSTƏSİNƏ QARMON İFAÇILARININ DAXİL OLMASI

XX əsrin 60-cı illərindən başlayaraq Şirvan aşıqları öz dəstələrinə qarmonçalanlar da dəvət etdilər. Aşıq Qurbanxan, Aşıq Pənah, Aşıq Valeh, Aşıq Ramiz, Aşıq Şakir, Aşıq Məmmədağa, Aşıq Bəylər, Aşıq Barat, Aşıq Əhməd, Aşıq Yadulla, Aşıq Vəfalı, Aşıq Kamil, Aşıq Vahab və başqaları toy məclislərinin müəyyən saatlarında əsasən qarmonçalanlara meydan verirdilər. Yuxarıda qeyd olunmuş illərdə Şirvan aşıq məktəbinin nümayəndəsi olan aşıqlar Salyan, Neftçala, ƏliBayramlı (haz. Şirvan), Sabirabad, Kürdəmir, Saatlı, İmişli, Cəlilabad, Biləsuvar, Masallı, Astara, Lənkəran, Lerik, Yardımlı rayonlarında, həmçinin Bakının kəndlərində tərkibində qarmonçalan olan dəstələrlə çalıb-çağırardılar.

Aşıqlar Şamaxı, Ağsu, İsmayıllı, Oğuz, Qəbələ, Quba, Xaçmaz və s. bölgələrə toylara gedəndə ənənəvi aşıq dəstəsiylə çıxış edərdilər. 1970-ci illərdən aşıqlar bu yerlərə də heyətlərinə qarmonçalan əlavə etməklə gəlməyə başladılar.

Salyanın məşhur aşıqları Aşıq Pənah və Aşıq Qurbanxanın 1950-ci illərin ortalarından etibarən öz bölgələrində Salyan və Neftçalada idarə etdikləri toylara tanınmış qarmonçalan Rza Şıxlarovu gətirməsi də bir faktdır.

Bilirik ki, XX illərin 60-cı illərinə qədər Şirvan aşıqlarının toy dəstələrində 2 balabançı (solist və dəmkeş) olardı. Balabançılar həm də zurna çalardılar. Aşıq dəstəsi gəldikləri el-obaya, kəndə, qəsəbəyə daxil olanda zurna çalardılar. Toy qapısında, həmçinin gəlin gətirməyə gedəndə zurna havaları səsləndirilərdi. Bir də, axşam mağarda toy başlananda zurnaya üstünlək verilərdi. Aşıq dəstəsində bundan başqa dəf (qaval) və ya nağaraçalan, həmçinin qoşanağaraçalan (qoşa dümbək) olardı.

Qarmonun aşıq dəstəsinə gəlməsinin obyektiv səbəbləri var idi. Belə ki, efirdə tez-tez səslənən qarmonun ecazkar, şux səsi insanları özünə cəlb etmişdi. Həm də qarmonla ifa olunan xalq oyun havaları, yeni bəstələnən "sümüyə düşən" rəqs melodiyaları xoşa gəlirdi, zövqləri oxşayırdı. Bölgələrdə qarmonçalanlar var idı ki, onlar xanəndə dəstəsi ilə çalır, təzə eşidilən efir musiqilərini də təqdim edirdilər. Xalq qarmonun səsini xoşlayırdı. Toya gələnlər efirdə qarmon ifasında eşitdikləri havalara elə qarmon çalğısı ilə də rəqs edirdilər.

Qarmon üçün yaradılmış melodiyalar sazda, zurnada, balabanda alınmırdı. Zurna, balaban üçün yaradılmış el havalarını isə təbii ki, həmən alətlərin ifasında eşitmək və rəqs etmək daha xoş idi.

Bu da bir həqiqətdir ki, müğənnilərimizin ifasında televiziya və radioda səslənən bəstəkar mahnıları xalqın könlünü oxşamışdı. O dövrdə Tofiq Quliyev, Arif Məlikov, Fikrət Əmirov, Telman Hacıyev, Ramiz Mirişli və Şəfiqə Axundovanın mahnılarının bəziləri artıq toyların repertuarına da daxil olmuşdu. Xüsusilə qeyd olunmalıdır ki, Ələkbər Tağıyevin Zeynəb Xanlarovanın ifasında səslənən və bütün xalq tərəfindən sevilən mahnıları toyların əsas mahnı repertuarını təşkil edirdi. O cümlədən, Ə. Tağıyev kimi həvəskar bəstəkar sayılan, istedadlı musiqiçilər Şahid Əbdülkərimov və Bəhram Nəsibovun bəstələdiyi, müğənnilər Nəzakət Məmmədovanın, İslam Rzayevin, Süleyman Abdullayevin, Baba Mahmudoğlunun, Teymur Mustafayevin ifasında eşidilən mahnı və təsniflər toylarda daim səslənən mahnılar idi.

Aşıq dəstələrinin hamısında ənənəvi olaraq xanəndə çıxış edirdi. Xanəndə aşığın oxuduğu havacatların nəqarətini tutardı. Artıq XX əsrin 60-70-ci illərində toylarda Şirvan aşıq dəstəsinin xanəndələrindən dövrün dəbdə olan ən müasir mahnı və təsniflərini oxumaq tələb olunurdu. Bu



Aşıq Pənah dəstəsi ilə kənd zəhmətkeşləri qarşısında konsertdə



Aşıq Qurbanxan kənd zəhmətkeşləri üçün konsert verərkən



Aşıq Bəylər dəstəsi ilə kənd mədəniyyət evində konsertdə. 1950-ci illər



1968-ci il. Aşıq Qulam öz dəstəsi ilə toy həyətində



XXI əsr. Aşıq Əhliman dəstəsi ilə el şənliyində



XXI əsr. Aşıq Əhliman ansamblı ilə konsertdə

mahnı və təsniflərin, rəqs melodiyalarının əksəriyyəti oktava, bir oktava yarım, iki oktavaya yaxın səs düzümü həcmində yaranmışdı. Bu bir həqiqətdir ki, sazımızın, balabanımızın bu cür mahnıları və oyun havalarını müşayiət etmək və çalmaq imkanları yoxdur. Artıq XXI əsrdə düzəldilən balabanlarımızın imkanları isə xeyli genişləndirilib.

Aşıq balabanlarının boyu qısa olur. Belə balabanın səs diapazonu kiçik oktavanın "lya" səsindən 2-ci oktavanın "re" səsinə qədərdir. "Re" səsini isə bütün ifaçılar görütə bilmirdi.

Sazımızın imkanları isə əzəl gündən hikmətli, sirli-sehirli, həmişəyaşar saz havaları üçün düzənlənib. Saz özünə aid bütün havaları geniş imkanlı göstərə bilir və təklikdə özü bir orkestri xatırladır.

Şirvan aşıq yaradıcılığında hələ ta qədimlərdən saz və balabanın birlikdə çox gözəl səslənməsi yaradılıb. Şirvan aşıq havalarını bu alətlərdə cazibədar səsləndirib aşıqları müşayiət edirdilər.

Aşıq dəstəsinə qarmonun gətirilməsi sazın, balabanın, qarmonun birlikdə ansambl şəklində Şirvan havalarının ecazkar səslənməsini yaratmışdı. Qarmona məxsus havalarda isə alətin ifaçısı solist idi. Aşıq dəstəsinə daxil olan qarmonçu oyun havalarının hamısını çalır, xanəndənin oxuduğu muğam hissələrini təsnifləri və mahnıları müşayiət edirdi.

Qarmonumuzun "si" kökündə olmasındandır ki, aşıq xanəndələri qarmonun müşayiətilə oxumağa can atırdılar. Demişik ki, "si" kökündə oxumaq xanəndə üçün əlverişlidir. 1970-ci illərin ortalarından başlayaraq aşıq dəstəsində çalınan zurna alətini də "si" kökündə hazırlamağa başladılar. Zurna Azərbaycan musiqisinə "si" kökündə yenidən vəsiqə aldı.

Qarmonun sol gövdəsində müşayiət səsləri olduğu üçün çox havalarda qarmonçalanlar zurna çalğısını da müşayiət edirdilər. Sağdakı səs imkanlarından istifadə edib melodiyanı çalaraq zurna ifaçısının çaldıqlarına qoşulmaqla bərabər, sol klaviaturadakı səslərlə (zur) dəm tutub ümumi ahəngə rövnəq verirdilər.

Bütün bunlar barədə təfsilatı ilə yazmağımızın səbəbi vaxtilə toy şənliklərinin özəyi-bəzəyi, aparıcı qüvvəsi olan aşıq sənətinin mənzərəsini geniş oxucu kütləsinin gözləri qarşısında yaratmaq, adət-ənənələrimiz haqqında gənc musiqicilərimizə məlumat verməkdir. Həm də bir daha sübut etmək istəyirik ki, qarmon musiqi həyatımıza, məişətimizə və mədəniyyətimizə daxil olmuş əsas və aparıcı qüvvəyə çevrilən musiqi alətlərimizdən biridir. Düzdür görkəmli musiqiçi, alim Zakir Mirzə öz elmi işində və 2005-ci ildə nəşr etdirdiyi "Azərbaycan qarmonu" monoqrafiyyasında bu alətin imkanları, ifa xüsusiyyətləri, onun xalq çalğı alətləri ansamblı və orkestri tərkibində rolu barədə maraqlı fikirlər söyləmişdir. Biz isə təkrarçılığa yol verməmək şərtilə qarmon sənətinin işıqlandırılmayan cəhətlərini açmağa çalışırıq.


Beləliklə qarmon ifaçılığı peşəsinin Şirvan aşıq sənəti ilə bahəm fəaliyyəti Qərb aşıqlarının da toylarımızdakı çal-çağırına sirayət etmişdir. Tovuz, Gədəbəy, Şəmkir, Qazax, Borçalı aşıqlarının dəstələrinə qarmonçalanın əlavə edilməsi 1970-ci illərin ortalarından, 1980-ci illərin əvvəllərindən başlayır. Bu həmən bölgələrdəki toylarımızda oyun havalarına, müasir musiqi nümunələrinə olan tələbatdan irəli gəlirdi. O bölgələrdəki qarmonçular Qərb aşıq havacatları və saz havalarının hamısını bütün incəliklərinə qədər bilir və böyük ustalıqla ifa edirlər. Onlar bu musiqi nümunələrini elə məharətlə, rəngarəng boyalarla təqdim edirlər ki, heyran qalmamaq olmur. Bu ifaçıların saz havalarını yüksək peşəkarlıqla çalmaları elə fikir yaradır ki, sanki bu melodiyalar qarmon üçün düzənlənib.

Belə bir məntiqi nəticə alınır ki, qarmonumuzda nəinki Azərbaycan, hətta dünya bəstəkarlarının əsərlərilə yanaşı, milli musiqimizin bütün janrlarına aid melodiyalar, həmçinin aşıq havaları layiqincə səslənir.

Saz havası "RUHANİ"

Qarmonda Əhsən Rəhmanlının ifasında
Nota köçürən Gülşən Mirzəbəyova





V FƏSİL.
XX ƏSRDƏ YARANMIŞ MUSİQİ ÜÇLÜYÜ
(qarmon, klarnet və nağaraçalandan ibarət üçlük-trio)

Bütün yazılı mənbələrdə "Ənənəvi klassik şərq üçlüyü" kimi göstərilən və dilimizdə işlədilən bu termin əslində "Ənənəvi Azərbaycan muğam üçlüyü" və yaxud "Azərbaycan klassik muğam üçlüyü" adlansa daha düzgün və məntiqli olmazmı? Sonuncu ad daha düzgün, məntiqli və əsaslıdır.

Deməliyik ki, bütün Şərq ölkələrindəki muğam ifaçılarının, xanəndələrin musiqi heyəti üzvlərinin sayı müxtəlifdir. Ərəblərin, farsların, kərküklərin, özbəklərin, taciklərin, türkmənlərin, uyğurların, hindlilərin və pakistanlıların muğam ifaçılarının ansambl üzvlərinin sayı müxtəlif cürdür.

Bizdə muğam adlanan musiqi janrı farslarda dəstgah, ərəblərdə və türklərdə makam, uyğurlarda və türkmənlərdə mukam, özbəklərdə və taciklərdə makom, pakistanda xəyyal, Hindistanda raqa, Şimali Afrika ölkələrində istixbar, nuba adlanır və s. və i.a.

Hər xalqın dialektinə uyğun müxtəlif adlarla adlanan, lakin Qoca Şərqin ortaq musiqisi və aparıcı janrı olan muğam hər bir xalqın öz musiqi alətlərilə müşayiət olunur. Nəzərə çatdırırıq ki,



Ənənəvi Azərbaycan musiqi üçlüyü. Xalq artistləri x.a. M.Müslümov, x.a. F.Dadaşov və M.Həsənli



Əməkdar artist Elşad Cabbarovun (ortada) zurnaçılar üçlüyü



Şəkili Əliəfsər (ortada) öz dəstəsi ilə

adları çəkilən xalqların muğam oxuyanını, xanəndələri bir, iki və ya üç musiqiçi yox, daha çox üzvü olan heyətlər müşayiət edə bilərlər.

Qəbul olunduğu, ənənəvi forma aldığı kimi "Azərbaycan muğam üçlüyü" xanəndə (həm də qaval çalır), tarzən və kaman ifaçısından ibarətdir. Belə bir məntiqi nəticə çıxır ki, bizdə bu söz "Ənənəvi Şərq üçlüyü" deyil, "Ənənəvi Azərbaycan muğam üçlüyü" adlanmalıdır.

Doğma vətənimizdə Azərbaycan klassik muğam üçlüyündən başqa zurnaçılar dəstəsi də olmuşdur ki, bu cür musiqi heyətləri müharibə zamanı döyüşdən öncə, möhtəşəm idman tədbirlərində, yarışmalarda əzəmətli havalar, "Cəngilər", "Koroğlu"lar çalar, bütün xalq şənliklərində və bayram tədbirlərində çıxışlar edər, toyların əsas aparıcı musiqiçi dəstələri olardılar.

Belə üçlükdə iki zurnaçı və bir nağaraçı vardı, Zurnaçının biri solist, melodiya çalan, digəri isə dəm tutan (dəmkeş) olur. Bəzi bölgələrdə, əsasən Muğanda "zu tutana, "zuçu deyirlər. Nağaraçı isə bu aləti iki çubuq (conbaq-çubuq) vasitəsilə çalardı. (Muğanda, cənub bölgəsində qoşa zurnanı dəf və qoşanağara müşayiət etmişdir).

"Zurnaçalanlar üçlüyü" Azərbaycanın bəzi yerlərində bu gün də qorunub saxlanır.

Azərbaycanda "balabançılar üçlüyü" də olmuşdur. İki balabançı və bir nağaraçıdan ibarət bu musiqi üçlüyünün yaranmasının tarixi qədimlərə gedib çıxır.

XIX əsrin ikinci yarısından XX əsrin ortalarına qədər olan bir zamanda belə "üçlük"lər əsasən Bakıda və onun yaxın ətrafında çalıb-çağırmışlar.

İki balabançının biri solist, digəri dəmkeş (dəm tutan) olardı. Üçüncü musiqiçi nağaraçalan aləti əllərilə çalır, daha doğrusu çırtmalarla balabanı müşayiət edir ki, solist balabançının melodiyasını dinləyici aydın eşitsin. "Balaban-nağara üçlüyü" toylarda qurulmuş mağarlarda (çadırlarda) və ya otaq şəraitində keçirilən toy-nişan məclislərində çalardı. Əksər hallarda bu üçlüyün müğənnisi elə nağaraçalanın özü olardı. Belə musiqi üçlüyünü yenidən ortaya çıxarmaq borcumuz olsun.

Bu mövzumuzun başlığına nəzər salaq. Yəni, milli musiqimizdəki qarmon, klarnet, nağara üçlüyündən danışaq. XX əsrin əvvəllərindən başlayaraq nəfəs aləti klarnetin Azərbaycanda ifaçıları meydana gəldi. Klarnetçalan yanında balabançalan (yəni dəm tutan) və nağaraçalan olardı. Bu üçlük şirni içilmə, nişan, toy məclislərində çalıb-çağırardılar. Həmçinin dövlət bayramlarıyla bağlı nümayişlərdə də belə üçlüklər şən ovqat yaradırdılar. Bu musiqi dəstələri 1941-1945-ci illər müharibəsinə qədər, ondan sonrakı dövrlərdə əsasən Bakı şəhərinin özündə və ona yaxın kənd və qəsəbələrdə şadlıq məclislərinin carçıları idilər. Həmin dövrlərdəki qarmon-qaval dəstələrinin fəaliyyəti barədə kifayət qədər danışmışıq.

Respublikamızda ilk dəfə 1939-cu ildə Lənkəran şəhərində yeni bir "musiqi üçlüyü" yaradılıb. Bu üçlüyü klarnetçi Nəsir, nağaraçı Nurəddin və qarmonçalan Mahmud Xalaoğlu birləşərək ortaya çıxarıblar. Bu heyət Lənkəran bölgəsinin şənliklərində, bayram tədbirlərində, toy-nişan məclislərində çalırmış.

1941-ci ildə başlanan müharibə 1945-ci ildə sona yetənə qədər bu "trio" (üçlük) fəaliyyətini dayandırmalı olmuşdur. Çünki müharibənin ağır illərində SSRİ məkanındakı bütün xalqlar kimi bizim də millətimizin maddi, mənəvi və psixoloji durumu müharibəyə uyğun olduğu üçün, toy-büsat əhval-ruhiyyəsi yox idi. SSRİ xalqlarının hamısı, "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" devizinə xidmət edirdi.

Müharibə bitəndən, dinc dövr başlanandan sonra Lənkərandakı bu "musiqi üçlüyü" yenidən xalqın çal-çağırına, toy-büsatına rövnəq vermişdir. Beləliklə bu heyət 1970-ci illərə qədər fəaliyyətdə olmuşdur. Sonra həmin dəstənin qarmonçalanı Mahmudun oğlu Ağaəmi olmuşdur. Çünki, artıq Mahmud Xalaoğlu dünyasını dəyişmişdi. (Qeyd: Bizə bu üçlük haqqındakı məlumatı mahir qarmonçu Hacı Abutalıb Sadıqov (1945-2008) vermişdir).



Klarnetçalan Əlməxtar Novruzovun musiqi üçlüyü (Bakı şəhəri)



Klarnetçalan Balahüseyn Həsənov öz musiqi üçlüyü ilə el şənliyində (Binəqədi qəsəbəsi)

1960-cı illərin əvvəllərindən Salyan və Neftçala bölgəsində, toylarda artıq qarmon, klarnet, nağara dəstəsi çalırdı. Az sonra belə musiqi üçlükləri Əlibayramlı (haz. Şirvan), Sabirabad, Saatlıda da yarandı. Belə dəstələr qız toylarında çalır (xanəndəsiz, yalnız üç nəfər), oğlan toylarında isə xanəndənin dəstəsində çıxış edirdilər.

Xaçmaz, Quba və Siyəzəndə də belə üçlüklər yaranaraq toy-büsatın aparıcı qüvvəsinə çevrildilər.

Klarnetlə qarmonun birlikdə xalq havalarını ifa etməsi həm yenilik, həm də təsirli, könül oxşayan və cəzbedici idi.

Televiziya və radioda tez-tez səslənən bəstəkar mahnılarının klarnet-qarmon dəstəsində toylarda çalınması elə bir gözəl ovqat yaratmışdı ki, məclisə gələnlər belə musiqilərin sədasına və ritminə oynamağı, rəqs etməyi çox xoşlayırdılar.

Həmin dövrdə Bakı şəhərində də bəzi hallarda qarmon, klarnet, nağara dəstəsi toy-nişan məclislərində görünürdü.

Çox sonralar 1968-70-ci illərdə mahir və yenilikçi ifaçılar Aftandil İsrafilov (qarmon), Vəli Qədimov (klarnet), Tahir Hüseynov (nağara) üçlüyünün ifasında Azərbaycan radiosunda rəqs havalarının tez-tez səslənib hamı tərəfindən sevilməsi belə dəstələrin sürətlə artıb-çoxalmasına şərait yaratdı. Bölgələrdəki musiqiçilər də bir yerə toplanıb hərə öz rayonunda, qəsəbəsində bu cür musiqi üçlükləri ortaya çıxartdılar. Ölkəmizin əksər rayonlarında toylara qarmon, klarnet, nağara dəstələri çağırıldı.

Aftandil İsrafilov,Vəli Qədimov, Tahir Hüseynov üçlüyünün lentə alınıb radioda səslənən "Natiqi", "Siyəzən", "Xəzəri", "Bahar", "Arzu", "Qazağı", "Toy"(C.Cahangirov) rəqsləri o qədər gözəl, məharətli, məlahətli və cəlbedici idi ki, bu heyət az vaxt içərisində tamam məşhurlaşdı. Onların çaldıqları bütün melodiyalar toylarımızın oyun havalarına çevrildilər.

Bir neçə ildən sonra məşhur musiqiçilər Əşrəf Əşrəfzadə (klarnet), Teyyub Teyyub oğlu (qarmon), Rafiq Budaqov (nağara) üçlüyünün radionun fondu və qrammafon valında yazılan "Həyati","Fikrəti", "Qoçəli", "Vağzalı", "Müşviqi" və s. rəqsləri də tez-tez səslənərək musiqi duyumlu insanların qəlbinə yol tapdı və hər yerdə dəbə düşdü. Ə.Əşrəfzadənin bu dəstəsinə bir balaban çalan (dəmtutan)da əlavə olunmuşdu.

Mahir musiqiçilər kimi tanınan klarnetçalan Adil Bayramov, qarmonçu Zakir Mirzəyev də birlikdə radioya "Bəxtəvəri", "Sevinci" və s. rəqs havaları yazdırdılar. Bütün bunlar çox yaxşı ifalar olduğu üçün intişar tapdılar, həssas qarşılandılar. Deməyə borcluyuq ki, "Sevinci" rəqsi uzun illər toy repertuarında yer aldı. Rəqsin melodiyası Zakirin atası, balabançı kimi çox mahir Qulam Mirzəyevindir.

1970-ci illərin ikinci yarısında klarnetçi Ələkbər Əsgərov, qarmonçu Hüseyn Həsənov, nağaranın ən mahir ifaçısı Zöhrab Məmmədov birlikdə radionun fondu üçün "Qazağı", "Natəvanı", "Zöhrabı" rəqs melodiyalarını yazdırdılar. Ustad sənətkar Ə.Əsgərov klarnet, balaban, tütəyin ən nadir ifaçısı və əvəzsiz musiqiçi idi.

Adını çəkdiyimiz bu musiqi üçlüyü 1970-ci ildən etibarən toylarda, konsertlərdə və digər şənliklərdə hünərli, bacarıqlı və çox şöhrətli fəaliyyətdə idilər. Hələ bu üç musiqiçi 1968-ci ildə ustad xanəndə Əlibala Məmmədovun yaratdığı və özünün rəhbəri və müğənnisi olduğu "Humayun" xalq çalğı alətləri ansamblının üzvləri və solistləri kimi də çox sevilirdilər. Onların hər birinin ansambl tərkibindəki lent yazılarında və televiziyadakı canlı konsertlərdə xüsusi solo çıxışları olardı.

Danışdığımız mövzuya əsasən misilsiz sənətçilər Zakir Mirzə və Ələkbər Əsgərovun sənət əlaqələrini xüsusi vurğulamalıyıq.

1967-ci ildən etibarən Ələkbər, Zakir və Zöhrabın konsertlərdə, toylarda olduqca peşəkar, həddən artıq maraqlı və bir-birini tamamlayan ifa nümayiş etdirmələri o dövrü yaşayıb görənlə-



Ağstafada musiqi üçlüyü. Klarnetçalan Mikayıl Xəlilov öz dəstəsi ilə toy şənliyində



Bakı. Qarmon, klarnet, nağara üçlüyü. Soldan: Heybət Babayev, Əlimuxtar Novruzov və Musa Həsənov



Fərhad Hüseynovun (ortada) balaban üçlüyü. Nağaraçalan Tahir Hüseynov, balaban ifaçısı Emin Yılmaz

rin yaxşı yadındadır. Bu sənətkarlar bir yerdə olanda bir-birinin həvəsinə, bir-birinə qarşılıqlı hörmət olaraq, sual-cavab cümlələrlə, həm də bəhəm elə çalardılar ki, hər ifa bitkin əsər kimi alınardı. Bunu sözlə ifadə etmək çətindir. Gərək o anları yaşayaydın, gözünlə görəydin və dinləyəydin.

Əgər həmin çıxışlar və ifalar lentlərə alınıb qorunub saxlansaydı bu gün gənc musiqiçilər onların sənətindən çox şey əxz edib öyrənə bilərdilər. Bədahətən gələn bu ifalar hər bir anda alınmır axı. Həmçinin o ifaların audio və video lentləri yaradılıb dünyanın musiqi elmi daha inkişaf etmiş ölkələrinə göndərilsəydi maraqla qarşılanar və oranın bəstəkarları bədahətən, qəfil təbdən, yaşantıdan yaranan, qəfildən beyinə, fikrə, düşüncəyə gələn və o andaca çalınıb təhvil verilən bu musiqi nümunələri əsasında zəngin əsərlər yazardılar. Necə ki, Azərbaycanımızın ən nəhəng bəstəkarları ustad xanəndələrimizdən, ən peşəkar instrumental ifaçılarımızdan dinləyib öyrəndiklərindən bacarıqla istifadə edib sinfonik əsərlər yaratmışlar.

Həyatda, cəmiyyətlə, dünyada hər şey sadədən mürəkkəbə, asandan çətinə doğru getdiyi kimi 1939-cu ildə Lənkəran şəhərində yaradılan "klarnet, qarmon, nağara üçlüyü" 1970-ci illərdə Ə.Əsgərov, Z.Mirzəyev və Z.Məmmədov musiqi üçlüyü ilə öz zirvəsini tapdı.

Bu gün də əksər toy dəstələrində sintezator, gitara, skripka və s. alətlərin özünə yer almasına baxmayaraq klarnetçalanla birlikdə qarmonun salğısı xüsusi əhəmiyyət kəsb edir.

Bütün xalq çalğı alətləri ansambllarında, o cümlədən əksər instrumental heyətlərdə qarmon özünə mühüm yer tutur və onun xalqımıza doğma və məhrəmanə səsi ümumi ahəngə xidmət edərək ruhumuzu oxşayır.

VI FƏSİL.
MÜASİR AZƏRBAYCAN QARMONUNUN BİR DAHA TƏKMİLLƏŞMƏSİ BARƏDƏ

Qarmon ifaçısı, müəllim və yaradıcı şəxs olaraq təklif edirik ki, bu alətin ifa imkanlarının, daha böyük nailiyyətlərin əldə olunması naminə üç oktavalı qarmonların hazırlanmasına başlanılsın. Alətin sol tərəfi rekonstruksiya edilsin. Burada xeyli dəyişikliklərə ehtiyac var. Yəni alətin sol tərəfdə səs ardıcıllığı elə olmalıdır ki, bir düymənin basılması ilə müəyyən akkordlara nail olunsun. (bayanlarda, akkordeonlarda, Şimali Qafqaz xalqlarının istifadə etdikləri bəzi mükəmməl qarmonlarda olduğu kimi)

Təbii ki, qarmonumuzun sol tərəfində qeyd etdiyimiz səs sistemini yaratmaq xeyli çətinlik törədəcək. Belə ki, muğamlarımızın və milli musiqi inciləmizin ifası zamanı sol gövdədə dəm (züy) tutmaq üçün iki sıranın olması vacibdir.

İxtisaslı qarmon müəllimlərinin bu alətlərin düzəldilməsi və təmirilə məşğul olan ustalarla ciddi söhbətləri, izahları, mükalimələri, əsaslı təklif və göstərişləri, müəyyən elmi izahları ilə qarmonun bir daha təksmilləşməsinə nail olmaq mümkündür.

Qarmonun sol tərəfində istifadə olunacaq səs düzümünün mexanizmi elə incəliklə, ustalıqla mükəmməl düzəldilməlidir ki, ifa zamanı unison səslər və akkordları səsləndirmək istədikdə bunlar bir-birinə mane olmasın. Burada registrlərin tətbiqi hər şeyi həll edə bilər. Rekonstruksiyanı etmək üçün istedad, zehni iş, ixtira lazımdır. Əminik ki, bu işləri bacarıq və ustalıqla yerinə yetirəcək Azərbaycan övladları tapılacaq.

Zəkalı başlar, düşünən beyinlər, qurub-yaradan insanlar sevimli musiqi alətimiz qarmonun təkmilləşməsi və daha mükəmməl alətə çevrilməsi üçün bacarıqlarını göstərməlidirlər.

Kitabımızda söylədiyimiz kimi 7 dilli (və ya düymәli), yarımpərdəsiz olaraq çalınmağa başlanan qarmonlarımız on iki, on dörd, on altı, on səkkiz, bəzi hallarda on doqquz və iyirmi bir dilli olaraq inkişaf yolu keçmişdir.

Muğamatımızda, bütünlüklə isə Şərq musiqisində 1/4 tonlar («çetvert ton»lar) mövcud olmuşdur. XX əsrin 20-ci illərindən sonra Azərbaycanda 1/4 tonlardan çox az, ərəb, fars, türk musiqisində və bir sıra Şərq ölkələrində isə geniş şəkildə istifadə etmişlər və bu iş bu gün də davam edir.

Azərbaycan qarmonlarının sol gövdəsində səs düzümü tətbiq olunandan sonra ifaçılarımızın təklifi ilə ustalar alətin sağ tərəfindəki səs düzümünə 1/4 tonlar (çerverlər) da əlavə etmişlər.

Şərq səsdüzümü (çervert tonlu) qarmonlardan geniş şəkildə istifadə olunmasa da, bəzi peşəkarlarımızda bu alətlər olmuşdur. Lakin həmin ifaçılar belə qarmonlarla radio üçün lent yazmamış, televiziyada çıxış etməmişlər. Bunun obyektiv səbəbləri olmuşdur. Belə ki, Sovet dövlətinin qadağalarına əsasən Şərqin səs sisteminə uyğun əsərlərin səslənməsinə icazə verilmirdi. İlk dəfə bu alətin imkanlarını geniş şəkildə Hüseyn Həsənov nümayiş etdirmişdir. O, bəzi melodiyaları radio və televizya verlişlərində, konsretlərdə ifa etmişdir. Qarmonumuzun üç oktavalı səs həcmində olması, sol tərəfdə xüsusi dəyişikliklər edilməsi barədə fikirlərimiz etirazla qarşılana bilər. Çünki, o zamanlar alət həcmcə böyük, çəki cəhətdən ağır olacaq. Lakin bizim fikir və təkliflərimiz gələcəkdə özünü doğruldacaq. Bu labüddür.

Azərbaycan Milli Konsertatoriyası tərkibində Musiqi Kollecinin xalq çalğı alətləri şöbəsində çalışan qarmon müəllimlərinin tədrislə bağlı yığıncaqlarında bu alətin təkmilləşməsi barədə deyilən fikirlər bəziləri tərəfindən etirazla qarşılanıb. Bəzi musiqiçilər isə öz mövqelərini ortaya qoyaraq bizim məntiqli təkliflərimizlə razılaşdılar. Qəribə burasındadır ki, etiraz səslərini ucaldanların bir neçəsi qarmonun ixtisas-not üzrə dərs deyənlərdir. Halbuki, bizim yeni fikirlərimiz bilavasitə onların tədris işinə təkamül gətirə bilər. Deməliyik ki, Q. Qarayevin, R. Hacıyevin, S.Rüstəmovun, S. Ələsgərovun, H. Xanməmmədovun, T.Bakıxanovun, V.Adıgözəlovun və bu kimi digər bəstəkarlarımızın, o cümlədən rus və Avropa bəstəkarlarının əsərlərinin qarmon ixtisası üzrə tədris olunmasında üç oktavalı alətə və onun soldakı akkordlu sisteminə böyük ehtiyac duyulur.

İstədiyimiz alət yaradılsa həmin qarmonların imkanlarını nəzərə alaraq bəstəkarlarımız məxsusi əsərlər yazacaqlar. Yazılacaq əsərlərdə sol əlin müşayiəti də göstərilməlidir. Qarmon ixtisası üzrə not əsərlərinin bu günkü tədrisində müəllimlərimizin əməyi xüsusilə qiymətləndirilməlidir.

Tədris üçün əsərləri kolleclərin, Mədəniyyət və İncəsənət Universitetinin qarmon ixtisası müəllimlərinin özləri seçib müəyyənləşdirirlər. Bu əsərlərdə yalnız sağ əlin ifası üçün not yazıları göstərilib. Sol əlin ifasını, müşayiəti isə müəllim öz bacarığı və peşəkarlığı nəticəsində təyin edir. Çətin, çevik not əsərlərinin ifası zamanı tələbə müəllimin göstərdiyi kimi sol tərəfdəki səslərlə özünü müşayiət edir. Müşayiət iki səsli, üç səsli, bəzən dörd səsli olur. Çətinlik də elə burada meydana çıxır. Müşayiət üçün lazım olan (düymələr) məsafəcə bir-birindən xeyli aralıda olduğu üçün, həmin düymələri (səsləri) sol əlin barmaqları ilə lazım olan anda, cəld tapıb yerindəcə işlətmək doğrudan da çətinlik törədir. Əlbəttə müəllimlərimiz və tələbələrimizin qabiliyyəti, azmkarlığı nəticəsində əsərlərin sol əl ilə müşayiəti təmin edilir. Bu əsl ustalıqdır.

Böyük əminliklə demək mümkündür ki, heç bir xalqın musiqiçiləri yuxarıda qeyd etdiyimiz çətinliyin öhtəsindən gələ bilməzdilər. Xalqımızın övladlarının istedadlı olması burada da bir daha özünü göstərir. Fikirlərimizi əsaslandıraraq bu qənaətdəyik ki, qarmonun daha peşəkar, dolğun və ustalıqla ifa olunması üçün alətin təkmilləşməsi yoluna qədəm qoymalıyıq.

Bir məsələni də yada salaq. Hər hansı bir alətlə ifa olunan əsərlərin fortepiano müşayiəti var. Bunlar əsərlərin fortepiano partiyalarında göstərilib. Müəllimlər fortepiano ilə olan müşayiəti eynilə qarmonun sol əllə lazım gələn çalğısında (müşayiətində) istifadə edir. Yaxud da akkordeon üçün bəstələnmiş əsərlərin qarmon tədrisində istifadəsi zamanı həmin alətin müşayiəti üçün göstərilən akkordlar qarmonun sol tərəfi üçün tətbiq olunur. Bütün bunlar dediyimiz kimi xeyli çətinliklərlə başa gəlir. Çətinliklərin səbəbini açıq-aydın bu mövzumuzda göstərmişik.

Qarmonun sol tərəflə (düymələrlə) müşayiəti zamanı beşinci (çeçələ) barmaqdan istifadə etmək olmur. Bu işdə üç barmaq (2-ci, 3-cü, 4-cü barmaq) əsas rol oynayır. Birinci barmaqdan (baş barmaq) nadir hallarda və çox çətinliklə istifadə olunur.

Qarmonun üç oktavalı olmasının bir əsası da vardır. Bu bilavəsitə muğam ifaçılığı ilə bağlıdır. Muğamların «Bərdaşt» şöbələrinin və ya zil pərdələrdə çalınan şöbə və güşələrin çalğısı zamanı çatışmazlıq, pərdə (səs) azlığı özünü büruzə verir. Xüsusilə ifaçı «Qatar», «Şahnaz», «Mirzə Hüseyn segahı», «Mahur-hindi» və başqa muğamları çalarkən qeyd etdiyimiz kəm-kəsirlərlə qarşılaşır. Belə ki, çalğı zamanı şöbə və güşələrdə oktavanın səsləri yarımçıq qaldığına görə ifaçı cümlələrin ardını tamamlamaq üçün orta oktavanın səslərinə, bəmə qayıtmalı olur.

Tarda, kamançada isə dediyimiz pərdə, oktava azlığı, çatışmazlıq yoxdur. Bu alətlərdə muğam ifası zamanı hər şöbə və güşəni öz pərdəsində, öz yerində tamam-kamal göstərmək olur. Qarmonumuzun oktavalarının artırılması ilə həm də not əsərlərinin, həmçinin muğamlarımızın yerlinə dolğun, aydın, bitkin və yetkin şəkildə ifasına nail olmalıyıq. Üç oktavalı qarmonu musiqi kolleclərindəki, Mədəniyyət və İncəsənət Universitetindəki tədris və peşəkar qarmon ifaçılığı üçün nəzərdə tutmuşuq. Uşaq musiqi məktəblərində tədris üçün istifadə olununan iki oktava yarım səsdüzümlü qarmonların (Kazan şəhərində istehsal olunan qarmonlar) sol gövdəsində rekonstruksiya edilməklə gələcək uğurlu işlərimizin bünövrəsi qoyula bilər.

Musiqi məktəbində təhsil alan uşaqların yaş həddi nəzərə alındığı üçün üç oktavalı qarmon yalnız peşəkarlığa hesablanır. Musiqi məktəblərində təhsil alanlar üçün yenə də əvvəlki kimi yalnız kiçik həcmli, iki oktava yarımlıq qarmonlar nəzərdə tutulur.

Qaldırdığımız məsələ ilə bağlı fikirlərimizin ustad sənətkarlarla, qarmon ixtisasının tədrisilə məşğul olan müəllimlərlə bölüşürük. Onların fikir, tövsiyə, iradlarını qəbul etmək üçün mükalimələrə hazırıq.

XX əsrin 60-cı, 70-ci illərində Rusiyanın Tula şəhərində ustalar ifaçılarımızın sifarişi ilə (sayı çox olmasa da) üç oktavalı qarmonlar hazırlamışdılar. İki oktava yarım səsə malik qarmonlarımıza "fa" səsindən sonra (aşağıya doğru) "sol", "lya", "si" səsləri əlavə olunmuşdu. Bu alətlərin çəkisi ağır olduğu üçün geniş təşəkkül tapmamış, yeni sifarişçiləri olmamışdı.

Tanımlı qarmon ifaçısı, əməkdar artist Ənvər Sadıqov qarmonumuzun təkmilləşməsi barədə düşünmüş, 2006-cı ildə usta Zahir Dadaşovla fikir mübadiləsi apararaq ona yeni qarmon hazırlatdırmışdır. Bu alətdə səslər qarmonun ilk "do" səsindən yuxarıya doğru artırılaraq "fa" səsində tamamlanmışdır. Alətə reqistr də tətbiq edilmişdir. Reqistr qarmonun sağ gövdəsində lap yuxarı hissəsində qoyulmuşdur. İsteadadlı qarmon ifaçımız bu çür iki qarmon düzəltdirmişdir. Onların biri "do", digəri "si" kökündədir. "Do" kökündə olan qarmon sinfonik, caz və kamera orkestrləri ilə ifa edilmək üçün nəzərdə tutulur. Ə.Sadıqov usta Vladimir Tarasovla yaradıcılıq əlaqələ

SON SÖZ ƏVƏZİ

Biz kitabı çırağa bənzətmək istərdik. Qoy bu kitab çıraq kimi öz nuru ilə sənət adamlarımızın ömür yolunu işıqlandırsın.

Səmimi olaraq oxucularımıza bildirmək istərdim ki, bu kitabı yazıb meydana gətirmək, bu işi yerinə yetirmək, musiqi sənətinə olan məhəbbətimdən, bir sıra qarmon ifaçılarının dəyərli xidmətlərindən, onlara olan böyük hörmətimdən, vermək istədiyim dəyərdən və içimdəki inamdan doğdu.

Doğrudan da mədəni irsi toplamaq, qoruyub saxlamaq və onu insanlara təqdim etmək, keçmiş nəsillərin mədəni yaddaşını gələcək nəsillərə ötürmək olduqca dəyərli işdir. Belə dəyərli və qiymətli işlərdə xidmətimiz varsa özümüzü xoşbəxt sayıb rahatlıq tapa bilərik.

Kitabda məşhurlarla bərabər istər tədrisdə, istərsə də ifaçılıqda az-çox xidməti olmuş, lakin barələrində heç bir yazılı mənbələrdə məlumat verilməmiş Bakı və əyalət qarmonçalanlarının ömür və sənət yolu haqqında da söz açmağa çalışdıq. Bakıda, Gəncədə və digər şəhərlərimizdə, el-obamızda elə gözəl sənətkarlarımız var ki, kitabımızda barəsində geniş məlumat verilməyə tam haqq-hüquqları vardır. Bütün dediklərimiz barədə yazsaq cild-cild kitablar yaranacaq. Bunları etməyə isə nə fiziki, nə də maddi vəsait imkanımız yoxdur. Bu sahənin gələcək tədqiqatlarını gənc musiqişünasların öhdəsinə buraxmaqla onlara böyük uğurlar diləyirik.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. Əfrasiyab Bədəlbəyli «İzahlı monoqrafik musiqi lüğəti», Bakı, «Elm», 1969.
2. Əvəz Rəhmətov «Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri», Bakı, «İşıq», 1980.
3. F.Şuşiniski «Azərbaycan xalq musiqiçiləri» Bakı Yazıçı, 1985.
4. Əhməd Bakıxanov «Ömrün sarı simi», Bakı, «İşıq», 1985.
5. Rəfael Hüseynov «Min ikinci gecə», Bakı, «Yazçı», 1988.
6. Ramiz Zöhrabov «Muğam», Bakı, «Azərnəşr», 1991.
7. Gülnaz Abdullazadə «Qədim və orta əsrlərin musiqi mədəniyyəti», Bakı, «Qartal», 1996.
8. Rafiq İmrani «Azərbaycan musiqi tarixi», I cild, Bakı «Elm», 1999.
9. Ağalar Əliverdibəyov «Rəsmli musiqi tarixi», Bakı, «Şuşa», 2001.
10. Abbasqulu Nəcəfzadə «Azərbaycan çalğı alətlərinin izahlı lüğəti» Bakı, 2004
11. Zakir Mirzəyev «Azərbaycan qarmonu» Bakı, «Adiloğlu», 2005
12. Fazil Cəbrayılov «Mədəniyyətə xidmət edən təhsil ocağı» «Vətən», Bakı, 2005.
13. Əlihüseyn Dağlı «Ozan Qaravəlli» Bakı, 2006.
14. Abbasqulu Nəcəfzadə «Xalq çalğı alətlərinin tədrisi metodikası», Bakı, «MBM», 2007.
15. Teyyub Dəmirov «Milli rəqslər və dəraməd lər», Bakı, «Adiloğlu», 2007.
16. Abdul Həşimov «10 zərbi-muğam», Bakı, «Zərdabi-nəşriyyat-poliqrafiya», 2007.
17. Ağalar İdrisoğlu «Bir alimin möcüzəsi», Bakı, «Adiloğlu», 2007.
18. Nazim Kazımov «Musiqi kolleci-110», Bakı, «Nurlan», 2008.
19. Səadət Abdullayeva «Azərbaycan xalq çalğı alətləri», Bakı, «Adiloğlu», 2009.
20. Fərahim Sadıqov «Muğam», Bakı, «Maarif», 2011.
21. Zair Mustafayev «Avtandil İsrafilov – Rəqslər», Bakı, «MSA», 2012.
22. Fərahim Sadıqov «Qarmon ifaçılığında muğam», Bakı, «Adiloğlu», 2013.

MÜNDƏRİCAT

Ön söz 3
Müəllifdən 5
Giriş 7
I fəsil. Azərbaycan qarmon ifaçılığı məktəbi 9
1.1. Azərbaycanda qarmon ifaçılığı sənətinin yaranması və təşəkkülü 9
1.2. Qarmonun mənşəyi 11
1.3. Azərbaycan qarmonun akustikasına bir nəzər 26

II fəsil. Azərbaycan qarmon ifaçılığı məktəbinin nümayəndələri 32
2.1. Kərbəlayı Lətif 32
2.2. Kərbəlayı Abutalıb 34
2.3. Gözəl musiqiçi, xeyirxah insan (Ələkbər Nəzərli) 37
2.4. Əhəd Əliyev 41
2.5. Sənə işığı yandıran insan (Teyyub Dəmirov) 51
2.6. Kamrabəyim 68
2.7. Bir sıra qarmon ifaçılarımız haqqında məlumat 69
2.8. Yusif əmi (Yusif Yusifov) 81
2.9. Bədəl müəllim (Bədəl Bədəlov) 84
2.10. Görkəmli alim (Ağaməmməd Abdullayev) 88
2.11. Böyük sənətkar, saflıq, yaxşılıq nümunəsi (Məmmədağa Ağayev) 89
2.12. Kübraxanım (Kübra Əbilova) 98
2.13. Cabbar Qaryağdı ocağının yetirməsi (Zərəfşan Cabbarqızı) 105
2.14. Bütün dövrlər üçün müasir qarmonçu Adil Zərqəroğlu (Adil Hüseynov) 108
2.15. Abbas Abbasov 113
2.16. Yarıda qırılmış ömür (Qızxanım Dadaşova) 116
2.17. Azadlıq mücahidi, şair, qarmonçalan (İsfəndiyar Bərxu-Coşqun) 121
2.18. Yalnız Şuşada, Qarabağda deyil, çox yerlərdə tanınırdı 126
2.19. Səfərəli Vəzirov 132
2.20. Salyanlı Əflatun və Rza Şıxlarov 133
2.21. Şahmar bəyin nəsil davamçıları (Yelmar Zeynalov) 138
2.22. Solaxay qarmonçu (Məhərrəm Məmmədov) 148
2.23. Füzulinin ilk mahir qarmonçalanı (Bəylər Əhmədov) 149

2.24. Abdal-Gülablının yetirməsi 154
2.25. Ömürdə və sənətdə müdrik çağa yetişdi (Şamil Mustafayev) 156
2.26. O, öz məktəbini yaratmışdır (Avtandil İsrafilov) 157
2.27. "Gecələr" onundur (Zabit Soltanov) 175
2.28. İfaçılıqdan ustalığa gəldi (Xanlar Məlikov) 179
2.29. Zəngin yaradıcılıq yolu (Zakir Mirzə) 182
2.30. Əmisinin və atasının yolunu davam etdi (Fazil Yusifov) 242
2.31. Böyük istedad sahibi (Firudun Hüseynzadə) 244
2.32. Teyyub Teyyuboğlu 252
2.33. Dağlar qoynunda yetişən sənətkar (Lənkəran Səlimov) 260
2.34. O, hərtərəfli bacarıqlı idi (Ramiz Sadıqov) 261
2.35. Hacı Abutalıb 263
2.36. Sadə, təvazökar insan, əsl musiqiçi (Əlibala Ağayev) 270
2.37. Neftçalada qarmon sənətini sevdirdi və ucalara qaldırdı (Firuz Babaşov) 278
2.38. Cəbrayıldan başlanan ömür yolu (Elman Həsənov) 284
2.39. İfaçılıqdan elmi rütbələrə və universitet rektorluğuna qədər (Fərahim Sadıqov) 290
2.40. İstedadı böyük, taleyi kam oldu... (Həmid Haqverdiyev) 298
2.41. İfaçı-pedaqoq (Xeyrulla Dadaşov) 306
2.42. Əsgər Həsənov 320
2.43. Mənə sadiq insanları sevdim, daim onlar üçün yaşadım... (Bəxtiyar Nurməmmədov) 328
2.44. Qərbi Azərbaycan toy-büsatında qarmon səslənirdi (Abbas Qasımov) 333
2.45. Rəqqas, qarmonçu və müğənni (Vaqif Əsədov) 338
2.46. Hərtərəfli bacarıqlı insan (Adil İsrafilov) 343
2.47. Buzovnalı Malik (Malik Dadaşov) 349
2.48. Aslan İlyasov 354
2.49. O, atasına əsl oğul, ailəyə dayaq oldu (İslam Süleymanov) 359
2.50. Bir sıra tanınanlar və məşhurlar 367
2.51. İfaçı, pedaqoq, yaradıcı insan 370
2.52. Firuz Eyvazov 375
2.53. Yenilikçi ifaçı (Hüseyn Həsənov) 381
2.54. Unudulmazlar sırasında (Vahid İskəndərov) 389
2.55. Tədqiqatçı-sənətçi özü haqqında (Əhsən Rəhmanlı) 394
2.56. Ömrünü pedaqoji işə həsr etmişdir (İlham Abadov) 413
2.57. Qarmonumuzun və musiqimizin təbliği onların niyyətidir (Rəhman Əsədullahi) 414

2.58. Lənkəranın yetirməsi (Rahim Abdullayev) 420
2.59. Qarmonun tədrisi üçün mühüm işlər gördü (Natiq Rəsulov) 422
2.60. Allahın sevimli bəndəsi (Qəhrəman Eynullayev) 429
2.61. Musiqimizi xarici ölkələrdə təmsil edənlərdən biri (Faiq Əlibalayev) 433
2.62. Adı ona sənət bəxtiyarlığı gətirmədi (Bəxtiyar Mədətov) 441
2.63. Sənət yolunu Salyandan aldı (Böyükağa Qurbanov) 446
2.64. O özünü pedaqoji fəaliyyətdə tapmışdır (Əliövsət Priyev) 451
2.65. Allahyar (Allahyar Əliyev) 454
2.66. Sənətlə əxlaqın vəhdəti (Baxışəli Əliyev) 458
2.67. Teyyub Dəmirovun İfası onu qarmon sənətinə gətirdi (Hacımurad Yarəhmədov) 468
2.68. Ordubadlı usta Rəhman (Rəhman Hacıyev) 471
2.69. İfaçı, usta (Vaqif Bağırov) 476
2.70. Yaradıcı sənətkar (Xanlar Cəfərov) 483
2.71. Həm ifaçı, həm də usta idi (Minəli Eyvazov) 496
2.72. Hünərlə, zəhmətlə və zənginliklərlə dolu yaradıcılıq yolu (Gülağa Zeynalov) 499
2.73. "Cücələrim" ansamblının müşayiətçisi (Ağaəmi Ağayev) 505
2.74. "Xəzər" ansamblının rəhbəri (Faiq Süleymanov) 512
2.75. Usta Azər (Azər Yaqubdust) 518
2.76. İfaçılıqda və tədrisdə keçən ömür (Sərxan Abıyev) 523
2.77. Almaniyada da qarmonumuzu səsləndirirdi (Manaf Rza) 528
2.78. Dadaş-Etibar (Dadaş Dadaşov) 534
2.79. Zeynal İsayev 537
2.80. Buzovnalı Aydın (Aydın Bədəlbəyli) 543
2.81. İlqar Kərimov 546
2.82. Aslan Aslanov 550
2.83. XXI əsrdə də milli qarmon ifaçılığı üslubunu qoruyub saxlayıb (Şəmsi Ağamalıyev) 553
2.84. Qısa ömrün böyük sənət bəhrəsi (Zahid Məmmədzadə) 559
2.85. Aydın Əliyev 566
2.86. Nardaranın yetirməsi (Sərraf Zəkiyev) 568
2.87. Sənəti dərin məhəbbətlə sevdi (Abbas Abbasov) 572
2.88. Qarmonçalan-xanəndə (Nəhməd Hüseynov) 575
2.89. Bakı toy ansamblarının iftixarı (İftixar Mütəllimov) 582
2.90. "Segah"da onun könül tərənələri öz əksini tapır (Elçin Yunusov) 587
2.91. Kərbəlayı Vahid (Vahid Məmmədov) 593

2.92. Buzovnalı usta Azər (Azər İbrahimov) 598
2.93. Ey dan ulduzu (Ənvər Sadıqov) 602
2.94. Usta Zahir (Zahir Dadaşov) 615
2.95. Hacı Pərviz (Pərviz Əhədov) 619
2.96. Magistratura təhsilli qarmon ixtisaslı ilk kadrımız (Elman İsmayıl) 626
2.97. O, öz adına, adı ona, sənəti isə adına və özünə çox yaraşır (Aygün Zeynalova) 634
2.98. Sənət adamlarımızın qarmona sevgisi 639

III fəsil. Azərbaycanda qarmonun tədrisi 640
3.1. Qarmonun tədrisi 640
3.2. Qarmonun orta-ixtisas məktəblərində tədrisi 640
3.3. Ali təhsil ocağında qarmonun tədrisi 645
3.4. Qarmon ixtisasının tədrisi üçün nəşr olunmuş vəsaitlər 669
3.5. Qarmon və muğam 669
3.6. Qarmon alətinin səslənmə və texniki imkanlarına məxsus əsərlər, konsertlər yazılmalıdır 671
3.7. Azərbaycan qarmon məktəbi nümayəndələrinin radiomuzun fondu üçün lentə yazdırdıqları muğamlar 674
3.8. Müxtəlif xalqların istifadə etdiyi qarmonların səslənmə fərqi 674

IV fəsil. Aşıq dəstəsinə qarmon ifaçılarının daxil olması 680

V fəsil. XX əsrdə yaranmış musiqi üçlüyü 687

VI fəsil. Müasir Azərbaycan qarmonunun bir daha təkmilləşməsi barədə 694

Milli musiqimizi və musiqi alətlərimizi yad əllərdən qoruyaq 697
Son söz əvəzi 698
İstifadə olunan ədəbiyyat 699

Əhsən Rəhmanlı

"QARMON İFAÇILIĞI SƏNƏTİ VƏ ONUN AZƏRBAYCANDA TƏDRİSİ".

II nəşr (əlavələrlə)

Bakı, "MBM", 2014, 704 s.

Naşir: Ceyhun Əliyev
Redaktor: Müəllif
Korrektor: Flora Əliyeva
Dizayner: İradə Əhmədova
Texniki redaktorlar: Ülvi Arif, Asim Səfərov
Operatorlar: Aytən Əhədova, Məlahət Quliyeva, Tərlan Quliyeva

---

Yığılmağa verilmişdir: 18.07.2013
Çapa imzalanmışdır: 29.04.2014
Tiraj 100; ş.ç.v. 44
"MBM" nəşriyyatının mətbəəsində
çap olunmuşdur



Əhsən Mikayıl oğlu Rəhmanlı

1950-ci il oktyabr ayının 5-də anadan olub.

1968-ci ildə orta məktəbi, 1970-ci ildə Bakı Mədəni-Maarif Texnikumunu (haz. Bakı Humanitar Kolleci), 1985-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu (haz. Mədəniyyət və İncəsənət Universiteti) bitirib.

1970-ci ildən Bakının müxtəlif mədəniyyət müəssisələrində çalışıb. Xeyli sayda mahnıların, muğam dəramədlərinin və rənglərin müəllifidir. Onun 15 mahnısı «Min bir mahnı» kitabında («MBM» nəşriyyatı, 2010) özünə yer tutub.

Bəstələdiyi melodiyaların bəziləri Baba Mahmudoğlu adına «Misri» xalq çalğı alətləri ansamblının ifasında Azərbaycan milli radiosunun fondu üçün lentə alınıb, özəl radio kanallarında da səsləndirilir. Ə.Rəhmanlı həmin ansamblın rəhbəridir.

O, İran, Türkiyə, Tunis, İsveçrə, Fransa və Rusiyada dəfələrlə səfərlərdə olaraq milli musiqimizi təbliğ edib.

Ə.Rəhmanlı hazırda Mədəniyyət və İncəsənət Universitetinin, Bakı Humanitar Kollecinin qarmon sinfinin müəllimidir. O, tədrisə aid bir neçə proqramın müəllifidir. Mətbuatda elmi məqalələri ilə çıxış edir. 2013-cü ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Ailəlidir, üç övladı, üç nəvəsi var.

Müəllif beşinci kitabını oxuculara təqdim edir.